AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
AKADEMİK Z.M.BÜNYADOV ADINA ŞƏRQŞÜNASLIQ İNSTİTUTU

Dünyamalı VƏLİYEV

Türk dünyası
qlobal iqtisadi inkişaf yollarında

MƏQALƏLƏR TOPLUSU

BAKI – 2015

Kitab AMEA Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun
Elmi Şurasının 30 iyun 9 saylı qərarı ilə çapa tövsiyə edilmişdir

Ön söz Millət Vəkili, AMEA-nın müxbir üzvü, AMEA Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktoru, f.e.d. professor Gövhər Baxşəliyevanındır.

Rəyçilər: **Ağasəlim Ələsgərov,**
AMEA-nın Müxbir üzvü, i.e.d., professor, AMEA İqtisadiyyat İnstitutunun qloballaşma və beynəlxalq iqtisadi münasibətlər şöbəsinin müdiri

Şahin Mustafayev,
AMEA-nın Müxbir üzvü, tarix elmləri doktoru, professor, AMEA Şərqşünaslıq İnstitutunun direktor müavini

Dünyamalı VƏLİYEV. "Türk dünyası qlobal iqtisadi inkişaf yollarında"
(Məqalələr toplusu). Bakı: "Zərdabi" nəşriyyatı, 2015, 504 səh.

Kitabda müəllifin uzun illər Türk Dünyasının iqtisadi inkişaf problemləri haqqında yazmış oldugu məqalələr oxuculara təqdim olunur. Azərbaycan və Türkiyənin iqtisadi inkişaf problemlərinə həsr edilmiş yazılar iki ayrı bölmədə verilir. Türk Dünyasının ortaq problemləri "Türk dünyası qlobal iqtisadi inkişaf yollarında" adlı bölmədə oxucuların nəzərinə çatdırılır. Son fəsil müəllifin dünya iqtisadiyyatı və qloballaşma haqqında mülahizələrinə həsr edilmişdir.

Kitab Türk Dünyasının iqtisadi inkişaf problemləri ilə maraqlanan siyasi, elmi və praktik işçilər, doktorant, magistrant və tələbə gənclər üçün nəzərdə tutulmuşdur.

İSBN 978-995-377-918-8

©AMEA Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu, 2015

Ön söz

Türk Dünyası - XX əsrin əvvəlləri və XXI əsrdə olduqca geniş bir coğrafi məkanda yerləşmiş olanTürk soylu xalqları bir tam şəklində ifadə edən coğrafi və mədəni anlayışdır. Türk Dünyası XIX əsrdə "Türk eli" adlandırılırdı. 30-cu illərdə Mustafa Kamal Atatürk "Türk eli" anlayışını belə açıqlamışdır: "Türk Milləti Asiyanın qərbində və Avropanın şərqində olmaqla quru və dəniz sərhədləri ilə ayırd edilmiş, dünyada tanınmış böyük bir yurdda yaşayır... Onun adına "Türkeli" deyirlər... Türk yurdu daha çox böyükdür... Yaxın və uzaq zamanlar düşünüldükdə, Türkə yurd olmayan qitə yoxdur... Bütün dünya - Asiya, Avropa, Afrika Türk atalarına yurd olmuşdur... Bu həqiqətlər əski və xüsusilə, yeni tarixi sənədlərdən məlumdur."

Türk Dünyası adlanan bu geniş coğrafi məkanda ən qərbdə Kosova və Qaradağ, ən şərqdə isə Monqolustan yerləşir. Təbii, siyasi və iqtisadi rəngarəngliyinə görə bu coğrafiyanı Avrasya coğrafyası ilə müqayisə etmək mümkündür. Bu xalqlar Avrasiya coğrafiyasının həyati əhəmiyyətli 8 milyon kilometrdən çox torpaqlarını öz nəzarəti altında saxlayırlar. Təsadüfi deyildir ki, bu nəhəng ərazi ədəbiyyatda artıq "Avrasyanın Türk Dünyası" adlandırılır.

Türk Dünyası Orta Asiya, Türkiyə, Avropa, Qafqaz, Çin, Orta Şərq, İran, Gürcüstan və Rusiya Federasiyasının daxilində yerləşmiş xalqları əhatə edir. Bu anlayışa bütün müstəqil Türk cümhuriyyətləri, muxtar Türk cümhuriyyətləri, yarı muxtar Türk cümhuriyyətləri və müstəqilliyi olmayan Türk xalqları daxildir. Müstəqil Türk cümhuriyyətləri: Türkiyə (əhalisi-76,0 mln.), Azərbaycan (əhalisi-9 mln.), Qazaxıstan (16 milyon), Türkmənistan (5,5 mln), Özbəkistan (28 mln.), Qırgızıstan (5,4 mln.) və Şimali Kipr Türk Cümhuriyyəti (300 min) dövlətləri daxildir. Rusiya Federasiyasında muxtar dövlətlər Başqırdıstan (4,1 mln.), Tatarıstan (3,8 mln.), Çuvaş (1,2 mln.), Buryatiya (1,0mln.), Udmurtiya (1,5 mln.) Altay (0,2 mln.), Tuvadan (0,3 mln.) ibarətdir.Dağıstan Muxtar Respublikası, Çukotiya Muxtar vilayəti (0,4 mln.), Qaraçay, Balkar və sair regionlarda da Türk xalqları məskunlaşmışdır. Əhalinin artımı sıfırdan aşağı olan Rusiya Federasiyasında Türk əhalisi kifayət qədər sürətlə artır. Hətta demək olar ki, bu nəhəng dövlətin əhalisinin artımı hal-hazırda Türk əhalisi hesabına gerçəkləşir. Avropa dövlətlərində də Türk əhalisi özünü hiss etdirməkdədir.

Dünyada mövcud olan müstəqil və muxtar Türk dövlətlərində hal-hazırda 150 mln. nəfərdən çox əhali yaşayır. Bu, dünyanın nəhəng dövlətlərindən biri olan Rusiya Federasiyasının əhalisindən çoxdur. Müstəqilliyi olmayan xalqlar da nəzərə alınsa, bütün dünyada 250 mln. nəfərdən çox türk yaşayır. Yalnız İran İslam Respublikasında dövlət müstəqilliyi olmayan təxminən 25-30 mln. türk yaşayır.

Türk dünyasına daxil olan dövlətlər zəngin təbii sərvətlərə malikdir. Burada, yalnız təsdiqlənmiş hidro-karbon yataqları ehtiyatı 100-200 milyar bareldir və bunun maliyyə tutumu 3-6 trilyon dollar miqdarında dəyərləndirilir. Qazaxıstan, Qırğızıstan və Özbəkistanda zəngin qızıl yataqları mövcuddur. Bu üç ölkə dünyadakı qızıl istehsal edən ilk on ölkə sırasına daxildir. Azərbaycanda da qızıl ehtiyatları vardır.Qazaxıstan, Azərbaycan, Türkmənistan və Özbəkistan zəngin neft və qaz yataqlarına malikdir. Bu ölkələrdən Türkmənistan 488 min km² kimi kiçik bir əraziyə malik olmasına baxmayaraq, təbii qaz ehtiyatına görə dünyada dördüncü sıradadır.Dünya almaz yataqlarının 99%-i isə Rusiya Federasiyasındakı Saha Yerində (Yakutiya) mövcuddur.

Mustafa Kamal Atatürkün keçən əsrin əvvəllərində dediyi sözlər bu gün üçün də aktualdır: **"**Dilimizi, onun dilinə yaxınlaşdırılmış edəcəyik və birbirimizi axtaracağıq. Qarşımıza ortaq dil yaratmaq məqsədini qoymuş oldugumuz kimi, ortaq bir tarix elmimizin yaradılması məqsədi də vacibdir. Bu səbəblə məktəblərdə oxutduğumuz tarixi Orta Asiyadan başlatdık! Bizim uşaqlarımız orada yaşayanları tanımalıdırlar. Orada yaşayanlar da bizi tanımalıdırlar. Bu etdiklərimiz, heç bir millətlə düşmənçilik etmək mənasına gəlmir.Sülh tərəfdarıyıq, sülh tərəfdarı da qalacağıq! Amma durmadan dəyişən dünyada sabahın möhtəşəm tarazlıqları üçün hazır olmalıyıq".

Gövhər Baxşəliyeva
Millət Vəkili, AMEA-nın müxbir üzvü,
AMEA Z.M.Bünyadov adına
Şərqşünaslıq İnstitutunun direktoru,
f.ü.e.d., professor

MÜNDƏRİCAT

Ön söz..... 3

I B Ö L M Ə:
Türk dünyasının parlayan ulduzu: Azərbaycan

I Fəsil : Lider və yeni cəmiyyət quruculuğu..... 9
1.1. Heydər Əliyev və türk dünyası. 9
1.2. Heydər Əliyev və Azərbaycanın milli iqtisadi inkişaf modeli 17
1.3. Əsas məqsəd Azərbaycanı müasir güclü dövlətə çevirməkdir 24
1.4. Reallaşan qlobal düşüncələr..... 29

II Fəsil: Bazar iqtisadiyyatına keçidin start şərtləri..... 36
2.1. Keçid səbəblərdən başlayır 36
2.2. Milli valyutamız milli qeyrətimiz olmalıdır! 39
2.3. Prezidentin Fərmanı xarici iqtisadi əlaqələr sahəsində uzunmüddətli dövlət strategiyasını müəyyənləşdirir. 42
2.4. Azərbaycanda müstəqil xarici iqtisadi fəaliyyət mexanizminin formalaşması..... 47
2.5. Bazar iqtisadiyyatı və iqtisadi təhsil 58

III Fəsil: Azərbaycanda bazar iqtisadiyyatı: problemlər, perspektivlər..... 63
3.1. Qeyri-neft sektorunun inkişafı qloballaşma şəraitində Azərbaycan iqtisadiyyatının tərəqqi yoludur 63
3.2. Açıq iqtisadiyyat şəraitində Azərbaycanda kənd təsərrüfatı: problemlər, perspektivlər 76
3.3. Kənd təsərrüfatında dövlət tənzimləmələri: qabaqcıl dünya təcrübəsinə doğru..... 81
3.4. Aqrar sektorda dövlət tənzimləmələri: dünya təcrübəsi və Azərbaycan reallıqları..... 87
3.5. Azərbaycanda xarici ticarətin tənzimlənməsi xüsusiyyətləri..... 96
3.6. Azərbaycanın xarici iqtisadi əlaqələri: keçmişi, bu günü 103
3.7. XXI əsrin astanasında Azərbaycanın beynəlxalq iqtisadi əlaqələri.... 105
3.8. Türkiyənin iqtisadi quruculuq təcrübəsi respublikamız üçün daha əlverişlidir..... 107
3.9. Azerbaycan ekonomisi Türk işadamları için karlı bir kaynak..... 109
3.10. Xarici iqtisadi fəaliyyətdən əldə edilən gəlirlərin Azərbaycanda vergiyə cəlb edilməsi xüsusiyyətləri..... 112
3.11. Qafqaz ümumi bazarı nədir? Yaxud iqtisadi proseslərin beynəlxalq miqyasda inteqrasiyası güclənir 120

IV Fəsil: QloballaşmaşəraitindəAzərbaycan iqtisadiyyatının aktual problemləri 123
4.1. Azərbaycan qlobal iqtisadi inkişaf yolunda.....123
4.2. Azərbaycanın dünya bazarı ilə iqtisadi inteqrasiya strategiyasi: problemlər, mülahizələr.....128
4.3. Qloballaşma və Azərbaycanın milli iqtisadi inkişaf strategiyası haqqında.....133
4.4. Azərbaycanın qlobal maliyyə iqtisadi-mühitə inteqrasiyasının aktual problemləri.....138
4.5. Azərbaycan inkişaf etmiş cəmiyyətə doğru: reallıqlar, perspektivlər... .143
4.6. İqtisadi modernləşmə Azərbaycanı sürətli inkişaf yoluna çıxarmışdır...151
4.7. Sürətli iqtisadi inkişaf və iqtisadi təhsil sistemi: problemlər, vəzifələr..155
4.8. Azərbaycanın qlobal maliyyə-iqtisadi mühitə inteqrasiyasının əsas istiqamətlərinin müəyyən edilməsində xarici təcrübənin rolu.....164
4.9. Azərbaycanda müasir inflyasiyanın daxili - xarici amillərinin kompleks təhlili.....174
4.10. Avrasiya məkanının mərkəzi nəqliyat dəhlizi: Azərbaycan 183
4.11. Azərbaycan Respublikasının tədiyyə balansının aktual problemləri....188
4.12. Birbaşa xarici investisiyalar Azərbaycanda beynəlxalq kapital hərəkətinin əsas forması kimi 192
4.13. Azərbaycan iqtisadiyyatının beynəlxalq rəqabət qabiliyyətinin artırılması yolları.....198
4.14. Azərbaycanın dünya birliyinə inteqrasiya prioritetlərinin müəyyən edilməsində xarici təcrübənin rolu.....202

II B Ö L M Ə:
Türkiyə Cümhuriyyəti qlobal iqtisadi inkişaf yollarında

V Fəsil: Türkiyə Cümhuriyyətinin memarları..... 211
5.1. Tarixin gedişini dəyişdirən şəxsiyyət 211
5.2. Atatürkün türk dünyası .(Atatürk haqqında müsahibə) 219
5.3. Mustafa Kemal Atatürk fenomeni:
çağdaş Türk cumhuriyetlerinin bağımsızlık mücadelesi için önemi .. 224
5.4. Əsgəri peyğəmbərə bənzədən dahi sərkərdə..... 232
5.5. Atatürkçü düşüncə sistemində milli birliyin yeri..... 245

VI Fəsil: Turqut Özal və Türkiyədə iqtisadi möcüzələr 248
6.1. Türkiyə.Turqut Özal və iqtisadi möcüzələr 248
6.2. Uşaqlıq və gənclik illər 248
6.3. Xidməti vəzifələrin pillələrində 249
6.4. Siyasi portretindən cizgilər 250

6.5. İqtisadi görüşləri və iqtisadi siyasətinin əsas istiqamətləri 251
6.6. Özəl iqtisadi modelinin həyatda əksi 256
6.7. Ümumbəşəri dəyərlər haqqında 257
6.8. Xarici siyasət 258
6.9. Turqut Özalın tərcümeyi-halından sətirlər 259
6.10. Türkiyə 80-ci illərdə (siyasi xronika) 260
6.11."İqtisadi möcüzələr" rəqəmlərin dili ilə.
Türkiyədə iqtisadi inkişafı səciyyələndirən başlıca göstəricilər (faizlə) ... 261
6.12. Turqut Özalın Türkiyənin inkişaf perspektivləri haqqında 276

VII Fəsil: Türk – İslam düşüncə sistemində adil hökmdar və yaxud çağdaş dünyada Yaxın Şərqin oyanışının tarixi və sosial-iqtisadi kökləri 278

VIII Fəsil:Türkiyə Cümhuriyyətinin iqtisadi inkişafının formalaşması və inkişafı 287
8.1. Maliyyə bazası və dövlətin gəlir mənbələrinin təkamülü. Dövlət maliyyəsi və Türkiyənin sosial-iqtisadi inkişafı 287
8.2. Türkiyədə vergi sisteminin əsas inkişaf mərhələləri 303
8.3. Yeni birbaşa vergiqoyma sisteminin təşəkkülü və inkişafı 310
8.4. Dolayı vergilər sisteminin özəllikləri. 325
8.5. Müasir Türkiyə iqtisadiyyatının dövlət tənzimlənməsi sistemində vergilər 330

IX Fəsil: Türkiyə qlobal iqtisadi inkişaf yollarında 336
9.1. Türkiyənin müstəqil və demokratik iqtisadi quruculuq təcrübəsinin prioritetləri 336
9.2. Türkiyə Cümhuriyyətinin iqtisadi inkişaf modelinin təkamülü 344
9.3. Qloballaşma dövründə Türkiyənin Beynəlxalq Valyuta Fondu ilə əlaqələrinin inkişafı və transformasiyası 352

III BÖLMƏ:
Türk dünyası qlobal iqtisadi inkişaf yollarında

X Fəsil: Türk dünyası qlobal iqtisadi inkişaf yolunda 359
10.1. The silk road -2000. New stage in the world development. 359
10.2. Şərq və Qərbin vəhdəti bəşəriyyətin ipək yoludur 365
10.3. Qafqaz və mərkəzi Asiya ölkələrinin qlobal maliyyə mühitə inteqrasiyası: problemlər, perspektivlər 375
10.4. Türk cumhuriyetleri arasında ekonomik işbirliği: sorunlar, perspektifler. 382

10.5. Küresel ortamda yeni bölgesel güc 400
10.6.Bağımsız Türk Cumhuriyetlerinin yenidən yapılanmasında Türkiye Cumhuriyetinin tarihi rölü: inceleme və değerlendirme 412
10.7. Küreselleşme sürecinde Türk Dünyası 413
10.8. Azərbaycanın türkdilli ölkələrlə əməkdaşlığının inkişaf perspektivləri..... 421

XI Fəsil: Dünya iqtisadi sistemi və qloballaşma 426
11.1. Dünya iqtisadiyyatı 426
11.2. Qlobal iqtisadi inteqrasiya proseslərinin nəzəri əsasları..... 434
11.3. Qloballaşma və vahid iqtisadi məkanın formalaşması 440
11.4. Qloballaşma şəraitində davamlı inkişafın müasir paradiqmaları..... 449
11.5. Qloballaşma proseslərinə Uoll-Stritdən fərqli baxış..... 455
11.6.Qloballaşma dövründə iqtisadi əxlaq və dini dəyərlər..... 459
11.7. Gelişmekte olan ülkelerin küresel ortama entegrasyonu sürecinde ulusal çıkarları 473
11.8. İnformasiya cəmiyyətində dövlətin innovasiya siyasətinin əsas istiqamətləri 480
11.9. İnformasiya cəmiyyətində insan amili və biliyin rolunun transformasiyası 485
11.10. Biliklərə əsaslanan iqtisadiyyatı qurmayan, insan kapitalını inkişaf etdirməyən dövlətlər axırıncı yerlərdən birini tutacaqlar 488
11.11. Çin və Azərbaycan üçün "Böyük İpək Yolu" strategiyası 491
11.12. Dəyişən dünyanın Çin mənzərəsi 497
11.13 Raris saldırıları ve Avrasya'da istikrar
Akhmet Yassawi University. Euresian Restarch Institute. 19.01.2015 501

I BÖLMƏ
TÜRK DÜNYASININ PARLAYAN ULDUZU: AZƏRBAYCAN

I FƏSİL
LİDER VƏ YENİ CƏMIYYƏT QURUCULUĞU

1.1. Heydər Əliyev və türk dünyası

Heydər Əliyevin anadan olmasının 91 illiyinə həsr edilmiş konfransda çıxış

"Xalq qəzeti", 14 may 2014-cü il

Dünya dövlətlərinin tarixi təcrübəsi göstərir ki, hər bir xalqın durumu və gələcəyi əhəmiyyətli dərəcədə onun malik olduğu imkanları, zamanın tələblərini düzgün qiymətləndirməyi bacaran, uzaqgörən, müstəqil dövlətçilik konsepsiyasını formalaşdıran və reallaşdıran xarizmatik liderlərin adı ilə bağlıdır. Xüsusən, inqilablar və müharibələr əsri olan XX əsrdə bəşər cəmiyyətində yaranmış yeni inkişaf meyillərini dərindən bilən, onları vaxtında nəzərə alan, qarşısına qoyduğu ideallara doğru xalqı arxasınca apara bilən liderləri olan ölkələr tarixin sınağından uğurla çıxmağı bacarırlar. Belə liderlər xalqların indiki və gələcək yaşayış fəlsəfəsini formalaşdırır, inkişaf etdirirlər.

Bəşəri inkişafın dönüş nöqtəsini təşkil edən müasir dövrdə tale Azərbaycan xalqına çağdaş və müstəqil dövlətçilik fəlsəfəsini milli irs və təfəkkür bazası əsasında formalaşdırmış və reallaşdırmış Heydər Əliyev dühasını bəxş etmişdir. "Bizim məqsədimiz müstəqil, demokratik, hüquqi dövlət qurmaqdır", – deyən və "Müstəqilliyimiz əbədidir" şüarını qürurla irəli sürən Heydər Əliyev 2000-ci il dekabrın 29-da yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciətində ölkə qarşısında duran strateji xətti belə müəyyən etmişdir: "Bəşəriyyətin qədəm qoyduğu müasir inkişaf mərhələsində öz layiqli yerimizi tapmaq üçün gərək biz zamanın tələbləri ilə uyğunlaşa bilək, qarşımızda duran bir çox ciddi problemləri həll etməyə qadir olaq, ümdə vəzifələrimizə uyğun müvafiq proqramları həyata keçirməyə nail ola bilək".

Ümummilli lider Heydər Əliyevin siyasi-ideoloji fəaliyyəti yalnız Azərbaycanla məhdudlaşmayıb, onun hüdudlarından kənarda, bütövlükdə türk dünyasında dərin izlər buraxmışdır. Bu fəaliyyət, bu sahədə gördüyü işlər az bir zamanda onu türk dünyasının danılmaz liderinə çevirdi. Ulu öndər türk

dünyasının həmrəyliyinin, bütün sahələrdə intensiv əməkdaşlığının tarixi əhəmiyyətini dərindən dərk edir və qürurla deyirdi: "Mən bu gün, həqiqətən, qeyd etmək istəyirəm ki, bizim xalqlarımız əsrlər boyu bir-birinə yaxın dost olmuşlar. Biz bir kökdənik, biz bir dilli xalqlarıq. Bizim milli ənənələrimiz, bir-birinə bənzərdir, oxşardır. Ona görə də bunlar hamısı xalqlarımızı hələ biz müstəqil olmadığımız vaxtda, ayrı-ayrı dövlətlərin əsarəti altında yaşadığımız vaxtda da bir-birindən ayırmayıb, bir-birinə bağlayıb, bir- birimizlə daha sıx əlaqədə saxlayıb. İndi isə xalqlarımız öz müstəqilliyini əldə edəndən sonra, müstəqil dövlət kimi dünyada tanınandan sonra biz tarixi ənənələr əsasında, həmin fundamental əsaslar üzərində bundan sonra da irəliyə getməliyik, inkişaf etməliyik".

Dünya şöhrəti qazanmış böyük tarixi şəxsiyyətin türk dünyasının birləşməsi və möhkəmlənməsi yolunda gördüyü işlər, irəli sürdüyü ideyalar, söylədiyi olduqca mükəmməl elmi-nəzəri mülahizələr reallıqlara əsaslanmaqla, böyük təcrübəvi və tarixi əhəmiyyətə malikdir. Onlar türk dünyasının birləşməsində, regionun nüfuzlu bir ictimai-siyasi qüvvəsinə çevrilməsində əhəmiyyətli rol oynadı.

Məlum olduğu kimi, türk dünyasının yeni intibah yoluna qədəm qoyması baxımından zamanın tələbləri olduqca böyükdür. İrimiqyaslı elmi və texniki inqilablar dünyanın anlaşılması, yenidən qurulması, Şərqlə Qərb arasındakı və cəmiyyətin öz daxili qüvvələri arasındakı əlaqələri baxımından yeni bir dövr başlatdı. Dünyanı bir-birindən ayrılmış, təcrid edilmiş hissələrdən ibarət görən anlayışlar tarixə qovuşdu. Elmi və texnoloji sıçrayışlarla bərabər dünya xalqları arasında iqtisadi, siyasi, sosial və mədəni əlaqələrin getdikcə dərinləşməsini əks etdirən inteqrasiya və qloballaşma prosesləri özünün məlum daxili ziddiyyətləri ilə yanaşı, dünyanın inkişafının mühərriki oldu. Dünya iqtisadiyyatı bu prosesin nəticəsində bütövləşmiş və vahid sistemə çevrilmişdir.

XX əsrin son onilliyində sovet imperiyasının süqutu, dünyanın bloklara bölünməsinin aradan qaldırılması "soyuq müharibə"yə son qoydu, böyük bir coğrafi bölgədə geosiyasi vəziyyəti kökündən dəyişdirdi. Bəşəri tərəqqi üçün dünya təsərrüfatı sisteminin bütün həlqələri arasında qarşılıqlı faydalı əlaqələrin daha da dərinləşməsi yolunda geniş imkanlar yarandı. Bu coğrafi məkanda Xəzər hövzəsinin zəngin neft yataqlarının mühüm bir hissəsinə nəzarət edən Orta Asiya və Qafqazın yeni müstəqil dövlətləri özünəməxsus yer tutur. Dünyanın neft xəzinəsi sayılan İran körfəzindən sonra öz əhəmiyyətinə görə ikinci yerdə duran bu regionda neft ehtiyatı 30 milyard ton, qaz ehtiyatı isə onlarla trilyon kubmetr təşkil edir. Mütəxəssislərin hesablamalarına görə, XXI əsrin ikinci yarısında orta illik neft hasilatı burada 100 milyon tona çata bilər. Uran və digər mühüm filiz növləri, qızıl ehtiyatı, habelə pambıq parça istehsalı imkanları nəzərə alındıqda regionun əhəmiyyəti daha da artır.

Türk dünyasının birləşməsi zərurəti dünya sivilizasiyasına böyük töhfələr vermiş türkdilli cümhuriyyətləri də əhatə etmişdir. Yeni dövrdə yaranmış tarixi imkan nəticəsində türkdilli cümhuriyyətlər (TDC) son illərdə sürətlə inkişaf edərək, qlobal dünyada mühüm nüfuz sahibi olmuş, öz aralarında siyasi, iqtisadi, mədəni və elmi-texniki sahələrdə əlaqələri əhəmiyyətli dərəcədə genişləndirmişlər. TDC-lərin İşbirliyi Şurası, Parlament Assambleyası, TÜRKSOY və digər sağlam qurumlar yaradılmışdır.

Sovetlərdən ayrılmış TDC-lərin müstəqillik əldə etdikdən sonra regional inteqrasiya problemləri araşdırılarkən nəzərə almaq lazımdır ki, qırmızı imperiyanın süqutunda əsas amillərdən biri olan inzibati amirlik sistemi və uzun müddət davam edən yarımmüstəmləkəçilik siyasəti türkdilli cümhuriyyətlərdə daha sərt olmuş və bu ölkələrə ağır sosial-iqtisadi miras buraxşdır. Belə bir dövrdə Sov. İKP MK Siyasi Bürosunun üzvü kimi Heydər Əliyev TDC-ləri hərtərəfli dəstəkləyirdi.

Türkdilli cümhuriyyətlərin 70 illik bir dövrdə "dəmir pərdələrlə" dünya birliyindən siyasi, iqtisadi və mədəni cəhətdən təcrid olunması və ölkənin əsas aqrar-xammal bazası rolunu oynaması onların müstəqillik əldə etdikdən sonra dünya birliyinə sürətlə və səmərəli inteqrasiya etmələrini obyektiv olaraq zəruri edirdi. Bu amil həmin ölkələrin dünya bazarının tələblərinə uyğunlaşdırılması üçün köklü və təcili tədbirlər görülməsini israrla tələb edirdi. Buna baxmayaraq, türkdilli cümhuriyyətlərdə regional iqtisadi inteqrasiya prosesi ağır siyasi və iqtisadi şərtlər əsasında formalaşmağa başlamışdır. Müstəqillik illərində bu ölkələrin öz aralarında və dünya dövlətlərilə iqtisadi əlaqələrinin bütün istiqamətlərinin köklü şəkildə yenidən qurulması kimi mürəkkəb bir proses başlanmışdır. Öz milli sərvətlərinə sahibliyin əldə edilməsi bu ölkələrin dünya bazarlarına müstəqil çıxmağına və beynəlxalq iqtisadi əlaqələri mövcud hüquq normalarına uyğun şəkildə qurmağına çox kömək etdi.

Bu ölkələr xam neft, təbii qaz, sənaye xammalı ilə yanaşı, çox çeşiddə sənaye məhsulları istehsal etmək və ixraca yönəltmək potensialına malikdirlər. Hər bir ölkənin təbii sərvətlərini hərəkətə gətirərək istehsalın səviyyəsinin yüksəldilməsi və iqtisadi inkişaf yoluna çıxması ciddi şəkildə satış bazarlarının geniş olmasından asılıdır. Bazarların genişlənməsi və dərinləşməsi iqtisadiyyatın səmərəliliyinin yaxşılaşdırılmasına və inkişaf sürətinin artırılmasına səbəb olur. Məsələn, ABŞ-da transmilli şirkətlərin meydana gəlməsi və dünyanın nəhəng şirkətlərinə çevrilməsi çox böyük bazarların təmin etdiyi üstünlüklər sayəsində mümkün olmuşdur. Avropa Birliyi də böyük bazarların təmin etdiyi üstünlüklərdən faydalanmaq məqsədi ilə dünyada ilk mükəmməl regional birlik yaratmağa nail olmuşdur.

Araşdırmalardan bəlli olur ki, TDC-lərin inteqrasiyasında öz aralarındakı əməkdaşlıq və işbirliyi böyük üstünlüyə malikdir. Çünki Türkiyə və türkdilli cümhuriyyətlərin iqtisadiyyatları, istehsalın quruluşu, ixracat potensialları və

idxal etmək istədikləri istehlak malları baxımından müqayisə edildikdə bir-birilərini tamamlayır.

Dünya dövlətlərinin çoxillik təcrübəsi göstərir ki, bol təbii sərvətlərə sahib olan TDC-lər kimi ölkələrin gələcək sosial-iqtisadi inkişafı, onların qlobal və regional proseslərə aktiv və səmərəli şəkildə qatılmasından əhəmiyyətli dərəcədə asılıdır. Dünya dövlətlərinin təcrübəsindən o da bəllidir ki, qloballaşma dövründə tərəqqinin, sənaye istehsalının artırılmasının və sosial-iqtisadi inkişafın həlledici amili heç də neft və qaz, təbii sərvətlər deyil, intellektual və elmi-texniki ehtiyatların artırılmasıdır. Belə resurslar isə tamamilə aydındır ki, uzun tarixi dövrdə inkişaf etmiş dünya dövlətlərinin topladığı zəngin təcrübəni hərtərəfli öyrənmək və ondan istifadə etməklə artırıla bilər. Bütün bunlar isə qarşılıqlı iqtisadi əlaqələri inkişaf etdirmək və beynəlxalq əlaqələr sisteminə intensiv qoşulmaqla mümkündür.

Ümummilli liderimiz Heydər Əliyev türk dünyasının bu vacib problemlərinin həllinə xüsusi önəm verirdi. O, müstəqil Azərbaycan Respublikasının Prezidenti seçildikdən sonra bu məsələlərlə ardıcıl şəkildə məşğul olmağa başladı. Ulu öndər İstanbulda keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatının 2-ci görüşünün iştirakçılarına (5 iyul 1993-cü il) müraciətində demişdi: "İqtisadi Əməkdaşlıq Təşkilatı ölkələrinin – Türkiyənin, İranın, Pakistanın, Əfqanıstanın, Qazaxıstanın, Özbəkistanın, Türkmənistanın, Qırğızıstanın, Tacikistanın, Azərbaycanın istifadə edilməmiş zəngin təbii sərvətləri, material ehtiyatları vardır. Onlardan birgə istifadə olunması əsl müsəlman intibahına çevriləcək, bütün bəşəriyyətin inkişafına töhfə verəcəkdir".

Məhz müdrik siyasətçi Heydər Əliyevin rəhbərliyi altında müstəqil Azərbaycan dövlətinin milli maraqlarına əsaslanan xarici siyasət kursu müəyyənləşdirilmiş və dünyanın aparıcı dövlətləri və tanınmış beynəlxalq təşkilatları ilə qarşılıqlı etimad və inama əsaslanan ikitərəfli münasibətlər formalaşdırılmış, inkişaf etdirilmişdir.

1994-cü il oktyabr ayının sonlarında Heydər Əliyev Türkmənistanın müstəqillik qazanmasının 3-cü ildönümü şənliklərində iştirak etmək üçün Aşqabada getdi. Onun çıxışlarından aydın oldu ki, Azərbaycan Prezidentinin məqsədi heç də yalnız şənliklərdə iştirak etmək deyildir. Aşqabadda jurnalistlərə verdiyi müsahibədə bu səfərin daha böyük bir məqsəd izlədiyi aydınlaşdı:"...Türkmənistan bizə bir qonşu, dilimizə və keçmişimizə görə yaxın bir ölkədir. Ona görə də mən demək istəyirəm ki, ölkələrimiz arasındakı əlaqələri möhkəmləndirək.Vaxtilə böyük səhvlər buraxılıb, Azərbaycanı Orta Asiya, ümumiyyətlə, Mərkəzi Asiya ölkələrindən uzaqlaşdırıblar. Mən istəyirəm ki, bu, aradan qaldırılsın. Güman edirəm ki, belə tədbirlər gələcəkdə keçmiş "İpək yolu"nun canlandırılmasına kömək edəcəkdir".

Xüsusi vurğulamaq lazımdır ki, türk dünyasının bir-birilə, o cümlədən bütün dünya ilə birləşdirilməsində Heydər Əliyevin tarixi "İpək Yolu"

layihəsinin həyata keçirilməsi işində göstərdiyi səy və xidmətlər müstəsna əhəmiyyətə malikdir. Bu tarixi layihənin əsas məqsədi əhalisinin ümumi sayı 67 milyon nəfər olan (1991-ci il) Orta Asiya və Qafqaz ölkələrinin dünya iqtisadiyyatına fəal qoşulmasını təmin etməkdən ibarətdir. Bu isə həmin cümhuriyyətlərin 70 illik sovet dövründə yığılıb qalmış sosial-iqtisadi problemlərinin həll edilməsi və nəhayət, bu dövlətlərin siyasi və iqtisadi müstəqilliklərinin güçləndirilməsi üçün daha geniş perspektivlərin açılması deməkdir. Məhz buna görədir ki, dünya iqtisadiyyatı və region dövlətləri ilə geniş inteqrasiya bu ölkələrin iqtisadi siyasətinin əsas istiqamətlərindən biridir. Heydər Əliyevin iqtisadi siyasəti məhz bu məqsədlərə yönəlmişdir.

"Böyük İpək Yolu" layihəsinin reallaşdırılmasında və TDC-lərin qırılmaz tellərlə bir-birinə bağlanmasında Bakı-Tbilisi -Ceyhan boru xəttinin müstəsna əhəmiyyəti vardır. Ulu öndər Heydər Əliyev bunu böyük uzaqgörənliklə dərk etmiş və bütün qüvvəsini həmin xəttin gerçəkləşməsinə yönəltmişdi. Tarix onun bu uzaqgörənliyini qısa bir zamanda təsdiq etdi. Tərəddüd etmədən demək olar ki, Baykal-Amur magistralının tikintisi, qədim İpək yolunun bərpası, Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru xətti layihəsi, Şərq-Qərb nəqliyyat dəhlizi, Bakı-Tbilisi-Qars dəmir yolu Heydər Əliyevin türk dünyasının birləşdirilməsi istiqamətində əvəzsiz xidmətləridir.

Ümummilli liderimizin türk dünyasının birliyinin təmin olunması yolundakı tarixi xidmətlərindən danışarkən onu da vurğulamaq lazımdır ki, Azərbaycan-Türkiyə əməkdaşlığının möhkəm təməli məhz Heydər Əliyev tərəfindən ucaldılmışdır. Onun tarixi "bir millət, iki dövlət" ifadəsi hər iki dövlət əhalisinin dilinin əzbəri olmaqla gerçək həyatda bu dövlətlərin real siyasətinin əsasını təşkil edir. Çünki Heydər Əliyevin xarici siyasətində Türkiyə ilə əməkdaşlıq ilk sıralarda yer alır. Azərbaycan-Türkiyə əlaqələri türkdilli dövlətlərin iqtisadi əməkdaşlığının onurğa sütununu təşkil edir və regional əməkdaşlığın genişlənməsi üçün mühüm əhəmiyyət kəsb edir. Heydər Əliyev Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkə olan hörmət və ehtiramını bu sözlərlə ifadə edir: " Mustafa Kamal Atatürk bütün türk dünyasının tarixi şəxsiyyətidir. Bütün türk dünyasının əvəzsiz, ölməz lideridir".

Bu gün dünyada 6 müstəqil türk dövləti mövcuddur. Keçən əsrin 90-cı illərindən başlayaraq, bu dövlətlərin birgə istəyi ortaq mənəvi mirasın qorunması və təbliğ olunması, iş birliyinin genişləndirilməsidir. Təsadüfi deyildir ki, ulu öndər Heydər Əliyev türk dünyasının gələcəyinə böyük ümidlər bəsləyirdi. O deyirdi: "Özünün yeni yüksəliş dövrünü yaşayan çağdaş türk dünyası bəşər sivilizasiyasına yeni misilsiz nümunələr vermək iqtidarındadır. Bu gün öz suverenliyini əldə etmiş bir çox türk cümhuriyyətlərinin bu sıraya qoşulması türk dünyasının gələcəyinə işıqlı ümidlər oyadır. İqtisadi, siyasi və mədəni həyatın sıx telləri ilə birləşməyə başlamış türk xalqları yeni dünyanın mühüm amillərindən birinə çevrilməkdədir."

Bəs, Heydər Əliyevin türk dünyasının gələcəyinə böyük inamı nə ilə bağlıdır? Araşdırmalar göstərir ki, böyük iqtisadi və demoqrafik potensiala malik olan türkdilli cümhuriyyətlər intensiv olaraq qlobal iqtisadi sistemə qoşulmağa və onun verdiyi üstünlüklərin bütün parametrlərindən faydalanmağa böyük önəm verirlər.

Gürcüstan və Ukrayna hadisələri dünyanın yenidən qurulmasının, bəlkə də yenidən bölüşdürülməsinin əsasını qoymuşdur. Dünyanın ikiqütblükdən çoxqütblülüyə keçid dövrü başlanmışdır. ABŞ və AB-nin bütün dünyada hegemonluğunu gücləndirmək istəyi, eləcə də Rusiyanın sovet imperiyasını yenidən bərpa etmək səyləri daha da artmışdır.

Türk dünyası bu siyasi, iqtisadi və texnoloji potensialı əllərində cəmləşdirmiş nəhənglərin döyüş meydanının tən ortasında yerləşmişdir. Bu gün türk cümhuriyyətlərini dünya nəhəngləri öz nüfuz dairələri altında saxlamağa çalışırlar. Hazırda türk dünyası bu iki nəhəng qüvvə arasında bölünmüş kimi görünür. Amma hesab edirəm ki, son nəticədə qloballaşmadan ən çox qazancı böyük Türk soyu əldə edəcəkdir. Belə bir fikrin nə qədər əsaslı olduğunu görmək üçün aşağıdakı amillərə diqqət etmək lazımdır:

-Türk cəmiyyətinin dayandığı sağlam mənəvi təməl ona qloballaşmanın mənfi nəticələrindən yüksək dərəcədə qorunmaq imkanı verir. Həmin mənfi amillər isə məlum olduğu kimi bunlardır: milli-mənəvi dəyərlərin aşınması, mənəviyyatsızlıq nəticəsində genetik irsin ciddi təhlükə altına düşməsi, sağlam cəmiyyətin təməli olan ailə həyatının sarsılması, yer üzünün əşrəfi olan insanın zərərli vərdişlər nəticəsində deqradasiyaya uğraması və başqaları. Uca Tanrı türk soyuna çağdaş sivilizasiyanı təhlükəyə sürükləyən həmin mənfi təsirlərdən qorunma və əksinə, onları özlərinin lehinə çevirmə imkanı vermişdir;

-qloballaşmanın yaratdığı yeni demoqrafik konyuktura türk cəmiyyətinin xeyrinədir və onun dünyada rolunun və təsirinin daha da artmasına şərait yaratmışdır. Qərb və Rusiyada əhalinin artımı sıfır nöqtəsinə yaxınlaşdığı və əhalinin yaşlanma prosesinin sürətləndiyi bir dövrdə türk dünyasında tamamilə başqa vəziyyət göz qabağındadır: əhalinin sürətli artımı və gəncləşməsi prosesi başlanmışdır. Müsbət demoqrafik faktor, yalnız türk dünyasının sərhədləri daxilində deyil, həm də bu sərhədlərdən kənarda çox böyük təsir gücünə malikdir. Avropa və Rusiyada türk əhalisinin geniş yayılması, sadəcə olaraq türk dünyasından “brain-drain”(beyin köçü) olaraq dəyərləndirilməməlidir. Bu, eyni zamanda türk kültürünün, türk ruhunun dünyaya yayılması, türkçülüyün dünyada bilavasitə və real olaraq tanıdılmasıdır. Bundan başqa, qərbin elm və texnologiyasının, qərb idarəçiliyinin yerindəcə mənimsənilərək, doğma yurda gətirilməsidir;

- Mustafa Kamal Paşanın “yurdda sülh, cahanda sülh” şüarı bütün türk cümhuriyyətlərinin daxili və xarici siyasətinin əsasını təşkil edir. Bu siyasət onlara özlərinin yaxın və uzaq qonşuları ilə dostluq əlaqələrini qurmağa, çox

mürəkkəb regionda və bütün dünyada öz milli mənafelərinə uyğun strateji kurs yeritməyə şərait yaradır;

-yeniliksevər türk soyu qloballaşmanın iqtisadi, texnoloji və informasiya sahələrində müasir sivilizasiyanın gətirdiyi inqilabları çevik olaraq öz malı edir və cəmiyyətin tərəqqisi üçün səmərəli istifadə edir;

-qloballaşmanın təməlini təşkil edən neoliberal görüşlər və onun əsasında dünyada formalaşan liberal iqtisadi siyasət və bunun nəticəsi olaraq dövlətlərarası iqtisadi sərhədlərin aradan götürülməsi bir sıra siyasi maneələrə baxmayaraq, türk dünyasının bir-birinə və dünya ölkələrinə daha da yaxınlaşması üçün geniş imkanlar açır;

-türk dünyasının birləşməsində böyük əngəllərdən biri türk cümhuriyyətləri arasında uzun müddət birbaşa nəqliyyat əlaqələrinin, daha dogrusu, yolların olmaması idi. Bu da türk dünyasını parçalamaq istəyən imperiya dövlətlərinin illər boyu yeritdikləri siyasətin nəticəsidir. XIX əsrdə Orta Asiya və Qafqaz xalqlarının çar Rusiyası tərəfindən istilasından sonra onların min illərlə qaynayıb-qarışdıqları cənub qonşuları və diğər dövlətlər ilə ənənəvi əlaqələri kəsildi. Sivilizasiyaya İbn Sina, Nəsirəddin Tusi və minlərlə düha sahibləri bəxş etmiş bu ölkələrə "Rusiyanın ucqarı" damğası vuruldu. Müstəmləkəçilik siyasətini davam etdirən Sovet imperiyasında bu ölkələri dünya ilə birləşdirən çox az miqdar yollar yalnız Rusiya torpaqlarından keçirdi. Bu, yalnız görünən yollara aid deyildi, eyni zamanda, görünməyən mədəni-mənəvi yollara da aid idi. Orta Asiya xalqları və Azərbaycan dünya mədəniyyətinə yalnız rus mədəniyyəti ilə qoşulurdu. Dünya klassikləri əsasən rus dilindən tərcümə olunurdu. Bir sözlə, bu xalqların kainata baxmaq üçün yalnız bir pəncərəsi açıq idi: Rusiyanın yol verdiyi pəncərə...

Qərbin maddi və mədəni dəyərlərindən geniş yararlanmağa çalışan bu ölkələrin zəngin təbii sərvətləri Avropanın ehtiyaclarının qarşılanması üçün mənimsənilməyə başlanmış və dünya siyasətinin ana xəttindən birinə çevrilmişdir. Yeni İpək yolu probleminin yenidən aktuallaşması da Şərq və Qərb arasında enerji daşıyıcılarının Qərbə asan yolla çatdırılması üzərində ciddi işlə, yeni kommunikasiya xətlərinin açılması ilə əlaqədardır. Bu amil də türk dünyasının birləşməsi və dünyada rolunun artması üçün çox faydalıdır. Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz, Bakı-Tbilisi-Qars dəmir yolu layihələrinin gerçəkləşdirilməsi strateji əhəmiyyət daşıyır və iqtisadi olmaqla bərabər, həm də siyasi və mədəni əhəmiyyətə malikdir;

-son dövrlərdə türk dünyasında bir-birinə yaxınlaşma və birləşmə cəhdləri, daha doğrusu, iqtisadi və mədəni əlaqələrin genişləndirilməsi sürətləndirilmişdir. Türk dünyası Parlament Assambleyasının, TDC İşbirliyi Şurasının yaradılması böyük əhəmiyyətə malikdir. Türkiyə Cümhuriyyəti ilə Azərbaycan Respublikası arasında əlaqələr "bir millət, iki dövlət" strateji xəttilə irəliləyir;

- bütün türk cümhuriyyətlərində islami dəyərlər daha da güclənir, hər yerdə türk ruhu yüksəlir. Türk dünyasının həmrəyliyi və birliyi, bütün dünyada yaşayan türklərin diasporlarının təşkilatlanması, mədəni-siyasi, iqtisadi əlaqələrin durmadan genişlənməsi Heydər Əliyev ideyalarının və arzularının müasir dünyada reallığa çevrilməsidir. Bir millət, yeddi dövlət və iyirmi doqquz qohum və əqrəbanın birlik və bərabərlik içində olması güclü olmaq deməkdir.

Türk dünyasının böyük oğlu Heydər Əliyev məhz bunu arzulamış və bütün şüurlu fəaliyyətini bu vacib işə həsr etmişdir.

Ədəbiyyat:

1.Türk dünyasının birliyi ideyası və Heydər Əliyev. Bakı,“Elm və təhsil”, 2011.

2.D.Vəliyev.Türk cumhuriyetleri arasında ekonomik işbirliği: sorunlar, perspektifler.Avrasiya Dosyası. Üç aylık uluslararası ilişkiler və stratejik araştırmalar dergisi. Azerbaycan. Özel sayısı. 2001.

3.D.Veliyev. Küreselleşme sürecinde Türk Dünyası.Süleyman Demirel Üniversitesi, Sosyal Bilimler Dergisi, Mayıs 2009, İsparta, №19.

4.Xuraman İsmayılqızı, Heydər Əliyev və türk dünyası.“İki sahil”, 21 fevral, 2013.

5.Vüqar Əliyev. Heydər Əliyev və türk dünyası.“Mədəniyyət” qəzeti, 3 aprel, 2013.

6.Rahid S.Ulusel.Heydər Əliyev və Azərbaycan, Atatürk və türk dünyası Nizami Cəfərovun elmi araşdırmalarında.Bakı, "Elm", 2004.

1.2. Heydər Əliyev və Azərbaycanın milli iqtisadi inkişaf modeli

“Vergi xəbərləri”, 2010, № 4

Biz respublikamızda hüquqi - demokratik dövlət qurmaq yolu ilə gedirik. Bu, dövlət quruculuğunda, siyasi sahədə strateji yolumuzdur. Bununla çox sıx əlaqədə olan ikinci sahə iqtisadiyyatın demokratik yollarla idarə edilməsidir, yəni iqtisadiyyatda demokratik islahatlar aparılması, bazar iqtisadiyyatı yoludur. Bütün bunlar kompleks şəkildə respublikamızı gələcəyə aparan yollar, istiqamətlərdir.

Heydər ƏLİYEV

XXI əsrin astanasında Azərbaycan Respublikasının müstəqil inkişaf yoluna qədəm qoyması ölkəmizin gələcək sosial-iqtisadi təkamülündə dönüş nöqtəsi oldu və bu təkamül prosesində taleyüklü dəyişikliklərin meydana gəlib genişlənməsi üçün zəmin təşkil etdi. Lakin tarixi təcrübə göstərir ki, zəngin təbii və iqtisadi sərvətlərə malik olan ölkələrdə müstəqilliyin qorunub saxlanılması bəzən onun əldə edilməsindən daha çətin və mürəkkəbdir. Düşmən dövlətlərlə əhatə olunmuş və təcrübəsiz dövlət rəhbərləri ilə idarə olunan Azərbaycanda bu daha da çətin idi. Ölkəmiz yalnız dövlət müstəqilliyini itirmək təhlükəsi ilə deyil, eyni zamanda, real olaraq onun ərazi bütövlüyünə qəsd edilmiş və üstəlik, daxildən də parçalanmaq təhlükəsi ilə qarşı-qarşıya qalmışdı.

Müstəqilliyimiz düşmən dövlətlər tərəfindən açıq-aşkar hərbi təcavüz və siyasi təzyiqlərlə boğulmağa çalışılırdı. Həm də xalqımız iqtisadi sarsıntılar, çətinliklər girdabına düşmüşdür. Bunun isə kökləri olduqca dərindir. İstehsal olunan məhsullar tələbata cavab vermədiyi üçün anbarlarda yığılıb qalır, strateji məhsullar isə blokada vəziyyətində olduğumuz üçün xarici bazarlara böyük çətinliklə çıxarılırdı. Həm valyuta çatışmazlığı, həm də yolların təhlükəli olması ilə əlaqədar mal idxalı da böyük çətinliklə həyata keçirilirdi. Ölkə əhalisi açıq-aşkar aclıq imtahanına çəkilirdi. Ərzaq anbarları boşalmış, ilkin tələbat mallarının istehsalı fəlakətli dərəcədə azalmışdı. Dəyirmanlar boşalmışdı. Elə gün olurdu ki, Qazaxıstandan yola salınmış un gecə Bakıya çatmasaydı, səhəri gün şəhərdə aclıq baş verə bilərdi. Ona görə də dövlət orqanlarının bütün gücü həmin unun Bakıya vaxtında çatdırılmasına yönəldilirdi. Məsuliyyətsiz bəzi vəzifəli şəxslər isə bu çətinlikdən öz ciblərini doldurmaq üçün istifadə edirdilər. 1992-ci ilin qışında ölkəni Avropa Birliyindən alınan 300 min ton, 1993-cü ilin qışında isə Türkiyənin verdiyi yenə 300 min ton əvəzsiz un və taxıl yardımı xilas etdi.

Amma ölkənin əsl xilaskarı 1993-cü ildə xalqın istəyi ilə ümummilli

lider Heydər Əliyevin hakimiyyətə qayıtması oldu.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi: "Belə bir çətin anda, çətin dövrdə xalqımızın müdrikliyi bir daha özünü göstərdi. Xalqın təkidi və tələbi ilə ümummilli liderimiz Heydər Əliyev Azərbaycana qayıtdı, xalq onu Prezident seçdi və ondan sonra ölkəmizin inkişaf dövrü başlandı. Bütün xoşagəlməz meyllərə son qoyuldu, sabitlik, ictimai asayiş bərqərar olundu, qeyri-qanuni silahlı dəstələr tərksilah edildi. Bir sözlə, Azərbaycan inkişaf yoluna qədəm qoydu"(20 sentyabr 2004-cü il).

Tarixdən yaxşı məlumdur ki, əgər dövlətin, xalqın strateji, perspektiv mənafeyi baxımından onun daxili və xarici siyasətinin ümumiləşmiş konsepsiyasını müəyyən edə bilən şəxsiyyət yoxdursa, bu mənafeyi beynəlxalq forumlarda, yüksək tribunalardan müdafiə edə bilən, dövlətin strateji xəttini xalqa sadə şəkildə bəyan edən və dövlətçiliyi ümumxalq işinə çevirməyi, xalqı öz arxasınca aparmağı bacaran şəxsiyyət yoxdursa və nəhayət, dövlətçiliyi qorumağı, onun müdafiəsini təşkil etməyi əməli surətdə həyata keçirən praktik siyasətçi-diplomat, sərkərdə və komandan yoxdursa, daxildə əmin-amanlığı, ölkənin iqtisadi inkişafını təmin etməyi üzərinə götürə bilən qurucu, yaradıcı təsərrüfat rəhbəri yoxdursa, həmin ölkənin gələcəyindən nikbin ruhda danışmaq çətin olar.

Dövlət idarəçiliyi sahəsində zəngin təcrübəyə malik olan Heydər Əliyevin müdrik daxili və xarici strateji kursu ölkəni bürümüş dərin siyasi, iqtisadi, sosial və psixoloji böhran və sarsıntılardan çıxararaq müstəqilliyin əbədi yolu ilə inamla irəliləməsi üçün möhkəm zəmin yaratdı.Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi (20 sentyabr 2004-cü il), Azərbaycan öz dövlət müstəqilliyini əldə etdikdən sonra gedən proseslər, təəssüflər olsun ki, ölkəmizi uçurum kənarına gətirmişdi. Sosial - iqtisadi, siyasi, hərbi böhran hökm sürürdü. Azərbaycan torpaqları Ermənistanın işğalçı qüvvələri tərəfindən zəbt olunurdu, ölkədə xaos, anarxiya, hərc-mərclik mövcud idi, vətəndaş müharibəsi başlamışdı. O illərdə baş verən iqtisadi tənəzzül ölkəmizi çox çətin vəziyyətə salmışdı.

Daxili çəkişmələrə son qoyulması, siyasi sabitliyin təmin olunması, atəşkəs haqqında razılaşma əsasında erməni təcavüzünün dayandırılması, «əsrin müqaviləsinin» bağlanması, balanslaşdırılmış xarici siyasət və qonşu dövlətlərlə münasibətlərin normallaşdırılması bütün diqqəti ölkədə çoxdan yığılıb qalmış və yatmış vulkana bənzəyən daxili sosial-iqtisadi problemlərin həll olunmasına yönəltməyə imkan verdi. Həyat isə bütün kəskinliyi ilə tələb edirdi ki, heç bir ölkənin tarixində rast gəlinmədiyi strateji əhəmiyyətli üç taleyüklü vəzifə eyni zamanda yerinə yetirilsin:

1. Müstəqil, demokratik, hüquqi dövlətin yaradılması və inkişaf etdirilməsi;
2. İnzibati-amirlik sistemi ləğv edilərək bazar iqtisadiyyatı prinsiplərinin

bərqərar olunması;

3. Qapalı sosial-iqtisadi sistemin xaricə açılması və açıq qapı siyasətinin tətbiq edilməsi ilə bərabərhüquqlu dövlət kimi qlobal iqtisadi sistemə inteqrasiya edilməsi.

Bu tarixi vəzifələrin hər biri istənilən bir dövlət üçün kifayət qədər ciddi və əhəmiyyətli idi və bütün qüvvələrin bu məqsədlərə səfərbər edilməsini tələb edirdi.

Totalitar sosialist sisteminin süqutu nəticəsində yaranmış yeni müstəqil dövlətlər qarşısında duran problemlərin orijinallığı və tarixdə mövcud olmuş iqtisadi sistemlərin heç birində anoloqu olmaması dünya iqtisadi və siyasi ədəbiyyatına bu ölkələrin real durumunu və perspektivlərini əks etdirən yeni bir termin «keçid iqtisadiyyatı ölkələri» terminini də gətirdi. «Keçid» anlayışı yalnız iqtisadi termin deyildir və cəmiyyətin bütövlükdə mövcud siyasi, iqtisadi və sosial quruluşundan imtina edildiyi və hələlik yenisinin yaradılmadığı bir vəziyyəti ifadə edir, cəmiyyətin sosial-iqtisadi strukturunun transformasiya prosesində olduğunu göstərir. Problemin çətinliyi bir də onda idi ki, totalitar rejimin 70 illik despotik hakimiyyəti dövründə cəmiyyət demokratiya, sərbəst bazar iqtisadiyyatı, azad sahibkarlıq, siyasi plüralizm və bu kimi digər çağdaş dəyərlərdən uzaq məsafədə saxlanılmışdır, üstəlik əhalidə uzun illər boyu xüsusi mülkiyyət, bazar iqtisadiyyatı, sahibkarlıq anlayışlarına mənfi münasibət formalaşdırılmışdır. Həyat isə bütün kəskinliyi ilə tələb edirdi ki, cəmiyyət «dövlət, demokratiya, millət, kimlik, ideologiya, siyasət və iqtisadiyyat kimi həyati əhəmiyyətli məsələlərin yenidən qurulmasını bir vəzifə kimi qarşıya qoysun» və uğurla həll etsin.

Akademik Ramiz Mehdiyevin göstərdiyinə görə: "1993-cü ilin ortalarında, Heydər Əliyev ölkəyə rəhbərliyə qayıtdıqdan sonra milli transformasiyanın dördüncü mərhələsi başlandı - modernləşdirmə mərhələsinə başlamağın əsası qoyuldu. Onun mahiyyəti Azərbaycanın tənzimlənən bazar iqtisadiyyatına keçməsində və demokratik islahatların həyata keçirilməsində idi ki, bu da beynəlxalq aləmdə ölkənin dünya siyasətinin subyekti kimi tanınması ilə nəticələndi".

Ölkəmizdə müstəqil, demokratik, hüquqi dövlətin möhkəm təməli Heydər Əliyevin memarlığı ilə 1995-ci ildə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası ilə atılmış oldu.

Konstitusiya bütün dünyaya bir daha bəyan etdi ki, sərbəst və müstəqil öz müqəddəratını həll etmək və öz idarəetmə formasını müəyyən etmək dövlət hakimiyyətinin yeganə mənbəyi olan Azərbaycan xalqının suveren hüququdur; insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi dövlətin ali məqsədidir.

Müstəqillik əldə etmiş dövlətlərin təcrübəsi göstərir ki, suveren sosial-iqtisadi inkişafın müvəffəqiyyəti, ilk növbədə, iqtisadi müstəqilliyin təmin

olunmasından və köhnə iqtisadi sistemin düşünülmüş şəkildə yenisi ilə əvəz olunmasından asılıdır.Ona görə də Konstitusiyada birmənalı şəkildə təsbit edilmişdir ki, təbii ehtiyatlar hər hansı fiziki və ya hüquqi şəxslərin hüquqlarına və mənafelərinə xələl gətirmədən Azərbaycan Respublikasına məxsusdur; Azərbaycan Respublikasında iqtisadiyyatın inkişafı müxtəlif mülkiyyət növlərinə əsaslanaraq xalqın rifahının yüksəldilməsinə xidmət edir; Azərbaycan dövləti bazar münasibətləri əsasında iqtisadiyyatın inkişafına şərait yaradır, azad sahibkarlığa təminat verir, iqtisadi münasibətlərdə inhisarçılığa və haqsız rəqabətə yol vermir. Bütün bunlar əsasında Azərbaycan dövləti xalqın və hər hansı bir vətəndaşın rifahının yüksəldilməsi, onun sosial müdafiəsi və layiqli həyat səviyyəsi qayğısına qalır; mədəniyyətin, təhsilin, səhiyyənin, elmin, incəsənətin inkişafına yardım göstərir, ölkənin təbiətini, xalqın tarixi, maddi və mənəvi irsini qoruyur.

Doğma Azərbaycan dövlətinin qarşısında duran ali məqsədə nail olunması, ilk növbədə iqtisadi sabitliyin də təmin olunmasını tələb edirdi. Çünki 1992-1994-cü illərdə mövcud olmuş hiperinflyasiya iqtisadiyyatın əsaslarını sarsıdır və əhalinin maddi və sosial vəziyyətini getdikcə ağırlaşdırırdı. Birmənalı şəkildə aydın idi ki, həyata keçirilən iqtisadi siyasətin müvəffəqiyyəti genişmiqyaslı sabitləşdirmə tədbirləri ilə inflyasiyanın cilovlanmasından və makroiqtisadi səviyyədə maliyyə sabitliyinin təmin olunmasından asılıdır. Həyat bütün kəskinliyi ilə iqtisadi islahatların da sürətləndirilməsini tələb edirdi. Ona görə də ölkə iqtisadiyyatında bazar prinsiplərinin bərqərar olmasını təmin etmək üçün onun liberallaşdırılması istiqamətində radikal addımlar atıldı. 1994-1995-ci illərdə xarici ticarət əməliyyatlarının liberallaşdırılmasına başlanmışdır. Xarici ticarət sahəsində liberallaşdırma tədbirlərinin önə çəkilməsi qısa bir zamanda açıq qapı siyasətinin tətbiq edilməsi zərurətindən doğurdu.

İqtisadi liberallaşdırma qiymət islahatlarının da radikal şəkildə davam etdirilməsini tələb edirdi. Bununla əlaqədar olaraq 1995-1996-cı illərdə qiymətlərin formalaşması prosesinin inzibati-amirlik sisteminin qalıqlarından azad olunması başa çatdırıldı. Bununla da bazar iqtisadiyyatının əsas prinsiplərindən birinin, yəni qiymətlərin bazarda sərbəst şəkildə tələb və təklif amillərinin qarşılıqlı təsiri altında formalaşması prosesinin başlanması üçün yol açılmış oldu. Bu proses bazar iqtisadiyyatının digər vacib elementi olan valyuta rejiminin sərbəstləşdirilməsi prosesi ilə tamamlandı.

Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən qətiyyətli iqtisadi islahatlar az bir zamanda geniş beynəlxalq dəstək aldı. Beynəlxalq Valyuta Fondu və Dünya Bankı həmin islahatlara dəstək verməyə başladılar. Onlar Azərbaycanda iqtisadi islahatlar haqqında xüsusi proqram hazırladılar və ölkəmizə maliyyə yardımı göstərdilər. Həmin təşkilatlarla sıx əməkdaşlıq şəraitində hazırlanmış sabitləşdirmə proqramına uyğun olaraq iqtisadiyyatın liberallaşdırıl-

masına yönələn radikal islahatlar dönməz xarakter aldı. Sərt və çevik pul-kredit, büdcə, vergi gömrük siyasətinin aparılması, qiymətlərin, xarici iqtisadi fəaliyyətin və valyuta bazarının liberallaşdırılması və xarici kapitalın cəlb olunması nəticəsində qısa zamanda (1995-1996-cı illər) ölkədə makroiqtisadi səviyyədə maliyyə sabitliyinin təmin edilməsinə nail olundu. Əgər 1994-cü ildə inflyasiya tempi 1800%-ə, manatın ABŞ dollarına nisbətən dəyərsizləşməsi 1200%-ə çatmışdırsa, artıq 1995-ci ildə vəziyyət əsaslı dəyişməyə başlamış və həmin göstəricilər uyğun olaraq 84, 6% və 3, 6% olmuşdur. Sonrakı illərdə bu göstəricilər daha da yaxşılaşmış, 1996-cı ildə inflyasiya 6, 8%-ə enmiş, manatın isə ABŞ dollarına nisbətən məzənnəsi 8% möhkəmlənmişdir. 1997-ci ildə inflyasiya tempi minimuma enərək cəmi 0, 4% təşkil etmiş, manatın dəyəri isə 5,1% möhkəmlənmişdir. Bu sabitlik dünya maliyyə bazarlarında baş vermiş maliyyə böhranına baxmayaraq 1998-ci ildə də qorunub saxlanılmış, 7,6% səviyyəsində deflyasiya baş vermiş, manatın ABŞ dollarına nisbətən məzənnəsi isə devalvasiyaya uğramamış, sabit olaraq qalmışdır.

İstehlak qiymətlərinin indeksi kəskin şəkildə azaldılmağa başladı. Belə ki, mallar və xidmətlər üzrə qiymət indeksi 1994-cü ildə özündən əvvəlki ilə nisbətən 1763, 5%, 1995-ci ildə 511, 8%, 1996-cı ildə 119, 9%, 1997-ci ildə 103, 7% və 1998-ci ildə isə 99, 2% təşkil etmişdir.

1995-96-cı illərdə yaranmış əlverişli makroiqtisadi sabitlik şəraitindən istifadə edərək 1997-1998-ci illərdə ölkədə iqtisadi islahatların yeni mürəkkəb mərhələsinə - struktur islahatlar mərhələsinə başlandı. Xüsusi Dövlət proqramına uyğun olaraq ölkədə genişmiqyaslı özəlləşdirməyə başlanmış, iqtisadiyyatın əsas sahələrindən olan aqrar sferada torpağın xüsusi mülkiyyətə verilməsi istiqamətində radikal islahatlar aparılmış, yeni iqtisadi tələblərə cavab verən maliyyə sektorunun, onun vacib hissəsi olan bank sisteminin formalaşdırılması, dövlət banklarının yenidən qurulması istiqamətində radikal addımlar atılmışdır.

Azərbaycanda iqtisadi artım sürəti 1995-ci ildən başlayaraq MDB üzrə orta göstəricidən xeyli yüksək olmuşdur.

Deyilənləri yekunlaşdıraraq göstərmək lazımdır ki, Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu və Prezident İlham Əliyev tərəfindən daha da inkişaf etdirilən strateji kurs Azərbaycanı qlobal zirvələrə doğru gedən ölkələr qrupunda öncül mövqeyə çıxarmışdır. Ölkənin inkişaf səviyyəsində ciddi kəmiyyət və keyfiyyət dəyişiklikləri baş vermiş və verməkdə davam edir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin göstərdiyi kimi: "Ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində Azərbaycan beynəlxalq təcriddən çıxdı. Bu gün Azərbaycan beynəlxalq aləmdə çox görkəmli yer tutur, beynəlxalq təşkilatların üzvüdür, onlarda fəal iştirak edir. Bütün dövlətlər tərəfindən tanınır. Azərbaycanın böyük hörməti var. Artıq demək olar ki, regional məsələlərdə Azərbaycanın sözü həlledici sözdür.

Azərbaycanın iştirakı olmadan bölgədə heç bir regional layihə keçirilə bilməz. Beləliklə, Azərbaycan region üçün mərkəzə çevrilibdir. Bizim nüfuzumuz artır, gücümüz artır. Bu, bizə imkan verəcək ki, qarşımızda duran bütün məsələləri öz xeyrimizə həll edək. Bütün bunlar Heydər Əliyevin xidmətləridir" (10 may 2004-cü il).

İqtisadi inkişaf səviyyəsi yaxın perspektivdə daha da yüksələcəkdir. İqtisadi inkişaf sürətinin dünyada analoqu olmayan səviyyəsi Azərbaycanın bir çox inkişaf parametrlərinə görə inkişaf etmiş ölkələrlə arasında olan fərqin azalmasına gətirib çıxaracaqdır. Möhkəm iqtisadi təməl demokratik proseslərə dinamizm qazandırmış,əhalinin sosial-rifah halının daha da yaxşılaşdırılması üçün geniş perspektivlər açmışdır.

Beləliklə, iqtisadi inkişafın tarixdə analoqu olmayan Azərbaycan modelinin formalaşması və inkişafı nəticəsində uzunmüddətli perspektivdə Azərbaycanın sosial-iqtisadi inkişaf trayektoriyası yüksək dərəcədə perspektivlidir. Belə ki:

1.İnzibati-amirlik sistemi ləğv edilərək bazar iqtisadiyyatı prinsipləri bərqərar olmuşdur.

2.Müstəqil, demokratik, hüquqi dövlətin əsasları qoyulmuş və ölkə yüksək inkişaf mərhələsinə daxil olmuşdur.

3.Transformasiya prosesi uğurla aparılmış və özünün yüksək mərhələsinə qədəm qoymuşdur.

4.Qapalı sosial-iqtisadi sistem xaricə açılmış və «açıq qapı» siyasətinin tətbiq edilməsi nəticəsində bərabərhüquqlu dövlət kimi qlobal iqtisadi sistemə inteqrasiya prosesi sürətlənmişdir.

5.Xarici kapital geniş miqyasda cəlb edilərək, resurs amillərindən intensiv istifadə edilir.

6.Ölkədə yaradılmış yeni imkanlar daxili mənbələrin hərəkətə gətirilməsi, iqtisadiyyatın strukturunun yenidən qurulması, informasiya texnologiyalarının sürətli inkişafı və bütün sahələrdə modernləşdirmə xəttinin həyata keçirilməsi məqsədlərinə xidmət edir və bu sahədə ciddi irəliləyişlər mövcuddur.

7.Həyata keçirilən qlobal əhəmiyyətli infrastruktur layihələri Azərbaycanın Avrasiya məkanında mərkəzi nəqliyyat dəhlizinə çevrilməsi üçün geniş imkanlar yaratmışdır.

8.Siyasi müstəqillik iqtisadi müstəqilliklə möhkəmləndirilmişdir. Ölkə tam müstəqil və balanslaşdırılmış iqtisadi siyasət yeritməklə ölkənin milli təhlükəsizliyini və onun mühüm tərkib hissələri olan iqtisadi təhlükəsizliyini, enerji təhlükəsizliyini və ərzaq təhlükəsizliyini qısa zaman kəsiyində təmin edə bilmişdir.

9.Ölkə qısa tarixi dövr ərzində kapital idxal edən ölkədən ixrac edən ölkəyə, təbii qaz idxal edən ölkədən ixrac edən ölkəyə çevrilmiş, bir çox həyati əhəmiyyətli məhsullarla öz ehtiyaclarını təmin edir.

10. Ölkənin əlverişli geosiyasi vəziyyətindən məharətlə istifadə edilməsi Azərbaycanın regionda lider dövlətə çevrilməsinə və qabaqcıl dünya dövlətləri arasında mövqenin möhkəmləndirilməsinə səbəb olmuşdur.

Yaradılmış möhkəm iqtisadi təməl siyasi və sosial-mədəni proseslərə də dinamizm verir, Azərbaycanın "mənliyinin dünya miqyasında təsdiq edilməsinə imkan yaradır".

Sürətli iqtisadi inkişaf Azərbaycanın beynəlxalq aləmdə diqqət mərkəzində olmasını təmin etmişdir. Bütün dünyanı sarsıdan qlobal böhran zamanı ölkəmizdə iqtisadi artım sürətinin 9,3% səviyyəsində olması Azərbaycanın milli iqtisadi inkişaf modelinin, onun perspektivli inkişaf trayektoriyasının uğurlu olduğunu əyani şəkildə bir daha sübut etdi. Mürəkkəb böhran dövründə Azərbaycan modelinin uğurunun sirrini Cənab İlham Əliyev özü belə izah edir: istehlak qiymətlərinin aşağı salınmasının vacibliyi və inflyasiyaya nəzarət; milli bankların dəstəklənməsi də daxil olmaqla maliyyə monitorinqi, kreditlərə və faiz dərəcələrinə nəzarət; təkcə neft sektoruna deyil, real iqtisadiyyata daimi sərmayə axınının təmin edilməsi; sosial öhdəliklərin qətiyyətlə yerinə yetirilməsinə yönəldilmiş siyasət; sənaye müəssisələrinin fəaliyyət istiqamətinin daxili bazara yönəldilməsi; ərzaq təhlükəsizliyi probleminə daimi nəzarət və sair.

Beləliklə, akademik Ramiz Mehdiyevin göstərdiyi kimi: "Bu gün biz fəxrlə deyirik ki, Azərbaycan iqtisadiyyatı keçid dövrünü başa çatdıra bilmişdir. Hazırda bu, liberal, müstəqil, davamlı, öz ehtiyatlarına əsaslanan iqtisadiyyatdır".

1.3. Əsas məqsəd Azərbaycanı müasir güclü dövlətə çevirməkdir

(Məqalə AMEA-nın müxbir üzvü, i.e.d., prof. Akif Musayevin həmmüəllifliyi ilə yazılmışdır)

"Xalq qəzeti", 31 oktyabr 2010-cu il.

Ümummilli lider Heydər Əliyev Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafının və müstəqilliyinin siyasi proqramını böyük inamla formalaşdırmış və reallaşdırmış, iqtisadi müstəqillik uğrunda mübarizənin möhkəm təməlini qoymuşdur. Siyasi müstəqilliyin və onun iqtisadiyyat cəbhəsinin daha da möhkəmləndirilməsinin sükanı artıq uzun müddətdir ki, cənab İlham Əliyevin əlindədir. Əminliklə demək olar ki, Azərbaycanın iqtisadi müstəqilliyinin reallaşdırılması İlham Əliyev siyasətinin tarixi nailiyyətidir.

Layiqli varis olan İlham Əliyev öz üzərinə düşən tarixi missiyanı böyük həssaslıqla dərk edərək, ölkənin strateji kursunu bütün sahələr üzrə qəbul edilən və elmi cəhətdən əsaslandırılmış proqram sənədləri ilə müəyyən etdi. Əslində, MDB məkanında ilk dəfə olaraq sosial-iqtisadi inkişafı müasir prinsiplər əsasında tərtib edilmiş Dövlət Proqramları ilə tənzimləyərək, ölkəni yeni üfüqlərə, iqtisadi müstəqilliyin təmin olunmasına doğru istiqamətləndirdi. İqtisadi potensialın ildən-ilə güclənməsi, əhalinin maddi həyat şəraitinin yaxşılaşması, iqtisadi-siyasi islahatların aparılması Azərbaycanın gələcəyinə hesablanan məqsədyönlü dövlət proqramlarının ana xəttini təşkil edir.

17 noyabr 2003-cü ildə Nazirlər Kabinetinin ilk iclasında o, proqram xarakterli bəyanatla çıxış etdi: "Azərbaycanda son illər ərzində aparılan iqtisadi siyasət çox uğurlu olubdur və Azərbaycanın gələcək inkişafı üçün də gözəl təməl yaradıbdır. Bizim hamımızın vəzifəsidir ki, bu siyasəti davam etdirək, əldə olunan bu uğurları artıraq və Azərbaycanın hərtərəfli inkişafı üçün böyük imkanlardan istifadə edərək, qoyulmuş bu gözəl təməlin üzərində müasir Azərbaycanı yaradaq".

İlham Əliyevin ardıcıl olaraq yeritdiyi qlobal və milli dəyərlərə əsaslanan strateji kurs, məqsədyönlü və çevik islahatlar ölkənin qısa müddət ərzində keyfiyyətcə yeni və daha sürətli inkişaf mərhələsinə qədəm qoymasına səbəb olmuşdur. İnkişaf sürətinə görə ölkə regionda və bütün dünyada lider dövlətə çevrilmişdir. İqtisadi artım sürətinin, yəni ümumi daxili məhsul istehsalının artım sürətinin yüksək olması buna bariz nümunədir. İqtisadiyyat inkişafın təməl daşıdır. Bu gün regionun lider dövləti olan Azərbaycan beynəlxalq aləmdə etibarlı tərəfdaş, dinamik inkişaf edən ölkə kimi tanınır. Yüksək iqtisadi göstəricilərə malik olan Azərbaycanın son illər

müxtəlif sferalarda əldə etdiyi nailiyyətlər ardıcıl şəkildə bir-birini tamamlayır, coğrafiyasını genişləndirir.

Ötən illərdə Azərbaycanın dinamik inkişafını təmin edən əsas amillərdən biri də neftdən əldə olunan vəsaitin regionların davamlı və tarazlı inkişafına yönəldilməsi, qeyri-neft sektorunun inkişafı istiqamətində görülən işlərdir. Ölkə regionlarının inkişafına xüsusi önəm verən İlham Əliyevin fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın (2004-2008-ci illər) həyata keçirilməsi ölkə regionlarının kompleks inkişafına, o cümlədən, infrastruktur sahələrinin bərpası və genişləndirilməsinə; yeni istehsal və emal müəssisələrinin, sosial-mədəni obyektlərin yaradılmasına, yeni iş yerlərinin açılmasına, əhalinin həyat səviyyəsinin daha da yüksəldilməsinə, qeyri-neft sektorunun inkişafına səbəb olmuşdur.

İnformasiya cəmiyyəti adlanan müasir cəmiyyətdə elmi-texniki tərəqqinin nailiyyətləri əsasında istehsal prosesinin bütün həlqələrində texnoloji istehsal üsulunun transformasiyası baş verir, ölkələrdə iqtisadiyyatın strukturu, iqtisadi inkişafın xarakteri, həyat tərzi, dəyərlər sistemi və motivasiya keyfiyyətcə yeniləşir, "ictimai tərəqqi" anlayışı və onun meyarları haqqında təsəvvürlər dəyişir. Təcrübə göstərir ki, yeni modernləşmə müasir iqtisadi sistemlərin dayanıqlı inkişafının həlledici amilidir. Tanınmış ingilis iqtisadçısı Braynan Tvissin qeyd etdiyi kimi, müasir dövrdə "mütəxəssislər öz səylərini gələcəkdə meydana çıxacaq ehtiyacların ödənilməsinə yönəltməlidirlər, diqqət yeni vəzifələrin həlli üçün yeni texnologiyanın tətbiqi yollarının tapılmasına yönəldilməlidir".

"Sənaye potensialının artımı bizim prioritet məqsədimiz olmalıdır", - deyən İlham Əliyev ən qabaqcıl texnologiyaların Azərbaycana gətirilməsi məsələsini bütün kəskinliyi ilə qarşıya qoymuşdur. Bu resurs amillərinə əsaslanan iqtisadiyyatdan, qlobal proseslərin tələb etdiyi innovasiya yolu ilə inkişaf edən iqtisadiyyata keçilməsi üçün olduqca vacibdir. Prezidentin təkidlə tələb etdiyi bir mühüm məsələnin - iqtisadiyyatın neft amillərindən asılılığının azaldılması, qeyri-neft sektorunun inkişaf etdirilməsi probleminin həlli də modernləşmə və innovasiyaların intensiv tətbiqi ilə əlaqədardır.

Prezident İlham Əliyev qətiyyətlə vurğulayır: "Biz öz təbii sərvətlərimizdən çox böyük səmərə ilə istifadə edərək təbii resurslarımızı insan kapitalına çeviririk. Bu gün əsas prioritetlərdən biri Azərbaycan xalqının və gələcək nəslin bilikli olmasıdır, eyni zamanda, bizim milli adət-ənənələrimizin təmin olunması şərti ilə dünyada gedən proseslərə qoşulmasıdır, dünya birliyinə inteqrasiya etməsidir".

Azərbaycan bu əsrdə inkişaf etmək üçün bütün təbii imkanlara malikdir. Ölkə başçısı və Azərbaycan hökuməti ölkənin dinamik və sürətli inkişafı üçün yaradıcı, məqsədli və sistemli siyasət aparır. Problemləri ardıcıl olaraq aradan

qaldırmaq, yaxşı ənənələri inkişaf etdirməyə imkan verən və hesablanmış risklərin əvəzində stimullaşdırıcı bir mühit yaratmaq qarşıya məqsəd olaraq qoyulmuşdur. Bununla belə, bu gələcək uğurun əsas elementləri - yeni ideyalar yaratmaq və bu ideyaları ölkənin innovativ və uğurlu məhsulları, xidmətləri və yeni tipli şirkətləri timsalında həyata keçirmək bacarığından asılıdır.

Bu, öz gücünə əmin olan, yeni imkanları tədqiq etmək və uğurla həyata keçirmək istəyən yeni azərbaycanlı nəslini yetişdirmək üçün Azərbaycan dövlətinin qarşıya qoyduğu məqsədin bilavasitə təsdiqidir. Bu strategiya alimlərimizin, tədqiqatçılarımızın və sahibkarlarımızın birgə səyləri nəticəsində elm və texnologiyalarda mükəmməlliyə nail olmaq, daha yüksək keyfiyyətli işçi qüvvəsi yaratmaq və yeni ideyalardan istehsal kommersiya məqsədləri üçün istifadə olunduqda tam həcmdə yerinə yetiriləcəkdir.

İnnovasiya təkcə yeni və yüksək texnologiyalaşdırılmış sənaye sahələrindən ibarət deyil, o, həm də bizim kənd təsərrüfatı, yüngül sənaye və hasilat sənayesi kimi ənənəvi sahələrimizin də inkişafı üçün əsasdır. Burada vacib məsələlərdən biri də özəl sektorun elm, təhsil və tədqiqat institutlarının innovasiya sahəsində öhdəliklər qəbul etmələri və hökumətin bu sahədə nəzərdə tutduğu proqramların həyata keçirilməsində və qarşıya qoyduğu məqsədlərə çatmasında ona yardımçı olmasıdır.

Prezident İlham Əliyev keçid dövrünün başa çatdığını elan etməklə inkişafda yeni mərhələnin başlandığını və keçən onilliklərdə problemlərin həlli üçün istifadə edilən üsul və yanaşmaların bu yeni, bilik və imkanlar mərhələsi üçün kifayət olmadığını göstərdi. Artıq qloballaşma erasında özünü qabarıq biruzə verən fakt insan və intellektual resursların, inkişafın ənənəvi dəyərləri – torpaq, əmək və kapital ehtiyatlarından önə keçməsidir. Ona görə də müasir inkişaf mərhələsində yaradıcılıq, işgüzarlıq, sahibkarlıq və digər innovativ amillər əsas götürülməlidir.

Akademik Ramiz Mehdiyevin qeyd etdiyi kimi, "təhsil və elm zəruri səviyyədə olmasa, milli inkişafın perspektivləri və Azərbaycan dövlətçiliyinin davamlı inkişafı barədə düşünməyimiz çətin olacaqdır. Bu gün aşkar görünür ki, Prezident İlham Əliyev qarşıdakı illərdə məhz millətin intellektual bazasının yeniləndirilməsi və genişləndirilməsi üçün inkişaf strategiyasını müəyyən edir".

Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 19 fevral tarixli fərmanı ilə yaradılmış "Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu" innovativ fəaliyyətləri daha da stimullaşdıracaq. Azərbaycanda təmin edilən yüksək iqtisadi artım, işsizliyin və yoxsulluğun azalması, islahatların yüksək sürətlə aparılması təbii olaraq əlverişli sahibkarlıq mühiti ilə müşayiət olunur ki, bu da düzgün makro-iqtisadi siyasətin həyata keçirilməsinin nəticəsidir.

2008-ci ildə Dünya Bankı Azərbaycanı bir nömrəli islahatçı ölkə kimi tanıdı və təqdim etdi. Dünya İqtisadi Forumu tərəfindən açıqlanan "Qlobal Rəqabət Hesabatı 2009-2010" adlı sənədlə Azərbaycan iqtisadiyyatın rəqabət qabiliyyətinin qənaətbəxş olduğu qeyd edilir. Dünyanın 133 ölkəsini, o cümlədən, postsovet dövlətlərini əhatə edən hesabatdan aydın olur ki, azad rəqabət şəraitinin yaradılması baxımından Azərbaycan yenə də seçilənlər sırasında yer alıb. Elə bunun nəticəsidir ki, qlobal rəqabətlik indeksinə əsasən, ölkəmiz 2008-ci illə müqayisədə 18 pillə irəliləyib.

İlham Əliyevin siyasətinin ən mühüm istiqamətlərindən biri Azərbaycanın dünya iqtisadi tempinə inteqrasiyasının sürətləndirilməsi, ticarət əlaqələrin genişləndirilməsi sahəsində görülən genişmiqyaslı tədbirlərdir. Hazırda Azərbaycan dünyanın 140-a yaxın ölkəsi ilə qarşılıqlı ticarət əməliyyatları aparır. Xarici ticarət dövriyyəsi, ixrac və idxal əməliyyatlarının həcmi ildən-ilə artır. Azərbaycan mövcud təbii sərvətlərdən istifadə etməklə iqtisadi infrastrukturunu dünya standartları səviyyəsində quraraq qloballaşan dünyanın enerji təchizatının ödənməsi prosesindəxüsusi əhəmiyyət kəsb edir. Qlobal əhəmiyyətli iqtisadi layihələr olan TRASECA, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz boru kəmərlərinin reallaşması və Bakı-Tbilisi-Qars dəmir yol xəttinin tikilməyə başlaması, "Şahdəniz" qaz yatağının işə düşməsi ölkəmizin nüfuzunu bütün dünyada artırır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev demişdir:“Biz bölgədə aparıcı dövlətə çevrilmişik. Bu, artıq reallıqdır. Reallıq hamı tərəfindən qəbul olunub. Bizim qərarlarımız, bizim işlərimiz bütün bölgəyə öz təsirini göstərir. Biz də istəyirik ki, Azərbaycan daha da qüdrətli dövlətə çevrilsin. Bizim imkanlarımız daha da artsın, siyasi çəkimiz artsın, beynəlxalq müstəvidə istədiyimizə nail ola bilək, öz doğma torpaqlarımızı işğalçılardan azad edə bilək və Azərbaycan xalqının normal, yaxşı yaşamasını təmin edə bilək. Bunu etmək üçün Azərbaycan güclənməlidir. Bu proses artıq baş verir".

Hörmətli Prezidentimizin önə çəkdiyi "İndi bizim məqsədimiz inkişaf etmiş ölkəyə çevrilməkdir" ideyası, əslində, Azərbaycanın uzunmüddətli inkişaf strategiyasıdır və bütün dövlət-təşkilatçılıq tədbirləri həmin strategiyanın həyata keçirilməsinə yönəldilmişdir. İlham Əliyevin başçılığı ilə həyata keçirilən tarazlaşdırıcı siyasət nəticəsində daim artan iqtisadi potensial Azərbaycana müstəqil siyasət yeridir, heç bir xarici təsirlərə boyun əymir.

Bu illərdə Azərbaycan, xüsusən, karbohidrogen ehtiyatlarının dünya bazarlarına çıxarılması məsələsində, Bakı-Tbilisi-Qars dəmir yol xəttinin çəkilməyə başlamasında, Naxçıvan-Qars dəmiryolunun inşasına qərar verilməsində tam müstəqil siyasi kurs yürüdüb. Dövlət başçısı İlham Əliyev ölkəmizin Avrasiya məkanının mərkəzi nəqliyyat dəhlizinə çevrilməsi, rabitə sisteminin, informasiya texnologiyalarının sürətli inkişafı üçün də nəhəng işlər görür.

İlham Əliyevin prezidentlik fəaliyyətinin ali qayəsi informasiya cəmiyyətinin tələblərinə uyğun olaraq "neft kapitalının insan kapitalına" çevrilməsini təmin etmək, ölkədə mövcud olan zəngin insan potensialını inkişaf etdirməkdir. "Biz çalışırıq, səhiyyə, xüsusilə, təhsillə bağlı məsələlərə böyük diqqət yetirək ki, bizim gənclərimiz bilikli olsunlar, həyatda öz yerini tuta bilsinlər, sağlam böyüsünlər və ölkənin inkişafında fəal iştirak etsinlər".

Bu məqsədin həyata keçirilməsi üçün elm və bütövlükdə, sosial sahənin inkişafına, ölkəmizdə təhsil və səhiyyə ocaqlarının tikintisinə, onların maddi-texniki bazasının müasir tələblərə uyğun qurulmasına xüsusi diqqət yetirilir. Onun prezidentliyi dövründə yüzlərlə yeni məktəb binası tikilib istifadəyə verilmişdir. Bu sərəncama əsasən 2015-ci ilədək 5 minə yaxın gənc xarici ölkələrdə təhsil almaq imkanı əldə edəcəkdir.

İlham Əliyevin prezidentliyi dövründə dövlətin müdafiə qüdrətinin gücləndirilməsi, ordunun müdafiə qabiliyyətinin müasir standartlar səviyyəsinə çatdırılması istiqamətində də radikal addımlar atılmış, bu sahəyə ayrılan dövlət investisiya xərcləri ildən-ilə artırılmışdır.

Dövlət başçısı respublikanın sosial-iqtisadi inkişafı ilə paralel aparılan demokratikləşmə proseslərini də Azərbaycanın gələcək yüksəlişinin əsası hesab edir və onun təkmilləşdirilməsinə mühüm əhəmiyyət verir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi,"Azərbaycanın daxili və xarici siyasəti yalnız regional deyil, qlobal miqyasda situasiyaya əhəmiyyətli təsir göstərir və gələcəkdə də göstərəcəkdir".

1.4. Reallaşan qlobal düşüncələr

“Xalq qəzeti”, 18 mart-1aprel 2009-cu il.

Görülən bütün işlər, bir daha demək istəyirəm ki, bir məqsədə yönəldilibdir - Azərbaycan bölgədə və dünyada öz mövqelərini möhkəmləndirsin, Azərbaycanda siyasi islahatlar daha da sürətlə getsin, Azərbaycanda bütün kriteriyalar istər siyasi həyatda, istərsə də iqtisadi, sosial həyatda bütün kriteriyalar dünyanın aparıcı ölkələrinin kriteriyalarına yaxınlaşsın. Bunu etmək üçün bizim həm niyyətimiz var, həm də proq-ramlarımız var. Beynəlxalq təşkilatlarla müxtəlif proqramlar var və biz bunları uğurla icra edirik.

İlham ƏLIYEV
Azərbaycan Respublikasının Prezidenti

XXI əsr tarixə sivilizasiyanı keyfiyyətcə yeni bir mərhələyə yüksəldən qloballaşma əsri kimi daxil olmuşdur. Qlobal proseslər inkişaf səviyyələrində, din və mədəniyyətlərində, tarixi ənənələrində mövcud olan fərqlərə baxmarayaq, dünya ölkələrinin və xalqlarının bir-birindən qarşılıqlı asılılığını getdikcə artırır. Bu proseslər xalqların və bütövlükdə sivilizasiyanın taleyini həlledici dərəcədə müəyyən etməyə başlamışdır.

Akademik Ramiz Mehdiyevin “Azərbaycan:qloballaşma dövrünün tələbləri” adlı fundamental əsərində qeyd etdiyi kimi: “Yeni yüzilliyin qısa başlanğıc dövründə dünyada elə heyrətamiz dəyişikliklər baş vermişdir ki, onların geniş miqyası təkcə iqtisadi və siyasi sahələri deyil, həm də insanın təkrar istehsalının, təhsil və təfəkkür sistemlərinin fundamental əsaslarını əhatə etmişdir.Artıq çoxları dərk etmişdir ki, yeni dövr,beynəlxalq sivilizasiya inkişaf erası başlanmışdır”.

İqtisadi, siyasi və mədəni-mənəvi proseslərdə özünü göstərən dərin qloballaşma təmayülü iqtisadi qloballaşmada daha böyük sıçrayışla gedir və digər prosesləri dəöz arxasınca aparır. Təsadüfi deyildir ki, artıq siyasət getdikcə daha çox iqtisadiləşmişdir. İqtisadi qloballaşma isə iqtisadiyyatın yalnız beynəlmiləlləşməsi demək deyildir, həmin prosesin yeni və yüksək mərhələsidir.

Keçid iqtisadiyyatı ölkələri müstəqillik uğrunda mübarizəni iki mühüm prosesin: iqtisadi transformasiya və qloballaşma proseslərinin təsiri altında aparırlar. İqtisadi transformasiya prosesləri artıq başa çatmaq üzrə olduğu halda, qloballaşma onların iqtisadiyyatına və iqtisadi siyasətinə getdikcə daha çox təsir göstərir.

Ona görə də ictimai inkişafın müasir təmayülləri ictimai-iqtisadi inkişaf problemlərinə getdikcə daha çox qlobal yanaşma tərzini tələb edir. Hər hansı bir ölkədə gedən daxili proseslər özünün məzmunu və forması baxımından

çoxsaylı səciyyəvi cəhətlərinə baxmayaraq, təcrid olunmuş şəkildə cərəyan etmir.Qloballaşmanın planetar mahiyyət kəsb etdiyi və dönməz xarakter aldığı bir dövrdə həmin proseslər insan cəmiyyətinin müasir tarixi inkişafı gedişinin aparıcı istiqamətini təşkil edir. Ona görə də həyat bütün kəskinliyi ilə tələb edir ki, ölkənin spesifik xüsusiyyətləri qloballaşmanın doğurduğu yeni şəraitlə sıx sürətdə əlaqələndirilsin. Müasir iqtisadi, sosial və siyasi problemlərə qlobal yanaşma tərzinin üstünlüyü onda deyil ki, belə yanaşma tərzi bütün qoyulan suallara dərhal düzgün cavab verməyəçalışır, həm də ondadır ki, bu sualları düzgün qoymağa imkan verir.

Beləliklə, hər hansı bir ölkədə konkret iqtisadi və sosial transformasiyaların konkret bir ərazidə daxili sosial-iqtisadi qüvvələrin və proseslərin təsiri altında baş verdiyinə baxmayaraq, həmin transformasiyaları doğuran səbəblərə, onların mahiyyəti və inkişaf perspektivlərinə, milli və dünya problemlərinin çulğaşdığı müasir dövrdə, yalnız həmin ölkənin daxili prizmasından baxılması kifayət deyil və yanlış nəticələrə gətirib çıxara bilər.

İstehsal və mübadilənin müasir xarakteri, miqyası və onların nəticələrinin ölkələrarası bölgüsü tələb edir ki, ayrıca götürülmüş hər bir ölkədə geniş təkrar istehsalının zəruri və ilkin şərtlərinin həmin ölkənin beynəlxalq maliyyə-iqtisadi mühitdə iştirakı, həmin mühitə uyğunlaşma mövqeyindən nəzərdən keçirilsin. Müasir ümumdünya təsərrüfatı vahid istehsal sferası kimi, yalnız bu və ya digər təsərrüfat sahəsinin iqtisadi səmərəliliyi hesablanarkən nəzərə alınmır, həmçinin ümumbəşəri xarakter almış ərzaq, xammal, enerji, demoqrafiya, ekologiya və s. kimi ciddi problemlərin həll edilməsi məqsədilə də daim diqqət mərkəzindədir.

Müstəqillik əldə etmiş ölkələrin siyasi, sosial-iqtisadi və mədəni-mənəvi inkişaf problemləri xarici iqtisadi əlaqələri, onların dünya bazarı ilə inteqrasiyası ilə iqtisadi inkişaf mexanizmi arasındakı qarşılıqlı əlaqə və qarşılıqlı asılılıq qloballaşma dövründə xüsusi aktuallıq kəsb etmişdir.

Qloballaşmanın və meqacəmiyyətin yaranması cəmiyyətin uzun tarixi dövr ərzində modernləşmə prosesinin məhsulu və məntiqi nəticəsidir. Qloballaşma eyni zamanda bəşəriyyətdə mövcud olan ən perspektivli modernləşmə təmayüllərini seçib təşviq edir. Akademik Ramiz Mehdiyevin səlis ifadəsilə desək: “Hazırda sosiomədəni transformasiyanı milli tranzitin iki aspekti - iqtisadi və siyasi modernləşmə təşkil edir”.

Başlıca məzmununu qloballaşma təşkil edən postsənaye cəmiyyətinin əsas əlamətləri aşağıdakılar hesab edilir: 1) istehsal və istehlakın strukturunun dəyişməsi (xidmət sahəsinin rolunun artması); 2) təhsilin səviyyəsinin yüksəlməsi; 3) əməyə yaradıcı münasibətin aparıcı amiləçevrilməsi; 4) ətraf mühitə yüksək diqqət verilməsi; 5) iqtisadiyyatın humanistləşməsi (sosial yönümlülüyünün artması); 6) cəmiyyətin informasiya cəmiyyətinə çevrilməsi; 7) kiçik biznesin renessansı. Bu o deməkdir ki, əvvəlki biliklərin qısa bir

zamanda köhnəlməsi və yenilərinin sürətlə yayılması və təbəqələşmə nəticəsindəəhalinin bir qrupunun gəlirlərinin sürətlə artması buraxılan məhsulların da sürətlə yenilənməsini, bir-birini əvəz etməsini tələb edir. İri şirkətlərə nisbətən kiçik biznes bu baxımdan çox çevikdir və istehsalın profilini qısa müddət ərzində dəyişə bilir. Məhz buna görədir ki, inkişaf etmiş sənaye ölkələrində ÜMM-in yarısından çoxu kiçik biznesin payına düşür.

Bu ölkələrdə iqtisadiyyatın modernləşdirilməsi vəzifələrindən biri - sovet dövründə uzun müddət qapalı şəraitdə mövcud olmuş təsərrüfatın texnoloji və struktur cəhətdən yenidən qurulmasıdır. Bu proses isə iqtisadiyyatın o sahələrinin üstün inkişafını nəzərdə tutur ki, həmin sahələr öz məhsullarını daxili və xarici bazarlarda müvəffəqiyyətlə sata bilirlər. Beynəlxalq əmtəə, maliyyə və işçi qüvvəsi axınlarının şərtlərini müəyyən edən qlobal maliyyə-iqtisadi mühitə inteqrasiya imkan verir ki, qüvvələr istehsalın uduşlu sahələrinə yönəldilsin, zəif iqtisadi səmərə verən məhsul istehsalından imtina edilsin və investisiyanın strukturunu dəyişdirməklə səmərəli inkişaf modeli seçilsin. Ölkənin seçdiyi yol beynəlxalq əmək bölgüsünün üstünlükləri ilə uzlaşdırılmadıqda isə həmin ölkədə istehsal özünün aşağı səmərəliliyi və zəif inkişaf sürəti ilə xarakterizə edilir.

Ölkənin beynəlxalq əmək bölgüsündə iştirakı vəziyyətinin adətən ən gözə çarpan göstəricisi xarici ticarətdir. Azərbaycan kimi müstəqillik əldə etmiş ölkələrin xarici ticarətinin səmərəliliyinin (onların ixrac etdikləri məhsulların istehsalı və satışı xərclərinin əldə edilən valyuta gəlirlərinə nisbəti) təhlili göstərir ki, həmin əməliyyatlar beləölkələr üçün əhəmiyyətli dərəcədə sərfəlidir. Bu onunla əlaqədardır ki, onlar öz məhsullarını dünya bazarlarında beynəlmiləl dəyərlər əsasında formalaşan qiymətlərlə reallaşdırırlar. Bu dəyərlər isə adətən həmin ölkələrin milli dəyərlərindən aşağı olur. Lakin bu ölkələr xaricdən aldığı məhsulları da milli dəyərlərdən aşağı olan beynəlmiləl dəyərlər əsasında formalaşan qiymətlərlə əldə edirlər. Dünya qiymətlərinin səviyyəsi bu ölkələrin ixracatında, xüsusən bu ixracatda xammal üstünlük təşkil etdiyi hallarda səmərəliliyi təmin etməyə bilir. Bununla yanaşı, həmin ölkələr əgər texnologiyanı özləri istehsal etsəydilər, bu onlar üçün çox baha başa gələrdi. Ona görə də, həmin ölkələr istehsalın yeni texnika, texnologiya və informasiya vasitələri ilə yeniləşdirilməsi üçün xaricdən onları sərfəli qiymətlərlə idxal edirlər. Bu isə inkişaf üçün böyük perspektivlər açır.

Əsrin son onilliyində SSRİ-nin dağılması ilə dünyanın yeni siyasi xəritəsindəözünə layiqli yer tutmuş müstəqil Azərbaycan dünya birliyinin bərabərhüquqlu üzvü olmuşdur. Kəskin mübarizə şəraitində əldə edilmiş siyasi müstəqillik ölkənin sovet dövründə 70 il ərzində yığılıb qalmış ciddi siyasi, iqtisadi və sosial problemlərinin həlli yolunda geniş perspektivlər açmışdır. Sovet «dəmir pərdələri» ilə uzun illər boyu dünya birliyindən siyasi

və iqtisadi cəhətdən təcrid olunmuş Azərbaycanda açıq cəmiyyət yaradılması, dünya dövlətləri ilə bərabərhüquqlu hərtərəfli əlaqələrin inkişaf etdirilməsi ölkəmizdə mövcud olan sosial-iqtisadi problemlərin həlli yolunda, sözün əsl mənasında, açar rolunu oynayır. Özünün üçrəngli bayrağında əksini tapmış müasirləşmə ideyası və istəyi, bir ideya və istək kimi qalmayıb, həm də gələcəyə doğru böyük bir hərəkatın rəmzidir, Azərbaycan cəmiyyətinin mühüm fərqləndirici xüsusiyyətlərindən biridir. Bu hərəkat Azərbaycanın ictimai inkişafının bütün istiqamətlərində (siyasi, iqtisadi, mənəvi) bariz şəkildə görünməkdədir. Ümumdünya İqtisadi Forumunun 1995-ci ildə Londonda (29-30 noyabr) təşkil etdiyi «Azərbaycan investisiya imkanları» adlı Beynəlxalq Sərgi və Konfransda Ümummilli lider H. Əliyev qeyd etmişdir: «Bizim strateji kursumuz dünya iqtisadi birliyi ilə sıx inteqrasiya edən, bazar iqtisadiyyatına əsaslanan, müstəqil, demokratik hüquqi dövlət qurmaqdır. Buna uyğun olaraq biz artıq konkret nəticələr vermiş olan genişmiqyaslı siyasi və iqtisadi islahatlar həyata keçiririk».

Azərbaycan bir çox həyati əhəmiyyət kəsb edən siyasi və iqtisadi məsələlər baxımından dünyanın yaxın və uzaq, böyük və kiçik dövlətlərinin, beynəlxalq və regional təşkilatların diqqətini özünə cəlb edən təbii bir məkandır. İki qitənin qovşağında və mühüm strateji əhəmiyyətli ərazidə yerləşən respublikamızda dünyanın nəhəng dövlətlərinin mənafeləri toqquşur, onlar arasında nüfuz dairəsi uğrunda dərin rəqabət mübarizəsi gedir. Belə bir şəraitdə siyasi istiqlaliyyət əldə edilməsi, inzibati-amirlik sistemindən bazar iqtisadiyyatı sisteminə keçilməsi uzun müddət xarici aləmlə mövcud olmuş köhnə əlaqələr sisteminə yenidən baxılması və bərabərhüquqlu, qarşılıqlı faydalı münasibətlərin yaradılması üçün mühüm zəmin təşkil etdi. Kommunist imperiyasının süqutu böyük bir ərazidə geosiyasi vəziyyəti kökündən dəyişdirərək, Azərbaycanın beynəlxalq aləmdə müstəqil subyekt kimi yer tutması, qloballaşma şəraitində xarici əlaqələrinin səmərəliliyinin artırılması və intensivləşdirilməsi, beynəlxalq əmək bölgüsünün üstünlüklərindən respublikanın mənafeyinə uyğun olaraq istifadə edilməsi üçün geniş perspektivlər açdı.

İqtisadi və ictimai həyatın beynəlmiləlləşməsi, Azərbaycanın ağır şərtlər altında gedən müasir dünya ilə inteqrasiyasının bütün istiqamətləri yeni imkanlar yaratmaqla yanaşı, yeni problemlər, bəzən də təhlükələr yaratmaqdadır. Bu imkanlardan səmərəli istifadə edilməsi, mövcud problem və təhlükələrin vaxtında aşkara çıxarılması bu gün Azərbaycan üçün həyati əhəmiyyət kəsb edən məsələlərdəndir. Bu zaman qarşılıqlı vəhdət şəklində olan: 1. Müstəqil modern dövlət aparatının yaradılması və təkmilləşdirilərək inkişaf etdirilməsi; 2. Onun bazası əsasında demokratik proseslərin və radikal bazar islahatlarının reallaşdırılması kimi iki çətin problem həll edilir.

Lakin dünya dövlətlərinin minilliklərdə əks olunmuş tarixi təcrübəsi göstərir ki, hər bir xalqın gələcəyi əhəmiyyətli dərəcədə həmin xalqın malik olduğu imkanları, zamanın tələblərini düzgün qiymətləndirməyi bacaran, uzaqgörən, müstəqil dövlətçilik konsepsiyasını formalaşdıran və reallaşdıran xarizmatik liderlərin adı ilə bağlıdır. Xüsusən, indiki mürəkkəb bir dövrdə bəşər cəmiyyətində yaranmış olan yeni inkişaf meyllərini dərindən bilən, onları vaxtında nəzərə alan, qarşısına qoyduğu ideallara doğru xalqı arxasınca apara bilən liderləri olan ölkələr tarixin sınağından uğurla çıxmağı bacarırlar. Belə liderlər xalqların indiki və gələcək yaşayış fəlsəfəsini formalaşdırırlar.

Bəşəri inkişafın dönüş nöqtəsini təşkil edən müasir dövrdə tale Azərbaycan xalqına çağdaş və müstəqil dövlətçilik fəlsəfəsini milli irs və təfəkkür bazası əsasında formalaşdırmış və reallaşdırmış Heydər Əliyev dühasını və onun layiqli davamçısı olan qlobal düşüncəli, vətənsevər İlham Əliyev zəkasını bəxş etmişdir.

Məlum olduğu kimi, mürəkkəb və çoxtərəfli sistemə malik olan beynəlxalq iqtisadi və maliyyə mühiti daim hərəkətdə, təkamüldə olan bir sistemdir. Bu dinamikliyin hərəkətverici qüvvəsini dünyada yeni istehlak sahələrinin açılması, istehsal sferasında yeni texnoloji əlaqələrin və onun beynəlxalq tənzimlənməsinin daim yenilənməsi, maliyyə innovasiyaları təşkil edir.Azərbaycan iqtisadiyyatının qlobal iqtisadi proseslərə intensiv inteqrasiya etdiyi, xarici maliyyə və ticarət əlaqələrinin liberallaşdırıldığı və yenidən qurulduğu bir şəraitdə həyat elm və praktika qarşısında yeni-yeni vəzifələr qoyur.

Xalqın çağırışına səs verəcək dövlət müstəqilliyinin mövcudluğunun qorunub saxlanılması və ölkənin sosial-iqtisadi inkisafının sürətləndirilməsi məsuliyyətini öz üzərinə götürmuş ümummilli lider Heydər Əliyev qarşıda duran tarixi vəzifələri aydın şəkildə dərk edirdi. O, 1993-cü il oktyabr ayında ölkə Prezidenti kimi ilk dəfə and içərkən tam əminliklə qeyd edirdi: ”Vəzifə dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlı faydalı əlaqələr yaratmaq və inkişaf etdirməkdən, bu əlaqələrdən həm Azərbaycan Respublikasının beynəlxalq mövqelərini möhkəmləndirmək üçün, həm də respublikanın iqtisadiyyatını, elmini, mədəniyyətini inkişaf etdirmək üçün istifadə etməkdən ibarətdir ”.

Ulu öndər Heydər Əliyevin müdrikliyi, dünyada gedən mürəkkəb prosesləri dərindən bilmək, Azərbaycan xalqının mənafeyi üçün onlardan məharətlə istifadə etmək qabiliyyəti doğma vətənimizi tarixin ağır sınaqlarından uğurla çıxararaq XXI əsrdə dinamik inkisaf etməsi üçün möhkəm zəmin yaratdı.

“Odlar yurdu” adlanan doğma yurdumuzun, 2003-cü ildən sonrakı inkisaf tarixi layiqli varis İlham Əliyevin rəhbərliyi ilə tarixi səlnamələrə yazılmağa başlanmışdır.Cənab İlham Əliyev 2003-cü il oktyabrın 31-də

keçirilmiş andiçmə mərasimində qeyd edirdi:“Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün, ən başlıcası, ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərkən, Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacagam, hec vaxt bu yoldan dönməyəcəyəm”.

Yeni tarixi şəraitdə Heydər Əliyev ideyalarının uğurla həyata keçirilməsində, ölkənin sürətli sosial-iqtisadi inkisafının təmin olunmasında, dünya standartlarına yaxınlaşdırılmasında İlham Əliyevin malik olduğu fenomenal səxsiyyəti mühüm rol oynayır. 1 oktyabr 2003-cü il tarixində onun şəxsi keyfiyyətləri haqqında Azərbaycan xalqına müraciətində Ulu öndər Heydər Əliyev belə yazırdı: “O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir”. Ümummilli liderimiz bütün digər məsələlərdə olduğu kimi, Azərbaycan xalqının gələcək taleyi ilə bağlı olan varislik məsələsində də böyük uzaqgörənlik göstərdi. Bu müdrikliyi Azərbaycanın bugünü və sabahı aydın şəkildə nümayiş etdirir, dünyanın siyasi, elmi və ictimai xadimləri öz çıxışlarında xüsusi vurğulayırlar. “Microsoft” Şirkətinin Baş vitse-prezidenti Kreyd Mandin İlham Əliyev ilə görüşdən sonra belə demişdir: “Cənab İlham Əliyev qlobal baxışlara malik liderdir.O, enerjinin inkişafina söykənən cəmiyyətdən, biliyə arxalanan cəmiyyətə keçməyi fikirləşir”.

İlham Əliyev sovet təhsil sisteminin yüksək zirvələrində yetişmişdir. Sovet cəmiyyəti müasir ictimai-siyasi fikirlərin ölkəyə daxil olmasının qarşısını alan “dəmir pərdələrlə” əhatə olunduğu bir vaxtda onun ali təhsili və praktik fəaliyyətinin ilkin mərhələsi xariclə bilavasitə təmasda olan, müasir bilikləri sovet təbliğat maşınının “emalından” keçməmiş əldə edən elmi elitasının əhatəsində keçmişdir.

Onun üçün ən böyuk məktəb isə Heydər Əliyev məktəbi olmuşdur. İlham Əliyev dərin dövlətçilik konsepsiyasını, təkmil idarəçilik bacarığını, müasir cəmiyyətin inkisaf meyllərini dərindən bilən liderlik keyfiyyətini məhz həmin məktəbdə mənimsəmişdir. Onun bu keyfiyyətləri - ARDNŞ-nin birinci vitse-prezidenti, Milli olimpiya komitəsinin prezidenti, YAP sədrinin birinci müavini, Milli Məclisin deputatı və ölkəmizin Avropa Şurası Parlament Assambleyasında təmsil edən nümayəndə heyətinin rəhbəri və həmin yüksək qurumun rəhbərliyində təmsil olunan qlobal ictimai-siyasi, iqtisadi mühitdə daha da təkmilləşmiş, onu müasir peşəkar siyasətçiyə çevirmişdir.

Tükənməz enerji və dərin biliklər xəzinəsinə malik olan İlham Əliyev öz imkanlarını Azərbaycanın müasir tarixində yeni dövrün əsasını qoymuş olan 15 oktyabr 2003-cü il Prezident seçkilərindən sonra Azərbaycan xalqının işıqlı gələcəyi naminə uğurla reallaşdırmağa başlamışdır.“Əsl siyasət konkret, real iş görməkdən ibarətdir” prinsipini əsas götürən cənab İlham Əliyev başçılıq etdiyi dövlətin qarşısında duran əsas problemləri, prioritet vəzifələri aydın təsəvvür edir: “Azərbaycanın qarşısında çox üfüqlər açılır, çox gözəl

perspektivlər var. Biz bilirik ki, haraya gedirik, məqsədimiz nədir. Məqsədimiz müasir güclü dövlət yaratmaqdır. İqtisadi cəhətdən güclü dövlət yaratmaq, sosial rifah cəmiyyəti qurmaqdır. İnsanları narahat edən bütün məsələləri həll etmək, azad cəmiyyət yaratmaqdır ki, insanlar rahat, gözəl, rifah içində yaşasınlar.Mənim məqsədim budur və bu məqsədə doğru biz uğurla gedirik.O,bütün dövlət aparatını qarşıya qoyduğu vəzifələrin reallaşdırılmasına doğru yönəldir, konkret və məqsədyönlü dövlət proqramları hazırlayır və reallaşdırılması üçün genişmiqyaslı təşkilatçılıq tədbirləri həyata keçirir.İqtisadi potensialın ildən ilə güclənməsi, əhalinin maddi həyat şəraitinin yaxşılaşması, iqtisadi-siyasi islahatların aparılması Azərbaycanın gələcəyinə hesablanan məqsədyönlü dövlət proqramlarının ana xəttini təşkil edir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev vurğulayır ki, "Biz bölgədə aparıcı dövlətə çevrilmişik.Bu, artıq reallıqdır.Reallıq hamı tərəfindən qəbul olunub. Bizim qərarlarımız, bizim işlərimiz bütün bölgəyə öz təsirini göstərir.Biz də istəyirik ki, Azərbaycan daha da qüdrətli dövlətə çevrilsin".

II FƏSİL
BAZAR İQTİSADİYYATINA KEÇİDİN START ŞƏRTLƏRİ

2.1. Keçid səbəblərdən başlayır

“Xalq qəzeti”, 19 mart 1992-ci il.

Bazar iqtisadiyyatı kimi olduqca mürəkkəb, çoxcəhətli, mövcud şəraitə uyğun münasibət və diqqət tələb edən bir prosesin mexanizmini, eləcə də konkret məqamda spesifik xüsusiyyətlərini, qarşıya çıxacaq problemlərin köklərini bilmədən bu sahədə az-çox müvəffəqiyyət qazanmaq, böhrandan qurtulmaq mümkün deyil.Söhbətimizi bazarın həmin tələblərinə istiqamətləndirməyimiz də bununla bağlıdır.Doğrudur, Azərbaycan bazarın inkişafı üçün güclü potensial imkanlara, zəngin yeraltı və yerüstü sərvətlərə malik nadir ölkələrdən biridir.

Respublikamızın istər mövcud təbii sərvətləri maddi nemətlərə çevirən, istərsə də onları mənimsəyən kifayət qədər istehsalçısı, istehlakçısı var. Bizdə hər kvadrat kilometrə 80 nəfər düşdüyü halda, dünyada 38, Avropada 67, Asiyada 71, keçmiş SSRİ-də cəmi 13 nəfər düşür.Lakin bütün bunlar keçidi tezləşdirirmi?Təəssüf ki, yox, Azərbaycanda bazarın inkişaf səviyyəsi və tutumu keçmiş ittifaqın orta göstəricilərindən xeyli aşağı olub.Adambaşına milli gəlir istehsalı orta ittifaq göstəricisinin 56 faizini, adambaşına istehlak isə 57 faizini təşkil edib.

Məlum olduğu kimi, istehsal olunan milli gəlirin heç də hamısından respublikada istifadə edilmirdi və istehsalla istifadə arasında fərq uzun müddət 2 milyard manatdan artıq olmuşdur.Hazırda Azərbaycan şərqində bazarın ən mühüm cəhətlərindən biri tələb və təklif arasında kəskin fərqin olmasıdır.Xalq təsərrüfatının baza sahələrində mərkəzin inhisarı, respublikada istehsal edilən məcmu məhsulun 40 faizinin kənara aparılması milli istehsalımızı ittifaqın xalq təsərrüfatı kompleksinin ehtiyaclarına tabe edib. Yalnız bircə misal göstərmək kifayətdir; 1940-1987-ci illərdə yüngül sənaye məhsulu cari qiymətlərlə 10,4 dəfə, yeyinti sənayesi məhsulu 17,7 dəfə artdığı halda, metallurgiya kompleksi 3.764 dəfə, neft-kimya sənayesi 381 dəfə, maşınqayırma 382 dəfə artmışdır.Şübhəsiz bu, obyektiv tələbin təsiri ilə deyil, ittifaqın təsərrüfat kompleksinin ehtiyacları ilə əlaqədar idi.Təsadüfi deyildir ki, istehsal olunmuş qara metallurgiya məhsullarının təxminən 80 faizi, kimya və neft kimyası sənayesi məhsullarının 64 faizi, maşınqayırma və yanacaq sənayesi məhsullarının 30 faizdən çoxu, bütövlükdə sənaye məhsulunun təxminən yarısı kənara göndərilib. Respublikanın öz ehtiyacları üçün deyil, ittifaqın xalq təsərrüfatı kompleksinin tələblərinə uyğun olaraq yaradılmış bu

nəhəng kompleks ittifaq bazarına bağlanıb.Qara metallurgiyada tələbatın təxminən 90 faizi, əlvan metallurgiyada tələbatın 41 faizi kənardan gətirilən mallar hesaba ödənilib.Özü də gətirilən malların çoxu hazır məhsul deyil. Məsələn, Bakı Kondisioner Elm-İstehsalat Birliyi lazım olan ehtiyaclarının 80 faizini hazır məhsul komplektləşdirici detalların 99 faizini kənardan alırdı. Başqa bir çox nəhəng istehsal birlikləri də təxminən eyni vəziyyətdə idi.

Azərbaycanda istehsal vasitələri bazarının fəaliyyətində dövlət inhisarı hakimdir.Lakin keçmiş ittifaqdan fərqli olaraq iqtisadiyyatımız dövlətin ikiqat (mərkəzin və yerli dövlət strukturunun) amirliyinə məruz qalır.Uzun müddət istehsal vasitələrinin dövriyyəsi maddi-texniki təchizat formasında həyata keçirilib.Bu isə bazar anlayışından uzaq olan bölgü sistemidir.Bütün ehtiyatlar sərbəst deyil, mərkəzləşdirilmiş qaydada təsdiq edilmiş planlar əsasında, inzibati amirlik sisteminin prinsiplərilə uyğun bölüşdürülüb.

Bu gün istehsal vasitələri bazarı başlıca olaraq dövlət bazarından ibarətdir.İstehsal vasitələri üzərində dövlət mülkiyyəti onların dövriyyəsinin də dövlətin əlində cəmləşdirilməsinə imkan yaratmışdır.Bazar iqtisadiyyatına keçid, özləşdirmə proqramının tətbiqi topdansatış ticarətin genişlənməsi istehsal vasitələri bazarında dövlət inhisarının zəifləməsi və aradan qalxması müstəqil iqtisadi vahidlərin bu sahədə rolunun artması üçün şöhrət yaradır.

İstehsalla istehlak arasında mühüm əlaqələndirici həlqə olan bazar münasibətlərində istehlak mallarının bazarı xüsusi əhəmiyyətə malikdir. İstehlak malları bazarının vəziyyəti geniş təkrar istehsal prosesinin normal gedişi üçün mühüm şərtlərdən biridir. İstehlak vasitələri bazarının vəziyyəti də bizdə təşviş doğurur.Məlum olduğu kimi, istehsal vasitələri istehsalının üstün artması haqqında müddəanın Azərbaycanda da dönmədən tətbiq edilməsi nəticəsində bu gün sənaye məhsulunun dörddə üç qədəri istehsal vasitələri istehsalından ibarətdir.Müqayisə üçün deyək ki, Türkiyədə emaledici sənaye məhsulunun yalnız 14 faizi investisiya mallarından ibarətdir, ara malları isə 42-43 faiz təşkil edir.Türkiyədə sənaye məhsulunun 43-44 faizi istehlak mallarından ibarət olduğu halda Azərbaycanda cəmi 25-26 faizdir.

Dünya təcrübəsində yeyinti məhsulları, hər şeydən əvvəl isə taxıl bazarı daxili bazarın aparıcı sahəsidir.Halbuki zəngin təbii sərvətlərə malik olan diyarımızda ərzaq məhsulları bazarının əsas xüsusiyyəti kənardan gətirilən malların böyük üstünlük təşkil etməsidir.Pərakəndə satış ticarəti vasitəsilə satılan ərzaq məhsullarının çox cüzi hissəsi yerli mənbələrdən alınır.Son dövrlərə qədər istehsal etdiyimiz yüngül sənaye məhsulunun 64,4 faizi, yeyinti məhsullarının 53,3 faizi kənara aparılırdı.

İstehlak vasitələri bazarının vəziyyətini, həmin məhsulların istehsalı və bölgüsü ilə yanaşı, əhalinin alıcılıq qabiliyyəti mühüm edir.Bazarın genişlənməsində bu sonuncu amil, əslində, həlledici rol oynayır.Axı,əhalinin alıcılıq qabiliyyəti ilə məhdudlaşan istehlak tələbatının hüdudları, hər şeydən

əvvəl, vətəndaşların fərdi gəlirlərinin səviyyəsi ilə müəyyən edilir.Qafqazda, o cümlədən Azərbaycanda həyat səviyyəsinin yüksək olması haqqında fikir yanlışdır.Faktlara müraciət edək;1988-ci ildə Azərbaycanın xalq təsərrüfatında işləyən fəhlə və qulluqçuların orta aylıq əmək haqqı SSRİ üzrə orta göstəricinin cəmi 77.3 faizini, sənayedə 83,0 faizini, kənd təsərrüfatında isə 63,1 faizini təşkil etmişdir.

Məlum həqiqətdir ki, keçmiş ittifaqda fərdi gəlirlərin məhdudluğu bu gəlirlərin başlıca olaraq istehlak məqsədlərinə sərf edilməsini şərtləndirmişdir. Statistika göstərir ki, ölkədə ailə büdcəsinin orta hesabla 78 faizi istehlak məsrəflərinə sərf edilib.Özü də ailəyə daxil olan adambaşına məcmu gəlir nə qədər az olubsa, bu göstərici o qədər yüksəlib.Məsələn, adambaşına məcmu gəlir 100 manata qədər olan ailələrdə bu həddi 81 faiz, 75 manata qədər olan ailələrdə isə 90 faizə çatıb.

Respublikada əhalinin məhdud və özünəməxsus alıcılıq qabiliyyəti ticarətin də ümumi səviyyəsini və strukturunu müəyyən etmişdir.İstehsalçılar istehlakçılar üzərində öz hökmranlığını yaratmış və uzun müddətdir ki, qoruyub saxlayır.Əhalinin alıcılıq qabiliyyəti ilə ciddi surətdə məhdudlaşmış tələb və təklif arasında uyğunsuzluq, mal çatışmazlığının kütləvi hal alması bu amirliyi şərtləndirib. Bu və ya digər məhsul növləri istehsalının mühüm hissəsinin inhisar vəziyyətində olan nəhəng müəssisələrdə cəmləşmək də bu məsələdə mühüm rol oynayır.

Bazar iqtisadiyyatının normal fəaliyyət göstərməsi üçün istehsalçının bəyənilməyən malları bazardan uzaqlaşdırmaq imkanı olmalıdır.Belə bir imkanın olmaması istehsalçıya keyfiyyətsiz məhsulları satmaq, onların qiymətini əsaslı-əsassız artırmaq üçün şərait yaradır.İstehsal ilə istehlak arasında mühüm əlaqələndirici həlqə olan ticarət isə yaranmış kütləvi mal qıtlığı şəraitində istehsala təsir göstərə bilmir.Çünki o belə bir şəraitdə "hər nə verirlərsə, götür" prinsipini əsasında işləməyə məcburdur. Əksinə, kütləvi mal qıtlığı həmin malların daha əlverişli şərait yaranana qədər ticarət anbarlarında gizlədib saxlanılmasına və möhtəkirliyin genişlənməsinə bir növ kömək edir.

Bazar iqtisadiyyatında bu və ya digər məhsulun qiymətinin artması həmin məhsula tələbin azalması ilə nəticələnir. Bu halda istehsalçı ya həmin məhsulun qiymətini aşağı salmalı, ya tələbin çox olduğu digər məhsulun istehsalı ilə məşğul olmalıdır.Lakin istehlak xərclərinin mühüm hissəsini ən zəruri tələb mallarına sərf etməyə məcbur olan Azərbaycan əhalisi çətin ki, bu mexanizm vasitəsilə istehsalçılara səmərəli təsir edə bilsin.

Bazar iqtisadiyyatının formalaşması və inkişafı üçün istehsal vasitələri bazarı və istehlak malları bazarı ilə yanaşı qiymətli kağızlar bazarının da rolu böyükdür.Lakin respublikada məcmu bazar mexanizmi içərisində bu növ bazar ən zəif inkişaf etmişdir.

Bütün bazar növləri ilə tanışlıq göstərir ki, Azərbaycanda geniş təkrar istehsalın şərtlərinin təmin edilməsində bazarın rolu olduqca məhduddur. Tədricən formalaşdırılan bazar mexanizmi iqtisadiyyatın tənzimlənməsində inzibati amirlik üsullarını ləğv etməyə, müvafiq olaraq iqtisadi təsir vasitələrinin rolunu artırmağa yönəldilməlidir.

2.2. Milli valyutamız milli qeyrətimiz olmalıdır!

"Azərbaycan" qəzeti, 2 dekabr 1992-ci il.

Öz həllini gözləyən ciddi sosial-iqtisadi problemlər içərisində pul tədavülü sahəsində yaranmış ağır vəziyyət, daha dəqiq desək, dərin pul böhranı özünü daha qabarıq şəkildə göstərir.Bu böhranın mühüm zəruri əlamətlərindən biri dünya iqtisadi ədəbiyyatına "pul aclığı" adı altında daxil olmuş nağd pul çatışmazlığıdır.Bunun varlığını bütün il boyu respublika vətəndaşları hər biri öz üzərində hiss etmişdir.Rublun düçar olduğu ağır xəstəlik özünün növbəti mərhələsinə keçdiyi üçün bu "pul aclığı" son aylar nisbətən zəifləmişdir.

Milli valyutanın olması isə respublika hökumətinə müstəqil iqtisadi siyasət yeritmək üçün geniş imkanlar verər, onun köməyi ilə respublika iqtisadiyyatı tədricən xarici amillərin mənfi təsirindən azad ola bilər.Milli valyuta daxili bazarın "rublun təcavüzündən" qorunmasında etibarlı vasitə ola bilər, başqa respublikalardan gələn möhtəkirlər axınının qarşısına sədd çəkər. Bundan başqa, böyük ümidlər bəslədiyimiz bazar iqtisadiyyatı iqtisadi ədəbiyyata həm də "pul iqtisadiyyatı" adı altında daxil olmuşdur. Bu isə iqtisadi həyatda pul siyasətinin rolunun yüksəldilməsini, yəni inzibati amirlik idarə sisteminin doğurduğu passiv pul siyasətinin aktiv pul siyasəti ilə əvəz olunmasını tələb edir.

Milli valyutanın buraxılması zəruriliyindən danışarkən digər mühüm amili - xarici amili də nəzərdən qaçırmaq olmaz. İqtisadi proseslərin gedişini az-çox izləyənlər üçün tamamilə aydındır ki, artıq keçmiş SSRİ və ya MDB ərazisində vahid rubl məkanının saxlanılması ideyası birdəfəlik iflasa uğramışdır. Keçmiş respublikalar bir-birinin ardınca rubl zonasından çıxdıqlarını elan edirlər. Tamamilə aydındır ki, rublun fəaliyyət meydanının dağılması rublun yaralarının sağalmasına xidmət edəcək.

Məsələ burasındadır ki, Rusiya hökumətinin qərarı ilə başqa respublikalar Rusiyadan o sovet rubluna mal ala bilərlər ki, həmin rubllar Rusiya bazarlarında qazanılmış olsunlar. Bir sözlə, Rusiya hökuməti rublun Rusiya və başqa respublikalar arasında sərbəst dövriyyəsi üçün məhdudiyyətlər qoyur.Bundan əlavə, rublun özünün Rusiyada da dəyişdirilməsi ehtimalı az deyildir.Nəticədə pul tədavülü üçün ən dəhşətli bir hal - panika vəziyyəti yarana bilər, rublun təcavüzü fəlakətli şəkil ala bilər.

Bir sözlə, pul tədavülü sahəsində istər respublikadan kənarda, istərsə də respublika daxilində yaranmış vəziyyət, onun dərin sosial-iqtisadi kökləri Azərbaycan dövlətini milli valyutanın buraxılması işini olduqca qısa müddətdə həyata keçirməyə məcbur edir.

Lakin nəzərə almaq lazımdır ki, hər hansı bir dövlətin beynəlxalq aləmdə və ölkə daxilində nüfuzu ciddi surətdə həmin dövlətin tədavülə buraxdığı pul sənədlərinin etibarlılığı dərəcəsindən asılıdır. Ona görə də milli müstəqilliyin mühüm atributlarından biri və hər hansı bir dövlətin iqtisadi gücünün ifadəsi olan milli valyutanın buraxılması sırf maliyyə məsələsi kimi deyil, böyük əhəmiyyətli ictimai-siyasi hadisə kimi ələ alınmalı və ciddi təşkilati-iqtisadi tədbirlər sistemi həyata keçirilməsi ilə müşayiət edilməlidir. Müstəqil iqtisadiyyatın formalaşmasının mənafeyi sovet rublunun tədavüldən çıxarılmasını və mümkün qədər tez bir zamanda milli valyuta buraxılmasını nə dərəcədə zəruri edirsə, eyni dərəcədə də tələb edir ki, valyuta yüksək dərəcədə etibarlı olsun.

Lakin qəribə bir təzadlı vəziyyət yaranmışdır. Milli valyutanın sabitliyi və etibarlılığının təmin olunmasından söhbət gedəndə istər iqtidar, istərsə də müxalifət çox vaxt bütün diqqəti məsələnin yalnız bir tərəfinə -buraxılan milli pulun qızıl-valyuta təminatına yönəldir.

Hər kəs üçün aydındır ki, yeni buraxılan pulun qızıl-valyuta təminatı nə qədər yüksək olarsa, bir o qədər yaxşıdır. Lakin qızıl-valyuta ehtiyatının əhəmiyyətini zərrə qədər də azaltmadan qeyd etmək lazımdır ki, bu ehtiyatlar milli valyutanın sabitliyi və etibarlılığı təmin etmək üçün heç də yeganə vasitə deyildir.Bu ehtiyatların son məqsədi "qara gündə" gərəkliyidir. Lakin işləri elə qurmaq olar ki, bu qara gün heç gəlib çıxmaz.Azərbaycanın xarici iqtisadi əlaqələrinin uzun müddətdir ki, müsbət qalıq verməsi (ixracın idxaldan xeyli artıq olması) də bu məsələdə müəyyən təskinlik verir.

Biz burada milli valyuta buraxılması ilə əlaqədar iqtisadi tədbirlər kompleksi hazırlanarkən nəzərə alınması vacib olan yalnız bir neçə səciyyəvi cəhəti qeyd etməyi lazım bilirik.

Hər şeydən əvvəl, nəzərə almaq lazımdır ki, bu gün özünü göstərən pul böhranı 70 il ərzində israfçı iqtisadiyyatın hökm sürdüyü böyük bir imperiyanın dağılması ərəfəsində yaranmış dərin sosial-iqtisadi böhranın mühüm tərkib hissəsidir. Pul böhranının mahiyyətini düzgün qiymətləndirmək üçün həm də nəzərə almaq lazımdır ki, mövcud iqtisadi böhranın mühüm səciyyəvi cəhəti var: bu böhran dərsliklərdə göstərildiyi kimi ifrat istehsal böhranı deyil, kütləvi surətdə özünü göstərən məhsul qıtlığı böhranının törəməsidir. Ona görə də milli valyutanın sabitliyinin qorunmasının başlıca şərti ona etibarlı əmtəə təminatı yaradılmasıdır.

Uzun müddət tələb edən bu proses təbiidir ki, mərhələ-mərhələ həyata keçirilməlidir. Bunun üçün isə hər şeydən əvvəl, maddi nemətlər istehsalı,

mübadiləsi və bölgüsü prosesində özünü göstərən və əhalinin güzəranında qabarıq şəkildə hiss edilən qeyri-normal dəyişikliklər aradan qaldırılmalı, tənəzzülün qarşısı alınmalıdır.Milli bazarın formalaşdırılması məqsədilə kompleksli tədbirlər sistemi hazırlanmalı və onların etibarlı şəkildə həyata keçirilməsi mexanizmi yaradılmalıdır.Bu zaman tədavülə buraxılan pul kütləsi ilə tədavüldəki mal kütləsi arasındakı elastikliyin təmin edilməsi daim diqqət mərkəzində olmalıdır.

Milli valyuta buraxılarkən nəzərdən qaçırmaq olmaz ki, mövcud pul tədavülü kanalları tıxaclarla dolmuş və əsaslı müalicəyə böyük ehtiyacı vardır. Çünki həmin kanallarla hansı valyutanın getməsindən asılı olmayaraq yaranmış tıxaclar aşkara çıxarılıb təmizlənməlidir. Dövriyyədən çıxan pulların dövriyyəyə qayıtmaması, onların böyük hissəsinin kommersiya strukturlarında əmanətlərin nağd pula çevrilməsindəki min bir çətinlik və s. pul dövriyyəsi kanallarında özünü göstərən xəstəliklərin yalnız bir hissəsidir. Bunların hamısının müalicəsi haqqında indidən düşünülməlidir.

Milli valyutanın daxili məzənnəsinin (daxili alıcılıq qabiliyyətinin) qorunmasının əsasını respublika daxilində maliyyə müvazinətinin yaradılması təşkil edir.Büdcə kəsrinin artımının dayandırılması, tədricən azaldılması və minimuma endirilməsi manatın daxili məzənnəsinin qorunmasında çox mühüm şərtdir.İstər büdcə kəsirlərinin ləğv edilməsi, istərsə də iqtisadiyyatımızın müstəqil inkişafı perspektivli maliyyə mexanizmini tamamilə yeni prinsiplər əsasında təşkil olunmasını tələb edir. Maliyyə sisteminin ictimai həyatda oynadığı rol əsaslı şəkildə yenidən nəzərdən keçirilməli və inzibati-amirlik sisteminin yaratdığı passiv maliyyə siyasətindən aktiv maliyyə siyasətinə keçilməlidir. Bu zaman sivilizasiyalı dünyanın, ilk növbədə isə bizə daha çox yaxın olan Türkiyənin zəngin təcrübəsi əsas götürülməli və Azərbaycan şəraitinə uyğunlaşdırılmalıdır.Maliyyə islahatının mühüm istiqamətlərindən biri dövlət büdcəsinin etibarlı gəlir mənbələri ilə təmin edilməsi olmalıdır. Yeni yaradılan kommersiya strukturlarının gəlirlərinin və digər yeni gəlir mənbələrinin mövcud dünya təcrübəsi əsasında vergiyə cəlb edilməsi istər iqtisadi inkişafa təkan verilməsi, istərsə də büdcə kəsirinin ləğv edilməsi baxımından olduqca vacibdir.Büdcə kəsirinin səmərəli şəkildə ixtisar edilməsinin mühüm mənbəyi şişirdilmiş bürokratik dövlət idarə aparatının sadələşdirilərək yenidən qurulmasıdır.Hər hansı bir mafioz strukturun mənafeyinə uyğun olaraq yaradılmış və iqtisadi mexanizmin işləməsinə mane olan saysız-hesabsız nazirlik, baş idarə və digər bürokratik təşkilatlar üzərində cərrahiyyə əməliyyatı aparılmazsa, nə iqtisadiyyatın sağlamlaşdırılmasından, nə də büdcə kəsirinin ləğv edilməsindən söhbət gedə bilməz.

Milli valyutanın xarici məzənnəsinin (xarici alıcılıq qabiliyyətinin) qorunması xarici iqtisadi əlaqələr мexanizminin köklü şəkildə yenidən qurulmasından və onun ardıcıl olaraq milli mənafeyə tabe edilməsi gedişindən asılıdır.

Olduqca ağır iqtisadi şəraitdə buraxılan milli valyutanın aqibəti əhəmiyyətli dərəcədə onu buraxan Milli Bankın gücündən asılıdır.Rəqabətə davamlı valyutanı yalnız güclü potensiala malik bank buraxa bilər.Ona görə də çalışmaq lazımdır ki, Milli Bank valyutamızın daxili və xarici dəyərini qoruya bilsin və müstəqil pul siyasəti yeritmək qabiliyyətinə malik olsun. Pul vahidinin daxili və xarici məzənnəsini nəzarət altında saxlamaq və onu tənzim etmək üçün dövri olaraq topdan satış və pərakəndə satış qiymətlər indeksləri tərtib edilməlidir. Pulun xarici məzənnəsi üçün olduqca böyük əhəmiyyətə malik olan xarici iqtisadi əlaqələr sistemini tənzimləmək üçün isə tədiyyə və xarici ticarət balansları tərtib edilməlidir.

İstiqlaliyyət əldə etmiş ölkələrdə milli valyuta buraxılarkən ən çətin problemlərdən biri - yeni valyuta ilə imperiyada mövcud olan valyuta arasında qarşılıqlı münasibətlərdir. Rubl ilə manatın nə qədər paralel işləməsi, onların bir-birinə dəyişdirilməsi şərtləri və s. bu qəbildəndir.

Azərbaycanın üzv olduğu Beynəlxalq Valyuta Fondunun işləyib hazırladığı qaydaya görə istiqlaliyyət qazanmış ölkələr öz valyutalarının məzənnəsini qızıla və dollara görə müəyyən etməlidirlər.Azərbaycanın da bu qaydanı tətbiq etməsi milli valyutamızın sağlam əsaslara dayanmasına xidmət edər.

Nəhayət, hər bir ölkədə dəyişməyən milli ideallar vardır: torpaq bütövlüyü, millətin seçdiyi dövlət forması, milli ordu və s.Bu ideallar arasında milli valyuta özünəməxsus yer tutur. Bu idealların qorunmasında bütün millət bir yumruq kimi birləşməlidir.Milli valyuta milli qeyrətimiz olmalı və onun möhkəmlənməsi üçün iqtidar da, müxalifət də əlindən gələni əsirgəməməlidir.

2.3. Prezidentin Fərmanı xarici iqtisadi əlaqələr sahəsində uzunmüddətli dövlət strategiyasını müəyyənləşdirir

"Azərbaycan" qəzeti, 29 iyun 1994-cü il.

Xarici İqtisadi Əlaqələr Nazirliyi həm ixrac etmək, həm də ixrac etdiyi məhsullara lisenziya vermək, kontraktları ekspertizadan keçirmək hüququndan əl çəkibmi?

Hər halda biznesmenlər, təkrar ixracatla məşğul olan iş adamları lisenziya almaq üçün daha XİƏN-ə müraciət etməyəcəklər.

Azərbaycan Respublikası Prezidentinin 5 aprel 1994-cü il tarixli "Azərbaycan Respublikasında xarici ticarətin sərbəstləşdirilməsi haqqında" Fərmanına uyğun olaraq xarici iqtisadi əməliyyatların tənzimlənməsi mexanizminin təkmilləşdirilməsi, respublikanın ixracat potensialından səmərəli istifadə olunması və xaricə məhsul satışında hüquqi şəxslərin fəaliyyətinin sərbəstləşdirilməsini təmin etmək məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabineti Qərar qəbul edib.

Bazar iqtisadiyyatının formalaşdığı şəraitdə respublikanın ixracat potensialından istifadənin səmərəliliyini artırmağın, xarici ticarətdə qarşılıqlı hesablaşmalar sistemini möhkəmləndirməyin və daxili bazarın qorunmasını gücləndirməyin bu gün əvvəlkindən daha vacib olduğunu deməyə, bizcə, ehtiyac yoxdur.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin xarici iqtisadi əlaqələr şöbəsinin müdiri Dünyamalı VƏLİYEVDƏN Prezidentimizin Fərmanını və bununla bağlı hökumətin qəbul etdiyi qərarı şərh etməyi xahiş etdik. D.Vəliyev əvvəlcə dedi:

- Müstəqillik qazandıqdan sonra məmləkətimiz özünün tamamilə yeni xarici iqtisadi əlaqələr və beynəlxalq işgüzar əməkdaşlıq sistemini yaradır.

Respublikamızda uzun illər boyu dünya təsərrüfatı sistemi ilə mövcud olmuş əlaqələr sistemi artıq heç kəsi qane etmir və bu əlaqələr tamamilə yeni prinsiplər əsasında qurulmalıdır. Şübhəsiz, bu prinsiplərin əsasını milli dövlətçiliyimizin və bazar iqtisadiyyatının yaradılması zərurəti təşkil edir. Prezidentin Fərmanı xarici iqtisadi əlaqələr sahəsində uzun müddətli dövlət strategiyasını müəyyənləşdirir.Burada xarici iqtisadi əlaqələr mexanizminə kompleks şəkildə baxılır.Sənəddə bir neçə problem xüsusilə önəmlidir.Birincisi, xarici bazarla əlaqələr mexanizminin tənzimlənməsidir.Xarici ticarətin tənzimlənməsi barədə isə mətbuatda müxtəlif rəylər çap olunmaqdadır.

Digər mühüm problem valyuta sahəsindədir.Yəni manatın dönərliliyinin təmin olunması, Vahid Valyuta Fondunun valyuta ayırmalarının tənzimlənməsi mexanizmidir.

Gömrük sahəsində qayda-qanunun möhkəmləndirilməsi, gömrük yoxlamalarının sadələşdirilməsi də az önəmli məsələ deyil.Bu sahədə mövcud nöqsanları aradan qaldırmaq əsas qayğılardan olmalıdır.

- Ancaq çox əfsuslar olsun ki, xarici ticarətin tənzimlənməsi sahəsində ötən illər ərzində elə bir ciddi dönüş yaranmamışdır, - deyənlər də az deyil.

- Elədir.Prezidentimiz fərmanı ilə Nazirlər Kabinetinə tapşırmışdır ki, xarici ticarətin təşkili haqqında əsasnamə hazırlasın və təsdiq etsin.2 iyun 1994-cü ildə Nazirlər Kabineti "Azərbaycan Respublikasında xarici ticarətin təşkili haqqında" qərar qəbul etdi və həmin qərarla da xarici ticarətin təşkili haqqında əsasnaməni təsdiqlədi.

Həm Prezidentimizin Fərmanının, həm də Nazirlər Kabinetinin Qərarının əsas məqsədi xarici ticarət sahəsində liberallaşdırmanı həyata keçirməkdir.

Bir məsələni də xüsusilə vurğulamaq istərdim. Liberallaşma anlayışına da birtərəfli baxmaq olmaz.Xarici ticarət subyektlərinin yenidən formalaşmağa başladığı bir dövrdə onların beynəlxalq ticarət sahəsində yeni-yeni təcrübə qazanmağa başladığı bir anda liberallaşma anlayışı mexanizmini tam mənası ilə birdən-birə tətbiq etmək o qədər də asan deyil. Ona doğru addım-addım getmək lazımdır.

Bu mənada, Nazirlər Kabinetinin Qərarı Azərbaycanda xarici ticarətin bütün əsas növlərini, bütöv şəkildə tənzimləyən ilk vahid bir sənəddir. Bu vaxta qədər xarici ticarətdə qaranlıq qalan bir çox problemlərə aydınlıq gətirilmişdir.

Qərarda dövlət sifarişi ilə malların ixracı qaydaları, əmtəə birjalarında satış yolu ilə ixracat, kreditə ixracat, təkrar ixracat, konsesiya yolu ilə ixracat, barter əməliyyatları və s. ixracat növlərinin qaydaları müəyyənləşdirilib.

Son vaxtlar xarici iqtisadi əlaqələr sahəsində Xarici İqtisadi Əlaqələr Nazirliyi bir çox məsələlərdə inhisarçı rolunu oynayırdı.Və bu nazirlik ona görə nəhəng bürokratik bir aparata çevrilmişdi.

- Yəqin elə ona görə də nazirlikdəki vəziyyət xarici iqtisadi əlaqələrin iştirakçılarının haqlı narazılığına səbəb olurdu.

- Elədir.Qüvvədə olan qaydaya görə, Azərbaycan Respublikasının əsas ixracat malları strateji məhsullar siyahısına daxil edilmişdi və onların ixracı yalnız Xarici İqtisadi Əlaqələr Nazirliyi tərəfindən aparıla bilərdi.Şübhəsiz, həmin nazirliyin iqtisadi-texniki imkanları buna yol vermirdi.Üstəlik, istehsalçıların ixracatın artmasına olan marağını azaldırdı.Belə bir paradoksal hal yaranmışdı ki, Xarici İqtisadi Əlaqələr Nazirliyi həm özü ixrac edirdi, həm ixrac etdiyi məhsula lisenziya verirdi, həm də bağladığı kontraktları ekspertizadan keçirirdi.

Prezidentin haqqında danışdığımız Fərmanı və hökumətin Qərarı ilə strateji əhəmiyyətli malların respublikadan bütün hüquqi şəxslər tərəfindən qərarla müəyyən edilmiş qaydada aparılmasına icazə verilir. Fərmanla xarici-iqtisadi əlaqələr sahəsində bürokratik ölkələrə də son qoyulur.

- Dünyamalı müəllim, gəlin açıq danışaq: haqqında danışdığımız nazirlikdə ayrı-ayrı məhsullara lisenziya verilməsi ilə bağlı mətbuatda, lap elə camaat arasında da birmənalı fikir söylənilmir.

- Elə bütün bunları nəzərə alaraq xarici iqtisadi əlaqələri sadələşdirmək məqsədilə lisenziyalaşdırma əsasında ixrac olunan malların siyahısı ciddi surətdə məhdudlaşdırılır.

Əgər əvvəllər bütün strateji məhsullar lisenziyalaşdırma əsasında həyata keçirilirdisə, bu ildən yalnız Prezidentin Fərmanına 1 nömrəli əlavədə göstərilən və sərbəst dönərli valyutaya satılan məhsullara lisenziya verilir. Onu da nəzərə almaq lazımdır ki, həmin siyahıda göstərilən hər hansı bir strateji məhsulun (Prezident Fərmanı ilə təsdiq edilmiş) yalnız sərbəst dönərli valyutaya satışının minimum hədləri üçün lisenziya verilir.

- Öz strateji mövqeyinə görə respublikamız üçün böyük əhəmiyyət daşıyan təkrar ixrac əməliyyatları lisenziyalaşdırmadan tamam azad edilirmi?

- Bu sualınıza hökumətin Qərarında aydın və düzgün cavab verilib. Artıq biznesmenlər təkrar ixracla məşğul olan iş adamları, özəl strukturlarda çalışanlar lisenziya almaq üçün Xarici İqtisadi Əlaqələr Nazirliyinə müraciət

etməyəcəklər. Onlar birbaşa Dövlət Gömrük Komitəsinə müraciət etməklə öz sənədlərini qaydaya salacaqlar.

Daxili bazarı qorumaq üçün iş adamları müvəqqəti olaraq yalnız bir neçə məhsul növü üzrə Nazirlər Kabinetinin razılığını alacaqlar.

- Xarici ticarətlə məşğul olan müəssisələrə də tam sərbəstlik verilməsi vaxtının çoxdan çatdığını, yəqin siz də etiraf edərsiniz.

- Əvvəla, onu deyim ki, müəssisələrin istehsal etdikləri məhsullar iki hissədən ibarətdir.Dövlət sifarişi əsasında istehsal olunan məhsul, bir də dövlət sifarişinə daxil olmayan və ya əlavə istehsal olunan məhsullar.Məhsul növlərinə görə isə bunların nisbəti müxtəlifdir.Ancaq bir qayda olaraq Nazirlər Kabinetinin 26 yanvar 1994-cü il 24 nömrəli Qərarına əsasən dövlət sifarişinin yuxarı həddi birliklərin, müəssisələrin və təşkilatların istehsal proqramlarının 70 faizinin (strateji cəhətdən ən mühüm məhsullarının ayrı-ayrı növləri istisna olunmaqla) təşkil edir və dövlət sifarişi üzrə məhsul (iş, xidmət) istehsalı və göndərilməsi həmin qərarla müəyyən edilmiş qaydada həyata keçirilməlidir. Göstərilən 30 faiz həcmində (bəzi məhsul növləri üzrə 70 faizə qədər) istehsalçı müəssisələr tərəfindən bir qayda olaraq tender (müsabiqə və seçmə yolu ilə) müəyyən edilmiş, əlverişli şərtlər əsasında və əmtəə birjalarında həyata keçirilir. Burada tamamilə yeni bir məsələ odur ki, əmtəə birjalarında satılan məhsullar üçün lisenziya tələb edilmir.Birjaların verdikləri sertifikatlar məhsulu ixrac etmək üçün əsas təşkil edir.

Oxucuların nəzərinə onu da çatdırım ki, dövlətin xarici ticarət strategiyasının əsas istiqamətinin xarici ticarət sövdələrinin mahiyyətinə mümkün qədər az müdaxilə etmək və bu sahədə müəssisələrə sərbəstlik vermək təşkil edir. İlk addım olaraq özəl strukturların xarici ticarət sahəsində bağladıqları müqavilələri Xarici İqtisadi Əlaqələr Nazirliyində ekspertizadan keçməsi ləğv edilmişdir.Özəl müəssisələr həm idxal, həm də ixrac zamanı gömrük orqanlarına müraciət edəcəklər.

- Kütləvi informasiya orqanlarında, habelə camaat arasında filankəsin filan xarici bankda filan qədər pulu, dolları var, - deyə söz-söhbətlər az getməyib. Elə isə yaxşı olar ki, xarici ticarətdə hesablaşma qaydaları barədə oxuculara bir qədər ətraflı məlumat verəsiniz.

- Sərvətlərimizin qonşu dövlətlərə daşınması haqqında çox söz-söhbət gedir.Əvvəla, xalqımızın bir gözəl məsəlini xatırlatmaq istəyirəm: - Qapı-bacanı möhkəm bağla ki, qonşunu oğru görməyəsən.

Bütün bunları nəzərə alaraq xarici ticarətdə hesablaşmaların aşağıdakı yeni qaydaları müəyyən edilmişdir.Respublikada istehsal olunan məhsulun sərbəst dönərli valyutaya satılan yalnız onların haqlarının qabaqcadan ödənilməsi, yaxud geri çağırılmayan akkreditiv açılması yolu ilə həyata keçirilir.Üstəlik, hüquqi şəxslər tərəfindən sərbəst dönərli valyutaya satılan malların respublikadan çıxarılmasına Azərbaycan Respublikası Dövlət Göm-

rük Komitəsi tərəfindən, yalnız onların haqqının ödənildiyi, yaxud akkreditiv açıldığı barədə müvəkkil bankların qeydiyyatı olduqda icazə verilir.

Müstəsna hallarda göndərilən malın dəyərinin mal alan təşkilata kreditor borcu olan respublika təşkilatı tərəfindən ancaq müqavilədə göstərilən valyuta ilə ödənilməsinə Azərbaycan Respublikası Nazirlər Kabineti icazə verə bilər.

Bununla belə o da unudulmamalıdır ki, dövlət müəssisə və təşkilatları tərəfindən xarici ölkələrdən mal alınmasına və xidmət göstərilməsinə görə haqqın qabaqcadan ödənişinə yol verilmir. Bu əməliyyatların yerinə yetirilməsində akkreditiv forması tətbiq olunur. İdxal əməliyyatları zamanı pulun qabaqcadan ödənişi müstəsna hallarda Azərbaycan Respublikası Nazirlər Kabinetinin icazəsi ilə həyata keçirilə bilər.

Nazirlər Kabinetinin icazəsi ilə əvvəlcədən ödənilmiş pula görə idxal olunan malların gətirilməsinin maksimum müddəti 30 gündür.

Göstərilən qaydaların icra olunmasına nəzarət Dövlət Gömrük Komitəsinə, Xarici İqtisadi Əlaqələr Nazirliyinə və müvafiq müvəkkil banklara həvalə olunmuşdur.

- Xarici iqtisadi ədaqələrdən danışarkən gömrük sisteminin rolunu qeyd etməmək olmaz.Həqiqətən, xarici ticarətdə sərbəstləşdirmə ilə və müvafiq olaraq XİƏN-in rolunun azaldılması ilə əlaqədar olaraq gömrük orqanlarının üzərinə böyük məsuliyyət düşür.Açıq deyək: bu sahədəki süründürməçilikdən, narazılıqlardan, digər neqativ hallardan danışanlar da az deyil.

- Elə bunun qarşısını almaq məqsədilə prezidentimizin tapşırığına uyğun olaraq hazırlanmış hökumət qərarında ciddi tədbirlər nəzərdə tutulmuşdur. Hər şeydən əvvəl, süründürməçiliyə yol verməmək üçün ixrac və idxal əməliyyatların aparılması zamanı gömrük orqanlarına təqdim ediləsi tələb olunan sənədlərin siyahısı müəyyənləşdirilmişdir. Belə bir qayda müəyyən olunmuşdur ki, ixrac və idxal əməliyyatları üzrə tələb olunan sənədlər təqdim olunduqdan sonra gömrük orqanları həmin sənədləri rəsmiləşdirib, 24 saat ərzində malların buraxılmasını təmin etməlidirlər.Üstəlik, onu da oxucuların nəzərinə çatdırım ki, ixrac və idxal əməliyyatları üzrə tələb olunan sənədlər rəsmiləşdirildikdə gömrük orqanları qiymət ekspertizası aparmırlar.Belə hesab edirəm ki, ölkə Prezidentinin Fərmanı və onun tapşırığı ilə hökumətin hazırladığı Qərar xarici ticarətin təşkilində dönüş yaradacaq və onun daha da inkişaf etdirilməsinə güclü təkan verəcəkdir.

Söhbətləşdi:Tofiq Əbdülhəsənli, "Azərbaycan" qəzetinin müxbiri

2.4. Azərbaycanda müstəqil xarici iqtisadi fəaliyyət mexanizminin formalaşması

“Sosial bilgilər”, 2001, № 3.

XX əsrin son onilliyində siyasi isliqlaliyyətini bərpa etmiş (18 oktyabr 1991-ci il) Azərbaycan Respublikasının iqtisadi inkişafı üç mühüm tarixi prosesin dinamik vəhdəti əsasında təkamül edir:

1.Siyasi istiqlaliyyəti təmin edən müstəqil iqtisadi inkişaf mexanizminin yaradılması və möhkəmləndirilməsi;

2.Sovet rejimindən miras qalmış inzibati amirlik sisteminin ardıcıl olaraq aradan qaldırılması və istehsalın səmərəliliyinin qarantı olan bazar iqtisadiyyatı mexanizminin formalaşdırılması və inkişaf etdirilməsi;

3.Sovet rejiminin digər mirası - qapalı iqtisadi sistemin açıq iqtisadiyyat inkişaf modeli ilə əvəz olunması, dünya bazarı ilə hərtərəfli və səmərəli iqtisadi inteqrasiya etmək üçün mükəmməl xarici iqtasadi fəaliyyət mexanizminin yaradılması.

Müasir dövrün mühüm fərqləndirici xüsusiyyəti - məhsuldar qüvvələrin və istehsalın getdikcə qloballaşması nəticəsində dünya təsərrüfatı sisteminin bütün həlqələrinin bir-birindən qarşılıqlı əlaqə və asılılığının daha da dərinləşməsi bütün postsovet respublikalarının qapalı iqtisadi sistemdən imtina edərək, açıq iqtisadi inkişaf modelinə keçməsini şərtləndirmişdir. Çünki, son onillikdə milli iqtisadi mexanizmlərin bir-birinə bağlılığı o qədər güclənmişdir ki, dünya təsərrüfatı sistemində gedən proseslər tamamilə yeni məzmun kəsb etmişdir.Elmi-texniki və texnoloji tərəqqi şəraitində baş verən təsərrüfat həyatının sürətlə qloballaşması prosesi istehsalın artıq dünya miqyasında səmərəliliyinin mühüm amilinə çevrilmişdir.

Qlobal təsərrüfat sisteminin bərabərhüquqlu subyekti kimi dünya bazarında uğurla fəaliyyət göstərmənin çıxış nöqtəsi təbiətin Azərbaycana bəxş etdiyi zəngin təbii sərvətlər üzərində milli hegemonluğun bərpası və tədricən möhkəmləndirilməsi oldu.

Məlum olduğu kimi, bazar iqtisadiyyatının sərt qanunları ilə idarə olunan dünya bazarı daim hərəkətdə olan mürəkkəb və dinamik bir sistemdir. İstehlakçı zövqünün çevik dəyişkənliyi nəticəsində istehsalçıların yeni texnika və texnologiyaya, innovasiyaya olan tələbinin durmadan artması, kapital və işçi qüvvəsinin beynəlxalq hərəkatı, tələb və təklif mexanizminin təsiri altında qiymətlərin müntəzəm olaraq qeyri-sabitlik göstərməsi, dünya ölkələrində valyuta məzənnələrinin sərbəst dəyişən sistemlə idarə edilməsi bu dinamikliyin əsasını təşkil edir.Çevik dəyişən və daim hərəkətdə olan bu sistemə yeni qoşulmağa başlayan hər bir ölkə bu sistemin nəhəngləri olan

postsənaye ölkələri və onların təmsilçiləri transmilli şirkətlərlə (TMŞ) kəskin rəqabətə daim hazır olmalıdır.

Nəzərə almaq lazımdır ki, Azərbaycan qlobal təsərrüfata "kiçik miqyaslı ölkə" modeli ilə, maddi istehsalın strukturu deformasiyaya uğramış şəkildə daxil olur; onun təkrar istehsal prosesində hasilat sənayesi üstünlük təşkil edir, kənd təsərrüfatı, yüngül və yeyinti sənayesi zəif inkişaf etmişdir. Bu deformasiya və amillər xarici iqtisadi əlaqələrin xarakterinə həlledici təsir göstərir.

Qlobal təsərrüfat sistemində gedən sərt rəqabətə uyğunlaşmanın və qarşılıqlı faydalılıq prinsipi əsasında iştirak etməyin vacib şərtini müasir biliklər əsasında müstəqil xarici iqtisadi siyasət strategiyasının hazırlanaraq həyata keçirilməsi təşkil edir.

Başqa sözlə, xarici dünya ilə qarşılıqlı əlaqələrdə elə bir strateji kurs işlənib hazırlanmalıdır ki, bu kurs Azərbaycanın dünya bazarında uzun müddət formalaşmış zəif mövqeyini tədricən yaxşılaşdıra bilsin və ölkəmizə mənfi təsir göstərən xarici iqtisadi amilləri aşağı səviyyəyə endirə bilsin.

Tarixin keyfiyyətcə yeni bir mərhələyə daxil olduğu - qloballaşma dövründə dünya bazarı ilə intensiv inteqrasiya edən gənc respublikamızda xarici iqtisadi fəaliyyət sahəsində strateji kursun hazırlanaraq həyata keçirilməsi üçün müstəqil xarici iqtisadi fəaliyyət sisteminin yaradılması və durmadan təkmilləşdirilməsi müstəsna əhəmiyyətə malikdir.

Məlum olduğu kimi, xarici iqtisadi fəaliyyət sistemi çoxprofilli struktur olmaqla bu sistemdə xarici iqtisadi əlaqələr daha geniş spektrda öz əksini tapır və xarici elementə malik daxili iqtisadi fəaliyyəti də əhatə edir.Bu sistem inkişaf etmiş sənaye ölkələrində uzun tarixi dövr ərzində formalaşıb inkişaf etmişdirsə, həyat onun Azərbaycanda çox qısa zaman çərçivəsində yaradılmasını və modernləşdirilməsini bütün kəskinliyi ilə tələb edir.Sovet dövlətinin mövcud olduğu 70 il ərzində ölkəmizdə xarici iqtisadi fəaliyyət üzərində dövlət inhisarı,yəni xarici iqtisadi əlaqələrin bütün növü üzərində mərkəzi dövlətin müstəsna hüququ mövcud olmuşdur.Mərkəzi dövlət öz inhisar hüququnu yaratmış olduğu xüsusi statuslu orqanlar vasitəsilə həyata keçirirdi.

Belə ki, xarici ticarət əməliyyatları yalnız SSRİ Xarici Ticarət Nazirliyi (sonralar - Xarici İqtisadi Əlaqələr Nazirliyi), habelə onun sahə idxal - ixrac Birlikləri tərəfindən, beynəlxalq hesablaşmalar isə mərkəzləşdirilmiş qaydada SSRİ Xarici İqtisadi Bankı (Vneşekonombank SSSR) vasitəsilə aparılırdı.

Siyasi istiqlaliyyət əldə edilməsi xarici aləmdə mövcud olmuş köhnə əlaqələr sisteminə yenidən baxılması və bərabərhüquqlu, qarşılıqlı-faydalı münasibətlərin yaradılması üçün yollar axtarılmasında dönüş nöqtəsi oldu. Kommunist imperiyasının süqutu böyük bir ərazidə geopolitik vəziyyəti kökündən dəyişdirərək Azərbaycanın zəngin təbii sərvətlərinin milli mənafeyə yönəldilməsi, özü-özünü təmin edən təsərrüfat mexanizminin yaradılması, beynəlxalq əlaqələrin səmərəliliyinin artırılması və intensivləşdirilməsi,

beynəlxalq əmək bölgüsünün üstünlüklərindən respublikanın mənafeyinə uyğun olaraq istifadə edilməsi üçün əlverişli şərait yaratdı.

Əvvəlcə, MDB-yə daxil olmaqdan imtina edilməsi, sonra isə bu yeni birliklə olan qarşılıqlı əlaqələr kompleksinə yenidən baxılması, Respublikanın müstəqilliyinə xələl gətirən bir çox tədbirlərdən imtina edilməsi, rubl zonasından çıxılması və yeganə ödəmə vasitəsi kimi milli valyutanın tədavülə buraxılması Azərbaycanın beynəlxalq əlaqələrinin yeni prinsiplər əsasında yenidən qurulması işində tarixi addımlardır.

Müstəqil xarici iqtisadi fəaliyyət mexanizminin yaradılması 90-cı illərin əvvəllərində Azərbaycanda baş vermiş aşağıdakı ciddi siyasi, hərbi, iqtisadi və sosial problemlər və sarsıntılar zəminində həyata keçirilmişdir:

1. Sovet imperiyasının dağılması ilə köhnə dövlət mexanizmi sürətlə iflasa uğramış və müstəqil, prinsipcə tamamilə yeni dövlət aparatının yaradılması prosesi başlanmışdır;

2. Azərbaycanın dövlət müstəqilliyinə hər vasitə ilə mane olmağa çalışan imperiya qüvvələri ölkəmizə qarşı bir çox ciddi siyasi, hərbi və iqtisadi təzyiq vasitələrindən istifadə etmişlər.Qondarma "Qarabağ" məsələsi ortaya atılmış, Ermənistanın Azərbaycana qarşı birbaşa hərbi təcavüzü təşkil olunmuş və nəticədə torpaqlarımızm 20%-i işğal olunmuşdur. Ermənistandan və Azərbaycanın işğal olunmuş torpaqlarından bir milyondan çox həmvətənimizin qaçqın vəziyyətinə salınması ölkəmizin ictimai-iqtisadi həyatını iflic vəziyyətinə salmışdır.İmperiya qüvvələri etnik zəmində yeni münaqişə (Qondarma Talış-Muğan respublikası, "Sadval" hərəkatı kimi) ocaqları yaradır, daxili siyasi çəkişmələri qızışdırır və onlardan ölkəmizi diz çökdürmək məqsədilə məharətlə istifadə etməyə çalışırdılar.Ölkəmizin mövcud iqtisadi problemlərinə dərindən bələd olan həmin qüvvələr iqtisadi təzyiq vasitələrindən geniş istifadə edir, gənc respublikaya qarşı sərt iqtisadi blokada rejimi tətbiq edir, ənənəvi bazarların yollarını onun üzünə bağlayırdı. İqtisadi blokada üçün maliyyə-pul amilləri geniş istifadə edilmiş, tədavülə yeni buraxılmış manatın rubla dönərliliyində və respublikalararası mal dövriyyəsində hesablaşmalar üçün saysız-hesabsız əngəllər yaradılmışdır.70 il ərzində Azərbaycanı xariclə bağlayan nəqliyyat dəhlizinin əsasən şimala doğru istiqamətlənmiş olması da ölkəmizin iqtisadi blokadaya alınması üçün "əlverişli" şərait yaratmışdır.

3. İnzibati amirlik üsulları ilə idarə olunan iqtisadi sistemin bazar iqtisadiyyatı prinsiplərinə əsaslanan iqtisadi mexanizm ilə əvəz olunması kimi tarixdə analoqu olmayan bir prosesin ləng getməsi (müharibə vəziyyəti və daxili qeyri-sabitliklə əlaqədar olaraq və digər obyektiv və subyektiv amillər) ölkədə dərin sosial iqtisadi böhran meydana gətirmişdir.Belə bir vəziyyətdə dövlətin başlıca diqqəti ölkə əhalisinin, sözün əsl mənasında, aclıqdan xilas

edilməsi və yeni xarici iqtisadi əlaqələr mexanizminin yaradılması məqsədinə yönəldilirdi.

4. 70 il ərzində SSRİ-nin yeritdiyi müstəmləkəçilik siyasəti nəticəsində ölkə iqtisadiyyatının eybəcər iqtisadi strukturu, onun sənaye mərkəzləri üçün aqrar xammal bazası şəklində formalaşması, rəqabət qabiliyyətli məhsul istehsalının yox dərəcəsində olması dünya bazarı ilə inteqrasiya prosesində ciddi problemlər yaradırdı.Avropa Komissiyasının TASIS proqramı ekspertləri də belə hesab edirlər ki, "ümumittifaq əmək bölgüsü" prinsipi əsasında sovet hakimiyyəti illərində respublikada yaradılan iqtisadi potensialdan tam və səmərəli istifadə etmək mümkün deyildi. "Belə ki, bu prinsip sənaye məhsullarının 85-90%-nin, kənd təsərrüfatı məhsullarının isə 30-35%-nin xammal, yarımfabrikat və s. dəstləyici məmulatlar şəklində Azərbaycandan digər Respublikalara daşınmasını nəzərdə tuturdu.Bunun nəticəsində də istehsalın səviyyəsi xeyli aşağı düşdü, ənənəvi bazarlar itirildi, işçilərin kütləvi surətdə işdən azad edilməsi başladı, onlarla müəssisələr öz fəaliyyətini dayandırdılar"[1].Əhalinin ən dəyərli istehlak mallarına olan tələbatının milli istehsal hesabına ödənilməsinin qeyri mümkünlüyü ölkənin xaricdən asılılığını daha da artırdı;

5. Rubl zonasından çıxılması və manatın dövriyyəyə buraxılması ilə əlaqədar özünü göstərən obyektiv və subyetiv çətinliklər, pul-kredit və xarici iqtisadı siyasətdəki ciddi nöqsanlar, ölkənin həyatı üçün tamamilə yeni olan hiperinflyasiya makro-iqtisadi tarazlığı pozur, sosial sarsıntıları dərinləşdirir və "Azərbaycanı xarici investorlar üçün cəlbedici olmayan ölkələr sırasına qoyurdu".[2]

6. Güclü totalitar rejimin birdən-birə süqutu ilə dövlətçilik sahəsində meydana gəlmiş müvəqqəti boşluq, həmin rejimdə əslində "sahibsiz" olan saysız-hesabsız dövlət mülkiyyətinin daha da "sahibsizləşməsi" və ya yerli məmurların özbaşınalığı nəticəsində keçmişdən miras alınan korrupsiyanın daha da çiçəklənməsinə yol açmışdır.Avropa Komissiyasının ekspertləri haqlı olaraq qeyd edirdilər: "Xarici ticarət fəaliyyəti sahəsində təcrübənin, həmçinin zəruri təşkilati-hüquqi bazanın olmaması ona gətirib çıxardı ki, müəssisələr, xüsusilə də, yeni əmələ gəlmiş bazar strukturları bir qayda olaraq yüz milyonlarla dollarlıq neft məhsullarını, pambıq və başqa məhsul növlərini şəxsi mənfəətlərinə qurban edərək dünya qiymətləri səviyyəsindən xeyli aşağı qiymətlərlə ixrac edirdilər.Bunun nəticəsində də Azərbaycana nəinki çox böyük maddi zərər dəymiş, həm də qazanılan valyuta vəsaitlərinin əksər hissəsi xarici bazarlarda toplanmışdır.Yuxarıda qeyd edilənlər, habelə digər

[1] "Azərbaycanın iqtisadi icmalı". Rüblük bülleten. İyul-sentyabr, 2000, s. 83-84.
[2] Yenə orada, s. 84.

obyektiv və subyekliv səbəblər iqtisadiyyatın və əhalinin həyat səviyyəsinin görülməmiş dərəcədə aşağı düşməsinə gətirib çıxardı".[3]

Müstəqil dövlət mexanizminin formalaşması və onların köklü iqtisadi islahatların mühüm tərkib hissəsi kimi Azərbaycanın xarici iqtisadi əlaqələr sisteminin yaranması və inkişafını bir-biri ilə daxili məntiqi əlaqəyə malik olan iki mühüm mərhələyə bölmək mümkündür.

1. Mövcud ictimai-iqtisadi sistemin sürətlə dağılması ilə cəmiyyətdə yaranmış şok vəziyyətinin və yeni sistem axtarışlarının mövcud olduğunu və bu sistemin formalaşmasının izafi məsrəflərinin özünü göstərdiyi 1992-1993-cü illər.Bu dövrdə iqtisadi, o cümlədən xarici iqtisadi əlaqələr sahəsində nəzərdə tutulmuş islahatların hüquqi bazası formalaşdırılmasına cəhd göstərilmiş, lakin dövləti idarə edənlərin səriştəsizliyi bunu başa çatdırmaga imkan verməmişdir

2. Daxili siyasi çəkişmələrə son qoyulması, ilk müstəqil Konstitusiyanın qəbul edilməsi, islahatların ilkin mərhələsinin başa çatması ilə siyasi və iqtisadi həyatda sabitliyin getdikcə möhkəmlənməyə başlandığı 1994-ci ildən sonrakı dövr.Bu dövrdə xarici iqtisadi əlaqələr sisteminin yaradılması prosesi də yeni mərhələyə qədəm qoyurdu.

20 sentyabr 1994-cü ildə Transmilli korporasiyalar ilə "Əsrin müqaviləsi" imzalanmışdır. "Bu müqavilə bütün dünyaya Azərbaycanın müstəqil dövlət olduğunu bəyan etməklə yanaşı, beynəlxalq iqtisadi güc mərkəzlərinin nəzər-diqqətini ölkəyə cəlb edilməsi, respublikanın dünya iqtisadiyyatına inteqrasiyası yönümündə çox güclü təsirə malik bir təkan idi".[4]

12 may 1994-cü ildə atəşkəs haqqında Ermənistanla müqavilənin imzalanması da Azərbaycanın bütün qüvvə ilə müstəqil xarici iqtisadi fəaliyyətinin genişləndirilməsinə başlaması üçün yol açdı.

Məlum olduğu kimi, xarici iqtisadi əlaqələrin əsas istiqamətləri xarici ticarət, beynəlxalq kapital və maliyyə hərəkəti, texniki-iqtisadi və elmi texniki əməkdaşlıq və s.- dir.

Azərbaycanın siyasi istiqlaliyyət əldə etməsi bütün bu əsas istiqamətlərdə müstəqil və modern xarici iqtisadi qurumlar yaradılmağa başlamasına imkan verdi.Az bir müddət içərisində müvafiq sahədə dövlət siyasətini həyata keçirmək məqsədilə Xarici İqtisadi Əlaqələr Nazirliyi, İnvestisiyalar üzrə dövlət komitəsi və Dövlət Gömrük Komitəsi yaradıldı. Xarici iqtisadi əlaqələr sahəsində islahatlar müstəqillik əldə edildikdən sonra dönmədən həyata keçirilən bazar iqtisadiyyatı mexanizminin yaradılmasına yönəldilmiş köklü islahatların tərkib hissəsi və mühüm istiqamətlərindən biridir.Görülən tədbirlər nəticəsində xarici iqtisadi və valyuta əməliyyatlarının aparılması

[3] "Azərbaycanın iqtisadi icmalı". Rüblük bülleten. İyul-sentyabr, 2000, s. 84.
[4] Yenə orada.

üzərində mövcud olan dövlət inhisarı ləğv edildi və xarici iqtisadi fəaliyyət sahəsində liberallaşdırılma aparılmağa başlandı.Lakin total əmtəə çatışmazlığı, daxili bazarda və pul tədavülündə mövcud olan disproporsiyalar, yeni yaradılan milli pul vahidi manatın dönərlilik mexanizminin olmaması və real məzənnəsinin formalaşmaması, bazar qiymətlərinin reallığı əks etdirməməsi və xüsusilə, daxili qiymətlərlə dünya bazarı qiymətləri arasında ciddi fərq xarici iqtisadi fəaliyyət sahəsində liberallaşmanın aparılmasına əngəl törədir və bu fəaliyyətin dövlət tərəfindən tənzimlənməsi sisteminin müəyyən dərəcədə saxlanılmasına səbəb olurdu. Əhalinin minimum istehlak tələbatını dövlət kanalları ilə xaricdən gətirilən mallar hesabına ödənilməsi məqsədilə dövlət SSRİ-dən miras qalmış ziyanlı bir sistemi- mərkəzləşdirilmiş valyuta fondunu 90-cı illərin ortalarına qədər saxlamaq məcburiyyəti qarşısında qaldı.

Strateji malların ixracı sahəsində dövlət tənzimləmələrinin həyata keçirilməsi üçün lisenziyalaşdırma və kvotalaşdırma sistemindən istifadə edilirdi.Mərkəzləşdirilmiş valyuta fondu hesabına ilkin tələbat malları başlıca olaraq dövlət təşkilatları vasitəsilə həyata keçirilirdi.

İnvestisiyalar üzrə Dövlət komitəsi yaradılsa da, əslində, kağız üzərində qaldı və xarici investisiya və kreditlər bir neçə bürokratik dövlət orqanları tərəfindən tənzimlənirdi. Bütün bu boşluqlar strateji malların ixracında, ilkin tələbat mallarının dövlət kanalları ilə idxalında, gömrük işinin təşkilində, xarici investisiyaların ölkəyə cəlb olunmasında korrupsiyaya geniş yol açmaqla yanaşı yerli və xarici sahibkarlığın inkişafı yolunda ciddi maneçilik törədildi.

Bütün bunlar xarici iqtisadi əlaqələr kompleksində aparılan islahatların sürətləndirilməsini tələb edirdi.Əvvəlcə, investisiyalar üzrə Dövlət Komitəsi ləğv edildi.

90-cı illərin ortalarında bu sahədə struktur islahatları sürətləndi, Xarici İqtisadi Əlaqələr və Ticarət Nazirlikləri ləğv edildilər.

Onların funksiyaları 1997-ci ildə yaradılan Ticarət Nazirliyinə verildi. Həmin nazirliyə təsdiq olunmuş nomenklatura üzrə malların idxalı və ixracı planlarının hazırlanması və yerinə yetirilməsi funksiyası verilmişdir.Dövlət maddi-texniki ehtiyatlar komitəsi də ləğv edilərək əvəzinə "Azkontrakt" Dövlət İdarəsi yaradıldı.Həmin idarənin funksiyasına büdcə vəsaiti hesabına olan kontraktların bağlanması və yerinə yetirilməsi daxil edilmişdir.Xarici investisiya və yardımların tənzimlənməsi məqsədilə Nazirlər Kabineti yanında Xarici Kredit və Yardımlar üzrə Milli agentlik təsis edildi.Bunlardan başqa Ticarət-Sənaye Palatasında təşkilati-kadr dəyişiklikləri aparıldı.Xarici İqtisadi Əlaqələr Nazirliyinin tərkibində olan "Azərticarət", "Şərq xarici ticarət" və "Azərinkomves" yeniləşdirilərək səhmdar cəmiyyətlərə çevrildilər.

Xarici iqtisadi əlaqələr sisteminin normal və dinamik fəaliyyətinin təşkilində gömrük mexanizminin rolu olduqca böyükdür.Bu sahədə də Azərbaycanda 70 il ərzində mərkəzi dövlətin inhisarı mövcud olmuşdur.

Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi müstəqillik bərpa olunduqdan dərhal sonra yaradılsa da, onun fəaliyyətinin normal təşkili üçün müvafiq hüquqi baza yox idi.Respublikamızda gömrük nəzarətinin sərhəd boyu bütün mal və kapital hərəkətini tam şəkildə əhatə edə bilməsi üçün bir-neçə il vaxt tələb olundu.Təsadüfi deyildir ki, islahatların ilkin mərhələsində Azərbaycan dövlət gömrük orqanları sisteminin və müstəqil gömrük siyasə-tinin formalaşmasına xüsusi diqqət verirdi.Çoxsaylı qanun və hökumət qərar-ları ilə idarə olunan gömrük orqanlarının fəaliyyəti 1997-ci ildə Milli Məclis tərəfindən qəbul edilmiş Gömrük məcəlləsi ilə tənzimlənməyə başladı[5]. Rusiya təcrübəsi əsasında hazırlanmış olsa da, həmin məcəllə respub-likamızda gömrük işinin təşkilinin dünya standartlarına yaxınlaşdırılması yolunda ciddi addım oldu.

Azərbaycan dövləti iqtisadi inkişaf strategiyasına uyğun olaraq daxili və xarici siyasətin tərkib hissəsi kimi gömrük siyasətini həyata keçirir.Gömrük siyasətinin məqsədi gömrük məcəlləsində aşağıdakı kimi müəyyən edilmişdir:

- Azərbaycan Respublikasının gömrük nəzarəti və mal dövriyyəsinin tənzimlənməsi vasitələrindən daha səmərəli istifadənin təmin edilməsi;
- Azərbaycanda daxili bazarın qorunması;
- Milli iqtisadiyyatın inkişafının təşviq edilməsi;
-Azərbaycan dövlətinin iqtisadi siyasətindən irəli gələn vəzifələrin yerinə yetirilməsinə kömək edilməsi.

Ölkəmizin gömrük siyasəti gömrük sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsinə yönəldilmişdir. Respublikamızda gömrük işi təkmil-ləşməyə böyük ehtiyacı olmaqla hamılıqla qəbul edilmiş beynəlxalq norma və təcrübə ilə uyğunlaşdırma və eyniləşdirmə istiqamətində inkişaf etdirilir.

Məcəllədə Respublikada gömrük orqanlarının funksiyaları aşağıdakı-ların yerinə yetirilməsinə yönəldilmişdir:

- ölkəmizin gömrük siyasətinin işlənib hazırlanması və yerinə yetirilməsini həyata keçirir;
- bu sahədəki qanunvericilik aktlarına nəzarət edir; gömrük işini həyata keçirərkən idarə, müəssisə, təşkilat və fiziki şəxslərin, həmçinin sahibkarların hüquq və mənafelərinin müdafiəsi üzrə tədbirlər görürlər;
- öz səlahiyyətləri daxilində respublikamızın iqtisadi təhlükəsizliyini təmin edirlər;
- ölkəmizin iqtisadi mənafeyini qoruyurlar;
- ticarət-iqtisadi münasibətlərdə gömrük tənzimlənməsi vasitələrini tətbiq edirlər;
- gömrük rüsumları, vergi və digər ödənişləri alırlar;
- gömrük sərhəddindən keçirilən mallar barədə iqtisadi siyasət təd-birlərinin işlənib hazırlanmasında iştirak edir və bu tədbirləri həyata keçirirlər;

- gömrük işi sahəsində cinayətlərlə mübarizə aparırlar, narkotik vasitələrin, silahın, millətimizin bədii, tarixi və arxeoloji sərvəti olan əşyaların gömrük sərhədindən qanunsuz keçirilməsinin qarşısını almağa çalışırlar; beynəlxalq terrorçuluqla mübarizəyə köməklik göstərirlər;

- gömrük nəzarətini və gömrük rəsmiləşdirilməsini həyata keçirir və təkmilləşdirir;

- xarici iqtisadi fəaliyyətin gömrük statistikasını və mal nomenklaturasını aparır; idarə, müəssisə, təşkilat və fiziki şəxslərin xarici iqtisadi əlaqələrinin inkişafına kömək edirlər;

- Dövlətin təhlükəsizliyinin, ictimai asayişin, əhalinin mənəviyyatının, insanların həyat və sağlamlığının, heyvan və bitkilərin, ətraf mühitin qorunması, gətirilən malların istehlakçıların mənafeyinin mühafizəsi sahəsində tədbirlər həyata keçirilməsinə kömək edirlər;

- Valyuta nəzarətini həyata keçirirlər;

- Respublikanın gömrük işinə aid beynəlxalq öhdəliklərinin yerinə yetirilməsini təmin edir; gömrük işi ilə əlaqədar beynəlxalq müqavilələrin işlənib hazırlanmasnda iştirak edir; xarici dövlətlərin gömrük işinə aid məsələlərlə məşğul olan gömrük və başqa səlahiyyətli orqanlar ilə, beynəlxalq təşkilatlarla əməkdaşlıq edirlər;

- Gömrük işi sahəsində elmi-tədqiqat işi aparır və məsləhətlər verirlər; dövlət orqanları, idarələr, müəssisələr və təşkilatlar üçün bu sahədə mütəxəssislərin hazırlanmasını və onların ixtisas artımlarını həyata keçirirlər;

- Dövlətin vahid maliyyə-təsərrüfat siyasətinin həyata keçirilməsində iştirak edir, gömrük orqanlarının maddi-texniki bazasını inkişaf etdirir, bu orqanların işçiləri üçün lazımi əmək və sosial şərait yaradırlar.

Xarici iqtisadi əlaqələr sahəsində aparılan struktur islahatları özünün yeni mərhələsinə 2001-ci ilin birinci yarısında İqtisadi İnkişaf Nazirliyinin yaradılması ilə qədəm qoydu.Çox geniş funksiya və səlahiyyətlər verilmiş[6] həmin nazirlik, eyni zamanda Azərbaycan Respublıkasının beynəlxalq əməkdaşlığı sahəsində dövlət siyasətini formalaşdıran və həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır.11iyun 2001-ci il tarixli Prezident Fərmanı ilə təsdiq edilmiş Əsasnaməyə əsasən Nazirlik beynəlxalq əməkdaşlıq sahəsində aşağıdakı çoxprofilli funksiyaları həyata keçirir:

- Xaricı iqtisadi fəaliyyət sahəsinin vəziyyətini araşdırır və inkişafının proqram göstəricilərini hazırlayır;

- Nəqliyyat, mallarının tranziti, habelə xarici ticarət daşımalarının hüququ, tarif və digər tədbirləri sahəsində beynəlxalq müqavilələri hazırlayır, razılaşdırılması və həyata keçirilməsində iştirak edır;

[6] "Azərbaycan" qəzeti, 13 iyun, 2001.

- Azərbaycan mallarının və xidmətlərin xarici bazarlara çıxarılması, ixracat həcminin artırılması üçün əlverişli şəraitin yaradılması, ölkə iqtisadiyyatının dünya iqtisadiyyatına səmərəli inteqrasiya olunmasını təmin etmək üçün tədbirlər hazırlayır və həyata keçirir;

- Sənaye, ticarət və ictimai iaşə təşkilatlarında mövcud norma və qaydaları dövlət tərəfindən tənzimlənən qiymətlərə, malların (qiymətli metallardan və qiymətli, yarımqiymətli daş-qaşlardan və onlardan hazırlanmış məmulatlar istisna olmaqla) keyfiyyət və təhlükəsizliyinə riayət edilməsinə nəzarət edir;

- Daxili və xarici ticarət ilə bağlı elmi tədqiqatların aparılmasını təşkil edir, o cümlədən xarici iqtisadi fəaliyyət iştirakçılarını zəruri elmi-texniki, iqtisadi, hüquq informasiya ilə təmin edir, xarici iqtisadi fəaliyyət məsələləri üzrə informasiya sistemlərini və baza göstəricilərini yaradır;

- Dünya mal və xidmət bazarlarının konyunktrunu təhlil edir;

- Xarici ticarət fəaliyyətinin qeyri-tarif tənzimləmə tədbirlərini müəyən edilmiş qaydada tətbiq edir, o cümlədən qanunvericiliklə nəzərdə tutulmuş hallar müəyyən edilmiş qaydada ixrac və idxal üzrə əməliyyatların həyata keçirilməsi üçün lisenziyalar verir.Azərbaycan Respublikasının gömrük ərazisindən mal çıxarılması zəruri olduqda və bu müvafiq müqavilələrdə (sazişlərdə), normativ hüquqi aktlara və ya Azərbaycan Respublikasının beynəlxalq müqavilələrində (sazişlərində) nəzərdə tutulduqda malın mənşəyi haqqında sertifikat verir;

- Azərbaycan Respublikasında daxili bazarın qorunması üzrə müvafiq tədbirlər işləyib hazırlayır;

- Ticarətdə rüsum və vergilərin dərəcələri ilə bağlı təkliflər verir.

- Xarici dövlətlərdə, eləcə də beynəlxalq iqtisadi və ticarət təşkilatları yanında Azərbaycan Respublikasının ticarət-iqtisadi nümayəndəliklərini qanunvericilik müəyyən edilmiş qaydada yaradır və onların operativ fəaliyyətinə rəhbərliyi həyata keçirir;

- Ümumdünya Ticarət Təşkilatı və digər beynəlxalq iqtisadi təşkilatlarla əməkdaşlığı təşkil edir, onların keçirdiyi tədbirlərdə Azərbaycan Respublikasını təmsil edir;

- Azərbaycan Respublikasının üzv olduğu beynəlxalq iqtisadi və maliyyə təşkilatları ilə mütəmadi əsasda işgüzar əlaqələr yaradır, onların maliyyə vəsaitlərinin ölkənin iqtisadiyyatına cəlb olunması üçün məqsədyönlü iş aparır;

- Xarici ölkələrin, beynəlxalq iqtisadi və maliyyə təşkilatlarının keçirdiyi tədbirlərdə iştirak edir və Azərbaycan Respublikasına investisiya qoyuluşu ilə bağlı onlarla danışıqlar aparır;

- Azərbaycan Respublikasında yerli və xarici şirkətlərin sərgilərini və yarmarkalarını, eləcə də xarici ölkələrdə Azərbaycanın təsərrüfat subyektlərinin iştirakı ilə beynəlxalq sərgiləri və yarmarkaları təşkil edir:

- İstehlak bazarını keyfiyyətsiz malların idxalından mühafizə etmək məqsədilə aidiyyəti dövlət orqanlarını cəlb etməklə müvafiq tədbirlər görür:

- Malların idxalı barədə mühafizə tədbirlərinin tətbiqinə dair təkliflərin hazırlanması məqsədi ilə tədqiqat, o cümlədən xarici dövlətlərin müvafiq orqanları ilə məsləhətləşmələr aparır və bu işin nəticələri üzrə müvafiq tədbirlər həyata keçirir;

- Malların, işlərin və xidmətlərin ixracının və idxalının tənzimlənməsi sahəsində müvəqqəti texniki tədbirlərin (standartlar, təhlükəsizlik normaları, keyfiyyətə uyğunluq sistemləri, malların qablaşdırılması qaydaları, mala qoşulan sənədlərin formaları, yükləmə qabağı inspeksiya tələbləri, ekoloji, baytarlıq, sanitar və fitosanitar normaları, milli təhlükəsizliyin təmin olunması tədbirləri, malların, işlərin və xidmətlərin göstərilən normalara uyğunluğunun təmin edilməsi metodları) tətbiqi məqsədi ilə digər mərkəzi icra hakimiyyəti orqanları ilə qarşılıqlı fəaliyyət göstərir;

-Ticarət sahəsində Azərbaycan Respublikasına qarşı ayrı-seçkilik siyasəti yürüdən dövlətlərə qarşı müvafiq sanksiyaların tətbiq edilməsinə dair təkliflər verir;

- Qanunvericiliyə uyğun olaraq ticarət xidmətinin və ictimai iaşənin sertifikatlaşdırıması üzrə işləri təşkil edir və istiqamətləndirir;

- Sərhədyanı ərazilər və sərhədyanı ticarət qaydalarını işləyib hazırlayır və sərhədyanı bazarların yaradılması işini təşkil edir;

- Xüsusi iqdisadi rejimli bölgələrin yaradılmasına və onlarda iqtisadi fəaliyyətin tənzimlənməsinə dair təkliflər işləyib hazırlayır;

- Ölkənin ixrac potensialının inkişaf etdirilməsi, ixracatçıların maraqlarının müdafiə olunması, onların xarici bazarlara sərbəst çıxışının təmin olunması sahəsində tədbirlər görür;

- İxrac nəzarəti sahəsində vahid dövlət siyasətinin formalaşdırılması üçün təkliflər hazırlayır və onun həyata keçirilməsini təmin edir;

- Səlahiyyətləri daxilində rezidentlər tərəfindən ixraca nəzarət haqqında qanunvericiliyə riayət olunmasına nəzarəti həyata keçirir;

- Xarici iqtisadi əməliyyatlardan müəyyən olunmuş qaydada xarici valyuta vəsaitinin tam daxil olmasına nəzarət edilməsində iştirak edir;

- İnvestisiyaların cəlb edilməsi sahəsində dövlət müəssisələri və təşkilatları ilə bağlanmış kontraktların şərtlərinin icra olunmasına nəzarəti həyata keçirir;

- Qanunvericiliyə uyğun olaraq investisiya fəaliyyəti sahəsində mövcud qanunvericiliyi pozmuş hüquqi və fiziki şəxslərin fəaliyyətini dayandırır və bu barədə tədbir görülməsi üçün aidiyyəti üzrə dövlət orqanlarına məlumat verir;

- Xaricdə keçirilən investisiya yarmarkalarının işində iştirak edir və bu kimi tədbirlərin ölkədə keçirilməsini təşkil edir;

- Azərbaycan Respublikasına verilən maliyyə və texniki yardımları əlaqələndirir, xarici yardımların məqsədli və səmərəli istifadə olunmasına nəzarəti həyata keçirir;

- Ölkə iqtisadiyyatına investisiya qoyuluşu imkanları haqqında məlumat bankını yaradır,potensial investorlar arasında dövlət müəssisələrinin imkanları ilə bağlı zəruri məlumatların yaradılmasını təşkil edir;

- İnvestisiya layihələrinin hazırlanması və həyata keçirilməsi üzrə tədbirlər həyata keçirir, o cümlədən sahibkarlıq fəaliyyətinin stimullaşdırılması məqsədi ilə xüsusi əhəmiyyət kəsb edən investisiya layihələrinin icrasını təmin etmək üçün zəruri təkliflər hazırlayır;

- İnvestorların investisiya qoyuluşu ilə bağlı təkliflərinin ekspertizasını həyata keçirir;

- Xarici investorlarla birbaşa danışıqlarda Azərbaycan Respublikasını təmsil edir və ölkənin iqtisadi maraqlarını müdafiə edir;

- Azərbaycan Respublikasında investisiya mühitinin yaxşılaşdırılmasına və investisiyaların stimullaşdırılmasına dair tədbirləri həyata keçirir;

- İnvestisiya tenderlərini və beynəlxalq müsabiqə satışlarını təşkil edir;

- Qanunvericiliklə müəyyən olunmuş qaydada investisiya mübahisələrinin həll olunmasına dair müvafiq tədbirlər görür;

- Dövlət büdcəsi hesabına kapital qoyuluşunun istiqamətlərini müəyyən edir, ölkənin ayrı-ayrı bölgələrinin inkişafına dair proqramların hazırlanması və həyata keçirilməsini təmin edir;

- Azərbaycan Respublikasında xarici investisiyalı müəssisələrin uçotunu aparır, bu sahədə mövcud olan problemlərin aşkar edilməsini və aradan qaldırılmasını təmin etmək məqsədilə təhlil, tədqiq və digər zəruri tədbirlər həyata keçirir;

- Beynəlxalq maliyyə və iqtisadi təşkilatların və xarici dövlətlər tərəfindən verilən kreditlərdən istifadə məqsədi ilə investisiya layihələrinin müsabiqələrini təşkil edir və həyata keçirir;

- Qanunvericiliklə müəyyən edilmiş qaydada və Azərbaycan Respublikasının adından digər ölkələrin müvafiq orqanları ilə investisiyaların təşviqi və qarışılıqlı qorunması haqqında sazişlər imzalayır.

Beləliklə, xarici iqtisadi fəaliyyət kimi çoxtərəfli dövlət siyasətinin çoxpilləli idarə sistemindən təkpilləli idarə sisteminə keçilməsi sahəsində uzun müddətdir aparılan iş İqtisadi İnkişaf Nazirliyinin yaradılması ilə başa çatmış oldu.

2.5.Bazar iqtisadiyyati və iqtisadi təhsil

“Azərbaycan müəllimi” qəzeti, 24 dekabr 1998-ci il; 7 yanvar 1999-cu il.

Maddə 15.1. Azərbaycan Respublikasında iqtisadiyyatın inkişafı müxtəlif mülkiyyət növlərinə əsaslanaraq xalqın rifahının yüksəldilməsinə xidmət edir.

II. Azərbaycan dövləti bazar münasibətləri əsasında iqtisadiyyatın inkişafına şərait yaradır, azad sahibkarlığa təminat verir, iqtisadi münasibətlərdə inhisarçılığa və haqsız rəqabətə yol vermir.

Azərbaycan Respublikasının Konstitusiyasından.

Müstəqil Azərbaycanın ilk Konstitusiyasında qəbul edilmiş həmin tarixi müddəa ölkəmizdə 70 il ərzində mövcud olmuş mərkəzləşmiş planlı sistemdən bazar münasibətləri prinsiplərinə əsaslanan yeni iqtisadi sistemə keçilməsinin hüquqi əsasını qoymuşdur. Bu keçid ölkəmizin ərazi bütövlüyünün qorunub saxlanılması və müstəqil dövlət mexanizminin yaradılması uğrunda aparılan mübarizə ilə paralel gedir və olduqca mürəkkəb və ağır şəraitdə təkamül edir.Lakin bu keçidin ağır baza şərtləri Azərbaycan üçün həyati əhəmiyyət kəsb edən və yalnız göstərilən amillərlə müəyyən edilmir.Bu tarixi prosesin əzablı getməsi həm də onunla əlaqədardır ki, 70 il ərzində iqtisadi proseslər öz təbii axarından çıxarılmış, min illərlə cəmiyyəti idarə etmiş iqtisadi qanunlar hər şeyi dövlət idarəsinə tabe edən süni iqtisadi sistemlə əvəz olunmuş, iqtisadi həyatda təbii olaraq mövcud olan bilik, təcrübə və ənənələrin nəsildən-nəsilə ötürülməsi prosesi əslində dayandırılmış, insanların iqtisadi təşəbbüskarlığı bütün vasitələrlə boğulmuşdur. Cəmiyyət üzvlərinin ələbaxım öyrədilməsi, hər şeyi dövlətdən gözləmək ənənəsi ictimai həyatda dərin kök salmışdır.Belə bir süni iqtisadi sistem bazar iqtisadiyyatını insanların gözündən salmaqla möhkəmləndirməyə, onun “əbədiliyi”, “təbiiliyi” bütün vasitələrlə “sübut” olunmağa çalışılmışdır.Bazar iqtisadiyyatı haqqında biliklər bu uzun tarixi dövr ərzində yad və ziyanlı hesab edilərək, yalnız tənqid hədəfinə çevrilir, ona mənfi, xaos yaradan bir sistem kimi baxılırdı, insanların şüur və psixologiyasına belə də aşılanırdı.

Nəticədə, mübaliğəsiz demək mümkündür ki, digər MDB ölkələrində olduğu kimi, ölkəmizdə də bazar iqtisadiyyatının start şərtlərinin ən səciyyəvi cəhətlərindən biri insanların ona xor baxması və onun haqqında total iqtisadi savadsızlığın hökm sürməsidir.

Bazar iqtisadiyyatı şəraitində ciddi texniki-iqtisadi əsaslandırmalar və marketinq araşdırmaları tələb edən istehsalın təşkili sahəsində bilik və təcrübə çatışmazlığı ölkəmizdə uzun müddət onun iflic vəziyyətinə düşməsinin və hökm sürmüş iqtisadi tənəzzülün ciddi səbəblərindən biridir. Ölkəni borc və ödəmə böhranı bürümüşdür. Bunun mühüm səbəblərindən biri də kredit, faiz

və kommersiya fəaliyyəti haqqında kifayət qədər təsəvvürün və biliyin olmadığı halda, tez varlanmaq hərisliyi ilə iqtisadi cəhətdən əsaslandırılmadan yüksək faizlə ağır borc (çox vaxt sələm) yükünün altına girilməsi və tez bir zamanda iflas olmasıdır.Məhz total iqtisadi savadsızlığın nəticəsində "Vahid-bank", "Privat-bank" və digər maliyyə fırıldaqçıları əhalini kütləvi surətdə aldadaraq var-yoxdan çıxarmış, astronomik maliyyə vəsaiti toplamışlar. Yaxud ictimaiyyət tərəfindən çox az tanınan bir şəxs öz namizədliyini respublika Prezidenti kimi yüksək kürsüyə irəli sürərək və heç bir iqtisadi əsasları olmayan, yalançı vədlər ilə bir həftə ərzində seçicilərin rəğbətini qazanır.Yaxud başqa bir fakt: qonşu dövlətlər olan İran və Türkiyədən az miqdarda kapitala malik olan xırda iş adamları bizim vətəndaşların malik olmadığı müstəqil iş təşkil etmək təcrübəsindən istifadə edərək müəyyən iqtisadi müvəffəqiyyətlər qazanır və var-dövlət toplayırdılar.Bu səbəbdən dünya maliyyə fırıldaqçılarının diqqəti də məhz ciddi şəkildə regionumuza yönəlmişdir.Keçid prosesinin ləng və əzablı keçməsi də əhəmiyyətli dərəcədə məhz bu amillərlə əlaqədardır.

Ərazi bütövlüyünün də, dövlət müstəqilliyinin də qarantı olan güclü iqtisadiyyatın yaradılması prosesinin ağır bir şəraitdə keçməsi bu prosesin ilkin şərtlərinə xüsusi diqqət ayrılmasını, qüvvələrin bu sahəyə geniş səfərbər edilməsini təkidlə tələb edir.

Məlum olduğu kimi, iqtisadiyyat cəmiyyət həyatının bazası olmaqla öz qanunları, öz problemləri, öz ziddiyyətləri ilə onun xüsusi və mühüm bir sahəsidir.Sonsuz dram və detektivlərdən ibarət olan sərbəst bazar iqtisadiyyatı istər cəmiyyətin, istərsə də onun hər bir üzvünün həyat səviyyəsini müəyyən edir.Bu sistemdə fərdlər, ayrı-ayrı insanlar həmin sistemin təsirini öz gündəlik həyatında yalnız hiss etməklə qalmayıb, bu sistemin əsas subyektinə, aparıcı qüvvəsinə çevrilirlər.Mərkəzləşmiş planlı iqtisadiyyatdan fərqli olaraq yaratmaq istədiyimiz bazar iqtisadiyyatında iqtisadi qərarlar yalnız dövlət tərəfindən deyil, həm də fərdlər tərəfindən qəbul edilir.Fərdlər, klassik iqtisadi məktəbin banilərinin dili ilə desək, iqtisadi insana çevrilirlər.Yəni onlar dövləti, hər şeyə qadir olan "sehrli çubuq" hesab etməyərək, öz hərəkətlərini faydalılıq və mənfəətlilik prinsipi əsasında quraraq, cəmiyyətin tərəqqisini təmin edir, öz rifah səviyyəsini hər şeydən əvvəl özü yüksəltməyə çalışır.Bu isə inkişaf etmiş iqtisadi şüur, normal iqtisadi davranış qaydaları və iqtisadi etikanın mövcudluğu əsasında mümkündür. Bütün bunlar cəm halında olduqda cəmiyyəti iztirab və əzablardan qurtaran, tərəqqiyə qovuşduran ağıllı iqtisadi quruluşun formalaşması və inkişafı üçün əlverişli zəmin yaradır.

Müasir şəraitdə iqtisadi təhsil sistemi respublikamız üçün mühüm əhəmiyyət kəsb edən həmin məqsədlərə tabe edilməlidir.

İqtisadi insan istər ümumi cəmiyyət səviyyəsində, istərsə də fərdi qaydada öz işlərini maksimum səmərəlilik səviyyəsində qurması üçün kifayət qədər iqtisadi bilik və təcrübəyə malik olmalıdır.

Cəmiyyətimizdə haqlı olaraq belə bir ictimai fikir formalaşmışdır ki, sovet dövründə dəqiq və texniki sahədə elm və təhsil yüksək səviyyədə inkişaf etmiş və sosial tərəqqiyə məlum dərəcədə təkan vermişdir.Lakin belə bir fikri də biz qəbul etməyə məcburuq ki, birtərəfli olaraq marksizm-leninizm müddəalarına əsaslanan iqtisad elmi, iqtisadiyyatın təşkili və idarə olunması, müvafiq olaraq iqtisadi təhsil təcrübəsi sovet dövründəən zəif sahələrdən biri olmuş və özünü həyatda doğrultmamışdır.Sovet dövlətinin dağılmasına səbəb olan iqtisadi faciə və sarsıntılar bunu təkzib olunmaz şəkildə sübut etdi. Elm və təhsilin ən zəif sahəsini təşkil edən sovet iqtisad məktəbinin nəticələri bazar iqtisadiyyatının normal fəaliyyətinin təşkili üçün nəinki yetərli deyil, hətta onun əsas müddəaları yeni sistemin məntiqi ilə daban-dabana ziddir.

Deyilənlər belə bir nəticəyə gəlməyə imkan verir ki, ölkəmizdə bazar iqtisadiyyatının müvəffəqiyyətli təşkilinin vacib şərtlərindən biri iqtisadi təhsil sisteminin köklü surətdə yenidən qurulması və həyatın tələbləri səviyyəsinə yüksəldilməsidir.Başqa sözlə desək, bu gün normal bazar iqtisadiyyatının əsasları şagird və tələbə dövrlərində qoyulmalıdır.

İqtisadi təhsil sisteminin köklü surətdə yenidən qurulması dövlət müstəqilliyinin möhkəmləndirilməsi ilə bilavasitə əlaqədar olmaqla, ümumdövlət əhəmiyyətli ciddi tədbirlərdəndir.Çünki iqtisadi təhsil sistemi iqtisad elminin özünün inkişafı ilə bilavasitə əlaqədardır,ona əsaslanır və kompleksli yanaşmanı tələb edir.

Müstəqillik dövründə iqtisadi təhsil sistemi əhəmiyyətli dəyişikliklərə məruz qalmışdır.Bütün ixtisaslarda kütləvi şəkildə tədris olunan "siyasi iqtisad" fənni "iqtisadi nəzəriyyə" fənni ilə əvəz olunmuşdur."Siyasi iqtisad" fənninin də bütün ixtisaslardan çıxarılmasının özü də mübahisəlidir.İqtisadçı kadrlar hazırlanan fakültələrdə inzibati amirlik metodları ilə idarə olunan iqtisadiyyatın tədrisi ilə bağlı fənlər aradan qaldırılaraq,əvəzində bazar iqtisadiyyatı haqqında çoxsaylı fənlər tədris olunmağa başlanmış, müvafiq dərslik və proqramların hazırlanması sahəsində xeyli işlər görülmüşdür.

Bununla yanaşı, etiraf etmək lazımdır ki, iqtisadi təhsil sahəsində sovet dövründə mövcud olan bir sıra çatışmazlıqlar ətalət qanununa uyğun olaraq hələ davam edir.Misal üçün, sovet iqtisad məktəbinin praktikadan daha çox nəzəriyyəyə yönəlməsi ənənəsinin müəyyən dərəcədə davam etdiyini göstərmək olar.Beləki, sovet dövründə, məlum olduğu kimi, iqtisad elmi real həyatdan ayrılaraq, yüksək səviyyədə ideologiyalaşdırılmış "siyasi iqtisad" fənni ilə bütün növ ixtisaslarda (o cümlədən, iqtisadçı kadrlar üçün) tədris olunurdu.İqtisadçı olmayan kadrlar üçün iqtisadi biliklər başlıca olaraq və məcburi şəkildə məhz bu fənn vasitəsilə verilirdi.İqtisadiyyat mərkəz-

ləşdirilmiş qaydada planlaşdırılıb təşkil olunduğu üçün mühəndis-texniki və digər kadrlara professional xidmətlər üçün zəruri olan iqtisadi biliklər isə hərtərəfli və kifayət qədər verilmirdi.Təəssüflə qeyd edilməlidir ki, respublikamızda hazırda qeyri-iqtisadçı kadrlar üçün də iqtisadi biliklər əsas etibarilə "iqtisadi nəzəriyyə" fənni ilə verilir.Bu fənn "siyasi iqtisad" fənnindən əsaslı surətdə fərqlənsə də, iqtisadi nəzəriyyələrin mühəndis-texniki və digər mütəxəssislərin praktik fəaliyyətində kifayət etmədiyini birmənalı söyləmək mümkündür.Bir çox mühəndis-texniki ixtisaslarda iqtisadi biliklər həmçinin az miqdar saatla "Müəssisələrin iqtisadiyyatı" fənni ilə verilir ki, bu da qətiyyən kifayət deyildir.Müqayisə üçün göstərmək lazımdır ki, Türkiyənin ingilis dilli və Avropa standartları əsasında təşkil olunmuş "Bilkent" Universitetinin sənaye mühəndisləri fakültəsində aşağıdakı iqtisad yönlü fənlər tədris olunur: istehsal prosesləri, dəyər təhlili və nəzarəti, iqtisadi təhlil, istehsalın planlaşdırılması və nəzarət, mühəndislik menecmentinin prinsipləri, insan amili mühəndisliyi, istehsal və bölgü sistemlərinin planlaşdırılması.

Respublikamızın müstəqilliyi üçün çox vacib olan tamamilə yeni və kifayət qədər geniş yayılmış "beynəlxalq hüquq", "beynəlxalq münasibətlər" və digər ixtisaslarda da iqtisadi biliklərin əsas etibarı ilə "iqtisadi nəzəriyyə" fənni ilə verilməsini də məqbul hesab etmək olmaz. Çünki, məlum olduğu kimi, diplomat və beynəlxalq sahədə çalışan hüquqşünasın fəaliyyətinin mühüm hissəsi məhz iqtisadi məsələlərlə bağlıdır.

İqtisadçı kadrların hazırlanması prosesində sürətli yeniləşmə hiss olunur. Tədris sistemində bazar iqtisadiyyatı haqqında yeni-yeni fənnlər tədris olunmağa başlanmışdır.Bu dövrü keçid və axtarışlar dövrü adlandırmaq olar.

Ona görə də bu prosesin təkmilləşdirilməsi prosesi qətiyyətlə davam etdirilməlidir.Məsələn, bakalavr səviyyəsində hazırlanan iqtisadçı tələbələrin diqqətinin bir-birini təkrar edən çoxsaylı fənlərə (Təhsil Nazirliyinin təsdiq etdiyi proqramda 35-40) yayındırılması mübahisə və müzakirə obyektidir. Müqayisə üçün qeyd etmək lazımdır ki, "Bilkent" Universitetinin iqtisad fakültəsində cəmisi 15 iqtisadi fənn tədris olunur: iqtisadiyyata giriş (2 semestr), iqtisadi nəzəriyyə (2 semestr), iqtisadi tarix, statistikaya giriş (2 semestr), ekonometrika (2 semestr), iqtisadi proqnozlaşdırma, mütərəqqi iqtisadi nəzəriyyə, maliyyə institutları və bazarları, monetar iqtisadiyyat, beynəlxalq iqtisadiyyat, fiskal iqtisadiyyat, iqtisadi fikir tarixi, tətbiqi iqtisadi təhlil, beynəlxalq siyasi iqtisadiyyat, əmək bazarı iqtisadiyyatı.

Respublikamızda iqtisadçı kadrlar hazırlayan universitetlərdə tədris olunan iqtisadi fənlərin sayı 35-40-a çatdırılsa da, həmişə təcrübəsinə istinad etdiyimiz Moskva ali təhsil ocaqlarında keçilən bir çox iqtisadi fənlər hələlik bizim təhsil ocaqlarımızın çoxunda deyilmir.Məsələn, "beynəlxalq iqtisadi münasibətlər" və "maliyyə-kredit" ixtisasları üzrə bu fənlərə aşağıdakıları aid etmək olar: sahibkarlıq fəaliyyətinin hüquqi tənzimlənməsi, qiymətli kağızlar

bazarı və birja işi, beynəlxalq ticarət və maliyyə hüququ, maliyyə təhlili, bank və valyuta münasibətlərinin hüquqi əsasları və s.

Respublikamızda yeni iqtisadi sistemin yaradılmasında ən ciddi boşluqlardan biri bu sistemin hüquqi bazasının olduqca zəif olmasıdır. Yeni iqtisadi qanunlar yalnız müstəqillik əldə edildikdən sonra yaradılmağa başlanmış və bu iş hələ uzun müddət davam etdiriləcəkdir.

Buna görə də iqtisadiyyatın hüquqi tənzimlənməsinin tədris olunması və bu sahədə yüksək ixtisaslı kadrlar hazırlanması işinə diqqətin artırılmasına böyük ehtiyac vardır.

Bu siyahını kifayət qədər davam etdirmək mümkündür.Lakin, məsələ yalnız bununla bitmir.Bu fənləri kimin və necə tədris etməsi, hansı dərslik və tədris vəsaitindən istifadə olunması yeni tələblərə uyğun olaraq yüksək ixtisaslı kadrlar hazırlanmasında həlledici məsələlərdəndir.Hamıya aydındır ki, bazar iqtisadiyyatının müxtəlif sahələrində fəaliyyət göstərən yüksək ixtisaslı kadrlar hazırlanması üçün professor-müəllim heyətinin çatışmazlığı bu gün Azərbaycanın təhsil sisteminin ən zəif sahələrindən biridir.Bir çox fənləri tədris edə bilən müəllimlər sadəcə olaraq yoxdur.Onların hazırlanması prosesi olduqca zəif gedir və xüsusi diqqət tələb edir.Bu sahədə dərsliklər və dərs vəsaitlərinin hazırlanması işində müəyyən irəliləyiş olsa da, qane edici deyildir.Geniş imkanlara malik Rusiyada bu problem yeni dərsliklər yazılmaqla yanaşı, bir çox dərslik və kitabların tərcümə olunub yayılması yolu ilə həll edilir.Respublikamızda çox baha qiymətə satılan bu azsaylı kitablardan isə Azərbaycan bölməsi tələbələrinin istifadə etmək imkanları olduqca məhduddur.

İstər sahibkarlıq sahəsində çalışan, istərsə də bütün fəaliyyət növlərində işləyən digər kadrların işinin səmərəlilik prinsipi ilə təşkili üçün mühüm şərt olan müasir iqtisadi biliklər kütləvi informasiya vasitələri, o cümlədən ilk növbədə dövlət televiziyası ilə geniş təbliğ olunmalıdır.Nəzərə almaq lazımdır ki, iqtisadi biliklər müasir dövrdə ziyalılıq səviyyəsini də müəyyən edən mühüm amillərdən biridir.Ona görə də iqtisadi təhsilin orta məktəblərdə də tədrisi konsepsiyasının hazırlanması və həyata keçirilməsi üçün müvafiq tədbirlər görülməsi təxirəsalınmaz məsələlərdəndir.Nəzərə almaq lazımdır ki, iqtisadi təhsil sistemi seçdiyi və seçəcəyi ixtisasdan asılı olmayaraq bütün şagird və tələbələri elə tərbiyə etməlidir ki, onlar gələcəkdə öz fəaliyyətlərini faydalılıq və mənfəətlilik, yəni rasionallıq prinsipləri əsasında qursunlar, açıqgözlü bir təşəbbüskar (qeyd etmək lazımdır ki, "sahibkar" termini rusca "predprinimatel" terminini düzgün ifadə etmir) kimi yetişsinlər.

İqtisadi təhsil sistemi sahəsində mövcud olan problemlərin həll edilməsi üçün ümumrespublika elmi-praktik konfransı çağırılmalı, təxirəsalınmaz və perspektiv məsələlərin dairəsi müəyyən edilib, həyata keçirilməsi uçün müvafiq tədbirlər gorülməlidir.

III FƏSİL
AZƏRBAYCANDA BAZAR İQTİSADİYYATI: PROBLEMLƏR, PERSPEKTİVLƏR

3.1. Qeyri-neft sektorunun inkişafı - qloballaşma şəraitindəAzərbaycan iqtisadiyyatının tərəqqi yoludur

“İpək yolu”, 2004, № 1, s.56-66.

Azərbaycan Respublikasının Nazirlər Kabineti aidiyyəti dövlət orqanları ilə birlikdə: “İqtisadiyyatın hərtərəfli tərəqqisinə nail olmaq məqsədilə qeyri-neft sektorunun sürətli inkişafını təmin edən işlər görsün, bu sahəyə investisiyaların cəlb edilməsinin stimullaşdırılması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirsin”.

Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında” 24 noyabr 2003-cü il tarixli Fərmanından.

Azərbaycan iqtisadiyyatının XXI əsrdə inkişafı qlobal iqtisadi sistemə səmərəli inteqrasiyasını, sovet dövründə bilavasitə bazarın deyil, Ümumittifaq xalq təsərrüfatı kompleksinin tələblərinə uyğun olaraq formalaşmış iqtisadi strukturun köklü şəkildə transformasiyasının konstruktiv şəkildə davam etdirilməsini tələb edir.Qloballaşma fazasına daxil olmuş Qərb bir neçə iqtisadi və idarəçilik inqilablarını - texnoloji, struktur, informasiya, təşkilati-idarə sıçrayışlarını keçmiş, keyfiyyətcə yeni mərhələyə daxil olmuşdur. Azərbaycanın iqtisadi inkişafının müvəffəqiyyəti tarixin bu çağırışına necə cavab verəcəyimizdən asılıdır.Ölkədə iqtisadi strukturun transformasiyası məhz bu tələblərə uyğun həyata keçirilməsi tələb olunur.

Azərbaycanın zəngin karbohidrogen ehtiyatlarının intensiv mənimsənilməsi nəticəsində əldə edəcəyi irimiqyaslı maddi mənfəət istər hasilat sənayesinin, istərsə də onunla əlaqədar olan emaledici sənaye sahələrinin və bütövlükdə qeyri-neft sektorunun inkişafına sürətli təkan verəcəkdir.Dünya dövlətlərinin təcrübəsi göstərir ki, ölkəmizin qlobal proseslərə səmərəli qoşulmasının təmin edilməsi əhəmiyyətli dərəcədə həmin mənfəətin “iqtisadiyyatın diversifikasiyası” deyilən çoxşaxəliliyinin təmin olunmasına və qeyri-neft sektorunun sürətli inkişafına yönəldilməsindən asılıdır.

Azərbaycan Respublikası xarici investisiya cəlb etmək əsasında neft hasilatını və xaricə neft məhsullarının ixracını fəal sürətdə artırır.Əsas neft müqavilələri real nəticə verməyə başladıqdan sonra bu sahədə artım özünü daha ciddi şəkildə göstərməyə başlamışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2003-cü ildə Nazirlər Kabinetinin ilk iclasında qeyd etmişdir: "Əlbəttə, Bakı-Tbilisi-Ceyhan kəməri istifadəyə veriləndən, Azərbaycanda neft hasilatı ildə 50 milyon ton təşkil edəndən sonra əldə olunan faiz və gəlirlərin hesabına Azərbaycan hərtərəfli inkişaf edəcəkdir.Amma biz buna indidən hazır olmalıyıq.İki-üç ildən sonra daxil olacaq böyük məbləğdə vəsait gərək səmərəli şəkildə xərclənsin.Ona görə də müxtəlif sosial iqtisadi proqramlar indidən hazırlanmalıdır.İlk növbədə, infrastrukturun inkişaf etdirilməsi üçün proqramlar təqdim olunmalıdır"("Xalq qəzeti", 19.11.2003).

Onu da nəzərə almaq lazımdır kı, mütəxəssislərin dəyərləndirmələrinə görə dünyada enerjiyə qənaət edən texnologiyanın getdikcə daha geniş yayılması və inkişaf etmiş sənaye ölkələrinin iqtisadi inkişaf surətinin yaxın gələcəkdə zəifləməyə doğru getməsi neftə və digər enerji ehtiyatlarına olan tələbin tədricən azalmasına gətirib çıxaracaqdır.Azərbaycan neftinin ixracının artması dünya miqyasında neft istehlakının artması hesabına deyil, Azərbaycanla rəqabət edən neft ölkələrinın mövqeyinin müəyyən dərəcədə sıxışdırılması hesabına baş verəcəkdir.Beləliklə, dünya miqyasında enerji daşıyıcılarına olan tələbin qeyri-sabitliyi və azalma meyli neft qiymətlərinın qeyri-sabitliyi üçün zəmin təşkil edir.Bundan başqa məlumdur ki, 20-25 ildən sonra Azərbaycanda neft hasilatı da azalacaqdır.

Bütün bunları nəzərə alaraq, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev andiçmə mərasimində vurğulamışdır ki, "qeyri-neft sektoruna böyük diqqət göstəriləcəkdir.Yeni zavodlar, fabriklər istifadəyə veriləcəkdir.Sahibkarlığın inkişafı üçün tədbirlər planı, Azərbaycanda İqtisadi İnkişaf Planı hazırlanır.Bu çoxşaxəli inkişaf proqramı Azərbaycanı qısa müddət ərzində zəngin dövlətə çevirməyə imkan verəcək.Bizdə bütün imkanlar - təbii sərvətlər, insan potensialı və ən önəmlisi, xalqın iradəsi vardır.Biz hamımız birləşərək və bir nöqtəyə vuraraq Azərbaycanı zəngin, qüdrətli dövlətə çevirəcəyik"("Azərbaycan" qəzeti, 1.11.2003)

Həyati əhəmiyyət kəsb edən bu müddəa "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 24.11.2003-cü il tarixli Fərmanı ilə reallaşmaga başlamışdır.

Tarixi əhəmiyyətli bu qətiyyətli addım geniş beynəlxalq dəstək almışdır. Belə ki, Nobel mükafatı laureatı, Kolumbiya Universitetinin professoru, Birləşmiş Ştatların iqtisadiyyat üzrə Müşavirlər Şurasının keçmiş sədri Cozef Stiqlits AzərTAC-ın müxbiri ilə müsahibəsində demişdir: "Neft və qaz sektorunda həyata keçirilən layihələrdən Azərbaycana daha çox vəsait daxil olacaqdır və ÜDM-in artımı sürətlənəcəkdir.Lakin bir sıra problemləri çözmədən bu artımı davamlı etmək olmaz.Azərbaycan hökuməti yeni iş yerləri açmalı, qeyri-neft sektorunun, kiçik və orta sahibkarlığın sürətli

inkişafını təmin etməli, yoxsulluğun azaldılması sahəsində təsirli tədbirlər görməlidir. Çalışmaq lazımdır ki, qeyri-neft sektoruna daha çox sərmayə yönəldilsin və ÜDM-in artımında bu sahənin payı daha çox olsun.Əgər bu tədbirlər həyata keçirilməzsə, ölkənin iqtisadiyyatı təkcə neft amilindən aslı olarsa, günlərin birində böhranla üzləşə bilərsiniz" ("Respublika" qəzeti, 22. 11. 2003-cü il). Cozef Stiqlits Azərbaycan Dövlət İqtisad Universitetində "Qlobal iqtisadiyyat və Azərbaycan" adlı məruzəsində yuxarıdakı fikirlərə əlavə olaraq göstərdi ki, Azərbaycan üçün ciddi olan sosial problemlər, hər şeydən əvvəl vergi mexanizminin daha da təkmilləşdirilməsi və səmərəliliyinin artırılması hesabına həll edilməlidir.Neft gəlirləri isə, ilk növbədə qeyri-neft sektorunun hərtərəfli və sürətli inkişafına yönəldilməlidir.Dünya şöhrətli alimin fikirləri də son dövrlərdə Respublikamızda qəbul edilmiş proqram sənədlərində öz əksini tapmışdır.Belə ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Nazirlər Kabinetinin ilk iclasında vurğulamışdır: "Fondun əsas məqsədi neftdən əldə olunan gəlirləri çox etibarlı şəkildə saxlamaq, onları artırmaq, gələcək nəsillər üçün gözəl iqtisadi baza yaratmaq, eyni zamanda, Azərbaycan iqtisadiyyatı üçün əhəmiyyətli layihələrdə iştirak etmək, onları maliyyələşdirməkdir. …Əlbəttə, hesab edirəm ki, fondun vəsaitlərini büdcənin ümumi xərclərinin içərisində əritmək düzgün siyasət deyildir" ("Xalq qəzeti",19.11.2003-cü il).

Yaxşı məlumdur ki, Azərbaycanın dünya bazarına sabit rəqabət qabiliyyətli məhsul ixrac edə bilməsinin əsasında emaledici sənayenin hər vasitə ilə inkişaf etdirilməsi dayanır.

Araşdırmalar gostərir ki, emaledici sənaye respublikamızda bir çox baxımdan rəqabət üstünlüyünə malik olan perspektivli iqtisadiyyat sahəsidir. Bu rəqabət üstünlüyü yalnız ölkəmizin zəngin xammal bazası və ucuz işçi qüvvəsinə malik olmasından ibarət deyildir. Bu həmçinin onunla əlaqədardır ki, sovet dövründə xammalın ilkin emalının həyata keçirildiyi maşınqayırma, kimya, yüngül və yeyinti sənaye sahələrində öz həcminə görə əhəmiyyətli dərəcədə əsas fondlar toplanmışdır.Nəhəng emaledici istehsal güclərinin mövcud olması bu sahədə Azərbaycanın dünya bazarında öz məhsulları ilə iştirak etmək üçün geniş imkanlar yaratmışdır.

Lakin Azərbaycan iqtisadiyyatı qlobal təsərrüfat sisteminə sovetlərdən miras alınmış və deformasiya olunmuş iqtisadi strukturla inteqrasiya edir.Bu strukturun əsasını rəqabət üstünlüyünün resurs amilləri və sürətlə qocalan istehsal aparatı təşkil edir.Azərbaycanın beynəlxalq əmək bölgüsündə əsas etibarı ilə xammal satıcısı kimi iştirak etməsinin başlıca səbəbləri elmi-texniki təchizatın zəif inkişaf səviyyəsi, emaledici sənaye məhsullarının bir çoxunun dünya bazarlarında rəqabət qabiliyyətinə malik olmamasından ibarətdir.Ölkəmizin xarici ticarətin xammal yönümlü müasir vəziyyəti demək olar ki, istehsal potensialının durumu ilə şərtlənir.

Respublikamızda uzun illər emaledici sənayenin aparıcı sahəsi maşınqayırma sənayesi olmuşdur.

Azərbaycanda yanacaq-enerji kompleksinin inkişafı onun əsas xidmət sahələrindən biri olan neft-maşınqayırma avadanlıqları istehsalının inkişafına da təkan verdi.Azərbaycan neft-maşınqayırma sənaye sahəsinin əsası XIX əsrin sonlarında mexaniki-təmir sexlərinin yaradılması ilə qoyulmuş və XX əsrdə sürətlə inkişaf etmişdir.

Sovet dövründə, xüsusən 1970-80-ci illərdə Azərbaycanda maşınqayırma sənayesi sürətlə inkişaf etmişdir. Ölkəmiz neft-qaz hasilatı üçün maşın və avadanlıq istehsalı üzrə SSRİ-də əslində inhisarçı mövqeyə malik olmuşdur. Həmin kompleksin maşın və avadanlığa olan ehtiyacının 70%-i Azərbaycanda istehsal edilirdi.Respublika ərazisində neft və qaz avadanlığı istehsal edən 16 zavod kompakt şəkildə yerləşdirilmişdir.90-cı illərin əvvəllərində Respublikanın maşınqayırma kompleksində güclü istehsal, əmək və elmi potensial toplanmışdır.

1.Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev göstərmişdir: "… Əgər ötən əsrin 70-ci illərində yenə də cənab Heydər Əliyev tərəfindən Azərbaycanda müasir neft infrastrukturu yaradılmasaydı, yəqin ki, 1993-cü ildə başlanan yeni neft strategiyasını həyata keçirmək o qədər də asan olmazdı.Məhz o illərdə Azərbaycanda qazma qurğular tikilibdir, Dərin Özüllər Zavodu istifadəyə verilibdir ki, öz növbəsində, həmin zavodda indi yeni platformalar quraşdırılır"("Azərbaycan" qəzeti, 1 noyabr 2003-cü il).

İqtisadiyyatın texniki cəhətdən yenidən qurulmasında, elmi-texniki tərəqqinin və ümumiyyətlə,ölkənin sosial-iqtisadi inkişafının sürətləndirilməsində maşınqayırma həlledici rol oynayır.Maşınqayırmanın dirçəldilməsi və inkişafının təmin edilməsi bazar münasibətləri mexanizmində mühüm əhəmiyyət kəsb edir.

Azərbaycanın maşınqayırma sənayesi hal-hazırda 26 ixtisaslaşmış sahə və istehsalı birləşdirir.Onun tərkibində Respublikanın qocaman sahəsi olan neft maşınqayırma sənayesi, habelə 70-ci illərdə sürətlə inkişaf etməyə başlayan elektron, priborqayırma, avtomobil, dəzgahqayırma sənayesi, kənd təsərrüfatı maşınqayırma və s. sənaye sahələri təmsil edilmişdir (Мусаев А.Ф. Нефтедобыча и нефтяное машиностроение: анализ взаимодействия. Баку, Изд-во Университет Азербайджан, 1997, с. 18).

Lakin müstəqillik əldə edildikdən sonrakı ilk illərdə maşınqayırma sənayesi ölkədə özünü göstərən dərin iqtisadi böhranın dağıdıcı təsirinə ən çox məruz qalan sahədir.Rusiya bazarı üçün ixtisaslaşmış olan bu sahə, iqtisadi əlaqələr kəsildikdən sonra iflic vəziyyətinə düşdü.Ənənəvi bazarlara məhsul satışının kəskin azaldığı, yeni bazarlar üçün isə rəqabət qabiliyyətli məhsullar çıxarılmasının həmin dövrdə qeyri-mümkünlüyü yaradılmış nəhəng istehsal güclərinin böyük əksəriyyətinin istifadəsiz qalması və ya başqa

məqsədlər üçün istifadə edilməsi ilə nəticələndi.Ölkədə daxili və xarici kapital qoyuluşu imkanlarının əsas etibarilə yanacaq energetika kompleksinin inkişafına yönəldilməsi maşınqayırma sahəsinə investisiya qoyuluşlarının ümumi investisiyalara nisbətən 0, 4%-ə qədər azalmasına səbəb olmuşdur.Bu isə mövcud istehsal güclərinin keyfiyyət göstəricilərinin pisləşməsinə, sahənin istehsal-texniki bazasının kritik vəziyyətə düşməsinə səbəb olmuşdur. Nəticədə Azərbaycanın ixracatında maşınqayırma və metal emalı məhsullarının xüsusi çəkisi kəskin sürətdə azalma meyli göstərmiş və 1991-ci ildə 17, 7%-dən 1994-cü ildə 14, 9%-ə, 1999-cu ildə 3, 7%-ə və 2005-ci ildə isə 1, 5%-ə qədər azalmışdır.Şübhəsiz 1999-cu ildən sonrakı bu nisbi azalma neft məhsulları ixracının sürətli artımı ilə əlaqədardır.Lakin qarşıya qoyulan vəzifələr bu nisbətin optimallaşmasını tələb edir.

2.Ölkənin maşınqayırma sənayesi sahəsində müasir dövrdə elə ciddi məsələlər durur ki, onların həlli mülkiyyət və idarəçilik üsullarının, istehsalın təşkilinin daha da təkmilləşdirilməsini, hər bir alt sahənin inkişaf strategiyasına ciddi diqqət yetirilməsini tələb edir. Azərbaycan Respublikası Prezidentinin 24 noyabr 2003-cü il tarixli Fərmanında iqtisadiyyatın idarə edilməsi sistemində islahatların başa çatdırılması qarşıya qoyulur. Həmin sənəddə eyni zamanda İqtisadi İnkişaf Nazirliyinə tapşırılmışdır:"Dövlət əmlakının özəlləşdirilməsinin II Dövlət Proqramına uyğun olaraq özəlləşdirməyə açıq elan olunmuş dövlət müəsisələrinin özəlləşdirilməsini və idarəetməyə verilməsini sürətləndirsin"("Azərbaycan Respublikasında sosial iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri". Azərbaycan Respublikası Prezidentinin Fərmanı, "Azərbaycan" qəzeti, 25 noyabr 2003-cü il).

Bizim fikrimizcə, qloballaşma prosesləri nəzərə alınmaqla maşınqayırma sənayesinin xüsusi inkişaf strategiyasının hazırlanması vacibdir.Bu strategiya maşınqayırma sənayesi məhsullarının daxili və dünya bazarlarında rəqabət qabiliyyətinin artırılmasına yönəldilməsi günün təxirəsalınmaz məsələlərindəndir.Ona görə də adı çəkilən Fərmanda Nazirlər Kabinetinə tapşırılmışdır: "Müəssisələrdə beynəlxalq standartlara cavab verən məhsul istehsalını və onların dünya bazarına ixracını stimullaşdıran müvafiq tədbirlər görsün".

Geniş mənada yanacaq-enerji kompleksi, xüsusi halda isə neft-maşınqayırma və metallurgiya sənaye sahələrinin bir-birini tamamlayan istehsal zənciri Azərbaycan iqtisadiyyatının inkişaf etdirəcəyi əsas istiqamətlərdəndir.

Neft sənayesi və maşınqayırma kompleksinin birgə fəaliyyəti təkcə istehsalın aşağı düşməsinin qarşısını almaq, istehsal güclərinin optimal yüklənməsi, işsizliyin aradan qaldırılması kimi çox vacib istehsal-iqtisadi məsələnin həlli deyil, həm də xarici maşın və avadanlıqların idxalından imtina etməklə külli miqdarda valyutaya qənaət etmək deməkdir.

Yaxın gələcəkdə dünya bazarına çıxarılan Azərbaycan neftinin həcminin sürətlə artdığı bir şəraitdə neft-maşınqayırma sahəsində uzun illər boyu

yaradılmış istehsal, elmi, intellektual potensialdan səmərəli istifadə edilməsi günün təxirəsalınmaz məsələlərindəndir.

Azərbaycanda neft-maşınqayırma sənayesi yüksək inkişaf etdiyi halda, eyni sözləri maşınqayırmanın digər sahələrinə aid etmək olmaz.Belə ki, respublikanın maşınqayırma zavodlarında Azərbaycanda istifadə edilən nəqliyyat vasitələrinin, kənd təsərrüfatı və digər maşınların istehsalı keçmişdə kifayət qədər təşkil edilməmişdir.Maşınqayırmanın özəyi sayılan, bütün istehsal proseslərini birləşdirən, maşınlar sistemini əmələ gətirən yeni texniki vasitələrin yaranmasını müəyyən edən dəzgahqayırma inkişaf etməmişdir.Müstəqillikdən sonrakı ilk on ildə istehsal olunmuş bütün maşın və avadanlıqların yalnız 3-5%-i dünya standartına uyğun gəlmişdir.Maşınqayırma məhsullarının rəqabət qabiliyyətinin aşağı olması onların respublikadan ixracına imkan vermir.

Onu da nəzərə almaq lazımdır ki, hələ SSRİ dövründə istehsal edilən maşınların əksəriyyəti ölkənin və respublikanın ehtiyaclarına tam cavab vermirdi.İstehsal edilən avtomobil, kənd təsərrüfatı maşınları, dəzgahlar və digər texnikanın strukturunda nəhəng maşınlar üstünlük təşkil edirdi, kiçik maşınların istehsalına isə əhəmiyyət verilmirdi.Ona görə də çox vaxt kiçik həcmli yüklər qeyri-səmərəli şəkildə nəhəng avtomobillərdə daşınırdı.Halhazırda kiçik müəssisələrin və fermer təsərrüfatlarının sayının və əhəmiyyətinin artması ilə əlaqədar olaraq kiçik həcmli maşınlara da xaricdə olduğu kimi tələbat sürətlə çoxalmaqdadır.Maşınqayırma sənayesinin inkişaf perspektivində bu cəhət nəzərə alınmalıdır.

Qlobal təsərrüfata səmərəli şəkildə inteqrasiyanı təmin etmək məqsədilə maşın və avadanlıq istehsalını modernləşdirməklə, ölkəni xammal ixracat edən ölkə durumundan çıxarmaq üçün bütün imkanlar vardır.Maşınqayırma məhsulları üzrə vahid dünya bazarına çıxmaq üçün həmin imkanların reallaşdırılması iqtisadiyyatın tərəqqisi üçün böyük imkandır. Yeni texnika və yeni idarəçilik üsullarını ardıcıl olaraq tətbiq etmək dövrümüzün təxirəsalınmaz tələblərindən biridir.Bu zaman maşınqayırmada inteqrasiya prosesləri inkişaf etmiş ölkələrin texniki vasitələrinin tipləri ilə ümumilik və harmonlaşdırma şəklində vəhdət yaradan istiqamətdə getməsi prosesinin sürətləndirilməsi olduqca vacibdir.

Azərbaycan Respublikasında kimya və neft-kimya sənayesinin inkişafı üçün lazım olan zəngin xammal bazası mövcuddur. Ölkəmizdə sənaye miqyaslı kimya istehsalının yaranmasına da neft emalı sənayesinin inkişafı təkan vermişdir.

Sovet dövründə ümumittifaq xalq təsərrüfatı kompleksinin tərkib hissəsi kimi kimya sənayesi sürətlə inkişaf etdirilməyə başladı.Həmin sahənin sürətli inkişafı 60-70-ci illərə təsadüf edir.Məsələn, 1960-1975-ci illərdə Respublikada kimya və neft-kimya sənayesi məhsullarının orta illik artım

sürəti sənayenin orta illik artım sürətindən iki dəfə yüksək olmuşdur (251, s. 249). Nəticədə sənaye məhsulunun tərkibində həmin sahənin xüsusi çəkisi 1960-cı ildə 2, 9%-dən 1980-ci ildə 7,5%-ə yüksəldilmişdir (207, s. 48). Kimya və neft-kimya sənayesi əsas etibarilə Sumqayıtda SSRİ tələbatının ödənilməsi üçün cəmlənmişdir.Vəziyyətin düzəldilməsi külli miqdarda kapital tələb edir.

SSRİ dağıldıqdan sonra respublikaya imperiyadan bu sahəyə məxsus güclü istehsal potensialı miras qaldı. Zəngin xammal bazası və ucuz işçi qüvvəsi həmin sahəyə böyük miqyasda beynəlxalq rəqabət üstünlüyü verir. Həmin potensialdan daxili bazarın tələbatının ödənilməsi və xarici bazarlara çıxmaq üçün istifadə edilməsi günün vacib məsələlərindəndir.

Lakin ənənəvi bazarların itirilməsi, yeni bazarlara çıxışın ləng getməsi bu sahədə satış problemini olduqca kəskinləşdirdi.1994-cü ildən burada canlanma özünü göstərsə də, bir çox problemlər yenə də qalır (38, s. 19). Sahə məhsullarının fiziki həcmi 2005-ci ildə 1995-ci il səviyyəsinin cəmi 5 %-ni təşkil etmişdir (41, 2006 s. 67). Fond verimi bu sahədə 1996-cı ildə 1990-cı ilə nisbətən 20% səviyyəsinə enmiş, 1996-2005-ci illərdə də bu azalma meyli səngisə də, müəyyən dərəcədə davam etmişdir (38, s. 118-122). Həmin sahədə mövcud olan istehsal fondları sürətlə qocaldığı halda investisiya qoyuluşlarının az olması nəticəsində yenilənmə dərəcəsi aşağı səviyyədə qalmaqda davam edir. 2007-ci ilin 1-ci rübündə enerji daşıyıcılarının qiymətinin artması kimya sənayesinin fəaliyyətinə mənfi təsir göstərmişdir.Bütün bunların nəticəsində kimya və neft-kimya sənayesinin xarici ticarət əlaqələri azalmışdır.İdxalatda onun xüsusi çəkisi 1991-ci ildə 19%-dən 2002-ci ildə 5%-ə, ixracatda isə 17, 7%-dən 1, 6%-ə düşmüşdür. 2005-ci ildə həmin məhsullar cəmi idxalatın 6, 9 %-ni, ixracatın isə 4, 7 %-ni təşkil etmişdir.

Kimya və neft-kimya sənayesi müəssisələri respublikaya həddən artıq gəlir gətirmək üçün böyük ehtiyatlara malikdir. Mütəxəssislər hesab edirlər ki, bu sahələrin əsas vəzifəsi daxili və xarici kapitalı cəlb etməklə xammal emalının artırılması, az enerji və material tutumlu tullantısız texnologiyanın tətbiqi, mənəvi cəhətdən aşınmış istehsalların sıradan çıxarılması, xammal və materialların kompleks istifadəsi və ətraf mühitin mühafizəsindən ibarətdir. Həyati əhəmiyyətli istehsal güclərini istifadəyə vermək, məhsulun keyfiyyətini yaxşılaşdırmaq lazımdır.Mövcud istehsal güclərində istehsal olunan məhsullar indiyə qədər böyük xərc hesabına başa gəlir və xeyli zərər gətirir.

Kimya məhsullarının istehsalını artırmaq üçün ekoloji cəhətdən təmiz texnologiya tətbiq etməklə biz yeni istehsallar yaratmalı və məhsulların çeşidini artırmalıyıq.

Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə böyük uğurla həyata keçirilən yeni neft strategiyasının reallaşması ölkəmizdə neft-kimya sənayesinin dinamik inkişafı üçün böyük perspektivlər açmışdır. Yerli xammal

bazası əsasında ən mütərəqqi texnologiyalara əsaslanan yeni neft-kimya kompleksinin yaradılması üzrə işlərə, Azərbaycanın elmi-texniki potensialının daha da artırılmasına başlanmışdır. Son dövrlərdə dünyada neft-kimya və kimya məhsullarına tələbatın durmadan artması, ölkəmizdə iqtisadiyyatın sürətlə inkişafı, geniş vüsət almış tikinti-quruculuq işləri və daha yüksək idarəçilik sayəsində istehsal olunan məhsullara tələbat çoxalmaqdadır.

Bununla əlaqədar, Azərbaycanın yeni neft-kimya kompleksinin optimal variantının seçilməsi, layihənin texniki-iqtisadi göstəricilərinin müəyyən edilməsi, xammal və enerji daşıyıcılarından səmərəli istifadə, məhsulun çeşidinin genişləndirilməsi, məhsulların istehlak xassələrinin və istehsalatın ekoloji göstəricilərinin yaxşılaşdırılması, satış imkanlarının artırılması və s. məqsədi ilə Texniki İqtisadi Əsaslandırma (TİƏ) sənədlərin hazırlanması üçün bu sahə üzrə dünya şöhrətli peşəkar şirkətlərin iştirakı ilə Azərikimya Dövlət Şirkəti tərəfindən elan olunmuş beynəlxalq tender keçirilmişdir.

Tenderin ən yüksək beynəlxalq tələblərə uyğun əsas şərtlər toplusunda göstərilən meyarlara uyğun ən sərfəli sayılan tender təklifini təqdim etmiş ABŞ-ın Nexant şirkəti tenderin qalibi olmuşdur. Dünyanın ən müasir texnologiyalarıəsasında yaradılacaq bu yeni neft-kimya kompleksi Azərbaycan Respublikasını regionda neft-kimya məhsullarının mühüm istehsalçısına çevirəcək, qeyri-neft sektorunun inkişafında mühüm rol oynayacaqdır. Bu isə öz növbəsində respublikanın yüksək templə inkişaf edən iqtisadiyyatının digər sahələrində - tikinti, səhiyyə, cihazqayırma, kənd təsərrüfatı, maşınqayırma, avtomatika və məişət avadanlığının istehsalı üçün ölkəmizdə ən müasir, dünya standartlarına cavab verən yeni istehsal və xidmət sahələrinin yaradılmasına, çoxprofilli iş yerlərinin açılmasına, yüksək ixtisaslı kadrların hazırlanmasına imkan verəcəkdir.

Respublikada plastik kütlədən hazırlanan məmulatlara böyük ehtiyac duyulur, eyni zamanda bu cür məhsulları daha çox istehsal etmək imkanımız var.Texnologiyanın sadəliyi və enerji tutumunun aşağı olması işsizlərin çox olduğu kiçik sahələrdə plastik kütlədən məmulatların hazırlanması üçün kiçik müəssisələrin yaradılmasına imkan verir. Kimya sənayesini daha çox məişət kimyası mallarının istehsalına yönəltmək, Mingəçevir qeyri-parça materialları istehsalı zavodunun məişət məmulatlarının buraxılışını, Sumqayıt fosfat gübrələr istehsalı zavodunda makroelementlərin əlavəsi ilə gübrələrin istehsalını artırmaq lazımdır.

Azərbaycanda neft-yanacaq sektorundan sonra valyuta problemləri ilə sıx əlaqəsi olan sənaye sahəsi xalq üçün geniş istehlak malları istehsal edən yüngül və yeyinti sənayesidir. Həmin sahələr istər kifayət qədər tutumlu olan daxili bazarın tələblərinin milli istehsal hesabına ödənilməsində və istərsə də xaricə mal ixrac edilməsində mühüm əhəmiyyətə malikdirlər.

Hələ XIX əsrin axırlarından başlayaraq Azərbaycan ümumrusiya bazar-

larının tələblərinə uyğun olaraq neft hasilatı və emalı, toxuculuq xammalı olan - pambıq, yun, ipək və digər yeyinti məhsullarının istehsalı sahəsində ixtisaslaşmışdır.Toxuculuq xammalı istehsal edən sahələrin inkişafı onların ilkin emalının təşkilini də zəruri etmişdir.Sovet dövründə yüngül sənaye Azərbaycan iqtisadiyyatının sürətlə inkişaf edən mühüm sahələrindən birinə çevrilmişdir. Yüngül sənaye məhsullarının ümumi həcmi 1940-cı ilə nisbətən 1960-cı ildə 2, 4, 1970-ci ildə3, 8 və 1986-cı ildə isə 10, 4 dəfə artmışdır.

1960-1990-cı illər arasında Azərbaycan sənayesinin dəyişməz olaraq 1/5-i yüngül sənaye məhsullarından ibarət olmuşdur.Lakin iqtisadi yüksəlişin mühüm göstəricisi olan əmək məhsuldarlığı yalnız inkişaf etmiş ölkələrə görə deyil, respublika sənayesinin ümumi səviyyəsindən də geri qalırdı.Yüngül sənaye respublika iqtisadiyyatının çox əməktutumlu sahələrindən biri sayılır. Həmin sahə sovet dövründə, əsasən, kənd təsərrüfatı xammalının ilkin emalına yönəldilmişdir və yalnız SSRİ miqyasında xammal və yarımfabrikat - pambıq mahlıcı, barama, gön-dəri xammalı ixrac etməyə qadir olmuşdur. Yüngül sənaye məhsulları daxili bazarın tələblərini də ödəyə bilmirdi. Belə ki, Respublikada əhaliyə satılan xalq istehlakı, o cümlədən yüngül sənaye məhsullarının cəmisi 50%-i yerli istehsal hesabına ödənilirdi ("Народное хозяйство Азербайджанской ССР 70-летию Великого Октября" – Статистический сборник. Баку, Азернешр, 1987, c. 322.s. 47).

3.Lakin müstəqillik əldə edildikdən sonrakı ilk illərdə məlum obyektiv və subyektiv səbəblərlə əlaqədar olaraq bu sahədə ciddi dönüş hiss olunmurdu və əksinə, sənaye istehsalının strukturunda və ixracatda bu mühüm sahənin payı davamlı olaraq azalırdı. Mütəxəssislər haqlı olaraq hesab edirlər ki, əhali tərəfindən daha çox tələb olunan məmulatları istehsal edən sənaye sahələrində bazara uyğunlaşa bilən yeni və müxtəlif formalı strukturlar yaradılmalıdır. Bu zaman alıcılıq tələbinin dəyişmə meyli və inkişaf qanunauyğunluğu nəzərə alınmalıdır.Yüngül sənayenin perspektiv strukturu formalaşdırılarkən əhalinin istehlakının həcmi və strukturunun düzgün müəyyən edilməsi, onu xarakterizə edən real proses və meyllərin müntəzəm öyrənilməsi olduqca vacibdir (Y. Kərimli, N. Süleymanov. Milli iqtisadiyyatın əsasları. Dərs vəsaiti. Bakı, ABU nəşriyyatı və poliqrafiya mərkəzi, 2001, s. 307. s. 174).

Respublikada mövcud olan zəngin xammaldan hazır məhsul istehsal üçün lazımi şəraitin yaradılması və yeni texnologiyanın tətbiqi ilə onların rəqabət qabiliyyətinin yüksəldilməsi çox vacib məsələlərdən biridir. Hesab edirik ki, Respublikanın yüngül sənayesi hazır paltarın və əl ilə toxunan xalçaların buraxılışı üzrə daha az kapital tutumlu, daha çox əmək tutumlu sahələrin (tikiş və trikotaj sahələri) inkişafına yönəldilməlidir.

4.Sovet dövründə Azərbaycan özünün sənaye potensialına uyğun olaraq müəyyən dərəcədə inkişaf etmiş yeyinti sənayesinə malik olmuşdur. Respublikada yeyinti sənayesi şəkər istehsalından başqa bütün yarım sahələrlə təmsil

olunmuşdur.Lakin onlardan ət və süd sənayesi möhkəm xammal bazası olmadığından zəif inkişaf etmişdir.SSRİ-nin dağılması dövründə Respublikada 350-ə yaxın müəssisə fəaliyyət göstərirdi və ölkə sənayesinin əsas kapitalının 1/10 hissəsinə qədəri cəmləşdirilmişdir.Sahənin mövcud çatışmazlıqlarına baxmayaraq, bu proses kənd təsərrüfatı ilə yanaşı respublika əhalisinin maddi rifah vəziyyətinə bilavasitə təsir göstərirdi. Lakin sovet dövründə inzibati-amirlik sistemi şəraitində, başlıca olaraq daxili bazarda əslində rəqabətsiz fəaliyyət göstərən və zəif texniki bazaya malik olan bu sahə, müstəqillik əldə edildikdən sonra dünya bazarı ilə təmasa girərkən dərin tənəzzül vəziyyətinə düşdü. Yeyinti sənayesi Azərbaycan sənayesində mühüm mövqeyini (ikinci yeri) itirməyə başlamışdır. Bu sahədə geriləmə bütövlükdə sənaye istehsalına nisbətən daha çox olmuşdur. Belə ki, 1999-cu ildə 1990-cı ilə nisbətən yeyinti sənaye məhsulunun fiziki həcm indeksi 12, 4%-ə enmişdir.Nəticədə, ümumi sənaye məhsulu istehsalında yeyinti sənaye məhsullarının xüsusi çəkisi 1990-cı ildə 26, 6%-dən 1995-ci ildə 10, 8 %-ə, 2005-ci ildə isə 3, 5 %-ə düşmüşdür ("Azərbaycan rəqəmlərdə". 1991-2008-ci illərdə. Statistik məcmuələr. Bakı, Səda., 2006, s. 66-68). Bir sıra mühüm yeyinti sənayesi məhsulları - ət, kərə yağı, süd məhsulları sahəsində 1995-ci ildən başlayaraq artım özünü göstərir. Digər əsas növ yeyinti məhsulları istehsalı - çörək və çörək məmulatları, makaron, qənnadı məhsulları, üzlü pendir, bitki yağı, kolbasa məmulatları, balıq məmulatları, meyvə-tərəvəz konservləri və sairə mütləq natural göstəricilər baxımından zəif inkişaf edir.

Bütün iqtisadiyyatda olduğu kimi, yeyinti sənayesində də istehsal münasibətləri kökündən dəyişir. Geniş miqyaslı özəlləşdirmə bu sahədə uzun illər mövcud olmuş dövlət mülkiyyətinin hökmranlığına son qoymuşdur.

Yuxarıda göstərildiyi kimi, ölkənin həyati əhəmiyyət kəsb edən valyuta problemində də yeyinti sənayesi müstəsna rol oynayır. Bu sahə daxili bazarın mühüm ərzaq məhsullarına olan tələbatını ödəyə bilərsə, həmin malların xaricdən bahalı idxalını ixtisar etməklə külli miqdarda valyutaya qənaət etmək imkanı yaranır.Zəngin xammal bazasına, ucuz işçi qüvvəsinə və geniş istehsal-texniki bazaya malik olan Azərbaycanın yeyinti sənayesi geniş ixrac potensialına malikdir.

1991-ci ildə yeyinti sənayesi məhsullarının 93,9%-i SSRİ tərkibində olan respublikalara ixrac edilirdi. Həmin respublikalardan idxal isə cəmi idxalın 80,9%-i təşkil edirdi. Məlum səbəblərə görə sonralar həmin ölkələrdən idxal və ixrac kəskin sürətdə azaldı.Azərbaycan yeni ticarət tərəfdaşları ilə xarici ticarət əlaqələrini aparmağa başladı. 2006-ci ildə Azərbaycanın yeyinti sənaye məhsulları dünyanın 35 ölkəsinə ixrac edilir. Azərbaycan dünyanın 61 ölkəsindən yeyinti sənaye məhsullarını idxal edir.

Azərbaycanın müasir yeyinti sənayesinin intensiv qloballaşma dövrünün tələblərinə uyğunlaşdırılması üçün nəzərdə tutulmuş konstruktiv sənaye

siyasətinin davam etdirilməsi olduqca vacibdir.Bu siyasətin mərkəzi xəttini dövlətin bu sahədə tənzimləmələrinin səmərəliliyinin artırılması təşkil edir. Yeyinti sənaye məhsullarının rəqabət qabiliyyətinin yüksəldilməsi bunun üçün sahənin yeni texnika və texnologiyanın tətbiqi əsasında istehsal-texniki bazasının yeniləşdirilməsi, innovasiya fəaliyyətinin genişləndirilməsi daim diqqət mərkəzindədir.İxracatın hərtərəfli dövlət tədbirləri əsasında təşviq edilməsi, idxalın əvəzetmə siyasəti strategiyasının hazırlanması yeyinti sənayesinin qlobal təsərrüfata optimal inteqrasiyasının əsasını təşkil edir.

Məlumdur ki, Azərbaycanda hələ qədim dövrlərdən kənd təsərrüfatı istehsalı sahəsində zəngin ənənə mövcuddur.Aqrar bölmə Azərbaycanın ictimai-iqtisadi həyatında mühüm rolunu bu günə qədər qoruyub saxlamışdır.

Müstəqillik əldə etdikdən sonra Azərbaycanın öz zəngin təbii sərvətlərinə şəriksiz hakim olması və onlarda respublika əhalisinin maddi rifahının yaxşılaşdırılması məqsədilə səmərəli istifadə etməsi üçün geniş imkanlar yarandı. Böyük bir imperiyanın tərkibindən ayrılan respublikamızda müstəqil dövlət quruculuğu, inzibati-amirlik sisteminin buxovlarından azad olunması, bazar mexanizminin yaradılması və dünya birliyinə inteqrasiyanın başlanması prosesləri istər ölkənin bütün təsərrüfat mexanizmində, istərsə də onun tərkib hissəsi olan kənd təsərrüfatında keyfiyyətcə tamamilə yeni iqtisadi mühitin meydana gəlməsinə səbəb oldu.Bazar iqtisadiyyatının əsaslarının qoyulması dönməz bir prosesə çevrilmiş respublikamızda aqrar islahatların və müstəqil torpaq siyasətinin formalaşmasına və həyata keçirilməsinə başlandı.

Lakin bunlarla yanaşı, "Aqrar sahədə islahatların sürətləndirilməsinə dair bəzi tədbilər haqqında" Azərbaycan Respublikası prezidentinin Fərmanında (22 mart 1999-cu il) göstərilirdi: "Aqrar sahədə mövcud olan istehsal münasibətləri bazar iqtisadiyyatı tələblərinə uyğunlaşdırılmır... Mövcud olan problemlərin elmi təhlili aparılmır, bunun nəticəsində aqrar sahədə planlaşdırılmış maliyyə, kredit, bank, vergi, qiymət, daxili bazarın qorunması tədbirlərini nəzərdə tutan proqram indiyə qədər hazırlanmamışdır". Göründüyü kimi, əhalinin ərzaqla və aqrar sənaye kompleksinin xammal ilə təmin olunmasında müstəsna rol oynayan aqrar bölmə iqtisadiyyatın yenidən qurulması strategiyasında milli prioritet kimi cəmiyyət və dövlətin ciddi diqqət mərkəzindədir.

Bu məsələlərin həyata keçirliməsi üçün "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 24.11.2003-cü il tarixli Fərmanı ilə Nazirlər Kabinetinə konkret olaraq tapşırılmışdır: "Aqrar sektorda islahatların ikinci mərhələsinə başlamaq və bununla əlaqədar lazımi tədbirlərin görülməsini sürətləndirmək məqsədilə (texniki servis mərkəzlərinin təşkilatı, fermerlərin texnika ilə daha böyük həcmdə təmin olunması, toxumçuluq bazasının inkişaf etdiril-

məsi, yeni emal müəssisələrinin yaradılması və s.) bir ay müddətində müvafiq təkliflər hazırlayıb Azərbaycan Respublikası Prezidentinə təqdim etsin".

Qarşıya qoyulan tarixi vəzifələr Azərbaycanda dönmədən "açıq iqtisadiyyat" inkişaf modeli tətbiq edildiyi bir şəraitdə aqrar-sənaye kompleksinin dünya bazarının şərtlərinə - uyğunlaşdırılması aqrar biznesin xüsusiyyətlərinin və dünyada bu sahədə "yaşıl inqilabı" yaradan amil və proseslərin nəzərə alınmasını təkidlə tələb edir.

Azərbaycan Respublikası müstəqillik illərində kənd təsərrüfatının inkişaf etdirilməsi üçün, yuxarıda göstərildiyi kimi, müstəqil aqrar siyasət hazırlayıb həyata keçirir, kənddə özəl mülkiyyətin yaranıb genişlənməsi üçün tədbirlər görür.Müəyyən miqdarda dövlət damazlıq və toxumçuluq təsərrüfatları, avtoservizlər yaradılıbdır.Aqrar bölməyə yanacaq güzəştli şərtlərlə verilir.Bu bölmə vergilərdən azad edilmişdir.Kənd təsərrüfatında yaranmış durum tələb edir ki, kənddə vəziyyəti kökündən yaxşılaşdırmaq və aqrar bölməni müasir tələblərə uyğunlaşdırmaq üçün dövlət tərəfindən irimiqyaslı iqtisadi və sosial proqramların hazırlanıb həyata keçirilməsi davam etdirilsin, bu sahədə geniş himayəçilik siyasəti tətbiq edilsin, kənd təsərrüfatı büdcədən birbaşa dəstəklənsin.Respublika prezidenti İlham Əliyev qeyd etmişdir: "Hesab edirəm ki, aqrar sektorda texniki servis mərkəzləri yaradılmalıdır. Fermerlər texnika ilə daha böyük həcmdə təmin olunmalıdır.Toxumçuluq bazası inkişaf etməlidir və əlbəttə, emal sənayesi yaranmalıdır".

Həqiqətən, qabaqcıl dünya dövlətlərinin təcrübəsi göstərir ki, himayəçilik tədbirləri qiymət, dotasiya və maliyyə-kredit amillərindən geniş istifadə edilərək həyata keçirilməlidir.Aqrar sahədə himayəçilik - qiymətlərdəki qeyri-mütənasibliyin ləğv edilməsi, inhisarçılığın qarşısının alınması, kənd əmtəə istehsalçılarını tənzimləməyən idxaldan müdafiə edilməsi yolları ilə, lizinq fondları, kooperativ birlikləri və s. yaradılmaqla həyata keçirilməlidir.Kənd təsərrüfatında elmi-tədqiqat işlərinin və təcrübə-istehsalat təsərrüfatlarının maliyyələşdirilməsi diqqət mərkəzində olmalıdır.Lakin, postsovet respublikalarının təcrübəsi eyni zamanda göstərir ki, aqrar sahədə bu respublikalarda özünü göstərən uzunmüddətli böhranın mühüm səbəblərindən biri məhz dövlət tənzimləmələrinin az səmərəli olmasıdır.Sənaye məhsulları ilə kənd təsərrüfatı məhsulları qiymətləri arasında mövcud olan qeyri-mütənasiblik, aqrar bölmədə istehsalın maddi-texniki təchizatının zəif olması, ödəmə qabiliyyətli istehlak tələbinin azalması, idxalatın durmadan artması iqtisadiyyatda, o cümlədən aqrar bölmədə dövlət tənzimləmələrinin səmərəliliyinin artırılmasını təkidlə tələb edir.

Dağınıq xırda istehsalçı güclərinin, inhisarlaşmağa başlayan kənd təsərrüfatı məhsulları alıcılarının qeyri-bərabər rəqabətindən qorumağın ön plana çəkilməsi tələb olunur.Məlum olduğu kimi, kənd təsərrüfatı məhsullarının qiymətləri bütün dünyada olduğu kimi qeyri sabitdir və ona görə də bazarın

sabitləşdirilməsi üçün bu sahədə ciddi dövlət müdaxiləsinə ehtiyac vardır. Ekspertlərin fikrincə, Avropa Birliyində və ümumiyyətlə, bazar iqtisadiyyatının digər inkişaf etmiş ölkələrində ərzaq bolluğu əhəmiyyətli dərəcədə fermerlərə dövlət yardımı və bu sahəyə səmərəli dövlət müdaxiləsi nəticəsində mümkün olmuşdur.

Müasir aqrar siyasətdə iki mühüm məqsəd qarşılıqlı vəhdət təşkil edir: sabitləşdirmə və fermerləri dəstəkləmə.Ölkələrin çoxunda aqrar bölmə məhsullarının qiymətlərinə müdaxilə bu iki məqsədə nail olmaq üçün həyata keçirilir.

Bütün dünyada olduğu kimi, satışla məşğul olan ixtisaslaşmış kənd təsərrüfatı müəssisələri yaradılması, istehsalçıları həvəsləndirən qiymət siyasəti həyata keçirməsi, bu məqsədlə dövlət subsidiyalarından geniş istifadə edilməsi olduqca vacibdir.Bir çox keçid iqtisadiyyatı və inkişaf etməkdə olan ölkələrin təcrübəsi göstərir ki, digər iqtisadiyyat sahələrinin məhsullarına nisbətən aqrar bölmə məhsulları qiymətinin aşağı səviyyədə saxlanılması bütün iqtisadi inkişaf prosesini təhlükə altına ala bilir.Fermer təsərrüfatlarının gəlirlərinin artması kənddə sosial gərginliyi daha da azaldar və kəndlər sənaye bölməsində yaradılan istehsal və istehlak təyinatlı məhsullarının daha geniş satış bazarına çevrilə bilər.

Ölkə başçısı Nazirlər Kabinetinin iclasında kənd təsərrüfatının inkişafı ilə əlaqədar çox mühüm vəzifə qarşıya qoymuşdur: "Bizim məqsədimiz budur ki, Azərbaycanda yerli istehsal inkişaf etsin, idxal azalsın və Azərbaycan öz daxili bazarını ölkəmizdə istehsal olunan məhsullarla təmin etsin".

Ona görə də hesab edirik ki, ənənəvi bazarlar itirildiyi və məhsuldarlıq yüksək olan digər ölkələrin bazarlarına çıxış çətin olduğu üçün kənd təsərrüfatının üç əsas strateji istiqamətdə inkişafı daha dinamik xarakter almalıdır:

1.Azərbaycanın kənd təsərrüfatı istehsalında struktur dəyişiklikləri sürətləndirilərək, onun ilk növbədə daxili tələbata yönəldilməsi və idxalı əvəz edən sahələrin sürətli inkişafı təmin edilməlidir.Azərbaycanın 8 milyonluq əhalisinin yaşayış ehtiyaclarının ödənilməsinə xidmət edən kifayət qədər böyük daxili bazarı vardır.Əhalinin alıcılıq qabiliyyəti aşağı olsa da, ilkin tələbat mallarına olan ehtiyacın böyük hissəsi xarici mallar hesabına ödənilir. Bu ehtiyacların ödənilməsi üçün xaricdən külli miqdarda gətirilən yeyinti məhsullarının yerli istehsal hesabına təmin edilməsi aqrar bölmənin bir çox təxirəsalınmaz texniki-iqtisadi problemlərinin həlli üçün böyük məbləğdə valyuta vəsaitinə qənaət edilməsinə səbəb olar.Bu məqsədlə dövlətin malik olduğu tənzim və təşviqedici bütün tədbirlər sistemindən daha səmərəli istifadə etmək çox vacibdir. Bu baxımdan taxılçılıq, quşçuluq, kartofçuluq və digər mühüm sahələrin sürətli inkişafı üçün geniş perspektivlər açılır.

2.Kənd təsərrüfatı məhsullarının emalı ilə məşğul olan sənaye sahələrinin sürətli inkişafı son illər daha çox hiss edilir və dövlətin tənzim və

təşviqedici tədbirlərinin bu istiqamətdə daha da optimallaşdırılması vacibdir. Çünki ölkə başçısı göstərmişdir ki, kənd təsərrüfatı məhsulları emal edən sənaye sahələrinin inkişafı sahəsində "artıq çox uğurlu addımlar atılıbdır. Azərbaycanın müxtəlif bölgələrində yeni, müasir, dünya standartlarına cavab verən emal müəssisələri yaranmaqdadır. Bu həm işsizlik probleminin aradan qaldırılmasına kömək göstərir, həm də eyni zamanda, yerli istehsalın inkişafı üçün gözəl zəmin yaradır". Əlavə olaraq onu da göstərmək lazımdır ki, aqrar sahənin inkişafı həm də xarici bazarları itirilmiş bəzi yerli məhsullara olan daxili tələbatın çoxalmasına, habelə idxalın əvəz olunması yolu ilə valyutaya qənaət edilməsinə və ixracatın artırılmasına gətirib çıxaracaqdır. Bu sahədə Türkiyə təcrübəsinin öyrənilməsi əhəmiyyətli ola bilər.

3.Kənd təsərrüfatının ənənəvi ixracyönlü sahələrinin sürətli inkişafı üçün dövlət tədbirləri sisteminin səmərəliliyinin daha da artırılması tələb olunur.Bu aqrar bölmənin özü və habelə sənaye istehsal təyinatlı məhsul idxalı üçün zəruri olan valyuta ehtiyatının əldə edilməsinə imkan yaradar. Yüksək dərəcədə rentabelli olan pambıq, tütün və üzüm istehsalının böhranlı vəziyyətdən çıxarılması, digər perspektivli (qoz-fındıq və s.) məhsulların istehsalının daha da artırılması çox vacibdir.

Beləliklə, Azərbaycanda qeyri-neft sektorunun inkişafının təmin edilməsi və qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi üçün hələ hərəkətə gətirilməmiş potensial imkanlar kifayət qədər çoxdur.Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" 24 noyabr 2003-cü il tarixli Fərmanı həmin potensial imkanları səfərbər etməklə ölkə iqtisadiyyatının, o cümlədən qeyri-neft sektorunun daha dinamik inkişafına yönəldilmiş mühüm sənəddir.

3.2. Açıq iqtisadiyyat şəraitində Azərbaycanda kənd təsərrüfatı: problemlər, perspektivlər

"Azərbaycan və müasir dünya". IV ümumrespublika elmi praktik konfransının materialları. Azərbaycan Universiteti. Bakı, 2002, s. 52-60.

Postsovet respublikalarının, o cümlədən Azərbaycanın müstəqil inkişaf təcrübəsi göstərir ki, qapalı iqtisadi sistemin açıq iqtisadiyyat modeli ilə əvəz olunması, dünya bazarı ilə intensiv inteqrasiya tərəqqi üçün geniş perspektivlər açmaqla yanaşı, insanların alışmadığı və gözləmədiyi tamamilə yeni proseslərin, yeni çətinliklərin və yeni problemlərin üzə çıxması ilə müşayiət olunur.Ona görə də iqtisadiyyatın ən qapalı sahəsi olan kənd təsərrüfatının qloballaşmanın tələblərinə necə cavab verdiyinin və həmin mühitə necə adaptasiya olunduğunun nəzərə alınması böyük aktuallıq kəsb edir.

Məlumdur ki, Azərbaycanda hələ qədim dövrlərdən kənd təsərrüfatı

istehsalı sahəsində zəngin ənənə mövcuddur.Aqrar bölmə Azərbaycanın ictimai-iqtisadi həyatında öz mühüm rolunu bu gün də qoruyub saxlamaqdadır. Belə ki, Azərbaycan əhalisinin yarısı (48,3%-i) kəndlərdə yaşayır; iqtisadiyyatda məşğul olan əhalinin isə 40% qədəri kənd və meşə təsərrüfatında çalışır; başqa sözlə, aqrar sektor həcminə görə əhalini işlə təmin edən ikinci bölmə sayılır. Hal-hazırda ümumi daxili məhsulun 5,9%-i bu sahədən qaynaqlanır.Respublika əhalisinin gəlirlərinin böyük hissəsi isə yeyinti və kənd təsərrüfatı məhsullarının alınmasına sərf edilir.

Rəqəmlərin təhlili onu da göstərir ki, Azərbaycan kimi zəngin iqlim və torpaq amillərinə malik olan bir respublika SSRİ adlanan zəif bir aqrar məkanın ən geridə qalmış regionlarından biri idi.

Məlum olduğu kimi, 70-80-ci illərdə respublika rəhbərliyi Azərbaycan kənd təsərrüfatının SSRİ-nin orta göstəricilərinə nisbətən sürətli inkişafını təmin etmiş, onun maddi-texniki bazasının möhkəmləndirilməsi sahəsində əhəmiyyətli işlər görmüşdür.Görülən işlər nəticəsində bu sahədə məlum irəliləyişlər özünü göstərmiş və ümumi milli məhsulun istehsalında kənd təsərrüfatının payı 1980-ci ildə 28%-dən 1990-cı ildə 37,5%-ə yüksəlmişdir. Lakin, bu irəliləyişlər respublikamızı SSRİ tərkibində kənd təsərrüfatı istehsalı baxımından geridə qalmış region olmaqdan xilas edə bilməmişdir.

Bunun ən bariz göstəricisi adambaşına istehsal edilən kənd təsərrüfatı məhsullarının miqdarıdır.Həmin göstərici 1990-cı ildə SSRİ-də 754 rubl təşkil etdiyi halda, Azərbaycanda cəmisi 493 rubl idi. Başqa sözlə, adambaşına kənd təsərrüfatı istehsalı respublikamızda orta İttifaq göstəricisinin cəmisi 65%-i, Ukrayna və Qazaxıstanın 52,2%-i və Belarusiyanın 42,2%-i səviyyəsində idi. Respublikamız bir çox kənd təsərrüfatı məhsulları istehsalı sahəsində məhsuldarlıq baxımından digər respublikalarla müqayisədə xeyli geri qalırdı (bax:cədvəl №1).Tarixən maldarlığın geniş inkişaf etdiyi ölkəmizdə "yenidənqurma" adlanan dövrdə adambaşına ət və süd istehsalı orta İttifaq göstəricisindən 2,5-3 dəfə geri qalırdı. Kənd təsərrüfatında çalışan hər işçinin əmək məhsuldarlığı 1985-1990-cı illərdə SSRİ üzrə hər il müəyyən artım tempi göstərdiyi halda, (1986-cı ildə 8,5, 1987-ci ildə - 12,2; 1988-ci ildə - 19,2; 1989 - 24%; 1990- cı ildə - 20,2%), Azərbaycanda nəzərəçarpacaq azalma meyli (1986 - 7,3%, 1987 - 13,5%, 1988 - 14,7%, 1989 - 29,9%, 1990- 23,9%) görünürdü.[1]

[1]"Народное хозяйство СССР в 1990 г.".М.,1991,стр.72-74,455.(hesablamalar bizimdir-D.V.)

Cədvəl № 1

Müqayisəli rəqəmlərlə əsas kənd təsərrüfatı məhsulları üzrə məhsuldarlıq və adambaşına istehsal* 1990-cı il

	SSRİ	RSFSR	Ukrayna	Özbəkistan	Belarus	Gürcüstan	Azərbaycan
1. Xam-pambıq (hər ha-dan sent)	26,2	...	...	27,6	...	...	20,6
2. Kartof (hər ha-dan sent)	109	99	117	80	135	106	78
3. Meyvə və giləmeyvə (hər ha-dan sent).	40,4	36,1	42,3	46,7	31,9	55,9	28,2
4. Adambaşına ət istehsalı (kəsilmiş, kq)	69	68	84	23	115	31	25
5. Adambaşına süd istehsalı (l)	374	375	472	147	724	120	137
6. Hər inəkdən süd sağımı(l)	2853	2781	2940	2578	3220	1619	1746

* Народное хозяйство СССР в 1990 г. М., 1991, стр. 69-71, 471, 472, 476, 485, 503, 504, 509 (hesablamalar bizimdir - D.V.).

Beynəlxalq əmək bölgüsü baxımdan nəzərdən keçirildikdə isə aydın olur ki, kənd təsərrüfatı istehsalı ölkəmizdə daha qapalı xarakter daşıyır və onun "beynəlxalq" əlaqələri yalnız SSRİ məkanı daxilində cərəyan edirdi.Bu əlaqələr isə birtərəfli formalaşır, əlverişli torpaq və iqlim şəraitinə malik olan Respublika kənd təsərrüfatı ümumittifaq xalq təsərrüfatı kompleksinin tərkib hissəsi və onun ehtiyaclarına uyğun aqrar xammal bazası kimi inkişaf edirdi. Belə ki, respublikamızın kənd təsərrüfatı SSRİ-nin hərbi-sənaye kompleksinin ucuz pambığa, nəhəng spirtli içkilər sənayesinin xammala (üzüm) və iri sənaye mərkəzlərinin meyvə-tərəvəzə olan ehtiyaclarının ödənilməsi sahəsində ixtisaslaşırdı.

Müstəqillik əldə etdikdən sonra Azərbaycanın öz zəngin təbii sərvətlərinə şəriksiz hakim olması və onlardan respublika əhalisinin maddi rifahının yaxşılaşdırılması məqsədilə səmərəli istifadə etməsi üçün geniş imkanlar yarandı.Böyük bir imperiyanın tərkibindən ayrılan respublikamızda müstəqil dövlət quruculuğu, inzibati-amirlik sisteminin buxovlarından azad olunması, bazar mexanizminin yaradılması və dünya birliyinə inteqrasiyanın başlanması prosesləri istər ölkənin bütün təsərrüfat mexanizmində, istərsə də onun tərkib hissəsi olan kənd təsərrüfatında keyfiyyətcə tamamilə yeni iqtisadi mühitin meydana gəlməsinə səbəb oldu. Bazar iqtisadiyyatının əsaslarının qoyulması dönməz bir prosesə çevrilmiş respublikamızda aqrar islahatların və müstəqil torpaq siyasətinin formalaşmasına və həyata keçirilməsinə başlandı.

Milli Məclis "Torpaq bazarı haqqında", "Girov haqqında" qanunlar qəbul edərək torpaq bazarının təşkilinin və torpaq bazarında iqtisadi və hüquqi münasibətlərin tənzimlənməsinin əsaslarım müəyyən etmişdir.Kənd təsərrüfatının mühüm sahəsi olan heyvandarlığın tələbatının ödənilməsi və inkişaf etdirilməsi üçün 1931,4 min hektar yay və qış otlaq sahəsi ayrılmışdır ki, bu da respublikanın ümumi torpaq fondunun 22,3%-i təşkil edir.

Torpaq islahatlarının həyata keçirilməsi, qiymətlər üzərindən nəzarətin götürülməsi, istehlakçılara və zərərlə işləyən istehsalçılara subsidiyaların ləğv edilməsi, ərzaq məhsullarının emalı və bölgüsü kanallarının sərbəstləş-dirilməsi və yenidən qurulması nəticəsində[2] aqrar sənaye kompleksi bazar sisteminə yaxınlaşdırılmağa başlamışdır.

Bütün bu köklü dəyişikliklər öz əksini kənd təsərrüfatı məhsullarının təsərrüfat kateqoriyaları üzrə strukturunda da tapmışdır. Belə ki, əhali və kəndli (fermer) təsərrüfatlarının payı ümumi kənd təsərrüfatı məhsullarının istehsalında 1991-ci ildə 38,5%-dən 1999-cu ildə 95,6%-ə (o cümlədən bitkiçilikdə 92,8%-ə və heyvandarlıqda 98,7%-ə) çatmışdır.

Müstəqillik illəri ilə aqrar bölmədə vəziyyətin təhlili göstərir ki, müəyyən sahələrdə irəliləyişlər olsa da, bir çox mühüm sahələrdə geriləmə özünü göstərir və ümumiyyətlə, kənd təsərrüfatı böhran vəziyyətindən çıxa bilməmişdir. Belə ki, kənd təsərrüfatı məhsulunun payı ümumi daxili məhsulda 1990-cı ildə 26,6%-dən 2000-ci ildə 18,1%-ə enmişdir.İstehsalın səmərəliliyinin mühüm göstəricilərindən biri hesab edilən adambaşına məhsul istehsalı 1995-1999-cu illərdə daha da azalmışdır.Belə ki, məşğul olan hər bir əhaliyə istehsal olunan məhsul miqdarı sənayeyə nisbətən kənd təsərrüfatında 1990-cı ildə 54,6%-dən 1999-cu ildə 11,9%-ə enmişdir[3]. Qeyd olunan illərdə kənd təsərrüfatına kapital qoyuluşu iqtisadiyyata yönəldilən cəmi investisiyaların 14%-dən 1,2%-ə enmişdir. Həmin sahədə orta əmək haqqı isə 1990-cı ildə sənayeyə nisbətən 35% olduğu halda 1999-cu ildə cəmisi 18,6% təşkil etmişdir[4] .Müstəqilliyin ilk illərindən özünü göstərən dərin iqtisadı böhran kütləvi surətdə iş yerlərinin bağlanması və işsizliyin ciddi olaraq artması ilə müşayiət olunmuşdur.Belə ki, 1990-1999-cu illərdə sənayedə məşğul olan əhalinin sayı 1990-cı ildə 469,1 min nəfərdən 1999-cu ildə iki dəfədən çox azalaraq 202 min nəfərə enmişdir.Bunun tamamilə əksi olan proses kənd təsərrüfatında özünü göstərmişdir.Belə ki, aqrar bölmədə məşğul olan əhalinin xüsusi çəkisi ümumi məşğulluqda 30,9%-dən 42,0%-ə yüksəlmişdir.Kənd təsərrüfatına kapital qoyuluşlarının və əmək haqqının

[2]Q.Məmmədov.Torpaq islahatları mərhələli və uzunmüddətli prosesdir. "Azərbaycan", 18.01. 2001.

[3] "Azərbaycanın kənd təsərrüfatı".Statistik məcmuə.Bakı, 2000, s. 40-41.(hesablama bizimdir-D.V).

[4] Yenə orada.(hesablama bizimdir-D.V.).

səviyyəsinin azaldığı bir şəraitdə sənayedə işini itirənlərin kəndlərə kortəbii axını burada sosial vəziyyəti olduqca gərginləşdirmişdir.

"Aqrar sahədə islahatların sürətləndirilməsinə dair bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası prezidentinin Fərmanında (22 mart 1999-cu il) birmənalı şəkildə göstərilir: "... aqrar sahədə mövcud olan istehsal münasibətləri bazar iqtisadiyyatı tələblərinə uyğunlaşdırılmır. ...Mövcud olan problemlərin elmi təhlili aparılmır, bunun nəticəsində aqrar sahədə planlaşdırılmış maliyyə, kredit, bank, vergi, qiymət, daxili bazarın qorunması tədbirlərini nəzərdə tutan ... proqram indiyə qədər hazırlanmamışdır" [5] .Deyilənlərdən göründüyü kimi, əhalinin ərzaqla və aqrar sənaye kompleksinin xammal ilə təmin olunmasında müstəsna rol oynayan aqrar bölmə iqtisadiyyatın yenidən qurulması strategiyasında milli prioritet kimi cəmiyyət və dövlət tərəfindən ciddi diqqət ayrılmasını tələb edir.Qloballaşma və Azərbaycanda dönmədən "açıq iqtisadiyyat" inkişaf modeli tətbiq edildiyi bir şəraitdə aqrar-sənaye kompleksinin tənəzzül vəziyyətindən çıxarılması və dünya bazarının şərtlərinə uyğunlaşdırılması aqrar biznesin xüsusiyyətləri və dünyada bu sahədə "yaşıl inqilabı" yaradan amil və proseslər nəzərə alınmadan mümkün deyildir.

Azərbaycan Respublikası müstəqillik illərində kənd təsərrüfatının inkişaf etdirilməsi üçün, yuxarıda göstərildiyi kimi, müstəqil aqrar siyasət hazırlayıb həyata keçirir, kənddə özəl mülkiyyətin yaranıb genişlənməsi üçün tədbirlər görür.Müəyyən miqdarda dövlət damazlıq və toxumçuluq təsərrüfatları, avtoservislər yaradılıbdır.Aqrar bölməyə yanacaq güzəştli şərtlərlə verilir. Lakin kənd təsərrüfatında yaranmış ağır vəziyyət tələb edir ki, kənddə vəziyyəti kökündən yaxşılaşdırmaq və aqrar bölməni müasir tələblərə uyğunlaşdırmaq üçün dövlət tərəfindən irimiqyaslı iqtisadi və sosial proqramlar hazırlanıb həyata keçirilsin, bu sahədə geniş himayəçilik siyasəti tətbiq edilsin, kənd təsərrüfatı büdcədən birbaşa dəstəklənsin. Himayəçilik tədbirləri qiymət, dotasiya və maliyyə-kredit amillərindən geniş istifadə edilərək həyata keçirilməlidir. Aqrar sahədə himayəçilik qiymətlərdəki qeyri-mütənasibliyin ləğv edilməsi, inhisarçılığın qarşısının alınması, kənd əmtəə istehsalçılarını tənzimlənməyən idxaldan müdafiə edilməsi yolları ilə, lizinq fondları, kooperativ birlikləri və s. yaradılmaqla həyata keçirilməlidir.Kənd təsərrüfatında elmi-tədqiqat işlərinin və təcrübə-istehsalat təsərrüfatlarının maliyyələşdirilməsi diqqət mərkəzində olmalıdır.Lakın, araşdırmalar göstərir ki, aqrar sahədə özünü göstərən uzunmüddətli böhranın mühüm səbəblərindən biri məhz dövlət tənzimləmələrinin səmərəli olmaması ilə əlaqədardır.Sənaye məhsulları ilə kənd təsərrüfatı məhsulları qiymətləri arasında getdikcə dərinləşən qeyri-mütənasiblik, aqrar bölmədə istehsalın maddi-texniki təchizatının bərbad vəziyyətdə olması, onun səmərəliliyinin daha da pisləşməsi, ödəmə qabiliyyətli istehlak tələbinin azalması, idxalatın durmadan artması iqtisa-

[5] Səttar Səfərov.İqtisadi siyasət strategiyası.Konseptual əsaslar.Bakı, 2000, s. 277.

diyyatda, o cümlədən aqrar bölmədə dövlət tənzimləmələrinin qeyri-səmərəli olmasının inkaredilməz nəticələridir.

Dağınıq xırda istehsalçıları şəhərlərin təşkil olunmuş bazarlarının möhtəkir və digər inhisarçı güclərindən, inhisarlaşmağa başlayan kənd təsərrüfatı məhsulları alıcılarının qeyri-bərabər rəqabətindən qorumaq ön plana çəkilməlidir. Məlum olduğu kimi, kənd təsərrüfatı məhsullarının qiymətləri bütün dünyada olduğu kimi qeyri-sabitdir və ona görə də bazarın sabitləşdirilməsi üçün bu sahəyə ciddi dövlət müdaxiləsi tələb olunur.Ekspertlərin fikrincə, Avropa Birliyində və ümumiyyətlə, bazar iqtisadiyyatının digər inkişaf etmiş ölkələrində ərzaq bolluğu əhəmiyyətli dərəcədə fermerlərə dövlət yardımı və bu sahəyə səmərəli dövlət müdaxiləsi nəticəsində mümkün olmuşdur.

Müasir aqrar siyasətdə iki mühüm məqsəd qarşılıqlı vəhdət təşkil edir: sabitləşdirmə və fermerləri dəstəkləmə. Ölkələrin çoxunda aqrar bölmə məhsullarının qiymətlərinə müdaxilə bu iki məqsədə nail olmaq üçün həyata keçirilir.

Bütün dünyada olduğu kimi, satışla məşğul olan ixtisaslaşmış kənd təsərrüfatı müəssisələri yaradılmalı, istehsalçıları həvəsləndirən qiymət siyasəti həyata keçirilməli, bu məqsədlə dövlət subsidiyalarından geniş istifadə edilməlidir. Bir çox keçid iqtisadiyyatı və inkişaf etməkdə olan ölkələrin təcrübəsi göstərir ki, kənd təsərrüfatına laqeyd münasibət, xüsusən, digər iqtisadiyyat sahələrinin məhsullarına nisbətən aqrar bölmə məhsulları qiymətinin aşağı səviyyədə saxlanılması bütün iqtisadi inkişaf prosesini təhlükə altına alır. Fermer təsərrüfatlarının gəlirlərinin artması kənddə sosial gərginliyi azaltmaqla, kəndlər sənaye bölməsində yaradılan istehsal və istehlak təyinatlı məhsulların satış bazarına çevrilə bilər.

3.3. Kənd təsərrüfatında dövlət tənzimləmələri: qabaqcıl dünya təcrübəsinə dogru

“Xalq qəzeti”, 15, 16, 17, 18.01.2007.

I məqalə

XXI əsr tarixə sivilizasiyanı keyfiyyətcə yeni bir mərhələyə yüksəldən qloballaşma əsri kimi daxil olmuşdur. Ona görə də ictimai-iqtisadi inkişafın qanunauyğunluqlarının öyrənilməsi və real həyatda tətbiqi getdikcə daha çox qlobal yanaşma tərzini tələb edir. Bu və ya digər ölkədə gedən daxili proseslər özünün fərqləndirici cəhətlərinə baxmayaraq ümümdünya proseslərinin tərkib hissəsidir. Ona görə də hər bir ölkənin spesifik problemləri dünyadan gedən dərin proseslərlə, yeni şəraitlə sıx surətdə əlaqələndirilməlidir.

Kənd təsərrüfatı inkişafın prioritet istiqamətlərindən biridir. Qabaqcıl təcrübə göstərir ki, əhalinin ərzaqla və aqrar sənaye kompleksinin xammal ilə

təmin olunmasında müstəsna rol oynayan aqrar bölməyə iqtisadiyyatın yenidən qurulması strategiyasında milli prioritet kimi cəmiyyət və dövlət tərəfindən ciddi diqqət ayrılır.

Ənənəvi olaraq əvəllər bir çox ölkələrdə kənd təsərrüfatına passiv, tabeli rol ayrılırdı. Qərb ölkələrinin təcrübəsinə əsaslanaraq hesab edilirdi ki, iqtisadi inkişafın zəruri şərti təsərrüfatın aqrar strukturunun sənayeyə xidmət edən inkişaf etmiş sahələrinin sürətlə yenidən qurulmasıdır. İqtisadi inkişaf strategiyalarının əsas vəzifəsi iqtisadiyyatın "lokomotivi" hesab edilən sənayenin artımı hesab edilirdi, kənd təsərrüfatına isə ucuz ərzaq və işçi qüvvəsinin təchizatçısı kimi baxılırdı.Bu sahədə ən geniş yayılmış nəzəriyyələrdən biri Nobel mükafatı laureatı Artur Lyuns tərəfindən 50-ci illərdə əsasandırılmış 2 sektorlu inkişaf modelini göstərmək olar.Bu nəzəriyyə ucuz işçi qüvvəsi bol olan iqtisadiyyata malik inkişaf etməkdə olan ölkələr üçün nəzərdə tutulmuşdur. Bu model Qərb ölkələrinin tarixi inkişaf yolunu əks etdirsə də, keçid iqtisadiyyatı ölkələrinin iqtisadi tələbatı və reallıqlarına cavab vermir.Başqa sözlə, kənd təsərrüfatına tabeli və passiv rol ayrılması qloballaşma dövründə reallıqdan uzaqdır.Çünki ərzaq təminatının kəskinləşərək qlobal problemə çevrilməsi bütün dünyada kənd təsərrüfatı istehsalına diqqəti olduqca artırmış və onun köklü surətdə yenidən qurulmasını ön plana çəkmişdir. Bəşəriyyət tarixində ilk dəfə olaraq XX əsrin ortalarından başlayaraq elmi - texniki tərəqqinin bilavasitə təsiri altında aqrar iqtisadiyyatda intensiv modernləşdirmə prosesi gedir ki, bu da öz ifadəsini keyfiyyətcə yeni istehsal növünün yaradılmasında tapmışdır. Həmin prosesin mahiyyəti kənd təsərrüfatında ictimai əməyin sənaye formasının tətbiqində (ənənəvi, sənayedən əvvəlki formasının əvəzinə) və ona uyğun sosial təsisat formasının yaranmasında tapmışdır.İnkişaf etmiş ölkələrdə meydana gəlmiş "yaşıl inqilab" adlanan texniki irəliləyiş 60-cı illərin ikinci yarısından sonra Asiya, Afrika və Latın Amerikası ölkələrində kənd təsərrüfatı, hər şeydən əvvəl ərzaq üzrə yeni hibrid çeşidlərinin yaranmasında tapır ki, bunlar da yalnız gübrə, kimyəvi maddələr, texnika və texnologiyadan səmərəli istifadə olunması və işçi qüvvəsinin ixtisas səviyyəsinin yüksəldilməsi əsasında mümkündür. "Yaşıl inqilab",bir sözlə, kənd təsərrüfatında intensivləşdirmə və səmərəlilik göstəricilərini tarixdə görünməmiş bir səviyyəyə qaldırmışdır.

70-90-cı illərdə dünyada iqtisadi inkişafın dərk edilməsində daha əhəmiyyətli dəyişikliklər baş verdi və aparıcı mütəxəssislər artıq hesab edirlər ki, kənd təsərrüfatı inkişafın aparıcı həlqələrindən birinə çevrilməli, onun dayanıqlı inkişafı təmin edilməlidir. Kənd təsərrüfatının dayanıqlı inkişafı dedikdə isə təbiət hadisələrindən kəskin sürətdə asılı olan həmin sahənin hər bir istehsalat tsiklində geniş təkrar istehsalı imkanlarının ardıcıl olaraq artırılması nəzərdə tutulur.

Səmərəli dövlət tənzimləmələri kənd təsərrüfatında baş verən inqilabi xarakterli dəyişikliklərin əsasıdır. Araşdırmalar göstərir ki, istər inkişaf etmiş,

istərsə də inkişaf etməkdə olan ölkələrdə aqrar bölmə intensiv dövlət tənzimləmələrinin həyata keçirildiyi az sayda sahələrdən biridir, daim siyasi iradənin diqqət mərkəzindədir, ciddi təşkilatçılıq səyləri və nəhəng maliyyə vəsaiti tələb edir. Yalnız onu göstərmək kifayətdir ki, hələ keçən əsrin sonlarında kənd təsərrüfatının dəstəklənməsi üçün orta hesabla hər il bütün dünyada təxminən 350 milyard dollar vəsait xərclənirdi.

Kənd təsərrüfatına güclü dövlət müdaxiləsini və genişmiqyaslı tənzimləmələri zəruri edən amillər bunlardır: xarici ticarətlə əlaqədar olan amillər; kənd təsərrüfatı subyektlərinin gəlirlərinin sabitləşdirilməsi və müəyyən səviyyədə saxlanılması zəruriliyi; kənd ərazilərinin inkişaf etdirilməsi zəruriliyi; ekologiya və təbiətin mühafizəsi ilə əlaqədar olan amillər.

Məlum olduğu kimi, kənd təsərrüfatı, maddi istehsalın təbii-iqlim hadisələrindən bilavasitə asılı olan xüsusi bir sahəsidir. Geniş bir ərazidə yerləşən kənd təsərrüfatı istehsalçılarının iş şəraiti qeyri-bərabərdir. Təbii iqlim parametrlərinə, torpağın məhsuldarlığına istehsal və sosial sturukturunun inkişaf səviyyəsinə görə bir-birindən fərqlənir. Onlar daşqın, quraqlıq və ziyanvericilərin hücumuna məruz qalaraq böyük risklə əlaqədardırlar. Bundan başqa mütəxəssislər hesab edirlər ki, kənd təsərrüfatı istehsalının sabit və dinamik inkişafı bütövlükdə ölkə iqtisadiyyatının dayanıqlı inkişafının əsasını təşkil edir. Onu da nəzərə almaq lazımdır ki, ölkənin iqtisadi inkişafına öz töhfəsini verən kənd istehsalçıları torpağın kapital-torpağa çevrilməsi üçün qeyri - mütənasib məsrəflər etməyə məcburdurlar. Ona görə də sahibkarlıq fəaliyyətinə başlamaq və geniş təkrar istehsalını həyata keçirmək üçün nisbətən böyük həcmli kapital tələb olunur. Onların gəlirləri isə, bir qayda olaraq, başqa sahədə çalışan sahibkarlara nisbətən aşağı səviyyədədir. Nəhayət, fermerlər və digər kənd təsərrüfatı istehsalçıları bazarda daha sərt rəqabətlə qarşılaşırlar, istehlak etdikləri məmulatları isə, adətən, bazar hökmranlığının mövcud olduğu sahələrdən alırlar. Kənd təsərrüfatı məhsullarının istehlakçısı olan aqrar - sənaye kompleksinin sahələrində isə, adətən, inhisarçılar hökmranlıq edirlər.

Bütün bu deyilən və deyilməyən amillər mürəkkəb şəraitdə fəaliyyət göstərən aqrar bölmənin ciddi dövlət dəstəyinə ehtiyacı olduğunu göstərir. Aqrar sənaye istehsalının dayanıqlı inkişafı çoxsaylı amillərdən yalnız kompleks, sistemli şəkildə istifadə edilməsi yolu ilə mümkündür.

Dünya dövlətlərinin təcrübəsi göstərir ki, aqrar bölmədə dövlət tənzimlənmələri sistemi olduqca genişdir. Dünyanın aparıcı alimləri hesab edirlər ki, müasir dövrdə kənd təsərrüfatının hərtərəfli inkişafını nəzərdə tutan dövlətin iqtisadi inkişaf strategiyası ən azı üç əsas ünsürü özündə birləşdirməlidir:1) istehsalın artım sürətinin, hər şeydən əvvəl xırda fermer təsərrüfatlarında yeni texnika və texnologiyanın tətbiqi, iqtisadiyyatın idarəetmə strukturunun təkmilləşdirilməsi və qiymət siyasəti nəticəsində xırda fermer təsərrüfatlarının

məhsuldarlığının artırılması hesabına təmin edilməsi; 2) şəhərlərdə məşğulluğun artırılması yolu ilə kənd təsərrüfatı məhsullarına daxili tələbin artırılması; 3) kənd yerlərində kənd əhalisinə xidmət edən və kənd təsərrüfatına əsaslanan qeyri-aqrar əmək tutumlu istehsalın şaxələndirilməsi.

II məqalə

Qabaqcıl dünya dövlətlərinin çoxunda dövlət tənzimləmələri sistemində kənd təsərrüfatı kooperativlərinin yaradılması və onların inkişafının hərtərəfli dəstəklənməsi mühüm yer tutur.Torpağın birgə becərilməsi, maşın və texnikadan birgə istifadə edilməsi, qarşılıqlı yardım, inhisarlara qarşı birgə mübarizə aparılması məqsədilə kənd əmtəə istehsalçılarının kooperativlərdə könüllü birləşməsi geniş yayılmışdır.Kooperativlər bəzən yalnız istehsal sahəsində əməkdaşlıq etmək məqsədilə deyil, həm də daha geniş məqsədlərlə (istehsal funksiyası təchizat-satış, istehsal-xidmət, kənd təsərrüfatı məhsullarının emalı) yaradılır və müvəffəqiyyətlə fəaliyyət göstərirlər.Çünki kənd təsərrüfatı istehsalının və fermerlərin rəqabət mübarizəsində qeyri-sabitliyi burada istehsalın səmərəliliyinin aşağı olması, elmi-texniki inqilabın tələblərinə uyğunlaşmanın zəruriliyi xırda və orta əmtəə istehsalçılarını birləşməyə vadar edir. Bu birləşmədə bəzən qohumluq əlaqələri əsas olur.Maşınlardan birgə istifadə edilməsi üzrə də kooperativlər geniş yayılmışdır.Kənd təsərrüfatı kooperativlərinin hərtərəfli inkişafı bir çox ölkələrdə dövlətin aqrar siyasətinin əsasını təşkil edir.

Yaponiya təcrübəsi. Yerli kənd təsərrüfatı istehsalçılarının yüksək dərəcədə dəstəklənməsində klassik nümunə kimi həmişə Yaponiyanın təcrübəsi misal göstərilir. 80-cı illərin ortalarından bu məsələdə ciddi dönüş baş verdi.Belə ki, dünya ölçülərinə uyğun rəqabət qabiliyyətli məhsul istehsal olunmasında torpağın az olduğu və xırda kəndli təsərrüfatının üstünlük təşkil etdiyi bir şəraitdə ölkənin ərzaqla özü-özünü təmin etmək probleminin həlli işində ciddi çətinliklər özünü göstərdi.Belə bir şəraitdə Yaponiya daxili bazarda dayanıqlı tələbatın mövcud olduğu ərzaq məhsulları istehsalının beynəlxalq diversifikasiyası modelinə keçdi.Müştərək müəssisələrin yaradılması, aqrar bölməyə irimiqyaslı investisiyalar qoyulması və yeni texnologiyanın tətbiq edilməsi, "üçüncü dünya" ölkələrinin kənd təsərrüfatı istehsalına kapital ixrac edilməsi yolu ilə Yaponiya dövləti ölkənin ərzaqla təmin olunmasında və xarici konyukturadan asılılığının azaldılmasında ciddi irəliləyişə nail oldu.

İkinci dünya müharibəsindən sonra Yaponiyada kənd təsərrüfatının yenidən qurulmasının mərkəzi məsələlərindən biri torpaqlar kəndlilərin mülkiyyətinə verilən zaman kooperasiyaların sürətli inkişafı olmuşdur. Bu dövrdə Yaponiya hökuməti Amerika məsləhətçilərinin, xırda mülkiyyətçilərin öz müqəddəratını özlərinin müəyyən etməsi haqqında verdikləri təklifi qəbul etmədi.

Ölkədə Amerika mütəxəssislərinin təkliflərinin əksinə olaraq istehsalçılar kooperativlərdə geniş miqyasda birləşməyə başladılar.Bütün dünyada olduğu kimi, kooperativin üzvləri özləri üçün idarə orqanlarını seçdilər və ümumi səsvermə yolu ilə öz fəaliyyətlərinin bir çox məsələlərini həll etməyə başladılar. Lakin dövlət də özü üçün təsiretmə mexanizmi yaratdı. Kooperativləri bir neçə vergi növünün ödənilməsindən azad etdi. Onların inkişafı üçün vəsait ayıraraq, kooperativlərin yaradılması, buraxılması, birləşməsi, bölünməsi, nizamnamələrinin dəyişdirilməsi prosesində dövlət yaxından iştirak etməyə başladı.Dövlət orqanları kooperativlərin işləri haqqında məlumat ala bilər, vəzifəli şəxslərin yenidən seçilməsini təşkil edə bilərdi. 80-ci illərin ortalarından ölkənin aqrar siyasətində təshihlər edilməyə başlandı.Belə ki, əgər əvvəllər iqtisadi yardım istisnasız olaraq hamıya edilirdisə, indi bu yardımlar nisbətən irimiqyaslı, yüksək rentabelli təsərrüfatlara yönəldilir.Onların sürətlə səmərəli və rəqabət qabiliyyətli təsərrüfatlara çevrilməsi vəzifələri qarşıya qoyulmuşdur.

Dövlətlərin əksəriyyətində aqrar - ərzaq bölməsinin dövlət tərəfindən tənzimlənməsi sistemində kənd istehsalçılarının gəlirlərinin sabitləşdirilməsi və artırılması aparıcı mövqelərdən birini tutur. Bu tədbirlər arasında kənd təsərrüfatı məhsulları bazarında təklifin tənzimlənməsi, kənd təsərrüfatı məhsullarının dövlət tərəfindən satın alınması, istehsalçılara qiymətlə əlaqədar birbaşa subsidiyaların verilməsi, ticarət tədbirləri vasitəsilə kənd təsərrüfatı məhsullarına olan tələb və təklifin tənzimlənməsi mühüm yer tutur.

Kənd təsərrüfatında istehsal xərclərinin aşağı salınmasına yönəldilmiş tədbirlər sistemi də ayrıca həyata keçirilir. Burada əsas mexanizm aqrar istehsal üçün ehtiyatlara subsidiyalar verilməsidir. Subsidiyalaşdırma üsulları çoxdur: istehsalçılar satın alınan hər vahid ehtiyat (məsələn: mineral gübrə) üçün qəti müəyyən edilmiş subsidiya yaxud həyata keçirilən hər hansı bir fəaliyyət növü (məsələn: meliorasiya işləri) üçün və yaxud da güzəştli kredit mənbəyi yaradılmaqla subsidiyalar ala bilərlər.

İstehsal məsrəflərinin azaldılmasına yönəldilmiş siyasət aqrar istehsalın subsidiyalaşdırılması mexanizminin əsas alətidir. Bu siyasət kənd istehsalçılarının mənfəətinin artırılmasına ucuzlaşdırılmış ehtiyatlara tələbin çoxalmasına, məhsul təklifinin artırılmasına, digər ehtiyatlara tələbin yüksəlməsinə səbəb olur.Satışdan əldə edilən gəlirlərin artırılması və istehsal xərclərinin azaldılmasına yönəldilən tədbirlər kənd təsərrüfatı istehsalçıları və ayrı-ayrı qrupların hamısına fayda verir.

Avropa Birliyinin 2007-ci ilə büdcəsi 105 milyard Avrodur.Onun təxminən yarısı kənd təsərrüfatına yönəldilir. Kəndlilərin dəstəklənməsinə ən çox vəsaiti Fransa 9,4 mlrd, sonra İspaniya 6,3, Almaniya 8,1, İtaliya isə 5 milyard Avro ayırır. Rumıniyada təsərrüfatların 86,4 %-i yardım alır. Onların əksəriyyəti xırda və orta təsərrüfatlardır ki, hər biri 1250-20000 Avro

məbləğində yardım alırlar.İri təsərrüfatların yalnız 11,1%-i yardım alır. Yardımın böyük əksəriyyəti taxıl və ət istehsalçılarına verilir.

Dotasiyaların tərkibini nəzərdən keçirdikdə məlum olur ki, məsələn, Finlandiyada onun 42%-i AB-nin büdcəsindən, 58%-i isə milli büdcədən maliyyələşir. Bu dotasiyalar da üç qrupa bölünür:vahid kənd təsərrüfat dotasiyaları (bitkiçilik və heyvandarlıq məhsullarına), əlverişsiz hava şəraiti və habelə ətraf mühitin qorunması üçün verilən dotasiyalar. AB-dən alınan vahid kənd təsərrüfatı dotasiyalarının böyük əksəriyyəti satış fəaliyyəti ilə əlaqədardır. Dotasiyalar ölkə daxilində regiondan regiona fərqlənir.

Bunlarla yanaşı hökumət struktur siyasəti də həyata keçirir. Bu siyasət isə, adətən, fermerlərin sayının azaldılmasına və onların orta həcminin artırılmasına, yəni təmərküzləşməyə yönəldilir.

Rusiyada kənd təsərrüfatında dövlət tənzimləmələri "aqrar - sənaye istehsalının dövlət tənzimləmələri haqqında" qanuna əsasən həyata keçirilir. Qanunla dövlət tənzimləmələrinin aşağıdakı istiqamətləri müəyyən edilmişdir: kənd təsərrüfatı məhsullarından ibarət xammal və ərzaq bazarının formalaşması və inkişafı, kənd təsərrüfatının maliyyələşməsi, kreditləşdirilməsi, sığortası, güzəştli vergi alınması, xarici iqtisadi fəaliyyətdə kənd istehsalçılarının maraqlarının qorunması, aqrar-sənaye istehsalında elmi fəaliyyətin həyata keçirilməsi və inkişaf etdirilməsi, kənddə sosial sferanın inkişaf etdirilməsi və s.

Rusiya Federasiyası hökuməti bu yaxınlarda "Kənd təsərrüfatının inkişafı haqqında" yeni qanun layihəsinin konsepsiyasını təsdiq etmişdir. Qanun layihəsində aqrar - ərzaq siyasətinin əsas prinsipləri müəyyən edilmiş, kənd istehsalçılarının bütün kateqoriyalarının genişmiqyaslı dəstəklənməsi üçün dövlət tərəfindən tədbirlər sistemi hazırlanmışdır.

Kənd təsərrüfatı istehsalçıları gəlirlərinin sabitləşdirilməsi və artırılması üçün qiymətlərə dövlət müdaxilələri inkişaf etmişölkələr və inkişaf etməkdə olan ölkələrdə geniş yayılmışdır. Bu siyasət XX əsrdə "yaşıl inqilabın" həyata keçirilməsində mühüm rol oynamışdır.

Azərbaycanda aqrar bölmənin dövlət tərəfindən dəstəklənməsi və kompleksli dövlət tənzimləmələrinin həyata keçirilməsi zəruriliyi ümumdünya və spesifik ölkədaxili problemlərin kəsişmə nöqtəsindən irəli gəlir. Məlumdur ki, Azərbaycanda hələ qədim dövrlərdən kənd təsərrüfatı istehsalı sahəsində zəngin ənənə mövcuddur. Aqrar bölmə Azərbaycanın ictimai-iqtisadi həyatında öz mühüm rolunu bu gün də qoruyub saxlamaqdadır. Belə ki, Azərbaycan əhalisinin yarısı (48,3%-i) kəndlərdə yaşayır; iqtisadiyyatda məşğul olan əhalinin isə 40% qədəri kənd və meşə təsərrüfatında çalışır; başqa sözlə, aqrar sektor həcminə görə əhalini işlə təmin edən ikinci bölmə sayılır. Hal - hazırda ümumi daxili məhsulun 5,9%-i bu sahədən qaynaqlanır. Respublika əhalisinin gəlirlərinin böyük hissəsi isə yeyinti və kənd təsərrüfatı məhsullarının alınmasına sərf edilir.

Siyasi istiqlaliyyət əldə edildikdən sonra ölkəmizdə aqrar sektor məlum obyektiv və subyektiv amillərin təsiri altında mürəkkəb bir şəraitdə formalaşmağa başlamışdır. Sovet dövründə qapalı və birtərəfli inkişaf etmiş iqtisadi struktur "hazır" və nəhəng sovet bazarı ilələlaqələri pozulduqdan və dünya bazarı ilə ilk təmasdan sonra iflasa uğradı. Bu özünü kənd təsərrüfatı sahəsində daha qabarıq göstərdi.

Belə ki, əgər 1990-ci il səviyyəsini 100% götürsək, 1994-cü ildə ümumi daxili məhsulun real fiziki həcmi 47,8%-ə, sənaye istehsalı 38,3%-ə, kənd təsərrüfatı istehsalı isə cəmisi 56,4%-ə çatırdı. Avropa Komissiyası ekspertlərinin gəldiyi qənaətə görə, 1992-1994-cü illərdə baş verən dərin iqtisadi böhran nəticəsində dövlət əslində iqtisadiyyat üzərindəki nəzarəti itirmişdir. Bu dövrdə Azərbaycanda aqrar böhran dövrünü yaşayan digər ölkələrə nisbətən daha dərin olmuşdur. Məsələn, 1990-1995-ci illərdə kənd təsərrafatı istehsalının ümumi həcmi Rusiyada 33%, Bolqarıstanda 23%, Macarıstanda 27%, Polşada 18% aşağı düşdüyü halda Azərbaycanda 43,6% azalmışdır. Bunun başlıca səbəbləri yeni müstəqillik əldə etmiş respublikamızın müharibə şəraitində olması, torpaqlarının 20 %-nin erməni işğalçıları tərəfindən işğal edilməsi, idarəçilik təcrübəsinin olmaması, xarici iqtisadi əlaqələrin kəsilməsi, ölkədə hiperinflyasiyanın və siyasi qeyri-sabitliyin hökm sürməsi, iqtisadiyyatın sürətlə liberallaşdırılması və təsərrüfat həyatından dövlətin tədricən kənarda qalmağa başlaması, yeniləri yaradılmadığı və ya ləng yaradıldığı bir şəraitdə köhnə idarəçilik, maliyyə kredit, qiymət və vergi mexanizminin sürətlə ləğv edilməsi idi. Bir çox kənd təsərrüfatı məhsullarının (üzüm, tütün, çay yarpağı, pambıq) istehsalında mürəkkəb vəziyyət yaranmışdır.

3.4. Aqrar sektorda dövlət tənzimləmələri: dünya təcrübəsi və Azərbaycan reallıqları

I məqalə

Azərbaycanda aqrar bölmənin dövlət tərəfindən dəstəklənməsi və kompleksli dövlət tənzimləmələrinin həyata keçirilməsi zəruriliyi ümumdünya və spesifik ölkədaxili problemlərin kəsişmə nöqtəsindən irəli gəlir. Əhalinin ərzaqla və aqrar sənaye kompleksinin xammalla təmin olunmasında müstəsna rol oynayan aqrar bölməyə son illərdə iqtisadiyyatın yenidən qurulması strategiyasında milli prioritet kimi baxılır, cəmiyyət və dövlət tərəfindən bu məsələyə ciddi diqqət yetirilir.

Məlum olduğu kimi, bazar iqtisadiyyatı şəraitində kənd istehsalçılarının uğurlu fəaliyyəti əhəmiyyətli dərəcədə istehsal olunan məhsulların satılması ilə əlaqədardır. Başqa sözlə, satış probleminin bu sahədə böyük rolu vardır. Təbiət - iqlim şəraitindən ciddi asılı olan kənd istehsalçıları bütün ölkəyə

səpələnmişlər, dağınıqdırlar, şəhərlərdə toplanmış bazarlar isə kompaktdırlar. Dağınıq istehsalçılar istər-istəməz bazar inhisarçılığı ilə üzbəüz dayanırlar. Bu inhisarçılıq həm satışda, həm də kənd təsərrüfatı texnikası və gübrələrin alınmasında özünü göstərir.Belə bir şəraitdə kənd təsərrüfatı məhsulları qiymətlərinə dövlət müdaxiləsi, bu məhsulların qiymət mexanizmi vasitəsilə dəstəklənməsi bütün dünyada aqrar sektorun dayanıqlı inkişafının əsasını təşkil edir. Belə müdaxilənin həyata keçirilməsi üçün inkişaf etmiş ölkələrdə hökumət orqanları bir sıra iqtisadi göstəriciləri, ilk növbədə ixtisaslaşdırılmış təsərrüfatlarda istehsal xərclərinin səviyyəsi (Avropa Birliyi ölkələrində), istehsal növləri (ABŞ-da), sənaye və kənd təsərrüfatı məhsulları qiymətləri arasındakı nisbətin, ferma və istehsal sahələrində gəlir səviyyəsini diqqətlə izləyirlər. Bu göstəriciləri izləmək üçün dövri olaraq xüsusi hesabatlar tərtib edilir və dərc edilir. Onlar diqqətlə öyrənilir və cari dövrdə kənd təsərrüfatı məhsullarının qiyməti sahəsində yeridilən qiymət siyasətinin əsasını təşkil edir.

Qiymətlərə müdaxilə mexanizmi müxtəlif dövlətlərdə müxtəlif şəkildə həyata keçirilir.Perspektivdə Azərbaycanda da belə müdaxilənin inkişaf etdirilməsi zəruriliyini nəzərə alaraq qabaqcıl ölkələrdə həmin təcrübə haqqında ətraflı məlumat verilməsini məqsədəuyğun hesab edirik.ABŞ-da qiymət siyasəti iki növ qiymət mexanizmi vasitəsilə həyata keçirilir:1) məqsədli (zəmanətli); 2) girov qiymətləri.

Məqsədli qiymətlər ən mühüm məhsul növlərinə tətbiq edilir. Bu qiymətlər fermer təsrrüfatlarının istehsal xərclərinin ödənilməsi (istehsal xərclərinin tərkibinə fermer kapitalı üçün orta mənfəət norması və torpaq rentası daxil edilir) və onlar tərəfindən əlavə gəlir əldə edilməsini təmin etmək məqsədini güdür. Fermerlərin istehsal etdikləri məhsullar bazar qiymətləri ilə satılırlar. Bu qiymətlər məqsədli qiymətlərdən yuxarı, aşağı və onlara bərabər ola bilər. Əgər məhsulun bazarda satış qiyməti məqsədli qiymətlərdən aşağı olarsa, fermerlərə dövlət tərəfindən bu fərq ödənilir.

Girov qiymətləri tətbiq edilərkən bu qiymətlər satış qiymətindən aşağı olduqda fermerlər özünün bütün əmtəəlik məhsulunu girov müqabilində əmtəə - kredit korporasiyasına (ƏKK) təsbit edilmiş girov qiymətləri ilə təhvil verir. Bu halda girov qoyulmuş məhsul 9 ay ərzində fermerlər tərəfindən satın alına bilər.Əgər bu baş verməzsə, məhsul ƏKK-nin mülkiyyətinə keçir, fermer isə girov qiymətləri ilə (saxlanılma xərcləri çıxılmaqla) pul kompensasiyası alır. Girov qiymətləri kənd təsərrüfatı məhsullarına zəmanətli qiymətlərin aşağı həddidir.

Avropa Birliyi (AB) ölkələrində kənd təsərrüfatı məhsulları qiymətlərinə dövlət müdaxiləsi hələ bu Birlik yaranmamışdan öncə milli səviyyədə həyata keçirilməyə başlamışdır. AB yarandıqdan sonra bu müdaxilə təkmilləşdirilərək, özünün keyfiyyətcə yeni yüksək mərhələsinə yüksəlmişdir.

Hal - hazırda Birlikdə belə bir mexanizm mövcuddur: məqsədli qiymətlər - orta və iri təsərrüfatlara müəyyən gəlir səviyyəsinə zəmanət verir. Müdaxilə qiymətləri isə minimum qiymət funksiyasının yerinə yetirir: dövlət tədarük təşkilatları əvvəlcədən təsbit edilən həmin qiymətlərlə kənd təsərrüfatı məhsullarını fermerlərdən satın alırlar.

Beləliklə, inkişaf etmiş qabaqcıl ölkələrdə aqrar - sənaye istehsalında qiymətin formalaşması sistemi kənd təsərrüfatında hazır məhsul qiymətləri, məsrəflər və gəlirlərin istehsal vasitələri qiymətlərinin dinamikasını daim diqqət mərkəzində saxlanılmasını tələb edir. Spesifik qiymət mexanizmi vasitəsilə onlar arasında optimal əlverişli nisbət yaradılmağa çalışılır.

Qiymət - bazar iqtisadiyyatının əsas elementlərindən biridir.Aqrar - sənaye istehsalında qiymətlərin dövlət tərəfindən tənzimlənməsi mürəkkəb və ziddiyyətli bir məsələ olmaqla, kənd təsərrüfatı istehsalının sabitləşdirilməsi və geniş təkrar istehsalının təmin edilməsi, əhalinin ərzağa, sənayenin isə xammala olan tələbinin ödənilməsi üçün olduqca vacibdir. Dünya təcrübəsinin öyrənilməsi imkan verir ki, Azərbaycanın spesifik xüsusiyyətləri nəzərə alınmaqla daha səmərəli qiymət siyasəti həyata keçirilsin. Kənd təsərrüfatı məhsullarının tədarükü bu sahədə mövcud strukturların təkmilləşdirilməsi və yenilərinin yaradılması işinin dünya ölkələrinin təcrübəsinə uyğunlaşdırılması vacibdir.Qiymətlərin dövlət tərəfindən dəstəklənməsi üçün qiymət fondlarının yaradılması məsələsinin də nəzərdən keçirilməsi olduqca vacibdir.

Dünya təcrübəsinin öyrənilməsi imkan verir ki, Azərbaycanın spesifik xüsusiyyətləri nəzərə alınmaqla daha səmərəli qiymət siyasəti həyata keçirilsin. Kənd təsərrüfatı məhsullarının tədarükü bu sahədə mövcud strukturların təkmilləşdirilməsi və yenilərinin yaradılması işinin dünya ölkələrinin təcrübəsinə uyğunlaşdırılması üçün vacibdir. Qiymətlərin dövlət tərəfindən dəstəklənməsi üçün qiymət fondlarının yaradılması məsələsini də nəzərdən keçirilməsi məqsədəuyğundur.

Nazirlər Kabinetinin qərarı ilə kənd təsərrüfatı məhsullarının satışı ilə məşğul olan yarmarkaların təşkili bu məhsulların müvafiq qiymətlə əhaliyə çatdırılması işində mühüm addımdır. Bununla yanaşı, 2008-ci ilin birinci yarısının yekunlarına həsr olunmuş iclasda göstərildiyi kimi, regionda kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olanların heç də hamısı öz məhsullarını respublikanın iri şəhərlərində satışa çıxarmaq imkanına malik deyillər.Odur ki, şəhər əhalisinin il boyu meyvə-tərəvəzlə təminatını yaxşılaşdırmaq, məhsul itkisinin və bazarlarda möhtəkirliyin qarşısını almaq məqsədilə regionlarda soyuducu anbar və xüsusi nəqliyyat vasitələri ilə təchiz edilmiş topdansatış və tədarük bazarlarının yaradılması məqsədəuyğundur. Bu təşəbbüs ciddi şəkildə dəstəklənməlidir.

Qeyd etmək lazımdır ki, 90-cı illərin 1-ci yarısının böhranı dövründə ciddi sürətdə dağılmış maşın-traktor parkının bərpası və modernləşdirilməsi

bu sahədə köklü dönüş yaradılması üçün yalnız lizinq kifayət deyildir.Ona görə də aqrar bölmədə dayanıqlı geniş təkrar istehsalın təmin olunması üçün kreditə böyük ehtiyac vardır.Müasir şəraitdə kənd istehsalçılarının yalnız qısamüddətli kreditə deyil, həm də daha çox uzunmüddətli kreditə ehtiyacı böyükdür. Çünki gənc fermer təsərrüfatların ilkin əsas kapitala və dövriyyə kapitalına tələbi çoxdur. Ona görə də Azərbaycan dövlətinin müasir dövrdə aqrar siyasətində kredit mexanizmindən geniş istifadə edilir, onun təşkilati strukturu yaradılmış, bu məqsədlə müvafiq kredit resursları ayrılmışdır.

Lakin müasir mərhələdə kənd təsərrüfatı müəssisələrinin kreditə böyük ehtiyacı olduğu halda mövcud bank-kredit təşkilatları bu ehtiyacı kifayət qədər ödəyə bilmək imkanına malik deyildir. Fermer təsərrüfatlarına və emal müəssisələrinə kredit yalnız girov qoyulan əmlakın sığorta olunduğu halda verilir.Lakin yüksək sığorta tarifləri riskin səviyyəsini əks etdirərək fermer təsərrüfatlarının kredit almaq imkanlarını məhdudlaşdırır. Ona görə də kənd təsərrüfatına verilən kreditlər iqtisadiyyat sahələrinə yönəldilən kreditlərin hələlik 5-6%-i səviyyəsindədir. Ziyanla işləyən təsərrüfatların sayı çox olduğu halda kreditlər üzrə faizlər yüksəkdir. Hökumətin kredit siyasəti kənd təsərrüfatı və emal müəssisələrinin kredit almaq imkanlarının daha da genişləndirilməsinə yönəldilmişdir. Nəzərə almaq lazımdır ki, ölkəmiz Ümumdünya Ticarət Təşkilatına üzv olmağa hazırlaşır. Həmin təşkilat isə kənd təsərrüfatı istehsalına subsidiyaların artırılmasına imkan vermir. Ona görə də fermerlərə yaxın gələcəkdə kredit mexanizmi vasitəsilə yardımın artırılması daha da aktuallaşacaqdır.

Qlobal iqtisadiyyata sürətlə inteqrasiya etdiyimiz bir şəraitdə aqrar bölmədə dayanıqlı inkişafın təmin edilməsi böyük investisiya qoyuluşları ilə əlaqədardır.Təsadüfi deyildir ki, həmin sahəyə cəmi investisiya qoyuluşları ölkəmizdə 2000-2005-ci illər ərzində 5 dəfədən çox, 2005-2007-ci illər ərzində isə 5,4 dəfə artmışdır. Həmin dövrdə ümumi investisiyaların tərkibində kənd təsərrüfatının payı 0,7%-dən 3,2%-ə qədər yüksəlmişdir. Kənd təsərrüfatına qoyulan investisiyalar 2007-ci ildə iqtisadiyyata yönəldilən cəmi kapital qoyuluşlarının yalnız 0,7%-ni təşkil etmişdir.

Bununla yanaşı, kənd təsərrüfatına kapital qoyuluşlarının ciddi sürətdə artırılması və ölkənin zəmanətli ərzaq təhlükəsizliyinin yaradılması əhəmiyyətli dərəcədə aqrar bölmənin özünün daxili imkanlarından daha səmərəli istifadə edilməsindən, bu imkanların hərəkət mexanizminin təkmilləşdirilməsindən asılıdır.

Aqrar biznesdə təsərrüfat fəaliyyətinin nəticələri böyük ölçüdə istehsalın ixtisaslaşması və təmərküzləşməsi ilə əlaqədardır.Kənd təsərrüfatı istehsalında ixtisaslaşma və təmərküzləşmə iki təmayülün qarşılıqlı vəhdətindən asılıdır: bir tərəfdən, ictimai əmək bölgüsünün dərinləşməsi daha dar ixtisaslaşmaya yardım edir, digər tərəfdən isə, kənd təsərrüfatı istehsalının xüsusiyyətləri

(mövsümiliyi, torpağın müstəsna rolu ilə bitkiçiliklə heyvandarlığın sıx qarşılıqlı əlaqəsi və s.) çoxsahəli müəssisələrin inkişafını tələb edir. Sovet dövründə kolxoz və sovxozlar çoxşaxəli idilər. Hal-hazırda bazar iqtisadiyyatı şəraitində isə dar ixtisaslaşma əsasında yaradılan təsərrüfatların (toyuq fabrikləri və s.) sayı sürətlə artır.Onlar arasında optimal nisbətin yaradılması çox vacibdir.

Məlum olduğu kimi, qloballaşma şəraitində, istər ölkə daxilində, istərsə də beynəlxalq miqyasda ərzaq bazarı uğrunda rəqabət mübarizəsi olduqca kəskinləşmişdir. Bu mübarizədə o ölkələr qalib gəlirlər ki, orada təmərküzləşmə getmiş və iri kənd təsərrüfatı müəssisələri, fermerlər, birliklər yüksək məhsuldarlığa malik texnika və texnologiyadan geniş istifadə edir və məhsuldarlığı ciddi sürətdə artırırlar. Nəzərə almaq lazımdır ki, ABŞ-da 8%-dən ibarət təsərrüfat subyektləri kənd təsərrüfatı məhsullarının 73,5%-ni əlində cəmləşdirmişdir. Ona görə də müasir dövrdəərzaq bazarında xırda təsərrüfatlar deyil, məhz iri birləşmələr uğurlu rəqabət mübarizəsi apara bilərlər. Onların investisiya cazibədarlığı da yüksəkdir. Ölkəmizdə də iri təsərrüfat subyektləri aqrar bölmənin daxili imkanlarının üzə çıxarılmasını, əmək üçün az məsrəflə əlverişli şərait yaradılmasını təmin edə bilər, insanların məişəti və mədəniyyətinin yüksəldilməsində mühüm rol oynaya bilər.Lakin keçid iqtisadiyyatı şəraitində ölkəmizdə bir kəndli (fermer) təsərrüfatına düşən kənd təsərrüfatına yararlı torpaq sahəsi orta hesabla 10 hektardan aşağıdır.Ona görə də iri aqrar-sənaye birliklərinin yaradılması üçün özəl kapital ilə yanaşı dövlət dəstəyinin həyata keçirilməsi aqrar siyasətin tərkib hissələrindən biri olmalıdır.Nəzərə almaq lazımdır ki, Avropa ölkələri və ABŞ-da belə birliklərin maliyyələşməsinə ayrılan vəsaitlər onların istehsal xərclərinin təxminən 40%-ni təşkil edir.

Kənd təsərrüfatı istehsalının müasir tələblərə uyğunlaşdırılması və dayanıqlı inkişafının təmin olunması, onun xarici əlaqələrinin səmərəliliyinin artırılması beynəlxalq iqtisadi inteqrasiya qanunları və şərtlərinə daha çox uyğunlaşdırılmasından asılıdır.

Ölkəmizdə ardıcıl olaraq “açıq iqtisadiyyat” inkişaf modelinin tətbiq edildiyi və dünya birliyinə inteqrasiya prosesləri sürətləndiyi bir şəraitdə kənd təsərrüfatının və aqrar-sənaye bölməsinin səmərəli fəaliyyət göstərməsi üçün həm daxili, həm də xarici əlverişli iqtisadi mühit daha da yaxşılaşdırılmalıdır.

Digər keçid iqtisadiyyatı ölkələrində olduğu kimi, Azərbaycanda da kənd təsərrüfatının xarici əlaqələri, son illərdə ciddi müsbət dəyişikliklər baş verməsinə baxmayaraq hələlik zəifdir. Kənd təsərrüfatı məhsullarının ticarət dövriyyəsi xarici ticarətin cəmisi 2%-ni təşkil edir. Təsadüfi deyildir ki, müqayisəli üstünlüklər prinsipi əsasında xarici ticarət siyasəti ilə bu sahənin himayə edilməsi, demək olar ki, bütün dövlətlərin iqtisadi siyasətinin əsasını təşkil edir. Hal-hazırda ən mükəmməl iqtisadi inteqrasiya birliyi olan Avropa

Birliyində inteqrasiya prosesləri, ilk növbədə, aqrar siyəsətin uzlaşdırılması ehtiyacından doğmuşdur.Mütəxəssislər hesab edirlər ki, bu birlikdə inteqrasiya proseslərinin müvəffəqiyyəti, ilk növbədə, bu uzlaşdırmanın uğurlu nəticələri ilə əlaqədardır.

Hal-hazırda Azərbaycan intensiv surətdə bir neçə regional inteqrasiya birləşmələrinə (EKO, GUAM, MDB, Avropa ilə yeni qonşuluq siyasəti) qoşulur. Dünya miqyasında inteqrasiya prosesləri isə ÜTT-yə yaxın gələcəkdə qoşulduğundan sonra daha da sürətlənəcəkdir.Bütün bu inteqrasiya proseslərində aqrar bölmənin xüsusi rolu və ehtiyaclarının daim diqqət mərkəzində olması çox vacibdir.

II məqalə
"Xalq qəzeti", 1 noyabr 2008-ci il.

Azərbaycanın kənd təsərrüfatında mövcud olan problemlərin təxirə salınmadan və köklü sürətdə həll edilməsi zəruriliyi bu sahədə dövlət tənzimləmələrinin daha da intensivləşdirilməsini və əhatə dairəsinin genişləndirilməsini tələb edir.Təsadüfi deyildir ki, həmin məsələlər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iqtisadi siyasətinin prioritet istiqamətlərindən birinə çevrilmişdir.Çünki məlum olduğu kimi, ölkəmizin dünya birliyinə inteqrasiyası neft müqavilələrinin reallaşmağa başlaması və Bakı - Ceyhan neft kəmərinin işə düşməsi ilə özünün keyfiyyətcə yeni mərhələsinə yuksəlmişdir. Avropa Birliyi ölkəmizi yeni qonşuluq strategiyasına daxil etmişdir. GUAM ölkələri ilə inteqrasiya prosesində yeni keyfiyyət dəyişiklikləri özünü göstərməyə başlamışdır. Bakı-Ərzurum qaz kəməri ilə Bakı-Qars Dəmiryolu çəkilməyə başlamış və ölkəmizin Qərb ölkələri ilə inteqrasiyasında mühüm rol oynayacaqlar.Bütün bunlar iqtisadiyyatda, o cümlədən aqrar sahədə də böyük ugurlara yol açacaqdır.

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 18.11.2003-cü ildə keçirilmiş ilk iclasında cənab İlham Əliyev xüsusi vurğulamışdır: "Kənd təsərrüfatında islahatların ikinci mərhələsi başlamalıdır". Belə bir mühüm müddəanın məqsədini o, elmi və praktik cəhətdən belə əsaslandırmışdır: "Bizim də məqsədimiz budur ki, Azərbaycanda yerli istehsal inkişaf etsin, idxal azalsın və Azərbaycan öz daxili bazarını ölkəmizdə istehsal olunan məhsullarla təmin etsin". 17.11.2006-cı ildə o, həmin müddəanı daha da inkişaf etdirərək qeyd etmişdir: "İndi iqtisadi sahədə Azərbaycanın qarşısında bir neçə önəmli məsələ durur. Onlardan biri qeyri-neft sektorunun, kənd təsərrüfatının, infrastrukturun inkişafı və nəqliyyat infrastrukturunun inkişafıdır... Mən həmişə deyirəm, əgər hər bir kəndin problemi həll edilərsə, deməli, ölkədə bütün problemlər həll olunar".

Məlum olduğu kimi, bazar iqtisadiyyatı şəraitində dövlət bir qayda

olaraq, sahibkar kimi bilavasitə təsərrüfat fəaliyyəti ilə məşğul olmur. Ona görə də kənd təsərrüfatı sahəsində dövlət tənzimləmələri arasında kənd yerlərinin (ərazilərinin) inkişaf etdirilməsinə yönəldilən məqsədyönlü proqramlar xüsusi yer tutur.Bu tədbirlərə kənddə istehsal və sosial infrastruktrunun inkişafına yönəldilmiş tədbirlər; kənd yerlərində qeyri-kənd təsərrüfatı sferasında məşğulluğun artırılması, gəlirləri müəyyən həddən aşağı olan fermerlərə birbaşa ödəmələr və s. daxildir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 18.11.2003-cü il tarixli ilk iclasında cənab İlham Əliyev qeyd etmişdir: "Azərbaycanın hərtərəfli inkişafa nail olmaq üçün regional proqramlar həyata keçirilməlidir.Sizə bildirməliyəm ki, Azərbaycanın iqtisadi potensialının üçdə iki hissəsi Bakıda və Abşeron yarımadasında formalaşıbdır.Bu onu göstərir ki, regionlarda iqtisadi inkişaf ləng gedir.Əlbəttə, bunun da obyektiv səbəbləri vardır. Amma bu istiqamətdə dönüş yaratmaq üçün regional proqramlara böyük diqqət göstərilməlidir".

Həqiqətən, iqtisadiyyatın ikinci mühüm sahəsi olan aqrar bölmənin inkişafı problemlərinin həlli kompleksli yanaşma tələb edir.Bu baxımdan "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı" müstəsna əhəmiyyət kəsb edir. Həmin proqramın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 11.02.2004-cü il tarixli Fərmanına görə, hökumət orqanları qarşıdakı illər ərzində yerlərdə kənd təsərrüfatının, qeyri-neft sənaye sahələrinin, o cümlədən emal müəssisələrinin yaradılmasını, xidmət və digər infrastruktur obyektlərinin, turizmin inkişafını və bütün bunların sonunda yeni iş yerlərinin açılmasını təmin etməlidir. Sənədin əsas məqsədi əsasını kənd təsərrüfatı istehsalı təşkil edən regionlarda sahibkarlığın inkişafını sürətləndirmək və oradakı əmək ehtiyatlarından optimal dərəcədə səmərəli istifadə etməklə dinamik iqtisadi inkişafa, məhsuldarlığın yüksəldilməsinə, məşğulluğun artırılmasına nail olmaqdan ibarət idi.

2008-ci ilin dövlət büdcəsi layihəsində hökumət regionlarda yolların çəkilməsi, enerji və qaz təchizatının yaxşılaşdırılması, xəstəxana və məktəblərin tikilməsi və yenidən qurulması üçün dövlət investisiyalarının kəskin sürətdə artırılmasını nəzərdə tutmuşdur. Çünki kənd yerlərində infrastrukturun ciddi şəkildə yaxşılaşdırılması orada əlverişli investisiya mühitinin vacib şərtidir.

Regionların sosial-iqtisadi inkişafı dövlət Proqramının ikinci ilinə həsr edilmiş konfransda cənab İlham Əliyev göstərmişdir: "Bütün builki il ərzində görülmüş işlər onu göstərir ki, istiqamət düzgün seçilmişdir, prioritetlər düzgün müəyyən edilmişdir və proqramın icrasında da müsbət meyllər kifayət qədərdir.Amma problemlər də var, çatışmayan cəhətlər var və biz bunları vaxtlı-vaxtında araşdırmalıyıq, tədbirlər görməliyik ki, bu proqram 2008-ci ilə qədər nəzərdə tutulmuş bütün tədbirlər həyata keçirilsin".Elə həmin konfransda o xüsusi vurğulamışdır ki, "Aqrar sektora daha böyük diqqət

göstərilməlidir”.

Çünki Azərbaycanın dünya birliyi ilə inteqrasiyasının sürətlənməsi kənd təsərrüfatında bazar iqtisadiyyatı prinsiplərinin ardıcıl olaraq tətbiqi, aqrar bölmədə yeni mühitin yaranması və inkişafı kənd əhalisinin əvvəllər alışdığı yeni problemlər, yeni çətinliklər meydana gəlmişdir. Bu hər şeydən əvvəl kənd istehsalçılarının maddi-texniki və maliyyə ehtiyatları ilə təminatı məsələsində özünü qabarıq şəkildə göstərir.

Aqrar bölmənin inkişafında ciddi dönüş yaradılması əhəmiyyətli dərəcədə bu bölmənin sənaye sahələri və istehsal infrastrukturunun bəzi alt sahələri ilə inteqrasiyasından asılıdır.Təbiidir ki, iqtisadiyyat sahələrinin qarşılıqlı əlaqədar olan vahid sistemdə birləşdirilməsi bazar iqtisadiyyatı şəraitində olduqca mürəkkəbdir. Bunun həyata keçirilməsi kənd təsərrüfatı və sənayenin bütün təkrar istehsal həlqələrində - istehsal, mübadilə, bölgü və istehlakda bir tam şəkildə birləşdirilməsindən asılıdır.Başqa sözlə, bütün sahələr proporsional mənfəət əldə etməklə yüksək keyfiyyətli məhsul istehsal edilməsinə xidmət etməlidirlər.Aqrar-sənaye istehsal sahəsində strateji kursun əsasını məhz bu müddəa təşkil etməlidir.

Ölkəmizdə kənd təsərrüfatında müxtəlif mülkiyyət və təsərrüfatçılıq formaları fəaliyyət göstərir.Torpaq və əmlak üzərində xüsusi mülkiyyətə əsaslanan kəndli (fermer) təsərrüfatları isə Azərbaycan reallığında yenilikdir və böyük perspektivə malikdir.Ona görə də həmin təsərrüfat sahiblərinə qabaqcıl dünya dövlətlərində olduğu kimi, hərtərəfli dövlət dəstəyi olduqca vacibdir.

Azərbaycanın aqrar bölməsinin dünya təsərrüfatı sisteminə inteqrasiyanın perspektivi, ilk növbədə, kənd təsərrüfatı istehsalının səmərəliliyindən asılıdır.“Yaşıl inqilab” mərhələsini artıq çoxdan keçmiş dünya kənd təsərrüfatı bazarına ancaq istehsalın yüksək səmərəliliyini təmin etməklə bərabər hüquqlu subyekt kimi daxil olmaq olar.Çünki kənd təsərrüfatı müəssisələrinin əsas istehsal vasitələri ilə təmin edilməsi və onlardan səmərəli istifadə edilməsi təsərrüfat fəaliyyətinin nəticələrinə (kənd təsərrüfatı işlərinin tam və vaxtında yerinə yetirilməsinə, kənd təsərrüfatı məhsullarının istehsal həcminə, onun maya dəyərinə, müəssisənin maliyyə vəziyyətinə) əhəmiyyətli təsir göstərən mühüm amildir.Lakin məlum olduğu kimi, SSRİ-də, o cümlədən Azərbycanda kənd təsərrüfatı istehsalında məhsuldarlıq səviyyəsi inkişaf etmiş ölkələrə nisbətən xeyli aşağı idi. İstehsalın səmərəliliyinin artırılması isə kənd təsərrüfatında yalnız maddi-texniki təchizatın yaxşılaşdırılması yolu ilə mümkündür. Lakin məlum olduğu kimi, müstəqillik illərində məlum obyektiv və subyektiv amillərin təsiri altında kənd təsərrüfatının aqrotexniki və kimyəvi təchizatı sahəsində vəziyyət mürəkkəbləşmişdir.Keçid dövründə olan bir sıra ölkələr kimi, son dövrlərdə ölkəmizin kənd təsərrüfatında da müasir maşın və mexanizmlərin tətbiqi miqyası ixtisar olunmuş, onların çoxu

köhnəlmişdir.Ona görə də kənd təsərrüfatının texnika və mineral gübrələrlə təchizatı sahəsində dövlət dəstəyi ciddi artırılmışdır və bu sahədə dönüş yaradılması tələb olunur.

Azərbaycanın sosial-iqtisadi həyatı üçün həyati əhəmiyyət kəsb edən aqrar bölmənin dövlət tərəfindən dəstəklənməsi maliyyə, kredit və qiymət mexanizminin tətbiqi ilə genişmiqyaslı tədbirlər sisteminin həyata keçirilməsini tələb edir. Burada ərzaq istehsalı sahəsində fəaliyyət göstərən təsərrüfat subyektlərinə yardım müstəsna əhəmiyyətə malikdir. Çünki ərzaq istehsalı sahəsində fəaliyyət göstərən subyektlərin təsərrüfat fəaliyyətinin rentabelliyi hazırda aşağı səviyyədədir. Bu məsələnin həlli üçün hökumət kənd təsərrüfatına genişmiqyaslı yardım tədbirləri paketinin həyata keçirilməsinə başlamışdır.

"Kənd təsərüffatı məhsullarının istehsalçılarına dövlət dəstəyi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 23 yanvar tarixli Sərəncamına əsasən, ilk dəfə olaraq kənd təsərüfatı məhsulları istehsalçılarına güzəştlərin edilməsi üçün dövlət büdcəsindən 80 milyon manat vəsait ayrılmışdır. Bu sərəncamın icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 15 fevral tarixli qərarı ilə həmin vəsaitin kənd təsərrüfatı məhsullarının istehsalçısı olan hüquqi və fiziki şəxslərə bir hektar əkin sahəsinin becərilməsində istifadə etdikləri yanacağın və mineral gübrələrin dəyərinin orta hesabla 50 faizinin dövlət tərəfindən təmin edilməsi üçün müvafiq olaraq 40 və 26 manat yardımın verilməsi müəyyənləşdirilmişdir.

Eyni zamanda, respublikada buğda istehsalının stimullaşdırılması, taxılçıların maddi marağının artırılması məqsədi ilə Nazirlər Kabinetinin müvafiq qərarı ilə istehsalçılara səpilən hər hektar buğda sahəsinə görə 40, indi isə 80 manat yardım verilməsi nəzərdə tutulmuşdur. Bunun nəticəsidir ki, 2007-ci ilin məhsulu üçün buğda səpini 2006-cı ilə nisbətən 127, 2 hektar artıq olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin göstərişi ilə Bakı şəhəri əhalisinin kənd təsərrüfatı və qida məhsulları ilə təminatını daha da yaxşılaşdırmaq məqsədi ilə paytaxtın 7 rayonunda 10 yerdə kənd təsərrüfatı məhsullarının satış yarmarkaları keçirilir. 2007-ci ildə 154 yarmarka keçirilmişdir və respublikanın 42 rayonundan yarmarkalara 55 adda 30528,3 ton kənd təsərrfatı, o cümlədən 12 adda tərəvəz, 17 adda meyvə, 4 adda konserv, 8 adda ət və süd məhsulları gətirilərək bazar qiymətlərindən aşağı qiymətə əhaliyə satılmışdır.Hökumətin aqrar bölmədə siyasətinin əsas məqsədi investisiyaların səmərəliliyini artırmaq və digər məqsədyönlü tədbirlərin həyata keçirilməsi yolu ilə kənd təsərrüfatı məhsullarının istehsalında yüksək rentabelliyi təmin etməkdən ibarətdir. Rentabelliyə və rəqabət qabiliyyətinə nail olmaq, dövriyyə kapitalını əldə etmək üçün ərzaq məhsulları istehsalçılarının modernləşdirməyə yönəldilmiş investisiyalara, habelə texniki və istehsal innovasiyalarına ehtiyacları vardır.

Azərbaycanda aqrar siyasətin qısamüddətli dövr ərzində aparıcı istiqaməti kənd təsərrüfatında geniş təkrar istehsal üçün daha əlverişli iqtisadi şəraitin yaradılması və aqrar bölmədə təsərrüfat vahidlərinin maliyyə vəziyyətinin yaxşılaşdırılması təşkil edir.2007-ci ildə lizinqə verilən kənd təsərrüfatı texnikasının və texnoloji avadanlıqların dəyərinin ödənilmə müddəti 5 ildən 10 ilə uzadılmış, sığortalanan kənd təsərrüfatı bitkilərinin növləri 1-dən 8-ə qədər və sığorta haqqının dövlət tərəfindən ödənilən hissəsi isə 25 faizdən 50 faizə qədər artmışdır.Həmin ildə dövlət büdcəsindən ayrılmış 37,4 milyon manat hesabına 1468 ədəd müxtəlif növ kənd təsərrüfatı maşınları, o cümlədən 530 ədəd (onun 382-si ölkə daxilində yığılmış "Belarus MTZ" markalı) traktor və 62 min ton mineral gübrələr alınmış, 12 ədəd emal müəssisəsi üçün texnoloji avadanlıqlar gətirilib quraşdırılmışdır. İstehsalçılara texniki servis xidməti göstərən rayon müəssisələrinin sayı 56-ya çatdırılmış və 70 mexanikləşdirilmiş dəstə yaradılmışdır.

Kənd təsərrüfatı məhsullarının istehsalında toxumçuluq və tingçiliyin xüsusi rolunu nəzərə alaraq, 2007-ci ildə Nazirlər Kabineti tərəfindən qəbul edilmiş qərarlar ölkədə bu problemi həll etməyə geniş imkanlar yaratmışdır. Toxumçuluq və tingçilik təsərrüfatlarından satılan yüksək reproduksiyalı toxum və tinglərə görə subsidiyaların ödənilməsi işi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 25 sentyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş kvota əsasında həyata keçirilir. Göründüyü kimi, dövlət lizinq xidməti əsasında kənd təsərrüfatının texnika və gübrə ilə təchiz olunmasına diqqəti xeyli artırmışdır.Bu tədbir kənd istehsalçılarına əhəmiyyətli maliyyə dəstəyi hesab olunmalıdır.

Dövlət büdcəsi vəsaiti hesabına texnika və gübrənin alınaraq fermerlərə verilməsi kənd təsərrüfatı istehsalının artımına əhəmiyyətli təsir göstərmişdir.

3.5. Azərbaycanda xarici ticarətin tənzimlənməsi xüsusiyyətləri

Azərbaycan Milli Elmlər Akademiyası, Humanitar və ictimai elmlər seriyası (iqtisadiyyat), 2006, N 3-4.

İqtisadi islahatların daha da dərinləşməsi prosesində xarici ticarətin və xarici iqtisadi əlaqələrin səmərəliliyinin artırılmasını, xarici ticarət mexanizminin təkmilləşdirilməsi, xaricə məhsul satışında müəssisələrin fəaliyyətinin sərbəstləşdirilməsi respublikanın valyuta ehtiyatlarının və ixracat potensialının artırılmasında onların marağının gücləndirilməsi iqtisadi sahədə dövlət siyasətinin əsas xəttini təşkil edir.

Müstəqillik əldə edildikdən sonra xarici iqtisadi, o cümlədən ticarət siyasətinin formalaşması və inkişafı, respublikamız üçün tamamilə yeni olan bu sahədə həyata keçirilən islahatlar bazar islahatlarının mühüm və ayrılmaz tərkib hissəsini təşkil edir. Həyata keçirilən kompleks tədbirlər nəticəsində, hələ islahatların start mərhələsində, xarici iqtisadi, ticarət və valyuta əməliyyatları üzərində mövcud olan dövlət inhisarı ləğv edilmişdir.Nəticədə müasir mərhələdə xarici iqtisadi ticarət əlaqələrinin böyük əksəriyyəti qeyri-dövlət sektoruna məxsus olan subyektlər tərəfindən aparılır.İxrac-idxal və valyuta əməliyyatları üzərində mövcud olan hərtərəfli dövlət nəzarəti xarici iqtisadi münasibətlərin dövlət tənzimlənməsi sistemi ilə əvəz edilmişdir. Xarici iqtisadi fəaliyyətdə iştirak edən müəssisə və firmalar bu tənzimləmə sistemində böyük sərbəstlik qazanmışlar.

Məlum olduğu kimi, xarici ticarət siyasətinin formalaşması uzun tarixi dövr tələb edən bir məsələdir.Lakin müstəqillik əldə edildikdən sonra yaranmış özünəməxsus tarixi dövr respublikamızda bu prosesin qısa müddət ərzində sürətlə formalaşmasını tələb edirdi.Məsələ bu baxımdan nəzərdən keçirildikdə aydın olur ki, 1992-1994-cü illərdə ölkədə total mal çatışmazlığı, daxili bazar və pul tədavülünün ciddi disproporsiyaya və deformasiyaya məruz qaldığı, real valyuta məzənnəsi və normal bazar qiymətlərinin olmadığı bir şəraitdə xarici iqtisadi-ticarət əlaqələrinin geniş miqyasda liberallaşdırılması şərtləri olduqca ağır idi.Ona görə də liberallaşdırma, əslində, yalnız 1994-cü ildən sürətlənməyə başladı.Xarici ticarətin tənzimlənməsi də bir sistem kimi bu dövrdən formalaşmağa başlamışdır.

Azərbaycanda müstəqil dövlət quruculuğu, onun bazar iqtisadiyyatı prinsipləri əsasında həyata keçirilməsi və ölkəmizin beynəlxalq münasibətlər sisteminin bərabərhüquqlu üzvünə çevrilməsi respublikamızda xarici ticarətin tənzimlənməsi sistemi qarşısında olduqca mühüm və tamamilə yeni vəzifələr qoyurdu.

Xarici ticarət siyasəti, hər şeydən əvvəl, Azərbaycan Respublikasının öz təbii sərvətləri üzərində suverenliyi prinsipini reallaşdırmağa xidmət edir. Bu məqsədlə xarici ticarət siyasəti: 1) ölkəmizin beynəlxalq iqtisadi və maliyyə mühitinə cəlb edilməsi və inkişaf etmiş ölkələrin bazar strukturuna yaxınlaşdırılmasını, onun sərbəst və müstəqil xarici iqtisadi fəaliyyətinin həyata keçirilməsində və tənzimlənməsində müstəsna hüququnu təmin etməli; 2) daxili və xarici iqtisadi sahibkarlığın azadlığı prinsipini həyata keçirməli; 3) təsərrüfat subyektləri arasında ayrı-seçkiliyə yol vermədən, onların hüquq bərabərliyi prinsipini hər vasitə ilə qorumalı; 4) qanunun aliliyi prinsipini təmin etməlidir.

Dünya təsərrüfatında vahid hüquqi inzibati və maliyyə məkanının yaranması prosesi getdikcə intensivləşir.Bu məkan çərçivəsində ayrı-ayrı dövlətlərin xarici ticarəti inkişaf edərək dünya miqyasında konfranta-

siyalardan uzaqlaşaraq vahid tama çevrilir.Ölkəmiz hüquqi, inzibati və texniki xarici iqtisadi fəaliyyətin vahid şəklə salınmış hüquqi əsasını yaradan çoxtərəfli dövlətlərarası sazişlərin və razılaşmaların geniş sisteminə daxil olur.

Xarici ticarətin tənzimlənməsinə Azərbaycan iqtisadiyyatında və əhalinin ilkin tələbat mallarına olan tələbatının ödənilməsində bu sahənin oynadığı mühüm rola uyğun olaraq, istiqlaliyyət əldə edildikdən sonra böyük əhəmiyyət verilir.Təsadüfi deyildir ki, xarici ticarət Azərbaycanda iqtisadi islahatların daha sürətli getdiyi bir sahədir.İqtisadiyyatın düşmüş olduğu dərin böhrandan çıxması zərurəti xarici ticarətdə liberallaşmanın həyata keçirilməsini, bu sahədə totalitar rejimdən miras qalmış buxovların sürətlə aradan qaldırılmasını təkidlə tələb edirdi.Azərbaycana yardım göstərən beynəlxalq təşkilatlar da eyni tələblə çıxış edirdilər.Xarici ticarətdə liberallaşdırma tədbirləri, ilk növbədə, qeyri-tarif tənzimləmələrinin bazar iqtisadiyyatının prinsiplərinə uyğunlaşdırılmasına, inzibati-amirlik amillərinin məhdudlaşdırılmasına yönəlmişdir.

Bu sahədə 1994-cü ildən sonra Respublika Prezidentinin dörd fərmanı qəbul edilmişdir:

1. 10 yanvar 1994-cü ildə - "Azərbaycan Respublikasında xarici ticarətin səmərəliliyin artırılması tədbirləri haqqında";

2. 5 aprel 1994-cü il tarixdə - "Azərbaycan Respublikasında xarici ticarətin sərbəstləşdirilməsi haqqında";

3. 17 dekabr 1996-cı ildə - "Azərbaycan Respublikasında xarici ticarətin tənzimlənməsinin təkmilləşdirilməsi haqqında" haqqında.

4. 24 iyun 1997-ci il tarixdə "Azərbaycan Respublikasında xarici ticarətin daha da liberallaşdırılması" haqqında.

Həmin fərmanlar əsasında müvafiq normativ aktlar qəbul edilmişdir. Tədbirlərin əsas istiqaməti xarici ticarətin bazar iqtisadiyyatının prinsiplərinə uygun olaraq liberallaşdırma yolunda addımlamaqdır.Qəbul edilmiş qanunlarla daxili və xarici kvota və lisenziyaların (qismən) ləğvi, strateji məhsulların xarici ticarətinin mərkəzləşdirilməsi qaydasının aradan qaldırılması, qiymətlərin sərbəstləşdirilməsi, dövlət sifarişlərinin ləğvi və s. kimi tədbirlər həyata keçirilmişdir.Bu isə beynəlxalq ticarətin liberallaşdırılması üçün çox mühümdür.Xarici ticarətdə konyukturaya daha həssas olan özəl bölmə payının respublikamızda getdikcə artması beynəlxalq təşkilatların fəal iştirakı ilə həyata keçirilən liberallaşdırma siyasətinin mühüm istiqamətlərindən biridir.

"Azərbaycan Respublikasında xarici ticarətin tənzimlənməsinin təkmilləşdirilməsi haqqında" 17 dekabr 1996-cı il tarixli fərmana əsasən Azərbaycan Respublikasında istehsal, emal, təkrar emal olunan malların ixracında rezidentlər sərbəstdirlər və bir sıra hallardan başqa onların fəaliyyətinə məhdudiyyət qoyulmur.

Başqa sözlə, bəzi mallar istisna olmaqla, Azərbaycan Respublikasında istehsal olunan bütün malların ixracına icazə tələb olunmur və onlar gömrük orqanlarında yalnız bəyan edilməklə ixrac edilirlər.İxracına fərmanın 1 №-li əlavəsində məhdudiyyət qoyulmuş lakin keçmişdə "strateji mallar" adlandırılan məhsullar "respublika ixracatında mühüm əhəmiyyət kəsb edən mallar" adlandırılmışlar. İxracatı xüsusi qayda ilə həyata keçirilən bu mallara neft və neft məhsulları, elektrik enerjisi, əlvan metallar və pambıq mahlıcı daxil edilmişdir.Dünya təcrübəsində olduğu kimi, adı çəkilən fərmanda da silah və hərbi texnika, barıt və partlayıcı maddələr, narkotik və psixotrop vasitələri, incəsənət əsərləri, çöl heyvanları və s. malların ixracı və idxalı müvafiq dövlət orqanlarının icazəsi ilə həyata keçirilir.Göstərmək lazımdır ki, dövlət bölməsində özəl bölməyə nisbətən xarici ticarətin liberallaşdırılması daha məhdud xarakter daşıyır.

Xarici ticarətin liberallaşdırılmasında mühüm addım 24.06.1997-ci ildə "Azərbaycan Respublikasında xarici ticarətin daha da liberallaşdırılması haqqında" fərman oldu.Fərmana əsasən Azərbaycan Respublikasında istehsal, emal, təkrar emal olunan malların ixracında rezidentlərə tam sərbəstlik verildi. Kreditə ixrac, təkrar ixrac, konsiqnasiya yolu ilə ixrac əməliyyatlarına aydınlıq gətirildi və sadələşdirildi. Fərmana əsasən rezidentlərin öz vəsaitləri, konsiqnasiya və ya dövlət zəmanətinə əsaslanmayan kreditlər hesabına aparılan idxal əməliyyatları üzrə bağlanmış müqavilələr yalnız gömrük orqanlarında bəyan edilməklə həyata keçirilməyə başladı.

Bununla yanaşı, satılan malların dəyərinin bəzən xarici banklara axması hallarının qarşısının alınması üçün mal satışının bir qayda olaraq yalnız onların haqlarının qabaqcadan ödənilməsi əsasında həyata keçirilməsi qaydasının saxlanmasını şərtləndirdi. Bu qayda satılan malların dəyərinin Respublikaya gəlməsini təmin etməklə yanaşı rəqabət qabiliyyəti onsuz da zəif olan malların ixracına müəyyən maneçilik törədir.

Azərbaycanda XİF-in tənzimlənməsinin mühüm formalarından biri də gömrük-tarif tənzimlənməsindən ibarətdir.Respublikamız müstəqilliyini bərpa etdikdən sonra gömrük tənzimləməsinə dair əsasnamələr qəbul olunmuşdur. Bu haqda respublikada uzun müddət xüsusi qanunvericilik aktlarının olmaması məhz bu gömrük əsasnamələrinin tez-tez dəyişdirilməsinə gətirib çıxarmışdır.

1994-cü il iyulun 1-də Respublika Nazirlər Kabinetinin 242 №-li qərarları olmuşdur. Bu qərar ilə respublikada idxal və ixrac əməliyyatlarının gömrük mexanizmi vasitəsilə tənzimlənməsi qaydaları müəyyən edilmişdir. Bu qərarla "Azərbaycan Respublikası ərazisindən çıxarılarkən gömrük ixrac rüsumuna cəlb olunan malların qruplar üzrə siyahısı və gömrük ixrac rüsumlarının dərəcələri", "gömrük ixrac rüsumu haqqında müvəqqəti əsasnamə", "Azərbaycan Respublikası ərazisinə gətirilərkən gömrük idxal rüsumuna

cəlb olunan malların qruplar üzrə siyahısı və gömrük idxal rüsumlarının dərəcələri", "gömrük idxal rüsumu haqqında müvəqqəti əsasnamə", "gömrük xidmətləri göstərilməsi qaydaları" təsdiq edilmişdir. Bu əsasnamə ilə əlaqədar ixracat üzrə bir sıra məhsullar gömrük rüsumlarından azad edilməmişdir. Bu məhsullara dövlət tapşırığı ilə mal mübadiləsi əməliyyatları üzrə göndərilən mallar, müəssisələrin istehsal tələbatı üçün xammal, ehtiyat hissələri, məmulatlar, avadanlıq, tikinti texnikası və maşınlar, yük və sərnişin nəqliyyat vasitələri alınması üçün barter əməliyyatları əsasında göndərilən qeyri - strateji əhəmiyyətli mallar; dövlət tapşırığı ilə xarici valyutaya satılan mallar, respublikada istehsal olunan maşınlar, avadanlıqlar, texnoloji qurğular və digər hazır məmulatlar; kompensasiya və kooperasiya əsasında göndərilən mallar; tam məhsullar və yarımfabrikatlar hazırlanması üçün sifarişçinin göndərdiyi xammallar; hökumətlərarası sazişlər üzrə qarşılıqlı razılaşmalara müvafiq ixrac edilən mallar daxildir.

İdxalat zamanı da bir sıra məhsullar gömrük rüsumundan azad edilmişdir. Bunlara uşaq geyimləri və ləvazimatı, dərman malları, tibb avadanlığı və məmulatları, hökumətlərarası sazişlər üzrə qarşılıqlı razılaşmalara əsasən alınan mallar, materiallar, texnologiya və ya avadanlıqlar; Azərbaycan Respublikası ərazisində yaradılan müştərək və tamamilə xarici investorlara məxsus olan müəssisələrin, beynəlxalq birliklərin və təşkilatların nizamnamə fonduna xarici iştirakçılar tərəfindən pay ödənişi şəklində respublikaya, avadanlıq, istehsalat tələbatı üçün xammal və materiallar; xarici investisiyaya qoyulmuş müəssisələrin əcnəbi işçilərin öz ehtiyacları üçün Azərbaycan Respublikasına gətirdikləri əmlak; Azərbaycan Respublikasına müvəqqəti olaraq gətirilmiş və gətirilmə şərtlərinə görə müəyyən olunmuş müddətdə dəyişiklik etmədən xaricə aparılası mallar, müəssisələrin istehsal tələbatı üçün gətirilən xammal, material, məmulat və avadanlıqlar; humanitar və texniki yardım, xeyriyyə məsələsi və gətirilmiş mallar, avadanlıqlar idxal rüsumundan azad edilmişdir.Bu qərara uyğun olaraq gömrük ixrac rüsumları, malların müqavilələr əsasında satılması valyuta ilə ödənilir. Əsasnamədə qeyd edildiyi kimi, Azərbaycan Respublikasından digər xarici dövlətlərə ikitərəfli azad ticarət haqqında saziş olduğu təqdirdə malların ixrac və idxalına gömrük rüsumu tutulmur.Gömrük tənzimləmə mexanizmini bir az yumşaltmaq və təkmilləşdirmək üçün Azərbaycan Respublikası bir sıra dövlətlərlə əlverişli rejim şəraiti yaradılmışdır.Bu dövlətlərdən Türkiyə, Rusiya, İran, Ukrayna, Qazaxıstan, Böyük Britaniya, Finlandiya və b. ölkələrdə olmuşdur. Bu əlverişli şəraitin yaradılması respublikanın xarici iqtisadi əlaqələrin inkişafında müəyyən səviyyədə köməklik göstərirdi.

Bu sahədə aparılan islahatlar ilk illərdə xeyli ləng gedirdi. Yeni Gömrük Məcəlləsi yalnız 1997-ci ilin əvvəlində qəbul edilmiş və gömrük orqanları uzun müddət Sovet İttifaqından qalmış məcəllə əsasında öz fəaliyyətini təşkil

etmişlər. 20 iyun 1995-ci ildə "Gömrük tarifi haqqında Azərbaycan Respublikasının Qanunu" qəbul edilmişdir. Lakin Qanun yalnız Azərbaycan Respublikasının Gömrük Məcəlləsi qəbul edildikdən sonra qüvvəyə minmişdir. Gömrük tarifi haqqında qanunda göstərilir ki, gömrük tarifi Azərbaycan Respublikasının gömrük sərhəddindən keçirilən mallara tətbiq edilir və xarici iqtisadi fəaliyyətin əmtəə nomenklaturasına uyğun olaraq sistemləşdirilmiş gömrük rüsumu dərəcələrinin məcmusudur.İdxal və ixrac gömrük rüsumlarının dərəcələri və həmçinin əlverişli ticarət rejimi tətbiq olunan ölkələrin siyahısı Nazirlər Kabineti tərəfindən müəyyən edilir.Əlverişli Ticarət rejimi tətbiq olunmayan ölkələrin mallarına və mənşə ölkəsi müəyyənləşdirilməyən mallara idxal gömrük rüsumlarının dərəcələri iki dəfə artırılır.

Gömrük tarifi haqqında qanunda xarici ticarətdə iştirak edən malın və gömrük dəyərinin və bu malın mənşə ölkəsinin müəyyən edilməsi qaydası müəyyənləşdirilmişdir. Qanunda həmçinin malların idxalı və ixracı zamanı bir sıra gömrük tarifi güzəştlərinin tətbiqi nəzərdə tutulur.Tarif güzəştləri (tarif preferensiyaları) dedikdə, ölkənin ticarət siyasəti həyata keçirilərkən qarşılıqlı və ya birtərəfli qaydada gömrük sərhəddindən keçirilən mallar üzrə əvvəl ödənilmiş rüsumun qaytarılması, rüsumdan azadetmə, onun dərəcələrinin aşağı salınması, malın preferensial gətirilməsi (çıxarılması) üçün tarif kvotaları şəklində verilən güzəştlər başa düşülür.Gömrük güzəştləri verilməsi qaydası Nazirlər Kabineti tərəfindən müəyyən edilir.

Fərmanda gömrük rüsumlarından azadetmə, gömrük dərəcələrinin aşağı salınması halları konkret olaraq göstərilmişdir.Azərbaycan Respublikasının gömrük əsasnaməsi öz struktur və tərkibinə görə bir sıra Avropa ölkələrinin gömrük kodeksinə yaxınlaşsa da, onların göstərdiyi fəaliyyət sferasının səviyyəsinə görə onlardan geri qalar.Qeyd etmək lazımdır ki, xarici ticarətin beynəlxalq tənzimlənməsi gömrük vergiləri siyasəti dünya miqyasında beynəlxalq təşkilat olan ÜTT tərəfindən həyata keçirilir.

Dünyanın əksər ölkələri bu təşkilatın üzvləridir və bu təşkilat gömrük vergilərini tənzimləyir. Azərbaycanın da, bu təşkilata üzv olması və gələcəkdə öz XİƏ-in tənzimlənməsində gömrük mexanizmindən istifadə etmək ən vacib məqsədlərdən biri hesab edilir. Bildiyimiz kimi dünyada mal hərəkəti gömrük vergilərinin təyin olunması ÜTT tərəfindən təsdiq olunmuş harmonik kod sisteminə uyğun olaraq həyata keçirilir. Harmonik kod sistemi 9999 çeşiddə məhsulları özündə əks etdirir.

Xarici ticarət və gömrük tənzimlənməsini təkmilləşdirmək üçün bir sıra ciddi tədbirlər toplusu elmi əsaslara uyğun işlənib hazırlanmalıdır. Xarici ticarətin tənzimlənməsində qeyri-tarif tənzimləmə mexanizmindən geniş istifadə olunmalıdır. Respublikada bu formadan, çox təssüf ki, kifayət qədər geniş istifadə olunmur. Bunun nəticəsi olaraq Respublikaya bəzi dünya ölkələrindən bir sıra texniki və s. dünya standartlarına uyğun olmayan məhsullar

daxil olur. Respublikada daxili bazarın qorunması da diqqət mərkəzindədir.

Dünya iqtisadiyyatının müasir inkişaf mərhələsində və ölkələr arasında qarşılıqlı aslılığın daha aydın təzahür etdiyi bir zamanda hər bir ölkənin və regionun müvəffəqiyyəti onun XİF-nin həyata keçirilməsilə əlaqədar gömrük tənzimləmə mexanizminin tətbiqindən çox-çox asılıdır.Respublikamızda xarici ticarət əməliyyatları "Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatlarının tənzimlənməsi qaydaları" haqqında 24 iyun 1997-ci il tarixli fərmanı ilə həyata keçirilir.

Məlum olduğu kimi, Azərbaycan Respublikasının ÜTT üzvlüyünə qəbul olma prosesi 1997-ci ilin iyun ayından Azərbaycan Respublikası Hökumətinin ÜTT-yə üzv olma niyyətinin bildirilməsi ilə başlayıb və bu tarixdən ÜTT-yə müşahidəçi kimi dəvət olunub. Bundan sonra "Xarici Ticarət Rejimi haqqında Memorandum" ÜTT-nin Cenevrədəki Katibliyinə təqdim etmiş və ÜTT-nin qaydalarına uyğun olaraq, bu təşkilata üzvolma prosesində Azərbaycan üzrə müvafiq işçi Qrupu yaradılmışdır.Hal-hazırda Azərbaycan Respublikasının ÜTT-nin üzvlüyünə qəbul olma prosesinin son mərhələsi başa çatma ərəfəsindədir.

Azərbaycanın müstəqilliyi əldə olunandan sonra ölkəmizdə iqtisadi inkişafın artımına təməl qoyulmuş və bu istiqamətdə bir çox tədbirlər həyata keçirilmişdir.Bununla əlaqədar 2004-2008-ci illər üçün nəzərdə tutulmuş İnvestisiya proqramının həyata keçirilməsi də mühüm əhəmiyyət kəsb edir. Belə ki, Azərbaycan üçün vacib olan tədbirlərin həyata keçirilməsi üçün ÜTT-nin nəzərdə tutdugu əsas prinsiplərdən istifadə etmək və faydalanmaq ölkə iqtisadiyyatına təkan ola bilər.Tənzimləmə tədbirlərinin mahiyyəti isə iqtisadi islahatlar aparılan Respublikamızda həyata keçirilən islahatların ağırlığının bütünlüklə istehlakçıların üzərinə düşməsinin qarşısını almaq, istehsal və xidmət müəssisə və təşkilatlarının rəqabət qabiliyyətini artırmaq məqsədi daşıyır.

Ədəbiyyat:

1. "Azərbaycan" qəzeti, 31.01.1997.

2.Rəhimov M. Azərbaycan Respublikasının inkişafını tənzimləyən qanunlar. Bakı, Azərnəşr, 1995, s. 115.

3."Azərbaycan Respublikasının Qanunlar Külliyatı". Kitab II, III. Bakı, Qanun, 1997, s. 879, 751.

4."Azərbaycan Respublikasının Gömrük Məcəlləsi"."Azərbaycan Respublikasının Məcəllələr Külliyyatı", Bakı, "Qanun" - 1999, s. 636-714.

5."Azərbaycan Respublikasında xarici ticarətin səmərəliliyinin artırılması haqqında AR Prezidentinin Fərmanı, 10 yanvar, 1994-cü il". Azərbaycan Respublikası Ali Sovetinin məlumatı. 1994, № 1. Maddə 23.

6."Azərbaycan Respublikasında xarici ticarətin sərbəstləşdirilməsi

haqqında AR Prezidentinin 5. IV. 1994-cü il tarixli Fərmanı". Azərbaycan Respublikası Ali Sovetinin məlumatı. 1994, № 7. Maddə 7.

7."Azərbaycan Respublikasında xarici ticarətin tənzimlənməsinin təkmilləşdirilməsi tədbirləri haqqında Azərbaycan Respublikasının Prezidentinin 17. XII. 1996-cı il tarixli Fərmanı". "Azərbaycan" qəzeti, 18 dekabr, 1996.

8."Azərbaycan Respublikasında xarici ticarətin daha da liberallaşdırılması haqqında AR Prezidentinin 24.VI.1997-ci il tarixli Fərmanı". "Azərbaycan" qəzeti, 25 iyun, 1997.

3.6. Azərbaycanın xarici iqtisadi əlaqələri: keçmişi, bu günü və sabahı

Azərbaycan Universiteti. Ümumrespublika elmi-praktik konfransı. Tezislər. Bakı, 1996.

XX əsrin sonunda sovet imperiyasını süqut etdirən və dünyanın 1/6 hissəsində "dəmir pərdələri" götürən tarixi axın Azərbaycan xalqının taleyində tamamilə yeni era açdı. Siyasi istiqlaliyyət əldə etdikdən sonra bu əzabkeş xalq bir neçə taleyüklü tarixi vəzifələri eyni vaxtda yerinə yetirməli oldu: müstəqil dövlət quruluşunu yaratmaq, ərazi bütövlüyünü qorumaq və mərkəzləşdirilmiş planlı iqtisadiyyatdan bazar iqtisadiyyatına keçidi təmin etmək. Bütün bu mürəkkəb və tarixi məsələlər xarici aləmlə qarşılıqlı faydalı və bərabər hüquqlu münasibətlərin yaradılması, respublikanın xarici iqtisadi əlaqələr kompleksinin bütövlükdə yenidən qurulması kimi mühüm vəzifələrin yerinə yetirilməsindən əhəmiyyətli dərəcədə asılıdır.

Hər kəsə aydındır ki, SSRİ dövründə Azərbaycan Respublikası zəngin təbii sərvətlərinə özü sahib deyildi və bu sərvətlər Azərbaycan xalqı və iqtisadiyyatının deyil, ümumittifaq xalq təsərrüfatı kompleksinin mənafeyinə tabe edilmişdi. Ölkənin xarici iqtisadi əlaqələrinə aid bütün əsas məsələlər xarici ticarət üzərində dövlət inhisarına uyğun olaraq mərkəzdə həll edilirdi. Azərbaycan iqtisadiyyatının birtərəfli qaydada ümumittifaq bazarına yönəlməsi onu yalnız müstəqillikdən məhrum etmir, həmçinin xalq təsərrüfatının eybəcər şəkildə birtərəfli inkişaf etməsini, onun mərkəz üçün xammal bazasına çevrilməsini şərtləndirdi.Ölkənin zəngin sərvətləri xammal şəklində ucuz qiymətlə xaricə daşınıb aparıldığı halda respublika öz əhalisinin ilkin tələbat malları ilə təminatı məsələsində belə xaricdən yol verilməz dərəcədə asılı idi.

Siyasi istiqlaliyyət əldə edilməsi xarici dünya ilə köhnə əlaqələrə köklü surətdə yenidən baxılması və yeni bərabərhüquqlu və qarşılıqlı faydalı

əlaqələrin axtarılması üçün həlledici məqam oldu. Kommunist imperiyasının süqutu bu nəhəng dövlətin ərazisində geosiyasi vəziyyəti ciddi surətdə dəyişərək ölkənin təbii sərvətlərini milli mənafeyə yönəltmək, özü-özünü təmin edən təsərrüfat mexanizmi yaratmaq, xarici əlaqələri intensivləşdirmək və beynəlxalq əmək bölgüsünün üstünlüklərindən səmərəli şəkildə istifadə etmək üçün əlverişli şərait yaratdı.

Müstəqillik illərində Azərbaycanın beynəlxalq əlaqələrinin mahiyyəti, forma və miqyası, xarici ticarət dövriyyəsinin istiqaməti və quruluşu ciddi dəyişikliklərə məruz qalmışdır. Statistik məlumatlar Azərbaycanın müstəqil xarici iqtisadi, o cümlədən ticarət əlaqələrinin yaranma prosesinin mürəkkəb şəkildə getdiyini göstərir. Müxtəlif siyasi və iqtisadi amillər nəticəsində ölkə ixracı 1995-ci ildə 1992-ci ilə nisbətən 3 dəfə, idxalı 40% və ümumi ticarət dövriyyəsi isə 1,5 dəfə azalmışdır.Azərbaycan xarici ticarətinin coğrafi istiqamətlərində ciddi dəyişikliklər özünü göstərmişdir. Belə ki, keçmiş SSRİ-nin tərkibinə daxil olan Respublikalarla olan ticarət dövriyyəsi 1991-ci ildə 86,9% -dən 1995- ci ildə 36,1 %-ə enmiş və "uzaq xariclə" olan əlaqələr isə müvafiq olaraq 13,1/-dən 63,9/-ə yüksəlmişdir.Azərbaycanın ənənəvi partnyoru Rusiyanı, Türkiyə və İran əvəz etməyə başlamışdır. Azərbaycan üçün əlverişli olmayan şəkildə formalaşmış olan idxal və ixracın strukturunun ciddi dəyişikliklərə məruz qalması isə iqtisadiyyatın köklü surətdə dəyişməsi ilə bağlıdır və obyektiv olaraq uzun müddət tələb edir.

Azərbaycan bütün yaxın və uzaq dövlətlərin, beynəlxalq qrupların diqqətini özünə cəlb edən, bütün böyük dövlətlərin marağının toqquşduğu təbii bir qütbdür. O, öz çoğrafi mövqeyinə görə Müstəqil Dövlətlər Birliyinin, Qara Dəniz Əməkdaşlıq təşkilatı və İnkişaf naminə Əməkdaşlıq Təşkilatı (EKO) kimi müxtəlif regional təşkilatların eyni zamanda üzvdür. Xəzərdə neft çıxarılması haqqında "Əsrin kontraktının" bağlanması, beynəlxalq əlaqələrin intensivləşdirilməsi və xarici invenstisiyaların ölkəyə geniş şəkildə daxil olması üçün əlverişli şərait yaratmışdır. BMT-nin yardımı ilə Sumqayıtda azad iqtisadi zonanın əsaslarının qoyulması da ölkəyə xarici kapitalın geniş daxil olmasına zəmin yaradacaqdır. Avropa Birliyi, Beynəlxalq Valyuta Fondu və Beynəlxalq yenidənqurma və Bərpa Bankının kredit və yardımları ölkənin düçar olduğu dərin iqtisadi tənəzzüldən çıxması üçün böyük əhəmiyyət kəsb edir.

Lakin "xarici borc çıxmazına" məruz qalmış zəif inkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, bu kredit və yardımlardan olduqca ehtiyatla və səmərəli şəkildə istifadə etmək lazımdır. Əks təqdirdə onlar gələcəkdə maliyyə sistemimiz üzərində ağır yük ola bilər.

3.7.XXI əsrin astanasında Azərbaycanın beynəlxalq iqtisadi əlaqələri

"Azərbaycan XXI əsrin astanasında" elmi-praktik konfransının materialları, "Təfəkkür Universiteti", Bakı , 1997.

Dəmir pərdələrlə əhatə olunmuş sovet dövründə Azərbaycanın xarici iqtisadi əlaqələri iqtisadiyyatın müstəqil bir sahəsi kimi mövcud olmamışdır. Respublikamız Ümumittifaq xalq təsərrüfatı kompleksinin tərkib hissəsi kimi xarici dünyadan yalnız siyasi cəhətdən deyil, həm də iqtisadi cəhətdən təcrid olunmuşdur. Mərkəzin icazəsi olmadan onun xarici aləmlə nə siyasi, nə də iqtisadi əlaqə yaratmaq hüquqi yox idi. Xarici ticarət üzərində dövlət inhisarı bu sahədə bütün məsələlərin mərkəzi dövlət tərəfindən həll edilməsinə icazə verirdi.

Statistika məlumatları göstərir ki, Azərbaycanın dünya ilə iqtisadi əlaqələrini yalnız şərti olaraq "xarici" iqtisadi əlaqələr adlandırmaq olardı. Çünki xarici ticarət əlaqələri əsas etibarilə (idxalatın təxminən 80%-i, ixracatın isə 90-95%-i) sovet dövlətinin tərkibində cərəyan edirdi. Respublika 1991-ci ildə SSRİ-dən kənara cəmisi 744 mln. rubl mal ixrac etmişdir. İstehsal amillərinin (kapital, işçi qüvvəsi) hərəkəti isə əslində qapalı xarakter daşıyırdı, yəni onlar yalnız SSRİ daxilində hərəkət edirdi. Nəticədə ölkəmizin qapıları Qərbdə baş verən texnoloji inqilab üçün uzun tarixi dövr ərzində bağlı olmuş və istehsalın qeyri-səmərəliliyini və ümumi geriliyini şərtləndirmişdir. Respublika istehsal potensialının texniki tərkibinin əksəriyyəti dünyada özünə satış bazarı tapmayan sovet mənşəli mallardan ibarət idi.

XX əsrin son onilliyinin başlanğıcında siyasi istiqlaliyyət əldə edilməsi xarici aləmdə mövcud olan köhnə iqtisadi əlaqələr sisteminə yenidən baxılması və bərabərhüquqlu, qarşılıqlı faydalı münasibətlərin yaradılması üçün dönüş nöqtəsi oldu. Kommunist imperiyasının süqutu böyük bir ərazidə geopolitik vəziyyəti kökündən dəyişdirərək Azərbaycanın zəngin təbii sərvətlərinin milli mənafeyə tabe edilməsi, özü-özünə təmin edən təsərrüfat mexanizminin yaradılması, beynəlxalq əmək bölgüsünün üstünlüklərindən ölkəmizin mənafeyinə uyğun olaraq istifadə edilməsi üçün əlverişli şərait yaratdı.

Əvvəlcə MDB-yə daxil olmaqdan imtina edilməsi, sonra isə bu yeni birlikdə olan qarşılıqlı əlaqələr kompleksinə yenidən baxılması, Respublikanın müstəqilliyinə xələl gətirən bir çox tədbirlərdən imtina edilməsi, rubl zonasından çıxılması və yeganə ödəmə vasitəsi kimi milli valyutanın tədavülə buraxılması Azərbaycanın beynəlxalq əlaqələrinin yeni prinsiplər əsasında yenidən qurulması işində ciddi addımlardır.

Azərbaycanın öz sərvətlərinə özünün sahib olmasında və dünya təsərrüfat əlaqələri sisteminə müstəqil surətdə daxil olmasında 20.09.1994-cü ildə Xəzərin Azərbaycana aid hissəsində neft yataqlarının birgə işlənməsi üzrə dünyanın 11 aparıcı neft şirkətləri ilə "əsrin kontraktı"nın imzalanması dönüş nöqtəsi oldu. Bu və bundan sonra imzalanan kontraktlar həm də böyük siyasi əhəmiyyət daşıyır və Azərbaycana dünya təsərrüfat əlaqələri sistemində tamamilə yeni perspektivlər açırlar.

Müstəqillik elan edildiyi ilk günlərdən həyata keçirilməyə başlanan tədbirlər ölkənin xarici iqtisadi əlaqələr sahəsində "açıq qapı" siyasətinin yeridildiyini göstərir. Araşdırmalar göstərir ki, Respublikamızın beynəlxalq əlaqələrinin xarakterləri, forma və miqyası, xarici ticarət dövriyyəsinin quruluş tərkibi və coğrafi istiqamətləri ciddi dəyişikliklərə məruz qalmışdır. Respublika BMT-nin üzvü və beynəlxalq münasibətlərin müstəqil subyekti kimi dünyanın bütün ölkələri ilə bərabər hüquqlu və qarşılıqlı faydalı əlaqələr yaradılması üçün ciddi cəhdlər göstərir, ölkəmiz dünyanın aparıcı və regional təşkilatının bərabərhüquqlu üzvü kimi beynəlxalq əmək bölgüsündə öz yerini tutmağa başlamış, beynəlxalq əlaqələrin bütün formalarını müstəqil surətdə həyata keçirir, ölkənin iqtisadi inkişafı üçün xarici investisiya və kreditlərdən istifadə edir. Xarici ticarət əlaqələrinin yaradılması və qarşılıqlı tənzimlənməsi üçün yaxın və uzaq dövlətlərin çoxu ilə ikitərəfli və çoxtərəfli müqavilələr bağlanıbdır. Müstəqillik əldə edildiyi ilk günlərdən xarici iqtisadi əlaqələr kompleksinin idarə olunması üçün müvafiq strukturları (Xarici İqtisadi Əlaqələr Nazirliyi, Dövlət Gömrük Komitəsi, Nazirlər Komitəsi nəzdində xarici kredit və yardımlar üzrə milli agentlik) yaradılmış və onların işi toplanmış təcrübə əsasında təkmilləşdirilir.

Azərbaycan iqtisadiyyatında və əhalinin ilkin tələbat mallarına olan tələbatının ödənilməsində oynadığı rola uyğun olaraq respublikamızda xarici ticarətin tənzimlənməsinə xüsusi fikir verilir, onun liberallaşdırılması üçün geniş tədbirlər görülür. Bu tədbirlər ilk növbədə qeyri-tarif tənzimləmələrinin bazar iqtisadiyyatı prinsiplərinə uyğunlaşdırılmasına, totalitar rejimdən miras qalmış maneələrin məhdudlaşdırılmasına yönəldilmişdir. Nisbətən zəif aparılan tarif tənzimləmələri də xarici ticarətin liberallaşdırılması və səmərəliliyinin artırılması məqsədinə xidmət edir. Milli valyutanın buraxılması, onun rubla bağlılığının ləğv edilməsi və məzənnəsinin sabitləşdirilməsi Azərbaycanın iqtisadi istiqlaliyyəti üçün böyük əhəmiyyət kəsb edir.

Müstəqil siyasət yeridən Azərbaycan Respublikası beynəlxalq kapital hərəkətində fəal iştirak edir. Ölkəyə investisiya və kredit şəklində əhəmiyyətli miqdarda xarici kapital cəlb edilmiş, xeyli yardımlar alınmışdır.

3.8. Türkiyənin iqtisadi quruculuq təcrübəsi respublikamız üçün daha əlverişlidir

“Azərbaycan” qəzeti, 19 dekabr, 1992.

XX əsrn sonunda nəhəng imperiyanın parçalanması Azərbaycanda gedən milli azadlıq hərəkatının qələbəsi üçün əlverişli şərait yaratdı. Özünün siyasi istiqlaliyyətini bütün dünyaya elan etmiş Azərbaycan Respublikasında uzun müddət mövcud olmuş totalitar rejimin yerində müasir anlayışlara, beynəlxalq prinsiplərə uyğun demokratik bir siyasi iqtisadi sistem yaradılması prosesi gedir.

Tarixi təcrübə göstərir ki, demokratiya və bazar iqtisadiyyatı biri digərindən ayrılmaz məfhumlardır. Əgər bazar iqtisadiyyatı olmazsa, demokratiyanın əsas prinsiplərini tam şəkildə həyata keçirmək mumkün deyildir.

Bazar iqtisadiyyatının işləməsi üçün mütləq demokratik rejim lazımdır. Demokratiya siyasi həyatda seçicilərin hökmranlığını təmin etdiyi kimi, bazar iqtisadiyyatı da təsərrüfat həyatında istehsalçıların hökmranlığını təmin edir. Azərbaycanda istər bütövlükdə götürülmüş demokratik sistemin, istərsə də onun ayrılmaz hissəsi olan bazar iqtisadiyyatının yaradılması yalnız bu sahədə mövcud olan zəngin dünya təcrübəsini diqqətlə öyrənilməsi və onun Azərbaycan şəraitinə uyğunlaşdırılması əsasında mümkündür.

Bu gün Azərbaycanda belə bir fikir formalaşıb ki, Türkiyənin iqtisadi quruculuq təcrübəsi respublikamız üçün daha əlverişlidir.

Bu, yalnız dil birliyi və coğrafi yaxınlıqla əlaqədar deyildir. Respublika dövründə Türkiyədə yaradılmış yeni iqtisadi sistem özünün mütərəqqiliyi və qabaqcıllığını bütün dünyada sübut etmişdir. Qısa müddətdə geri qalmış ölkədən aqrar-sənaye ölkəsinə çevrilmiş, orta səviyyəli ölkələr sırasına çıxmış və yaxın gələcəkdə inkişaf etmiş sənaye ölkələri arasına çıxmağa çalışır.

Türkiyənin təcrübəsi bizim üçün həm də ona görə vacibdir ki, bu təcrübə qabaqcıl dünya təcrübəsinin uğurlu bir sintezidir. Qərb və Şərq məziyyətlərinin müvəffəqiyyətlə uzlaşdırılması təcrübəsidir.

Turkiyənin 69 il ərzində keçdiyi müstəqil inkişaf yolu istiqlaliyyət uğrunda mübarizə aparan Asiya və Afrika ölkələrinin əksəri, eləcə də Azərbaycan üçün örnək ola bilər.

XX əsrdə ən güclü iqtisadi nəzəriyyələrdən olan Keyns nəzəriyyələri yarandığı ilk gündən Türkiyədə sürətlə yayıldı. 60-70-ci illərdən isə Türkiyə iqtisadi siyasətinin əsasını təşkil etdi. Bu nəzəriyyələrdən qaynaqlanan sosial-demokrat ideyaları Avropada yarandığı vaxtdan Türkiyədə özünə çoxlu tərəfdar tapdı və böyuk bir hərəkatın başlanğıcını qoydu.

Bu gün bir çox qabaqcıl dövlətlərin iqtisadi siyasətinin əsasını təşkil edən, neoliberalizm adlanan monterist ideyalar da 1980-ci ildən Türkiyə

dövlətinin rəsmi iqtisadi siyasətində yön verməyə başladı. Türkiyədə 80-ci illərdə özünü göstərən iqtisadi sıçrayış məhz bu siyasətin nəticəsidir.

Bu gün biz onları öyrənib, acısını kənara atmalı, "iqtisadi möcüzələri" doğuran rüşeymləri götürməliyik. Hazırda Azərbaycan iqtisadi sistem axtarışındadır. Yaradılacaq iqtisadi sistemin adı ictimai fikirdə və rəsmi sənədlərdə "bazar iqtisadiyyatı" adlanır. Totalitar rejim dövründə ortaya atılmış bu məfhum özünün mücərrədliyi və qeyri-müəyyənliyi ilə fərqlənir. Məhz bunun nəticəsidir ki, bazar iqisadiyyatı ilə əlaqədar bizdə olduqca çoxlu anlaşılmazlıqlar və yanlış təsəvvürlər mözcuddur. Dövlət mülkiyyətinə və dövlət bölməsinə olan münasibət bunun parlaq təzahürüdür. Yaxın keçmişə qədər dövlət mülkiyyəti ideallaşdırıldığı halda, indi onun tamamilə ləğv edilməsi çağırışı eşidilir. Dövlətin iqtisadi həyata müdaxiləsi isə bəsit şəkildə başa düşülür. Dövlət İqtisadiyyat və Planlaşdırma Komitəsinin ləğv edilməsi haqqında danışılır. Beşillik inkişaf planlarının müsbət cəhətləri unudularaq onlardan tamamilə imtina edilmişdir. Bütün bunların əsas səbəbi yaradılacaq iqtisadi sistem barədə təsəvvürün düzgün olmamasıdır.Əgər ən qabaqcıl iqtisadi sistemdən söhbət gedirsə, bu heç də mücərrəd bir sistem - azad bazar iqtisadiyyatı sistemi deyil, qarışıq iqtisadiyyat sistemi olmalıdır. Bu sistem dövlət mülkiyyəti ilə xüsusi mülkiyyətin dialektik vəhdət təşkil etdiyi bir sistemdir. Məhz bu məqamda hər şey öz yerində olur: dövlət mülkiyyəti də, xüsusi mülkiyyət də və iqtisadi həyatda orbitr rolunu oynayan dövlət də "Qarışıq iqtisadiyyat" deyilən bu model Asiya və Afrika ölkələri arasında ilk dəfə olaraq Türkiyədə hələ 30-cu illərdən böyük müvəffəqiyyətlə tətbiq olunmağa başlanmışdır.

"Qarışıq iqtisadiyyat" sistemində bazar iqtisadiyyatının təmin etmək üçün lazım olan hüquqi bazanı yaratmağı və bir sıra mühüm xidmətlər göstərməyi dövlət öz üzərinə götürür. Hüquqi baza xüsusi müəssisələrə qanunilik statusu verilməsini, xüsusi mülkiyyət hüququnun müəyyən edilməsini və müqavilələrin yerinə yetirilməsini təmin edən tədbirləri nəzərdə tutur. Dövlət, həmçinin müəssisələr satıcılar və istehlakçılar arasında münasibətləri nizamlayan qanuni "oyun şərtləri" müəyyənləşdirir.

Turkiyədə "qarışıq iqtisadiyyat" modeli içində iqtisadiyyatın müxtəlif səhələrində olduqca çoxlu dövlət müəssisələri yaradılmışdır. Lakin bu müəssisələr heç vaxt iqtisadi sistemdə bazarın yerini tutmaq məqsədilə yaradılmamış, planlar fərdi qərarları və sərbəst təşəbbusü aradan qaldırmaq məqsədini güdməmişdir. XX əsrdə iqtisadiyyatın demokratik prinsiplər əsasında əsas təşkil forması dünya təsərrüfatı sisteminin lokomotiv rolunu oynayan səhmdar cəmiyyətlərdir. Azərbaycanda səhmdar cəmiyyətlər və bazar infrastrukturu üçün hüquqi baza yaradılarkən hələ həyatda özünü doğrultmamış MDB və Moskva qanunları deyil müsbət dünya təcrübəsinin sintezini təşkil edən Turkiyə hüquq sistemi əsas götürülməlidir. Məhz Türkiyə təcrübəsində həm

Avropa dəqiqliyini, həm də Şərq normalarına uyğunlaşmanın praktik nəticələrini görürük. Türkiyədə respublika yaradıldıqdan sonra 30-40 il ərzində xalq üçün yenilik olan səhmdar cəmiyyətləri o qədər də geniş yayılmadı. Mövcud olan səhmdar cəmiyyətlərin çoxu ailə tipli cəmiyyətlər formasında qaldı. Yalnız 1956-cı ildə qəbul edilmiş dünya və Türkiyə təcrübəsini bir sintez halında birləşdirən "Kommersiya qanunu" ilə yeni hüquqi baza yaradıldıqdan sonra Türkiyədə səhmdar cəmiyyətlər iqtisadiyyatın əsas aparıcı qüvvəsinə çevrildi.

İqtisadiyyatın demokratikləşdirilməsinin mühüm istiqamətlərindən biri də xalq malını özündə birləşdirən dövlət maliyyə sisteminin millətin yüksək iradəsinə tabe edilməsidir. Maliyyə və kredit mexanizminin Moskvanın tabeçiliyindən çıxarılıb Azərbaycan hökumətinə tabe edilməsi bunun ilk və olduqca mühüm mərhələsidir. Lakin məsələ bununla bitmir. Dünyada maliyyə sistemi üzərində mövcud olan demokratik parlament nəzarəti diqqətlə öyrənilib əsasları qoyulan yeni dövlət quruculuğumuzda istifadə edilməlidir. Büdcənin tərtibi, təsdiqi və icrası müasir mütərəqqi və demokratik prinsiplərə əsaslanmalıdır. Bütün mədəni ölkələrdə parlament adından maliyyə sistemi üzərində nəzarəti həyata keçirən xüsusi orqanlar vardır. Məsələn, Türkiyə Böyük Millət Məclisi adından dövlət gəlirləri və xərcləri xəzinə əməliyyatları üzərində nəzarəti həyata keçirən xüsusi təşkilat vardır. "Ali Maliyyə Şurası" adlanan bu orqan həmçinin vergi işində məhkəmə funksiyasını da yerinə yetirir. Azərbaycanda isə Maliyyə Nazirliyi, Gömrük Komitəsi və Vergi Müfəttişliyi kimi çox mühüm orqanlar üzərində səmərəli parlament nəzarəti yoxdur. Bu gün respublikanın məruz qaldığı ağır maliyyə itkilərinin başlıca səbəblərindən biri də budur. Heç kəs üçun sirr deyildir ki, yaradılan kommersiya strukturları gəlirinin çox cüzi hissəsi vergi mexanizmi vasitəsi ilə tutula bilir.

Dövlət vəsaiti hesabına külli miqdarda assosiasiyalar, kiçik müəssisələr yaradılır və onlardan xəzinəyə nə qədər vəsait daxil olması məlum deyildir.

Əgər Azərbaycanda da Ali Maliyyə Şurası yaradılarsa, bu şura mühüm maliyyə əməliyyatları üzərində parlament nəzarətini tətbiq edərək respublikamızın maliyyə həyatına böyük səfərbəredici təsir göstərər və ölkəmizin düçar olduğu ağır maliyyə çətinliklərindən çıxmasına yardım edər.

3.9. Azerbaycan ekonomisi Türk işadamları için karlı bir kaynak

"Dünya" gazetesi, 12.07.1991.

Azerbaycan Cumhuriyeti kuzeyde Dağıstan Özerk Cumhuriyeti, kuzeybatıda Gurcistan, güneybatıda Ermenistan ve Türkiye, güneyde ise İranla sınır komşusudur. Ülkenin doğusunda Hazer Denizi yer almaktadır. Azerbaycan`ın yüzölçümü 86.600 kilometre kaderdir. Cumhuriyet 7,5

milyonluk nüfusuyla Sovyetler Birliği içinde 6. sırada, Kafkas devletleri içerisinde ise 1. sırada yer alır. Bu nüfusun %54`ü kentlerde, %46`sı ise köylerde yerleşiktir. Azeriler toplam nüfusun %78,2`sini oluşturur.

Azerbaycan genelde dağlık bir ülke olmakla birlikte topoğrafik görünüm hayli değişiktir. Bir yanda karlarla kapalı yüce dağlar göklere yükselirken öbür yande deniz düzeyinin altındaki yükseklikte kırsal alanlara rastlanır.

Bu Kafkas ülkesi çok zengin yeraltı varlıklara sahiptir. Bunlardan en önemlileri petrol ve doğal gazdır.Bu iki kaynak Azerbaycan ekonomisinin lokomotifi durumundadır ve kimya sanayisinin de ana hammadde deposunu oluşturur.Bunların dışında Azerbaycan`ın yeraltı varlıkları arasında demir, kobalt, molibden, krom, bakır gibi madenler ile alunit, barit, tuz, izlandiya spatı, litoğraf taşı gibi maden dışı yataklara da rastlanır. Kireç taşı, kil, mermer, alçı vb. yapı maddeleri yönünden de oldukça zengindir.

Azerbaycan çok zengin maden suyu ve şifalı su kaynaklarının yanı sıra çeşitli hastalıkların iyileştirilmesini sağlayan şifalı çamurlarıyla da doludur. Naftalan`ın çeşitli rovmatizma türleri ile belkemiği fıtığı gibi rahatsızlıkların iyileştirilmesinde basınçlı petrol uygulamasıyla yapan üç kurumu da kaydedilmeye değer. Burada Sovyetler Birliğinin hemen her tarafından gelmiş hastaların tedavi edildikleri görülür. Dünyanın hiçbir yerinde benzeri olmayan bu tedavi merkezinde iltihaptan, sinir sistemine ve hareketli organlarda hissedilen çeşitli rahatsızlıklara kadar değişen rahatsızlıkların iyileştirildiği görülür.

Toprak türleri ve iklim özellikleri de Azerbaycan`ı benzeri az bulunur ülkeleri sırasına katar. Örneğin dünya çevresindeki on bir değişik iklimin onuna Azerbaycan`da rastlamak mümkündür. Yine dünyada mevcut toprak türlerinin hemen hepsi bu ülkede görülebilir. Ilkin ve toprak yönünden sahip olduğu bu çeşitlilik Azerbaycan`ı bitki türleri bakımından da doğal olarak çok zenginleştirir. Nitekim uzmanlar bitki türü sayısının 4,00 bin civarda olduğunu bildirmekdedir. Bunların yaklaşık %10`u Sovyetler Birliği`nin başka hiçbir yerinde görülmez. Hazar denizi ve Irmak kesimleri (Azerbaycan`da 850 kadar ırmak ve küçük yapay göller vardır) balıkçılığın çok geliştiği bölgelerdir.

Ormanlar ülke yüzeyinin %12`sini kaplar ve hayvan türleri bakımından da tür ve sayı zenginliği dikkat çeker.

Azerbaycan dünya nüfusunun binde 6`sına, yüzölçümünün de binde 58`ine sahiptir, ama dünyada üretilen pamuğun %3,57`si, doğal gazın binde 56`sı, petrolün da binde 49`u bu ülkeden çıkar. Üretilen şarap türleri ve miktarları unutulmamalıdır.Ülkenin sahip olduğu varlıklara ve doğal kaynaklara dayalı sanayiler de çok gelişmiştir. Bunlar arasında elektrik enerjisi, petrol, gaz, çelik, demir, madensel gübreler, sülfirik asit, sentetik katran, plastik maddeler, tekstil sanayileri sayılabilir.

Azerbaycan Sovyetler Birliği topluluğu içinde nüfus yönünden 6., toprak yönünden 9. olmasına karşın bazı sanayi ürünleri bakımından hayli ileri sıralarda yer alır. Örneğin petrol üretiminde, çelik boru, kostik sodyum üretiminin 3, tarım alanında üzüm ve çay üretiminde de 1.dir. Azerbaycan Sovyetler Birliği`nde üretilen klima cihazlarının tümü, sulfanolun %95`i, makine ve silindir yağının %40`ı, sondaj ve jeolojik araştırma malzemelerinin %25`i, tarım alanında da üzümün %22`sine sahiptir.

Azerbaycan 15 Sovyet Cumhuriyeti`nden başka dünyanın 90 ülkesiyle ekonomik ilişki içindedir. Bu ülkelere 350'den fazla ürün çeşidi ihraç edilir. Bunlar arasında esasen petrol, ürünleri, petrol sanayi malzemeleri, alüminyum, sulfanol, madensel gübreler, elektrik motörleri, klima cihazları yer alır.

Son istatistik verilere göre, Azerbaycan milli gelirinin %42`si sanayi, %30,2`si tarım, %13,4`ü inşaat, %3,5`i ulaştırma ve haberleşme, %5,7`i de diğer sektörlerden elde edilmektedir.

Azerbaycan`ın sanayi yapısına ilişkin istatistik düzeni Türkiye`dekinden farklıdır.Türkiye`de sanayi sektörü üretimi madençilik, imalat ve enerji olmak üzere üçe ayrılır. Bu sınıflama Azerbaycan`da da üç grupta toplanır, ama gruplamalar şöyledir: 1. Ağır sanayi – yakıt, enerji, metalurji, makine, kimya, orman ürünleri, yapı malzemeleri), 2. Hafif sanayi – dokumacılık, dikiş, sanayi, deri, kürk, kundura), 3.Gida sanayisi.

Bu sınıflama düzeni üzerinden Azerbaycan`da sanayinin %48-49`u ağır, %19-20`i hafif ve %30`u da gida grubuna girer.

Bir başka sınıflamaya göre de üretim araçları (Azerbaycan bölümü), tüketim araçları (B bölümü), üretimleri üzerinden değerlendirme yapılır. Ülkede üretilen sinai üretiminin %72`si birinci bölümde, %28`si de ikinci bölümde yer alır.

Duruma bir de şu anıdan bakılabilir.Azerbaycan nüfusu Sovyetler Birliği nüfusunun %1.3`ünü oluşturmasına ragmen birlik milli gelirinin %1,6`sı buradan gelir.Aynı şekilde sanayi ürünlerinin %1,3`ü, tarım ürünlerinin de %1,7`si Azerbaycan`da üretilir.Devlet ve kooperatifler aracılığıyla yapılan ticaret hacmi içindeki payı ise %1,5`tir.

Azerbaycan`da kişi başına milli gelir Sovyetler Birliği ortalamasının % 77`sine, sanayi üretimi %55`ine ve tarım üretimi de %70`ine karşılık oluşturuyor.

Azerbaycan şimdilerde, bu ülke için çok yeni bir şey olan piyasa ekonomisi yaratılması çabalarına girmiş bulunuyor.Yeni ekonomik yapının oluşturulması çok büyük ve tümüyle değişik sorunlar yaratıyor. Bunların çözümlenmesinde ve üstesinden gelinmesinde de kardeş Türk halkının ve işadamlarının yardımları çok önemli olabilir.

3.10. Xarici iqtisadi fəaliyyətdən əldə edilən gəlirlərin Azərbaycanda vergiyə cəlb edilməsi xüsusiyyətləri

"Heydər Əliyev və müasir Azərbaycan".I Ümumrespublika Əliyevşunaslıq konfransının materialları. 6 may, 2003.

Xarici iqtisadi fəaliyyət aparılan zaman əldə edilən aktiv və passiv gəlirlərin vergiyə cəlb edilməsinin özünəməxsus və bir-birindən fərqli xüsusiyyətləri mövcuddur.

Azərbaycan Respublikasında beynəlxalq vergi münasibətlərində rezidentlik prinsipini həyata keçirmək üçün Vergi Məcəlləsi ilə "rezident" və "qeyri-rezident" anlayışları 13. 2. 5. maddəsi ilə aşağıdakı kimi təsbit edilmişdir (Azərbaycan Respublikasının Vergi Məcəlləsi. "Hüquq ədəbiyyatı" nəşriyyatı. Bakı, 2007 s. 286 s. 11-12).

Aşağıda göstərilən tələblərin birinə cavab verən istənilən fiziki şəxs rezident hesab edilir:

- təqvim ilində üst-üstə 182 gündən artıq vaxtda həqiqətən Azərbaycan Respublikasının ərazisində olan;
- təqvim ili içərisində, yaxud bir təqvim ili ərzində xarici ölkədə Azərbaycan Respublikasının dövlət xidmətində olan;
- Vergi Məcəlləsinin 13. 2. 5. 1 maddəsinin ikinci və üçüncü abzasında Azərbaycan Respublikasının ərazisində və xarici ölkədə (hər hansı birində) fiziki şəxsin olma müddəti 182 gündən artıq olmadıqda, həmin fiziki şəxs aşağıdakı ardıcıllıqla göstərilən meyarlarla Azərbaycan Respublikasının rezidenti sayılır:
- daimi yaşayış yeri;
- həyati mənafelərinin mərkəzi;
- adətən yaşadığı yer;
- Azərbaycan Respublikasının vətəndaşları;

Fiziki şəxs vergi ilində Azərbaycan Respublikasının ərazisində qaldığı son gündən etibarən bu vergi ilinin sonunadək olan dövr ərzində Azərbaycan Respublikasının qeyri-rezidenti sayılır, bu şərtlə ki, həmin şəxs bilavasitə növbəti vergi ilində Azərbaycan Respublikasının qeyri-rezidenti olsun;

Qeyri-rezident:

- Azərbaycan Respublikasının ərazisində diplomatik və ya konsulluq statusu olan şəxs və onun ailə üzvləri;
- Azərbaycan Respublikasının ərazisində müəyyən edilmiş qaydada dövlət qeydiyyatından keçmiş beynəlxalq təşkilatın əməkdaşı və ya Azərbaycan Respublikasında xarici ölkənin dövlət xidmətini həyata keçirən şəxs və onların ailə üzvləri;

- məqsədi yalnız Azərbaycan Respublikasının ərazisindən keçməklə bir xarici dövlətdən digər xarici dövlətə keçmək olan şəxs:

Göstərilən müddəalar Azərbaycan Respublikasının ərazisində sahibkarlıq fəaliyyəti göstərən şəxslərə aid edilmir.

Azərbaycan Respublikasının ərazisində müəyyən edilmiş qaydada dövlət qeydiyyatından keçmiş beynəlxalq təşkilatın əməkdaşı və ya Azərbaycan Respublikasında xarici ölkənin dövlət xidmətini həyata keçirən şəxs və onların ailə üzvləri;

Məqsədi yalnız Azərbaycan Respublikasının ərazisindən keçməklə bir xarici dövlətdən digər xarici dövlətə keçmək olan şəxs;

Bu məcəllənin 13.2. 6.1-ci və 13.2. 6.2-ci maddələri Azərbaycan Respublikasının ərazisində sahibkarlıq fəaliyyəti göstərən şəxslərə aid edilmir;

- Azərbaycan Respublikasının ərazisində yerləşən diplomatik imtiyazları və immunitetləri olan diplomatik nümayəndəliklər, konsulluq idarələri və xarici ölkələrin digər rəsmi nümayəndəlikləri, beynəlxalq təşkilatlar və onların nümayəndəlikləri, habelə sahibkarlıq fəaliyyəti ilə məşğul olmayan xarici təşkilatların və firmaların nümayəndəlikləri;

- rezident anlayışı ilə əhatə edilməyən digər şəxslər.

Vergi ödəyicisinin ailə üzvləri; ər-arvadlar; valideynlər, övladlar və övladlığa götürülmüş şəxslər; vərəsələr; doğma (ögey) bacılar (qardaşlar); bacı və qardaş övladları.

Mənbə və ya ərazi prinsipi ilə vergitutmanı həyata keçirmək üçün "Azərbaycan mənbəyindən əldə edilən gəlir" anlayışı Azərbaycan Respublikası Vergi Məcəlləsinin 13. 2. 16 maddəsi ilə müəyyən edilmişdir. Həmin maddəyə görə Azərbaycan mənbəyindən gəlir aşağıdakılardır:

- Azərbaycan Respublikasında muzdlu işdən gəlir;

- Azərbaycan Respublikasında istehsal edilmiş malların istehsalçı tərəfindən təqdim edilməsindən gəlir;

- Azərbaycan Respublikasında malların təqdim edilməsindən, iş görülməsindən və xidmət göstərilməsindən gəlir;

- Azərbaycan Respublikasının ərazisindəki daimi nümayəndəliyə aid edilən sahibkarlıq fəaliyyətindən əldə olunan gəlir, o cümlədən belə daimi nümayəndəlik vasitəsilə təqdim edilmiş mallara (işlərə, xidmətlərə) aid edilə bilən eyni cinsli, yaxud bənzər (oxşar) malların (işlərin, xidmətlərin) təqdim edilməsindən, habelə daimi nümayəndəlik vasitəsilə həyata keçirilən fəaliyyətə aid edilə bilən fəaliyyətdən və ya ona oxşar fəaliyyətdən əldə edilmiş gəlir;

Azərbaycan Respublikasındakı sahibkarlıq fəaliyyəti ilə əlaqədar;

- vergi ödəyicisinin borclarının onun kreditorları tərəfindən silinməsindən;

- Məcəllənin 114. 7-ci maddəsinə uyğun olaraq gəlirə daxil edilmiş əsas

vəsaitlərin təqdim edilməsindən;

- xərclərin Vergi Məcəlləsinin 141-ci maddəsinə uyğun olaraq kompensasiya edilməsindən və ya ehtiyatların azalmasından gəlir;

- rezident hüquqi şəxsdən dividend şəklində əldə edilən gəlir, həmçinin bu hüquqi şəxsdə iştirak payının satılmasından və ya başqasına verilməsindən əldə edilən gəlir;

- rezidentlərdən alınan faizlər şəklində gəlir;

- rezident tərəfindən ödənilən pensiya;

- Azərbaycan Respublikasının ərazisində daimi nümayəndəliyi və ya əmlakı olan şəxsdən alınan faizlər şəklində gəlir - həmin şəxsin bu faizlər üzrə borcu bu cür daimi nümayəndəlik və ya əmlakla bağlıdırsa;

- Azərbaycan Respublikasında saxlanılan və ya istifadə edilən əmlak üçün alınan royalti şəklində gəlir, yaxud Məcəllənin 13. 2. 23-cü maddəsində göstərilən və Azərbaycan Respublikasında saxlanılan və ya istifadə edilən əmlakın təqdim edilməsindən gəlir;

- Azərbaycan Respublikasında istifadə edilən daşınan əmlakın icarəyə verilməsindən əldə edilən gəlir;

- Azərbaycan Respublikasındakı daşınmaz əmlakdan əldə edilən gəlir, o cümlədən bu əmlakda iştirak payının təqdim edilməsindən gəlir;

- aktivlərin 50 faizindən çox olan hissəsi birbaşa və ya dolayısı ilə Azərbaycan Respublikasındakı daşınmaz əmlakdan ibarət olan müəssisənin səhmlərin və ya iştirak payının təqdim edilməsindən gəlir;

- rezidentin sahibkarlıq fəaliyyəti ilə bağlı olmayan əmlak təqdim edilməsindən əldə etdiyi digər gəlirlər;

- idarəetmə, maliyyə xidmətləri göstərilməsindən əldə edilən gəlir - bu gəlir rezident hüquqi şəxsin və ya qeyri-rezidentin Azərbaycan Respublikasının ərazisində yerləşən daimi nümayəndəliyi tərəfindən ödənilirsə, yaxud o, həmin müəssisə və ya onun daimi nümayəndəliyi ilə bağlanmış müqaviləyə əsasən əldə edilmişdirsə;

- Azərbaycan Respublikasında risqin sığortası və ya təkrar sığortası haqqında müqavilə üzrə ödənilən gəlir;

- Azərbaycan Respublikası ilə digər dövlətlər arasında beynəlxalq rabitə və ya daşınmalar həyata keçirilərkən telekommunikasiya və ya nəqliyyat xidmətlərindən gəlir;

- Azərbaycan Respublikasındakı fəaliyyətlə bağlı meydana çıxan və Məcəllənin əvvəlki maddələrində əhatə edilməyən digər gəlirlər. Bu maddəyə uyğun olaraq gəlirin mənbəyi müəyyən edilərkən gəlirin ödənildiyi yer, həmçinin onun birbaşa və ya dolayısı ilə ödənilməsi nəzərə alınmır.

Ödəmə mənbəyində dividenddən vergi tutulması Məcəllənin 122-ci maddəsi ilə aşağıdakı qaydada həyata keçirilir:

- rezident müəssisə tərəfindən ödənilən dividenddən ödəmə mənbəyində

10 faiz dərəcə ilə vergi tutulur.

- dividendin faktiki sahibi olan fiziki və hüquqi şəxslərdən həmin qaydaya uyğun olaraq vergi tutulmuşdursa, dividendi alan fiziki və hüquqi şəxslərin həmin gəlirindən bir daha vergi tutulmur.

- həmin gəlir yenidən dividend şəklində verilən zaman vergiyə cəlb olunmur.

Ödəmə mənbəyində faizlərdən vergi tutulması (maddə 123):

-Rezident banklarına, maliyyə lizinqini həyata keçirən rezident şəxslərə və ya qeyri-rezident bankların, maliyyə lizinqini həyata keçirən qeyri-rezidentin Azərbaycan Respublikasındakı daimi nümayəndəliyinə kreditlər (ssudalar), depozitlər (hesablar) üzrəödənilən faizlər istisna olmaqla, rezident tərəfindən və ya qeyri-rezidentin daimi nümayəndəliyi tərəfindən, yaxud bu cür nümayəndəliyin adından ödənilən faizlərdən, o cümlədən maliyyə lizinqi əməliyyatları üzrə ödənilən ssuda faizlərdən, gəlir bu Məcəllənin 13. 2. 16-cı maddəsinə uyğun olaraq gəlir Azərbaycan mənbəyindən əldə edilmişdirsə, ödəniş mənbəyində 10 faiz dərəcə ilə vergi tutulur.

-Faizlərin faktiki sahibi fiziki şəxsdirsə, Məcəllənin 123. 1-ci və 123. 4-cı maddələrinə uyğun olaraq vergi tutulmuş faizlər həmin fiziki şəxslərə ödənildikdən sonra onlardan bir daha vergi tutulmur.

-Faizlərin faktiki sahibi mənfəəti vergiyə cəlb olunan rezident müəssisədirsə və ya qeyri-rezidentin daimi nümayəndəliyidirsə, bu Məcəllənin 123. 1-ci maddəsinə uyğun olaraq vergi tutulmuş faizləri alan həmin müəssisə və ya qeyri-rezidentin daimi nümayəndəliyi hesabladığı verginin məbləğini, ödəmə mənbəyində verginin tutulduğunu təsdiq edən sənədləri vermək şərti ilə bu mənbədəödənilmiş verginin məbləği qədər azaldır.

-Həyatın yığım sığortası üzrə sığorta olunanın ödədiyi və ya onun xeyrinə ödənilən sığorta haqları ilə sığorta ödənişləri arasındakı fərq kimi alınan gəlirdən ödəniş mənbəyindən 10 faiz dərəcəsi ilə vergi tutulur.

Ödəmə mənbəyində icarə haqlarından və royaltidən vergi tutulması qaydası aşağıdakı kimidir: (maddə 124).

- daşınan və daşınmaz əmlak üçün icarə haqqından, həmçinin rezidentin və ya qeyri-rezidentin Azərbaycan Respublikasındakı daimi nümayəndəliyinin ödədiyi və ya onun adından ödənilən royaltidə gəlir Azərbaycan mənbəyindən əldə edilmişdirsə, ödəmə mənbəyində 14 faiz dərəcə ilə vergi tutulur.

İcarə haqqı vergi ödəyicisi kimi uçotda olmayan fiziki şəxs tərəfindən ödənildikdə icarəyə verən bu maddəyə uyğun olaraq vergini özü ödəyir və bu Məcəllənin 33-cü və 149-cu maddələrinə uyğun olaraq vergi uçotuna alınıb bəyannamə verir.

İcarə haqqı və royaltidən gəlir əldə edən fiziki şəxslərdən bu Məcəllənin 124. 1-ci maddəsinə uyğun olaraq vergi tutulmuşdursa və ya onun tərəfindən

ödənilmişdirsə, həmin gəlirlərdən bir daha vergi tutulmur.

- Rezident müəssisələrə və ya qeyri-rezidentlərin daimi nümayəndəliklərinə Azərbaycan Respublikasında ödənilmiş məbləğlər bu maddə üzrə vergitutma obyekti deyildir.

Qeyri-rezidentin gəlirindən ödəmə mənbəyində vergi tutulması isə aşağıdakı qaydada həyata keçirilir:

Qeyri-rezidentin Azərbaycan mənbəyindən əldə olunan gəliri kimi müəyyən edilən və qeyri-rezidentin Azərbaycan Respublikasının ərazisindəki daimi nümayəndəliyinə aid olmayan ümumi gəlirindən ödəmə mənbəyində xərclər çıxılmadan aşağıdakı dərəcələrlə vergi tutulur:

- dividend - Vergi Məcəlləsinin 122-ci maddəsinə uyğun olaraq;

- faizlər - Vergi Məcəlləsinin 123-cü maddəsinə uyğun olaraq;

- rezident müəssisənin və ya sahibkarın riskin sığortasına və ya təkrar sığortasına dair müqaviləyə uyğun olaraq sığorta ödəmələri - 4 faiz;

- Azərbaycan Respublikası ilə digər dövlətlər arasında beynəlxalq rabitə və ya beynəlxalq daşımalar həyata keçirilərkən rabitə və ya nəqliyyat xidmətləri üçün rezident müəssisəsinin və ya sahibkarın ödəmələri - 6 faiz;

- rezident müəssisəsinin və ya sahibkarın aşağıdakı ödəmələrdən;

- muzdlu işlə əlaqədar alınan gəlirlər istisna olmaqla işlərin görülməsindən və ya xidmətlərin göstərilməsindən əldə edilən gəlirlər, o cümlədən Məcəllənin 13. 2. 16. 2-ci, 13. 2. 16. 10-cu, 13. 2. 16. 12-ci və 13. 2. 16. 14-cü maddələrinə göstərilən xidmətlərdən alınan gəlir və Azərbaycan mənbəyində əldə edilən digər gəlirlər - 10 faiz;

- rezident müəssisəsinin və ya sahibkarın muzdlu işlə əlaqədar ödədiyi gəlir - Vergi Məcəlləsinin 101-ci maddəsində göstərilən dərəcələrlə;

- icarə haqları və royalti - Vergi Məcəlləsinin 124-cü maddəsinə uyğun olaraq.

Bu maddənin məqsədləri üçün qeyri-rezidentin Azərbaycan Respublikasındakı daimi nümayəndəliyi tərəfindən və ya onun adından aparılan ödəmələr rezident müəssisənin ödəmələrinə bərabər tutulur.

Azərbaycan Respublikasının tərəfdar çıxdığı ikiqat vergitutmanın aradan qaldırılması haqqında beynəlxalq müqavilələrdə vergilərin aşağı dərəcəsi və ya vergilərdən tam azad olunma nəzərdə tutulduğu halda, ödəmə mənbəyində artıq tutulmuş vergi məbləği bu Məcəllənin 87. 4-cü maddəsində müəyyən edilmiş qaydada geri qaytarılır.

Qeyri-rezidentin daimi nümayəndəliyindən mənfəət vergisindən əlavə olaraq bu daimi nümayəndəliyin xalis mənfəətindən həmin qeyri-rezidentin xeyrinə köçürdüyü (verdiyi) hər hansı məbləğdən 10 faiz dərəcə ilə vergi tutulur.

Rezidentin Azərbaycan Respublikasının hüdudlarından kənarda Azərbaycan mənbəyindən olmayan gəlirindən ödənilmiş gəlir vergisinin və ya

mənfəət vergisinin məbləğləri Azərbaycanda vergi ödənilərkən nəzərə alınır.

Məcəllənin 127. 1-ci maddəsinə uyğun olaraq nəzərə alınan məbləğ Azərbaycan Respublikasında həmin gəlirdən və ya mənfəətdən müəyyən edilmiş dərəcələrlə tutulan verginin məbləğindən çox olmamalıdır.

Vergi Məcəlləsində güzəştli vergi tutulan ölkələrdə əldə edilən gəlir 128-ci maddə ilə müəyyənləşdirilmişdir.

Rezident güzəştli vergi tutulan ölkədə gəlir əldə edən qeyri-rezidentin nizamnamə fondunun 20 faizindən çoxuna bilavasitə və ya dolayısı ilə sahibdirsə, yaxud öz növbəsində onun səsvermə hüququ verən səhmlərinin 20 faizindən çoxunun sahibidirsə, rezidentin həmin gəliri onun vergi tutulan gəlirinə daxil edilir.

Güzəştli vergi tutulan xarici ölkə dedikdə, vergi dərəcəsi Vergi Məcəlləsində müəyyən edilmiş dərəcədən 2 dəfə və ya daha çox aşağı olan və ya maliyyə məlumatını, yaxud əmlakın faktiki sahibi və ya gəlir (mənfəət) götürən barədə sirri qorumaq imkanı verilmiş şirkətlər haqqında məlumatın məxfiliyinə dair qanunun mövcud olduğu ölkə başa düşülür.

Gəlirlərin qeyri-rezidentlərin xeyrinə bölüşdürülməsi zamanı vergitutmanın digər mühüm xüsusiyyətlərindən biri də odur ki, faiz ödəmələri və royaltiyə nisbətən mənfəətin dividend formasında ixracı daha yüksək vergiyə məruz qalır. Bütün bunlardan əlavə, bir çox inkişaf etmiş dövlətlərin vergi qanunvericiliyinə əsasən faiz ödəmələri vergiyə cəlb olunan mənfəət hesablanarkən ümumi mənfəətdən çıxılır, çünki onların ödənilməsi müəssisənin ilkin öhdəliyidir.Belə ki, həmin müəssisənin kapitalına borc formasında investisiyalar qoyulur.Vergitutmanın bu xüsusiyyətindən gəlirlərin (mənfəətin) bölüşdürülməsi zamanı vergilərin aşağı salınması məqsədilə firmadaxili kreditləşmədə geniş istifadə olunur. Vergilərin minimallaşdırılması məqsədilə transmilli qrupun tərkibində passiv gəlirlərin bir formasının digər formaya çevrilməsi mümkündür.

Xarici iqtisadi fəaliyyətlə məşğul olarkən digər mümkün risklərlə (siyasi, kommersiya, valyuta və s.) yanaşı, həm də vergi risklərini də ayırmaq lazımdır. Vergi riski müəyyən ölkədə vergi siyasətinin dəyişməsi ilə, yeni vergitutma formalarının tətbiqi ilə, gəlir (mənfəət) vergisinin dərəcələrinin dəyişilməsi ilə, yeni gömrük rüsumlarının tətbiqi ilə, vergi güzəştlərinin ləğvi ilə və sair bu qəbildən olan hallar ilə əlaqədar ola bilər.

Vergi riskləri sığorta olunmur və tam şərti olaraq onları gözlənilən və gözlənilməyən risklərə bölmək olar.Gözlənilməyən risklər adətən, siyasi məsələlərlə bağlı olur.Gözlənilən riskləri isə ölkənin vergi siyasətindəki meyllərə əsasən qabaqcadan proqnozlaşdırmaq olur.

Azərbaycan Respublikasında fəaliyyət göstərən xarici və müştərək müəssisələrin vergiyə cəlb edilməsi də mühüm məsələlərdən biridir. Ölkəmizin zəngin təbii sərvətləri, əlverişli iqlim şəraiti və yüksək ixtisaslı

kadr potensialı xarici investorlara iqtisadiyyatımıza öz sərmayə qoyuluşlarını artırmaq üçün şərait yaratmışdır.

Statistik məlumatlara əsasən son on ildə 1995-2005-ci illər Azərbaycan iqtisadiyyatına yönəldilən xarici sərmayə qoyuluşu 375, 1 mln. dollardan 4893, 2 mln. dollara yüksəlmişdir. 2006-cı ildə isə daha 3333, 1 mln. AZN qoyulmuşdur. Bunun böyük bir hissəsi neft sənayesinə, qalan hissəsi isə iqtisadiyyatın digər sahələrinə yönəldilmişdir. [44, s. 490]

Bu gün Azərbaycanda 796-dan çox xarici investisiyalı müəssisə fəaliyyət göstərir və ölkə üzrə bütün müəssisələrin ümumi sayında onların xüsusi çəkisi 5 faizdən artıq təşkil edir. Bu müəssisələrin istehsal etdikləri məhsulun və xidmətlərin həcmi 1999-cu ildə 2880 milyard manatdan (təxminən, 720 milyon ABŞ dollarından artıq) 2005-ci ildə 7081 milyard manata çatmışdır (Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Müştərək və xarici müəssisələrin fəaliyyətinin əsas göstəriciləri, yanvar - dekabr, Bakı, Səda,2006, s. 46-51).

Ötən illər ərzində dövlət büdcəsinə daxilolmalarda xarici investisiyalı müəssisələrdən ödənilən vergilərin xüsusi çəkisi də xeyli artmışdır. Əgər bu göstərici 1995-ci ildə cəmi vergi daxilolmalarına nisbətən 2,4 faiz olmuşdursa, 1999-cu ildə 23,6 faizə, 2000-ci ildə isə 21,7%-ə qədər yüksəlmiş və sonrakı illərdə mütəmadi olaraq artır.

Təbii ki, xarici investisiyaların iqtisadiyyatımıza cəlb olunmasına təsir edən amillərdən biri də xarici investorlar üçün əlverişli vergi mexanizminin yaradılmasıdır. Dövlətin vergi siyasətinin başlıca istiqamətlərindən biri də məhz, ölkədə xarici investorların və işadamlarının normal işləməsi üçün əlverişli iqtisadi şəraitin yaradılması, onlar üçün vergiqoymada müəyyən güzəştlərin nəzərdə tutulmasıdır.

5. Çünki Ümummilli liderimiz Heydər Əliyevin apardığı uzaqgörən siyasətin prioritet istiqamətlərindən biri milli bazarın dünya bazarı ilə, milli iqtisadiyyatın dünya iqtisadiyyatı ilə intensiv inteqrasiyanın düzgün təşkil edilməsi olmuşdur (Musayev A. F. Vergi siyasətinin iqtisadi problemləri. Bakı, "Elm", 2004,, s. 13).

Azərbaycan Respublikasının Vergi Məcəlləsində mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq, bütün vergi ödəyiciləri üçün eyni vergiqoyma şərtləri nəzərdə tutulmuş və ayrı-ayrı vergi ödəyicilərinə münasibətdə diskriminasiya halları yolverilməzdir. Xarici investisiyalı müəssisələr də yerli vergi ödəyiciləri kimi eyni vergilərin ödəyiciləridirlər və vergi qanunvericiliyində nəzərdə tutulmuş imtiyaz və güzəştlər onlara da şamildir. Bundan başqa, xarici hüquqi şəxslərin mənfəətinin investisiyaya yönəldilən hissəsi vergiyə cəlb olunmadan azaddır. Yuxarıda göstərildiyi kimi, onların Azərbaycan Respublikasındakı mənbələrdən dividend və faizlər şəklində əldə etdikləri gəlirlər, habelə qeyri-rezidentin xeyrinə köçürülən hər

hansı məbləğlər 10 faiz, nümayəndəlik yaratmadan Azərbaycan Respublikası ərazisində iş və xidmətlərin göstərilməsindən əldə etdikləri gəlirlər - 15 faiz, lizinq əməliyyatları üzrə ödəmələr və sığorta ödəmələri - 4 faiz, beynəlxalq rabitə və beynəlxalq daşımalardan əldə etdikləri gəlirlər isə - 6 faiz dərəcə ilə ödəmə mənbəyində vergiyə cəlb olunur.

Eyni zamanda, Vergi Məcəlləsində Azərbaycan Respublikası ərazisində neft sazişləri əsasında karbohidrogen fəaliyyətini həyata keçirən xarici şirkətlər üçün xüsusi rejimli vergitutma mexanizmi nəzərdə tutulmuşdur. Bu şirkətlər üçün vergiqoyma məsələləri Azərbaycan Hökuməti ilə podratçı-xarici şirkətlər arasında bağlanmış müvafiq protokollarla tənzimlənir. Bu protokollara əsasən Azərbaycan Respublikası ərazisində karbohidrogen fəaliyyətini həyata keçirən xarici subpodratçı şirkətlər gördükləri iş və xidmətlərə görə əldə etdikləri gəlirlərdən yalnız ödəniş mənbəyində tutulan mənfəət vergisinin ödəyiciləridirlər.Bu verginin dərəcələri neft konsorsiumlarından asılı olaraq müəyyən edilmiş və 5 faiz, 6, 25 faiz və ya 8 faiz təşkil edir. Ödəniş mənbəyində tutulan mənfəət vergisindən başqa, bu şirkətlər karbohidrogen fəaliyyətindən əldə etdikləri gəlirlərindən respublika vergi qanunvericiliyində müəyyən edilmiş digər vergiləri ödəməkdən azad-dırlar.Neft sazişləri üzrə podratçı tərəf sayılan xarici şirkətlərin karbohidrogen fəaliyyətindən əldə etdikləri gəlirləri isə həmin sazişlərlə müəyyən olunan dərəcələrlə yalnız mənfəət vergisinə cəlb olunmalıdırlar.

ATƏT-in eksperti Boqdan Marçevskinin fikrinə görə,“Azərbaycanın vergi sistemi qeyri-adidir, çünki iqtisadiyyatın üç müxtəlif sahəsində üç cür vergi sistemindən istifadə olunur. Birinci sistem ölkənin 1 yanvar 2001-ci il tarixində qüvvəyə minən yeni Vergi Məcəlləsində əks olunmuşdur. Bu yeni qanun bir neçə vergi növünü geniş əhatəli vahid bir məcəllədə toplamışdır. Yeni Məcəllə “Hasilat Bölgüsü Müqaviləsinə uyğun olaraq Azərbaycanın neft və qaz sənayesi ilə bağlı Gürcüstan və Türkiyə ərazisindən keçəcək əsas neft kəmərinin çəkilməsilə əlaqədar fəaliyyət göstərən müəssisələr istisna olmaq şərti ilə hamıya şamil edilir.İkinci vergi sistemi əsas boru xətti ilə əlaqədar fəaliyyət göstərən şirkətlər, üçüncü sistem isə “Hasilat Bölgüsü Müqaviləsində müəyyən edilən iqtisadi fəaliyyətə aid edilir (317, s. 15).

Hazırda Azərbaycan Respublikasının Vergi Məcəlləsində ölkəmizdə xarici investorların və iş adamlarının normal fəaliyyəti üçün vergiqoymada kifayət qədər imtiyaz və güzəştlər nəzərdə tutulmuşdur.

Beləliklə, yuxarıda göstərildiyi kimi, beynəlxalq vergitutma milli vergi-tutmaya nisbətən daha mürəkkəbdir. Qlobal iqtisadiyyatda vergi ödəyicisinin rezident olduğu ölkə ilə gəlir mənbəyi olan ölkənin maraqları üst-üstə düşür. Bu sahədə müvafiq sazişlər imzalamış bütün tərəflər üçün və ayrı-ayrı vergi ödəyiciləri üçün məcburi olan beynəlxalq hüquq normaları mövcuddur.

Beynəlxalq iqtisadi münasibətlərdə vergilər həm xarici iqtisadi

fəaliyyətin tənzimlənməsi vasitəsi kimi, həm də dövlət gəlirlərinin əsas mənbələrindən biri kimi çıxış edərək sahibkarlar üçün əsas xərc amillərindən biridir. Sahibkarlar beynəlxalq vergi planlaşdırmasının əsas mexanizmlərindən istifadə edərək, öz işgüzar fəaliyyətləri zamanı müxtəlif vergi risklərini nəzərə almalıdırlar. Beynəlxalq ikiqat vergitutma fiziki və hüquqi şəxslər üçün əlavə vergi yükü olaraq, yalnız bütün dövlətlərin vergi siyasətlərinin bir-biri ilə uzlaşdırılması yolu ilə tənzimlənə bilər.Müasir dünyada vergi harmonikləşdirməsinə hələ tam nail olmaq mümkün olmadığından, beynəlxalq səviyyədə vergitutma probleminin yeganə həlli yolu ikiqat vergitutmanın aradan qaldırılması sahəsində konvensiyaların bağlanılmasıdır. Eyni zamanda, hər bir ölkə birtərəfli qaydada az və ya çox dərəcədə öz rezidentləri üçün ümumi vergi məbləğinin minimallaşdırılmasını təmin edə bilər.

Xarici iqtisadi fəaliyyət zamanı nəzərə alınmalı olan əsas vergi növləri bunlardır: hüquqi şəxslərin mənfəət vergisi, fiziki şəxslərin gəlir vergisi, kapital vəəmlak vergisi, əlavə dəyər vergisi, gömrük rüsumları və gəlirin (mənfəətin) bölüşdürülməsindən vergilər. Digər bərabər şərtlərlə birlikdə vergitutmada daha güzəştli şərtlər təklif edən ölkələr kapital və əmtəə resurslarının öz ərazilərinə axmalarına şərait yaradırlar.Ölkənin vergi iqlimi (vergi sistemi tipi, əsas vergi növləri və onların dərəcələri, vergi güzəştlərinin xarakteri, beynəlxalq vergi sazişlərinin mövcudluğu) hazırda investisiya qərarlarının qəbul olunmasında ən başlıca müəyyənedici amildir.Bu, daha yüksək vergi dərəcələri tətbiq edən ölkələri öz vergi siyasətlərinə müvafiq dəyişikliklər etmək məcburiyyətində qoyur, əks halda bu ölkələr vergi sığınacaqları ilə rəqabət apara bilməzlər.

Sonda onu qeyd etmək lazımdır ki, dövlətlə vergi ödəyicisi arasında davam edən qarşıdurma prosesi indi yeni - beynəlxalq inkişaf mərhələsinə qədəm qoymuşdur.

3.11. Qafqaz ümumi bazarı nədir? Yaxud, iqtisadi proseslərin beynəlxalq miqyasda inteqrasiyası güclənir.

“Azərbaycan”, 5 yanvar, 1993.

Ölkələr arasında qarşılıqlı iqtisadi əlaqələr genişləndikcə onların bir-birlərindən asılılığı da artır.Bu təmayül iqtisadi proseslərin beynəlxalq miqyasda inteqrasiya meyllərini olduqca gücləndirir. Müasir şəraitdə hec bir ölkə, hətta cox yüksək inkişaf etmiş ölkə belə bütün iqtisadi problemləri təkbaşına həll etməyə qadir deyildir.

Sovet İttifaqının dağılması kecmiş ölkənin cənubunda Qafqaz xalqlarının yaşadığı geniş bir ərazidə geopolitik vəziyyəti xeyli kəskinləşdirmişdi. Artıq kecmiş SSRİ-nin tərkibinə daxil olmuş müttəfiq respublikalar müstəqil dövlətlərə çevrilir və öz iqtisadi təsərrüfat mexanizmini köklü surətdə yenidən qurmağa calışırlar. Suveren dövlətlər daha özlərinin xarici, iqtisadi əlaqələrini keçmişdəki kimi (birtərəfli qaydada mərkəzləşmiş istiqamətdə) yox, bir neçə istiqamətdə qurmağa calışır və bu yöndə fəal iş aparırlar. Zəngin xammal ehtiyatı və satış bazarı kimi tanınmış bu regionla iqtisadi əlaqə uğrunda iki dünyanın nəhəng dövlətləri rəqabət aparır və bu getdikcə güclənir.

Burada inteqrasiya prosesləri görünməmiş dərəcədə dərinləşir, süni olaraq aralarında "dəmir pərdələr" cəkilmiş qonşu xalqlar arasında min illərlə mövcud olmuş siyasi, iqtisadi və mədəni əlaqələr yenidən bərpa olunmağa başlayır. Dövlətlər arasında iqtisadi proseslər başqa məcraya yan alır, tamamilə yeni iqtisadi məkan yaranır. Artıq Qara dəniz hövzəsi ölkələrinin iqtisadi birliyi yaranmışdır. Pakistan, İran və Türkiyəni birləşdirən Regional Əməkdaşlıq Təşkilatı Azərbaycan və bir sıra Orta Asiya respublikalarını da öz tərkibinə qəbul etmişdir. Xəzər dənizi hövzəsi ölkələri birliyinin yaradılması ücün də fəal işlər gedir. Rusiya və Qafqaz bazarları arasında keyfiyyət etibarilə yeni münasibətlər təşəkkül tapır.Qafqaz xalqlarının bir çox mühüm məsələlər üzrə mənafelərinin eyniliyi, onların qarşısında duran əsas sosial-iqtisadi problemlərin oxşarlığı tələb edir ki, bu xalqların milli bazarları inteqrasiya şərtləri əsasında "Qafqaz Ümumi Bazarı" (QÜB) adı altında birləşsin.

Tarix ehtiyatlarla zəngin olan bu nadir guşənin tükənmş sərvətlərindən daha səmərəli istifadə etmək və Qafqaz Ümumi Bazarına könüllü olaraq daxil olan hər bir dövlətin hərtərəfli iqtisadi inkişafı ücün obyektiv zəmin yaratmışdır.

QÜB Qafqazın ümumi iqtisadi problemlərinin həll olunmasına calışmalı, dünyanın nəhəng iqtisadi məkanında Ümumqafqaz mənafeyinin qorunması məqsədinə xidmət etməlidir. QÜB yaradıcı təşkilatdır və ona görə də sovet hakimiyyəti illərində Qafqaz xalqları arasında mövcud olmuş acıq sərhədlərin bütün müsbət nəticələrini qorumağa calışmalıdır.

QÜB dünya standartlarına uyğun gələn, keyfiyyət etibarilə yeni qarşılıqlı münasibətlər sistemi əsasında ümumi iqtisadi məkanın prinsiplərini hazırlayıb həyata kecirəcəkdir.

Qafqaz xalqları zəngin Qafqaz regionunun dünya sənaye mərkəzləri ücün ucuz xammal bazasına çevrilməsinin qarşısını almaq uğrunda qəti mübarizə aparacaqdır. Ümumi Qafqaz evinə daxil olan dövlətlər Qafqazda mövcud olmuş azad ticarətin qorunub saxlanılması və yeni əsaslar üzərində qurulması, öz aralarında məhsul idxalı və ixracına məhdudiyyətlər qoyulmasından imtina etmək sahəsində razılaşdırılmalıdır.Qafqaz dövlətləri başqa

dovlətlərlə münasibətlərdə qarşılıqlı, razılaşdırılmış xarici ticarət və gömrük siyasəti yeridəcəklər. Qafqaz dövlətləri regionun maddi, maliyyə və əmək ehtiyatlarından daha səmərəli istifadə etmək məqsədilə aparılan iqtisadi siyasəti əlaqələndirə, vahid energetika və nəqliyyat sisteminin yenidən qurulması, ətraf mühitin mühafizə edilməsi ücün birgə böyük layihələr işləyib hazırlayacaq və həyata keçirəcəklər. Vahid telekommunikasiya və informasiya şəbəkələrinin, strategiya xidmətinin yaradılması üçün səylər əlaqələndiriləcəkdir. Regionda azad sahibkarlıq zonası yaradılacaq ki, bunun da vacib şərti iş adamlarının, xidmətlərin və kapitalların Qafqaz regionu daxilində azad hərəkəti ücün hər cür maneələrin aradan qaldırılması olacaqdır.

Qafqaz xalqlarının ərzaq məhsulları və xammala olan ehtiyacının ödənilməsində mühüm rol oynayan, ancaq məlum səbəblərə görə böhran keçirən kənd təsərrüfatı istehsalının mövcud vəziyyətdən çıxarılmasına yönəldilən uzlaşdırılmış siyasət yeridilməsi Qafqaz dövlətlərinin xüsusi diqqət mərkəzində olacaqdır.Strateji məhsulların Qafqazdan kənarda dünya qiymətləri ilə satışının təşkili ücün tədbirlər görüləcəkdir.

Qafqazın əsl çiçəklənməsi yalnız sağlam bazar münasibətlərinin tətbiqi əsasında mümkündür. Bunun ücün də Qafqazda ümumi bazar infrastrukturunun yaradılmasına yönəlmiş geniş proqramlar hazırlanıb və həyata keçirilməlidir. Xarici kapitalı cəlb etməklə birgə maliyyə-kredit müəsissələri yaradılacaqdır. Günün reallıqları tələb edir ki, birgə iri layihələrin maliyyələşdirilməsi üçün vahid investisiya və kənd təsərrüfatı bankları yaradılsın, vahid valyuta buraxılması haqqında tədbirlər görülsün. Qafqazın iri şəhərlərinin birində beynəlxalq maliyyə mərkəzi yaradılsın. Buna ən çox Bakının imkanları uyğun gəlir.

IV FƏSİL
QLOBALLAŞMA ŞƏRAİTİNDƏ AZƏRBAYCAN İQTİSADİYYATININ AKTUAL PROBLEMLƏRİ

4.1. Azərbaycan qlobal iqtisadi inkişaf yolunda

"Xalq qəzeti", 9 yanvar, 2008.

Ümummilli lider Heydər Əliyevin başçılığı ilə əsası qoyulan və onun layiqli davamçısı İlham Əliyev tərəfindən inkişaf etdirilən köklü iqtisadi islahatlar yeni cəmiyyətin və müstəqil dövlət quruculuğunun möhkəm zəminini təşkil edən iqtisadi bazisi formalaşdırmışdır.

Klassik iqtisad elminin belə bir müddəası bu gün üçün də əhəmiyyətlidir: "Cəmiyyətin müəyyən ictimai şüuruna uyğun gələn hüquqi və siyasi üstqurum cəmiyyətin iqtisadi strukturu real bazisi üzərində yüksəlir".

"İnformasiya cəmiyyəti: iqtisadiyyat, cəmiyyət və mədəniyyət" adlı fundamental əsər yazmış və bəzən "müasir dövrün Marksı" adlandırılan məşhur amerikalı sosioloq Manuel Kastels də öz tədqiqatlarını həmin ideya əsasında aparır və göstərir: "Yeni dünya ikinci minilliyin sonunda formalaşır. O, 60-cı illərin sonu - 70-ci illərin əvvəllərində üç avtonom prosesin tarixi qovşağında yaranmışdır:1.informasiya texnologiyasında inqilab; 2. kapitalizm və etatizmin böhranı və onların sonrakı restruktizasiyası; 3.libertarianizm, insan hüquqları uğrunda mübarizə, feminizm, ətraf mühitin qorunması kimi mədəni-sosial hərəkatın çiçəklənməsi. Həmin proseslər arasında qarşılıqlı təsir və onlardan doğan reaksiya yeni dominant sosial strukturu, şəbəkə cəmiyyətini; yeni qlobal - informasiya iqtisadiyyatını və yeni mədəniyyəti - real virtual mədəniyyəti yaratdı. Həmin iqtisadiyyatın, həmin cəmiyyətin və həmin mədəniyyətin əsasında duran məntiq, həmçinin, qarşılıqlı əlaqədar olan ictimai hərəkatını və sosial institutların əsasını təşkil edir".

Beləliklə, heç kəsdə şübhə doğurmur ki, inkişaf etmiş müasir iqtisadiyyat, modern iqtisadi bazis cəmiyyətin siyasi və sosial strukturunun - modernləşməsinin vacib şərtidir. Təsadüfi deyildir ki, Adam Przeworski demokratiyanın yaranmasını sosial-iqtisadi şəraitlə siyasi şəraitin kəsişmə nöqtəsində görür. M.Duverqer və S.P.Huntinqton kimi tanınmış politoloqlar demokratiyanı "varlı millətlərin siyasi sistemi" hesab edirlər. Huntinqtona görə, "yoxsulluq demokratiyanın ən əsas maneəsidir" və demokratiyanın gələcəyi iqtisadi inkişafın gələcəyindən asılıdır. İqtisadi inkişafın maneələri demokratiyanın yayılmasına əngəl olan amillərdir. Duverqer haqlı olaraq hesab edir ki, demokratiya hər kəs üçün, "xalqın hər qrupu üçün" müstəqillik deməkdir. "Bu da, məlum bir yaşayış səviyyəsini, məlum baza təhsilini, məlum sosial bərabərliyi və məlum bir siyasi tarazlığı" tələb edir.

Beləliklə, ulu öndər Heydər Əliyevin radikal iqtisadi islahatlar strategiyası, cənab İlham Əliyevin iqtisadi inkşafın diversifikasiyası əsasında sürətli iqtisadi yüksəliş xətti yeni cəmiyyət quruculuğunun fundamental əsasıdır. Yüksələn xətlə inkişaf edən iqtisadi bazis cəmiyyətin transformasiyasının əsasını təşkil edir; ölkənin qlobal üfüqlərə doğru inamla addımlaması üçün əsaslı zəmin yaradır.Bunlar aşağıdakılardan ibarətdir:

- iqtisadi sabitlik təmin olunmuşdur;
- ölkənin təbii sərvətləri üzərində milli hegemonluq bərpa edilmiş və həyata keçirilən uğurlu neft strategiyası sayəsində zəngin neft ehtiyatları geniş miqyasda mənimsənilməyə, ölkənin ehtiyaclarının ödənilməsinə yönəldilməyə başlamışdır;
- köklü iqtisadi islahatlar nəticəsində bazar iqtisadiyyatı prinsiplərinə əsaslanan iqtisadi strukturun formalaşması istiqamətində ciddi addımlar atılmış, özəl bölmə cəmiyyətin inkişafının aparıcı qüvvəsinə çevrilmişdir;
- torpağın kəndlilərə verilməsi nəticəsində kəndlərdə yeni istehsal münasibətləri formalaşmağa başlamışdır;
- Azərbaycan dövlətinin sosial yönümlülüyü ciddi şəkildə artmış, "qara qızılın insan qızılına" çevrilməsi üçün genişmiqyaslı tədbirlər sistemi həyata keçirilməyə başlanmışdır;
- ölkə beynəlxalq münasibətlərin bərabərhüquqlu subyektinə çevrilmişdir.

Açıq iqtisadiyyat inkişaf modelinin ardıcıl olaraq tətbiq olunması, xarici iqtisadi əlaqələrin genişləndirilməsi ölkənin beynəlxalq əmək bölgüsünün üstünlüklərindən səmərəli istifadə olunması üçün yeni imkanlar yaratmışdır.

Ölkənin sosial-iqtisadi inkişaf səviyyəsinin müəyyən edilməsi üçün BMT göstəricilər kompleksi müəyyən etmişdir. Bu göstəricilərə aşağıdakılar daxildir: sənayeləşmə, şəhərləşmə, orta təbəqənin genişliyi, insan inkişaf indekslərinin dinamikası, ÜDM, adambaşına ÜDM, yaşayış keyfiyyəti, iqtisadiyyatda qeyri-mütənasiblik səviyyəsi, təhsil, səhiyyə, rabitə və nəqliyyatın vəziyyəti. Bu göstəricilər arasında ÜDM və adambaşına milli gəlir göstəriciləri özünəməxsus yer tutur.

Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan hökumətinin həyata keçirdiyi radikal iqtisadi islahatlar nəticəsində müstəqilliyin ilk illərində ölkədə dərinləşən dərin sosial-iqtisadi böhranın qarşısı tam alınmış və sabit inkişaf istiqamətində dönüş yaradılmışdır.

1991-1995-ci illər ərzində istehsal olunmuş ÜDM hər il 13-20% azalırdısa, bu azalmanın qarşısı 1995-ci ildə alınmış və 1996-cı ildə onun fiziki həcm indeksi əvvəlkinə nisbətən 13% artmışdır. Sonrakı illərdə də bu artım davam etmiş və ilbəil sürətlənmişdir. Belə ki, 1997-ci ildə ÜDM-un artım sürəti 5,8%, 1998-ci ildə 10%, 1999-cu ildə 7,4%, 2000-ci ildə isə müstəqillikdən sonrakı illərdə rekord səviyyəsinə çataraq 11,2% təşkil

etmişdir. Adambaşına ÜDM 1993-cü ildəki 179,9 dollardan 2003-cü ildə 896,8 dollara, 2006-cı ildə isə 2120,3 manata (2373,3 dollar) yüksəlmişdir.

Son üç ildə (2004-2006-cı illər) Azərbaycan iqtisadi inkişaf sürətinə görə regionda və dünyada lider dövlətə çevrilmişdir. Belə ki, 2004-cü ildə ÜDM-un artım sürəti 10,2, 2005-ci ildə 26,4 və 2006-cı ildə 34,5% təşkil etmişdir. 2007-ci ildə bu dinamika saxlanılmış, iqtisadiyyatın artımı 25 % olmuşdur.

Müqayisə üçün bildirək ki, 2005-ci illərdə Baltikyanı ölkələrdə bu rəqəm Mərkəzi Avropa ölkələrində 4%, Türkiyədə 4%, MDB dövlətlərində 7% olmuşdur. 1990-cı illərin ikinci yarısında radikal iqtisadi islahatların start götürməsi və uğurla davam etdirilməsi, dövlət əmlakının özəlləşdirilməsi prosesi, vergi və bank sistemində islahatların aparılması, xarici investisiyaların təşviq edilməsi, sahibkarlıq fəaliyyəti üçün işgüzar mühitin yaxşılaşdırılması və bu kimi digər tədbirlər sisteminin həyata keçirilməsi nəticəsində Azərbaycan iqtisadiyyatında başlanan dirçəliş iqtisadiyyatın bütün sahələrində özünü büruzə vermişdir.

Ölkə iqtisadiyyatının əsasını təşkil edən sənaye ən iri aparıcı sahədir. Həmin sahədə istehsal 1995-2000-ci illər ərzində sabitləşmiş və artma meyli göstərmişdir. 2006-cı ildə isə 2004-cü ilə nisbətən 2,4 dəfə artmışdır. İqtisadiyyata kapital qoyuluşları 1995-2000-ci illərdə 4,2 dəfə, 2000-2006-cı illərdə isə 6,2 dəfə artmış və 967,8 mln. dollardan 5985,7 mln. dollara çatmışdır. Bazar münasibətlərinin mürəkkəb və ziddiyyətli keçdiyi kənd təsərrüfatında istehsal olunan məhsulların həcmi 80,1%, 2000-2006-cı illərdə isə 78,5% artmışdır. Nəqliyyatda yük dövriyyəsi müvafiq dövrdə 2 dəfə və 2,7 dəfə çoxalmışdır.

Müstəqil Dövlətlər Birliyi "Statistika Komitəsinin məlumatına görə", 2006-cı ildə ümumi daxili məhsulun bu ölkələrdəki artımı 17 olub ki, bu da əvvəlki illə müqayisədə təqribən 2 dəfə çoxdur. 2006-cı ildə ÜDM artımı Azərbaycanda 3,5 %, Ermənistanda 4,8 % olmuşdur. Rusiya 7,2 % göstərici ilə birlik ölkələri arasında 7-ci yeri tutur. Beləliklə, Azərbaycanın iqtisadi inkişafda liderliyi bir daha təsdiqlənir. Bu artım, ilk növbədə, neft amili ilə bağlı olmaqla yanaşı iqtisayyatın bütün sahələrində üsul və xidmətlərin buraxılışın artmasının, istehsal xərclərinin azaldılması və müvafiq olaraq sahələr üzrə yeni yaranan dəyərin xüsusi çəkisinin artması ilə bağlıdır. Bu isə iqtisadi səmərəliliyin yüksəldilməsinin mühüm göstəricisidir. Belə ki, 1995-1999-cu illərdə iqtisadiyyatın bütün sahələrində yaranmış əlavə dəyərin ümumi buraxılışda xüsusi çəkisi 47-52% təşkil edirdisə, son beş il ərzində onun xüsusi çəkisi 56,4-57,8% arasında dəyişmişdir. Sənayedə yaranmış əlavə dəyərin ÜDM-də xüsusi çəkisi 2000-ci ilə nisbətən 11,5% artaraq 2005-ci ildə 47,5% təşkil etmişdir.Həmin dövrdə kənd təsərrüfatında yaranmış əlavə dəyərin ÜDM-dəki payı 6,7% azalmış, tikintidə isə 3,5% artmışdır.

Sənayedə qeyri-neft sektorunun hesabına yaranmış əlavə dəyərin payı 79,1%-ə, kənd təsərrüfatında 97,7%-ə, ticarət və xidmətdə 98,3%-ə, tikintidə isə 90,2%-ə çatmışdır. Xarici ticarət dövriyyəsi 1995-ci ildə 1304,4 mln. dollardan 2000-ci ildə 2917,3 mln. dollara yüksələrək 2,2 dəfə artmışdır. 2000-2006-cı illərdə isə 2917,3 mln. dollardan 11639,8 mln. dollara yüksəlmiş və təxminən 4 dəfə artmışdır.

İqtisadi inkişafın ən mühüm göstəricisi adambaşına məhsul istehsalıdır. Azərbaycanda adambaşına məhsul istehsalı SSRİ-nin mövcud olduğu 70 il ərzində cəmisi 340 dollar (1990-cı il) səviyyəsini keçməmişdirsə, müstəqillik illərində 2373 dollara yüksəlmişdir. Həmin göstərici 1995-2006-cı illər ərzində 7,4 dəfə artmışdır.Yalnız son dörd il ərzində (2003-2006-cı illər) adambaşına ÜDM istehsalı 2,6 dəfə artmışdır. Dünya ölkələrinin təcrübəsində ÜDM-in iki dəfə artımı üçün on illik dövr tələb olunduğu nəzərə alınarsa, Azərbaycanda bu sahədə əldə olunmuş nailiyyət olduqca yüksəkdir.

Beynəlxalq təşkilatlar adambaşına milli gəlir istehsalına görə Azərbaycanı artıq orta səviyyəli inkişaf etmiş dövlətlər qrupuna aid edir. Əgər cəmisi 10 il əvvəl 1997-ci ildə - Dünya Bankı özünün illik hesabatında ölkəmizi adambaşına milli gəlir istehsalına görə 480 dollar (1995-ci il) ilə dünyanın ən az gəlirli ölkələri (Mozambik, Efiopiya, Tanzaniya, Mavritaniya və b.) sırasına daxil etdiyi nəzərə alınarsa, bu tarixi əhəmiyyətli bir hadisədir. Birləşmiş Millətlər Təşkilatının "İnsan inkişafı haqqında hesabatında (2006-cı il)" Azərbaycan bir çox digər göstəricilər üzrə də orta səviyyəli inkişaf etmiş ölkələr qrupuna daxil edilmişdir.Bu göstəricilərdən ən mühümü "insan inkişafı indeksi" üzrə ölkəmizin 0,736 bənd ilə 177 ölkə arasında 99-cu sırada dayanmasıdır.Azərbaycan "Doğulanların gözlənilən yaşayış müddəti" göstəricisinə görə 111-ci yerdə, oxumaq-yazmaq səviyyəsinə görə 14-cü yerdə, adambaşına ÜDM istehsalına görə isə 108-ci yerdədir.

Keçid iqtisadiyyatı ölkələrində iqtisadi azadlıq göstəricisi bazar iqtisadiyyatı mexanizminin işləməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Məlum olduğu kimi, bazar iqtisadiyyatında iqtisadi azadlıq anlayışı fərdlərin iqtisadi fəaliyyətdə sərbəst məşğul olmasını və bu fəaliyyət nəticəsində əldə etdikləri gəlirləri kənardan heç bir müdaxilə olmadan azad şəkildə istifadə etmələrini ifadə edir. Təşəbbüsçülük, mübadilə, sövdələşmə, mülkiyyət, seçim və beynəlxalq ticarətdə sərbəstlik iqtisadi azadlığın mühüm elementləridir...

Təbiidir ki, iqtisadi azadlıq səviyyəsi müxtəlif ölkələrdə müxtəlif dərəcədədir.Ona görə də iqtisadi azadlıq dərəcəsini müəyyən etmək üçün beynəlxalq təşkilatlar iqtisadi azadlıq indeksi (İAİ) hazırlayırlar. Bu indeksi iki beynəlxalq qurum hazırlayır: Kanadada yerləşən Frazer İnstitutu və Vaşinqtonda yerləşən "Heritage" Fondu. İndeks 20 müxtəlif meyar əsasında hazırlanır. Məqsəd həmin meyarlarla "azad iqtisadiyyat" və "azad cəmiyyət" anlayışlarını mümkün qədər geniş yaymaq və ölkələrin bu sahədə tədbir

görmələrini tövsiyə etməkdir. Təşkilatların nəzərə aldıqları meyarlar arasında "dövlətin rolunun böyüklüyü", "hüquqi struktur və mülkiyyət hüququ", "sağlam valyuta", "ticarət sərbəstliyi", "iş dünyası, işçi qüvvəsi və maliyyə bazarları sahəsində tənzimləmələr" kimi göstəricilər daxildir.

Azərbaycanda iqtisadi azadlığın vəziyyəti Vaşinqtonda "Heritage Foundation"un hazırladığı və "The Wall Street" jurnalında dərc olunmuş İqtisadi Azadlıq İndeksi haqqında hesabatda öz əksini tapmışdır. Hesabatda Azərbaycanın siyasi müstəqillik əldə etdikdən sonrakı dövrə iqtisadi azadlıqlar baxımından son məlumatlar işığında nəzər salınır. Müəyyən edilmişdir ki, Azərbaycan iqtisadi azadlıq baxımından 157 ölkə arasında 107-ci yerdə dayanmışdır. Asiya-Sakit Okean regionunda yerləşən 30 ölkə arasında Azərbaycan orta göstəricidən az da olsa yüksək mövqe tutur. Verilmiş qrafikdə ölkəmizdə İAİ 1996-2007-ci illərdə yüksələn xəttlə artır. Hesabatda göstərilir ki, Azərbaycanda özəlləşdirmənin yüksək sürətlə getməsi dövlət məsrəflərini azaltmışdır. Ticarət azadlığı (67,6%), maliyyə azadlığı (87,2%), dövlət müdaxilələrinin azlığı (86,6%), işçi qüvvəsi sahəsində azadlıqlar (65,4%) baxımından ölkəmiz dünyada mövcud olan orta göstəricidən xeyli yuxarıdır.Azərbaycanda l998-2007-ci illər ərzində İAİ 27%-dən 54%-ə qədər yüksələrək on ildə 2 dəfə artmış və dünyada orta səviyyəyə çatmışdır.

Yuxarıda verilən indeksləri təhlil edən Türkiyə iqtisadçıları Mustafa Acar və Bahadır Akın belə bir nəticəyə gəlirlər: "Bazar iqtisadiyyatı uzun müddət mövcud olmadıqdan sonra bazar iqtisadiyyatına bir iş deyildir. Əgər nəzərə alınsa ki, dünyada analoqu olmayan bu prosesdə əhəmiyyətli irəliləyişə nail olmayan ölkələr kifayət qədər çoxdur, o zaman Azərbaycanın əldə etdiyi nailiyyətləri tam əminliklə ümidverici hesab etmək olar".

Beləliklə, ümummilli liderimiz Heydər Əliyevin və onun davamçısı cənab İlham Əliyevin iqtisadi inkişaf strategiyası yeni cəmiyyət quruculuğunun möhkəm təməlini təşkil edir və ölkəni inamla qlobal üfüqlərə doğru aparır.

4.2. Azərbaycanın dünya bazarı ilə iqtisadi inteqrasiya strategiyası: problemlər, mülahizələr

“Azərbaycan və müasir dünya”. Bakı, 1998.

XXI əsrin astanasında Azərbaycan Respublikasının müstəqil inkişaf yoluna qədəm qoyması ölkəmizin gələcək sosial-iqtisadi təkamülündə dönüş nöqtəsi oldu və bu təkamül prosesində taleyüklü dəyişikliklərin meydana gəlib genişlənməsi üçün zəmin təşkil etdi. Dünyada gedən irimiqyaslı qloballaşma prosesi iqtisadi həyatın getdikcə daha çox beynəlmiləşməsi bu və ya digər ölkənin ictimai inkişafında xarici amillərin rolunun sürətlə artmasına səbəb olmuşdur. Hazırki şəraitdə ölkələrin zənginliyi onlarda olan təbii sərvətlərin bolluğu dərəcəsi ilə deyil, bu sərvətlərdən beynəlxalq əmək bölgüsünün üstünlükləri nəzərə alınmaqla, bacarıqla istifadə edilməsindən əhəmiyyətli dərəcədə asılıdır.

70 il ərzində Azərbaycanı SSRİ xalq təsərrüfat kompleksinə bağlayan siyasi və iqtisadi dayaqların ləğvi ölkəmizin şimala yönəlmiş birtərəfli iqtisadi əlaqələrinə son qoymuş, bu əlaqələrin iqtisadi və ya coğrafi, istərsə də məzmun baxımından yeni istiqamət və mahiyyət kəsb etməsinə imkan vermişdir. Mübaliğəsiz demək mümkündür ki, inkişaf etmiş və mürəkkəb dünya bazarı ilə iqtisadi inteqrasiyasının və qarşılıqlı təsərrüfat əlaqələrinin formalaşan yeni mexanizmi respublikamızın gələcək inkişaf perspektivini müəyyən edən başlıca amillərdəndir. Ona görə də ölkəmizin beynəlxalq iqtisadi inteqrasiyasının strateji istiqamətləri mövcud dünya təcrübəsi nəzərə alınmaqla, indidən müəyyənləşdərilməli, bu sahədə ciddi dövlət tənzimlənməsi həyata keçirilməli və iqtisadi proseslərə məqsədyönlü istiqamət verilməlidir.

Dünya bazarına və ona nəzarət edən nəhəng Transmilli şirkətlər (TMŞ) şəbəkəsinə qoşulma yolları ümumdünya iqtisad tarixindən yaxşı məlumdur. Bu yollar son nəticədə iki istiqamətdə özünü göstərir və şərti olaraq Latın Amerikası və Yapon yolları adlanır.

Birinci yol TMŞ-lə sıx bağlı olan komprador kapitalının inkişafı və ölkənin iqtisadi inkişaf mexanizmi sükanının xarici kapitalın əlinə verilməsi yoludur. Latın Amerikası ölkələrinin dünya iqtisadi ədəbiyyatında çox vaxt “banan respublikaları” adlandırılması heç də bu ölkələrdə banan istehsalının geniş yayılması ilə əlaqədar deyildir. Bu ilk növbədə, həmin ölkələrin iqtisadiyyatının əsasını təşkil edən banan istehsalı və onunla əlaqədar olan təsərrüfat sahələrinin TMŞ-lərin əlinə keçməsi və bu ölkələrin bütün iqtisadi mexanizmi üzərində nəzarətin onlar tərəfindən həyata keçirilməsi ilə əlaqədardır. Bu acı təcrübənin nəticələri dünya ictimaiyyətinə yaxşı məlumdur.

İqtisadi inkişafda bütün ümidlərin ölkədə bol olan bu və ya digər məhsul ixracının artırılmasına bağlanması ilə əlaqədar dünya ədəbiyyatına "Hollandiya xəstəliyi", "kasıblaşdırıcı artım" adı ilə daxil olmuş acınacaqlı hallar da iqtisad tarixində özünə məxsus yer tutur. Bu gün Rusiya və digər MDB ölkələrində də belə qorxulu təmayülün özünü göstərdiyi haqqında həyacan siqnalı çalınmağa başlamışdır.

İkinci yol Yaponiyanın inkişafı yoludur. Məlum olduğu kimi, ikinci dünya müharibəsindən sonra Yapon hakim dairələri Qərbin yardımından və Qərbdə onlara yönəldilmiş əlverişli "açıq qapı" siyasətindən faydalanmaqla yanaşı, özlərinin spesifik inkişaf yolunu seçdilər. Bu spesifik inkişaf yolunun əsas xəttini istehsalın min illərlə sınaqdan çıxmış milli yapon dəyərlərinə əsaslanması, Qərbin müsbət iqtisadi təcrübəsindən bu dəyərlərə uyğun surətdə maksimum istifadə edilməsi və iqtisadi potensialın ilk növbədə daxili bazarın tələblərinin ödənilməsinə yönəldilməsi təşkil edirdi. İstehsal imkanlarının daxili bazarın ehtiyaclarına istiqamətləndirilməsi isə bu bazarın formalaşdırılması və əhalinin alıcılıq qabiliyyətinin yüksəldilməsi üçün əmək haqqının ciddi olaraq artırılmasını zəruri etmişdir.

Azərbaycanda da birinci yolun özünü göstərdiyi meyllərin mövcud olduğu heç kəs üçün sirr deyildir. Halbuki, respublika iqtisadiyyatında yaranmış müasir vəziyyət istehsalın, ilk növbədə daxili bazarın ehiyaclarının ödənilməsinə istiqamətləndirilməsini təkidlə tələb edir. Belə ki, Azərbaycan bazarın inkişafı üçün güclü potensial imkanlara, zəngin yeraltı və yerüstü sərvətlərə malik olan nadir ölkələrdən biridir. Respublikamızın istər mövcud təbii sərvətləri maddi nemətlərə çevirən, istərsə də onları mənimsəyən kifayət qədər istehsalçısı və istehlakçısı vardır. Bizdə hər kvadrat metrə 80 nəfər düşdüyü halda, dünyada 38, Avropada 67, Asiyada 71, keçmiş SSRİ-də 13 nəfər düşürdü. Bununla yanaşı, təəssüflə qeyd etmək lazımdır ki, Azərbaycanda bazarın inkişaf səviyyəsi və tutumu hələ SSRİ dövründə dünya standartlarından qat-qat aşağı olan orta ittifaq göstəricilərindən belə xeyli geri qalırdı. Yalnız onu göstərmək kifayətdir ki, adambaşına milli gəlir istehsalı SSRİ-nin dağılması ərəfəsində orta ittifaq göstəricisinin 56%-ni, adambaşına istehlak isə 57%-ni təşkil edirdi. Sovet İttifaqı dövründən bu günə qədər respublika milli bazarının ən mühüm xarakterik cəhətlərindən biri tələb və təklif arasında uçurumun olmasıdır. İqtisadiyyatın baza sahələrində mərkəzin inhisarı, respublikada istehsal edilən ümumi məhsulun 40%-nin kənara aparılması milli istehsalımızın milli bazarın tələblərinə deyil, ittifaqın xalq təsərrüfatı kompleksinin ehtiyaclarına tabe edildiyinin bariz göstəricisi idi. Heç təsadüfi deyildir ki, SSRİ-nin dağılması ərəfəsində respublikada istehsal olunan qara metallurgiya sənayesi məhsullarının təxminən 80%-i, kimya və neft kimyası sənayesi məhsullarının 64%-i, maşınqayırma və yanacaq sənayesi məhsullarının 30%-dən çoxu, bütövlükdə sənaye məhsulunun təxminən yarısı digər res-

publikalara göndərilirdi. Respublikanın öz ehtiyacları üçün deyil, ittifaq tələblərinə uyğun olaraq yaradılmış bu nəhəng kompleks ittifaq bazarına bağlanmışdı. Qara metallurgiyada tələbatın təxminən 90%-i, əlvan metallurgiyada isə tələbatın 41%-i kənardan gətirilən məhsullar hesabına ödənilirdi.

Bir çox baza sahələri məhsullarının mühüm hissəsi digər respublikalara aparıldığı halda respublikamızda dövlət inhisarında olan istehsal vasitələri bazarı iqtisadiyyatının tələblərini ödəməkdən çox-çox uzaq olmuşdur. Uzun müddət istehsal vasitələrinin dövriyyəsi maddi-texniki təchizat formasında, dünya bazarından təcrid olunmuş şəkildə, SSRİ daxilində həyata keçirilmişdir. Bu isə dünyada mövcud olan texniki və texnoloji yeniliklərin respublikamıza daxil olması yolunda ciddi əngəl olmuş və istehsalın ümumi texniki geriliyini şərtləndirmişdir. İri müəssisələr hələ özəlləşdirilmədiyi üçün istehsal vasitələrinin dövriyyəsi yenə də dövlət bölməsinin əlində qalmaqda davam edir. Bir çox sənaye sahələrində istehsalın böhran vəziyyətində olduğunu nəzərə alsaq, göstərmək olar ki, müstəqillik illərində iqtisadiyyatın istehsal vasitələrinə olan ehtiyaclarının ödənilməsində vəziyyət daha da pisləşmişdir. Belə ki, Dövlət statistika komitəsinin məlumatlarına görə 1996-cı ildə köhnəlmə dərəcəsi əsas istehsal fondları üzrə cəmi 44,6%, maşın və avadanlıqlar üzrə isə 61,5% təşkil etmişdir. Halbuki, əsas fondların təzələmə əmsalı həmin ildə cəmisi 6,6% olmuşdur.

Belə bir şəraitdə bütün qüvvələrin istehsal bazasının, istehsal vasitələrinin möhkəmləndirilməsi və yeniləşdirilməsinə yönəldilməsini tələb edir. Bu isə xaricdən yeni texnika və texnologiyanın geniş idxalı və istehsalın bu məqsədlərə istiqamətləndirilməsi ilə mümkündür. Lakin, texnika və texnologiya idxalının külli miqdarda valyuta ehtiyatları tələb etdiyini nəzərə alsaq, istehsal vasitələri istehsalının ölkə daxilində paralel olaraq mümkün qədər genişləndirilməsi olduqca vacibdir.

Xaricdən yeni texnika və texnologiya idxalının artırılması ilə birlikdə bu tədbir müasir mərhələdə iqtisadi dirçəlişin açarı ola bilər.

İstehsalla istehlak arasında mühüm əlaqələndirici həlqə olan bazar münasibətlərində istehlak mallarının bazarı xüsusi əhəmiyyətə malikdir. Geniş təkrar istehsalı prosesinin normal gedişi üçün mühüm şərtlərdən biri olan bu bazarın vəziyyəti xüsusilə ciddi narahatlıq doğurur. İstehsal vasitələri istehsalının üstün artması haqqında marksist müddəanın Azərbaycanda dönmədən həyata keçirilməsi nəticəsində 90-cı illərin əvvəllərində sənaye məhsulunun yalnız dörddə biri istehlak vasitələri istehsalından ibarət idi. Dünya təcrübəsində yeyinti məhsulları, hər şeydən əvvəl isə taxıl bazarı daxili bazarın aparıcı sahəsidir. Halbuki, zəngin təbii sərvətlərə malik olan diyarımızda ərzaq məhsulları bazarının əsas xüsusiyyətləri kənardan gətirilən malların böyük üstünlük təşkil etməsidir. Rəsmi statistika məlumatlarından aydın olur ki, 1988-ci ildə Azərbaycan ticarət şəbəkələri vasitəsilə satılan xalq

istehlak mallarının cəmisi 10,1%-i, o cümlədən ərzaq mallarının 15,3%-i yerli mənbələrdən daxil olurdu. Halbuki, SSRİ dağılana qədər respublikada istehsal olunan yüngül sənaye məhsulun 64,4%-i, yeyinti məhsullarının 53,3%- i kənara aparılırdı. Bu isə həmin kompleksin də respublika ehtiyaclarının ödənilməsinə deyil, ittifaq ehtiyaclarına xidmət etdiyini göstərirdi.

Müstəqillik illərində məlum obyektiv və subyektiv səbəblərə görə istehlak malları istehsal edən sənaye sahələrində istehsalın həcmi və müvafiq olaraq bu mənbədən daxili bazara yönəldilən malların miqdarı kəskin surətdə azalmışdır. Belə ki, 1990-ci ilə nisbətən 1996-cı ildə bütün sənayenin ümumi həcm indeksi - 28, yüngül sənayeninki - 20, toxuculuq - 21, tikiş - 7, gön-dəri, ayaqqabı - 16, aqrar-sənaye kompleksinə bağlı olan emal sahələri (yeyinti sənayesi) - 11, ət və süd - 5, balıq - 14 punkt təşkil etmişdir.

Bütün bunların nəticəsində demək olar ki, bu gün respublikamızda istehlak bazarı idxal edilən mallardan ibarətdir. Nəticədə qıt valyuta olan xaricdən texnika və texnologiya idxalına deyil, kütləvi şəkildə bahalı istehlak mallarının gətirilməsinə sərf edilir.

İstehlak malları bazarının vəziyyətini, həmin məhsulların istehsalı və bölgüsü ilə yanaşı əhalinin alıcılıq qabiliyyəti müəyyən edir. Bazarın genişlənməsində bu sonuncu amil əslində həlledici rol oynayır. Çünki, əhalinin alıcılıq qabiliyyəti ilə məhdudlaşan istehlak tələbatının hüdudları hər şeydən əvvəl, vətəndaşların fərdi gəlirlərinin səviyyəsi ilə müəyyən edilir. Sovet dövründə dünya standartlarından çox-çox aşağı olan həyat səviyyəsi məlum səbəblərə görə son illərdə respublikamızda xeyli pisləşmişdir. Yalnız onu göstərmək kifayətdir ki, 1990-1997-ci illər ərzində istehlak qiymətləri 29730 dəfə artdığı halda, əhalinin pul gəlirləri cəmisi 10885 dəfə çoxalmışıdır. Başqa sözlə, xalqın həyat səviyyəsi bu dövrə 2,7 dəfə aşağı düşübdür. 1995-1997-ci illərdə bu sahədə xeyli müsbət dəyişiklik özünü göstərmiş və istehlak qiymətləri 6,3 dəfə artdığı halda, əhalinin pul gəlirləri 9 dəfə artmışdır. Buna baxmayaraq, şübhəsiz əhalinin alıcılıq qabiliyyəti aşağı səviyyədə qalmaqda davam edir. Fərdi gəlirlərin məhdudluğu isə bu gəlirlərin başlıca olaraq istehlak məqsədlərinə sərf olunmasını şərtləndirir və istehlak strukturunu müəyyən edir. Belə ki, 1996-cı ildə əhəlinin bütün xərcləri içərisində istehlak xərcləri 86,6% təşkil etmişdir. İstehlak xərclərinin əsas hissəsi isə ilkin tələbat mallarının alınmasına yönəldilmişdir. Bütün deyilənlər, respublikamızda istehsalın ilk növbədə daxili bazarın ehtiyaclarının ödənilməsinə yönəldilməsinin zəruriliyini və bu sahədə ölkəmizdə geniş imkanların mövcud olduğunu bariz şəkildə göstərir.

Dünya bazarı ilə iqtisadi inteqrasiya strategiyası müəyyənləşdirilərkən dünyada iqtisadi proseslərin inkişaf təmayüllərinin müasir xüsusiyyətləri diqqətlə öyrənilib nəzərə alınmalıdır. Məlum olduğu kimi, elmi-texniki tərəqqi inkişaf edib dərinləşdikcə Qərbdə istehsalın təmərküzləşməsi və mərkəzləşdirilməsi, kapitalın inhisarlaşması öz yüksək həddinə çatmışdır. Dünya iqtisadiyyatı

üzərində nəzarət nəhəng Transmilli şirkətlərin əlində cəmlənmişdir. Beynəlxalq iqtisadi əlaqələrdə də onlar həlledici rol oynayır. Respublikamızda özəlləşdirmə siyasəti ardıcıl olaraq keçirildiyi bir şəraitdə dünya iqtisadiyyatının göstərilən cəhəti nəzərə alınmalıdır. Heç kəs üçün sirr deyildir ki, respublikamızda iri kapital yığımının həyata keçmədiyi bir şəraitdə təsərrüfat obyektlərinin həddən artıq "xırdalanması" TMŞ-lərin ölkəmizdə şəriksiz hökmranlığına gətirib çıxara bilər. Ona görə də respublikamızda vaxtilə sahə prinsipi üzrə yaradılmış şirkətlərin özəlləşdirmə prosesində "xırdalanmasına" yol vermək olmaz.

Ümumiyyətlə, istər daxili, istərsə də beynəlxalq iqtisadi problemlərin həllində milli kapitalın, milli sahibkarlığın formalaşması və inkişaf etdirilməsi respublikanın strateji məqsədlərindən biri olmalıdır. Yalnız bir tarixi faktı yada salmaq kifayət edər ki, XIX əsrin sonları, XX əsrin əvvəllərində ölkəmizdə tikilən iqtisadi və digər obyektlərin böyük əksəriyyəti milli kapital tərəfindən həyata keçirilmişdir.

Təsərrüfat həyatının beynəlmiləlləşməsi və respublikamızda ardıcıl olaraq "açıq qapı" siyasətinin həyata keçirilməsi istər xaricdə, istərsə də ölkə daxilində məhsulların yüksək rəqabət qabiliyyətli olmasını tələb edir. Respublika daxilində demək olar ki, artıq bütün məhsul növləri üzrə yerli və əcnəbi məhsullar yüksək rəqabət gedir. Yerli istehsalçılara istehsalı təşkil etmək və onu inkişaf etdirmək tarif və qeyri-tarif tənzimləmələri vasitəsilə müəyyən dərəcədə məhdudlaşdırıla bilər. Lakin bu uzun müddət davam edə bilməz və bu tədbirdən artıq geniş istifadə etmək mümkün deyildir.

Ona görə də yerli istehsalın dirçəldilməsi üçün emal olunan məhsulların keyfiyyətinin və müvafiq olaraq onların rəqabət qabiliyyətinin yüksəldilməsi ölkə iqtisadiyyatının strateji məqsədlərindəndir. Daxili bazar da, xarici bazar da bunu tələb edir.

Beynəlxalq əmək bölgüsünün üstünlüklərindən səmərəli istifadə etməklə iqtisadi tərəqqinin təmin edilməsi əhəmiyyətli dərəcədə idxal və ixracın strukturundan asılıdır. Məhz bu cəhət ölkəmizin iqtisadi inteqrasiyasının dünya birliyi ilə bərabərhüquqlu və qarşılıqlı fayda prinsipi əsasında aparıldığını və ya onun dünya bazarının xammal əlavəsinə çevrilmiş olub-olmadığını müəyyən edir. Respublika idxalatının böyük əksəriyyətinin istehlak mallarından, ixracatın isə mineral xammaldan ibarət olması, tamamilə aydındır ki, iqtisadi tərəqqini təmin edə bilməz. İxrac potensialının hərtərəfli inkişaf etdirilməsi, onun çoxçeşidliliyinin artırılması, istehsalın hazır məhsul emalına doğru istiqamətləndirilməsi, satışa çıxarılan malların əmtəə görkəminin yaxşılaşdırılması ölkəmizə lazım olan valyuta ehtiyatlarının yaradılması üçün həlledici əhəmiyyət kəsb edir. Bu məqsədlə xarici ticarətdə liberallaşma siyasətinin ardıcıl yeridilməsi təsərrüfat obyektlərinin bilavasitə xaricə çıxmasının təmin edilməsini olduqca zəruri edir.

4.3. Qloballaşma və Azərbaycanın milli iqtisadi inkişaf strategiyası haqqında

"Azərbaycan və müasir dünya". III Ümumrespublika elmi-praktik konfransının materialları, Bakı, 2001.

XXI əsr tarixə sivilizasiyanı keyfiyyətcə yeni bir mərhələyə yüksəldən qloballaşma əsri kimi daxil olur. Qlobal proseslər inkişaf səviyyəsində, din və mədəniyyətində, tarixi ənənələrində mövcud olan fərqlərə baxmayaraq, dünya ölkələrinin və xalqlarının bir-birindən qarşılıqlı asılılığını getdikcə artırır. Bu proseslər xalqların və bütövlükdə sivilizasiyanın taleyini həlledici dərəcədə müəyyən etməyə başlamışdır. İqtisadi, siyasi və mədəni proseslərdə özünü göstərən dərin qloballaşma təmayülü iqtisadi qloballaşmada daha boyük sıçrayışla gedir və digər prosesləri də öz arxasınca aparır. Təsadüfi deyildir ki, artıq siyasət getdikcə daha çox iqtisadiləşir. İqtisadi qloballaşma isə iqtisadiyyatın beynəlmiləlləşməsi demək deyildir, həmin anlayışın yeni və yüksək mərhələsidir.

Sosialist sistemi adlanan süni iqtisadi sistem süqut etdikdən sonra, demək olar ki, vahid qaydalarla inkişaf edən qlobal postbazar iqtisadiyyatı sistemi yarandı.

Bu sistemin strukturunda da ciddi dəyişikliklər özünü göstərmişdir. Qloballaşma prosesinin əsas hərəkətverici qüvvəsi olan transmilli sənaye və bank korporasiyalarının gücü və təsir dairəsi genişlənmişdir. Qlobal iqtisadiyyatın ənənəvi subyekti olan milli dövlətlər isə müəyyən baxımdan sıxışdırılmışdır. Milli dövlətlər, konüllü olaraq, bir çox milli hüquqlarından beynəlxalq hüquq normalarının lehinə imtina etmişlər.

Müasir mərhələdə heç bir dövlət həmin proseslərdən kənarda qala bilməz. Lakin getdikcə daha cox dərk edilir ki, bəşəriyyətin inkişafı üçün həyati əhəmiyyət kəsb edən qloballaşmanın faydaları qeyri-bərabər bölüşdürülür. Müasir beynəlxalq siyasi-iqtisadi sistemdə az saylı inkişaf etmiş sənaye ölkələri aparıcı rol oynayır. Texnoloji və informasiya inqilabları iqtisadi inkişafın xarakterini dəyişmişdir. Qabaqcıl sənaye ölkələri və müəyyən dərəcədə orta inkişaf səviyyəsinə malik olan ölkələr üçün rifah səviyyəsinin artırılmasında yeni imkanlar daha çox yaranmışdır. Təsadüfi deyil ki, inkişaf etmiş sənaye ölkələri ilə inkişaf etməkdə olan ölkələr arasındakı fərq azalmaq əvəzinə daha da artır. Yeni inkişaf etmiş ölkələr və yeni kasıb ölkələr qrupu meydana gəlir. Xarici amillər nəzərə alınmadan hazırlanan milli inkişaf (siyasi, iqtisadi, mədəni) strategiyası yalnız müasir sivilizasiya normalarına deyil, milli mənafelərə də uyğun deyildir və tarixi proseslər onu inkar edir.

On ilə yaxın bir dövrdə müstəqillik yolu ilə irəliləyən Azərbaycanın sərt və mürəkkəb qanunların hökmran olduğu dünya bazarına inteqrasiyasının əsas parametrlərini müəyyən edən uzunmüddətli milli inkişaf strategiyasının işlənib hazırlanması vaxtı çoxdan çatmışdır.

Nəzərə almaq lazımdır ki, dünya bazarı ilə bütünləşmə kimi taleyüklü proseslərə məqsədyönlü istiqamət verilmədiyi dövrdə, Azərbaycanda əhalinin maddi rifah halı irəliləmək əvəzinə, daha da geriləmişdir. Belə ki, Dünya bankının "1997-ci ildə dünyanın inkişafı" haqqında hesabatından görünür ki, Azərbaycanda adambaşına ÜDM ABŞ-da eyni göstərici 100 hesab edilərsə, 1987-ci ildə 21,8-dən 1995-ci ildə 5,4-ə enmişdir[1].

Azərbaycanın 70 il ərzində "dəmir pərdələrlə" dünya birliyindən təcrid olunması, dünyada özünü göstərmiş dərin elmi-texniki və texnoloji sıçrayışlardan ciddi dərəcədə kənarda qalması və inkişaf etmiş regionların aqrar-xammal bazası olması bu prosesin obyektiv amilləri olmaqla, iqtisadiyyatın müasir dünya bazarının tələblərinə uyğunlaşdırılması üçün köklü və təxirəsalınmaz tədbirlər görülməsini təkidlə tələb edir. Bu tədbirlər indiki nəslin "alışdığı" inzibati-amirlik üsullarına deyil, bazar iqtisadiyyatının prinsipləri əsasında tələb və təklifin qanunauyğunluqlarına müvafiq hazırlanmalıdır. Lakin bu qanunauyğunluqlar milli sərhədlər daxilində deyil, qlobal təsərrüfat miqyasında nəzərə alınmalıdır.

Məlum olduğu kimi, Sovet dövründə həyatın bütün sahələrində dövlət inhisarı və ictimai həyatda dövlətin rolu "mütləqləşdirilmişdir". Yeni siyasi və iqtisadi sistemə keçildiyi bir dövrdə dövlətin roluna münasibətdə yenidən ifratçılıq özünü göstərir və onun iqtisadi funksiyaları, demək olar ki, inkar edilir. Əslində, ictimai fikirdə dövlətin yalnız neqativ rolu formalaşır. İnzibati-amirlik sistemində yetişmiş bürokrat dövlət məmurlarının iqtisadi özbaşınalıqları ilə yanaşı, dövlət planlarından imtina olunması, dövlətin uzunmüddətli inkişaf strategiyasının olmaması və bir çox digər amillər bunun bariz təzahürüdür. Milli sahibkarlıq (daha doğrusu, təşəbbüsçülük) ənənəsinin və təcrübəsinin 70 il ərzində "unudulması", iqtisadi inkişafda təşəbbüsü ələ keçirən milli kapitalın zəifliyi, 90-cı illərin təcrübəsiz milli iş adamlarının əksəriyyətinin mənşəyinin bürokratik dövlət məmulatlarından olunması ümumxalq mənafenin təmsilçisi olan dövlətin iqtisadi həyata daha fəal müdaxiləsini tələb edir. Lakin bu müdaxilə əmredici deyil, maliyyə-kredit mexanizmi vasitəsilə təşviqedici xarakter daşımalıdır. Təsadüfi deyildir ki, milli sərhədlər daxilində belə, hələ özünü qoruyub saxlayan dövlət inhisarı qarşısında zəif olan və yeni yaranan özəl bölmə və ümumiyyətlə, milli iqtisadiyyat qlobal təsərrüfat sistemində bərabərhüquqlu rəqabət aparmaq imkanından məhrumdur. Son on il ərzində iqtisadiyyatımız beynəlxalq

[1] "Отчето мировом развитии. Всемирный Банк", 1997, стр. 250.

rəqabət qabiliyyəti sahəsində bütün göstəricilər üzrə (ÜDM, sənaye və kənd təsərrüfatının ümumi həcm indeksinin az olması, ÜDM-də yığım və son istehlakın nisbətinin ikincisinin xeyrinə dəyişməsi, ixracın azalması və idxalın artması, ixrac və idxalın strukturunun neqativ istiqamətdə dəyişməsi, ticarət şərtlərinin ardıcıl olaraq Azərbaycanın əleyhinə dəyişməsi)[1] ciddi və ardıcıl geriləmə özünü göstərir. Milli bazarın xarici firmalar tərəfindən açıq-aşkar "fəth" edilməsi və rəqabətə dözmək üçün bir çox yerli firmalar xarici etiketlərin saxtalaşdırılması ilə məşğul olması günümüzün acı reallıqlarındandır. Bu reallıqların əhəmiyyətli dərəcədə sovet dövrünün müstəmləkəçilik siyasəti ilə əlaqədar olması bizi arxayınlaşdırmamalı və əksinə, müstəqillik dövründə geriləmənin daha da dərinləşdiyi bir vaxtda həyəcan təbili çalınmalıdır. Qlobal təsərrüfat sisteminin tələblərinə uyğun olaraq, özəl bölmənin ümummilli iqtisadi vəzifələri açıq-aşkar yerinə yetirə bilmədiyi bir şəraitdə dövlətin bazar iqtisadiyyatının prinsipləri əsasında təşkilatçı-tənzimləyici-təşviqedici funksiyasının artması vacib obyektiv zərurətdir. Bu sahədə təsərrüfat təşkilatçılıq tədbirləri və milli iqtisadi inkişaf strategiyası iki əsas istiqamətə yönəldilməlidir.

1. Az bir zaman kəsiyində beynəlxalq bazara geniş miqyaslı çıxmaq imkanı məhdud olduğu üçün, milli iqdisadiyyat daxili tələbin ödənilməsinə istiqamətləndirilməli, yerli firmaların xarici şirkətlərlə daxili bazarda sağlam rəqabət apara bilməsi üçün geniş imkanlar yaradılmalıdır. Bu sahədə əsas ümidin geniş miqyaslı himayəçilik tədbirlərinə bağlanması müasir anlayışlara uyğun deyildir. Çünki, dünya ölkələrinin təcrübəsi göstərir ki, gömrük tariflərinin artırılması və digər yollarla himayəçilik tədbirlərinin tədbiqi ticarət tərəfdaşlarının əks reaksiyasını doğurur və onlar da eyni dərəcədə müvafiq tədbirlər görürlər. Ona görə də milli bazarın beynəlxalq müqavilə və hüquq normalarına uyğun olaraq qorunması ilə yanaşı, əsas diqqət firmalar tərəfindən rəqabət qabiliyyətli məhsullar istehsal edilməsinin bütün vasitələrlə təmin edilməsinə verilməlidir. Bu tədbirlərin mühüm tərkib hissəsi kimi işçi qüvvəsinin də rəqabət qabiliyyəti haqqında düşünmək vaxtı çoxdan çatmışdır. Azərbaycan böyük qürur hissi ilə "Neft Akademiyası" hesab edildiyi halda, yüksək əmək haqqı ilə xarici mütəxəssislərin əcnəbi firmalar tərəfindən ölkəmizə geniş miqyasda gətirilməsi bizi dərindən düşündürməlidir. Daha az maaşla yerli mütəxəssislər eyni işi yerinə yetirə bildiyi halda, nə üçün xarici firmalar bir çox hallarda bahalı əcnəbi mütəxəssislərə üstünlük verirlər? Bu zaman digər amillərlə yanaşı, yerli işçi qüvvəsinin yeni və yüksək texnika və texnologiyaya əsaslanan biznesin tələblərinə nə dərəcədə cavab verməsi problemi ortaya çıxır. Ona görə də işçi qüvvəsinin professional-texniki

[1]Ətraflı məlumat üçün bax: D.Vəliyev. İpək yolu və Azərbaycan iqtisadiyyatının beynəlxalq rəqabət qabiliyyəti – "İpək yolu", 1999 № 1,2.

səviyyəsinin köklü surətdə yaxşılaşdırılması üçün geniş tədbirlər sisteminin hazırlanması vaxtı çoxdan çatmışdır.

2. Açıq iqtisadiyyat modelini yekdilliklə seçmiş Azərbaycan dünya bazarında da bərabərhüquqlu subyekt kimi fəal iştirak etməlidir. Latın Amerikası, Cənubi-Şərqi Asiyanın yeni sənaye ölkələrinin təcrübəsi və Türkiyə "möcüzəsi" açıq-aşkar göstərdi ki, müasir mərhələdə geriliyin az bir zaman kəsiyində aradan qaldırılması və sıçrayışlı iqtisadi inkişafın yeganə yolu daxili bazarın tələblərini ödəməklə yanaşı ixracat potensialının sürətli artımını təmin etmək, dünya bazarı ilə sıx inteqrasiyaya nail olmaqdır. Yeni texnika və texnologiyanın kilid həlqəsi olan valyuta ehtiyatlarının artırılması üçün idxalı əvəzetmə siyasəti ilə ixracyönlü iqtisadi inkişaf strategiyası ciddi olaraq optimallaşdırılmalıdır.

İstər daxili bazarın tələblərinin ödənilməsi, istərsə də ixracat potensialının artırılması həlledici düzgün struktur siyasətindən asılıdır.

Aşağıdakı məlumatlar göstərir ki, ölkə iqtisadiyyatının strukturu energetika-yanacaq istiqamətində birtərəfli inkişaf edir.

Azərbaycanın sənaye məhsullarının strukturu, cari qiymətlərlə (faizlə)*

Dövr	Elektroenergetika	Yanacaq səviyyəsi	metallurgiya	maşınqayırma	Kimya və neft-kimya	Meşə, ağac emalı və sellüloz kağız sənayesi	Tikinti materialları1	Yüngül sənaye	Yeyinti sənayesi	Digər sahələr	Sənaye üzrə cəmi
1990	4,1	11,7	3,8	18	6,0	1,9	3,1	19,6	25,6	6,3	100,0
1995	19,2	46,2	1,1	3,6	5,4	0,2	1,5	9,5	6,6	6.5	100.0
1996	17,9	52,4	0,3	3,6	4,5	0,1	1,1	8,2	7.4	4,4	100,0
1997	14,0	54,3	0,7	3,9	3,3	0,3	1,1	4,2	16,6	1,6	100,0
1998	16,6	51,7	0,4	3,3	3,0	0,1	1,2	2,5	16,6	4,6	100,0

*** "Azərbaycan iqtisadi icmalı TASİS Avropa ekspertiza xidməti". Aylıq bülleten. Fevral 1999, cədvəl 17.**

Cədvəl məlumatlarında aydın olur ki, elektroenergetika və yanacaq sənayesinin məhsulları 1990-cı ildə ümumi sənaye məhsulunun cəmi 15,8%-i təşkil etdiyi halda, 1998-ci ildə onun xüsusi çəkisi 68,3%-ə yüksəlmişdir. Həmin təmayül 1999-cu ildə də davam etmiş və yalnız xam neft və təbii qaz hasilatı ilə əlaqədar sahələrin payı ümumi sənaye məhsulunun strukturunda 32,5%-dən

40,5%-ə yüksəlmişdir[1]. 1990-1998-ci illərdə sənaye istehsalında maşınqayırma sənayesinin payı 18,0%-dən 3,3%-ə, kimya və neft-kimya sənayesinin payı 6,0%- dən 3,3%-ə, yeyinti sənayesi 25,6%-dən 16,6%-ə, yüngül sənaye 19,6%-dən 2,5%ə enmişdir. Əsas kənd təsərrüfatı məhsulları istehsalı indeksi (fiziki həcm) də 1990-1998-ci illərdə aşağıdakı şəkildə dəyişmişdir:

(1990=100) taxıl - 67, pambıq - 20,7, tütün - 28,7, tərəvəz - 58,7, üzüm - 12, çay - 2,9, ət - 54,0, süd - 75,2, yumurta - 51,5, yun - 88,4, barama - 2,0.[2]

Halbuki, dünya bazarı ilə səmərəli iqtisadi inteqrasiya yalnız iqtisadiyyatın geniş diversifikasiyası ilə mümkündür. Sovet dövlətinin uzun müddət yeritdiyi müstəmləkəçilik siyasəti, ənənəvi bazarlarla formalaşmış əlaqələrinin pozulması, ölkənin düçar olduğu dərin iqtisadi böhran nəticəsində müstəqilliyin ilk illərində iqtisadiyyatın strukturu deformasiyaya uğramış, ənənəvi iqtisadiyyat sahələri tənəzzülə uğramışdır. Bu isə ölkənin dünya bazarı ilə iqtisadi əlaqələrinin xarakterinə ciddi təsir göstərmiş, istər ixracatın, istərsə də idxalatın strukturunu da ciddi surətdə pisləşdirmişdir.

Onu da nəzərə almaq lazımdır ki, iqtisadi strukturun qısa müddətdə az-çox əhəmiyyətli dərəcədə dəyişdirilməsi reallıqdan uzaqdır və prioritet istiqamətləri müəyyən edərək, bütün maddi, maliyyə və insan ehtiyatlarının həmin sahələrə yönəldilməsini tələb edir. Bu məqsədlə, gömrük kredit və valyuta mexanizmindən və digər iqtisadi alətlərdən bacarıqla istifadə edilməsi həyati əhəmiyyət kəsb edir. Lakin belə bir ictimai fikir çoxdan qəbul edilmişdir ki, bu illərdə adı çəkilən mühüm maliyyə amilləri (vergi, o cümlədən, onun mühüm növü olan gömrük, kredit və valyuta mexanizmi) iqtisadiyyatı stimullaşdırmaq əvəzinə, onun buxovuna çevrilmiş, yerli və xarici iş adamları üçün əlverişsiz maliyyə mühitinin yaranmasına səbəb olmuşdur. Ölkənin iqtisadi strukturunun formalaşmasında və xarici iqtisadi əlaqələrinin xarakterində valyuta siyasəti mühüm rol oynayır. Müasir şəraitdə ayrı-ayrı milli iqtisadiyyatlar arasında qarşılıqlı asılılığın artması ilə əlaqədar olaraq, valyuta məzənnəsi milli iqtisadiyyatın inkişafının zahiri təzahürünə çevrilmiş, onun iqtisadi potensialını, əmək məhsuldarlığını müəyyən dərəcədə əks etdirir, istehsala güclü əks təsir göstərir.

Ölkədə sosial-siyasi sabitliyin qarantı olan deflasiya və ucuz qiymət siyasəti əhəmiyyətli dərəcədə milli valyutanın sabitliyinin saxlanılması ilə təmin edilir. Ölkədə sərbəst dəyişən valyuta mexanizmi qəbul edildiyi halda, Milli Bank manatın dəyərinin bazar amillərinin təsiri altında qalxıb-enməsinin qarşısını almaq məqsədilə kredit və valyuta ehtiyatları hesabına valyuta bazarına fəal müdaxilə edir, manatın məzənnəsinin aşağı düşməsinin qarışısını hər vasitə ilə alır. Bu isə bazarda manatın real deyil, süni şişirdilmiş dəyərlə

[1] "Azərbaycan. Statistlk göstəricilər", 2000, s. 350.
[2] "Azərbaycan iqtisadi icmalı. Avropa icmalı. Avropa ekspertiza xidməti", cədvəl 1,9.

fəaliyyət göstərməsinə səbəb olmuşdur. Belə ki, bəzi hesablamalara görə, manatın real məzənnəsi bu gün 1 doll.=4500-4600 manat deyil, 6000-7000 manatdır.

Bu gün Milli Bankın həyata keçirdiyi süni valyuta siyasəti daxili qiymətlərin rəqabət gücünü və ixracın səmərəliliyini azaldır. Bu isə ixracat sahələrinin geriləməsini və bütövlükdə milli istehsalın zəif inkişafını şərtləndirir, idxalı isə stimullaşdıraraq, son dərəcədə genişləndirir. Əksinə, valyuta məzənnəsinin aşağı düşərək real həddə salınması ölkədə qiymətlərin artmasına səbəb olar, idxalı azaldar və ixracı stimullaşdırar. Çünki, xaricdə mal satışından əldə edilmiş eyni miqdarda xarici ödəmə vasitələri dəyişdirilərkən, xarici valyuta ilə idarə olunmuş daha çox məbləğdə etmək olur. Bu səbəbdən, ixracatçılar öz valyutaları qiymətdən düşdükdən sonra, malları xaricdə rəqabət qabiliyyətli dünya qiymətləri ilə valyutada lazım olan mənfəəti əldə edərlər və ixrac artırılar. Beləliklə, müasir dövrdə həyata keçirilən valyuta siyasəti struktur baxımından Azərbaycanın strateji məqsədlərinə kifayət qədər cavab verir.

Ölkənin milli iqtisadi inkişaf strategiyası qabaqcıl ölkələrin müsbət təcrübəsi və müasir dünyada gedən proseslər nəzərə alınmaqla hazırlanmalıdır. Yalnız bu halda, dünyada özünü göstərən geniş qloballaşma proseslərindən Azərbaycanın çıxarılması və sosial-iqtisadi tərəqqisi məqsədilə istifadə etmək olar.

4.4.Azərbaycanın qlobal maliyyə iqtisadi-mühitə inteqrasiyasının aktual problemləri

Azərbaycan Dövlət İqtisad Universiteti. "Milli iqtisadi inkişafın Azərbaycan modeli" mövzusunda beynəlxalq konfransın plenar iclasının materialları. Bakı, 12-13 may, 2006 (III).

Qlobal proseslər inkişaf etdikcə din, mədəniyyət və tarixi ənənələrdə mövcud olan fərqlərə baxmarayaq, dünya ölkələrinin və xalqlarının bir-birindən qarşılıqlı asılılığını getdikcə artırır. Bu proseslər xalqların və bütövlükdə sivilizasiyanın taleyini həlledici dərəcədə müəyyən etməyə başlamışdır. İqtisadi, siyasi və mədəni proseslərdə özünü göstərən dərin qloballaşma təmayülü iqtisadi qloballaşmada daha böyük sıçrayışla gedir və digər prosesləri də öz arxasınca aparır. Təsadüfi deyildir ki, artıq siyasət getdikcə daha çox iqtisadiləşir. İqtisadi qloballaşma isə iqtisadiyyatın yalnız beynəlmiləlləşməsi demək deyildir, həmin prosesin yeni və yüksək mərhələsidir.

Ona görə də ictimai inkişafın müasir qanunauyğunluqlarının tədqiqi getdikcə daha çox qlobal yanaşma tələb edir. Bu və ya digər ölkədə gedən daxili proseslər özünün fərqləndirici cəhətlərinə baxmayaraq, özü-özlüyündə, təcrid

olunmuş şəkildə araşdırıla bilməz. Müstəqillik əldə etmiş ölkələrin dünya bazarına inteqrasiyası və onların iqtisadi inkişaf prosesləri arasındakı qarşılıqlı əlaqə və qarşılıqlı asılılığın öyrənilməsi qloballaşma dövründə xüsusi aktuallıq kəsb edir.

Bu ölkələrdə iqtisadiyyatın modernləşdirilməsi vəzifələrindən biri - sovet dövründə uzun müddət qapalı şəraitdə mövcud olmuş təsərrüfatın struktur cəhətdən yenidən qurulmasıdır.

Bu proses isə iqtisadiyyatın öz məhsullarını daxili və xarici bazarlarda müvəffəqiyyətlə sata bilən sahələrin üstün inkişafını nəzərdə tutur. Dünya birliyi ilə inteqrasiya qüvvələri istehsalının uduşlu sahələrinə yönəldilməsinə, zəif iqtisadi səmərə verən məhsul istehsalından imtina edilməsinə və investisiyanın strukturunu dəyişdirməklə səmərəli inkişaf modelinin seçilməsinə imkan verir. Ölkənin seçdiyi yol beynəlxalq əmək bölgüsünün üstünlükləri ilə uzlaşdırılmadıqda isə həmin ölkədə istehsal özünün aşağı səmərəliliyi və zəif inkişaf sürəti ilə xarakterizə edilir.

XX əsrin son onilliyində SSRİ-nin dağılması ilə yaranan dünyanın yeni siyasi xəritəsində müstəqil Azərbaycan özünə layiq yer tutmuş, dünya birliyinin bərabərhüquqlu üzvü olmuşdur. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 1995-ci ildə keçirilmiş "Davos iqtisadi forumunda" qeyd etmişdir: Azərbaycan "müstəqillik qazanmış respublikadır və öz iqtisadiyyatını möhkəmləndirmək, demokratik hüquqi dövlət yaratmaq yolu ilə, bazar iqtisadiyyatı yolu ilə, azad sahibkarlığa, xarici investisiyalara şərait yaratmaq, dünya iqtisadiyyatına sıx bağlanmaq, Azərbaycanla əməkdaşlığa maraq göstərən bütün ölkələrlə qarşılıqlı surətdə faydalı iqtisadi əlaqələr qurmaq yolu ilə gedir". Kəskin mübarizə şəraitində əldə edilmiş siyasi müstəqillik ölkənin sovet dövrünün 70 il ərzində yığılıb qalmış bir sıra ciddi siyasi, iqtisadi və sosial problemlərinin həlli yolunda geniş perspektivlər açmışdır. Sovet "dəmir pərdələri" ilə uzun illər boyu dünya birliyindən siyasi və iqtisadi cəhətdən təcrid olunmuş Azərbaycanda açıq cəmiyyət yaradılması, dünya dövlətləri ilə bərabərhüquqlu, hərtərəfli əlaqələrin inkişaf etdirilməsi ölkəmizdə mövcud olan sosial-iqtisadi problemlərin həlli yolunda sözün əsl mənasında açar rolunu oynayır.

Siyasi istiqlaliyyət əldə edilməsi, inzibati-amirlik sistemindən bazar iqtisadiyyatı sisteminə keçilməsi uzun müddət xarici aləmlə mövcud olmuş köhnə əlaqələr sisteminə yenidən baxılması və bərabərhüquqlu, qarşılıqlı faydalı münasibətlərin yaradılması üçün mühüm zəmin təşkil etdi. Kommunist imperiyasının süqutu böyük bir ərazidə geopolitik vəziyyəti kökündən dəyişdirərək, Azərbaycanın beynəlxalq əlaqələrinin səmərəliliyinin artırılması və intensivləşdirilməsi, beynəlxalq əmək bölgüsünün üstünlüklərindən respublikanın mənafeyinə uyğun olaraq istifadə edilməsi üçün geniş perspektivlər açdı.

İqtisadi və ictimai həyatın beynəlmiləlləşməsi, Azərbaycanın müasir dünya ilə ağır şərtlər altında gedən inteqrasiyasının bütün istiqamətləri yeni imkanlar yaratmaqla yanaşı, yeni problemlər, bəzən də təhlükələr yaratmaqdadır. Bu imkanlardan səmərəli istifadə edilməsi, mövcud problem və təhlükələrin vaxtında aşkara çıxarılıb öyrənilməsi bu gün Azərbaycan üçün həyati əhəmiyyət kəsb edən məsələlərdəndir. Bu zaman qarşılıqlı vəhdət şəklində olan iki çətin problem: 1. müstəqil və yeni xarici iqtisadi fəaliyyət sisteminin təkmilləşdirilərək inkişaf etdirilməsi, onun radikal bazar islahatlarının katalizatoruna çevrilməsi; 2. eyni zamanda xarici iqtisadi əlaqələrdə yaranmış mənfi meyllərin qarşısının alınması həll edilməlidir.

Respublikamıza Sovet İmperiyasından yalnız zəif bazar münasibətləri deyil, eyni zamanda xarici aləmdən təcrid olunmuş, özü-özünü təmin edə bilməyən, xaricdən asılı iqtisadi struktur miras qalmışdır. Bütün bunlar nəzərə alınaraq milli iqtisadiyyatın qlobal maliyyə-iqtisadi mühitə uyğunlaşdırılması üçün köklü və təxirəsalınmaz tədbirlər həyata keçirilməsi zərurəti meydana gəlmişdir. Xarici iqtisadi inkişaf strategiyası çərçivəsində dövlətin təsərrüfat-təşkilatçılıq tədbirlərinin iki əsas istiqamətə yönəldilməsi təklif edilir: a) az bir zaman kəsiyində beynəlxalq bazara geniş miqyasda çıxmaq imkanı məhdud olduğu üçün, milli iqtisadiyyat, ilk növbədə, daxili tələbin ödənilməsinə istiqamətləndirilməli, yerli firmaların xarici şirkətlərlə daxili bazarda sağlam rəqabət apara bilməsi üçün əlverişli şərait yaradılmalıdır. Bu sahədə əsas ümidin əsasən geniş miqyaslı himayəçilik tədbirlərinə bağlanması müasir anlayışlara uyğun deyildir. Bu onunla izah edilə bilər ki, dünya ölkələrinin təcrübəsinin göstərdiyi kimi, gömrük tariflərinin artırılması və himayəçilik tədbirlərinin tətbiqi beynəlxalq təşkilatlar tərəfindən məhdudlaşdırılmış və ticarət tərəfdaşlarının əks reaksiyasını doğurmuşdur. Buna görə də milli bazar, beynəlxalq müqavilə və hüquq normalarına uyğun olaraq, qorunmaqla yanaşı, əsas diqqət bütün vasitələrlə firmalar tərəfindən rəqabət qabiliyyətli məhsullar istehsal edilməsinin təşviq edilməsinə yönəldilməlidir. b) Azərbaycan dünya bazarında yalnız alıcı kimi deyil, həmçinin satıcı kimi də bərabərhüquqlu subyekt olaraq fəal iştirak etməlidir. Latın Amerikası, Cənubi-Şərqi Asiyanın yeni sənaye ölkələrinin təcrübəsi və Türkiyə möcüzəsi göstərdi ki, müasir mərhələdə geriliyin az bir zaman kəsiyində aradan qaldırılması və sıçrayışlı iqtisadi inkişafa nail olunmanın yeganə yolu daxili bazarın tələblərini ödəməklə yanaşı ixracat potensialının sürətli artımını təmin etməkdir. Yeni texnika və texnologiyanın əsas həlqəsi olan valyuta ehtiyatlarının artırılması üçün idxalı əvəzetmə siyasəti və ixracyönlü iqtisadi inkişaf strategiyası əsaslarla optimallaşdırılmalıdır.

Respublikamızda idxalın strukturunun dinamikasının təhlili göstərir ki, əvvəllər idxalın tərkibində istehlak malları böyük üstünlük təşkil etdiyi halda, son dörd ildə maşın və avadanlıq idxalı (neft kontraktları ilə əlaqədar) olaraq öz

həcminə görə Respublika idxalatında birinci yeri tutur, daxili istehsalın artması nəticəsində bir sıra istehlak mallarının idxalı azalmışdır. Lakin onların bir çoxunun həcmi mütləq rəqəmlərlə yüksək səviyyədə qalmaqda davam edir. Dövlətin müvafiq tənzimləyici tədbirlərinin rəqabət üstünlüyünə malik olduğumuz malların daxili istehsalının artırılmasına yönəldilməsi məqsədə uyğundur.

- Araşdırmalar göstərir ki, Azərbaycanın dünya bazarına sabit rəqabət qabiliyyətli məhsul ixrac edə bilməsinin və idxalı əvəz edən sahələrin təşkilinin əsasında emaledici sənayenin hər vasitə ilə inkişaf etdirilməsi durur. Bu sahə ölkəmizdə bir çox baxımdan rəqabət üstünlüyünə malikdir. Lakin Azərbaycan qlobal təsərrüfata sovetlərdən miras qalmış və deformasiyaya uğramış iqtisadi strukturla inteqrasiya edir. Ölkəmizin xarici ticarətinin xammal yönümlü müasir vəziyyəti demək olar ki, istehsal potensialının maddi-texniki bazası ilə şərtlənir. Maşınqayırma kompleksi, kimya və neft-kimya sənayesi, yüngül və yeyinti sənayenin istər daxili bazarın tələblərinin milli istehsal hesabına ödənilməsində, istərsə də xaricə mal ixrac edilməsində potensialı böyükdür. Həmin sahələrin istehsal-texniki bazasının yeniləşməsi, innovasiya fəaliyyətinin genişləndirilməsi əsasında onların məhsullarının rəqabət qabiliyyətinin yüksəldilməsi daim diqqət mərkəzində olmalıdır. Bu məsələdə maliyyə mənbəyi kimi neft amilindən ciddi şəkildə istifadə olunmalıdır.

Azərbaycan iqtisadiyyatında resurs amilləri ilə yanaşı investisiya və innovasiyalar hesabına rəqabət üstünlüyünə keçmək üçün xarici investisiyaların cəlb olunması olduqca vacibdir. Bundan ötrü, bir tərəfdən xarici investorlar üçün əlverişli iqtisadi mühit yaradılmasına çalışmaq, digər tərəfdən isə onların fəaliyyətini milli maraqlara daha çox uyğunlaşdırmaq lazım gəlir. Xarici müəssisələr əsas etibarilə mineral xammalın istehsalı və ixracı üzrə ixtisaslaşmışlar. Onların fəaliyyətinin daxili bazarın tələblərinin ödənilməsinə və qeyri-neft sektoru ixrac potensialının artırılmasına istiqamətləndirilməsi üçün tədbirlər sisteminin səmərəliliyi artırılmalıdır.

Qloballaşma prosesləri, xüsusən gənc dövlətlər qarşısında keyfiyyətcə yeni tələblər qoyur. Milli iqtisadiyyatın qlobal mühitə itkisiz və səmərəli uyğunlaşdırılması bu dövlətlər qarşısında duran həyati əhəmiyyətli məsələdir. Bu mühitdə beynəlxalq münasibətlərin qeyri-bərabər qüvvələrin kəskin mübarizə meydanına çevrildiyi üçün milli maraqların və milli təhlükəsizliyin təmin olunması Azərbaycan dövlətinin də başlıca funksiyasıdır. Müasir şəraitdə iqtisadi və ərzaq təhlükəsizliyinə qloballaşma amillərinin təsiri güclüdür. Onlar diqqətlə öyrənilib nəzərə alınmalıdır.

Qloballaşma proseslərinin tənzimlənməsində böyük rolu olan beynəlxalq maliyyə-iqtisadi təşkilatlarla (BVF, Dünya Bankı və ÜTT) əlaqələrin səmərəliliyi artırılmalıdır. Nəzərə almaq lazımdır ki, onların yeritdiyi siyasət hər şeydən əvvəl transmilli şirkətlərin və yüksək inhisarçi dövlətlərin mənafeyinə və xarici kapitalın hökmranlığının təmin olunmasına xidmət edir.

Ölkədə gedən struktur islahatlarda böyük rolu və yardımı olan BVF-nun tövsiyyə və tələbləri yerli mütəxəssis rəyləri öyrənilməklə, diqqətlə nəzərdən keçirilməlidir. ÜTT-ə üzvlük məsələsi həll edilərkən bir çox məsələlərin nəzərə alınması vacibdir. Müəyyən irəliləyişlərə baxmayaraq, Azərbaycanda ixracat məhdud xammal yönümlü şəkildə ixtisaslaşmışdır və bu sahədə respublika qarşısında duran tarixi əhəmiyyətli vəzifə xaricə çoxçeşidli məhsul göndərilməsi, yəni ixracatın diversifikasiyası ilə ölkənin dünya bazarında mövqeyinin möhkəmləndirilməsidir. ÜTT təşkilatını qəbul edilərkən bu məsələlər nəzərə alınmalıdır. Unutmaq olmaz ki, perspektiv inkişaf baxımından ölkəyə zərər vura bilən düşünülməmiş öhdəliklərin götürülməsi ölkənin qlobal mühitə bərabərhüquqlu inteqrasiyası, modernləşməsini və son nəticədə iqtisadi inkişafını mürəkkəbləşdirə bilən ÜTT-na üzvlük məsələsi həll edilməzdən əvvəl Azərbaycanın bu təşkilata daxil olması ilə bağlı konkret hansı məsələlərin həll ediləcəyi, ölkənin dünya ticarətində hansı rol oynayacağı və bu zaman hansı güzəştlərə gediləcəyi qəti şəkildə aydınlaşdırılmalı, gömrük siyasətinin necə aparılacağı müəyyənləşdirilməlidir.

Qlobal maliyyə mühitinə inteqrasiya prosesində də ciddi problemlər qarşıda durur. Postsovet məkanında, xüsusən İpək yolu ölkələrində yeni maliyyə mühiti yaranır, kapital və maliyyə axınları sürətlənir. Ola bilsin ki, yaxın gələcəkdə yeni maliyyə mərkəzinin formalaşacağı gözlənilir. Həmin mərkəzin Azərbaycanda olması üçün düşünülmüş tədbirlər sistemi həyata keçirilməlidir. Məlum olduğu kimi, valyuta-maliyyə və bank sahəsində bunun vacib şərti liberallaşdırılmanın aparılmasıdır. Lakin belə liberallaşdırma tədbirləri həyata keçirilərkən ehtiyatlı hərəkət edilməlidir. Bu sahədə bir sıra konkret təkliflər verilir.

Milli təhlükəsizliyin qarantı kimi ölkə iqtisadiyyatının rəqabət qabiliyyətinin yüksəldilməsi qlobal mühitə səmərəli inteqrasiyasının vacib şərtidir. İqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsi üçün dövlətin bu sahədə rolu artırılmalıdır. Onun təsərrüfat-təşkilatçılıq funksiyası ilk baxışdan həlli qeyri-mümkün görünən həmin məsələnin həllinə yönəldilməlidir. Xarici bazarlarda rəqabət qabiliyyətinin yüksəldilməsini qısa bir dövr ərzində təmin etmək mümkün olmadığı üçün bir çox digər dövlətlərdə olduğu kimi, Azərbaycanda da rəqabət qabiliyyətini ilk mərhələdə beynəlxalq bazarda deyil, daxili bazarda yüksəltməyə çalışmaq lazımdır.

Azərbaycan iqtisadiyyatının rəqabət qabiliyyətinin yüksəldilməsində mühüm strateji istiqamət, daxili tələbatın ödənilməsi üçün idxalı əvəz etmə siyasətinin yeridilməsidir. Bu siyasət ölkənin keçmişdə olduğu kimi qapalı xarakterinin artırılmasına deyil, onsuz da məhdud olan və böyük əksəriyyəti istehlak mallarının idxalına yönəldilən valyuta ehtiyatlarına qənaət olunmasına, həmin valyutanın texnologiya idxalına və respublikada onun istehsalının təşkil olunması məqsədlərinə yönəldilməlidir. Bu siyasət ölkənin

ixracat potensialının artırılması üzrə strateji istiqamətin həyata keçirilməsində mühüm rol oynaya bilər.

4.5. Azərbaycan inkişaf etmiş cəmiyyətə doğru: reallıqlar, perspektivlər (həmmüəllif: Aqil Əsədov, AMEA İqtisadiyyat İnstitutu, iqtisad elmləri namizədi)

"İpək yolu" 2011, № 1.

Tarixi proseslərə nəzər saldıqda aydın olur ki, XX əsrin axırlarında dünyada baş verən bir sıra proseslər inkişaf səviyyəsindən asılı olmayaraq hər bir dövlətin sosial-iqtisadi, siyasi, mədəni və s. həyatında ciddi dəyişikliklərin əsasını qoydu. Dünyanın fövqəldövlətlərindən biri olan SSRİ-nin süquta uğraması, bu süqutun fəlakətli nəticələri bir çox ölkələrin, xalqların siyasi, iqtisadi və ənənəvi həyat axarını birdəfəlik dəyişdirdi, postsovet məkanında yeni müstəqil dövlətlərin formalaşması üçün tarixi şərait yarandı. Artıq, hələ ötən əsrin 90-cı illərindən yeni dünya nizamının və bütövlükdə üçüncü minilliyin konturları aydın sezilməkdə idi. Hər bir dövlətin, millətin, etnosun qarşısında mahiyyəti təkcə milli siyasət, milli təhlükəsizlik və milli konsepsiyalarla müəyyənləşməyən, baş verən proseslərə yeni istiqamət, yeni konfiqurasiya verən, bütün dəyərlərin yenidən qiymətləndirilməsini labüdləşdirən bir perspektiv dururdu. Qərb dövlətlərinin təcrübəsi göstərir ki, köhnə hakimiyyət və idarəetmə təsisatlarının dağıldığı şəraitdə ölkədə əsaslı keyfiyyət dəyişiklikləri həyata keçirmək üçün, hər şeydən əvvəl, cəmiyyətdə vətəndaş konsensusuna nail olmaq, siyasi sistemin islahatına başlamaq və iqtisadi münasibətlərdə əsaslı dəyişikliklər yolu ilə modernləşdirmə aparmaq gərəkdir.

Müstəqillik dövrünə nəzər saldıqda bəlli olur ki, Azərbaycanın milli mənafelərə əsaslanmaqla formalaşdırdığı xarici siyasət kursunun prioritet istiqaməti müstəqil və güclü dövlət modelinin praktik olaraq reallaşdırılmasına yönəlmiş və ölkəmiz sivil dünyanın hüquqi-siyasi atmosferini müəyyənləşdirən aparıcı dövlətlərlə, nüfuzlu beynəlxalq təşkilatlarla əlaqələri yüksək dinamizmlə inkişaf etdirməyə üstünlük vermişdir. Azərbaycan balanslaşdırılmış xarici siyasət sayəsində beynəlxalq aləmdə özünün geostrateji mövqelərini möhkəmləndirmiş, Qərbin xüsusi maraq göstərdiyi transmilli layihələrin təşəbbüsçüsü və iştirakçısı olaraq qlobal məkanda cərəyan edən önəmli proseslərin aparıcı subyektinə çevrilmişdir. Nəticədə ölkəmiz böyük dövlətlərin dəstəyini qazanaraq uzaq hədəflərə hesablanmış strateji fəaliyyət konsepsiyasının gerçəkləşməsi sayəsində ayrı-ayrı sosial, iqtisadi, mədəni və s. sahələrdə bir sıra nailiyyətlər əldə etmişdir (2; s.48-56; 3).

Həyata keçirilən qətiyyətli iqtisadi islahatlar az bir zamanda geniş beynəlxalq dəstək aldı. Beynəlxalq Valyuta Fondu və Dünya Bankı həmin islahatlara dəstək verməyə başladılar. Onlar Azərbaycanda iqtisadi islahatlar haqqında xüsusi proqram hazırladılar və ölkəmizə maliyyə yardımı göstərdilər. Həmin təşkilatlarla sıx əməkdaşlıq şəraitində hazırlanmış sabitləşdirmə proqramına uyğun olaraq iqtisadiyyatın liberallaşdırılmasına yönələn radikal islahatlar dönməz xarakter aldı. Sərt pul-kredit, büdcə, vergi, gömrük siyasətinin aparılması, qiymətlərin, xarici iqtisadi fəaliyyətin və valyuta bazarının liberallaşdırılması və xarici kapitalın cəlb olunması nəticəsində qısa zamanda (1995-1996-cı illər) ölkədə makroiqtisadi səviyyədə maliyyə sabitliyinin təmin edilməsinə nail olundu. Beləliklə də nəzərəçarpacaq uğurların bünövrəsi qoyuldu.

Artıq son illərdə Azərbaycan Respublikasında təbii-iqtisadi imkanlardan istifadə etməklə çox güclü və dayanıqlı bir iqtisadiyyat formalaşmışdır. İstər ümumi iqtisadi göstəricilərdə, istərsə də sənaye, kənd təsərrüfatı, sosial və s. sahələrə dair göstəricilərin dinamik formada dəyişməsi ölkəmizin iqtisadi qüdrətini və inkişafını xarakterizə edir. Eyni zamanda, dünyada davam edən iqtisadi böhran nəticəsində ayrı-ayrı ölkələrin iqtisadi vəziyyətinin pisləşdiyini, ÜDM həcminin azaldığını, investisiya qoyuluşları və kreditlərin cəlb edilməsi imkanlarının məhdudlaşdığını, bir çox ölkələrin milli pul vahidlərinin devalvasiya edildiyini, işsizlik səviyyəsinin artdığını və bütün bunların Azərbaycanda ciddi formada hiss edilmədiyini nəzərə alsaq, ölkəmizin iqtisadi qüdrətini təsəvvür etmək olar. Uzağa getmədən, MDB ölkələrinin timsalında iqtisadi böhranın ümumi mənzərəsi ilə tanışlıqdan aydın olur ki, bir çox qonşu respublikalarda iqtisadi vəziyyət kəskin pisləşmiş və 2009-cu ilin əvvəlindən, ölkənin iqtisadi durumunu xarakterizə edən makroiqtisadi göstəricilər aşağı düşmüşdür. Konkret olaraq bu ölkələrdə ÜDM 9%, sənaye istehsalı 14 %, o cümlədən, ölkələr üzrə, Rusiyada 14%, Qazaxıstanda 1,5%, Belarusda 4,6%, Qırğızıstanda 12,7%, Ukraynada 29,6% və s. azalmışdır.

Məlum olduğu kimi, 2009-cu il həm də yeni daha böyük müəssisələrin açılması və ya təməlinin qoyulması ilə də yadda qalmışdır. Belə ki, il ərzində yeni böyük sement zavodunun və Azərbaycan dövləti tərəfindən ekoloji vəziyyətin yaxşılaşdırılmasına böyük dərəcədə xidmət edəcək yeni məişət tullantıları emalı zavodunun təməli qoyuldu, eyni zamanda "Sumqayıt texnopark"ın bir hissəsi istifadəyə verildi. Sumqayıt şəhərinin əvvəlki mövqeyinin bərpa edilməsi, şəhərin həqiqətən müasir sənaye mərkəzinə çevrilməsi üçün bu texnoparkın çox böyük əhəmiyyəti olacaqdır. Belə ki, texnoparkda ən azı 10 nəhəng zavod qurulacaqdır ki, bu da yüzlərlə yeni iş yeri və 100 milyon dollarlarla investisiya qoyuluşu deməkdir. Digər tərəfdən, son 6 il ərzində 840 min, o cümlədən yalnız 2009-cu il ərzində 74 min yeni iş yeri yaradılmışdır. Məhz bunun nəticəsidir ki, altı il əvvəl Azərbaycan vətəndaşlarının təxminən

50%-nin yaxını yoxsulluq səviyyəsində yaşayırdısa, bu gün bu göstərici 9%. Eyni zamanda, 2008-ci ilin yekunları ilə müqayisə etsək, görərik ki, 2009-cu il ərzində yoxsulluq 13,2%-dən 11%-ə, 2010-cu ildə isə 9%-ə düşmüşdür. Yalnız 2009-cu il ərzində Azərbaycanda 64 məktəb tikilmiş, 59 səhiyyə müəssisəsi tikilmiş və ya qurulmuşdur. 2009-cu ilin yekunlarına valyuta ehtiyatları 20,4 milyard dollar olmuşdur ki, bu da Azərbaycanda planlaşdırılan işlərin fasiləsiz həyata keçirilməsinə imkan yaradacaqdır.

Azərbaycan iqtisadiyyatı dünyada baş verən böhrana baxmayaraq, müsbət artım tempini təmin edə bilmişdir. Belə ki, son illər bütün dünyada böhran müşahidə edildiyi halda, Azərbaycanda həm 2009-cu ildə, həm 2010-cu ildə ÜDM, müvafiq olaraq, 9,3% və 5,0% artmış, bütün sosial proqramlar öz həllini tapmışdır. Eyni zamanda, baxmayaraq ki, 2009-cu ildə dünyada neftin qiyməti, təqribən 4 dəfə düşmüşdü, ölkəmizdə 2010-cu ildə də pensiya, əmək haqqı və s. ödənişlərdə müvafiq artımlar təmin edilmişdir. Əlbəttə, bütün bunlar qarşıdakı illərin daha uğurlu olacağını deməyə əsas verir (5; 9).

Həyata keçirilən silsilə tədbirlər nəticəsində 2010-cu ildə də makroiqtisadi sabitlik qorunmuş, ölkə iqtisadiyyatına, əsas hissəsi daxili mənbələr hesabına və 9,3 milyard dolları qeyri-neft sektoruna olmaqla, 15,5 milyard dollar investisiya cəlb edilmiş, inflyasiya cəmi 5,7% təşkil etmiş, əhalinin pul gəlirləri isə 12,3% artmışdır ki, bu da gəlirlərin inflyasiyanı üstələdiyini göstərir. 2010-cu il Azərbaycan iqtisadiyyatı üçün uğurlu olmuş və ÜDM həcmi 41 milyard manatı ötmüşdür. Strateji valyuta ehtiyatları ilin əvvəli ilə müqayisədə 50 faiz artaraq 29 milyard dollara çatmışdır ki, bu da ölkənin dayanıqlı inkişafı üçün möhkəm zəmindir.2010-cu il ərzində 51 milyon ton neft, 27 milyard kubmetr qaz hasil edilmiş, sənaye istehsalı 2,6% artmışdır. Hökumətin iqtisadi siyasətinin prioritet olan qeyri-neft sektorunun dinamik inkişafı da 2010-cu ildə davam etmiş və bu sahədə artım tempi, ümumi artım tempini üstələyərək 7,6%, o cümlədən, qeyri-neft sənayesində 6,6%, rabitədə 29,7%, nəqliyyatda yük daşınması 3,1% təşkil etmişdir. Eyni zamanda, paralel olaraq, qeyri-neft sektorunda sənayeləşmə siyasəti davam etdirilmiş, yeni və müasir texnologiyalara əsaslanan elektrotexnika, əlvan metallurgiya, maşınqayırma, emal, tikinti materiallarının istehsalı da daxil olmaqla, il ərzində 60 sənaye müəssisəsi istifadəyə verilmişdir. O cümlədən, 80-dən çox sənaye müəssisəsinin tikintisi davam etdirilir ki, bu da gələcək də daha miqyaslı uğurlara imkan verəcəkdir.

Ölkəmizdə il ərzində ölkəyə bütün maliyyə mənbələri hesabına 15,5 milyard dollar investisiya qoyulmuşdur ki, bunun da 60 faizini daxili vəsaitlər təşkil edir. İl ərzində infrastruktur və sosial yönümlü Dövlət İnvestisiya Proqramının icrası nəticəsində nəqliyyat, kommunal, su ehtiyatları və irriqasiya, energetika və sənaye, ekologiya, kənd təsərrüfatı, sosial infrastruktur obyektlərinin tikintisi həyata keçirilmişdir. İl ərzində, müxtəlif regionlarda,

160-dan çox sənaye, kənd təsərrüfatı, xidmət və ticarət müəssisəsi tikilib istifadəyə verilmiş, 200-dən çox müəssisənin tikintisi davam etdirilir. Bu dövrdə regionların potensial imkanları hərtərəfli təhlil edilmiş, bu potensialın reallaşdırılması yolları müəyyənləşdirilmiş, sahibkarlığın inkişafı ilə bağlı 200-dən çox tədbir həyata keçirilmişdir. Ölkədə idxal, ixrac prosedurları sadələşdirilmiş, sahibkarların vergi yükü azaldılmış, il ərzində Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 1430 investisiya layihəsinin maliyyələşdirilməsinə 115 milyon manat güzəştli kredit verilmişdir ki, bunun da hamısı ayrı-ayrı regionların payına düşür. 2010-cu il, həm də insanların normal yaşayışı və gündəlik tələbat məhsulları ilə fasiləsiz təminatı baxımından xüsusi əhəmiyyət kəsb edən aqrar sektor üçün də uğurlu olmuşdur. Belə ki, yola saldığımız il ərzində aqrar sektorun inkişafında müasir texnologiyanın tətbiqi daha da genişləndirilmiş, 25 müasir soyuducu, 14 taxıl anbarı kompleksi istifadəyə verilmişdir. Milli iqtisadiyyatın və yerli istehsalın inkişafı nəticəsində 2010-cu il ərzində 145 ölkə ilə ticarət aparılmış, xarici ticarət dövriyyəsi 34,8 faiz artaraq 25,1 milyard dollar təşkil etmiş, 13,7 milyard dollar müsbət saldo əldə edilmişdir. Xüsusilə, qeyri-neft ixracında 16 faizdən çox artım qeydə alınmışdır. İnsanların normal yaşayışı üçün xüsusi əhəmiyyət kəsb edən sosial sektorda müxtəlif obyektlər, o cümlədən, 45 səhiyyə müəssisəsi, 70-dən çox məktəb binası tikilmiş və təmir edilmişdir (7; 8; 9).

Ümumiyyətlə, son illərdə olduğu kimi, 2010-cu il də Dövlət Neft Fondu və Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən çoxsaylı layihələrlə yadda qalmışdır. Sosial sahələrin inkişafında Heydər Əliyev Fondu tərəfindən təhsil, mədəniyyət, səhiyyə və digər sahələrdə həyata keçirilən proqram və layihələr müstəsna əhəmiyyət kəsb edir. Bu nəticələr beynəlxalq qurumlar tərəfindən də müsbət qiymətləndirilmişdir. Məhz bunun nəticəsidir ki, BMT-nin İnkişaf Proqramının əhalinin rifah səviyyəsini əks etdirən İnsan İnkişafı Hesabatına əsasən, Azərbaycan son beş ildə 34 pillə irəliləyərək 169 ölkə arasında 2005-ci ildə tutduğu 101-ci yerdən 2010-cu ildə 67-ci yerə yüksəlmişdir.

Hər zaman olduğu kimi, 2010-cu ilin də prioritet məsələlərindən biri regionların sosial-iqtisadi inkişafı olmuşdur. İl ərzində 2009-2013-cü illəri əhatə edən regional inkişaf proqramı çərçivəsində 2010-cu il üçün müəyyənləşdirilmiş işlər uğurla başa çatdırılmışdır. Nəticədə ötən il, 53 mini daimi olmaqla, 70 mindən çox iş yeri açılmışdır. Ümumilikdə isə, regional inkişaf proqramlarının icrasının başlanmasından, yəni 2004-cü ilin fevralından bu günə qədər ölkəmizdə 900 mindən artıq iş yeri açılmışdır ki, bu da işsizliyin aradan qaldırılması üçün, demək olar, əsas amildir. Bununla bərabər, iş yerlərinin açılması, yeni müəssisələrin işə salınması nəticəsində ölkə daxilində istehsal olunan əmtəələrin sayı, həcmi və çeşidi artır ki, bu da istər daxili bazarda tələbatın ödənilməsi, istərsə də ölkəmizin ixrac potensialının yüksəldilməsi baxımından olduqca mühüm əhəmiyyət kəsb edir.

Nazirlər Kabinetinin 2010-cu ilin yekunları və 2011-ci ildə qarşıda duran vəzifələrə həsr edilmiş iclasında səslənən fikirlərdən də aydın oldu ki, regional inkişaf istiqamətində tədbirlər qarşıdakı illərdə də davam etdiriləcək və daha genişləndiriləcəkdir.

2010-cu ilin sonuna valyuta ehtiyatlarımız 29,4 milyard dollara çatmışdır ki, bu da qarşıdakı illərin daha uğurlu olacağına əsas verir. Yəni, biz artıq həm Azərbaycanda, həm də başqa ölkələrdə istənilən infrastruktur və sərmayə layihəsini icra edirik, artıq Azərbaycan şirkətləri xaricə də vəsait qoyur ki, bu da, ölkə iqtisadiyyatı və uğurlu gələcək üçün vacib amillərdir. Məhz valyuta ehtiyatlarının artmasının nəticəsidir ki, Azərbaycan regionda reallaşdırılan bütün layihələrdə aparıcı tərəfdaşdır. Bu layihələrdən biri də Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisidir ki, bu da 2011-ci ildə də davam etdiriləcəkdir (4; 9).

Əlbəttə, ölkəmizin bütün sahələrdə, o cümlədən maliyyə sahəsində 2010-cu ildə əldə etdiyi uğurlar qarşıdakı illər üçün daha genişmiqyaslı tədbirlərin planlaşdırılmasına və reallaşdırılmasına imkan verəcəkdir. Artıq, iqtisadi sahədə əldə edilən uğurlar davamlı xarakter almışdır. Belə ki, son 10 il ərzində, ölkədə real iqtisadi artım 4 dəfə olmuş, ixracın həcmi 15 dəfədən çox, dövlət büdcəsi 15 dəfəyə qədər, investisiya xərcləri 96 dəfə, strateji valyuta ehtiyatları isə 31 dəfə artmışdır, bank aktivləri 15, əhalinin əmanətləri isə 36 dəfə çoxalmışdır. Ümumilikdə, 2003-2010-cu illərdə Azərbaycanda iqtisadi artım tempi 17 faiz olmuş, bununla da ölkəmiz dünyada lider dövlətə çevrilmişdir. Yalnız, son üç ildə ölkədə real iqtisadi artım orta hesabla 8 faizdən çox olmuş, makroiqtisadi və maliyyə sabitliyi qorunmuşdur. 2008-2010-cu illərdə strateji valyuta ehtiyatlarımız 23 milyard ABŞ dolları artmışdır. Bu müddətdə, eyni zamanda, bank sektoru dayanıqlılığını qorumuş və inkişafını davam etdirmiş, bank aktivlərinin orta illik artım tempi 25 faiz, əmanətlərin artım tempi 20 faizdən çox olmuşdur. 2010-cu il ərzində əhalinin əmanətləri 23 faiz, bütövlükdə bank aktivləri, kreditlər və məcmu kapital 8%-dən çox artmışdır. Eyni zamanda, il ərzində 2435 nəfərə, o cümlədən 473 nəfərə güzəştli şərtlərlə kredit verilmişdir ki, bundan da 6200 ailə faydalanmışdır (8;).

Ölkəmizin əldə etdiyi uğurlarda və davamlı iqtisadi inkişafa nail olunmasında qəbul edilmiş dövlət proqramlarının rolu xüsusi qeyd edilməlidir. Eyni zamanda, inkişaf dinamikası göstərir ki, iqtisadi inkişaf səviyyəsi yaxın perspektivdə daha da yüksələcəkdir. Yüksək iqtisadi inkişaf sürəti Azərbaycanın bir çox inkişaf parametrlərinə görə inkişaf etmiş ölkələrlə arasında olan fərqin azalmasına gətirib çıxaracaqdır. Möhkəm iqtisadi təməl demokratik proseslərə dinamizm qazandırmış, əhalinin sosial-rifah halının daha da yaxşılaşdırılması üçün geniş perspektivlər açmışdır.

Beləliklə, iqtisadi inkişafın nəticəsində uzunmüddətli perspektivdə Azərbaycanın sosial-iqtisadi inkişaf trayektoriyası yüksək dərəcədə perspektivlidir. Belə ki:

- İnzibati-amirlik sistemi ləğv edilərək bazar iqtisadiyyatı prinsipləri bərqərar olmuşdur.
- Ölkə yüksək inkişaf mərhələsinə daxil olmuşdur.
- Transformasiya prosesi uğurla aparılmış və özünün son mərhələsinə qədəm qoymuşdur.
- Qapalı sosial-iqtisadi sistem xaricə açılmış və bərabərhüquqlu dövlət kimi qlobal iqtisadi sistemə inteqrasiya prosesi sürətlənmişdir.
- Xarici kapital geniş miqyasda cəlb edilərək, resurs amillərindən intensiv istifadə edilir.
- Həyata keçirilən qlobal əhəmiyyətli infrastruktur layihələri Azərbaycanın Avrasiya məkanında mərkəzi nəqliyyat dəhlizinə çevrilməsi üçün geniş imkanlar yaratmışdır.
- Siyasi müstəqillik iqtisadi müstəqilliklə möhkəmləndirilmişdir. Ölkə tam müstəqil və balanslaşdırılmış iqtisadi siyasət yeritməklə ölkənin milli təhlükəsizliyini və onun mühüm tərkib hissələri olan iqtisadi təhlükəsizliyini, enerji təhlükəsizliyini və ərzaq təhlükəsizliyini qısa zaman kəsiyində təmin edə bilmişdir.
- Ölkə qısa tarixi dövr ərzində kapital idxal edən ölkədən ixrac edən ölkəyə, təbii qaz idxal edən ölkədən ixrac edən ölkəyə çevrilmiş, bir çox həyati əhəmiyyətli məhsullarla öz ehtiyaclarını təmin edir.
- Ölkənin əlverişli geosiyasi vəziyyətindən məharətlə istifadə edilməsi Azərbaycanın regionda lider dövlətə çevrilməsinə və qabaqcıl dünya dövlətləri arasında mövqenin möhkəmləndirilməsinə səbəb olmuşdur (2, s.247-254; 3; 5).

Bütün bunlarla yanaşı, qeyd edilən dəyişikliklərin qarşılığında davamlı tədbirlərin də reallaşdırılması zəruridir. Daha doğrusu, bütün dünyanın hədəf seçdiyi davamlı inkişafın təmin edilməsi üçün fasiləsiz olaraq tədbirlərin həyata keçirilməsi labüddür.

Məlumdur ki, davamlı inkişaf XX əsrin sonlarından (təqribən 1983-84-cü illər) gündəmə gələn və bütün dünyanı düşündürən bir məsələdir. Bu sahədə qəbul edilmiş beynəlxalq sənədlərdən (Rio-de Janeyro konfransı, Yohannesburq sammiti və s.) aydın olur ki, davamlı inkişaf indiki nəslin tələbatının, gələcək nəslin tələbatına toxunulmadan, daha dolğun şəkildə ödənilməsi deməkdir. Eyni zamanda, davamlı inkişaf, əsas etibarı ilə, sosial, iqtisadi və ekoloji olmaqla üç istiqaməti əhatə edir. Göründüyü kimi, davamlı inkişafın təmin edilməsi resurslardan qənaətlə və səmərəli istifadəni, hər bir iqtisadi addımın insanların həyat səviyyəsinin yüksəldilməsinə istiqamətləndirilməsini, ətraf mühit, eko və bioaləmə, eləcə də biomüxtəlifliyə qarşı münasibətdə

daha diqqətli və nəzakətli olmağı tövsiyə edir. Təbii ki, bütün bunlar hər bir sahədə texniki və texnoloji yeniliklərin, mütərəqqi idarəetmə üsul və metodlarının geniş miqyaslı tətbiqini tələb edir. Bu baxımdan da, gəncliyin, xüsusilə təhsil və elmdə olan gənclərin üzərinə çox məsuliyyətli vəzifələr düşür. Belə ki, müasir elmin incəliklərinə bələd olmadan, mütərəqqi yeniliklərin öyrənilməsində təşəbbüskarlıq göstərmədən, qloballaşan dünyada milli mentalitetimizə və mənəvi dəyərlərimizə uyğun olmayan dəyişikliklərin çox sürətlə cərəyan etdiyi bir zamanda azərbaycançılığı və milli xüsusiyyətləri qoruyub saxlamadan arzu edilən davamlı inkişafı təmin etmək qeyri-mümkündür. Ona görə də hər bir vətəndaş, hər bir gənc yuxarıda qeyd edilən keyfiyyətləri özündə aşılamalıdır. Yalnız bu halda, milli iqtisadiyyatın gələcək perspektivlərinə nail olmaq, Azərbaycan Respublikasının tamhüquqlu sahibi olduğu yeraltı və yerüstü sərvətlərdən tam və səmərəli istifadə etmək mümkündür.

Qloballaşma və inteqrasiya proseslərinin sürətlə cərəyan etdiyi, müasir dünya təcrübəsi sübut edir ki, istənilən sahədə inkişafın təmin edilməsi elmi əsaslarla mümkündür. Başqa sözlə desək, elmə, təhsilə, müasir dünya standartlarına yiyələnmədən hər hansı sahənin inkişafını təmin etmək qeyri-mümkündür. Ölkə başçısının da qeyd etdiyi sintezin yaradılması isə, təbii ki, müasir dünya görüşünə, yüksək intellektual səviyyəyə, dərin bilik və bacarığa malik gənclərin və gəncliyin formalaşdırılmasından çox asılıdır.

Gənclər hər bir xalqın gələcəyini və inkişaf yolunu müəyyənləşdirən və cəmiyyətin ictimai-siyasi həyatında yaxından iştirak edən aparıcı təbəqədir. Məhz bu səbəbdəndir ki, müasir dövrdə gənclərin təhsil, idman, mədəniyyət və s. sahələrdə əldə etdiyi uğurlar dövlətin ümumi inkişaf səviyyəsini, iqtisadi və intellektual potensialını müəyyənləşdirən vacib meyarlardan sayılır. Müşahidə göstərir ki, bütün sivil cəmiyyətlərdə gənc nəslin mənəvi-ideoloji tərbiyəsi, onların ölkə həyatında fəal iştirakının təmin edilməsi kimi sahələrə xüsusi qayğı göstərilir.

Son illər ölkədə aparılan kadr islahatları zamanı müxtəlif sahələrdə, xüsusən də gənclərlə iş sahəsində kifayət qədər təcrübəyə malik olan bacarıqlı gənc kadrların mərkəzi dövlət idarəetmə orqanlarında, rayon (şəhər) icra hakimiyyəti sistemlərində rəhbər vəzifələrə təyin edilməsi, qeyri - hökumət təşkilatlarında çalışan, öz fəallığı, bacarığı və intellektual səviyyəsi ilə seçilən gənclərin dövlət idarəetmə işlərinə, o cümlədən, gənclər siyasətinin həyata keçirilməsinə yaxından cəlb olunması həyata keçirilir. Təbii ki, öz vəzifələrini yerinə yetirmək üçün hər bir gənc fəaliyyət göstərdiyi sahəyə yaxından bələd olmalı, müvafiq beynəlxalq təcrübəni öyrənməli, tətbiq etməli, bir sözlə, öz sahəsinin incəliklərinə yiyələnməlidir. Bütün bunlar isə yalnız və yalnız güclü savad və müasir dünya görüşü ilə mümkündür. Bu baxımdan da hər bir gəncin qarşısında duran başlıca vəzifə təhsil, elm, tədqiqat və s. sahələrdə daha aktiv

fəaliyyət göstərmək, öz biliklərini daimi inkişaf etdirmək və novator olmaqdır. Bütün bunlarla yanaşı, milli və mənəvi dəyərlərə sadiq qalması, çalışdığı sahədən asılı olmayaraq, bu dəyərləri əldə rəhbər tutmaq hər bir gəncin vətəndaşlıq, azərbaycançılıq borcudur. Digər tərəfdən, məlumdur ki, hər bir sahədə tərəqqiyə nail olmaq üçün, ilk öncə, iqtisadi inkişafı təmin etmək zəruridir. Bu baxımdan da, gənclərimizin iqtisadi tərəqqiyə yönəlik addımları da vacib və qaçılmazdır. Ona görə ki, hər bir insanın normal həyatının iqtisadi amillərlə əlaqəsi var. Gənclərimiz də bu reallıqları dərindən dərk etməli, özləri üçün aydınlaşdırmalı, milli iqtisadi inkişaf modelinin hazırlanması və həyata keçirilməsində fəal iştirak etməlidir.

Ədəbiyyat:

1.S.Hüseynov. Davamlı insan inkişafının strateji istiqamətləri. Bakı: "Adiloğlu" nəşriyyatı, 2003, 238 səh.

2.D.Vəliyev. Azərbaycanın qlobal iqtisadiyyata inteqrasiyası**.** Bakı, "Adiloğlu" nəşriyyatı, 2008, 428 səh.

3.D.Vəliyev. Qloballaşma və Azərbaycanın milli iqtisadi inkişaf strategiyası. "Azərbaycan və müasir dünya" - III Ümumrespublika elmi-praktik konfransının materialları. Bakı, Azərbaycan Universiteti nəşriyyatı, 2000, s. 16-23;

4.A.M.Əsədov.Davamlı iqtisadi inkişafın təmin edilməsinə dair beynəlxalq təcrübə: nəzəri təhlil və ümumiləşdirmələr. AMEA İqtisadiyyat İnstitutu, Elmi əsərlər, 2010, №3, səh.26-32;

5.T.Ə.Xəlilov, A.M.Əsədov**.** Azərbaycan Respublikasında davamlı iqtisadi inkişafın təmin olunmasında nəqliyyat sisteminin rolu. AMEA İqtisadiyyat İnstitutu, Elmi əsərlər, 2010, № 1, səh. 28-33;

6.www.azstat.org/

Abstract

The Azerbaijan towards the developed society: realities, perspectives

DUNYAMALI VELIYEV
Chief of "General Economy" Department,
Azerbaijan University, Ph.D., associate professor
AGIL ASADOV
Chief of "Development problems of services" Department,
ANAS, Institute of Economy, Ph.D.

The article considers the social-economic ways of development; also the role of youth in this sphere is analyzed. We know that the youth is the future of each nation and state. From this point of view the role of youth in sustainable economic development of the state is important. In the paper the

authors on the base of statistics analyze the modern condition of national economy, define the future trends and tasks that must be conducted by youth for realizing of such prospects. It is noted that sustainable economic development of the state particularly requires the achievement of high intelligence, wise knowledge and education of youth.

Резюме

Азербайджан на пути в развитое общество: реальность, перспективы

ДЮНЯМАЛЫ ВЕЛИЕВ

Университет Азербайджан, к.э.н., доцент

АГИЛЬ АСАДОВ

НАНА, Институт Экономики, к.э.н.

В статье рассматриваются социально-экономические пути развития и анализируется роль молодежи в этой сфере. Очевидно, что молодежь является будущим как народа, так и государства. С этой точки зрения особенна, велика роль молодежи в обеспечении продолжительного экономического развития государства. В статье авторы на основе статистических данных анализируют современное состояние национальной экономики, определяют будущие перспективы и задачи которые должны быть осуществлены молодежью для реализации этих перспектив. Отмечается, что основной задачей молодежи для обеспечения продолжительного развития страны является достижение высокого интеллектуального уровня, глубоких знаний и всестороннего образования.

4.6. İqtisadi modernləşmə Azərbaycanı sürətli inkişaf yoluna çıxarmışdır

“Xalq qəzeti”, 3 fevral, 2008.

XX əsr bəşəriyyət tarixinə yalnız elmi-texniki inqilablar əsri kimi daxil olmamışdır. O, həm də milli-azadlıq hərəkatları milli dövlətlərin yaranması və bəşəri inkişaf prosesinə müstəqil subyekt kimi öz töhfələrini verməyə başlamaları ilə səciyyələnir. Bütün XX əsr tarixi göstərir ki, siyasi azadlıq, müstəqil dövlətçiliyin möhkəmləndirilməsi, həmin azadlığın ölkə xalqlarının həyatında hərtərəfli dönüş nöqtəsi rolunu oynaması əhəmiyyətli dərəcədə iqtisadi sahədə aparılan mübarizənin uğurundan, iqtisadi cəhətdən də müstəqilliyin əldə edilməsindən asılıdır. Bəzən belə bir səhv fikir tez-tez səslənir ki, guya, dünyada iqtisadi cəhətdən tam müstəqil heç bir dövlət

yoxdur. Çünki, heç bir dövlət bütün ehtiyaclarını təkbaşına təmin edə bilməz. Bu, məsələyə səthi yanaşmaqdır. İqtisadi müstəqillik deyəndə, bütöv milli iqtisadiyyatda geniş təkrar istehsalı zəruri ehtiyatlarla təmin etməyə qadir olan müstəqil təsərrüfat mexanizminin formalaşdırılması, xüsusən, əhalinin maddi və mədəni rifah səviyyəsinin öz milli gəliri hesabına təmin edilməsi nəzərdə tutulur.

Doğma respublikamızda müstəqilliyin siyasi proqramını ümummilli lider Heydər Əliyev reallaşdırmış, iqtisadi müstəqillik uğrunda mübarizənin möhkəm təməlini yaratmışdır. Siyasi istiqlaliyyətin iqtisadi müstəqilliklə daha da möhkəmləndirilməsinin etibarlı sükanı artıq beşinci ildir ki, Prezident İlham Əliyevin əlindədir. Əminliklə demək olar ki, Azərbaycanın tam iqtisadi müstəqilliyinin reallaşdırılması İlham Əliyev siyasətinin tarixi naliyyətidir. Layiqli varis öz üzərinə düşən tarixi missiyanı dərindən dərk edərək ölkənin strateji kursunu və ayrı-ayrı sahələr üzrə qəbul edilən proqram sənədləri ilə müəyyən etdi. Əslində, MDB məkanında ilk dəfə olaraq Azərbaycan Prezidenti sosiai-iqtisadi inkişafı müasir prinsiplər əsasında tərtib edilmiş dövlət proqramları ilə inamla tənzimləyərək, ölkəni yeni üfüqlərə iqtisadi müstəqilliyin əldə edilməsinə doğru istiqamətləndirdi.

İqtisadi müstəqilliyin mühüm tərkib hissəsi iqtisadi təhlükəsizlik, enerji təhlükəsizliyi və ərzaq təhlükəsizliyidir. İqtisadi təhlükəsizlik - iqtisadiyyatın elə bir vəziyyətidir ki, bu zaman dayanıqlı iqtisadi artım, ictimai ehtiyaclar, yüksək keyfiyyətli idarəçilik, iqtisadi maraqların qorunması milli və beynəlxalq səviyyədə səmərəli şəkildə təmin olunur. İqtisadi təhlükəsizlik problemi dövlətin yaradılması ilə eyni zamanda yaranır və milli təhlükəsizliyin onurğa sütununu təşkil edir.

Ölkəmizin milli təhlükəsizlik və onun mühüm tərkib hissəsi olan iqtisadi təhlükəsizlik konsepsiyası Prezident İlham Əliyevin imzaladığı 23 may 2007-ci il tarixli sərəncamla təsdiq edilmişdir. Həmin konsepsiyada iqtisadi təhlükəsizlik problemləri olduqca əhatəlidir. Bu konsepsiya bazar iqtisadiyyatının inkişafı, onun hüquqi əsaslarının təkmilləşdirilməsi, iqtisadi sabitliyin təmin olunması məqsədilə daxili və xarici sərmayələr üçün əlverişli şəraitin yaradılması, təbii sərvətlərdən tam səmərəli istifadə edilməsi, davamlı iqtisadi inkişaf, ətraf mühitin qorunması, tədris, elmi və texnoloji potensialının artırılması yolu ilə Azərbaycan xalqının gələcək inkişafının, əhalinin layiqli həyat səviyyəsinin və fiziki sağlamlığının təmin edilməsi kimi taleyüklü problemlərin həll edilməsini Azərbaycan dövləti qarşısında bir vəzifə kimi qoyur.

İqtisadi təhlükəsizliyin əsas göstəriciləri aşağıdakılardır: ÜDM-in artımı, iqtisadiyyatın strukturu və rəqabət qabiliyyəti, həyat səviyyəsi və keyfiyyəti, inflyasiya sürəti, işsizlik norması, idxaldan asılılıq, daxili və xarici borclar və s. Son dörd ildə, xüsusən 2007ci ildə ölkənin sosial-iqtisadi inkişafı nəticələrinin təhlili göstərir ki, həmin çoxtərkibli problemlərin həllində ciddi

dönüşə nail olunmuşdur. Müstəqillik əldə etmiş ölkələrin təcrübəsi göstərir ki, milli geriliyin aradan qaldırılmasında açar rolunu oynayan milli iqtisadiyyatın, milli sənayenin kənd təsərrüfatının, infrastrukturun inkişafında ciddi dönüş yaradılması, müstəqil və bir-birini tamamlayan istehsal komplekslərinin təsis edilməsi iqtisadi müstəqilliyin və iqtisadi təhlükəsizliyin əsasıdır.

Əsas göstərici olan ÜDM-nin artımı nəzərdən keçirildikdə məlum olur ki, son dörd ildə iqtisadiyyatın həcmi 96%, yəni, təxminən iki dəfə artmışdır. Dünya dövlətlərinin təcrübəsi isə göstərir ki, ÜDM-in iki dəfə artırılması üçün 10-15 il və bəzən daha çox müddət tələb olunur. Məsələn, 1990 - 2000-ci illərdə 10 il ərzində yalnız Çin və Hindistan ÜDM iki dəfə artırmışdır. Neftlə zəngin olan Yaxın və Orta Şərq ölkələri isə həmin dövrdə ÜDM cəmi 38% artıra bilmişlər.

Sənaye, ənənəvi olaraq, Azərbaycan iqtisadiyyatının aparıcı sahəsidir. Lakin son dörd ildə bu sahədə ardıcıl olaraq özünü göstərən sıçrayışlı artım Azərbaycanın tarixində olmamışdır. Bu sahədə artım 2004-cü ildəki 5,7%-dən 2005-ci ildə 33,5%-ə, 2006-cı ildə 36,6%-ə və 2007-ci ildə 24,1%-ə yüksəlmişdir. Sənaye məhsullarının həcmi isə 4 il ərzində iki dəfə artmışdır.

Azərbaycan iqtisadiyyatının qısa tarixi dövr ərzində iqtisadi müstəqilliyə nail olunmasının və getdikcə möhkəmləndirilməsinin əsasında İlham Əliyevin daim modernləşmə və yeniləşmə siyasəti Akademik Ramiz Mehdiyev bu günlərdə mərkəzi qəzetlərdə dərc olunmıış "Gələcəyin strategiyasını müəyyənləşdirərkən: modernləşmə xətti" adlı konseptual məqaləsində tam əminliklə qeyd edir. “Məhz iqtisadi modernləşmə, bazarın sabitliyi, bank mühitinin təkmilləşməsi, orta sinfin formalaşması və ölkənin ÜDM-ində özəl sahibkarlığın rolunun güclənməsi ictimai şüuru latent şəkildə təzələyərək, onu yeni demokratik ənənələr və təsisatlar müstəvisinə yönəldəcəkdir”.

Prezident İlham Əliyev ötən ilin yekunlarına həsr olunmuş müşavirədə xüsusi vurğulamışdır ki, “Bütün sahələrdə - istər tikinti, istərsə də səhiyyə, təhsil, infrastruktur - bütün sahələrdə ən qabaqcıl texnologiyalar Azərbaycana gətirilməlidir. Biz bunu görürük. Azərbaycanda son illər ərzində, xüsusilə, dövlət xətti ilə yaradılan müəssisələr, həyata keçirilən infrastruktur layihələri, tikilən obyektlər dünyanın ən yüksək standartlarına cavab verir”.

“Biz iqtisadiyyatımızı şaxələndiririk”, - deyən ölkə Prezidentinin iqtisadi siyasətinin prioritet istiqaməti iqtisadiyyatda dərin struktur dəyişiklikləri aparılmaqla iqtisadi inkişafın çoxşaxəliliyinin təmin olunmasıdır. Yanacaq-energetika kompleksinin sürətli inkişafı ilə yanaşı, qeyri-neft sektoruna yüksək dinamizm verilməsi də dövlət başçısının daim diqqət mərkəzində olan məsələlərdəndir. O, adıçəkilən müşavirədə xüsusi vurğulamışdır ki, Azərbaycanda enerji layihələrinin böyük əksəriyyəti başa çatdırılmış, neft-qaz yataqlarına böyük sərmayə qoyuluşu artıq, demək olar ki, başa çatmışdır. Buna baxmayaraq, investisiyalar sürətlə artaraq, 2007-ci ildə 6 milyard dollara çat-

mışdır. Bunun böyük əksəriyyəti qeyri-neft sektorunun inkişafı ilə əlaqədardır.

Son dörd il ərzində qeyri-neft sektoru yüksək surətdə inkişaf etmişdir və onun həcmi 1,8 dəfə artmışdır. Bu da analoqu olmayan bir hadisədir. Təsadüfi deyildir ki, 2007-ci il ərzində büdcəyə qeyri-neft sektorundan vergi daxil olmadan 57,1 artmışdır. Büdcəyə 2007-ci ildə qeyri-neft sektorundan 1635,9 milyon manat vəsait daxil olmuşdur. Müqayisə üçün göstərmək lazımdır ki, 2003-cü ildə dövlət büdcəsinin cəmi gəlirləri 1220,9 milyon manat təşkil etmişdir. Azərbaycanda neft ehtiyatları tükəndikdən sonra ölkənin iqtisadi inkişafına bədbin gözlə baxanlara həmin rəqəmlər tutarlı cavabdır.

Prezident İlham Əliyev 2008-ci ildə Azərbaycanda sənayeləşmənin daha sürətlə getməsi vəzifəsini qarşıya qoymuşdur. Bunun üçün də hər cür imkan var: maliyyə çətinliyi yoxdur, üstəlik, ölkənin 7 milyard dollar valyuta ehtiyatı mövcuddur. Dövlət başçısı qətiyyətlə qeyd etdi: "Elə etməliyik ki, qısa müddət ərzində bu məbləğlər, ölkəmizə gələn maliyyə resursları ölkəmizin hərtərəfli inkişafına xidmət göstərsin. Ölkəmiz müasirləşsin, modernləşsin, ən qabaqcıl texnologiyalar Azərbaycana gətirilsin". Proqram xarakterli həmin göstəriş müstəsna əhəmiyyət kəsb edir.

Təsadüfi deyildir ki, nüfuzlu investisiya bankı olan "Qodman Saks" tərəfindən aparılmış iqtisadi inkişaf indeksi üzrə Azərbaycan MDB ölkələrini qabaqlayaraq 170 ölkə arasında 61-ci yerdədir. Sevindirici haldır ki, bu indeks makroiqtisadi göstəricilərlə yanaşı, kompüter, telefon, internetdən istifadə, orta təhsil səviyyəsi, orta ömürlülük, qanunun aliliyi və siyasi sabitlik kimi mühüm sosial-iqtisadi göstəriciləri də özündə birləşdirir.

İqtisadi müstəqilliyin təmin olunmasının aparıcı istiqamətlərindən biri də enerji təhlükəsizliyidir. Ümummilli liderimiz Heydər Əliyevin uzaqgörən neft strategiyasının həyata keçirilməsi nəticəsində yanacaq-energetika kompleksinin sürətli inkişafı ölkəmizdə enerji təhlükəsizliyi təmin edilmişdir. Bu o deməkdir ki, enerji siyasəti reallaşdıqca ölkənin həyatı əhəmiyyət kəsb edən enerji daşıyıcılarına olan ehtiyacı tam şəkildə ödənilir, dövlətə kənardan təzyiqlər minimuma endirilir. Bu tarixi nailiyyət yalnız ölkənin enerji potensialının artmasını deyil, həm də Prezident İlham Əliyevin apardığı beynəlxalq və xüsusən regional balanslaşdırma siyasətinin nəticəsidir. İlk növbədə milli maraqları əsas götürən ölkə başçısı həm Qərb, həm region, həm də digər əlaqədar dövlətlərin maraqlarını diqqətlə öyrənir və onlara böyük həssaslıqla yanaşır. Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında da Azərbaycanın rolu artır. Mürəkkəb və ziddiyyətli dünya təsərrüfatı sisteminə yenicə qoşulmağa başlayan ölkəmizin nüfuzu beynəlxalq aləmdə durmadan artır. Vətənimiz az müddət ərzində regional liderə çevrildi. Məhz bunun nəticəsidir ki, ölkəmiz super güclərin təzyiqlərini belə dəfələrlə dəf etmişdir.

Dövlət başçısı müşavirədə qeyd etmişdir ki, Azərbaycan özünün ərzaq təhlükəsizliyini də təmin etməlidir. O, haqlı olaraq bildirmişdir ki, ərzaq təhlükəsizliyi heç də enerji təhlükəsizliyindən az əhəmiyyət daşımayan sahədir. Həqiqətən, ərzaq problemi, bütün dünyada olduğu kimi, Azərbaycan üçün də olduqca aktualdır. Çünki əhalinin, xüsusən, aztəminatlı təbəqəsinin yemək rasionu o qədər də geniş deyildir, bir çox məhsullar üzrə istehlak normadan aşağıdır. İstehlak mallarının xeyli hissəsi xaricdən idxal edilir. Ona görə də Prezident İlham Əliyev ərzaq təhlükəsizliyi problemini ön plana çəkmişdir. Çünki, ölkənin iqtisadi inkişafı sürətləndikcə, əhalinin alıcılıq qabiliyyəti artır, lakin aqrar-sənaye kompleksinin inkişafı əhalinin artan tələbatını ödəməkdən geri qalır. Yəni, əhalinin gəlirləri artdıqca yeyinti məhsullarına olan tələbatını hələlik kifayət qədər ödəyə bilmir. Ona görə də ölkənin ərzaq təhlükəsizliyinin təmin olunması üçün kənd təsərrüfatının inkişafında ciddi dönüş yaradılması, dövlət orqanları qarşısında bir vəzifə kimi durur.

Bütün bu deyilənlər bu daha təsdiqləyir ki, Azərbaycan iqtisadi müstəqillik yolu ilə inamla irəliləyir, mövcud problemlər isə sürətlə həllini tapır.

4.7. Sürətli iqtisadi inkişaf və iqtisadi təhsil sistemi: problemlər, vəzifələr

(Həmmüəllif:Akif Musayev, AMEA-nın müxbir üzvü, i.e.d., Prof.)

Biz torpaqlarımızı da azad edəcəyik, iqtisadiyyatımızı da inkişaf etdirəcəyik, ancaq mənəviyyatımızda yol verilən xətaları islah etmək üçün uzun illər tələb olunur.

Keçən əsrin son onilliyində SSRİ-nin dağılması ilə dünyanın yeni siyasi xəritəsində özünə layiqli yer tutmuş müstəqil Azərbaycan dünya birliyinin bərabərhüquqlu üzvü olmuş və öz inkişafında keyfiyyətcə yeni mərhələyə daxil olmuşdur. Prezident İlham Əliyev ölkəmizin iqtisadiyyatında keçid dövrünün başa çatdığını və "indi məqsədimizin inkişaf etmiş ölkəyə çevrilmək" olduğunu dəfələrlə bəyan etmişdir. Bu bəyanatlar ölkəmizin yaxın və uzaq perspektivdə sosial-iqtisadi inkişafının strateji inkişaf xəttini təşkil edir.

Tarixi əhəmiyyətli həmin strategiya bütövlükdə Azərbaycan elmi, o cümlədən ictimai və humanitar elmlər qarşısında keyfiyyətcə yeni vəzifələr qoyur.Akademik Ramiz Mehdiyevin qeyd etdiyi kimi, "İndi cəmiyyətimizin qarşısında, ilk növbədə, elmi elita qarşısında mühüm vəzifələrin həlli dayanır. Əsas məqsədimiz ondan ibarətdir ki, yaxın illərdə təhsildə, elmdə, ümumən, intellektual sahələrdə ciddi dönüş yaradılmalı və biliklərə əsaslanan iqtisadiyyatın qurulması prosesi intensivləşməlidir".

Məlum olduğu kimi, Azərbaycan bir çox dünya dövlətlərindən onunla fərqlənir ki, o elm və təhsil sahəsində inkişaf etmiş ənənələrə malikdir. Ali təhsil sistemimizin şərəfli tarixi vardır. Ali məktəblərimiz mövcud olduğu və inkişaf etdiyi illər ərzində zəngin təcrübə toplamış, dünyaya bir çox istedadlı alim və pedaqoqlar bəxş etmiş, çoxsaylı yüksək ixtisaslı mütəxəssislər korpusu hazırlamışlar. Azərbaycan alimləri dünyanın bir çox aparıcı elm və tədris mərkəzlərində ölkəmizi ləyaqətlə təmsil etmiş və etməkdə davam edir.

Ümummilli lider Heydər Əliyevin qeyd etdiyi kimi: "Azərbaycan xalqının milli sərvəti onun intellektual potensialıdır, mədəniyyətidir, ədəbiyyatıdır. Biz müstəqil dövlətimizi boş yerdə qurmağa başlamamışdıq. Bizim iqtisadi potensialımız kimi başqa bir sərvətimiz-intellektual potensialımız da var. Bunu yaradanlar var. Bu dahi insanlar Azərbaycanın böyük intellektual potensialını, mülkiyyətini yaradıblar".

Bütün bunlar isə müasir dünyada mühüm strateji resurs hesab edilir. Müasir mərhələdə Azərbaycanda elmin inkişafına və elmi islahatların aparılmasına iki mövqedən yanaşılması zəruridir: 1. Fəlsəfə, tarix, dil və s. elmlər qrupuna münasibət; bu sahələri biz inkişaf etdirməliyik. Heç kim bizim əvəzimizdən tariximizi yazmayacaq, dilimizi qorumayacaq, ideologiyamızı formalaşdırmayacaqdır. 2. Digər elmlər qrupuna münasibət. Bu sahədə seçim aparılmalıdır. Bu seçimdə Azərbaycan iqtisadiyyatının inkişaf istiqamətlərinə uyğun olaraq prioritet elm sahələri müəyyənləşdirilməlidir. Yəni, Milli Elmlər Akademiyası, ali təhsil və sahə elmi potensialı inteqrasiya edilməklə Azərbaycan iqtisadiyyatının aparıcı sahələrinə xidmət edən elm sahələrinin inkişaf etdirilməsi əsas götürülməlidir. Bu zaman:

- həmin sahələrin maliyyələşdirmə modeli yaradılmalı;
- böyük bizneslə təhsil və elmin əlaqəsi inkişaf etdirilməli;
- elmi kadrların, professor – müəllim heyətinin peşəkarlıq səviyyəsinin günün tələblərinə cavab verməsi, peşəkarlıq səviyyəsinin artırılmasının vacibliyi. Bununla bağlı xüsusi Dövlət Proqramının qəbul olunmasına ehtiyac vardır;
- təhsilə, elmə, əhalinin əlçatanlığı. Hər 100000 adama düşən tələbələrin sayı, alimlərimizin sayı, əhali başına düşən ali məktəblərin, elmi-tədqiqat strukturlarının, subyektlərinin sayı optimal şəkildə müəyyənləşdirilməli;
- mütəxəssis hazırlığının çətinliyi, onu saxlamağın daha da çətin olması (5 ildə 5 min mütəxəssisin xaricdə aparıcı universitetlərdə hazırlanması) nəzərə alınmalıdır. Həmin mütəxəssislərin, əsasən, o məktəblərdə və elm strukturlarında iş yerləri və xüsusi məvaciblə təmin olunması və beyin axınının qarşısının alınması üçün tədbirlər görülməlidir.

Dünyanın inkişaf etmiş dövlətlərinin təcrübəsi göstərir ki, davamlı iqtisadi inkişaf, əhalinin rifah səviyyəsi və həyat keyfiyyətinin yaxşılaşdırılması elm və təhsil sahəsində, insan amilindən istifadə edilməsində dönüş

yaradılmadan, yüksək texnologiyalar tətbiq edilmədən, innovasiya fəaliyyəti aktivləşmədən mümkün deyildir. Çünki müasir dövrdə cəmiyyətin köklü sürətdə yenidən qurulmasının əsasında elm və biliyin sürətli inkişafı və bunun əsasında əmək məhsuldarlığında inqilabi sıçrayışlar dayanır.

Belə ki, XXI yüzillikdə iqtisadi və sosial həyat üçün biliyin yaradılması və istifadə edilməsi üsulları, habelə insanın əmək fəaliyyətinin rolu köklü sürətdə dəyişmişdir. Biliyin rolu və əhəmiyyətinin artması özünü əmək məhsuldarlığı sahəsindəki sıçrayışda və idarəçilikdə baş verən inqilabda göstərdi. Cəmiyyət bilikdən-biliklərə doğru yol ilə irəliləyir. Əvvəllər biliklər ümumi xarakter daşıyırdı. İndi isə biliklərdə dərin ixtisaslaşma özünü göstərir. Keçmişdə "biliyə malik olan insan" ifadəsi işlənmirdi. Deyirdilər: "Savadlı, elmli adam". Savadlı adam – geniş eridusiyalı adamlardır. Onlar istənilən mövzuda yaxşı danışmaq məharətinə malik insanlar idilər. Lakin onlar hər hansı konkret və praktik fəaliyyətlə məşğul ola bilmirdilər. Müasir dövrdə bilik konkret nəticə əldə etmək üçün praktiki əhəmiyyəti olan informasiya hesab edilir. Hər hansı bir əhəmiyyətli nəticə əldə edə bilmək üçün isə yüksək dərəcədə ixtisaslaşmış bilik tələb olunur. Çünki, ümummilli liderimiz Heydər Əliyev gənc nəsli daim belə öyrədirdi: "Kim ki öz biliyindən, bacarığından artıq iddialar edir, o həmişə məğlub olur".

Ümumi bilikdən ixtisaslaşmış biliklər kompleksinə keçid biliyi yeni cəmiyyət yaradan qüvvəyə çevirmişdir. İxtisaslaşmış biliklər kompleksində iqtisadi biliklər müstəsna rol oynayır. Çünki, inkişaf etmiş sənaye cəmiyyətində tərəqqinin əsas hərəkətverici qüvvəsi, əmək və kapitalın təmərküzləşməsi idi. Hazırki postsənaye cəmiyyətində isə əsas diqqət yüksək texnologiyanın inkişafına, istehsal və xidmət sahəsində modernləşmənin sürətlənməsinə verilir. Əvvəllər kapital yığımı sahibkarların bir neçə nəsli ərzində təmin edilirdi. İndi isə çox irimiqyaslı kapital az miqdar ilkin kapital qoymaqla dərhal yaradıla bilər. Lakin həmin sahibkar öz nəhəng müəssisəsində yalnız öz biliyi və məhdud saylı menecerlərin birliyi ilə kifayətlənə bilməz. Texnologiyanın daim yenilənməsi praktikada hər bir iş yerində tələb olunur. Ona görə də texnologiyanın inkişafına müasir istehsalın hər bir işçisinin cəlb olunması zəruridir. Bu isə onu göstərir ki, əvvəllər əmək ehtiyatı hesab edilən muzdlu işçilər əslində kapital ehtiyatlarının qorunması və artırılmasını təmin edir. Məhz bunun nəticəsində istehsal olunan məhsulun tərkibində əməyin xüsusi çəkisi əmək məhsuldarlığı yüksək həddə doğru irəlilədikcə daha da artacaqdır.

Qloballaşma həyatın bütün sahələrində modernləşmə tələb edir. Məlum olduğu kimi, modernləşmə konsepsiyası (upgrading) iqtisadi aktivliyin bir növündən digər növünə hərəkəti əks etdirir. Bunun əsasında müxtəlif meyarlar – mənfəətlilik, ədalət, ekoloji sabitlik meyarları dayanır. Modernləşmə, adətən, əməliyyatların daha da mürəkkəbləşməsinə doğru aparır. Bu bir sıra

amillərlə əlaqədardır. Yeni texnologiya və yaxud əlavə "nou-hau"-dan istifadə olunması, istehsal proseslərinin təkmilləşdirilməsi, ixtisaslaşma və yaxud inteqrasiya dərəcəsinin artırılması və s. ilə əlaqədardır. Rəqabət mübarizəsinin kəskinləşdiyi bir şəraitdə modernləşmə, istər inkişaf etmiş, istərsə də inkişaf etməkdə olan ölkələr üçün eyni dərəcədə əhəmiyyətlidir. Ona görə də innovasiyalara əhəmiyyət verməyən hər hansı bir ölkə qlobal istehsal və mübadilə sistemində səmərəli mövqe tutmağa qadir deyildir.

Modernləşmənin bütün istiqamətləri yeni biliklərin əldə edilməsini tələb edir. Bu biliklər layihələndirmə, texnoloji proseslərin təkmilləşdirilməsi və konstruktor işlərində çox mühümdür. Ona görə də təhsil və bilikləri almaq qabiliyyəti modernləşmənin əsasını təşkil edir. Modernləşməni yalnız istehsal prosesi, texnologiya və yaxud marketinq problemi hesab etmək olmaz. Bu istiqamətlər, şübhəsiz, çox mühümdür. Lakin modernləşməni daha geniş mənada, yeni biliklərin alınmasına və bu sahədə real addımlar atılmasına yönəlmiş bir axın kimi başa düşmək lazımdır.

Bununla əlaqədar olaraq Azərbaycan Respublikasının ali təhsil sisteminin Avropa təhsil məkanına inteqrasiyasını sürətləndirmək və prosesin səmərəliliyini təmin etmək, ali təhsilin məzmununu Bolonya tələblərinə uyğun qurmaq, ölkə iqtisadiyyatının inkişaf istiqamətlərinə müvafiq olaraq yüksək hazırlığa malik kadrlara tələbatı ödəmək məqsədilə Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev 22 may 2009-cu il tarixində "2009-2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı"nı təsdiq etdi. Bu proqramda qarşıya qoyulan məqsəd və vəzifələr Azərbaycan ali təhsilinin inkişafında əsaslı keyfiyyət dəyişmələrinə zəmin yaradır.

Belə bir şəraitdə respublikamızda iqtisad elmi və iqtisadçı kadrların hazırlanması sahəsində olduqca mühüm vəzifələr durur. Lakin, həqiqətən, etiraf etməliyik ki, bizdə iqtisad elmindəki mövcud vəziyyəti bütövlükdə qənaətbəxş hesab etmək olmaz. İstər iqtisad elminin inkişafında, istərsə də təsərrüfat həyatının yüksək ixtisaslı kadrlarla təmin olunmasında iqtisadi təhsilin günün tələbləri səviyyəsinə yüksəldilməsi müstəsna əhəmiyyətə malikdir və bu sahədə çox işlərin görülməsinə ehtiyac vardır.

Məlum olduğu kimi, sovet dövründə iqtisadçı kadrlar inzibati-amirlik sisteminin tələblərinə uyğun olaraq hazırlanmış və bazar iqtisadiyyatının idarə olunması üzrə mütəxəssislər yetişdirilməsinə ehtiyac duyulmamış, tədris planları və proqramlarında praktikadan çox nəzəri biliklərə, ideoloji baxışlara üstünlük verilmişdir. Müstəqillik əldə edildikdən sonra təhsildə həmin neqativ halların aradan qaldırılması üzrə köklü tədbirlər görülmüşdür.

Məlum olduğu kimi, iqtisadiyyat cəmiyyət həyatının bazası olmaqla öz qanunları, öz problemləri, öz ziddiyyətləri ilə onun xüsusi və mühüm bir sahəsidir. Sonsuz drama və detektivlərdən ibarət olan sərbəst bazar iqtisadiy-

yatı istər cəmiyyətin, istərsə də onun hər bir üzvünün həyat səviyyəsini müəyyən edir. Bu sistemdə fərdlər, ayrı-ayrı insanlar həmin sistemin təsirini öz gündəlik həyatında yalnız hiss etməklə qalmayıb, bu sistemin əsas subyektinə, aparıcı qüvvəsinə çevrilirlər. Mərkəzləşmiş planlı iqtisadiyyatdan fərqli olaraq bazar iqtisadiyyatında iqtisadi qərarlar yalnız dövlət tərəfindən deyil, həm də fərdlər tərəfindən qəbul edilir. Fərdlər, klassik iqtisadi məktəbin banilərinin dili ilə desək, iqtisadi insana çevrilirlər. Yəni onlar dövləti, hər şeyə qadir olan "sehirli çubuq" hesab etməyərək, öz hərəkətlərini faydalılıq və mənfəətlilik prinsipi əsasında quraraq, cəmiyyətin tərəqqisini təmin edir, öz rifah səviyyəsini hər şeydən əvvəl özü yüksəltməyə çalışır. Bu isə inkişaf etmiş iqtisadi şüur, normal iqtisadi davranış qaydaları və iqtisadi etikanın mövcudluğu əsasında mümkündür. Bütün bunlar cəm halında olduqda cəmiyyəti iztirab və əzablardan qurtaran, tərəqqiyə qovuşduran, biliyə əsaslanan iqtisadi quruluşun formalaşması və inkişafı üçün əlverişli zəmin yaradır.

Məhz buna görə də müasir şəraitdə iqtisadi təhsil sistemi respublikamız üçün mühüm əhəmiyyət kəsb edən həmin məqsədlərə tabe edilmişdir. Yüksək iqtisadi təhsil yalnız iqtisadçı kadrlar üçün deyil, bütün digər mütəxəssislər üçün də olduqca əhəmiyyətlidir. Çünki, iqtisadi insan istər ümumi cəmiyyət səviyyəsində, istərsə də fərdi qaydada öz işlərini maksimum səmərəlilik səviyyəsində qurması üçün kifayət qədər iqtisadi bilik və təcrübəyə malik olmalıdır.

Deyilənlər belə bir nəticəyə gəlməyə imkan verir ki, ölkəmizdə bazar iqtisadiyyatının müvəffəqiyyətli təşkilinin vacib şərtlərindən biri iqtisadi təhsil sisteminin köklü sürətdə yenidən qurulması və həyatın tələbləri səviyyəsinə yüksəldilməsidir. Başqa sözlə desək, bu gün normal bazar iqtisadiyyatının əsasları şagird və tələbə skamyalarında qoyulmalıdır. Sürətlə artan iqtisadi potensialımız da buna geniş imkan verir. Bu arada dahi Üzeyir Hacıbəyovun belə bir fikrini yada salmaq yerinə düşər. "Hər bir fərdin rifah və səadətlə ömür sürüb yaşaması üzvü olduğu cəmiyyətin rifah və səadətinə bağlıdır".

İqtisadi təhsil sisteminin köklü sürətdə yenidən qurulması dövlət müstəqilliyinin möhkəmləndirilməsi ilə bilavasitə əlaqədar olmaqla, ümumdövlət əhəmiyyətli ciddi tədbirlərdəndir. Çünki, iqtisadi təhsil sistemi iqtisad elminin özünün inkişafı ilə bilavasitə əlaqədardır, ona əsaslanır və kompleksli yanaşmanı zəruri edir.

Cənab İlham Əliyevin ölkə iqtisadiyyatı və sahibkarlığın inkişafı üzrə qarşıya qoyduğu genişmiqyaslı yeni vəzifələr iqtisadçı kadrların hazırlanması sahəsində də ciddi dönüş yaradılmasını tələb edir. Çünki, qarşıya qoyulan dinamik iqtisadi inkişaf vəzifələrinin müvəffəqiyyətlə yerinə yetirilməsi adekvat kadr potensialının yetişdirilməsi ilə əlaqədardır.

İqtisadçı kadrların hazırlanması prosesində sürətli yenilənmə hiss olunur. Tədris sistemində iqtisadiyyat üzrə ixtisaslar Təhsil Nazirliyi tərə-

fin dən günün tələblərinə uyğunlaşdırılmış, iqtisadi təhsilin məzmunu və forması əhəmiyyətli dərəcədə yeniləşdirilmiş və yaxşılaşdırılmış, müasir iqtisadiyyat haqqında yeni-yeni fənlər tədris olunmağa başlanmışdır.

Bununla yanaşı etiraf etmək lazımdır ki, iqtisadi təhsil sistemi cəmiyyətin sürətli sosial-iqtisadi inkişafından doğan yeni tələblərə cavab vermir.

Təhsil sahəsinə görülməsi tələb olunan ən mühüm işlərdən biri təhsil sisteminin ölkənin sosial-iqtisadi inkişaf tələblərinə uyğunlaşdırılması, təhsil sistemi ilə biznes strukturları arasında qarşılıqlı faydalı əlaqələrin optimallaşdırılmasıdır.

Məlum olduğu kimi, bazar iqtisadiyyatı mexanizminin təməl ünsürlərindən biri biznes, əmək bazarı və təhsil xidmətidir. Onlar arasında harmoniya iqtisadi tərəqqinin vacib şərtidir. Lakin reallıq onu göstərir ki, ölkəmizdə ali təhsil hələlik müəyyən dərəcədə qapalı xarakter daşıyır və onun əmək bazarı ilə qarşılıqlı əlaqəsi zəifdir. Bu, özünü ali təhsil müəssisələri məzunlarının aldıqları ixtisasa uyğun olaraq işə düzəlmə göstəricilərinin aşağı olmasında, onların ixtisas nomenklaturalarının biznesin tələblərinə uyğun gəlməməyində və s. məsələlərdə göstərir.

Həqiqətən, müasir biznes çevik və dinamikdir. İş axtaranlar qarşısında yeni tələblər qoyur. Onlar biznesin tələblərinə uyğun ixtisas almış olmalıdırlar, öz ixtisasını daim artırmağa, qeyri-müəyyən anlarda fəaliyyət göstərməyə, müstəqil qərar verməyə hazır olmalıdırlar. İş verənlərin müasir şəraitdə mütəxəssislərə tələbi fundamental "bilik" termini rakursundan daha çox "bacarmaq", "qabiliyyət", "hazır olmaq" terminlərinin əks etdirdiyi fəaliyyət üsuluna yönəlmişdir. Söhbət özünün iş keyfiyyəti və vərdişləri ilə yüksək nəticələr əldə edə bilən mütəxəssislərdən gedir.

Müşahidələr göstərir ki, işə götürənlərin ehtiyacları və iş yerlərinə iddiaçılar qarşısında qoyduqları tələb ilə ali təhsil müəssisələrində mütəxəssis hazırlığının keyfiyyəti arasında disbalans mövcuddur.

Məlum olduğu kimi, Azərbaycanda müasir biliklərə yiyələnmiş peşəkar menecerlərə ehtiyac olduqca böyükdür. Bu ehtiyacın ödənilməsində universitetlərimiz xüsusi rol oynayır. Lakin, etiraf etmək lazımdır ki, həmin kadrlar hələlik öz peşəkarlığı ilə iri biznesin, xüsusən xarici firmaların ehtiyacını ödəyə bilmir. Hər il Azərbaycandan xeyli gənc 100 minlərlə ABŞ dolları sərf edərək xarici universitetlərdə həmin ixtisasa yiyələnirlər. Xarici firmalar isə bu sahədə öz ehtiyaclarını bahalı əcnəbi kadrlar hesabına ödəyirlər. Yerli iri sahibkarlar isə Türkiyədən peşəkar menecerlər dəvət edirlər.

Təcrübə göstərir ki, peşə təhsili və təliminin modernləşdirilməsi, açıq və məsafədən təhsil, idarəedici kadr hazırlığı və sosial tərəfdaşlıq istiqamətləri əsas fəaliyyət sahəsi seçilməklə, hər bir istiqamət üzrə ixtisaslaşmış mütəxəssislər qrupunun yaradılması daha çox səmərə verir.

Bu mənada, idarəedici kadrların hazırlanması sahəsində aşağıdakılar tələb olunur:

- real əmək bazarının tələbinə uyğun idarəedici kadrların peşə hazırlığını təmin etmək üçün menecer və korporativ müştərilərin hazırlığı ilə məşğul olan təhsil müəssisələri arasında daha səmərəli əməkdaşlıq əlaqələrini inkişaf etdirmək;
- təhsil müəssisələrində strateji marketinqin üsullarını tətbiq etmək və təkmilləşdirmək;
- müvafiq kadr hazırlığı şəbəkəsinin möhkəmləndirilməsi, bazar tələbatının mütəmadi müzakirəsi məqsədilə daxili əlaqələri genişləndirmək və eyni zamanda idarəedici kadr hazırlığı sahəsində təcrübə mübadiləsi və monitorinq mexanizmini yaratmaq.

Lakin xüsusilə vurğulamaq lazımdır ki, bütün yuxarıda qeyd olunanların həyata keçirilməsi təhsil müəssisələri, kommersiya strukturları və bütövlükdə cəmiyyətdən xüsusi hazırlıq tələb edir.

Burada əsas amil böyük, orta və kiçik biznesin nə dərəcədə öz fəaliyyətlərinin biliyə əsaslanmalı olduğuna, mürəkkəb və kompromissiz rəqabət mühitində öz mövcudluğunun yalnız ali təhsil müəssisələri və elmi-tədqiqat təşkilatları ilə əməkdaşlıqda mümkünlüyünə əminliyidir. Nəzərə almaq lazımdır ki, biliyə əsaslanan iqtisadiyyatda rəqabətlilik və keyfiyyətli həyat bizneslə ali təhsil arasındakı səmərəli bilik mübadiləsindən asılıdır. Bu sahə kifayət qədər səmərəli və əhatəli olmadıqda iqtisadiyyatın bir çox aparıcı baza sahələri müasir tələblərə cavab verən kadrların çatışmazlığı üzündən rəqabətə davam gətirməyərək sıradan çıxır və illərlə toplanmış təcrübə məhv olur. Müasir iqtisadi fəaliyyətdə daha geniş biliklər cəmləşdiyindən biliyin yaradılması, yayılması və ötürülməsi prosesinə daha çox müxtəlif səviyyəli mütəxəssis və ekspertlər cəlb edilir. Burada həlledici sözü, şəksiz ki, universitetlər deməlidir. Universitetlər artıq biznes-cəmiyyət birliyinin yaradılması prosesinə cəlb olunmanın zəruriliyini hiss edirlər.

Lakin nəzərə almaq lazımdır ki, universitetlərdə bir çox professor-müəllim heyəti biznesin bugünkü tələblərinə uyğun fəaliyyət göstərə bilmədiklərinə görə bizneslə ali təhsil müəssisələri arasındakı əlaqələrin intensiv inkişafına təkan verə bilmirlər və bir çox hallarda özləri də istəmədən müxtəlif maneələr törədirlər.

Bir çox ixtisaslar üzrə tədris planları və proqramları bazar iqtisadiyyatının tələblərinə uyğun olaraq yenilənmiş, təzə fənlər tədris edilir. Lakin, bu fənləri kimin və necə tədris etməsi, hansı dərslik və tədris vəsaitindən istifadə olunması yeni tələblərə uyğun olaraq yüksək ixtisaslı kadrlar hazırlanmasında həlledici məsələlərdən biridir. Halbuki, bir çox universitetlərdə müəllim potensialı əsas etibarı ilə sovet dövründə yetişmiş kadrlardan ibarətdir. Səmərəli təkmilləşmə şəbəkəsi yaradılmadığından onların yenidən ixtisaslaşması və ya

ixtisaslarını artırması işləri hələlik zəifdir. Hamıya aydındır ki, bazar iqtisadiyyatının müxtəlif sahələrində fəaliyyət göstərən yüksək ixtisaslı kadrlar hazırlanması üçün professor-müəllim heyətinin çatışmazlığı bu gün Azərbaycanın təhsil sisteminin ən zəif sahələrindən biridir. Hesab edirik ki, professor-müəllim heyətinin təkmilləşdirilməsi və inkişafı aşağıdakı istiqamətlərdə aparılmalıdır.

1. Heyətin təkmilləşdirilməsi. Maliyyə, Mühasibatlıq, Marketinq, Menecment, Beynəlxalq Biznes, ümumilikdə isə iqtisadiyyat sahələrində çalışan müəllimlərin fənn yönümlü inkişafı: treninqlərin təşkili, xarici ölkələrdə ixtisasartırma kurslarında iştirak, peşəkarlığın artırılmasına xidmət edən digər tədbirlər (seminarlar, dəyirmi masalar və s.).

2. Tədrisin inkişafı. Dərslər və kurrikulumlara aid məsələlərlə bağlı tədrisin inkişafı: sillabusların, kurrikulumların, dərsliklərin, tədris texnologiyalarının, onların tələbələrə çatdırılması mexanizmlərin təkmilləşdirilməsi və inkişafı.

3. Tədqiqatın inkişafı. Elmi tədqiqat, tətbiq, təcrübə, sınaq bacarıqlarının, təqdimat və ünsiyyət fəaliyyətlərinin təkmilləşdirilməsi və inkişafı.

4. Xidmətlərin inkişafı. Daxili (universitet) və xarici (cəmiyyət və şirkətlər) obyektlərlə əməkdaşlığa əsaslanan xidmətlərin inkişafı. Tədris və tədqiqat prosesində əldə olunan nəticələri yaymaq, zəruri ünvanlara çatdırmaq (məqalələr, xülasələr və s. vasitəsilə) bacarıqlarının inkişaf etdirilməsi.

5. Təşkilati inkişaf. Universitetlərdə struktur və bölmələrin siyasətlərini, insan qaynaqlarını əhatə edən, islahatlara şərait yaradan və onları tətbiq etməyə imkan verən fəaliyyətlərə əsaslanan təşkilati inkişaf.

Bazar iqtisadiyyatı üçün lazım olan aşağıdakı bir çox mühüm fənlər respublikamızda bu gün arzu edilən səviyyədə tədris edilmir. Məsələn, "Beynəlxalq biznes", "İnvestisiya layihələrinin təhlili", "İnnovasiya menecmenti", "Qlobal portfel menecmenti" və s. Həmin biliklərə malik olmayan iqtisadçılar isə tamamilə təbiidir ki, biznesi müvəffəqiyyətlə idarə edə bilməzlər. Gələcək iqtisadçıların qlobal düşüncələrinin formalaşdırılması iş- təhsil sistemində zəif təşkil olunmuşdur. Bu isə onların Azərbaycandan kənarda işlə təmin olunması imkanlarını məhdudlaşdırır.

Bir çox fənləri tədris edə bilən müəllimlər sadəcə olaraq yoxdur. Onların hazırlanması prosesi zəif gedir və xüsusi diqqət tələb edir. Bu sahədə dərsliklər və dərs vəsaitlərinin hazırlanması işində müəyyən irəliləyiş olsa da, qaneedici deyildir. Geniş imkanlara malik Rusiyada bu problem yeni dərsliklər yazılmaqla yanaşı, bir çox dərslik və kitabların ingilis dilindən tərcümə olunub yayılması yolu ilə həll edilir. Respublikamızda çox baha qiymətə satılan bu az saylı kitablardan isə Azərbaycan bölməsi tələbələrinin istifadə etmək imkanları olduqca məhduddur. Ona görə də müasir dərsliklərin

tərcümə olunaraq yayılması üçün ölkəmizdə təşkilati və maliyyə dəstəyinə böyük zərurət vardır.

1 yanvar 2010-cu ildən ölkəmizin beynəlxalq mühasibat uçotu və hesabatlar sisteminə keçilməsi qərarlaşdırılmışdır. Bu günlərdə Təhsil Nazirliyində İqtisadi İnkişaf və Maliyyə Nazirliklərinin Dünya Bankı nümayəndələri ilə birlikdə həmin məsələyə həsr edilmiş müşavirədə təhsil sisteminin bu sahədə gördüyü işlər qənaətbəxş hesab edilmədi. Sadəcə olaraq ölkə bu gün beynəlxalq mühasibat uçotu və hesabatını mükəmməl bilən mühasiblərlə təmin edilməmişdir. Bu boşluğun aradan qaldırılması üçün təcili tədbirlər görülməsi qərara alındı.

İqtisadi artıma köklənmiş biliyin inkişaf etdirilməsi, əmək bazarının genişlənməsi, sosial əlaqələrin güclənməsi və mühitin dəyişməsi siyasi elitanın təhsil sisteminə, onun səmərəliliyinin artırılmasına daha geniş yer ayırmasına və diqqət yetirməsinə səbəb olur. Bununla da təhsilin iqtisadi və sosial siyasətin tərkib hissəsinə çevrilməsini ölkələrin rəqabətlilik səviyyəsinin yüksəldilməsinin zəruri elementi olduğuna əmin olurlar.

Qloballaşmanın aqreqasiya olunmuş tarixi mərhələlərinin təhlili göstərir ki, təhsil sistemi güclü olan ölkələr qloballaşma və beynəlmiləlləşmədə daha böyük təsir gücünə malik olur, halbuki, təhsil sistemi çevik olmayan ölkələrin nəinki müstəqil təhsil, hətta müstəqil iqtisadi siyasət aparmaq imkanları getdikcə azalır və onlar asılı vəziyyətə düşür.

Ona görə də ölkənin təhsil sistemində əməkdaşlığa açıqlıq, dinamiklik və adaptasiya olunmaq, vahid horizontal idarəetmə şəbəkəsinə girmək və bu şəbəkəyə yeni elementlər daxil etməklə onun tərkib hissəsinə çevrilmək imkanlarını artırmaq lazımdır. Ölkənin təhsil sisteminin Bolonya və Lissabon prosesini qəbul etməsi bu istiqamətdə atılmış ən vacib addım hesab olunmalıdır.

Belə bir şəraitdə hər şeydən əvvəl tədrisin dövrün tələblərinə uyğunluğu iqtisadçı kadr hazırlayan Universitet rəhbərlərinin daim diqqət mərkəzində duran məsələlərdən olmalıdır. Universitetlər dünyanın aparıcı universitetləri ilə sıx əməkdaşlıq etməlidirlər. Tədris planları və proqramları onların zəngin təcrübəsi nəzərə alınmaqla hazırlanmalı və həyata keçirilməlidir.

Bu gün Azərbaycanda iqtisadi təhsilin mühüm nöqsan cəhətlərindən biri də ali məktəbə qədər təhsil müəssisələrində iqtisad yönümlü təhsilin təşkil edilməməsidir. Peşəkar iqtisadçıların erkən yaşlardan hazırlanmağa başlaması təxirə salınmadan həyata keçirilməlidir.

İstər sahibkarlıq sahəsində çalışan, istərsə də bütün fəaliyyət növlərində işləyən digər kadrların işinin səmərəlilik prinsipi ilə təşkili üçün mühüm şərt olan müasir iqtisadi biliklər kütləvi informasiya vasitələri, o cümlədən və ilk növbədə dövlət televiziyası ilə daha geniş təbliğ olunmalıdır. İqtisadi biliklər müasir dövrdə ziyalılıq səviyyəsini də müəyyən edən mühüm amillərdən

biridir. Ona görə də iqtisadi təhsilin orta məktəblərdə tədrisinin də yenidən qurulması konsepsiyasının hazırlanması və həyata keçirilməsi üçün müvafiq tədbirlər görülməsi təxirəsalınmaz məsələlərdəndir. Nəzərə almaq lazımdır ki, iqtisadi təhsil sistemi seçdiyi və seçəcəyi ixtisasdan asılı olmayaraq bütün şagird və tələbələri elə tərbiyə etməlidir ki, onlar gələcəkdə öz fəaliyyətlərini faydalılıq və mənfəətlilik, yəni rasionallıq prinsipləri əsasında qursunlar.

Ölkəmizin yaxın və uzaq perspektivdə sosial-iqtisadi inkişafının strateji inkişaf xəttini müəyyən edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev həmin xəttin reallaşması mexanizmini də açıb göstərmişdir: "Biz öz təbii sərvətlərimizdən çox böyük səmərə ilə istifadə edərək təbii resurslarımızı insan kapitalına çeviririk. Bu gün əsas prioritetlərdən biri Azərbaycan xalqının və gələcək nəslin bilikli olmasıdır, eyni zamanda, bizim milli adət-ənənələrimizin təmin olunması şərti ilə dünyada gedən proseslərə qoşulmasıdır, dünya birliyinə inteqrasiya etməsidir".

4.8. Azərbaycanın qlobal maliyyə-iqtisadi mühitə inteqrasiyasının əsas istiqamətlərinin müəyyən edilməsində xarici təcrübənin rolu

"Xalq qəzeti", 9 yanvar 2009-cu il.

XXI əsrin astanasında Azərbaycan Respublikasının müstəqil inkişaf yoluna qədəm qoyması ölkəmizin gələcək sosial-iqtisadi təkamülündə dönüş nöqtəsi oldu və bu təkamül prosesində taleyüklü dəyişikliklərin meydana gəlib genişlənməsi üçün zəmin təşkil etdi. Dünyada gedən irimiqyaslı qloballaşma prosesi, iqtisadi həyatın getdikcə daha çox beynəlmilləşməsi bu və ya digər ölkənin ictimai inkişafında xarici amillərin rolunun sürətlə artmasına səbəb olmuşdur. Hazırkı şəraitdə ölkələrin zənginliyi onlarda olan təbii sərvətlərin bolluğu dərəcəsi ilə deyil, bu sərvətlərdən beynəlxalq əmək bölgüsünün üstünlükləri nəzərə alınmaqla, bacarıqla istifadə edilməsindən əhəmiyyətli dərəcədə asılıdır.

70 il ərzində Azərbaycanı SSRİ xalq təsərrüfat kompleksinə bağlayan siyasi və iqtisadi dayaqların ləğvi ölkəmizin Şimala yönəlmiş birtərəfli iqtisadi əlaqələrinə son qoymuş, bu əlaqələrin iqtisadi coğrafi, istərsə də məzmun baxımından yeni istiqamət və mahiyyət kəsb etməsinə imkan vermişdir. Mübaliğəsiz demək mümkündür ki, inkişaf etmiş və mürəkkəb dünya bazarı ilə iqtisadi inteqrasiyasının və qarşılıqlı təsərrüfat əlaqələrinin formalaşan yeni mexanizmi respublikamızın gələcək inkişaf perspektivini müəyyən edən başlıca amillərdəndir. Ona görə də ölkəmizin beynəlxalq iqtisadi inteqrasiyasının strateji istiqamətləri mövcud dünya təcrübəsi nəzərə

alınmaqla müəyyənləşdirilməli və bu sahədə ciddi dövlət tənzimlənməsi həyata keçirilməli, iqtisadi proseslərə məqsədyönlü istiqamət verilməlidir.

Dünya bazarına və ona nəzarət edən nəhəng Transmilli şirkətlər (TMŞ) şəbəkəsinə qoşulma yolları ümumdünya iqtisad tarixindən yaxşı məlumdur. Bu yollar son nəticədə iki istiqamətdə özünü göstərir və şərti olaraq "Latın Amerikası" və "Yapon yolları" adlanır.

Birinci yol TMŞ-lə sıx bağlı olan komprador kapitalının inkişafı və ölkənin iqtisadi inkişaf mexanizmi sükanının xarici kapitalın əlinə verilməsi yoludur. Latın Amerikası ölkələrinin dünya iqtisadi ədəbiyyatında çox vaxt "banan respublikaları" adlandırılması heç də bu ölkələrdə banan istehsalının geniş yayılması ilə əlaqədar deyildir. Bu, ilk növbədə, həmin ölkələrin iqtisadiyyatının əsasını təşkil edən banan istehsalına və onunla əlaqədar olan təsərrüfat sahələrinin TMŞ-lərin əlinə keçməsi və bu ölkələrin bütün iqtisadi mexanizmi üzərində nəzarətin onlar tərəfindən həyata keçirilməsi ilə əlaqədardır. Bu acı təcrübənin nəticələri dünya ictimaiyyətinə yaxşı məlumdur.

İqtisadi inkişafda bütün ümidlərin ölkədə bol olan bu və ya digər məhsul ixracının artırılmasına bağlanması ilə əlaqədar dünya ədəbiyyatına "Hollandiya xəstəliyi", "kasıblaşdırıcı artım" adı ilə daxil olmuş acınacaqlı hallar da iqtisad tarixində özünəməxsus yer tutur. Bu gün Rusiya və bəzi MDB ölkələrində də belə qorxulu təmayülün özünü göstərdiyi haqqında həyəcan siqnalı çalınmağa başlanmışdır.

İkinci yol Yaponiyanın inkişafı yoludur. Məlum olduğu kimi, ikinci dünya müharibəsindən sonra Yapon hakim dairələri Qərbin yardımından və Qərbdə onlara yönəldilmiş əlverişli "açıq qapı" siyasətindən faydalanmaqla yanaşı, özlərinin spesifik inkişaf yolunu seçdilər. Bu spesifik inkişaf yolunun əsas xəttini istehsalın min illərlə sınaqdan çıxmış milli yapon dəyərlərinə əsaslanması, Qərbin müsbət iqtisadi təcrübəsindən bu dəyərlərə uyğun sürətdə maksimum istifadə edilməsi və iqtisadi potensialın, ilk növbədə, daxili bazarın tələblərinin ödənilməsinə yönəldilməsi təşkil edirdi. İstehsal imkanlarının daxili bazarın ehtiyaclarına istiqamətləndirilməsi isə bu bazarın formalaşdırılması və əhalinin alıcılıq qabiliyyətinin yüksəldilməsi üçün əmək haqqının ciddi olaraq artırılmasını zəruri etmişdir.

Dünya bazarı ilə iqtisadi inteqrasiya strategiyası müəyyənləşdirilərkən dünyada iqtisadi proseslərin inkişaf təmayüllərinin müasir xüsusiyyətləri diqqətlə öyrənilib nəzərə alınmalıdır. Məlum olduğu kimi, elmi-texniki tərəqqi inkişaf edib dərinləşdikcə Qərbdə istehsalın təmərküzləşməsi və mərkəzləşdirilməsi, kapitalın inhisarlaşması öz yüksək həddinə çatmışdır. Dünya iqtisadiyyatı üzərində nəzarət nəhəng Transmilli şirkətlərin əlində cəmlənmişdir. Beynəlxalq iqtisadi əlaqələrdə də onlar həlledici rol oynayır. Respublikamızda özəlləşdirmə siyasəti ardıcıl olaraq keçirildiyi bir şəraitdə dünya iqtisadiyyatının göstərilən cəhəti nəzərə alınmalıdır. Heç kəs üçün sirr

deyildir ki, respublikamızda iri kapital yığımının həyata keçmədiyi bir şəraitdə təsərrüfat obyektlərinin həddən artıq "xırdalanması" TMŞ-lərin ölkəmizdə şəriksiz hökmranlığına gətirib çıxara bilər. Ona görə də respublikamızda vaxtilə sahə prinsipi üzrə yaradılmış şirkətlərin özəlləşdirmə prosesində "xırdalanmasına" yol vermək olmaz. Bu baxımdan bankların birləşdirilərək BUS Bankın yaradılması özünü doğruldur.

Ümumiyyətlə, istər daxili, istərsə də beynəlxalq iqtisadi problemlərin həllində milli kapitalın milli sahibkarlığın formalaşması və inkişaf etdirilməsi respublikanın strateji məqsədlərindən biri hesab edilir. Yalnız bir tarixi faktı yada salmaq kifayət edər ki, XIX əsrin axırları, XX əsrin əvvəllərində ölkəmizdə tikilən iqtisadi və digər obyektlərin böyük əksəriyyəti milli kapital tərəfindən həyata keçirilmişdir.

Təsərrüfat həyatının beynəlmiləlləşməsi və respublikamızda ardıcıl olaraq "açıq qapı" siyasətinin həyata keçirilməsi istər xaricdə, istərsə də ölkə daxilində məhsulların yüksək rəqabət qabiliyyətli olmasını tələb edir. Respublika daxilində, demək olar ki, artıq bütün məhsul növləri üzrə, yerli və əcnəbi məhsullar üzrə yüksək rəqabət gedir. Yerli istehsalçılara istehsalı təşkil etmək və onu inkişaf etdirmək sahəsində tədbirlər sistemi həyata keçirilir. İdxalat tarif və qeyri-tarif tənzimləmələri vasitəsilə daha çox məhdudlaşdırıla bilər. Lakin bu, uzun müddət davam edə bilməz və bu tədbirdən beynəlxalq müqavilələrə uyğun olaraq artıq geniş istifadə etmək mümkün deyildir.

Ona görə də yerli istehsalın dirçəldilməsi üçün emal olunan məhsulların keyfiyyətinin və müvafiq olaraq onların rəqabət qabiliyyətinin yüksəldilməsi ölkə iqtisadiyyatının strateji məqsədlərindəndir. Daxili bazar da, xarici bazar da bunu tələb edir.

Beynəlxalq əmək bölgüsünün üstünlüklərindən səmərəli istifadə etməklə iqtisadi tərəqqinin təmin edilməsi əhəmiyyətli dərəcədə idxal və ixracın strukturundan asılıdır. Məhz bu cəhət ölkəmizin iqtisadi inteqrasiyasının dünya birliyi ilə bərabər hüquqlu və qarşılıqlı fayda prinsnipi əsasında aparıldığını və ya onun dünya bazarının xammal əlavəsinə çevrilmiş olub-olmadığını müəyyən edir. İxrac potensialının hərtərəfli inkişaf etdirilməsi, onun çoxçeşidliliyinin artırılması, istehsalın hazır məhsul emalına doğru istiqamətləndirilməsi, satışa çıxarılan malların əmtəə görkəminin yaxşılaşdırılması ölkəmizə lazım olan valyuta ehtiyatlarının yaradılması üçün həlledici əhəmiyyət kəsb edir. Bu məqsədlə xarici ticarətdə liberallaşma siyasətinin ardıcıl yeridilməsi və təsərrüfat obyektlərinin bilavasitə xaricə çıxmasının təmin edilməsi olduqca vacibdir.

Qlobal proseslərə səmərəli şəkildə inteqrasiya olunmasında Çin təcrübəsi çoxəhəmiyyətlidir. Son 30 ildən artıq bir dövrdə Çin iqtisadiyyatı yüksələn xətlə tərəqqi edir. Bu dövr Çinin xarici dünyaya açılması dövrü kimi xarakterizə edilir. Bu müddət ərzində Çinin universallaşması və qloballaşması

sürətlə genişlənmişdir. Bu genişlənmə prosesində ənənəvilik və bəşəri universallığın (qloballaşmanın) optimal sintezi mühüm rol oynamışdır. Təsadüfi deyildir ki, Çin bir çox baxımdan dünya təsərrüfatının dinamik inkişaf edən liderləri sırasına daxil olmuş və iqtisadi qloballaşmanın ən uğurlu iştirakçılarından biri hesab edilir.

Çin iqtisadi möcüzəsinin mahiyyəti və əsas istiqamətləri Akademik Ziyad Səmədzadənin "Dünya iqtisadiyyatı. Çin iqtisadi möcüzəsi" (Bakı, 2001) adlı monoqrafiyasında hərtərəfli şərh edilmişdir. Araşdırmalar göstərir ki, Çin sənayesi, elm və texnikasının nailiyyətləri onun qlobal proseslərə uğurlu inteqrasiyasının vacib şərtidir. Bununla yanaşı, ölkə sivilizasiyasının nailiyyətləri bir çox baxımdan aqrar bölmə ilə əlaqədardır. Amerika sosioloqu R. Merfinin göstərdiyi kimi, Çində şəhər və kənd dünyası arasında "Qərbdə formalaşmış olduğu kimi dərin fərq yoxdur… orada kənd ənənə və dəyərləri ləkələnməyibdir, əksinə, şəhərlilərin çoxu kəndlər üçün darıxır və qocalığını qayıdıb orada keçirirlər". Çin islahatlarının mahiyyəti ondan ibarətdir ki, iqtisadi struktur unifikasiya edilərək vahid şəkilə salınmamışdır. Çin dövləti ictimai kollektiv mülkiyyətlə yanaşı, yeni təsərrüfat formalarını (fərdi, ailə, özəl, qarışıq təsərrüfatları) stimullaşdıraraq, ukladlar, siniflər və təbəqələr, müxtəlif regionlar, maraqlar qrupu arasında münasibətlərdə arbitr və tənzimləyici funksiyasını öz üzərinə götürmüşdür. Onun mühüm funksiyalarından biri də ənənəvi və müasir "iki sivilizasiyanın" sintezini təmin etməkdir. Köhnə dəyərlərdən, tarixi təcrübədən maksimum istifadə edilməsi müasir Çin sivilizasiyasının mühüm fərqləndirici cəhətlərindən biridir. Lakin mütəxəssislərin fikrinə görə, ənənəvilik və müasirlik müqayisə edildikdə, ənənəviliklə sintez edilmiş müasirliyin aparıcı xətt təşkil etdiyi məlum olur (96, s. 72).

Çinin informasiya erasına adaptasiyasını kompyuterləşmə çox asanlaşdırır. Çin mədəniyyəti üçün ənənəvi olan biliyə yiyələnmə ənənəsi kompyuter kimi yeni alət əldə etmişdir. Ölkə çox yüksək səviyyəli informasiya - analitik bazaya malikdir, kütləvi şəkildə tərcümə işləri aparılır.

Çinin inkişaf mexanizmində xarici dünya ilə bütöv qarşılıqlı əlaqə sistemi yaradılmışdır. Bu ölkə adətən "regional derjava" adlandırılır. Onun siyasətində regionallaşma qloballaşmaya nisbətən açıq-aşkar üstünlük təşkil edir. Çin rəhbərliyi coğrafi cəhətdən uzaq ölkələrdən çox, yaxın qonşularına daha böyük əhəmiyyət verir.

ÜTT və Çin təcrübəsi, ÇXR-nin ÜTT-na daxil olması prosesi 15 il davam etmişdir. Bu müddət ərzində milli qanunvericilik həmin təşkilatın çox saylı qaydalarına uyğunlaşdırılmışdır. QATT ÜTT-na çevrildikdən sonra danışıqlar xarici şirkətlərin xidmət (maliyyə, bank, sığorta, distrubitor fəaliyyəti, informasiya texnologiyası, nəqliyyat xidməti və s.) sahəsində fəaliyyətinin liberallaşdırılmasını da əhatə etmişdir. Çin qarşısında milli maraqların ÜTT-nin və ayrı-ayrı iştirakçı ölkələrin tələbləri ilə uyğunlaşdırılması kimi

taleyüklü məsələ dururdu. Çoxsaylı danışıqlardan, ikitərəfli və çoxtərəfli razılaşmalardan sonra ÇXR-ı 2001-ci ilin noyabrından ÜTT-nın tamhüquqlu üzvü qəbul edildi. Bu zaman ÇXR ona müvafiq üstünlüklər verən "inkişaf etməkdə olan ölkə statusu" almağa müvəffəq oldu. Bu, ona imkan verir ki, xarici iqtisadi fəaliyyəti mərhələ-mərhələ liberallaşdırsın, milli qanunvericiliyin ÜTT-nin tələblərinə uyğunlaşdırılmasında vaxt qazansın, iqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsində, subsidiyalar verilməsində müəyyən güzəştlər əldə etsin.

ÇXR hakimiyyətin və əhalinin ÜTT-nin prinsip və vəzifələri haqqında geniş məlumatlar almasına şərait yaradır. KİV-lər onun fəaliyyətini daim geniş işıqlandırır. Minlərlə hüquqşünas və iqtisadçılar ÜTT-nın qaydaları və proseduraları üzrə xüsusi hazırlıq keçirlər. Çin tərəfi ÜTT-ı qarşısında öz üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməklə həmin təşkilatın verdiyi hüquq və üstünlüklərdən geniş istifadə etməyə çalışır. Əsas diqqət Çin malları üçün yeni bazarların açılmasına, Çin mallarının ixracının genişləndirilməsinə və keyfiyyətinin artırılmasına yönəldilir. Xarici kapitalın cəlb edilməsi sahəsində əsas diqqət həmin kapitalın strukturunun optimallaşdırılmasına (qabaqcıl texnologiya axınının artırılmasına) verilir.

Qloballaşmanın verdiyi üstünlüklərdən uğurla istifadə olunmasında Cənubi-Şərqi Asiyanın Yeni sənaye ölkələrinin (YSÖ) təcrübəsi keçid iqtisadiyyatı ölkələri üçün əhəmiyyətlidir. Qloballaşma İEOÖ-in ümumi strukturunda da köklü dəyişikliklərə yol açdı. YSÖ həmin qrup ölkələrini tərkibindən bir çox parametrlərə görə ayrılaraq, İEÖ-lər qrupuna yaxınlaşdılar. Bir sıra cəhətlər YSÖ-ni həm İEOÖ-dən, həm də İEÖ-dən əhəmiyyətli dərəcədə fərqləndirir. Bu xarakterik xüsusiyyətlər yeni sənayeləşmə modelinin yarandığını söyləməyə imkan verir, həm iqtisadiyyatın daxili dinamikası, həm də xarici iqtisadi fəaliyyət baxımından həmin ölkələrin təcrübəsi üçüncü dünya ölkələrində bir nümunə rolunu oynayır. YSÖ qrupuna daxil edilmək üçün BMT-nin müəyyən etdiyi metodikaya əsasən aşağıdakı meyarlar əsas götürülür:

1. adambaşına ÜDM-un miqdarı;
2. onun orta illik sürəti;
3. ÜDM-da emaledici sənayenin xüsusi çəkisi 20%-dən az olmamalıdır;
4. sənaye məhsullarının ixracına həcmi və ümumi ixracatda xüsusi çəkisi;
5. xaricə birbaşa kapital qoyuluşlarının həcmi.

Həmin göstəricilərə görə YSÖ İEOÖ qrupundan yüksəkdə durur. XX əsrin 70-80-cı illərində bu ölkələrdə sənayenin köklü sürətdə yenidənqurulması nəticəsində onun məhsuldar qüvvələrinin formalaşması və inkişafı iqtisadi tərəqqinin dinamikasını əhəmiyyətli dərəcədə sürətləndirmiş, yığım kütləsi və normasının artırılmasına, investisiyaların və məşğulluğun struktu-

runun transformasiyasına səbəb olmuşdur. Resurs-xammal və inventisiya bazasının məhdudluğu və qloballaşmanın genişləndiyi bir şəraitdə həmin ölkələr iqtisadi inkişafın xarici ticarət və maliyyə aspektlərinə xüsusi əhəmiyyət verməyə başladılar. İxracat potensialarının genişləndirilməsi iqtisadi inkişaf strategiyasının aparıcı xəttini təşkil etdi. Nəticədə Cənub-Şərqi Asiya ölkələrinin ümumdünya təsarrüfat əlaqələrində rolu durmadan artır, həmin ölkələr beynəlxalq təsarrüfat subyektləri üçün intensiv sənaye, ticarət, texnoloji və valyuta-maliyyə fəaliyyəti üçün əlverişli zonaya çevrilmişdir. Həmin ölkələr qısa tarixi dövr ərzində, yalnız özlərinin sənaye məhsulları üzrə ixracatını durmadan artırmaqla kifayətlənməmiş, eyni zamanda, beynəlxalq əmək bölgüsü sistemində ixtisaslaşmanı dəyişmiş, beynəlxalq səviyyədə yeni istehsal strukturlarının formalaşması prosesinə inteqrasiya etməyə başlamışlar. Onların sənaye cəhətdən inkişafının əsas təmayülü beynəlxalq əmək bölgüsü sistemində baş verən dəyişikliklərə uyğunlaşma prosesidir. Onların inkişafına Sakit okean regionunda, ilk növbədə onun iki mərkəzi ABŞ və Yaponiyada gedən proseslərin təsiri kifayət qədər yüksək olmuşdur.

Elmi-texniki tərəqqinin sürətlənməsi və istehsalda elmin rolunun artması, əmək məhsuldarlığının kəskin şəkildə yüksəlməsinə, yeni tipli texnologiyaya keçilməsini şərtləndirdi, istehsalın strukturunun keyfiyyətə dəyişməsinə səbəb oldu. Bunun əsas təzahürü istehsal və istehlak təyinatlı yeni məhsulların və yeni sahələrin yaranmasında özünü göstərdi. Onlara olan tələbin sürətlə artması ictimai istehsalın strukturunda xidmət sahələrinin xüsusi çəkisinin çoxalması və müvafiq olaraq digər sahələrin, o cümlədən emaledici sənayenin xüsusi çəkisinin azalması və sonuncunun keyfiyyətcə yenidən qurulması ilə nəticələndi. İstehsalın optimallaşdırılması, onun tərkibində elm tutumlu, material və resurslara qənaət edən sahələrin xüsusi çəkisinin çoxalması bu ölkələrdən ixracat axının kəmiyyət və keyfiyyətcə artırılmasına gətirib çıxardı. TMŞ-lər həmin proseslərin fəal iştirakçıları idi. Onların fəaliyyəti beynəlxalq maliyyə-kredit təşkilatları tərəfindən təşviq edilirdi. Təsadüfi deyildir ki, Cənub-Şərqi Asiya ölkələrinin qlobal əmək bölgüsü sisteminə yüksək dərəcədə inteqrasiya etməsində, məhz TMŞ-in rolu olduqca yüksəkdir. Daxili və xarici kapital qoyuluşlarının ciddi sürətdə artırılması YSÖ-nin iqtisadi dinamizminin əsasını təşkil edir. Təcrübədə YSÖ-nin iki modeli mövcuddur: birinci model, milli iqtisadiyyatın, əsas etibarilə, xarici bazarlara, ixracata istiqamətlənməsinə, ikinci model isə idxalın əvəzolunması siyasətinə əsaslanır. İkinci modeldən ən çox latın Amerikası ölkələri istifadə etmişlər.

Türkiyədə beynəlxalq iqtisadi inteqrasiya proseslərinin maliyyə-kredit mexanizmi vasitəsilə intensivləşdirilməsi təcrübəsinin də öyrənilməsi vacibdir.

T.Özal dövründə ixracatın təşviq olunması sahəsində həyata keçirilmiş

və olduqca müsbət nəticələr vermiş tədbirlər sistemi keçid iqtisadiyyatı ölkələri üçün örnək ola bilər.

Bu tədbirləri dörd qrupa bölmək olar:

– ixracat miqdarı və ya məbləğindən asılı olaraq birbaşa subsidiyalar vasitəsilə təşviqlər: məhsullar ixrac olunarkən ödənilmiş daxili vergilərin geri qaytarılması, dəstəkləmə və qiyməti sabitləşdirmə fondu üzrə verilən subsidiyalar;

– ucuz maliyyə mənbəyinin təmin edilməsi yolu ilə təşviq (ucuz ixracat diskont krediti);

– vergi üstünlüyü verilməsi yolu ilə ixracatçıların təşviqi (bu bir çox vergilər üzrə təşviq edilirdi);

– digər dolayı imkanlar yaradan və üstünlük verən təşviqlər (ixracat məhsulları istehsal etmək üçün mal idxalında gömrük istisnaları, idxalat üçün valyuta toplanması, valyutaların ölkə xaricində saxlanılmasına icazə verilməsi və s.)

Bu tədbirlər arasında məhsul ixrac edilərkən daxildə ödənilmiş vergilərin geri qaytarılması sistemi xüsusən təsirli idi. İxracatın yarısına qədəri bu sistemdən faydalanırdı. 1980-1990-cı illərdə ixracatçılara bu yol ilə 4, 3 mlrd. dollar məbləğində vergi geri qaytarılmışdır.

İnflyasiyaya qarşı mübarizə tədbirlərinin həyata keçirilməsində qəribə bir təzad özünü göstərirdi. Bir tərəfdən, mövcud izafi tələbi məhdudlaşdırmaq, digər tərəfdən isə büdcə kəsirlərini "adi" (inflyasiya yaratmayan) mənbələr hesabına ödəmək üçün vergi gəlirlərinin artırılması istər-istəməz işgüzar fəallığın müəyyən dərəcədə sönməsi ilə nəticələnir. Həyata keçirilən iqtisadi strategiyanın məntiqi isə əks vəziyyəti - işgüzar fəaliyyətin ciddi olaraq canlandırılmasını tələb edirdi.

T.Özal, ona görə də özünün iqtisadi siyasətində pul-dəyər amillərindən ölkədə işgüzar fəallığı canlandırmaq üçün geniş istifadə etməyə başladı. Məsələn, vergi mexanizmində ciddi güzəştlərdən istifadə edilərək təşəbbüsçülər təşviq edilir, onların investisiya fəaliyyəti istiqamətləndirilməyə çalışılırdı. Xalq təsərrüfatının inkişafı üçün birinci dərəcəli əhəmiyyət kəsb edən sahələrin inkişafı, sosial-iqtisadi tərəqqi baxımından geri qalmış Şərq regionlarının canlandırılmasına cəlb etmək üçün də təşəbbüsçülərə böyük güzəştlər nəzərdə tutulurdu. Ölkədə "əsas" vergi olan gəlir vergisinin yüksək həddi 1985-ci ildə 63 faizə (1963-cü ildə 68 və 1981-ci ildə 75 faizdən) endirildi. Xəzinənin maliyyə ehtiyaclarını ödəmək üçün nəzərdə tutulmuş ən aşağı həddi 10 faizdən 25 faizə qaldırıldı. Son nəticədə milli gəlirdə vergilərin xüsusi çəkisi 80-ci illər boyu 20-23 faiz səviyyəsində qalmışdır.

T.Özalın iqtisadi siyasəti xarici kapitala münasibətdə qarşılıqlı mənfəət balansını əsas tutur, xarici mənbələrdən geniş miqyasda faydalanmağa yönəldilir. Əcnəbi kapital qoyuluşlarını hər vasitə ilə təşviq edir.

Açıq qapı siyasəti çərçivəsində Türkiyədə 80-ci illərdə istehsal edilən malların ixracını sürətləndirmək üçün birbaşa maliyyə dəstəyi mexanizmindən də geniş istifadə edildi. Müəyyən edilmiş malların ixracında mükafat sistemi tətbiq edilməyə başlandı. Bu sistemdən yararlanan ixrac mallarının vahidinə və ya fiziki həcminə görə (1 ton ixracat üçün 1-100 dollar arasında) mükafat verilirdi. Bu sistem türk mallarının xarici bazarlarda rəqabət gücünü artırmaq məqsədini güdürdü. Həmin sistem təxminən 120 məhsul növünə şamil edilmişdir. Ödəmə məbləğləri 1987-ci ildə 19, 5 mlrd. türk lirəsindən 1990-cı ildə 1290 mlrd. lirəyə çatmışdır.

İxracatın təşviqində kredit mexanizmi təsirli bir vasitəyə çevrildi. İnflyasiya ilə monetarist mübarizə üsulu kimi sərt pul-kredit siyasətinin həyata keçirilməsi kredit faizlərinin ciddi sürətdə yüksəlməsinə gətirib çıxarmışdır. Belə bir şəraitdə "kredit subsidiyaları" adını daşıyan mexanizm ixracatın təşviq olunmasında təsirli bir vasitə kimi istifadə edildi. Subsidiyalar xəzinə və qismən də mərkəzi kanallar vasitəsilə ödənilirdi. Bunlar aşağıdakılardan ibarət idi:

- ixracatçılara aşağı faizlə "ixracata hazırlıq" kreditləri;
- ixrac malları gömrükdən çıxdıqdan sonra onların pula çevrilməsinə imkan verən "vəsiqəli sənəd" kreditləri;
- tütünün istehsalçıdan alınaraq emal edilməsi və ixracata hazır hala gətirilməsi üçün tütün ixracatçılarına banklar vasitəsilə Mərkəzi Bank mənbələrindən "tütünü" maliyyələşdirmə kreditləri;
- ixracatçılara möhkəm valyuta ilə ixrac edilməsi öhdəliyi altında banklar vasitəsilə "ixracat diskont kreditləri";
- xaricdə podrat tikinti xidmətləri göstərənlərə bu xidmət müqabilində valyuta təmin etmək məqsədilə "xaricdə podrat tikinti xidmətləri diskont" krediti;
- ildə 100 milyon dollardan çox məhsul ixrac edən xarici ticarət sərmayə şirkətlərinə "özəl ixracat diskont krediti";

Bunlardan başqa ixracatı təşviq proqramı çərçivəsində ixrac olunan mallardan əldə edilən valyutanın hökmən ölkəyə qaytarılması məcburiyyəti də ləğv edildi.

Türkiyənin dünya bazarlarında rəqabət gücünün artırılmasının yalnız iri ixracat şirkətləri vasitəsi ilə mümkün olduğu nəzərə alınaraq, xarici ticarət şirkətlərinin möhkəmləndirilməsi dövlət siyasətinin mühüm istiqamətlərindən birinə çevrildi.

Dövlət siyasətinin aparıcı istiqamətinə çevrilmiş açıq qapı siyasəti 1990-cı ildən sonra da dönmədən həyata keçirilmiş beynəlxalq inteqrasiya proseslərinin sürətləndirilməsi yolunda ciddi addımlar atılmışdır.

Sovet imperiyası 1990-cı ildə süqut etdikdən sonra, Türkiyə keçmiş sosialist bloku ölkələri ilə iqtisadi əlaqələri hər vasitə ilə genişləndirilməyə

başlamışdır.

Xarici ticarətin liberallaşdırılması mexanizmi təkmilləşdirilmiş, ÜTT-nın yaradıcısı olan və beynəlxalq ticarətə yeni normalar gətirən Uruqvay Round Nihai Sazişinə imza atmışdır.

Avropa Birliyinə daxil olmaq üçün qarşıya çıxan hər cür maneələrin dəf edilməsi və 2002-ci il Kopenhagen zirvəsində qoyulan tələblərin yerinə yetirilməsi yolunda qətiyyətli və tarixi addımlar atır.

İstər ÜTT-nın, istərsə də AB-nin şərtləri daxilində xarici ticarət rejimi köklü sürətdə yenidən qurulmuşdur.

1980-1990-cı illərdə ixracatın təşviqi sahəsində həyata keçirilmiş geniş miqyaslı tədbirlərdə radikal dəyişikliklər aparılmışdır; beynəlxalq normalara uyğun olaraq daxildə və xaricdə İşləmə Rejimi təsdiq edilmiş, 1995-ci ildən sonra yeni dövlət yardımları tətbiq edilməyə başlanmışdır.

İxracat üçün böyük əhəmiyyət kəsb edən nəqliyyat, rabitə və digər infrastruktur sahələrinə investisiya qoyuluşları artırılmış; ixracat nüfuzlu məşğuliyyət sahəsinə çevrilmişdir. İxracat sahəsində mövcud olan bürokratik əngəllər qətiyyətlə ləğv olunmaqla davam etmişdir; valyuta nəzarəti təkmilləşdirilmiş, hər növ valyuta idxalı tam sərbəstləşdirilmişdir. 1990-cı ildə qəbul edilmiş qərarla Türk lirəsinin dönərliliyi artırılmış sonralar isə milli valyuta ilə idxal və ixrac sərbəstləşdirilmişdir;

80-ci illərdə irimiqyaslı "xarici ticarət şirkətləri" təşviq edilmişdir. Bu iş 90-cı illərdə daha da genişləndirilmiş, xırda və orta şirkətlərin ixracat sahəsində qüvvələrinin birləşdirilməsi istiqamətində də aparılmışdır;

İxracatçı firmalar sərbəst ixracat apara bildikdən sonra 80-cı illərdə onlara edilən birbaşa maliyyə dəstəyi dayandırılmış və ixracat kredit və sığorta mexanizmi vasitəsilə təşviq edilmişdir.

Açıq qapı siyasəti çərçivəsində aparılan islahatlar mərkəzdən idarəçilik sistemi getdikcə daha çox bazar mexanizmi vasitəsilə əvəz olunmağa başladı. 1981-ci ildə kapital bazarı haqqında Qanun qəbul edildi. Qanunun əsas məqsədi yığımın daha çox qiymətli kağızlara qoyulmasını təmin etmək yolu ilə xalqın iqtisadi inkişafda iştirakına şərait yaratmaq idi. Bir az sonra Türkiyənin kapital bazarında tənzimləyici və nəzarətedici bir orqan yaradıldı. 1986-cı ildə isə İstanbul Qiymətli Kağızlar Birjası (İQKB) işə başladı və ölkənin iqtisadi inkişafında mühüm rol oynadı. Birjanın rolunun artmasında vergilərin sadələşdirilməsi, xarici investorların kapital bazarında iştirakının sərbəstləşdirilməsi mühüm rol oynadı. Həmin birjada 4 bazar fəaliyyət göstərir. Bunlara daxildir: pay sənədləri bazarı, istiqraz və bon bazarı, beynəlxalq bazar və müddətli əməliyyatlar bazarı.

Türkiyədə hal-hazırda ən liberal valyuta rejimi fəaliyyət göstərir.Türk lirəsinə tam dönərlilik statusu verilməklə yanaşı, 1989-cu ildən sonra xarici fiziki və hüquqi şəxslər İstanbul Birjasında tam sərbəst əməliyyat apara

bilərlər. Həmin Birja dünyanın aparıcı Maliyyə Birjalarının tam hüquqlu üzvüdür. Hal-hazırda İstanbulun dünya maliyyə mərkəzlərindən birinə çevrilməsi üçün ciddi iş aparılır. Ölkənin nəhəng maliyyə institutları, o cümlədən Mərkəzi Bank həmin şəhərə köçürülür.

Türkiyədə mövcud olan liberal valyuta rejiminin əsasları aşağıdakılardır:

- Türkiyədə yerləşmiş fiziki və hüquqi şəxslər istədikləri qədər valyuta saxlaya bilər, banklar, müəssisə və özəl maliyyə təşkilatlarından istədikləri qədər valyuta satın ala bilərlər, onların xaricə valyuta transferləri və xarici banklarda valyuta hesabı açmaları sərbəstdir.
- Müəssisələr maliyyə ehtiyaclarının ödənilməsi üçün xaricdən istədikləri qədər kredit ala bilərlər.
- Türkiyədə yerləşən fiziki və hüquqi şəxslərin xaricdə ticarət əməliyyatları aparmaları üçün kapital ixrac etmələri sərbəstdir. Yalnız müəyyən məbləğdən çox olduqda səlahiyyətli orqandan icazə almalıdırlar.

Xarici ticarətin liberallaşdırılması və ixracatın hərtərəfli təşviq olunması ölkənin xarici ticarət əlaqələrinə böyük dinamizm gətirmişdir. Xarici ticarət dövriyyəsi 1990-2001-ci illər ərzində iki dəfə artmışdır. İxracat 22,3 mlrd. dollardan 30 mlrd. dollara çatmışdır. 2002-2005-ci illərdə isə ixracat 2,5 dəfə artaraq 36 mlrd. dollardan 85 mlrd. dollara yüksəlmişdir. Hal-hazırda ölkənin ixracatı 120 mlrd. dolları keçmişdir. Türkiyə bu dövrdə xarici ticarətin dinamizmi göstəricisinə görə dünyada ən yüksək olan 10 ölkə sırasına daxildir.

Xarici kapitalın və yeni texnologiyanın ölkəyə daha intensiv daxil olmasını, ixracat üçün kapital qoyuluşlarının artırılmasını, xarici maliyyə və ticarət imkanlarından daha geniş istifadə edilməsini təmin etmək məqsədilə ölkədə "azad zonalar" yaradılmasına və inkişaf etdirilməsinə ciddi fikir verilir. 1985-ci ildə "Sərbəst Bölgələr Qanunu" qüvvəyə minmişdir. 1987-ci ildə Mersin və Antalya azad zonaları açılmışdır. 2002-ci ilə qədər cəmisi 21 sərbəst zona açılmış və fəaliyyət göstərir. Həmin zonalarda aparılan ticarət həcmi 11,5 mlrd. dollara çatmışdır.

Beləliklə, Türkiyə Cümhuriyyətinin və digər inkişaf etməkdə olan ölkələrin iqtisadi quruculuq təcrübəsi olduqca əhəmiyyətlidir. Cənub-Şərqi Asiyanın yeni sənaye ölkələri beynəlxalq iqtisadi inteqrasiya sahəsində böyük uğurlar əldə etmişlər. Çin Xalq Respublikası ÜTT ilə əməkdaşlıq sahəsində öz mənafeinə uyğun şərtləri qəbul etdirməyə nail olmuşdur. Azərbaycan dövləti də bütün bu müsbət təcrübələrdən yararlanmalı, dünya iqtisadiyyatına inteqrasiya sahəsində daha ciddi uğurlara nail olmağa çalışmalıdır.

4.9.Azərbaycanda müasir inflyasiyanın daxili və xarici amillərinin kompleks təhlili

“İqtisadi inkişaf”, Elmi-praktik jurnal, N 3, 2006,Azərbaycan Respublikası İqtisadi inkişaf Nazirliyi İqtisadi İslahatlar Mərkəzi.

Yaxın keçmişdə inflyasiyanın nə olduğu haqqında az-çox təsəvvürü belə olmayan Azərbaycan vətəndaşları onun acı “bəhrələrini” 90-cı illərdə gündəlik həyatlarında əyani şəkildə hiss etdilər. Sonrakı illərdə Beynəlxalq Valyuta Fondunun tövsiyələri əsasında həyata keçirilmiş sərt monetar tədbirlər nəticəsində onun qarşısı alınmış və müəyyən dövr ərzində hətta əks vəziyyət yaranmış, yəni iqtisadiyyat “deflyasiya” adlanan və son nəticədə pul qıtlığını əks etdirən yeni amilin təsirinə məruz qalmışdır. 2004-cii ilin sonu və 2005-ci ilin birinci rübündə inflyasiya kimi ictimai bəla yenidən əhalinin geniş kütlələrinin diqqətini özünə cəlb etdi. Maaşla dolanan orta və kasıb təbəqələr onun yükünü yenidən öz üzərlərində hiss etməyə başladılar. Bu isə inflyasiya parlamentinin istər iqtidarla müxalifət, istərsə də ayrı-ayrı siyasi qruplar arasında mübarizə obyektinə çevrilməsinə səbəb oldu. Məsələnin vacibliyini nəzərə alaraq, Azərbaycan Respublikasının Prezidenti problemin qarşısının alınması üçün 31 may 2005-ci il tarixli “Azərbaycan Respublikasında antiinflyasiya tədbirlərinin gücləndirilməsi haqqında” Fərman imzaladı.

Hökumətin qəbul etdiyi antiinflyasiya tədbirlərinin nə dərəcədə uzun ömürlü olacağı, əlverişli mövsüm şəraiti qurtardıqdan sonra vəziyyətin hansı istiqamətdə dəyişəcəyi, manatın bahalaşması kimi yeni amilin mahiyyəti və ən başlıcası isə Azərbaycanda artıq başlamaqda olan böyük neft erasının ölkəmizdə maliyyə sabitliyinə necə təsir edəcəyi kimi suallar hamını maraqlandırır.

Bu sualların cavablandırılmasına isə bazar iqtisadiyyatının bəlalarından biri olan inflyasiyanı doğuran və dərinləşdirilən amillərin kompleks şəkildə nəzərdən keçirilməsi işıq sala bilər.

Məlum olduğu kimi, iqtisadiyyatın inkişafına və əhalinin maddi durumuna bilavasitə təsir göstərən inflyasiya ilə mübarizənin çətinliyi ondadır ki, o, tarixən olduqca mürəkkəb və ziddiyyətli bir problemdir. Tədavülə əmtəə bazarının tələblərindən çox pul buraxılması nəticəsində pulun qiymətdən düşməsi kimi başa düşülən bu ictimai bəlanın meydana gəlməsinə pul dövriyyəsi və mal təklifi sferasından çoxsaylı amillər təsir edir. Həmin çoxfaktorlu hadisə daxili amillərlə yanaşı, həm də xarici təsirlərlə yaranıb inkişaf edir. Onu da nəzərə almaq lazımdır ki, hər cür qiymət artımı inflyasiya olmadığı kimi, ölkədə maliyyə sabitliyinin əldə edilməsi və ya pozulması da yalnız

inflyasiya ilə əlaqədar deyildir. Keçmişdə klassik iqtisadçılar iqtisadi və maliyyə sabitliyi dedikdə, məhz qiymətlərin səviyyəsini nəzərdə tuturdular. Çünki, o zamanlar, həqiqətən, qiymətlərin sabitliyi iqtisadiyyatın sabit inkişafını təmin edirdi. Qloballaşma şəraitində isə ölkədə maliyyə-iqtisadi sabitliyin təmin olunması üçün qiymətlərin sabitliyi ilə yanaşı, iqtisadiyyatın tam məşğulluq şəraitində daxili və xarici müvazinətinin qorunub saxlanması da çox vacibdir.

Onu da nəzərə almaq lazımdır ki, iqtisadi sabitliyin qorunmasının mühüm amili olan inflyasiya zamanı yalnız əmtəələrin qiyməti deyil, eyni zamanda onun dəyərini ölçənin özü də, yəni pulun dəyəri də dəyişir. Başqa sözlə, pulun alıcılıq qabiliyyətinin azalması və qiymətlərin yüksəlməsi bir-biri ilə qarşılıqlı surətdə əlaqədardır. Yəni inflyasiya pulun alıcılıq qabiliyyətinin azalması və qiymətlərin artması kimi başa düşülür. Lakin "pulun alıcılıq qabiliyyəti" dedikdə, adətən, çox mühüm bir məsələ unudulur. Belə ki, məlum olduğu kimi, pulun alıcılıq qabiliyyətinin aşağı düşməsi özünü iki formada göstərir: pulun daxili və xarici alıcılıq qabiliyyəti. Milli valyutanın daxili alıcılıq qabiliyyətinin azalması və ya artması daxili bazarda mal kütləsinin qiymətlərinin dalğalanmasında öz əksini tapır. Milli valyutanın xarici alıcılıq qabiliyyəti isə onun məzənnəsində, yəni digər valyutalara nisbətən dəyərinin (qiymətinin) artıb-azalmasında ifadə olunur. Devalvasiya - milli valyutanın qiymətdən düşməsini, revalvasiya isə onun dəyərinin artmasını ifadə edir.

Milli valyutanın daxili alıcılıq qabiliyyəti ilə xarici alıcılıq qabiliyyəti arasında sıx qarşılıqlı əlaqə vardır. Məsələn, ölkə daxilində qiymətlərin davamlı olaraq yüksəlməsi nəticəsində hər bir milli valyuta vahidinə satın alınan mal və xidmətlərin miqdarı əvvəlki dövrə nisbətən azalır. Bu halda, pul özünün daxili alıcılıq qabiliyyətini inflyasiya ilə əlaqədar olaraq itirmiş olur. Pulun xarici alıcılıq qabiliyyətinin, yəni məzənnəsinin azalması onun başqa valyutalara nisbətən qiymətdən düşdüyünü ifadə edir. Bu isə ixrac olunan malların qiymətlərini aşağı salmaqla idxal qiymətlərini yüksəldir. Təbiidir ki, idxal qiymətlərinin yüksəlməsi öz növbəsində daxili bazarda qiymətlərin artımına səbəb olur. Milli valyutanın bahalaşması daxili qiymətləri yüksəldərək, ixracata mənfi təsir edir, idxal mallarının qiymətlərini isə milli valyuta ilə ucuzlaşdırır.

Təəsüflər olsun ki, inflyasiya ilə əlaqədar müzakirələr aparılarkən çox vaxt ona birtərəfli münasibət bəslənilir: bəzən yalnız daxili bazar qiymətlərinin artmasından, bəzən isə milli valyutanın digər valyutalara nisbətən qiymətdən düşməsindən ayrılıqda söhbət açılır. İnflyasiya ilə mübarizənin səmərəliliyi və iqtisadi sabitliyin qorunması isə tələb edir ki, onun dərin kökləri hərtərəfli araşdırılsın, həm daxili, həm də xarici aspektləri diqqətlə öyrənilib nəzərə alınsın.

Təhlil göstərir ki, 2006-2007-ci illərdə ölkəmizdə özünü biruzə verən

inflyasiya çoxfaktorlu mahiyyətə malikdir. O, daxili və xarici amillərin mürəkkəb kombinasiyasının təsiri nəticəsində meydana gəlmişdir.

İnflyasiya, təbii olaraq, ilk növbədə, çoxsaylı daxili amillərin təsiri altında yaranır və dərinləşir. Başda monetar amillər gəlir, çünki makroiqtisadi sabitliyin əsasını, ilk növbədə, pula olan tələb və təklif arasında tarazlığın olması təşkil edir. Bu və ya digər səbəblərlə əlaqədar olaraq, tədavülə mal dövriyyəsinin tələblərindən artıq pul nişanlarının buraxılması, bir qayda olaraq, qiymətlərin artması və pulun qiymətdən düşməsi ilə nəticələnir. Ona görə də qiymətlərin sabitliyinin təmin olunmasında pul amilləri mühüm rol oynayır. Təsadüfi deyildir ki, ölkəmizin Milli Bankının fəaliyyətinin əsas məqsədi öz səlahiyyətləri daxilində qiymətlərin sabitliyinin təmin edilməsidir. Ona görə də Milli Bank pul siyasətində əsas diqqəti ölkədə pul kütləsinin həcminə yönəldir.

1998-1999-cu illərdə deflyasiya (pul qıtlığı) dövründən sonra iqtisadiyyatın pul resurslarına olan tələbatının ödənilməsi məqsədilə tədavüldəki pul həcmi ildən-ilə yüksələn xətt üzrə artırılmağa başlandı. Bu artım illər üzrə aşağıdakı kimi olmuşdur: 2000 – 15, 9 %, 2001 –16, 0%, 2002 – 7, 8%, 2003 – 15, 4%, 2004 – 31, 9%, 2005 – 22, 5%, 2006 – 86,8% və 2007 – ci ildə 71, 4% təşkil etdi. Bu artım 2001-ci ildən sonra ÜDM-un artım sürətini xeyli qabaqlamışdır. 2007-ci ildə isə tədavülə ÜDM-un artımından təxminən 3 dəfə çox pul kütləsi buraxılmışdır. İnflyasiyaya təsiretmə baxımından pul təklifinin strukturu da vacibdir. Belə ki, Azərbaycanda pul kütləsinin böyük bir hissəsi (80%-ə qədəri) nəğd pul şəklində bank sistemindən kənarda dövr edirdi. 2007-ci ildə bu nisbət 46%-ə qədər azalmışdır. Pul bazarında isə dövriyyədəki pullar daha çoxdur.

Nəzərə almaq lazımdır ki, iqtisadiyyatın pula olan tələbinin ödənilməsində Milli Bankın emisiya fəaliyyəti çox vacib olsa da, kifayət deyildir. Bazar iqtisadiyyatı şəraitində geniş pul kütləsinin artırılmasında (multiplikator effekti), yəni iqtisadiyyatın monetarizasiyasında kommersiya bankları sisteminin üzərinə də mühüm vəzifələr düşür. Ona görə də Milli Bank iqtisadiyyatın kreditləşdirilməsi sisteminin genişləndirilməsi sahəsində də öz fəaliyyətini intensivləşdirmişdir. 2002-ci ildə uçot dərəcəsinin 10%-dən 7%-ə endirilməsi kredit bazarının canlandırılmasında müsbət rol oynamış, bank faizlərinin azalma təmayülünün yaranmasına, iqtisadiyyata kredit qoyuluşlarının həcminin artırılmasına səbəb olmuşdur. Pul təklifinin azaldılması məqsədilə faiz dərəcələri əvvəl 7,5%-ə, sonra isə 8%-ə qaldırıldı. Bu, inflyasiyanın qarşısının alınması baxımından əhəmiyyətli olsa da, Azərbaycan iqtisadiyyatı üçün yüksək həddir.

Monetar idarəetmənin mükəmməl olması iqtisadiyyatda mövcud olan bir çox ciddi problemlərin köklü həllindən asılıdır. Bu isə struktur islahatlarının sürətləndirilməsini tələb edir. Struktur islahatları real sektorun fəaliyyə-

tini canlandırmalı, onun bank sektoru ilə sıx inteqrasiyasına xidmət etməlidir.

Qiymət artımında ictimaiyyəti və ali hakimiyyət orqanlarını ən çox narahat edən məsələ inhisarçılığın ölkəmizdə yüksək səviyyəsidir. Bu haqda elmi ədəbiyyatda və kütləvi informasiya vasitələrində kifayət qədər materiallar verilir. Dövlət başçısı inhisarlarla mübarizəni kəskinləşdirməyi tapşırır. Ölkəmizdə inhisarçılığa qarşı mübarizə əsasən, İqtisadi İnkişaf Nazirliyinin (İİN) səlahiyyətləri daxilindədir. Normativ aktlarla tanışlıq göstərir ki, nazirliyin bu sahədə kifayət qədər səlahiyyətləri vardır. Məsələn, "Haqsız rəqabət haqqında" Qanunun 11-ci maddəsinə görə, İİN bu sahədə qanun pozuntusu olduqda "onun aradan qaldırılması ilə bağlı icrası məcburi olan göstərişlər verə bilər". "Antiinflyasiya tədbirləri haqqında" Prezidentin son fərmanında da bu işin gücləndirilməsi haqqında nazirliyə tapşırıq verilmişdir.

İnflyasiyanın dərinləşməsində ölkəmizdə kölgə iqtisadiyyatının mövcudluğu, əhalinin bir qrupunda böyük miqdarda "qara pulların" mövcud olmasıdır. Bu da heç şübhəsiz ki, əmtəə bazarını daim təzyiq altında saxlayır.

Ölkədə yığımla investisiyalar arasında uzun illər mövcud olmuş uyğunsuzluq da inflyasiyanı yaradan "daimi" amillərdəndir. Araşdırmalar göstərir ki, sahibkarlıq mənfəətinin kapitala (investisiyaya) çevrilməsi prosesi əvvəllər çox zəif idi. Halbuki, bizdə mənfəət norması (xüsusən, yanacaq-enrgetika kompleksində) olduqca yüksəkdir. Yığımın (mənfəətin) artması isə çox vaxt investisiyanın genişlənməsi ilə nəticələnmir. Yalnız onu demək kifayətdir ki, daxili investisiyalar 2004-cü ildə cəmi investisiyaların 23,6%-ni, ÜDM-un isə 13,2%-ni təşkil etmişdir. Bu çox aşağı səviyyədir. Ona görə də görülən tədbirlər nəticəsində bu nisbət sonrakı illərdə ciddi olaraq artırılmışdır. Məlum olduğu kimi, investisiya artdıqca yığım iqtisadi inkişafa yönəlmiş olur. Bu isə valyuta tələb edən investisiya mallarına, texnologiyaya, nəqliyyat vasitələrinə, yüksək ixtisaslı kadrlara olan tələbi artırır. Ona görə də inflyasiyanın qaşısının alınmasının ən etibarlı yolu - neft gəlirləri artdıqca çoxalan istehlak tələbi üçün əmtəə kütləsi istehsalı sürətlə genişləndirilməlidir. Azərbaycanın gələcəyi də bundan asılıdır. Bu baxımdan, investisiyaların strukturu da böyük əhəmiyyət kəsb edir.

Müasir inflyasiyanın yaranması və inkişafında xarici amillərin rolu da sürətlə artır. Məlum olduğu kimi, Azərbaycanda xaricdən gətirilən mallara aludəçilik çoxdan mövcuddur. "Çatışmazlıq", "kəsir" və yaxud "defisit" kimi deyimlərin tarixi planlı iqtisadiyyatın uzun illər hökmran olduğu sovet dövrünün dərinliklərinə gedib çıxır. Müstəqillik əldə edildikdən sonra, məlum səbəblərə görə, istehsalın kəskin azalması ilə gündəlik tələbat malları sahəsində "çatışmazlıq" və ya "kəsir" faciəli həddə çatdı və ölkənin idxaldan asılılığı ağılasığmaz dərəcədə çoxaldı. Əgər biz sovet dövründə xarici malları "piştaxta altından" əldə edirdiksə, indi liberal iqtisadiyyatın tələblərinə uyğun olaraq, onların gətirilməsinə və satılmasına, demək olar ki, heç bir

məhdudiyyət qoyulmur. Bu sahədə, yəni daxili istehsalın artırılması və idxalın əvəz olunması işində son illər əhəmiyyətli müsbət dəyişikliklər özünü göstərir. Yalnız onu göstərmək kifayətdir ki, 1995-2007-ci illər ərzində idxalatın fiziki həcmi 9 dəfəyə qədər, ÜDM istehsalı isə12,2 dəfə artmışdır.

Məlum olduğu kimi, ardıcıl olaraq həyata keçirilən "açıq iqtisadiyyat" inkişaf modeli nəticəsində ölkəmizin dünya birliyi ilə inteqrasiya prosesləri yüksələn xətt üzrə inkişaf edir. Bu isə təbii olaraq, inflyasiya proseslərində xarici amillərin rolunu artırmışdır. Bütün digər ölkələrdə olduğu kimi, Azərbaycanda da beynəlxalq iqtisadi əlaqələr bir neçə kanallar vasitəsilə həyata keçirilir. Bunların ən başlıcası mal dövriyyəsi, kapital və maliyyənin beynəxalq hərəkətidir. İnflyasiyanın xarici kökləri də ilk növbədə məhz bu kanallarla əlaqədardır. Belə ki, Azərbaycanda 90-cı illərdə özünü göstərmiş hiperinflyasiya zamanı idxal qiymətləri ciddi rol oynamışdır. Çünki, həmin dövrdə daxili bazarda xaricdən gətirilən mallar böyük paya malik idi. Lakin sonralar istehlakda xarici məhsulların xüsusi çəkisi 1995-ci ildəki 41,5%-dən 2000-ci ildə 11,8%-ə qədər azalmışdır. Lakin bununla yanaşı, xaricdən gətirilən ərzaq məhsullarının həcmi mütləq rəqəmlərlə artır (məsələn, 2002-2006-cı illər ərzində 2,3 dəfəyə qədər çoxalma baş vermişdir). Bu, xarici ticarət kanalının ölkədə inflyasiya səviyyəsinə təsir imkanlarının potensial olaraq qalmaqda və qlobal proseslərin təsiri altında artma meyli göstərməkdə davam etdiyini göstərir.

Üstəlik, bütün dünyada enerji daşıyıcılarının qiymətinin yüksəlməsi xarici ticarətdə iştirak edən malların qiymətinin sürətli artımına səbəb olur. Lakin bu amilin təsiri son inflyasiyanın meydana gəlməsində ziddiyyətli rol oynamışdır. Məlum olduğu kimi, 2005-2007-ci illərdə istehlak mallarının qiymətləri 32,8%, o cümlədən ərzaq məhsulları 40,5%, qeyri-ərzaq malları və xidmətlər 9,9% artmışdır. Başqa sözlə, həmin dövrdə inflyasiya ərzaq məhsulları üzrə "normal" hədd hesab edilən birrəqəmli səviyyədəki həddi ötüb keçmişdir. Lakin son illərdə görülən tədbirlər nəticəsində əhalinin real gəlirləri daha sürətlə artır.

Bəs, ərzaq məhsulları qiymətlərinin artımında idxalın rolu nə dərəcədə olmuşdur?

Məsələ bu şəkildə nəzərdən keçirildikdə məlum olur ki, mal əti, quş əti və kərə yağı kimi əsas istehlak mallarının orta idxal qiymətləri 2004-cü ildə azaldığı halda, daxili bazarda sürətlə artmışdır. Belə ki, adı çəkilən mallar üzrə gömrükdə qeyd edilən orta idxal qiymətləri indeksi 2004-cü ildə, müvafiq olaraq, 69,7%, 97,0% və 86,9% olmuşdur. Başqa sözlə, 2004-cü ildə mal ətinin idxal qiymətləri 30,3%, quş ətinin qiyməti 3%, kərə yağının idxal qiyməti isə 12,1% azalmışdır. Yəni həmin mallar üzrə daxili satış qiymətlərinin sürətlə artmasını idxal qiymətlərinin artmasında deyil, daxili amillərdə axtarmaq lazımdır.

Bir sıra digər məhsulların, məsələn, kartof, sitrus meyvələri, buğda və buğda unu, düyünün orta illik idxal qiymətləri həmin dövrdə artmış və şübhəsiz, daxili bazara da öz təsirini göstərmişdir. Lakin xarici ticarət kanalları ilə inflyasiya idxalı zamanı inhisarçılıq onu, necə deyərlər, daha da "körükləyir". Belə ki, statistik məlumatların təhlili göstərir ki, xaricdən gətirilən bir çox mallar daxili bazarda idxal qiymətlərindən xeyli baha satılır. Məsələn, DSK-nın məlumatlarına əsasən, 2003-cü ildə 1 kq mal əti 6560 manata idxal edildiyi halda, daxili bazarda 12671 manata satılıbdır. Quş əti 2577 manata alınaraq 4,2 dəfə baha, yəni 10841 manata, kərə yağı isə 5578 manata alındığı halda 12261 manata satılmışdır. Bu siyahını davam etdirmək olar. Belə yüksək fərqi idxalatçının xarici gömrük orqanlarına rəsmi və qeyri-rəsmi ödəmələrində vergidən yayınmaq üçün idxal qiymətlərinin qəsdən az göstərilməsində və daxili bazarda hökm sürən inhisarçılıq fəahyyətində axtarmaq lazımdır.

İnflyasiyanın xarici kökləri dedikdə, pulun xarici alıcılıq qabiliyyətinə təsir edən xarici ticarət və təədiyə balanslarının vəziyyəti, xarici ticarət şərtləri, kapital və maliyyə axınları və s. bu kimi mühüm amillər də həmişə diqqət mərkəzindədir. Xarici iqtisadi tarazlıq pozulduqda milli valyutanın məzənnəsində qeyri-sabitlik özünü göstərir.

Dünya bazarlarında enerji daşıyıcıları qiymətinin yüksəlməsi və Azərbaycanda ixracatın ümumi fiziki həcminin son dövrdə dinamik olaraq artması nəticəsində ölkəyə valyuta axınları genişlənir. Belə ki, ixracatın ümumi fiziki həcmi 2006-cı il ərzində 46,6%, o cümlədən neft və neft məhsulları ixracı 62% çoxalmışdır. 2007-ci ildə isə ixracat daha 95% artmışdır. Bundan başqa, neft sektorunun yüksək rentabelli olması və ölkədə makroiqtisadi sabitlik Azərbaycan iqtisadiyyatını xarici iş adamları üçün cəlbedici etmişdir. Belə ki, il ərzində birbaşa və digər xarici investisiyalar 2006-cı il ərzində 53, 8%, 2007-ci ildə isə 34% artmışdır. Xarici kapitalın iştirakı ilə ölkə iqtisadiyyatına kredit qoyuluşları 2006-cı ildə 2 dəfə, 2007-ci ildə isə 2.8 dəfə çoxalmışdır.

Beləliklə, son dövrdə ölkəyə valyuta daxilolmalarında ciddi artım müşahidə edilir. Əlverişli xarici iqtisadi konyuktura, neft və digər məhsulların ixracının artması, ölkəyə kapital və maliyyə axınları - Milli Bankın valyuta bazarında tənzimləmə əməliyyatları aparmasına baxmayaraq, Azərbaycan manatının dollara nisbətən bahalaşmasına səbəb olmuşdur.

Beləliklə, deyilən məsələlərin təhlili göstərir ki, bu gün yaranmış daxili və xarici iqtisadi konyuktura Azərbaycanın maliyyə-kredit orqanları rəhbərlərini iki seçim qarşısında qoymuşdur: inflyasiya və yaxud manatın bahalaşması.

Bugünkü Azərbaycan reallığında inflyasiyaya qarşı yönəldilmiş tədbirlər, yəni manatın təklifinin məhdudlaşdırılması siyasəti, təbii olaraq, onun bahalaşmasına gətirib çıxarmışdır.

Manatın dollara nisbətən 2005-ci ilin yanvarında əvvəlki ilin analoji dövrü ilə müqayisədə cəmisi 0,52% bahalaşdığı halda, 2005-ci ilin ilk aylarında onun mövqeyi artan xətt üzrə möhkəmlənir. Belə ki, artım 2005-ci ilin yanvarında 0,01, fevralda 0,091, martda 0,74%, apreldə isə 0,87% olmuşdur. Manat isə 2005-ci ilin aprelində əvvəlki ilin müvafiq dövrünə nisbətən cəmi 1,84% bahalaşmışdır.

Diqqəti belə bir məsələ cəlb edir ki, inflyasiya dalğasının dayandığı aprel ayından manat daha sürətlə bahalaşır. Belə ki, manat dollara nisbətən 2005-ci ilin ilk üç ayı ərzində öz mövqeyini 51 manat möhkəmləndirmişdisə, ikinci rübdə 3 dəfədən çox, yəni 143 manat bahalaşmışdır. Həmin rəqəmlər hələlik o qədər yüksək olmasa da, təmayül xarakteri almağa başlamışdır. Bu da həmin məsələnin ciddiliyindən xəbər verir. Yaxın gələcəkdə maliyyə resursları sel kimi axmağa başladıqda, həmin təmayülün qarşısının alınması çətin olacaqdır. Çünki, valyuta axınının artması külli miqdarda nağd maliyyə ehtiyatları yaradacaqdır. Bu isə yalnız valyuta bazarında tələb və təklif arasında uyğunsuzluğu artırmaqla kifayətlənməyəcək, eyni zamanda, makrosəviyyədə tələb inflyasiyasına geniş yol açacaqdır.

Milli valyutanın bahalaşması monetar sferada ciddi problemlər yaratmaqla yanaşı, eyni zamanda iqtisadi inkişafa da kifayət qədər mənfi təsir göstərir. Tarixi təcrübədən məlumdur ki, "holland sindromu"nun yaranmasına aparan yollardan biri məhz bu proses olmuşdur. Hollandiyada yüksək neft və qaz gəlirləri ilə əlaqədar olaraq, milli valyutanın bahalaşması ixracat məhsullarının xarici bazarlarda rəqabət qabiliyyətini azaltmış, xarici məhsulların ölkədə rəqabət qabiliyyəti yüksəlmiş, ixracyönlü sənaye sahələri iflic vəziyyətinə düşmüş, müəssisələrin bağlanması nəticəsində işsizlik sürətlə artmışdır.

İqtisadiyyat üzrə Nobel mükafatı laureatı, ABŞ prezidentinin iqtisadi məsələlər üzrə keçmiş müşaviri Jozef Stiqlis hələ 2003-cü ilin noyabr ayında Bakıda "Qlobal iqtisadiyyat və Azərbaycan" mövzusunda etdiyi məruzədə xəbərdarlıq edərək demişdir ki, neft gəlirləri sürətlə artdığı zaman manatın bahalaşmasının qarşısının alınması Azərbaycanın fiskal orqanları qarşısında duran ən mühüm vəzifələrdən biri olmalıdır. Həqiqətən, ölkədə sənaye məhsulu istehsalının və ixracatın təxminən 85-90%-i neft sektoru ilə əlaqədardır. Başqa sözlə, Azərbaycan iqtisadiyyatında və ixracatında dərin struktur uyğunsuzluğu mövcuddur. Son illərdə emal sənayesinin inkişafında və qeyri-neft sektoru məhsullarının ixracatında müəyyən irəliləyişlər görünür. Lakin manatın getdikcə bahalaşması real effektiv məzənnəyə də gələcəkdə təsir göstərərək, ixracat məhsullarının xaricdə rəqabət qabiliyyətinə ciddi zərbə vura bilər. Məlum olduğu kimi, ərzaq məhsullarının ümumi idxalatda xüsusi çəkisi getdikcə azalsa da, onun fiziki həcmi artmaqdadır. Manatın bahalaşdığı təqdirdə idxalatın ölkəyə daxil olması asanlaşacaqdır. Hər iki

proses Azərbaycan iqtisadiyyatında mövcud olan struktur disbalansını daha da dərinləşdirəcəkdir.

Ona görə də ölkə iqtisadiyyatında neft-energetika sektorunun aparıcı rol oynadığı bir şəraitdə pul-kredit və valyuta siyasətinin əsas prioritetlərindən birini yaxın gələcəkdə və uzunmüddətli perspektivdə neft dollarlarının iqtisadiyyata mənfi monetar təsirinin qarşısının alınması təşkil etməlidir.

Bütün bunlar isə ölkənin pul-kredit və valyuta siyasətinin mühüm tərkib hissəsi kimi, "sterilizasiya" adlanan (bir növ filtrdən keçirmə) əməliyyatlarının əhəmiyyətini Azərbaycan tarixində misli görünməmiş dərəcədə artırır. Dünya təcrübəsində sterilizasiya siyasəti adətən pul emisiyası funksiyasını yerinə yetirən Mərkəzi Bank tərəfindən həyata keçirilir. Azərbaycanda isə bu siyasətin həyata keçirilməsində Milli Bankla yanaşı, ali hakimiyyət orqanları və fiskal orqanlar da iştirak edirlər. Çünki, neft dollarlarının artımı nəticəsində manatın bahalaşması prosesinin qarşısının alınması yalnız Milli Bankın ənənəvi əməliyyatları vasitəsilə həyata keçirilərsə, bu, maliyyə-kredit sahəsində qeyri-sabitlik yaranmasına səbəb ola bilər. Neft gəlirlərinin mühüm bir hissəsinin Neft Fondunda toplanması həmin gəlirlərin mühüm sterilizasiya vasitəsidir.

Ümumiyyətlə götürüldükdə, genişmiqyaslı sterilizasiya siyasəti dövlətin pul-kredit və valyuta siyasətinin aparıcı istiqamətinə yalnız inflyasiya və manatın bahalaşmasının qarşısının alınmasında Milli Bank tərəfindən həyata keçirilən əməliyyatların kifayət etmədiyi özünü biruzə verdikdən və bu sahədə prezident fərmanı qəbul edildikdən sonra çevrilmişdir.

Məlum olduğu kimi, neft gəlirləri dövlət büdcəsinə hər barel neftə görə əvvəllər 24, sonralar isə 50 və 80 ABŞ dolları hesabı ilə daxil edilmişdir. Mövcud qaydaya görə, qiymətin artımı hesabına respublikaya daxil olan valyuta vəsaitinin 25%-i Dövlət Neft Fonduna, 75% isə Dövlət Neft Şirkətinə daxil olur.

Neft gəlirləri artdıqca onların daha çox kapitaltutumlu obyektlərə və sənaye sahələrinə yönəldilməsi müstəsna əhəmiyyət kəsb edəcəkdir. Çünki, investisiyalar belə obyektlərə yönəldikdə onların "mənimsənilməsi" uzun müddət tələb edir. Bu zaman artan neft gəlirlərinin istehlak bazarına təsiri azalmış olur. Yəni investisiya layihəsinin reallaşması dövründə həmin pullar bir növ "dondurulmuş" olur. Lakin bu dondurma məhsuldar "dondurulmadır" və "don açıldıqda" mal təklifi əhəmiyyətli dərəcədə artacaq və tələblə təklif arasındakı uyğunsuzluğu müvafiq ölçüdə aradan qaldıracaqdır.

"Milli Bank haqqında" 2004-cü ildə qəbul edilmiş Qanunun 4.1 maddəsinə görə, həmin bankın "əsas məqsədi öz səlahiyyətləri daxilində qiymətlərin sabitliyinin təmin edilməsidir". Lakin hər kəsə aydındır ki, qiymətlərin sabitliyi yalnız monetar amillərdən deyil, eyni zamanda Milli Bankla yanaşı, əhəmiyyətli dərəcədə İqtisadi İnkişaf, Maliyyə nazirlikləri və Dövlət Gömrük Komitəsindən də asılıdır. Onların fəaliyyəti ciddi şəkildə əlaqələndirilməlidir.

ƏDƏBİYYAT:

1. “Azərbaycan” qəzeti, l.VI.2005.
2. “Azərbaycan Respublikası Milli Bankı”. Bülleten. 4/2005, səh. 7.
3. “Azərbaycan Respublikasında rəqabətin qorunması və təbii inhisarların tənzimlənməsi”. Bakı, 2000, səh. 38.
4. “Azərbaycan Respublikasının 2005-ci il dövlət büdcəsi sərfi. I”. səh. 62,83.
5. “Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Azərbaycanın xarici ticarəti”, 1995-2000, 2000-2004, səh. 45.
6. “Azərbaycan Respublikasının Milli Bankı”. Bülleten, 4/2005, səh. 3.
7. “Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Azərbaycanın xarici ticarəti”, 2000-2004, səh. 41-42.
8. Yenə həmin mənbədə (hesablamalar rəsmi kurs əsasında aparılmışdır).
9. “Azərbaycan Respublikasının Milli Bankı”. Bülleten, 4/2005, səh.12-13.

Комплексный анализ внутренних и внешних факторов инфляции в Азербайджане

РЕЗЮМЕ

В статье анализируется широкий круг факторов, влияющих на возникновения и развития инфляции в современном Азербайджане. Обший рост цен, обусловленный комплексным воздействием внутренних факторов, и со стороны денежного обращения, и со стороны предложения товаров анализируется как единый процесс. Особое внимание уделяется внешним факторам инфляции, роль которых в условиях интенсивной интеграции с мировым экономическим сообществом неуклонно возрастает.

Integrated analysis of internal and external factors of inflation in Azerbaijan

ABSTRACT

İn the article a wide range of factors that influence the rise and progress of inflation in present - day Azerbaijan. General rise of prices stipulated by the integrated impact of the internal factors is analyzed as the integral process both from the aspect of currency circulation and product supply. The special attention is paid to the internal factors of inflation, the role of which is growing steadily under the conditions of intensive integration into the world economic community.

4.10. Avrasiya məkanının mərkəzi nəqliyyat dəhlizi: Azərbaycan

“İqtisadiyyat”, 27 dekabr - 9 yanvar 2008-ci il.

Yol hələ qədim dövrlərdən bəşəriyyətin diqqət mərkəzindədir. Təsadüfi deyildir ki, fəlsəfi və bədii söz xəzinəsinin nəhəngləri öz hikmətli fikirlərini çox vaxt cəmi üç hərfdən ibarət olan “yol” sözü ilə ifadə etmişlər. Bu həmin anlayışın bəşər tarixində oynadığı rol ilə əlaqədardır, onun ictimai fikirdə əksi, inikasıdır. Qədim Çin filosofu Konfutsi qeyd edirdi: “İnsan Yolu genişləndirməlidir, Yol insanı deyil”. Başqa bir yerdə isə o deyirdi: “Ağıllı insan kasıblıq haqqında deyil, yol haqqında düşünər (1, s. 59, 60). Yol haqqında ayrıca bir əsər yazmış qədim Çin filosofu Lao-Tszin belə bir obrazlı ifadəsi var: “Böyük yol rəvan və düzdür, ancaq insanlar cığırlarla getməyi sevirlər”. Onun fikrinə görə, böyük yolla getmək xeyirxah iş görmək, cığırlarla getmək isə şər iş görmək deməkdir (2, s. 115).

2000-ci ildə Davosda Dünya İqtisadi Forumunun təşkil etdiyi konfransda H.Əliyev demişdir: “Böyük İpək Yolu bəşəriyyətin tarixində, xüsusən, Avrasiya kontinentinin tarixində dərin iz buraxıb və vaxtilə Avropa ilə Asiya arasında yüklərin daşınmasında çox böyük rol oynamışdır” (52, s. 16). Buna baxmayaraq, XVI əsrə qədər dünyanın ayrı-ayrı mədəni regionları nisbi olaraq müstəqil inkişaf edirdi və onlar arasında qarşılıqlı əlaqə zəif idi. Müxtəlif sivilizasiyaların bir-biri haqqında bilikləri tam deyildi, ticarət və mədəni əlaqələr isə daimi xarakter daşımırdı. Böyük coğrafi kəşflər edildikdən sonra isə vəziyyət kəskin sürətdə dəyişdi, Yer kürəsinin sivilizasiyaları arasında daimi və sıx əlaqələr yaradıldı. Əvvəllər sızıntı şəklində özünü göstərən qarşılıqlı fikir, maddi və mədəni axınlar böyük kanallarla həyata keçirilməyə başladı. Şərq və Qərb arasında istər təmaslar, qarşılıqlı təsir və qarşılıqlı tamamlama, istərsə də fərq, ziddiyyət və mübarizə elmi, siyasi və iqtisadi sahələrdə yüksələn xətt üzrə genişlənirdi.

Şərq və Qərbin bir-birini daha yaxından öyrənməsi və bir-birinə daha güclü təsir etməsi prosesi sürətləndirmişdir. Şərqə doğru irəliləmə, Şərqə daha əlverişli yollar axtarışı dünyanın böyük coğrafi kəşflərinə gətirib çıxardı. Bu kəşflər, dəniz yollarının açılması tədricən İpək yolunun əhəmiyyətinin azalmasına və onun ətrafında yerləşən xalqlar və ölkələrin inkişafına mənfi təsir göstərdi.

Buna baxmayaraq böyük coğrafi kəşflər Qərbdə manufakturanın və ümumiyyətlə, istehsalın inkişafına güclü təkan verdi, dünya bazarının yaranması üçün şərait yaratdı. Hələ XV-XVI əsrlərdə regional Avropa ticarəti üstünlük təşkil etdiyi halda, XVII- XVIII əsrlərdə artıq qitələrarası ticarət formalaşmışdı. Dünya bazarının ümumi görünüşü sistemi ticarət əlaqələrinin

yaradılması və beynəlxalq əmək bölgüsü elementlərinin dünyanın bütün tərkib hissələri arasında formalaşması nəticəsində XVII əsrin ortalarında yarandı.

Tarixçilər göstərirlər ki, yol təsərrüfatı sürətlə inkişaf etməsəydi, Avropada, sonralar isə bütün dünyada nə sənayedə, nə də kənd təsərrüfatında böyük inqilabi dəyişikliklər baş verməzdi. Sənaye məhsuldar qüvvələrin yaradılması beynəlxalq əmək bölgüsünün və müvafiq olaraq dünya bazarının formalaşmasını və inkişafını daha da sürətləndirdi. Bütün böyük sivilizasiyaların ictimai-mədəni, elmi-texniki və iqtisadi nailiyyətlərinin bir növ "sintezi" olan dünya bazarının yol şəbəkələrinin genişlənməsi nəticəsində bir sistem kimi formalaşması ilə bəşəriyyətin inkişafı ümumdünya xarakteri aldı.

İstər bəşəriyyətin ümumi təkamülünə, istərsə də Qərb və Şərqin çoxtərəfli münasibətlərinin transformasiyasına ikinci minilliyin sonuncu əsri - XX əsr tarixə misli görünməmiş yeniliklər gətirdi, insan cəmiyyətini keyfiyyətcə yeni inkişaf mərhələsinə çatdırdı və gələcək üçün tamamilə yeni nəhəng perspektivlər açdı.

XX əsr yol təsərrüfatının və ümumiyyətlə, nəqliyyatın inkişafında da inqilabi dəyişikliklər gətirdi. Belə ki, 1830-cu ildə bütün dünyada cəmi 200 km dəmiryolu olduğu halda 140 il sonra onların uzunluğu 1374 min km-ə çatdırıldı. XX əsrin sonunda dəmiryolu ilə daşımaların həcmi XIX əsrin sonlarına nisbətən 8 dəfə, 1870-ci ilə nisbətən isə 22 dəfə artmışdır. Avtomobil yolları ilə yük daşımaları daha böyük sürətlə (XX əsrin sonunda 1910-cu ilə nisbətən 1670 dəfə) artmışdır. Bütün bunlar isə elmi-texniki inqilabla yanaşı insan həyatını köklü sürətdə dəyişdirdi. Bu baxımdan yalnız onu göstərmək kifayətdir ki, 1900-2000-ci illər ərzində dünya əhalisi 4 dəfə artdığı halda, dünya üzrə ÜDM, yəni maddi nemətlər istehsalı 19 dəfə artmışdır. Yol quruculuğu və nəqliyyat sisteminin inkişafında dünyanın inkişaf etmiş dövlətləri özlərinin iqtisadi güclərinə uyğun olaraq aparıcı rol oynayırlar. XX əsrin sonlarında dəmir yollarının təxminən 75% -i Avropa, Amerika və keçmiş Sovet Ittifaqının ərazisinə düşürdü. Avtomobil daşımalarının da böyük əksəriyyəti ABŞ-ın və Avropanın payına düşür və onların dayanıqlı iqtisadi inkişafında mühüm rol oynayır.

Bütün bu proseslər nəticəsində XX əsr dünya xalqlarının dil leksikonuna "infrastruktura" anlayışı da daxil edilmişdir. İnfrastruktura sənaye və kənd təsərrüfatı istehsalına xidmət edən sahələr kompleksinə deyilir. Bura avtomobil və dəmir yollarının, kanalların, su hövzələrinin, limanların, hava, təyyarə meydanlarının, anbarların, energetika təsərrüfatlarının, rabitə, su təchizatı, kanalizasiyaların inşası, ümumi və ixtisas təhsilli, elmə, səhiyyəyə və s. çəkilən xərclər daxildir. Başqa sözlə, maddi istehsalın inkişafında mühüm rol oynayan infrastrukturlar iki hissəyə bölünür: istehsal və sosial infrastruktura. Onların sürətli və tarazlı inkişafı bəşəriyyətin tərəqqisinin əsasını təşkil edir.

Lakin yenidən bədii söz xəzinəsinə müraciət etsək, görərik ki, Süleyman

Rüstəmin təbirincə, "Təbrizin yolları" kimi "Yaralı yollar" da vardır. Bu baxımdan nəzərdən keçirildikcə aydın olur ki, "Kitabi-Dədə Qorquddan" gələn "Dəli Domrul" hekayəsinin böyük ictimai-siyasi mənası vardır. Bu hekayəyə görə, bir quru çayın üzərində körpü quran Dəli Domrul "keçənindən otuz üç aqça alırdı, keçmiyənindən döyə-döyə qırx aqça alırdı". Bunu neçün böylə edirdi? Onun üçün ki, "məndən dəli, məndən güclü ər varmıdır ki, çıxa mənimlə savaşa" - deyirdi; "mənim ərliğim, bahadırlığım, yiğitliyim, Ruma, Şama gedə cavlana" - deyərdi....

Dərindən düşündükdə aydın olur ki, keçmişdə dünyanı əsarət zənciri ilə buxovlamış olan böyük metropoliyaların müstəmləkəçilik siyasətinin əsasında da məhz belə bir düşüncə tərzi kök salmışdır. İşğal altına alınmış xalqların min illərlə axarlı-baxarlı yolları bağlanmış, onların sərvətlərinin daşınması üçün metropoliyalara tərəf gedən yeni yollar çəkilmişdir. Bu yollarla Afrikadan yalnız təbii sərvətlər deyil, insanları da qula çevrilərək Amerika Latfundiyalarına daşınırdılar.

Dağıdıcı müharibələrin və bu müharibələr nəticəsində ölkələrin çoxunun müstəmləkə, yarımmüstəmləkə və asılı vəziyyətə düşməsinin Şərqin geridə qalmasında mühüm rolu vardır. Şərq ölkələrinin əksəriyyətində istehsalın inkişafı dünya bazarlarının tələblərinin ödənilməsi istiqamətində həyata keçirdi. Bununla yanaşı, Şərqin dünya bazarının cazibə qüvvəsinə daxil olması ictimai həyatın ənənəvi əsaslarının dağılmasını sürətləndirirdi. Digər tərəfdən isə Şərq zəngin təbii və mədəni sərvətləri, ucuz işçi qüvvəsi ilə dünya bazarının inkişafına təkan verirdi.

Təbiətin tükənməz sərvətlərini insan cəmiyyətinin sonsuz ehtiyaclarının ödənilməsi üçün daha çox "ram" etmiş XX əsr tarixə "böyük kəşflər", "böyük İnqilablar", "elmi texniki tərəqqi" kimi daxil olmaqla yanaşı, bu əsrdə baş vermiş müharibələr əsrimiz boyu dünya ölkələri üçün fəlakətə çevrilmişdir.

XIX əsrdə Orta Asiya və Qafqaz xalqları Çar Rusiyası tərəfindən əsarət altına alındıqdan sonra onların cənub qonşuları və digər dövlətləri ilə ənənəvi əlaqələri kəsildi. Bəşəriyyətə İbn Sina, Nəsrəddin Tusi və minlərlə dühalar bəxş etmiş bu ölkələr "Rusiyanın ucqarı" damğası ilə damğalandılar. Ənənəvi müstəmləkəçilik siyasətini davam etdirən Sovet İmperiyasında da bu ölkələri dünya ilə birləşdirən məhdud yollar yalnız Rusiya ərazisindən keçirdi. Bu yalnız görünən yollara aid deyildir, həmçinin görünməyən mədəni-mənəvi yollara da aid idi. Orta Asiya xalqları və Azərbaycan dünya mədəniyyətinə yalnız rus mədəniyyəti vasitəsilə qoşulurdu. Dünya klassikləri əsasən rus dilindən tərcümə olunurdu. Obrazlı ifadə ilə desək, bu xalqların kainata baxmaq üçün yalnız bir pəncərəsi açıq idi: Rusiyanın yol verdiyi pəncərə...

Qərbin maddi və mədəni dəyərlərindən geniş istifadə etməyə çalışan həmin ölkələrin zəngin təbii ehtiyatları Qərbin ehtiyaclarının təmin edilməsi üçün mənimsənilməyə başlamış və dünya siyasətinin aparıcı istiqamətlərindən

birinə çevrilmişdir. “Böyük İpək Yolu” probleminin yenidən aktuallaşması da Şərq və Qərb arasında enerji daşıyıcılarının Qərbə asan ötürülməsi üzərində gedən ciddi işlə, yeni kommunikasiya xətlərinin açılması ilə əlaqədardır.

Qərbin maddi və mənəvi dəyərlərindən geniş istifadə etməyə çalışan həmin ölkələrin zəngin təbii ehtiyatları Qərbin ehtiyaclarının təmini üçün mənimsənilməyə başlamış və dünya siyasətinin aparıcı istiqamətlərindən birinə çevrilmişdir. “Böyük İpək Yolu” probleminin yenidən aktuallaşması da Şərq və Qərb arasında enerji daşıyıcılarının Qərbə asan ötürülməsi üzərində gedən ciddi işlə, yeni kommunikasiya xəttlərinin açılması ilə əlaqədardır.

“Böyük İpək Yolu” layihəsi əhalisinin ümumi sayı 67 mln. nəfər (1991-ci il) təşkil edən və bu layihənin əsas hədəfini təşkil edən Orta Asiya və Qafqazın müstəqil ölkələrinin ümumdünya təsərrüfat dövriyyəsinə fəal cəlb olunması, onların 70 illik sovet dövründə yığılıb qalmış sosial-iqtisadi problemlərinin həll edilməsi və nəhayət, bu dövlətlərin siyasi və iqtisadi müstəqilliklərinin möhkəmləndirilməsi üçün daha geniş perspektivlər açır. Məlum olduğu kimi, sovet iqtisadi sistemini səciyyələndirən bir çox xəstəliklər (məsrəf iqtisadiyyatı, onun qapalı xarakteri, ölkənin inkişaf etmiş dövlətlər üçün yanacaq-xammal bazasına çevrilməsi, əhalinin ən ümdə ehtiyaclarını belə təmin etmək iqtidarında olmayan zəif kənd təsərrüfatı, dünya bazarlarında rəqabət aparan məhsul istehsal etməyə qadir olmayan sənaye) bu respublikalarda özünü daha kəskin şəkildə göstərirdi.

Böyük İpək yolu layihəsi, ilk növbədə, Qərblə Şərq arasında etibarlı nəqliyyat dəhlizinin formalaşmasına yönəldilmiş olsa da, region ölkələrinin inkişafında, dünya birliyi ilə əlaqələrinin genişlənməsində keyfiyyətcə tamamilə yeni proseslərin başlanğıcını qoymuşdur.

Böyük ipək yolu layihəsi öz orbitinə yeni-yeni ölkələri cəlb edir. Bu yolun nəhəng iqtisadi derjavası olan Çin və Yaponiyaya qədər uzadılması dünyanın daha sürətli inkişafına öz əhəmiyyətli təsirini göstərəcəkdir.

Azərbaycanın strateji coğrafi mövqeyi Yeni İpək yolunun inkişafı prosesində ölkəmizin onun siyasi mərkəzinə, Bakının isə onun əsas nəqliyyat qovşağına çevrilməsi üçün geniş imkanlar yaradır. Belə ki, Avrasiya məkanının Şərq-Qərb və Şimal-Cənub yollarında yerləşən Bakının Asiya-Avropa vahid nəqliyyat sisteminin nəhəng nəqliyyat qovşağına çevrilməsi nəzərdə tutulur. TRACECA proqramının həyata keçirilməsi Bakı qovşağının nəqliyyat kommunikasiyalarının yeniləşməsinə də ciddi təkan verir. Xəzərin Şərq və Qərb sahilləri arasında Azərbaycana məxsus xüsusi donanma Bərə keçidi artıq fəaliyyət göstərir. Bu mövqeyi saxlamaq məqsədi ilə dövlətin ərazisində böyük nəqliyyat mərkəzinin fəaliyyətinin təşkil edilməsi üzrə kompleks proqramın yaradılması və reallaşdırılması üzrə işlərə başlamışdır. Bakı Magistral layihənin həyata keçirilməsi üzrə yalnız müzakirələr aparılan yer deyil, həmçinin nəqliyyat arteriyasının qlobal mərkəzinə və Şərq ilə Qərb

arasında mühüm əlaqələndirici körpüyə çevrilir. Bütün bunlar bizim dövlətin üzərinə böyük öhdəliklər qoyur, regionda Azərbaycanın siyasi və iqtisadi təsirini gücləndirir. Onu lider dövlətə çevirir.

Tamamilə aydındır ki, Böyük İpək yolu ilə yük dövriyyəsi son illər Asiya ölkələrində istehsalın, ixracın və idxalın artmasına müvafiq olaraq daha da böyüyəcək. Bu ölkələrin gələcək inkişafı Avropanın inkişaf etmiş sənaye ölkələri ilə əlaqələr yaratmağı və inkişaf etdirməyi zəruri edir. Bu magistral üzrə Asiya ölkələrinin məhsulları Avropaya yönələcəkdir. Misal üçün, hazırda Yaponiya ixracının 60%-i Avropaya göndərir. Eyni zamanda, Çin və Cənubi Koreyada da Avropaya öz ixracını artırmağa çalışır.

Qərbi Sibir Dəmiryolu və yeni İpək yolu arasındakı rəqabət nəqliyyat xərclərinin və tariflərin azalmasına, daşımaların keyfiyyəti və təhlükəsizliyinin artmasına səbəb olur. BİY Layihəsinin həyata keçirilməsi istifadəçilər üçün hazırkı işləyən marşrut ilə müqayisədə böyük üstünlüklər verir.

Layihənin iqtisadi məqsədəuyğunluğu şübhəsizdir, çünki o, yolu 2000 m azaldır və bu təbii ki, dövriyyə vəsaitlərinin çatdırılma zamanını azaldır və dövr etməsini artırır. AB ekspertlərinin rəyinə görə, BİY-in həyata keçirilməsi yükün 2 dəfə tez və 30% ucuz çatdırılmasını təmin edəcək. Misal üçün, bir ton Özbək pambığının Qazaxıstandan və Rusiyadan keçərək Ukrayna limanlarına qədər daşınması 100 dollardan baha başa gəlir. Lakin TRACECA dəhlizi üzrə Azərbaycandan aparılması isə cəmi 55 dollara, yəni 2 dəfə ucuz başa gəlir.

Qərb-Şərq Avropa-Asiya oxu üzrə nəqliyyat dəhlizi perspektivdə nəinki dayanıqlı olaraq artan gəlir təmin edir və yeni iş yerləri açır, həmçinin ticarət şərtlərinin yaxşılaşması üçün şərait yaradır. Bütün bunlar ölkənin inkişafı üçün böyük təkan verəcəkdir. Yolun Avropa nəqliyyat şəbəkəsinə inteqrasiyası elmi və mədəni əlaqələrin, turizmin inkişafı və az zaman və vəsait xərcləri ilə dövlətlərarası yük və sərnişin daşınmalarının artırılmasına zəmin təşkil edir.

BİY-yü trasıüzrə - ümumi uzunluğu 27 min km. Olan TAE (Trans-Asiya-Avropa) optik kabel şəbəkələri keçəcəkdir. Perspektivdə avtomobil, aviasiya, telekommunikasiya nəqliyyat koridorları Avropanın vahid bazar məkanına daxil olacaq. Avropa-Qafqaz-Asiya nəqliyyat koridorunun yaradılmasını Suveyş və Panama kanalları kimi dünya səviyyəli layihələri ilə müqayisə etmək olar.

4.11. Azərbaycan Respublikasının tədiyyə balansının aktual problemləri

"Humanitar elmlərin öyrənilməsinin aktual problemləri", Bakı Slavyan Universiteti, Ali məktəblərarası elmi məqalələr məcmuəsi, Bakı, 2007, № 1, s.272-275

Ölkənin beynəlxalq iqtisadi əlaqələrinin dünya bazarlarına inteqrasiyasının vəziyyətini və dinamikasını əks etdirən sənədlər arasında tədiyyə balansı xüsusi yer tutur. Belə ki, tədiyyə balansı mal idxalı və ixracı ilə yanaşı, beynəlxalq xarakterli xidmətlərin, pul köçürmələrinin, investisiyaların, kreditlərin və digər əməliyyatların hərtərəfli araşdırılmasında, ölkənin valyuta gəlirlərinin və xərclərinin uçotunun aparılmasında mühüm rol oynayır. Qeyd olunan sahələr üzrə valyuta daxilolmalarını və ödənişlərini göstərməklə tədiyyə balansı iki bölmədən - cari əməliyyatlar balansından və kapitalın və maliyyənin hərəkəti balansından ibarətdir.

Bazar iqtisadiyyatını özünün iqtisadi inkişaf yolu kimi seçən Azərbaycan Respublikasında tədiyyə balansının tərtibatına 1995-ci ildən başlanmışdr. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 8 fevral 1995-ci il tarixli 25 nömrəli qərarı ilə ölkədə hesabat tədiyyə balanslarının hazırlanması Milli Banka həvalə olunmuşdur. Bu məqsədlə yaradılmış xüsusi departament Dövlət Statistika Komitəsinin, Dövlət Gömrük Komitəsinin, Maliyyə Nazirliyinin, digər müvafiq dövlət orqanlarının və bank statistikasının məlumatları əsasında rüblük, yarımillik və illik tədiyyə balanslarının tərtibi ilə məşğuldur. Artıq 1995-1998-ci illər üzrə hesabat tədiyyə balansları işlənib hazırlanmışdır.Bu balanslar Azərbaycan Respublikasının iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiyasını, onun inkişaf səviyyəsini və xarici iqtisadi əlaqələrin iqtisadiyyatda rolunu nümayiş etdirir. Belə ki, həmin illər üzrə tədiyyə balansları Azərbaycan Respublikasının təxminən 5 min hüquqi və 600 mindən çox fiziki şəxslərinin il ərzində 80-dən artıq dövlətin çoxsaylı rezidentləri ilə apardıqları iqtisadi əlaqələri özündə əks etdirirdi (103, s. 297).

Azərbaycan Respublikasının tədiyyə balansının təhlili göstərir ki, ölkə iqtisadiyyatı 70 il ərzində Sovet imperiyasının yeritdiyi siyasətin dərin izlərini özündə uzun müddət əks etdirməkdə davam etmişdir. Əlavə №15-in məlumatları göstərir ki, tədiyyə balansının əsas tərkib hissəsi olan cari əməliyyatlar hesabının kəsirlə yekunlaşmasının əsas səbəbi (1996-1999-cu illərdə) Azərbaycan Respublikası üçün xarakterik ticarət və xidmətlər balansında iri həcmdə mənfi saldonun mövcudluğu olmuşdur. Cari əməliyyatlar balansının kəsiri 1998-ci ildəən yüksək həddə - 1364,5 mln. ABŞ dollara çatdıqdan sonra 2000/2001-ci illərdə azalmış və 2001-ci ildə 51,8 mln. dollar təşkil etmişdir. Bunun əsas səbəbi beynəlxalq neft müqavilələrinin - neft hasilatı və onun nəqli mərhələsinə daxil olmasıdır. Cari əməliyyatlar hesabının ən mühüm

tərkib hissəsi ticarət balansıdır.

1994-cü ildən başlayaraq ticarət balansı kəsirlə başa çatmışdır (Bax: əlavə 15). Bu meyl 1999-cu ilədək davam etmiş, yalnız 2000-ci ildən ölkənin xarici ticarətində müsbət dəyişikliklər baş vermiş və balans müsbət saldo ilə yekunlaşmışdır. 2000-ci ildə ixracın payı artaraq 60%, idxalın payı isə 40% olmuş, ticarət balansı müsbət saldo verərək 53 mln. ABŞ dolları təşkil etmişdir.2004-cü ildə bu göstəricilər müvafiq olaraq 51%, 49% təşkil etmişdir və müsbət saldo isə 160 mln. ABŞ dolları olmuşdur.İxracın həcminin idxala nisbətən artması ixracın strukturunda neft və neft məhsullarının xüsusi çəkisinin artması ilə əlaqədar olmuşdur.

Həmin dövrdə xarici ticarət balansı kəsirinin coğrafi strukturunun təhlili göstərir ki, bu kəsirin başlıca mənbəyi MDB ölkələri ilə olan ticarətdir. 2001-2006-cı illərdə Avropa Birliyi ölkələri ilə xarici ticarət müsbət saldo verdiyi halda MDB ölkələri ilə ticarətin kəsiri artmaqda davam edir. Son illərdə tədiyyə balansı üzrə maliyyə axınları ölkənin ödəmə qabiliyyətinin daha da yaxşılaşdığını, investisiya potensialının reallaşması prosesinin sürətləndiyini və xarici tərəfdaşların ölkəmizə etimadının artdığını göstərir.

Cari əməliyyatlar hesabının saldosu bir sıra müsbət faktorlar, xüsusən, neft strategiyasının reallaşması nəticəsində 2004-cü ildə 2,6 mlrd. dollar kəsirlə yekunlaşmışdır. Belə ki, ölkəyə daxil olmuş xarici kapitalın artması hesabına investisiya xarakterli malların və xidmətlərin idxalı çoxalmışdır.

Cədvəl № 1

AR-nın dünya ölkələri ilə xarici ticarət balansı (1992-2006)* (mln. ABŞ $)

İllər	Cəmi	O cümlədən	
		Uzaq xarici ölkələrlə	MDB ölkələri ilə
1992	544	421	123
1993	175	110	65
1994	-141	71	-212
1995	-31	-87	57
1996	-330	-280	-50
1997	-12	-40	28
1998	-471	-298	-173
1999	-106	8	-114
2000	573	714	-141
2001	883	1105	-222
2005	8558	680	-544
2006	11639	2272. 9	-1168
2007	349735	-51779. 3	-23403. 4

**Cədvəl DSK-nın hər il buraxılan illik idxal-ixrac göstəriciləri əsasında tərtib edilmişdir.*

Tədiyyə balansının strukturu təhlil edildikdə məlum olur ki, xidmətlər balansı, əsasən, aşağıdakı xidmətləri özündə birləşdirir: nəqliyyat xidmətləri, turizm xidmətləri, rabitə xidmətləri, tikinti xidmətləri və s. Xidmətlər balansında daxilolmalar (kredit) bölməsi Azərbaycan Respublikası tərəfindən digər ölkələrə göstərilən xidmətlərə görə alınan vəsaiti, onun ödənişlər (debet) bölməsi isə Azərbaycan Respublikasının vətəndaşlarına və hüquqi şəxslərinə xarici rezidentlər tərəfindən göstərilən xidmətlərin dəyərini əks etdirir.

Xarici ölkələr tərəfindən Azərbaycana göstərilən xidmətlər içərisində turizm, tikinti və nəqliyyat xidmətləri müəyyən yer tutur. Tədiyyə balansında öz əksini tapan qarşılıqlı xidmətlər dövriyyəsində nəqliyyat əməliyyatlarının payı 2000-ci ildə 35,4% təşkil etmişdir. Nəqliyyat xidmətlərinin ümumi məbləğinin 54,7%-i Azərbaycan rezidentləri tərəfindən xarici firmaların nəqliyyat vasitələrindən istifadə ilə əlaqədardır. Halbuki, başqa dövlətlərə Azərbaycan tərəfindən göstərilən nəqliyyat xidmətləri isə ondan iki dəfə azdır. Bunun isə böyük bir hissəsi TRACEKA proqramı çərçivəsində Respublika ərazisindən Orta Asiyadan Avropaya keçib gedən tranzit yük daşımaları ilə əlaqədardır.

Xidmətlər balansının passiv xarakter daşımasının və idxal olunmuş xidmətlərin artmasının əsas səbəblərindən biri son illər beynəlxalq neft kontraktları ilə bağlı işlərin həcminin çoxalmasıdır.

Balansın kəsirləri 2000-ci ildə 224,7 mln. dollardan 2004-cü ildə 2238 mln. dollara çatmışdır. Araşdırmalar göstərir ki, bu neft sektorunda xarici xidmətlərin və xarici investisiyalar üzrə transfert ödəmələrin sürətlə artması nəticəsində baş verir. Belə ki, 2002-ci ildə xidmətlər balansının 875,0 mln. dollarlıq kəsirinin 800 mln. dolları neft sektoru ilə əlaqədar olmuşdur.

Xidmətlər balansının tədiyyə balansına göstərdiyi davamlı və ciddi təzyiq ölkədə infrastrukturun zəif inkişafı nəticəsində xarici firmaların xidmət sahəsində geniş fəaliyyətinə yol açmışdır. Ölkəmizdə son 5 ildə infrastruktur obyektlərinin sürətli inkişafını təmin edən strateji xətt bu boşluğun aradan qaldırılmasına yönəldilmişdir.

Bütün bunlar isə xidmətlər sektorunda infrastrukturun inkişafına daha ciddi diqqət verilməsini tələb edir.

Cari transfertlər əsasən humanitar, texniki və digər təmənnasız yardımlardan, pul baratlarından və beynəlxalq təşkilatlara üzvlük haqlarından ibarətdir. Cari əməliyyatlar hesabının digər bölmələrindən fərqli olaraq cari transfertlər üzrə saldo müsbətdir, yəni bu sahə üzrə daxilolmalar ödənişləri üstələyir.

Azərbaycanın tədiyyə balansının mühüm fərqləndirici xüsusiyyəti onun mühüm tərkib hissəsi kimi kapitalın və maliyyənin hərəkəti hesabının rolunun sürətlə artması və balansın aparıcı elementinə çevrilməsidir.Bu hesab öz həcminə görə cari əməliyyatlar hesabını ötüb keçmişdir.

Tədiyyə balansının kapitalın və maliyyənin hərəkəti bölməsində bir tərəfdən Azərbaycana xarici investisiyaların və maliyyə vəsaitinin daxil

olmasını, digər tərəfdən isə Azərbaycandan xarici ölkələrə vəsaitin axmasını və ya xarici bankların depozitlərində maliyyə ehtiyatlarının saxlanılmasını əks etdirir. Bu bölmədə kapitalın hərəkəti 1996-2000-ci illərdə neft bonusu ilə bağlı daxilolmalardan ibarət idi. Maliyyənin hərəkəti bölməsi iqtisadiyyatın ayrı-ayrı sahələrinə birbaşa investisiyanı, ölkədə makroiqtisadi sabitliyi təmin etmək üçün müxtəlif beynəlxalq maliyyə qurumlarından, o cümlədən Beynəlxalq Valyuta Fondundan və Beynəlxalq Yenidənqurma və İnkişaf Bankından alınan kreditləri əhatə edir.Bu bölmə son illərdə sürətlə artır.

1996-2006-ci illərdə kapitalın və maliyyənin beynəlxalq hərəkəti hesabı üzrə yaranmış müsbət saldo 5,7 mlrd. dollar məbləğinə çatmışdır ki, bu da balansın cari əməliyyatlar hesabının kəsirinin azalmasına səbəb olmuşdur. Bu məbləğ yalnız 2006-cü ildə 3023 mln. ABŞ dollarına çatmışdır. Kapitalın və maliyyənin hərəkəti hesabı üzrə daxilolma və ödənişlər başlıca olaraq neft sektoru ilə əlaqədardır. Belə ki, 2003-cü ildə həmin hesaba daxilolmaların 83,9%-i, ödənişlərin 66, 6%-i, müsət saldonun isə 95,9%-i neft sektoru ilə əlaqədar olmuşdur.

Kapital və maliyyənin hərəkəti hesabının digər mühüm maddəsini Azərbaycan iqtisadiyyatına birbaşa xarici investisiyalar təşkil edir.Bu maddə üzrə müsbət saldo 1996-2007-cü illərdə davamlı olaraq artmışdır.

Kapital hesabında baş verən əsas dəyişiklik 1998-ci ildən neft sektorunda xarici investisiyaların həcminin azalmasından irəli gəlir. 1999-cu ilin 4-cü rübündən etibarən isə xarici birbaşa investisiyalar mənfi saldoya malik olmuşdur ki, bu da neft sektorunda xarici şirkətlər tərəfindən mənfəətdən olan gəlir paylarının ölkədən çıxarmasını əks etdirir.

Xarici investisiyalar üzrə müsbət saldo sonra yenidən artmışdır. Onun məbləği 2001-ci ildə 220, 0 mln. dollardan 2004-cü ildə 4697 mln. dollara yüksəlmişdir. Birbaşa investisiyalar da yuxarıda göstərildiyi kimi, əsas etibarilə neft sektoru ilə əlaqədardır. Azərbaycanda kapital bazarının zəif inkişafı ilə əlaqədar olaraq iqtisadiyyata qoyulan portfel investisiyaları yox dərəcəsindədir.

Neft ixracından valyuta daxilolmaları və xarici investisiyaların artması cari məliyyatlar hesabının ödənilməsini və xarici valyuta ehtiyatlarının yaradılmasını təmin etmişdir (3).

Ədəbiyyat:

1.Vəliyev D.Ə., Balakişiyeva və başqaları.Vergi hüququ, Bakı, 2003

2. “Azərbaycan Respublikasının statistik göstəriciləri”, 2005

3. Vəliyev D.Ə. Qloballaşma şəraitində Azərbaycanın dünya maliyyə bazarlarına inteqrasiyası: təmayüllər, problemlər, perspektivlər. Bakı, 2006

4.12. Birbaşa xaici investisiyalar Azərbaycanda beynəlxalq kapital hərəkətinin əsas forması kimi

Azərbaycan Milli Elmlər Akademiyasının xəbərləri. Humanitar və siyasi elmlər seriyası(İqtisadiyyat), 2005, N 2

Bazar münasibətlərinin inkişafına və iqtisadi tərəqqiyə təkan verən mühüm amillərdən biri Azərbaycanın qısa müddət ərzində beynəlxalq kapital hərəkətində fəal iştirak etməyə başlamasıdır. Kapitalın beynəlxalq miqrasiyası dövrümüzün xarakterik xüsusiyyətini təşkil etməklə, təsərrüfat həyatının beynəlmiləlləşməsinin dərinləşməsində və istehsalın səmərəliliyinin yüksəldilməsində mühüm ünsür olmasına baxmayaraq, ölkəmiz inzibati-amirlik sistemi dövründə bu prosesdən tamamilə kənarda qalmışdır.

Məlum olduğu kimi, müasir mərhələdə qlobal təsərrüfata qoşulmanın səmərəliliyi əhəmiyyətli dərəcədə ölkənin beynəlxalq rəqabət qabiliyyətinə nə dərəcədə malik olmasından asılıdır. Amerika iqtisadçısı M.Porterin təklif etdiyi sxemdən istifadə etsək, aydın olar ki, uzun müddət Azərbaycan iqtisadiyyatının beynəlxalq rəqabət gücü, əsas etibarilə, istehsal amillərindən istifadəyə əsaslanmışdır.

Azərbaycan ixracatının 9/10-nun uzun müddət yanacaq-energetika kompleksi məhsullarından ibarət olması o deməkdir ki, ölkəmizin dünya bazarında tutduğu birtərəfli mövqe yerli istehsalçıların təbii ehtiyatlarının verdiyi üstünlüklərdən istifadə etməsindən irəli gəlir. Dünya dövlətlərinin təcrübəsi isə göstərir ki, belə bir üstünlük daimi deyildir. Dünya bazarlarında ölkənin zəmanətli üstünlüyünü isə investisiya və innovasiyalar əsasında təmin etmək mümkündür. Bu yol inkişaf etmiş sənaye ölkələrinin lider vəziyyətinə gəlməsində, postsənaye cəmiyyətinin yaranmasında əsas rol oynamışdır. İnvestisiya yolu ilə rəqabət gücünün inkişaf etdirilməsi milli firmaları müasir texnika və texnologiya, lisenziyaların əldə edilməsi və müştərək müəssisələrin yaradılması üçün investisiya qoyuluşlarına vadar edir. Firma və müəssisələr texnika və texnologiyanı idxal etməklə onların yerli şəraitə uyğunlaşdırılmasına çalışmalıdırlar. Lakin inkişaf etmiş ölkələrdə bu proses artıq arxada qalmış bir mərhələdir. Həyat bütün kəskinliyi ilə yeni texnikanın yalnız idxalını deyil, öz qüvvəsi ilə yaradılmasını da tələb edir.

Təbiidir ki, müstəqillik əldə edildikdən sonrakı ilk illərdə ağır texniki-iqtisadi və maliyyə vəziyyətində olan Azərbaycan müəssisələri yüksək kapitaltutumlu həmin məsələlərin həllini öz qarşısına qoymaq üçün kifayət qədər potensiala malik deyildilər. Lakin investisiya və innovasiyalar hesabına rəqabət üstünlüyünə keçmək üçün onların belə bir şəraitdə xarici tərəfdaşların fəaliyyətinin bu və ya digər ünsürlərindən faydalanmaları olduqca vacibdir. Neft gəlirləri ilə yanaşı bu ünsürlərdən ən mühümü xarici investisiyaların cəlb

olunmasıdır.

Hər şeydən əvvəl Azərbaycanın geopolitik mövqeyi, onun Avropa və Asiya qovşağında beynəlxalq biznesə qoşulmaq baxımından cəlbedicidir. Avropa-Asiya tranzit nəqliyyat yollarının Azərbaycan ərazisindən keçməsi, Xəzər dənizinə yaxınlıq, ölkədə və regionda səmərəli və perspektivli bazarların olması istər istehsal olunan, istərsə dəölkəyə gətirilən əmtəələrin satış imkanlarını genişləndirir. TRACECA proqramı çərçivəsində qədim İpək Yolunun bərpası istiqamətində işlərin sürətlənməsi nəhəng xarici investorların, kredit təşkilatlarının ölkəyə marağını artırır.

Məlum olduğu kimi, Azərbaycan zəngin təbii xammal ehtiyatlarına malikdir. Təsadüfi deyil ki, son illərdə karbohidrogen yataqlarının kəşfiyyatı, işlənilməsi və istismarı üzrə 15 ölkənin 33 şirkətinin iştirakı ilə 23 beynəlxalq müqavilə imzalanmışdır. Bu müqavilələr üzrə 1997-2007-ci illər ərzində neft sektoruna 24413. 1 milyon ABŞ dolları investisiya qoyulub və bütövlükdə 60 milyard dolların qoyulması nəzərdə tutulur. Lakin neft Azərbaycanın malik olduğu yeganə təbii ehtiyat deyildir. Ölkəmiz digər mineral resurslarla da zəngindir. Kifayət qədər inkişaf etmiş sənaye potensialına, ucuz və keyfiyyətli əmək ehtiyatlarına malikdir.

Xarici investisiyaların cəlb edilməsi yolu ilə beynəlxalq rəqabət qabiliyyətinin yüksəldilməsi, xüsusən, Azərbaycan kimi keçid iqtisadiyyatı ölkələrində müstəqillik əldə edildikdən sonrakı ilk illərdə onsuz da ağır maliyyə vəziyyətində olan təsərrüfat subyektləri tərəfindən müstəqil olaraq həll edilə bilməzdi. Bu prosesin həyata keçməsi və sürətlənməsinə dövlətin ciddi müdaxiləsi neft gəlirlərinin, ilk növbədə, bu məqsədə yönəldilməsi və təşkilatçılıq tədbirlərini əhatə edən məqsədyönlü hökumət siyasəti tələb olunur.

Keçid iqtisadiyyatı ölkələrində dövlət orqanları qarşısında bu sahədə duran başlıca vəzifə milli və xarici investorlar qarşısında milli maraqlara uyğun əlverişli investisiya mühitinin yaradılmasından və bu yolla elmi-texniki potensialın dəstəklənməsi və inkişafına yardım edilməsindən ibarətdir.

Məlumdur ki, beynəlxalq əmək bölgüsünün üstünlüklərindən maksimum istifadə edilmədən, xarici iqtisadi əlaqələrin bütün formaları intensiv şəkildə genişləndirilmədən ölkə iqtisadiyyatının inkişafında qlobal dönüş mümkün deyildir. Xarici kapital, texnika, texnologiya və digər istehsal amillərinin Respublikaya gətirilməsi bu məsələdə müstəsna əhəmiyyət kəsb edir.

Respublika istiqlaliyyət əldə etdikdən dərhal sonra müstəqil sürətdə xarici kapital cəlb olunması üçün geniş tədbirlər həyata keçirməyə başlamışdır. 15 yanvar 1992-ci ildə qəbul edilmiş "Xarici investisiyanın qorunması" haqqında Azərbaycan Respublikasının Qanunu ilə Respublika ərazisində xarici investisiya qoyuluşunun hüququ və iqtisadi prinsipləri müəyyən edilmişdir. Qanun iqtisadiyyatda xarici maddi və maliyyə ehtiyatlarının, qabaqcıl xarici texnikanın və texnologiyanın idarəetmə təcrübəsinin cəlb olunmasına,

bunlardan səmərəli istifadə olunmasına yönəldilmişdir və xarici investisiyaların hüquqlarının müdafiəsinə təminat verir.

Azərbaycan Respublikası ərazisində xarici investisiya hüquqi cəhətdən tam və qeyd-şərtsiz müdafiə olunur. Belə müdafiə müvafiq qanunvericilik aktları ilə təmin olunur. Eyni zamanda, xarici investisiya Respublikada qanunericiliyin dəyişdirilməsi ilə bağlı hallarda da bəzi təminatlar alır. Belə ki, sonrakı qanunvericiliklər investisiya qoyuluşu şəraitini pisləşdirərsə, on il ərzində xarici investora investisiyanın qoyulduğu zaman qüvvədə olmuş qanunvericilik tətbiq edilir. Qanunda milliləşdirmə və regvizisiya ilə bağlı təminatlar da müəyyən edilir. Qərara alınmışdır ki, xarici investisiya xalqa və dövlət mənafeyinə zərər vuran hallar istisna olmaqla, rekvizisiya edilmir. Milliləşdirmə və rekvizisiya tədbirləri görüldükdə xarici investora dərhal müqabil və səmərəli kompensasiya ödənilir. Kompensasiya xarici valyuta ilə ödənilir və investorun arzusu ilə xaricə köçürülə bilər.

Qanunla xarici investisiyalar, həm müştərək müəssisələrin, həm də 100% xarici kapitala malik müəssisələrin yaradılması üçün cəlb edilə bilər. Xarici fiziki və hüquqi şəxslər Azərbaycan Respublikasının ərazisində mövcud olan bütün müəssisələrin səhm və digər qiymətli kağızlarını satın ala bilər, dövlət və bələdiyyə müəssisələrinin özəlləşdirilməsində iştirak edə bilər, xarici bankların təsisçisi ola bilər. Belə bankların fəaliyyətinin lisenziyalaşdırılması qaydası müəyyən edilmişdir. Onlar birləşib assosiasiyalar, konsernlər, konsorsiumlar və başqa birliklər yarada bilərlər.

Xarici kapitalın iştirakı ilə yaradılmış müştərək müəssisələrə öz fəaliyyətini həyata keçirmək üçün "Azərbaycan Respublikasının Torpaq məcəlləsi"(12 fevral 1992-ci il) əsasında torpaq daimi istifadəyə verilə bilər. Xarici investorlar təbii ehtiyatlardan istifadə etmək hüququnu konsessiya əsasında əldə edə bilərlər.

"Xarici İnvestisiyanın Qorunması" haqqında Qanunla (15) müvafiq vergi və rüsumlar ödənildikdən sonra xarici investorların investisiya ilə əlaqədar qanuni əsaslarla xarici valyuta şəkilində əldə etdikləri gəlir və başqa məbləğləri, o cümlədən kompensasiya və zərərin ödənilməsi məbləğlərinin xaricə köçürülməsinə təminat verilir. Azərbaycan Respublikası ərazisində xarici investorların götürdükləri mənfəət həmin pul vahidi şəklində yenidən investisiya kimi qoya bilər (reinvestisiya), Azərbaycan Respublikasının banklarında saxlana bilər, Milli Bankın müəyyən etdiyi qaydada xarici valyuta almaq üçün sərf edilə bilər.

Xarici investisiyalı müəssisə istehsal etdiyi məhsula (işlərə, xidmətlərə) qiymət qoymaq, ölkənin daxili bazarında onun satışı şərtlərini müəyyən etmək, bu bazardan məhsul (işlərə, xidmətlərə) göndərənləri seçmək ixtiyarına malikdir. Tamamilə xarici investora məxsus müəssisələr və nizamnamə fondunun 30 faizindən çoxu xarici investisiyadan ibarət olan müəssisələr öz

istehsal etdikləri məhsulu (işləri, xidmətləri) lisenziyasız ixrac edə bilərlər.

Birgə müəssisənin nizamnamə fonduna xarici investorun əmanəti kimi və ya tamamilə xarici investora məxsus müəssisənin yaradılması üçün Respublikaya gətirilən əmlak gömrük rüsumundan azad edilir. Xarici investisiyalı müəssisəni əcnəbi işçilərinin öz ehtiyacları üçün gətirdikləri əmlak gömrük rüsumundan azad edilir.

Beləliklə, xarici investisiyalar haqqında qanunvericilik bazasının təhlili göstərir ki, ölkədə müstəqillik əldə edildikdən sonra geniş normativ baza yaradılmışdır. İnvestisiya fəaliyyəti aşağıdakı mühüm zəmanətlər verilməsi yolu ilə təşviq edilir:

- əmlakın milliləşdirilməsi və müsadirəsi əleyhinə zəmanətlər;
- qanunvericilikdə dəyişikliyə qarşı zəmanət;
- ölkəyə əmtəələrin rüsumsuz idxalı üzrə zəmanət;
- əsassız yoxlamalara qarşı zəmanət;
- əldə edilmiş mənfəətin xaricə azad çıxarılması haqqında zəmanət;
- investorun şəxsiyyətinin və onun əmlakının təhlükəsizliyinə zəmanət;
- ikiqat vergitutmaya yol verilməyəcəyi haqqında zəmanət.

Qanunun 5-ci maddəsi ilə müəyyən edilmişdir ki, investisiya qoyuluşu sahəsində xarici investorların fəaliyyətinin hüququ rejimi Azərbaycan Respublikasının hüquqi şəxslərinin və vətəndaşlarının əmlakı, əmlak hüquqları, habelə investisiya fəaliyyəti üçün yaradılmış rejimdən az əlverişli ola bilməz

Lakin bunlarla yanaşı göstərmək lazımdır ki, 1992-ci ildə qəbul edilmiş investisiya haqqında qanunda "xarici investisiya" anlayışı kifayət qədər dəqiq verilməmiş, xarici investorların fəaliyyəti kifayət qədər reqlamentləşdirilməmişdir. Qanunla əsas prinsiplər bəyan edilmiş lakin onun həyata keçirilməsi mexanizmləri yaradılmamışdır.

Daxili və xarici ekpertlərin rəyinə görə investisiya qanunvericiliyi müasir dövrün tələblərinə heç də tam cavab vermir. Qanunlara çoxsaylı əlavə və dəyişikliklər bunun bir əlamətidir. 2002-ci ilin may ayında Azərbaycan Respublikası Prezidenti yanında xarici sahibkarlar ilə keçirilmiş müşavirədə bu məsələ mühüm müzakirə obyektindən biri olmuşdur.

Həmin müşavirədə dövlət başçısı qeyd etmişdir: "Sərmayələrin sahələr və regionlar üzrə qeyri-bərabər inkişafı həm qanunvericilik sahəsində mövcud olan boşluqlar, həm də idarəetmədə yaranan bəzi çatışmazlıqlarla bağlıdır". Zənnimizcə, xarici investisiyaların tənzimlənməsi haqqında Qanunvericilik bazasının çatışmazlıqları aşağıdakılardan ibarətdir:

1. Həmin qanunvericiliyin bir çox müddəaları deklarativ xarakter daşıyır. Qanunun II bölməsində xarici investisiyalar üçün dövlət təminatını buna misal göstərmək olar. Buradakı müddəaların bir çoxu deklarativdir və dövlət orqanları tərəfindən xarici investorların hüquqları pozulduqda onun nəticələrini müəyyən edən hüquqi normalar dəqiqləşdirilməmişdir.

2. Qanunda xarici hüquqi şəxslərin filial və nümayəndəliklərinin yaradılması və fəaliyyəti, qiymətli kağızlar alınması, konsessiya xarakterli müqavilələrin bağlanması və s. ilə əlaqədar məsələlərə toxunulmuşdur. Lakin işin normal gedişi üçün sahibkarlıq fəaliyyətinin həmin formaları qanunlarda dəqiq reqlamentləşdirilməlidir. Xarici investisiyaların bir sıra formaları isə göstərilən qanunlardan kənarda qalmışdır. Məsələn. müştərək müəssisələrin (contractual joint ventures) müqavilə formasında fəaliyyəti haqqında uzunmüddətli istiqraz müqavilələri, məhsulun bölünməsi (production sharing Contracts) sazişləri və s. buna misal göstərilə bilər.

Bu hüquqi formalar həmin normativ aktlarda nəzərdə tutulmur, halbuki, onlar xarici investisiya növlərini müəyyən edildiyi siyahıya daxil edilmişlər.

1992 və 1995-ci il qanunları bank sahəsini də əhatə etmir.

"Xarici investisiyanın qorunması haqqında" qanunun əsas nöqsanlarından biri də xarici kapital qoyan müəssisənin nizamnaməsində kapitalının maksimum və minimum məbləği sahəsində mövcud olan qeyri-müəyyənlikdir. İnvestor üçün ölkədə nizamnamə kapitalının minimum məbləği böyük əhəmiyyətə malikdir. Kapitalın repatriasiyası (xaricə köçürülməsi) da qanunda öz aydın əksini tapmamışdır. Qanunda həmçinin qeyd edilir ki, nizamnamə kaptalının xarici investorlar əvvəlcə yalnız 0%-i ödəyə bilər. Kapitalın qalan hissəsinin nə vaxt ödəniləcəyi müddəti də qanunda müəyyən edilməmişdir. Bu isə ona gətirib çıxarır ki, müəssisə nizamnamə kapitalını formalaşdırmadan güzəştlərdən istifadə etməyə başlayır. Xaricə köçürülməli olan məbləğin maksimum miqdarı da qanunda açıqlanmamışdır.

3. Qanunun 3-cü maddəsində xarici investisiya anlayışı aşağıdakı kimi müəyyən edilmişdir:

"Xarici investorların mənfəət əldə etmək məqsədi ilə sahibkarlıq fəaliyyəti və başqa növ fəaliyyət obyektlərinə qoyduqları əmlakın və əmlak hüquqlarının bütün növləri, o cümlədən intellektual fəaliyyətin nəticələrinə hüquqlar və əşya hüquqlarına aid olmayan digər hüquqlar xarici investisiyadır". Göründüyü kimi, qanun "mənfəət əldə etmək məqsədini" xüsusi vurğulayır və bununla da əslində digər sosial faydaların əldə edilməsini, məsələn, xarici innovasiya fəaliyyətini diqqətdən kənarda qoyur. Bu vəziyyət "İnvestisiya fəaliyyəti haqqında" qanunla düzəldilməyə çalışılmışdır. Həmin qanuna görə "investisiya gəlir (mənfəət) və ya sosial səmərə əldə etmək məqsədilə sahibkarlıq və digər fəaliyyət növləri obyektlərinə qoyulan maliyyə vəsaitindən, habelə maddi və intellektual sərvətlərdən ibarətdir". Lakin xarici investisiya anlayışı 1992-ci il qanunu ilə müəyyən edildiyi üçün bu məsələ özünün dəqiq hüquqi ifadəsini hələ tapmayıbdır.

Cədvəl №1 məlumatlarından göründüyü kimi, Azərbaycan iqtisadiyyatında xarici investisiyaların rolu 1995-ci ildən sonra sürətlə artmışdır.

1995-ci ildə ölkəmizə 1657 mln. dollar xarici investisiya qoyulduğu halda, 2004-ci ildə onun məbləği 17182,8 mln. dollara çatmış və ya illik məbləği 9 dəfə artmışdır. Cəmi investisiyalarda onun xüsusi çəkisi də davamlı artım göstərərək 2004-ci ildə 76,4%-ə çatmışdır.

1995-ci ildə Azərbaycan iqtisadiyyatına qoyulan xarici investisiyalar ÜDM-un 2,25%-ni təşkil etdiyi halda, 2002-ci ildə 29,5%-ə yüksəlmişdir.

Respublikaya cəlb olunmuş birbaşa xarici investisiyaların 65%-i neft sektoruna yönəldilmişdir. Bununla yanaşı qeyd etmək lazımdır ki, qeyri-neft sahələrinə investisiyaların xüsusi çəkisinin də artması müşahidə olunur.

Azərbaycan iqtisadiyyatına xarici kapitalın cəlb edilməsinin ən mühüm vasitələrindən biri özəlləşdirmə prosesidir. Yeni sahələrin, o cümlədən xarici sərmayəçilər üçün xüsusilə cəlb edici olan metallurgiya, kimya, energetika, maşınqayırma, nəqliyyat, rabitə və digər sahələrdə fəaliyyət göstərən şirkətlərin özəlləşdirilməyə açılması xarici sərmayə axınına güclü təkan vermişdir.

Yeyinti, yüngül sənaye məhsullarının, inşaat materiallarının və digər məhsulların istehsalı ilə məşğul olan müəssisələrin xarici şirkətlər tərəfindən özəlləşdirilməsi, energetika, metallurgiya müəssisələrinin uzunmüddətli idarə etməyə verilməsi həyata keçirilən tədbirlərin uğurundan xəbər verir.

2002-ci ilə qədər iqtisadi islahatların aparılmasına, makroiqtisadi sabitliyin dəstəklənməsinə BVF tərəfindən 435 mln.dollar; struktur islahatlarının aparılmasına, təhsil, mədəniyyət, infrastruktur və digər sahələrdə müxtəlif layihələrin həyata keçirilməsinə Dünya Bankı tərəfindən 491 mln. dollar yardım göstərilmişdir.

Azərbaycan iqtisadiyyatına investisiya qoyuluşları dövlət və qeyri-dövlət sektoru baxımından təhlil edildikdə məlum olur ki, xarici və daxili investisiyalarda bu sahədə disbalans mövcuddur. Belə ki, iqlisadiyyata qoyulan xarici investisiyaların 87,3% xarici qeyri-dövlət investisiyaları olduğu halda, daxili investisiyaların cəmisi 44,3%-i qeyri-dövlət bölməsinə aiddir.

Bütün bunları nəzərə alaraq investisiyaların ölkəyə cəlb edilməsi ilə bağlı aşağıdakı tədbirlərin həyata keçirilməsi zəruri hesab edilir:

1. Azərbaycan Respublikasında xarici investisiya qoyuluşlarının təcrübəsi ümumiləşdirilərək və ölkənin inkişaf perspektivləri nəzərə alınmaqla uzunmüddətli dövlət investisiya proqramı tərtib edilməli və bu sahədə dövlət siyasətinin daha da təkmilləşdirilməsi üçün kompleks tədbirlər görülməlidir.

2. Ölkəyə xarici investisiyaların cəlb olunmasının daha da liberallaşdırılması istiqamətində işlərin sürətləndirilməsi, "Xarici investisiyaların qorunması haqqında" və "İnvestisiya fəaliyyəti haqqında" qanunların təkmilləşdirilməsi sürətləndirilməlidir.

3. Qeyri-neft sektoruna investisiya axınının sürətləndirilməsi işinə xüsusi qayğı göstərilməlidir. Bu zaman Azərbaycanın maşınqayırma, yüngül və yeyinti sənaye kimi ənənəvi emaledici sənaye sahələri, kənd təsərrüfatının inkişafı xüsusi əhəmiyyət kəsb etməlidir.

Xüsusi ixrac zonalarının yaradılması, neft sahəsində olduğu kimi iqtisadiyyatın digər sahələrində də xarici şirkətlərlə konsorsiumun yaradılması, məhsulun pay bölgüsü üzrə sazişlərin imzalanması və bu sazişlərə qanun statusunun verilməsi də qeyri-neft sektorunda xarici sərmayələrin əhəmiyyətli dərəcədə artırılmasında səmərəli mexanizm ola bilər.

Sərmayələrin sahələr və regionlar üzrə tarazlığının təmin edilməsi baxımından, regionlarda infrastruktur, ilk növbədə, elektrik enerjisi, qaz, su ilə təminatın yaxşılaşdırılması, təşviq tədbirlərinin həyata keçirilməsi zəruridir.

5. Kiçik və orta sahibkarlığın inkişaf etdirilməsi məqsədilə bu sahəyə maliyyə yardımı göstərilməsi üçün dövlət proqramının real həyata keçirilməsi mexanizm hazırlanmasıdır. Eyni zamanda, beynəlxalq təşkilatlardan qeyd edilən strukturların inkişafı üçün ayrılmış kreditlərin və yardımların istifadəsində pərakəndəliyin aradan qaldırılması və bu işlərin bir mərkəzdən idarə olunması üçün tədbirlər görülməsi.

6. Azərbaycan Respublikası vətəndaşlarının xarici ölkələrdə sahibkarlıq fəaliyyəti nəticəsində əldə etdikləri əmlak, pul və s. varidat sərmayə şəklində Azərbaycana gətirilərsə, bunlara da xarici sərmayə üçün nəzərdə tutulmuş qaydalar və təminatlar tətbiq olunmalıdır.

7. Azərbaycan Respublikasının xarici investisiyaların cəlb olunması ilə bağlı reytinqinin yüksəldiyi nəzərə alınmaqla ölkəyə hökumət zəmanəti tələb olunmayan investisiyaların cəlb edilməsi praktikasından geniş istifadə edilməlidir.

4.13.Azərbaycan iqtisadiyyatının beynəlxalq rəqabət qabiliyyətinin artırılması yolları

"Azərbaycan Respublikasında iqtisadi islahatlar: ilkin nəticələr, problemlər və perspektivlər". Beynəlxalq elmi-praktik konfransın materialları. Bakı, 2003.

Bazar iqtisadiyyatının hökmran olduğu bir şəraitdə dövlətin və millətin gücü tam şəkildə nə hərbi qüdrətdən, nə də ölkədə mövcud olan təbii sərvətlərin zənginliyindən asılıdır. Bu güc hələlik vərdiş etmədiyimiz bir çox müasir kateqoriyalardan - istehsalın səmərəliliyindən, meydana çıxan sosial-iqtisadi problemləri çevik və konstruktiv həll edə bilmək qabiliyyətindən, əhalinin həyat keyfiyyətini yüksəldə bilmək bacarığından asılıdır. Bütün bunların əsasında isə ölkənin dünya bazarında sərt rəqabət mübarizəsinə davam gətirə bilmə qabiliyyəti dayanır.

Dünya təcrübəsi göstərir ki, milli təhlükəsizliyin qarantı olan rəqabət qabiliyyəti meyarı və onun durmadan artırılması ölkə iqtisadiyyatının

ümumdünya təsərrüfatı sisteminə səmərəli daxil olmasının vacib şərtlərindən biridir. Ölkənin dünya bazarındakı konyuktura dəyişmələrindən asılı olan aqrar xammal bazasına çevrilməsi və ya inkişaf etmiş, öz-özünü təmin edən iqtisadi sistemə malik olması əhəmiyyətli dərəcədə, məhz ölkə iqtisadiyyatının rəqabət gücündən asılıdır.

"Ayrı-ayrı ölkələr, sosial qruplar və firmalar nə üçün sürətlə inkişaf edərək çiçəklənir?" - sualına cavab axtararkən iqtisadçılar öz diqqətlərini getdikcə daha çox "rəqabət qabiliyyəti" kateqoriyası üzərində cəmləşdirirlər. Bu, təsadüfi deyildir. Çünki, rəqabət qabiliyyətliliyi (gücü) müasir mərhələdə dünya miqyasında elmi-texniki tərəqqinin, insanların idarəçilik və yaradıcılıq qabiliyyətinin üzə çıxarılması və inkişaf etdirilməsinin əsasını təşkil edir. Dünyada mövcud olan rəqabət insanları vadar edir ki, istehsalı region, milli və qlobal miqyasda daha yaxşı idarə etsin.

Azərbaycan və bütün digər postsovet respublikalarında maddi nemətlərin və xidmətlərin mərkəzləşdirilmiş qaydada bölüşdürüldüyü və dünya bazarına müstəqil çıxışın mövcud olmadığı mərkəzi-plan iqtisadiyyatı dövründə rəqabət qabiliyyətliliyi nə praktikada, nə də elmi axlarışlarda iqtisadi kateqoriya kimi qarşıya qoyulmamışdır. Rəqabət qabiliyyətliliyi problemi ilə real olaraq bilavasitə istehsalçılar deyil, azsaylı mərkəzi xarici ticarət təşkilatları qarşılaşdılar. İstehsalçıların bilavasitə xariclə təmasda olmaması, onları bir tərəfdən xaricdən keyfiyyətli malın satın alınması prosesinə təsir göstərmək imkanından məhrum edir, digər tərəfdən isə onlar ixrac olunan məhsulun rəqabət gücünün artırılmasında maraqlı olmurdular.

Bütün bunlar isə istər istehsalın səmərəliliyinə, istərsə də istehsal olunan məhsulun keyfiyyəti və rəqabət qabiliyyətliliyinə mənfi təsir göstərirdi.

Seçmək imkanından məhrum olan istehlakçılar məcburən satın aldığı daxili malları nə keyfiyyət, nə də qiymət baxımından analoji xarici mallarla müqayisə edə bilmir, istehsalın yenilənməsində mühüm təkanverici amillərdən biri olan istehlakçı zövqü, əslində, nəzərə alınmırdı. İstər bütün ölkə miqyasında, istərsə də ayrı-ayrı təsərrüfat obyektləri və məhsul növləri üzrə nə idxalın, nə də ixracın məqsəduyğunluğu və xüsusi səmərəliliyi bazar iqtisadiyyatının prinsipəlri əsasında müəyyən edilmirdi. Respublikalararası mübadilə "xarici" əmtəə dövriyyəsinin 9/10-nu təşkil etdiyi bir şəraitdə bu mübadilənin məqsədəuyğunluğu və səmərəliliyi mərkəzi orqanların kabinetlərində süni şəkildə müəyyənləşdirilirdi. Bir sözlə, rəqabət qabiliyyətliliyinin işləmə mexanizmi istər ölkə daxilində, istərsə də xaricdə fərqli meyarlar əsasında özünü göstərirdi.

Azərbaycan müstəqillik qazandığı ilk illərdən "açıq qapı" siyasəti yeridir və açıq iqtisadiyyat inkişaf modelini tətbiq etməyə çalışır. Region ölkələri və bütün dünya dövlətlərinin iqtisadi inteqrasiya prosesinin sürətləndirilməsi məqsədinə xidmət edən TRACEKA proqramının həyata keçirilməyə

başlanması “açıq qapı” siyasətinin daha da intensivləşdirilməsini zəruri edir. Azərbaycan iqtisadiyyatının həmin siyasətin tələblərinə uyğunlaşdırılması, onun beynəlxalq rəqabət gücünün formalaşdırılaraq, inkişaf etdirilməsi iqtisadi müstəqilliyin qorunub saxlanılmasının ilkin vacib şərtlərindən biri olmaqla, həyati əhəmiyyət kəsb edir.

Amerika iqtisadçısı Maykl Porter göstərir ki, dünyada heç bir ölkə rəqabət qabiliyyətliliyini irsən hazır şəkildə almır. Heç bir ölkə dünyada bütün məsələlərdə üstün rəqabət qabiliyyətinə malik ola bilməz və hər hansı bir məsələdə rəqabət qabiliyyətliliyini heç də daim əlində saxlaya bilməz. Üstün rəqabət qabiliyyətliliyi ölkələrdə uzunmüddətli və məqsədyönlü yaradıcı işin nəticəsidir və bir çox məhrumiyyətlər hesabına başa gəlmişdir. Bazar və onun mühüm atributu olan rəqabət qabiliyyəti daim dəyişən, təkmilləşən dinamik bir mexanizmdir.

Bu gün ölkənin müstəqil sosial-iqtisadi inkişafı gedişi üçün həyati əhəmiyyət kəsb edən və ilk baxışda həlli qeyri-mümkün görünən Azərbaycan iqtisadiyyatının rəqabət gücünün artırılması yolları dövlətin diqqət mərkəzindədir. Nəzərə almaq lazımdır ki, bazar iqtisadiyyatı şəraitində dövlətin rolu bu sahədə azalmır, əksinə daha da yüksəlir və getdikcə mühüm əhəmiyyət kəsb edir. Beynəlxalq rəqabət meydanına təsərrüfat subyektləri - müəssisələr çıxsalar da, onların bu sahədə müvəffəqiyyəti bütün digər şərtlər daxilində ölkədə mövcud olan ümumi iqtisadi vəziyyət və o cümlədən, ölkə iqtisadiyyatının və müəssisələrin rəqabət qabiliyyətinə mənfi və müsbət təsir edə bilər. Dövlət ölkə iqtisadiyyatının və müəssisələrin rəqabət qabiliyyətinin yüksəldilməsi üçün məqsədyönlü tədbirlər sistemi həyata keçirmədikdə onun bu sahədə rolu mütəxəssislər tərəfindən mənfi xarakterizə edilir. Bu tədbirlər sisteminin mərkəzi xəttini müəssisələr tərəfindən əmək məhsuldarlığının yüksəldilməsi və onların malik olduqları müqayisəli üstünlüklərin möhkəmləndirilməsi, üçün normal işgüzar mühitin yaradılması təşkil edir. Bu məqsədlə müəssisələrin xaricdən yeni texnika və texnologiya gətirmələri hərtərəfli təşviq edilməlidir. Sovet dövründən qalmış bir ehkama görə, dövlət zəif, səmərəsiz və ziyanla işləyən müəssisələri himayə etməlidir. Bu yanlış bir fikirdir. Getdikcə qloballaşan bazar iqtisadiyyatı tələb edir ki, beynəlxalq bazarda rəqabət apara bilən müəssisələr dövlət tərəfindən dəstəklənsinlər və onlar öz üstünlüklərini daha da möhkəmləndirsinlər. Bu zaman nəzərə almaq lazımdır ki, bu sahədə dövlət himayəçiliyi çoxlarının düşündüyü kimi heç də həmin müəssisələrə dotasiya verilməsi demək deyildir. Bu himayəçilik rəqabət qabiliyyətli müəssisələrin az məsrəf sərf etməklə, yüksək keyfiyyətli məhsul istehsal etmələri üçün əlverişli şərait yaradılmasından ibarətdir.

Dünya təcrübəsi əyani şəkildə göstərir ki, dövlətlərin çoxu rəqabət qabiliyyətini ilk mərhələdə beynəlxalq bazarda deyil, daxili bazarda yüksəltməyə çalışırlar.

Artıq bütün mütəxəssislər arasında belə bir fikir hakimdir: rəqabət mübarizəsində o ölkələr qalib çıxırlar ki, onlarda daxili tələb xarici firmaların deyil, ilk növbədə, yerli firmaların məhsuluna əsaslanır. Yerli müəssisələrin xaricdə davam gətirə bilən məhsullar istehsal edə bilməsində ilk mühüm şərt onların, əvvəlcə, ölkə daxilində rəqabətə dözə bilməsi, normal rəqabət mübarizəsi şəraitində daxili tələbatın ödənilməsində mühüm rol oynamağa başlamışdır. Bu işçi qüvvəsinə də aiddir. Halbuki, yüksək ixtisaslı hesab etdiyimiz işçi qüvvəsi bəzən daxili bazarda xarici işçilərlə rəqabətə davam gətirə bilmirlər. Xarici firmaların özləri ilə çoxsaylı işçilər gətirmələrini müəyyən dərəcədə məhz bu amil ilə də izah etmək olar.

Azərbaycan iqtisadiyyatının rəqabət qabiliyyətinin yüksəldilməsində mühüm strateji istiqamət daxili tələbatın ödənilməsi üçün idxalı əvəzetmə siyasətinin yeridilməsidir. Bu siyasət ölkənin keçmişdə olduğu kimi qapalı xarakterinin artırılmasına deyil, istehlak mallarının idxalına yönəldilən valyuta ehtiyatlarına qənaət olunmasına, qənaət olunan valyutanın texnologiya idxalına və hətta həmin texnologiyanın istehsalının respublikada təşkil olunması məqsədlərinə tabe edilməsi çox vacibdir. Bu siyasət ölkənin ixracat potensialının artırılması üzrə strateji istiqamətin həyata keçirilməsində mühüm rol oynaya bilər. Uzunmüddətli və mürəkkəb proses olan beynəlxalq rəqabət qabiliyyətinin yüksəldilməsinə müxtəlif ölkələr müxtəlif müddətdə, fərqli vasitə və üsullar ilə nail olurlar. Lakin dünya təcrübəsi göstərir ki, onlar bu məqsədə nail olmaq üçün bir qayda olaraq dörd ardıcıl mərhələdən keçirlər. Bu mərhələlərin hərəkətverici qüvvələri, yaxud ayrı-ayrı dövrlərdə onun inkişafının müəyyənedici amilləri aşağıdakılardır: istehsal amilləri, investisiyalar, yeniliklər və sərvət.

Azərbaycan iqtisadiyyatı beynəlxalq rəqabət mübarizəsində öz üstünlüyünü mövcud olan bol istehsal amillərindən intensiv və səmərəli istifadə olunması, onlardan əldə edilən maliyyə mənbələrini texnoloji inkişafa yönəltmək yolu ilə təmin edir. Bu sahədə bütün qüvvələr Azərbaycana təbiətin bəxş etdiyi zəngin təbii sərvətlərdən və ucuz işçi qüvvəsindən ağılla istifadə edilməsinə, müxtəlif kənd təsərrüfatı məhsullarının becərilməsi üçün daha əlverişli şəraitin yaradılmasına yönəldilmişdir. İlk növbədə, daxili tələbatın ödənilməsi üçün bu sahələrdə qısa müddət ərzində əhəmiyyətli nailiyyətlər əldə etmək mümkündür. Hazırkı mərhələdə resurs amillərindən innovasiya amillərinə keçilməsi məsələsi tam kəskinliklə qarşıya qoyulmuşdur.

4.14. Azərbaycanın dünya birliyinə inteqrasiya prioritetlərinin müəyyən edilməsində xarici təcrübənin rolu

“Şərq-Qərb: sivilizasiyaların dialoqu”, 2006, N (3) 3-4

XXI əsrin astanasında Azərbaycan Respublikasının müstəqil inkişaf yoluna qədəm qoyması ölkəmizin gələcək sosial-iqtisadi təkamülündə dönüş nöqtəsi oldu və bu təkamül prosesində taleyüklü dəyişikliklərin meydana gəlib genişlənməsi üçün zəmin təşkil etdi. Dünyada gedən irimiqyaslı qloballaşma prosesi, iqtisadi həyatın getdikcə daha çox beynəlmiləlləşməsi bu və ya digər ölkənin ictimai inkişafında xarici amillərin rolunun sürətlə artmasına səbəb olmuşdur. Hazırkı şəraitdə ölkələrin zənginliyi onlarda olan təbii sərvətlərin bolluğu dərəcəsi ilə deyil, bu sərvətlərdən beynəlxalq əmək bölgüsünün üstünlükləri nəzərə alınmaqla, bacarıqla istifadə edilməsindən əhəmiyyətli dərəcədə asılıdır.

70 il ərzində Azərbaycanı SSRİ xalq təsərrüfat kompleksinə bağlayan siyasi və iqtisadi dayaqların ləğvi ölkəmizin Şimala yönəlmiş birtərəfli iqtisadi əlaqələrinə son qoymuş, bu əlaqələrin iqtisadi coğrafi, istərsə də məzmun baxımından yeni istiqamət və mahiyyət kəsb etməsinə imkan vermişdir. Mübaliğəsiz demək mümkündür ki, inkişaf etmiş və mürəkkəb dünya bazarı ilə iqtisadi inteqrasiyasının və qarşılıqlı təsərrüfat əlaqələrinin formalaşan yeni mexanizmi respublikamızın gələcək inkişaf perspektivini müəyyən edən başlıca amillərdəndir. Ona görə də ölkəmizin beynəlxalq iqtisadi inteqrasiyasının strateji istiqamətləri mövcud dünya təcrübəsi nəzərə alınmaqla müəyyənləşdirilməli və bu sahədə ciddi dövlət tənzimlənməsi həyata keçirilməli, iqtisadi proseslərə məqsədyönlü istiqamət verilməlidir.

Dünya bazarına və ona nəzarət edən nəhəng Transmilli şirkətlər (TMŞ) şəbəkəsinə qoşulma yolları ümumdünya iqtisad tarixindən yaxşı məlumdur. Bu yollar son nəticədə iki istiqamətdə özünü göstərir və şərti olaraq “Latın Amerikası” və “Yapon yolları” adlanır.

Birinci yol TMŞ-lə sıx bağlı olan komprador kapitalının inkişafı və ölkənin iqtisadi inkişaf mexanizmi sükanının xarici kapitalın əlinə verilməsi yoludur. Latın Amerikası ölkələrinin dünya iqtisadi ədəbiyyatında çox vaxt “banan respublikaları” adlandırılması heç də bu ölkələrdə banan istehsalının geniş yayılması ilə əlaqədar deyildir. Bu, ilk növbədə, həmin ölkələrin iqtisadiyyatının əsasını təşkil edən banan istehsalına və onunla əlaqədar olan təsərrüfat sahələrinin TMŞ-lərin əlinə keçməsi və bu ölkələrin bütün iqtisadi mexanizmi üzərində nəzarətin onlar tərəfindən həyata keçirilməsi ilə əlaqədardır. Bu acı təcrübənin nəticələri dünya ictimaiyyətinə yaxşı məlumdur.

İqtisadi inkişafda bütün ümidlərin ölkədə bol olan bu və ya digər məhsul

ixracının artırılmasına bağlanması ilə əlaqədar dünya ədəbiyyatına "Hollandiya xəstəliyi", "kasıblaşdırıcı artım" adı ilə daxil olmuş acınacaqlı hallar da iqtisad tarixində özünəməxsus yer tutur. Bu gün Rusiya və bəzi MDB ölkələrində də belə qorxulu təmayülün özünü göstərdiyi haqqında həyəcan siqnalı çalınmağa başlanmışdır.

İkinci yol Yaponiyanın inkişafı yoludur. Məlum olduğu kimi, ikinci dünya müharibəsindən sonra Yapon hakim dairələri Qərbin yardımından və Qərbdə onlara yönəldilmiş əlverişli "açıq qapı" siyasətindən faydalanmaqla yanaşı, özlərinin spesifik inkişaf yolunu seçdilər. Bu spesifik inkişaf yolunun əsas xəttini istehsalın min illərlə sınaqdan çıxmış milli yapon dəyərlərinə əsaslanması, Qərbin müsbət iqtisadi təcrübəsindən bu dəyərlərə uyğun sürətdə maksimum istifadə edilməsi və iqtisadi potensialın, ilk növbədə, daxili bazarın tələblərinin ödənilməsinə yönəldilməsi təşkil edirdi. İstehsal imkanlarının daxili bazarın ehtiyaclarına istiqamətləndirilməsi isə bu bazarın formalaşdırılması və əhalinin alıcılıq qabiliyyətinin yüksəldilməsi üçün əmək haqqının ciddi olaraq artırılmasını zəruri etmişdir.

Dünya bazarı ilə iqtisadi inteqrasiya strategiyası müəyyənləşdirilərkən dünyada iqtisadi proseslərin inkişaf təmayüllərinin müasir xüsusiyyətləri diqqətlə öyrənilib nəzərə alınmalıdır. Məlum olduğu kimi, elmi-texniki tərəqqi inkişaf edib dərinləşdikcə Qərbdə istehsalın təmərküzləşməsi və mərkəzləşdirilməsi, kapitalın inhisarlaşması öz yüksək həddinə çatmışdır. Dünya iqtisadiyyatı üzərində nəzarət nəhəng Transmilli şirkətlərin əlində cəmlənmişdir. Beynəlxalq iqtisadi əlaqələrdə də onlar həlledici rol oynayır. Respublikamızda özəlləşdirmə siyasəti ardıcıl olaraq keçirildiyi bir şəraitdə dünya iqtisadiyyatının göstərilən cəhəti nəzərə alınmalıdır. Heç kəs üçün sirr deyildir ki, respublikamızda iri kapital yığımının həyata keçmədiyi bir şəraitdə təsərrüfat obyektlərinin həddən artıq "xırdalanması" TMŞ-lərin ölkəmizdə şəriksiz hökmranlığına gətirib çıxara bilər. Ona görə də respublikamızda vaxtilə sahə prinsipi üzrə yaradılmış şirkətlərin özəlləşdirmə prosesində "xırdalanmasına" yol vermək olmaz. Bu baxımdan bankların birləşdirilərək BUS Bankın yaradılması özünü doğruldur.

Ümumiyyətlə, istər daxili, istərsə də beynəlxalq iqtisadi problemlərin həllində milli kapitalın milli sahibkarlığın formalaşması və inkişaf etdirilməsi respublikanın strateji məqsədlərindən biri hesab edilir. Yalnız bir tarixi faktı yada salmaq kifayət edər ki, XIX əsrin axırları, XX əsrin əvvəllərində ölkəmizdə tikilən iqtisadi və digər obyektlərin böyük əksəriyyəti milli kapital tərəfindən həyata keçirilmişdir.

Təsərrüfat həyatının beynəlmiləlləşməsi və respublikamızda ardıcıl olaraq "açıq qapı" siyasətinin həyata keçirilməsi istər xaricdə, istərsə də ölkə daxilində məhsulların yüksək rəqabət qabiliyyətli olmasını tələb edir. Respublika daxilində, demək olar ki, artıq bütün məhsul növləri üzrə, yerli və

əcnəbi məhsullar üzrə yüksək rəqabət gedir. Yerli istehsalçılara istehsalı təşkil etmək və onu inkişaf etdirmək sahəsində tədbirlər sistemi həyata keçirilir. İdxalata tarif və qeyri-tarif tənzimləmələri vasitəsilə daha çox məhdudlaşdırıla bilər. Lakin bu, uzun müddət davam edə bilməz və bu tədbirdən beynəlxalq müqavilələrə uyğun olaraq artıq geniş istifadə etmək mümkün deyildir.

Ona görə də yerli istehsalın dirçəldilməsi üçün emal olunan məhsulların keyfiyyətinin və müvafiq olaraq onların rəqabət qabiliyyətinin yüksəldilməsi ölkə iqtisadiyyatının strateji məqsədlərindəndir. Daxili bazar da, xarici bazar da bunu tələb edir.

Beynəlxalq əmək bölgüsünün üstünlüklərindən səmərəli istifadə etməklə iqtisadi tərəqqinin təmin edilməsi əhəmiyyətli dərəcədə idxal və ixracın strukturundan asılıdır. Məhz bu cəhət ölkəmizin iqtisadi inteqrasiyasının dünya birliyi ilə bərabər hüquqlu və qarşılıqlı fayda prisipi əsasında aparıldığını və ya onun dünya bazarının xammal əlavəsinə çevrilmiş olub-olmadığını müəyyən edir. İxrac potensialının hərtərəfli inkişaf etdirilməsi, onun çoxçeşidliliyinin artırılması, istehsalın hazır məhsul emalına doğru istiqamətləndirilməsi, satışa çıxarılan malların əmtəə görkəminin yaxşılaşdırılması ölkəmizə lazım olan valyuta ehtiyatlarının yaradılması üçün həlledici əhəmiyyət kəsb edir. Bu məqsədlə xarici ticarətdə liberallaşma siyasətinin ardıcıl yeridilməsi və təsərrüfat obyektlərinin bilavasitə xaricə çıxmasını təmin edilməsi olduqca vacibdir.

Qlobal proseslərə səmərəli şəkildə inteqrasiya olunmasında Çin təcrübəsi çox əhəmiyyətlidir. Son 30 ildən artıq bir dövrdə Çin iqtisadiyyatı yüksələn xətlə tərəqqi edir. Bu dövr Çinin xarici dünyaya açılması dövrü kimi xarakterizə edilir. Bu müddət ərzində Çinin universallaşması və qloballaşması sürətlə genişlənmişdir. Bu genişlənmə prosesində ənənəvilik və bəşəri universallığın (qloballaşmanın) optimal sintezi mühüm rol oynamışdır. Təsadüfi deyildir ki, Çin bir çox baxımdan dünya təsərrüfatının dinamik inkişaf edən liderləri sırasına daxil olmuş və iqtisadi qloballaşmanın ən uğurlu iştirakçılarından biri hesab edilir.

Çin iqtisadi möcüzəsinin mahiyyəti və əsas istiqamətləri Akademik Ziyad Səmədzadənin "Dünya iqtisadiyyatı. Çin iqtisadi möcüzəsi" (Bakı, 2001) adlı monoqrafiyasında hər tərəfli şərh edilmişdir. Araşdırmalar göstərir ki, Çin sənayesi, elm və texnikasının nailiyyətləri onun qlobal proseslərə uğurlu inteqrasiyasının vacib şərtidir. Bununla yanaşı, ölkə sivilizasiyasının nailiyyətləri bir çox baxımdan aqrar bölmə ilə əlaqədardır. Amerika sosioloqu R. Merfinin göstərdiyi kimi, Çində şəhər və kənd dünyası arasında "Qərbdə formalaşmış olduğu kimi dərin fərq yoxdur… orada kənd ənənə və dəyərləri ləkələnməyibdir, əksinə şəhərlilərin çoxu kəndlər üçün darıxır və qocalığını qayıdıb orada keçirirlər" (96, s. 73).

Çin islahatlarının mahiyyəti ondan ibarətdir ki, iqtisadi struktur

unifikasiya edilərək vahid şəkilə salınmamışdır. Çin dövləti ictimai kollektiv mülkiyyətlə yanaşı, yeni təsərrüfat formalarını (fərdi, ailə, özəl, qarışıq təsərrüfatları) stimullaşdıraraq, ukladlar, siniflər və təbəqələr, müxtəlif regionlar, maraqlar qrupu arasında münasibətlərdə arbitr və tənzimləyici funksiyasını öz üzərinə götürmüşdür. Onun mühüm funksiyalarından biri də ənənəvi və müasir "iki sivilizasiyanın" sintezini təmin etməkdir. Köhnə dəyərlərdən, tarixi təcrübədən maksimum istifadə edilməsi müasir Çin sivilizasiyasının mühüm fərqləndirici cəhətlərindən biridir. Lakin mütəxəssislərin fikrinə görə, ənənəvilik və müasirlik müqayisə edildikdə, ənənəviliklə sintez edilmiş müasirliyin aparıcı xətt təşkil etdiyi məlum olur (96, s. 72).

Çinin informasiya erasına adaptasiyasını kompyuterləşmə çox asanlaşdırır. Çin mədəniyyəti üçün ənənəvi olan biliyə yiyələnmə ənənəsi kompyuter kimi yeni alət əldə etmişdir. Ölkə çox yüksək səviyyəli informasiya - analitik bazaya malikdir, kütləvi şəkildə tərcümə işləri aparılır.

Çinin inkişaf mexanizmində xarici dünya ilə bütöv qarşılıqlı əlaqə sistemi yaradılmışdır. Bu ölkə adətən regional derjava adlandırılır. Onun siyasətində regionallaşma qloballaşmaya nisbətən açıq-aşkar üstünlük təşkil edir. Çin rəhbərliyi coğrafi cəhətdən uzaq ölkələrdən çox, yaxın qonşularına daha böyük əhəmiyyət verir.

ÜTT və Çin təcrübəsi, ÇXR-nin ÜTT-na daxil olması prosesi 15 il davam etmişdir. Bu müddət ərzində milli qanunvericilik həmin təşkilatın çox saylı qaydalarına uyğunlaşdırılmışdır. QATT ÜTT-na çevrildikdən sonra danışıqlar xarici şirkətlərin xidmət (maliyyə, bank, sığorta, distrübitor fəaliyyəti, informasiya texnologiyası, nəqliyyat xidməti və s.) sahəsində fəaliyyətinin liberallaşdırılmasını da əhatə etmişdir. Çin qarşısında milli maraqların ÜTT-nin və ayrı-ayrı iştirakçı ölkələrin tələbləri ilə uyğunlaşdırılması kimi taleyüklü məsələ dururdu. Çoxsaylı danışıqlardan, ikitərəfli və çoxtərəfli razılaşmalardan sonra ÇXR-ı 2001-ci ilin noyabrından ÜTT-nın tam hüquqlu üzvü qəbul edildi. Bu zaman ÇXR ona müvafiq üstünlüklər verən "inkişaf etməkdə olan ölkə statusu" almağa müvəffəq oldu. Bu, ona imkan verir ki, xarici iqtisadi fəaliyyəti mərhələ-mərhələ liberallaşdırsın, milli qanunvericiliyin ÜTT-nin tələblərinə uyğunlaşdırılmasında vaxt qazansın, iqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsində, subsidiyalar verilməsində müəyyən güzəştlər əldə etsin.

ÇXR hakimiyyətin və əhalinin ÜTT-nin prinsip və vəzifələri haqqında geniş məlumatlar almasına şərait yaradır. KİV-lər onun fəaliyyətini daim geniş işıqlandırır. Minlərlə hüquqşünas və iqtisadçılar ÜTT-nın qaydaları və prosedurları üzrə xüsusi hazırlıq keçirlər. Çin tərəfi ÜTT-ı qarşısında öz üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməklə həmin təşkilatın verdiyi hüquq və üstünlüklərdən geniş istifadə etməyə çalışır. Əsas diqqət Çin malları üçün yeni bazarların açılmasına, Çin mallarının ixracının genişləndirilməsinə

və keyfiyyətinin artırılmasına yönəldilir. Xarici kapitalın cəlb edilməsi sahəsində əsas diqqət həmin kapitalın strukturunun optimallaşdırılmasına (qabaqcıl texnologiya axınının artırılmasına) verilir.

Qloballaşmanın verdiyi üstünlüklərdən uğurla istifadə olunmasında Cənubi-Şərqi Asiyanın Yeni sənaye ölkələrinin (YSÖ) təcrübəsi keçid iqtisadiyyatı ölkələri üçün əhəmiyyətlidir. Qloballaşma İEOÖ-in ümumi strukturunda da köklü dəyişikliklərə yol açdı. YSÖ həmin qrup ölkələrini tərkibindən bir çox parametrlərə görə ayrılaraq, İEÖ-lər qrupuna yaxınlaşdılar. Bir sıra cəhətlər YSÖ-ni həm İEOÖ-dən, həm də İEÖ-dən əhəmiyyətli dərəcədə fərqləndirir. Bu xarakterik xüsusiyyətlər yeni sənayeləşmə modelinin yarandığını söyləməyə imkan verir, həm iqtisadiyyatın daxili dinamikası, həm də xarici iqtisadi fəaliyyət baxımından həmin ölkələrin təcrübəsi üçüncü dünya ölkələrində bir nümunə rolunu oynayır. YSÖ qrupuna daxil edilmək üçün BMT-nin müəyyən etdiyi metodikaya əsasən aşağıdakı meyarlar əsas götürülür:1. adambaşına ÜDM-un miqdarı; 2. onun orta illik sürəti; 3. ÜDM-da emaledici sənayenin xüsusi çəkisi 20%-dən az olmamalıdır; 4. sənaye məhsullarının ixracının həcmi və ümumi ixracatda xüsusi çəkisi; 5. xaricə birbaşa kapital qoyuluşlarının həcmi.

Həmin göstəricilərə görə YSÖ İEOÖ qrupundan yüksəkdə durur. XX əsrin 70-80-cı illərində bu ölkələrdə sənayenin köklü sürətdə yenidənqurulması nəticəsində onun məhsuldar qüvvələrinin formalaşması və inkişafı iqtisadi tərəqqinin dinamikasını əhəmiyyətli dərəcədə sürətləndirmiş, yığım kütləsi və normasının artırılmasına, investisiyaların və məşğulluğun strukturunun transformasiyasına səbəb olmuşdur. Resurs-xammal və inventisiya bazasının məhdudluğu və qloballaşmanın genişləndiyi bir şəraitdə həmin ölkələr iqtisadi inkişafın xarici ticarət və maliyyə aspektlərinə xüsusi əhəmiyyət verməyə başladılar. İxracat potensialarının genişləndirilməsi iqtisadi inkişaf strategiyasının aparıcı xəttini təşkil etdi. Nəticədə Cənub-Şərqi Asiya ölkələrinin ümumdünya təsarrüfat əlaqələrində rolu durmadan artır, həmin ölkələr beynəlxalq təsarrüfat subyektləri üçün intensiv sənaye, ticarət, texnoloji və valyuta-maliyyə fəaliyyəti üçün əlverişli zonaya çevrilmişdir. Həmin ölkələr qısa tarixi dövr ərzində, yalnız özlərinin sənaye məhsulları üzrə ixracatını durmadan artırmaqla kifayətlənməmiş, eyni zamanda, beynəlxalq əmək bölgüsü sistemində ixtisaslaşmanı dəyişmiş, beynəlxalq səviyyədə yeni istehsal strukturlarının formalaşması prosesinə inteqrasiya etməyə başlamışlar. Onların sənaye cəhətdən inkişafının əsas təkamaülü beynəlxalq əmək bölgüsü sistemində baş verən dəyişikliklərə uyğunlaşma prosesidir. Onların inkişafına Sakit okean regionunda, ilk növbədə, onun iki mərkəzi ABŞ və Yaponiyada gedən proseslərin təsiri kifayət qədər yüksək olmuşdur.

Elmi-texniki tərəqqinin sürətlənməsi və istehsalda elmin rolunun artması, əmək məhsuldarlığının kəskin şəkildə yüksəlməsinə, yeni tipli

texnologiyaya keçilməsini şərtləndirdi, istehsalın strukturunun keyfiyyətə dəyişməsinə səbəb oldu. Bunun əsas təzahürü istehsal və istehlak təyinatlı yeni məhsulların və yeni sahələrin yaranmasında özünü göstərdi. Onlara olan tələbin sürətlə artması ictimai istehsalın strukturunda xidmət sahələrinin xüsusi çəkisinin çoxalması və müvafiq olaraq digər sahələrin, o cümlədən emaledici sənayenin xüsusi çəkisinin azalması və sonuncunun keyfiyyətcə yenidən qurulması ilə nəticələndi. İstehsalın optimallaşdırılması, onun tərkibində elmtutumlu, material və resurslara qənaət edən sahələrin xüsusi çəkisinin çoxalması bu ölkələrdən ixracat axının kəmiyyət və keyfiyyətcə artırılmasına gətirib çixardı. TMŞ-lər həmin proseslərin fəal iştirakçıları idi. Onların fəaliyyəti beynəlxalq maliyyə-kredit təşkilatları tərəfindən təşviq edilirdi. Təsadüfi deyildir ki, Cənub-Şərqi Asiya ölkələrinin qlobal əmək bölgüsü sisteminə yüksək dərəcədə inteqrasiya etməsində, məhz TMŞ-in rolu olduqca yüksəkdir. Daxili və xarici kapital qoyuluşlarının ciddi sürətdə artırılması YSÖ-nin iqtisadi dinamizminin əsasını təşkil edir. Təcrübədə YSÖ-nin iki modeli mövcuddur: birinci model, milli iqtisadiyyatın, əsas etibarilə, xarici bazarlara, ixracata istiqamətlənməsinə, ikinci model isə idxalın əvəz olunması siyasətinə əsaslanır. İkinci modeldən ən çox latın Amerikası ölkələri istifadə etmişlər.

Türkiyədə beynəlxalq iqtisadi inteqrasiya proseslərinin maliyyə-kredit mexanizmi vasitəsilə intensivləşdirilməsi təcrübəsinin də öyrənilməsi vacibdir.

T.Özal dövründə ixracatın təşviq olunması sahəsində həyata keçirilmiş və olduqca müsbət nəticələr vermiş tədbirlər sistemi keçid iqtisadiyyatı ölkələri üçün örnək ola bilər.

Bu tədbirləri dörd qrupa bölmək olar:

– ixracat miqdarı və ya məbləğindən asılı olaraq birbaşa subsidiyalar vasitəsilə təşviqlər: məhsullar ixrac olunarkən ödənilmiş daxili vergilərin geri qaytarılması, dəstəkləmə və qiyməti sabitləşdirmə fondu üzrə verilən subsidiyalar;

– vergi üstünlüyü verilməsi yolu ilə ixracatçıların təşviqi (bu bir çox vergilər üzrə təşviq edilirdi);b– digər dolayı imkanlar yaradan və üstünlük verən təşviqlər (ixracat məhsulları istehsal etmək üçün mal idxalında gömrük istisnaları, idxalat üçün valyuta toplanması, valyutaların ölkə xaricində saxlanılmasına icazə verilməsi və s.)

Bu tədbirlər arasında məhsul ixrac edilərkən daxildə ödənilmiş vergilərin geri qaytarılması sistemi xüsusən təsirli idi. İxracatın yarısına qədəri bu sistemdən faydalanırdı. 1980-1990-cı illərdə ixracatçılara bu yol ilə 4, 3 mlrd. dollar məbləğində vergi geri qaytarılmışdır (307, s. 104).

İnflyasiyaya qarşı mübarizə tədbirlərinin həyata keçirilməsində qəribə bir təzad özünü göstərirdi. Bir tərəfdən mövcud izafi tələbi məhdudlaşdırmaq,

digər tərəfdən isə büdcə kəsirlərini "adi" (inflyasiya yaratmayan) mənbələr hesabına ödəmək üçün vergi gəlirlərinin artırılması istər-istəməz işgüzar fəallığın müəyyən dərəcədə sönməsi ilə nəticələnir. Həyata keçirilən iqtisadi strategiyanın məntiqi isə əks vəziyyəti - işgüzar fəaliyyətin ciddi olaraq canlandırılmasını tələb edirdi.

T.Özal, ona görə də özünün iqtisadi siyasətində pul-dəyər amillərindən ölkədə işgüzar fəallığı canlandırmaq üçün geniş istifadə etməyə başladı. Məsələn, vergi mexanizmində ciddi güzəştlərdən istifadə edilərək təşəbbüsçülər təşviq edilir, onların investisiya fəaliyyəti istiqamətləndirilməyə çalışılırdı. Xalq təsərrüfatının inkişafı üçün birinci dərəcəli əhəmiyyət kəsb edən sahələrin inkişafı, sosial-iqtisadi tərəqqi baxımından geri qalmış Şərq regionlarının canlandırılmasına cəlb etmək üçün də təşəbbüsçülərə böyük güzəştlər nəzərdə tutulurdu. Ölkədə "əsas" vergi olan gəlir vergisinin yüksək həddi 1985-ci ildə 63 faizə (1963-cü ildə 68 və 1981-ci ildə 75 faizdən) endirildi. Xəzinənin maliyyə ehtiyaclarını ödəmək üçün nəzərdə tutulmuş ən aşağı həddi 10 faizdən 25 faizə qaldırıldı. Son nəticədə milli gəlirdə vergilərin xüsusi çəkisi 80-ci illər boyu 20-23 faiz səviyyəsində qalmışdır.

T.Özalın iqtisadi siyasəti xarici kapitala münasibətdə qarşılıqlı mənfəət balansını əsas tutur, xarici mənbələrdən geniş miqyasda faydalanmağa yönəldilir. Əcnəbi kapital qoyuluşlarını hər vasitə ilə təşviq edir.

Açıq qapı siyasəti çərçivəsində Türkiyədə 80-ci illərdə istehsal edilən malların ixracını sürətləndirmək üçün birbaşa maliyyə dəstəyi mexanizmindən də geniş istifadə edildi. Müəyyən edilmiş malların ixracında mükafat sistemi tətbiq edilməyə başlandı. Bu sistemdən yararlanan ixrac mallarının vahidinə və ya fiziki həcminə görə (1 ton ixracat üçün 1-100 dollar arasında) mükafat verilirdi. Bu sistem türk mallarının xarici bazarlarda rəqabət gücünü artırmaq məqsədini güdürdü. Həmin sistem təxminən 120 məhsul növünə şamil edilmişdir. Ödəmə məbləğləri 1987-ci ildə 19, 5 mlrd. türk lirəsindən 1990-cı ildə 1290 mlrd. lirəyə çatmışdır.

1980-1990-cı illərdə ixracatın təşviqi sahəsində həyata keçirilmiş geniş miqyaslı tədbirlərdə radikal dəyişikliklər aparılmışdır; beynəlxalq normalara uyğun olaraq daxildə və xaricdə İşləmə Rejimi təsdiq edilmiş, 1995-ci ildən sonra yeni dövlət yardımları tətbiq edilməyə başlanmışdır.

İxracat üçün böyük əhəmiyyət kəsb edən nəqliyyat, rabitə və digər infrastruktura sahələrinə investisiya qoyuluşları artırılmış; ixracat nüfuzlu məşğuliyyət sahəsinə çevrilmişdir. İxracat sahəsində mövcud olan bürokratik əngəllər qətiyyətlə ləğv olunmaqla davam etmişdir; valyuta nəzarəti təkmilləşdirilmiş, hər növ valyuta idxalı tam sərbəstləşdirilmişdir. 1990-cı ildə qəbul edilmiş qərarla Türk lirəsinin dönərliliyi artırılmış sonralar isə milli valyuta ilə idxal və ixrac sərbəstləşdirilmişdir;

80-ci illərdə irimiqyaslı "xarici ticarət şirkətləri" təşviq edilmişdir. Bu iş

90-cı illərdə daha da genişləndirilmiş, xırda və orta şirkətlərin ixracat sahəsində qüvvələrinin birləşdirilməsi istiqamətində də aparılmışdır;

İxracatçı firmalar sərbəst ixracat apara bildikdən sonra 80-cı illərdə onlara edilən birbaşa maliyyə dəstəyi dayandırılmış və ixracat kredit və sığorta mexanizmi vasitəsilə təşviq edilmişdir.

Açıq qapı siyasəti çərçivəsində aparılan islahatlar mərkəzdən idarəçilik sistemi getdikcə daha çox bazar mexanizmi vasitəsilə əvəz olunmağa başladı. 1981-ci ildə kapital bazarı haqqında Qanun qəbul edildi. Qanunun əsas məqsədi yığımın daha çox qiymətli kağızlara qoyulmasını təmin etmək yolu ilə xalqın iqtisadi inkişafda iştirakına şərait yaratmaq idi. Bir az sonra Türkiyənin kapital bazarında tənzimləyici və nəzarətedici bir orqan yaradıldı. 1986-cı ildə isə İstanbul Qiymətli Kağızlar Birjası (İQKB) işə başladı və ölkənin iqtisadi inkişafında mühüm rol oynadı. Birjanın rolunun artmasında vergilərin sadələşdirilməsi, xarici investorların kapital bazarında iştirakının sərbəstləşdirilməsi mühüm rol oynadı. Həmin birjada 4 bazar fəaliyyət göstərir. Bunlara daxildir: pay sənədləri bazarı, istiqraz və bon bazarı, beynəlxalq bazar və müddətli əməliyyatlar bazarı.

Türkiyədə hal-hazırda ən liberal valyuta rejimi fəaliyyət göstərir. Türk lirəsinə tam dönərlilik statusu verilməklə yanaşı 1989-cu ildən sonra xarici fiziki və hüquqi şəxslər İstanbul Birjasında tam sərbəst əməliyyat apara bilərlər. Həmin Birja dünyanın aparıcı Maliyyə Birjalarının tam hüquqlu üzvüdür. Hal-hazırda İstanbulun dünya maliyyə mərkəzlərindən birinə çevrilməsi üçün ciddi iş aparılır. Ölkənin nəhəng maliyyə institutları, o cümlədən, Mərkəzi Bank həmin şəhərə köçürülür.

Xarici ticarətin liberallaşdırılması və ixracatın hərtərəfli təşviq olunması ölkənin xarici ticarət əlaqələrinə böyük dinamizm gətirmişdir. Xarici ticarət dövriyyəsi 1990-2001-ci illər ərzində iki dəfə artmışdır. İxracat 22,3 mlrd. dollardan 30 mlrd. dollara çatmışdır. 2002-2005-ci illərdə isə ixracat 2,5 dəfə artaraq 36 mlrd. dollardan 85 mlrd. dollara yüksəlmişdir. Hal-hazırda ölkənin ixracatı 120 mlrd. dolları keçmişdir. Türkiyə bu dövrdə xarici ticarətin dinamizmi göstəricisinə görə dünyada ən yüksək olan 10 ölkə sırasına daxildir.

Xarici kapitalın və yeni texnologiyanın ölkəyə daha intensiv daxil olmasını, ixracat üçün kapital qoyuluşlarının artırılmasını, xarici maliyyə və ticarət imkanlarından daha geniş istifadə edilməsini təmin etmək məqsədilə ölkədə "azad zonalar" yaradılmasına və inkişaf etdirilməsinə ciddi fikir verilir. 1985-ci ildə "Sərbəst Bölgələr Qanunu" qüvvəyə minmişdir. 1987-ci ildə Mersin və Antalya azad zonaları açılmışdır. 2002-ci ilə qədər cəmisi 21 sərbəst zona açılmış və fəaliyyət göstərir. Həmin zonalarda aparılan ticarət həcmi 11, 5 mlrd. dollara çatmışdır.

Türkiyənin 80 il ərzində keçdiyi müstəqil inkişaf yolu və dünya birliyinə bərabərhüquqlu subyekt kimi inteqrasiya etməsi üçün göstərdiyi səylər

Azərbaycan və ümumiyyətlə, istiqlaliyyət uğrunda mübarizə aparan Asiya və Afrika ölkələri üçün də bir örnəkdir.

Ədəbiyyat:

1.Самедзаде З. Экономическая безопасностъ государства – важнейшее завоевание независимого Азербайджана – «*Игтисадиййат*» газети, 18. 10. - 1. 11. 2001.

2.Самедзаде З.А. Этапы большого пути. Экономика Азербайджана за полвека, ее реалии иперспективы. Баку, “Нурлар”, 2004 3.“Известия. Финансовые известия”. Совместное издание. “Finansial Taymes”. 2003, N 6, s.14-22.

II BÖLMƏ
TÜRKIYƏ CÜMHURİYYƏTİ QLOBAL İQTİSADİ İNKİŞAF YOLLARINDA

V FƏSİL
TÜRKİYƏ CÜMHURİYYƏTİNİN MEMARLARI

5.1. Tarixin gedişini dəyişdirən şəxsiyyət

Mən yaşaya bilmək üçün mütləq müstəqil dövlətin övladı olmalıyam.
M.K.Atatürk

XX əsr türk xalqının ictimai-siyasi həyatına keşməkeşli və köklü dəyişikliklərlə zəngin olan tarixi dövr kimi daxil olmuşdur. Yarımmüstəmləkə vəziyyətinə düşmüş Osmanlı İmperiyası əsrin əvvəlində rəsmi olaraq dünya xəritəsindən silindi və onun torpaqlarını dünya dövlətləri Sevr müqaviləsinə əsasən öz aralarında bölüşdürdülər. Misilsiz hərbi və siyasi istedada malik olan Mustafa Kamal Atatürk belə bir şəraitdə Türk xalqını Milli azadlıq hərəkatına qaldırdı, tarixin gedişini dəyişdirdi və müstəqil Türkiyə Respublikasını yaratdı.

Tarixi şəxsiyyətlər nəsillərin yaddaşında yaratdıqları və həyatda qoyub getdikləri tarixi abidələrlə əbədiləşirlər.

Görkəmli siyasi və hərbi xadim Mustafa Kamal Atatürkün türk xalqına bəxş etdiyi tarixi abidələr bu xalqın son əsrdə cərəyan edən siyasi və sosial-iqtisadi həyatında öz əksini tapmışdır. Son əsrdə Türkiyədə özünü göstərmiş bütün ciddi siyasi-iqtisadi dəyişikliklər üçün türk xalqı özünün böyük oğlu Mustafa Kamala borcludur. Çünki bütün bu irəliləyişlər bu və ya digər dərəcədə Atatürk şəxsiyyəti və Atatürk irsi ilə bağlıdır. İctimai-siyasi fırtınalarla dolu olan XX əsrin əvvəllərində təbiətin türk xalqına Atatürk kimi realist və tərəqqipərvər bir şəxsiyyət bəxş etməsi Türkiyənin bugünkü tərəqqisi yolunda özünün inkaredilməz tarixi rolunu oynamışdır.

Atatürk şəxsiyyətinin yaranması və yetişməsi bir növ bu şəxsiyyəti yaratmış və yetişdirmiş olan türk xalqının əsrlər boyu yığılıb qalmış ehtiyaclarının bir çoxunun cavabı idi.

Böyüyəndə Türk millətinin müqəddaratını həll edən Mustafa 1881-ci ildə Salonikidə (indi Yunanıstanda iri liman şəhəri) anadan olmuşdu. Atası Əli Riza əfəndi, anası isə Zibeydə xanım idi. Onun doğum günü dəqiq bilinmir. Sonralar, doğum günü haqqında ondan soruşulduqda o, belə cavab

vermişdir: “Nə üçün 19 may 1881-ci il olmasın?” (xatırladaq ki, 19 may 1919-cu il) isə tarixə Atatürkün Anadolu torpaqlarına qədəm basdığı və Türk xalqının zəfərlərlə dolu olan Milli azadlıq hərəkatının başlandığı gün kimi daxil olmuşdur).

Mustafanın uşaqlığı və gəncliyi vaxtilə dünyanın üç qitəsində qüdrətli gücə malik olan Osmanlı imperiyasının ən böhranlı dövrünə təsadüf edir. Bu böhran isə özünü Osmanlı dövlətinin çökməsinə səbəb olan hadisələrin getdikcə dərinləşdiyi Rumelidə (Salonikinin yerləşdiyi yer) özünü daha qabarıq şəkildə göstərirdi. Türklərin yabançılar tərəfindən taptalanması, məhz buradan başlayırdı.

Mustafanın zəngin və qaynar həyat yoluna qədəm qoyduğu hələ uşaqlıq illərində özünü göstərməyə başlamışdır.

Anası onu yaxınlıqdakı məhəllə məktəbinə qoymaq istəyirdi,atası isə, onun müasir tipli başqa bir məktəbə getməsini arzulayırdı. Balaca Mustafa onların hər ikisinin könlünü aldı. Əvvəlcə, anasının arzusuna uyğun olaraq məhəllə məktəbinə, bir az sonra isə atasının istədiyi məktəbə getdi. Bu məktəbdə oxuyarkən 1888-ci ildə atası vəfat etdi. Bununla əlaqədar o, qısa müddət təhsildən uzaqlaşsa da sonra Salonikidə Mülki orta məktəbə daxil oldu. Lakin müəllim onu haqsız olaraq zopa ilə vurduğu üçün bu məktəbdən çıxdı. Sonra anasına xəbər vermədən müvəffəqiyyətlə imtahan verib, hərbi orta məktəbə qəbul olundu.Anası fakt qarşısında qalaraq, bu qərarı qəbul etməyə məcbur oldu.

Mustafanın gələcəkdə qüdrətli hərbi və siyasi xadim kimi yetişməsində bu məktəbin rolu böyük olmuşdur. Həmin məktəbin riyaziyyat müəllimi şagirdinin zəkasına heyran olmuş və onu sinifdəki digər Mustafalardan fərqləndirmək üçün adının sonuna “ Kamal” sözünü əlavə etmişdir.

Mustafa Kamal hərbi orta məktəbi bitirdikdən sonra Manastr hərbi İdaddisinə daxil oldu. Paralel olaraq fransız dilini öyrədən məktəbdə də oxudu. Hərbi idaddini bitirdikdən sonra hərbi akademiyaya daxil oldu və oranı 1905-ci ildə “Kurmay yüzbaşı” (qərargah kapitanı) rütbəsi ilə bitirdi. Sonsuz hərbi dühası onu sonralar məğlubiyyət nə olduğunu bilməyən istedadlı bir sərkərdəyə çevirdi, “Qazi” rütbəsinə yüksəltdi. Hərbi həyatında O, ordunun içində sıravi əsgərlər ilə yan-yana olur, öz davranışı ilə onlara güc və cəsarət verirdi. Hərbi döyüşlər onun təcrübəsini zənginləşdirir, zəfərdən zəfərə aparırdı. Milli azadlıq hərəkatı dövründə onun qazandığı misilsiz qələbələr Türk tarixinə və dünya hərb tarixinə qızıl hərflərlə yazılmışdır.

Mustafa Kamalın hərbi dühası və hərbi zəfərləri Türkiyə tarixini kökündən dəyişdirən siyasi zəfərlərin təməli oldu.

Mustafa Kamalın hərbi məktəbdə və hərbi akademiyada oxuduğu illər mütləqqiyyət üsuli-idarəsinin öz varlığını hər vasitə ilə qorumağa çalışdığı illərə təsadüf edir. Bu zaman hərbi məktəb gizli müxalifətin başlıca

mərkəzlərindən biri idi. Sərt qayda-qanuna baxmayaraq, hərbçilər Namiq Kamalın və digər tərəqqipərvər türk xadimlərinin əsərlərini gizli yayır və oxuyurdular. Sonralar Mustafa Kamal bu dövrdəki həyatı haqqında belə yazırdı. "Dərslərə yaxşı hazırlaşırdım. Məndə və bəzi yoldaşlarımda yeni fikirlər oyandı. Ölkənin idarə olunmasında və siyasətində fənalıqlar olduğunu kəşf etməyə başladıq. Minlərlə hərbi məktəb tələbələrinə öz kəşfimizi başa salmaq həvəsinə düşdük. Məktəbdə onlar arasında oxunmaq üçün bir qəzet təsis etdik. Sinifdə balaca təşkilatımız var idi. Mən idarə heyətində idim. Qəzetin məqalələrinin çoxunu mən yazırdım". Bu hərəkətlərinə görə o, üsyankar bir zabit kimi tanınmışdır. Hərbi akademiyanı bitirdiyi günlərdə sultanlıq rejmi əleyhinə mövqeyi və düşüncələri şübhə yaratdı və bir ay İstanbulda həbsdə yatdı. Sonra isə bir növ, sürgün olunaraq 5 fevral 1905-ci ildə Suriyaya Şam şəhərinə vəzifəyə göndərildi və bununla da mərkəzdən uzaqlaşdırılmış oldu. Lakin buna baxmayaraq o, məhz burada, siyasi proseslərə qoşuldu. 1906-cı ildə gizli "Vətən və Azadlıq Cəmiyyətini" yaratdı və onun fəaliyyətini ölkənin böyük bir ərazisinə yaydı. Az sonra "İttihat və Tərəqqi" cəmiyyətinə daxil oldu. Lakin onun Gənc Türk liderləri ilə səmimi əlaqələri olmamışdır. Gənc Türklər inqilabından sonra o, bir müddət yalnız hərbi fəaliyyətlə məşğul oldu. Düşmən üzərində çaldığı qələbələr ona şöhrət gətirmiş, milli qəhrəmana çevirmişdir.

İctimai həyata, ilk növbədə, mahir bir sərkərdə kimi atılan Atatürk, özünü az bir zamanda mətin, azadlıq mübarizi kimi bütün dünyada tanıtdı.

Vaxtilə dünyada qüdrətli bir dövlət kimi tanınmış Osmanlı imperiyası əslində hələ XIX əsrin axırlarında yarımmüstəmləkə vəziyyətinə düşmüşdü. Üstəlik, XX əsrin əvəllərində özünü göstərən ictimai-siyasi gedişi imperiyanı müstəmləkə olmağa doğru sürükləyirdi. Zaman irəlilədikcə, siyasi və iqtisadi həyatda özünü göstərən böhran və tənəzzül həyatın bütün sahələrinə sirayət edirdi. Mütləqiyyət rejiminin hüdudsuz hökmranlığına qarşı yönəlmiş "Gənc Türklər" hərəkatı 1908-ci ildə kontitutsiyalı monarxiya yaradılması ilə nəticələndi.Bu hərəkat ölkədə kapitalizmin inkişafına müəyyən təkan verməyə başladı. Lakin dünyanın yenidən bölüşdürülməsi uğrunda aparılan birinci dünya müharibəsi sultanlığın aqibətini həll etdi. Sultanlığın son liderlərinin panislamizm və pantürkizm ideyalarından qida alan xarici siyasəti ölkəni, sözün əsl mənasında, fəlakətə gətirib çıxardı.

Hələ birinci dünya müharibəsinin başlanması ərəfəsində imperialist dövlətlər Sultan Türkiyəsini öz aralarında bölüşdürmək haqqında danışıqlara başlamışdılar. Onların 1915-1917-ci illərdə biri-biri ilə bağladıqları sazişlər İmperiyanın, demək olar ki, bütün torpaqlarının əlindən alınmasını və öz aralarında bölüşdürməsini nəzərdə tuturdu: Şərq vilayətləri Rusiyaya keçməli idi; Suriya və ətrafı Fransaya verilirdi; Mesopatomiya, habelə İzmir-Aydın dəmir yollarının keçdiyi əraziyə ingilislər göz tikmişdilər; Anadolu isə almanlar üçün nəzərdə tutulurdu.

Sultan Türkiyəsinin taleyini 10 avqust 1920-ci ildə İstanbul hökumətinin imzaladığı Sevr müqaviləsi hüquqi cəhətdən həll etdi. Həmin müqavilənin şərtlərinə görə, Sultan Türkiyəsi öz ordusunu buraxmalı (Antantanın nəzarətinə tabe olan cəmisi 15000 əsgər saxlaya bilərdi), hərbi donanmanı, əslində, ləğv etməli idi (cəmisi 7 gözətçi gəmi və polis üçün 6 mina daşıyan saxlanılmasına icazə verilirdi); Türkiyə özünün Suriya, Fələstin, Ərəbistan yarımadası, Transiordaniya və Mesopatamiyadakı torpaqlarından məhrum olmuş, Şərq Frakyadakı ərazisinin əksəriyyətini itirmiş (Türkiyədə şərti saxlanılmış olan İstanbul və onun ətrafından başqa); İzmir isə əslində, Yunanıstana verilmişdir. Ermənistana müstəqillik verilməsi və onun ərazisini Ərzurum, Van, Trapezund və Bitlis rayonlarına qədər genişləndirilməsi müqavilədə ayrıca maddə kimi nəzərdə tutulmuşdur. Kürdüstan hökumətinin yaradılması müqavilədə qeyd edilirdi. Müqavilənin şərtlərinə görə, Türkiyəyə yalnız Mərkəzi Anadolu qalmalı idi.Müqavilənin maliyyə-iqtisadi məsələlərə həsr olunmuş maddələri, sözün əsl mənasında, qarətçi mahiyyətə malik idi. Müqavilə ilə Türkiyə əslində müstəqil dövlət kimi öz fəaliyyətini dayandırırdı. Atatürk sonralar qeyd edirdi: "Osmanlı məmləkətləri tamamilə parçalanmışdır. Ortada bir ovuç türkün yaşadığı bir ata yurdu qalmışdı. Son məsələ bunun da bölüşdürülməsini həyata keçirməkdən ibarət idi. Osmanlı dövləti, onun istiqbalı, padşah və xəlifə, hökumət - bunların hamısı öz məzmununu itirmiş ifadələrdən ibarət idi".

Bu, dünya tarixinin gedişi idi. Lakin tale bu tarixi dəyişdirmək üçün Türk xalqına dahi Mustafa Kamal şəxsiyyətini bəxş etmişdir.

Sultanlıq rejimi tərəfindən əslində millətin əl-qolunu bağlayaraq, əcnəbi əsarətinə tabe etmək missiyası ilə Anadoluya göndərilən Mustafa Kamalın Samsuna 19 may 1919-cu ildə ayaq basdığı gün tarixə Milli azadlıq hərəkatının başlandığı gün kimi daxil olmuşdur.

"Ya istiqlal, ya ölüm!" şüarını irəli atmış Kamal Atatürk ilk baxışda mümkün olmayan bir şəraitdə xalqı antiimperialist müharibəyə çağırdı və tarixdə öz layiqli yerini tutmuş olan Milli-azadlıq hərəkatına başçılıq etdi. Həmin dövrün başlanğıcını böyük öndər belə dəyərləndirmişdir. "Mən 1919-cu ilin may ayında Samsuna gəldikdə əlimdə maddi heç nə yox idi. Yalnız, böyük Türk milətinin keyfiyyətindən doğan və mənim vicdanımı dolduran yüksək, mənəvi bir qüvvət vardı. Əslidnə, mən bu milli qüvvəyə, bu Türk millətinə güvənərək işə başladım".

Bu hərəkat hər şeyin artıq olub-bitdiyi kimi görünən bir şəraitdə başlamışdır. Milli azadlıq hərəkatının lideri, bir tərəfdən İstanbuldakı işğalçı qüvvələrin oyuncağına çevrilmiş hökümətlərlə, Padişahın iradəsinə qarşı çıxdığı üçün onu "kafir" elan etmiş fitvalarla, hökümətə tabe olan məhkəmənin "edam" qərarı ilə körüklənən daxili üsyanlarla, digər tərəfindən isə birinci dünya müharibəsindən qalib çıxmış və düyna ağalığına iddiaçı olan nəhəng dövlətlərlə ölüm-dirim müharibəsi aparırdı.

Milli azadlıq hərəkatı dövründə Baş komandan kimi onun rəhbərliyi ilə Türk xalqının qazandığı qələbələrin və müharibəni aparma texnikasının tarixdə analoqu yoxdur. Onun məşhur ifadəsi - "Vətənin hər qarış torpağı, vətəndaş qanı ilə islanmadıqca tərk olunmaz", - qəhrəman türk əsgərlərinin dilinin əzbəri olmuşdur. Atatürkün ən böyük hərbi zəfərlərindən biri olan Sakarya döyüşləri haqqında Nyu-Yorkda çap olunan bir qəzet belə yazırdı: "Sakarya boylarındakı Türk zəfəri, Yaxın və Orta şərqin siyasi qurluşunu kökündən dəyişdirdi. İki yüz ildən bəri Qərb Osmanlı İmperiyasını parçalamaqda idi. Fəqət Sakarya çayında türkün özü ilə qarşılaşdı və qarşılaşmada tarixin gedişi dəyişdi. Tarix bir gün, bu az tanınan Sakarya qarşılaşmasının dövrümüzün qədərini dəyişdirən savaşlarından biri olduğunu kəşf edəcəkdir".

Mustafa Kamal Paşa Milli azadlıq hərəkatı dövründə qazandığı Cahanşümül qələbələrdən sonra zəfər sərxoşluğuna qapılmadan hərbi qələbələri son dərəcə açıq gözlə, qətiyyətlə və böyük ustalıqla, siyasi və diplomatik cəbhədə həyata keçirməyə başladı. Türk millətini əvvəlcədən nəzərdən tutduğu məqsədə çatdırdı. O, israrla qeyd edirdi: "Hərbi zəfər qurtuluş üçün yetərli deyildi, bu gün çatdığımız nöqtə həqiqi qurtuluş nöqtəsi sayıla bilməz". Hesab edirdi ki, əsl qurtuluşa siyasi, sosial və iqtisadi strukturu müasir biliklər əsasında yenidən qurmaqla nail olmaq olar.

1918-1922-ci illərdə qələbə çalmış hərəkat ölkənin istiqlaliyyətinin təmin edilməsi və müstəqil Türkiyə Respublikasının yaranması ilə nəticələndi. 1923-cü ildə bağlanmış olan Lozan müahidəsi ölkənin yalnız siyasi sahədə deyil, digər sahələrdə də (iqtisadiyyat, xüsusən, maliyyə) istiqlal qazanması üçün geniş yollar açdı. Əcnəbilərin ölkədə hökmranlğının əsaslarını məhv etdi. Öz canından artıq sevdiyi xalqının istiqlaliyyəti uğrunda yorulmaz mübarizi kimi özünü göstərmiş gənc general - Kamal Paşa sonralar tarixə realist və uzaqgörən böyük dövlət başçısı kimi daxil oldu.

Ölkənin ictimai siyasi və mənəvi həyatını bürümüş dərin cəhalət Mustafa Kamalda orta əsrlərin qaranlığlarına qarşı dərin nifrət hissi oyatmış, onu yenilik sevər ruhda fəal, çağdaşlıq mübarizi kimi yetişdirmişdir.Avropalıların yekdilliklə "xəstə adam" adlandırdıqları Sultan Türkiyəsinin yaraları yalnız yabançı istilasının aradan qaldırılması ilə sağaldıla bilməzdi. Dərin kök salmış, qorxulu bir şəkil almış "daxili xəstəliklər" də öz müalicəsini gözləyirdi. Tamamilə təbiidir ki, "...kamalçı inqilab adlanan inqilab, xarici işğalçılara qarşı mübarizə ilə məhdudlaşmadı, ölkənin daxili həyatını da əhatə etdi". "Daxili xəstəliklərin" əlacını Milli-azadlıq hərəkatının lideri ictimai-siyasi və mənəvi həyatda orta əsr qalıqlarına sarsıdıcı həmlə etməkdə, geniş miqyasda müasir mədəni millətlər səviyyəsinə doğru irəliləməkdə görürdü. O, təkidlə qeyd edirdi: "Sivilizasiya yolunda qazanılacaq müvəffəqiyyət yeniləşmə dərəcəsindən asılıdır. Sosial həyatda, iqtisadi həyatda, elm və texnika sahəsində müvəffəqiyyətli olmaq üçün yeganə inkişaf və irəliləmə yolu budur.

Vaxt keçdikcə həyat və yaşayışı istiqamətləndirən hökmlərin dəyişdirilməsi, inkişafı vəyenilişməsi zəruridir. Sivilizasiyanın, kəşflərin artdığı, texnikanın xariqələr yaratdığı, onların dünyanı dəyişiklikdən dəyişiliklərə sürüklədiyi bir dövrdə əsrlərdən qalmış köhnə fikirlərlə, keçmiş düşkünlüklə mövcudiyyəti mühafizə etmək mümkün deyildir".

Milli-azadlıq hərəkatının qələbəsindən sonra Türkiyədə ictimai-siyasi proseslərin təkamülündə kamalizmin konstitutsiya və o dövrdə hakim partiya-Cümhuriyyət Xalq Partiyasının proqramı səviyyəsinə yüksəldilmiş olan altı prinsipi: Respublikaçılıq, millətçilik, xalqçılıq, dünyəvilik, dövlətçilik və inqilabçılıq prinsipləri mühim rol oynamışdır.

Atatürkün Türk xalqına hədiyyə etdiyi, Türk gəncliyinə göz bəbəyi kimi qorumağı dönə-dönə tapşırdığı ən böyük tarixi əsəri Türkiyə Respublikasıdır. 29 oktyabr 1923-cü ildə axşam qaranlığı düşəndə Ankarada atılan yüz bir top atəşi Respublika erasının açılıdığını türk xalqına və bütün dünyaya bildirdi.

Sultanlıq üsuli-idarəsinin ləğvi və respublika rejiminin yaradılması ölkənin ictimai-siyasi həyatının yeniləşməsi üçün zəmin təşkil etdi. Məlum bir həqiqətdir ki, ölkədə yeni tipli siyasi institutların yaradılmasında, sosial, hüquqi, mədəni və iqtisadi həyatın yenidən qurulmasında, bir sözlə, ölkənin gələcək inkişafa yolunun müəyyən edilməsində Qərb sivilizasiyası, Qərbin keçdiyi tarixi inkişaf yolu bir örnək rolunu oynadı. Mustafa Kamal çıxışlarından birində demişdir: "Ölkəmizi çağdaşlaşdırmaq istəyirik. Bütün səyimiz Türkiyədə çağdaş Qərb nümunəsi ilə bir hökümət qurmaqdır. Sivilizasiyaya daxil olub, lakin Qərbə yönəlməyən millət hansıdır?" Atatürkçülüyün təməl daşını millət və onun mənafeyinə dair idealar təşkil edir. Mustafa Kamalın başçılıq etdiyi hərəkat tarixə Milli azadlıq hərəkatı adı ilə daxil olmuşdur. O hərəkat millət tərəfindən həyata keçirilmişvə son məqsədi də Atatürkün sözləri ilə desək, "milli hakimiyyətə əsaslanan, qeydsiz-şərtsiz, müstəqil yeni bir türk dövləti yaratmaq olmuşdur." Atatürkün millətsevərliyi son nəticədə türk millətinin özünəməxsus keyfiyyətlərinin qorunub saxlanılmasına, suveren dövlət aparatının yaradılmasına yönəldilmişdir. İmperializm təcavüzünə qarşı mübarizə, milli özünüdərk və özünü təsdiq Atatürk millətçiliyində mühim cəhətlərdəndir. Bu millətsevərlik keçmiş millətçiliyin panislamizm və pantürkizm cərəyanlarından azad olmuşdur. Kamalizmdə millətçilik anlayışı xalqçılıq prinsipi ilə sıx əlaqədardır. İkinci birincinin tamalayıcısı, sosial-siyasi həyatda özünü göstərmə formasıdır. Atatürkün düşüncəsinə görə, milli hərəkatın əsas məqsədi "xalqın hegemonluğuna, xalqın iradəsinə əsaslanan bir hökümət" yaratmaqdır.

Teokratik dövlət aparatının dünyəvi siyasi quruluşla əvəz edilməsi Atatürkün böyük tarixi xidmətlərindən biri idi. Mövhumatın dərin kök salmış olduğu, xəlifəliyin əsrlər boyu hökmranlıq etdiyi bir cəmiyyətdə belə bir radikal tədbir cəsarətli olmaqla böyük tərəqqi idi. İndiki nəslin gözünün

qabağında, hətta XX əsrin sonlarında da dünyanın müxtəlif nöqtələrində din bayrağı altında siyasi cərəyanlar meydana gəlir, teokratik dövlət quruluşu yaratmaq və mövcudlarını daha da möhkəmləndirmək üçün cəhdlər edilir. Bütün bunlar nəzərə alındıqda, hələ 20-ci illərin əvvəllərində Atatürkün dünyəvi dövlət yaratmaq tədbirinin əhəmiyyəti daha da aydın olur. Dinə dərin hörmək göstərən Atatürk qeyd edirdi: "Din bir vicdan məsələsidir. Hər kəs vicdanının səsini eşitməkdə sərbəstdir. Biz dinə hörmət edirik. Düşüncə və düşüncəyə müxalif deyilik. Biz sadəcə olaraq dini işləri milli və dövlət işləri ilə qarışdırmamağa çalışır, kasta və digər cinayətkar fəaliyyətlərə əsaslanan fanatizmi qəbul etmirik". Atatürkün bu cəsarətli addımı mühafizəkar qüvvələrin ciddi müqavimətinə rast gəlsə də, özünə çoxlu tərəfdar tapdı. Dinə dərindən inanan bir şair kimi tanınmış Məhmət Akif "Səfahət" adlı əsərində Atatürkün yeniliklərindən ilham alaraq, "təvəkkül Allaha", - deyib, hər şeyi Allahdan gözləyənləri tənqid atəşinə tuturdu:

İllərcə, əsrlərcə sürən uyqudan artıq,
Silkin də, mühitindəki zülmləri yax, yıx.
Bir baxsana, göylər oyanıq, yer oyanıqdır,
Dünya oyanıqkən, yatmaq bir məsqərəlikdir.

Kamalizm ideyalarının mühüm tərkib hissəsini Atatürkün iqtisadi görüşləri təşkil edir.

Mustafa Kamal tamamilə əmin idi ki, siyasi istiqlaliyyət, yalnız ölkənin iqtsiadi cəhətdən də müstəqil olması şəraitində mümkündür. O, inamla qeyd edirdi: "Siyasi, hərbi zəfərlər nə qədər böyük olursa-olsun, əgər iqtisadi zəfərlərlə taclandırılmazsa, əldə edilən zəfərlər davamlı ola bilməz, az zamanda sönər".

Respublikanın yaranması ölkənin sosial-iqtisadi həyatının müasirləşməsi və yabançıların istismarından azad olunması üçün geniş imkanlar açdı. Siyasi üstqurumun məqsədyönlü təsiri ilə ölkənin inkişafı ciddi şəkildə sürətləndi. Respublikanın mövcud olduğu 84 il ərzində Türkiyə inkişaf səviyyəsi baxımından keçmişdə özü vəziyyətində olan Asiya və Afrika ölkələrinin əksəriyyətinin sıralarından qoparaq, orta səviyyədə inkişaf etmiş ölkələrin sıralarına daxil oldu. Son 30 ildə nail olduğu iqtisadi inkişaf sürətinə görə o, dünyanın qabaqcıl ölkələrinin çoxunu xeyli qabaqlamışdır. Bunu nəzərə alaraq, Respublikanın rəhbərləri Türkiyənin XXI əsrin əvvəllərində inkişaf etmiş kapitalist ölkələri sıralarına daxil olacağı fikrini irəli sürməyə başlamışlar.

İki qitənin – Avropa və Asiya qitələrinin istər ərazi, istərsə də siyasi, iqtisadi və mənəvi baxımdan kəsişdiyi məkanda dünyaya göz açmış, boya-başa çatmış Atatürk hər iki dünyanın məziyyətlərinə dərindən bələd idi. Onun bir siyasi xadim kimi formalaşmasında belə bir görüş mühüm rol oynamışdır:

Şərq və Qərb arasında çox baxımdan dərin uçurum vardır; uçurum iqtsiadi sahədə daha dərindir; Qərb iqtisadi mexanizmdən istifadə edərək Şərq ölkələrini amansız istismar edir; türk xalqları orta əsrlərdən qalmış iqtsiadi gerilik şəraitində dözülməz həyat tərzinə məruz qalmışdır. Mustafa Kamal yaranmış vəziyyətdən çıxış yolunu ölkənin imperialist dövlətlərindən asılılığının ləğv olunmasında görürdü.

Mustafa Kamalın başçılıq etdiyi yeni siyasi rejim ölkənin əsrlərdən qalmış ümumi geriliyinin aradan qaldırılması yolunu milli iqtisadiyyatın təxirə salınmadan dirçəlməsində görürdü.

Mustafa Kamal Atatürk özünün ictimai-siyasi həyatı çağdaşlaşdırmaq haqqqındakı ideyalarını Milli-azadlıq hərakatının qələbəsindən sonra praktik olaraq həyata keçirməyə başladı. Respublikanın təşəkkül tarixi,keçirilən cəsarətli islahatlar əslində onun siyasi tərcümeyi-halını təşkil edirdi: Sultanlıq ləğv edilərək (1922-ci il) Respublika elan olundu (1923). Xəstəlik aradan qaldırıldıqdan sonra, 1925-ci ildə təkkə və zəviyyələr bağlandı. İslam təqvimi beynəlxalq təqvimlə əvəz olundu (1 yanvar 1926-cı ildən sonra). Keçmişdə şəriət prinsipləri əsasında fəaliyyət göstərən və türk kəndlisini var-yoxdan çıxaran "aşar" adlı vergi ləğv edildi, fəs əvəzinə şapka geyilməsi haqqında qərar qəbul olundu. 1926-cı ildə şəriətə əsaslanan məcəllənin əvəzinə Avropa (İsveçrə) nümunəsi əsasında yeni vətəndaşlıq və cinayət kodeksi qüvvəyə mindi.

1928-ci ildə ərəb əlifbasının yerinə latın əlifbası qəbul edildi və maarif sahəsində geniş islahatlar keçirməyə başladı. Ərəb və fars dillərində keçirilən dərslər orta məktəb proqramından çıxarıldı və dil türkləşməyə başladı. İslam dininin dövlət dini olması haqqındakı konstitutsiya maddəsi ləğv edildi (1928). Qadınlara seçki hüququ verildi və onlar iki dəfə 1930-cu ildə bələdiyyə seçkilərində iştirak etdilər: 1935-ci ildə 15 qadın Türkiyə Böyük Millət Məclisinə seçildi. Türk şəhərlərinə göndərilən məktubların ünvanlarında adların türkcə yazılması məcbur edildi. 1930-cu ildə qəbul edilən qanunla dini libasın, yalnız iş başında geyilməsinə icazə verildi, titullar ləğv edildi: 1935-ci ildə qüvvəyə minən soyad qanunu ilə ərəbcə ailə adları, türk soyadları ilə əvəz olundu. Həmin ildən başlayarq, istirahət günü cümə günündən bazar gününə keçirildi. 30-cu illərdə dövlətçilik prinsipini əsas tutan iqtisadi siyasət həyata keçirilməyə başladı. Həmin illərdə ilk iki beşillik planlar tərtib edildi, milli sənayenin və milli bank sisteminin dirçəldilməsi, nəqliyyatın inkişaf etdirilməsi, iqtisadi dövlət təşkilatları sisteminin yardılması, yerli xüsusi təşəbbüsçülüyün canlandırılması yolunda ciddi işlər görüldü.

Prof. T.Feyzioğlunun qeyd etdiyi kimi: "Yalnız səltənəti ləğv edib Cümhuriyyəti yaratması; yalnız hegemonluğun bir şəxsə deyil, millətə aid olduğu gerçəyinin beyinlərə, könüllərə israrla yerləşdirilməsi; yalnız Xəlifəliyə və teokratik dövlətə son verib, dünyəvi və müasir bir dövlət qurması, yalnız mədrəsə təhsilinin əvəzinə, müasir təhsili və elmi düşüncəni

gətirməsi; yalnız 100 illərlə davam edən məzhəb çəkişmələrinə qətiyyətlə son qoyması; yalnız türk millətinin birliyi və bütövlüyünü gücləndirməsi – bu xidmətin təkbaşına hər biri – Mustafa Kamal Atatürk adını tarixə qızıl hərflərlə yazdırmağa kifayət edərdi".

Həyatına istedadlı hərbçi kimi başlayan, tarixə misilsiz sərkərdə kimi daxil olan Mustafa Kamal Paşa ömrünün son 15 ilinin böyük və müdrik dövlət başçısı kimi başa vurdu.

Tanınmış ingilis tarixçisi Arnold İ.Toynbee Türk inqilabının böyüklüyünü avropalılara başa salmaq üçün belə bir bənzətmə aparırdı: "Bir anlığa təsəvvür edək ki, Qərb dünyasında Renessans, Refamasion, XVII əsrin sonunda başlayan elmi və düşüncə inqilabları, Fransa inqilabı, sənaye inqilabı bir insan ömrünə yerləşmişdir".

5.2.Atatürkün türk dünyasi (Atatürk haqqında müsahibə)

"Dədəm Qorqud" qəzeti, 1991-ci il, № 8.

Allahın bu oğulu mənə vətəni qurtarmaq üçün göndərdiyinə inanıram.
Atatürkün anası.

1991-ci il mayın 19-unda Qazi Mustafa Kamal Atatürkün (1881-1938) anadan olmasının 110 illiyi tamam oldu. əslində Atatürkün doğulduğu gün dəqiq bəlli deyil. "Hansı gündə anadan olmusunuz?"- sualına Mustafa Kamal "19 mayda" cavabını verib. 1919-cu ilin 19 mayı onun silahdaşları ilə birgə Samsuna gəldiyi və Türkiyədə Milli Azadlıq Hərəkatının başlandığı gündür.

Azərbaycan EA Şərqşünaslıq İnstitutu Türkiyə tarixi və iqtisadiyyatı şöbəsinin müdiri Dünyamalı Vəliyev Atatürkün həyatı və tarixi xidmətləri barədə yığcam məlumat verir:

- Atatürk görkəmli hərbi və siyasi xadimdir. Bunu necə şərh edərsiniz?

Sultan hökumətinin satqınlığı və bacarıqsızlığını görən Mustafa Kamal türk xalqını milli azadlıq hərəkatına qaldırıb. 1923-cü il aprelin 23-dən ömrünün sonuna qədər Türkiyə Respublikasının Prezidenti olub. Onu bu şərəfli vəzifəyə xalq dörd dəfə (1923, 1927, 1931, 1935) seçib.

Mustafa Kamal türk xalqını əsarət altına düşməkdən, dövlət müstəqilliyini itirməkdən qurtarıb. O, Qərb dövlətlərinin Türkiyəni parçalamaq planlarını puça çıxarıb. Atatürkün türk xalqına ən böyük tarixi xidməti Türkiyə Respublikasıdır. Sultanlıq idarə üsulunun ləğvi və respublika dövlət quruluşunun yaradılması ölkədə ictimai-siyasi həyatın yeniləşməsinə zəmin oldu.

Atatürk Şərq və Qərbin məziyyətlərinə yaxından bələd idi. Avropa dövlətlərinin keçdiyi təkamül yollarını və orada özünü göstərən siyasi fikir

cərəyanlarını dərindən bilən Mustafa Kamalın düşüncə sistemi, bir yandan Qərb dünyasının təsiri altında formalaşır, digər tərəfdən də türkçülük ideyaları və sevgisi içində yoğrulurdu. Türk cəmiyyətinin tarixi xüsusiyyətləri və o dövrdə mövcud olan ümumbəşəri sivilizasiya şərtləri onun düşüncə sistemini formalaşdıran başlıca amillər idi. Bu amilləri nəzərə alaraq Atatürk özünün ictimai-siyasi fəaliyyətində türk – islam sintezindən daha çox türk – dünyəvilik – Qərb sintezini əsas tuturdu, ilahiyyatçı dövlət aparatını dünyəvi siyasi quruluşla əvəz edirdi. Ölkədə yeni tipli siyasi institutların yaradılmasında, sosial, hüquqi, mədəni və iqtisadi həyatın yenidən qurulmasında, bir sözlə, ölkənin gələcək inkişaf yolunun müəyyən edilməsində Qərb sivilizasiyası, Qərbin keçdiyi tarixi inkişaf yolu bir örnək rolunu oynadı. Bununla yanaşı, Mustafa Kamal dönə-dönə bildirirdi ki, biz Qərbi kor-koranə yamsılamaq fikrində deyilik.

Dinə dərin hörmət bəsləyən Atatürkün fikrincə, din dövlət işlərinə qarışmamalı, ancaq vicdanlardakı yüksək və müqəddəs yerini qorumalıdır, dünyəvilik dinsizlik, din düşmənçiliyi, dinə hörmətsizlik demək deyildir, əksinə, dinin maddi mənfəət güdməsindən uzaq tutulması, siyasətə alət edilməməsidir.

Şübhəsiz, bugünkü Türkiyə məhz Qazi Mustafa Kamal Atatürkün ideyaları üzərində yüksəlib, dünyanın ən qabaqcıl, ən demokratik dövlətlərindən birinə çevrilib.

M.Ə. – Dünyamalı müəllim, bir mütəxəssis kimi Atatürkün həyat və fəaliyyəti haqqında nə deyə bilərsiniz?

D.V. - Mustafa Kamal Atatürk 1881-ci ildə Türkiyənin Rum elində (Avropa hissəsində), Saloniki şəhərində anadan olmuşdur. O zamanlar Osmanlı imperiyasında əhalinin qeydiyyatı davamlı olaraq aparılmadığı üçün onun anadan olduğu gün dəqiq məlum deyildir. Sonralar "Hansı gündə anadan olmusan?" – sualına özü belə cavab vermişdir: "Nə üçün 19 may 1881-ci il olmasın?" 19 may isə məlum olduğu kimi, istər Atatürkün həyatında, istərsə də Türkiyənin tarixində mühüm dönüş nöqtələrindən biridir. Belə ki, 19 may 1919-cu ildə Mustafa Kamal öz həmfikirləri ilə birlikdə Samsuna gəlmiş və həmin gün tarixə Türkiyədə Milli Azadlıq Hərəkatının başlandığı gün kimi daxil olmuşdur.

Mustafa Kamalın atası Əli Rza Əfəndi, anası – Zibeydə xanımdır. İki bacısı olmuş – Məqbulə və Naciyə (sonuncu gənc ikən ölmüşdür).

M.Ə. – Mustafa Kamalın hərbi və siyasi xadim kimi, milli lider kimi formalaşmasında doğulduğu və boya-başa çatdığı mühitin nə kimi rolu olmuşdur?

D.V. – O, təlim-tərbiyəsini türk və islam ənənələrinin güclü olduğu bir ailədə almışdır. Onun uşaqlıq illərinin keçdiyi Saloniki - Osmanlı imperiyasının İstanbuldan sonra ən mühüm ticarət mərkəzlərindən biri, bir çox ziddiy-

yətli siyasi hadisələrin cərəyan etdiyi, Şərq və Qərb mədəniyyətinin culğalaşdığı bir liman şəhəri idi.

Qərb imperializminin sultanlığa qarşı düşmənçilik və təxribatçılıq hərəkətləri də özünüən çox bu şəhərdə hiss etdirirdi. Balaca Mustafanın dünyaya göz açdığı və yetişməyə başladığı dövrün özü də ibrətamiz bir dövr idi: Osmanlı istibdadının yaratdığı mötəbərlik və mütilik dövrü, vaxtı ilə qüdrətli olmuş bir imperiyanın uçuruma doğru irəlilədiyi bir dövr idi. Şübhəsiz, bütün bunlar Mustafa Kamalın hələ gənc ikən üsyankar ruhda böyüməsi üçün şərait yaratmışdır.

M.Ə. – Mustafa Kamal siyasi mübarizəyə neçə yaşından qoşulmuşdur? Onun hərbi uğurları barədə...

D.V. – Hələ 16 yaşında ikən (1887-ci il) o, könüllü olaraq türk-yunan müharibəsinə getməyə can atmışdır. 1906-1908-ci illərdə "Vətən və hürriyyət" cəmiyyətində; sonralar isə Salonikidə özünün yaratdığı "Tərəqqi və İttifaq" cəmiyyətinin işlərində tükənməz enerji ilə iştirak etmişdir. O, 1908-ci ildə gənc türklər inqilabında iştirak etmiş, 1911-1912-ci illərdə İtaliya – türk, 1912-ci ildə isə Balkan müharibələrinin iştirakçısı olmuşdur. 1913-1914-cü illərdə Bolqarıstanda hərbi attaşe idi.

Birinci dünya müharibəsi, xüsusən, Dardanel boğazının müdafiəsi (1915-ci il) zamanı gənc olmasına baxmayaraq, sultanlığın hərbi pillələri ilə sürətlə irəliləmişdir. 1916-1917-ci illərdə Qafqaz və 1917-1918-ci illərdə Suriya-Fələstin cəbhələrində yüksək hərbi vəzifələr tutmuşdur.Türkiyənin məğlub olması haqqında Mudros (1918-ci il) müqaviləsi bağlandıqdan sonra Antanta tərəfindən müqavilə şərtlərinin pozulmasına qarşı etiraz etmişdir. Sultan hökumətinin xalqa xəyanətini aydın başa düşən Mustafa Kamal 1919-cu ildən türk xalqını Milli-Azadlıq Hərəkatına qaldırdı və onun əvəzedilməz başçısı oldu.

M.Ə. – Mustafa Kamal bir Prezident kimi hansı işləri gördü?

D.V. – 23 aprel 1923-cü ildən sonra isə ömrünün axırına qədər (1938-ci il) Mustafa Kamal Türkiyə Respublikasının prezidenti oldu. Bu vəzifəyə onu xalq dörd dəfə (1923, 1927, 1931 və 1935-ci illərdə) seçdi.

O, özünün vətənə olan məhəbbətini 1923-cü ildə İzmirdə anasının qəbri üstündə belə ifadə etmişdir: "Validəmin (öz anasına belə müraciət edərdi) ölümündən şübhəsiz, çox məyusam. Fəqət, bu məyusluğumu yüngülləşdirən və mənə təsəlli verən bir çox məsələ vardır. O da anamız vətəni məhvə və hərblərə doğru sürükləyən idarənin artıq geri qayıtmaz olduğunu və məzarının yoxluğa qovuşduğunu görməkdir. Validəm bu torpağın altındadır, fəqət hakimiyyət daim millətin əlində olsun. Bəli, hakimiyyət daim millətin əlində olacaqdır. Anamın ruhuna və bütün əcdadlarımın ruhuna borclu olduğum vicdan andını təkrar edirəm; Validəmin qəbri önündə və Allahın hüzurunda əhd və peyman edirəm ki, əgər lazım gələrsə, bu qədər qan tökərək millətin

nail olduğu hakimiyyətin mühafizə və müdafiəsi üçün Validəmin yanına getməkdə əsla tərəddüd etməyəcəyəm. Milli hakimiyyət uğrunda canımı vermək mənim üçün vicdan və namus borcu olsun".

M.Ə. – Atatürk türk xalqı üçün kimdir? Onun ən böyük xidmətini nədə görürsünüz?

D.V. – Atatürk türk xalqını yadellilərin tam istilası altına düşməkdən, dövlət müstəqilliyini itirməkdən xilas etmişdir. O, türklərin ata-baba torpaqlarını öz aralarında bölüşdürmək haqqında Qərb dövlətlərinin uzun illər boyu qurduğu planları puç etmişdir. Atatürkün türk xalqına hədiyyə etdiyi, türk gəncliyinə onu göz bəbəyi kimi qorumağı dönə-dönə tapşırdığı ən böyük tarixi əsəri Türkiyə Respublikasıdır.Sultanlıq üsuli-idarəsinin ləğvi və respublika rejiminin yaradılması ölkədə ictimai-siyasi həyatın yeniləşməsi üçün zəmin təşkil etdi. Qədirbilən türk xalqı haqlı olaraq öz xilaskarı ilə öyünür, onu heç də ideallaşdırmadan, özünə dahi rəhbər hesab edir. Onun dərin məntiqlə dolu olan düşüncə sisteminin dönmədən tətbiqi sayəsində türk xalqı bu gün sivilizasiya dünyasında özünün layiq olduğu yüksək yeri tuta bilmişdir. Təsadüfi deyildir ki, dərs kitablarında Atatürk bir xilaskar, türk xalqının qədərini dəyişdirən bir milli lider kimi verilir. Göstərilir ki, türk xalqıöz istiqlaliyyəti, milli hegemonluğu, respublikası və demokratiyası üçün Atatürk inqilabi və prinsiplərinə həmişə borcludur.

M.Ə. – Məlum olduğu kimi, Azərbaycan xalqını Qərb və Şərq məsələsi çox maraqlandırır. Atatürkün bu məsələyə münasibəti necə idi?

D.V. – İki qitənin – Avropa və Asiya qitələrinin istər ərazi, istərsə də siyasi, iqtisadi və mənəvi baxımdan kəsişdiyi məkanda dünyaya göz açmış, böyüyüb başa çatmış Atatürk hər iki dünyanın məziyyətlərinə dərindən bələd idi. Onun bir siyasi xadim kimi formalaşmasına belə bir görüş mühüm rol oynamışdır: Şərq və Qərb arasında çox baxımdan dərin uçurum vardır; uçurum siyasi, iqtisadi və mədəniyyət sahələrində dərin kök salmışdır; Qərb iqtisadi mexanizmdən istifadə edərək Şərq ölkələrini amansız istismar edir; Şərq xalqları orta əsrlərdən qalmış iqtisadi gerilik şəraitində dözülməz həyat tərzinə məruz qalmışdır.

Mustafa Kamal yaranmış vəziyyətdən çıxış yolunu Şərqin imperialist dövlətlərindən asılılığının ləğv olunmasında görürdü və bütün Şərqi buna çağırırdı. Bununla yanaşı, Avropa dövlətlərinin keçdiyi təkamül yollarına və orada özünü göstərən siyasi fikir cərəyanlarına dərindən bələd olan Mustafa Kamalın düşüncə sistemi bir yandan Qərb dünyasının təsiri altında formalaşır, digər tərəfdən də türkçülük ideyaları və sevgisi içində yoğrulub bişirdi.

Türk cəmiyyətini tarixi xüsusiyyətləri və o dövrdə mövcud olan ümumbəşəri sivilizasiya şərtləri onun düşüncə sistemini formalaşdıran başlıca amillər idi. Bu amilləri nəzərə alaraq Atatürk özünün ictimai-siyasi fəaliyyətində Türk-islam sintezini deyil, türk-dünyəvilik – Qərb sintezini əsas tutmuşdur.

Teokratik dövlət aparatının dünyəvi siyasi quruluşla əvəz edilməsi Atatürkün böyük tarixi xidmətlərindən biri idi. Ölkədə yeni tipli siyasi institutlarının yaradılmasında, sosial, hüquqi, mədəni və iqtisadi həyatın yenidən qurulmasında, bir sözlə, ölkənin gələcək inkişaf yolunun müəyyən edilməsində Qərb sivilizasiyası, Qərbin keçdiyi tarixi inkişaf yolu bir örnək rolunu oynadı. Lakin bununla yanaşı o, dönə-dönə tapşırırdı ki, biz qətiyyən qərbi kor-koranə təqlid etmək fikrində deyilik. O, istər təfəkkür, istərsə də qurumlar baxımından qərbləşməyə çağırarkən israrla qeyd edirdi ki, milli xüsusiyyət itirilməməli, hətta daha doğrusu, sivilizasiya yenilikləri milli xüsusiyyətlər içində əridilməlidir.Atatürk göstərirdi: "Biz Qərb sivilizasiyasını təqlidçilik etmək naminə qəbul etmirik. Onda müsbət olaraq gördüklərimizi, öz dünyamıza uyğun hesab etdiyimiz üçün, dünya sivilizasiya səviyyəsi içində mənimsəyirik".

M.Ə. – Dünyamalı müəllim, bir Atatürkün dinə münasibəti barədə nə fikirdəsiniz?

D.V. – Qeyd etdiyimiz kimi, Atatürkün böyük xidmətlərindən biri hələ 70 il bundan əvvəl cəhalətin dərin kök salmış olduğu bir ölkədə dünyəvi dövlətin əsaslarını qoymasıdır. Dinə dərin hörmət göstərən Atatürkün dünyəvilik anlayışına görə, din dövlət, dünya işlərinə qarışmamalı, vicdanlardakı yüksək və müqəddəs yerini mühafizə etməlidir. Ancaq mühafizakar qüvvələr Atatürkün din əleyhinə oldugunu iddia edirlər. Ancaq bu qətiyyən belə deyildir. Çünki tarixi mənbələrdən aydın olur ki, Mustafa Kamal hələ yeddi yaşında ikən Qurani-Kərimi xətm eləmiş, səkkiz yaşında isə Quran Hafizi olmuşdur. Sonra Ona qarşı belə bir ağır ittiham irəli sürülür ki, guya o, xilafəti qapamaqla dinə böyuk zərbə vurmuşdur. Ancaq tarixi mənbələr göstərir ki, o, xəlifəliyi Peyğəmbərlik məqamı hesab edərək, onun taleyinin həll olunmasını Türkiyə Böyük Millət Məclisinə həvalə etmişdir. Lakin həmin məsələyə TBMM bu günə qədər baxmamışdır.

M.Ə. – Mustafa Kamalın Azərbaycan Xalq Cümhuriyyətinə münasibəti necə idi?

D.V. – "Mən azadlıq aşiqiyəm", - deyən Atatürk bütün millətləri azad görmək istəyirdi. Azərbaycanda da ilk müstəqil dövlət qurumu olan Azərbaycan Xalq Cümhuriyyəti hökumətini o, rəğbət hissi ilə qarşıladı. Atatürk Azərbaycanı Türkiyənin qardaşı bilib sevmişdir. O, demişdir: Məhəmməd Əmin bəy, mən dünyaya səndən üç sənə erkən göz açmışam. Ancaq bütün türk aləmində türkün istiqlal bayrağını sən qaldırmısan. Bayraq enməsin deyə, mən sənin əlindən alıb Türkiyə üzərində dalğalandırmışam. "Enməz" demisən bu bayraq, enməyəcəkdir!

M.Ə. – Müsahibə üçün çox sağ olun.

Müsahibəni apardı: Misir Əhmədli.

5.3. Mustafa Kemal Atatürk fenomeni: çağdaş Türk cumhuriyetlerinin bağımsızlık mücadelesi üzere önemi

(İlk kez yayımlanıyor)

XX yüzyıl sonlarında Sovyet İmparatorluğunun çöküşü, ta 200 yıl sömürgesi altında tuttuğu Türk halklarına Milli Kurtuluş savaşı yolunda elverişli bir ortam yaratdı. Politik bağımsızlığını tüm dünyaya ilan etmiş Azerbaycan, Kazakıstan, Türkmenistan, Üzbekistan ve Kırgızıstan`da çağdaş uluslararası ilkelere uyğun politik ve ekonomik sistem yaratılmakta ve uzun süre kök salmış yabancı ideoloji ve totaliter yapıdan yaka kurtarmaktalardı. Dünyanın bu karmaşık ve çelişkili çağında aynı cumhuriyetlerin uyğarlık tarihinde itirilmiş fırsatları geri almak işinde, kanaatımızca, Atatürk mirası ve Atatürk inkılablarının, iktisadi kuruculuk deneyiminin bir ışıkgibi daim göz önünde tutulması çok önemlidir. Bu ülkelerde Atatürk irsinin derinden öğrenilmesine büyük ihtiyaç vardır. Araştırmalar ise bu cumhuriyetlerde Atatürk kişiliğine büyük ilgi olduğuna rağmen, insanların hala, Atatürk üzerine gerekli bilgiye sahip olmadığını belirtiyor.

* * *

Tarih insanlığa pek değerli, herkesçe bilinen ünlü şahsiyetciler bahş etmiş. Bu tarihi şahıslar kuşakların anağında yarattıkları ve hayata bahş ettikleri zengin tarihi anıtlarla ebedileşmişler.

Büyük siyasi ve askeri önder Mustafa Kemal Atatürk'ün türk halkına miras bıraktığı zengin manevi servet bu halkın son yüzyılda süregelen politik, sosyal – ekonomik ve kültürel hayatına doğrudan doğruya yansımıştır.

Yirminci yüzyıllık Türk halkının sosyal-politik hayatına inişli-yokuşlu ve temel değişikliklerle zengin tarihi bir dönem gibi girmiştir. Yarımkoloni durumuna gelmiş Osmanlı İmparatorluğu resmen dünya haritasından silindi. Orta yüzyıllardan miras kalmış sultanlık rejimi bir defalık kaldırıldı.Türk halkını şanlı zaferlere götüren Milli Kurtuluş Savaşı sonucunda yeni bağımsız bir devlet - Türkiye Cumhuriyeti kuruldu.

Cumhuriyetin kurulması, ülkenin sosyal-ekonomik hayatının çağdaşlaşması ve yabancıların sömürüsünden kurtulması için sonsuz olanaklar yarattı.Cümhuriyet kuruluşunun mevcut olduğu 90 yıl döneminde Türkiye, kalkınma düzeyi bakımından geçmişde kendisi durumunda bulunan Asya ve Afrika ülkelerinin çoğunluğunun sıralarından koparak kalkınmış kapitalist ülkeler düzeyine yaklaştı. Son 50 yılda ulaştığı ekonomik kalkınma hızı bakımından o dünyanın öncül ülkelerinin çoğunu geride bırakmış ve dünyanın 20 en kapsamlı ekonomik yapıya sahip 20 ülke arasında 16-cı yerdə gelir..

Böyle kalkınma hızına dayanan Türkiye siyasi ve bilim adamları memleketin 21-ci yüzyılda 10 kalkınmış ülkeleri düzeyine yükseleceyi kanaatindedir. Bu görüşü biz de paylaşıyoruz.

Bir yüzyıllıktan da kısa bir dönem içinde Türkiye'de gerçekleştirilen böyle önemli sosyal-ekonomik gelişmeler için Türk halkı kendinin büyük oğlu - Mustafa Kemal'a borçludur. Çünkü tüm bu gelişmeler devasa boyutlarda Atatürk kişiliği ve Atatürk mirası ile ilgilidir. Bu kanımızı kendisinin düşmanları da kabullenmek zorundalar. Çünki sosyal-politik çatışmalara sahne olan yirminci yüzyıllığın başlarında Yüce Tanrının Türk halkına Atatürk gibi gerçekçi ve durmadan kalkınma aşığı bir şahsiyet bahşetmesi Türkiye'nin bugünkü ilerleyişi yolunda tarihi etken rolünü oynamıştır.

Atatürk şahsiyetinin yaranması ve oluşması, bir nevi kendisini yaratmış ve yetiştirmiş Türk halkının yüzyıllar boyu birikip kalmış ihtiyaçlarının birçoğunun yanıtıydı.

Toplumsal hayata ilkönce ünlü bir asker olarak girenAtatürk, kısa bir dönemde kendisini halkının metin kurtuluş savaşçısı gibi tüm dünyaya tanıttı.

Bir zamanlar kudretli bir devlet olarak dünyaca tanınmış Osmanlı İmparatorluğunun, daha XIX yüzyıl sonlarında yarımkoloni durumunda bulunması azmış gibi, yirminci yüzyıllığın başlarında toplumsal politik süreç de İmparatorluğu koloni durumuna itmekteydi. Vakit geçtikçe, politik-ekonomik yaşamda baş gösteren bunalım ve şöküş hayatın tüm alanlarını etkiliyordu.Diktatör rejiminin sınırsız egemenliyine karşı çevrilmiş Genç Türkler hareketi 1908 yılında Anayasalı bir monarşi yaratılmasıyla sonuçlandı. Bu hareket memleketde kapitalizmin gelişimine belli düzeyde etki yapmağa başladı. Ama, dünyanın yeniden bölünmesi uğruna yapılan Birinci Cihan Harbi Sultanlığın kaderini çözmüş oldu.

Daha Birinci Cihan harbinin başlanması arifesinde İttihat devletleri Sultan Türkiye'sini kendi aralarında bölmek üzerine görüşme ve anlaşmalara başlamışlardır. Onların 1915-1917 yıllarında yaptıkları antlaşmalar İmparatorluğun demek oluyor ki, tüm topraklarının elinden alınmasını ve kendi aralarında bölünmesini göz önünde bulunduruyordu: Doğu vilayetleri Rusiya'ya geçecekti; Suriya ve etrafı Fransa'ya verilecekti; Mezopotamya, keza İzmir-Aydın demir yollarının geçtiği araziye İngilizler göz dikmiştiler; Anadolu bölgesi ise Almanlar için ayrılmıştı.

10 Ağustos 1920 yılında İstanbul hükumetince imzalanan Sevr antlaşması Sultan Türkiye'sinin kaderini hukuki açıdan çözmüş oldu. Aynı antlaşmanın şartları gereğince, Sultan hükumeti kendi ordusunu bırakacak, ANTANTA`ya tabi bulunan yalnız 15 bin asker sağlayacaktı. Askeri filo da aslında yok edilecekti. (Topu topuna 7 bekçi gemi ve polis için 6 mermi taşıyan gemi sağlanmasına izn veriliyordu.);

Türkiye kendisinin Suriye, Filistin, Arabistan yarımadası, Trans Ürdün ve Mezopotamya topraklarından yoksun kalmış, Doğu Trakya'daki arazinin çok kısmını kaybetmiş (Türkiye'de şartı olarak sağlanmış olan İstanbul ve onun etrafı istisna;), İzmir ise aslında Yunanistan'a verilmişti. Ermenistan'a bağımsızlık verilmesi ve onun arazisinin Erzurum, Van, Trabzon ve Bitlis bölgelerine kadar genişletilmesi antlaşmada ayrıca bir madde gibi göz önünde bulundurulmuştu. Kürdüstan hükumetinin kurulması üzerine de antlaşmada kaydedilmişti. Antlaşmanın şartları gereğince, Türkiye'de yalnız Merkez Anadolu yaylası kalacaktı. Antlaşmanın maliye - ekonomik konuları üzerine maddeleri filhakika yağmacı bir özdeydi. Mukavele şartları uyarınca, Türkiye doğrudan doğruya kendi faaliyetini özgür bir devlet olarak durduracaktı. O dönemi sonralar Atatürk kendisi şöyle değerlendiriyordu:"Osmanlı memleketleri tamamile parçalanmıştı. Ortada bir avuç türkün yaşadığı bir ata yurdu kalmıştı. Son mesele bu yurdun da bölüşümün gerçekleştirmesi idi. Osmanlı devleti, onun istiklalı, patşah ve halife, hükumet,-bunların hepsi kendi mezmununu kaybetmiş ifadelerden ibaret idi."

"Ya istiklal, ya ölüm" parolasını ortaya atmış Kemal Atatürk ilk bakışta imkansız koşullar altında halkı anti - emperyalist savaşa çağırdı ve tarihte kendi layıklı yerini almış Milli Kurtuluş Hareketineönderlik etti.

1918-1923 yıllarında zaferle sonuçlanmış bu hareket ülke bağımsızlığının sağlanması, yani bağımsız Türkiye Cumhuriyeti ile sona erdi. 1923 yılında imzalanmış Lozan antlaşması ülkeyi yalnız politik alanda değil, aynı zamanda ekonomik ve mali eylemlerde de bağımsız bulunması için gayet geniş yollar açtı. Yabancıların ülkede egemenliyinin esaslarını mahvetti. Kendi canından daha çok sevdiyi halkının bağımsızlığı yolunda yorulmaz savaşçı olarak kendini tanıtmış genç general Kemal Paşa sonralar tarihe terakkisever ve gerçekci bir devlet başkanı olarak dahil oldu.

Eski yönetim tarzının eksikleri, toplumsal, politik ve manevi hayatı bürümüş yüzyıllık geri kalmışlık Mustafa Kemal'da ortaçağ karanlıklarına nefret hissi uyatmış, onu çağdaşlıksever ruhda dönmez yenilikler savaşçısı gibi yetiştirmişti.

Avrupalıların bir sesle "Hasta adam" adlandırdıkları Sultan Türkiye'sinin yaraları yalnız, yabancı istilasının tavsiyesiyle sağaltıla bilmezdi. Derin kök salmış, korkulu bir yön almış "dahili hastalıklar"da kendi tedavisini bekliyordu. "Dahili hastalıkların" ilacını Kurtuluş Savaşının Önderi sosyal-ekonomik-politik ve manevi hayatta orta asır kalıntılarına harp ilan etmekte, genişçapta çağdaş kültürel milletler düzeyine doğru ilerlemekte görüyordu. O, ısrarla kayd ediyordu: "Uygarlık yolunda kazanılacak başarı çağdaşlaşma oranına bağlıdır. Sosyal-ekonomik hayatta bilim ve teknik alanında başarılı olmak için tek kalkınma ve ilerleme yolu budur. Zaman zaman hayat ve yaşamı giderek yönlendiren hükümlerin değiştirilmesi, gelişmesi ve

çağdaşlaşması gerekrdi. Uygarlığın, açıklamaların, keşiflerin arttığı, tekniğin harikalar yarattığı, onların dünyayı değişiklikten değişikliklere sürüklediği bir dönemde asırlardan kalmış eski düşüncelerle, eski düşünce ile mevcutluğu korumak imkansızdı. Kurtuluş savaşı sonrası Türkiye'de toplumsal politik süreçlerin evriminde kemalizmin Anayasa düzeyine yükseltilmiş bulunan altı ilkesi: cumhuriyetcilik, milliyetcilik, halkcılık, dünyevilik, devletcilik ve devrimcilik ilkeleri önemli rol oynamıştır.

Atatürk'ün Türk halkına hediye ettiği, Türk gençliğine, kendi göz bebeği gibi korumayı döne-döne tavsiye etdiyi en büyük tarihi eseri Türkiye Cumhuriyetidir. 29 Ekim 1923 yılında akşam karanlığı bastıkda Ankara`da atılan güclü top ateşi Cumhuriyet döneminin başladığını Türk halkına ve tüm dünyaya kururla ilan etti.

Sultanlık yönetiminin kaldırılması ve Cumhuriyet rejiminin kurulması ülkede toplumsal - politik hayatın çağdaşlaşması için zemin oluşturdu.

200 yıla yakın bir dönemde Rusiya İmparatorluğunun sömürgesi olmuş Türk cumhuriyetleri için Atatürkün millet, halk ve halkın egemenliyi hakkında görüşleri çok önemlidir. Atatürk'cülüğün temel taşını millet ve onun çıkarlarından doğan ülküler oluşturuyor. Mustafa Kemal'ın başcılık ettiği hareket tarihe Kurtuluş Savaşı adıyla dahil olmuştur. O hareket milletce gerçekleştirilmiş ve son amacı da, Atatürk'ün sözleriyle desek: “Milli egemenliğe dayanan, kayıtsız, şartsız, bağımsız yeni bir Türk devleti yaratmak” olmuştur. Mustafa Kemal ısrarla kaydediyordu: “Aparılan milli savaşın hariçten gelen tecavüze karşı vatanın kurtuluşunu tek hedef olarak kabul ettiğine göre, bu savaşın başarı kazandıkça, aşama aşama bugünkü döneme kadar milli irade rejiminin bütün ilke ve ihtiyaçlarını gerçekleştirmesi tabii ve kaçınılmaz bir tarihi akın idi” [4]

Atatürk milletseverliği sonda türk milletinin kendi niteliklerinin muhafaza olunup sağlanmasına, bağımsız devlet örgütünün yaratılmasına yönlendirilmiştir. Emperyalist saldırısına karşı savaş, milli hiss ve kendini tanıma ve kendisini tanıtma Atatürk milletciliğinin önemli yönlerindendir.

Kemalizmde milletcilik anlamı halkcılık ilkesi ile sıkı bağlıdır. İkinci birincinin tamlayıcısı, sosyal politik hayatta kendini belirtme şeklidir. Atatürk düşüncesine göre milli hareketin esas amacı “halkın egemenliğine”, halkın iradesine dayanan bir hükumet yaratmaktır. Atatürk 1 Aralık 1921 yılında Türkiye Büyük Millet Meclisinde nutuğunda göstermiştir: “Bizim hükumetimiz demokratik bir hükumet değildir. Sosyalist hükumet değildir ve bilimsel niteliği bakımından kitaplarda mevcut olan hükumetlerin doğrudan doğruya hiç birine benzemeyen bir hükumettir. Eğer hükumetimizi ilmi-toplumsal yönden değerlendirmek gerekirse, demek lazımdır ki, o halk hükumetidir”[5]. O, nutuğuna devam ederek bu fikri böyle derinleştirirdi: “Kendimizi dünyada bulunan her hangi bir hükumete benzetmek kadar hata

olamaz. Biz kendi benliğimiz içinde, kendi yolumuz ve tabiatimizle ilerliyoruz ve ilerleyeceğiz. Biz benzemekle ve benzetmekle övünüyoruz".[6]

Halkcılık ilkesini anayasaya dahil eden yeni politik strüktür sonuçta Batı demokrasisini ülkenin özelliklerine uyarlamağa başlayarak, yüzyıllar boyu imparatorlukta "Raiyet-patşah", "hukuksuz halk kitlesi-elahazret" ilişkileri şeklinde hüküm sürmüş orta çağ toplumsal ilişkilerine bir kezlik son koymuştu.

Atatürkün toplumsal-politik hayatı başından beri çağdaşlaşdırmak yolunda kullandığı araçlardan biri de dünyevilik (laisizm) ilkesi idi. Bu tecrübe çağdaş Türk cumhuriyetleri için çok önemlidir.

Avrupa devletlerinin geçtiği evrim yollarına ve orada kendisini gösteren politik fikir akınlarını derinden bilen Mustafa Kemal'ın düşünce sistemi bir taraftan Batı dünyasının etkisi altında oluşur, diğer tarafdan da türkcülük görüşleri ve sevgisi içinde yoğrulup pişiyordu. Türk toplumunun tarihi özellikleri ve o dönem mevcut olan umumbeşeri uygarlık şartları onun düşünce sistemini oluşturan başlıca etkenlerdi. Bu etkenleri göz önünde bulundurarak Atatürk kendisinin toplumsal-politik faaliyetinde Türk-İslam sentezini değil, Türk-dünyevilik-Batı sentezini esas olarak ele almıştır[8.]

Teokrasi devlet örgütünün dünyevi politik stürüktüre terk edilmesi dine derinden saygı gösteren ve seven Atatürk'ün tarihi hizmetlerinden biri idi.

Tüm bunlar göz önüne getirildikte, hala 20'ci yılların başlarında Atatürk'ün dünyevi devlet yaratmak önleminin değeri daha da aydınlaşır. Çünki böyle bir adım Batıda hala orta çağlarda atılmıştır. Dine, derin saygı gösteren Atatürk bu nedenle kaydediyordu."Din bir vicdan meselesidir. Herkes vicdanın sesini işitmekde serbesttir. Biz dine saygı gösteriyoruz. Düşünce ve düşünceye mühalif değiliz. Biz sadece olarak dini işleri milli ve devlet işleri ile karışdırmamağa çalışır, kasta ve diger cinayetkar faaliyetlere dayanan fanatizmi kabul etmiyoruz"[9]. Atatürk'ün bu casaretli adımı muhafazakar kuvvetlerin ciddi karşı koymalarına rastlasa da, kendisine fazla yandaş buldu.

Çagdaşlaşmayı derinden seven Mehmet Akif "Safahat" eserinde Atatürk yeniliklerinden esin alarak yazıyordu:

Yıllarca, asırlarca süren uygudan artık,
Silkin de, mühitindeki zulmleri yak, yık.
Bir baksana, gökler uyanık, yer uyanıktır,
Dünya uyanırken, yatmak bir masakaralıktır.

Kemalist görüşlerinin önemli yönlerinden biri onun ekonomik görüşleridir ki, bu da genç Türk Cumhuriyetleri için çok önemlidir. Türkiye cumhuriyetinin banisi ve ilk başkanı Kemal Atatürk bir iktisatçı bilgin olmasa da, onun çoksayılı söylev ve demeçlerinde belirttiği sosyal ekonomik

karakterli fikir ve düşünceleri yeni Türkiye'nin ekonomi politiğinin ana ilke ve yönlerinin tesbit edilmesinde esas rol oynamıştır. Mustafa Kemal politik bağımsızlığın yalnız, ülkenin ekonomik yönden de bağımsız olmasına bağlı olduğundan tam emindi. O inamla kayd ediyordu: "Politik, askeri zaferler ne kadar büyük olsa da, eğer iktisadi zaferlerle taclandırılmazsa, elde edilen zaferler devamlı olamaz, az zamanda söner"[10].

İki kıtanın-Avrupa ve Asya kıtalarının gerek arazi, gerekse de politik ve manevi bakımdan kesiştiği bir mekanda dünyaya göz açmış, büyümüş Atatürk her iki dünyanın niteliklerini derinden biliyordu. Onun bir politik adam gibi yetişmesinde böyle bir görüş mühim rol oynamıştır: Doğu ve Batı arasında çok bakımdan derin bir uçrum vardır; uçrum ekonomik alanda daha derindir; Batı ekonomik mekanizmasını kullanarak Doğu ülkelerini amansız surette sömürüyor; türk halkı orta asırlardan kalmış ekonomik gerilikten can kurtararak, yeni yaşam biçimine giriyor. Mustafa Kemal yaranmış durumdan çıkış yolunu ülkenin emperyalist devletlerine bağımlılığının tasfiye edilmesinde görüyordu.

Eski Sovyet türkşinası P.P.Moiseyev gösterirdi:"Atatürk kendi memleketinin yalnız ekonomik bağımsızlığı yolunda yorulmaz savaşçısı olarak kalmayıp, hem de ekonomik özgürlüğe doğru yönelmiş hareketin becerikli bir örgütcüsü idi"[11].

1923 yılında on genel önderleriği ile imzalanan Lozan antlaşması tarih selnamesine türk halkının kahramanlık savaşının mantıkı sonucu gibi dahil oldu. Emperyalist devletlerinin epeyice bir zaman süresinde Türkiye'yi yağmalaması için geniş çapta kullandıkları kapitülasyon rejimine aynı antlaşma ile son verildi. Tabii olarak, ülkede üretici güçlerin serbest kalkınması yolunda engel olan yabancı kelepçeler kırılmaya başladı.

Mustafa Kemal'ın başkanlığında yeni politik rejim ülkenin asırlardan süre gelen gerikalmışlığının kaldırılması yolunu milli ekonominin ilga edilmeden canlandırılmasında görüyordu.

Kemalizmin 30'lu yıllarda anayasa ve parti programı düzeyine yükseltilmiş önemli ilkelerinde biri - çok vakit "etatizm" adlanan devletcilik ilkesi - milli ekonominin canlandırılmasına yönelik takip edilən ekonomik politiğin esasını oluşturmağa başladı. Atatürk'ün başcılığı ile Cumhuriyet Halk Partisinin 1931-ci yılda kabul ettiği programda kayd ediliyordu ki, millet kısa yolla refaha, ülkeyi ise çağdaşlığa kavuşturmak için özel teşebbüscülükle yanı sıra, halk için müstesna önemi olan işlerde devletin ekonomi faaliyetinden de geniş çapta kullanılacaktır[12]. Mustafa Kemal devletciliği şöyle anlıyordu: "Türkiye'nin gerçekleştirdiği devletcilik sistemi, XIX yüzyıldan beri sosyalizm üzerine teorilerinin ortaya koyduğu fikirlerden alınarak çevirilmiş bir sistem değildir. Bu, Türkiye'nin ihtiyaçlarından doğmuş, Türkiye'ye öz bir sistemdir. Devletciliğin anlamı kanımızca şudur: fertlerin özel teşebbüsleri ve

faaliyetlerini bir esas olarak göz önünde bulundurmak: fakat, büyük bir milletin tüm ihtiyaçlarını ve fazla işlerin hala yerine getirilmemiş olmasını dikkata alarak, ülke ekonomisini devlet kendi eline aldı"[13].

Türk Profesörü Müherrem Hiç Atatürk'ün devletcilik ilkesini genel olarak şöyle değerlendirir: "Ekonomide kaynak taksiminin düzenlenmesinde esasen iki rakip sistem vardır: kapitalizm ve sosyalizm. Böyle düşünce tarzı ile üçüncü sistem aranması yolunda harcanan çabaları daha iyi kıymetlendirmek mümkündür. Kalkınmakta olan ülkelerde tatbik edilen karma ekonomi sistemi çerçevesinde Atatürk`ün devletcilik rejiminin yerini de kesin bellemek olur. Bu rejim, geniş anlamda anlaşılan "karma ekonomi" sisteminin bir nevidir"[14]. "Karma ekonomi" adlanan sistem ise çağdaş dönemde kapitalizm yolu ile kalkınan bağımsız devletlerde genişçapta tatbik olunur ve böyle ülkeler arasında ilk kez Türkiye'de uygulanmağa başlanmıştır.

Atatürk'ün başçılığı ile Türkiye'de yapılan, gerek politik istiklal uğrunda kahramanlık savaşının, gerekse de ülkenin toplumsal politik hayatında yapılan reformlerin, çağdaşlaşma hareketinin uluslararası önemi göz önündedir. Böyle ki, Türkiye'de yabancı işgalcilere karşı yönelmiş olan Milli Kurtuluş Herakatı sömürü ve yarı sömürge ülkelerde zafer ile sonuçlanmış ilk istiklal savaşı idi.Atatürkcülük yalnız islam aleminde değil, tüm dünyanın hakkıçeğnenen halkları arasında kökleşmiş karanlıklardan, orta asır geriliğinden kurtulmak için bu dönemde atılan ilk radikal adımlardan biri idi. Ekonomi istiklal kazanması yolunda geniş yönde kullanılan ve Mustafa Kemal'ın tarihi hizmetlerinden biri gibi kıymetlendirilen etatizm - devlet kapitalizmi siyaseti kalkınmakta olan memleketlerin hayatında şu dönemde tatbik edilmeye başlayan ilk pratik idi.

Böylelikle, Türkiye cumhuriyetinin temellerini atmışbulunan Mustafa Kemal Atatürk XX yüzyıllarda Tarihin gidişine bu veya diğer şekilde etki yapmış olan çok az politikacı ve harp adamlarından biridir. Onun hizmetleri dünya kamuoyunda yeterince değerlendirilmiş ve kendi yerini almıştır. "Atatürk şahsiyeti XX yüzyılın başlarında tarihin gidişini deyişdirmeyi becermiştir" diyen bilim adamları tarihi gerçekleri tesbit ediyor.

Sonuç olarak kayd etmek gerekir ki, Gazi Mustafa Kemal Atatürk'ün Türk halkının hayatında yaptığı yenilikler o zamanlar ülkede egemen olan sosyal politik strüktürde çok büyük ve olumlu ilerleyiş idi. Ülkenin orta çağ gericilik pranqalarından kurtulması, çağdaşması için toplumsal süreçlere ciddi hızlandırıcı etken olan bir olay idi. Türk halkının Atatürk bayrağını elinde, Atatürk ilkelerini ise kafasında tutarak uygarlık yolunda daha fazla başarılar kazanacağına içten inanıyorum. Sonyıllar Orta Doğu ülkelerini kapsayan isyan dalğaları Atatürkün yaratdığı politik ve ekonomik sistemin tarihin sınavlarına gururla tahammül etdiyini tüm dünyaya bir daha kesinlikle ispatlamış oldu.

Atatürk inkilabları çağdaş dünyamızda bağımsızlık kazanmış genc Türk cumhuriyetleri için bir örnek, bir mekteb durumundadır.

K A Y N A K L A R:

1.“Dansig, Tursiya, Moskova”, M., 1948. s.80-81
2.“Atatürk yolu”, İstanbul 1981, s.109-110
3.“Atatürk'ün Söylev ve Demeçleri. II”, Ankara, 1959, s.181
4.Kemal Atatürk. Nutuk. Atatürk'ün doğumunun 100 yılını kutlama koordinasyon Kurulu yayını. Cilt 1. s.11
5.“Atatürk Araştırma Merkezi Dergisi”. 1986, c.II. sayı 5, s.300
6.A.g.e.
7.Prof.Kemal Karpat. Türk Demokrasi Tarihi. Sosyal, ekonomik, kültürel temelleri. İstanbul, 1967. s.48.
8.“Atatürk Araştırma Merkezi Dergisi”. 1986, c.II, sayı 5, s.509
9. “Asif İlbay Anlatıyor.Yakınlardan hatıralar”. İstanbul, 1955,s.102
10. “Atatürk'ün Söylev ve Demeçleri”, Cilt II, s.107.
11. P.P.Moiseev. Konsensii Kemalya Atatürka po problemam razvitiya nasionalnoy ekonomiki:- “Edutes Balkaneques”, 1985, №1.
12. “Ulus”. 23.08.1935.
13. “Atatürk ve Cumhuriyet Dönemi Türkiye'si”. Ankara, 1981, s.151.

Xülasə:

Mustafa Kamal Atatürk fenomeni: çağdaş türkdilli cumhuriyyətlərin istiqlal mübarizəsində önəmi

Soyet İmperiyasının XX yüzilliyin sonunda çöküşü 200 il onun müstəmləkəsi altında saxlanmış Türk xalqlarında Milli Azadlıq hərəkatı üçün əlverişli şərait yaratdı. Siyasi istiqlaliyyətini bütün dünyaya bəyan etmiş Azərbaycan, Qazaxıstan, Türkmənistan, Özbəkistan ve Qırgızıstanda müasir beynəlxalq prinsiplərə uyğun siyasi və iqtisadi sistem yaradılır. Bu ölkələrin xalqları uzun müddət ictimai həyatda kök salmış yabancı ideologiyalardan və totalitar quruluşdan yaxa qurtarmışlar. Dünyanın bu mürəkkəb və ziddiyətli məqamında həmin Cümhuriyyətlərin sosial-mədəni tarixində itirilmiş imkanların geri qaytarılmasında, bizim fikrimizcə, Atatürk irsi ve Atatürk inqilablarının, Atatürkün iqtisadi quruculuq təcrübəsinin nəzərə alınması çox önəmlidir.Ona görə də bu ölkələrdə Atatürk irsinin dərindən öyrənilməsinə böyük ehtiyac vardır.Ancaq təəssüflə qeyd etməyə məcburuq ki, bu cumhuriyyətlərdə Atatürk şəxsiyyətinə və Atatürk inqilablarına böyük maraq olduguna baxmayaraq, insanlar onun haqqında, hələlik kifayət qədər məlumata malik deyillər.

Резюме

Феномен Мустафа Кемаль Ататюрка: значениев борьбе за независимость современных туркоязычных государств.

Крах Советской Империи в конце XX века создал благоприятные условия для освободительного движения народов туркоязычных стран, находящихся, около 200 лет под ее колонией. В Азербайджане, Казахстане, Узбекистане и Тукменистане, обявившие свою независимость всему миру, создаются политеческие и экономические системы, в соответствии с международными нормами. Народы этих стран освободились от чужоземных идеологии и тоталитарного режима. Для использивание упущенных возможностей в социально-культурной жизни этих республик, на наш взгляд большое значение имеет, революционный опыт Ататюрка в социально-экономической и культурной жизни. В этой связи ощущается большая потребность в изучении наследия Ататюрка в этих странах. Несмотря на большую симпатию и огромного интереса на эту наследея,к сожелению, народы этих стран все еще не обладают исчерпывающими информациями.

5.4. Əsgəri “ Peyğəmbərə “ bənzədən dahi sərkərdə

“Azərbaycan uğrunda”. Hərbi, elmi-nəzəri, publisistik jurnal. N6, 2007, s.86-100.

Heç bir zəfər məqsəd deyildir. Zəfər, ancaq özündən daha böyük olan ən mühüm bir vasitədir. Məqsəd ideyadır. Zəfər bir ideyanın həyata keçirilməsinə etdiyi xidmətin nisbətinə görə öz dəyərini ifadə edir.

Mustafa Kamal Atatürk

Türk milləti tarix boyu müstəqillik və istiqlaliyyət şəraitində öz varlığını qoruyub saxlaya bilmişdir. Bunun üçün malik olduğu bir çox milli dəyərlərə borcludur. Bu dəyərlərin başında Türk millətinin yüksək “əsgəri ruha “ malik olması dayanır. Bir çox tarixçilərin göstərdikləri kimi türklər anadan “davakar doğulurlar”, lakin bu davakarlıq haqq və ədaləti, istiqlaliyyəti özünə ideal seçən “ igidlik “ ruhuna, sarsılmaz nizam-intizama, silahları bacarıqla məharətlə istifadə etmək məharətinə əsaslanır. Alman yazıçısı Wolfqanq Hopkerin dediyi kimi, “ Türklər sərt əsgərlərdir. Bütün tarix boyu ənənəvi olaraq dövlət halında təşkilatlanmış, silahlı bir millətdir...!”

Misilsiz hərbi istedada malik olan Mustafa Kamal Atatürkün liderliyi ilə XX əsrin əvvəllərində Milli azadlıq hərəkatı dövründə Türk xalqı öz zəngin

tarixini işğalçılar üzərində yeni-yeni hərbi qələbələrlə taclandırdı. Ona görə də jurnalımız Azərbaycan əsgərlərini, hərbiçilərini Atatürkün hərbi qələbələri və hərbi görüşləri ilə tanış etməyi məqsədəuyğun hesab edir.

Uşaqlıq və gənclik həyatı

Böyüyəndə tarixin gedişini dəyişdirən hərbi və siyasi xadim kimi tanınan Mustafa Kamal Atatürk1881-ci ildə Salonikidə (indi Yunanıstanda iri liman şəhəri) anadan olmuşdu. Atası Əli Riza əfəndi, anası isə Zibeydə xanım idi. Onun doğum günü dəqiq bilinmir. Sonralar, doğum günü haqqında ondan soruşulduqda o, belə cavab vermişdir: "Nə üçün 19 may 1881-ci il olmasın? " (xatırladaq ki, 19 may 1919-cu il) isə tarixəAtatürkün Anadolu torpaqlarına qədəm basdığı və Türk xalqının zəfərlərlə dolu olan Milli azadlıq hərəkatının başlandığı gün kimi daxil olmuşdur).

Mustafanın uşaqlığı və gəncliyi vaxtilə dünyanın üç qitəsində qüdrətli gücə malik olan Osmanlı imperiyasının ən böhranlı dövrünə təsadüf edir. Bu böhran isə özünü Osmanlı dövlətinin çökməsinə səbəb olan hadisələrin getdikcə dərinləşdiyi Rumelidə (Salonikinin yerləşdiyi yer) özünü daha qabarıq şəkildə göstərirdi. Türklərin yabançılar tərəfindən tapdalanması, məhz buradan başlayırdı.

Mustafanın qarşısında zəngin və qaynar həyat yolu durduğu hələ uşaqlıq illərində özünü göstərməyə başlamışdır.

Sanki, o dünyaya bir əsgər kimi göz açaraq, gəlmişdi. Onun hərbi sənətə marağı, getdikcə dərinləşən sevgisi hələ uşaqlıq illərindən özünü göstərməyə başlamışdır. Ailəsinin istəyinin əleyhinə olaraq o, gizlicə Saloniki hərbi Rüşdiyyəsinə müvəffəqəyyətlə imtahan verib qəbul olundu və ailəsini fakt qarşısında qoyaraq razı saldı.Sonralar o, bu barədə yazırdı: "Onlar oxusunmu? Oxumasınmı?" - deyərkən mən çoxdan qərar vermişdim. Əsgər olacaqdım. Anamın fikrini öyrənmək istədim. Heç razılıq vermədi".

Hərbi məktəbin şagirdi olarkən Mustafa öz zəkası ilə yoldaşları arasında üstünlük qazandı və eyni adı daşıyan riyaziyyat müəllimi onun adına " Kamal " sözünü əlavə etdi. O, həmin hərbi məktəbi 15 yaşında bitirdi və təhsilini Monastır hərbi İdadisində davam etdirdi. Burada oxuyarkən xarici dil öyrənməyə xüsusi fikir verir və paralel olaraq fransız dili öyrədən məktəbə gedirdi.

Monastr Hərbi İdadisini bitirdikdən sonra 1899-cu ildə İstanbul Hərbiyyəsinə daxil oldu. 1902- ci ildə oranı bitirib piyada teğmeni (leytenant) oldu. Sonra təhsilini Hərbi Akademiyada davam etdirərək 1905-ci ildə yüzbaşı oldu.

Mustafa Kamalın hərbi məktəbdə və hərbi akademiyada oxuduğu illər mütləqqiyyət üsuli-idarəsinin öz varlığını hər vasitə ilə qorumağa çalışdığı illərə təsadüf edir. Bu zaman hərbi məktəb gizli müxalifətin başlıca

mərkəzlərindən biri idi. Sərt qayda-qanuna baxmayaraq, hərbçilər Namiq Kamalın və digər tərəqqipərvər türk xadimlərinin əsərlərini gizli yayır və oxuyurdular. Sonralar Mustafa Kamal bu dövrdəki həyatı haqqında belə yazırdı: "Dərslərə yaxşı hazırlaşırdım. Məndə və bəzi yoldaşlarımda yeni fikirlər oyandı. Ölkənin idarə olunmasında və siyasətində fənalıqlar olduğunu kəşf etməyə başladıq. Minlərlə hərbi məktəb tələbələrinə öz kəşfimizi başa salmaq həvəsinə düşdük.Məktəbdə onlar arasında oxunmaq üçün bir qəzet təsis etdik.S inifdə balaca təşkilatımız var idi.Mən idarə heyətində idim. Qəzetin məqalələrinin çoxunu mən yazırdım". Bu hərəkətlərinə görə o, üsyankar bir zabit kimi tanınmışdır.

Peşəkar hərbiçi, milli qəhrəman

Hərbi akademiyanı bitirdiyi günlərdən onun sultanlıq rejimi əleyhinə mövqeyi və düşüncələri şübhə yaratdı və o, bir ay İstanbulda həbsdə yatdı. Sonra isə bir növ, sürgün olunaraq, 5 fevral 1905-ci ildə Suriyaya, Şam şəhərinə vəzifəyə göndərildi və bununla da mərkəzdən uzaqlaşdırılmış oldu. O zaman Dürzi üsyanına qarşı ilk dəstə olaraq hərbi əməliyyatada iştirak etdi. 1906- cı ildə o, gizli siyasi prosseslərə qoşuldu və "Vətən və Azadlıq Cəmiyyətini" yaratdı. 1907- ci ildə minbaşı rütbəsini aldı. Sonra "İttihat və Tərəqqi " cəmiyyətinə daxil oldu, lakin onun Gənc Türk liderləri ilə səmimi əlaqəsi olmamışdır. Gənc Türklər inqilabından sonra o, bir müddət yalnız hərbi fəailiyyətlə məşğul oldu. 1909-1910-cu illərdə hərbi və müharibə təlimləri haqqında General Litzmanın əsərlərini türk dilinə tərcümə etdi və öz həyatını hərbi sənətə həsr etdi. 1910-cu ildə fransız hərbi manevrlərində iştirak etmək üçün ilk dəfə, Avropa səyahətinə çıxdı.İtalyan və Balkan müharibələrində bir çox cəbhələrdə məsul tapşırıqları yerinə yetirdi. Yaranmış qısa sülh dövründə Sofiyada hərbi attaşe oldu.

Bu arada, 1 avqust 1914-cü ildə Almaniyanın Rusiyaya müharibə elan etməsi ilə 1-ci Dünya müharibəsi başlanmışdır. Mustafa Kamal artan siyasi və hərbi hadisələri böyük diqqətlə izləyir, digər tərəfdən də görüş və düşüncələrini hərbi nazirliyə bildirirdi. Onun fikrincə, əgər Osmanlı dövləti müharibəyə qoşulmağa məcbur edilməsə, o bu böyuk müharibədən kənarda qalmalı idi. Lakin hadisələrin sürətli inkişafı 29 oktyabr 1914-cu ildə Osmanlı dövlətini də istər-istəməz Antanta dövlətləri əleyhinə müharibəyə qoşulmağa məcbur etdi. Mustafa Kamal bu hadisələrlə əlaqədar baş komandanlıqdan özünə fəal bir xidməti vəzifə istədi. Lakin bu istək uzun müddət yerinə yetirilmədi. Nəhayət, təkidi nəticəsində o, 20 yanvar 1915-ci ildə Tekirdağda təşkil edilən 19-cu diviziyaya komandir təyin edildi.

Qelibolu yarımadasında mühüm hadisələr baş verirdi. İngilis donanması 18 mart 1915-ci ildə Çanakqala (Dardanel) boğazını keçməyə təşəbbüs etsə də, sahil topçularının müvəffəqiyyətli müdafiəsi nəticəsində məqsədinə nail

olmadı və ağır itkilərə məruz qaldı. Donanması ilə boğazı keçə bilməyən düşmən bu dəfə türkləri Gelibolu yarımadasında desant çıxarmaq ilə məğlub etməyə çalışdı.

Arınburunundan Conkbayıra irəliləyən ingilis qüvvələri həmin gün Mustafa Kamalın komandirlik etdiyi 19-cu diviziyanın hücumu ilə geri çəkilməyə məcbur edildi.

Conkbayırın müdafiəsində türk əsgəri görülməmiş bir mətanət və cəsarətlə vuruşur, tarixin ən böyük qəhrəmanlıq səhnələrini nümayiş etdirirdi. Peşəkar hərbçi komandirlərə verdiyi əmrlərə bu cümləni əlavə edirdi: "Mən sizə hücum əmri vermirəm; ölməyi əmr edirəm! Biz ölənə qədər keçən zaman ərzində yerimizə başqa qüvvələr və komandirlər keçə bilər!" Ancaq düşmənin hər bir hücumu türk əsgərinin qəhramancasına müdafiəsi qarşısında müvəffəqiyyətsizliyə uğrayırdı. Mustafa Kamala, Çanakqala cəbhəsindəki bu çox mühüm müvəffəqiyyətlərlə əlaqədar olaraq 1 iyun 1915-ci ildə albaylıq (polkovnik) rütbəsi verildi.

Anafartalar rayonunda da vəziyyət gərginləşdi.Getdikcə genişlənən bu böhranlı vəziyyətlə əlaqədar olaraq, Liman fon Sandersinin əmri ilə komandanlıqda dəyişiklik edilərək, "Anfartalar qrupu komandanlığına" 8 avqust 1915-ci ildə albay Mustafa Kamal gətirildi. 9 avqust 1915-ci ildə komandanlığı ələ alan Mustafa Kamal gözlənilmədən həmin gün hücümla irəliləyən ingilis qüvvələrini təkrar desant çıxardıqları sahilə qaytardı. Həmin günün axşamı Conkbayır rayonuna keçmək istəyən həmin qüvvələri də 10 avqust 1915-ci ildə səhər tezdən hücuma keçirdi. Beləliklə, düşmənin irəliləməsinə imkan verilməmiş, əksinə, onlar tutduqları mövqelərdən tamamilə çıxarılaraq, Anfartalar rayonuna tam mənası ilə hakim olunmuşdu.

Mustafa Kamal 25 aprel 1915-ci il hücümunda olduğu kimi, 9 və 10 avqust həmləsində də bilavasitə atəş altında olmuş, atəş xəttindən əmrlər vermiş və belə hərəkətləri ilə tabeliyində olan zabit vəəsgərlər üçün tükənməz cəsarət qaynağı olmuşdur. Conkbayırda ürəyinə tuşlanmış bir güllə cibindəki saata dəyib yerə düşdü və bununla da o açıq-aşkar ölümdən qurtardı. Bu döyüşlər gedişində göstərdiyi qəhramanlıq, fövqəladə sərkərdəlik qabiliyyəti, ona ölkə daxilində və xaricində böyük şöhrət qazandırdı. Artıq o, "Anafartalar qəhramanı" kimi şöhrətlənirdi.

Çanakqala döyüşləri 9 fevral 1915-ci ildə başlanmış və 17 dekabr 1915-ci ildə Türk ordusunun qələbəsi ilə başa çatmışdır. İşğalçı dövlətlər dövrün ən müasir təchizatlı hərbi təyyarələri, müharibə gəmiləri və 525 min əsgərlə dənizdən və qurudan hücum edirdilər. Düşmənlər Çanakqala cəbhəsində 506 top yerləşdirdikləri halda, Türk istehkamlarında cəmi 150 top var idi.

18 mart 1915-ci ildə axşam İngilis xəfiyyə zabitləri baş Qərargaha belə bir hesabat göndərdilər: "Çanakqaladaki Türk istehkamları dağıdılmışdır. Dəniz çıxıntıları və körfəzdə partlayıcı maddələr yoxdur.Müdafiə olunan

səngərlər çöküntü vəziyyətindədirlər. Hücumun qələbə ilə başa çatması üçün heç bir mane qalmamışdır". Bütün İngiltərədə qələbə mahnıları oxunmağa başlanmışdı.

Lakin hücumdan sonra işin, əslində, nə yerdə olduğunu ingilis generalı Mondun aşağıdaki sözləri açıq-aşkar göstərirdi: "Başqa millət, artıq müharibəni uduzduq deyərək, silahını tərk etmək istədiyi nöqtədə, Türklər üçün, Türk əsgəri üçün, müharibə yenidən başlayır.Bu insanların qəlbində yalnız və yalnız ülvi vətən sevgisi vardır. Ölümə onlar qədər gülümsəyərək gedən bir millət fərdi heç yerdə görünməmişdir". Müttəfiq orduları komandanı general Hamilton isə deyirdi: "Yalnız bu gün içində bomba olan 180 mərmi atdıq. Aylardır ki, gecə-gündüz müharibə gəmiləri mövqeləri bombalayır. Türkləri qoruyan CƏNABİ-ALLAHLARIDIR". 287 gün davam edən müharibənin sonunda (10 yanvar 1916-ci il) İttifaq dövlətləri məğlubiyyətlərini qəbul edərək geri çəkilməyə məcbur oldular. İşğalçı dövlətlər Çanakqalada 200 min ingilis, 48 min fransız, 10 min Yeni Zenlandiya, 6 min hindli əsgər itirdilər.

Mustafa Kamal Çanakqala döyüşləri haqqında yazırdı:"Çanakqala "Quran" ruhuyla qazanıldı. Dünya hərb tarixində misli olmayan bir hadisədir. Qarşılıqlı səngərlər arasındakı məsafə 8m idi, yəni ölüm labüd idi. Birinci səngərdəkilərin heç biri sağ qalmırdı, hamısı həlak olurdu. İkinci səngərdəkilər ildırım kimi onların yerinə keçirdilər. Lakin nə qədər iftixar olunacaq bir soyuqqanlılıq və təvəkkül. Bomba, mərmi, güllə yağışı altında ölənlər hamının gözünün qabağında idi. Üç dəqiqə ərzində öləcəyini bilir və az da olsa tərəddüd etmir. Sarsılma yoxdur. Oxumağı bacaranlar "Quran-i Kərim"i oxuyur və cənnətə hazırlaşır. Bilməyənlər isə kəlmeyi-şəhadətini dillərinə gətirir və əzan oxuyaraq hücum edirlər. İsti cəhənnəm kimi qaynayır. Hər səngərdə 20 düşmənə qarşı bir nəfər süngü ilə vuruşur, ölür-öldürürlər. Bunlar Türk əsgərlərindəki ruh yüksəkliyini göstərən, dünyanın heç bir əsgərində olmayan, təbrikə dəyər bir nümunədir. Əmin olmalısınız ki, Çanakqala müharibələrində qələbə qazandıran məhz bu yüksək ruhdur". Qazi Mustafa amal Çanakqala şəhidlərini heç vaxt unutmamış və hər il onlar üçün mövlud oxutmağı ənənə etmişdir.

Aylarla davam edən əməliyyatlara və döyüşlərə baxmayaraq, irəliləyə bilməyən ingilislər, nəhayət, 1915-ci ilin dekabrında müttəfiqlərlə bərabər Çanakqaladan geri çəkildi. Düşmənlərin Çanakqala boğazını keçə bilməməsi İstanbulun işğalının qarşısını almış, ingilislərin Mərmərə və Qara dəniz vasitəsilə müttəfiqləri olan Rusiya ilə əlaqə yaratmaq xəyallarını sön-dürmüşdü. Bütün bu hadisələr, müəyyən mənada birinci dünya müharibəsinin gedişinə də təsir göstərir, dünya tarixinin istiqamətini dəyişdirirdi.Bu döyüşlərdə ingilislər canlı qüvvə və hərbi sursat baxımından türklərdən,

şübhəsiz, çox güclü idi; lakin onların nəzərə almadığı bir məsələ - türk əsgərinin tarixi qəhrəmanlığını istiqamətləndirən Mustafa Kamal amili idi!

Mustafa Kamal Çanakqala döyüşlərinin şiddətini azaltdıqdan sonra yenə də korpus komandanı kimi 11 mart 1916-cı ildə Diyarbəkir-Bitlis-Muş cəbhəsinə komandan təyin edildi. Mustafa Kamal ruslara qarşı keçirdiyi əməliyyatla Bitlis və Muşu azad etdi və yeni-yeni şöhrət qazandı.

5 iyul 1917-ci ildə "İldırım" ordular qrupu komandalığının tabeliyində olan və Hələb şəhərində yaradılan 7-ci Orduya komandan keçdi. Bu cəbhəyə ümumi rəhbərlik Falkenhayn adlı bir alman generalına tapşırılmışdı.

Lakin bir müddət sonra general Falgenhayn ilə aralarında hərbi görüşlər və hərəkat baxımından fikir ayrılığı yarandı. Bununla əlaqədar olaraq Mustafa Kamal paşa 1917-ci ilin oktiyabr ayında istefaya çıxmağa məcbur oldu. Ona yenidən Diyarbəkirdəki köhnə vəzifəsi təklif edildi, lakin o, bunu qəbul etmədi və İstanbula gəldi. 7 noyabr 1917-ci ildə Baş qərargahda ona bir vəzifə verildi. Lakin az sonra vəliəhd Vahdeddin əfəndini müşayət edənlər arasında Alman Baş qərargahını və alman cəbhələrini ziyarət edərək, Almaniya səyahətinin iştirakçısı oldu. 15 dekabr 1917- 4 yanvar 1918-ci ili əhatə edən bu səyahət əsnasında Mustafa Kamal paşa alman hərbi dairələrində tədqiqatlar apararaq, Alman imperatoru II Vilhelm və dövrün tanınmış komandanları ilə görüşdü. Onlara – xoşlamasalar da – 1-ci dünya müharibəsinin mümkün ola bilən nəticələrini açıq və aydın şəkildə bildirdi.

Üç ay böyrəyindən müacilə olunduqdan sonra o, 7 avqust 1918-ci ildə 7-ci orduya yenidən komandan təyin edildi. Hələb şəhərində o, Türk Ordusunu darmadağın olmaqdan xilas etmiş, böyük nizam - intizamla ordunu geri çəkə bilmişdir. Lakin, birinci dünya müharibəsi Almaniya və onun müttəfiqlərinin əleyhinə cərəyan edirdi. Sultan Türkiyəsi Antanta dövlətləri ilə ağır şərtlərlə Mondoros müqaviləsini imzalayaraq, müharibədən çıxmışdır. Həmin müqaviləyə görə ölkə əcnəbilər tərəfindən işğal edilmiş, bütün silah və cəbbəxanalar qalib dövlətlərin tabeçiliyinə keçmişdi. Düşmən dövlətlər Türkün ana torpaqlarını öz aralarında bölüşdürmüşdülər.

Dahi sərkərdə, milli xilaskar

Mudros müqaviləsi bağlandıqdan bir gün sonra 31.10.1918-ci ildə Mustafa Kamal Yıldırım ordular Qurupu Komandiri təyin edildi. Lakin artıq iş - işdən keçmişdi. İki həftə sonra bu Qrup ləğv edildi. O, isə İstanbula çağırıldı və 18 noyabr 1918-ci ildə buraya gəldi. Həmin gün qalib ordular Türkiyənin paytaxtında öz qüvvələrini nümayiş etdirirdilər. Bu barədə Mustafa Kamal eşidəndə soyuqqanlıqla demişdi: "Necə gəliblər, elə də gedərlər". Şəhər, əslində, Antantanın nəzarəti altına keçmişdi. Artıq ölkədə müqavimət göstərəcək heç bir qüvvə görünmürdü. Gənc Türklər hökümətin məğlubiyyətini etiraf edərək Almaniyaya qaçmışdılar. 1918-ci ilin yayında

hakimiyyətə gəlmiş Sultan Vahdeddin yeni ağalarına - Antanta komissarlarına uyğunlaşmağa başlamışdı. Türk ordularına əmr verilmişdi ki, müttəfiq dövlətlərin ordularına heç bir müqavimət göstərməsinlər.

Türkiyədə qalan yeganə qalib general kimi, böyük şöhrətinə baxmayaraq, Mustafa Kamalın əlində heç bir imkan qalmamışdı. Üstəlik Sultan və onun ətrafındakilar millətçi ideoloqları sıxışdırır, xalq üsyanının qalxmasından qorxur və hər vasitə ilə onun qarşısını almağa çalışırdılar. Bu məqsədlə Türk ordusu və xalqını tam mənası ilə silahsızlaşdırırdılar.

Mustafa Kamal pessimizmə qapılmayaraq, getdikcə daha çox siyasi proseslərə qoşulurdu.1918-ci ilin yazında o müsahibələrinin birində demişdir: "Heç nəyə baxmayaraq biz işıqlı gələcəyə doğru gedirik... Bu inam məndə yalnız vətənə sonsuz məhəbbətimdən qaynaqlanmır. Mən bugünkü qaranlıqlar və mənəviyyatsızlıqlar içində vətənsevər gəncləri görürəm və onlara inanıram". Bu zaman ölkənin müxtəlif yerlərində artıq düşmənə qarşı, partizan hərəkatı başlanmışdır. Ancaq bu dağınıq dəstələr birləşdirilməli idilər.

Belə bir şəraitdə yeganə düzgün qərar göz bəbəyi kimi sevdiyi vətəni düşmən tapdağından qurtarmaq ola bilərdi. Atatürk dahi uzaqgörənliyilə bir an gecikmədən belə bir qərar qəbul etdi: Anadoluya gedib, milli mübarizəni başlamaq lazım idi!

Xöşbəxtlikdən bu vaxt Mustafa Kamal paşanı İstanbuldan uzaqlaşdırmaq məqsədilə, ona 9-cu Ordu Müfəttişliyi vəzifəsi təklif edildi. Mustafa Kamal böyük səlahiyyətlər alaraq, bu vəzifəni qəbul etdi. Onu isə əslində, millətın əl-qolunu bağlayıb, düşmənə təslim etməyə göndərirdilər.

Mustafa Kamal paşanın düşüncələri isə tamam başqa idi: Satqın başçıların qərarlarına tabe olmaq deyil, onlara qarşı çıxmaq lazım idi. 19 may 1919-cu ildə Samsuna çataraq, vaxt itirmədən tarixi missiyasını yerinə yetirməyə başladı. Milli Azadlıq hərəkatına start verildi. 8-9 iyul 1919-cu ildə "Ana vətən yolunda bir fərdi mübariz kimi çalışmaq üçün" çox sevdiyi hərbi sənətindən və vəzifəsindən istefa etdi. O, ağır şərtlər altında siyasi fəaliyyətə başladı və ölkədə mövcud olan bütün mübariz qüvvələri birləşdirmək uğrunda var qüvvəsi ilə çalışdı. İstanbuldan isə pis xəbərlər gəlirdi: 19 mart 1920-ci ildə Osmanlı Məclisi son toplantısını keçirdi və müddətsiz olaraq özünü buraxılmış elan etdi. Bundan bir gün sonra Musatafa Kamal paşa fövqəladə yeni məclis üçün seçkilər keçirilməsi haqqında qərar verdi. 23 aprel 1920-ci ildə Ankarada Türkiyə Böyük Millət Məclisi ilk iclasına toplandı.Mustafa Kamal paşa onun ilk sədri seçildi.

Sultan və ətrafındaki vətən xainləri azadlıq mübarizələrinə qarşı kəskin mübarizəyə keçdilər: onların öldürülməsinin bir dini vəzifə olduğu haqqında fitva verilməsinə nail olundu. 11 may 1920-ci ildə isə hərbi məhkəmə Mustafa Kamal və digər liderlərin edam olunması haqqında qiyabi hökm çıxardı.

Azadlıq mübarizələrinin əzmkarlığı isə durmadan artırdı. Ankarada hökümət təşkil olundu.

Yunan, Erməni və Fransız istilaçıları ilə qanlı döyüşlər aparmaqla yanaşı, onlar Sultan ordusu ilə də vuruşmaq məcburiyyəti qarşısında idilər. Osmanlı dövlətinin dünyanın siyasi xəritəsindən silinməsini nəzərdə tutan (10 avqust 1920-ci il) "Sevr" müqaviləsi millətin azadlıq ruhunu daha da yüksəltdi və azadlıq mübarizləri ətrafında daha sıx birləşdirdi.Könüllü dəstələr bütün ölkəni bürümüşdü. Lakin 1920-22-ci illərdə üç il davam edən Türk-Yunan müharibəsi ölüm-dirim müharibəsinə çevrilmişdi. Onlar yaranmış ağır vəziyyətdən istifadə edərək 8 iyul 1920-ci ildə Bursanı, 23 avqustda Uşaq səhərini işğal etdilər.

Belə bir vəziyyətdə Mustafa Kamal paşa cəbhə komandirləri ilə görüşmüş və könüllü qüvvələrin əvəzinə nizami ordu yaradılması zəruriliyini irəli atmışdır.Bütün qüvvələrin nüfuzlu bir şəxsin komandanlığı altında birləşdirilməsi vaxtı çatmışdır. Dağınıq partizan müharibəsinə son qoyulmağa başlandı.Lakin bu zaman tabe olmayan qüvvələr də tapıldı. Kütahya ətrafında yerləşmiş Çərkəz-Ədhəm əmrə tabe olmadı. Onun silahlı qüvvələrinin ləğv edilməsi haqqında qərar gəbul edildi. Daxili çəkişmələrdən istifadə edən yunan qoşunları zəifləmiş mövqelərə qəflətən hücum edərək, strateji əhəmiyətli Əskişəhər və Afyonu ələ keçirmək və Ankaraya yol açmaq istəyirdilər.

Lakin azadlıq mübarizləri bütün qüvvələri səfərbər edərək "I İnönü döyüşləri" adlanan döyüşlərdə düşmən üzərində tarixi qələbə qazandılar. Düşmən geri çəkilməyə başladı. Bu döyüşlər Milli Azadlıq hərəkatında dönüş nöqtəsi oldu.

Atatürkün ifadəsilə həmin zəfər tam qələbə yolunda uğurlu başlanğıc oldu və sonralar II İnönü, Sakarya, 26 və 30 avqust qələbələri kimi daha böyük zəfərlərə yol açdı. Ancaq yunanlar bu məğlubiyyətdən ibrət dərsi almayaraq, 1921-ci ilin iyul ayında "Sevr" müqaviləsinin şərtlərini həyata keçirmək məqsədilə Anadolu torpaqlarına ara vermədən yeni qüvvələr gətirərək, yenidən hücuma keçdilər. İstər ordunun sayı, istərsə də hərbi ləvazimat baxımından türk qüvvələrindən üstün vəziyyətdə olan yunanlar Afyon, Əskişəhər, Kütahya, Biləcik şəhərləri dalbadal düşmən əlinə keçdi.

İnqilab tarixində "Kütahya-Əskişəhər döyüşləri" adını daşıyan və Sakaryanın şərqinə çəkilmə ilə nəticələnən bu vuruşmalarda ordu özündən iki dəfə çox olan düşmən qüvvələri qarşısında olduqca ağır itkilər vermiş, istər döyüşlər, istərsə də geri çəkilmə zamanı 40000-ə yaxın silahlı qüvvələr məhv edilmişdi. Bundan əlavə, hərbi ləvazimat itkisi də böyük idi.

Ordunun, Sakaryanın şərqinə çəkildiyi bu günlərdə Nazirlər Şurası yunanların hazırlaya biləcəyi yeni bir hücuma qarşı tədbir görmək üçün hökümət mərkəzinin Ankaradan Kayseriyə köçməsi haqqında qərar qəbul etdi; lakin Məclis bu qərarı təsdiq etməli idi. Hökümətin qərarı Böyük Millət

Məclisinin gizli toplanışında oxundu. Məclis şahə qalxmışdı: "Biz buraya qaçmağa gəlmişik, yoxsa düşmənlə döyüşməyə?" Millət təmsilçiləri Ankaranı müharibəsiz təslim etməyi qəbul etmədilər, məqsəd son təpəyə qədər döyüşmək idi. Bu həyacanlı çıxışlardan sonra Məclis, hökümətin köçməsi əvəzinə, Ankaranın müdafiəsi, bunun üçün isə lazımı hazırlıq görülməsi haqqında qərar qəbul etdi.

Bütün bu ağır şərtlərə, müvəqqəti geri çəkilməyə baxmayaraq, düşmənə qəti zərbə endirilməsinə dair, başda Atatürk olmaqla, milli mübarizə liderlərinin inamlarıəsla sarsılmamışdır.Ancaq təəssüf ki, liderlərin bu inamına baxmayaraq, Sakaryanın şərqinə tərəf geri çəkilməyin yaratdığı mənəvi pozuntu Məclisdə də öz əksini tapmışdır. Yeni bir ordu təşkil edilirkən meydana gələn bu ağır itki, bu geri çəkilmə istər-istəməz sarsıntılara səbəb olmuş, bəzi dairələri haqlı olaraq, təşviş və narahatçılıq hissi bürümüşdü. Bu ab-hava içində 4 avqust 1921-ci ildə Türkiyə Böyük Millət Məclisinin gizli toplanışında hərbi vəziyyət və Baş komandanlıq təşkil edilməsi ilə əlaqədar həyacanlı söhbətlər oldu. Millət vəkilləri yorğun ordunu yenidən canlandıracaq, ölkəni bədbəxtçilikdən qurtaracaq son çarəni axtarırdılar. Bu çarə, Mustafa Kamalın orduya bilavasitə başçılıq etməsində idi. Çünki o, iştirak etdiyi heç bir döyüşdə məğlub olmamış, həmişə qalib gəlmiş bir komandan idi. Buna görə də çıxışlar onun Baş komandan olması fikri üzərində birləşdi.

Müxaliflərə gəldikdə isə onlar da Baş komandanlığı Mustafa Kamal paşaya verməkdən başqa bir çıxış yolu olmadığı fikrinə şərik çıxırdılar. Bununla onlar həm də bütün məsuliyyəti onun boynuna atmaq məqsədini güdürdülər.

Mustafa Kamal paşa, onu Baş komandan görmək istəyən milli iradənin bu təkidi qarşısında, Məclisin rəyasət heyətinə bu sözlərlə müraciət etdi: "Məclisin hörmətli üzvlərinin ümumi şəkildə bildirilən arzu və istəklərinə cavab olaraq Baş komandanlığı qəbul edirəm". 5avqust 1921-ci ildə Mustafa Kamal paşanın üç ay müddətə hərbi işlərə aid məsələlərdə Məclisin səlahiyyətindən istifadə etmək şərti ilə Baş komandan vəzifəsinə təyin edən qanun Böyük Millət Məclisində yekdilliklə qəbul edildi. Baş komandan artıq planını tərtib etmiş və qəti şəkildə həyata keçirməyə başlamışdı. Məqsəd, müvəffəqiyyəti təmin edə biləcək bütün tədbirləri qısa zamanda görməkdi. Bu məqsədlə 7 və 8 avqust 1921-ci ildəöz imzası ilə "Tekalifi Milliyə", yəni "Milli vergi" haqqında 10 əmr verdi. Bu əmrlərə uyğun olaraq, hər ilçədə bir "Milli vergi komissiyası" yaradılırdı. Hər evdən ordunun ehtiyacı üçün bir qat alt paltarı, bir cüt corab, bir cüt çarıq alınırdı. Ordunun ləvazimat ehtiyacı üçün tacirin əlində olan mallardan qırx faizi, pulu qələbədən sonra ödənmək şərtilə alınırdı. Hamı evdə olan taxıl, heyvan və yem tədarükünün qırx faizini, yenə pulu sonradan ödənmək şərtilə orduya verməli idi. Xalqın əlində olan

müharibə üçün əlverişli bütün silah və sürsatlar 3 gün ərzində ordunun sərəncamına verilməli idi. Ölkədəki dəmirçilərin, poladəridənlərin, dülgərlərin, sənaye emalatxanalarının siyahısı tutulmalı, sahiblərinin adları müəyyən edilməli idi. Beləliklə, bütün ölkə qələbəni təmin etmək üçün fövqəladə səfərbərliyə məruz qalmışdı. Artıq millət və ordu əl-ələ vermiş və ümumi bir müharibə başlanmışdı.

1921-ci il avqust ayının əvvələri idi. Yunan ordusu 13 avqust 1921-ci ildə Sakaryadakı türk mövqelərinə doğru yenidən hücüma başladı. 15 avqust 1921-ci ildə yunan kralı Konstantin ordularına "Ankaraya!" əmrini verdi. Durmadan irəliyən yunanlar bir çox şəhər və qəsəbələri işğal edərək, Sakaryadakı müdafiə xəttində dayandılar.

23 aqust 1921-ci ildə yunan ordusunun hücumu ilə Sakarya Meydan vuruşları başladı. Bütün cəbhə boyunca hücum vəəks-hücum həmlələri ilə dolu olan çox şiddətli döyüşlər getdi. Yunan hücumu bir çox yerdə ordu tərəfindən düşməni ağır itkilərə məruz qoyaraq dayandırıldı. Lakin möhkəmləndirilmiş yunan qüvvələrinin mühüm mövqeləri ələ keçirdikləri, Poladlıya qədər yaxınlaşdıqları, top səslərinin Ankarada eşidildiyi vaxtlar da oldu. Türk mövqelərinin bir çox yerlərdə yarılmasına baxmayaraq, hər qarış torpaq inadla müdafiə edilir, itirilən hər bir xəttin arxasında yeni bir müdafiə xətti təşkil olunur, bu yolla düşmənin irəliləməsinə imkan verilmirdi. Baş komandan müharibə strategiyası üçün belə bir formul ortaya atmışdı: "Xətti müdafiə yoxdur, səthi müdafiə vardır! Səth bütün vətəndir! Vətənin hər qarış torpağı vətəndaşın qanı ilə islanmadıqca tərk olunmaz!"

Baş komandanın irəli sürdüyü və hərbi idarə baxımından böyük əhəmiyyətə malik olan bu şərt Sakaryada eynilə həyata keçirilmiş və müqəddəs vətən torpaqları hər itirilən xəttin arxasında gecikmədən yeni bir xətt təşkil etməklə, sona qədər müdafiə olunmuşdur. Düşmən aşdığı hər təpənin arxasında "Ankara var" xəyalı ilə vuruşur, Mustafa Kamal paşa isə yunan qüvvələrini, son zərbəni endirəcəyi yerə, ölkənin müqəddəs güşəsinə çəkirdi. Nəhayət, düşmənin hücüm gücü, irəliləmə qüvvə və qüdrəti get-gedə tükənməyə başladı. Yunan hərbi birlikləri əsas mövqedən çox uzaqlaşmış, həqiqətən, türklərin müqəddəs güşəsinə gəlib çatmışdılar. Artıq hücum növbəsi türklərin idi.10 sentyabr 1921-ci ildə başlayan əks-hücumla düşmənə ağır tələfat verilmiş, bu hücumun nəticəsində yunanlar qərbə doğru geri çəkilməyə başlamışdı.Bütün döyüşlər zamanı cəbhədən ayrılmayan Baş komandan Mustafa Kamal paşa ayrı-ayrı vaxtlarda ən irəli mövqelərdə görünmüş, hətta dəfələrlə atəş altına girmişdi. Baş komandanın ən irəli xəttə, hücum edən dəstələrin yanında görünməsi və müharibəni bilavasitə atəş altında müşahidə etməsi, şübhəsiz ki, zabit və əsgərlərin ruh yüksəkliyinə güclü təsir edirdi.

"Sakarya Meydan müharibəsi" adını alan bu böyük və qanlı müharibə 22 gün 22 gecə davam etdi və nəhayət, qoşunlar 13 sentyabr 1921-ci ildə

düşməni Sakarya çayının şərqində tamamilə məhv edərək, böyük bir zəfər qazandı. Bu önəmli və böyük müvəffəqiyyətlə əlaqədar 19 sentyabr 1921-ci ildə Türkiyə Böyük Millət Məclisi tərəfindən Baş komandan Mustafa Kamal paşaya qanunla Müşir (marşal) rütbəsi və "Qazi" adı verildi.

Sakarya Meydan Müharibəsindən sonra məğlub olmuş yunanlar, Afyon-Əskişəhər xəttinə qədər çəkilərək, bu rayonlarda mövqelərini möhkəmləndirmək, əhəmiyyətli yerləri məftil çəpərlərlə möhkəmləndirməklə müdafiəyə keçmişdilər. Düşmənin bu geniş xətt üzərində üç korpusu yerləşmişdi.

Yunanların tutduqları bu son mövqelərdən də qovulmaları, türk ordusunun qəti nəticəli bir döyüşə girişməsini tələb edirdi. Nəhayət, əldəki bütün imkanlar istifadə edilərək, ölkənin bütün maddi və mənəvi qüvvələri səfərbər edilərək, hücumun vaxtı yetişdiyi qərara alındı. Amma yenə də yunanlar əsgərlərin sayı, hərbi ləvazimat baxımından üstünlüklərini saxlayırdılar.

Baş komandan tərəfindən ən incəliklərinə qədər hazırlanan Böyük hücum və onu müşayiət edəcək meydan müharibəsi planı 27-28 iyul 1922-ci il gecəsi Ağ şəhərə çağrılan ordu komandanlarına bildirildi. Onların da fikirləri nəzərə alınaraq Qərb cəbhəsi ordularına 6 avqust 1922-ci ildə gizli olaraq "hücuma hazırlıq" əmri verildi.

Böyük hücum planı həqiqətən dahiyanə və dahiyanə olduğu qədər də, sürətli və təhlükəli idi. Zira, qüvvələr, demək olar ki, hamısı hücumun skelet mərkəzi hesab olunan Afyon-Konya dəmiryolunun cənubuna toplanmış, başqa cəbhələrə qüvvə ayırmaq məsələsi, istər-istəməz ikinci plana keçmişdi. Üstəlik cəbhənin ağırlıq mərkəzi hesab edilən rayonun arxası da göllərlə əhatə olunurdu. Müvəffəqiyyətsizliyə düçar olunduqa, bu rayonda vuruşan 1-ci ordunun aqibəti çox pis ola bilərdi.

Bu plan ancaq böyük komandanların ilham və rəhbərliyi altında müvəffəqiyyətlə həyata keçirilə bilərdi və bütün riskləri pis təsirdən qurtara biləcək amil nəyin bahasına olursa-olsun, məğlub olmamaq qərarı idi. Həqiqətən, belə də oldu.

26 avqust 1922-ci ildə səhər saat 5:30-da topçularımızın atəşi ilə Qocatəpədən Böyük Türk hücumu başladı. Sürətli hücum nəticəsində 26-27-də avqust yunan ordusunun bir çox mövqeləri alındı. 30 avqust günü Dumlupınar ərazisində 200 minlik yunan ordusu tamamilə mühasirə edilmişdi. Baş komandan 1 sentyabr 1922-ci ildə komandası altında olan qüvvələrə: "Ordular! İlk hədəfiniz Aralıq dənizidir, irəli!"- əmrini verdi.

Mondoros müqaviləsi ilə başlanan və Sevr müqaviləsi ilə həyata keçirildiyi zənn edilən, türk millətini Anadolu torpaqlarından çıxarmaq və tarixdən silmək məqsədinə yönəlmiş, qorxunc və xain bir axına qarşı, xalqın bütün maddi və mənəvi qüvvə mənbələrini səfərbər edərək qazandığı böyük qələbələr, Atatürkün ifadəsilə desək, yalnız bir məqsədə yönəlmişdir: "Qeydsiz, şərtsiz müstəqil yeni bir Türk Dövləti yaratmaq."

Atatürkün Türk xalqına hədiyyə etdiyi, Türk gəncliyinə göz bəbəyi kimi qorumağı dönə-dönə tapşırdığı ən böyük tarixi əsəri Türkiyə Respublikasıdır. 29 oktyabr 1923-cü ildə axşam qaranlığı düşəndə Ankarada atılan yüz bir top atəşi Respublika erasının açıldığını türk xalqına və bütün dünyaya bildirdi.

Mustafa Kamal Atatürkün hərbi görüşləri

Mustafa Kamal hərbi peşəyə yiyələndikdən sonra bu yolla addım-addım irəliləmiş, müharibə meydanlarında düşmən üzərində misilsiz qələbələr çaldıqca, hərb tarixində özünü cəsur, qorxmaz və istedadlı bir hərbçi kimi qəbul etdirmiş və bütün dünyada məhşurlaşmışdı. 1905-ci ildən 1923-cu ilə qədər on səkkiz il davam edən müharibələr onu hərbi peşənin ən yüksək pillələrinə qaldırdı.

O, hər şeydən əvvəl komandan idi və hesab edirdi ki, komandan bir çox keyfiyyətlərə malik olmalıdı. Hər şeydən əvvəl vətənsevər olmalı,öz sənətini sevməli və bu sənətin bütün incəliklərinə bələd olmalıdır. Bunlarla yanaşı, o, yaradıcı zəka sahibi kimi yüksək dərəcədə məsuliyyətli olmalı, öz üzərində daima işləməli, hərəkət və qərarlarında qətiyyətli, cürət və cəsarətli olmalıdı. Təşəbbüskar, soyuqqanlı, səbirli, yüksək mənəviyyatli,sağlam və nizam - intizamlı olmalıdı. Məlum olduğu kimi, əsgərlik ənənəvi olaraq peşədir, sənətdir. Keçmişdə oxu atmaq, suvarilərin çevik hərəkətləri və s. sənət idi.Lakin dövrümüzdə müasir əsgərlik anlayışına görə əsgərlik sənətini sadəcə sənət hesab etmək olmaz. Raket qoşunlarında, elektron cihazlarla təchiz edilmiş təyyarələrdə hərbi xidmət elmi bilik tələb edir, ona görə də müasir dövürdə əsgərlik elmlə sənətin kəsişdiyi nöqtədi. O, hesab edirdi ki, hərbi güc milli gücün əsas ünsürlərindən biridir. İqtisadiyyat, siyasət, sosial-mədəni güclər elmi köklərə əsaslanır. Hərbi güc də belə olmalıdır. Hərbi təcrübədə strategiya, taktika, dəqiq hesablamalar tələb olunur. "Komandan yaradıcı olmalıdır"- dedikdə o, hesab edirdi ki, komandan müxtəlif şəraitdə, şəraitə görə çıxış yolu tapmalıdır. Sürəti seçmək və çeviklik göstərmək komandanın yaradıcılığına daxildir. Zabit və komandanlardan bilikli olmaq tələb olunur.

Onun əsgər haqqında görüşləri olduqca maraqlıdır. Onun fikirinə görə, Türklər atalarının, tarixin və tarixi hadisələrin formalaşdırdığı xüsusi keyfiyyətlər qəbul etmişdir. Bu keyfiyyətlər Türk əsgərini dünya əsgərləri arasında qabaqcıl mövqeyə çıxarmışdır. Türk əsgərinin ölkə daxilində və xaricdə böyük hörmətə malik olması, onun yüksək mənəviyyatından qaynaqlanır. Bu keyfiyyətlər sağlam ailə ocağında təlim-tərbiyyə ilə yaran-mağa başlar, məktəbdə, cəmiyyətdə tədris və tərbiyə vasitəsilə təkmilləşər.

Türk əsgərinin mənəvi gücü tarixən müharibə meydanlarında mükəmməlləşirdi. Türk millətinin vətənsevərlik duyğusu və vətəni qorumanın müqəddəs borc olması haqqında anlayışı Türk əsgəri üçün də ülvi borcdur. Türk əsgəri vətəni qorumaq inamı ilə yoğrulub yapılmışdır. Onun inamına

görə, vətən uğrunda ölmək şəhidlik zirvəsinə yüksəlmək deməkdir. Şəhidin yeri isə cənnətdir. Türk əsgəri cəsurdur, qorxunun nə olduğunu bilmir.Bu Türk millətinin ümumi keyfiyyətidir.Atatürk deyirdi: "Türk ordusunun, onun üstünlüklərini, dəyərlərini və bu ordu ilə nələr edilə biləcəyini mənim qədər bilən az adam vardır".

Ordu haqqında onun aşağıdakı fikirləri çox maraqlıdır:

"Bütün tarix bizə göstərir ki, millətlər yüksək məqsədlərinə çatmaq istədiyi zaman bu coşmaları müqabilində hər zaman uşaqlarına hərbi forma geydirmişlər. Tarixin bu ümumi oxşarlığı daxilində böyük bir fərq bizim tariximizdə Türk tarixində mövcuddur. Bildiyimiz kimi, Türk milləti, nə vaxt yüksəlmək üçün addım atmaq istəmişsə, bu addımların önündə daima başçı kimi, daima yüksək milli idealı həyata keçirən hərəkatların rəhbəri kimi, özünün qəhrəman oğullarından yaranmış ordusunu görmüşdür.

Buna görə Türk milləti təhlükələrə qarşı əlində qılınc, yürüşə hazır olan qəhrəman oğullarına dərindən güvənmişdir. Və daim güvənəcəkdir. Bundan sonra da Türk millətinin ali idealının gerçəkləşməsi üçün qəhrəman əsgər övladlarının hamısı qabaqda gedəcəkdir.

Bu gün Türk milləti müvəffəqiyyət qazandığı hər həyati şeyin qəhrəmanı kimi öz ordusunu, komandirlik edən öz övladlarından ibarət zabitlər toplusunu, ali komanda heyətini görür. Millət və qəhrəman övladlarından meydana gələn ordu o dərəcədə vəhdət təşkil edir ki, dünyada və tarixdə bunun örnəyi çox nadirdir. Bu milli keyfiyyət ilə daim öyünə bilərik".

Türk əsgəri sadədir, adi yaşayış həyatı vardır. O, lovğalanmaq nə olduğunu bilmir. O, etdikləri ilə öyünməz. Çaldığı böyük qələbələri o adi iş hesab edər.

Türk ordusu şanlı keçmişi boyunca "Məhmətcik" "simvoluna çevrilmişdir.

Nədir **"Məhmətcik"?"** Bu ad peyğəmbərimiz Həzrəti Məhəmmədin adının türkcə tələffüzündən alınıb, Türk xalqının gözündə və düşüncəsində bir qəhrəmanlıq simvoludur". "Məhmətcik" sözündə bir "qəhrəmanlıq", bir təvazökarlıq mənası vardır. "Məhmətçik" sözünün dünyaya gəlməsi də Atatürkün adı ilə bağlıdır. O, bütün hərbi həyatı boyu əsgərlərlə birlikdə olmuş. Sakarya Meydan müharibəsində qazanılmış Böyük qələbədən sonra o, demişdir: "Məhmətcik" nə gözəl almazdır, o - Məhmətcik dünyanın ən igididir. Ondan sonra həmin söz Türkiyədə ictimai fikirdə bir simvol kimi dərin kök saldı. "Milli azadlıq hərəkatı zaman nail olunmuş böyük qələbələrin sirri nədədir?" - sualına o, belə cavab vermişdir: "Türk komandirləri komanda verməyi, Türk əsgəri də ölməyi bacarmışdır. Qələbə qazanmağın sirri də, məhz bundan ibarətdir."

Türk əsgəri imanlıdır, inamlıdır.Onun əsas keyfiyyətlərindən biri budur. Bu bəlkə də ən mühümüdür.

Atatürk hesab edirdi ki, əsgər qələbənin mayasıdır. O, əsgərə müraciətlə deyirdi: "Dünyanın heç bir ordusunda ürəyi sənինkindən daha təmiz, daha sağlam bir əsgər yoxdur, hər qələbənin mayası səndədir. Hər zəfərin ən böyük payı səndədir. İnamınla, imanınla, itaətinlə, qorxu bilməyən dəmir kimi qəlbinlə düşməni tir-tir əsdirən qeyrətinlə öyünürəm və bunun üçün təşəkkür etməyi özümə borc bilirəm".

5.5. Atatürkçü düşüncə sistemində milli birliyin yeri

"Dədəm Qorqud" qəzeti, 1991-ci il, № 7.

Azərbaycanda Milli Birliyə ehtiyac bu gün olduğu qədər bəlkə heç vaxt olmamışdır.

Həyat bütün kəskinliyi ilə tələb edir ki, Respublikada mövcud olan bütün qüvvələri birləşdirə bilən toxunma nöqtələrini tapıb milli birlik konsepsiyası hazırlansın, bu konsepsiyanın zəruriliyini və əhəmiyyətini bir daha anlamaq üçün türk professoru Əhməd Mumcunun "Atatürkçü düşüncə sistemində milli birliyin yeri" adlı yazısını qısa ixtisarla oxuculara təqdim edirik.

... Atatürkçü düşüncə sistemi iki böyük təməl üzərində yüksəlir: ağlın gücü və millətçilik. Millətçilik "bir millətə aid olma" duyğusu və bu duyğunu inkişaf etdirmə arzusu və işləri deməkdir. Millət bu gün dünyada hər hansı bir dövlətin yaradılıb inkişaf etdirilməsindəən mühüm şərt hesab edilir. Bir insan toplusunun "millət" halına gələ bilməsi üçün, hamının bildiyi kimi, bəzi keyfiyyətlərə malik olması lazımdır. Bu keyfiyyətlərin başında "birgə yaşama istəyi" gəlir. Həqiqətən, bir insan toplusunun fərdləri "birgə yaşamaq" istəməzlərsə, o zaman onlar "millət" səviyyəsinə yüksələ bilməzlər. Ona görə "birlik" və "millət" anlayışları eyni mənalı da hesab edilə bilərlər. Atatürk millətə verdiyi tərifdə bu keyfiyyəti böyük səylə ön plana çəkmişdir: "Millət zəngin bir xatirə mirasına sahib olan, birgə yaşamaq işində müştərək hərəkət edən və birgə yaşamağı səmimi arzu edən, malik olduğu mirası mühafizədə öz iradələrini birləşdirən insan toplusudur".

Baxın, bu tərifdə "müştərəklik – yəni ortaqlıq və birlik" ön plandadır. Bu tərifi əsas tutan Atatürk türk millətinin keyfiyyətlərini sayaraq deyir: "Türk millətində siyasi birlik, dil birliyi, soy və kök birliyi, tarixilik və əxlaqi yaxınlıq vardır. Əgər diqqət edilsə, burada da təməl şərt "birlikdir".

Həqiqətən, bir millətin fərdləri bir-birindən ayrılsalar, milli mahiyyət də silinib gedər. Ona görə millətçilik prinsipinin yaşaya bilməsi üçün milli birliyə belə tərif vermək olar: "Millət vahidlərinin birgə yaşamaq arzusu ilə milli mahiyyəti qoruyub davam etdirmələri milli birlikdir".

Atatürkün millətçiliyi türk millətinin hər cür təhlükəyə qarşı dura bilməsi, sağlam və xoşbəxt bir yaşayış içində inkişaf edib, durmadan yüksəlməsi üçün gedilən ən güvənilən yolur. Bugünkü milli dövlətimiz milli

hegemonluğa əsaslanır. Ona görə millət öz müqəddəratını özü həll edir. "Öhdəsinə belə mühüm, böyük bir vəzifə düşən millətin fərdlərini bir-birinə qaynadıb-qarışdıracaq mükəmməl və yeganə sement də millətçilikdir" prinsipini ən geniş əhatə ilə ortaya qoyarkən onun irqçiliyə qarşı olduğunu, insanpərvər, sülhsevər və dünyəvi xarakterini xüsusi qeyd etmişdir...

Milli birliyin mənasını hörmətli Xocam Feyzioğlu çox gözəl izah etmişdir: Milli birlik və bərabərlik duyğusu, aralarındakı bütün ayrılıqlara baxmayaraq, millətin fərdlərini bir-birinə sıx bağlar.

Milləti təşkil edən fərdlərin doğum yerləri, böyüdükləri yurd, sahələri, maarif səviyyələri, sənətləri, məzhəbləri, siyasi partiyalara mənsubiyyəti müxtəlif ola bilər. Lakin doğuluş yerləri ayrı da olsa, Vətən birdir. Partiya bayraqları ayrı olsa da, ay-ulduzlu Bayraq birdir. Sənətləri, məzhəbləri ayrı olsa da, Millət birdir.

Bir millətə mənsub olanların eyni gəmidə yolçu insanlar olduqları, gəmi suda batarsa, bütün komanda heyəti ilə, yolçuları ilə, hər kəsin təhlükəyə düşəcəyi unudulmamalıdır.

İlk baxışda ayrı kimi duran barmaqlar ələ, eyni qola necə bağlıdırsa, doğuluş yerləri, gəlir mənbələri, sənətləri siyasi görüşləri müxtəlif olan yurddaşlar da, eyni millətə elə bağlıdırlar. Ayrı kimi görünən barmaqlar qazmanı, kürəyi, qələmi necə bərabər tutur və lazım gəldikdə birləşib bir yumruq olursa, bir millətin fərdləri də millətin inkişafı və ya müdafiəsi uğrunda əl-ələ verməyi bacarmalıdır. Lazım gəldikdə bir yumruq kimi birləşə bilmək üçün barmaqların arasına düşmənlik tikanları yerləşdirilməsinə imkan verməməlidirlər.

Yüz illər boyunca eyni bayraq altında, eyni inamları bölüşdürərək yaşamış, ümumi vətənlərini birgə müdafiə etmiş "qədərdə, qismətdə və taledə ortaq olmuş" eyni böyük millətin şərəfli övladları kimi yaşamağı qərara alan insanlar arasında ayrılıq toxumları əkilməyə çalışılması Atatürkün toplayıcı, birləşdirici türk millətçiliyi ilə uyğun gəlməz.

Xocamızın bu görüşləri Atatürkün müxtəlif çıxışlarından ilham almışdır:

"Bir yurdun ən dəyərli varlığı yurddaşlar arasında milli birlik, yaxşı dolanma və çalışqanlıq duyğu və qabiliyyətlərinin olmasıdır. Millət varlığını... qorumaq üçün bütün yurddaşların canlarını və hər şeylərini dərhal ortaya qoymağa hazır olmaları, bir millətin ən yenilməz silahı və qorunma vasitəsidir. Ona görə türk millətinin idarəsində və qorunmasında milli birlik, milli duyğu, milli mədəniyyət göz dikdiyimiz ən yüksək idealdır"(1935).

"Lazım olduğunda Vətən üçün tək bir fərd kimi yekdil çalışmağı bacara bilən bir millət, əlbəttə, böyük bir gələcəyə layiq bir millətdir"(1927). "Bir millətin müvəffəqiyyəti mütləq bütün milli güclərin bir istiqamətdə toplanması ilə mümkündür. Bununla əlaqədar olaraq bilmək lazımdır ki, əldə etdiyimiz müvəffəqiyyətin millətin öz gücünü birləşdirməsinə, birgə fəaliyyət

və zəfərlərin gələcəkdə də təkrarına xidmətini istəyiriksə, eyni prinsipə əsaslanaq və eyni şəkildə yüyürək”(1923).

Nəhayət, 1975-1980-ci illərdə Türkiyədə mövcud olan dövr üçün ibrət dərsi alınacaq bir söz:

“Türk milləti özünün və millətin yüksək mənfəətlərinin əleyhinə çalışmaq istəyən pozucu, vətənsiz və millətsiz beyinsizlərin çalışmalarındakı gizli vəçirkin əməlləri anlamayacaq bir xalq deyildir”.

Sözümün əvvəlində atatürkçülüyün bir düşüncə sistemi olduğunu demişdim. Bu sistem bir-birinə bağlı prinsip və düşüncələrdən ibarət olan bir sistemdir. Hər düşüncə sistemində olduğu kimi, atatürkçülükdə də axıcı bir güc, bir ruh gərəkdir. Türk millətinin xoşbəxtliyini təmin etməkdən başqa heç bir məqsədi olmayan Atatürkcü düşüncə sistemini işlədən, onun canverici ruhu millətçilikdir və yalnız milli birlik bu ruhu hər an sağlam saxlaya bilər.

Atatürk Araşdırma Mərkəzi Dərgisi. Cild – 3, 1987, səh. 371-377.
Professor Əhməd Mumcu. Tərcümə etdi: Dünyamalı Vəliyev.

VI FƏSİL
TURQUT ÖZAL VƏ TÜRKİYƏDƏ İQTİSADİ MÖCÜZƏLƏR

6.1. Türkiyə. Turqut Özal və iqtisadi möcüzələr (Həmmüəllif Y.Babayev) Bakı, 1990.

6.2. Uşaqlıq və gənclik illəri

Turqut Özal 1927-ci ildə Şərqi Türkiyənin Malatya şəhərində torpaq damlı evi olan kasıb bir ailədə anadan olmuşdur. Atası Məhmət Siddik bəy kənd təsərrüfatı bankında azmaaşlı bir məmur, anası Hafizə xanım isə ibtidai məktəb müəllimi idi. Qanlı müharibələrin yaraları təzə-təzə sağalmağa başlamışdı. Gənc respublika quruluşu o illər müəllim çatışmazlığını ciddi hiss edirdi. Bir kurs oxuduqdan sonra ibtidai məktəbi bitirənlər müəllim olurdular. Hafizə xanım da gənc respublikanın maarifçilər ordusuna beləcə qatıldı. Məhmət Siddik bəyin məmurluq, Hafizə xanımın müəllimlik maaşı ilə ailə qənaət və sıxıntılar içində çətinliklə dolanırdılar. Şapka geyirdilər. Hətta bir dəfə çaşıb bir-birinin şapkalarını səhv geydikləri də rəvayət edilir. Belə bir vaxtda 1927-ci ildə onların valideynlik qapısını bir övlad kimi ilk dəfə Özal açmışdır. Gənc ata və ana milli azadlıq hərəkatının, respublika quruculuğunun ölkədə doğurduğu böyük ruh yüksəkliyi şəraitində yaşayırdılar. Balaca Özalı və ondan sonra doğulan oğulları Korkutu və Yusif Bozqurdu da bu ruhda böyüdürdülər. Atalarının həyat təcrübəsi göstərmişdi ki, məmurluq həyatı tez-tez iş yerini, yaşayış yerini dəyişməklə əlaqədardır. O, hələ dörd yaşında ikən atasının vəzifə xidmətilə əlaqədar olaraq Biləciyin Söyüt qəsəbəsinə köçürlər. Özünün qeyd etdiyi kimi, yaşına müvafiq olaraq şəxsiyyətinin təməl daşı, məhz bu balaca Söyütdə atılmışdır.Anadolu Səlcuqlu Sultanı Ələddin Keykubadın Ertuğrul bəyə mülk kimi verdiyi, sonra da oğlu Osmanın Osmanlı dövlətinin təməlini qoyduğu Söyütdə.

O, ibtidai məktəbə Söyütdə getməyə başladı. Azmaaşlı mə'mur ailəsi Söyütdən Silifkəyə köçdükdən sonra Söyütdə uşaqlar arasında hətta belə bir "dedi-qodu" da yayıldı: "Qara saçlı, qarayanız bir uşaq idi. Kökəsindən ona verməyən qardaşlarını anasına satardı...". O vaxtlar o, pilot olmaq istəyirdi. Silifkə ailə üçün yeni bir mühit, özü üçün isə dönüş nöqtəsi... Bir gün minmiş olduğu uzunqulaqdan yıxılaraq qolu sınmışdır. Sınan sağ qolu biraz qısalmış və aralı qalmışdır. Bununla da pilot olmaq arzusunu elə oradaca dəfn etməli oldu... Sonra Mardinə köçdülər və orada o, orta məktəbi bitirdi. Lakin kənddə litsey yox idi.Pullu pansionda (internat tipli) oxuması lazım gəlirdi. Hafizə xanım Konya, ya da Kabataşı istəyirdi. Kabataşda pansion haqqının illik

məbləği 275 lirə idi.Konya lisəsi 25 lirə ucuz olduğu üçün onu ailəsi oraya göndərməli oldu. İlk pullu təhsil belə başladı. Lakin qardaşı Korkut da orta məktəbi bitirdikdən sonra ailənin iki uşağı pulla pansionda oxutdurmağa güçü çatmadı. Hər iki qardaşı Hafizə xanım uşaqların dayısı Süleyman Doğanın Malatyadakı evinə qoymalı oldu. Atalarını gənc ikən itirən Özal və qardaşları göründüyü kimi anaları Hafizə xanımın himayəsi altında böyüyürdü. Maddi çətinliyə baxmayaraq Hafizə xanım uşaqlarına lazımi təhsil almaq üçün mümkün olan hər cür şərait yaratdı. Hər üçü İstanbul Texniki Universitetində təhsil almışlar.Universitetdə oxuduğu zaman qardaşı Korkut ilə birgə "Anadolunun bağrından qopanlara İstanbulu tanıtma klubu" təşkil etdilər. "Tələbə cəmiyyəti" də, "yardım qolu başkanlığı" da təşkil etdilər.

6.3. Xidməti vəzifələrin pillələrində

Turqut Özal 1950-ci ildə həmin universiteti mühəndis-elektrik ixtisası üzrə bitirmiş və elektrotexnika sahəsində magistr elmi dərəcəsini almışdır. Universiteti qurtardıqdan bir az sonra öz ixtisasını artırmaq məqsədilə ABŞ-da olmuşdur. Vətənə qayıtdıqdan sonra müxtəlif dövlət idarələrində və xüsusi bölməyə aid müəssisələrdə işləmiş, xidməti pilləkənlərlə yuxarıya doğru irəliləmişdir. Dövləti xidmətə Türkiyənin Energetika və Təbii Ehtiyatlar Nazir liyində başlayan T.Özal 1958-1959-cu illərdə ilk iqtisadi və sosial inkişaf planının hazırlanmasında iştirak etmişdir. O, 1960-1961-ci illərdə Müdafiə Nazirliyinin elmi-məsləhət şurasında işləmişdir.1965-ci il seçkilərində Süleyman Dəmirəl başda olmaqla Ədalət Partiyası qalib gəldikdən sonra iki il baş nazirin məsləhətçisi olmuş, 1967-1971-ci illərdə isə Dövlət Plan Təşkilatının müşaviri işləmişdir. 1971-ci ildə 12 mart siyasi böhranından sonra istefaya çıxaraq ABŞ-a getmişvə 1973-cü ilə qədər Beynəlxalq Bərpa və İnkişaf bankında işləmişdir. 1973-cü ildə Türkiyəyə qayıdaraq ölkənin ən güclü şirkətlərindən birində - Sabançı holdinqdə baş koordinator olmuş və qısa müddətdən sonra daha perspektivli işlərə girişmiş, yüksək dövləti vəzifələrdə olmuşdur. 1979-cu ildə Süleyman Dəmirəl hökuməti zamanı Türkiyə baş nazirinin iqtisadi işlər üzrə müşaviri və eyni zamanda, Dövlət Plan Təşkilatının məsləhətçisi olmuşdur.

12 sentyabr 1980-ci ildə baş vermiş dövlət çevrilişindən sonra təşkil olunmuş B.Ulusu hökumətində Türkiyə baş nazirinin iqtisadi işlər üzrə müavini vəzifəsində işləmişdir. Baş vermiş maliyyə qalmaqalı ilə əlaqədar olaraq o, 1982-ci ilin iyun ayında həmin hökumətin tərkibindən çıxdı. T.Özal 1983-cü ilin fevral ayından İslam İnkişaf Bankının Orta Şərq üzrə baş əlaqələndiricisi olmuşdur. 1983-cü ilin may ayında hərbçilərin ölkədə hər cür siyasi fəaliyyətin dayandırılması haqqındakı qadağaları ləğv edildikdən sonra Ana Vətən Partiyanın təşkilatçılarından biri və onun baş sədri oldu. Bununla

da onun həyatında kəskin dönüş baş verdi. O, əvvəllər əgər başlıca olaraq iqtisadi işlərlə məşğul olurdusa, indi siyasi fəaliyyətini də ciddi şəkildə genişləndirməyə başladı. 1983-cü ilin axırlarında isə Ana Vətən Partiyası Türkiyə Böyük Millət Məclisi seçkilərində qələbə qazandı. Nəticədə, 1983-cü ilin dekabr ayında Türkiyədə təkpartiyalı hökumət təşkil edildi və T.Özal bu hökumətdə Baş nazir seçildi. 1987-ci ilin axırlarında Ana Vətən Partiyası seçkilərdə yenidən qələbə qazandı və o, ikinci dəfə hökumət başçısı oldu. 6 il baş nazir olduqdan sonra 1989-cu ilin noyabr ayında Turqut Özal Türkiyə Respublikasının səkkizinci və 1960-cı ildən sonra ilk mülki prezidenti seçildi.

6.4. Siyasi portretindən cizgilər

T.Özal 1983-cü ildə məclis seçkilərində qələbə qazandıqdan sonra təşkil etdiyi hökuməti millətsevər və mühafizəkar, sosial baxımdan ədalətli, rəqabət və azad bazar mexanizminə əsaslanan bir hökumət adlandırmışdır. Onun fikrincə, millətsevərlik ölkənin istiqlaliyyət vəərazi bütövlüyünün qorunmasına yönəldilmişdir. Mühafizəkarlığı isə o, təşkil etdiyi hökumətin türk xalqının milli və mənəvi dəyərlərinə, mədəniyyətinə, tarixinə, adətən ənələrinə bağlılığı kimi qiymətləndirir. O, laisizmi (dünyəviliyi) bu prinsip ilə sıx bağlı şəkildə başa düşür və qeyd edirdi ki, biz "laisizmi, mənəvi dəyərlərin qorunmasında, vicdan, dini inam və ibadət azadlıqlarının həyata keçirilməsində və habelə dini mədəniyyətin inkişaf etdirilməsində məhdudlaşdırıçı ünsür hesab etmirik".

Bir siyasi xadim kimi T.Özalın sosial proqramlarının başında sosial Ədalətin təmin edilməsinə çağırışdurur. O, öz proqramını sosial baxımdan ədalətli proqram adlandırır və hesab edirdi ki, quru bəyanatlarla, sosial sahədə ədalətli olmaq mümkün deyildir, "mən kasıblarlayam" sözləri də heç nə verməz. Onun sosial ədalət proqramının başında "orta dirək" adlandırdığı orta təbəqənin sosial problemləri dururdu.Orta təbəqəyə o, fəhlə, məmur, sənətkar, kəndli (ciftçi) və təqaüdçüləri aid edirdi. Maraqlıdır ki, bu baxımdan o, xırda dövlət məmurları ilə bürokratik yüksək dövlət məmurları, xırda torpaq sahibkarları ilə iri fermerlər arasında fərq qoymurdu. "Orta dirəyin" sağlam və müvazinatlı inkişafını təmin etmək üçün o, üç qrup tədbirlər sistemini: 1) inflyasiyanın cilovlanmasını; 2) bu təbəqənin milli gəlirlərdən aldığı payın artırılmasını və 3) onların əlavə gəlirinin (yığım meylinin, qiymətli kağızlardan aldıqları faizlərin) çoxalmasını vacib hesab edirdi.

6.5. İqtisadi görüşləri və iqtisadi siyasətinin əsas istiqamətləri

Turqut Özalın bir siyasi xadim kimi beynəlxalq nüfuz qazanmasında onun iqtisadi sahədəki uğurlu fəaliyyəti qırmızı xətt boyunca aparıcı rol oynamışdır. O, iqtisadiyyat və texnika sahəsində bir sıra elmi əsərlərin müəllifidir. Texas universitetinin fəxri professorudur. Lakin həyatda o, bir alim kimi deyil, praktik kimi büyük şöhrət qazandı. Beynəlxalq aləmdə T.Özal bəzən haqlı olaraq Türkiyədə baş verən "iqtisadi möcüzələrin atası" adlandırılır. 80-ci illərdə Türkiyədə yeridilən iqtisadi strategiya isə "Özal modeli" kimi qiymətləndirilir. Bütün bunlar isə istər-istəməz Türkiyədə T.Özalın başçılığı ilə həyata keçirilən iqtisadi siyasətinə hər yerdə ciddi maraq doğurur. Bunu nəzərə alaraq, biz həmin siyasətin məzmunu və nəticələri haqqında oxuculara ətraflı məlumat verməyi vacib hesab edirik.

Şübhəsiz, bu siyasəti və onun nəticələrini aydın başa düşmək üçün onun həyata keçirilməyə başlandığı dövrdə yaranmış iqtisadi vəziyyətə nəzər salmaq lazımdır. 70-ci illərin axırları, 80-ci illərin əvvəllərində Türkiyənin iqtisadi məhrumiyyətləri olduqca ağıridi. 60-70-ci illərdə sürətlə inkişaf edən Türkiyə kapitalizmi bu dövrdə dərin və uzunmüddətli maliyyə-iqtisadi böhrana məruz qalmışdı. İqtisadi həyat qiymətlərin sürətlə artması və sözün əsl mənasında, valyuta aclığı ilə iflic vəziyyətinə düşmüşdür. Çoxdan başlamış inflyasiya təmayülü 70-ci illərin ortalarında dərin sosial-iqtisadi nəticələr doğuran hiperinflyasiyaya çevrildi. Qiymətlərin 1961-70-ci illərdə 5 faiz təşkil edən illik artım sürəti, 1971-75-ci illərdə 26,6 faizə, 1975-77-ci illərdə 33,1 faizə, 1978-79-cu illərdə isə 60,2 faizə çatdı. 1980-ci ildə isə inflyasiya sürəti artıq üçrəqəmli ədədlə ifadə olunurdu - 107,2 faiz. 1970-ci ildə 298 milyon dollar təşkil edən xarici ticarət balansının kəsiri on il ərzində 16,7 dəfə. artaraq 4.999 milyon dollara çatmışdır. İdxalatın 1980-ciildə cəmisi 37 faizi ixracatdan əldə edilən valyuta ilə ödənilirdi. Türk lirəsi acınacaqlı şəkildə qiymətdən düşür, dövlət isə öz borclarını artıq ödəyə bilmirdi. Açıq-aşkar maliyyə iflası təhlükəsi yaranmışdı.

Lirənin daxili və xarici alıcılıq qabiliyyətinin durmadan aşağı düşməsi, dövlət maliyyəsi sisteminin mütəmadi olaraq artan gərginliyi ticarət və tədiyyə balansı kəsirlərinin bütün 70-ci illər boyu ağır yükü geniş təkrar istehsalı prosesinin bütün tərəflərinə son dərəcə pis təsir göstərirdi: yığım norması ciddi surətdə azalır, təşəbbüskarlıq fəallığı sönürdü. 1978-ci ildə xalq təsərrüfatına kapital qoyuluşlarının mütləq məbləği 8 faiz azalmışdı. Respublikanın bütün tarixi ərzində inflyasiya ilk dəfə olaraq iqtisadi inkişaf sürətinin, əvvəlcə, zəifləməsi, sonra isə istehsalın mütləq həcminin azalması ilə müşayiət olundu. Staqiyasiya deyilən iqtisadi amil Türkiyədə də özünü göstərdi. Məcmu ictimai məhsulun 1976-cı ildə 7,7 faizə çatan illik artım

sürəti bir il sonra 1977-ci ildə 3 faizə endi. Sonrakı iki il böhranın ən dərin dövrü oldu - məcmu ictimai məhsulun mütləq həcmi 1979-cu ildə 0,3 faiz və 1980-ci ildə 1,1 faiz azaldı. Ən çox isə milli sənaye ziyan çəkdi. Onun fiziki həcmi 1979-1980-ci illərdə müvafiq olaraq 5,5 və 5,9 faiz azaldı. Milli sənayenin istehsal güclərinin 1980-ci ildə vur-tut yarısı - 51,1 faizi istifadə edilirdi.

Tamamilə təbiidir ki, dərin maliyyə-iqtisadi böhran sosial-siyasi sarsıntılarla müşayiət olunurdu. Rəsmi məlumatlara görə, zəhmətkeşlərin tətillərinin sayı 1977-ci ildə 59-dan, 1980-ci ildə 220-yə çatmışdı. Mühafizəkar qüvvələr isə ölkədə, necə deyərlər, bütün cəbhə boyu sui-qəsdlər şəbəkəsi yaratmışdı. Siyasi iqlimin bulandırılmasında ultra solçular da az rol oynamırdılar. Ağır iqtisadi vəziyyət və dərin daxili siyasi böhran türk generallarına imkan verdi ki, 1980-ci ilin sentyabrında növbəti hərbi çevriliş etsinlər.

Turqut Özalın Baş Nazir yardımçısı (iqtisadi işlər üzrə) olduğu dövrdə 24 yanvar 1980-ci ildə qəbul edilmiş "təcili tədbirlər paketi" ilə əsası qoyulan yeni iqtisadi strategiyanın ilkin müqəddəm şərtləri, göründüyü kimi, çox ağır idi. O, 1983-cü ilin axırında Baş Nazir kimi həmin strategiyanın sükanını öz əlinə aldı.

Praktik fəaliyyəti Qərb dünyası ilə sıx əlaqə şəraitində keçən T.Özal bir iqtisadçı kimi qərbin fikir axınının son nailiyyətlərini dərindən mənimsəmişdir. Bu nailiyyətləri o, Türkiyənin gerçəkləri və tələbatını nəzərə alaraq ozünün iqtisadi siyasətində geniş istifadə etməyə çalışırdı. Onun fəal surətdə həyata keçirdiyi iqtisadi siyasətin nəzəri əsasını "monetarizm" adlanan ABŞ-ın Çikaqo məktəbinin (M.Fridmen, A.Xarberqer və başqaları) irəli sürdüyü yeni fikir cərəyanı təşkil edirdi. Bu nəzəriyyə praktik olaraq "tetçerizm", "reyqanomika" adları altında bir sıra inkişaf etmiş ölkələrdə, habelə inkişaf etməkdə olan ölkələrdə geniş tətbiq edilirdi.

T.Özalın bir partiya lideri, hökumət və dövlət başçısı kimi yeritdiyi iqtisadi siyasətin əsasını rəqabət şərtləri hakim olan azad bazar iqtisadiyyatını hər vasitə ilə inkişaf etdirmək üzrə tədbirlər təşkil edirdi.

O, həyata keçirdiyi iqtisadi siyasət ilə iqtisadiyyatın ardıcıl olaraq liberallaşdırılmasına, "milli mənafe naminə dövlətin iqtisadi işlərə müdaxiləsinin və müxtəlif məhdudiyyətlərin minimuma endirilməsinə" çalışırdı. O hesab edirdi ki, dövlətin təşkilatçılıq və istiqamətverici funksiyası ümumi səviyyədə həyata keçirilməli və detalları qətiyyən əhatə etməməlidir. Onun nəzərincə, dövlətin iqtisadi inkişafı təmin etmək işində əsas fəaliyyət sahəsi millətin ümumi mənafeyini əks etdirən sahələr (məsələn, infrastruktura) olmalıdır. Bütün xalqın istifadəsi üçün lazım olan meşə və su sərvətləri, filizlər, energetika ehtiyatları dövlətin mülkiyyətində olmalıdır. Lakin dövlət onlardan istifadə hüququnu müəyyən şərtlər daxilində xüsusi şəxslərə, şirkətlərə verə bilər. Onun nəzərincə, dövlət prinsip etibarilə sənaye

və ticarətlə məşğul olmamalı, yalnız xüsusi hallarda zəif inkişaf etmiş rayonlarda sənaye müəssisələri yaratmalı və bu müəssisələri sonralar xalqın sərəncamına verməlidir. Dövlət sənaye və ticarət sahəsində başlıca olaraq nizamlaşdırıcı və yardım göstərici rol oynamalıdır. T.Özal hesab edirdi ki, iqtisadi sistemin fəaliyyət göstərməsində əsas alət xüsusi müəssisə, kooperativ və şirkətlərdən ibarət olan özəl bölmədir. O, belə bir müddəanı özünün və başçılıq etdiyi hökümətin əsas prinsipi sayırdı: dövlətin varlı olması heç də millətin varlı olması demək deyildir; millətin varlı olması isə son nəticədə dövlətin varlı olmasına gətirib çıxarır. O, iqtisadiyyatın liberallaşdırılmasının fəal tərəfdarı olmaqla yanaşı, iqtisadi və sosial inkişafın "ahəngdar, sürətli və məhsuldar şəkildə təmin edilməsi və ehtiyatlardan səmərəli istifadə olunması" üçün planlaşdırmanı da vacib sayırdı.Lakin o, "planlaşdırmada sərt ehkamçı-mərkəziyyətçi" üsulları rədd edir, "demokratik planlaşdırma" siyasətinə tərəfdar çıxırdı. Onun nəzərincə, "demokratik planlaşdırma" mexanizmi xüsusi şəxs və təşkilatların öz imkan və təşəbbüskarlığını inkişaf etdirməsinə kömək etməli, nizamlayıcı və müvazinat yaradıcı rol oynamalıdır.

T.Özalın inadla həyata keçirdiyi iqtisadi siyasətin ana xəttini Türkiyədə mövcud olan aqrar xarakterli qapalı iqtisadiyyatın strukturunun dəyişdirilməsi üzrə görülən tədbirlər təşkil edirdi. Ölkədə uzun müddət bir tərəfli şəkildə həyata keçirilmiş idxal məhsullarının daxildə istehsalını təşkil etmək və sənaye istehsalının daxili tələbatı ödəmək sahəsində ixtisaslaşması siyasəti öz imkanlarını tam tükətdi və dərin maliyyə-iqtisadi böhranla nəticələndi. Daxili tələbatın ödənilməsinə yönəlmiş sənayeləşmə modeli monetaristlərin geniş istifadə etdikləri "açıq iqtisadiyyat" strategiyası ilə əvəz edildi, ixracata xidmət edən xalq təsərrüfatı sahələrinin sürətlə inkişaf etdirilməsi zərurəti çox kəskin şəkildə dayanmış olan valyuta probleminin həll edilməsində və müvafiq olaraq baş vermiş olan maliyyə-iqtisadi böhrandan çıxılmasında başlıca amil kimi irəli sürüldü. Həyata keçirilən dövlət-kapitalist tədbirləri geniş miqyasda ixrac məhsulları istehsaledən sahələrə yönəldilməyə başladı. Türk lirəsinin çevik dəyişən kursunun tətbiqi siyasəti milli valyutanın sürətlə qiymətdən düşməsinə səbəb olsa da, türk məhsullarının rəqabət imkanlarını artırmaq məqsədinə xidmət edirdi. T.Özal idxal siyasətinin də getdikcə liberallaşdırılması xəttini seçərək, daxili himayəçilik tədbirlərini azaltmağa səy göstərirdi. Onun fikrincə, idxalatın liberallaşdırılması bazarın qapılarını xarici mallar üçün geniş açmaqla yanaşı, ölkə daxilində rəqabət mübarizəsi üçün eyni şərait yaratmalı, yerli istehsalçıların məhsullarının istər daxili, istərsə də xarici bazarlarda rəqabət qabiliyyətinin artırılmasına kömək etməlidir. O, hesab edirdi ki, belə bir siyasəti yalnız sənaye sahəsində deyil, həm də kənd təsərrüfatında tətbiq etmək lazımdır. Çünki bu siyasət, son nəticədə istehsalçıları məcbur edəcəkdir ki, o ya elmi-texniki tərəqqinin nailiyyətlərindən lazımi dərəcədə istifadə etsin, az xərclə yüksək keyfiyyətli

məhsul istehsal etsin və bununla da öz məhsullarının rəqabət qabiliyyətini yüksəltsin, ya da həmin məhsulun istehsalından tamamilə imtina etsin. Təbiidir ki, belə sərt mübarizədən yalnız güclülər qalib çıxa bilərlər. Nəticədə, xırda müəssisələrin çoxu iflas olur, böyüklər isə daha da böyüyürdü. İxracata yönəlmiş iqtisadiyyat modelinin fəal surətdə tətbiqi, yalnız ölkə daxilində həyata keçirilən geniş tədbirlərlə qurtarmırdı. Türkiyədə istehsal olunmuş mallar üçün intensiv olaraq xarici bazarlar da axtarılırdı. Bu istiqamətdə görülən işlərdən İslam ölkələri ilə olan ticarət-iqtisadi əlaqələrin sürətlə genişləndiyini göstərmək olar. Türkiyənin Avropa İqtisadi Birliyinə ("Ümumi bazara") tam üzvü olması haqqındakı müraciəti də xarici iqtisadi əlaqələrin intensivləşdirilməsi məqsədinə xidmət edirdi.

Yuxarıda qeyd edildiyi kimi, 70-ci illərin axırı, 80-ci illərin əvvəllərində Türkiyədə özünü göstərən dərin iqtisadi sarsıntılar maliyyə sahəsində başlamış, meydana gəlmiş, günü-gündən dərinləşən hiperinflyasiya ölkənin ən kəskin iqtisadi və siyasi probleminə çevrilmişdir. 24 yanvar 1980-ci ildən həyata keçirilməyə başlayan və bütün 80-ci illər Türkiyəsinin iqtisadi strategiyasının əsasını təşkil edən "təcili tədbirlər paketi" də ilk növbədə, bütün hüdudları aşmış olan inflyasiyanın cilovlanmasına yönəlmişdir. Həmin qərarlar Türkiyənin iqtisadi ədəbiyyatına həmçinin «sabitləşdirmə tədbirləri» kimi daxil olmuşdur. Bu tədbirlər sistemində inflyasiyanın azaldılması üçün istifadə edilən üsullar çox maraqlıdır. Məlum olduğu kimi, inflyasiyanın yetişməsi üçün, ilk növbədə, ölkədə tələb və təklif arasında mövcud olan dərin uçurum geniş şərait yaratmışdır. Uzun illər boyu pul çap etmə mexanizmi var qüvvəsi ilə işləmiş, tədavül kanalları izafi pul surruqatları ilə dolub tıxanmışdır. Ən sadə şəkildə ifadə olunsa - bolluca para var, lakin həmin para ilə almağa bir şey yoxdur. Mağazalar boş, mal qıtlığı ölkəni üzür, qiymətlər tüğyan edirdi.

Tələb ilə təklif arasındakı uyğunsuzluğu aradan qaldırmaq üçün iki yol vardı: ya mal təklifini (istehsalını) artırmalı, ya da izafi tələbi ləğv etməli. Şübhəsiz ki, istehsal prosesinin yenidən qurulması, yeni istehsal güclərinin yaradılması uzun müddət və ən başlıcası, əlavə maliyyə vəsaiti tələb edir.

Turqut Özalın memarlıq etdiyi yeni strategiya ikinci yolu seçildi. Mövcud izafi tələbin mümkün qədər tez və kəskin şəkildə məhdudlaşdırılması məqsədi qarşıya qoyuldu. Bu gün SSRİ-də bazar iqtisadiyyatına keçilməsi ərəfəsində ən yüksək siyasi dairələrin tez-tez işlətdikləri yeni və sərt ifadə - «şokla müalicə» ifadəsi, o dövrdə Türkiyənin də siyasi dairələrində, kütləvi informasiya vasitələrində başqa adla — «təcili cərrahiyyə əməliyyatı» adı ilə geniş yayılmışdı.

İnflyasiyanın cilovlanmasında istifadə olunan iqtisadi alətlər içində monetarist nəzəriyyələrə uyğun olaraq ön cərgəyə pul amilləri keçirilmişdir. Pul kütləsi üzərində sərt nəzarət, onun artımının hər vasitə ilə dayandırılması

məcmu tələbin nizamlaşdırılmasında əsas amil hesab edilirdi. Bu məqsədlə, tamamilə təbiidir ki, izafi pul emissiyasının başlıca mənbəyi olan büdcə kəsirlərinin azaldılmasına xüsusi diqqət vermək lazım gəlirdi. Kəsirlərin azaldılması üçün isə ilk növbədə büdcə məsrəflərinin ciddi şəkildə məhdudlaşdırılması tələb olunurdu. Dövlət aparatının ixtisar edilməsi (ilk növbədə, nazirliklərin sayı ciddi surətdə azaldıldı), xalq təsərrüfatına və sosial məqsədlərə yönəldilən məsrəflərin azaldılması, zərərlə işləyən dövlət müəssisələrinə edilən büdcə yardımından imtina edilməsi məhz bu məqsədə yönəldilmişdir. Nəticədə, Türkiyədə mərkəzi büdcə ilə qoşma büdcələri birləşdirən konsolidə büdcənin məsrəfləri: 1981-ci ildə məcmu ictimai məhsula nisbətən 23,8 faiz təşkil edirdisə, 1988-ci ildə 21,4 faizə enmişdir. Bu dövrdə dövlət tərəfindən həyata keçirilən kapital qoyuluşlarının həcmi əslində «dondurulmuşdu». 1980-1989-cu illərdə (müqayisə olunan qiymətlərlə) dövlət kapital qoyuluşlarının miqdarı 10,9-10,3 trilyon lirə səviyyəsində (1985-1987-ci illərdə də 12-13 trilyon) olmuşdur. Məcmu investisiyalarda dövlət bölməsinin payı 1980-ci ildə 61,1 faizdən 1989-cu ildə 44,3 faizə çatmış, xüsusi bölmənin payı müvafiq olaraq artmışdır. Sosial məqsədə yönəldilən dövlət məsrəfləri də xeyli azalmışdır. Yalnız onu göstərmək lazımdır ki, Milli Maarif Nazirliyi kanalı ilə ayrılan təxsisatlar məcmu ictimai məhsula nisbətən 1983-cü ildə 2,5 faizdən 1989-cu ildə 1,8 faizə düşmüşdür. Lakin, bu məqsədə yönəldilən məsrəflərin mütləq rəqəmlərlə (nisbi olaraq azalmasına baxmayaraq) artması maarifin 80-ci illərdə inkişafında mühüm rol oynamışdır. Yalnız onu göstərmək lazımdır ki, 80-ci illərin əvvəllərində Türkiyədə cəmisi 19 universitet vardısa, onların sayı az sonra 29-a (1 vəqf universiteti daxil olmaqla) çatmışdır. Bu universitet sistemində 211 fakültə, 114 institut fəaliyyət göstərir. Bayburt ili (Türkiyədə inzibati-ərazi bölgüsü) nəzərə alınmasa, bütün il mərkəzlərində və 26 ilçədə ali məktəb qurumu mövcuddur.

İnflyasiyaya qarşı mübarizə tədbirlərinin həyata keçirilməsində qəribə bir təzad özünü göstərirdi. Bir tərəfdən, mövcud izafi tələbi məhdudlaşdırmaq, digər tərəfdən isə büdcə kəsirlərini «normal» (inflyasiya yaratmayan) mənbələr hesabına ödəmək üçün vergi gəlirlərinin artırılması istər-istəməz işgüzar fəallığın müəyyən dərəcədə sönməsi ilə nəticələnir. Həyata keçirilən iqtisadi strategiyanın məntiqi isə işgüzar fəaliyyətin ciddi olaraq canlandırılmasını tələb edirdi.

T.Özal ona görə də özünün iqtisadi siyasətində pul-dəyər amillərindən ölkədə işgüzar fəallığı canlandırmaq üçün geniş istifadə etməyə başladı. Məsələn, vergi mexanizmində ciddi güzəştlərdən istifadə edilərək təşəbbüsçülər təşviq edilir, onların investisiya fəaliyyəti istiqamətləndirilməyə çalışılırdı. Xalq təsərrüfatının inkişafı üçün birinci dərəcəli əhəmiyyət kəsb edən sahələrin inkişafı, sosial-iqtisadi tərəqqi baxımından geri qalmış şərq region-

larının canlandırılmasına cəlb etmək üçün də təşəbbüsçülərə böyük güzəştlər nəzərdə tutulurdu. Ölkədə «əsas» vergi olan gəlir vergisininin təşəbbüsçülər üçün nəzərdə tutulan ən yüksək həddi 1985-ci ildə 63 faizə (1963-cü ildə 68 və 1981-ci ildə isə 75 faizdən) endirildi. Xəzinənin maliyyə ehtiyaclarını ödəmək üçün isə geniş xalq kütlələri üçün nəzərdə tutulmuş ən aşağı həddi 10 faizdən 25 faizə qaldırıldı. Son nəticədə milli gəlirdə vergilərin xüsusi çəkisi 80-ci illər boyu 20-23 faiz səviyyəsində qalmışdır. Məcmu daxili tələbatın pul-dəyər mexanizmi vasitəsi ilə nizamlaşdırılması işində «sərbəst faiz həddi» siyasətindən geniş istifadə edilirdi. Bu siyasətin məntiqi mahiyyətini qısa şəkildə belə ifadə etmək olar: inflyasiyanın sürətli artımı dövründə «ucuz» kredit ifrat tələbatın yaranmasında mühüm rol oynamışdır. Borc kapitalına böyük tələbat olduğu bir şəraitdə «sərbəst faiz həddi siyasəti» təbii olaraq faiz həddinin sürətlə yüksəlməsi və müvafiq olaraq məcmu tələbatın azalması ilə nəticələnmişdir. Bu siyasət eyni zamanda bir tərəfdən kredit ehtiyatlarından səmərəli istifadə olunması (təbiidir ki, yüksək faizlə 50-80 faiz - suda götürən təşəbbüsçü bu sudan maksimum səmərəli istifadə etmək haqqında düşünməlidir), digər tərəfdən isə mövcud yığım potensialının hərəkətə gətirilməsinə xidmət etməlidir. «Yüksək faiz həddi» siyasəti adını almış bu çox yönlü siyasət həmçinin inflyasiya dövründə «yeraltı iqtisadiyyat» kimi qiymətləndirilən möhtəkirlik xarakterli kütləvi əməliyyatların qarşısının alınması məqsədini də güdürdü. Bank depozitlərinə verilən yüksək faiz həddi inflyasiyanın cilovlanması üçün də istifadə edilməyə başladı. T.Özalın iqtisadi siyasəti xarici kapitala münasibətdə qarşılıqlı mənfəət balansını əsas tutur, xarici mənbələrdən geniş miqyasda faydalanmağa yönəldilirdi. Əcnəbi kapital qoyuluşları hər vasitə ilə təşviq edilirdi.

6.6. Özal iqtisadi modelinin həyatda əksi

Əlavə edilən cədvəllərdən görünür ki, T.Özalın başçılığı altında yeridilən iqtisadi siyasət Türkiyənin real həyatında son on il ərzində ciddi dəyişikliklərlə nəticələnmişdir (cədvəllər «iqtisadi rapor.1990» və digər rəsmi sənədlər əsasında tərtib edilmişdir). Azad prinsiplərinin geniş tətbiq edildiyi ölkə iqtisadiyyatı mühüm kəmiyyət və keyfiyyət dəyişikliyinə məruz qalmış, kapitalist istehsal münasibətlərinin inkişafı güclü təkan almışdır. Sərt rəqabətin hökm sürdüyü dünya bazarlarında ölkə sürətlə irəli atılmışdır. Türkiyənin ixracatı son on il ərzində altı dəfə artaraq 1988-ci ildə 11,6 milyard dollara çatmışdır. Əgər 1980-ci ildə Türkiyə ixracatının həcmi 100 qəbul etsək, 1988-ci ildə 403 olmuşdur. Həmin göstərici inkişaf etmiş kapitalist ölkələrində 157, «Ümumi bazar» ölkələrində 153, yeni sənaye ölkələri adlanan və çox sürətlə inkişaf edən Cənubi Koreya, Sinqapur, Honq Konq orta hesabla 277 punkt olmuşdur. Göründüyü kimi, Türkiyə ixracatı 80-ci

illərdə artım sürətinə görə kapitalist dünyasının bütün qrup ölkələrini qabaqlamışdır. Türkiyənin ixrac etdiyi məhsullar içində sənaye məhsullarının payı hədsiz dərəcədə artaraq 80 faizə çıxmışdır. Bu, bir növ sənaye məhsullarının yüksək keyfiyyətə malik olduğunu, rəqabət qabiliyyətini və müvafiq olaraq ölkənin sənayeləşmə səviyyəsini ifadə edirdi. Bu dövrdə Türkiyə özünün iqtisadi inkişaf sürətinə görə də dünyanın bir çox inkişaf etmiş kapitalist ölkələrini qabaqlamışdır. Türk lirəsi konversiya olunan valyutaya çevrilmişdir. T.Özalın inflyasiyaya qarşı yeritdiyi siyasətdə də müəyyən müvəffəqiyyətlər əldə edilmişdir. Onun illik artım sürəti xeyli azalmışdır. Bununla yanaşı, inflyasiya amili ölkənin ictimai-iqtisadi həyatında narahatçılıq doğuran bir amil kimi qalmaqda davam edirdi. Onun orta illik artım sürəti 25-70 faiz ətrafında cərəyan edirdi ki, bu da az və sabit gəlirli geniş əhali kütlələrinin həyat səviyyəsinə öz mənfi təsirini göstərirdi.İnflyasiya əleyhinə yönəldilmiş bir tədbir kimi əmək haqlarının «dondurulması» və habelə lirənin tez-tez devalvasiya edilməsi və dövlət bölməsinin məhdudlaşdırılması siyasəti əhalinin müəyyən təbəqələri arasında narazılıq doğurmuşdur. Onun başçılıq etdiyi "AnaVətən Partiyası" bir çox mütəxəssislər tərəfindən, ilk növbədə, iri kapitalın mənafeyinə xidmət edən bir partiya kimi qiymətləndirilir və tənqid atəşinə tutulur.

Müxalifət Özalın iqtisadi siyasətini «qeyri-humanistlikdə» təqsirləndirirdi. Onlar hesab edirdilər ki, inflyasiyanı yüksək səviyyədə saxlayan bu siyasət ölkədə gəlir bölgüsü sahəsində mövcud olan ədalətsizliyi daha da dərinləşdirir. İqtisadi cəhətdən fəal əhaliyə nisbətən hər il 10-12 faiz təşkil edən işsizlik də zəhmətkeşləri narahat edirdi.

6.7. Ümumbəşəri dəyərlər haqqında

T.Özal cəmiyyətdə fikir azadlığı, vicdan və təşəbbüsçülük azadlığının əhəmiyyəti və zəruriliyini dönə-dönə qeyd edirdi. Onun bu üç azadlıq meyarları demokratiyanın həyata keçirilməsi və iqtisadi tərəqqinin təmin edilməsi üçün çox vacibdir. O, prezident seçilərkən vəd etmişdir ki, bu azadlıqlara mane olan bütün maneələrin aradan qaldırılmasına çalışacaq, hətta lazım olarsa, konstitusiyada da dəyişikliklər edilməsinə nail olacaqdır. T. Özal bir siyasi xadim kimi ölkədə maarif və mədəni inkişafa da diqqət verirdi. O, hesab edirdi ki, müasir və qabaqcıl Türkiyə idealına, Atatürk prinsip və inqilablarına sadiq olan, milli və əxlaqi dəyərlərimizi mənimsəyən insanlar yetişdirmək milli maarif sisteminin başlıca vəzifəsidir. Maarif işinin bu istiqamətdə təşkili dövlətin əsas funksiyalarından biridir. Bununla yanaşı, dövlətin müəyyən etdiyi tədbirlər daxilində fərdlərin və xüsusi təşkilatların da maarif sahəsində xidmət göstərməsinə icazə verilirdi.

6.8. Xarici siyasət

Türkiyə Respublikasının Prezidenti öz siyasi novatorluğu ilə fərqlənirdi. Məhz bunun nəticəsində ölkənin xarici siyasi kursu köhnə ehkamlardan, köhnə təfəkkür tərzindən xilas ola bilmişdir.

T.Özalın fikrincə, Türkiyə Respublikası beynəlxalq aləmdə özünün xarici siyasət kursunu Atatürkün «Yurdda sülh, cahanda sülh» prinsipi əsasında həyata keçirir. O, elan edirdi ki, həmin prinsipə uyğun olaraq Türkiyə bütün dünya ölkələri və xüsusən qonşu dövlətlərlə xeyirxah dostluq münasibətlərinin inkişaf etdirilməsinə, NATO ittifaqına sadiq qalmağa çalışacaqdır. O, «dünya bazarı» ölkələri və ABŞ ilə münasibətlərin «qarşılıqlı mənfəətlərin balanslaşdırılması» prinsipi əsasında qurulmasına çalışır. Onun başçılıq etdiyi hökümət 1987-ci ildə Avropa İqtisadi Birliyi (AİB) təşkilatının tam hüquqlu üzvü olması məqsədilə ona müraciət etmişdir. Onun nəzərincə, Türkiyə yaxın gələcəkdə bu və Avropanın digər təşkilatlarında öz layiqli yerini tutacaqdır. Yaxın və Orta Şərq ölkələri ilə münasibətlərdə o xüsusən daha çox müvəffəqiyyət qazanmışdır. T.Özal İslam ölkələri ilə əməkdaşlığın qarşılıqlı mənfəətlərə uyğun olaraq sürətlə genişləndirilməsi üçün böyük əmək sərf edirdi. İran və İraq arasındakı müharibə zamanı bitərəf siyasət yeridərək hər iki ölkə ilə əməkdaşlığın xeyli artırılmasına nail olmuşdur. Onun başçılıq etdiyi hökümətin proqramında (1987) qeyd edilirdi ki, Türkiyə özünün Şimal qonşusu SSRİ və digər sosialist dövlətləri ilə istiqlaliyyət, hüquq bərabərliyi, torpaq bütövlüyünə hörmət etmək və bir-birinin daxili işlərinə qarışmamaq prinsiplərinin olduğu bir şəraitdə onlarla dostluq və ya qonşuluq münasibətlərini inkişaf etdirməyi öz qarşısına məqsəd qoyur. O, son illərdə SSRİ ilə olan əlaqələri intensiv şəkildə genişləndirirdi. Xüsusən, iqtisadi əməkdaşlığı sürətlə artırırdı. O, SSRİ ilə uzun müddətdir əslində yerində sayan əlaqələrin intensiv şəkildə genişləndirilməsi üçün çox şey etmişdir. Yalnız onu göstərmək kifayətdir ki, 17 ildir öz həllini gözləyən bir məsələ həll edilmişdir: Qara dəniz üzərindən təyyarə uçuşu haqqında məlumat verilməsi üçün ayırıcı xətt müəyyən edildi. 20 ildir həll edilməmiş qalan başqa bir məsələ də öz həllini tapdı: konsulluq konvensiyası üzərində iş başa çatdırıldı. Yarım əsrdən çoxdur, beynəlxalq əlaqələr üçün bağlı olan olan Sarp kəndində nəzarət-buraxılış məntəqəsi işə salındı.Təbiidir ki, bizim ölkə ilə münasibətlərdə özünü göstərən irəliləyiş eyni zamanda, SSRİ-də baş verən ciddi dəyişikliklərin bəhrəsidir.

Turqut Özal öz yorulmazlığı ilə ətrafındakıları heyran edirdi. Ölkəni çox gəzir, adamlarla görüşür, tez-tez çıxışlar edir. Çıxışlarında heç bir kağızdan istifadə etmir, sərbəst danışırdı. Nitqləri bir qayda olaraq aydın və inandırıcı olurdu. Onun qəbul otağı həmişə dolu olurdu. Ölkənin hər yerindən onun qəbuluna çoxlu adamlar gəlirdi. O, həmişə deyərdi ki, mənim üçün böyük

xoşbəxtlik iqtidarın mənbəyi olan xalqa xidmət etməkdir. Turqut Özal yalnız mürəkkəb siyasi-iqtisadi məsələlərin həllində deyil, həyatda da öz cəsurluğu ilə diqqəti cəlb edirdi. 1988-ci ildə Ankarada Ana Vətən partiyasının konqresində çıxış etmək üçün tribunaya çıxarkən ona həbsxanadan qaçmış Kartıl Dəmiraq adlı bir residivist atəş açmışdır. Qolundan yaralanan Özal yaranı sarıtdıqdan sonra dərhal çıxış etmişdir. Gəlir mənbəyini itirmiş kontrabandistlərin təşkil etdiyi sui-qəsd baş tutmamışdır.

Turqut Özal şəxsiyyətində dünyəvi insanın reformizmi və İslam ənənələri bir vəhdət təşkil edirdi. O, Prezident olduqdan sonra da cümə namazlarına səliqə ilə getməkdə davam edirdi. Özünün dediyi kimi, o, bunu «Prezident ədası ilə deyil, adi bir insan kimi edirdi». O, gözəl ailə başçısı idi. Həyat yolunda 1952-ci ildə evlənmiş olduğu Səmra xanımla birgə addımlamışdır. Üç uşağı var: qızı Zeynəb, oğulları isə Əhməd və Efedir. Baba kimi nəvələrinin tərbiyəsi ilə də məşğul olmağa vaxt tapırdı.

Prezident olduqdan sonra mətbuat konfransında o demişdir ki, «biz çox şeylərə alışmışıq. Prezidentin necə olması haqqında da müəyyən bir şablon var. Mən o şablonların heç birinə uyğun gəlmirəm». Görünür, o haqlıdır.

İqtisadi və siyasi görüşlərini təqdim etdiyimiz Turqut Özal müsahibələrinin birində «Cənab Özal, Sizin hobbiniz varmı?"- sualına belə cavab vermişdir:

- Hobbi? - deyə həmsöhbətim sualı təkrar etdi. - "Əlbəttə, var. Hər şeydən əvvəl, qabaqlar peşəkar kimi məşğul olduğum iqtisadiyyat. İndi də axşamlar boş vaxtım olan kimi, cürbəcür diaqramları, cədvəlləri qabağıma tökürəm, haqq-hesab aparmağa, müxtəlif, maraqlı modellər yoxlamağa, proqnozlaşdırmağa başlayıram. Bilirsiniz, bundan necə həzz alıram?!».

Türkiyədə, son on ildə özünü göstərən «iqtisadi möcüzə» ilə əyani tanış olmaq üçün kitaba Türkiyə rəsmi mənbələrindən götürülmüş və bu gün Türkiyənin iqtisadi mənzərəsini səciyyələndirən cədvəllər oxucuların mühakiməsinə verilir.

Heç şübhə etmirik ki, bu kitabın oxucuları arasında quru, lakin arxasında canlı həyat gizlənən iqtisadi rəqəmlərdən, cədvəllərdən, diaqramlardan həzz alanlar çoxdur.

6.9. Turqut Özalın tərcümeyi-halından sətirlər:

- 1927-ci ildə Malatyada doğulmuş, ibtidai məktəbi, orta məktəbi və lisəni Anadolunun müxtəlif ellərində oxumuşdur;
- 1950-ci ildə İstanbul Texniki Universitetinin elektrik mühəndisliyi fakültəsini bitirmişdir. Ali təhsil aldıqdan sonra elektrik işləri etüd idarəsində işə başlamışdır. Orada işlədiyi müddətdə ABŞ-a təcrübə keçməyə getmiş, qayıtdıqda yenə orada işləmişdir;

- 1966-cı ildə Dövlət Plan Təşkilatında müşavir olmuşdur;
- 12 mart 1971-ci ildə istefaya çıxıb. Beynəlxalq İnkişaf və Bərpa Bankında işləməyə başlamışdır;
- 1976-cı ildə ölkəyə qayıtdıqdan sonra Sabancı Holdinqdə baş koordinator kimi işə başladı;
- 1977-ci il seçkilərində Milli Səlamət Partiyasında İzmirdən millət vəkilliyinə namizəd oldu. Seçkini uduzdu. Sonra metallurgiya işçiləri həmkarlar ittifaqına sədr seçildi;
- 1979-ci ildə Dövlət Plan Təşkilatında və baş nazirlikdə müşavir oldu;
- 12 sentyabr 1980-ci il hərbi çevrilişindən sonra təşkil edilən Ulusu hökümətində baş nazirin iqtisadi işlər yardımçısı oldu;
- 1982-ci ildə "bankirlik faciəsi" ilə əlaqədar vəzifəsindən istefa verdi;
- 1983-cü ildə Ana Vətən Partiyasını yaratdı və ilk seçkilərdə yenidən baş nazir seçildi.
- 1989-cu ilin noyabrından ölənə qədər Türkiyə Respublikasının prezidenti olmuşdur.

6.10. Türkiyə 80-ci illərdə (siyasi xronika)

24 yanvar, 1980- ölkə iqtisadiyyatını liberallaşdırmaq haqqında tədbirlər kompleksi qebul edilmişdir.

12 sentyabr, 1980 - Hərbi çevriliş nəticəsində Milli Təhlükəsizlik Şurası Hakimiyyəti ələ almışdır.

21 sentyabr, 1980 -13 dekabr,1983 - Büləd Ulusu Hökümәti dövrü.

7 noyabr, 1982 - Büləd Ulusu Hökümәti dövrü.

9 noyabr, 1982 - 1 noyabr, 1989 - Referendum nəticəsində yeni konstitusiyanın qəbul edilməsi.

22 aprel, 1983 - Siyasi partiyalar haqqında qanunun qəbul edilməsi.

21 may, 1983 - Ana Vətən Partiyasının yaradılması (ANAP).

6 noyabr, 1983 - Parlament seçkilərində Ana Vətən Partiyasının qələbəsi.

13 dekabr, 1983 - ANAP sədri T. Özalın yeni hökümət qurması.

6 sentyabr, 1986 - Çevrilişə qədər siyasi lider olan şəxslərə siyasi hüquqlar verilməsinə dair referendum.

29 noyabr, 1987 - Növbədən kənar parlament seçkilərində T.Özalın sədrlik etdiyi Ana Vətən Partiyasının yeni qələbəsi.

15 dekabr, 1987 - T. Özalın yeni hökümət qurması.

31 oktyabr, 1989 - T. Özalın Türkiyə prezidenti seçilməsi.

9 noyabr, 1989 - İ. Ağbuludun ANAP sədri təyin olunması və baş nazir kimi yeni hökümət qurması.

6.11. “İqtisadi möcüzələr” rəqəmlərin dili ilə

Türkiyədə iqtisadi inkişafı səciyyələndirən başlıca göstəricilər (faizlə)

		1980	1981	1982	1984	1985	1988	1989
1	Milli gəlirin artım sürəti A) cəmi B) adambaşına	 -1,1 -3,1	 4,1 1,5	 4,6 2,0	 5,9 3,2	 5,1 2,4	 3,7 0,8	 1,7 -0,8
2	Sənaye istehsalının artım sürəti	-5,9	7,6	4,6	9,3	6,3	3,1	3,0
3	Milli gəlirdə: A) sənayenin və B) kənd təsərrüfatının payı	 21,9 24,1	 22,4 23,2	 22,4 23,6	 20,2 21,6	 19,8 22,2	 31,4 17,5	 29,3 16,6
4	Ümumi kapital qoyuluşu A) milli gəlirə nisbətən B) xüsusi bölmənin payı C) dövlət bölməsinin payı D) emaledici sənaye	 19,7 38,9 61,1 27,1	 19,0 35,3 64,7 26,2	 18,0 37,7 62,3 21,6	 17,9 40,7 58,3 22,5	 20,0 38,6 61,4 19,5	 24,1 52,4 47,6 11,1	 22,6 55,7 44,3 14,5
5	Qiymətlərin artımı	107,2	42,0	27,0	43,7	43,2	68,3	69,6
6	İqtisadi cəhətdən fəal əhaliyə nisbətdə işsizlik	11,6	11,6	11,7	11,8	11,7	9,8	10,4
7	İxracatda sənayenin payı	36,0	48,7	59,7	72,1	75,3	76,7	78,2

8	**Turizm** **A) Gələn turistlərin sayı (mln. nəfər)**	**-1,3**	**1,4**	**1,4**	**2,1**	**2,6**	**4,2**	**4,5**
	Alınan gəlir (mln. dollar)	**326,7**	**381,4**	**370,3**	**839,5**	**1481,6**	**3355,3**	**2556,5**

MƏCMU İCTİMAİ MƏHSUL (MİM) (MLRD. beynəlxalq dollar) (sıra nömrəsi milli gəlirin həcminə görə ölkənin 1987-ci ildə tutduğu yeri göstərir)

		MİM	**Əhali (mln)**
1	**ABŞ**	**3,191,6**	**243,8**
2	**ÇXR**	**3,102,1**	**1,072,2**
3	**SSRİ**	**1,832,3**	**281,7**
4	**Yaponiya**	**1,220,4**	**122,1**
5	**AFR**	**680,6**	**61,2**
6	**Hindistan**	**607,4**	**781,4**
7	**Fransa**	**570,8**	**55,6**
8	**İngiltərə**	**522,7**	**56,9**
9	**Braziliya**	**494,7**	**141,5**
10	**İtaliya**	**450,2**	**57,3**
11	**Kanada**	**329,9**	**25,7**
12	**Meksika**	**314,8**	**81,2**
13	**İspaniya**	**270,0**	**38,8**
14	**İndoneziya**	**217,6**	**170,2**
15	**Polşa**	**195,5**	**37,8**
16	**İran**	**187,4**	**51,3**
17	**ADR**	**157,7**	**16,7**
18	**Cənubi Koreya**	**155,6**	**42,1**
19	**Avstraliya**	**148,1**	**16,3**
20	**Türkiyə**	**147,4**	**52,0**

EMALEDİCİ SƏNAYEDƏ İSTEHSAL HƏCMİNDƏ AYRI-AYRI SAHƏLƏRİN PAYI (1989-CU İL)

1.	**İstehlak malları**	**30,805**	**37,7**
	Yeyinti	**16,491**	**20,2**
	İçki	**1,357**	**1,7**
	Tütün	**1,472**	**1,8**
	Toxuculuq	**5,821**	**7,1**
	Hazır paltar	**3,982**	**4,9**
	Mebel	**751**	**1,0**
	Ayaqqabı	**930**	**1,1**
2.	**Ara malları**	**35,224**	**43,1**
	Pambıqtəmizləmə	**1,038**	**1,3**
	Ağacdan probka məhsulları	**2,352**	**2,9**
	Kağız	**1,398**	**1,7**
	Nəşr	**581**	**0,7**
	Dəri və kürk emal	**1,008**	**1,2**
	Şin	**1,207**	**1,5**
	Plastmas	**1,770**	**2,2**
	Kimya	**3,816**	**4,7**
	Neft kimya	**3,368**	**4,1**
	Neft məhsulları	**7,515**	**9,2**
	Sement	**1,488**	**1,8**
	Saxsı	**593**	**0,7**
	Şüşə	**935**	**1,1**
	Dəmir polad	**4,998**	**6,1**
	Dəmirdən başqa digər metallar	**1,231**	**1,5**
	Kapital qoyuluşu malları	**15,746**	**19,3**
	Dəmir mallar	**4,200**	**5,1**
	Qeyri-elektrik mallar	**1,774**	**2,2**
	Kənd təsərrüfatı maşınları	**430**	**0,5**
	Elektrik maşınları	**1,540**	**1,9**
	Elektronika	**1,313**	**1,6**
	Yol maşınları	**2,909**	**3,6**
	Cəmi	**81,776**	**100**

Sənaye kapital qoyuluşları (1989)

	Cəmi	%	Dövlət	%	Xüsusi	%
Dağ-mədən sənayesi	906	2,4	618	1,6	288	0,8
Emaledici sənaye	5,329	14,5	918	2,4	4,411	12,1
Energetika	4,977	13	4,760	12,4	217	0,6
Cəmi	11,212		6,297		4,916	
Cəmi kapital qoyu-luşları	38,202		17,014		21,187	

TÜRKİYƏDƏ ƏSAS KƏND TƏSƏRRÜFAT BİTKİLƏRİNİN MƏHSULDARLIĞI (kq/ha)

		1988-ci il
1.	**Taxıl məhsulları**	
	1. Buğda	**2,173**
	2.Arpa	**2,177**
	3. Qarğıdalı	**4,000**
	4.Çəltik	**5,147**
2.	**Sənaye bitkiləri**	
	1. Tütün	**904**
	2. Şəkər çuğunduru	**36,385**
	3. Pambıq	**2,027**
3.	**Yağlı toxumlar**	
	1. Günəbaxan	**1,523**
4.	**Yumru bitkilər**	
	1. Soğan	**17,933**
	2. Kartof	**22,194**

ALTINCI BEŞİLLİK (1990-1994-CÜ İLLƏR) PLANDA NƏZƏRDƏ TUTULAN MƏHSULDARLIQ (HƏR HEYVANDAN)
(ölçü vahidi: ət-kq, baş, süd-litr)

	İnək		**Camış**		**Qoyun**		**Ankara keçisi**	
	ət	**süd**	**ət**	**süd**	**ət**	**süd**	**ət**	**süd**
1990	**168,4**	**1,374**	**160**	**920**	**22,9**	**1,73**	**16**	**1,95**
1991	**173,8**	**1,439**	**160**	**920**	**23,1**	**1,77**	**16**	**1,99**
1992	**180,2**	**1,507**	**160**	**920**	**23,4**	**1,80**	**16**	**2,03**
1993	**185,3**	**1,577**	**160**	**920**	**23,6**	**1,84**	**16**	**2,07**
1994	**190,8**	**1,650**	**160**	**920**	**23,9**	**1,87**	**16**	**2,11**

Türkiyədə gübrədən istifadə (mln. ton)

	Cəmi	Azotlu (21%)	Fosforlu (16-18%)
1981	6,7	3,7	2,8
1982	7,5	4,0	3,6
1983	8,4	4,7	3,6
1984	8,2	4,8	3,4
1985	7,3	4,4	2,8
1986	7,7	4,5	3,1
1987	9,0	5,4	3,4
1988	8,1	5,1	2,8
1989	9,1	5,4	3,2

TÜRKİYƏNİN XARİCİ TİCARƏTİ (mlrd. dollar)

	1980	1988	1989
İdxalat	7,9	14,3	15,8
İxracat	2,9	11,6	11,6
Xarici ticarətin həcmi	10,8	26,0	27,4
Kəsir	5,0	2,7	4,1
İdxalatın ixracatla ödənən hissəsi (%)	37,0	81,4	73,8
Xarici ticarət həcminin milli gəlirə nisbəti (%)	19,9	36,9	34,4

TÜRKİYƏ İXRACATININ ÖLKƏLƏR ÜZRƏ BÖLGÜSÜ (faizlə)

Ölkə qrupları	1985	1989
Cəmi	100,0	100,0
İqtisadi əməkdaşlıq və inkişaf təşkilatının üzvləri (İƏİT)	51,6	61,7
"Ümumi bazar" üzvləri	39,4	46,5
Digər ölkələri	12,2	15,2
İslam ölkələri	42,8	24,7
Bəsrə körfəzi ölkələri	35,3	14,0
Digər islam ölkələri	7,5	10,7
Sosialist ölkələri	4,6	9,5
Digər ölkələr	1,0	4,1

Ölkə qruplarına görə idxalat və ixracat (mln. doll)

Ölkə qrupları	1989	
	ixracat	idxalat
İqtisadi əməkdaşlıq və inkişaf təşkilatının üzvləri	7.167.9	9.912.2
"Ümumi bazar" üzvləri	5.408.3	6.054.9
AFR	275.7	2.203.9
İngiltərə	616.1	727.8
Fransa	594.8	744.7
İtaliya	978.1	1.070.9
Digərləri	1.043.6	1.307.6
ABŞ	971.0	2.096.2
Yaponiya	233.1	529.9
Digər İƏİT ölkələri	564.5	1.231.2
2. İslam ölkələri	2.870.5	2.920.9
Bəsrə körfəzi ölkələri	1.624.4	2.186.1
İran	561.0	233.5
İraq	445.4	1.649.7
Digərləri	618.0	302.9
Digər islam ölkələri	1.246.1	734.8
3. Sosialist ölkələri	1.101.3	1.570.0
4. Digər ölkələr	478.6	1.359.5
Cəmi	11.627.6	15.762.6

TÜRKİYƏNİN XARİCİ TİCARƏTİNDƏ "ÜMUMİ BAZAR" ÖLKƏLƏRİNİN PAYI (faizlə)

İllər	Cəmi idxalatda payı	Cəmi ixracatda payı
1980	28.7	47.6
1981	28.2	48.5
1982	28.2	42.7
1983	28.1	32.0
1984	27.6	38.3
1985	31.3	39.4
1986	41.2	43.7
1987	40.0	47.8
1988	41.1	43.7
1989	38.4	46.5

TÜRKİYƏNİN XARİCİ TİCARƏTİNDƏ İSLAM ÖLKƏLƏRİNİN PAYI (%)

	1984		1989	
	İdxalat	İxracat	İdxalat	İxracat
İran	40.2	25.1	8.0	19.5
İraq	23.8	31.2	49.5	15.5
Səudiyyə Ərəbistanı	5.5	12.6	7.3	12.7
Küveyt	2.5	3.5	2.8	5.8
Liviya	16.9	4.7	9.8	7.9
Misir	0.1	4.7	0.7	4.9
İordaniya	0.2	3.6	1.2	2.2
Əlcəzair	2.7	4.3	5.3	8.2
Digərləri	8.1	10.3	15.8	23.3
Cəmi islam ölkələri	100.0	100.0	100.0	100.0
İslam ölkələrinin Türkiyənin xarici ticarətində payı	36.2	42.0	18.5	24.7

İXRACATDA XALQ TƏSƏRRÜFATI SAHƏLƏRİNİN PAYI (%)

		1984	1989
1	Kənd təsərrüfatı məhsullar	24,5	18,3
2	Dağ-mədən sənayesi	3,4	3,5
3	Sənaye məhsulları	72,1	78,2
	A) kənd təsərrüfatı mənşəli	(11,3)	(7,0)
	B) sənaye məhsulları	(60,8)	(70,9)
	Cəmi	100,0	100,0

SƏNAYE MƏHSULLARININ İXRACATI (mln. dollar)

		1984	1989
A.	Emal edilmiş kənd təsərrüfatı məhsulları	803.3	817.0
B.	Emal edilmiş neft məhsulları	408.8	254.2
C.	Sənaye məhsulları	3.927.7	8.016.4
	1. Sement	56.0	33.0
	2. Kimya sənayesi	172.6	774.7
	3.Plastmas sənayesi	97.5	312.6
	4. Dəri məmulatları	400.7	604.4
	5. Meşə məhsulları sənayesi	23.7	16.0
	6. Toxuculuq sənayesi	1.875.4	3.605.3

	7. Şüşə keramika sənayesi	**146.0**	**257.9**
	8.Dəmir-polad sənayesi	**576.4**	**1.349.2**
	9. Dəmirdən başqa digər metal sənayesi	**85.5**	**265.9**
	10. Metal əşya sənayesi	**16.3**	**22.9**
	11. Maşınqayırma sənayesi	**118.2**	**195.3**
	12. Elektrik maşınqayırma sənayesi	**59.6**	**234.4**
	13. Nəqliyyat vasitələri sənayesi	**134.9**	**153.9**
	14. Digər sənaye məhsulları	**124.9**	**192.1**
	Cəmi	**5.144.8**	**9.087.6**

EMALEDİCİ SƏNAYEDƏ İXRACATIN İSTEHSAL HƏCMİNƏ NİSBƏTİ (faizlə)

	1989
Yeyinti	**27,5**
İçki	**13,2**
Tütün	**2,6**
Toxuculuq	**31,3**
Hazır paltar	**53,6**
Mebel	**65,7**
Ayaqqabılar	**5,7**
Kağız	**5,9**
Dəri və kürk	**5,2**
Şin	**15,7**
Plastmas	**3,0**
Kimya sənayesi məhsulları	**16,2**
Neft kimya sənayesi məhsulları	**21,0**
Neft məhsulları	**3,7**
Gübrə	**16,5**
Saxsı	**12,6**
Şüşə	**28,8**
Dəmir-polad	**41,9**
Dəmirdən başqa digər metallar	**28,8**
Dəmir əşyaları	**4,7**
Kənd təsərrüfat maşınları	**14,0**
Elektrik maşınları	**15,2**
Yol vasitələri	**7,2**
Gəmi inşası sənayesi	**20,2**

EMALEDİCİ SƏNAYE MƏHSULLARININ İXRACATI
(mln.doll.)

	1989
I. Kənd təsərrüfatı mənşəli emal edilmiş məhsullar	817
1. Yeyinti sənaye məhsulları	781
2. Yeyinti sənayesinin əlavə məhsulları	10
3. Emal edilmiş tütün məhsulları	0,7
4. Emal edilmiş meşə məhsulları	20,2
5. Toxuculuq üçün əlverişli və emal edilmiş liflər	5,8
II.Emal edilmiş neft məhsulları	257
III. Sənaye məhsulları	8.016
1. Sement	33
2. Kimya sənayesi	774
3. Şin-plastmas	313
4. Dəri	604
5. Meşə	16
6. Toxuculuq	3.605
7. Şüşə, saxsı, kərpic	258
8. Dəmir-polad	1.349
9. Dəmirdən başqa digər metallar	266
10. Dəmir əşyalar	23
11. Maşınqayırma sənayesi	195
12. Elektrik	234
13. Nəqliyyat vasitələri	154
14. Sair	192
Emaledici sənaye məhsullarının cəmi	9.087
Cəmi ixracat	11.627

TÜRKİYƏNİN EMALEDİCİ SƏNAYESİNİN BÖYÜK MÜVƏFFƏQİYYƏT QAZANDIĞI TEXNOLOGİYA İXRACATI (İNŞAAT PODRATÇILIĞI VƏ KAPİTAL QOYULUŞLARINDAN BAŞQA)

Forma və sənaye sahəsi	İxrac olunan ölkə	Texnologiya ixracatının növü
1	2	3
1. Sintetik iplik	Çin Xalq Respublikası	- tikilişi zamanı məsləhətçilik edilən fabriki işə salmaq və texniki kadr hazırlamaq
2. Sintetik iplik	Pakistan	- tikilişi zamanı məsləhətçilik edilən fabriki işə salmaq və texniki kadr hazırlamaq
3. Elektrik sənayesi	İordaniya	-demontaj elektrik motoru göndərib bəzi ehtiyat hissələrinin İordaniyada istehsalını təşkil etməklə orada elektrik motoru hazırlanmasını başa çatdırmaq
4. Kimya sənayesi	İraq	- bəzi tökmə ağac qatlarının noy-hay və texnologiyası (maşın və avadanlıq daxil olmaqla)
5. Yeyinti sənayesi	Misir	- makaron istehsalı növü
6. Toxuculuq maşınları	Misir	- şərikli müəssisə yaradılması
7.Ehtiyat hissələri (kauçuk)	İran	- açar altında fabrik təhvili və noy-hay
8. Turbin pompaları	Misir	- texniki yardım; Türkiyədə kadr hazırlığı
9. Mərkəzdən qaçan pompa	Suriya Şimali Kipr Türk Cumhuriyyəti	-quraşdırma və texniki məsləhət - quraşdırma və texniki məsləhət
10. Qaynaq elektrodları	Kipr İraq	-məsləhət-istehsal texnologi-yası -məsləhət-istehsal texnologi-yası
11. Qaynaq	Misir	- aqlomera tozaltı qaynaq tozu

elektrodları		istehsal müəssisəsi
12. Boyaq sənayesi	Misir	- boyaq istehsal edən fabrik tikintisinin açar altında təhvili (nou-hay daxil olmaqla
13. Traktor sənayesi	Pakistan	- sükan qutusu kompleksi montaj üsulları
14. Elektronika sənayesi	İraq	- texnologiya növlərindən biri (RAVX)
15. Maşınqa-yırma sənayesi	İran Kipr	- açar altında fabrik təhvili
16. Sement sənayesi	Uqanda Somali	- fabriki saz saxlamaq və istismar etmək
17. yeyinti sənayesi	Pakistan	- istehlak texnologiyası
18. Şüşə sənayesi	Misir	- mühəndislik
19. Plastmas sənayesi	İndoneziya	- istehsal nou-hay
20. Aluminium sənayesi	Küveyt	- kompleks müəssisə yaratmaq və istismara qəbul etmək
21. Polad sənayesi	İraq	- polad konstruksiyadan hazır siqar fabriki
22. Dərman sənayesi	İran İordaniya	- dərman və dərman xammalı istehsal edən müəssisələr yaradılması
23. Polad sənayesi	İraq, Səudiyyə Ərəbis-tan, Birləşmiş Ərəb Əmirlikləri	- açar altında fabrik təhvili
24. Beton sənayesi	İraq	- açar altında fabrik təhvili
25. Yeyinti sənayesi	Nigeriya	– un fabriki tikilişində vasitəçilik və texniki yardım
26. Elektronika sənayesi	Pakistan	- telsiz istehsal lisenziya
27. Elektronika sənayesi	Pakistan	- elektronika cihazlarını istehsal lisenziyası
28. Kompressor sənayesi	İran	- maşın ixracı və istismara qəbul
29. Düymə istehsalı	Kipr	- düymə istehsalı müəssisələri

30. Düz şüşə istehsalı	Nigeriya	- texniki heyətin hazırlanması
31. Gəmi inşası	Orta Şərq	- şərikli olaraq kompleks fabrik təsiri
32. İplik istehsalı	Liviya	- texniki məsləhət
33. Kənd təsərrüfatı maşınları	İran İraq	- yağlama maşınları satışı, kadr hazırlığı - qaynaq maşınları satışı, kadr hazırlığı
34. Elektrik sənayesi	İran Misir	- açar altında hərikli fabrik, texniki yardım, lisenziya
35. Qaynaq elektrodları	Misir	- kompleks tozaltı qaynaq istehsal təsiri
36. Pivə	İraq	- doldurma təsislərinin modernizasiyası
37. Elektrik sənayesi	Pakistan	- starter mühərriki və alternativ mühərrik quraşdırılması və ehtiyat hissələri emalı
38. Elektrik sənayesi		- lisenziya və texniki yardım.

KƏND TƏSƏRRÜFATI MƏHSULLARI İXRACATI (mol.dollar)

Məhsul növləri	**1989**
Cəmi	**2.126**
A.Əkinçilik məhsulları	**1.785**
a) taxıl	**83**
Buğda	**67**
Sair	**15**
b) paxlalılar	**209**
v) yağlı toxumlar	**7**
q) sənaye bitkiləri	**685**
Tütün	**479**
Pambıq	**133**
Sair	**58**
Meyvələr	**687**
əncir (quru)	**44**
üzüm (quru)	**121**
Fındıq	**266**
Püstə	**17**

sərt qabıqlı digər meyvələr	**11**
portağal, mandarin	**61**
Limon	**35**
Sair	**129**
d) səbzələr	**89**
t) toxumlar	**11**
z) sair	**10**
B. Heyvandarlıq məhsulları	**276**
V. Su məhsulları	**52**
Q. Meşə məhsulları	**12**
kənd təsərrüfatına əsaslanan sənaye	**817**
a) yeyinti sənyesi	**780**
b)yeyinti sənayesinin əlavə məhsulları	**9**
Cəmi	**11.627**

KƏND TƏSƏRRÜFATI MƏHSULLARI İDXALI (mln. doll.)

Məhsul növləri	**1989**
I. Kənd təsərrüfatı məhsulları	**1048**
A. Bitki məhsulları	**769**
a) taxıl	**570**
b) paxlalılar	**0,5**
c) yağlı toxumlar	**25,1**
d) sənaye bitkiləri (qəhvə, kakao, sair)	**148,0**
e) səbzə	**2,1**
f) sair	**17**
B. Heyvandarlıq məhsulları	**211**
a) canlı heyvanlar	**21**
b) yun-qıl	**83**
c) xam dəri	**100**
d) digər	**8**
C. Su məhsulları	**3**
D. Meşə məhsulları	**65**
II. kənd təsərrüfatına dayan sənaye	**707**
a) yeyinti sənayesi məhsulları	**344**
b) yeyinti sənayesinin əlavə məhsulları	**41**
c) hazır tütün məhsulları	**197**
d) işlənmiş meşə məhsulları	**108**
e) toxuculuq üçün əlverişli hazırlanmış liflər	**16**
Cəmi idxalat	**15 762**

TÜRK XALQLARININ XARİCİ BAZARLARDA İXTİSASLAŞMA ƏMSALLARI

	1988
Fransa	
Maşınqayırma	**33,8**
Dəmir-polad	**7,5**
Toxuculuq	**130,9**
Kimya	**54,6**
AFR	
Maşınqayırma	**40,4**
Dəmir-polad	**12,1**
Toxuculuq	**171,9**
Kimya	**12,8**
İtaliya	
Maşınqayırma	**22,4**
Dəmir-polad	**49,9**
Toxuculuq	**117,1**
Kimya	**120,2**
İngiltərə	
Maşınqayırma	**161,2**
Dəmir-polad	**57,0**
Toxuculuq	**176,9**
Kimya	**8,2**
Yaponiya	
Maşınqayırma	**0,7**
Dəmir-polad	**357,5**
Toxuculuq	**13,4**
Kimya	**75,0**
ABŞ	
Maşınqayırma	**10,0**
Dəmir-polad	**128,2**
Toxuculuq	**119,6**
Kimya	**61,5**

TÜRK MALLARININ XARİCİ BAZARLARDA RƏQABƏT GÜCÜ

	1988
Türkiyə	
Toxuculuq	550
Maşınqayırma	35
Dəmir-polad	267
Neft-kimya	88
Yunanıstan	54,6
Toxuculuq	533
Maşınqayırma	10
Dəmir-polad	133
Neft-kimya	36
Portuqaliya	
Toxuculuq	533
Maşınqayırma	52
Dəmir-polad	33
Neft-kimya	63
İspaniya	
Toxuculuq	67
Maşınqayırma	100
Dəmir-polad	200
Neft-kimya	113
Fransa	
Toxuculuq	83
Maşınqayırma	113
Dəmir-polad	167
Neft-kimya	175
AFR	
Toxuculuq	83
Maşınqayırma	155
Dəmir-polad	135
Neft-kimya	163

TÜRKİYƏNİN NEFT İDXALI

İllər	Miqdarı mln. ton	Dəyəri mlrd. doll	Qiyməti ton/doll.
1975	9,6	0,8	78
1980	10,5	2,6	249
1985	15,5	3,2	207
1988	21,7	2,4	112
1989	18,6	2,5	132

TÜRKİYƏ İNŞAAT FİRMALARININ XARİCDƏ YERİNƏ YETİRDİKLƏRİ PODRAT İŞLƏRİN MÜQAVİLƏ ÜZRƏ HƏCMİ (MLRD. DOLLAR)
1990 (MART)

Ölkələr	1981	Firma (sayı)	Həcmi
1. Liviya	7,1	44	9.9
2. Səudiyyə Ərəbistan	1,1	34	5,0
3. İraq	0,7	19	2.5
4. SSRİ	-	9	0,5
5. İordaniya	0,04	3	0,2
6. Birləşmiş Ərəb Əmirliyi	0,04	3	0,05
7. Kuveyt	0,01	3	0,5
8. Sair	-	11	0,4
Cəmi:	9,1	126	19,96

6.12. Turqut Özal Türkiyənin inkişaf perspektivləri haqqında

(SİTA-nın MÜXBİRİ YALÇIN ƏLİZADƏNİN TURQUT ÖZALLA APARDIĞI MÜSAHİBƏSİNDƏN)

SUAL: Cənab Özal, Türkiyədə bugünkü vəziyyət və yaxın gələcəkdə onun inkişafı perspektivləri haqqında bir neçə kəlmə deyə bilərsinizmi?

Cavab: İstər siyasi, istərsə də iqtisadi nöqteyi-nəzərdən Türkiyə elə bir səviyyəyə çatmışdır ki, on il əvvəl bunu heç xəyalımıza da gətirə bilməzdik.

İqtisadi böhranın, sosial çaxnaşmaların və anarxiyanın 1979-cu ildə Türkiyəni uçurum həddinə necə gətirib çıxardığı hələ yadımızdan çıxmayıb. 1980-ci il sentyabrın 12-də hərbçilərin müdaxiləsindən və bu müdaxilə hadisələrin belə təhlükəli gedişinə son qoyduqdan sonra ölkəmiz ümumi

seçkilər keçirərək yenə də demokratik parlament sisteminə qayıtdı. Məlum olduğu kimi, seçkilər 1989-cu ildə oldu. Bu gün bütün demokratik təsisatlar öz funksiyalarını yenidən bərpa etmişlər. Demokratiyanı möhkəmləndirmək yolunda mühüm və ciddi addımlar atılmışdır.

Demək lazımdır ki, o zaman Türkiyə aqrar ölkə idi, onun qapalı iqtisadiyyatı əsasən idxala istiqamət götürmüşdü. O vaxtdan, xüsusən də 1983-cü ildən sonra Türkiyə qəti surətdə azad bazara istiqamət götürmək sayəsində öz milli iqtisadiyyatında qısa müddətdə dərin dəyişikliklər etdi. Bu siyasət nəticəsində on il ərzində Türkiyənin ixracı altı dəfə artdı və bildir 11,6 milyard dollara çatdı. İndi ixracımızın 80 faizini sənaye məhsulu təşkil edir və bu məhsulun xeyli qismi qərb ölkələrinə göndərilir. Bu fakt Türkiyə mallarının keyfiyyətinə və beynəlxalq bazarda rəqabət qabiliyyətinə sübutdur. Həmçinin ölkədə sənayenin nə kimi inkişaf səviyyəsinə çatdığını nümayiş etdirir. Keçən maliyyə ilində cari ödənişlər üzrə Türkiyə 1,5 milyard dollar məbləğində müsbət saldoya malik idi.

Son vaxtlar Türkiyə İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatında (İƏİT) ən sürətlə inkişaf edən ölkədir. Bundan başqa müşahidə olunduğu kimi, Türkiyə dünyada kredit qabiliyyəti ən çox artan ölkədir. Bütün bunlar Türkiyənin inkişafının bugünkü səviyyəsini və son on il ərzində onun necə böyük yol keçdiyini göstərir.

Əminəm ki, inkişafın bu meyli gələcəkdə də davam edəcək. Mülahizələrə görə, həmin vaxtadək turizmdən əldə edilən gəlir 2,5 milyard dollardan artıb 4 milyard dollar olacaq. 1987-ci ildə 45 milyard kilovat-saat olmuş elektrik enerjisi istehsalı 75 milyard kilovat-saata çatacaq. 1.600 kilometr avtomobil yollarının çəkilişi başa çatacaq, daha 600 min mənzil istifadəyə veriləcək. Cənub-Şərqi Anadolunun istifadəyə verilməsinə və inkişafına dair miqyaslı proqramın xeyli hissəsi həyata keçirildikdən sonra əsrin axırınadək Türkiyədə kənd təsərrüfatı məhsulunun həcmi iki dəfə çoxalacaq. Mən möhkəm inanıram ki, XXI əsrin əvvəlində Türkiyə dünyanın inkişaf etmiş ölkələri sırasına daxil olacaq.

VII FƏSİL
TÜRK-İSLAM DÜŞÜNCƏ SİSTEMİNDƏ ADİL HÖKMDAR VƏ YAXUD ÇAĞDAŞ DÜNYADA YAXIN ŞƏRQİN OYANIŞININ TARİXİ VƏ SOSİAL-İQTİSADİ KÖKLƏRİ

"İpək yolu", 2012, N 4.

Biz, ulduzlar içində oturan Günəşik...
Damın kənarı bilir ki, biz kənarsızıq....
Hz. Mevlana

Bəşər tarixi yarandığı gündən cəmiyyətin inkişafı və dövlətlərin tarixi hökmdarın şəxsiyyəti ilə sıx bağlıdır**.** Tarixdə silinməz izlər buraxmış bir çox nəhəng imperiya və dövlətlərin yaranması, inkişafı və tənəzzülü bu və ya digər hökmdarın, qüdrətli şəxsiyyətin varlığının nəticəsi olmuşdur. Bəzən isə hər hansı bir dövlət dünya xəritəsində gözə çarpan bir yer tutmasa da, ona rəhbərlik edən hökmdar, istər öz millətinin, istərsədə dünya xalqlarının dərin hüsn-rəğbətini qazana bilmişdir. Tarix bəzən bunun tam əksinin də şahidi olmuş, "hüsn-rəğbət" sözü "nifrət" anlayışı ilə əvəz olunmuşdur.

Dünyada ilk dövlətçiliyin əsasını qoymuş olan Türk yurdlarında hökmdar məfkurəsinin tarixi daha dərin və zəngindir. Türk humanizmi özünü bu məsələdə daha bariz, daha əzəmətli şəkildə biruzə vermişdir.

Türkçülük elminin banisi Ziya Gökalp göstərirdi ki, qədim Türk dövlətlərində "Hökümətin başına keçən adam, milləti bəsləməyə, yedizdirib-geydirməyə borclu idi. Türk Xaqanına "ülterez" (ilteriş) deyilirdi. Mənası "milləti dirildən, yedizdirib-içizdirən, yaşadan" demək idi. Orxon yazılarında Türk xaqanı belə nəql edirdi: "Türk milləti ac idi: doyurdum. Çılpaq idi: geydirdim." Türk xaqanının ictimai səlahiyyəti belə yedizdirib-geydirməkdən ibarət idi"[6].

Türk soyunun şanlı tarixini özündə əks etdirən "Kitabi Dədə Qorqud"-un on ikinci boyu bizə belə ismarıc edir[7]: Oğuzlarda bəylərbəyi olan Salur Qazan hər il böyük birmilli ziyafət təşkil edər və bütün iç Oğuzu və dış Oğuzu dəvət edərmiş. Ziyafətdə bəylərlə xalq tamamilə yeyib içdikdən sonra, Salur Qazan halalının əlindən tutub, sarayından çıxaraq dəvətlilərə müraciət edərmiş: yalnız bu əlimdəki halalım mənə qalsın, bundan başqa hər nə varsa, yağmalamanızı rica edirəm. Beləliklə, yağmaya uğrayan Qazan bir müddət sonra, yenə Oğuz elinin ən zəngin bəyi olardı.

[6]Ziya Gökalp. Türk uygarlığı tarixi. İstanbul 1991. Səh.297
[7] "Kitabi-Dədə Qorqud". Bakı. "Gənclik" nəşriyyatı.1977.s.153

İstər Orxon yazılarından, istərsə də "Kitabi Dədə Qorqud"da yazılanlardan aydın olur ki, türk diyarında qazanılan sərvətlər bütün xalqa aid olmalı idi.

İslam dövründə adil hökmdar anlayışı islamı dəyərlərlə daha da zənginləşmişdir.

Məlum olduğu kimi, "Sosial ədalət", "sosial rifah" anlayışları XX-XXI əsrlərdə dünya xalqlarının dil leksikonuna daxil olmuş yeni ümumbəşəri anlayışlardandır. Cəmiyyətin çatışmazlıqlarından, dərdlərindən əzab çəkən hər kəs xilas yolunu sosial ədalət dövlətindən gözləyir. Ona görə də həmin anlayışlar müasir dövlətlərin əksəriyyətinin rəsmi siyasətinin əsasını təşkil edir. İqtidara gələn hər bir yeni hökümət, yeni dövlət başçısı daha çox sosial olacağı haqqında xalqa vədlər verir. Çünki sosial ədalət dövləti nəzəriyyəyə görə cəmiyyətdə sərvət və gəlirlərin fərdlər arasında əməyə görə adil bölgüsünü təmin etməlidir. Bu sistem cəmiyyətin bir hissəsinin aclıq və səfalət içində yaşamasına yol verməməyi, digər qisminin isə "harunlaşmasının" qarşısının alınmasını nəzərdə tutur.

İslam meydana gəldiyi ilk günlərdən "sosial ədalət" anlayışından istifadə etmədən sosial bərabərliyi bərqərar etməyə çalışmışdır. Peyğəmbərimiz özünün mübarək həyatı ilə adil insan, adil lider, adil Xəlifə ünvanını bütün dünyaya bəxş etdi.

Hələ ilkin İslam dövründə ifratçılıqdan uzaq bir sistem yaradılmışdır. İslama görə torpaq və onun üzərindəki bütün sərvət və zənginliklər Cənab Allaha aiddir. "Quran"ın "Nisə" surəsində deyilir: "Göylərdə və yerdə nə varsa hamısı Allahındır". Allaha məxsus olan bu şeylərdən insanın yararlanması üçün o işləməlidir. İnsan, yalnız işləməklə mal, mülk, sərvət sahibi ola bilər. Qanuni şəkildə əldə edilən belə qazanc "halal" hesab edilir. Hər kəs İslamın icazə verdiyi yollarla istədiyi qədər zəngin ola bilər. Bu hökmdarlara da aiddir. İslam qazanılan gəlir və sərvətin xərclənməsi məsələsində fərd və hökmdarın üzərinə məhdudiyyət və məsuliyyət qoyur. Hökmdar, zəngin insan mal və pulunu ailəsi və yaxınlarının minimum ehtiyaclarının ödənilməsindən başlayaraq, dərəcə-dərəcə cəmiyyətdə mövcud olan kasıblığın aradan qaldırılması üçün sərf etməlidir. Hər bir hökmdar, hər bir zəngin müsəlman bunun üçün məsuliyyət daşıyır[8]. Hz.Peyğəmbərin həyatı bir ədalətli insan, lider və hökmdar nümunəsi idi. O, həyatını bütövlüklə Haqqa təslim etmişdir. Cənabi-Allah qənimətlərin beşdə birini onun ixtiyarına vermişdir və o da bunun beşdə birini özünün və qohumlarının ehtiyacları üçün ayırmışdır. Qənimət həddindən artıq çox olurdu. O, sərvət toplamaq istəsə idi, külli miqdarda var-dövlət yığa bilərdi. Lakin vəfat etdikdən sonra Onun

[88]İslam üzərinə düşüncələr.Türkiyə Diyanət Vakfı yayınları. Ankara.1989, s.185-190.

zirehinin bir yəhudinin əlində girov qoyulmuş olduğu bilindi[9]. O, mirasını yaxın qohumlarına deyil, bütün müsəlmanlara vəsiyyət etmişdir. Paltarı çox sadə olardı, evində mirası çox yığıldıqda isə narahatlıq hissi keçirərdi və onları yoxsullara paylayardı.[10]

Elmindən qərblilərin də geniş miqyasda faydalandıqları böyük Türk-İslam filosofu Muhəmməd Fərabi göstərirdi ki, insanlıq mərtəbəsinin ən mükəmməlinə və səadətin ən yüksək dərəcəsinə çatmış olan Hz. Peyğəmbərin nəfsi də mükəmməlləşmiş, yüksək ağıl ilə birləşərək, insanlığı səadətə doğru aparır[11].

Fərabiyə görə, hökmdar gəlişi gözəl bir insan ola bilməz... O elə mükəmməl insan olmalıdır ki, həm ağıllı, həm qüvvətli şəxsiyyət kimi mükəmməlliyin ən yüksək dərəcəsinə çatmış olmalıdır. Onda elə bir ağıl hasil olmalıdır ki, bu ağıl mərtəbəcə adi ağıldan yüksək olmaqla maddilikdən daha tam və qəti şəkildə ayrı olmalıdır[12].

Böyük ərəb mütəfəkkiri İbn Haldunun rəiyyət və hökmdar anlayışını açıqlaması və dəyərləndirilməsi çox qiymətlidir. İbn Haldun hesab edirdi ki, hökmdar rəiyyətin məsləhətinə və səsinə qulaq asmağa məcburdur. Hökmdarın geyiminin, simasının, gözəlliyinin, ağıl və fikrinin kəskinliyinin rəiyyət üçün önəmi yoxdur. Hökmdar rəiyyətin məsləhətinə qulaq asan, onların işlərini yola verən olmalı, rəiyyətin isə başında onların işlərini sahman edən Hökmdar olmalıdır. Bu cəmiyyət anlayışının mühüm tərkib hissəsidir. İdarəçiliyi mükəmməl olan və rəiyyət üçün faydalı olan hökmdar öz məqsəd və qayəsinə çatmış olur. Əks halda, belə hökmdarın mövcudluğu rəiyyət üçün zərərlidir. Bundan başqa, İbn Halduna görə, hökmdarın və məmurların ticarətlə məşğul olması rəiyyət üçün zərərlidir. Çünki onların ticarətlə məşğul olması zülmə yol açır. Zülm isə sosial həyatın düzənini pozar və mədəniyyəti çökdürər. Rəiyyətə ağır vergilər yükləmək və onu icbari xidmətlərə məcbur etmək zülmdür[13].

İbn Xalduna görə, güc ilə dövləti ələ keçirən hökmdar əksər hallarda xalqdan üz çevirməyə məcbur olur, tabeçiliyində olan xalqın məhv olmasına səbəb olur. Çünki hökümət başında duran hökmdar öz məqsəd və şəhvətləri üçün xalqı onun imkanları xaricində olan işlərə zorlayır. Yuxarı təbəqələrdə qarşıdurma və çəkişmələr də buna əlavə edilir.[14]

---

[9] Prof.Dr.Haydar Baş.Rahmetem li`l Alemin Hz.Muhammed(sav), İstanbul. 2009, cilt , s. 44.
[10] Yenə orada, s.45
[11] "Şərq islam klassikləri". El-Medinetül - Fazıla. Farabı.İstanbul. 1990, s.87.
[12] Yenə orada, s.84-85
[13] "Şərq İslam klassikləri".Müqəddimə I. MEB Yayınları. İbn Haldun, İstanbul. 1989. S. XX-XXI.
[14] "Şərq İslam klassikləri".Müqəddimə. İbn Haldun, s.477.

Türk-İslam dühalarının klassik bədii nümunələrində istər adil olsun, istər zülmkar hökmdar obrazını geniş vəsf etmişlər. Məsələn, dahi fars şairi Firdovsi göstərirdi ki, taxta və taca yalnız Allahın yaxşılıq etmək istədiyi insanlar sahib ola bilərlər.

Dahi fars şairi Sədi Şirazi "Gülüstan" əsərində göstərirdi: "Padşah adil olmalıdır ki, insanları ətrafında toplasın". Sonra, mərhəmətli olmalıdır ki, insanlar onun dövlətinin kölgəsində güvənlə otursunlar. O, zülmkar, qabiliyyətsiz hökmdarları tənqid atəşinə tutmuşdur. Xalqın malını ələ keçirmiş bir hökmdar haqqında o, yazırdı ki, xalq onun qurduğu zülm tələsindən bezərək, yer üzünə dağılır; hər kəs onun təsiri ilə qürbət yolunu tutur. Əhali azaldıqca, ölkənin gəliri azalır, xəzinəsi isə boşalır; düşmənlər də hər yerdən ona təzyiq göstərməyə başlayırlar. O, yazırdı: "zalım təbiətli insan sultan ola bilməz". Zira, qurdun əlindən çobanlıq gəlməz. Zülmün təməlini atan padşah, öz səltənətinin təməlini yıxar... Bir padşah təəbəsinə zülmü rəva gördümü, fəlakət günündə onun dostu da zorlu bir düşmən kəsilər. Xalqla yaxşı dolan ki, düşmənin cəngindən özünü qoruya biləsən. Çünki ədalətli bir padişah üçün bütün rəiyyət əsgərdir. Dahi Azəri türk şairi Nizami Gəncəvi özünün "İsgəndərnamə" əsərində adil hökümdar obrazını belə görür:

Sənə bu şahlığı bəxş edən kimsə,
Vermişdir ürəyin nə istəmişsə.
Şahlıq et, verilmiş sənə ölkələr,
Kömək ol, xalqlara ədalət göstər.

Çibin qanadını qırmasın tərlan,
Fil də qarışqaya verməsin ziyan.
Allaha min şükür, min şükür, əlbət,
Şahda yazdığımdan çoxdur ədalət.

İdeal hökmdar ideyasını öz idealı hesab edən Nasir Xosrov zalım hökmdarların despotizmindən cana gələrək cəsarətlə yazırdı:

Dəhşətdir-şahlarla görüş, görüşmək,
Yusif tək qurdların cənginə düşmək.

Sultan təkəbbürdə pisdir Firondan,
Mığmığa can alar Nəmrud tək ondan.

Qapı açılanda sultan üzünə,
Şeytanlar, İblislər dəyər gözünə.

Kimi əzilməli zəhərli ilan,
Kimi çəmbərquyruq əqrəbtək çalan,

Dadına çağırsan, yetişməz dada
Çevrilər qatilə, zalım cəllada...

Dahi İmadəddin Nəsimi isə Şahlara belə xəbərdarlıq edirdi:

Ayağını bu torpağa hörmətlə bas, unutma ki,
Şahlar başı torpaq olmuş, gəlib-gedən üstə gəzər.

Sultan Səncər hökm edərdi bu dünyaya bir zamanlar,
Qəbri üstə bir iydə də çiçək açıb verməz bəhər.

Tarixə qovuşmuş çoxsaylı Türk-İslam hökmdarları, istər adil olsun, istərsə də zalım, cəmiyyətdə ictimai fikir həmişə adil hökmdar arayışında olmuşdur.

Köklü elmi-texniki inqilablar və sosial təlatümlər əsri olan XX əsr bəşər tarixinə eyni zamanda Şərqin əsrlər boyu müstəmləkə boyunduruğu altında əzilən xalqlarının azadlıq əldə edərək, müstəqil dövlət yaratmaları ilə xarakterizə edilir. Lakin müstəmləkəçilik zəncirləri parçalanıb dağılsa da, keçmiş metropoliyalar bu dövlətləri yeni müstəmləkəçilik üsulları ilə öz nəzarətləri altında saxlamağa çalışrlar. Bu üsullara isə indi qlobal təzyiq vasitələri (Transmilli şirkətlərin şəriksiz hökmranlığı, qlobal maliyyə böhranları və s.) əlavə olunmuşdur.

Belə bir təlatümlü şəraitdə Yaxın Şərqdə Türk-İslam və Avropa dəyərlərinin sintezi əsasında modern dövlət aparatının yaradılmasına Türk dünyasının böyük oğlu Mustafa Kamal Atatürk müyəssər olmuşdur.

Tarixi şəxsiyyətlər nəsillərin yaddaşında yaratdıqları və həyatda qoyub getdikləri tarixi abidələrlə əbədiləşirlər. Görkəmli siyasi və hərbi xadim Mustafa Kamal Atatürkün türk xalqına bəxş etdiyi tarixi abidələr bu xalqın son əsrdə cərəyan edən siyasi və sosial-iqtisadi həyatında öz əksini tapmışdır. Son əsrdə Türkiyədə özünü göstərmiş bütün ciddi siyasi-iqtisadi dəyişikliklər üçün türk xalqı özünün böyük oğlu Mustafa Kamala borcludur. Çünki bütün bu irəliləyişlər bu və ya digər dərəcədə Atatürk şəxsiyyəti və Atatürk irsi ilə bağlıdır. İctimai-siyasi fırtınalarla dolu olan XX əsrin əvvəllərində təbiətin türk xalqına Atatürk kimi realist və tərəqqipərvər bir şəxsiyyət bəxş etməsi Türkiyənin bugünkü tərəqqisi yolunda özünün inkaredilməz tarixi rolunu oynamışdır.

Atatürk şəxsiyyətinin yaranması bir növ bu şəxsiyyəti yaratmış və yetişdirmiş olan türk xalqının əsrlər boyu yığılıb qalmış ehtiyaclarının bir çoxunun cavabı, Türk-İslami ctimai mühitinin Avropa mədəniyyəti ilə kəsişdiyi məkanda yetişdirməsi idi.

“Mən yaşaya bilmək üçün mütləq müstəqil millətin övladı olmalıyam” deyən Atatürkün Türk xalqına hədiyyə etdiyi, Türk gəncliyinə göz bəbəyi kimi qorumağı dönə-dönə tapşırdığı ən böyük tarixi əsəri Türkiyə Respublikasıdır. Mustafa Kamalın başçılıq etdiyi hərəkat tarixə Milli azadlıq hərəkatı adı ilə daxil olmuşdur. O hərəkat millət tərəfindən həyata keçirilmişvə son məqsədi də Atatürkün sözləri ilə desək, “milli hakimiyyətə əsaslanan, qeydsiz-şərtsiz, müstəqil yeni bir türk dövləti yaratmaq olmuşdur”. Atatürkün millətsevərliyi son nəticədə türk millətinin özünəməxsus keyfiyyətlərinin qorunub saxlanılmasına, suveren dövlət aparatının yaradılmasına yönəldilmişdir. İmperializm təcavüzünə qarşı mübarizə, milli özünüdərk və özünü təsdiq Atatürk millətçiliyində mühüm cəhətlərdəndir. Ölümündən sonra malik olduğu mirasını Türk Tarix və Ədəbiyyat Qurumuna vəsiyyət etməsi də onun millətsevərliyindən qaynaqlanırdı.

Misilsiz tarixi xidmətlərinə görə o, ağıllı, ədalətli, realist və bütün millətin sevimlisi olan bir lider kimi tarixə qızıl hərflərlə yazılmışdır.

Qədim tarixə və zəngin mədəniyyətə malik olan ərəb dünyasında antiimperialist müharibələri və milli-azadlıq hərəkatları nəticəsində müstəqil dövlətlərin yaradılması, həmin ölkələrin tərəqqi və demokratiya yolu ilə irəliləməsi üçün geniş imkanlar yaratdı. Lakin həmin imkanların reallaşması bu ölkələrin bir çoxunda monarxiya və diktatura rejimlərinin yaradılması ilə böyük ölçüdə məhdudlaşmış oldu.

Məlum olduğu kimi, müstəqil gənc dövlətlər sürətlə dəyişən müasir dünyanın ən dinamik komponentlərindən biridir. Burada söhbət yalnız iqtisadi inkişaf göstəricilərindən getmir. Bu zaman həmin ölkələrin ictimai həyatının bütün aspektlərini əhatə edən məsələlər - iqtisadi bazis, sosial struktur, siyasi üst qurum nəzərdə tutulur. Nəzəriyyə və praktika birmənalı şəkildə sübut edir ki, inkişaf etməkdə olan ölkələrin sürətli sosial-iqtisadi tərəqqisi əhəmiyyətli dərəcədə siyasi üstqurumdan, demokratik rejimin mövcudluğundan və işlərliyindən asılıdır. Həyat bu ölkələrin siyasi rejimlərindən bütün kəskinliyi ilə tələb edir ki, qlobal cəmiyyətin tələblərinə uyğun olaraq inkişaf etmiş ölkələrlə öz aralarında mövcud olan fərqin azaldılması, müasir dünyanın maliyyə-iqtisadi həyatında dövri olaraq özünü göstərən qeyri-sabitliyin fəsadlarından qorunması üçün milli mənafeyə cavab verən yeni və çevik siyasət hazırlayıb həyata keçirsinlər. Bu isə siyasi üstqurumun, siyasi iradənin özünün çevik olmasını tələb edir. Bu baxımdan nəzərdən keçirildikdə aydın olur ki, Yaxın Şərq ölkələrinin çoxunun “bəxti” bu məsələdə gətirməmişdir. Dinamik inkişaf edən müasir dünyada zəngin tarixi və mədəni irsə, tükənməz təbii sərvətlərə malik olan bu ölkələrin taleyini monarxiya və diktatura rejimləri müəyyən etmişdir.

Diktatura rejimlərinin və dövlət başçısının özbaşınalıqlarının ölkəni hansı fəlakətlərə sürüklədiyi Yaxın Şərqin qabaqcıl ölkələrindən olan Tunis,

Misir Ərəb Respublikası və xüsusən, Liviyanın misalında bütün dünyaya məlum oldu. 30-40 il ərzində diktatura rejimi ilə ölkəni idarə edən Zin əl-Abidin ben Əli və Hüsnü Mübarək, M. Kaddafi xalqın ehtiyaclarına məhəl qoymayaraq, xalqın dərin nifrətini qazanmış və inqilab dalğaları ilə hakimiyyətdən məhrum olmuşlar.

İnsanlar – inkişafın, həm məqsədi, həm də vasitəsidir. Lakin onların imkanları da, maraqları da müxtəlifdir. Dövlətin və dövlət başçısının fəaliyyəti o zaman səmərəli və ədalətli ola bilər ki, cəmiyyətdəki insanların və insan qruplarının hər birinin maraqları və imkanlarının nəzərə alınmasına çalışılsın. Yuxarıda adları çəkilən ölkələrin rəsmi siyasətinin məqsəd və prioritetləri, ilk növbədə hakimiyyətə yaxın yuxarı təbəqələrin, xüsusən də sülalə və qohum tayfaların ehiyac və istəklərinin təmin edilməsinə yönədilmişdir. Kasıb əhalinin və marjinal təbəqələrin ehtiyacları isə nəzərə alınmırdı. Ərəb ölkələrini bürümüş üsyan dalğaları da ona yönəlmişdir ki, onların səsləri eşidilsin.

Bəşər tarixinin bütün inkişaf mərhələlərində dövlətlərin çoxunda belə bir məsələ həmişə gündəmdə olubdur: dövləti və hökmdarları necə məcbur eləmək olar ki, onlar insanların ehtiyac və istəklərinə kifayət qədər diqqət yetirsinlər. Müasir şəraitdə əhalinin təhsil səviyyəsinin və informasiya alma imkanlarının genişlənməsi ilə əlaqədar olaraq həmin problemin əhəmiyyəti daha da artmışdır. Vətəndaşların ümumi fikrinin aşkara çıxarılmasıda ən mühüm təsir vasitəsi ölkədə demokratiyanın mövcudluğudur. Vətəndaşlar demokratik seçkilərdə iştirak etməklə, rəsmi dövlət siyasətinə təsir göstərə bilirlər. Vətəndaş təşkilatları və ictimai rəy sorğularıda bu məsələdə mühüm rol oynayır. Diktatura rejimlərinin fəaliyyətinə son qoymaq üçün belə imkanların yoxluğu yaxın Şərqi bürümüş üsyan dalğalarının başlıca səbəbidir. Bu dalğaların coğrafi genişliyi regionda və ondan kənarlarda diktatura rejimlərinin coğrafi genişliyindən irəli gəlir.

Bu ölkələrdə müstəmləkəçilik zəncirləri parçalanıb dağıldıqdan sonra həmin ölkələrin əhalisi tökülmüş qanlar hesabına yaradılmış milli hökümətlərindən və dövlət başçılarından çox şeylər, bəzən isə həddən artıq çox şeylər gözləyirdilər. Lakin az-çox uzun tarixi dövr keçdikdən sonra bu ölkələrin geniş xalq kütlələri məyus qaldı və narazılıq dalğaları yüksələn xətt üzrə inkişaf etməyə başladı. Bunun üçün isə real əsas var idi. Statistika məlumatlarının təhlilindən aydın olur ki, zəngin təbii sərvətlərə malik olan Şimali Afrika, Yaxın və Orta Şərq ölkələri müstəqillik əldə etdikləri ilk çağlarında daha yüksək artım sürətinə malik olmuşlar. Belə ki, beynəlxalq statistika məlumatlarına görə adı çəkilən ölkələrdə onilliklər üzrə ÜDM-un orta illik artım sürəti aşağıdakı kimi olmuşdur:

1930-38	1938-50	1951- 60	1961-70	1971-80	1981-90	1991-2000[15]
4.94	4.9	7.6	6.0	6.1	2.0	3.0

Təhlil göstərir ki, 1950-1980-ci illərdə bu ölkələrdə ÜDM-un orta illik artım sürəti inkişaf etmiş ölkələrin analoji göstəricisini iki dəfə üstələdiyi halda, 1960-80-cı illərdə ciddi geriləmə özünü göstərmişdir.

Dünya dövlətlərinin təcrübəsi göstərir ki, müasir şəraitdə inkişafın resurs amillərinə əsaslanmaq perspektivsizdir. Həyat bütün kəskinliyi ilə tələb edir ki, ölkənin bütün imkanları, yəni mövcud olan yığım və valyuta ehtiyatları istehsalın diversifikasiyasına, elmi-texniki tərəqqinin müasir nailiyyətlərinin tətbiqinə və bu yolla ölkə iqtisadiyyatının və istehsal edilən məhsulların rəqabət qabiliyyətinin yüksəldilməsinə yönəldilsin. Bunun üçün də Yaxın Şərq ölkələri kifayət qədər ehtiyatlara malikdir. Lakin bu ehtiyatların inormasiya iqtisadiyyatının tələblərinə uyğun olaraq region ölkələrinin sosial-iqtisadi tərəqqisi üçün istifadə əmsalı bağışlanılmaz şəkildə aşağıdır. Misal üçün, götürək neft dollarlarından istifadə məsələsini. XVI-XVII əsrlərdə Avropada "merkantilizm" adlı nəzəriyyə olmuşdur. Həmin nəzəriyyəyə görə, sərvət qızıl və puldan ibarətdir. Qızıl və pul nə qədər çox olarsa, nəzəriyyə müəlliflərinin fikrinə görə, dövlət bir o qədər zəngindir. Həmin nəzəriyyənin təcrübədə iflasa uğramasından 300 ildən çox vaxt keçməsinə baxmayaraq Yaxın Şərq ölkələri neft dollarlarından, məhz həmin nəzəriyyəyə uyğun olaraq istifadə edirlər. Onlar yüksək səmərəlilik prinsipi əsasında ölkənin sosial–iqtisadi tərəqqisinə yönəldilmək əvəzinə, qızıl-valyuta ehtiyatlarının artırılması üçün istifadə edilir. Bu ölkələrdə hakim sülalənin və onlara yaxın oliqarxların genişmiqyaslı korrupsiya şəbəkələrindən əldə etdikləri küllü miqdarda valyuta sərvətlərinin böyük hissəsi Qərb banklarında depozit şəklində saxlanılır. Bütün bunlar isə qlobal güclərin həmin vəsaitlərdən öz xeyirləri üçün manipulyasiya etmələrinə imkan yaradır. Misal olaraq qlobal maliyyə böhranı zamanı olduğu kimi xarici depozitlərin ən çox yerləşdirildiyi bankların iflasa uğraması, pul emissiyasından seniyoraj gəlirlərinin möhkəm valyuta buraxan ölkələr tərəfindən istifadə edilməsi, həmin ölkələrin öz xeyirlərinə həyata keçirdikləri valyuta məzənnəsi siyasətini və başqalarını göstərmək olar.

Yaxın Şərq ölkələrinin əksəriyyətinin ixracatı neft amilləri ilə əlaqədardır və emaledici sənayesi məhsulları rəqabət qabiliyyətindən məhrum olduğu üçün daxili bazarın tələbinin ödənilməsinə yönəldilmişdir.

Misir kimi təbii sərvətlərlə zəngin olan bir ölkə diktatura rejiminin uzun müddət hökm sürməsi nəticəsində inkişafda müasir dövrün tələblərindən geri

[15] "Мировая экономика за 100 лет".- "Мировая экономика и международные отношения", 2001, №9, с.96.

qalmışdır. Ölkənin inkişafının ən ümumiləşdirilmiş göstəricisi (yeganə göstərici olmasa da) adam başına düşən ÜDM-dir.

Misirdə adambaşına ÜDM-in ABŞ-ın eyni göstəricisi ilə müqayisəsi (dolların alıcılıq qabiliyyəti pariteti əsasında hesablanmışdır)[*16]

	1950	1960	1970	1980	1995	2010 (təxmini)
ÜDM:						
Misir	**475**	**541**	**743**	**1169**	**3820**	**6376**
ABŞ	**4550**	**5195**	**6623**	**7895**	**26980**	**47123**
Misirdə adambaşına ÜDM ABŞ-a nisbətən fazilə	**10,4**	**10,4**	**11,2**	**14,8**	**14,2**	**13,5**

Statistika məlumatlarından aydın olur ki, Hüsnü Mübarəkin prezidentliyi dövründə Misirin ABŞ-a nisbətən geriliyi ÜDM-in fiziki həcminin daha sürətlə artmasına baxmayaraq çoxalmışdır.

Göstərilən amillərin təsiri altında müasir mərhələdə Yaxın Şərq ölkələrində sosial-iqtisadi vəziyyət gərginləşmiş və üsyan dalğaları bütün regionu əhatə etmişdir. İqtisadi və sosial çətinliklərlə yanaşı qərb təmayüllü modernləşmədən məyusluq, qabaqcıl dünya ölkələrindən geriliyin artması, xaricdən mədəni təzyiqə mənfi münasibət, məqsədyönlü şəkildə İslam dəyərlərinə hücum, yerli iqtidarın istismarçı qlobal güc mərkəzləri ilə milli mənafeyə zidd separatçı razılaşmaları, Əfqanıstan və İraq kimi qonşu ölkələrə müxtəlif bəhanələrlə qanlı silahlı müdaxilələr,bu ölkələrin sərvətlərinin imperialist dövlətlər tərəfindən talan edilməsi də bu ölkələrdə sosial gərginliyi son həddə çatdırmışdır.

16 *Б.М. Болотин, В.Л.Шейнис.Экономика развивающихся стран в цифрах. Опыт справочно-статистического исследованияю 1950-1985гг.; Отчетомировомразвитии 1997.Государство в меняющимся мире. МБРР.1997.с.250-251; Datarefertotheyear 2009. World Economic Outlook Database-October 2010, International Monetary Fund. Accessed on December 15, 2010.

VIII FƏSİL
TÜRKİYƏ CÜMHURİYYƏTİNİN İQTİSADİ İNKİŞAFININ FORMALAŞMASI VƏ İNKİŞAFI

8.1. Maliyyə bazası və dövlətin gəlir mənbələrinin təkamülü

(Государственные финасы и социально-экономическое развитие Турции. Баку, "Елм", 1991)

Azadlıq əldə etmiş ölkələrin əsrlər boyunca davam edən iqtisadi və sosial-mədəni geriliyinin aradan qaldırılması böyük həcmli maddi və maliyyə resurslarının ümummilli fondda səfərbər edilməsini tələb edir. Tarix əsaslı şəkildə sübut etmişdir ki, bu fondların yaradılması keçmiş müstəmləkə və yarımmüstəmləkə ölkələrinin mövcud, bir qayda olaraq, məhdud maliyyə və iqtisadi potensialının səmərəli şəkildə istifadə edilməsində digər bərabər şərtlər altında vacib amil sayılır. Tarixi şəraitin dəyişməsi səbəbilə maliyyə mexanizminin köməyi ilə səfərbər edilən resurslar gənc dövlətlərin yalnız mövcudiyyəti üçün maddi əsas rolunu oynamır, onlar eyni zamanda bu dövlətlərin iqtisadi, siyasi və sosial funksiyalarının obyektiv genişləndirilməsi şəraitində mürəkkəb sosial və iqtisadi inkişaf mexanizminin həlledici vasitələrindən birinə çevrilir. Yerli xüsusi kapitalın aşkar hərəkətsizliyi yarandığı təqdirdə milli iqtisadiyyatın dirçəlməsi, kənd təsərrüfatındakı geriliyin aradan qaldırılması və meydana çıxmış sosial problemlərin həlli kimi bu cür həyati əhəmiyyət daşıyan məsələlərin yoluna qoyulması dövlət gəlirlərinin mümkün artımından birbaşa asılı idi. Bu ölkələrin sosial-iqtisadi tərəqqisi dövründə ümummilli maliyyə fondlarının formalaşdırılması probleminin yaratdığı gərginlik nəinki aşağıdüşmür, əksinə, iqtisadiyyatın intensiv inkişaf yoluna keçməsi və sürətli sənayeləşdirilmə siyasətinin həyata keçirilməsi ilə bağlı məsələlərin fonunda yeni xüsusiyyətlər kəsb edir. Bir qayda olaraq xarici ölkələrdən maddi formada və həqiqi dəyərindən yüksək qiymətə gətirilən elmi-texniki inqilab nailiyyətlərinin tətbiqi vəziyyəti daha da gərginləşdirir. Kapitalist yönümlü ölkələrdə milli sərvətin daha böyük hissəsini öz əlində cəmləşdirmiş nəhəng milli burjuaziyanın formalaşması iqtisadi artım yükünün əhəmiyyətli hissəsinin dövlət sektorundan iqtisadi fəaliyyətin şəxsi, xüsusilə də, kapital tutumlu və aşağı gəlirli sahələrinin üzərinə qoyulmasına icazə vermir. Bundan başqa, fərdi sahibkar iqtisadi mövqeyinin möhkəmləndirilməsi üçün dövlət tərəfindən verilməsi mümkün olan bütün güzəşt, imtiyaz və mükafatlara iddia edir.

Beləliklə, azadlıq əldə etmiş ölkələrdə ümummilli maliyyə fondlarının formalaşması problemi o vacib məsələlərdəndir ki, iqtisadi müstəqillik əldə

edilməsi yolunda uğur qazanılması bu problemlərin necə həll edilib-edilməməsindən asılıdır.

Dövlət gəlirlərinin başlıca mənbəyi, yəni ölkənin maliyyə bazası-bu, ümumi ictimai məhsul və hər şeydən əvvəl, yenidən yaradılmış dəyər-milli gəlirdir. Dövlət gəlirləri başlıca olaraq yenidən yaradılmış dəyərin yenidən bölüşdürülməsi və istehlakı prosesində formalaşdığından milli gəlirin istehsalı prosesi və onun ilkin bölüşdürülməsi mexanizmi digər bərabər şərtlər altında ölkənin maliyyə imkanlarını qabaqcadan müəyyən edir. Başqa sözlə, maliyyə bazasının imkanları və dövlət gəlirlərinin formalaşması problemləri geniş mənada milli istehsalat güclərinin inkişaf səviyyəsi ilə yanaşı məlum ölkədəki mövcud istehsal münasibətlərinin xarakterindən də asılıdır.

Milli gəlirin dinamikası və quruluşu

Türkiyə Respublikası sultan dövründən irsən olduqca geridə qalmış iqtisadi bünövrəni almışdı. Hər halda ixtiyarımızda olan cüzi və pərakəndə statistik məlumatlar respublika sisteminin əsas iqtisadi potensialı barədə müəyyən təsəvvür yarada bilir.

Türkiyə Cümhuriyyətinin elan olunduğu il (1923) ümumi milli məhsulun fiziki həcmi 952.6 milyon lirəyə bərabər idi. Bu isə adambaşına cəmi 76 lirə edirdi (Türkiye istatistik yıllığı, 1983, s. XXXIV). Milli gəlirin 1/10-nin əldə edildiyi sənayenin rolu olduqca aşağı idi. Y.N.Rozaliyev qeyd edirdi: "Osmanlı dövründə imperialist inhisarının fəaliyyəti ölkə sənayesi üçün ən ağır nəticələrə gətirib çıxarmışdı" (Розалиев Ю.Н. Экономическая история Турецкой Республики. М. 1980., s.32). 1927-ci ilin sənaye siyahıya alınmasına dair məlumatlar respublikanın yarandığı ilk illərdə sənaye istehsalını az-çox səciyyələndirirdi. Ölkənin sənaye müəssisələrinin (65245) 28 minində (43%), ümumiyyətlə, muzdlu əməkdən istifadə edilmirdi. Burada yalnız sahibkarlar özləri çalışırdı.2-3 işçisi olan (müəssisə sahibi və onun ailə üzvləri) müəssisələr 35,7%, 4-5 nəfər olan 11,8%, 6-10 nəfər olan 6% və 10 işçidən çox olanlar 3,2% təşkil edirdi. Mexaniki mühərriklərdən yalnız 2882 müəssisədə (4,3%) istifadə olunurdu. Lakin fərqli gücə malik motorların sayı cəmi 485 idi (bax: bu barədə daha geniş məlumat: Розалиев Ю.Н. Экономическая история Турецкой Республики. М. 1980., s.39-42; 29, s.57-58). Sənayenin əsasən istehlak məhsullarının istehsalı üzrə ixtisaslaşmasına baxmayaraq (1927-ci ildə bu növ orta və iri müəssisələr bütün sənaye müəssisələrinin 59.7%-ni təşkil edirdi), o, alıcılıq qabiliyyəti olan daxili tələbatı ödəmirdi və bir çox lazımi məmulatlar xaricdən gətirilirdi (hazır məmulat və yarımfabrikatların idxalının 2/3-dən çoxunu istehlak malları təşkil edirdi; 1923-1927-ci illər ərzində xaricdən idxal olunan bütün malların orta

hesabla 45%-i isə yalnız toxuculuq məmulatlarının payına düşürdü). (Türkiye iktisat gazetesi. 1973. 25 oktyabr.; 29, s.58).

Türkiyəli məşhur iqtisadçı Şövkət Sürəyya Aydəmir qeyd edirdi: "Türkiyə" dedikdə, gözlərimiz önündə böyük kəndli dövləti canlanır" (Süreyya S.A. Cihan iktisadiyatında Türkiye. Ankara.1931, s.11). Milli gəlirin böyük hissəsi (1927-ci ildə 67%) kənd təsərrüfatında əldə edilirdi. Aqrar sektor əhalinin əksər hissəsinin yaşayışı üçün əsas mənbə və fəaliyyət sahəsi olmaqla yanaşı, milli sənayenin başlıca xammal bazası idi. Yük nəqliyyatı, daxili və xarici ticarət öz fəaliyyətində başlıca olaraq kənd təsərrüfatı məhsullarına əsaslanırdı. Sultan dövründən irs olaraq qalmış yeganə milli bank olan kənd təsərrüfatı bankı da milli təsərrüfatın bu sahəsində fəaliyyət göstərirdi. Bir sözlə, aqrar münasibətlər həmin dövrdə mövcud istehsal münasibətlərinin, belə demək olarsa, "siması"nı müəyyən edirdi. Geridə qalmış sənaye münasibətlərinin çoxəsrli ağalığı və sonsuz dağıdıcı müharibələrin nəticəsi olaraq aqrar sahə tənəzzül və düşgünlük vəziyyətində idi. Torpaq olduqca primitiv üsullarla becərilirdi. 30-cu illərin əvvəllərinə aid məlumatlara əsasən, ölkədə 500 minə qədər dəmir kotan və 120 min ağacdan hazırlanmış xış var idi. Bunlar türk kəndlisinin əsas iş alətləri sayılırdı. Kəndli ailələrinin 20%-dən çoxu, ümumiyyətlə, hər hansı istehsal alətlərindən məhrum idi (170 a). 1924-cü ildə ölkə sahələrində cəmi 221 traktor işləyirdi (Özgür Ö.100 soruda Türkiye'de kapitalizmin gelişimi, İstanbul.1972, s.78; 84, s.18). Açıq-aydın görünür ki, bu cür şərtlər altında kənd təsərrüfatında məhsuldarlıq səviyyəsi olduqca aşağı idi. Əhalinin əksər hissəsinin əkinçilik və maldarlıqla məşğul olmasına baxmayaraq, kənd təsərrüfatı mallarına olan daxili tələbat hər halda onların kənardan gətirilməsi hesabına ödənilirdi. Misal üçün, 20-ci illərdə idxal olunan bütün məhsulların təxminən 8-10%-i insanın istifadə etdiyi vacib məhsullardan olan buğdanın payına düşürdü (Hamdi A. İktisadi devletçilik, İstanbul. 1931-1933. Cilt 1-2., c.1-2, s.78-79).

İxrac və idxal əməliyyatlarının strukturu da milli istehsalatın olduqca geridə qalmış xarakterini aydın şəkildə əks etdirirdi. 1930-cu ildə xarici ticarət əməliyyatlarının əmtəə tərkibi belə idi:

	İdxal	İxrac
Sənaye məmulatları və yarımfabrikatlar	71.6	11.9
Xammal	15.1	53.5
Qida məhsulları	13.3	34.6

(Yerasim S.Azgelişmişlik sürecinde Türkiye. İstanbul.1977, s.125).

Verilmiş məlumatlardan göründüyü kimi, idxalın əsasını hazır sənaye məmulatları və yarımfabrikatlar təşkil etdiyi halda, valyuta daxil olmaların

mənbəyinin xammal və qida məhsullarının, yəni kənd təsərrüfatı mallarının ixracatından asılı olduğu məlum olur.

Bu şərtlər altında gənc milli sənayenin gücləndirilməsi və kənd təsərrüfatının müasirləşdirilməsi əsasında ölkənin iqtisadi geriliyinin aradan qaldırılması Türkiyə hökümətinin iqtisadi siyasətinin başlıca istiqamətini təşkil etməli idi.

Türkiyənin siyasi müstəqillik qazanması sosial-iqtisadi geriliyin aradan qaldırılması üçün onun qarşısında geniş imkanlar açırdı. Hakimiyyətə milli burjuaziyanın gəlişi Türkiyə cəmiyyətinin qərb modelinə uyğun müasirləşdirilməsi strategiyasını şərt qoydu. Ölkənin sosial-iqtisadi inkişafının müxtəlif mərhələlərində rəhbər dairələrin təsərrüfatın əsas problemlərinə yanaşma tərzi kifayət qədər modifikasiyaya uğramış olurdu. Belə ki, ayrı-ayrı dövrlərdə hakimiyyətdə olan rəhbər dairələrin koalisiyası xarici kapitala, dövlət sektoruna, sosial-iqtisadi proseslərin planlaşdırılması və nizama salınması dərəcəsinə fərqli şəkildə yanaşırdı.

Açıq-aydın görünür ki, müxtəlif mərhələlərdə ölkənin sosial-iqtisadi inkişafının nəticələri də müxtəlif olmuşdur. Əgər respublikanın qurulduğu ilk 17 ildə (1923-1940) adambaşına düşən milli gəliri ikiqat artırmaq mümkün olmuşdusa, sonrakı iki onillik ərzində (1940-1960) ölkə bu vacib göstərici üzrə yalnız 35.5% irəliləmişdi (TÜSİAD.1982 yılına girerken türk ekonomisi. Ankara.1982, s.55).

İmperializmin müstəmləkə sisteminin tənəzzül prosesi həlledici mərhələyə qədəm qoyduğu və Birləşmiş Millətlər Təşkilatının Afrika qitəsində milli azadlıq hərəkatlarının geniş vüsət alması ilə əlaqədar 1960-cı ili "Afrika ili" adlandırdığı bir vaxtda Türkiyə müstəqil inkişaf yolunda artıq dörd onillik keçmişdi. Şübhəsiz ki, müstəqil inkişaf illərində onun çoxşaxəli və geridə qalmış sosial-iqtisadi quruluşu vacib dəyişikliklərə uğramışdır. Mustafa Kamal Atatürkün respublikanın qurulmasından sonra həyata keçirdiyi islahatlar ölkədə geriliyin aradan qaldırılması və onun ictimai həyatının müasirləşdirilməsi yolunda vacib amil oldu. Siyasi müstəqillik əldə edilməsindən sonra xüsusi "üçüncü yol"un elan edilməsinə baxmayaraq, Türkiyə əslində qətiyyətlə intensiv kapitalist inkişaf yoluna qədəm qoymuşdu. 1960-cı ildə ümumi milli məhsulun faktiki həcmi sabit qiymətlərlə (1923-cü il = 100) 620 bal, adambaşına isə 282 bal idi [TÜSİAD. 1982 yılına girerken Türk ekonomisi. Ankara. 1982, s.5). Ümumi milli məhsulda kənd təsərrüfatının payı 1961-ci ildə 42%-ə düşmüş (1938-ci ildə 48%, 1927-ci ildə 67% idi), sənaye istehsalının xüsusi çəkisi isə əksinə, 23%-ə qədər artmışdır (1938-ci ildə 16%, 1927-ci ildə 10%). (Birinci beş yıllık kalkınma planı (1963-1967) Ankara. 1969, s.8-9). Lakin bu nailiyyətlər Türkiyəni digər azadlıq əldə etmiş ölkələr arasında hər hansı üstün mövqe ilə təmin etmədi.

Sovet nəşrlərindən birində qeyd olunduğu kimi, siyasi müstəqilliyə 20-ci illərdə nail olmasına və bununla da azadlıq əldə etmiş digər respublikalardan daha tez iqtisadi azadlıq uğrunda mübarizəyə başlamasına baxmayaraq, 60-cı illərin əvvəllərində bu ölkə əsas iqtisadi göstəricilərə görə digər inkişaf etməkdə olan dövlətlərdən elə də fərqlənmirdi (Экономическое развитие современной Турции //Сб. стат. М. 1983, s.45). Burada tədqiq olunan ölkənin iqtisadi potensialının dinamikasında qeyd olunan illərdə həlledici rolu intensiv deyil, ekstensiv amillərin oynadığını qeyd etməmək mümkün deyil. Belə ki, kənd təsərrüfatı məhsulları istehsalının fiziki həcmində yüksəlişi əkin sahələrinin genişləndirilməsi müəyyən edirdi: yalnız 1939-1960-cı illərdə texniki bitkilərin əkildiyi sahələr 2.3 dəfə, dənli bitkilər olan sahələr isə 1.6 dəfə artmışdı (Türkiye istatistik yıllığı, 1983, s. XXI-XXIII). Dövlət himayəsi altında iri və xırda müəssisələrin sayı da durmadan artırdı.10 nəfərdən çox işçisi olan emaledici özəl sənaye müəssisələri 1940-1963-cü illərdə 8 dəfədən də çox artmışdı (Avcıoğlu D. Türkiye'nin düzeni (Dün-bugün-yarın). Ankara. 1968, s.33). Əsas istehsaledici qüvvə olan Türkiyə əhalisi 1923-cü ildən 1960-cı ilə qədər 2.2 dəfə artmışdır. İlk beşillik planın (1963-1967) sənədlərində qeyd olunduğu kimi, bütün bu nailiyyətlər "Türkiyənin sənaye inqilabı həyata keçirməsi və yüksək yığım səviyyəsinə malik dinamik iqtisadiyyat yaratmağı üçün kifayət deyildi" (232, s.8). 30-cu illərdə qızğın şəkildə başlamış sənaye quruculuğu hər şeydən əvvəl "ölkənin əsas istehlak mallarının xaricdən idxalına olan asılılığının ləğv edilməsinə" yönəldilmişdi (İstanbul üniversitesi iktisat fakültesi mecmuası.İstanbul, 1959-1960, c.21, №1-4, s.8). Birinci növbədə dövlət sektoru hesabına istehsal vasitələrinin yaradıldığı sahələrin təşkili üçün həyata keçirilmiş konkret işlərə baxmayaraq, "ağır və yüngül emaledici sənaye sahələrinin qarşılıqlı münasibəti dəyişməz olaraq qalmışdır" (müvafiq olaraq 70% və 30%) (Турция: история и экономика//Сб. стат. М. 1978, s.199).

Sənayedə özəl sektor çoxsaylı xırda müəssisə və emalatxanalarla təmsil olunurdu. 1960-cı ildə bütün sənaye məhsullarının 1/3-i 60 min xırda əmtəə müəssisəsində hazırlanırdı. "Nəhənglər" sırasına daxil edilən müəssisələrin böyük əksəriyyəti üçün "aksioner cəmiyyəti" statusu "ailə təsərrüfatı" statusundan hələ də dəqiq şəkildə ayrılmırdı. 1959-cu ildə bir nəhəng özəl müəssisədə işçilərin sayının orta göstəricisi analoji dövlət müəssisəsindəkindən 8.5 dəfə geri qalırdı (Birinci beş yıllık kalkınma planı (1963-1967). Ankara. 1969, s.76).

Əsas milli sənaye sahələrinin yaradılmasında həlledici rolu dövlət sektorunun müəssisələri oynayırdı. Emaledici sənaye məhsullarının yarıdan çoxunun (1960-cı ildə 53.3%) hazırlandığı özəl müəssisələr yüksək mənfəət dalınca qaçaraq başlıca olaraq çoxişlənən mallar istehsalı sahəsində cəmləşmişdilər. Bu müəssisələrin bir çox istehsal elementləri (hər şeydən öncə aralıq

mallar tələbatı və xammal) bir qayda olaraq ya dövlət sektoru vasitəsilə, ya da ki dövlətin dəstəyi ilə xaricdən gətirilməklə təmin edilirdi.

Ləng tərəqqi tendensiyasının üstünlük təşkil etdiyi kənd təsərrüfatında vəziyyət ümumi götürdükdə əlverişsiz idi (Моисеев П.П. Аграрный строй современной Турции. М.1970, s.242-253).Torpaq sahələrinin becərilməsində hələ də sadə əmək alətlərinin ağalığı davam edirdi. DP-nin idarəçiliyi dövründə idxal edilmiş kənd təsərrüfatı texnikası ehtiyat hissələrin və təmir emalatxanalarının çatışmazlığı səbəbilə qismən yararsız vəziyyətdə idi. Kənd təsərrüfatı istehsalının həcmi "sosial-iqtisadi inkişafın yaranmış tələblərinə" elə də cavab vermirdi (Моисеев П.П. Аграрный строй современной Турции. М. 1970, s.253). Birinci beşillik planın sənədlərində qeyd olunurdu ki, 30 illik respublika dövründə kənd təsərrüfatında istehsalın həcmi cəmi 27% artmışdı (Birinci beş yıllık kalkınma planı (1963-1967). Ankara. 1969, s.27).

Yaranmış vəziyyət və əvvəlki illərin çətinlikləri siyasi və elmi dairələri respublika dövründə keçilən bütün yolu təzədən tənqidi formada gözdən keçirməyə vadar etdi. 1960-cı ilin dövlət çevrilişindən sonra türk dövlət quruculuğunun konstitusiya əsasları dəyişiklikliyə uğradı. Sosial-siyasi münaqişələrin daha da kəskinləşməsinə cavab olaraq "ümumrifah dövləti" şüarı səsləndirilməyə başladı. Xarici iqtisadi əlaqələrdə imperialist dövlətlərinə bir tərəfli meyllilik qeyri-normal hadisə kimi qiymətləndirilirdi. Buna görə də Sovet İttifaqı başda olmaqla sosialist ölkələri ilə əlaqələr qaydaya salınmağa başlandı. Ölkə həyatı sosial-iqtisadi inkişafın sürətini artırmağı qarşıya məsələ kimi qoymuşdu. Ölkəni idarəetmə vasitələrini öz əlində cəmləşdirmiş milli burjuaziya da daxil olmaqla Türkiyə ictimaiyyətinin müxtəlif dairələri bunda maraqlı idilər. Sosial-iqtisadi proseslərin planlı şəkildə qaydaya salınmasının və onların təkamülünə məqsədyönlü təsirin zəruriliyi 1961-ci ildə qəbul edilmiş ölkənin əsas qanunu olan konstitusiyada kifayət qədər aydın formada qeyd edilmişdi. Dövlət Planlaşdırma Təşkilatı yaradıldı və 1963-cü ildən etibarən nəticələrinə böyük ümidlər bəslənən beşillik planlar müntəzəm şəkildə tərtib olunaraq həyata keçirildi. Əvvəlki dövrlə müqayisədə iqtisadi və sosial vəzifələri daha da artmış dövlət iqtisadi artımın sürətləndirilməsi üçün əsas vasitə hesab olunurdu. Təcrübədə Türkiyə dövləti ölkənin istehsaledici qüvvələrinin inkişafına həlledici töhfə verərək nəhəng və hətta başlıca investor kimi çıxış edirdi. Bununla yanaşı, "qarışıq iqtisadiyyat" əsasında planlı inkişaf strategiyasında əhəmiyyətli rolu bazar mexanizmi oynayırdı. Dövlət sektorunun fəaliyyəti heç bir kamuflyaj olmadan xüsusi sahibkarlığın tərəqqisi məntiqinə tabe idi. Əlbəttə, özəl sektora münasibətdə planlar rəhbər qüvvəyə sahib ola bilmədikdə əsas inkişaf özəyini həvəsləndirici və proteksionist tədbirlərin təşkil etdiyi iqtisadiyyatın dövlət tənzimlənməsi sistemi əldə etdi.

Planlı inkişaf strategiyası çərçivəsində həyata keçirilən iqtisadi siyasətin əsasını ölkənin iqtisadi gerilik və asılılığının aradan qaldırılmasında ilkin vacib şərt kimi onun sənayeləşdirilməsi prosesinin sürətləndirilməsi kursu təşkil edirdi. Bütün dövlət maşını əsasən milli sənaye quruculuğunun maraqlarına tabe idi. Ümumi kapital qoyuluşunda sənaye sektorunun payı ilk plan dövründə 32.6% olduğu halda, ikincidə 38.9%-ə, üçüncüdə isə 44.3%-ə çatmışdır (T.C. Resmi gazete. Ankara, 1978, 12 noyabr, s.115-117). 1979-1983-cü illər ərzində onun səviyyəsi artıq 46.0% idi.

Bütün bunların təbii nəticəsi olaraq 60-80-ci illər ölkənin iqtisadi tarixinə sürətli iqtisadi inkişaf, yaxud sürətli sənayeləşmə dövrü kimi daxil oldu. Bunu ümumi milli məhsulun orta illik artımı aydın şəkildə sübut edir (%) (Handbook of İnternational Trade and development statistics. N.Y, 1979, s.485; 282,1987, s.10-17; 1990, s.6, 11).

Dövrlər	ÜMM	adambaşına ÜMM
1960-1970	5.1	3.1
1970-1977	7.3	4.6
1978	2.9	1.6
1979-1983	2.1	-0.2
1984	5.9	-0.7
1985-1989	5.1	2.2

Müntəzəm inkişafa baxmayaraq, ölkə iqtisadi potensialının artırılması prosesində, şübhəsiz ki, mühüm nəticələr əldə etmişdir: ÜMM 1968-ci ilin sabit qiymətləri ilə 1989-cu ildə (1960-100) 446 bala kimi qalxdı. Adambaşına düşən ÜMM 1960-cı ildə 188.4 dollar olduğu halda, 1989-cu ildə 1434.0 dollara qalxmışdı. Xüsusilə də sənaye quruculuğu sahəsində nəzərəçarpacaq uğurlar əldə edilmişdi. Ölkənin sənayeləşdirilməsi kursu öz bəhrəsini verməyə başladı: 1963-cü ilin göstəricilərini 100 bal götürsək, onda bütün sənaye hasilatının fiziki həcminin indeksi 1977-ci ildə 374 bal, 1989-cu ildə isə 608 bal təşkil etmiş olar. Bütün bunlar ölkənin sənayeləşdirilməsinin yüksək tempindən xəbər verir. Milli gəlirin real, təbii strukturunda kəmiyyət dəyişiklikləri ciddi keyfiyyət dəyişiklikləri ilə müşayiət olunurdu. İlk beşillik plan dövründə (1963-1967) sənaye hasilatının ümumi miqdarı ÜMM-nın 17.5%-ni təşkil edirdisə, beşinci beşillik plan dövründə (1985-1989) bu məbləğ 25.5% idi. İqtisadiyyatın iki başlıca sahəsi – aqrar və sənaye sahələri arasında nisbət sonuncunun xeyrinə dəyişmişdi. Bu göstəriciyə görə, sənaye 1985-1989-cu illərdə kənd təsərrüfatını 4.4% qabaqlamışdı. Planlaşdırma illəri ərzində bir sıra əsas sənaye sahələri inkişaf etdi. Bu, özünü təmin edən geniş təkrar istehsal mexanizminin formalaşması üçün zəruri idi. Nəticədə, Türkiyə aqrar ölkədən orta inkişaf səviyyəli istehsal qüvvələri olan aqrar-sənaye ölkəsinə çevrildi(172, s.5-10). Emaledici sənaye hasilatında istehlak

mallarının payı ümumi götürsək, 1989-cu ildə 37.7%-ə qədər azalmışdı. 1962-ci ildə bu göstərici 62.3% idi (cədvəl 1).

Cədvəl 1

Sənaye hasilatının təbii-maddi strukturunda dəyişikliklər [T.C. Resmi gazete. Ankara, 1978, 12 dekabr ; 1972, 28 noyabr; 1981, 4 iyun, s.151; Türkiye istatistik yıllığı, 1990, s.139)

	İl					
	1962	1967	1972	1977	1980	1989
Son tələbat malları	62.3	52.9	53.2	49.0	43.2	37.7
Aralıq tələbat malları	27.8	34.4	33.9	37.7	43.9	43.1
İnvestisiya malları	9.9	12.7	12.9	13.3	12.9	19.2
	100	100	100	100	100	100

Planlaşdırma illəri ərzində maddi istehsalın digər vacib sahəsi olan kənd təsərrüfatında da mühüm dəyişikliklər baş vermişdir. Sənaye inkişafının sürətləndirilməsi, demoqrafik vəziyyət və valyuta daxil olmalarının artırılması zəruriliyi (başlıca mənbəyi uzun müddət kənd təsərrüfatı idi) təsiri altında bu sahənin məhsullarına olan fasiləsiz artan tələbat kənd təsərrüfatı istehsalının həcminin genişləndirilməsinə təkan verirdi. Aqrar sektorun dövlət-kapitalist tənzimlənməsi sistemi gücləndi və milli təsərrüfatın bu ənənəvi sahəsində istehsal proseslərinin intensivləşdirilməsi üzrə tədbirlər həyata keçirildi. Kənd təsərrüfatı istehsalının sənaye əsaslarına keçirilməsində əhəmiyyətli nəticələr əldə edildi. Məsələn, 1960-1965-ci illərdə traktorların sayı orta hesabla 100-ə bərabər idisə, 1975-ci ildə bu göstərici Türkiyədə 458, kapitalist dünyasında ümumilikdə 138, inkişaf etməkdə olan ölkələrdə isə 450 idi (Silier O. 1970'ler Türkiyesi'nde tarımsal yapının bazi özellikleri// Boğaziçi üniversitesi dergisi Ekonomi. 1979. N° 7, s.59). 1975-1989-cu illər ərzində Türkiyədə traktorların sayı 2.8 dəfə artdı.Ölkə həmçinin dünyada baş verən "yaşıl inqilab"dan kənarda qala bilməzdi: 1970-1988-ci illər ərzində vacib kənd təsərrüfatı məhsulları olan buğda (86.8%), çəltik (115.5%), tütün (98.2%) və pambığın (167.4%) məhsuldarlığı artdı (İktisadi rapor. Ankara, 1983, s.59; 1990, s.103).

Cədvəl 2-dəki məlumatlar sübut edir ki, Türkiyə qeyd olunan kənd təsərrüfatı məhsul növlərinin istehsalı üzrə inkişaf etməkdə olan dünyanı xeyli ötüb keçmiş, hətta inkişaf etmiş kapitalist ölkələrinə də çox yaxınlaşmışdır.

Cədvəl 2

Xarici aləmlə müqayisədə Türkiyədə bəzi kənd təsərrüfatı bitkilərinin məhsuldarlığı, s/ha (Болотин Б.М., Шейнис В.Л.Экономика развивающихся странв цифрах: Опыт справочно-статистического исследования. 1950-1985, M.1988, s.173-174; İktisadi rapor. Ankara, 1983, s.59; 1990, s.103)

Kənd təsərrüfatı məhsullarının növləri	İE kapitalist ölkələri	İEOÖ	Türkiyə	
	İllik orta göstərici	1981-1985	1982	1988
Buğda	25.1	15.8	19.3	21.7
Çəltik	55.7	22.9	31.5	51.5
Qarğıdalı	57.2	15.7	...	40.0
Arpa	28.9	11.7	...	21.7

Aqrar sektora müasir texnika və texnologiyanın ciddi şəkildə nüfuz etməsinə baxmayaraq, xüsusilə də ölkənin şərq əyalətlərində bu sektorun texniki təchizat vasitələrinin tamamilə yeniləşdirilməsi prosesinin yekunlaşdırılması hələ çox gec baş tuta bilər. Belə ki, 80-ci illərin əvvəllərində qeyd olunurdu ki, becərilən torpaqların ¼-i hələ də ənənəvi kənd təsərrüfatı alətləri vasitəsilə istismar edilir və ölkədə 1.4 milyon sadə üsulla ağacdan hazırlanmış taxıldöyən vardır (II Türkiye İktisat kongresi. V Tarım komisyonu tebliğleri 1981. İzmir, 1981, s.22).Türkiyənin kənd təsərrüfatı istehsalının artım səviyyəsi sürətlə inkişaf edən sənaye istehsalından yetərincə geri qalır. Belə ki, 1963-cü ildə kənd təsərrüfatı məhsulları istehsalının fiziki həcmini 100 balla qiymətləndirsək, 1989-cu ildə bu göstərici 186 bal idi (sənaye istehsalında isə bu rəqəm 608-ə bərabər olmuşdur).İqtisadi cəhətdən fəal əhalinin yarısının hələ də məşğul olduğu aqrar sektordakı olduqca ləng addımlar (milli gəlirdə kənd təsərrüfatının payı 21.1% olduğu halda) ölkənin maliyyə bazasını məhdudlaşdıran vacib amil qismində çıxış edir.

Ümumi milli məhsulun yarandığı ilkin iqtisadi vahidlərin səciyyəvi cəhətlərini nəzərə almasaq, bu və ya digər ölkənin maliyyə potensialı haqqında təsəvvür tam yaranmayacaq. Şübhəsiz ki, ölkə iqtisadiyyatının bu sahəsində də mühüm kəmiyyət və keyfiyyət dəyişiklikləri baş vermişdir. Respublika illərində milli təsərrüfatın başlıca sahələrində fəaliyyət göstərən dövlət müəssisələrinin geniş şəbəkəsi yaradıldı və dövlətin köməyi ilə özəl sektorun iqtisadi mövqeyi möhkəmləndirildi. Y.N.Rozaliyev qeyd edirdi: "Türkiyədə şəxsi biznes üçün yaranmış əlverişli şərait nəinki xüsusi sahibkarlıq fəaliyyətinin genişləndirilməsinə, həmçinin, onda keyfiyyət dəyişikliklərinə də kömək etdi" (160, s.199). İstehsal və satışın təşkilinin kapitalist formaları tədricən iqtisadi ağalığa nail oldular. Bütün respublika tarixi boyu dövlət

maşınının kapitalist quruluşun sürətləndirilmiş inkişaf maraqlarına tabeliyi hər şeydən əvvəl xidmət və sənaye sahələri də daxil olmaqla təkrar istehsal mexanizminin bütün sahələrində istehsal və kapitalın təmərküzləşməsi ilə qaçılmaz olaraq müşayiət olunurdu. Ticarət, bank fəaliyyəti, üçüncü sektorun digər sahələri, həmçinin, kənd təsərrüfatı və nəqliyyatda hakim mövqe tutan artan özəl kapital dövlət sektorunu sıxışdıraraq emaledici sənayedə də sürətlə inkişaf edirdi. Cədvəl 3-də verilmiş məlumatlar bu proses barədə aydın təsəvvür yaradır.

Nəhəng özəl sahibkarlığın fəaliyyət sahəsi həm dövlət sektorunun, həm də xırda əmtəə istehsalının sıxışdırılması hesabına müntəzəm surətdə genişlənirdi. Dövlət sektoru ilə müqayisədə nəhəng özəl kapitalın təsirinin güclənməsi özünü, xüsusilə, senz tələblərinə cavab verən ("senz" – bir müəssisəni bu və ya başqa siyahıya daxil etmək üçün lazım olan şərtdir) emaledici sənayedə göstərir. Belə ki, 1960-cı ildə böyük özəl müəssisələrdə senz sənayesinin əlavə dəyər istehsalı cəmi 41.6% idisə, 1982-ci ildə bu rəqəm artıq 61.3-ə çatmışdı (488, 1983, s.XXIX). Emaledici özəl senz sənaye müəssisələrinin sayı 1960-1982-ci illər ərzində 77%-ə çatmış, belə müəssisələrdən birində çalışanların sayı isə, demək olar ki, 2 dəfə artmışdır: 32 nəfərdən 61 nəfərə çatmışdır (Türkiye istatistik çep yıllığı, 1983, s.XXXIX). Açıq-aydın görünür ki, bu orta rəqəmlərin arxasında özəl müəssisələrin kəskin təbəqələşməsi durur. Belə ki, hələ 1970-ci ildə özəl sektorun 67% senz sənaye hasilatı hər birində 200 nəfərdən artıq işçi çalışan müəssisələrdə əldə edilirdi. Bu cür müəssisələr bütün özəl senz sənaye müəssisələrinin 1/10-ni təşkil edirdi. 1000-dən artıq insanın çalışdığı müəssisələr isə həmin il özəl sektorun senz sənaye hasilatının 1/3-ni vermişdi (Özgür Ö. Sanayileşme ve Türkiye. İstanbul, 1963, s. 208). Bütün bunların xırda əmtəə sisteminin bərk sıxışdırılması və dağılması ilə müşayiət olunduğu aşkardır.

Cədvəl 3

Türkiyənin emaledici sənayesində dövlət və özəl sektorun əlavə dəyər istehsalındakı payı, yekuna nisb. % -lə

İllər	Sektorlar			Kəndli əməyi
	dövlət	özəl		
		iri	Xırda	
1950	47.6	28.7	19.3	4.4
1960	42.2	35.3	20.4	2.1
1963-1967	35.8	41.6	21.4	1.2
1968-1972	36.8	43.8	18.6	0.8
1972-1977	31.4	48.4	19.8	0.4

(Экономическое развитие современной Турции//Сб. стат. М. 1983, s.53; Saybasılı K. Türkiye'de özel (teşebbüs ve ekonomi politikası// ODTÜ Gelişme dergisi. 1976. N 3, s.32)-yə əsasən tərtib olunmuşdur.

Özəl iqtisadi vahidlərin sürətləndirilmiş təbəqələşmə prosesi, onların yüksələn xətt üzrə irililəşdirilməsi keçid və ənənəvi istehsal və satış formalarının çoxmilyonlu nümayəndəsinin yoxa çıxması mənasını vermir. Belə ki, 1975-ci ilin siyahıya alınmasına görə, "müstəqil sahibkarlar" və "ailəli işçilər" iqtisadi cəhətdən fəal əhalinin 71%-ni təşkil edirdi (172a - Турция: история и экономика//Сб. стат. М. 1978, s.27). Türkiyənin Dövlət Planlaşdırma Təşkilatı 1973-cü ildə bütün türk ailələrin 52.3%-ni ÜMM-in yalnız 32.9%-ni yaradan "xırda istehsalçılar" cərgəsinə aid edirdi (Türkiye Cumhuriyet Merkez Brankarı//Yıllık Rapor 1978. Ankara. 1978. 22 dekabr, s.15). Məşhur Türkiyəli alim O.Özgür Türkiyə, AFR və Niderlandın emaledici sənayesində xırda istehsalın roluna dair müqayisəli təhlil aparmışdır. Onun verdiyi məlumatlara görə, 70-ci illərin əvvəllərində Türkiyənin emaledici sənayesində xırda sənaye müəssisələri bütün müəssisələrin 97.4%-ni təşkil etdiyi və bu sahəyə aid məhsulların 16.3%-ni istehsal etdiyi bir vaxtda AFR-də bu növ müəssisələr kəmiyyətcə 13%, Niderlandda 10% təşkil edirdi (331, s.213).

Beləliklə, ilkin maddi istehsal vahidlərində və payına daha az milli məhsul düşən xırda keçid və ənənəvi xidmət sahələrində kəmiyyət üstünlüyü ölkənin maliyyə bazasının mühüm məhdudlaşdırıcısı olaraq qalır.

Ölkənin maliyyə-iqtisadi potensialını səciyyələndirən ümumi göstərici ümumi milli məhsul və xüsusilə də onun adambaşına düşmə səviyyəsidir. Respublikanın mövcudiyyəti dövründə bu göstəricilərin dinamikası cədvəl 4-də göstərilmişdir.

Cədvəl 4

1923-1989-cu illərdə ÜMM-in dinamikası, milyard lirə

İl	ÜMM, milyard lirə		Adambaşına düşən ÜMM, lirə		Adambaşına düşən ÜMM-in indeksi 1968-ci ilin dəyişməz qiymətləri ilə (1968=100)
	Cari qiymət-lərlə	1968-ci ilin dəyişməz qiymətləri ilə	Cari qiymət-lərlə	1968-ci ilin dəyişməz qiymətləri ilə	
1923	1.0	11.4	76	912.0	27.7
1925	1.5	14.7	117	1131	33.8
1930	1.6	21.3	109	1472	43.9
1935	1.3	23.0	82	1431	42.7
1940	2.4	23.7	136	1901	56.7
1945	5.5	23.1	289	1222	36.5
1950	9.7	38.5	466	1850	55.2
1955	19.1	56.6	801	2374	70.9
1960	46.7	70.7	1691	2576	76.9
1965	76.7	90.4	2463	2901	86.6
1968	112.5	112.5	3350	3350	100.0
1970	147.8	125.4	4184	3551	106.0
1975	535.8	181.4	13373	4532	135.3
1980	4432.6	206.1	99749	4638	138.4
1989	170679.	316.4	307304	5694	170.0

(TÜSİAD. 1982 yılına girerken türk ekonomisi. Ankara. 1982, s.5; 282, s.10 12, 17; 1990, s.7, 9, 11) - ə əsasən tərtib olunmuşdur.

Cədvəl 4-dəki məlumatlar siyasi müstəqilliyin qazanılmasının ölkənin iqtisadi inkişafının sürətləndirilməsində vacib amil olduğunu sübut edir. Təkcə II Dünya müharibəsindən sonra ÜMM-in fiziki həcminin sabit qiymətlərlə 13.7 dəfə, adambaşına düşən saya görə isə 4.7 dəfə artması maliyyə bazasının yetərincə genişlənməsindən xəbər verir.

Türkiyənin sosial-iqtisadi inkişafı 80-ci illərdə yeni stimul əldə etdi. Həmin illərdə ölkə ixracatla bağlı sahələrin inkişafında xüsusi böyük nailiyyətlər əldə etdi. Bunun nəticəsi olaraq, valyuta daxilolma mənbələri əhəmiyyətli dərəcədə genişləndi. Onun ixracatı qısa müddət ərzində, yəni 1980-1988-ci illərdə 2.9 milyard dollardan 11.6 milyard dollara qədər artdı. 1980-ci ildə Türkiyə ixracatının fiziki həcmi (dollarla) 100 idisə, bu göstərici 1988-ci ildə 400 olmuşdur. Statistik materiallar əsasında hazırlanmış hesabatlar göstərir ki, Türkiyə analoji orta göstəricilərə görə, inkişaf etmiş kapitalist ölkələrini (137 bal), Qərbi Avropa ölkələrini (123 bal), ümumilikdə inkişaf etməkdə olan ölkələri (123 bal) və hətta, Cənubi Koreya, Sinqapur, Honkonq kimi yeni sənayeləşmiş ölkələri (ümumi götürdükdə) (256 bal) əhəmiyyətli dərəcədə ötüb keçmişdir. Nəticədə, inkişaf etməkdə olan dünyanın ixracatında Türkiyənin payı 1988-ci ildə 2.27%-ə qalxmışdır. Bu göstərici 1980-ci ildə 0.52% idi (Bulutoğlu K. Bunalım ve çıkış. Ankara. 1980, 1989, s.53-55). Türkiyənin ixracat sistemində mühüm dəyişikliklər baş verdi. Müvafiq olaraq ölkə ixracatının ənənəvi malları olan aqrar sektor məhsullarını sıxışdırmaqla sənaye hasilatının payı 80%-ə çatdı. Milli pul vahidi konversiya edilmiş oldu.

Cədvəl 5

Türkiyə və digər ölkələrin əsas göstəricilərinin orta illik artım tempi, %

		Türkiyə	Aşağı gəlirli ölkələr	Orta gəlirli ölkələr	Sənaye baxımdan inkişaf etmiş kapitalist ölkələri
ÜDM	1960-1970	6.0	4.5	6.1	5.1
	1970-1979	6.6	4.7	5.5	3.2
Sənaye	1960-1970	9.6	6.6	7.4	6.2
	1970-1979	7.9	4.2	6.5	3.2
Emaledici sənaye	1960-1970	10.9	6.5	7.0	6.2
	1970-1979	7.7	3.7	6.6	3.0
Kənd təsərrüfatı	1960-1970	2.5	2.5	3.6	1.3
	1970-1979	3.7	2.0	3.0	0.9
Xidmət sahəsi	1960-1970	6.9	3.8	5.5	4.8
	1970-1979	7.5	4.5	6.0	3.4

(World Development Report 1981. The World Bank. Washington. D. C. August. 1981, s.136)-ya əsasən tərtib olunmuşdur.

Türkiyənin maliyyə-iqtisadi potensialı barədə tam təsəvvür olsun deyə onun tipoloji xarakteristikası üzərində qısa da olsa, dayanmağı məqsədəuyğun hesab edirik (196a). Böyük təbii imkanlara malik olan bu ölkə özünün əsas iqtisadi artım göstəricilərinə görə son onillikdə ümumilikdə kapitalist dünyasının hər üç qrupa daxil olan ölkələrinin (adambaşına aşağı və orta gəlirin düşdüyü ölkələri və hətta cədvəl 5-dən göründüyü kimi, sənaye baxımdan inkişaf etmiş kapitalist dövlətlərini) orta göstəricilərini ötüb keçmişdir.

1950-1980-ci illərdə Türkiyədə ÜDM-in artım indeksi 559 bal olduğu halda, bu göstərici inkişaf etmiş kapitalist ölkələrində 327, inkişaf etməkdə olan ölkələrdə 482, orta inkişaf səviyyəsinə malik kapitalist dövlətlərində 549 bal idi (Болотин Б.М., Шейнис В.Л. Экономика развивающихся странв цифрах: Опыт справочно-статистического исследования. 1950-1985, M. 1988, s.401-408).

70-ci illərin sonu, 80-ci illərin başlanğıcında maliyyə-iqtisadi böhrana baxmayaraq, analoji tendensiya ümumilikdə 80-ci illərdə də müşahidə olunurdu.

Türkiyə olduqca qısa tarixi dövr ərzində artım tempinin sürətləndirilməsi nəticəsində sosial-iqtisadi inkişaf səviyyəsinə görə Asiya və Afrikanın bir çox inkişaf etməkdə olan ölkələrini nəzərə çarpacaq dərəcədə ötüb keçərək şərti qəbul edilmiş "kapitalizmin orta inkişaf səviyyəsinə malik" ölkələr kateqoriyasına yaxınlaşmışdır.

İnkişaf etməkdə olan dünyada Türkiyənin mövqeyinin dəyişdiyini aşağıdakı məlumatlardan görmək olar (Болотин Б.М., Шейнис В.Л. Экономика развивающихся странв цифрах: Опыт справочно-статистического исследования. 1950-1985, M.1988, s. 353-358):

	1950	1960	1970	1975	1980
Türkiyədə adambaşına düşən ÜDM-in orta göstəricilərə nisbəti (valyuta alıcılığı qabiliyyəti paritetinə uyğun olaraq 1975-ci ilin daimi qiymətləri ilə):					
ümumilikdə inkişaf etməkdə olan dünyaya görə	140	161	169	177	188
kapitalizmin orta inkişaf etdiyi ölkələrə görə (14 ölkə)	65	75	75	54	82
daha az inkişaf etmiş ölkələrə görə (34 ölkə)	203	290	341	425	494

Verilən məlumatlar sübut edir ki, 1980-ci ildəki müqayisəli qiymətlərlə Türkiyədə adambaşına düşən milli gəlir analoji göstəricilərə görə, kapitalizmin orta inkişaf səviyyəsinə malik ölkələrdən geri qaldığı halda, bütün inkişaf etməkdə olan ölkələri az qala iki dəfə, daha az inkişaf etmiş ölkələri isə 5 dəfə ötüb keçmişdi.Həmçinin nəzərə almaq lazımdır ki, Türkiyədə 80-ci illərin I yarısında milli gəlirin adambaşına düşən həcmi dollarla hesablandıqda aşağı düşmüş və 70-ci illərin sonuna aid səviyyəyə yalnız 1988-1989-cu illərdə çatmaq mümkün olmuşdu.

Türkiyə bir çox başqa iqtisadi göstəricilərə görə kapitalizmin orta inkişaf səviyyəsinə malik ölkələrə çata bilir. Cədvəl 6-dakı məlumatlar buna sübut kimi göstərilə bilər.

Cədvəl 6

Türkiyə və kapitalizmin orta inkişaf səviyyəsinə malik ölkələrin sektor strukturu, % (World Development Report 1981. The World Bank. Washington. D. C. August. 1981, s.138-139; Türkiye istatistik yıllığı, 1985, s.43; İktisadi rapor. Ankara, 1990, s.10).

	Adambaşına orta gəlirin düşdüyü ölkələr		Türkiyə		1985-1989-cu illərdə orta hesabla
	İllər				
	1960	1979	1960	1979	
Kənd təsərrüfatı	22	14	41	23	21
Sənaye	30	38	21	292	26
Xidmət sahəsi	47	48	38	48	53

Göstərilən məlumatlar Türkiyənin milli gəlirində sənayenin payının kapitalizmin orta inkişaf səviyyəsinə malik ölkələrin analoji göstəricisindən geri qaldığını xəbər verir. Türkiyənin sosial-iqtisadi inkişafın səviyyəsi baxımdan inkişaf etməkdə olan və kapitalizmin orta inkişaf səviyyəsinə malik olan çoxsaylı ölkələrin arasında aralıq və Afrika-Asiya dünyasında rəhbər mövqelərdən birini tutması barədə sovet alimlərinin gəldiyi qənaət çox ədalətlidir (Экономическое развитие современной Турции//Сб. стат. М. 1983, s.17). P.P.Moiseyev qeyd edirdi: "Türkiyə bir sıra göstəricilərə görə, orta inkişaf səviyyəli kapitalist ölkələrinə çataraq inkişaf etməkdə olan ölkələr qrupuna da mənsub olmaqda davam edirdi. Belə ki, onu bu ölkələrlə bir sıra vacib cəhətlər birləşdirirdi. Bunlara kifayət qədər sabit çoxsistemlilik (əsas

sistemlər: dövlət-kapitalist, özəl kapitalist, xırda əmtəə və maddi-patriarxal) və xüsusilə, kənd təsərrüfatında kapitalizmə qədərki quruluşların çoxsaylı qalıqlarının mövcudluğu aid idi...” (Проблемы экономики и истории стран Ближнего и Среднего Востока. M. 1966, s.19). Türkiyədə adambaşına düşən milli gəliri inkişaf etmiş kapitalist ölkələrinin analoji göstəricisi ilə müqayisə etsək, onun kapitalist dünyasındakı mövqeyi daha da aydınlaşar. Beləliklə, ABŞ, Almaniya və Yaponiyada adambaşına düşən milli gəlirə münasibətdə o, müvafiq olaraq 1950-ci ildə 6.8%, 20%, və 57.8%, 1979-cu ildə isə 12.5%, 11.3% və 15% təşkil edirdi (Мировая экономика и международные отношения, 1979, №5, s.147-157; World Development Report 1981.The World Bank. Washington.D.C.August.1981,s.134-135).Türkiyədə adambaşına düşən ÜDM isə Qərbi Avropa ölkələrinin analoji orta göstəricisinə münasibətdə 1980-ci ildə 13%-ə qədər düşmüşdür. Bu göstərici 1950-ci ildə 19% idi (Болотин Б.М., Шейнис В.Л. Экономика развивающихся странв цифрах: Опыт справочно-статистического исследования. 1950-1985, M.1988, s.326, 366, 384).

Verilmiş məlumatların təhlilinin paradoksal mənzərə yaratdığının şahidi oluruq: son 30-40 il ərzində Türkiyənin sənaye cəhətdən inkişaf etmiş kapitalist ölkələrinin orta göstəricilərini ötüb keçmiş yüksək iqtisadi artım tempinə nail olmasına baxmayaraq, adambaşına düşən gəlirin səviyyəsi ilə bağlı bu ölkələrlə olan uyğunsuzluğun aradan qaldırılması sahəsində o, mahiyyət etibarı ilə irəliləyə bilməmişdi. Əksinə, daha dinamik inkişafı təmin edən Yaponiya və Almaniya kimi ölkələrlə müqayisədə bu uyğunsuzluq daha da böyüyürdü. Aydındır ki, bu cür şəraitin yaranması dünya kapitalist təsərrüfatı sistemində Türkiyənin asılı vəziyyətinin qorunub saxlanması və onunla qeyri-bərabər hüquqlu xarici iqtisadi münasibətlərin mövcudluğu ilə əlaqədardır. İmperialist dövlətlərin yeni mürəkkəb müstəmləkə siyasəti onlara nəinki Türkiyəni öz nüfuz dairələri altında saxlamağa imkan verir, eyni zamanda yeni yaradılmış dəyərin hiss olunan payını zorla qəsb etməyə və türk xalqının gücləndirilmiş istismarında yerli burjuaziya ilə əməkdaşlıq çərçivəsində ən fəal şəkildə iştiraka icazə verir. Bununla yanaşı, xarici amillər Türkiyə Respublikasının maliyyə-iqtisadi potensialının səviyyə və dinamikasına təkmilləşdirilmiş formada əhəmiyyətli təsir göstərməkdə davam edir.

8.2. Türkiyədə vergi sisteminin əsas inkişaf mərhələləri

Д.Велиев.Государственные финансы и социально-экономическое развитие Турции. Баку, "Елм", 1991.

Ənənəvi feodal vergi strukturunun dağılması və Türkiyə cəmiyyətinin sosial-iqtisadi təkamülünün əsas istiqamətləri ilə müəyyən olunan keyfiyyətcə yeni fiskal sistemin təşəkkülünün mürəkkəb prosesi öz inkişafında kapitalizmin və ölkənin ictimai həyatının inkişaf mərhələlərinə müvafiq olaraq üç ardıcıl mərhələ keçib. Birinci mərhələ "Nizmi-Cadid" islahatlarından (18-19-cü əsrlər) 1919-1922-ci il milli Azadlıq Hərəkatına qədər, ikinci mərhələ 1923-cü ildən 1950-ci ilə qədər, üçüncü isə 50-ci illərin əvvəlindən, yəni müasir gəlir vergitutma sisteminin tətbiqindən sonrakı dövrü əhatə edir.

Birinci mərhələ bütövlükdə iqtisadiyyatın, xüsusən maliyyə aparatının xarici inhisarçı kapitala tabe olduğu şəraitdə həyata keçirdi; onu yeni vergi quruluşuna keçidin hazırlıq mərhələsi kimi xarakterizə etmək olar. Bu mərhələdə ənənəvi vergilərdən imtina və yenilərin daxil olma prosesi, köhnəlmiş, lakin hələ ki hakimiyyətdə qalan siniflərin və sosial təbəqələrin, həmçinin xarici kapitalın sərt müqavimətinə görə çox ləng gedirdi.

İkinci mərhələ birincidən fərqli olaraq milli Azadlıq Hərəkatının qələbəsi təmin olunduğu və xarici kapitalın şəriksiz hökmranlığının təməllərinin dağıldığı tamamilə fərqli şəraitdə həyata keçirdi. Bu mərhələ Respublika Türkiyəyə hakim dairələrinin əsrlər boyu formalaşan ənənəvi vergitutma sisteminin yuxarıdan ləğv edilməsi üzrə məqsədyönlü və davamlı hərəkətləri, yeni vergilərin təməlini qoymaq cəhdləri, bu vergilərin zəif inkişaf etmiş Türkiyə iqtisadiyyatının şəraitlərinə uyğunlaşma yollarının axtarışı ilə xarakterizə olunur. Bu mərhələyə xas olan xüsusiyyət ondan ibarətdir ki, dövlətin aparıcı iqtisadi rol oynamağa çalışdığı ölkənin iqtisadi dirçəlməsi sahəsində olan zəruri vəzifələr qısa müddət ərzində dövlət gəlirlərinin əsas mənbəyi olan bütün vergi sisteminin yenidən qurulması ilə yanaşı, eyni zamanda bu gəlirləri əhəmiyyətli dərəcədə artırmağı tələb edirdi.

İkinci dünya müharibəsinin olduqca ağır şəraiti vergi sisteminin inkişafının üçüncü mərhələyə keçidi əhəmiyyətli dərəcədə sürətləndirmişdir. Respublika rejiminin mövcud olduğu 20 il ərzində sosial-iqtisadi həyat müəyyən dərəcədə irəliləmişdi; kapitalist istehsal münasibətləri inkişaf etmiş, Türkiyə cəmiyyətinin sinfi təbəqələşmə prosesi sürətlənmiş, siyasi səhnədə sinfi qüvvələrinin nisbəti əhəmiyyətli dərəcədə dəyişmiş, milli burjuaziyanın siyasi və iqtisadi mövqeyi əhəmiyyətli dərəcədə güclənmişdir. Kapitalist istehsal münasibətlərinin inkişafı bütün iqtisadi institutların, o cümlədən fiskal mexanizmlərin milli burjuaziyanın ehtiyaclarına daha çox uyğunlaşmasını tələb etmişdir.

Müharibə illərində həyata keçirilən vergi siyasəti kapitalın ticarət və bank burjuaziyasının əllərində cəmlənməsi prosesinin sürətlənməsində mühüm rol oynamışdır. Bu siyasət yalnız qəddarlıqla deyil, həmçinin vergi proseduru sistemində qarmaqarışıqlığın yaranması ilə fərqlənirdi. Fiskal sistemin həddən artıq gərginliyi şəraitində vergi mexanizminin təkmilləşdirilməsi problemi arxa plana keçmişdi, eyni qanuna dəfələrlə edilən əlavələr və dəyişikliklər respublikanın ilk illərində yaradılmış vergi sistemini həddən artıq mürəkkəbləşdirmişdir, daha dəqiq desək qarışdırmışdır. Türkiyə dövlətinin respublika illərində vergi aparatını təkmilləşdirmək cəhdlərinə baxmayaraq, vergi qoymanın əsas üsulu kimi vergi məbləğinin vergi obyektinin xarici əlamətləri əsasında tutulması üsulu qalmaqda idi, yəni dövlət yalnız kəmiyyət məsələləri əsas tuturdu. Bu, vergi sisteminin sinfi olması ilə yanaşı vergi sistemininin elastikliyini azaldırdı, yəni istehsal həcminin artması avtomatik olaraq vergi daxil olmalarının artımına gətirib çıxarmırdı. Vergi sistemi üçün dağıdıcı olan inflyasiyanın təsirini aradan qaldırmaq zəruriliyi getdikcə daha aydın olurdu. Baxmayaraq ki, əmlak, əkinçilik məhsulları və ixraca qoyulan vergilər hələ müharibə illərində ləğv olunmuşdur, əsaslı vergi islahatları həyata keçirmək ehtiyacı son dərəcədə hiss olunurdu.

Hələ müharibə illərində bütün maliyyə çətinliklərinin səbəbi kimi "müasir" gəlir vergisi sisteminin olmaması hesab olunmağa başladı. Maliyyə nazirliyi bu sistemə 1944-cü ildə keçmək üçün hazırlıq işləri görməyə başladı (Tezel Y.S. Cumhuriyet döneminin iktisadi tarihi (1923-1950). Ankara,1982, səh. 391).Uzun debatlardan sonra Milli Məclis 1949-cü ildə vergi siyasəti sahəsində bir neçə qanunverici aktları qəbul etdi.1949-cü ilin iyun ayında təsdiq olunmuş "Vergiqoyma üsulları" haqqında 5432 №-li qanun vergi hüququna və ümumiyyətlə, vergi məsələlərinin idarə edilməsi təcrübəsinə çoxlu dəyişikliklər etdi. Gəlir vergisinin mövcud olmuş dörd formasının yerinə yeni vergilər daxil olunurdu – gəlir vergisi (3 iyun 1949-cü il tarixli 5421 №-li qanun), korporativ vergi (3 iyun 1949-cü il tarixli 5422 №-li qanun) və sənətkarlıq vergisi (3 iyun 1949-cü il tarixli 5423 №-li qanun). Dolayı vergilərə gəldikdə, burada prinsipial dəyişikliklər yalnız 1957-ci ildə qəbul edilmiş və sövdələşmə vergisi digər dolayı vergi olan istehsala olan vergi ilə əvəzlənmişdir.

Vergi tədbirləri həyata keçirildiyi zaman həm Qərbin çoxəsrlik təcrübəsindən, həm də müstəqil inkişaf illəri ərzindəəldə edilmiş öz təcrübəsindən geniş istifadə olunub. Bu böyük əməliyyatdan 10 il sonra 1960-cı il hərbi çevrilişin rəhbərləri tərəfindən yaradılmış xüsusi vergi komissiyası bu əməliyyatı "ölkənin maliyyə tarixində dönüş nöqtəsi olmuş böyük vergi islahatı" adlandırmışdır (Gelir vergisi kanunu. Ankara, 1965, s. 13).

Adı çəkilmiş islahat, həqiqətən də o dövrə qədər ölkənin fiskal sistemində böyük rol oynayan birbaşa vergiqoyma prinsipləri və metodlarında

əhəmiyyətli dəyişikliklərlə xarakterizə olunurdu. Eyni zamanda hakim dairələrin bu tədbiri, şübhəsiz, vergiqoymanı təkmilləşdirsə də, nəinki vergi ədalətini təmin edə bilməmiş, hətta fiskal baxımından da ümidləri doğrultmamışdır. Tətbiq edilmiş gəlir vergisi sisteminin çoxlu çatışmazlıqları var idi. Vergi əvvəllər olduğu kimi Türkiyə iqtisadiyyatının əsas sahəsi olan kənd təsərrüfatına şamil edilmirdi. Vergi hüququ imtiyazlı təbəqələrin, gəlirləri vergiyə cəlb olunduğu zaman qanuni və qanunsuz fəndlərin qarşısını ala bilmirdi. Bunun nəticəsində birbaşa və dolayı vergilər arasındakı nisbət axırıncıların xeyrinə dəyişərək 1957-ci ildə 31%-ə çatmışdır (1950-ci ildə 28% olmuşdur). Demokratik partiyanın dolayı vergilər sahəsində tədbirləri (1957 il) də uğurlu hesab etmək olmaz, çünki onlar vergiqoyma texnikasında bir addım geridə idi. 1957-1958-ci il maliyyə-iqtisadi böhranı milli vergi sisteminin təməlini daha da sarsıtmışdır. Hökümətin bütün cəhdlərinə baxmayaraq, vergilərin ÜDM-də payı hətta azalırdı və 1960-cı ildə 12,7% təşkil etmişdir (1950 ildə 13,8% idi) (Arsan U.Vergi yükü üzerinde bir inceleme. Ankara,1968, s.136).

Vergi islahatları zəruriliyi 1960-cı il hərbi çevrilişindən sonra yenidən gündəmə gəlmişdir.

Milli Birlik Komitəsi (MBK) ölkədə ədalətsizliyə və inflyasiya və vergi yükünün Türkiyə cəmiyyəti üzvləri arasında həddən artıq qeyri-bərabərliyinə qarşı kütləvi etirazların təsiri altında vergi sisteminin yenidən qurulmasına başladı. 1960-ci ilin sonunda, yəni çevrilişdən yarım il sonra "Vergiqoyma metodları haqqında" 213 №-li qanun və "Gəlir vergisi haqqında" 193 №-li qanun kimi vacib qanunlar qəbul edilmişdir. Cəmi 10 il əvvəl qəbul edilmiş əvvəlki anoloji qanunların mətnləri tamamilə yenidən işlənmişdir. Həmin ildə 192 №-li qanunla koorparasiya haqqında vergi qanununa əhəmiyyətli dəyişik-liklər qəbul edildi. Müvafiq əmsalların qəbul edilməsi vasitəsilə həmçinin tikinti vergisi və torpaq vergisi də müəyyən dərəcədə tənzimlənmişdir. Bu, əvvəl qəbul olunmuş vergiqoyma prinsipləri və metodlarına uyğun həyata keçirilən tədbirlərin aşağıdakı vəzifələri var idi: birincisi, vergi daxil olmalarının artırılması və ikincisi, qismən də olsa, yeni Konstitusiyada elan edilmiş "sosial ədalət"in təmin edilməsi rəsmi strategiyasından irəli gələn qeyri-bərabər vergi yükünün müxtəlif siniflər və sosial təbəqələr arasında yenidən bölüşdürülməsi. Qoyulmuş məqsədlərə nail olmaq məqsədilə, bir tərəfdən birbaşa vergilərdən azad olunmuş sosial qrupları (məsələn, kənd istehsalçıları, sənətkarlar və s.) vergitutmaya cəlb etmək, digər tərəfdən iri kapital nümayəndələrin vergidən kütləvi yayınmalarının, qismən də olsa, qarşısını almaq cəhdləri görülürdü. Baxmayaraq ki, aydın görünürdü ki, bu tədbirlər ilk öncə vergitutmanın kütləviliyini gücləndirir, bu, müəyyən dərəcədə varlı təbəqələrin də maraqlarına toxunmuşdur. Hətta yeni vergi qanunvericiliyinin tətbiqi zamanı MBK tərəfindən tələsiklik görünürdü, bu da

çoxlu sayda texniki xarakterli qüsurların mövcud olmasında özünü büruzə vermişdir. Nəticədə ölkədə vergi tədbirlərinə qarşı geniş kampaniya başladı (Bulutoğlu K.Türk vergi sistemi. İstanbul, 1976, s.58).Tənqidə cavab olaraq və ümumiyyətlə, həyata keçirilən vergi siyasətinin düzəldilməsi üçün MBK 1961-ci ildə maliyyə nazirliyi, özəl sektor, Ankara və İstanbul Universitetlərinin nümayəndələrindən ibarət olan xüsusi komissiya yaratdı.Komissiyanın işində həmçinin Qərb ölkələrindən üç mütəxəssis – iki alman və bir ingilis alimi iştirak edirdi (Egesoy M.Vergi reformları (1960-1965). Ankara,1965, s.14).Bu komissiyanın, sonradan maliyyə nazirliyi tərəfindən dörd cilddə dərc olunmuş təklif və tövsiyələri ilk öncə vergilərin tənzimləyici rolunun genişləndirilməsini, kapital yığımının dəstəklənməsi və onun investisiyaya yönəldilməsi üçün əlverişli şəraitin yaradılmasını nəzərdə tuturdu. Bundan başqa, komissiya aqrar sektoru vergi ödəyiciləri dairəsinin daraldılmasını təklif etmişdir (Bulutoğlu K.Türk vergi sistemi. İstanbul,1976, s.58-59). İri kapitalın müqaviməti nəticəsiz olmadı;bir sıra burjua radikallarının MBK-dən kənarlaşdırılmasından sonra qanunla təsbit edilmiş yeni vergi dərəcələri əhəmiyyətli dərəcədə özəl kapitalın xeyrinə "yumşalmışdı".

Bununla belə vergi dəyişikliklərinin tətbiqindən bəri Türkiyə hökümətinin iqisadi inkişafın sürətləndirilməsinə yönəlmiş kursu birbaşa olaraq vergi problemləri ilə əlaqəli idi.Birinci beşillik planın strategiyasında (1963-1967) açıq qeyd edilirdi ki, "vergilər dövlət yığımlarının artmasının əsas alətidir" (Birinci beş yıllık kalkınma planı (1963-1967). Ankara, 1969, s. 526).

Siyasi və elmi dairələrin fikri daha çox vergi sisteminin mövcud çatışmazlıqlarında cəmləşirdi. Maliyyə nazirliyinin məsuliyyətli işçisi M.Eyesoy həmin illərdə qeyd edirdi ki, "Vergi sistemi öz iqtisadi və sosial funksiyasını yerinə yetirmək iqtidarında deyil. Vergiqoymada olan müxtəlif güzəşt və imtiyazlar yığımdan çox istehlakı təşviq edir, sahibkarlığın inkişafına və əmək məhsuldarlığının artmasına maneçilik törədir" (Egesoy M. Vergi reformları (1960-1965). Ankara, 1965, s.11).Məhz buna görə vergi problemləri beşillik planlar çərçivəsində həyata keçirilən iqtisadi tədbirlərin mərkəzində dururdu.

Baxılan dövrdə vergi siyasətini üçəsas amil müəyyən edirdi. Birincisi, ölkənin sosial-iqtisadi həyatında dövlətin rolunun əhəmiyyətli dərəcədə artması; dövlət nəinki əsas investor oldu, hətta sosial-iqtisadi proseslərə olan öz məqsədyönlü təsirini gücləndirdi.İkincisi, ölkənin sənayeləşməsinin sürətlənməsinə yönəlmiş kurs. Bu proses çox böyük maliyyə vəsaitləri tələb edirdi, bu da əsasən fiskal mexanizm vasitəsilə təmin olunurdu və vergi strukturunda radikal dəyişikliklərin zəruriliyini diktə edirdi. Xarici inhisarçı kapital ilə sıx əlaqədə olan sənaye kapitalının iqtisadi və siyasi mövqelərinin gücləndirilməsi sosial-iqtisadi həyatda, xüsusən, həyata keçirilən vergi siyasətində daha dərin iz qoymaqda idi. Həyata keçirilən vergi siyasətinə təsir

edən üçüncü önəmli amil ticarət-sənaye kaptalının qərb iqtisadiyyatları ilə daha sıx inteqrasiya etmək və bununla onların bazarına daha geniş çıxış əldə etmək cəhdləri idi. Hakim dairələrinin "Ümumi bazar" ölkələri ilə yaxınlaşmaq sahəsində praktiki addımları nəticəsiz olmadı. 1963-cü ilin sentyabr ayında imzalanmış və 1964-cü il 1 dekabrdan qüvvəyə minmiş Ankara sazişi Türkiyənin AİB-ə üç mərhələdə birləşməsini nəzərdə tuturdu: hazırlıq (5 il müddətində), keçid (12 il) və son mərhələ. Türkiyənin AİB-ə üzv olması barədə müqaviləyə əsasən o, hazırlıq mərhələsi dövründə və sonrakı illərdə bu təşkilatda üzvlükdən çıxan vəzifələri yerinə yetirmək üçün öz iqtisadiyyatı AİB-in köməyi ilə gücləndirmək öhdəliyi götürdü. Başqa sözlə, müqavilə Türkiyənin AİB ölkələri ilə rəqabət aparmaq üçün özünün hazırlamasını nəzərdə tuturdu. Keçid dövrünün sonuna (1995-ci ilə) Türkiyə AİB ilə gömrük birliyi yaratmalı idi, yəni bütün idxal və ixrac rüsumları və digər ticarət məhdudiyyətləri qarşılıqlı şəkildə ləğv olunmalı idi. Həm də nəzərə almaq lazımdır ki, Türkiyənin AİB qarşısında olan vergi siyasəti sahəsində öhdəlikləri yalnız gömrük rüsumları ilə məhdudlaşmırdı. Məsələ ondadır ki, AİB-nin yaradılması haqqında 1957-ci il Roma müqaviləsi üzv ölkələrinin iqtisadi, o cümlədən vergi siyasətinin bir çox cəhətlərini nizamlayırdı. "Ümumi iqtisadi birliyin" yaradılmasını nəzərdə tutan həmin müqavilədə üzv ölkələrinə çoxlu sayda vergi prinsipləri tələb qoyulurdu. Məsələn, 95-ci maddəyə əsasən bütün üzv ölkələrində xarici əmtəə və xidmətlər milli əmtəə və xidmət ilə eyni prinsiplə vergiyə cəlb olunmalıdır. Digər maddə (99-cü) üzv ölkələrindən birbaşa və dolayı vergilər strukturunda, o cümlədən onların nisbətində, "Ümumi bazar"-ın qarşısında duran ümumi vəzifəyə müvafiq olaraq ahəngin yaradılmasını tələb edir (Türk İ. Müşterek pazarın maliye ve sosyal politikaları karşısında Türkiye. Ankara Üniversitesi Siyasal Bilgiler Fakültesi Dergisi.1965, N 3. Cilt 20, s. 1-19). Bütün bunlar aydın şəkildə onu göstərirdi ki, Türkiyə təşkilata üzv olandan sonra öz vergi siyasətinə yenidən baxmalı, vergilərin strukturunda müvafiq dəyişikliklər etməli idi. Türkiyənin "Ümumi bazar"-ın tam hüquqlu üzvü olmaq səyləri, şübhəsiz, aparılan vergi siyasətinə təsir edirdi. Düzdür, müəyyən vaxt keçəndən sonra ziddiyətlərə görə bir çox öhdəliklərin həm AİB ölkələri, həm də Türkiyə tərəfindən yerinə yetirilməsi dayandırılmışdır.

1960-1962-ci illərdə həyata keçirilən iri vergi tədbirləri, iri kapitalın tələbi ilə edilmiş müvafiq düzəlişlərlə 1963-cü ildən sonra birinci beşillik plan həyata keçirildiyi zaman da davam edirdi. Bununla belə dövlətin maliyyə vəsaitinə olan artan tələbatının ödənilməsi, ilk növbədə, bir sıra dolayı vergilərə (neft məhsulları və bəzi istehlak mallarına gömrük rüsumları) əlavə əmsalların tətbiqi hesabına nəzərdə tutulurdu. Yeni dolayı vergilər (xarici səfərlər zamanı istehlaka vergi, idxaldan əlavə və gerb rüsumu) tədbiq edilir, köhnələr yenidən təşkil edilirdi.Yeni birbaşa vergilərdən mühərrikli quru

nəqliyyat vasitələrinə vergini qeyd etmək olar. Ümumiyyətlə, altı il ərzində (1960-1965) Türkiyə hökuməti tərəfindən vergi qoyma sahəsində növbəti illərdə vergi siyasətinin bir çox cəhətlərini müəyyən edən 40-a yaxın qanunverici akt qəbul edilmişdir. Hökümətin baxılan dövrdə vergi siyasəti sahəsində nailiyyətləri sırasında gəlir vergisinin aqrar sektora şamil edilməsini qeyd etmək olar. Lakin bu tədbir sonradan gördüyümüz kimi məhdud xarakter daşıyırdı.

Ölkənin vergi sistemində əhəmiyyətli kəmiyyət dəyişiklikləri ikinci beşillik plan dövründə müşahidə olunurdu (1968-1972).

Prof. K. Bulutoğlunun fikrincə, dəyişikliklər 60-cı illərin əvvəlində vergi sisteminə edilmiş dəyişikliklərdən az deyildi (Bulutoğlu K. Türk vergi sistemi. İstanbul,1976, s. 59). Məhz ikinci beşillik plandan etibarən ilk dəfə olaraq sənayeni iqtisadiyyatın aparıcı sahəsinə çevirmək vəzifəsi qoyulmuşdur. Bu isə bütün sosial-iqtisadi həyatın və xüsusən vergi sisteminin sənayenin inkişafı məqsədlərinə tabe olmasını nəzərdə tuturdu. Həmin dövrdə bunu həyata keçirə bilən real siyasi qüvvə də mövcud idi: hakimiyyətdə yerli iri biznesin, o cümlədən sənayeçilərin maraqlarını təmsil edən Ədalət Partiyası idi.

Bütün səylərə baxmayaraq birinci beşillik planda dövlət yığımı üzrə nəzərdə tutulmuş vəzifələr yerinə yetirilmirdi. Bunun səbəbi kimi vergi sistemində olan ciddi qüsurlar hesab olunurdu. Məhz buna görə ikinci beşillik planın sənədlərində ictimaiyyətin diqqəti yenə də "vergi ədalətinin təmin edilməsi, iqtisadi inkişafı sürətləndirmək üçün zəruri olan yığımların artırılması və mövcud mənbələrin optimal bölüşdürülməsi məqsədilə vergi islahatlarının zəruriliyi"nə yönəlmişdi (Kalkınma planı. İkinci beş yıl.1968-1972. Ankara, 1967, s.108).Dövlət Plan Təşkilatının təklifi ilə qanunverici orqanlar növbəti vergi islahatının üç əsas prinsipini müəyyən etmişdilər (Kalkınma planı. İkinci beş yıl. 1968-1972. Ankara, 1967, c. 108-109):

1. Dövlət sektorunun maliyyə mənbələrinə olan ehtiyacı iqtisadi cəhətdən sağlam və etibarlı vergi gəlirləri ilə təmin edilməlidir. Bu məqsədlə vergi qanunvericiliyində, vergi gəlirlərinin idarəedilməsi sistemində və vergi qurumlarının strukturunda dəyişikliklər nəzərdə tutulurdu. Qanunverici hakimiyyət yeni vergilərin daxil edilməsinin mümkünlüyünü qəbul etmişdi. Bununla belə aydın idi ki, ölkə rəhbərliyinin əsas diqqəti gələcəkdə yeni vergilərin daxil edilməsinin və vergi qanunvericiliyinə dəyişikliklərin edilməsinin zəruriliyinin qarşısını almaq məqsədilə vergi sisteminin elastikliyinin təmin edilməsinə yönələcək. Sol-demokratik hərəkatın durmadan artması şəraitində hakim dairələrinin bu səyləri başa düşülən idi.

2. Vergi aparatının "sosial ədalətin" təmin edilməsi məqsədilə daha geniş istifadəsinin zəruriliyi elan edilirdi. Bununla yanaşı qeyd edilməlidir ki,

vergi və iqtisadi siyasətin bu aspekti məhz Ədalət Partiyasının hakimiyyəti dövründə daha çox qabardılırdı.

3. Vergilərin iqtisadi və tənzimləyici rolunun artmasının zəruriliyi qeyd edilirdi; bu məqsədlə gömrük tariflərinin milli sənaye məhsullarının maya dəyərinə mənfi təsirini aradan qaldırmaq; istehlak vergisi əvəzinə "Ümumi bazar" ölkələrində geniş yayılmış əlavə dəyər vergisinin tətbiq edilməsi üçün hazırlıq işlərini görmək; zinət əşyalarına olan tələbin məhdudlaşdırılması və müvafiq olaraq onların istehsalına qoyulan investisiyaların artırılması üçün bu cür əmtəələrin istehlakına vergilər tətbiq etmək məqsədilə gömrük tariflərinə yenidən baxılması nəzərdə tutulurdu.

İkinci plan müəlliflərinin fikrincə, əvvəlki plan dövründə həyata keçirilən vergi siyasətinin əsas qüsuru ondan ibarət idi ki, əsas diqqət sənaye və ticarətin inkişafını getdikcə daha çox məhdudlaşdıran dolayı vergilərə yönəlirdi. Həqiqətən türk sahibkarları getdikcə daha çox əmin olurdular ki, milli sənaye məhsulları keyfiyyətlə yanaşı, həmçinin müəyyən dərəcədə yüksək dolayı vergilər səbəbindən maya dəyərinə görə də Qərb ölkələrinin məhsulları ilə müqayisədə rəqabət qabiliyyətli deyil. Belə ki, məlumatlara əsasən keçən əsrin 60-cı illərin sonu – 70-ci illərin əvvəlində türk sənaye məhsullarının qiyməti partnyorların qiymətləri ilə müqayisədə 80% yüksək idi. Həmçinin müəyyən edilmişdir ki, bu fərqin az qala yarısı (41%-i) dolayı vergilərin yüksək olması, 28%-i həddən artıq yüksək mənfəət norması və nəhayət 31%-i idxal xammalının həddən artıq bahalığı ilə əlaqədardır. İkinci plan müəliflərinin əsas qorxusu onunla bağlı idi ki, 1967-ci ildə bütün dolayı vergilərin 42%-i xarici ticarət əməliyyatları ilə bağlı idi. "Ümumi bazar" partnyorları ilə rəqabətə sürətli hazırlıq şəraitində onların payının 36%-ə qədər azaldılması nəzərdə tutulurdu, lakin qeyd olunurdu ki, "azalma" dedikdə onların mütləq səviyyəsinin azalması deyil (bu, iqtisadi quruluşun xüsusiyyətinə görə mümkün deyil), istehsal xərclərində onların nisbi səviyyəsinin azalması nəzərdə tutulur.

İkinci plan dövründə qəbul edilmiş vergi yeniliklərinin böyük hissəsi 1970-ci il iyul ayında Milli Məclis tərəfindən qəbul edilmiş "Maliyyələşmə haqqında Qanun" adlı 1318№-li xüsusi qanunda cəmlənmişdir. Bu qanunla aşağıdakılara yeni vergilər tətbiq edilirdi: satışa, nəqliyyat vasitələrinin alınmasına, daşınmaz əmlakın qiymətinin artımına və nəhayət, binaların tikintisinə. Eyni zamanda, bir sıra dolayı və birbaşa vergilərə yenidən baxılmışdır. Həmin ildə qəbul edilmiş 1319 №-li qanun tikililərə və torpaq vergisi yerinə vahid vergi-əmlak vergisini tətbiq etdi, miras və bağışlama vergilərini yenidən təşkil etdi.

Keçən əsrin 70-ci illəri ərzində ölkədə hökm sürən siyasi qeyri-sabitliyi ilə əlaqədar vergi tədbirləri demək olar ki, həyata keçirilmirdi, hərçənd üçüncü (1973-1977) və dördüncü (1978-1983) beşillik planların sənədlərində,

illik hökümət proqramlarında və digər rəsmi sənədlərdə vergi sisteminin çatışmazlıqları və bu sistemə düzəlişlərin edilməsinin zəruriliyi göstərilirdi. Yalnız dolayı və birbaşa vergilərin nisbətinin dəyişməsi siyasəti davam edirdi. Üçüncü planın sənədlərində birbaşa vergilərin orta illik artım templəri 12,5%, dolayı vergilərin isə 10,7% nəzərdə tutulurdu, dördüncü planda isə ilk dəfə olaraq birbaşa vergilərin üstünlüyünün (51%) təmin edilməsi güman edilirdi.

Beləliklə, planlaşdırma illəri ərzində türk cəmiyyətində baş verən dərin sosial-iqtisadi dəyişikliklərlə əlaqədar olaraq və hökümətin məqsədyönlü təsiri nəticəsində ölkənin vergi sistemində çox mühüm kəmiyyət və keyfiyyət dəyişikliklər müşahidə olunurdu. Müəyyən mərhələdə türk hökuməti hətta vergi daxil olmalarının ÜDM ilə müqayisədə daha sürətli artımına nail ola bilmişdi. Yalnız Mərkəzi büdcənin vergiləri 1963-1977-ci illər ərzində (1963-cü ilin qiymətləri ilə) üç dəfədən çox, lakin ÜDM yalnız iki dəfə artmışdır. Mərkəzi büdcə vergilərinin ÜDM-də xüsusi çəkisi 1963-cü ildə 12,6% və 1970-ci ildə 15,6%-dən 1977-ci ildə 19%-dək artmışdır. Vergi sistemi tərkibində mühüm kəmiyyət dəyişikliyi baş vermişdir. Türk hökümətinin birbaşa vergilərin artırılması üzrə səyləri birbaşa və dolayı vergilər arasındakı nisbəti-ni nəhayət dəyişə bilmişdir. Birbaşa və dolayı vergilər arasındakı propor-siyaların dəyişmə tempi bütün plan təxminləri və gözləmələrini üstələmişdir, buna da əsasən inflyasiyaya görə nail olunmuşdur. İkinci beşillik dövründə dolayı vergilərin yığım planı yalnız 84,1%, birbaşa vergilər üzrə isə 117,9% yerinə yetirilmişdir. Üçüncü plan dövründə dolayı vergilərin ortaillik artım tempi 11,7% planlaşdırılsa da yalnız 4,7% təşkil etmişdir. Birbaşa vergilər üzrə bu göstəricilər müvafiq olaraq 15,2% və 16,6% olmuşdur. 80-ci illərin əvvəlində birbaşa vergilər bütün vergi daxil olmalarının 63-65%-ni təmin edirdi (1964-cü ildə bu göstərici 32%, 1971-ci ildə 37% olmuşdur) (əlavə 1). 80-ci illərin ortalarından etibarən gəlir vergisinin rolunun artması müşahidə olunur və bu vergi fiskal sistemin əsas vergisinə çevirmişdir. Dolayı vergilər 60-70-ci illərdə real qiymətlər ilə 2 dəfə artaraq 1980-ci ildə 10,9 mlrd. lirə təşkil etmişdir (1963-cü ilin qiymətləri ilə). Birbaşa vergilər isə müvafiq olaraq 6,5 dəfə, yəni 2,6 mlrd. lirədən 17,1 mlrd. lirə qədər.

Vergi sisteminin təkamülündə böyük rol 1980-ci il hərbi çevrilişdən sonra hakim dairələri tərəfindən inkişaf strategiyasına edilmiş dəyişiklik oynamışdır. Ölkə sosial-iqtisadi inkişafın yeni mərhələsinə daxil olandan sonra vergi sisteminə yeni tələblər qoyulmağa başladı. Üstəlik, uzun illər ərzində yaradılmış vergi mexanizmi 70-ci illərin sonu 80-ci illərin əvvəlində baş vermiş hiperinflyasiya imtahanından keçə bilməmişdir. İlk növbədə, əvvəlki illərdə vergi daxil olmalarında müşahidə olunan dinamizm və elastiklik tam pozulmuşdur. Vergi daxil olmalarının ÜDM-də xüsusi çəkisi 1977-ci ildə rekord səviyyəsinə - 19,3%-ə çatandan sonra tədricən azalmağa başlamış və 1980-ci ildə 16,9% təşkil etmişdir, hərçənd inflyasiya şəraitində

dövlətin maliyyə vəsaitlərinə ehtiyacı daha kəskin hiss olunurdu. Bundan başqa vergi tərkibində digər ifrat da özünü büruzə vermişdir: vergilərin əsas hissəsi "gəlir" kateqoriyası ilə əlaqəli idi. Vergi daxil olmalarının yarısını təşkil edən gəlir vergisi (1980-ci ildə 51,8%) sözün həqiqi mənasında "dözülməz" oldu. O, həm sağdan, həm soldan tənqid obyekti olmuşdur. Varlı təbəqə ona qarşı bu mövqedən çıxış edirdilər: sənaye inqilabı baş verməyən ölkədə bu cür yüksək gəlir vergisi özəl sahibkarlığının inkişafına mane olur. Bununla yanaşı, vergidən yayınmalar o qədər kütləvi xarakter almışdır ki, aşağıdakı aydın olmuşdur: bu vergi bir tərəfli-yalnız əhali hesabına artırdı. Gəlir vergisi, büdcə tarazlığı vergisi, sosial sığorta üzrə ödənişlər əhalinin orta əmək haqqısının 50%-ni təşkil etdiyi şəraitdə vergi yükünün qeyri-bərabər paylanması problemi gərgin siyasi mübarizənin predmeti oldu.

Beləliklə, həyata keçirilən vergi siyasətinin dəyişməsi məsələsi yenə də gündəmdə oldu. "Qeyri-ədalətli vergi aparatı", "dövlət vergilərin zəifliyi", "idarəetmə mexanizmində çatışmazlıq" və hakimiyyətə qarşı digər ittihamlar qəzet səhifələrindən də enmirdi.

1978-ci ildən etibarən hakim siyasi partiyaların koalisiyası iqtisadiyyatın stabilləşdirilməsi proqramları işləyib hazırlayır və qismən yerinə yetirməyə çalışırdı, lakin daxili siyasi sabitlik şəraitində onları Milli Məclisdən keçirmək mümkün deyildir. Onlar, məlum olduğu kimi, faktiki olaraq yalnız 1980-ci ilin yanvar ayından etibarən həyata keçirilməyə başladı və iqtisadi tarixə 1980-ci il 24 yanvar tarixli "təcili tədbirlər paketi" və ya iqtisadi sabitlik proqramı adı altında düşdü. Problemlərin həddən artıq gərgin olması ilə əlaqədar vergi siyasəti sahəsindəki yeni qanunverici aktları hətta bu tədbirlər çərçivəsində keçirə bilməmişdir. 1980-ci il sentyabrda növbəti hərbi çevrilişdən sonra hakimiyyətə gələn hərbi rəhbərliyi paketin məhz bu tərəflərini onun əsas çatışmazlığı kimi bilirdi və hesab edirdi ki, məhz onlar yeni proqramın həyata keçirilməsi üzrə istənilən cəhdlərə mane olur. Gözləndiyi kimi, hərbi rəhbərlik dərhal bu sahədə fəaliyyətə başladı. 1980-ci ilin qalan üç ayı və növbəti 1981-ci il ərzində demək olar ki, bütün vergilərə dəyişikliklər edilmişdir. 1960-ci il dövlət çevrilişindən sonra olduğu kimi, hərbi rəhbərliyi bu dəfə də iri özəl kapitala, o cümlədən kənd aristokratiyasına olan vergiləri artırmağa cəhd etdi. Lakin qüdrətli iqtisadi güclərin siyasi hakimiyyətə təzyiq mexanizmi dərhal işə düşdü. Eyni zamanda, gəlir vergisi və koorparasiya vergisi arasındakı proporsiyalar dəyişirdi və sonuncunun rolu artmışdır. Dolayı vergilər sistemində də mühüm dəyişikliklər baş verirdi. Bu dəyişikliklər birbaşa vergilərdən fərqli olaraq islahat kimi göstərilir. Köhnə verginin yerinə yeni gəldi və təbii olaraq vergiqoyma prinsipləri və üsullarına yeni yanaşmalar müşahidə olunur. Türkiyədə dolayı vergilərin əsası olan əsas istehlak vergiləri T.Özalın hökümətinin qərarı ilə 1985-ci il yanvarın 1-dən yeni vergi - əlavə dəyər vergisi ilə əvəz olunmuşdur. Ümumiyyətlə, yuxarıda

qeyd olunduğu kimi, keçən əsrin 80-ci illərində vergi əmsalı dəyişməz – 20-22% səviyyəsində qalmışdır.

8.3. Yeni birbaşa vergiqoyma sisteminin təşəkkülü və inkişafı

Məlum olduğu kimi, birbaşa vergilər birbaşa olaraq vergi ödəyicilərindən tutulan vergilərdir. Yuxarıda qeyd olunduğu kimi, əsrlər boyu şəriət qaydaları əsasında tutulan birbaşa vergilər Osman imperiyası vergi sisteminin əsasını təşkil edirdi. Bununla yanaşı, rifahın əsas mənbəyi kənd təsərrüfatı olduğu şəraitdə onların əsas ağırlığı məhz bu sektora düşürdü. Əmtəə-pul münasibətlərinin inkişaf etməməsi və Osmanlı imperiyasına xarici məhsullara gömrük rüsumları qoymağa qadağan edən kapitulyasiya rejimi dolayı vergilərin hüdudlarını əhəmiyyətli dərəcədə məhdudlaşdırmışdır.

Respublika yarananda sonra dolayı vergilərin tətbiqi üçün əlverişli şərait yaranmışdır və onlar ölkənin müstəqil inkişafının ilk 50 ili ərzində büdcənin vergi yığımlarının 60%-dən çoxunu təmin edirdi. Lakin bu, birbaşa vergilərə olan diqqətin azalması demək deyildir. Əksinə, qərb modeli parlamentarizm və büdcə sisteminə keçəndən sonra böyük ümidlər məhz bu vergilərlə bağlı idi. Çoxlu səylər fiskal sistemin yeni nailiyyətlərinin mövcud real iqtisadi bazisə uyğunlaşmasına yönəlmişdir. Lakin hakim dairələrinin gözləntilərinin əksinə olaraq bu uyğunlaşma çox çətin gedirdi.

Birbaşa vergilərin xüsusi çəkisi mərkəzi büdcənin vergi gəlirlərində 20-30-cu illərdə 30%-dən və 40-cı illərdə 35%-dən yüksək deyildi. 1949-cu il islahatından sonra onların xüsusi çəkisi hətta azalmışdır; 50-ci və hətta 60-cı illərdə onlar vergi daxil olmalarının üçdə birisindən çox deyildi. Yalnız 70-ci illərdə vergi strukturunda dönüşə nail olunmuş və birbaşa vergilərin üstünlüyü təmin olunmuşdur.

Ölkədə keyfiyyətcə yeni birbaşa vergilərin təşəkkülü və inkişafı problemlərinə həm siyasi və elmi dairələr, həm də əhali tərəfindən böyük maraq göstərilirdi.

Baxmayaraq ki, iqtidar ən müasir vergiləri dərhal tətbiq etməyə çalışırdı, lakin çox onilliklər ərzində sürən respublika dövrü üçün ənənəvi və müasir vergilərin vəhdəti xarakterik idi. Səltənətdən miras qalmış ənənəvi vergilərin qalıqları büdcəyə böyük məbləğdə maliyyə vəsaitləri təmin edərək bir neçə onillik ərzində yaşamışdır. Respublika illərində birbaşa vergilərə müxtəlif vergilər daxil idi – gəlir vergisi (o cümlədən, onun qeyri-standart növləri – böhran vergisi, büdcə tarazlığı vergisi və hərbi hava qüvvələrinə yardım vergisi), koorparasiyalara, mal-qaraya, torpağa, əmlaka, miras və bağışlamaya, tikintilərə, daşınmaz əmlakın dəyərinin artımına,mühərrikli nəqliyyat vəsaitlərinə, əkinçilik məhsullarına vergi. Bundan başqa, əsasən ənənəvi vergilər üstünlük təşkil etdiyi çoxlu sayda yerli vergilər də var idi. Təbii ki, mal-qaraya,

əkinçilik məhsullarına və digər bir çox ənənəvi vergilər zaman keçdikcə ləğv olunurdu. Bu proses hələ 1925-ci ildə aşaranın ləğv olunması ilə başlamışdır.

Araşdırılan dövrdə Türkiyədə birbaşa vergilər sistemi iki qrupdan ibarət idi: gəlir vergisi və əmlak vergisi. Birinci qrupa gəlir vergisi və daşınmaz əmlakın dəyərinin artımına qoyulan vergi daxildir. Əmlak vergisi əmlaka, mühərrikli nəqliyyat vəsaitlərinə, miras və bağışlama vergilərindən ibarətdir. Mərkəzi büdcənin bütün birbaşa vergilərinin böyük əksəriyyəti birinci qrup birbaşa vergilərə düşür. Birbaşa vergilərin əsasını ölkənin vergi sisteminin əsas vergisinə çevrilmiş gəlir vergisi təşkil edir.

Gəlir vergisi problemləri daim türk ictimaiyyətinin diqqət mərkəzində olub. Əgər hakim dairələri bu vergiyə, artan dövlət ehtiyaclarını təmin etmək üçün maliyyə vəsaitlərinin ən stabil və etibarlı toplama mexanizmi kimi yanaşırdılarsa, türk ictimaiyyəti onu, ənənəvi birbaşa və dolayı vergilərlə müqayisədə daha mütərəqqi vergi növü hesab edirdi. Bu verginin mexanizminin təkmilləşdirilməsi və müvafiq olaraq fiskal sistemdə onun rolunun gücləndirilməsi məsələsi daim siyasi mübarizənin mərkəzi problemlərindən biri olub.

Türkiyədə gəlir vergisini tətbiq etmək cəhdləri hələ tanzimat islahatları dövründə 1863-cü ildə "temettu" vergisinin tətbiqi ilə edilmişdir. Şiddətli maliyyə böhranı ilə əlaqədar sultanın tapşırığı ilə tətbiq edilmiş bu verginin tam aydın ifadə edilmiş qanunverici bazası yox idi. Verginin miqdarı adətən vergi toplayanlar tərəfindən büdcənin maliyyə vəsaitlərinə olan ehtiyacı əsasında özbaşına müəyyən edilirdi, xaricilərin gəlirləri isə toxunulmaz idi. Verginin qanunla nizamlanması 1907-ci ildə baş verdi. Verginin miqdarı vergi obyektinin aşağıdakı xarici əlamətlərinə görə müəyyən olunurdu:1) müəssisə, emalatxana, ticarət obyekti və digər iş yerlərinin qeydiyyata alınmış dəyəri; 2) vergi obyekti məskunlaşdığı yaşayış məntəqədə insanların sayı. Baxmayaraq ki, bu vergi osmanlı hüquqşünasları tərəfindən "gəlir vergisi" adlandırılmışdı, mahiyyətinə görə o, gəlir vergisindən daha çox sənətkarlıq vergisinə uyğun idi. Bu verginin sənətkarlıq vergisindən əsas fərqi ondan ibarət idi ki, o, yalnız ticarət, sənaye və digər müəssisələrin sahiblərindən deyil, həmçinin yaşayış məntəqələrinin sakinlərindən də tutulurdu. Bu vergi ödəyiciləri 3 qrupa bölünürdü: 1-ci qrup – icarə haqqından vergi ödəyənlər; 2-ci qrup – vergini gəlirdən ödəyən sahibkarlar, tacirlər və s.; üçüncü qrup- işə götürənlərin bəyannaməsi əsasında vergi ödəyən işçilər. Ümumiyyətlə, bu vergi səltənətin vergi sistemində əhəmiyyətli rol oynamırdı.

Respublika yaranandan sonra hakimiyyət dərhal bu vergini tətbiq etdilər. Aşaranın ləğvindən bir il sonra Milli Məclis 755 №- li qanun qəbul etdi (17.02.1926 tarixli). Qanunun birinci maddəsinə əsasən "Türkiyə ərazisində ticarət, sənaye və ya sənətlə məşğul olan və ya iş aparan ya da bu qanunla nəzərdə tutulan müəssisələri istismar edən hər bir fiziki və ya hüquqi şəxs gəlir vergisini ödəməlidir". Beləliklə, qanun sərbəst sənət nümayəndələrini,

özəl müəssisələrin işçilərini, o cümlədən xariciləri vergiqoymaya cəlb edərək vergi ödəyicilərinin dairəsini xeyli genişləndirdi. Qeyd etmək lazımdır ki, həmin dövrdə bu vergi əvvəlki verginin bəzi xüsusiyyətlərini saxlayırdı. Belə ki, onda vergiyə cəlb olunmayan minimum müəyyən edilməmişdi. Bununla yanaşı, onun hesablanması zamanı sadə arifmetik proqressiya istifadə olunurdu və vergi dərəcəsi 6-14% arası dəyişdiyinə görə yüksək gəlirlərdən yüksək vergi tutulmurdu. Bundan başqa, qanunda vergi sistemində mütərəqqi vergiqoyma prinsip və metodlarını tətbiq etmək cəhdləri əks olunmuşdur. Belə ki, vergi miqdarının sənət vergisində olan arxaik metodla, vergi obyektinin yalnız xarici əlamətlər əsasında (işçilərin sayı, avadanlıqların miqdarı, mühərriklərin gücü, müəssisənin yerləşdiyi yer və s.) müəyyən edilməsindən imtina etmək cəhdi edilmişdir. Bunun əvəzində qanun, verginin əsasən ödəyicilərin bəyannaməsi əsasında tutulmasını nəzərdə tuturdu. Lakin aydın məsələdir ki, iqtisadiyyatın kiçik təsərrüfat vahidlərindən ibarət olduğu və maliyyə qurumlarının nəzarəti üçün zəruri olan uçot və hesabatlığının olmadığı şəraitdə ödəyicilərin bəyannaməsinə əsaslanma uğursuzluğa məhkum edilmişdir. Bir ildən sonra, 1927-ci ildə qəbul edilmiş qanunla vergi məbləğinin bu cür müəyyən edilməsi metodu yalnız səhmdar cəmiyyətləri üçün saxlanılırdı. Digər ödəyicilərin gəlirləri isə xüsusi qiymət qoyan komissiyalar tərəfindən obyektin xarici əlamətləri əsasında müəyyən edilməyə başladı. Vergi məbləği 2 üsulla hesablanırdı: illik dövriyyəyə və ya təsbit edilmiş icarə haqqının miqdarına nisbətən faiz dərəcəsi əsasında. Lakin bu vergi də zamanın sınağından çıxa bilməmişdir: dünya iqtisadi böhranı dövründə vergi daxil olmalarının məbləği əhəmiyyətli dərəcədə azalmışdır. Hakimiyyət ölkənin iqtisadi inkişafında özəl sahibkarlığa arxalandığı şəraitdə əlavə vergiqoymanının münasib obyekti, hakimiyyətin fikrincə, işçilərin əmək haqqı ola bilər. Buna görə əsasən əmək haqqını əhatə edən mövcud gəlir vergisinə əlavə olaraq böhran illərində iki "müvəqqəti" vergi (qeyd edək ki, bu vergilər 20 il ərzində qalmışdır) daxil edilmişdir: böhran vergisi və büdcə tarazlığı vergisi. Xasiyyətcə gəlir vergisi olan bu vergilər muzdlu işçilərə şamil edilirdi və eyni vergi obyektindən tutulurdu: əmək haqqı və məvacibin bütün növlərindən, həmçinin mənfəət və səhmdar cəmiyyəti və təşkilatların inzibati şuralarının üzvlərinin mükafatlarından və s. 1934-cü ildən etibarən böhran vergisi ödəyiciləri dairəsi genişlənmiş və o, yalnız muzdlu işçilərdən deyil, həmçinin gəlir vergisi ödəyicilərinin bütün digər kateqoriyalarından tutulmağa başlamışdır. Büdcə tarazlığı vergisi və 1935-ci ildə daxil edilmiş hərbi hava qüvvələrinə yardım vergisi yalnız əmək haqqı və məvacibdən və bir dərəcə ilə tutulurdu: büdcə tarazlığı vergisinin dərəcəsi 10% və hərbi hava qüvvələrinə yardım vergisinin dərəcəsi 2% təşkil edirdi.

Mövcud gəlir vergisi 1934-cü ildə yenidən təşkil edilmişdir. Əsaslı dəyişiklikləri nəzərdə tutan qanun layihəsi hazırlandığı zaman vergi məbləğinin

şedulyar sistem ilə yığımın təşkili üzrə Fransanın təcrübəsindən geniş istifadə olunmuşdur. Bu sistemə görə vergi obyekti şəxsin məcmu gəliri deyil, onun gəlirinin tərkib hissələriidi. Vergiyə cəlb olunan gəlirin məbləği əvvəl olduğu kimi iki üsulla-vergi ödəyicilərinin bəyannaməsi əsasında vəəsasən vergi obyektinin xarici əlamətlərini nəzərə alan vergi komissiyalarının qiymətləndirilməsi əsasında müəyyən edilirdi. Bununla belə vergiyə cəlb olunan gəlirin məbləğinin vergi bəyannaməsi əsasında müəyyən edilməsi üsulunun tətbiq dairəsi xeyli genişlənmiş və bu qaydaya yalnız səhmdar cəmiyyətləri deyil, məcmu gəliri 2000 lirədən yüksək olan bütün vergi ödəyiciləri tabe oldu. Eyni zamanda, yeni qanunda köhnə qanunda olduğu kimi daşınan əmlakdan və kənd təsərrüfatı gəlirləri nəzərə alınmırdı. Digər yenilik ondan ibarət idi ki, vergi mübahisələri araşdıran daimi fəaliyyət göstərən komissiyalar yaradılmışdır.

Lakin bəyannamə əsasında vergi tutulanların sayının artmasına və onlar üzərində nəzarəti gücləndirmək cəhdlərinə baxmayaraq gəlir vergisi daha çox işçilərin əmək haqqından və kiçik sahibkarların gəlirlərindən tutulmağa başladı. O, nəinki etibarlı fiskal mexanizm kimi hakim dairələrinin ümidlərini doğrultmurdu, həmçinin ictimaiyyətin narazılığına səbəb olmuşdu. Bəzi məlumatlara əsasən, 1932-1938-ci illərdə əmək haqqı və məvacibdən tutulan verginin gəlir vergisindən daxil olmalarda payı 79-85% təşkil edirdi. Türkiyə iqtisadçısı Y.S.Tezelin fikrincə, özəl sahibkarların ödədiyi gəlir vergisinin xüsusi çəkisi gəlir vergisindən daxil olmaların heç 10%-ni təşkil etmirdi. Hüquqi şəxslərdən tutulan verginin böyük hissəsi dövlət iqtisadi təşkilatlarına düşürdü. 30-cu illərdə Türkiyə hökuməti vergi sistemində vəziyyətin təhlili və qiymətləndirilməsi üçün xarici maliyyə eksperti Culis Pixarlesi dəvət etmişdir. Onun hesablamalarına görə, 1934 və 1935-ci illərdə ticarət-sənaye dairələrinin ödədiyi gəlir vergisi onların xalis mənfəətinin yalnız 2%-nə bərabər olmuşdur, işçilər isə gəlirlərin 18%-ni ödəmişdilər. Sonrakı illərdə vəziyyət daha da pisləşmişdir: ticarət-sənaye firmalardan real vergi daxil olmaları azalırdı, işçilərdən isə artırdı. Hətta rəsmi məlumatlara görə vergi bəyannamələri əsasında, yəni ticarət-sənaye firmalarından gəlir vergisinin məbləği, 1939-1947-ci illər ərzində cari qiymətlərlə 4,5 dəfə artmışdır (halbuki həmin dövrdə qiymətlər 5 dəfə artmışdır). Digər sözlərlə, ödəyicilərin bu kateqoriyasının real töhvəsi hətta azalmışdır. Bu illər ərzində vergi dərəcəsinin 250% artırılması da mənasız oldu. Türkiyə iqtisadçısı Q.Akdenizin fikrincə, təkcə iki amil-inflyasiya və vergi dərəcəsinin artırılması hesabına ödəyicilərin bu kateqoriyasının gəlir vergisi hətta mənfəət artmasa belə aşağı 10,6 dəfə artmalı idi.

Milli Məclis 3 iyun 1949-cü ildə gəlirə vergiqoyma sisteminin əhəmiyyətli dərəcədə dəyişməsini nəzərdə tutan qanun qəbul etmişdir. Qanun mövcud olan bütün gəlir vergiləri (böhran, büdcə tarazlığı və hərbi hava

qüvvələrinə yardım) ləğv etdi və koorparasiyalara vergini və sənətə vergini daxil edən tamamilə yeni gəlir vergisi sistemini daxil etdi.

Prinsipial yenilik gəlirə vergiqoymanın şedulyar sistemindən qlobal sisteminə keçid olmuşdur. Gəlir vergisinin şedulyar sistemi real vergiqoymanın elementlərini daxil edərək verginin hər bir gəlir növündən ayrı-ayrılıqda tutulmasını nəzərdə tuturdu. 1949-cu ildə daxil edilən yeni, qlobal sistem verginin vergi ödəyicisinin məcmu gəlirindən tutulmasını nəzərdə tuturdu və onun ödəmə qabiliyyətliliyini nəzərə almağa imkan verirdi vəşedulyar sistemi ilə müqayisədə sadəliklə fərqlənirdi. Qanun verginin yalnız fiziki şəxslərin gəlirlərindən tutulmasını nəzərdə tuturdu. Hüquqi şəxslər üçün isə digər vergi - koorparasiyalara vergi tətbiq edilirdi. 1949-cu il islahatları həyata keçirərkən Türkiyə hökuməti gəlirə vergiqoyma təcrübəsindən real vergiqoyma elementlərini, yəni vergi miqdarının obyektin xarici əlamətləri əsasında müəyyən edilməsini tamamilə çıxarmağa cəhd etdi. Lakin aydın idi ki, qaydaya salınmış uçot və hesabatlığı olmayan kiçik sahibkarların çox böyük kütləsi yalnız bu metodla vergiyə cəlb oluna bilər. Gəlir vergiqoyma bazasını genişləndirmək və kiçik sahibkarlardan vergi daxil olmalarını təmin etmək məqsədilə yalnız bu ödəyici kateqoriyasından tutulan sənət vergisi tətbiq edilirdi. Bu vergi kiçik istehsalçıların geniş etirazına səbəb oldu və 5 ildən sonra ləğv olundu. Kiçik sahibkarlardan gəlir vergisi tutulmağa başladı. Bu vergini daşınan və daşınmaz əmlakdan renta alanlar da ödəməyə başladı. 1949-cu il vergi islahatının böyük çatışmazlığı ondan ibarət idi ki, kənd təsərrüfatı gəlirləri əvvəl olduğu kimi gəlir vergisindən kənarda qalmışdı.

Gəlir vergisi sisteminin inkişaf və təkmilləşdirilmə problemləri sonrakı illərdə də tez-tez dəyişən hakim koalisiyalarının daim diqqət mərkəzində idi. 1960-cı il hərbi çevrilişdən sonra yaranan yeni siyasi rejim 1949-cu il qanununu ləğv etdi və əvvəl qəbul olunmuş vergiqoyma prinsiplərini nəzərə alaraq 1960-cı ildə yeni "Gəlir vergisi haqqında" qanun qəbul etdi. Bu qanuna da sonrakı illərdə hakim dairələrinin sosial-iqtisadi inkişafın beşillik planları çərçivəsində yeni strategiyasına uyğun düzəlişlər edilməyə başlandı. Ən mühüm düzəlişlər 19 fevral 1963 il tarixli 202 №-li qanunla edilmişdir. Ümumilikdə bu sistemin ilk 20 il fəaliyyəti ərzində (1949-1969-cu illər) vergi sisteminə dəyişikliklər gətirən 18 qanunverici akt qəbul edilmişdir.

Planlaşdırma illərində gəlir vergisi sahəsində siyasətin əsas istiqamətləri bunlar olmuşdur: 1) gəlir vergisinin az təminatlı əhaliyə şamil edilməsi yolu ilə ödəyicilər dairəsinin genişləndirilməsi; 2) vergidən yayınma ilə mübarizənin gücləndirilməsi; 3) vergi dərəcəsinin iri kapital üçün artırılması; 4) verginin iqtisadi rolunun artırılması.Birbaşa vergilər sistemində növbəti düzəlişlər dalğası 1980-ci il hərbi çevrilişdən sonra başlamışdır. Bu dəfə yüksək inflyasiyanın ağır nəticələrini neytrallaşdırmaq və vergidən kütləvi

yayınmalara nəzarəti gücləndirmək cəhdləri edilirdi. Vergi mübahisələrinin həllinin məhkəmə proseduru da yenidən təşkil olunmuşdur.

Məlum olduğu kimi, gəlirə vergiqoymanın yaranmasının əsas zəminləri a) əmtəə istehsalının və pul münasibətlərinin yüksək inkişaf səviyyəsi; b) iqtisadi sahələrin, fəaliyyət növlərinin və gəlirlərin differensiasiyası olmuşdur. Bu vergiyə keçid zamanı Türkiyədə onun bir çox zəminləri hələ yaranmamışdı. 1950-ci ildə milli gəlirin 52%-i hələdə aqrar sektorda yaranırdı. 1951-ci ildə bir nəfərə düşən şəxsi istehlak 25 lirə və ya 9 doll. təşkil edirdi. Bütün bunlar fiskal sistemin fəaliyyətinə təsir etməyə bilməzdi.

Məlum olduğu kimi, hər hansı verginin fəaliyyəti əsasən vergiqoyma obyektinin və ödəyicilər dairəsinin düzgün müəyyən edilməsindən asılıdır. Gəlir vergisinin obyektini, vergi məbləğini fərdin ödəmə qabiliyyətliliyi əsasında tutmağa imkan verən ən yaxşı iqtisadi kateqoriya hesab olunan gəlirlər təşkil edir. Gəlir vergisi haqqında qanunun birinci maddəsi vergiqoyma obyekti olan gəlirə aşağıdakı tərif verir: "Gəlir fiziki şəxsin bir təqvim ili ərzində aldığı gəlir və rentanın xalis miqdarıdır". İkinci maddə "gəlir" anlayışını konkretləşdirir. Ona 1) kommersiya gəlirləri; 2) kənd təsərrüfatı gəlirləri; 3) əmək haqqı; 4) azad sənətlər şəxslərin gəlirləri; 5) daşınmaz əmlakdan renta; 6) daşınan əmlakdan renta; 7) digər gəlirlər və rentalar daxil olunur. Prof. K.Bulutoğlunun, gəlir vergisi haqqında qanunun gəlirin bütün növlərini nəzərə almadığını deməyə tam əsası var idi. Fərz edək ki, hər hansı fiziki şəxs varlandı, lakin onun zənginliyi mənbələri yuxarıda göstərilən gəlirin tərifinə uyğun deyilsə, onun gəlirləri vergiyə cəlb olunmayacaq. Qeyd edək ki, qanunda "gəlir" anlayışının tam tərifi verilməmişdir. Qanunda mənfəət və faiz kimi iqtisadi kateqoriyalar heç qeyd edilmir. Qanunda tam aydın deyilirdi ki, "gəlir" mübadilə nəticəsində əldə oluna bilər. Bu o deməkdir ki, dəyərin artımı alqı-satqı nəticəsində baş verməyibsə, o, vergiyə cəlb olunmur. Şəxsi istehlak məqsədilə istehsal da vergiyə cəlb olunmur. Bu, kəndlilər üçün xüsusi əhəmiyyət kəsb edir. Göstərilən bu iki amil gəlirə vergiqoyma sərhədlərini məhdudlaşdıran mühüm amillər kimi çıxış edir. Beləliklə, vergiqoyma obyekti kimi gəlir anlayışına yalnız istehsal və təkrar istehsal prosesinə daxil olan və gəlir gətirən maddi amillər daxil edilirdi. Bununla qanunvericilik ilk növbədə sahibkarlıq gəlirlərinin vergiyə cəlb olunması üçün əlverişli şərait (renta və kapitaldan gəlirlərlə müqayisədə) yaradırdı, bu da ticarət-sənaye qruplarının maraqlarına uyğun idi.

Vergi yükünün sosial təbəqələr arasında paylanmasında həmçinin vergi obyekti həçminin və vergi məbləğinin hesablanması metodikası böyük əhəmiyyət kəsb edir. Sözsüz, həm dövlətin fiskal maraqları, həm də "sosial ədalət" prinsipi baxımından milli gəlirin getdikcə daha böyük hissəsini təşkil etməkdə olan kommersiya (sahibkarlıq) və renta gəlirlərinin vergiyə cəlb olunması təcrübəsi böyük əhəmiyyət kəsb edir. Rəsmi qiymətləndirmələrə

görə yeni gəlir vergisi sisteminin daxil olması ərəfəsində "kommersiya gəlirləri" "məcmu gəlirlərin" 65%-ni təşkil edirdi. Təbii olaraq gözlənilirdi ki, məhz bu gəlirlər verginin əsas mənbəyi olacaq, lakin bu verginin tutulması təcrübəsi tamamilə başqa vəziyyət göstərir.

"Kommersiya gəlirləri" anlayışına hansı məna qoyulur? Qanunun 37-ci maddəsi onun anlayışını aşağıdakı kimi müəyyən edir: "Hər hansı ticarət və sənaye fəaliyyətindən əldə olunan gəlirlər kommersiya gəlirləridir". Təbiidir ki, bu tərif maliyyə qurumları üçün kifayət deyil, çünki yeni sual yaranır: "ticarət və sənaye fəaliyyəti nə deməkdir"? Çox güman ki, gəlirə vergiqoyma mexanizminin ən böyük sirləri vergi obyektinin hesablaması metodikasında və ödəyici kateqoriyaları üzrə fərqlənən vergitutma formalarında gizlənir.

Gəlir vergisinin əsas prinsiplərindən biri verginin, vergiyə cəlb olunan gəlirin "faktiki" həcmindən tutulmasıdır. Əsas məsələ bu "faktiki" həcmin müəyyən edilməsindədir. Satış və ya satın almanın illik həcmindən, fəaliyyət növündən və s. asılı olaraq kommersiya gəlirləri əldə edənlər iki kateqoriyalara bölünür: 1) vergini vergi obyektinin qiymət dəyərinə görə ödəyən ödəyicilər; 2) vergini vergi obyektinin "faktiki" dəyərinə görə ödəyən ödəyicilər.

Vergi ödəyicilərin birinci qrupuna gəlirləri vergiyə cəlb olunmayan minimumdan yüksək olan çoxsaylı kiçik sahibkarlar daxildir. Onların illik gəlirləri xüsusi qiymət komissiyaları tərəfindən maliyyə nazirliyinin cədvəli əsasında müəyyən olunur. Bu cədvəldə gəlirlər fəaliyyət növündən asılı olaraq beş dərəcəyə bölünür. Ödəyicilərin hər dərəcəsi üzrə illik gəlirlərin həcmi haqqında məlumat hər 3 il təzələnir. Hər dərəcə üçün vergi obyektinin xarici əlamətlərinə uyğun olaraq gəlirin minimum həcmi təyin olunur. Çoxsaylı kiçik sahibkarlar vergini qiymət komissiyaları tərəfindən müəyyən olunan gəlirə uyğun olaraq ödəməlidirlər. Bu vergi ödəyicilərin hər birisinə vergi obyektinin tam xarakteristikası, gözlənilən gəlirin miqdarı və vergi məbləği göstərilən xüsusi kadastrlar qabaqcadan verilir. Gəlirin faktiki həcmi "planda nəzərdə tutulan"dan az olsa, sahibkar bunu əsaslandırmalıdır.

Ödəyicilərin ikinci kateqoriyasına vergi məbləği, onların bəyannaməsi əsasında əməliyyatların faktiki dəyəri üzrə müəyyən olunan orta və iri təsərrüfat vahidləri daxildir. Onlar da gəlirin miqdarından asılı olaraq iki qrupa bölünür: birinci dərəcəli tacirlər və ikinci dərəcəli tacirlər. Ən iri birinci dərəcəli firmalar vergi həcmini obyektin balans dəyəri əsasında, əməliyyatların həcmi aşağı olan ikinci dərəcəli tacirlər isə müəssisənin dəftərxana hesabları əsasında müəyyən edirlər. Hər iki vergi ödəyiciləri qrupunun malik olduğu çox böyük üstünlüyü ondan ibarətdir ki, vergiqoyma sahəsində bütün uçot və hesabatlıq onların özləri tərəfindən aparılır. Bu, əldə olunan gəlirin gizlədilməsi yolu ilə vergidən yayınmaq üçün şərait yaradırdı, lakin məsələ yalnız bunda deyildi, çünki ən iri firmalar üçün daha əlverişli şərait yaradılmışdır. Gəlir vergisinin real tətbiqində "gəlir" kateqoriyası vergi

obyekti kimi vergi ödəyiciləri üçün başqa forma alır. Onlar üçün vergi obyekti kimi "xalis gəlir" deyil, təqvim ili ərzində "şəxsi kapitalın artımı" istifadə olunur. Digər sözlə, vergi obyekti əldə olunan gəlirin yalnız yenidən istehsala, yəni həmin müəssisəyə qayıdan hissəsini daxil edir. Başqa sözlə, gəlir vergisinin tətbiqi təcrübəsi kapitalın istehsal sahələrindən yayınmasını stimullaşdırır ki, bu da mənfi nəticələrə gətirib çıxarır. Rifahın həddən artıq artımı, daşınmaz əmlakın genişlənməsi, parazit davranışı, spekulyativ sövdələşmələrin həddən artıq miqyası – bütün bunlar kapitalın geniş təkrar istehsal prosesindən yayınmasının əsas kanallarıdır. "Vergi qoyma metodu haqqında" qanunun 19-cu maddəsinə görə şəxsi kapital sahibkarın öz müəssisəsinə real tövhəsini ifadə edən müəssisənin aktivləri və borcları arasında fərq hesab olunur. Əlavə olaraq müəssisənin aktivlərindən ödənilməmiş kapital, zərərlər, amortizasiya, şəxsi hesablar və buraxılmış səhmlər üzrə dividentlər kimi bir çox xərclər çıxılır. Borcun məcmu məbləğindən də müxtəlif xərclər çıxılır.Tam aydındır ki, hesablamalar nə qədər mürəkkəb olsa, yayınmalar üçün imkanlar bir o qədər geniş olur. "Nəticədə, türk iqtisadçı X. Özgenin dediyi kimi, istismarçı qüvvələr xalis gəlirlərinin çox aşağı hissəsi barədə maliyyə qurumlarına məlumat verir". Digər türk müəllifinin fikrincə isə "tutulan verginin miqdarını müəyyən edən amil əldə olunan gəlir deyil, daha çox sahibkarın bu və ya digər məbləğin ödənilməsinin məqsədəuyğun olduğu barədə qərarı. Bu, hamıya məlum olan faktdır".

Cədvəl

Kommersiya gəlirlərinə vergiqoyma metodları

1963 il			1980 il			1981 il (01.01.1985 ildən etibarən) qüvvədə olan dərəcə		
Gəlirin miqdarı, mln. lirə		Vergi dərəcələri	Gəlirin miqdarı, cari qiymətlərlə	Vergi dərəcələri	1963 illə müqayisədə dərəcələrin dəyişməsi	Vergi dərəcələri	Dərəcələrin dəyişməsi	
Cari qiymətlərlə	1981 ilin yanvarına olan qiymətlərlə						1963 illə müqayisədə	1980 illə müqayisədə
2,5 qədər	79,1	10			30		15	
2,5 və yuxarı	79,1	15			25		10	
5	158,3	20			20		5	
15	474,8	25			15		-	
30	949,5	35	1 qədər	40	5	25	-10	-14
60	1899	45	3	45	-	30	-15	-15
150	4747,5	55	5	50	-5	38	-17	-12
225	7121,3	60	10	60	-	48	-12	-12
225	7121,3	65	15	70	10	58	-7	-12
285	9020,3	68	25	75	7	63	-5	-12
1000	31650	60	25	66	6	55	-5	-11

Əmək gəlirlərinə, ilk növbədə, işçilərin əmək haqlarına vergilərin hesablanması metodikası və tutulma qaydaları tam fərqlidir. Verginin əmək gəlirlərini tam əhatə etməsini təmin etmək məqsədilə əmək haqqına vergi mənbədə tutulur. Bu vergi obyekti hələ "gəlirə" çevrilməmiş, yəni sahibkar tərəfindən istehsal xərci kimi xərcləmə mərhələsində vergiyə cəlb olunur. Və təbii olaraq bütün əmək haqqlarının tam əhatə olunmasına nəzarət sahibkarın, müəssisə rəhbərinin üzərinə qoyulub. Bu mexanizmin işləkliyi işə götürənin maliyyə qanunları qarşısında öhdəliklərindən daha çox sahibkar vəişçilərin maraqları arasındakı ziddiyyət ilə təmin olunur. Məsələ orasındadır ki, əmək haqqının faktiki məbləğinin azaldılması vergi sənədlərində istehsal xərclərinin müvafiq şəkildə azalması və beləliklə sahibkarların gəlirinin və vergi məbləğinin eyni məbləğdə artması ilə müşayiət olunur. Təsadüfi deyil ki, hesab olunur ki, Türkiyədə gəlirə vergiqoymanın sisteminin əsasını gəlir vergisinin "mənbədə" tutulması təşkil edir və yalnız bu metodun hesabına bu sistemi iflasdan xilas etməyə nail olunmuşdur.

Gəlir vergisinin digər vergilərlə müqayisədə üstünlüyü gəlirə vergiqoymada istifadə olunan proqressiv dərəcələrlə izah olunur. Həqiqətən, proqressiv vergiqoymada vergi dərəcələri gəlirin miqdarına uyğun olaraq artır, yəni gəlir nə qədər yüksək olarsa vergi dərəcələri bir o qədər yüksək olacaq. Lakin gəlirlərin gizlənilməsi və vergidən yayınma şəraitində proqressiv vergiqoymanın üstünlüyü yoxa çıxır.

Türkiyədə tətbiq edilən gəlir vergisi dərəcələrinin səciyyəvi xüsusiyyəti ondan ibarətdir ki, proqressiya ardıcıl istifadə olunmur. Gəlirin ən yüksək səviyyəsi aşağı gəlirlə müqayisədə aşağı dərəcə ilə vergiyə cəlb olunur. Məsələn, ən yüksək gəlir (250 mln. lirədən yüksək) sahibləri 1980-ci il qanununa görə 25 mln. lirədən yüksək olan gəlirin 66% - ini, halbuki daha aşağı gəlir alanlar (15-25 mln. lirə) 15 mln. lirədən yüksək olan gəlirin 75%-ini vergiyə ödəyirdilər.

Statistik materiallar göstərir ki, Türkiyə hökümətinin gəlir vergisi sahəsində siyasətinin əsas istiqaməti vergi dərəcələrinin müntəzəm artımı olmuşdur və bu, onun vergi sistemində rolunun artmasında mühüm amil olmuşdur. Artıq 1960-cı ildə bu dərəcələr 1949-cu illə müqayisədə xeyli yüksək olmuşdur. Onu da qeyd edək ki, sosial münaqişələrin kəskin artdığı dövrdə o zaman hakimiyyətdə olan hərbçilər dərəcələrin aşağı həddini 15%-dan 10%-dək endirmək məcburiyyətində qalmışdılar, ödəyicilərin digər kateqoriyaları üçün vergi dərəcələri artırdı. 60-cı illərin əvvəlində vergi dərəcələri daha çox gəliri 20 min lirə və 150-400 min lirə olanlar üçün artmışdır. Daha yüksək gəlirlər üçün isə vergi dərəcələrinin artım templəri azalırdı və müəyyən həddə çatandan sonra onların artımı dayanmışdı. Bu tendensiya daha aşkar şəkildə 1980-ci il hərbi çevrilişdən sonra qəbul olunmuş vergi dərəcələrində müşahidə olunurdu. Dərəcələrin aşağı həddi hətta artmış, yuxarı həddi isə azalmışdır.

Hərbi rejimin gəlir vergisi sahəsində siyasətin nəticələri aşağıdakı cədvəldə göstərilir.

1963 il			1980 il			1981 il (01.01.1985 ildən etibarən) qüvvədə olan dərəcə		
Gəlirin miqdarı, mln. lirə		Vergi dərəcə-ləri	Gəlirin miqdarı, cari qiymətlərlə	Vergi dərəcələri	1963 illə müqayisədə dərəcələrin dəyişməsi	Vergi dərəcə-ləri	Dərəcələrin dəyişməsi	
Cari qiymət-lərlə	1981 ilin yanvarına olan qiymət-lərlə						1963 illə müqayisədə	1980 illə müqayi-sədə
2,5 qədər	79,1	10			30		15	
2,5 və yuxarı	79,1	15			25		10	
5	158,3	20			20		5	
15	474,8	25			15		-	
30	949,5	35	1 qədər	40	5	25	-10	-14
60	1899	45	3	45	-	30	-15	-15
150	4747,5	55	5	50	-5	38	-17	-12
225	7121,3	60	10	60	-	48	-12	-12
225	7121,3	65	15	70	10	58	-7	-12
285	9020,3	68	25	75	7	63	-5	-12
1000	31650	60	25	66	6	55	-5	-11

İlk növbədə qeyd edək ki, vergi dərəcələrinin birinci aşağı şkalasına daxil olan vergi ödəyiciləri bir qrupda birləşdirilib. Hərbi rejim ilk əvvəl (1980 il) onlar üçün vergi dərəcəsini maksimal 35%-dən 40%-dək artırmışdır. 1985-ci ildən etibarən o, 25% - dək azalsa da, az təminatlı ödəyicilərinin ilk üç qrupu üçün 1963-cü illə müqayisədə yüksək idi. Bununla birlikdə ən yüksək gəlirlər üçün vergi dərəcələrinin əks istiqamətdə dəyişməsi müşahidə olunmuşdur. Generalitetin, ən yüksək gəlirlər üçün vergi dərəcələrini artırmaq cəhdləri iri kapitalın kəskin müqavimətinə rast gəldi. Bunun nəticəsində 1981-ci ildəən yüksək gəlirlər üçün vergi dərəcəsinin əhəmiyyətli dərəcədə azalmış və eyni zamanda aşağı dərəcəsini artmışdır. Bu, iki son dərəcələrin yaxınlaşmasına gətirib çıxardırdı: 1963-cü ildə vergi dərəcələrinin yuxarı və aşağı hədləri arasındakı fərq 58% idisə, 1985-ci il yanvar ayından etibarən o, 30%-dək azalmışdır. Bu göstəriciyə görə Türkiyə hətta ABŞ (56%), İngiltərə (63%), İtaliyanı (62%) qabaqlamışdır. T.Özal hökümətinin qərarı ilə 1986-ci ildə vergi dərəcələrinin yuxarı hədləri əhəmiyyətli dərəcədə azalmışdır.

Qeyd edək ki, bir çox ölkələrdə insan və onun ailəsinin saxlanılması üçün zəruri olan gəlirlər, yəni yaşayış minimumu vergiyə cəlb olunmur. Lakin bəzi ölkələrdə, o cümlədən Türkiyədə vergiyə cəlb olunmayan minimum yaşayış minimumuna deyil, "fizioloji minimuma" uyğun təyin olunur. Həmçinin qeyd olunur ki, bir nəfərə düşən milli gəlir artdıqca vergiyə cəlb olunmayan məbləğin miqdarı də artmalıdır. Lakin Türkiyə reallığı bunun əksini göstərir.

1949-cu ildə vergiyə cəlb olunmayan minimum Türkiyədə 540 lirə miqdarında müəyyən olunmuşdur. 1957-ci ildə yüksək inflyasiya nəticəsində bu "minimum" 50% artırılaraq 810 lirə olmuşdur. 1960-cı il hərbi çevrilişdən sonra o, 1800 lirə çatdırılmışdır. Lakin maliyyə çətinliklərinə görə bu qərarın həyata keçirilməsi iki dəfə təxirə salınmışdır. 1963-cü ildən etibarən "minimumun" mövcud miqdarına müəyyən əmsal istifadə olunurdu, və bu əmsala görə o, 1080 lirə olmuşdur.1960-cı il qərarının tam şəkildə həyata keçirilməsinə isə yalnız 1968-ci ildən sonra nail olunmuşdur. Vergiyə cəlb olunmayan miqdarın növbəti düzədilməsi yalnız 1980-ci ildən sonra həyata keçirilmişdir. 1980-ci il qanunu vergiyə cəlb olunmayan minimumunun iki növünü nəzərdə tuturdu: ümumi və xüsusi "yüksək". Ümumi (7200 lirə) ödəyicilərin bütün növləri üçün, xüsusi isə (54 min lirə) əmək haqqı alanlar üçün istifadə olunurdu.

Vergiyə cəlb olunmayan minimumun səviyyəsi və əhəmiyyəti əyani şəkildə onun bir nəfərə düşən ÜDM ilə müqayisəsi zamanı görünür. Aşağıdakı cədvəlgöstəriciləri göstərir ki, vaxtaşırı düzəlişlərə baxmayaraq vergiyə cəlb olunmayan minimumun real miqdarının bir nəfərə düşən gəlirlə müqayisədə daimə azalması baş verir. Əmək haqqını alanlar üçün vergiyə cəlb olunmayan "yüksək" minimumun tətbiqinə gəldikdə, hətta bu fövqaladə tədbir vasitəsilə 60-cı illərin sonundakı vergiyə cəlb olunmayan minimum və bir nəfərə düşən orta gəlir arasında nisbətə nail oluna bilinməmişdir: 1969-cü ildə bu göstərici 0,5 və 1970-ci ildə 0,43 bənd olmuşdursa, 1982-ci ildə bu göstərici 0,04 bənd olmuşdur.

Cədvəl

Bir nəfərə düşən ÜDM və vergiyə cəlb olunmayan minimumun dinamikası

İllər	Bir nəfərə düşən ÜDM	Vergiyə cəlb olunmayan minimum	Minimumun bir nəfərə düşən ÜDM-yə nisbəti
1950	463	540	1,17
1958	1347	810	0,6
1963	2253	1080	0,48
1968	3350	1800	0,54
1969	3626	1800	0,5
1970	4184	1800	0,43
1971	5317	1800	0,34
1972	6483	1800	0,28
1973	8133	1800	0,22
1974	10933	1800	0,16
1975	13327	1800	0,14
1976	16327	1800	0,11

1977	20534	1080	0,9
1978	30322	1800	0,6
1979	51127	1800	0,04
1980	99805	1800	0,02
1981	143948	7200	0,05
1982	187047	7200	0,04

Tam aydındır ki, gəlir vergisinin fiskal rolunun durmadan artımı, onun ölkənin əsas vergisinə çevrilməsi vergi ödəmələrinin artımı hesabına baş verir. Bu prosesə inflyasiya da təsir edir. Belə ki, inflyasiya vergi dərəcələri artmadan da vergi daxil olmalarının artımını təmin edir. Bunu aşağıdakı cədvəldən müşahidə etmək olar.

Cədvəldən göründüyü kimi, inflyasiya templəri nə qədər yüksək olsa, gəlir vergisi ÜDM və mərkəzi büdcənin digər vergiləri ilə müqayisədə bir o qədər sürətlə artır. Bu, daha aşkar inflyasiyanın yüksək olduğu 70-ci illər-dəözünü büruzə vermişdir. Məhz bu, 70-ci illərin əvvəlindən etibarən birbaşa vergilərin dolayı vergilərlə müqayisədə üstünlüyünün təmin olunmasında həlledici rol oynamışdır.

Cədvəl

İnflyasiyanın ÜDM və gəlir vergisinin artım templəri ilə müqayisəsi

	İllər			
	1950-1960	1961-1970	1971-1979	1975-1979
İnflyasiya	8,5	5	26,6	33,1
ÜDM	17	12,3	35	42
Gəlir vergisi	24,4*	13,6	44,5	54,5
Mərkəzi büdcənin bütün vergiləri	16,4	14,7	37,8	43,6

*1951-1960-cı illər

Gəlir vergisinin növü 3 iyun 1949-cu ildə daxil edilmiş mənfəət vergisidir. Mənfəət vergisi ödəyiciləri 4 qrupa bölünür: səhmdar cəmiyyətləri, kooperativlər, dövlət şirkətləri və müəssisələr. Şəxsi firmalar, hətta hüquqi şəxs statusuna malik olanlar mənfəət vergisi deyil, gəlir vergisini ödəyirlər. Mənfəətini bölüşdürməyən kooperativlər də bu vergidən azad olunur. Mənfəət vergisi obyektini, obyektinvə verginin miqdarının hesablama metodikasını müəyyən edən hüquqi əsaslar əsas gəlir vergisi ilə oxşardır.

Fiziki və hüquqi şəxslərin vergiyə fərqli cəlb olunması, yəni həm mənfəət, həm də gəlir vergisinin eyni zamanda mövcud olmasını əsaslandıran müxtəlif fikirlər var. Belə ki, hesab olunur ki, "əmək" gəlirləri kapitaldan əldə olunan gəlirlərdən ayırmalıdır. Başqa fikir ondan ibarətdir ki, gəlir və

korporativ vergilərin daxil edilməsi sadəcə olaraq vergi qoyma texnikasının sadələşdirilməsi ilə əlaqəlidir, çünki korporativ verginin tutulması hər bir vergi ödəyicisi qrupu üçün xüsusi yanaşma tələb edir.

Türkiyə üçün səciyyəvi xüsusiyyət ondan ibarətdir ki, bu vergi, iqtisadiyyatda kiçik firmaların üstünlük təşkil etdiyi zaman daxil edilmişdir. Bu şəraitdə bu verginin rolunun yüksək olmasını gözləmək olmazdı. Onun dərəcəsi dəçox aşağı olmuşdur – 10% səhmdar cəmiyyətləri və 35% digər hüquqi şəxslər üçün. Səhmdar cəmiyyətləri və kooperativlər üçün vergi dərəcələrinin (10%) gəlir vergisinin ən aşağı dərəcəsindən (15%) də aşağı olması onların inkişafının dövlət tərəfindən stimullaşdırılmasını göstərir. Sonrakı illərdə bu dərəcələr bir neçə dəfə dəyişib. 1960-cı illərdə səhmdar cəmiyyətləri və kooperativlər üçün onlar ikiqat artaraq 20% təşkil etmiş, 1969-cu ildə isə 25%-ə çatdırılmışdır. Buna baxmayaraq bu ödəyicilər kateqoriyası üçün vergi dərəcəsi dövlət müəssisələri (35%) ilə müqayisədə aşağı idi. Bu vəziyyət 1980-ci ilin sonuna qədər davam edirdi. 1980-ci ilin dekabrında hərbi rejim vergi dərəcəsini səhmdar cəmiyyətləri üçün 50%-dək artırmış,digər müəssisələr üçün dəyişiksiz saxlamışdır. Lakin bir il sonra 1981-ci ilin dekabrında bütün ödəyicilər üçün vergi dərəcəsi eyni səviyyədə təyin edilmişdir – 40%.

Gəlir vergisinin digər forması olan büdcə tarazlığı vergisi 1972-ci ildə daxil edilmişdir. Verginin obyekti vergiləri – gəlir vergisi, mənfəət vergisi, miras vergisini ödəyən bütün fiziki və hüquqi şəxslər, həmçinin daşınmaz əmlak satışından gəlir əldə edən şəxslər olmuşdur. Büdcə tarazlığı vergisinin dərəcəsi 3% təşkil edirdi və büdcənin birbaşa gəlirdən daxilolmalarının 4-10%-ni təşkil edirdi.Kütləvi etirazlar hərbi rejimi 1980-ci ildə bu verginin dərəcələrini azaltmağa, 1984-cü ildə isə ləğv etməyə vadar etmişdir, lakin bununla bərabər gəlir vergisi və mənfəət vergisi dərəcələrinə də dəyişikliklər edilmişdir.

Beləliklə, hakimiyyətin məqsədyönlü səyi nəticəsində gəlir vergisi sistemi Türkiyənin sosial-iqtisadi inkişafının ən mühüm amilinə çevrildi. İlbəil verginin həm fiskal, həm də tənzimləyici rolu artırdı.

Birbaşa vergilərin ikinci qrupunu müxtəlif dövrlərdə müxtəlif vergiləri (mal-qaraya, tikintilərə, əmlaka (1970-ci il), mirasa, mühərrikli nəqliyyat vasitələrinə və torpağa vergilər) daxil edən əmlak vergiləri təşkil edir. Respublika dövründə bu vergilərin rolunun daima azalması müşahidə olunur. Aşaranın ləğvindən sonra birinci onillikdə (1925-1935-ci illər) əmlak vergiləri mərkəzi büdcə gəlirlərinin 11-15%-ni təşkil edərək milli maliyyə fondunun formalaşmasında az-çox mühüm rol oynayırdı.Torpaq vergisi və tikintilərə vergi yerli hökümətin sərancamına veriləndən sonra onların fiskal rolu daim azalırdı. Bu vergilər hesabına 1935-1950 illərdə mərkəzi büdcənin 3-7% gəlirləri toplanmışdır (müharibə illərində xüsusi birdəfəlik vergi olan əmlak vergisi nəzərə alınmasa). Mal-qaraya vergi ləğv olunandan sonra (1950-ci il) onların rolu minimuma – mərkəzi büdcə gəlirlərinin 1-1,5%-dək enmişdir.

8.4. Dolayı vergilər sisteminin özəllikləri

Dolayı vergilər malların, iş və xidmətlərin qiymətinə əlavə şəklində daxil edilir və alıcı tərəfindən ödənilir. Onların ölçüləri istehsal xərcləri və ya vergi ödəyicisinin gəliri ilə bağlı deyil və yalnız reallaşdırmanın həcmindən və bazar qiymətlərinin səviyyəsindən asılıdır.

Fiskal baxımından dolayı vergilərin birbaşa vergilərlə müqayisədə bir sıra üstün cəhətləri var. Dolayı vergilər daha geniş maliyyə bazasına malikdir – milli gəlirin böyük hissəsi istehlaka yönəlir, buna görə də bu vergilər milli gəlirin böyük hissəsini əhatə edir. Dolayı vergilər istehlaka şamil edildiyinə görə bütün fərdləri əhatə edir. Vergiqoyma obyektləri də iri və müxtəlifdir. Beləliklə, onların köməyilə də vergi sisteminin elastikliyini təmin etmək olar. Bu vergilərin ödəyiciləri istehlakçı olduğu üçün onlar müəyyən həddə qədər istehsalçıların inkişafı üçün maneə yaratmır. Dolayı vergilər proteksionizm alətləri kimi xüsusi əlverişli şərait yaradır. Əlavə olaraq bu vergilər istehlakı azaldaraq istehlak fondu və yığım fondu arasında nisbətin sonuncunun xeyrinə dəyişməsinə gətirib çıxarır. Bununla belə, bu vergilər məhsulların maya dəyərinin artmasına və beləliklə, onların rəqabət qabiliyyətliliyinin azalmasına səbəb olaraq istehsalın inkişafına maneə olur. Bu, milli iqtisadiyyatın dünya iqtisadiyyatına inteqrasiyasının gücləndiyi zaman özünü daha qabarıq büruzə verir.

Türkiyədə dolayı vergilər digər ölkələrdə olduğu kimi 3 əsas formada çıxış edir: fiskal inhisar vergiləri, gömrük vergiləri və aksizlər. Respublika Türkiyəsinin inkişafının müxtəlif mərhələlərində dolayı vergilərin bu və ya digər formasının rolu fərqli idi. Respublikanın ilk onilliyində dövlət büdcəsi gəlirlərinin əsas bazası gömrük vergiləri və fiskal inhisar vergiləri olmuşdur. 1929-32-ci illərdə bütün vergilərin yarısından çoxu (51-55%) məhz bu vergilər hesabına yığılmışdır. Bu vergilər 2-ci Dünya müharibəsinə qədər aparıcı rol oynayırdı.

Respublikanın ilk illərində ənənəvi vergi strukturunun dağılması prosesinin başladığı dövrdə büdcənin maliyyə vəsaitlərinə ehtiyacının təmin olunmasında ən mühüm rol fiskal inhisar vergiləri oynayırdı. Bu, 1923-cü il Lozan konvensiyası Türkiyəyə yaxın beş ildə gömrük tariflərini dəyişməyə qadağan etdiyinə görə xüsusi əhəmiyyət kəsb edirdi. Yeni hakimiyyət dərhal dövlət inhisarlarını yaratmağa başladılar. Səltənətdən miras qalmış duz, tütün, barıt, poçt inhisarlarına yeni inhisarlar əlavə olundu. Belə ki, 1923-cü ildəşəkər və neft məhsulları, 1929-cu ildə kibrit, 1933-cü ildə tiryək, barıt və partlayıcı maddələrin, ov tüfəngi və digər odlu silahın istehsalı və idxalında və nəhayət, 1942-ci ildə kofe və çay istehsalında dövlət inhisarları yaradılmışdır. Dövlət inhisarlarının böyük fiskal rolu ilə yanaşı milli iqtisadiyyatın dəstəklənməsi, qoruması və inkişafında, xarici şirkətlərin iqtisadiyyatın mühüm sahələrindən sıxıştırılmasında böyük rolu var idi. Lakin 2-ci dünya müharibəsindən sonra, xüsusən DP hökuməti dövründə dövlət inhisarlaşması

prosesi nəinki dayandırılmış, hətta özəl sahibkarlara rəqib olan bəzi inhisarlar özəlləşdirilmişdir.1946-cı ildə kofenin, 1942-ci ildə kibritin, 1949-cu ildə alışqanın, 1955-ci ildə barıt və silahın istehsalı və satışı özəlləşdirilmişdir. 1948-ci ildə Türkiyə hökuməti yeni inhisar yaratmamaq öhdəliyini götürdü. İnhisar vergilərinin maliyyə sistemində rolu xeyli azalmışdır. 60-cı illərdə onlar vergi gəlirlərinin yalnız 0,5%-ni təşkil edirdi və 1969-cu ildə bu vergi ləğv olunmuş və aksiz vergilərə daxil edilmişdir.

Respublikanın yaranmasından sonra Türkiyənin fiskal sistemində xüsusi rol gömrük vergilərinə məxsusdur. Onlar bir sıra üstünlüklərə malikdir. İlk növbədə, onlar digər dolayı və birbaşa vergilərlə müqayisədə daha rahat yığılır, çünki əmtəələrin idxalı ilə məhdud sayda firmalar məşğuldur, problemi yalnız qaçaqmalçılıq yaradır. Bundan başqa, bu vergi məhdud yığımların qənaəti üçün istifadə oluna bilər. Məhz onların vasitəsilə idxal olunan zinət əşyalarının istehlakını məhdudlaşdırmaq olar. Həmçinin milli iqtisadiyyat üçün mühüm olmayan əmtəələrin idaxalını da məhdudlaşdırmaq olar. Differensial gömrük rejimi iqtisadiyyatın mühüm sahələrinin stimullaşdırılmasında mühüm rol oynaya bilər. Proteksionizm aləti kimi o, bu sahələri xarici firmaların rəqabətindən qoruya bilər.

Türkiyə hökümətinin gömrük və xarici iqtisadi siyasətdə iki tendensiya müşahidə olunur. Bir tərəfdən, Respublikanın yaranmasından sonra büdcənin maliyyə vəsaitlərinə ehtiyacı yüksək olduğu şəraitdə gömrük tariflərinin fiskal rolu artmışdır. Sahibkarlar da onun proteksionizm aləti kimi istifadəsində maraqlı idilər. Digər tərəfdən milli firmalar dövlət protesionizmi hesabına güclənərək dünya bazarlarına çıxmaq üçün səy göstərməyə başlamışdır. Başqa sözlə türk hökümətinin məqsədi milli iqtisadiyyatı gücləndirmək məqsədilə onun dünya bazarı ilə əlaqələrinin genişləndirilməsi üçün əlverişli şəraitin yaratmasından ibarət olmuşdur. Bu tendensiya, xüsusən, 70-ci illərin ikinci yarısından sonra güclənməyə başladı. Dünya bazarları ilə inteqrasiya gömrük tariflərinin rolunun azalmasına gətirib çıxarmışdır. Gömrük tariflərinin rolunun azalması həmçinin ölkənin avadanlıq, texnologiya, elmi biliklər və xammalın idxalından asılılığı ilə əlaqədardır.

Məlum olduğu kimi, səltənət dövründə gömrük siyasətində Türkiyə, Türkiyədə xaricilərin hüquqlarını tənzimləyən və beləliklə, xarici inhisarlara imtiyazlı şərait yaradan kapitulyasiya rejimindən asılı idi. Xaricilər üçün xüsusi iqtisadi hüquqlar Türkiyənin idxal mallarından gömrük vergiləri tutmaq imkanlarını məhdudlaşdırırdı. Aşağı gömrük tarifləri malların qiymətləri əsasında təyin olunmuşdur və proteksionizmdən çox fiskal rolunu oynayırdı. 1916-cı ildə daxil edilmiş və əmtəələrin fiziki xüsusiyyətlərinə əsaslanan xüsusi vergilər müəyyən qədər proteksionizm rolunu oynayırdı. Lakin 1-ci dünya müharibəsi illərində yüksək inflyasiya nəticəsində bu

vergilərin proteksionizm rolu azalmışdır. 1920-ci ildə İstanbulu işğal etmiş İngilis-Fransa müttəfiqləri onu ləğv etmişdir.

Kamalçılar hakimiyyətə gələn kimi dərhal bu tarifləri bərpa etdilər. 1920-ci ildə 1916-cı ilin gömrük tarifləri 8 dəfə artırılmışdır. Qiymət artımını nəzərə alsaq (müharibə illərində 2,8 dəfə) bu, rüsumların real ifadədə artımı demək idi. Bir ildən sonra 1921-ci ildə 4 növ ən mühüm əmtəə üçün tariflər yenə 3 dəfə artmışdır. 1923-cü ildə 71 növ əmtəə qrupu üçün təyin edilmiş gömrük tarifi 1916-cı il səviyyəsindən 12 dəfə yüksək idi, lakin həmin ilin avqust ayında Lozan müqaviləsinin bağlanması və Milli Məclisdə təsdiq edilməsindən sonra Türkiyə hökuməti konfrans iştirakçıları əmtəələrinə olan gömrük tariflərini 1916-cı il səviyyəsinə qədər endirməyə məcbur oldu və yaxın 5 il ərzində onları dəyişməyə hüququ yox idi.

Yalnız 5 ildən sonra 1929-cu ildə Türkiyə hökuməti müstəqil gömrük rejimi tətbiq etdi və xarici ticarəti tam nəzarətə aldı. Yeni rejimə görə gömrük rüsumları kəskin artmışdır.İkinci dünya müharibəsinə qədər gömrük rüsumlarından daxil olmalar dövlət gəlirlərinin əsas mənbəyi olmuşdur.

İkinci dünya müharibəsi illərində idxalın azaldığı və idxal qiymətlərinin artdığı dövrdə gömrük tarifləri dəyişməmişdir, bu da onların real ifadədə əhəmiyyətli dərəcədə azalmasına gətirib çıxarmışdır. Gömrük rüsumlarından büdcəyə daxil olmalar müharibə illərində bütün vergilərin 2 - 4%-nə qədər azalmışdır. 1946-cı il sentyabrda lirə devalvasiya olundu və Nazirlər Kabinetinə mövcud tariflərə 56%-dək xüsusi əmsal tətbiq etmək hüququ verilmişdir. Lakin Qərb ölkələri ilə əməkdaşlığı genişləndirmək məqsədilə xarici ticarətin liberallaşdırılması gömrük rüsumlarının fiskal və proteksionist rolunun azalması ilə müşayiət olunurdu (bax: cədvəl).

Cədvəl

Gömrük rüsumları və idxal vergilərinin xüsusi çəkisi, %

il	Gömrük rüsumları	Bütün idxal vergiləri
1926	15	26
1929	16	26,7
1930	38	38
1932	45	45
1933	50	54
1936	51	63
1937	46	59
1938	33	41
1940	28	48
1942	21	28
1946	12	19
1950	16	22

Xarici ticarətin liberallaşdırılması prosesi Demokratik Partiyanın hakimiyyətə gəldiyindən sonra daha da sürətlənmişdir. Lakin çox keçmədən məlum oldu ki, ölkə xarici siyasətində bu cür dəyişikliyə hazır deyil: qısa müddət ərzində valyuta və qızıl ehtiyatları tükənmiş, xarici ticarət kəsiri kəskin artmışdır. Bunun nəticəsində Türkiyə hökuməti gömrük siyasətini dəyişməyə məcbur oldu və 1954-cü ildə gömrük tarifləri haqqında qanun qəbul etdi. Bu qanuna görə gömrük tarifləri beynəlxalq (Brussel) əmtəə təsnifatına uyğunlaşdırılmış və rüsumların əmtəə qiymətinə əsasən müəyyən qədər artması nəzərdə tutulurdu. Ümumilikdə DP dövründə gömrük rüsumlarından daxil olmalar mərkəzi büdcənin vergi gəlirlərinin 9-13%-dən çox deyildi.

1960-cı illərdə sosial-iqtisadi inkişafı sürətləndirmək məqsədilə həyata keçirilən tədbirlər gömrük siyasətinə də təsir etmişdir. Gömrük tarifləri qısa müddət ərzində iki dəfə (1961-ci və 1964-cü ildə) əhəmiyyətli dərəcədə dəyişilmişdir. Bir çox əsas əmtəələrə tariflər artırılmış və məhdud sayda əmtəələrə (əsasən xammala) isə azalmışdır. 1970-ci ildə xarici əməliyyatlardan tutulan vergilər 2-ci dünya müharibəsindən sonra rekord həddə - idxal dəyərinin 55%-nəçatmışdır. Həmin ildə onlar vergi gəlirlərinin 23%-ni təşkil etmişdir. Bu, Qərb ölkələri ilə əməkdaşlığı artırmaq istəyən hökuməti çox narahat edirdi. 1972-ci ildə gömrük rüsumları haqqında yeni qanun qəbul edilmişdir. Gömrük rüsumlarından daxil olmalar azalmağa başlamış və 1977-ci ildə idxal dəyərinin yalnız 30%-i və büdcənin vergi daxil olmalarının 18%-ni təşkil etmişdir.

Türkiyənin gömrük siyasətində növbəti mərhələ 1980-ci ildən sonra "açıq iqtisadiyyat"ı nəzərdə tutan yeni inkişaf strategiyasının həyata keçirilməsi olmuşdur. Hökümətin fikrincə, daxili bazarın xarici rəqabətdən qoruması və idxalı əvəz etmək strategiyasına söykənən sürətli sənayeləşmə siyasəti özünü daha doğrultmur. Yeni kurs gömrük rüsumlarının rolunun ölkənin iqtisadi inkişaf və xüsusən, büdcənin maraqlarına uyğun dəyişməsini şərtləndirirdi.Türkiyənin "Ümumi bazar" qarşısında bu ölkələrdən idxal olunan mallara gömrük rüsumlarını azaltmaq öhdəliyi də gündəmə gəlmişdir. 1984-cü ildə T.Özalın hökuməti xarici ticarətin geniş liberallaşmasını həyata keçirmişdir. İki ildən sonra (1986-cı ildə) 163 növ idxal mallarına (kompyuter avadanlığı, kimya, neft kimyası məhsulları, toxuculuq məmulatları, ərzaq məhsulları və s.) gömrük rüsumlarının azalması həyata keçirilmişdir. Eyni zamanda 108 növ idxal mallarına (metallurgiya məhsulları, kənd təsərrüfatı, ərzaq məhsulları və s.) gömrük rüsumları artmışdır.Ümumiyyətlə, xarici ticarətə vergilərdə 1980-ci illərdə artım tendensiyası müşahidə olunurdu. 1988-ci ildə onlar büdcənin vergi daxil olmalarının 20,1%-ni təşkil etmişdir (1980-ci ildə bu göstərici 9,8% olmuşdur). Bu, ilk növbədə, xarici ticarətin artmasının nəticəsi olmuşdur.

2-ci Dünya müharibəsindən sonra aksiz vergilərinin rolunun artması müşahidə olunur. 1956-cı ildə aksiz vergiqoymasının yeni sistemi tətbiq

olunmağa başlamış və 1980-ci illərin əvvəlinə qədər dolayı vergilərin əsasını təşkil etmiş istehlak vergisi tətbiq edilmişdir.

İstehlak vergisi bir sıra vergilərdən ibarətdir və praktikada iki qrupa bölünür: əmtəə vergiləri və xidmət vergiləri. Əmtəə vergiləri aşağıdakı vergilərdən ibarətdir: daxili istehsala, neft məhsulları istehsalına, inhisarçı əmtəələrin istehsalına, qəndin istehlakına, əmlakın satışı və satın alınmasına, nəqliyyat vasitələrinin satın alınmasına vergilər. Xidmət vergiləri bank və sığorta şirkətlərinin əməliyyatlarına, daşınmalara, poçt xidmətlərinə, binaların tikintisinə, idman lotoreyasına və s. vergiləri daxil edir. İstehlak vergiləri dolayı vergilərin yarısından çoxunu təşkil edirdi.

Dolayı vergiqoymada yenilik istehsal vergilərinin (daxili istehsala, neft məhsulları istehsalına, inhisarçıəmtəələrin istehsalına) tətbiq edilməsi olmuşdur. Məhz bu vergi uzun dövr ərzində istehlak vergisinin, xüsusən, əmtəə vergisinin əsasını təşkil edirdi.

Bu vergi xammalın satışı zamanı və yalnız iri müəssisələrdən tutulur. Məsələn, mədənçıxarmada çoxlu sayda müəssisələrdən yalnız 3-4-ü istehsal vergisinə cəlb olunmuşdur.

Cədvəl məlumatları göstərir ki, bu vergi hesabına dolayı vergilərin yarısından çoxu toplanırdı.

Cədvəl

İstehsal vergisinin dinamikası və vergi sistemində yeri

İllər	İstehsal vergisinin məbləği, mlrd. lirə	Bütün vergilərdə xüsusi çəkisi, %	Dolayı vergilərdə xüsusi çəkisi, %
1960	2	28,9	59,8
1965	3,6	26,4	52,1
1970	8,1	24,4	55,8
1975	26,2	24,8	51,9
1980	159	21,2	56,9
1981	278,2	23,3	65,7

İnvestisiya və ixrac məhsulları istehsal vergisindən azad olunmuşdur. Bəzi əmtəələrdə bu vergi bazar qiyməti deyil, natural göstəricilər əsasında tutulurdu (məsələn duru yanacaqda litr, elektrik enerjisində kvt.s. və s.). Vergi idxal mallarının böyük hissəsinə onların ölkə daxilində emal olunub-olunmadığından asılı olmayaraq şamil olunurdu və beləliklə, əlavə proteksionizm demək idi.

Qeyd etmək lazımdır ki, bu verginin dərəcələri reqressiv olmuşdur ki, bu da verginin fiskal rolunu əhəmiyyətli dərəcədə azaldırdı.

8.5. Müasir Türkiyə iqtisadiyyatının dövlət tənzimlənməsi sistemində vergilər

Налоги в системе государственного регулирования экономики современной Турции/Турция. История и современность. Москва. “Наука”, 1988, с.222-230.

Bütün respublika dövrü ərzində inkişaf etmiş dövlət tənzimlənməsi sistemi planlaşdırma dövründə xüsusilə gücləndi. Sürətli sosial-iqtisadi inkişafa xüsusilə ehtiyac duyulduğu bir şəraitdə,türk dövləti nəinki, aparıcı investor rolunda çıxış edir, həmçinin özəl sektorun fəaliyyətinə fəal təsir göstərməyə, kapitalist istehsal münasibətlərinin intensiv inkişafı prosesinə təsir edirdi.

Hakim dairələrin strategiyasında iqtisadiyyata dövlət müdaxiləsinin pul, kredit, qiymət, büdcə xərcləri kimi maliyyə kateqoriyaları ilə yanaşı, vergi mexanizmi də mühüm hesab edilirdi. Dövlət tədbirlərinin həyata keçirilməsində vergilər ikili rol oynayır. Dövlət gəlirlərinin əsas mənbəyi olaraq onlar, bir tərəfdən dövlət mexanizminin özünün maddi bazasıdır ki, bu da verginin fiskal funksiyasının köməyi ilə həyata keçirilir, digər tərəfdən isə vergilər təsərrüfat həyatına dövlət təsirinin mühüm aləti kimi çıxış edir və bunun üçün də onların tənzimləyici funksiyası istifadə edilir.

Vergilərin tənzimləyici funksiyası Türkiyədə bu və ya digər formada respublikanın mövcud olduğu bütün dövr ərzində istifadə edilmişdir. Lakin 60-cı illərin əvvəllərində 27 may 1960-cı ilin dövlət çevrilişindən sonra, respublika rejimində keçilmiş yolun və gələcək perspektivlərin tənqidi qiymətləndirilməsi zamanı, verginin bu funksiyası bir çox siyasi və elmi dairələrdə ölkənin vergi sisteminin ən zəif zənciri sayılırdı. Müvafiq olaraq o dövrdə aparılmış vergi reforması da vergilərin həm fiskal, həm də tənzimləyici rolunun artmasına istiqamətlənirdi. Türkiyənin Böyük Millət Məclisində 60-cı illərin birinci yarısında qəbul edilmiş qanunlarda iqtisadiyyatın dövlət tənzimlənməsi sistemindəvergi mexanizmindən geniş istifadə edilməsi üçün hüquqi baza yaradıldı.

Türkiyədə həm nəzəri həm də təcrübi planda vergilərin tənzimləyici funksiyasının inkişafının nəzəri əsasını Qərb alimlərinin, xüsusilə də ingilis iqtisadçısı Keynsin “vergiyə cəlbolunma vasitəsilə iqtisadiyyatın idarə edilməsi” nəzəriyyəsi təşkil edirdi.

Türk müəlliflərinin işlərində vergi kimi neqativ halın (hər vergi ödəyicisinə görə) ölkənin bəzən mürəkkəb, bəzən də əks təsirli sosial- iqtisadi problemlərinin həllində aparıcı rolu açıqlanırdı. Aparıcı türk mütəxəssislərinin biri olan İ.Türkün fikrincə, vergilərin tənzimləyici funksiyası inkişaf etməkdə olan ölkələrdə iqtisadi artımın sürətli inkişafını təmin etməlidir. Digər mütəxəssis Q.Batuk, hesab edirdi ki, dövlət-kapitalist tədbirlərinin aləti kimi vergi

mexanizmi dövlətin digər funksiyalarının:iqtisadiyyatda ehtiyatların səmərəli bölgüsü və istifadəsi, tam məşğulluq, iqtisadi artımın yüksək səviyyəsi və nəhayət, milli gəlirin " sosial ədalət " prinsipi ilə bölgüsünü həyata keçirməlidir.

Vergilərin hədsiz artımı və 80-cı illərin astanasında ÜDM demək olar ki, beşdə bir hissəsinin dövlətləşdirilməsi vergilərin fiskal mexanizminin iqtisadiyyata təsir məqsədilə istifadəsinə imkan yaratdı.

Sabit kapitalın və işçi qüvvəsinin təkrari stehsalı prosesində türk dövlətinin xüsusi rolu vergilərin tənzimləyici funksiyasının təqibetdiyi vəzifələrin çoxplanlı xarakterini müəyyən edirdi.

Türk dövləti vergi aparatının köməyilə praktikada "yığımın və təkrari stehsal prosesinin bütün tərəflərinə" təsir edirdi. Bu zaman vergilərin tənzimləyici funksiyasının əsas parametrləri ölkənin kapitalist inkişafının hər tarixi mərhələsində hakim dairələrin ümumi iqtisadi platformasına müvafiq olaraq korrektə edilirdi.

Sürətli sənayeləşdirmə siyasətinin həyata keçirilməsi dövründə, türk hakim dairələri planlaşdırma əsasında ictimai inkişafa məqsədyönlü xarakter verməyə çalışırdı, vergi mexanizmi müəyyən edilmiş planların həyata keçirilməsində tənzimləyici alət kimi gözdən keçirilirdi. Vergi daxil olmalarının həcminin və strukturunun dəyişilməsi müvafiq dövr üçün işlənilmiş sosial- iqtisadi strategiyanın həyata keçirilməsinə yönəldilirdi. Əsas imtiyazların verilməsi zamanı iqtisadi fəaliyyətin həvəsləndirici rolunun inkişafın ümumi strategiyasına uyğunluğu dəyişməz olaraq qalırdı.

Vergi tənzimlənməsinin mərkəzi problemi kimi təkrari stehsal prosesinin ən incə sferası olan yığım problemi çıxış edir. Kapitalın yığım mənbələrinin məhdudluğu şəraitində Türkiyənin hakim dairələri vergi aparatının köməyilə həm kapitalın kütləsinin və normalarının artmasına, həm də yığılmış ehtiyatların istifadəsi xarakterinə təsir etməyə çalışırdılar.

Dövlətin sərəncamına artan vergi daxil olmaları və dövlət sektorunda yığımın artımına səbəb olurdu, bunun sayəsində kapital qoyuluşlarının yarısından çoxu həyata keçirilirdi. Özəl sektora birbaşa və dolayı dövlət dəstəyinin maddi bazasını vergi daxil olmaları təşkil edir, bu da öz növbəsində müvafiq olaraq özəl sektorun inkişafına təsir edir.

Yığım normasının artırılmasında mühüm rolu sürətli amortizasiya siyasəti oynayır, bu isə vergi mexanizminin köməyilə stimullaşdırılır.

Ölkədə kapitalın zəif yığımı şəraitində əsas kapitalın yenilənməsi və genişləndirilməsi məqsədilə hökümət sahibkarlara əsas kapitalın amortizasiyasını, onların faktiki aşınmasına uyğun norma ilə deyil, artırılmış ölçüdə silinməsinə icazə verdi. Bunun nəticəsində suni olaraq istehsal edilmiş malların dəyəri azaldı, müvafiq olaraq həm də balans gəlirinin məbləği azaldı.Vergilərdən bu ayırmaların azadolması amortizasiya fondunu artırır, kapitalın artması mənbələrinin genişlənməsinə səbəb olur. Planlaşdırma

illərində amortizasiya ayırmaları normalarına iki dəfə böyük dəyişikliklər edildi: 1971-ci ildə onlar 6-20 % həcmində bina və tikililər üçün, fabrik–zavod avadanlığı üçün isə 50% həcmində dəyişirdi.1983-cü ilin yanvarında amortizasiya ayırmalarının minimum norması 25% - ə qədər artdı, bununla da əsas kapitalın 4 il ərzində təzələnməsi nəzərdə tutulurdu.1963-cü ildə qəbul edilmiş 205 saylı Qanun ilə sahibkarlara istehsal fəaliyyətinin ilk illərində amortizasiya ayırmalarının ikiqat ölçüsünün hesablanmasına, bu zaman amortizasiya ayırmalarının normalarının 25% - ə qədər, 1983-cü ildən sonra isə 50 % - ə qədər artırılmasına icazə verildi.

Vergi qanunvericiliyində yığımların kapitallaşmasında bir çox təbəqələrin mükafatlandırılmasına diqqət yetirildi. Bir çox imtiyazlı vergi tədbirlərində həyata keçirilən şərtlərdən biri xüsusi vəsaitlərin hesabına kapital qoyuluşlarının maliyyələşməsi idi. Sahibkarlığın səhmdar formalarının inkişafına ciddi fikir verilir, bunun üçün vergi imtiyazları zamanı kapitalın bu təşkilati forması nəzərə alınırdı.

Kapital yığımı sahəsində vergi tənzimlənməsinin mühüm forması kimi–istehsalın və kapitalın təmərküzləşməsi və mərkəzləşməsi prosesinin stimullaşdırılması idi. Bu məqsədlə imtiyazların verilməsi zamanı kapital qoyuluşlarının minimum həcminə qoyulan tələb həyata keçirildi. Məhz buna görə tələb olunan minimum kapital qoyuluşu real hesablamalarda 1963-cü illə müqayisədə, 12 sentyabr 1980 – ci il hərbi çevrilişindən sonra üç dəfə artdı.

Özəl sektorda yığımların yığılması və işgüzar həyatın dirçəlməsi işində əsas faktor kimi o çıxış edirdi ki, Türkiyənin hakim dairələri vergi aparatının köməyilə özəl sahibkarlara analoji dövlət sektoru ilə müqayisədə üstün şərait yaratdı.

Türk hakimiyyətinin kapitalın yığımı sahəsində vergi siyasətinin mühüm istiqaməti-ssuda kapitalı bazarının formalaşması prosesinin stimullaşdırılması idi. Azad pul vəsaitlərinin bank depozitləri qismində cəlb edilməsi məqsədilə, dividendlərin müəyyən hissəsinin və müxtəlif pul mükafatları gəlir vergisindən azad edilirdi.

İnvestisiya fondlarına çox böyük tələbin olduğu şəraitdə, nəinki yığım normalarının artmasına və ssuda kapitalı bazarının inkişafına yönəldilmiş tədbirlər, həmçinin maddi, pul və insan ehtiyatlarının səmərəli istifadəsinin fəal stimullaşdırılması, onların xalq təsərrüfatının mühüm sahələrinə yönəldilməsi mühüm əhəmiyyət kəsb edirdi. 202 saylı 28 noyabr 1963-cü il tarixli Qanuna əsasən özəl sahibkarlar qismən gəlir vergisinin və koorparasiya vergisinin ödənilməsindən azad edilirdilər, bir şərtlə ki, onların investisiyası aparıcı sahələrə və ucqar rayonlara yönəlirdi. Gəlirlərin vergiyə cəlb olunmayan hissəsi üçün bu 30%, kənd təsərrüfatı sahələrinə kapital investisiyası zamanı - 40%, ucqar rayonlara isə - 50%. Aparıcı sahələrin belə vergi mükafatlandırılması 80-ci illərin ortalarına qədər davam etdi. 1980-ci ilin r4cf

dekabrında hərbi hakimiyyət ölkənin ucqar rayonlarına kapital qoyuluşu zamanı imtiyaz normalarını dəyişdirərək 50% - dən 60 % - ə qaldırıldı.

Xarici ticarət əməliyyatlarının tənzimlənməsində vergilərin mühüm rolu var. Belə ki, ölkənin iqtisadi inkişafının bir çox problemlərinin həlli xarici ticarətin inkişafından asılıdır. Ölkənin hakim dairələrinin ölkənin milli bazarlarının Qərbin inhisarçı kapitalına açmaq cəhdlərinə baxmayaraq, vergilər 60-70 illərdə müəyyən dərəcədə himayəçilik siyasətinin həyata keçirilməsi üçün istifadə edilirdi. Eyni zamanda, türk iqtisadiyyatın müasir mərhələsində istehsal prosesinin texniki silahlandırılması ilə bağlı əsas kapitalın elementləri, əsasən xarici bazardan əldə edilirdi. Bununla bağlı özəl sahibkarlara gömrük rüsumlarının və digər xarici ticarət vergilərinin ödənilməsində xeyli üstün imtiyazlar verilirdi.474 saylı 14 may 1964-cü il tarixli Nazirlər Şurasının Qanunu ilə sahibkarların investisiya mallarının ixracı zamanı gömrük rüsumlarından və digər yığımlardan azad edilməsi və ya bu ödəmələrin 5 il ərzində uzadılması hüququ verildi.

İxrac üçün fəaliyyət göstərən, turizm sahəsinin inkişafı üçün intensiv tədbirlər nəzərdə tutulurdu. Valyuta daxil olmalarının əsas mənbəyi kimi ixrac tamamilə xarici ticarət vergilərindən azad edildi. Bundan əlavə, 261 saylı 05 iyul 1963-cü il qanunu ilə Nazirlər Şurasına daxili, əsas etibarı ilə dolayı, ixrac mallara vergilərin ödənilməsi zamanı geniş səlahiyyətlər verildi. Daxili vergilərin bu və ya digər növlərinin tam və ya qismən azad edilməsi zamanı, bir qayda olaraq əvvəl tutulmuş vergilərin mal ixrac edilərkən qaytarılması həyata keçirilirdi. Bundan əlavə, mövcud olan qaydalara görə, ixracatçılara verilən bank kreditlərinin bütün növləri (həm xüsusi vəsaitlər, həm də Mərkəzi Bankın resursları hesabına) vergilərdən azad edilirdi.İxracın inkişafında dönüş yaradılmasına istiqamətlənmiş dövlət tədbirlərinin geniş sistemi 1980-ci illərdə həyata keçirilən "xarici bazarlara açılan vəçox böyük ixrac potensialına malik sənayeləşdirmə strategiyasının" tətbiqi ilə daha geniş vüsət aldı.

Bu strategiyanın əsas prinsiplərindən biri "emal sənayesinin məhsullarının ixracının artırılması" oldu. Mövcud həvəsləndirici tədbirlərin siyahısına yeni, daha hiss edilən vergi endirimləri əlavə edildi. Bu zaman yeni şəraitdə əsas diqqət "proteksionizmə deyil, istehsal xərclərinin azaldılmasına" yönəldildi. Belə ki, ixracatçılara xaricdə geniş imkanlar verildi. 1 dekabr 1981-ci ildən hökümətin investisiya mallarının ixracı zamanı gömrük rüsumlarının tam aradan qaldırılması qərarı qüvvəyə mindi. Bu sahədə yenilik o oldu ki, 2 yeni iqtisadi proqramın həyata keçirilməsi dövründə ixracatçılar üçün gömrük rüsumları tamamilə nəinki investisiya mallarının gətirilməsi zamanı, həmçinin xammalın, aralıq tələb məhsullarının idxalı zamanı da ləğv edildi.

Tədqiq edilən dövrdə bütövlükdə dövlətin dövlət tənzimlənməsi tədbirlərinin geniş arsenalı, həmçinin vergi mexanizmi, ölkənin iqtisadi strukturunun dəyişilməsində öz rolunu oynadı.İnvestisiya ehtiyatlarının

istiqamətlərində müəyyən dəyişikliklər baş verdi. Xalq təsərrüfatının bir çox önəmli sahələrində, həmçinin ixracata işləyən sahələrdəsürətli inkişaf baş verdi. Bu zaman türk dövlətinin vergi siyasəti geniş təkrari stehsal prosesinə əks təsir göstərdi. Bir tərəfdən, fiscal mexanizm və iqtisadi kateqoriya kimi vergilər yığım kapitalının formalaşması prosesində mühüm rol oynadılar.

Əhalinin geniş kütlələrinin şəxsi istehlakının məhdudlaşdırılması hesabına həyata keçirilən vergilərin fasiləsiz artımı, yığım fondu və istehlak arasında qeyri-asılılıq yaradır. Əgər dövlətin vergi daxil olmalarının ümumi məbləğini 100 il ərzində götürsək, 1963- cü ildə 607 bənddə olan özəl sektor istehlakı 1977-ci ildə 341-ə qədər, 1980-ci ildə isə 397 bəndə qədər azalmışdır. Hərçənd vergilərin bütün məbləğinin son istehlakdan axırıncı xaricolma kimi hesab etmək olmaz. Belə ki, vergilərin bir hissəsi dövlət istehlakı kimi vətəndaşlara qayıdır, bu da dövlətin tələb və təklifin strukturuna müdaxiləsinin güclənməsinə sübutdur. 1963-cü ildən 1977-ci ilədək məcmuu kapital daxil olmaları 3,7 dəfə artmışdır. Özəl sektorda - 2,3 dəfə, dövlət sektorunda isə - 3,2 dəfə, deməli, yığım fondu ilə istehlakın birincinin xeyrinə dəyişməsinin mövcudluğunun şahidi oluruq. Əhalinin çox böyük hissəsinin yaşayış səviyyəsinin aşağı olduğu şəraitdə şəxsi istehlak fondunun azaldılması, ödəmə qabiliyyətli tələb və istehsalın arasındakı qeyri-asılılıq yaradır, əks əlaqəli sosial-iqtisadi nəticələrə gətirib çıxarır, sosial münaqişələrin kəskinləşməsinə səbəb olur.

Vergilərin tənzimləyici funksiyası bir qayda olaraq fiskal funksiyanın hesabına həyata keçirilir. Bununla da dövlət gəlirlərinin xeyli hissəsi azalır. Bu da öz növbəsində xalq təsərrüfatının mühüm sahələrinin və sosial problemlərin həllinə dövlət investisiyalarının imkanlarının darlığına gətirib çıxarır. Özəl kapitalın sahə və ərazi yerdəyişməsinin mühüm zənciri – gəlirin orta normasıdır. İri imtiyazların verilməsinə baxmayaraq, özəl qoyuluşlarının geniş axınına nail olmaq mümkün olmadı.İqtisadiyyatın mühüm sahələrinə kapital qoyuluşlarının artımı, göstəricilərdən göründüyü kimi, dövlət sektorunun hesabına təmin edilir. (%)

	1962-67	1968-72	1973-77	1978-82
Dağ hasilat sənayesi	73,6	79,8	92,6	93.4
Emaledici sənaye	32.7	43,5	43,4	51,4
Energetika	96,6	92,7	97,2	98,1
Nəqliyyat	77,4	69,6	61,7	62,3

Bu onu göstərir ki, dağ-mədən sənayesi, energetika, nəqliyyat kimi sahələrdə dövlət investisiyaları üstünlük təşkil edir. Emal sənayesinə gəlincə isə, 3 beşillik plan illərində özəl qoyuluşlar üstünlük təşkil etsə də, dövlət siyasətinin köməyi ilə gəlirin yüksək səviyyəsi təmin olundu. Türk iqtisadçısı O.Özgürün göstəricilərinə əsasən, əlavə dəyəri özəl sektorda emaledici sənaye üzrə 1973-cü ildə 263% əvəzinə 340%, 1950-ci ildə isə 173% təşkil etdi.Bu

da gəlir normasının yüksək artımına sübutdur. Bundan əlavə, bu sahəyə investisiya vergi mexanizminin köməyi ilə stimullaşdırılmışdır. Belə ki, 1976-1980-ci illərdə kapital qoyuluşlarının 70% emal sənayesinə düşür. Belə qoyuluşların üçdə biri 1982-ci ildə toxuculuq və yeyinti sənayesinə yönəldilmişdir, harda ki sahibkarlar özlərinə yüksək gəlir norması təmin edirlər. Aşağıda özəl investisiyaların sahə bölgüsü göstərilir (ümumi yekuna % - lə)

	1963-67	1968-72	1973-77	1978-98
Kənd təsərrüfatı	9,0	9,1	13,6	10,8
Dağhasilat sənayesi	3,2	3.4	0,6	0,8
Emaledici sənaye	29.5	32.0	32.7	29.7
Energetika	0.5	1.4	0.4	0.6
Nəqliyyat	7.5	10.3	16.1	15.2
Turizm	7.1	3.0	1.2	0.5
Mənzil tikintisi	40.3	30.6	32.4	36.2
Maarifləndirmə	0.2	0.3	0.2	0.2
Səhiyyə- sağlamlıq	0.2	0.3	0.1	0.2
Digər	2.5	9.6	2.7	5.8
Cəmi :	100	100	100	100

İqtidarın səyinə baxmayaraq özəl qoyuluşların istiqamətində bütövlükdə çox az dəyişikliklər müşahidə edilir. Özəl kapitalın hərəkətində əsas həvəsləndirici motiv olan gəlir normasının rolu əsasən kəskin rəqabət dəyişiklikləri illərində özünü göstərir. Belə ki, son maliyyə-iqtisadi böhran zamanı investisiyaların xüsusi çəkisi emaledici sənayedə yenidən azalmağa başladı,hansı ki, bu zaman özəl sektorun ümumi investisiyalarında mənzil tikintisinə qoyuluşlarının həcmi 1978-1982-ci illərdə 30,6 % əvəzinə 36,2%-dək artdı. İkinci beşillik planda isə 32,4% oldu.

Bütün bunlar həmin dövrdə vergi mexanizminin təkmilləşməyə böyük ehtiyac olduğunu göstərir.

IX FƏSİL
TÜRKİYƏ QLOBAL İQTİSADİ İNKİŞAF YOLUNDA

9.1. Türkiyənin müstəqil və demokratik iqtisadi quruculuq təcrübəsinin prioritetləri

“İpək yolu”, 2003, №3.

Dünyanın siyasi xəritəsini kökündən dəyişdirən XX əsr üç qitənin böyük bir sahəsində altı yüz ildən çox hökmranlıq etmiş Osmanlı imperiyasının rəsmi süqutunu başa çatdırdı. Uzun müddət qüdrətli bir dövlət kimi yaşamış bu imperiya Avropa renesans dövrünü yaşamağa başladıqda özünün durğunluq, sonra isə tənəzzül mərhələsinə daxil olmuş, XIX əsrin axırlarında isəəslində yarımmüstəmləkə vəziyyətinə düşmüşdür. Zaman irəlilədikcə, siyasi və iqtisadi həyatda özünü göstərmiş böhran və tənəzzül həyatını bütün sahələrinə sirayət etmiş, imperiyadaxili müharibələr onun əsaslarını sarsıtmışdır. Mütləqiyyət rejiminin hüdudsuz hökmranlığına qarşı yönəlmiş «Gənc türklər» hərəkatı 1908-ci ildə konstitusiyalı monarxiya yaradılması ilə nəticələndi. Bu hərakat ölkədə kapitalizmin inkişafına müəyyən təkan verməyə başladı. Lakin dünyanın bölüşdürülməsi uğrunda mübarizənin dəhşətli xarakter aldığı birinci dünya müharibəsi dövründə Osmanlı İmperiyası tarixə qovuşdu. Hüquqi cəhətdən onun aqibətini 10 avqust 1920-ci ildə Sultanın imzaladığı Sevr müqaviləsi həll etdi.

Tarix boyu heç vaxt belə vəziyyətə düşməmiş türk milləti böyük maddi və mənəvi məhrumiyyətlərə düçar olmuş, çox gücsüz, yorğun və çarəsiz vəziyyətə düşmüş, lakin heç vaxt özünün müstəqillik ümidini itirməmişdir. Müstəqillik inamını özünə dayaq seçmiş türk xalqı cəmiyyətlər və təşkilatlar vasitəsilə bir yumruq kimi birləşmiş, köksündə Atatürk dühasını yetişdirmiş və yadelli işğalçılara qarşı qeyri-bərabər ölüm-dirim müharibəsinə girişmişdir.

19 may 1919-cu ildə Mustafa Kamalın Samsuna gəlməsi ilə Milli Azadlıq Savaşı başlanmış oldu. «Ya istiqlal, ya ölüm» şüarını irəli atmış gənc general ilk baxışda mümkün olmayan bir şəraitdə xalqı antiimperialist müharibəyə qaldırdı və misilsiz hərbi zəfərlərlə taclandırılmış Türkiyə Cümhuriyyətini Böyük Türk xalqına ərməğan etdi.

Avropalıların yekdilliklə «xəstə adam» adlandırdıqları Sultan Türkiyəsinin yaraları yalnız yabancı istilasının aradan qaldırılması ilə sağaldıla bilməzdi. Dərin kök salmış, qorxulu bir şəkil almış «daxili xəstəliklər» də öz müalicəsini gözləyirdi. «Daxili xəstəliklərin» əlacını Mustafa Kamal Paşa ictimai-siyasi və mənəvi həyatda orta əsr qalıqlarına sarsıdıcı həmlə etməkdə, müasir mədəni millətlər səviyyəsinə doğru sürətlə irəliləməkdə görürdü. O,

dönə-dönə qeyd edirdi ki, «sivilizasiya yolunda qazanılan müvəffəqiyyət yeniləşmə dərəcəsindən asılıdır».

Elmi əsaslara söykənmiş dövlət başçısı kimi böyük Atatürk şanlı hərbi zəfərlərlə yanaşı, Türkiyənin gələcəyini xoşbəxtliyə aparan misli görünməmiş ictimai vəzifələri də yerinə yetirə bilmişdir. Yeni bir ictimai struktur yaratmaq, bu strukturu istiqamətləndirmək, onun bölünməzliyini, vəhdətini təmin etmək, müvəffəqiyyətin açarını bütün millətin ixtiyarına vermək yalnız elmi, özünə həyat kredosu seçmiş dövlət başçılarına müyəssər ola bilər. Onun siyasi fəaliyyətinin necə elmi əsaslara malik olduğunu dərindən anlamaq üçün Atatürk inqilablarının mahiyyətinə varmaq, göz bəbəyi kimi sevdiyi Türkiyə Cümhuriyyətinin ictimai, siyasi və hüquqi dayaqlarına diqqət yetirmək kifayətdir. Böyük Atatürk türk millətinin istər maddi, istərsə də siyasi və mənəvi sahədə istiqlaliyyət və üstünlük qazanması, xalqın layiq olduğu mərtəbəyə yüksəldilməsi üçün güclü prosesləri hərəkətə gətirmiş, bütün Türk dünyası üçün də əhəmiyyətli olan Atatürk inqilablarının qələbəsini təmin etmişdir.

1930-cu ildə Türkiyənin dərinliklərinə səyahət edərkən başdan-ayağa xarabalıqlar içində görən K.Atatürkün dediyi sözlər bu gün Azərbaycan üçün də öz aktuallığını itirməyibdir: «Hər şeyi başda durandan gözləmək alışqanlığı xalqımızın zehnində dərin kök salmışdır. İşdə bu zehniyyətlə hər kəs böyük bir təvəkkül və rahatlıq içində, bütün yaxşılıqları yalnız bir şəxsdən, yəni məndən gözləyir, məndən istəyir... Yeri düşdükcə həmişə təkrar edirəm: bütün bu dərdlərin, bütün bu ehtiyacların aradan qaldırılması, hər şeydən əvvəl, tamamilə yeni şərtlər altında yetişmiş bilikli, geniş təcrübəli ixtisas sahibi adam məsələsidir. Sonra da zaman və imkan məsələsidir. Bu yolla əvvəlcə qafaları və vicdanları köhnə, gerilikçi fikir və inamlardan təmizləməlisən... Modern bir dövlət mexanizmi qurmalısan».[1] Atatürkün millətsevərliyi son nəticədə türk millətinin özünəməxsus keyfiyyətlərinin qorunub saxlanılmasına, tərəqqini təmin edən dövlət aparatının yaradılmasına yönəldilmişdir.

Kamalizm ideyalarının mühüm tərkib hissəsini Atatürkün iqtisadi görüşləri təşkil edir. Türkiyə Respublikasının banisi və ilk prezidenti Kamal Atatürk iqtisadçı alim olmasa da, onun saysız-hesabsız nitq və çıxışlarında söylədiyi sosial-iqtisadi səciyyəli fikir və mülahizələr yeni Türkiyənin iqtisadi siyasətinin əsas prinsip və istiqamətlərinin müəyyənləşdirilməsində əhəmiyyətli rol oynamışdır. Mustafa Kamal tamamilə əmin idi ki, siyasi istiqlaliyyət yalnız ölkənin iqtisadi cəhətdən də müstəqil olması şəraitində mümkündür. O, inamla qeyd edirdi: «Siyasi, hərbi zəfərlər nə qədər böyük olursa-olsun, əgər iqtisadi zəfərlərlə taclandırılmazsa, əldə edilən zəfərlər davamlı ola bilməz, az zamanda sönər».

[1] "Atatürkün Söylev ve demeçleri", cilt II, c.107.

İki qitənin - Avropa və Asiya qitələrinin istər ərazi, istərsə də siyasi, iqtisadi və mənəvi baxımdan kəsişdiyi məkanda dünyaya göz açmış, boya-başa çatmış Atatürk hər iki dünyanın məziyyətlərinə dərindən bələd idi. Onun bir siyasi xadim kimi formalaşmasında belə bir görüş mühüm rol oynamışdır: Şərq və Qərb arasında çox baxımdan dərin uçurum vardır. Uçurum iqtisadi sahədə daha dərindir; Qərb iqtisadi mexanizmdən istifadə edərək Şərq ölkələrini amansız istismar edir, türk xalqıorta əsrlərdən qalmış iqtisadi gerilik şəraitində dözülməz həyat tərzinə məruz qalmışdır. Mustafa Kamal yaranmış vəziyyətdən çıxış yolunu ölkənin imperialist dövlətlərindən asılılığının ləğv olunmasında görürdü.

Mustafa Kamalın başçılıq etdiyi yeni rejim, ölkənin əsrlərdən qalmış ümumi geriliyinin aradan qaldırılması yolunu milli iqtisadiyyatın təxirə salınmadan dirçəlməsində görürdü.

O, çıxışlarının birində deyirdi: «Yeni Türkiyə dövləti öz təməllərini süngü ilə deyil, süngünün də dayandığı iqtisadiyyat ilə qoyacaqdır. Yeni Türkiyə dövləti cahangir bir dövlət olmayacaqdır. Fəqət yeni Türkiyə dövləti iqtisadi bir dövlət olacaqdır».[1]

Respublikanın mövcud olduğu 80 il ərzində Türkiyə sosial-iqtisadi inkişaf səviyyəsi baxımından keçmişdə özü vəziyyətində olan Asiya və Afrika ölkələrinin əksəriyyətinin sıralarından qoparaq orta səviyyədə inkişaf etmiş ölkələrin sıralarına daxil olmuşdur. Hətta son 35-40 il ərzində nail olduğu iqtisadi inkişaf sürətinə görə o, dünyanın qabaqcıl ölkələrinin çoxunu belə xeyli qabaqlamışdır. Bu müvəffəqiyyətləri nəzərə alaraq keçmiş Prezident Turqut Özal cənabları Türkiyənin XXI əsrdə inkişaf etmiş kapitalist ölkələri sıralarına daxil olacağı fikrini irəli sürmüşdür.

Haqlı olaraq dünya ictimaiyyətinin fikri «Türkiyə iqtisadi inkişaf modelinə», «Türkiyə iqtisadi möcüzələrinə» cəlb olunmuşdur. Bu möcüzələr öz mənbəyini Atatürk ideyalarından alır. O, öz xalqını az bir zamanda döyüş meydanlarından iqtisadiyyat və tərəqqi meydanına səfərbər edə bildi. Bu sahədə isə xalq qarşısında heç də asan vəzifələr durmurdu. Uzun sürən müharibələrdən sonra ölkə başdan-başa xarabalıqlara çevrilmiş, ölkənin hər yerində xarici kapital hökmranlıq edirdi. Xalqın gücünü onun birliyində görən Mustafa Kamal Paşa ölkənin uzunmüddətli iqtisadi inkişaf strategiyasını müəyyən etmək üçün hələ Respublika elan edilməmişdən əvvəl - 1923-cü ilin fevral-mart aylarında - millətin bütün təbəqələrini (1300 nümayəndənin iştiraki ilə) cəlb etməklə İzmir İqtisadi Konqresini çağırdı. İki aya qədər davam edən bu Konqresin müddəaları 20-ci illərdə Türkiyə hökümətinin iqtisadi siyasətinin əsasını təşkil etdi.

Türkiyənin sürətli sosial-iqtisadi tərəqqisinin təmin edilməsində ən azı aşağıdakı 5 əsas strateji amil mühüm rol oynamışdır.

[1]Yenə orada, cilt, c. 56-57.

1. Ölkədə xarici kapitalın ağalığına birdəfəlik son qoyulması, Türkiyənin xarici iqtisadi əlaqələrinin dəyişən dünya şərtlərinə uyğun olaraq köklü surətdə yenidən qurulması, bu sahədə dinamik siyasətin həyata keçirilməsi və beynəlxalq əmək bölgüsünü üstünlüklərindən maksimum istifadə edilməsi.

2. Milli azadlıq hərəkatının Türkiyənin dünya kapitalist təsərrüfatı sistemində düşdüyü yarımmüstəmləkə vəziyyətinə qarşı aparılmasına və cəlbedici sosialist ideyalarının dünyanın bir hissəsini fəth etməsinə baxmayaraq, kapitalist inkişaf yolunun seçilməsi və inkişafda özəl təşəbbüsə üstünlük və geniş meydan verilməsi; milli burjuaziyanın, müasir tipli kapitalist təsərrüfatlarının yaranması və möhkəmlənməsi üçün geniş tədbirlər sisteminin həyata keçirilməsi;

3. Kamalizmin 30-cu illərdə konstitusiya və partiya proqramı səviyyəsinə yüksəldilmiş mühüm prinsiplərindən biri - çox vaxt etatizm adlanan dövlətçilik prinsipi - iqtisadiyyatın dirçəlməsinə yönəldilərək yeridilən iqtisadi siyasətin əsasını təşkil etməyə başladı. Atatürkün başçılığı altında Cümhuriyyət xalq partiyasının 1931-ci ildə qəbul etmiş olduğu proqramda qeyd edilirdi ki, milləti ən qısa yolla rifaha, ölkəni isə firavan hala çatdırmaq üçün xüsusi təşəbbüsçülüklə yanaşı, xalq üçün müstəsna əhəmiyyəti olan işlərdə dövlətin iqtisadi fəaliyyətindən də geniş istifadə ediləcəkdir.

Mustafa Kamal dövlətçiliyin mahiyyətini belə izah edirdi: «Türkiyənin həyata keçirdiyi dövlətçilik sistemi, on doqquzuncu əsrdən bəri sosializm nəzəriyyələrinin irəli sürdükləri fikirlərdən alınaraq tərcümə edilmiş bir sistem deyildir. Bu, Türkiyənin ehtiyaclarından doğmuş, Türkiyəyə xas olan bir sistemdir. Dövlətçiliyin, bizcə, mənası budur: fərdlərin xüsusi təşəbbüsləri və fəaliyyətlərini əsas tutmaq: fəqət, böyük bir millətin bütün ehtiyaclarını vəçox işlərin hələ görülməmiş olduğunu nəzərə alaraq, ölkə iqtisadiyyatını dövlət öz əlinə aldı».

Etatizm siyasəti ölkə iqtisadiyyatının dirçəldilməsinə yönəldilməklə, xarici kapitalın maliyyə-iqtisadi təcavüzünə qarşı mübarizə ehtiyaclarından doğaraq, həm də bir növ «müdafiə sistemi» idi. «Milli burjuaziya başa düşdü ki, o, müstəqilliyi yalnız xarici rəqabətdən qoruna bilən, özünəməxsus tipik iqtisadi bazaya, habelə milli sənayeyə malik olarsa qazana bilər. Müasir sənayenin yaradılmasını ölkənin müdafiə mənafeyi də tələb edirdi. Etatizmin yaradıcıları müdaifə funksiyasını bu halda xarici şirkətlərin fəaliyyəti üzərində nəzarət qoymalı olan dövlətə həvalə edirdilər. Bu tələbata uyğun olaraq, kamalçılar milli banklar yaratdılar, dövlət kapital qoyuluşlarını artırdılar, himayəçi gömrük rüsumları tətbiq etdilər».[1] Tanınmış sovet türkşünası Y.N.Rozaliyev haqlı olaraq qeyd edirdi ki, «Türkiyədə dövlət kapita-

[1]Илдыз Сертель. Экономическая политика кемализма и отношение к ней современной Турецкой интеллигенции - "Народы Азии и африки", 1967, № 2.

lizmi imperialist ölkələrindən asılı olan ölkənin ümumi iqtisadi geriliyi və inkişaf etməkdə olan kapitalist münasibətləri arasında olan uyğunsuzluğu zəiflətmək, zəif milli kapitalı imperialist inhisarlarının məhvedici təsirindən müdafiə etmək və yaranmaqda olan burjuaziyanın maddi-istehsal bəzasını möhkəmləndirmək məqsədlərinə yönəldilmişdir» və mütərəqqi mahiyyətə malikdir.[2]

Dinamik və çevik dəyişən bu təcrübə sonralar dünya əhalisinin 3/4-nü təşkil edən inkişaf etməkdə olan ölkələrdə geniş istifadə edilmiş və dünya ədəbiyyatında bu sahədə orijinallıq K.Atatürkə aid edilir.

4. İqtisadi siyasətin, ölkə iqtisadiyyatının texniki cəhətdən yenidən qurulmasına yönəldilməsi; milli sənayenin formalaşması və sürətli inkişafı, kənd təsərrüfatının geriliyinin aradan qaldırılması və onun müasir fermer təsərrüfatları əsasında yenidən təşkil olunması üçün geniş dövlət-kapitalist tədbirlərinin həyata keçirilməsi.

5. Müasir iqtisadi sistemin formalaşması və onun hüquqi bazasının yaradılması üçün dünyada özünü göstərən yeniliklərin sürətlə ölkə miqyasında tətbiq olunmağa başlanması, bu işə xarici mütəxəssislərin geniş sürətdə cəlb olunması, türk gənclərinin iqtisadi təhsil almaq üçün geniş miqyasda qabaqcıl dünya ölkələrinə göndərilməsi və s.

Statistik məlumatlar göstərir ki, görülən tədbirlər nəticəsində, Türkiyə artıq 1980-ci ildə adambaşına düşən məhsul istehsalının həcmi üzrə inkişaf etməkdə olan ölkələri iki dəfə, zəif inkişaf etmiş ölkələri isə beş dəfə qabaqlamışdır.

Türkiyənin sosial-iqtisadi tərəqqisi görkəmli siyasi xadim Turqut Özalın şəxsiyyəti ilə 80-ci illərdə yeni və güclü təkan aldı. Çox vaxt «Özal iqtisadi inkişaf modeli» adlandırılan və 80-ci illərdən həyata keçirilməyə başlayan iqtisadi siyasətin əsas məzmunu sərbəst bazar iqtisadiyyatına keçidin və ölkənin sosial-iqtisadi həyatında dərin struktur dəyişikliklərinin təmin edilməsi təşkil edir.

Məlum olduğu kimi, demokratiya iqtisadi həyatda azad bazar iqtisadiyyatı vasitəsilə həyata keçirilir.

Tarixi təcrübə göstərir ki, demokratiya və bazar iqtisadiyyatı biri digərindən ayrılmaz məhfumlardır. Biri digərinin mövcud olmağı üçün vacib şərtdir. Əgər bazar iqtisadiyyatı olmazsa, demokratiyanın əsas prinsiplərini tam şəkildə həyata keçirmək mümkün deyildir.

O biri tərəfdən isə, qəti şəkildə məlumdur ki, bazar iqtisadiyyatının işləməsi üçün mütləq demokratik rejim lazımdır. İstər demokratiyanın, istərsə də, bazar iqtisadiyyatının fəaliyyətinin başlıca məqsədini ən qısa şəkildə belə ifadə etmək olar: insan azadlığı və sabit həyat şəraiti içində sürətli inkişafı

[2] Ю.Н.Розалиев. Особенности развития капитализма в Турции. М., 1962, с. 118.

təmin etmək, inkişafın maddi nəticələrini əhali arasında bərabər bölüşdürməyə çalışmaq. Azərbaycan Respublikası Konstitusiyasının 15-ci maddəsində göstərilmişdir. «Azərbaycan dövləti bazar münasibətləri əsasında iqtisadiyyatın inkişafına şərait yaradır, azad sahibkarlığa təminat verir, iqtisadi münasibətlərdə inhisarçılığa və haqsız rəqabətə yol vermir».

Demokratiya siyasi həyatda seçicilərin hökmranlığını təmin etdiyi kimi, bazar iqtisadiyyatı da təsərrüfat həyatında istehlakçıların hökmranlığını təmin edir.

Azərbaycanda istər bütövlükdə götürülmüş demokratik sistemin, istərsə də onun ayrılmaz bir ünsürü olan bazar iqtisadiyyatının yaradılması yalnız, bu sahədə mövcud olan zəngin dünya təcrübəsinin diqqətlə öyrənilməsi və onun Azərbaycan şəraitinə uyğunlaşdırılması əsasında mümkündür. Bazar iqtisadiyyatının yaradılması sahəsində dünya təcrübəsinin əhəmiyyəti ona görə xüsusilə artır ki, uzun sürən totalitar rejim respublikamızda iqtisadi fikri və iqtisadi fəaliyyət mexanizmini öz təbii axarından çıxarmış və süni olaraq başqa bir məcraya yönəltmişdir. Min illərlə toplanmış təcrübə və alışqanlıqlar tarixin qaranlıqlarında itib batmış, nəsillər arasında əlaqə kəsilmişdir. İqtisadi sahəni hərəkətə gətirən əsas qərarları həyatın hərəkətverici qüvvəsi olan fərdlər deyil, mərkəzi dövlət verməyə başladı. Əhalinin maddi ehtiyaclarının ödənilməsi təşəbbüskarlığın artırılması vasitəsilə deyil, mərkəzi plan sistemi ilə həyata keçirilirdi. Nəsillər arasında əlaqənin kəsildiyi bir şəraitdə bazar iqtisadiyyatı sahəsində dünya təcrübəsinin öyrənilməsi və müvəffəqiyyətlə tətbiqi respublikamızda yeni iqtisadi sistemin yaradılmasının zəruri şərtidir. Bu baxımdan dünyada mövcud olan bütün mütərəqqi iqtisadi sistemlərdən faydalanmaq olduqca vacibdir.

Bu gün Azərbaycan ictimai fikrində belə bir fikir artıq formalaşmışdır ki, Türkiyənin iqtisadi quruculuq təcrübəsi Azərbaycan üçün daha yaxın, daha əlverişlidir. Bu əlverişlilik yalnız arada dil probleminin olmaması, milli və coğrafi yaxınlıqla əlaqədar deyildir. Bu, həm də onunla əlaqədardır ki, Türkiyədə Respublika dövründə yaradılmış, yeni iqtisadi sistem özünün mütərəqqiliyi və üstünlüyünü bütün dünyaya sübut etmişdir. Respublika tarixən qısa bir müddət ərzində geri qalmış aqrar ölkədən aqrar-sənaye ölkəsinə çevrilmiş, orta səviyyəli ölkələr sırasına çıxmış və yaxın gələcəkdə inkişaf etmiş sənaye ölkələr arasına çıxmağa çalışır. Türkiyənin təcrübəsi bizim üçün həm də ona görə vacibdir ki, bu təcrübə qabaqcıl dünya təcrübəsinin uğurlu bir sintezidir. Qərb və Şərq məziyyətlərinin müvəffəqiyyətlə uzlaşdırılması təcrübəsidir.

Bu ölkənin zəngin təcrübəsi bu gün Azərbaycan üçün də olduqca vacibdir. Azərbaycanın müasir mərhələdə öz qarşısına qoyub həll etməyə çalışdığı iqtisadi problemlərin bir çoxunu Türkiyə Respublikası hələ 80 il əvvəl ortaya atmış və həll etməyə çalışmışdır.

Dünyada özünü göstərən qabaqcıl iqtisadi fikrin gecikmədən mənimsənilməsi və Türkiyə şərtlərinə uyğunlaşdırılması mübaliğəsiz demək olar ki, Türkiyədə özünü göstərən iqtisadi möcüzələrin özülünü təşkil edir.

Əgər bu məsələləri bir iqtisadi sistem nöqteyi-nəzərindən araşdırsaq görərik ki, XX əsrdən güclü iqtisadi nəzəriyyələrdən olan Keyns nəzəriyyələri yarandığı ilk günlərdən Türkiyədə sürətlə yayıldı və az bir zamanda Türkiyə rəsmi siyasətinə ciddi təsir göstərməyə başladı. 60-70-ci illərdə isə Türkiyə iqtisadi siyasətinin əsasını təşkil etdi. Keyns nəzəriyyələrindən qaynaqlanan sosial-demokrat ideyaları Avropada yarandığı ilk gündən Türkiyədə özünə çoxlu tərəfdar tapdı və böyük bir hərəkatın başlanğıcını qoydu. Qərbdə geniş yayılmış olan sosial rifah dövləti nəzəriyyəsi isə 1960-cı il konstitusiyasında sosial hüquq dövləti şəklində öz əksini tapdı və praktiki həyatda tətbiq edilməyə başladı.

Bu gün bir çox qabaqcıl dövlətlərin iqtisadi siyasətinin əsasını təşkil edən neoliberalizm adlanan monteist ideyalar da 1980-ci ildən Türkiyə dövlətinin rəsmi iqtisadi siyasətinə yön verməyə başladı. Türkiyədə 80-ci illərdə özünü göstərən iqtisadi sıçrayış əhəmiyyətli dərəcədə bu siyasətin nəticəsidir.

Türkiyə bütün bu ideyaların bütün müsbət və mənfi nəticələrini görübdür. Bu nəticələrin öyrənilməsi ölkəmiz üçün vacibdir.

Türkiyədə «qarışıq iqtisadiyyat» modeli içində iqtisadiyyatın müxtəlif sahələrində olduqca çoxlu dövlət müəssisələri yaradılmışdır. Lakin bu müəssisələr heç vaxt iqtisadi sistemdə bazarın yerini tutmaq məqsədilə yaradılmamış, planlar fərdi qərarları və sərbəst təşəbbüsü aradan qaldırmaq məqsədini güdməmişdir. Güclü dövlət bölməsi özünə məxsus bir fəlsəfə içində yaradılmışdır. Dövlət iqtisadiyyata yalnız xüsusi təşəbbüsün kapitalının, texniki savadının idarə təcrübəsinin kifayət etmədiyi sahələrdə yaradılmışdır. Bu bölmə öz tarixi miqyasını uzun illər yerinə yetirmiş və artıq dövlət mülkiyyətinin çoxu özəlləşdirilmişdir.

Türkiyədə "Qarışıq iqtisadiyyat" inkişaf modelinin ilk gündən təməl fəlsəfəsini "dövlətin bacarmadığını fərdlər etməlidir" prinsipini deyil, "fərdlərin bacarmadığını fərdlər etməlidir" prinsipi təşkil etmişdir.

Türkiyədə 60-cı illərdən artıq bir sistem halını alan bu modelin əsasını həm də dövlət bölməsi ilə xüsusi bölmə arasında bərabər rəqabət şərtlərinin yaradılması prinsipi təşkil etmişdir. Dövlət bölməsi üçün əmredici, xüsusi bölmə üçün isə yol göstərici bir mahiyyət daşıyan və 60-80-ci illərdə Türkiyənin sürətli iqtisadi inkişafının təmin edilməsində özünə məxsus rol oynayan beşillik inkişaf planlarının tərtib edilməsi və həyata keçirilməsi təcrübəsi də diqqətlə öyrənilməlidir.

Demokratik bir iqtisadi sistemin yaradılması xüsusi bölmənin demokratik əsaslarla təşkilatlanması gedişindən əhəmiyyətli dərəcədə asılıdır. XX əsrdə iqtisadiyyatın demokratik prinsiplər əsasında əsas təşkili forması

dünya təsərrüfatı sisteminin lokomotivi rolunu oynayan səhmdar cəmiyyətlərdir. Azərbaycanda səhmdar cəmiyyətlər və bazar infrastrukturunun sürətli inkişafı üçün hüquqi baza hələ həyatda özünü doğrultmamış Moskva MDB qanunları deyil, müsbət dünya təcrübəsinin sintezini təşkil edən Türkiyə hüquq sisteminə əsaslanmalıdır. Çünki Avropa dəqiqliyi Şərq normalarına ən yaxşı şəkildə məhz Türkiyə təcrübəsində uyğunlaşdırılmış və bunun praktik nəticələri göz qabağındadır. Göstərmək lazımdır ki, Türkiyədə Respublika yaradıldıqdan sonra 30-40 il ərzində türk xalqı üçün yenilik olan səhmdar cəmiyyətlər o qədər geniş yayılmamışdı. Mövcud olan səhmdar cəmiyyətlərin çoxu ailə tipli cəmiyyətlər formasında qaldı. Yalnız 1956-cı ildə qəbul edilmiş və dünya və Türkiyə təcrübəsini bir sintez halında birləşdirən «Kommersiya qanunu» ilə yeni hüquqi baza yaradıldıqdan sonra Türkiyədə səhmdar cəmiyyətlər iqtisadiyyatının əsas aparıcı qüvvəsinə çevrildi.

İqtisadiyyatın demokratikləşdirilməsinin mühüm istiqamətlərindən biri də xalq malını özündə birləşdirən dövlət maliyyəsi sisteminin millətin yüksək iradəsinə tabe edilməsidir. Maliyyə və kredit mexanizminin Moskvanın tabeçiliyindən çıxarılıb Azərbaycan hökümətinə tabe edilməsi bunun ilk və olduqca mühüm mərhələsi oldu. Lakin bununla məsələ bitmir. Maliyyə sistemi üzərində dünyada o cümlədən Türkiyədə mövcud olan demokratik parlament nəzarəti diqqətlə öyrənilib dövlət quruculuğumuzda istifadə edilməlidir.[1] Büdcənin tərtibi, təsdiqi və icrası müasir mütərəqqi və demokratik prinsiplərə əsaslanmalıdır.

Türkiyənin 80 il ərzində keçdiyi müstəqil inkişaf yolu istiqlaliyyət uğrunda mübarizə aparan Asiya və Afrika ölkələrinin çoxu üçün bir örnəkdir.

Türkiyə və digər ölkələrin əsas iqtisadi göstəricilərinin orta illik artım sürəti (faizlə)[x])

	Türkiyə	Gəlir səviyyəsi az olan ölkələr	Gəlirləri orta səviyyəli olan ölkələr	Gəlir səviyyəsi yüksək olan ölkələr
ÜDM 1960-1970	6,0	4,5	6,11	5,1
1970-1980	6,6	4,7	5,5	3,2
1980-1990	5,3	2,7	1,9	3,2
1990-1995	3,2	1,8	0,1	2,0

[1]Bu haqda ətraflı məlumat üçün bax: Д.А.Велиев. Государсвтенные финансы и социально-экономическое развитие Турции. Б.,1991.

Sənaye 1960-1970	9,6	6,6	6,1	5,1
1970-1980	7,9	4,2	5,5	3,2
1980-1990	7,8	2,9		3,2
1990-1995	4,2			0,7
Kənd təsərrüfatı 1960-1970	2,5	2,5	3,6	1,3
1970-1980	3,7	2,0	3,0	0,9
1980-1990	1,3	2,6		2,3
1990-1995	0,9	1,9	0,5	0,6
Xidmət sahəsi 1960-1970	6,9	3,8	5,5	4,8
1970-1980	7,5	4,5	6,0	3,4
1980-1990	4,4	2,8	2,6	3,4
1990-1995	3,3		3,9	2,3

x) Д.А.Велиев. Государственные финансы и социально-экономическое развитие Турции. Б., "Элм", 1991, с. 32; Отчет о мировом развитии 1997. Государство в меняющемся мире. Всемирный Банк. 1997, с. 270-271.

Cədvəl məlumatlarından göründüyü kimi, 1960-1995-ci illər ərzində Türkiyədə baş verən konyuktura dalğalanmalarına baxmayaraq, ÜDM, sənaye, kənd təsərrüfatı və xidmət sahələri üzrə orta illik artım sürəti dünyanın əsas dövlətlərinin əksəriyyətinə nisbətən xeyli yüksək olmuşdur. 1999-2001-ci illərdə daxili və xarici amillərin təsiri altında baş verən iqtisadi sarsıntılara baxmayaraq ölkə iqtisadiyyatının inkişafı yenidən sürətlənməyə başlamışdır. ÜDM-un artım sürəti 2002-ci ildə 7,8% olmuş və 2003-cü ilin sonunda 5,0% həddində olması proqnozlaşdırılır.

9.2. Türkiyə Cümhuriyyətinin iqtisadi inkişaf modelinin təkamülü

“Dialog”. Cumhuriyetin 90 yılında Türkiye ekonomisi ve 2023 hedefleri. TUSİAB. 2013.

İctimai-siyasi inqilablar əsri olan XX əsr müstəmləkə və yarımmüstəmləkə vəziyyətində olan xalqların həyatında dönüş nöqtəsi oldu.Müstəqil inkişaf yoluna qədəm qoyulması onların gələcək sosial-iqtisadi təkamülündə tarixi hadisə oldu və taleyüklü dəyişikliklərin meydana gəlib genişlənməsi üçün zəmin təşkil etdi.Müasir dünyada irimiqyaslı qloballaşma

prosesi, iqtisadi həyatın getdikcə daha çox beynəlmiləl xarakter alması, bu və ya digər səbəblər ölkənin ictimai inkişafında xarici amillərin rolunun sürətlə artmasına səbəb olmuşdur.Belə bir şəraitdə ölkələrin zənginliyi onlarda olan təbii sərvətlərin bolluğu dərəcəsi ilə deyil, bu sərvətlərdən beynəlxalq əmək bölgüsünün üstünlükləri nəzərə alınmaqla, onlardan bacarıqla istifadə edilməsindən əhəmiyyətli dərəcədə asılıdır.

90 il bundan əvvəl Şərqin köksündə ulduz kimi parlayan Türkiyə Cümhuriyyətinin yaratdığı və inkişaf etdirdiyi iqtisadi inkişaf modeli iqtisadi müstəqillik uğrunda mübarizə aparan bütün dövlətlər üçün bir örnəkdir. Bu iqtisadi inkişaf modeli, yeni iqtisadi sistem özünün orijinallığı, mütərəqqiliyi və üstünlüyünü bütün dünyada sübut etmişdir.Respublika tarixən qısa bir müddət ərzində geri qalmış aqrar ölkədən aqrar-sənaye ölkəsinə çevrilmiş, dünyada yüksələn iqtisadiyyatlar qrupuna daxil olmuşdur. O, özünün iqtisadi potensialına görə dünya ölkələri arasında artıq 16-cı sıradadır və 2023-cü ilə qədər ilk onluğa daxil olmağa çalışır. Türkiyənin bu sahədə təcrübəsi həm də ona görə əhəmiyyətlidir ki, bu təcrübə qabaqcıl dünya təcrübəsinin uğurlu bir sintezi, Şərq və Qərb məziyyətlərinin müvəffəqiyyətlə uzlaşdırılması təcrübəsidir.

Türkiyənin iqtisadi inkişaf modeli çərçivəsində müxtəlif dövrlərdə həyata keçirilən strategiya və iqtisadi siyasətlər cümhuriyyət yaradıldıqdan bu günə qədər əhəmiyyətli dəyişikliklərə uğramış və təkamül etmişdir. Bu dəyişikliklər istər dünya iqtisadiyyatında zaman-zaman özünü göstərən böhranlar, istərsə də milli iqtisadiyyatın gəlişməsi və daxili böhranlarla əlaqədardır.

1929-1933-cü illərdə bütün dünyanı sarsıdan iqtisadi böhran, həmin böhranın dağıdıcı təsiri aradan qalxmamış partlayış verən İkinci Dünya Müharibəsi, 70-ci illərin neft böhranı, bu dövrdən başlayaraq dünyada dövri olaraq təkrarlanan dünya maliyyə böhranları, xüsusən, 1997-1998-ci illərin Cənubi-Şərqi Asiya və 2008-2009-cu illərin qlobal maliyyə böhranları bütün dünya iqtisadiyyatına və eyni zamanda, Türkiyə iqtisadiyyatına ciddi təsir göstərən amillərdir. Bu amillər Türkiyə iqtisadi inkişaf strategiya və iqtisadi siyasətin dəyişdirilməsini və yaranmış şəraitə uyğunlaşdırılmasını zəruri etmişdir.

Alimlərin fikrincə, Türkiyədə Cümhuriyyətin ilk illərindən həyata keçirilən «qarışıq iqtisadiyyat» (karma ekonomi) iqtisadi modeli və etatizm adlanan dövlətçilik siyasəti üçüncü dünya ölkələri arasında ilk dəfə tətbiq olunmağa başlamış və bütün dünyaya yayılmışdır.

Hələ 30-cu illərdə Türkiyədə «qarışıq iqtisadiyyat» modeli içində iqtisadiyyatın müxtəlif sahələrində olduqca çoxlu dövlət müəssisələri yaradılmışdır. Lakin bu müəssisələr heç vaxt iqtisadi sistemdə bazarın yerini tutmaq məqsədilə yaradılmamış, planlar fərdi qərarları və sərbəst təşəbbüsü aradan qaldırmaq məqsədini güdməmişdir. Güclü dövlət bölməsi özünə məxsus bir fəlsəfə içində yaradılmışdır. Bu bölmə öz tarixi miqyasını uzun

illər yerinə yetirmiş və artıq dövlət mülkiyyətinin çoxu özəlləşdirilmişdir.

Türkiyədə "Qarışıq iqtisadiyyat" inkişaf modelinin ilk gündən təməl fəlsəfəsini "dövlətin bacarmadığını fərdlər etməlidir" prinsipini deyil, "fərdlərin bacarmadığını dövlət etməlidir" prinsipi təşkil etmişdir.

Türkiyədə 60-cı illərdən artıq bir sistem halını alan bu modelin əsasını həm də dövlət bölməsi ilə xüsusi bölmə arasında bərabər rəqabət şərtlərinin yaradılması prinsipi təşkil etmişdir. Dövlət bölməsi üçün əmredici, xüsusi bölmə üçün isə yol göstərici bir mahiyyət daşıyan və 60-cı illərdən başlayaraq Türkiyənin sürətli iqtisadi inkişafının təmin edilməsində özünə məxsus rol oynayan beşillik inkişaf planlarının tərtib edilməsi və həyata keçirilməsi təcrübəsi də diqqətlə öyrənilməlidir.

Demokratik bir iqtisadi sistemin yaradılması özəl bölmənin demokratik əsaslarla təşkilatlanması gedişində əhəmiyyətli dərəcədə asılıdır. XX əsrdə iqtisadiyyatın demokratik prinsiplər əsasında əsas təşkili forması dünya təsərrüfatı sisteminin lokomotivi rolunu oynayan səhmdar cəmiyyətlərdir. Bu sahədə Avropa dəqiqliyi Şərq normalarına ən yaxşı şəkildə məhz Türkiyə təcrübəsində uyğunlaşdırılmış və bunun praktik nəticələri göz qabağındadır. Göstərmək lazımdır ki, Türkiyədə Respublika yaradıldıqdan sonra ilk 30-40 il ərzində türk xalqı üçün yenilik olan səhmdar cəmiyyət o qədər geniş yayılmamışdı. Mövcud olan səhmdar cəmiyyətlərin çoxu ailə tipli cəmiyyətlər formasında qaldı. Yalnız 1956-cı ildə qəbul edilmiş dünya və Türkiyə təcrübəsini bir sintez halında birləşdirən «Ticari qanunu» ilə yeni hüquqi baza yaradıldıqdan və getdikcə təkmilləşdirildikdən sonra Türkiyədə səhmdar cəmiyyətlər iqtisadiyyatının əsas aparıcı qüvvəsinə çevrildi və Türkiyə iqtisadiyyatının dünyada qabaqcıl mövqeyə çıxmasında əhəmiyyətli rol oynamışdır.

Əgər bu məsələləri bir iqtisadi sistem nöqteyi-nəzərdən araşdırsaq, görərik ki, XX əsrdə ən güclü iqtisadi nəzəriyyələrdən olan Keyns nəzəriyyələri yarandığı ilk günlərdən Türkiyədə sürətlə yayıldı və az bir zamanda Türkiyə rəsmi siyasətinə ciddi təsir göstərməyə başladı. 60-70-ci illərdə isə Türkiyə iqtisadi siyasətinin əsasını təşkil etdi. Keyns nəzəriyyələrindən qaynaqlanan sosial-demokrat ideyaları Avropada yarandığı ilk gündən Türkiyədə özünə çoxlu tərəfdar tapdı və böyük bir hərəkatın başlanğıcını qoydu. Qərbdə geniş yayılmış olan sosial rifah dövləti nəzəriyyəsi isə Türkiyənin 1960-cı il Konstitusiyasında sosial hüquq dövləti şəklində öz əksini tapdı və praktiki həyatda tətbiq edilməyə başladı.

Bu gün bir çox qabaqcıl dövlətlərin iqtisadi siyasətinin əsasını təşkil edən "neoliberalizm" adlanan monteist ideyalar da 1980-ci ildən Türkiyə dövlətinin rəsmi iqtisadi siyasətinə yön verməyə başlamışdır. 24 yanvar 1980 tarixi qərarları ilə xaricə açılma və sərbəst bazar iqtisadiyyatına keçilmə prosesinin başlanması ilə Türkiyədə inkişaf strategiyası dəyişmişdir (2). İdxalı əvəzetmə siyasətinə əsaslanan iqtisadi inkişaf strategiyası ixrac yönümlü

sənayeləşmə və inkişaf strategiyası ilə əvəz edilmişdir. Etiraf etmək lazımdır ki, bir çox mənfi cəhətlərinə baxmayaraq, 80-ci illərdən sonra Türkiyədə özünü göstərən iqtisadi sıçrayış əhəmiyyətli dərəcədə bu yeni iqtisadi siyasətin nəticəsidir.

Bu iqtisadi strategiya sayəsində xarici ticarətin istər həcm, istərsə də struktur baxımından ciddi surətdə irəliləməsinə səbəb olmuşdur. Ölkə aqrar məhsullar ixrac edən ölkədən sənaye məhsulları ixrac edən ölkəyə çevrilmişdir. 1980-2010-cu illər ərzində ixracatda sənaye məhsullarının payı 36 faizdən 94 faizə yüksəlmişdir. Dünya Bankının rəyinə görə Türkiyənin qlobal maliyyə böhranın dağıdıcı təsirinə məruz qalmamasının əsas səbəbi çoxsaylı ölkələrlə ticarət əlaqələri aparılması və ixracat məhsullarının çoxçeşidli olmasıdır. Türkiyə İxracatçılar Məclisi tərəfindən hazırlanmış İxracat Strategiyası Hesabatına görə Türkiyənin ixracatı 2023-cü ildə 500 mlrd. dollara çatacaqdır (1, s.91-109).

T.Özal dövründə ixracatın təşviq olunması sahəsində həyata keçirilmiş və olduqca müsbət nəticələr vermiş tədbirlər sistemi keçid iqtisadiyyatı ölkələri üçün örnək ola bilər.

Bu tədbirləri dörd qrupa bölmək olar:

– ixracat miqdarı və ya məbləğindən asılı olaraq birbaşa subsidiyalar vasitəsilə təşviqlər: məhsullar ixrac olunarkən ödənilmiş daxili vergilərin geri qaytarılması, dəstəkləmə və qiyməti sabitləşdirmə fondu üzrə verilən subsidiyalar;

– ucuz maliyyə mənbəyinin təmin edilməsi yolu ilə təşviq (ucuz ixracat diskont krediti);

– vergi üstünlüyü verilməsi yolu ilə ixracatçıların təşviqi (bu bir çox vergilər üzrə təşviq edilirdi);

– digər dolayı imkanlar yaradan və üstünlük verən təşviqlər (ixracat məhsulları istehsal etmək üçün mal idxalında gömrük istisnaları, idxalat üçün valyuta toplanması, valyutaların ölkə xaricində saxlanılmasına icazə verilməsi və s.)

Bu tədbirlər arasında məhsul ixrac edilərkən daxildə ödənilmiş vergilərin geri qaytarılması sistemi xüsusən təsirli idi. İxracatın yarısına qədəri bu sistemdən faydalanırdı. 1980-1990-cı illərdə ixracatçılara bu yol ilə 4,3 mlrd. dollar məbləğində vergi geri qaytarılmışdır.

İnflyasiyaya qarşı mübarizə tədbirlərinin həyata keçirilməsində qəribə bir təzad özünü göstərirdi. Bir tərəfdən, mövcud izafi tələbi məhdudlaşdırmaq, digər tərəfdən isə büdcə kəsirlərini «adi» (inflyasiya yaratmayan) mənbələr hesabına ödəmək üçün vergi gəlirlərinin artırılması istər-istəməz işgüzar fəallığın müəyyən dərəcədə sönməsi ilə nəticələnir. Həyata keçirilən iqtisadi strategiyanın məntiqi isə əks vəziyyəti - işgüzar fəaliyyətin ciddi olaraq canlandırılmasını tələb edirdi.

T.Özal ona görə də özünün iqtisadi siyasətində pul-dəyər amillərindən ölkədə işgüzar fəallığı canlandırmaq üçün geniş istifadə etməyə başladı. Məsələn, vergi mexanizmində ciddi güzəştlərdən istifadə edilərək təşəbbüsçülər təşviq edilir, onların investisiya fəaliyyəti istiqamətləndirilməyə çalışılırdı. Xalq təsərrüfatının inkişafı üçün birinci dərəcəli əhəmiyyət kəsb edən sahələrin inkişafı, sosial-iqtisadi tərəqqi baxımından geri qalmış Şərq regionlarının canlandırılmasına cəlb etmək üçün də təşəbbüsçülərə böyük güzəştlər nəzərdə tutulurdu. Ölkədə «əsas» vergi olan gəlir vergisinin yüksək həddi 1985-ci ildə 63 faizə (1963-cü ildə 68 və 1981-ci ildə 75 faizdən) endirildi. Xəzinənin maliyyə ehtiyaclarını ödəmək üçün nəzərdə tutulmuş ən aşağı həddi 10 faizdən 25 faizə qaldırıldı. Son nəticədə milli gəlirdə vergilərin xüsusi çəkisi 80-ci illər boyu 20-23 faiz səviyyəsində qalmışdır.

T.Özalın iqtisadi siyasəti xarici kapitala münasibətdə qarşılıqlı mənfəət balansını əsas tutur, xarici mənbələrdən geniş miqyasda faydalanmağa yönəldilir. Əcnəbi kapital qoyuluşlarını hər vasitə ilə təşviq edir.

Açıq qapı siyasəti çərçivəsində Türkiyədə 80-ci illərdən sonra istehsal edilən malların ixracını sürətləndirmək üçün birbaşa maliyyə dəstəyi mexanizmindən də geniş istifadə edildi. Müəyyən edilmiş malların ixracında mükafat sistemi tətbiq edilməyə başlandı. Bu sistemdən yararlanan ixrac mallarının vahidinə və ya fiziki həcminə görə (1 ton ixracat üçün 1-100 dollar arasında) mükafat verilirdi. Bu sistem türk mallarının xarici bazarlarda rəqabət gücünü artırmaq məqsədini güdürdü. Həmin sistem təxminən 120 məhsul növünə şamil edilmişdir.

İxracatın təşviqində kredit mexanizmi təsirli bir vasitəyə çevrildi. İnflyasiya ilə monetarist mübarizə üsulu kimi sərt pul-kredit siyasətinin həyata keçirilməsi kredit faizlərinin ciddi sürətdə yüksəlməsinə gətirib çıxarmışdır. Belə bir şəraitdə «kredit subsidiyaları» adını daşıyan mexanizm ixracatın təşviq olunmasında təsirli bir vasitə kimi istifadə edildi. Subsidiyalar xəzinə və qismən də mərkəzi kanalları vasitəsilə ödənilirdi. Bunlar aşağıdakılardan ibarət idi:

- ixracatçılara aşağı faizlə «ixracata hazırlıq» kreditləri;
- ixrac malları gömrükdən çıxdıqdan sonra onların pula çevrilməsinə imkan verən «vəsiqəli sənəd» kreditləri;
- tütünün istehsalçıdan alınaraq emal edilməsi və ixracata hazır hala gətirilməsi üçün tütün ixracatçılarına banklar vasitəsilə Mərkəzi Bank mənbələrindən «tütünü» maliyyələşdirmə kreditləri;
- ixracatçılara möhkəm valyuta ilə ixrac edilməsi öhdəliyi altında banklar vasitəsilə «ixracat diskont kreditləri»;
- xaricdə podrat tikinti xidmətləri göstərənlərə bu xidmət müqabilində valyuta təmin etmək məqsədilə «xaricdə podrat tikinti xidmətləri diskont» krediti;

- ildə 100 milyon dollardan çox məhsul ixrac edən xarici ticarət sərmayə şirkətlərinə «özəl ixracat diskont krediti»;

Bunlardan başqa ixracatı təşviq proqramı çərçivəsində ixrac olunan mallardan əldə edilən valyutanın hökmən ölkəyə qaytarılması məcburiyyəti də ləğv edildi.

80-ci illərdə irimiqyaslı «xarici ticarət şirkətləri» təşviq edilmişdir. Bu iş 90-cı illərdə daha da genişləndirilmiş, xırda və orta şirkətlərin ixracat sahəsində qüvvələrinin birləşdirilməsi istiqamətində də aparılmışdır;

İxracatçı firmalar sərbəst ixracat apara bildikdən sonra 80-ci illərdə onlara edilən birbaşa maliyyə dəstəyi dayandırılmış və ixracat kredit və sığorta mexanizmi vasitəsilə təşviq edilmişdir.

Açıq qapı siyasəti çərçivəsində aparılan islahatlar mərkəzdən idarəçilik sistemi getdikcə daha çox bazar mexanizmi vasitəsilə əvəz olunmağa başladı (3). 1981-ci ildə kapital bazarı haqqında Qanun qəbul edildi. Qanunun əsas məqsədi yığımın daha çox qiymətli kağızlara qoyulmasını təmin etmək yolu ilə xalqın iqtisadi inkişafda iştirakına şərait yaratmaq idi. Bir az sonra Türkiyənin kapital bazarında tənzimləyici və nəzarətedici bir orqan yaradıldı. 1986-cı ildə isə İstanbul Qiymətli Kağızlar Birjası (İQKB) işə başladı və ölkənin iqtisadi inkişafında mühüm rol oynadı. Birjanın rolunun artmasında vergilərin sadələşdirilməsi, xarici investorların kapital bazarında iştirakının sərbəstləşdirilməsi mühüm rol oynadı. Həmin birjada 4 bazar fəaliyyət göstərir. Bunlara daxildir: pay sənədləri bazarı, istiqraz və bon bazarı, beynəlxalq bazar və müddətli əməliyyatlar bazarı.

Türkiyədə hal-hazırda ən liberal valyuta rejimi fəaliyyət göstərir. Türk lirəsinə tam dönərlilik statusu verilməklə yanaşı 1989-cu ildən sonra xarici fiziki və hüquqi şəxslər İstanbul Birjasında tam sərbəst əməliyyat apara bilərlər. Həmin Birja dünyanın aparıcı Maliyyə Birjalarının tam hüquqlu üzvüdür. Hal-hazırda İstanbulun dünya maliyyə mərkəzlərindən birinə çevrilməsi üçün ciddi iş aparılır. Ölkənin nəhəng maliyyə institutları, o cümlədən, Mərkəzi Bank həmin şəhərə köçürülür.

Türkiyədə mövcud olan liberal valyuta rejiminin əsasları aşağıdakılardır:

- Türkiyədə yerləşmiş fiziki və hüquqi şəxslər istədikləri qədər valyuta saxlaya bilər, banklar, müəssisə və özəl maliyyə təşkilatlarından istədikləri qədər valyuta satın ala bilərlər, onların xaricə valyuta transferləri və xarici banklarda valyuta hesabı açmaları sərbəstdir.

- Müəssisələr maliyyə ehtiyaclarının ödənilməsi üçün xaricdən istədikləri qədər kredit ala bilərlər.

- Türkiyədə yerləşən fiziki və hüquqi şəxslərin xaricdə ticarət əməliyyatları aparmaları üçün kapital ixrac etmələri sərbəstdir.Yalnız müəyyən məbləğdən çox olduqda səlahiyyətli orqandan icazə almalıdırlar.

Dövlət siyasətinin aparıcı istiqamətinə çevrilmiş açıq qapı siyasəti müasir dövrdə də durmadan həyata keçirilir, beynəlxalq inteqrasiya proseslərinin sürətləndirilməsi yolunda ciddi addımlar atılır (5).

1994-cü ildə özünü göstərən iqtisadi böhran, Türkiyədə "kəmər sıxma" siyasəti kimi məlum olan dövrün başlanmasına yol açdı. 1996-cı ildə Türkiyə ilə Avropa Birliyi arasındabaşlanan gömrük birliyi dövrü xaricə inteqrasiya prosesini daha da sürətləndirmiş, Türkiyə iqtisadiyyatının dünyada daha kəskin rəqabətlə qarşı-qarşıya qalmasına yol açmışdır.

2001-ci ildə Türkiyə iqtisadiyyatında başlayan böhran nəticəsində və AKP-nin hakimiyyətə gəlməsi ilə iqtisadi siyasət strategiyasında məcburi olaraq köklü dəyişikliklər prosesi başlanmışdır.

Məlum olduğu kimi, 1990-cı illər ərzində müxtəlif makroiqtisadi qeyri-sabitlik 2001-ci ildə dərin iqtisadi böhrana yol açmışdır. Həmin makroiqtisadi qeyri-sabitliklərə aşağıdakıları aid etmək olar: zəif və qeyri-sabit inkişaf sürəti, yüksək və xroniki inflyasiya, dövlət maliyyəsində pozuntular və bank sektorunda baş verən böyük təxribatlar. 2001-ci il böhranından sonra Türkiyədə yaxın dövrdə büdcə kəsirlərinin azaldılması, orta müddətdə isə iqtisadi və maliyyə stabilliyinin davamlılığı ilə inkişafvə məhsuldarlığın artımının təmin olunması üçün "Güclü iqtisadiyyata keçid Proqramı" adı altında həyata keçirilən islahatlar prosesi başlanmışdır. Bu Proqram çərçivəsində 2001-ci ildən sonra həyata keçirilən islahatları dörd qrupa bölmək olar. Bunlar: sosial güvənlik islahatı, səhiyyə islahatı, dövlət maliyyəsi islahatı və bank sahəsində islahatlardır (1,s.1-2).

Türkiyənin 90 il ərzində keçdiyi inkişaf yolu və dünya birliyinə bərabərhüquqlu subyekt kimi inteqrasiya etməsi üçün göstərdiyi səylər, ümumiyyətlə, istiqlaliyyət uğrunda mübarizə aparan Asiya və Afrika ölkələrinin çoxu üçün bir örnəkdir.

Türkiyədə beynəlxalq iqtisadi inteqrasiya proseslərinin maliyyə-kredit mexanizmi vasitəsilə intensivləşdirilməsi təcrübəsinin də öyrənilməsi vacibdir.

Turkiyənin dünya bazarlarında rəqabət gücünün artırılmasının yalnız iri ixracat şirkətləri vasitəsi ilə mümkün olduğu nəzərə alınaraq, xarici ticarət şirkətlərinin möhkəmləndirilməsi dövlət siyasətinin mühüm istiqamətlərindən birinə çevrildi.

Xarici ticarətin liberallaşdırılması mexanizmi təkmilləşdirilmiş, ÜTT-nın yaradıcısı olan və beynəlxalq ticarətə yeni normalar gətirən Uruqvay Raund Nihai Sazişinə imza atmışdır.

Avropa Birliyinə daxil olmaq üçün qarşıya çıxan hər cür maneələrin dəf edilməsi və 2002-ci il Kopenhagen zirvəsində qoyulan tələblərin yerinə yetirilməsi yolunda qətiyyətli və tarixi addımlar atılır.

İstər ÜTT-nın, istərsə də AB-nin şərtləri daxilində xarici ticarət rejimi köklü sürətdə yenidən qurulmuşdur.

Keçmişdə ixracatın təşviqi sahəsində həyata keçirilmiş genişmiqyaslı tədbirlərdə 2001-ci ildən sonra radikal dəyişikliklər aparılmışdır; beynəlxalq normalara uyğun olaraq daxildə və xaricdə İşləmə Rejimi təsdiq edilmiş, yeni dövlət yardımları tətbiq edilməyə başlanmışdır.

İxracat üçün böyük əhəmiyyət kəsb edən nəqliyyat, rabitə və digər infrastruktur sahələrinə investisiya qoyuluşları artırılmış; ixracat nüfuzlu məşğuliyyət sahəsinə çevrilmişdir. İxracat sahəsində mövcud olan bürokratik əngəllər qətiyyətlə ləğv olunmaqla davam etmişdir; valyuta nəzarəti təkmilləşdirilmiş, hər növ valyuta idxalı tam sərbəstləşdirilmişdir. Qəbul edilmiş qərarla Türk lirəsinin dönərliliyi artırılmış, sonralar isə milli valyuta ilə idxal və ixrac sərbəstləşdirilmişdir;

Xarici ticarətin liberallaşdırılması və ixracatın hərtərəfli təşviq olunması ölkənin xarici ticarət əlaqələrinə böyük dinamizm gətirmişdir.

Xarici kapitalın və yeni texnologiyanın ölkəyə daha intensiv daxil olmasını, ixracat üçün kapital qoyuluşlarının artırılmasını, xarici maliyyə və ticarət imkanlarından daha geniş istifadə edilməsini təmin etmək məqsədilə ölkədə «azad zonalar» yaradılmasına və inkişaf etdirilməsinə ciddi fikir verilir.

Türkiyə mövcud geosiyasi reallıqlar və yaranmış şərait fonunda müasir dövrdə meydana çıxmış, daha praqmatik addımlar atır və fəaliyyət mexanizminin səmərəlilik səviyyəsini xeyli artırmışdır və regional faktora çevrilmişdir. Təsadüfi deyil ki, bu gün artıq Ankara regional və qlobal miqyasda baş vərən hadisələr fonunda, ilk növbədə, özünün və strateji tərəfdaşlarının milli maraqlarını rəhbər tutaraq konkret qərarlar qəbul edir və praqmatik addımlar atır. Beynəlxalq Valyuta Fondunun ölkədə uzun müddət olmuş hegemonluğuna son qoyulmuşdur. Ölkə borc alan ölkədən borc verən ölkəyə çevrilmişdir. Bütün bunlar isə nəticə etibarilə Türkiyəni müasir bəynəlxalq münasibətlər sistemində ideoloji, diplomatik-siyasi, hərbi və iqtisadi-maliyyə cəhətdən bütün dünyada və regionda sayılan, nəzərə alınan əsas tərəfdaşlardan birinə çevirib.

Türkşünas alim kimi məndən tez-tez soruşurlar: Türkiyədə iqtisadi möcüzələrin sirri nədədir? Mən bu sualı belə cavablandırıram: dünyada özünü göstərən qabaqcıl iqtisadi fikrin gecikmədən mənimsənilməsi və Türkiyə şərtlərinə uyğunlaşdırılması mübaliğəsiz demək olar ki, Türkiyədə özünü göstərən iqtisadi möcüzələrin əsasıdır.

Ədəbiyyat:

1. Prof.Dr. C.D.Armağan. 2000-li yıllarda Türkiye ekonomisi: yapısal dönüşümler, anasorunlar ve çözüme dönük politika önerileri. Ankara, 2013, s.624. www.nobelkitap.com.

2. Vəliyev D.Ə. “Açıq iqtisadiyyat” inkişaf modeli sahəsində Türkiyə təcrübəsinin Azərbaycan üçün əhəmiyyəti. - AMEA Şərqşünaslıq İnstitutunun

"Elmi əsərləri", 2006, (VIII buraxılış).

3. Vəliyev D.Ə. Türkiyənin müstəqil və demokratik iqtisadi quruculuq təcrübəsinin prioritetləri - İpək yolu, 2003, № 3.

4. Велиев Д.А.Турция в 1980-х годах:основные черты и некоторые итоги монетаризма - Kitab: Müasir Türkiyənin aktual problemləri. Bakı, 1988.

5. Vəliyev D.Ə. Türkiyə iqtisadiyyatının 1985-1989-cu illərdə sabitləşdirilməsi məsələləri. - AMEA-nın "Xəbərləri" iqtisadiyyat seriyası.

6.Arslan Başer Kafaoğlu. Türkiye ekonomisi. Yakın Tarih. 2 Ankara, 2008, 239.

7.Nazim Öztürk, Yüksel Bayraktar, İMF-nin deyişen rölü ve gelişmekte olan ülke ekonomilerine etkileri. Ankara, 2010 s.183.

9.3. Qloballaşma dövründə Türkiyənin Beynəlxalq Valyuta Fondu ilə əlaqələrinin inkişafı və transformasiyası

(Həmmüəllif İbrahim Ömərov, AMEA Şərqşunaslıq İnstitunun doktorantı)

İkinci Dünya müharibəsindən sonra dünya valyuta sistemini tənzimləmək və inkişaf etməkdə olan ölkələrin maliyyə ehtiyaclarını ödəmək məqsədilə yaradılan Beynəlxalq Valyuta Fondu (BVF), Türkiyənin iqtisadi inkişafı üçün maliyyə ehtiyatları təqdim edən mühüm beynəlxalq maliyyə təşkilatıdır və ölkənin maliyyə-iqtisadi həyatında uzun müddət böyük rol oynayır.

Türkiyənin BVF ilə əlaqələrinin tarixi 1947-ci ildən başlayır. 11 noyabr 1947-ci ildə BVF-in Baş Müqaviləsinin 4-cü Maddəsi çərçivəsində valyuta məhdudlaşdırmalarını tətbiq edən ölkə statusunda üzv olan Türkiyə hazırda BVF-in Baş Müqaviləsinin 8-ci Maddəsi çərçivəsində sərmayə hərəkətlərini sərbəst buraxan ölkə statusunda üzvdür (Dogan Uysal. İMF politikaları ve Türkiye. 2004, Konya, s.121).

Türkiyənin BVF-in sahib olduğu kvotafonda üzv olduğu 1947-ci ildə 43 milyon dollar olduğu halda bu gün 1.197,30 milyon SDR-dir. Türkiyənin tədiyyə balansı problemləri ilə qarşı-qarşıya qaldığı və ya makroiqtisadi tarazlığın pozulması hallarında BVF-dən Ehtiyat Dilim Pozisiyası, Kredit Dilimlərindan istifadə imkanları, asanlaşdırılmış Fövqəladə maliyyələşmə və neft imkanlarından yararlanması mümkündür (1, s.171).

Türkiyə BVF-ə üzv olduqdan sonra həmin beynəlxalq təşkilatla onun ilk rəsmi təması 1958-ci ildə olmuşdur. Türkiyə iqtisadiyyatında idxalatda gözlənilən artım və istehsalda azalma meylləri 4 Avqust 1958-ci ildə BVF-in yardımı ilə stabilləşdirmə tədbirləri qəbul edilmişdir.

1960-cı ildə tədiyyə balansında özünü göstərən qeyri-sabitlik və ölkənin xaricdən asılılığının artması ilə əlaqədar olaraq Türkiyə BVF ilə ilk stand-by

müqaviləsini 1 yanvar 1961-ci ildə imzalamışdır. Bu dövr eyni zamanda Türkiyənin iqtisadi sabitlik yollarını axtarmağa başlaması və planlı inkişaf dövrünə qədəm qoyması ilə eyni vaxta düşür. Belə ki, birinci beş illik inkişaf planı 1 mart 1963-cü ildən qüvvəyə minmişdir. DövrünTürkiyə üçün digər bir vacib cəhətidə 12 sentyabr 1963-cü il tarixində imzalanan Ankara Sazişi ilə Avropa Birliyi ilə əlaqələrin rəsmən başlanmasıdır. BVF iləTürkiyə arasında əməkdaşlıq "Stand-By" proqramı üzrə aparılır. Bu proqram çərçivəsində fondun Türkiyəyə makroiqtisadi sabitlik və iqtisadi inkişafın təmin olunması istiqamətində yardım göstərməsi nəzərdə tutulur. Proqram üzrə Türkiyəyə təqdim olunan kredit vəsaitləri yalnız fövqəladə vəziyyətlər yarandıqda hökümət tərəfindən istifadə oluna bilər. BVF ilə Türkiyə arasında ilk müqavilənin imzalandığı tarixdən bu günə qədər cəmisi 19 **stand-by** müqaviləsi bağlanmışdır.

Cədvəl N1

Türkiyə- BVF arasında imzalanmış stand-by müqavilələri [3]

Tarix	müddət (Ay)	ayrılmışdır (milyon $)	istifadə (milyon $)
1. 1961	12	57	24
2. 1962	9	47	23
3.1963	11	33	33
4.1964	11	33	29
5.1965	12	33	-
6.1966	12	33	33
7.1967	11	41	41
8.1968	9	41	41
9.1969	12	41	15
10.1970	12	136	136
11.1978	24	453	136
12.1979	12	378	347
13.1980	36	1.888	1.888
14.1983	12	340	85
15.1984	12	340	255
16.1994	14	923	696
17.1999	36	22.707	17.726
18.2002	36	19.360	17.990
19. 2005	36	10.060	10.060
	Cəmi	56 942	49 557

Göründüyü kimi,Türkiyə BVF-dan təxminən yarım əsr ərzində 56 milyard dollardan çox kredit müqaviləsi imzalamış, onun təxminən 45 milyard dolları istifadə edilmişdir.

Onu da göstərmək lazımdır ki,Türkiyə, Uruqvay və Filippin ilə birlikdə BVF ilə ən çox müqavilə imzalayan 3 ölkədən biridir. BVF ilə 52 il ərzində bağladığı **stand-by** müqavilələrinə nəzər saldıqda məlum olur ki, onların çoxu vaxtından əvvəl tam icra olunmadan sona çatmışdır. Məsələn, 1965-ci ildə imzalanan müqavilə heç icraya qoyulmamışdır.

Uzun zaman qısa müddətli müqavilələr bağlayan Türkiyə, ən ağır müqaviləsini 2001-ci il böhranından sonra bağladı. Bülənt Ecevitin Başbakan olduğu 57-ci Hökümət, uzun görüşmə və danışıqlar apardıqdan sonra fonddan 19 milyar dollarlıq kredti aldı (3).

Türkiyənin BVF-ə olan borcunun illərə görə dəyişməsi [3]



2009-cu ildə 20-ci stand-by müqaviləsinin imzalanmasına yönəlmiş cəhdlərlə əlaqədar olaraq hökümət, BVF heyətinin Türkiyəyə gəlməsindən əvvəl hazırlıqlara başlamış və bu sahədə görülə biləcək tədbirlər və bunların alternativlərini ortaya qoymuşdur. Xərclərin ixtisarı məqsədi ilə cari xərclər üzərində qənaət edilməsi qərarlaşdırılmış, həmin ilin 29 martında yerli seçkilərdən əvvəl gəlirləri xeyli artırılan bələdiyələrin xərclərinin azaldılıb-azaldılmaması qiymətləndirilmiş, hətta bu məsələdə müxtəliffikir ayrılıqları yaranmışdır. 31 dekabr 2008-ci il tarixində müddəti başa çatan və 49 vilayəti əhatə edən "Təşvik Qanunu" çərçivəsində "Sahə və Regional Təşvik" adlı yeni bir qərar qəbul etməyi nəzərdə tutan hökümət, böhranın təsirini nəzərə alaraq bu planı təxirə salmış və mövcud sistemin qorunmasına yönəlmiş qərarlar almışdır. Bundan başqa, problemlə əlaqədar tənzimləmələr də aparılmış və nəzərdə tutulan yeniliklərin mövzuya uyğun hala gətirilməsinə çalışmışdır. Bütün bu hazırlıqlar zamanı Türkiyə BVF ilə razılaşmaq fikrində idi.

20-ci stand-by müqaviləsinin bağlanması üçün Türkiyə ilə BVF arasındakı görüşlər 8 yanvar 2009-cu ildə BVF heyətinin Türkiyəyə gəlməsi ilə başlamışdır. Ancaq tərəflər arasında özünü göstərən fikir ayrılıqları ilə əlaqədar olaraq danışıqlar donma nöqtəsinə çatmışdır. Türkiyənin uyğun hesab etmədiyi BVF-in tələbləri aşağıdakılardır:

1. Mükəlləflərin xərclərinin vergisi ödənmiş gəlirlə ödənilib-ödənilməməsini nəzarət altına almağı məqsəd qoyan "Haradan aldın" qanununa yenidən baxılması tələbi.
2. Gəlir İdarəsi Müdirliyinin yuxarı məqam statusuna yüksəldilməsi tələbi.
3. 2009-cu il üçün əlavə tədbirlər paketinin hazırlanması tələbi.
4. Bələdiyələrin mənbələrinin azaldılması tələbi.

Türkiyə BVF-nun bu tələblərini qəbul etməyərək, aşağıdakı alternativləri təklif etdi:

1. "Haradan aldın" qanununun qəbul edilməsi ilə əlaqədar BVF-nun tələbi kapitalın xaricə qaçmasına səbəb olacağı üçün Türkiyə tərəfindən qəbul edilmədi. Bunun əvəzinə qeyri-leqal iqtisadiyyat ilə mübarizə aparmaq və vergidən əldə edilən gəlirlərin artırılması üçün mükəlləflərin xərclərinə çarpaz nəzarət qoyulması nəzərdə tutuldu.

2. BVF-nun büdcə ilə bağlı planlarında inkişaf hədəflərinin daha real rəqmlərə əsaslanmadığı fikri irəli sürülürdü. 2009-cu ilin əvvəlində 4 faiz olaraq açıqlanan Türkiyənin böyümə hədəfi, dünyanı sarsıdan iqtisadi böhranla əlaqədar olaraq BVF tərəfindən real hesab edilmədi və nəzərdə tutulan inkişaf tempi BVF tərəfindən 1.5% - lik azalma ilə əvəz olundu. Bu təklif nəzərdə tutulan xərclərin azaldılmasını tələb etdiyi üçün Türkiyə tərəfindən qəbul edilmədi.

Onu da demək lazımdır ki, makroiqtisadi hədəflərin dəyişdirilməsi və 2009-cu il üçün əlavə tədbirlər paketi hazırlanması haqqında BVF-nun tələbi ilə əlaqədar Türkiyə 2009-cu il xərclərinin ixtisarını nəzərdə tutan tədbir paketini hazırlamışdır. Əlavə paketin miqdarı təxminən 8 milyard TL məbləğində idi.

3. Bələdiyələrin gəlirlərinin azadılması haqqında BVF tələbinin əksinə isə Türkiyə tərəfi, yerli özünü idarə orqanlarının mərkəzi hökümətdən asılılığının azaldılması üçün tədbirlər görülməsini nəzərdə tuturdu.

Həmin fikir ayrılıqları ilə əlaqədar olaraq 10 günlük təxirə salınan görüşlər, ancaq iki ay sonra 02.04.2009 tarixində keçirilən G-20 zirvəsi ilə yenidən gündəmə gəldi. G-20 Zirvəsi zamanı Baş Nazir Rəcəb Tayyip Ərdoğan və BVF Başkanı Dominique Strauss Kahn arasında baş tutan təmaslar ilə görüşlərə yenidən başlanması haqqında razılıq əldə edildi. Türkiyənin BVF haqqında fikirləri nəzərə alındıqda demək olar ki, Zirvə Türkiyənin BVF ilə yeni bir dövrə başlaması baxımından böyük əhəmiyyətə malikdir.

Planlaşdırılan yeni stand-by müqaviləsi çərçivəsində, əvvəlki dövrlərlə müqayisədə, mahiyyət baxımından da bir sıra dəyişikliklər olduğunu demək mümkündür. Keçmiş dövrlərdə təklif edilən struktur şərtlərinin yerinə ümumi maliyyə müvazinəti və maliyyə nəzərdə tutulurdu. Görüşlər zamanı özəlləşdirmə, ümumi maliyyə müvazinatı, sosiyal güvənlik, gəlir və xərc proqnozları kimi məsələlər üzrə aparılan işlər müəyyən bir mərhələyə gətirildi.

2006-cı ildə BVF-da aparılan islahatlar ilə Türkiyənin o dövrdə 964 milyon SDR olan kvotası, 1.2 milyard SDR-ə çatdırılmıştır. Bu rəqəm təxminən 2 milyard dollara bərabərdir. Aparılan islahatlarla borc alabilmə imkanları da genişləndirilən Türkiyənin BVF-dan kvotasının yüzdə 1000-i ilə 1600-ü arasında kredit tələbi olması mümkün idi ki, bu da minimum 20 milyard dollar, maksimum 32 milyard dollara bərabər idi.

Macarıstanın təcrübəsində olduğu kimi, yüzdə 2000 nisbətində kredit tələbi olarsa, bu rəqəmin 40 milyard dollara çatması mümkündür. Türkiyə 2006-cı ildə aparılan islahatlar zamanı BVF-nun üzvü olan 184 ölkə arasında kvotası artırılan dörd ölkədən biri olmuşdur. Digər üç ölkə Çin, Meksika və Cənubi Koreyadır. Türkiyənin xarici maliyyə kəsiri nəzərə alındıqda mütəxəssislər hesab edirlər ki, 20 milyard dollarlıq bir kreditbu kəsiri ödəmək üçün yetərlidir. BVF eyni zamanda 1 aprel 2009-cu il tarixindən etibarən əsas borcun geri qaytarılmasında verilən möhlət 2 il 3 aydan 4 ilə qaldırılmışdır. Dəyişiklik nəticəsində 2009-cu ildə geri ödəmələr 1,4 milyard SDR, yəni təxminən 2.1 milyard ABŞ dollar daha az olmuşdur.

Yuxarıda deyildiyi kimi, Türkiyə, BVF-na üzv olduğu tarixdən 2009-cu ilədək iqtisadi böhranlardan qurtarmaq, maliyyə ehtiyacını təmin etmək, iqtisadi islahatları həyata keçirmək üçün 19 stand-by müqaviləsi imzalamışdır. Bu müqavilələrin bir hissəsi struktur tənzimləmələrin yetərsizliyi və siyasi səbəblərlə əlaqədar müvəffəqiyyətsiz olmuşdur.

2009-cu ildə Türkiyədə artım surətinin 6% - dan çox olması və Türk lirəsinin qiymətdən düşməsi ilə əlaqədar olaraq Türkiyə ilə BVF razılaşması Türkiyə iqtisadiyyatı üçün son dərəcə önəmli və xarici maliyyə kəsirinin vaxtında ödənilməsi baxımından əhəmiyyətli idi. Son illərdəTürkiyədən geri çəkilən xarici yatırımların yerinin doldurulması da lazım idi. Dünyanı sarsıdan böhranla əlaqədar olaraq kapitalların ABŞ, Yaponiya, Avropa kimi inkişaf etmiş iqtisadiyyatlara axması Türkiyədə çətinliklər yaratmışdır. Bəzi mütəxəssislərin fikrinə görə, BVF-u olmadanTürkiyə iqtisadiyyatının qlobal böhrandan çıxması, inflyasiya və faiz dərəcələrinin aşağı salınması mümkün olmazdı, investorlar qarşısında Türkiyənin etibarını itirməsi ehtimalı yüksək idi.Türkiyə ilə BVF arasında imzalanması nəzərdə tutulan 20-ci stand-by müqaviləsi qlobal böhran baş verdikdən sonra "Yüksələn iqtisadiyyatlar arasında ən böyük qurtarma" əməliyyatı hesab edilirdi. 2001-ci ildə yaşanan iqtisadi böhranla əlaqədar olaraq Türkiyə iqtisadiyyatında yaranmış və uzun

müddət davam edən inamsızlıq və bunun nəticəsində dünya miqyasındakı etibarının azalması Türkiyənin 2009-cu ilin əvvəlində 4% nisbətində artım sürətini planlaşdırması da qlobal böhran səbəbi ilə beynəlxalq platformada bunun mümkün olmadığı fikri hakim idi. Bu isə Türkiyə ilə əlaqədar etibar problemini daha da aktuallaşdırmışdır. Türkiyə iqtisadiyyatında bütün bu məsələlər nəzərə alındıqda, xarici investorların etibarını yenidən qazanmaq üçün BVF-u ilə razılaşması zəruri idi. İqtisadi hədəflərin əsaslandırılmasının qlobal miqyasda nüfuzu olan bir beynəlxalq təşkilata bağlanmasıTürkiyə üçün əhəmiyyətli idi.

Buna baxmayaraq Türkiyə Cümhuriyyətinin iqtisadi qüdrətinin artması, maliyyə və siyasi stabilliyinin büdcə intizamının möhkəmləndirilməsi nəticəsində BVF-na olan borclarını 2009-cu ildə tamamilə ödəmək qərarına gəldi. Bu tarixdən etibarən Türkiyə BVF-dan borc alan ölkə deyil, borc verən ölkəyə çevrilməyə başladı.

Türkiyə BVF ilə stand-by müqaviləsini bağlamayacağı qərarını 2008-ci ildə qəbul etdikdən sonra isə iqtisadiyyatda əhəmiyyətli dəyişikliklər özünü göstərdi.

Son dəfə 2005-ci ildə makroiqtisadi stabillik hökm sürdüyü bir dövrdə kredit alan Türkiyənin bir müddət sonra BVF-ə olan borcunun tamamilə qaytarılması və BVF strukturlarında daha yüksək mövqe alaraq bu beynəlxalq təşkilat ilə əlaqələrinin dəyişməsi prosesi başlanmışdır.

Türkiyə bu yeni dövrdə BVF-na 5 milyard dollar ilə 39 ölkə arasında ən büyük yardım edən 23-cü ölkə olmuşdur.

Bu vaxta qədər fonda 60 milyard dollarla ən böyük yardım edən ölkə Yaponiya oldu. Fonda Almaniya 54,7 milyard dollar, Çin 43 milyard dollar, Fransa 4,4 milyard dollar, İtaliya 31 milyard dollar, İspaniya 19,6 milyard dollar, Hollandiya 18 milyard dollar, İngiltərə isə 15 milyard dollar yardım etmişdir.

Türkiyə BVF-na 5 milyard dollar verərək Sinqapur, Lüksemburq, Slovakya, Çex Cümhuriyəti, Cənubi Afrika, Kolumbiya, Sloveniya, Malaziya və Yeni Zenlandiyadan yüksək pilləyə qalxdı.

Türkiyənin son illərdəki iqtisadi inkşaf göstəriciləri buna imkan vermişdir. Belə ki, Türkiyədə 2013-cü ilin birinci yarısında qeyd olunan inflyasiya sürəti son 44 ildə ən aşağı göstərici olmuşdur. Bu illərdə xəzinənin borclanma faizləri (5 faiz) də çox aşağı səviyyədə olmuşdur.

Bu inkişafla Türkiyə BVF-dən "yardım alan ölkə" statusundan çıxıb, "dünyanı böhrandan qoruyan ölkələr" sırasına daxil olmuşdur. Üstəlik BVF-ə veriləcək 5 milyard dollarlıq yardımın istifadəsi zamanı Türkiyə Cümhuriyət Mərkəzi Bankının BVF-in həmin əməliyyatına nəzarət etməsi də bu təşkilatla əlaqələrdə keyfiyyət dəyişikliyi baş verdiyini göstərir. BVF-in "etibarını" qazanmış Türkiyə həmin təşkilatın icra orqanında ilk dəfə olaraq yer alması ilə dünyada iqtisadi böhranın tənzimlənməsində də müəyyən rol oynamış olur.

Son illərdə Türkiyənin davamlı olaraq göstərdiyi sürətli iqtisadi inkişaf qarşıya iddialı hədəflər qoyulmasına imkan yaratmışdır. Belə ki, 2023-cü ildə Türkiyədə adambaşına düşən milli gəlirin 25 min dollara, ixracatın isə 500 milyard dollara çatdırılması məqsədi qarşıya qoyulmuşdur. 2023-cü ildə İstanbulun dünyadakı bütün beynəlxalq maliyyə mərkəzləri içərisində ilk onluğa daxil olması da nəzərdə tutulur (4).

Bununla yanaşı, Türkiyənin BVF-də malik olduğu səs və kvota miqdarı azdır və deməli, Türkiyənin BVF-də rolu olduqca zəifdir. BVF-də gücü zəif olan Türkiyənin, dünya iqtisadiyyatı üzərində təsirinin artması qeyri realdır. 2023-cü ildə dünyanın ən böyük 10 iqtisadiyyatı arasına daxil olmağı qarşısına məqsəd qoyan bir ölkənin iqtisadi struktur problemləri, cari açıq və inflyasiya kimi problemləri olmamalıdır. Mütəxəssislərin fikrincə, Türk iqtisadiyyatı struktur baxımından da zəifdir (5).

Ədəbiyyat:

1.Dr.Doç.Meliha Ener. Küreselleşen dünyada İMF politikaları ve Türkiye. Ankara, 2004, s.171.

2. IMF, Aralık 2005 http://www.haberdesondurum.com/imf-ile-yollar-ayrildi-bir-devir-sona-erdi/904/

3.Zeynəp Ərdinç.‘‘Uluslararası Para Fonu-Türkiyə İlişkilərinin Gəlişimi və 19. Stand-By Anlaşması’’, Sosyal Bilimlər Dərgisi, Sayı: 18, Avqust 2007, http://sbə.dpu.ədu.tr/18/99.pdf.

4.“Uluslararası Para Fonu’na Olan Borç Stoku (Milyar SDR)”, Erişim: 3 Ekim 2012.

5.http://www.haberdesondurum.com/imf-ile-yollar-ayrildi-bir-devir-sona-erdi/904/

III BÖLMƏ
FƏSİL X
TÜRK DÜNYASI QLOBAL İQTİSADİ İNKİŞAF YOLUNDA

10.1 The Silk Road - 2000. New stage in the world development

"The silk road, İpək yolu, Великий шелковый путь", 1998, N 3

The end of the 20th century being as the turning point in the development of the humanity is characterized by acceleration of the world economy's globalization. Conception which regarded the world as something isolated one where states were not connected with each other remained behind. The deepening of economic relations between different states has become a decisive factor of progress of the humanity. Resolution of such global problems of the Earth as ecological, demographic and energy, prevention of starvation, poverty and nuclear war, development of the Cosmos and resources of the World Ocean demands the global approach to these extremely significant problems. The notions about new world and mutual co-existence are the basis of the all-human mind.

The all-human progress, first of all, demands to liquidate the existing and increasing gap in the living standards of people living in different parts of the Earth. According to the reports of the UN Conference on Trade and Development, the difference between revenues per capita of 20% of the richest and 20% of the poorest population of the world increased from 30 times in 1965 to 60 times in 1990.

The majority of population of such states as India (52.5%), Nigeria (61.5%), Nepal (53.1), Madagascar (72.3%), Guinea-Bissau (87%), Uganda (50%), Senegal (54%) are living for less than one US dollar per day. Despite the constant deepening of the scientific and technological progress and the spreading of the transnational corporations, the gap on the living standards between developed and developing states are being remained. In the 80s the economically developed states having 26% of the world population used 80% of the world energy, 85% of the world paper, 79% of the world steel, and 865% of other metals. The further development of the world civilization in the 21st century which occupied 1/6 part of the Earth, the liquidation of the division of the world into hostile camps put an end to the cold war and changed the geopolitical situation in the huge geographic area. Wide opportunities on deepening of the profitable cooperation between all subjects of the system of the world economy have appeared. They are necessary for progress of the humanity. New independent states of the Central Asia and Caucasus controlling the significant part of the rich oilfields of the Caspian

basin take a special place in this geographic area. This region which is considered to hold as much as 30 billion tons of oil and tens of trillion cubic metres of gas reserves surpassed only by those of the Near East. According to the prognoses, average output of the oil per a year to the middle of the next century will reach to 100 million tons. If we take into account the reserves of uranium and other kinds of ore, gold reserves, and also cotton production, then the significance of the region will be increased more.

There is well-known notion of geopolitics, which has recently entered to the political lexicon, includes geographic as well as all-human (political, economic, social, military) factors. "Iron curtain" which was created and protected by the Soviet government during more than 70 years sufficiently isolated the Central Asia and Caucasus from their neighbors as well as from the world community. The 21st century as the century of information, ecology, technological inventions demands to effectively utilize limited mineral and raw resources of the Earth. According to the forecasts in 2010, there will be 10 billion people in the world. Even in the case of relative restriction of the consumption of the mineral and raw resources per capita, the demographic boom will determine the crucial growth of demand to the mineral, raw, and energy resources in the world scale. According to the report of the International Energy Agency to 2010, the consumption of the primary energy carries will be increased approximately to 47%. In this relation, the Caspian region will have a great importance in the stable and effective development of the world economy. That is why the region is one of the leading directions of the modern geopolitics. It is not occasionally that the notion of "Great Game, which reflected the struggle between Russia and England for the domination in the Central Asia and Caucasus at the beginning of the 20th century, has been accepted as " New Great Game" by the modern political lexicon in the end of the century. However times have been changed. Empires which were based on the hegemony of one state over other, or one region over other, were destroyed and their aggressive policy failed. All nations began to realize that a future of the civilization does not depend on hegemony of one state over other. It depends on the essence of relations between states. Therefore, formation and realization of "the Great Silk Road" idea based on the principle of mutual beneficial cooperation will promote the resolution of the global problems of the humanity. The restoration of the "Silk Road" which was formed as a result of the natural tendency of historical events and connected the East and the West by strong relations would increase a well-being of future generations.

The Silk Road - 2000 project has very great importance on the independent states of the Central Asia and Caucasus (67 million populations) which are main figures of the project. Their involvement into world economic

relations will allow them to solve their socio-economic problems and also to strengthen the political and economic independence. The republics of the Central Asia and Caucasus have been backward ones among the republics of the Soviet Union.

Wellbeing of the people in these republics has been the lowest among all republics of the USSR.

Table 1. Some indices characterizing the wellbeing of the population of the Central Asian and Caucasian republics in 1990

	Percentage of persons with wage less than 100 roubles per month	Retail Trade circulation of state and cooperative trade per capita (roubles)	Savings of population in banks (bln. roubles)
USSR	11.3	1619	381.4
Azerbaijan SSR	49.4	902	3.7
Armenia SSR	16.7	1436	5.9
Georgia SSR	17.7	1397	8.1
Kazakhstan SSR	24.4	1308	14.2
Kyrgyzstan SSR	46.5	1069	2.2
Tajikstan SSR	67.8	815	1.9
Turkmenistan SSR	49.2	1065	1.8
Uzbekistan SSR	54.1	907	8.4

As we see from the Table 1, the Turkic republics have been in worst conditions. In the above mentioned Report of the World Bank these state by the level of GNP are included in the group of states with a low level of revenue. The average of the GNP in 1995 were $ 480 in Azerbaijan, $ 730 in Armenia, $ 440 in Georgia, $ 1330 in Kazakhstan, $ 700 in Kirgizstan, $ 340 in Tajikistan, $ 920 in Turkmenistan, $ 970 in Uzbekistan.

Destruction of administrative system of economics and difficulties of the transition to market economy caused some negative consequences, in particular fall of the growth rate of industrial production per capita in these republics.

Table 2. General economic indices of the Central Asian and Caucasian republics for the first years of the independence (percentage)

	Dynamics of the Cross Domestic Product in 1996 (1990=100)	Average Annual fall of the GNF (1990-1995)	Average Annual fall of the GNP per capital (1990-1995)	GNP per Capita (US rate=100)
				1987 1995
Azerbaijan	40	-20.2	-16.3	21.8 5.4
Armenia	47	-21.2	-15.1	25.4 8.4
Georgia	41	-26.9	-17.0	28.1 5.5
Kazakhstan	55	-11.9	-8.6	24.2 11.2
Kirgiz Republic	54	-14.7	-6.9	13.6 6.7
Tajikistan	24	.....	.....	12.1 3.4
Turkmenistan	70	.....	....	....
Uzbekistan	88	-4.4	-3.9	12.6 8.8

As we see from the table 2, the rate of the GNP per capita in these republics decreased 2-4 times in comparison with the same indices of the USA for the period from 1987 to 1995.

Socio-economic progress of their active joining to the world economic system

The intensive economic integration of these states with world market is one of the main directions of their economic policy. However in the period of independence the process of formation of the international economic relations are taking place in the complicated situations. There are some problems connected with the conditions of foreign trade of these states. For instance, according to the International Monetary Fund (IMF), the conditions of the foreign trade of Azerbaijan have been worsened by the following way:

Table 3. the conditions of the foreign trade of Azerbaijan in 1993- 1996.

	1993	1994	1995	1996
Prices for imported goods	100.0	131.4	161.0	162.7
Prices for exported goods	100.0	117.7	114.2	127.5
Conditions of the foreign trade	100.0	84.6	70.9	78.4

The next table shows essential dependence of the Central Asia and Caucasian republics on the foreign states on supplying of population's demands for consumer goods.

The Silk Road - 2000 project is opening wide perspectives for independent states of the Central Asia and Caucasus. It promotes them to establish integrative relations with developed states of the world. Exit to the Europe will play important role for the technological development and for the formation of market in the these republics.

The proportion of goods from local sources in the total rate of circulation of goods (1988, %).

	All goods	Including
		Food products Non-good products
Azerbaijan	10.1	3.3 15.3
Armenia	8.1	4.6 10.4
Georgia	11.9	2.5 17.5
Kazakhstan	7.5	2.8 11.3
Kirgiz Republic	6.4	3.1 8.7
Tajikistan	10.6	4.0 15.3
Turkmenistan	7.4	1.2 11.3
Uzbekistan	9.0	4.8 11.7

The Central Asia and Caucasian states do not have an opportunity to develop their rich natural resources. Their traditional partner - Russia is in an economic crisis. Except it, some political forces in Russia are defending the empirical ambitions and creating some obstacles in the way of their independence. Therefore, the Silk Road - 2000 project will play exclusively important role in the process of removal of the dependence of these states from Russia. The project will also attract the foreign capital for exploration of the rich natural resources of these states.

Although states situated on the Silk Road have some transport system, but there are a lot of problems in this system. The transport system of these states has been organized by the way which has prevented the possibilities of their exit outside the USSR. Therefore, the present 1 transport system of these States is a serious obstacle in their fight for independence. The Silk Road - 2000 project primarily aims to create safe transport corridor between the East and the West. However it will also promote formation of new processes in the

region's development, in particular, widening and deepening of their relations with world market.

A brief characteristics of the program of TRACECA

The program of TRACECA (Transport, Corridor, Europe, Caucasus, Asia), which is essential part of the Silk road project, has been adopted by the representatives of the five Central Asian and three Caucasian republics at the Conference held in Brussels in May, 1993. There have been also approved the program of the technological aid of the European Union, which will promote the building of the transport corridor from Europe, across the Black Sea, through Transcaucasia and Caspian Sea to the Central Asia.

The program corresponds to the global strategy of the European Union to these states. It includes the following tasks:

- to support political and economic independence of these states by promoting their access to European and world markets through alternative transport routes;
- to promote further development of regional cooperation between republics;
- to use the Tacis and TRACECA programs as means for attracting the attention of the International Finance Organization and private investors;
- to connect the TRACECA route with the Trans-European Nets.

The leaders of the participating republics consider that the TRACECA route has a strategic importance for building alternative transport exit to Europe. This exit will supplement the traditional and less effective route through Russia.

The TRACECA program's technical assistance succeeded in attracting essential investments from the International Monetary Fund, the European Bank of Reconstruction and Development, and the World Bank.

Periods of formation of the TRACECA Program

The Conference in Brussels noted some problems in the trade and transport systems. Those problems transformed into project proposals for the TRACECA program. 15 mln EKU were given to the project aimed to improve and to develop the domestic transport and trade.

The first session of the Working Group held in Alma-Ata in May 1995. The Program plan was elaborated by the efforts of the four sectoral working groups – (promotion of trade, road, railway and sea transport).

The second session of the Working Group was held in Vienna in October 1995. There was adopted one definite itinerary of the TRACECA.

The participants noted the necessity of the link of TRACECA itinerary with the Crit Corridors, which unites the Black Sea region with the Transport European Net. In order to define the possibilities of the unification of the

TRACECA itinerary with the Black Sea region and the Transport European Net the European Union organized the Conference held in Tbilisi in April 1997. There were the representatives of all states involved in the TRACECA program. The ministers of the 16 states agreed to unite the TRACECA program and the states of the Black Sea region within the Trans-European Net.

The next Conference took place in Helsinki in June 1997. This Conference defined the Black Sea region as the Pan European Transport region which would direct the Trans- European Net to the East.

In September 1997 there was the summit between Heydar Aliyev, the President of the Republic of Azerbaijan and Eduard Shevardnadze, the President of the Republic of Georgia. Both Presidents agreed to hold a summit in Caucasus in 1998 which would adopt the multilateral agreements on transport within the TRACECA program.

The Silk Road - 2000 project is being adopted by new states. The development of the TRACECA transport corridor to China and Japan will contribute to the world development in the 21 century.

10.2. Şərq və Qərbin vəhdəti bəşəriyyətin ipək yoludur

İPƏK YOLU, 1998, № 2

"Musa: Bir od gördüm uzaqda. Ya gedib sizə bir parça od gətirərəm, ya da doğru yolu nişan verər mənə od".

"Quran", "Taha" surəsi.

Kimin ki, qəlbində insani ləyaqət hissi şölələnir, o bəlkə də bu hissin təhqir oluna biləcəyindən qorxaraq, bu şölələrin sönə biləcəyindən qorxaraq, həyatda fəal mövqe tuta bilmir, mübarizlik ruhunu itirir, şəxsi ləyaqətinin passiv mühafizinə çevrilir.

Lakin insan küləklərə, dalğalara qarşı getməkdən çəkinməməlidir. O inanmalıdır ki, harada isə sönməyən bir atəş var. Nə vaxtsa külək güc gəlsə və qəlbin incə, xəfif alovunu söndürsə, o yenidən həmin ocağın köksünə sığınacaq və ondan atəş alacaqdır.

Milyon illər davam edən əməli fəaliyyət prosesində insanda heyvani instinktiv hisslərdən fərqli olan nəcib və ali hisslər - insani hisslər yaranıb və bu hadisə bəşər tarixinə Şərq ruhu adı ilə daxil olub. Həmin ruhu ata-babalarımız bir məşəl kimi nəsildən-nəslə ötürüb yaşadıblar.

Lakin nə vaxtsa əzəmətli, lakin buz kimi soyuq olan ağıl dəryasının tələtümləri sahili bürüməyə başlayıb və bütün alçaq sahələrdəki alovların üzərinə su çiləyib, onları söndürüb. Bu hadisə bəşər tarixinə Qərb ruhu adı ilə daxil olub.

Qərb ruhu alçaq əraziləri sulara qərq etsə də, uca zirvələrə qalxa bilməyib. Uca zirvələrdəki ocaqlar toxunulmaz qalıb.

Elə bil ki, hamıda potensial imkan şəklində həm primitiv, həm də ali, həm mənfi, həm də müsbət hisslər var. Lakin tərbiyə, mühit, hakim ruh bunlardan hansını isə canlandırır, gerçəkliyə çevirir, digərləri isə passiv imkan şəklində qalır. Necə ki, bəzi yazıları yalnız alovda isindirəndə oxunmağa başlayır, eləcə də qəlbimizin potensial hisslərini müəyyən bir canlı təsir, müəyyən bir atəş öz hərarəti ilə isindirərkən, onlar oyanır, fəal qüvvəyə çevrilir, cahanda kamalın qalib gələcəyinə əminlik yaranır.

Bu sönməyən atəş, bu insani ləyaqət şöləsi əsrlərdən bizə miras qalmış mənəvi sərvətlərimiz, adət-ənənələrimiz, dini-əxlaqi dəyərlərdir. Onu intellektual inqilabın tufanlarından, robot erasının buz kimi soyuq nəfəsindən qorumaq vəzifəsi böyük bir sivilizasiyanın, müqəddəs bir ruhun "olum, ya ölüm" məsələsidir, üçüncü minilliyin astanasında Şərq xalqları qarşısında duran ən böyük tarixi missiyadır.

Qərb dənizində batmamaq, yaxşı üzə bilmək üçün intellekt gəmisi lazımdır. Şərq intellektdən heç vaxt korluq çəkməyib. Lakin hərə öz gəmisi ilə üzməyə çalışıb, birləşib böyük gəmi düzəltmək istəməyiblər. Öz gəmisini qura bilməyənlər suda qərq olublar.

Deyirlər ki, Şərq adamların sayına görə Qərbdən üstündür. Lakin Qərbdə buz kimi soyuq nəfs dalğaları üzərində böyük ictimai gəmilər üzür. Şərqdə isə batanları saymasaq, öz şəxsi gəmiləri ilə möhtəşəm dalğalara sinə gərib üzənlər azlıq təşkil edir.

Digər tərəfdən, öz kiçik şəxsi gəmilərində üzənlər Qərbin böyük gəmiləri ilə qarşı-qarşıya gəlməmək üçün onların dalınca üzmək məcburiyyətindədirlər. Çünki dərya da Qərb dəryasıdır.

Şərq özünün alçaq təpələrdə şölənənən ruhundan ayrı düşüb. Ancaq uca zirvələrdəki alov hələ də şölələnməkdədir və ancaq nəfs dalğalarının fövqünə qalxanlar bu sönməz ruha qovuşa bilərlər.

Dünyanın gündoğan və günbatan cəhətlərini ifadə edən "Şərq" və "Qərb" sözləri böyük hərflərlə yazıldıqda ictimai məna kəsb edir və gündoğan və günbatan səmtdə yerləşən ölkələri əks etdirir.

İctimai mənada işlənən Şərq və Qərb ifadələrində qədim və mürəkkəb bəşər tarixinin minlərlə açılmış və açılmamış sirrləri, dünyanın iki böyük hissəsinin bir-biri ilə əməkdaşlıq və bəzən də çoxtərəfli qovuşma prosesləri, bu proseslərin ictimai təkamülə verdiyi güclü təkanlar, cəmiyyətin inkişafını yüz illərlə geri atmış müdhiş müharibələrin qanlı izləri, müdrik filosofların minillik mübahisələri silinməz boyalarla həkk olunmuşdur.

Vahid dünyanın bu iki böyük tərkib hissələri arasında qədim dövrlərdən başlanan qarşılıqlı əlaqə və mübarizə tarixi inkişafın gedişində qarşılıqlı asılılıq və qarşılıqlı təsir prosesləri ilə müşaiyət olunmuşdur.

Mübaliğəsiz demək mümkündür ki, müasir sivilizasiya Şərq və Qərbin min illərlə davam etmiş qırılmaz vəhdətinin möhtəşəm nailiyyətidir. Qədim Şərqdə riyaziyyat, astronomiya, tibb və elmin digər sahələri məlum səviyyədə inkişaf etmiş, öz dövründə bəşəriyyətin qabaqcıl mədəniyyətini formalaşdırmış və insan cəmiyyətinin intibah və islahatlar dövrünə daxil olması üçün zəruri şərtləri yetişdirmişdir. Bəşəriyyətin təkamülünə inqilabi təkan vermiş rəqəm, barıt, kompas, kitab nəşri və s. kəşfi üçün cəmiyyət ilk növbədə Şərqə borcludu. Qədim yunan elmi və fəlsəfəsinin Qərbdə geniş yayılmasında İslam elmi və mədəniyyəti böyük rol oynadı. Artıq tarixi bir faktdır ki, Qərb dünyası Aristotel və Əflətunu ilk əvvəl İslam bilikləri ilə tanımışdır. Müasir tibb elmi yaranana qədər İbn Sinanın Allaha inamla yanaşı təbiət elmlərinə və ağlın gücünə əsaslanan əsərləri Qərbdə bu sahədə əsas kitab kimi istifadə edilmişdir.[1]

İngilis alimi T.Nednam göstərmişdir ki, mexaniki saat, dəmir əridilməsi, at nalı və onun hazırlanma texnologiyası daxil olmaqla yüzlərlə texniki yeniliklərin vətəni də Şərqdir[2]. Müasir elmin yaranma prosesi uzun əsrlər davam etmiş texniki tərəqqi və onun nailiyyətlərinin Qərbi Avropa iqtisadiyyatında tətbiq edilməsi nəticəsində hazırlanmışlar.

Şərq və Qərb mədəniyyəti və iqtisadiyyatının bir-birinə yaxınlaşmasında, bir-birini qarşılıqlı olaraq tamamlanmasında «Böyük İpək Yolu» adı altında hələ eramızdan əvvəl fəaliyyət göstərməyə başlamış beynəlxalq tranzit ticarət yolu mühüm tarixi rol oynamışdır.

Eramızın birinci minilliyində Şərq bəşəriyyətə iki fərqli və böyük dini-Xristianlığı və İslamı bəxş etdi. Biri Qərbdə, digəri isə Şərqdə kök salmış bu iki böyük din arasında oxşar cəhətlər (tək allahlılıq və s.) olmasına baxmayaraq, kəskin mübarizə başladı. İnsan cəmiyyətini keyfiyyətcə yeni inkişaf mərhələsinə çatdırmış ikinci minillik tarixə müdhiş və uzun sürən xaç yürüşləri ilə qədəm qoydu.

Bəşəriyyət ümumi bəşəri dəyərlər əsasında irəlilədikcə, elmi və texniki kəşflər insanlara ram edildikcə, nəqliyyat və rabitə vasitələri kəşf edildikcə dünyanın - Şərq və Qərbin bir-birini daha yaxından öyrənməsi və bir-birinə daha güclü təsir etməsi prosesi sürətlənmişdir. Şərqə doğru irəliləmə, Şərqə daha əlverişli yollar axtarışı dünyanın Böyük coğrafi kəşflərinə gətirib çıxartdı.

Məlum olduğu kimi, XVI əsrə qədər dünyanın ayrı-ayrı mədəni regionları nisbi olaraq müstəqil inkişaf edirdi və onlar arasında qarşılıqlı əlaqə zəif idi. Müxtəlif sivilizasiyaların bir-biri haqqında bilikləri tam deyildi, ticarət və mədəni əlaqələr isə daimi xarakter daşımırdı. Böyük coğrafi kəşflər

[1]Q.Feyzioğlu. Atatürk yolu: akılçı, bilimçi, gerçekçi yol - Atatürk yolu. İstanbul, 1981, s. 6.
[2] В.А.Зорин. Запад и Восток в мировой истории XIV-XIX вв. М., 1991, стр. 232.

edildikdən sonra isə vəziyyət kəskin surətdə dəyişdi, Yer kürəsinin sivilizasiyaları arasında daimi və sıx əlaqələr yaradıldı. Əvvəllər sızıntı şəklində özünü göstərən qarşılıqlı fikir, maddi və mədəni axınlar böyük kanallarla həyata keçirilməyə başladı. Şərq və Qərb arasında istər təmaslar, qarşılıqlı təsir və qarşılıqlı tamamlama, istərsə də fərq, ziddiyyət və mübarizə elmi, siyasi və iqtisadi sahələrdə yüksələn xətt üzrə genişlənirdi.

Elmi inqlabın baş verdiyi XVII əsrdən etibarən Qərb Şərqin elm sahəsindəki minillik nailiyyətlərini daha dərindən öyrənməyə başlamaqla, bu nailiyyətlərlə kifayətlənmir, təbiəti daha dəqiq dərk etməyə və elmi nailiyyətlərdən istifadə edərək onu daha intensiv dəyişdirməyə başlayır. Şərq donmuş, mühafizəkar düşüncə tərzini, sxolastika və mədrəsə təhsil sistemini qoruyub saxladığı halda, Qərb ağlın gücünə və təcrübəyə əsaslanan müasir elmin yaranması və sürətli inkişafı sahəsində qısa zamanda böyük uğurlar qazandı, elmi-texniki inqilabların qələbəsini təmin etdi.

Şərq və Qərb arasında ziddiyyət və mübarizə siyasi və iqtisadi sahədə daha da kəskinləşirdi. Qərb tacirləri gündoğana tərəf irəlilədikcə Şərqin maddi və mədəni sərvətlərinə maraq getdikcə artırdı. Səlib müharibələri ilə başlanan Şərqin silah gücünə fəth olunma prosesi tədricən açıq-aşkar müstəmləkəçilik müharibələri ilə əvəz olunurdu. Qərbin Şərqdən üstünlüyü hərbi, siyasi və iqtisadi sahədə getdikcə daha aydın görünürdü. Şərqdə kəşf olunan barıt və kompas Qərbdə praktik tətbiqini tapdı, xəritə, gəmiqayırma və dəniz müharibəsi texnikası yüksək inkişaf etdirildi və Şərqin fəth olunmasında geniş istifadə edildi.

Böyük coğrafi kəşflər Qərbdə manufakturanın və ümumiyyətlə, istehsalın inkişafına güclü təkan verdi, dünya bazarının yaranması üçün şərait yaratdı. Hələ XV-XVI əsrlərdə regional Avropa ticarəti üstünlük təşkil etdiyi halda, XVII-XVIII əsrlərdə artıq qitələrarası ticarət formalaşmışdı. Dünya bazarının ümumi görünüşü sistemi ticarət əlaqələrinin yaradılması və beynəlxalq əmək bölgüsü elementlərinin dünyanın bütün tərkib hissələri arasında formalaşması nəticəsində XVII əsrin ortalarında yarandı.[1]

Teokratik dövlət quruluşunun dərin kök saldığı, dünyəvi və ruhani gücün tək əldə toplanmış olduğu Şərqdən fərqli olaraq Qərb Böyük Fransız inqilabından sonra dövlət quruculuğunda layiqlik prinsipini geniş tətbiq edir, siyasi və iqtisadi həyatda demokratiya və liberallaşmanı tətbiq edir, azadlıq və bərabərlik prinsiplərinə hüquqi status verməyə başlayır. Kilsənin təzyiqindən və dini təəssübdən qurtarmaq istəyən yaradıcı insanlar Qərbdə hökmdarlara sığınmaq imkanına malik olduğu halda, Şərqdə belə bir imkan yox idi.

Qərbi Avropada siyasi mərkəzləşmə prosesi başa çatdıqdan sonra Şərqin fəthi daha məqsədyönlü xarakter aldı. Səlib yürüşlərindən fərqli olaraq Qərbi

[1] Bax: V.A. Zorin, göstərilən əsəri, səh.127.

Avropa tərəfindən yeridilən işğalçılıq siyasəti daha yüksək səviyyədə həyata keçirilirdi. Hərbi texnikada gəmilər, toplar, təkmilləşdirilmiş odlu və soyuq silahlar qədim taktiki üsullardan üstün olan hərbi əməliyyatların rasional metodları geniş isifadə edilirdi. Metalın texniki emalı texnologiyasındakı yeniliklər, dəqiq maşınqayırmanın yaranması, dəniz və quru artilleriyasının geniş yayılması, gəmiqayırmanın təkmilləşdirilməsi, enerji bazasının su və külək dəyirmanları hesabına genişlənməsi məhsuldar qüvvələrin inkişafında sıçrayışı göstərir və Qərbin üstünlüyünü təmin edirdi.

Beləliklə, Qərbin üstünlüyü iqtisadi sahədəki nailiyyətlər ilə bilavasitə bağlı idi. Qabaqcıl Qərb ölkələrində istehsalın təşkili strukturunda özünü göstərən ciddi irəliləyişlər sənətkarlıqdan manufakturaya, manufakturadan iri maşınlı fabrik-zavod sənayesinə keçmək və azad bazar prinsiplərini əsas götürən iqtisadi sistemin meydana gəlib formalaşması üçün zəruri şərtləri yaratdı. İqtisadi təfəkkürdə özünü göstərən inqilab və iqtisadi liberalizm prinsiplərinin ardıcıl olaraq tətbiqi sənaye inqlabının qələbəsinə şərait yaratmaqla, Qərb dünyasının ictimai-iqtisadi həyatını kökündən dəyişdirməyə başladı. Sənaye inqilabı prosesində Qərbdə yeni və yüksək məhsuldar qüvvələr yaradıldı ki, bu da istehsalın miqyasını yüksəltməklə, istehsal xərclərini ciddi olaraq azaltmağa başladı. Sənaye məhsuldar qüvvələrinin yaradılması beynəlxalq əmək bölgünün və müvafiq olaraq dünya bazarının formalaşmasını və inkişafını daha da sürətləndirdi. Bütün böyük sivilizasiyaların ictimai-mədəni, elmi-texniki və iqtisadi nailiyyətlərin bir növ «sintezi» olan dünya bazarının bir sistem kimi formalaşması ilə bəşəriyyətin inkişafı ümumdünya xarakteri aldı. Şərq ölkələrində müxtəlif amillər kompleksinin təsiri altında ənənəvi ictimai-iqtisadi struktur qorunub saxlanılmış, kapitalizm quruluşunun formalaşması və inkişafını uzun müddət ləngitmişdir. Geniş əsaslara malik olan bu amillər kompleksinə torpaq üzərində dövlət feodal mülkiyyətinin hökmranlığının mövcud olması, kənd təsərrüfatı və sahibkarlığı birləşdirən qapalı kənd icmalarının geniş yayılması daxil idi. Mövcud ictimai struktur əmtəə-pul münasibətlərinin inkişafını ləngidir, qapalı natural təsərrüfatın qorunub saxlanılmasına şərait yaradırdı. Şərqin geridə qalmasında dağıdıcı müharibələrin və bu müharibələr nəticəsində onların çoxunun müstəmləkə, yarımmüstəmləkə və asılı vəziyyətə düşməsinin mühüm rolu vardır. Şərq ölkələrinin əksəriyyətində istehsalın inkişafı dünya bazarının tələblərinin ödənilməsi istiqamətində həyata keçirdi. Bununla yanaşı, Şərqin dünya bazarının cazibə qüvvəsinə daxil olması ictimai həyatın ənənəvi əsaslarının dağılmasını sürətləndirirdi. Digər tərəfdən isə, Şərq zəngin təbii və mədəni sərvətləri, ucuz işçi qüvvəsi ilə dünya bazarının inkişafına təkan verirdi.

İstər bəşəriyyətin ümumi təkamülünə, istərsə də Qərb və Şərqin çoxtərəfli münasibətlərinin transformasiyasına ikinci minilliyin sonuncu əsri - XX əsr tarixdə misli görünməmiş yeniliklər gətirdi, insan cəmiyyətini

keyfiyyətcə yeni inkişaf mərhələsinə çatdırdı və gələcək üçün tamamilə yeni nəhəng perspektivlər yaratdı. Təbiətin tükənməz sərvətlərini insan cəmiyyətinin sonsuz ehtiyaclarının ödənilməsi üçün daha çox «ram» etmiş XX əsr tarixə «böyük kəşflər», «böyük inqilablar», «elmi-texniki tərəqqi» əsri kimi daxil olmaqla, Şərq və Qərb arasında olan ziddiyyətlər və mübarizəni də görünməmiş dərəcədə gücləndirdi.

Dünyanın silah gücünə bölüşdürülməsi və yenidən bölüşdürülməsi uğrunda mübarizənin son həddə çatması əsrimizin əvvəllərindən dünya xalqları üçün əsl fəlakətə çevrilmiş, bəşəriyyətin min illərlə yaratdığı maddi və mənəvi sərvətləri yerlə yeksan etmiş, milyonlarla insanın məhvinə səbəb olmuş «dünya müharibələri» kimi müdhiş bir məfhumu da millətlərin leksikonuna daxil etdi. Lakin dünyanın yenidən bölüşdürülməsi uğrunda mübarizənin kəskinləşməsi "təsir əks-təsirə bərabərdir" qanununun tələblərinə uyğun olaraq əks-cərəyan milli-azadlıq hərəkatlarının coşqun dalğalarını da yaratdı. Bu hərəkatların yaranması, inkişafı və qələbəsi əsrimizin tarixə həmçinin «milli-azadlıq hərəkatları əsri» kimi daxil olmasını da təmin etdi. Uzun əsrlər boyu hökm sürmüş geriliyə və müstəmləkəçiliyə qarşı Şərqdə başlanmış ölüm-dirim mübarizəsi xalqların leksikonuna, tarixin yaddaşına başqa bir ifadə - «Oyanmış Şərq» ifadəsini də daxil etdi.

İnsanların min illər boyu arzuladığı «ədalətli cəmiyyət», «ictimai-iqtisadi sistem» axtarışının əsrimizdə Rusiyada ifrat istiqamət alması bəşəriyyətə min bir fəlakət gətirdi. Dünyanın altıda bir hissəsini cəmiyyətin təbii qanunlarından ayırıb, qondarma qanunlarla idarə etməyə doğru yönəlmiş «Böyük Oktyabr Sosialist İnqilabı» milyonlarla insanın məhv edilməsinə gətirib çıxardı. Bəşəriyyətdə mövcud olan saysız hesabsız mübarizələrin tərkibində yeni anlayışlar - «sistem qarşıdurması», «Qərb bloku» və «Şərq bloku», bu zəmində təşkil olunmuş hərbi bloklar, «soyuq müharibə» və s. kimi anlayışlar da meydana çıxdı. Təbiətin insana bəxş etdiyi güclü ağlın, tükənməz maddi sərvətlərin mühüm bir hissəsinin sürətlə silahlanma siyasətinə tabe edilməsi, Yer kürəsinin barıt anbarına çevirilməsi sivilizasiyanı açıq-aşkar kütləvi qırğın silahları ilə məhvə doğru sürükləyirdi. Çünki ən dahiyanə elmi-texniki kəşflər - atom enerjisinin ayrılması, lazer və neytron şualarının dərk edilməsi, yaradılmış müxtəlif kosmik texnika və s. Kimi elmi nailiyyətlər silahlı güc tətbiq etmə vasitəsinə çevrilmişdir.

Lakin Şərq və Qərb arasında ziddiyyətlər və mübarizəni kəskinləşdirən XX əsr dünyanın, o cümlədən onun iki böyük tərkib hissəsinin vəhdətinin kristallaşması yolunda da nəhəng addımlar atdı. Elmi-texniki, siyasi-iqtisadi, mədəni-maarif istiqamətlərində gedən bu irimiqyaslı kristallaşdırma prosesi ölkələrarası, regional, dini, etnik və digər ziddiyyətlər və mübarizənin saxlanılması, kəskinləşməsi zəminində yüksələn xətt üzrə inkişaf edir.

Keçən əsrin sonu və indiki əsrin əvvəllərində baş vermiş nəhəng elmi və texniki kəşflər dünyanın dərk edilməsində və yenidən qurulmasında, istehsal və məişətin maddi bazasının köklü dəyişdirilməsi və təkmilləşdirilməsində tamamilə yeni mərhələyə keçilməsini zəruri etdi. Kimya və fizika, riyaziyyat və biologiya sahəsində böyük kəşflər, maye yanacaq, radio dalğaları və rentgen şüalarının alınması və istifadə olunması sahəsində əldə olunan texniki yeniliklər istehsalda ciddi elmi-texniki sıçrayışa yol açdı. Daxili yanma mühərrikləri və avtomobillərin, elektrik mühərrikləri və müxtəlif elektrik cihazların, süni və sintetik əmək əşyalarının, sürətli və ucuz nəqliyyat vasitələrinin kütləvi istehsalına başlandı. İkinci dünya müharibəsindən sonra bəşəriyyət elm, texnika və istehsalı intensiv surətdə bir-birinə bağlayan elmi-texniki inqilab erasına qədəm qoydu. Bu era elmi-texniki yaradıcılığın, maddi istehsalın, tədavül və məişət sahəsinin elektron avtomatlaşdırılmasının və texnoloji inqilabın nailiyyətlərinin geniş tətbiqi sayəsində məhsuldar qüvvələrdə yeni inqilabi yenilənmə prosesini keyfiyyətcə yeni mərhələyə çatdırdı. Biologiya sahəsində elmi kəşflər və onların praktikada tətbiqi bəşəriyyət qarşısında yeni perspektivlər açdı. Kosmik fəzanın fəthi və atomun sülh məqsədləri ilə istifadə olunması dövrümüzün mühüm fərqləndirici cəhətlərindən biridir. Bir sözlə, elm və texnika üçüncü minilliyə doğru bütün istiqamətlərdə ciddi irəliləyişlər edir. Bütün bunlar isə cəmiyyətin inkişafında onun təbiətlə və öz daxili tərkib hissələrinin bir-biri ilə qarşılıqlı əlaqəsində tamamilə yeni bir mərhələ açmışdır.

Dünyanın, o cümlədən Şərq və Qərbin vəhdətinin aparıcı mühərriki olan iqtisadi mexanizm dünya dövlətlərinin bir-birindən asılılığını daha da artırmış, beynəlxalq əmək bölgüsü daha da dərinləşmiş, dünya bazarı genişlənmiş və yeni yüksək mərhələyə çatmışdır. Qərbdə hələ keçən əsrlərdə baş vermiş elmi-texniki və iqtisadi sıçrayışlar Şərqin geridə qalmış ölkələrinin müstəmləkə və yarım müstəmləkəyə çevrilməsinə şərait yaratmaqla yanaşı, obyektiv olaraq dünyanın vəhdətini daha da möhkəmləndirmiş, Şərq və Qərbin iqtisadi cəhətdən bir-birini daha geniş əsaslarla tamamlamasına gətirib çıxarmışdır. Bir tərəfdən, Qərbdə özünü göstərən ciddi irəliləyişlər Şərqə də yayılmış və həyatın bütün sahələrində öz təsirini göstərmiş, digər tərəfdən isə metropoliyalarda universal emaledici sənayenin inkişafı yalnız müstəmləkə və asılı ölkələrdə sənayenin ərzaq-xammal bazasına çevrilməsi nəticəsində mümkün olmuşdur. «Sənaye məhsulları-xammal» modeli əsasında əmək bölgüsü uzun müddət dünya bazarının fəaliyyətinin əsasını təşkil etmişdir.

Müstəmləkə sisteminin parçalanıb dağılması Qərb və Şərq arasında əsrlər boyu formalaşmış iqtisadi əlaqələri zəiflətmədi, əksinə onu daha da genişləndirdi. XX əsrin əvvəlində bir tam kimi formalaşmış olan dünya bazarı mövcud olan bütün təsərrüfat əlaqələrinin inkişafında iqtisadi mənzərəni tamamilə dəyişdi. Müasir sənaye və hədsiz dərəcədə toplanmış kapital bütün

ölkələrin istehsal və istehlakını kosmopolit etmişdir. Milli təsərrüfatlar artıq ümumdünya təsərrüfatı sisteminin tərkib hissəsinə çevrilmişdir. Ümumdünya təsərrüfatı sisteminin tərkib hissələrinin qarşılıqlı asılılığının əsasını elmi-texniki inqilabın təsiri altında məhsuldar qüvvələrin getdikcə daha çox beynəlmiləlləşməsi təşkil edir. Buraxılan məhsulların çeşidinin və ayrı-ayrı istehsal proseslərində ixtisaslaşmanın hədsiz dərəcədə artdığı bir şəraitdə müasir texnika əmək bölgüsünün o qədər dərinləşməsini tələb edir ki, artıq hər hansı bir ölkə və region bütün ehtiyaclarını özü təmin etmək iqtidarında deyildir. Kütləvi və irimiqyaslı istehsalın iqtisadi cəhətdən sərfəli olması onun yalnız ölkə daxilində deyil, beynəlxalq miqyasda ixtisaslaşmasını tələb edir. Məhsuldar qüvvələrin beynəlmiləl xarakterinin artması isə ümumdünya miqyasında ictimai-iqtisadi tərəqqi üçün onun imkanlarını olduqca genişləndirir.

Şərq və Qərbin iqtisadi əlaqələri və bir-birini qarşılıqlı tamamlamasının əsasını hələ qədim dövrlərdən başlayaraq mal mübadiləsi - xarici ticarət təşkil edir. İri maşınlı sənaye qalib gələnə qədər bu iki böyük region arasında beynəlxalq əmək bölgüsü öz təbii köklərinə, yəni ölkələrin təbii-iqlim şəraitinin və ondan asılı olaraq ehtiyat və enerjinin müxtəlifliyinə əsaslanırdı. Ona görə də bu ölkələr arasında iqtisadi əlaqələr əsas etibarilə bu və ya digər ölkədə istehsal edilməyən məhsul mübadiləsindən ibarət idi. İri maşınlı sənayenin qalib gəlməsindən sonra, xüsusən elmi-texniki inqilab dövründə isə dünyanın iki böyük hissəsi arasında iqtisadi münasibətlər tədavül sferasından istehsal sferasına keçərək, onları bir-birinə getdikcə daha çox bağlayır. Bu təmayül əmtəə mübadiləsinə də öz ciddi təsirini göstərmişdir. Belə ki, əmtəə mübadiləsində sənaye məhsullarının, xüsusən maşın, avadanlıq və texnologiyanın payı ərzaq və yanacaq da daxil olmaqla xammala nisbətən daha sürətlə artır. Beləliklə, beynəlxalq əmək bölgüsü tədricən ictimai istehsalın bütün tərkib elementlərini əhatə edir.

İqtisadi əlaqələrin istehsal sahəsində getdikcə dərinləşməsi Şərq və Qərb arasında iqtisadi əlaqələrin mühüm bir formasının-ölkələr və regionlar arasında kapital hərəkətinin sürətlə genişlənməsinə səbəb oldu. İqtisadi inkişafın tarixi gedişi ilkin kapital yığımı dövründən başlayaraq Qərbdə izafi kapitalın toplanmasına səbəb olduğu halda, Şərq ölkələrinin əksəriyyətində kapital çatışmazlığı uzun əsrlər boyu kök salmış sosial-iqtisadi geriliyin aradan qaldırılması yolunda ciddi maneə olmuşdur. Beynəlxalq kapital hərəkəti müasir dövrdə öz artım sürətinə görə mal mübadiləsi həcmini xeyli qabaqlayaraq, ümumdünya təsərrüfatı sisteminin inkişaf imkanlarını xeyli genişləndirmişdir. Onun köməyi ilə ayrı-ayrı regionlarda mal və xidmətlərin geniş təkrar istehsalında özünü göstərən ziddiyyət və qeyri-tarazlıqlar qismən həll edilir, ölkələrin ixracatı qarşılıqlı olaraq artır, avadanlıq, texnika və texnologiyaya tələbatı artır, onların idxalat imkanları çoxalır. Bu isə ümumdünya miqyasda iqtisadi tarazlığın təmin olunmasına yardım edir.

Beynəlxalq kapital hərəkətinin həcmi haqqında yalnız onu göstərmək olar ki, 1977-1994-cü illərdə Asiyaya kapital axınının ümumi orta illik məbləği 4,6 dəfə, birbaşa kapital qoyuluşlarının məbləği isə 13 dəfə artmışdır.[1]

Şərq və Qərb arasında beynəlxalq iqtisadi münasibətlər xarici ticarət, beynəlxalq kapital hərəkəti ilə yanaşı elm və texnika sahəsində mübadilə, işçi qüvvəsinin qarşılıqlı miqrasiyası və valyuta-kredit münasibətləri kimi irimiqyaslı kanallarla artan xətt üzrə inkişaf edir.

Ümumdünya iqtisadi əlaqələrin müasir mərhələsi inkişaf etmiş iqtisadi sistemlərdə istehsalın informasiya texnologiyasının üstünlük təşkil etdiyi yeni texnoloji bazaya keçirildiyi bir şəraitdə qarşılıqlı asılılığı daha da artırır. Məhsuldar qüvvələrin keyfiyyətcə yeni mərhələsi geniş təkrar istehsalın beynəlmilələşməsini iki istiqamətdə daha da dərinləşdirir:1) milli təsərrüfatların yaxınlaşması və bir-birini tamamlaması prosesini əks etdirən - beynəlxalq inteqrasiya; və 2) özəl firmalar səviyyəsində millətlərarası istehsal komplekslərinin yaradılmasını əks etdirən - transmilliləşmə prosesi. Qərbdə başlayan iqtisadi inteqrasiya hərəkəti tezliklə Şərqə də geniş yayılaraq (ASEAN, EKO, OPEK və s.) Şərq və Qərb arasında iqtisadi münasibətləri keyfiyyətcə yeni mərhələyə qaldırdı. İqtisadi münasibətləri yalnız regional miqyasda deyil, ümumdünya miqyasda da tənzimləyən, qarşılıqlı ticarət sədləri, vatyuta problemləri və digər maneələri zəiflətmək və tədricən aradan qaldırmaq məqsədilə də bir sıra təşkilatlar (Ümumdünya Ticarət Təşkilatı, Beynəlxalq Vatyuta Fondu və s.) yaradılmışdır. Özəl firmalar səviyyəsində transmilliləşmə prosesi XX əsrin ikinci yarısında meydana gəlmişdir və milli iqtisadiyyatları coğrafi əlamətlərə görə deyil, geniş təkrar istehsal prosesində əlaqələri dərinləşdirməklə bir-birinə daha sıx bağlayır.

Şərq və Qərb dəyərlərinin bir vəhdət kimi birləşməsinin bəşəriyyətə verdiyi sonsuz faydalar XX əsrin II yarısında özünü göstərmiş "Yapon möcüzəsi", "Cənub-Şərqi Asiya möcüzəsi" və "Türkiyə möcüzəsi" ilə əyani şəkildə sübut olunmuşdur. Bu ölkələrdə ictimai-iqtisadi tərəqqi sahəsində əldə edilmiş güclü sıçrayışlar bəşəriyyət qarşısında geniş perspektivlər açıldığını göstərir.

XX əsr bütün dünyada, o cümlədən Şərq və Qərb arasında siyasi yaxınlaşma, siyasi inteqrasiya proseslərini də genişləndirmiş, ziddiyyət və konfliktlərin sülh və danışıqlar yolu ilə həll olunması üçün imkanları olduqca artırmışdır. Cəmiyyətin indiki və gələcək təkamülündə müstəsna rol oynayan "millətlərin öz müqəddəratını təyin etmək hüququ", "ərazi bütövlüyünün toxunulmazlığı" və digər bu kimi prinsiplər qəbul olunmuş və onu təmin etmək üçün beynəlxalq siyasi və hüquqi mexanizm yaradılmışdır. Nəticədə, Şərq və Qərb arasında tarix boyu özünü göstərmiş hərbi toqquşma və

[1]İnternational Capital Markets. Developments, Prospects, and Policy İssues. İnternational Monetary Fond. Washington, 1995, p.3.

gərginlik ocaqları minimuma endirilmiş və əsas etibarilə iki böyük dünyanın kəsişmə nöqtələrində (Ərəb-İsrail, Bosniya-Xorvatiya, Ermənistan-Azərbaycan, Rusiya-Çeçenistan və s. münaqişələrində) mərkəzləşmişdir. Bütün bu münaqişələrin əsasında ənənəvi olaraq Şərq və Qərb arasında mövcud olan ziddiyyətlər fokus nöqtəsi kimi öz əksini tapmışdır. Qərbin bəzi dairələrinin öz hərbi, siyasi və iqtisadi üstünlüyündən istifadə edərək Şərqə doğru genişlənmə, Şərq xalqlarını öz iradəsinə güclə tabe etdirmə istəyi Ermənistanın Azərbaycana qarşı torpaq iddialarında qabarıq şəkildə əks olunmuşdur. Dünya birliyinin Ermənistanı təcavüzkar dövlət kimi tanıması əvəzinə ona yardım göstərməsi, Azərbaycana hərtərəfli təzyiq edilməsi (məs.:ABŞ senatının qəbul etdiyi 907 №-li qanunu və s.) bunun əyani sübutudur. Tarix belə bir istəyin nə qədər təhlükəli olduğunu və son nəticədə müvəffəqiyyətsizliyə uğradığını dəfələrlə sübut etmişdir. Bosniya-Xorvatiya münaqişəsinin həllinə dünya birliyinin öz qüvvələrini birləşdirməsi digər bütün konfliktlərin həlli üçün nümunə ola bilər. Şərq və Qərb dəyərlərini müvəffəqiyyətlə birləşdirən Türkiyə Respublikasının Avropa Birliyi kimi bir demokratik təşkilata müxtəlif bəhanələrlə tam hüquqlu üzv kimi qəbul edilməməsi də perspektivsiz bir addımdır və gec-tez sağlam təfəkkür qalib gələcəkdir.

XX əsrin sonuncu onilliyində Rus imperiyasının sovet variantının labüd olaraq tənəzzülə uğraması yüz illər boyu bu imperiyanın istismarında olan bir sıra Şərq xalqlarının müstəqil dövlət yaratmasına yol açdı. Həmin dövlətlərin üzərindən "dəmir pərdələrin" götürülməsi onların müasir sivilizasiya dəyərlərini hərtərəfli mənimsəməsinə imkan verdi. Qərbin maddi və mədəni dəyərlərindən geniş istifadə etməyə çalışan həmin ölkələrin zəngin təbii ehtiyatları Qərbin ehtiyaclarının təmini üçün mənimsənilməyə başlanmış və dünya siyasətinin aparıcı istiqamətlərindən birinə çevrilmişdir. "Böyük İpək Yolu" probleminin yenidən aktuallaşması da Şərq və Qərb arasında enerji daşıyıcılarının Qərbə asan ötürülməsi üzərində gedən ciddi işlə, yeni kommunikasiya xətlərinin açılması ilə əlaqədardır.

Şərqi və Qərbi özündə birləşdirən müasir dünya olduqca mürəkkəb və çox vaxt ziddiyyətli mənzərədən ibarətdir. Müasir şəraitdə onun vəhdət şəklində olması getdikcə dana aydın dərk edilir. Qarşılıqlı əlaqə və asılılıq dünya qarşısında duran bir çox qlobal problemlərin birgə həll edilməsi zərurəti ilə daha da artır. Bu qlobal problemlərə nüvə müharibəsinin qarşısının alınması, ekoloji problemlər, inkişaf etməkdə olan, xüsusən zəif inkişaf etmiş ölkələrin geriliyinin aradan qaldırılması, kəskin demoqrafiya problemləri, aclıq və dilənçiliyin ləğv edilməsi, bəşəriyyəti xammal və enerji ilə təmin etmək problemləri, dünya okeanından birgə istifadə, kosmik fəzanın mənimsənilməsi daxildir. Onların həlli bəşəriyyətin bütün qüvvələrinin birləşdirilməsini təkidlə tələb edir.

Bəşəriyyətin, o cümlədən Şərq və Qərbin üçüncü minilliyə doğru mədəni-mənəvi vəhdəti daha da möhkəmlənir. Dünya dilləri ümumi siyasi-iqtisadi inteqrasiya prosesləri nəticəsində bir-birinə daha çox təsir edir, bütün dillərdə eyni şəkildə səslənən sözlərin sayı durmadan artır. Bəşəriyyət vahid əlifba, vahid din axtarışlarına başlamışdır.

Birləşmiş Millətlər Təşkilatının "İnkişaf naminə əməkdaşlıq" İnkişaf Proqramında göstərildiyi kimi "Bəşəriyyətin təhlükəsizliyinin təmin olunması yeni və xeyirxah qarşılıqlı münasibətləri tələb edir...".

ƏDƏBİYYAT

1. Davos. Qlobal iqtisadiyyatın üfüqləri. Bakı, Azərnəşr. 2000, s.16.

2. Amin Samir, Küreselleşme çağında kapitalizm. İstanbul, Sarmal yayınevi. 1999, s. 6.

3. Зевин Л. Проблемы регулирования глобальных экономических процессов. МЭ и МО, 2002, № 7, 232.

4. Зевин Л. Проблемы регулирования глобальных экономических процессов. МЭ и МО, 2002, № 7, 127.

4. Heny Kaufman, Interest Rates, The Markets and the New Financial World. Times, 1990, s. 3

10.3.Qafqaz və Mərkəzi Asiya ölkələrinin qlobal maliyyə mühitinə inteqrasiyası: problemlər, perspektivlər

Qloballaşma prosesində Qafqaz və Mərkəzi Asiya. İqtisadi və beynəlxalq münasibətlər. II BEYNƏLXALQ KONFRANS. MATERİALLAR. Qafqaz Universiteti. Bakı, 02-05 may 2007, s.124-127.

Sovet imperiyasının süqutu nəticəsində çoxsaylı müstəqil dövlətlərin yaranması və onların dünya birliyi ilə 70 il ərzində kəsilmiş əlaqələrinin bərpa olunmağa başlanması böyük bir coğrafi ərazidə yeni iqtisadi məkanın formalaşması prosesinə yol açmışdır. Bu proses TRACECA proqramı adlanan Böyük İpək Yolunun əsaslarının qoyulması ilə yeni vüsət almışdır.

Yeni iqtisadi məkan artıq bir tam şəklində bütünləşmiş ümumdünya təsərrüfatı sisteminin tərkibi kimi formalaşır, onunla üzvi sürətdə qaynayıb qarışmağa çalışır. Nəhəng nəqliyyat dəhlizi bu bütünləşməyə yol açsa da, həmin tarixi prosesin gedişi əhəmiyyətli dərəcədə "görünməyən yollardan", yəni kapitalın sərbəst hərəkəti və fəaliyyəti üçün əlverişli iqtisadi mühitin yaradılmasından asılıdır. Uzun müddət inzibati - amirlik üsulları ilə idarə olunmuş post-sovet respublikaları çox mürəkkəb bir siyasi və iqtisadi şəraitdə bazar iqtisadiyyatı prinsiplərini tətbiq etməyə çalışırlar. Bunun nəticəsində

formalaşan iqtisadi məkan yeni məzmun alır, fərqli iqtisadi elementləri və infrastrukturu özündə birləşdirən yeni iqtisadi mühit yaranmağa başlayır.

Azərbaycan özünün əlverişli strateji mövqeyi ilə bu yeni iqtisadi məkanın mərkəzində, Qərblə Şərqin kəsişmə nöqtəsində yerləşmişdir. İki qitə arasında yaradılan nəhəng kommunikasiya qurğularının respublika ərazisindən keçməsi onun strateji rolunu daha da artırmışdır. Respublikamızda nüfuz dairəsi uğrunda dünyanın aparıcı dövlətlərinin ciddi rəqabət mübarizəsi, yalnız mövcud olan zəngin təbii sərvətlərlə deyil, həmçinin əhəmiyyətli dərəcədə bu amil ilə əlaqədardır.

Təbiətin və tarixi gedişin respublikamız üçün yaratdığı bu üstün strateji mövqedən və amillərdən bacarıqla və rasional şəkildə istifadə olunması işində indiki nəslin üzərinə böyük tarixi məsuliyyət düşür.

Formalaşan yeni geosiyasi şərait tələb edir ki, respublikamız yeni iqtisadi məkan və iqtisadi mühitin tələb etdiyi "görünməyən yolların" da mərkəzində dayansın.

Ümumdünya təsərrüfatı sisteminin və iqtisadi məkanın aparıcı elementi beynəlxalq maliyyə mühitidir.

Beynəlxalq maliyyə mühiti dedikdə beynəlxalq biznesin fəaliyyəti üçün zəruri olan dünya maliyyə bazarlarının yaranması və inkişafı şərtlərini müəyyən edən şərait nəzərdə tutulur. Beynəlxalq maliyyə bazarları, beynəlxalq bank sistemi və beynəlxalq portfel investisiyalarının idarə olunma şəbəkəsi, yəni kapital bazarı onun mühüm tərkib hissələri, milli və beynəlxalq maliyyə koorparasiyaları isə onun əsas iştirakçılarıdır.

Yaranan yeni iqtisadi məkanda beynəlxalq ticarət, beynəlxalq kapital və maliyyə axınları sürətlə genişlənməyə başlamışdır. TRACECA proqramı üzrə ümumdünya əhəmiyyətinə malik olan nəhəng layihələrin həyata keçirilməsi bu prosesi daha da sürətləndirir. Böyük perspektivə malik iş imkanlarının açılması yeni iqtisadi məkanda yeni beynəlxalq maliyyə mərkəzinin yaranacağı imkanını xeyli artırmışdır. TRACECA proqramının əsas qovşağının Azərbaycan ərazisindən keçməsi adı çəkilən mərkəzin məhz Bakıda yerləşməsi üçün şərait yaratmışdır.

Keçmişdə belə bir ehkam mövcud idi ki, guya beynəlxalq maliyyə mərkəzləri yalnız bol kapitalın mənbəyi olan ölkələrdə yaranır. Lakin tarixi təcrübə göstərir ki, dünyanın müasir maliyyə mərkəzləri ölkənin kapital ixrac və idxal edən ölkə olmasından aslı olmayaraq, kapitalın toplanması və təmərküzləşməsi özünü göstərən yerlərdə yaranır. Təsadüfi deyildir ki, Sinqapur, Honq Konq kimi ölkələr hələ iqtisadi cəhətdən zəif inkişaf etmiş olduğu və milli borc kapitalı bazarı əslində olmadığı dövrlərdən beynəlxalq maliyyə mərkəzlərinə çevrilməyə başlamışlar. Məhz bu mərkəzlər həmin ölkələrin sonralar sürətli inkişafını təmin edən mühüm amillərdən birinə çevrilmişdir.

Beynəlxalq maliyyə mərkəzlərinin əsas funksiyası qlobal və ya regional miqyasda maliyyə fondlarının təklif edənlərdən ehtiyacı olanlara ən səmərəli şəkildə ötürülməsini təmin etməkdir.

Məlum olduğu kimi, maliyyə mərkəzlərində dörd növ maliyyə əməliyyatı həyata keçirilir. Birinci növ əməliyyatlara yerli investor və ya depozit sahibinin yerli borc alana fond təmin etməsi daxildir. İkinci növ əməliyyata yerli investorların xarici borc alıcısına maliyyə fondları verməsi, üçüncü növ əməliyyatlara xarici investor və depozit sahiblərinin yerli borc alıcısına fond ötürməsi aiddir. Dördüncü növ əməliyyatlara isə həmin bazarda fəaliyyət göstərən əcnəbilərin digər əcnəbilərə - borc alanlara fond vermələri aiddir. Birinci növ maliyyə əməliyyatlarının həyata keçirildiyi bazarlar milli maliyyə bazarlarıdır. Digər üç maliyyə əməliyyatları beynəlxalq maliyyə bazarlarının funksiyalarına daxildir. Onlardan sonuncusu, yəni əcnəbilər arasında hər hansı bir bazarda həyata keçirilən maliyyə əməliyyatları xüsusi əhəmiyyətə malikdir. Bu əməliyyatların həyata keçirildiyi bazarlara "sərhəddən kənar" maliyyə bazarları deyilir.

Ən inkişaf etmiş beynəlxalq maliyyə mərkəzlərində belə göstərilən sonuncu əməliyyatın payı olduqca azdır. London, Tokio və Nyu-York kimi dünyanın ən böyük maliyyə mərkəzlərində maliyyə əməliyyatlarının bütün növləri həyata keçirilir. Digər maliyyə mərkəzləri (məsələn, Paris, Frankfurt, Sürix, Cenevrə, Amsterdam, Sinqapur və Honq Konq) isə bu əməliyyatların yalnız ikisi və ya üçünü həyata keçirən regional mərkəzlərdir. Əcnəbilərlə əcnəbilər arasında maliyyə əməliyyatları aparan mərkəzlərə Lüksemburq, Kayman Adaları, Bahamalar, Hollandiya Antpilləri və Bəhreyni misal göstərmək olar.

Əslində milli qanunların icazə verdiyi və maliyyə biznesi ilə məşğul olanlar cəlb edilə bilən hər yerdə potensial olaraq beynəlxalq maliyyə mərkəzləri yarana bilər. Lakin belə mərkəzlərin yaradılmasının ilkin şərti ölkədə siyasi və iqtisadi sabitliyin təmin edilməsi, iqtisadiyyata dövlət müdaxilələrinin minimuma endirilməsidir. Dövlət tərəfindən milli və beynəlxalq iqtisadi biznesin fəaliyyəti və inkişafı üçün əlverişli hüquqi, siyasi, sosial, iqtisadi və maliyyə mühiti yaradılması müstəsna əhəmiyyətə malikdir. Bu məqsədlə dövlət müasir anlayışlara uyğun maliyyə inqilablarının ölkəyə daxil olması üçün hərtərəfli şərait yaratmalı, məqsədyönlü tədbirlər sistemi həyata keçirməlidir. Bu inqilabların üç aparıcı aspekti mövcuddur: beynəlxalq maliyyə institutlarının qlobal iştirakı, beynəlxalq maliyyə inteqrasiyası və maliyyə yeniliklərinin (innovasiya) sürətli inkişafı.

İqtisadi, o cümlədən maliyyə biznesinin hərəkətverici mühərriki dövlətlər və firmalararası rəqabətdir. Beynəlxalq rəqabət dövlətləri məcbur edir ki, maliyyə biznesi üçün daha əlverişli şərait yaratsın, daxili bazarda fəaliyyətə dövlət müdaxiləsini azaltsın və kapitalın beynəlxalq hərəkətini liberallaşdırsın.

Tarixi baxımdan Londonun nəhəng beynəlxalq maliyyə mərkəzinə çevrilməsi İngiltərənin sənaye çevrilişinin beşiyi olması ilə əlaqədar olsa da, başqa bir amil də bu işdə həlledici rol oynamışdır. Bu amil - maliyyə münasibətlərinin merkantilizm görüşlərinin təsiri altında ciddi məhdudlaşdırıldığı bir dünyada nisbi sərbəstləşdirilməsindən ibarətdir. Yaxın qırx il ərzində Londonun avro-dollar bazarının mərkəzinə çevrilməsi də beynəlxalq maliyyə əlaqələrinin liberallaşdırılması ilə əlaqədardır. Dünyanın müxtəlif maliyyə mərkəzlərinin bu və ya digər növ maliyyə əməliyyatları sahəsində öncüllük qazanmaları da eyni şəkildə ciddi liberallaşdırma tədbirlərinin nəticəsində mümkün olmuşdur.

Müasir maliyyə inqilabının ikinci tərəfi - beynəlxalq maliyyə inteqrasiyası, daxili və beynəlxalq maliyyə bazarları arasında mövcud olan sərhədlərin aradan qaldırılması və onlar arasında çoxtərəfli əlaqələrin yaradılması ilə əlaqədardır. Elə bir şərait yaradılmalıdır ki, maliyyə kapitalı maneəsiz olaraq daxili bazardan beynəlxalq bazara və əksinə hərəkət edə bilsin. Ölkə daxilində əlverişli iqtisadi və maliyyə mühiti yaradılarsa, milli kapitalın xaricə axması problemi də öz-özünə aradan qalxa bilər. Ölkəmizin beynəlxalq maliyə inteqrasiyası sürətlənərsə, nəhəng maliyyə institutları öz filial və nümayəndəliklərini açarlar.

Beynəlxalq maliyyə sisteminin hərəkətverici mühərriki rəqabət, rəqabətin yaratdığı dinamik güc isə maliyyə yeniliklərıdir (innovasiya). Maliyyə yenilikləri şirkətlərin keçmişdə əlləri çatmadığı maliyyə mənbələri əldə etmələrinə, investor və borc vəsaiti alanların vergi boşluqlarından yararlanmalarına, portfellərin diversifikasiyası yolu ilə maliyyə risklərinin azaldılmasına imkan verir.

Məlum olduğu kimi, beynəlxalq maliyyə axınları beynəlxalq maliyyə varidatının hərəkəti və ya da beynəlxalq maliyyə vasitəçiləri (banklar) kanalı ilə həyata keçirilir. Hər iki kanalda maliyyə yenilikləri üçün şərait yaradılması beynəlxalq maliyyə mühitinin vacib şərtlərindən biridir. Müvafiq maliyyə alətləri və texnologiyasının, maliyyə bazarı infrastrukturunun yaradılması qarşıya qoyulan problemin həlli üçün mühüm əhəmiyyətə malikdir. Mövcud bank sistemi və vergi qanunvericiliyinin beynəlxalq maliyyə bazarı standartlarına uyğunlaşdırılmasının da müstəsna rolu vardır.

Valyuta liberallaşdırılması idxalat sahəsində məhdudiyyətlərin qlobal maliyyə - iqtisadi mühitə inteqrasiyası üçün mühüm amillərdən biridir. Bu sahibkar azadlığını təmin edən tədbirdir. Lakin bu məsələdə həddən artıq ehtiyatlı olmaq lazımdır. Müasir şəraitdə, hər şeydən əvvəl, xarici transmilli şirkətlərin güclü rəqabətinə məruz qalan daxili bazar liberallaşdırılmalıdır.

Daha geniş valyuta liberallaşdırılması aparılarkən nəzərə almaq lazımdır ki, bütün dünya ölkələrində valyuta əməliyyatlarına tam azadlıq, yalnız həmin ölkələr dayanıqlı iqtisadi artım müstəvisinə çıxdıqdan sonra verilmişdir.

Məsələn, ixracat gəlirlərinin bir hissəsinin məcburi satılması Qərbi Avropa ölkələrində, yalnız XX əsrin 80-ci illərində aradan qaldırılmışdır. Avropa Birliyinin düşünülmüş valyuta siyasəti inteqrasiya prosesinə mane olmadan milli valyutaların möhkəmlənməsi və rəqabət aparan Avronun tədavülə buraxılması ilə nəticələndi. Eyni siyasət Yaponiya və yeni sənaye ölkələrində də müsbət nəticə vermişdir.

Xarici valyuta ilə əməliyyatların tam liberallaşdırılması milli sahibkarların yalnız daxili bazarda fəaliyyət göstərən çoxsaylı hissəsinin rəqabət mövqeyini möhkəmləndirmir, əksinə zəiflədir və onların beynəlxalq əmək bölgüsündə iştirakını çətinləşdirir.

Valyuta yalnız ixracat məhsulları istehsal edən iş adamları üçün lazım deyildir, o həmçinin daxili bazara məhsul çıxaranlar üçün də vacibdir. Ölkə daxilində mövcud olan köhnəlmiş əsas fondların (maşın və avadanlıqların) yenilənməsi çox vaxt idxalat hesabına həyata keçirilir. Belə idxalatı azaltmaq üçün idxaləvəzləyici siyasət lazımdır. Bunun üçün də xeyli valyuta lazımdır.

Məlumdur ki, ölkə ixracatının xammal yönümlülüyünü sürətlə aradan qaldırmaq və onun diversifikasiyasını təmin etmək az-çox uzun müddət tələb edir. Bu isə iqtisadi fəaliyyətin yeni növlərinin yaranmasına səbəb olan düşünülmüş sənaye və xarici ticarət siyasətinin aparılmasını tələb edir.

Bank sektorunda beynəlxalq inteqrasiya prosesləri tədqiq edilərkən nəzərə almaq lazımdır ki, XX əsrin son onilliyi dünyada bank kapitalı və onların aktivlərinin kəskin sürətdə artması, beynəlxalq maliyyə institutlarının möhkəmlənməsi, bank işində rəqabətin kəskinləşməsi ilə xarakterizə edilir. Dünyanın 20 ən böyük bankının məcmu kapitalı 1988-2001-ci illər ərzində 159 mlrd. dollardan 547 mlrd. dollara, məcmu aktivləri isə 4 trln. dollardan 12,4 trln. dollara qədər yüksəlmişdir (Мировая экономика и международные отношения, (МЭ и МО).2003, №10, s. 17). Beynəlxalq ticarətin sürətlə genişlənməsi bank əməliyyatları həcminin artmasına gətirib çıxarmışdır. Bu isə bank kapitalının əsas göstəricilərinin yaxşılaşdırılmasını tələb edir. Bank fəaliyyətinin beynəlmiləlləşməsi bank əməliyyatlarının ərazi ekspansiyası üçün yalnız vasitə deyil, eyni zamanda müştərilərə xidmət üçün təbii zərurətdir.

Göstərilən təmayüllər dünya istehsalı həcminin obyektiv olaraq genişlənməsi, transmilli şirkətlərin miqyasının artması və habelə zamanın tələbi ilə bankların dünya bank xidməti bazarında apardıqları siyasətə yenidən baxmaları ilə əlaqədardır. Müştərilər uğrunda rəqabət mübarizəsi kəskinləşdiyi bir şəraitdə beynəlxalq bank işi olduqca mürəkkəbləşmişdir və beynəlxalq inteqrasiya proseslərində iştirak edilməsi miqyası və formaları haqqında qərar qəbul edilməsi olduqca risklidir. Beynəlmiləlləşmə prosesinin dərinləşməsi bu risklərin sayını və miqyasını artırır.

Beynəlxalq miqyasda bank fəaliyyətinin inkişafı prosesində iki strateji xətt özünü göstərir. Hər şeydən əvvəl, nəhəng transmilli banklar ərazi

ekspansiyasına yeni ofislər açılmasına, yeni ölkələrin zəbt olunmasına üstünlük verirlər. Digər tərəfdən isə (ikinci strategiya) əsas diqqət maliyyə məhsuluna, yəni bank fəaliyyətinin müəyyən məhsul üzərində cəmləşdirilməsinə verilir.

Qloballaşma nəhəng banklara artım və genişlənmək, məhsul və xidmətlərinin, əməliyyatları apardıqları bazarların differensiallaşdırılması üçün yeni-yeni imkanlar açır. Qlobal banklar öz müştərilərini yalnız şirkətlər və nisbətən xırda banklar hesabına deyil, həmçinin xarici dövlət strukturları hesabına da genişləndirmək imkanı əldə etmişlər.

XX əsrin ikinci yarısında bank kapitalının mühüm xüsusiyyətlərindən biri bu kapitalın ərazi ekspansiyası hesabına intensiv inkişafıdır. Beynəlxalq bank əməliyyatlarının həyata keçirilməsi zəruriliyi, xüsusən digər ölkələrdə bank şöbə və filiallarının mövcudluğu zamanın tələbidir. Çünki onların olmaması müştərilərin itirilməsi deməkdir.

Nəhəng transmilli bankların ərazi ekspansiyasının mühüm istiqamətlərindən biri digər maliyyə-kredit institutları ilə birləşmə və ya onları "udma" siyasətidir. XX əsrin 90-cı illərində bu təmayül özünü daha güclü göstərir.

Xarici bankların ərazi ekspansiyası Şərqi Avropa ölkələrinin misalında daha aydın görünür. Son 10-15 il ərzində xarici banklar Mərkəzi və Şərqi Avropa ölkələrində bank sektorunda liderliyi ələ keçirmişlər. Onların əksəriyyətində qeyri-rezidentlər bank sisteminin məcmu kapitalının və bank aktivlərinin yarısından çoxu üzərində nəzarəti ələ keçirmişlər və demək olar ki, bütün kredit təşkilatları onlara məxsusdur.

Azərbaycanda 1 yanvar 2004-cü ildən bank sektorunda xarici kapitalın iştirakına qoyulmuş limit ləğv edildiyi bir şəraitdə bank strategiyası hazırlanarkən Şərqi Avropa ölkələrində bank sisteminin liberallaşdırılmasının nəticələrinin nəzərdən keçirilməsi məqsədəuyğundur.

Təhlil göstərir ki, dünya bank biznesinin liderləri Şərqi Avropa ölkələrində iştirak etməkdən çəkinmirlər. Bu ölkələrdə orta və nisbətən kiçik banklar nəzarəti ələ keçirmişlər. Şərqi Avropa ölkələrində xarici banklar cəmi bank aktivlərinin 57% - nə nəzarət edirlər. Bu ölkələrin çoxunda onlar hakim mövqeni ələ keçirmişlər. Qeyri-rezidentlərin nəzarət etdikləri kredit təşkilatlarındakı aktivlər Estoniyada ümumi aktivlərin 95%-ni, Xorvatiyada 82% - ni, Çexiyada 78% - ni, Slovakiyada 75%-ni, Polşa, Latviya və Macarıstanda 70%-ni təşkil edir. Bolqarıstanda 35 bankdan 25-i xaricilərin nəzarətindədir. Şərqi Avropanın 20 ən böyük bankından yalnız dördü, 10 ən böyük bankından isə yalnız biri xaricilərə məxsus deyildir. Bu ölkələrin demək olar ki, hamısında bank sistemi «sistem» olmaqdan çıxmışdır: onlar daxili iqtisadi şəraitin tələb etdiyi qanunauyğunluqlara tabe deyillər və xarici transmilli bankların filiallarına çevrilmişlər. Yerli və xarici banklar arasında

rəqabət öz aktuallığını itirmişdir. Yerli bazarlarda xarici bankların rəqabəti onlar arasında gedən qlobal rəqabətin yalnız davamıdır.

Beynəlxalq maliyyə təşkilatları bank sahəsində geniş liberallaşdırma tələblərini irəli sürərkən və iri transmilli bankların ölkəyə geniş daxil olmasına şərait yaradılmasını tövsiyə edərkən makroiqtisadi sabitliyin və davamlı iqtisadi artımın təmin olunması arqumentini irəli sürürlər. Hesab olunur ki, xarici nəhəng bankların ölkəyə sərbəst daxil olması maliyyə-kredit xidmətlərinin müxtəlifliyini, yüksək keyfiyyətini və onlardan istifadənin asanlığını təmin edir, yerli bank məmurlarının professionallığını artırır və s. Həmin bankların kredit risklərini və borcların etibarlılığını müəyyən etmə üsulları maliyyə ehtiyaclarının daha səmərəli bölüşdürülməsinə səbəb olacaqdır. Lakin onu da nəzərə almaq lazımdır ki, Şərqi Avropa dövlətlərində xarici bankların kreditləşdirmə istiqamətləri yerli iş adamlarının ehtiyaclarına o qədər də cavab vermir. Xüsusən, xırda və orta sahibkarların, kənd təsərrüfatı müəssisələrinin onlardan kredit alması xeyli çətindir. Xarici banklar, adətən, qiymətli kağızlarla əməliyyatlara və real sektorun kreditləşdirilməsinə üstünlük verirlər (Мировая экономика и международные отношения. 2003, № 8, s. 104-105).

Azərbaycan Bank sahəsində inteqrasiya problemləri təhlil edilərkən hər şeydən əvvəl göstərmək lazımdır ki, onun əsas təsərrüfat subyektləri dövlət və enerji-xammal maliyyə-sənaye qruplarıdır. Azərbaycan Respublikası Milli Bankı bu gün özünün başlıca vəzifəsini inflyasiya ilə mübarizədə və manatın məzənnəsinin sabitliyinin təmin olunmasında görür. Bu çox vacibdir. Lakin o bir tərəfli məqsədə çevrildikdə ziyanlı ola bilər.

Azərbaycan maliyyə, valyuta, bank sahəsində beynəlxalq iqtisadi inteqrasiyanın aparıcı istiqamətləri müəyyən edilərkən bu sahədə liberallaşdırmanın müsbət və mənfi cəhətləri təhlil edilməli, digər dövlətlərin təcrübəsi nəzərə alınmalıdır.

10.4. Türk cumhuriyetleri arasında ekonomik işbirliği: sorunlar, perspektifler

Avrasiya Dosyası. Üç aylık uluslararasi ilişkiler və stratejik araştırmalar dergisi. Azerbaycan. Özel sayısı. 2001.

This article aims to anaiyze the economic integration of Turkic Republics with the global economic system. The economic model of old Soviet system had alienated these republics from the world economic order. But with the collapse of this system, Turkic Republics had to face some difficulties in integrating global economic model. In this new situation Turkic republics started to cooperate in economic issues in order to avoid the negative aspects of globalization. But as their integration into global model started, some conflicts and disputes emerged between these countries about economic issues.

Türk Cumhuriyetlerinin Dünya ile Entegrasyonunun Temel Şartları:

20. yüzyıl, dünya tarihinde bilimsel və teknik devrimler yüzyılı olarak yazılarak, dünyadaki sosyal və siyasal gelişmeleri nitelik və nicelik bakımından yeni bir aşamaya getirdi. 20. yüzyıl içerisinde dünya nüfusu 4 kat, toplam dünya üretimi ise 19 kat arttı. Bu da dünya nüfusunun yaşam standartlarının daha önce görülmeyen bir biçimde yükselmesine neden oldu. Büyük çaplı bilimsel və teknolojik devrimler dünyanın anlaşılması, yeniden yapılanması, doğayla toplum arasındaki və toplumun kendi katmanları arasındakı ilişkiler açısından yeni bir dönem başlattı. Dünyayı birbirinden ayrılmış, tecrit edilmiş parçalardan ibaret olarak gören anlayışlar tarihe gömüldü. Bilimsel və teknolojik sıçramalarla beraber dünya halkları arasında ekonomik, siyasi, sosyal və kültürel ilişkilerin giderek derinleşmesini yansıtan entegrasyon və küreselleşme süreçleri, içerisinde zıtlıklar da taşımakla beraber, dünya kalkınmasının motoru oldu. Dünya ekonomisi, bu süreç sonucunda bütünleşti və bir otosisteme dönüştü.

Küreselleşme sürecinin ilk aşamasını və önemli bir yönünü oluşturan bölgesel işbirliği, bölgeselleşme, 21. yüzyılda da önemini kaybetmemekte, tam tersine önemini daha da artırmaktadır. Şöyle ki, 20. yüzyılın 90`lı yıllarında NAFTA, Asya Pasifik Ekonomik İşbirligi Örgütü, MERKOSUR (Arjantin, Brezilya, Bolivya, Paraguay, Uruguay, Şili) və Karib Devletleri Teşkilatı örgütlenerek daha da güçlenmiştir. Bölgesel ekonomik işbirliginin öncüsü olan Avrupa Birligi (AB) yeni bir aşamaya geçmiştir. Nisan 2001'de Amerika kıtasında Serbest Ticaret Bölgesi'nin, Gümrük Birliği'nin oluşturulduğunu açıklayan Kanada zirvesi gerçekleştirilmiştir.

Doğal olarak, tüm dünyada hızlanan küreselleşme və bölgeselleşme, zengin tarihiyle dünya kültürüne büyük katkıları olmuş Türk Cumhuriyetlerini de alanı dışında bırakmamamaktadır. 2001'de bağımsızlığının 10 yılını kutlayan bu devletlerden beşi, Azerbaycan, Özbekistan, Kırgızistan, Kazakistan və Türkmenistan bu sürecin daha ilk aşamasında durmuşlardır.

70 yıl Sovyet yönetimi içerisinde demir perde ile dünyadan tecrit olan Türk Cumhuriyetleri'nin (kısaca Post-Sovyet PTKD'ler) bağımsızlık kazanması, onlara özgür bir biçimde dünya piyasasına çıkma və mevcut iktisadi ilişkilerini değerlendirerek yeniden kurma olanağı vermiştir.

Kısaca bu devletlerin Sovyetler döneminde dış ekonomik ilişkilerinin sadece formaliteden "dış ilişkiler" olarak nitelendiriliebildiğini belirtmek gerekmektedir. Çünkü aşağıdaki çizelgeden de görüldüğü üzere bunun % 80-90'ı SSCB içerisinde, cumhuriyetlerarası mal değişiminden ibaretti.

Tablo:l 1990'da Cumhuriyetler arasında mal dolaşımı (yüzdeyle)

	İthalat		İhracat	
	Toplam	Cumhuriyetlerarası degişim	Toplam	Cumhuriyetlerarası değişim
Azerbaycan	100	73.0	100	93.7
Kazakistan	100	82.3	100	90.2
Kırgızistan	100	78.3	İ00	98.1
Özbekistan	100	85.0	100	83.9
Türkmenistan	100	82.3	100	90.9

Dış ticaret üzerinde devlet tekeli oluşturan Sovyetler Birligi, bu cumhuriyetlerin ihracat kapsitesini elinde tutarak birlik ekonomisinin genel ihtiyaçları için yararlanmaktaydı. Yukarıdaki çizelgede de göründüğü gibi, bu cumhuriyetlerin ihracatının çok büyük bir kısmı (%90- 98'i) SSCB'nin genel ihtiyaçlarının karşılanmasına yönelikti. Bu da onların daha kapalı niteliğe sahip olduğunu və dünya piyasaları ile ilişki içerisinde olmadığını göstermekteydi. Araştırmacılar Sovyetler Birliği'nin 70 yıl boyunca yürüttüğü sömürge politikasının Türkçe Konuşan Devletler açısından daha sert olduğunu göstermektedir. Kıyaslama yaparsak, 1990'da Rusya'nın ithalatının sadece % 48.9'u, ihracatının ise sadece %68.8'i SSCB içerisinde gerçekleşmekteydi. Ukrayna içinse bu rakamlar sırasıyla %73.3 və % 83.5 olarak gerçekleşmekteydi. Rusya, Ukrayna və Baltık Cumhuriyetleri dünya piyasalarına, Türk Cumhuriyetleri'ne göre daha açık pozisyonda idiler. Türkçe Konuşan Devletler üretilen stratejik ürünler merkezi yönetime bağlı olan kurumlar və bakanlıkların kontrolünde idi və ihracat da onlar tarafından yapılmaktaydı. İhracatın getirisi olan döviz ise yerel "devletin" değil, merkezi yönetimin emrine geçmekteydi. Örneğin, Azerbaycan petrollerinden gelen dövizin

sadece % 5-10'u cumhuriyetin ihtiyaçlarına yöneltilmekteydi. Bu politika, Türk Cümhuriyetler'in nakitlerinin merkeze akmasının en önemli yollarından birisiydi.

Araştırmalar, Sovyetier Birliği'nin 70 yıl içerisinde yürüttüğü Türge politikasının Türk Cumhuriyetleri açısından daha sert olduğunu göstermektedir. Bu politika, bahsedilen cumhuriyetlerin SSCB içerisinde sosyal-ekonomik açıdan gerikalmışlığı sonucunu doğurmuş və onların merkezin hammadde deposu rolünü oynamalarını bağlamıştır. Tablo 2'deki bilgiler, Türk Cumhuriyetler'in SSCB'deki olumsuz durumunu daha açık şekilde gözler önüne sermektedir.

SSCB`nin hammadde deposu olan bu cumhuriyetler temel olarak hammadde və ara ürünlerin, çok enerji gerektiren və çevre için tehlikeli üretim alanlarında uzmanlaşmışlardı. Hazır sanayi ürünleri (özellikle teknolojı alanında) bu ekonomilerde az yer tutmaktaydı. Hatta pamuk ipliği üretiminin %69'u bu cumhuriyetlerde gerçekleştiği halde, onlar SSCB'de üretilen pamuklu tekstil ürünlerinin sadece % 11.4'nü üretmekteydiler. Bunlar da diger cumhuriyetlerden hazır ürün ihracını və ara mallar konusunda bağımlılığı artırmaktaydı. Bu ülkelerin zengin doğal kaynakları milli çıkarlara değil, birlik ekonomisinin ihtiyaçlarının karşılanmasına yöneltilmişti. Kişi başına düşen tüketim mallarının üretimi bakımından bu cumhuriyetler için göstergeler, genel birlik göstergelerinin %50-60'ı düzeyinde idi. Bu nedenle de bu cumhuriyetler gıda sanayisi de dahil, sanayi alanında kendi yaşamsal ihtiyaçlarını karşılamaktan bile uzaktılar.

Tablo: 3 Türk Cumhuriyetlerinde kişi başına düşen tüketim malları

	Tüketim malları	Gıda malları	Alkollü içecekler	Gıda dışı mallar	
SSCB	1000	100	100	100	100
Azerbaycan	62.3	48.5	120.3	57.7	64.6
Kazakistan	55.1	64.4	83.3	43.8	62.9
Kırgızistan	55.5	53.6	62.2	53.7	77.0
Özbekistan	40,8	40.5	45.8	39.9	62.9
Türkmenistan	31.0	36.4	53.6	23.0	40.5

Sovyet Cumhuriyetleri arasındaki ekonomik ilişkileri, ekonomik işbirliği olarak nitelemek kesinlikle doğru değildir. Çünkü, ekonomik işbirliği bağımsız devletler arasında sözkonusu olmaktadır. Bu ilişkilerise, birbirine bağlı ortak ekonomik sistemin parçaları tarafından gerçekçekleştirilmekteydi. SSCB dağıldıktan sonra bu cumhuriyetlerin içine düştükleri sosyal-ekonomik krizin nedeni de budur.

Konuyu toparlayarak, Sovyetler Birliği'nin dağılmasında önemli rol oynayan idari yönetim sisteminin və uzun süre yürütülen sömürgecilik politikasının Türk Cumhuriyetleri'ne kötü ekonomik miras bıraktığını vurgulamak gerekmektedir. Post-Sovyet Türk Cumhuriyetleri imparatorluktan sadece yetersiz ekonomik ilişkileri değil, aynı zamanda dünyadan tecrit olmuş, birlik ekonomik sisteminin ihtiyaçlarına yönelmiş, en zaruri ihtiyaçlarını bile kendisi karşılayamayan, dışa bağımlı yapıyı, iktisadi sistemi, miras almışlardır. Bu bağımlılık kendisini, dış ticari ilişikiler konusunda tüm yetkilerin merkezde toplanmasında, ihracatın hammadde, ara mal niteliğinde olmasında və sadece kuzeye doğru yönelmesinde, ana malların sadece dışarıdan karşılanmasında, aynı bölgede bulunduğu güney komşuları ile ekonomik ilişkilerin çok düşük olmasında net bir biçimde göstermekteydi.

Modern dünyanın teknik və teknolojik başarılarına karşı kapalı olmak genel geriliyi devamlı kılmıştır. Bu ülkelerin çoxu Birleşmiş Milletler və Dünya Bankası'nın bünyesindeki gelişmekte olan ülkeler içerisinde en az gelire sahip ülkeler grubunda yer almaktadırlar. Sovyet döneminde bu ülkeler dünya piyasalarına hammadde dışında hemen-hemen hiçbir şey çıkaramamaktaydılar.

Tablo: 4 Türk Cumhuriyetlerinde 1990'da mal değişim dengesi

	Azer-baycan	Kazak-istan	Kırgız-istan	Özbek-istan	Türkme-nistan
Toplam (milyar ruble)					
I. Sanayi Malları Mal ithali	5,19	17,57	4,29	1,1	3,33
Mal ihracı	7, 12	9, 09	2, 60	10, 17	2, 6
Fark (ithalat-ihracat)	+ 1, 93	-8, 48	-1, 63	-3, 99	-0, 67
2. Tüketim Malları (milyon ruble)					
Mal ithali	2532, 3	6879, 9	1527, 3	5863, 0	1758, 6
Mal ihracı	2437, 0	117, 2	1049, 8	1945, 7	432, 6
Fark (+, -)	-95, 3	-5732, 7	-477, 5	-3917, 3	-326, 0
Dayanıklı Mallar (milyon ruble)					
Mal ithali	1670, 6	5517, 6	1257, 6	4240, 7	1240, 0
Mal ihracı	1101,4	603, 2	640, 7	1175, 9	127, 3
Fark (-, +)	-569, 2	-4914, 4	-617, 2	-3064, 8	-1120, 7

Bu durum, Sovyet tipli gerilik ağına düşürülmüş, Post-Sovyet Türk Cumhuriyetleri'nin (TKD) sosyal-ekonomik gelişmişliği yakalamak için sürekli dışarıya açılmalarını, dış ekonomik ilişkilerini yeni ülkeler üzerine kurmalarını gerektiriyordu.

Bu süreçte 70 yıldır cumhuriyet yönetimi ile bağımsızca yaşayan və küresel iktisadi sistemin ayrılmaz bir parçası haline gelmiş Türkiye Cumhuriyeti artık lokomotif rolü oynaya bilir. Türkiye'nin kendisinin de efektif ekonomik entegrasyona büyük ihtiyacı vardır.

Türkiye, 40 yıla yakın süredir, bölgeyle ekonomik entegrasyonda en mükemmel örgüt olan Avrupa Birliği'ne üstünlük vermektedir. Bu ülkenin dış ticaretinin yarıdan fazlası AB ile yürütülse de belli sebeplere bağlı olarak söz konusu Birliğe üye olamamıştır. Türkiye Cumhuriyeti'nin üye oldugu diğer bölgesel iktisadi birlikler - İktisadi Kalkınma Örgütü (ECO) və Karadeniz Ekonomik İşbirliği Örgütü dahilinde mevcut olan siyasi və iktisadi uyuşmazlıklar sebebiyle şimdilik ekonomik bütünleşmede beklenilen sonucu vermemiştir.

Jeopolitik Değişmeler və Türk Cumhuriyetleri'nin Uluslararası və Bölgesel İktisadi Entegrasyon Eğilimleri:

Sovyetler Birliyiyinin dağılması dünyanın 1/6'ni kapsayan büyük bir iktisadi mekanda, bu sıradan onun terkibinde olan Türk Cumhuriyetleri'nin yerleştiği alanda jeopolitik durumu kökünden değiştirdi.

Bu devletin terkibindeki diğer cumhuriyetler gibi Azerbaycan, Kazakistan, Kırgızistan, Özbekistan və Türkmenistan'dan oluşan Türk Cumhuriyetleri de bağımsızlıklarına kavuşarak dünya üretim sisteminin hür və eşit hakları olan suresine dönüştüler. Piyasa ekonomisinin oluşturulması stratejisini benimseyen bu cumhuriyetlerin sosyal və ekonomik hayatları bağımsızlık illerinde derin dönüşüme maruz kalmıştır. Bu ülkelerin hepsinde Sovyet sonrası dönemde bütün ekonomik ilişkilerin köklü şekilde yeniden kurulması süreci başlamıştır. Egemenlik, bu cumhuriyetlere dünya pazarına bağımsız çıkış və kendi dış ekonomik ilişkilerini yeni prensipler temelinde kurma olanağı tanımıştır. Ancak, karışık və sert kanunlara sahip olan dünya pazarı ile ilk ilişkiler bu ülkelerin dünya üretim ilişkileri sisteminde ne kadar ciddi sorunlarla yüzleştiğini ortaya koymuştur. Sovyet dahili planlı, bölge sistemi və geleneksel pazarların kaybı, ortak para alanının ortadan kalkması və dünya pazarına hammaddeden başka rekabet ede bilecek ürün çıkarılamaması bu ülkelerin ekonomisini uzun süreli və derin sosyal, ekonomik buhran durumuna sokmuştur.

Sovyet sonrası Türk Cumhuriyetleri hayati önem taşıyan birçok iktisadi mesele bakımından dünyanın yakın və uzak, büyük və küçük devletlerinin, uluslararası və bölgesel örgütlerinin ilgisini çeken doğal bir merkeze

dönüşmüşdür. Enerji rezervleri ile zengin olan bu ülkelerde onların çıkarları çatışmaktadır və bu devletler üzerinde nüfuz alanı uğrunda ciddi mücadeleler yaşanmaktadır. 19.yüzyılın sonu və 20. yüzyılın başında büyük devletlerin burada yürüttükleri "büyük oyun", şimdi başka yöntemlerle yürütülmektedir. Bu nüfuz mücadelesine neredeyse dünyanın bütün büyük devletleri bu veya diğer şekilde katılmaktadırlar. Bölgesel ölçekte, Sovyet sonrası Türki Cumhuriyetleri zengin pazarı uğrunda mücadele bölgede mevcut üç güç merkezi, Rusya, Türkiye və İran, arasında süregitmektedir.

Sovyet sonrası Türk Cumhuriyetleri'nin siyasi bağımsızlık elde etmesi dış dünyayla mevcut olmuş eski ilişkiler sistemine yeniden bakılması və eşit haklı, karşılıklı çıkara dayalı ilişkilerin oluşturulması için yollar aranmasında dönüş yarattı. Egemenlik və jeopolitik durumu bu devletlerin zengin doğal kaynaklarının milli çıkarlara yönlendirilmesi, kendi ihtiyaçlarını sağlayan üretim mekanizmalarının oluşturulması, dış ilişkilerin verimliliğinin artırılması və sıklaştırılması, uluslararası işbölümünün fırsatlarından kendi halklarının çıkarına uygun olarak yararlanılması için faydalı ortam sağladı.

Tarihi araştırmalar entegrasyon oluşumlarının çoğunlukla savaş və diğer sosyal, ekonomik sarsıntıdan sonra hızlandığını ortaya çıkarmaktadır. Avrupa Birliği, İkinci Dünya Savaşı'ndan sonra bu devletlerin ABD'nin rekabetine karşı birlikte hareket etmek ihtiyacından oluşmuştur. SSCB'nin dağılması da bu ülkelerde entegrasyon döneminin sorunu haline dönüşmüştür.

Bağımsızlık ilanının gerçekleştigi ilk günlerden itibaren yaşama geçirilen uygulamalar bu ülkelerin hepsinin dış ekonomik ilişkiler alanında bu ve ya diğer düzeyde "açık kapı" siyaseti yürüterek dünya pazarı ile entegrasyonuna çalıştıklarını göstermektedir. Bu süreç iki temel yönde ortaya çıkmaktadır: küreselleşme və bunun bir parçası gibi olan bölgeselleşme. Rusya tarafından yürütülen siyasi, ekonomik və askeri baskılara ragmen zengin enerji və diğer doğal kaynakların tüketilmesinde gelişmiş sanayi ülkeleriyle və büyük çokuluslu şirketlerle artan işbirliği, TRACEKA programının işlenip hayata geçirilmeye başlanması bu ülkelerin küresel üretim sisteminin ayrılmaz parçasına dönüşmeye başladığını göstermektedir. Türk Cumhuriyetleri aynı zamanda bölgedeki devletlerle işbirliğine büyük önem vermektedirler. Burada bölgesel iktisadi entegrasyon üç temel yönde gelişmektedir.

1. Bağımsız Devletler Topluluğu
2. Ekonomik İşbirligi və Kalkınma Örgütü (ECO)
3. Türkiye başta olmak üzere Türk Cumhuriyetleri arasında ekonomik işbirliği

Bu üç yönden yalnız ilk ikisi örgütlenmiştir. Son iki yönde Türkiye Cumhuriyeti faal olarak katılmaktadır. Bu yönlerin her birinin kendi üstünlükleri vardır.

Türk Cumhuriyetleri Arasında İktisadi İşbirliğini Geliştirmenin Önemi:

Analizler, siyasi etkenler göz önünde bulundurulmazsa, bu ülkelerin yaşamsal çıkarının üçüncü yönün daha avantajlı yön gibi öne çıkmasını gerektirdiğini göstermektedir. Bağımsızlık kazandıktan sonra, bu devletlerin bu yöne daha büyük önem verdikleri her kesce bilinen gerçeklerdir.

Bilindiği gibi, uluslararası politikada və devletlerarası ilişkilerde etnik faktör önemli rol oynamaktadır. Bağımsızlığın kazanılması, bir zamanlar Uzak Doğu'dan Merkezi Avrupa'ya kadar geniş bir arazide büyük uygarlığın taşıyıcısı olan, fakat tarihi gelişim sürecinde çeşitli halklara parçalanmış Türk milletinin yeniden birleşerek 21.yüzyıl uygarlığına güçlü ivme kazandırması için ortam yaratmıştır. Geçen iki yüzyılda Türk dünyasının tek bağımsız devleti Türkiye Cumhuriyeti, gerçekçi politikacı büyük Atatürk'ün bıraktığı mirasa uygun olarak tüm zorluklara rağmen, çağdaş uygarlık yoluyla ilerlemekte və Sovyet sonrası Türk Cumhuriyetleri için birleştirici, kılavuz və destekleyici olma işlevini yerine getirme yeteneğine sahip çağdaş bir devlettir. Türk halklarının ümit yeri olan Türkiye Cumhuriyeti, Sovyet sonrası Türk Cumhuriyetleri'ne geleneksel Ortaçağ doğu ilişkilerinden çağdaş sanayi və sanayi sonrası topluma en hızlı biçimde nasıl geçmek gerektiğinin tarihi örneğini göstermektedir. Bilindiği gibi, SSCB'nin çöküşü ile jeopolitik durum değiştikten sonra resmi çevrelerde Türk Birliğinden söz edildiğinde yalnız ekonomik və kültürel ilişkilerin onarılması kastedilmekteydi. Aynı tarihe, dine və dil grubuna sahip olan bu halkların yakın coğrafi arazide yerleşmiş olmaları onların bölgesel ekonomik entegrasyonu için oldukça elverişli ortam yaratmıştır. Çünkü bin yıllık tarihi gelişim sürecinde bütünlük arz etmiş, biri diğerini tamamlamış bu ülkelerin ekonomisi çağdaş dönemde birbirine daha çok muhtaçtır. 20. yüzyıl deneyimi coğrafi və kültürel birliğin temel alan Türk Cumhuriyetleri için Türkiye Cumhuriyetinin 70 yıllık zengin deneyimi oldukça önemlidir.

Bağımsız ekonomik mekanizmanın oluşturulması, merkezi planlama ekonomisinden piyasa ekonomisine, kapalı ekonomik rejimden açık ekonomi modeline geçiş gibi eşine rastlanılmayan karışık süreç Sovyet sonrası Türk Cumhuriyetleri derin sosyal-ekonomik sarsıntılara maruz bırakmıştır.1999'da bu ülkelerde üretilen GSYİH ortalama olarak 1991'dekinin yüzde 60-70'i (Özbekistan'da yüzde 95'i) düzeyine kadar gerilemiştir. En çok sarsıntı reel sektörde yaşanmıştır ki, bu sektör de günümüzde milli ekonominin rekabet gücünü belirlemektedir. Buna karşılık, üretimi tekrarlanmayan doğal kaynakların tüketimi ile elde edilen hasıla (petrol, doğalgaz gibi ürünlerin üretimi) hızla artmıştır. Enerji və yakıt sanayisi bu ülkelerin çoğunda (Azerbaycan, Türkmenistan, Kazakistan) ekonominin lokomotifi haline gelmiştir. Söz konusu ülkelerin GSYİH'de dış ticaretin payı 1999'da ortalama

olarak yüzde 10-12 (Türkmenistan və Özbekistan'da yüzde 6-8) gerilemiştir. Hanehalkın tüketim mallarına olan talebinin büyük bölümünün dışarıdan getirilmesi, ihracatlarının esasen hammaddeden oluşturulması və merkezileştirilmiş planlı ekonomiden piyasa ekonomisine geçilmesi türünden önemli sorunları aynı dönemde çözme zorunda kalan post Sovyet Türk Cumhuriyetleri'nin bağımsızlık yolları ciddi sosyal-ekonomik sorunlarla doludur. Onları kendi etki alanlarında tutmak isteyen emperyalist güçler, bu ülkelerin bağımsız bir şekilde gelişmelerini önlemek için askeri, siyasal və ekonomik faktörleri və etnik çatışmaları kullanmaya çalışmaktadırlar.Türk dünyasında siyasal bağımsızlık uğruna mücadeleyi ilk olarak başlatan və Türk dünyasının birleşmesi için en çok can atan Azerbaycan'a ise imparatorluk güçleri açıkça ekonomik ambargo uygulamaya başladılar.

Böyle bir ortamda Türkiye Cumhuriyeti bu yeni devletler için karşılık istemeyen və güvenilir bir taraf olabilir. Zira bu ülkede uzunca bir süredir mükemmel dış ticari ilişkiler mekanizması oluşmuş, ihracat potansiyeli geliştirilmiş, muazzam çokuluslu şirketlerle etkili rekabet mekanizması yaratılmış, globalleşme və başka alanlardaki entegrasyon konularında zengin deneyim biriktirilmiştir.

Sırf bu ihtiyaçları yüzünden Türk Cumhuriyetleri bağımsızlıklarının ilk yıllarından itibaren Türkiye Cumhuriyeti'yle ticari-ekonomik ilişkilerin gelişmesine büyük önem vermeye başlamışlardır. Sovyetler Birliği gibi muazzam bir imparatorluğun çöküşü və Türk Cumhuriyetleri'nin bağımsızlıklarını kazanmaları, onların Türkiye ile ilişkilerinde nitelikçe yeni bir aşama için zemin oluşturmuştur. Dış ilişkiler alanında merkezi devletin tekelinin söz konusu olduğu SSCB döneminde Moskova tarafından gerçekleştirilen bu ilişkiler serbestleşti və üçüncü bir devletin aracılığından kurtulmuş oldu.

Bağımsızlıklarını kazanmış ulusların kendi kaderleriyle baş başa kaldıkları bu zor və tarihsel öneme sahip günlerde, onlara karşılıksız və güvenilir yardımlarda bulunan tek devlet Türkiye Cumhuriyeti olmuştur. Onların bağımsızlıklarının ilk olarak Türkiye tarafından tanınması və güçler dengesi üzerine kurulu dünya siyasal sahnesinde Ankara'nın onlara bir çok açıdan destek olması, bu yeni devletler, özellikle de arazi bütünlüğü tecavüze uğramış Azerbaycan için uzun süreli etkilere və tarihsel öneme sahip olaylardır. Bu devletlerin bağımsızlık uğrundaki mücadelelerinin en ciddi boyutu ekonomi alanında gerçekleşmiştir. Eski, yetersizliği ortaya çıkmış merkez ekonomilerinin farklı hızlarla dağılması, yeni sistemin oluşturulmasının ciddi sorunlarla karşılaşması, uzun zaman aralığında devlet yardımı və sübvansiyonlarına alışmış kitlelerin girişimcilik imkan ve deneyimlerinin olmaması, mevcut sosyal güvenlik sisteminin kriz durumunda olması, geleneksel pazarlarla ilişkilerin kopması və ya sınırlanması Türkiye Cumhuriyyeti ile ekonomik ilişkilerin hızla geliştirilmesini israrla gerekli kılmıştır.

Bu durumda, Türkiye Cumhuriyeti veTürk şirketleri bu devletlerin ekonomik və ticari hayatında önemli rol almaya başladılar. Bu ülkeler bol üretim faktörleriyle Türkiye'nin işadamları için çekici bir pazar haline gelmiştir. Onlara ilk gıda yardımı və uygun koşullarda ilk dış krediyi (Eximbank) Türkiye sağlamıştır.

Tarih bölgesel ekonomik entegrasyon sürecinin (Avrupa Birliği gibi) halkların ekonomik açıdan daha hızlı ekonomik kalkınmasını sağladığını kanıtlamıştır. Türk Cumhuriyetleri'nin coğrafi ve ekonomik koşulları çağdaş ekonomik entegrasyon mekanizmasından yararlanarak birbirlerini tamamlamakla, ellerindeki zengin doğal kaynakları daha verimli kullanmalarına ve bu yolla halklarının və Türk Cumhuriyetleri'nin genel refah düzeyinin yükselmesine olanak tanımaktadır. Birleşmiş Avrupa ile hızla gelişen Asya büyükleri arasında jeopolitik və sosyol-kültürel halka oluşturan Türk Cumhuriyetleri dünya ekonomik merkezlerinin karşılıklı etkileşiminden çıkarlarına uygun yararlanabilirler. Piyasa ekonomisinin oluşturulmasını və geliştirilmesini stratejileri olarak gören Sovyet sonrası Türk Cumhuriyetleri arasında ekonomik işbirliğinin en yaygın şekli ticari ilişkilerdir. Bağımsızlıktan sonra oluşmaya başlayan bu ilişkiler şekillenme sürecini yaşamaktadır (Bkz. Tablo Mo. 5).

Tablo 5: Türk Cumhuriyetleri Arasında İthalat-İhracat İşlemleri (1999)

	Azer-baycan	Kazak-istan	Kırgız-istan	Türkmen-istan	Özbek-istan
	İH İT	İH İT	İH İT	İH İT	İH İT
Toplam	929 1036	5592 3683	454 600		
Azerbaycan	-	30,7 4,3	1,5 3,4	8,9 12,9	0,7 0,4
Kazakistan	4,1 24,9		45,0 72,7	13,5 19,4	66,4 86,7
Kırgızistan	3,7 2,0	59,5 27,6		2,8 7,8	46,6 50,0
Türkmenistan	8,9 12,9	13,5 19,4	2,8 7,8		50,0
Özbekistan	0,7 0,4	66,4 86,7	46,6 50,0		
Türkiye	69,1 143,0	36,2 112	4,6 23,1		
Toplam TKD	86,5 183,2	206,3 250,0	100 157,0		
Toplam özel ağırlık	9,3 17,7	3,7 6,8	22,1 26,2		
Türkiye	7,4 13,8	0,6 3,1	1,0 0,4		

Ama bu ülkeler için Türkiye ile ticari ilişkilerin önemi yalnız ticaret hacmiyle belirlenmemektedir. Örneğin, 1992-1993 yıllarında Rusya'nın emperyalist çevreleri Azerbaycan'ın bağımsızlık mücadelesini açlıkla yenmeye çalıştıklarında, halkın temel ihtiyaç ürünlerine olan talebinin

karşılanmasında Türkiye ile ilişkiler və Türkiye'nin gıda yardımı önemli rol oynamıştır. 1992-1993 yıllarında Türkiye'den ithal edilen ürünlerin hemen hemen yarısı un və diğer tüketim ürünlerinden oluşmaktaydı. 1999 yılına geldiğindeyse, Türkiye'den ithalatının % 34,5'i, Azerbaycan ekonomisinin çok ihtiyaç duyduğu makine ürünleri, % 9,3'ü ağır və renkli metal ürünleri olmuştur.Ticaret hacmi açısından Türkiye Azerbaycan'ın en büyük ticari partneridir. Türk Cumhuriyetleri'nde ekonominin çeşitli sektörlerine Türk işadamları tarafından önemli miktarlarda yatırımlar yapılmaktadır.Türk şirketlerinin Türk Cumhuriyetleri'ndeki faaliyetlerine önem katan başka bir husus, bu ülkelerde iş yapan ilk yabancı şirketler olmalarıdır. Bu yüzden, Türk işadamlarının bu ülkelerdeki girişimcilik faaliyetleri və deneyimleri aynı zamanda bir okul fonksiyonu da görmektedir. Bu bakımdan, Türkiye-Kazakistan İşadamları Konseyi Başkanı Turgut Gür'ün aşağıdaki sözlerinin bütün post-Sovyet Türk Cumhuriyetleri için geçerli olduğu söylenebilir: "Türk Hava Yolları Kırgızistan'a düzenli uçuşlar düzenleyen ilk yabançı havayolları şirketidir. Bunun yanında, Türk işadamları Kırgızistan'da ilk uluslararası bankanın, beş yıldızlı otelin, Batı tarzı hipermarketin, ilk uluslararası standartlardaki restorantın, çağdaş hava alanlarının vs. yaratıcılarıdırlar."

Türk şirketleri genç Türk Cumhuriyetleri zengin enerji kaynaklarının geliştirilmesi və taşınmasında aktif rol almaktadırlar. Bu stratejik yönelim, Türk Cumhuriyetleri'nin ekonomik ilişkilerinin genişlemesi və geriye dönüşümlü olması açısından belirleyici olmaktadır. Çünkü petrol və doğalgaz Azerbaycan, Kazakistan və Türkmenistan ekonomilerinin öncü alanları olmaktadır. Kazakistan ekonomisine Türk şirketleri tarafından yapılmış 1,176 $ milyarlık toplam yatırımın % 34'ü petrol sektörüne gitmiştir.

Azerbaycan'ın 1994'te dünyanın önde gelen petrol şirketleriyle yaptığı "Asrın anlaşması"ında Türkiye'nin payı sadece %1,75 idi. 1994-2001 yıllarında ise bu pay % 1,75'den % 35'e kadar yükselmiştir. Şu anda Türk Petrolleri Azerbaycan'da iş yapan en büyük petrol şirketlerinden birisidir. Azerbaycan və Türkiye zengin Şahdeniz yatağının işletilmesinde ciddi bir işbirliği yapmaktadırlar. Bu kontratta Türkiye'nin payı % 10'dur. Daha sonra imzalanan iki anlaşmada da Türkiye önemli hisselere sahiptir. Bir çok jeopolitik gücün karşı çıkmasına rağmen, Kasım 1998'de, İstanbul'da, Azerbaycan, Gürcistan və Türkiye devlet başkanları, ABD Başkanı'nın da katılımıyla Hazar petrolünün Türkiye topraklarından batı pazarlarına ulaştırılmasını öngören Bakü-Ceyhan hattının yapımı için muazzam tasarının gerçekleştirilmesiyle ilgili anlaşma imzalamışlardır. Bu tarihsel öneme sahip tasarı, post-Sovyet Türk Cumhuriyetleri'nin hem globalleşme sürecine katılması, hem de Türkiye Cumhuriyeti'yle ekonomik işbirliği alanlarının genişletilmesi açısından büyük önem taşıyan stratejik bir yönelimdir.

Mart 2001 'de Azerbaycan və Türkiye arasında "Türkiye'ye doğal gaz satışı projesinin desteklenmesi" ile ilgili anlaşmanın imzalanması da iki devlet arasında stratejik işbirliğinin geliştirilmesi açısından ciddi hir gelişme oldu.

Bilindiği gibi çağımızda dünya ekonomik alanının belkemiğini çokuluslu şirketler oluşturmaktadır. Bunların gücü günümüzde dünya ekonomisinin sadece 1/4'nin serbest piyasa ortamında faaliyet göstermesine götürecek kadar ilerlemiştir.

Türk Cumhuriyetleri'nin bulunduğu coğrafyada çokuluslu şirketler-SSCB'nin dağılmasıyla oluşan boşluğu və yeni devletlerin uyguladıkları "açık ekonomi" modelini kullanarak kendi etki alanlarını genişletmeye başladılar. Zengin enerji kaynaklarının geliştirilmesi için bu ülkelerdeki sermaye, teknoloji və deneyim eksikliği, bu ülkelerin çokuluslu şirketlere ilgisini artırmış və muazzam projelerin gerçekleştirilmesi için onlarla çok yönlü işbirliğini zorunlu kılmıştır.

Batı sermayesi bu ülkelerdeki doğal zenginliklerin global ekonomi çarkına dahil olması və onların dünya pazarıyla entegrasyonunu hızlandırmak için tüm imkanlarını kullanmaktadır; bu süreçte Rusya'nın negatif girişimleri de önlenmeye çalışılmaktadır. Aynı ülkelerin Rusiya'ya bağımlılığının azaltılması və onların en kısa və ucuz yolla Avrupa'ya ulaşmaları için TRACECA isimli Avrasya ulaşım koridorunun yapımını öngören asrın projesi gerçekleştirilmektedir. Bu ülkelerin çokuluslu şirketlerin kontrolü altına düşen enerji sektörleri ulusal ekonominin öncü alanına dönüşmüş və ekonominin birçok sektörü onlar için çalışmaya başlamıştır. Ulusal hükümetler "güç" faktörünün etkisiyle, çokuluslu şirketleri bölgenin süper güçlerine tercih etmekteler. Bu ülkelerde uygulanmakta olan geniş kapsamlı özelleştirme sürecinde en karlı və gelecek vadeden şirketler bazen çok düşük fiyatlarla batılı yatırımcılar tarafından alınmaktadır. Batı sermayesi stratejik sektörleri kontrolleri altına almaktadırlar. Kazakistan'daki Tengiz və Azerbaycan'daki en büyük petrol yataklarının işletilmesine bölgenin süper gücü Rusya bile sadece yatırımcılardan biri olarak katılabilmektedir. Moskova'da basılan bir dergide M.Krotov'un şikayetleri de bu doğrultudadır: "Bu ülkelerde (BDT'nin TKD'lerinde D.V.) Rusya'dan hammadde, teknoloji ithali və oraya ürün ihracatı alanında uzmanlaşan kurumların Rus yatırımcılarına satılmasına engeller oluşturulması anlaşılmamaktadır. Gazprom doğalgaz üretiminde kullanılan makine və boru üretim kurumlarının hisse senetlerini, örneğin, Almanya veya Macaristan'dan BDT ülkelerine nazaran daha kolay bir şekilde ala bilmektedir".

Yukarıda anlatılanlar, Türk Cumhuriyetleri'nin global ekonomi sistemine katılmaya və onun avantajlarından yararlanmaya daha çok önem verdiklerini ortaya çıkarmaktadır.

Post-Sovyet Türk Cumhuriyetleri'nin global ekonomiye aktif bir şekilde katılma çabaları və alternatif ulaşım ağlarının yapımı, bu ülkelerin Rusya'ya

bağımlılıklarının azalmasına və Moskova ile ekonomik işbirliği perspektiflerinin kısıtlanmasına neden olacaktır. Bu süreç, bölgenin diğer süper gücü Türkiye ile Türk Cumhuriyetleri'nin ekonomik işbirliğinin gelecekte genişletilmesi için potansiyel imkanları arttırmaktadır.

Türk Cumhuriyetleri Arasında Ekonomik İşbirliğinin Geliştirilmesini Olumsuz Etkileyen Faktörler:

A) Rusya-BDT Faktörü.

SSCB dağıldıktan sonra Türk Cumhuriyetleri'nin bölgesel işbirlikleri, bölgede aktif jeopolitik güç merkezlerinin, Rusya, Türkiye və İran arasında devam eden rekabetin etkisi ile oluşmaktadır. Adı geçen üç aktif güç merkezinin bölgede etki olanağı və geleceği çeşitlidir.

Türk Cumhuriyetleri Türkiye ile ortak tarihe, dine və dile sahip olsalar da onlar 200 yıla yakın bir sürede Rusya ekonomisinin bagımlı bir kısmı olmuş və Rusya kanunları ile yönetilmiştir. Uzun zamana yayılmış sömürgecilik politikası sonucunda Sovyet döneminde bu ülkelerin ekonomisini yalnız şartlı olarak "milli" ekonomi, pazarları ise "miili" pazar adlandırmak mümkündür. Çünkü onlar ilk önce milli çıkarlarına değil, SSCB'ye hizmet etmekteydiler; onları yöneltebilen bağımsız devlet oluşumu yoktu. Lakin "çelik perdelerle" sarılmış və "çelik" kanunlarla yönetilen Sovyetler dağılmış və onun varisi olan Rusya'nın ekonomik gücü ciddi bir şekilde azalmıştır. Rusya GSYİH'sinin genel hacmi 1999'da 1991'e oranla toplam 62,7 punkt olmuştur, yani iki kat azalmıştır. Hatta BDT devletlerinde Rusya'nın bir çok ekonomi verileri azalmaya başlamıştır. Örneğin, Rusya halkının BDT içindeki ağırlığı 1991 'de % 52,4'ten 1999'da % 51,8'e, sanayi üretimi % 61,8'den %59'a, tarım ürünleri %50,4'ten % 48,9'a inmiştir. BDT dış ticaret hacminde Rusya'nın payı 1997'de %19'dan 1999'da %15'e kadar inmiştir. Ama buna rağmen Rusya'nın bu ülkeleri yeniden ekonomik nüfuzu altına almak için birçok güçlü mekanizma vardır.

Ekonomik gücü zayıflasa dahi Rusya bölgenin süper gücü olmaya devam ediyor. Bu ülkeler 10 yıldır bağımsız olsalar da eski ekonomik yapıdan tam olarak kopamamışlardır və ekonomilerinin Rusya ekonomisine bağımlılığı devam etmektedir. Uzun zaman Rus dili devlet dili olduğu için nüfusun büyük çoğunluğu Rusça konuşmaktadır və milli hükümetlerin üst düzey görevlileri de dahil olmak üzere Rusya ile sıkı bağları vardır. Bu ülkelerde yaşayan Ruslar da potansiyel baskı araçlarıdır.

Eski Sovyet topraklarında Türk Cumhuriyetleri'nde bağımsızlık yıllarında işsizliğin hat sayfaya ulaşması və işsiz insanların Rus dilini bilmeleri, vs. sorunlarla ilgili olarak öncelikle Rusya'ya göç etmeleri və hayatlarını buradan kazandıkları paralarla sürdürmeleri de ciddi şartlardan

biridir. Türk Cumhuriyetleri bağımsızlıklarını elde etmelerine rağmen piyasa ekonomisinin kurulması gibi önemli bir konuda bu alanda kötü tecrübelere sahip Rusya modelini uygulamaktadırlar. Milli hükümetler piyasa ekonomisinin və sosyal hayatın diğer alanlarına ilişkin yeni və çağdaş kanunlar kabul ederken dogrudan Avrupa və Türkiye örneğini değil, Rusya örneğini esas almaktalar. Burada dil sorunundan daha çok ekonomik düşünce tarzının Avrupa standartlarından uzak olmasının önemli rolü vardır.

Rusya'nın Eski Sovyet toprakları Türk Cumhuriyetleri'ne güçlü baskı aracı askeri konulardır. Azerbaycan'dan başka bu ülkelerin hepsinde Rusya'nın askeri birlikleri vardır. Rusya'nın yaylımacı güçleri büyük bir ustalıkla etnik konularda sorunlar çıkarabilmekte, iktidar için iç çatışmaları istedikleri gibi yönlendirmekte və onların çıkarlarına uygun olmayan milli liderleri sıra dışı bıraka bilmekteler.

Sovyetler döneminden birçok ekonomik, siyasi v.b. kurumların halen kalması və yeni kurulan vergi, fiyat vs. mekanizmalarının Türk Cumhuriyetleri'nin BDT'ye dahil olmasında önemli rolü vardır. Örneğin, devlet mülkiyetinin SSCB dağıldıktan sonra da bu ülkelerde uzun zaman kalması bu ülkelerin dış ekonomik ilişkilerin siyasi liderlerin arzu ettiği tarafa yönlendirile bilmesi için güçlü araç olmuştur. Siyasi liderler devlet kurumlarını yerel amirlik sisteminden miras kalan yöntemlerle BDT ülkeleri arasında, üretilen malları ucuz satmaya və onun yerine rekabet gücü olmayan malları satın almaya mecbur etmektedir. Örneğin, 2000'de bir ton petrolün anlaşma değeri BDT ülkeleri için Kazakistan'da 99,9 ABD doları olduğu halde, diğer ülkelerde 161,4 dollar idi. Bu fiyatlar Azerbaycan'da 14,1 və 176,5, Rusya'da 124 və 174,5 dolar idi. BDT arasında yeni oluşturulmuş karşılıklı vergi indirim uygulaması da BDT'da Türk işadamları için olumsuz bir ortam oluşturmaktadır.

Rusya'nın BDT'ye entegre olmaları için uyguladığı bütün etki və baskılara rağmen bu Türk Cumhuriyetleri'nin dış ilişkilerinde Türkiye Cumhuriyetinin rölü gitdikce daha çok önem kazanmaktadır.

Tablo 6: Türk Cumhuriyetleri'nin dış ticaretinde BDT ülkelerinin payı. (yüzdelerle)

	1997		1998		1999	
	İhraç	İthal	İhraç	İthal	İhraç	İthal
Azerbaycan	48	44	38	38	23	31
Kazakistan	46	54	40	47	26	43
Kırgızistan	53	61	45	52	40	43
Özbekistan	33	27	25	28	....	....
Türkmenistan	60	55	26	47		....

PTKD'den BDT'ye esas ürün gurupları üzere ihracatın payı ise Tablo NO 7'de gösterilmiştir.

Tablo 7: BDT'de ihracat (yüzdelerle)

	1997	1998	1999
Azerbaycan	100	100	100
Günlük tüketim malları;	8,1	10,3	13,2
Alkollü və alkolsüz içkiler, tütün	61,2	62,9	13,2
Mineral ürünler			
Kimya sanayi ürünleri	6,4	7,4	9,3
Araba və ek malzeme	8,5	7,5	5,4
Kazakistan	100	100	100
Canlı hayvan, tarım ürünleri	21,7	15,4	24,2
Minerai ürünler	48,8	61,8	46
Kimya sanayi ürünleri	11,1	10,8.	14,4
Araba və ek malzeme	5,0	3,0	4,1
Kırgızistan	100	100	100
Canıı hayvan, tarım ürünleri	10,7	1 1,0	9,3
Mineral ürünler	21,9	26,9	25,0
Kimya sanayi ürünleri	31,3	17,5	30,9
Araba və ek malzeme	11,8	16,1	1 1,6
Türkmenistan	100	100	100
Mineral ürünler	77,8	60,3	
Tekstil hammaddesi və ürünleri	18,2	35,3	...

Türk Cumhuriyetleri'nin ihracatında BDT'nin payı gittikçe azalsa da onun yapısında önemli değişiklik olmamıştır; bu devletler hammadde kaynağı olarak kalmakta devam etmektedir. Ama BDT'ye mineral ürünler ihracatının azaldığını da belirtmek gerekir.

SSCB dağıldıktan sonra Türkiye Cumhuriyeti ile ideolojik bakımından farklılığın aradan kaldırılması Rusya və Türkiye Cumhuriyeti arasında ekonomik işbirliği imkanlarını da artırmıştır. Bölgede nüfuz sağlama amacıyla rekabet eden bu iki komşu devlet birbirinin zengin piyasasına büyük ilgi göstermektedir. Türkiye'nin dış ticaretinde Rusya'nın payı 2000'de %9,3'e ulaşmıştır. Türk iş adamlarının Rusya'da 8,5 milyar dolar değerinde anlaşmaları vardır.Rusya kendisinin dogrudan siyasi, askeri və ekonomik baskı yöntemlerini kullanarak Türk Cumhuriyetleri'ni Türkiye Cumhuriyeti ile dogrudan değil, Rusya üzerinden ilişki kurmaya (örneğin, Türkmenistan gazı vs.) mecbur etmektedir.

Bu çerçevede Rusya, Türk Cumhuriyetleri arasında ekonomik ilişkilerin genişlemesine engel olan bir faktör gibi değerlendirilmelidir. Bu faktör Putin devlet başkanı seçildikten sonra askeri-sanayi birleşiminin siyasi baskıları daha da artmıştır. Ama Eski Sovyetler bölgesinde globalleşme eğilimleri arttıkça bu faktör önemini kayb edecektir.

B) İran Faktörü

Rusya faktörü ile birlikte İran faktörü de Türk Cumhuriyetleri arasında ekonomik entegrasyonun oluşumuna və gelişmesine engel olmaktadır. Bölgede nüfuz sağlama amacıyla mücadele eden İran və Rusya son 200 yılda Türk dünyasının bölünmesi və birbirinden ayrıetmeleri için ortak hareket etmişlerdi. Bu devletler bölgede rakip olsalar da bu konuda ortak çıkarları vardır.SSCB dağıldıktan sonra siyasi, ekonomik və sosyai açıdan dengesiz bir durumda olan Türk Cumhuriyetleri'nde İran kendi mevkilerini güçlendirmek və Türk dünyasının birliğini önlemek için bütün yolları denemektedir. Siyasi İslam'ın geniş propagandasını yapması və desteklemesi bu ülkelerde laik devlet kuruluşuna ciddi bir tehdit oluşturmaktadır.İran-Ermenistan-Yunanistan üçlüsü de Türk birliğine karşıdır. "Hazar'ın statüsü" konusunun gündeme getirilmesi və çözümünün uzatılması Hazar üzerinden petrol və doğalgaz boru hatlarının inşa edilmesine imkan verilmemesi Türk Cumhuriyetleri arasında dogrudan ekonomik ilişkilerin genişlemesine və dünyaya entegre olmalarına engel olmak demektir.

C) Coğrafi Faktör

Türk Cumhuriyetleri'nin ekonomik entegrasyonuna engel olan faktörleri gözden geçirirken coğrafi faktörlerin de önem taşıdığı görülmektedir. Napolyon'un: "Coğrafyasını bilmek ülkenin dış politikasını bilmek demektir" ifadesi bu anlamda önemlidir.Ahıska Türklerinin Gürcistan'dan, Azeri Türkleri'nin Ermenistan'dan belirli bir plan dahilinde mecburen göç ettirilmesi Türk dünyasını bölmektir. Bir zamanlar ortak coğrafya oluşturmuş Türk dünyası arasında engeller kurulmuştur və bunu Rusya və İran çok iyi kullanmaktadırlar. Türk Cumhuriyetleri'nde Sovyetleri dışarıyla birleştiren iletişim kanalları sadece "tek kapılıdır" və bu kapı kuzeye doğru açılmaktadır. Bu da Türk Cumhuriyetleri arasında ekonomik entegrasyonu engelleyen ciddi faktörlerden biridir.

D) Politik Faktörler

Türk Cumhuriyetleri arasında ekonomik entegrasyon sürecini bu sürecin aşırı derecede politikalleşmesi de olumsuz etkilemektedir. Bu, bir taraftan ekonomik işbirliğini siyasi konjonktüre bağımlı kılmakta, diğer taraftan da siyasi liderleri gereğinden fazla ihtiyatlı davranmaya, hatta bazen bu süreci tarihin akışına bırakmaya zorlamaktadır. Post-Sovyet Türk Cumhuriyetleri'nin birbirleriyle, özellikle de Türkiye Cumhuriyeti ile, yakınlaşması süreci onların Sovyet rejiminde yetişmiş siyasi liderlerinin iradesine doğrudan bağımlı hale gelmiştir. Doğal olarak, farklı seviyelerde de olsa, otoriter rejimlerin hakim olduğu bu ülkelerde siyasi liderin iradesi hiç de her zaman halkın iradesini ifade etmemektedir və bu ülkelerde demokrasi geliştikçe entegrasyon sürecinin de kendi doğal akışına düşeceği ihtimalini de göz önünde bulundurmak gerekmektedir.

Tarihin akışı, 200 yıldan fazla süredir, sanki Türk dünyasının parçalanmasını, Sovyet rejimi çöktükten sonra ise Türk dünyasının birleşmesine engel olmayı maksat edinmiştir. Türkiye Cumhuriyeti'nin Avrupa Birliği'ne girişine engel olunması, düşman güçler tarafından PKK faktörünün sürekli kullanılması, Orta Doğu'da, Balkanlar'da və Kafkaslar'da uzun süredir devam eden istikrarsızlık, Türkiye'nin komşu devletlerle ciddi sorunlarının olması, iç və dış kaynaklı ekonomik kriz bu ülkenin güçlenmesine və Türk dünyasında liderlik misyonunu yerine getirmesine engel teşkil etmektedir.

E) Ekonomik Yapı və Sistem Farkları, Transformasyon Zorlukları

Türk Cumhuriyetleri arasında ekonomik işbirliğinin genişleyerek bölgesel entegrasyon haline dönüşmesine engel olan iç faktörler de mevcuttur. Bu sürecin temelinde mülkiyet ilişkilerinin karakteri, ekonomik sistemler, üretim güçlerinin gelişim seviyesi, girişimcilik faaliyeti və ekonominin sektörel yapısı duruyor.

Post-Sovyet Türk Cumhuriyetleri'nde piyasa ekonomisinin Rusya yasalarına göre oluşturulması, yolsuzluluk və aşırı bürokratik engeller ticari faaliyet için yasal zeminin henüz hazırlık aşamasında olması və yetişkinlikten uzak olması, yargı sisteminin bağımsız olmaması və girişimciliğin herhangi bir engel olmadan faaliyetini sürdürebilmesi için garanti sağlanamaması, gerek yerli girişimcilerin, gerekse de Türk iş adamlarının bu ülkelerde faaliyeti için koşulları sağlayamamaktadır.

Bütün Sovyet topraklarında olduğu gibi Türk Cumhuriyetlerinde de yasamada “girişimcilik” sayılan “sermayedar” terimi ancak bağımsızlık elde edildikten sonra uygulanmaya başlamıştır. Ekonominin devlet tarafından düzenlenmesi anlayışı ilk defa hukuki statü kazanmıştır və bunun içeriği diğer piyasa ekonomisi ülkelerindeki anlayıştan farklılıklar arzetmektedir.

Bilindiği gibi, piyasa ekonomisinde iki tür ilişki mevcuttur: mal-para (emlak) ilişkileri və yönetim ilişkileri, Birinci ilişkinin temelinde tarafların hukuki eşitliği yatmaktadır. Tarafların hak və görevleri genellikle sözleşmelerle belirlenmektedir. Yönetim ilişkileri ise girişimcilerin devlet yönetim organları ile olan ilişkileridir. Belirtilen her iki ilişki sistemi de çeşitli hukuki düzenleme yöntemlerinin uygulanmasını, mülki, idari, mali, vergi, gümrük və hukuk alanlarından faydalanılmasını gerektirmektedir. Bu çok kompliks və önemii ilişki sistemleri de bağımsızlık elde edildikten sonra başlamış və henüz olgunlaşmamıştır.

SSCB çöktükten sonra bu ülkelerde merkezi devlet tekelinin yerini yerel devlet tekeli almıştır. Türk iş adamları bu ülkelerde faaliyetleri sırasında yerel devlet tekeli və memurların başına buyrukluğu ile karşı karşıya kalmaktadırlar. Yerli girişimciliğin gelişmemiş olması, ortaya çıkan iş adamlarının temelini bürokratik devlet memurlarının teşkil etmesi, onların

ticari alanda eşitlik etme tecrübelerinin olmaması, iş dünyasının dayandığını teşkil eden ve yüksek etik normlara dayanan iş psikolojisi və davranış biçiminin oturmaması da yabancı və aynı zamanda Türk iş adamlarının bu ülkelerde faaliyetini ciddi şekilde zorlaştırmaktadır.

Vergi sisteminin ağır və karmaşıklığı da bu ülkelerde Türk iş adamlarının faaliyetini sınırlandıran ciddi faktörlerden biridir. 2000 yılının ortalarında Kazak-Türk İş Adamları Derneği (KATİAD) və DEİK - KATİAD ortak anket çalışması yapmışlardır.Sonuç internet üzerinden yayınlanmıştır. Görüşü sorulan və Kazakistan'da faaliyet gösteren 111 Türk firmasının %74'ü "vergiler ağır mı?"- sorusuna "ağır" və "çok ağır" yanıtını, % 84'ü de vergiler "karmaşık və çok karmaşık" yanıtını vermişlerdir.Aynı durum Azerbaycan'da ve diğer Post-Sovyet TKD'lerde de mevcuttur.

Türkiye Cumhuriyeti'nin genç Türk devletlerine ekonomik yardım alanında ilk ciddi adımlardan biri Eximbank aracılığıyla uygun və düşük faizli kredi ayırması olmuştur. Fakat, bu ülkelerde dışarıdan kredi alma, kullanma və faizle birlikte geri ödeme anlayışı və mekanizması olmaması nedeniyle krediden verimli bir şekilde faydalanma mümkün olmadı. Kredinin geri ödenmesi ise bazı ülkelerde ciddi zorluklar ortaya çıkarmıştır.

F) Türk Cumhuriyetleri'nde Dış Ekonomik Faaliyet və Entegrasyon Alanında Anlayış və Mekanizmanın Oluşma Aşamasında Olması

Karşılıklı faydalı dış ekonomik işbirliği, dışa açılma derecesi bütün diğer şartlar altında her şeyden önce gerçek hayatta və ekonomik gelişmede idari-amirlik yöntemlerinden uzaklaşılması və piyasa ekonomisi mekanizmasının sağlam esaslar üzerine oturtulması derecesine bağlıdır. Bu süreç ne kadar yavaş ilerliyorsa, yönüne bağlı olmaksızın, ister küresel ister bölgesel ekonomik entegrasyon süreci de bir o kadar yavaş ilerlemektedir.

Sovyetler döneminde dış ekonomik ilişkilerle ilgili tüm konular merkezleştirilmiş biçimde çözüldüğü için SSCB devletlerinin bu alanda ne tecrübesi, ne de deneyimli kadro potansiyeli vardı. Sovyet ekonomi okulunun yetiştirdiği kadrolarla yönetilen bu ülkelerin bilimsel və resmi çevrelerinde uluslararası ekonomik ilişkilerin oluşturulması mekanizması ile ilgili birçok anlayış yeterince araştırılmamıştır. Bilindiği gibi, küreselleşme və bölgeselleşmenin başlıca hareket gücü devletlerin çekinmeden ticaret yapmaları, sermaye və emek piyasalarını liberalleştirmeye çalışmaları, üretimin çokuluslu karakterini daha da derinleştirmeleridir. Bunun gerçekleştirilmesi için önemli olan "serbest ticaret", "gümrük birliği", "ortak sermaye, "mal və işgücü piyasası", "tam asya dosyası və kısmi ekonomik birleşme" vs. gibi küreselleşme və bölgesel ekonomik birlik oluşturmada büyük önem taşıyan mekanizmalar örnek gösterilebilir.

Bu ülkelerin nüfusunda “ekonomik birleşme” anlayışının arkasında her zaman zorunlu siyasi və askeri birleşme tehlikesinin ortaya çıkması korkusu vardır.

Totaliter rejimde yetişmiş Post-Sovyet uzmanlar uluslararası ekonomik entegrasyon və ilişkilerin oluşumunu da piyasa ekonomisi şartlarında yetişmiş kadrolardan farklı biçimde algılamaktadırlar. Örneğin, “serbest ticaret” alanında bu ülkelerin ekonomisini idare eden kadroları ekonomik kararların bürokratik devlet yapısından tamamen bağımsız hale gelmesi fikrini henüz kabul etmeye hazır değildirler. Bunun en açık örneklerinden birisi BM'nin Sumgayıt'ta “serbest ticaret bölgesi” oluşturması girişimidir. Sözü edilen projenin finansmanına 2 milyon ABD doları harcansa da, Azerbaycan'ın eski Dış Ekonomik İlişkiler Bakanlığı'nın hazırladığı kanun tasarısında “serbest” anlayışı, ortaya çıkarılan çok sayıda bürokratik engelle sınırlandırılmıştır. TRACECA programı yöneticilerinin fikrine göre bu projenin genişletilmesinde en önemli engellerden birisi gümrük engellerinin kaldırılması ile ilgili zorluklardır. Tüm bu sorun və engeller post Sovyet TKD'lerin Türkiye Cumhuriyeti ile ekonomik ilişkilerinin hızlı gelişimine ciddi şekilde engel olmaktadır.

G) Stratejinin Olmayışı

Türkçe konuşan devletler arasında ekonomik işbirliğinin imkan və perspektifleri başlangıçta ağırlıklı olarak duygusal bir tablo çizmiştir. Gerçekler analitik tahlille ölçülüp biçilmemiş və gerçekliği yansıtan stratejik yön belirlenmemiştir. Türk Cumhuriyetleri'nin çok yönlü birliği süreçleri plansız bir şekilde və siyasi konjonktürel değişimlerin etkisi altında ilerlemektedir. Türkiye Cumhuriyeti'nin de bu alanda kesin çizgilere sahip bir stratejisi yoktur; Türk Cumhuriyetleri arasında ekonomik işbirliğinin cari və perspektif yönleri, alınması zorunlu olan işbirliyi sistemi və işbirliğinin öncelikli alanlarının belirlenme və hayata geçirilme mekanizmasının oluşturulmasına ciddi gereksinim duyulmaktadır.

Sonuç

Açık ekonomik gelişme modelini tercih eden və dış ekonomik ilişkilerini çok yönlü olarak genişletmeye çalışan Türk Cumhuriyetlerinde strateji olmamıştır. Bu süreçleri yalnız başlanğıç aşaması olarak değerlendirmek gerekmektedir. Yeni ekonomik yönler de ortaya çıkmaktadır. Örneğin, Şanghay Beşlisi və GUUAM.Bunların bir kısmı örgütlenmiş, Türkçe Konuşan Devletler arasında perspektif öneme sahip, ekonomik işbirliği yönleri ise henüz oluşturulmamıştır. Türk Cumhuriyetleri'nin 2001 yılının başında Türkiye'deki zirvesi sönük geçmiştir. 31 Mayıs-1 Haziran 2001'de Minsk'te BDT ülkelerinin zirve toplantısının da aynı şeklide sönük geçtiği

dikkate alınmalıdır. Fark, sadece Rusya'nın bu konuda gösterdiği girişkenliğin Türkiye'de görülmemesinde ortaya çıkmaktadır.

Türk Cumhuriyetleri'nde henüz oluşmamış çok yönlü ekonomik entegrasyon sürecinden hangisinin temel yön haline geleceği tarihi gidişat esnasında belirlenecektir. Bu ülkelerde hızla ilerileyen sosyo-ekonomik değişim süreci və TRACECA programının hayata geçirilmesinin hızlandırılması Batı yönünün öncelikli önem taşıdığı konusunda ipucu vermektedir. Türk Cumhuriyetleri arasında ekonomik entegrasyon sürecinin hızlandırılması için bu faktörden geniş ölçüde yararlanmak gerekmektedir.

Bunun yanı sıra etnik faktörün esas hareket gücü olan büyük nüfus gibi güçlü bir potansiyelin de mevcudiyetini unutmamak gerekmektedir. Aydınlar və ortaya çıkmakta olan milli girişimciler kitlesi bu potansiyel gücün başını çeken bir grubu oluşturmaktadır.

10.5. Küresel ortamda yeni bölgesel güç

(Hemmüellif Sulduz Məhərrəmov AMEA Şarkiyat Enstitüsünün doktorantı)

Uluslararası ekonomi, finans və enerji Konqresi. 12-14 Haziran 2014. Almaatı/Kazahstan. Dünya Enerji Piyasaları və Orta Asya və Kafkas Ülkeleri

Özet. *Küresel ortamda yeni bölgesel güc.*

Çağdaş dünyada küreselleşme ve bölgeselleşme süreci zengin tarihi ile dünya sivilizasyonuna büyük katkı sağlamışTürkce konuşan cumhuriyetleri de kendi kapsamına almışdır.Yeni dönemde yaranmış tarihi fırsatdan dolayı Türkce konuşan Kuruller (TKC) son yıllarda hızla kalkınarak küresel dünyada önemli nüfuz sahibi olmuş, kendi aralarında siyasi, ekonomik, kültürel ve diğer alanlarda ilişkileri önemliboyutlada genişletmişler ve *küresel ortamda yeni bölgesel* güc niteliyi taşımaktadırlar.TKC-lerin İşbirliyi Konseyi, Parlamento Kurulu, TÜRKSOY ve diğer hızla gelişen sağlam kurumlar oluşturmuşlar.

Summery.*New regional force in the global terms.*

New historical opportunity renewed the socio-economic development of Turkic speaking countries, created important conditions for their active engagements into the process of globalization and regionalization. For the new period they got the way of intensive development, widened the relationship in all spheres, created Cooperation Union, Parliament Assembly, TURKSOY and other organizations.

Anahtar kelimeler: küreselleşme, bölgeselleşme, yeni bölgesel güc, jeopolitik merkez, Türkce konuşan Cumhuriyetlerin İşbirliği Konseyi.

Sovyetlerden kopmuş TKC-lerin bağımsızlık elde etdikden sonra küresel ve bölgesel entegrasyon sorunları araştırılırken, ilk önce dikkata almak gerekiyor ki, Sovyet İmparatorluğunun çökmesinde esas etkenlerden biri olan idari yönetim sistemi ve uzun süre takip edilen yarımsömürgeçilik politikası Türkce konuşan cumhuriyetlerde daha sert olmuş ve bu ülkelerde zor ekonomik miras bırakmıştır.

Türkdilli cumhuriyetlerin 70 yıllık bir dönemde "demir perdelerle" dünya birliğinden ayrılmış olması ve sanayice kalkınmış bölgelerin agrar-hammade deposu niteliğinde tutulması onların bağımsızlık kazandıkdan sonra dünya birliğine hızlı ve effektli entegrasyon etmelerini objektiv olarak kaçınılmaz yapıyordu. Bu etken adı geçen ülkelerin dünya piyasasının taleplerine uyğunlaşdırılması için köklü ve acil tedbirler görülmesini ısrarla talep ediyordu. Oysa Türkce konuşan cumhuriyetlerde bölgesel ekonomik entegrasyon süreci zor politik ve ekonomik şartlar altında oluşmağa başlamış ve bu süreç zaman zaman hızlanmıştır. Bağımsızlık yılarında bu ülkelerin dünya devletleri ile ekonomik ilişkilerinin tüm türlerinin köklü şekilde yeniden kurulması gibi mürekkeb bir süreç başlanmışdır. Kendi milli servetleri üzerinde milli egemenliyin elde edilmesi, dünya piyasalarına bağımsız olarak çıkma ve uluslararası ekonomik ilişkilerini dünyada oluşmuş hukuk normlarına uygun olaraq kurma yolunda bu cumhuriyetlere fırsat tanımış oldu.

Onlar ham petrol, doğal gaz, sanayi hammaddesi yanısıra, haylı çeşitte ve sayıda sanayi ürünleri üretmek ve ihraç edebilmek potansiyeline ve kapasitesine sahiptirler. Oysa Sovyetlerden kalmış mirasın sonucu olarak, Kazakistan, Azerbaycan ve Türkmenistan gibi zengin enerji kaynaklarına sahip olan ülkelerin ihracatı büyük ölçüde hammaddeden oluşuyor, onlar başda gerekli gıda maddeleri olmakla, çox sayda tüketim mallarını ithal etmek zorunda kalıyorlardı.

Her bir ülkenin doğal kaynaklarını harekete geçirerek üretim düzeyini yükselte bilmesi ve ekonomik kalkınma yoluna çıkması ciddi boyutlarda pazarlama yerlerinin büyük olmasına bağlıdır. Piyasaların genişlemesi ve derinleşmesi ekonominin etkinliğinin iyileşmesine ve kalkınma hızının artımına neden oluyor. Mesela,ABD-de uluslararası şirketlerin meydana gelmesi ve dünyanın dev şirketlerine dönüşmesi çok büyük piyasaların sağladığı avantajlar sayesinde mümkün olmuştur. Avrupa Birliği de büyük piyasaların sağladığı avantajlardan faydalanmak amacı ile dünyada ilk mükemmel bölgesel birlik oluşdurmayı başarmıştır.

Araştırmalardan belli oluyor ki, TKC-lerin entegrasyonunda önemsellik bakımından kendi aralarındaki işbirliği büyük avantaja malikdir. Çünki Türkiye ve Türkdilli cumhuriyetlerin ekonomileri, üretim yapıları, ihracat potansiyelleri ve ithal etmek istedikleri tüketim malları bakımından mükayese edildiğnide bir-

birlerini tamamlıyor. Türkiye Cümhuriyeti ve TKC-ler Atlas okyanusundan Çin seddine kadar hemen hemen 11 milyon km.karelik arazide, 200 milyon nüfusuile, 20-ye yaklaşık Türk dilinin konuşulduğu, 20-ye yaklaşık Türk boyunun yaşadığı bir coğrafyadır.Yalnız bağımsız Türk cumhuriyetleri yaklaşık olarak 2 milyon km^2 toprak ve 58 milyon nüfus potensyeline malkdir. Bunun dışında Türkiye dünyadaki onaylanmış doğal gaz kaynaklarının yaklaşık 40%-na, petrol rezlerinin ise 67 %-ine sahip olan Orta Doğu ve Orta Asya ile bu ürünlere en büyük talebi oluşturan Batı dünyası ile bu ölkeler arasında doğal bir köprü rolünü oynamaktadır (İsmail Akyel).

Ticaret ilişkileri ile yanı sıra texnoloji ilişkiler alanında da Türkiye ile Türkce konuşan cumhuriyetler arasında büyük bir işbirliyi potansiyelı mevcuttur. Türkiye`nin sahip olduğusanayileşme potensiyeli ve sahip olduğu kaliteli-kapasiteli işçi gücü, teknolojik alanda bilim edinilmesi piyasa ekonomisive uluslararası işbirliyinde elde etdiyi zengin denetimi ile, Türk dilli cumhuriyetlerde çok çeşitli alanlarda teknik yardım sağlaya bilir ve teknoloji ihrac edebilir. Türkiye 185 dünya devletleri arasında nüfus sayısı bakımından 16-cı, toprak büyüklüğü bakımından 32-ci, GSMH tutarına göre 17-ci sırada yer almakta. Onun ihracatının % 95-i sanayi ürünlerinden oluşuyor, dünyanın en hızlı kalkınan 10 ülkesinden biridir. Türkiye ekonomik ve teknik göstergelerine göre bu ülkelere liderlik edebilecek bir durumdadır. Onlar bağımsızlık elde etdikden sonra, a.g. genc ülkelere her türlü, politik, ekonomik ve teknik yardım etmek çabasındalar.

Türkiye Cumhuriyeti mövcut jeopolitik gerçekler ve yaranmış durum fonunda çağdaş devirde meydana atılmış, daha pragmatist adımlar atıyor ve faaliyyet mekanizmasının efektiflik düzeyini önemli şekilde arttırmış ve etkin bölgesel lidere çevrilmiştir. Tasadüfi deyil ki, bu gün daha Ankara, bölgesel ve küresel kapsamda baş veren olaylar fonunda, ilk önce, kendisinin ve stratejik yandaşlarının milli çıkarlarını rehber tutarak bağımsız kararlar kabul ediyor ve pragmatist adımlar atmaktadır. Tüm bunlar ise sonucta Türkiye`yi çağdaş uluslararası ilişkiler sisteminde ideoloji, diplomatik-politik, harbi ve ekonomik-maliyye bakımından tüm dünyada ve bölgede saya alınan otoriteli başlıca yandaşlardan birine çevirmiştir.

Az önce bağımsızlığının 20 yıllını kaydetmiş Azerbaycan, Üzbekistan, Kazakıstan, Kırgızıstan ve Türkmenistan sosyo-ekonomik kalkınma ve dünya birliğine entegrasyon sürecinde ileriye doğru önemli adımlar atmışlar.

Dünya devletlerinin çokyıllık deneyimi gösteriyor ki, bol doğal kaynak potensiyeline sahip Türkce konuşan cümhuriyetler gibi ülkelerinin gelecek sosyo-ekonomik kalkınması, onların küresel ve bölgesel süreclere aktif ve verimli şekilde katılmasına önemli derecede bağlıdır. Dünya devletlerinin deneyiminden şu da belli ki, küreselleşme döneminde duraklamaya engel olmanın sanayi üretiminin arttırılmasınınve sosyo-politik ilerlemenin halledici

etkeni hiç de petrol ve doğal qaz, doğal kaynak rezervleri deyil, entellektüel ve bilimsel-tekniki rezervlerin geliştirilmesidir. Böyle resurslar ise tamamen aydındır ki, uzun tarihi dönemde gelişmiş dünya devletlerinin birikmiş zengin deneyimini hertaraflı kullanmak ve uluslararası ilişkiler sistemine intansf katılmakla mümkündür.

"Büyük İpek Yolu" projesinin esas hedefi nüfusunun genel sayısı 67 mln. kişi (1991-ci yıl) olan Orta Asya ve Kafkasya`nın bağımsız ülkelerinin dünya ekonomisi kapsamına aktif katılmasını sağlamaktır. Bu ise aynı söz konusu cumhuriyetlerin 70 yıllık sovyet döneminde birikmiş sosyo-ekonomik sorunlarının çözülmesi ve nihayet, bu devletlerin politik ve ekonomik bağımsızlıklarının güçlendirilmesi için daha geniş perspektifler açıyor. Bundan dolayıdır ki, dünya ekonomisi sistemi ile ve bölge devletleri ile entegrasyon bu ülkelerin ekonomi politikasının önde gelen yönlerinden biridir.

Batı ülkelerinde fazla sermayenin mevcut olduğu bir ortamda hammaddeye ve enerji resurslarına büyük ihtiyaç vardır. Şu resursları ise yüce Allah Türkce konuşan cumhuriyetlere bol-bol nasip etmiştir. Bu etken Batının sanayi devletlerini ve ABD-yi, onların büyük uluslararası şirketlerini bölgeye sık-sık çekmiştir.

Türkce konuşan cumhuriyetler bağımsızlık kazandıktan hemen sonra kendi nüfusunu hayat standartını yükseltmek için dış dünya ile devamlı olarak belirli düzeyde "açık kapı" politikasını uygulamaya ve dünya piyasalarına entegrasyonda bulunmağa başladılar.

Dünya piyasalarına entegrasyon küreselleşme ve bölgeselleşme olarak iki yönde uygulanıyor. Zengin enerji resurslarının işletilmesi için sanayi ülkeleri ve uluslararası şirketlerle işbirliğini sık-sık arttırıyorlar. "Büyük İpek yolu" projesı adlanan TRACECA proqramı da bu ülkelerin dünya piyasalarına entegrasyonunun intansifleştirilmesine, onların zengin doğal kaynaklarının benimsenilmesine yöneltilmiştir. Bu ülkeler Bağımsız Devletler Toplulugu(BDT), Ekonomik İşbirliği Teşkilatı(EKO), AVRASYA Birliği, Şanhay İşbirliği Teşkilatı veTürkce konuşan Devletlerin İşbirliği Konseyi gibi bölgesel topluluklarda faal iştirak ediyorlar.

Türkce konuşan cumhuriyetler milli hegemonya elde etdikden sonra kendi doğal kaynaklarına milli iradenin sahib çıkmasından dolayı onların mali imkanlarının artması ve sermaye ortamının iyileştirilmesi için uygulanan önlemler bölgeye yatırımlarındurmadan artmasına yol açmıştır. Çünki ekonominin ve üretilen ürünlerin uluslararası rakabet gücünün yükseltilmesi geçit ekonomilerinde dış sermaye celb edilmeden mümkün değildir. Yeni oluşan müteşebbislik grubu kendi gücleri ile bu sorunları çöze bilmezlerdi.

Araştırmalar gösteriyor ki, son 20 yılde Türkce konuşan ülkelerde doğrudan yabancı yatırımlar hızla artmaktadır. Çünki onlar, kayd edildiği gibi, dünya sanayi ülkelerinin dev şirketlerin ekonomik hedefine dönüşmüşler.

Özellikle son on beş yılda sermaye yatırım ortamının iyileşmesi ve dünya piyasalarında ham petrol fiyatının artması (2008-2010-cu yıllar haric) bu ülkelerin petrol-doğal gaz komplekslerine doğrudan yabancı yatırımlarının akınını hızlandırmıştır. Bu artım özellikle Kazakistan, Azerbaycan ve Türkmenistan`da daha yüksek olmuştur.Son yıllarda Üzbekistan ve Kırgızıstan`da da doğrudan yabancı yatırımların artımı gözükmektedir (Bakınız: Tablo 1).

Tablo 1

Türkce Konuşan Ülkelere Dogrudan Yabancı Yatırımlar: (milyon ABD doları),2004-2009 yıllar

Ülkeler	2004	2005	2006	2007	2008	2009	Cemi
Azerbaycan	2673	458	1301	5201	-555	-871	594
Kazahistan	2500	2123	6663	8000	10700	8200	53786
Kırğızıstan	72	43	182	208	265	60	1163
Üzbekistan	180	192	174	705	711	711	3269
Türkmenistan	220	418	731	804	820	1355	5784

(4)-in esasında hesaplanmışdır

Tablo 2. Türkiye Cumhuriyeti Ekonomisine Doğrudan Yabancı Yatırımları(9)



Son yıllarda Türkce konuşan ülkelerde doğrudan yabancı yatırım akınlarının diversifikasyonunun gerekli olduğu daha derinden anlaşılıyor. Mali ve sermaye resurslarının petrol dışı sektörlere yönlendirilmesine büyük önem veriliyor. Bu ülkelerde ulaşım altyapısının geliştirilmesi dikkat merkezindedir.

Türkce konuşan ülkelerin lideri olan Türkiye Cumhuriyetinde doğrudan yabancı yatırımlar ile çalışmanın zengin bir tarihi vardır. Son 20 yılda Türkiye

Cümhuriyeti ekonomisine doğrudan yabancı yatırımları Tablo 2 verilerinden aydın görmek mümkündür.

Statistik verilerinden görüldüğü üzere Türkiye Cumhuriyeti ekonomisine doğrudan yabancı yatırımlar 2005 yılından sonra hızla artmış, küresel mali krizi döneminde azalmış ve 2011 yılında yeniden armıştır. 2010-da OECD-nin belirlediği doğrudan yabancı yatırımlar sınırlandırma endeksine göre Türkiye 49 ülke arasında 21-ci yerde dayanarak (Amerika, İsviçre ve Kanada`dan daha açık), OECD ülkeleri arasındadahaaçık bir ekonomiye sahipdir.Böylelikle, Türkiye`de doğrudan yabancı yatırımların dahil olmasına herhangi bir hukuki ve ekonomik engel ve ya sınırlandırmanın bulmadığını söyleyebiliriz. Böylece, Türkiye ekonomisi 2001-ci yıldan sonra devamlı olarak uygulanan reformların sonucu olarak yabancı sermayeye daha açık duruma getirilmiştir. (ErdalTanasKaragöl, M.Emin Erçakar).

Türkçe konuşan ülkelerin ekonomi bakanlarının 2-ci Toplantısında gösterilmiştir ki, 1921-2003 yıllar arasında Türkiyeye toplam 15 Milyar Dolar yabancı sermaye gelmişdirse, bu rakam 2003-2011 yıllar arasında 115 Milyar Dolara ulaşmıştır. 2013-cü yılda ise Türkiye'ye giren doğrudan yabancı sermaye oranı 46.7 milyar doları bulmuştur. Son 10 yılda ise cari açığın üçte birinin doğrudan yabancı sermaye girişleri ile kapatıldığını söyleye biliriz.

Kiyaslama için onu da göstermek gerekiyor ki, uzmanların deyerlendir-mesine göre 2011-ci yılda tüm dünyada tahminen 1,5 trilyon dolarlıq doğrudan yabancı investismanlar olmuşsa, Türkiye ekonomisine bundan 15,7 milyar dolar ayrılmıştır, yani bu ülkeye onun sadece yüzde biri ayrılmıştır. Oysa Türkiye`nin dünya ekonomisinde payı yüzde 1,2 idi (9). Onun da altını çizmek gerekiyor ki, Türkiye ekonomisine yatırılan doğrudan yabancı investismaların % 80-90-u AB ülkelerinden, geriye kalanı ise Asya ve Amerika`dan geliyor. Son yıllarda doğrudan yabancı investismanların yaklaşıkyarısı hizmet, diğer yarısı ise sanayi sektörünə yatırılmıştır. Ayni zamanda 2011-ci yılda Türkiye`de de 30 bine yakın yabancı sermayeli şirket vardır (2003-cü ildeonların sayı sadece 7 bindi) (9). Türkiye`ye yatırılan yabancı sermaye ülkede ulaştırma sektörünün hızlı gelişmesinde önemli rol oynamıştır. Uzmanların değer-lendirmesine göre bölgede kara yolları araçlarının üretiminde Türkiye öncül pozisyon sergilediğine göre yabancı sermayeye borcludur. Demiryolları ise son yıllarda hökümet politikasının da etkisi ile yabancı sermayeden faydalanmağa başlamıştır. Hava yolları ise Türkiyenin en uğurlu sektörlerinden biridir. Hava yolları firmalarının yabancı ülkelerdeki çalışmaları ve uluslararası otoritesiile dünyada iyi bir ad çıkarmıştır. Bu sektörün gelişmesinde yabancı sermayenin katkısı olsa da, milli firmalar onun gelişmesinde önemli rol oynuyorlar.

Türkdilli Cumhuriyetlerle işbiriliğini kalkındırmak için Türkiye`nin Ekonomi Bakanlığında hususi kurum yaradılmışdır. Kurum aşağıdaki fonksyonları yerine yetirmektedir:

- Türk Dünyası ile iktisadi, sosyal, kültürel ve ticari ilişkilerin gelişmesini desteklemek amaçlı faaliyetleri tenzimlemek,
- Kurumun göreceği işler çerçevesinde görülecek ülkeiçi ve ülkedışı faaliyetleri belirlemek ve faaliyet programını onaylamak,
- Kurumun faaliyetleri için bütçe teklifini hazırlamak ve TİKA ile birlikde faaliyete mali desteği sağlayan ilişkileri belirlemek,
- Kurumun milli ve uluslararası düzeyde teşkil etdiyi konferans, forum ve toplantıların geçirilmesini sağlayanilgili kurumları koordine etmek,

Dünya ekonomi sistemine entegrasyonunen önemli yönü dış ticaret ilişkilerinin durmadan genişlenmesidir. Aşağıdakı verilerden görüldüğü gibi, Türkce konuşan ülkelerde dış ticaret dolaşımı hızla artmaktadır.

Tablo 3.

2000-2011-cu yıllarda Türkce Konuşan Ülkelerde dış Ticaret Dolaşımı (milyar ABŞ doları)(1,2)

Azerbaycan	2000	2005	2009	2011
İhracat	1.7	4.3	14.7	21.4
İthalat	1.2	4.2	6.1	6.6
Dış ticaret dolaşımı	2.9	8.5	20.8	28.0
Saldo	0.6	0.1	8.6	14.8
Kazahstan				
İhracat	8.8	27.8	43.2	59.2
İthalat	5.0	17.4	28.4	29.8
Dış ticaret dolaşımı	13.8	45.2	71.6	89.0
Saldo	3.8	10.4	14.8	29.5
Kırgızıstan				
İhracat	0.5	0.7	1.7	1.7
İthalat	0.6	1.2	3.0	3.2
Dış ticaret dolaşımı	1.1	1.9	4.7	4.9
Saldo	-0.1	-0.5	-1.3	-1.5
Türkmenistan				
İhracat	2.5	...	...	...
İthalat	1.8	...	...	...
Dış ticaret dolaşımı	4.3	...	...	...
Saldo	0.7	...	...	...
Türkiye				

İhracat	27.8	73.5	100.2	122.5
İthalat	54.5	116.8	140.5	220.2
Dış ticaret dolaşımı	82.3	190.3	240.7	342.7
Saldo	-26.7	-43.3	-69.9	-97.7

Kaynaklardakı verilerin ortaya koyduğu gibi, Azerbaycan`da dış ticaret dolaşımı son on yılda on, Kazakistan`da 6.4, Kırgızıstan`da 5.0 veTürkiye`de 4.1 kez çoğalmıştır. Bu ülkelerde ihracat aynı dönemde daha hızlı (Azerbaycan`da 12.6, Kazakistan 6.7,Kırgızıstan`da 3.2 ve Türkiye`de 4.4 kez) artmıştır.

Türkce konuşan ülkelerde dış ticaret bilançosunun dengesi de (Türkiye ve Kırgızıstan haric) olumludur.

Tablo 4

Türkce Konuşan Ülkelerde Dış Ticaret Bilançosunun Dengesi (milyon ABŞ dolları), 2004-2009-cu yıllar

Ölkeler	2005	2006	2007	2008	2009
Azerbaycan	-638	7745	15224	23010	7957
Kazahıstan	-312	14700	14142	33500	14200
Kırğızıstan	-1192	-687	-1076	-1612	-1331
Üzbekistan	118364	1370	1894	3081	2484
Türkmenistan	-1135	4598	5334	6423	7900
Türkiye	-43298	-54042	-62791	69936	-38786

(9,10 melumatları esasında hesaplanmışdır.)

Belli olduğu üzere, Türkiye 1980-ci yıla kadar ithal ikamesi politikasına dayalı sanayileşme modelini uygulamaktaydı. 1980-ci yıldan sonra ihracat yönümlü sanayileşme politikasını tercih ederek "açık ekonomi" stratejisi sayesinde dış ticaretin gerek boyut, gerekse de struktur bakımından ciddi gelişmesine neden olmuştur. Ülke tarım ürünleri ihraç eden ülkeden sanayi ürünleri ihraç eden ülkeye çevrilmişdir. Böyle ki, 1980-2010-cu yıllar döneminde ihracatda sanayi ürünlerinin payı %36-dan %94-e yükselmişdir. Dünya Bankasının değerlendirmesine göre Türkiye`nin küresel mali krizinin yıkıcı etkisine maruz kalmamasının başlıca nedeni bu ülkenin, ticaret ilişkilerini çoksaylı ülkelerle yapması ve ihracat ürünlerinin çokçeşitli olmasıdır. Türkiye İhracatcılar Meclisi tarafından hazırlanmış İhracat Stratejisi Raporuna göre Türkiye`nin ihracatı 2023-cü yılda 500 mlrd. dolara ulaşacakdır (1).

Son 10 yıl döneminde Türkiye büyük ve şerefli yol geçmişdir, 90-lı yıllarda olan zor ekonomik durumdan uğurla çıka bilmişdir. Bu gün dünya çapında Türkiye güçlü devletler sırasındadır, "Böyük yirmilik" üyesi, dünyanın

18-ci büyük ekonomisidir. Dünyadaki politik-ekonomik süreçlere Türkiye`nin etki gücü giderek artıyor, ilerdedaha da artması tahmin edlimektedir. Türkiye`nin onayı olmadan bölgede önemli teşebbüsler uygulanamaz.

Tablo 5. verilerinden görüldüğü üzere, Postsovyet TKC-ler de son 10 yılda sosyo-ekonomik kalkınma yolunda önemli mesafe gitmiştir.

Tablo 5

GSMH nın Fiziksel Hacim Endeksi (sabit fiyatlarla)(10)

	2001	2005	2010	2011	2012
Azerbaycan	110	188	403	403	412
Kazahstan	114	164	221	238	250
Kırgızıstan	105	120	149	158	157
Üzbekistan	104	130	195	211	229
Türkmenistan	…	…	…	…	…

Türkce konuşan ülkelerin dünya birliği ile bütünlüşmesinde "Büyük İpek yolu" kapsamında yaratılmış Avropa-Kafkasya-Asya nakliyat koridoru önemli rol oynamaktadır.

Tablo 6

Auropa-Kafkasiya-Asiya ulaşım koridorunun etkinliği

	2000	2011
	Yük daşınmıştır, bin ton	
Cemi	29091	51688
O Cümleden		
Demir yolu	15200	20578
Deniz	5779	9370
Avtomobil	8112	21740
	O cümleden tranzit yüklerin daşınması, bin ton	
Cemi	8572	15971
O Cümleden		
Demir yolu	3538	8253
Deniz	5034	7718
Avtomobil	...	...
	Yük dövriyesi, bln.ton	
Cemi	8405	13222
O Cümleden		
Demir yolu	5240	6674
Deniz	2098	3672
Avtomobil	1067	2676
	Sernişin dövriyesi, bln. sernişin	
Cemi	3049	4674

O Cümleden		
Demir yolu	310	670
Deniz	3	4
Avtomobil	2736	4049

(8, s.617-618)

Tablo 6-den görüldüğü üzere, bu koridorla taşımaçılık faaliyeti hızlı olarak artmaktadır. Dolayısı ile türkce konuşan cumhuriyetlerin Auropa-Kafkasya-Asya nakliyat koridoru ile intansif olarak dünya birliğine entegre ediyor.

Azerbayca`nın Cumhurbaşkanı İlham Aliyev`in söylediği gibi: "Beşer uygarlığı tarihinde Türk devletleri tüm devrlerde önemli yerde gelmişler. Tarihin farklı önemlerinde çeşitli zorluklarla karşı karşıya kaldıklrına rağmen, türkçe konuşan halklar her zaman kendi devletcilik geleneklerini korumuşlar. XX yüzyıl sonlarında dünyada başveren jeopolitik değişikliklerden sonra dünyanın politik haritasında yeni bağımsız Türkce konuşan devletlerin yaranması küresel siyasi arenada Türk dünyasına önemli pozisyon kazandırdı. Halklarımızın kendi bağımsızlığını kazanması tarihimizde yeni sayfa açtı".

Bugün dünyada 6 bağımsız Türkce konuşan devlet mevcuttur. Geçen yüzyılın 90-lı yıllarından başlayarak, bu devletlerin birge isteği ortak manevi mirasın korunması ve tebliğ olunması, işbirliğinin genişletilmesi için çok önemlidir. Bu ülkelerarası işbirliğinin gelişmesinde 2009 yılının Ekim ayında Nahçivan`da geçirilen IX Zirve Görüşünden sonra kurumlaşma aşaması başlanmıştır. Aynı zirve görüşünde tarihi önem daşıyan karar kabul edilmiş ve Türkce konuşan Devletlerin İşbirliği Konseyi yaratılmıştır. Türk halklarını ortak kültür, gelenekler, milli manevi değerler, tarihi kökler, etnik mensubiyyet birleştiriyor ve bu etkenler karşılıklı verimli faaliyet için çok büyük esastır. Türkce konuşan devletler arasında işbirliği bütün alanlarda gitdikce daha da genişleniyor.Artık Türkce konuşan Devletlerin İşbirliği Konseyi, Parlamento Kurulsi, Türk Akademisi faaliyete başlamıştır. Uluslararası Türk Kültür Örgütü TÜRKSOY da halklarımızın milli-manevi mirasının korunması, geliştirilmesi ve propoganda yönündeönemli işler yapmaktadır.

Türkce konuşan ülkeler dünyanın çox önemli coğrafi-stratejik bir bölgesinde yerleşiyorlar. Onlar efektif konuma, zengin doğal kaynaklara, yüksek entellektüel potensialı olan insan kaynaklarına sahiptirler.

Şunu da özellikle vurqulanması gerekiyor ki, Türkce konuşan ülkeler dünyanın enerji haritasında da önemli yerde gelir. Onlar zengin karbohidrojen rezervlerine sahib olmakla beraber, hem Batı, hem de tüm diğer yönlerde dünya piyasalarına çıkan en elverişli coğrafi konuma sahiptirler. Böylelikle, bölgenin hem üreten, hem de tranzit konumu küresel ve bölgesel çerçevede onun önemini artırıyor. Artık bir kaç yıldır faaliyet gösteren Bakü-Tiflis-

Ceyhan petrol ve Bakü-Tiflis-Erzurum doğalgaz boru hatları Batı istiqametinde esas enerji marşrutunu oluşturuyor. Bu projelere Auropa-Kafkasya-Asya nakliye koridoru (TRACECA) ve inşa edilmekte olan Bakü-Tiflis-Kars demiryol hattı da eklenirse, bölgenin Doğu ile Batıyı kavuşturan önemli strateji rölü daha belli oluyor.

Türkce konuşan Devletlerin İşbirliği Konseyi gibi kurumlaşan bölgesel birlikde bu devletler iktisadi ve ticari işbirliğini geliştirmeyedaha çok çalışıyorlar. Buna rağmen buülkelerin kendi aralarındaki ticaret tutarının, halen onların tüm dış ticaret tutarının %3 -den az olması, bölge dahili ticari ilişkilerin şu anda henüz arzu edilen düzeye ulaşmadığını gösteriyor.

Arzu edilen hedeflere ulaşılması bakımından Türkce konuşan Devletlerin İşbirliği Konseyi (TDİK) çerçevesinde Üzbekistan ve Türkmenistan da dahil,ortak bir platform oluşturulması çok önemlidir. Bu zaman entegrasyonu genişlendirmek için çeşitli alanlarda önemli tedbirler uygulamaklamalların, hizmetlerin ve sermayenin serbest hareketini temin eden ve yatırım imkanlarını artıran vize ve iş ruhsatlarının verilmesinin kolaylaştırılması gerekiyor. İş birliği ortamını iyileştirmeye yönelik böyle ayarlamalarla birlikte, bölge ülkelerinin jeopolitik ve jeoekonomik sorunları ile Türkce konuşan Cumhuriyetlerin kıtalararası jeopolitik sorunlarının kompleks değerlendirmesi büyük önem taşıyor. Bu bakımdan, Bakü-Tiflis-Ceyhan ham petrol Boru Hattı, Bakü-Tiflis-Erzurum doğal gaz Boru hattı, Bakü-Tiflis-Kars Demiryolu Hattıve bunlara eklenecek yeni nakliye ve enerji koridorları, "Tarihi İpek Yolu" kadar etkenli bir projelerdir ve bölge ülkelerinin ekonomik kalkınmasını ciddi etkileyecektir.

Şunu da kaydetmek gerekiyor ki, Türkce konuşan devletler son yıllarda hızla kalkınarak küresel dünyada gözeçarpan nüfus sahibi olmuş, onlar arasında siyasi, ekonomik, kültürel ve diger alanlarda ilişkiler önemli ölçüde genişlenmişdir. Onlar Türkce konuşan Devletler Birliyi, Türkce konuşan dövletlerin Parlamento Kurulu, TÜRKSOY vediğer uluslararası kurumlar oluşturarak daha da sağlamlaşmışlar.

Atatürkün “cihanda barış, yurtta barış” ilkesini esas tutan, Türk dünyasının gerçek güce çevrilmesi heç bir diğer devletin ve her hangı bir güç merkezlerinin ilgi ve menfaatları için hiç bir tehlike getirmeyecek ve getirnek amacı da karşıya koymamıştır. Çünkü ırk, milli, dini ayrımcılığı inkar eden kurumsal ve manevi birliğin üyesi olan Türkce konuşan ülkeler, sadece türkce konuşan halkların deyil, dinine ve diline bağlı olmayarak, bu mekanda yaşayan tüm diğer halkların ve etnosların birliği gibi oluşuyor. Onlar kendi dış politikalarında tüm devletler ve bölgesel merkezlerle ilişkilerinde uluslararası hukuka dayanarak, eş hukuklu ortaklık prensiplerini esas götürüyorlar.Dünyanın tüm kıtalarında mevcut olan bölgesel birlikler - Auropa Birliği, ABD, Rusya ve diğer ülkelerle politik-stratejik, ekonomik,

teknoloji, harbi ve tüm başka alanlarda eş hukuklu ilişkiler yaratan Türkce konuşan devletler dünya birliğinde kendi otoritelerini giderek artırıyorlar. Bilindiği gibi, jeopolitik merkezlere her hangi bir dövlet sahip olduğu güce göre değil, yerleştikleri mekanın zorunluluğu ve aktif güç merkezlerinin çıkarlarının ağır basması bakımından dahil ediliyorlar.ABD-nin eski Güvenlik Danışmanı Z.Bzejinski "Büyük şahmat tahtası" eserinde Azerbaycan`ı jeopolitik güc merkezi gibi böyle nitelendirilendiriyor: "Azerbaycan Hazar bölgesi ve Orta Asya`nın zenginliklerini kendisinde birleştiren bir ülkedir. Eğer Azerbaycan tamamen Moskova`nın etkisi altına düşerse, Orta Asya devletlerinin bağımsızlığının hiçbir anlamı olmaz" (Бжезинский З. 1999). Bu sebepten de bu devletlerfaal güc merkezlerinin etki alanı uğruna verdikleri savaşın esas hedeflerinden biridirler.

Böylelikle çağdaş dönemde uluslararası güvenliğin arttırılması, küresel sorunların kendi çözümünü bulması yönünde Türkce konuşan ülkelerin ortak çabaları yalnızca Avrasya mekanında değil, hem de tüm dünyada huzurun yaygınlaştırılmasında çok faydalı olabilir. Bununla da, Türk dünyasının güc merkezine çevrilmesi kendiliğinde Avrasya`nın "dünyanın merkezi" gibi pozisyonunu daha da sağlamlaştırmaya hizmet edebilir. Türkiye Cümhurbaşkanı Abdullah Gül 2013-cü yılda (ekim) Beşinci İzmir İktisat Kongresinde söylemiştir ki, "200 yıldan sonra dünyanın merkezi yeniden Asya`ya dönüşüyor"(7).

Böylelikle Sovyet İmparatorluğu çöktükten sonra ondan kopub ayrılmışTürkce konuşan cumhuriyetler tarihi, din, dil ve tüm kültürel bağları olan Türkiye Cumhuriyeti ile birlikde küresel ortamda yeni bölgesel güc oluşturmaya başlamışlar.

SöylediklerimizTürk dünyasının küresel mekanda yeni güc merkezi gibi oluşması yolunda önemli addımlardır. Bu ülkeler Avrasiyanın tam merkezinde, Avropa ile Asyanı birleştiren koridorda, tarihi İpek yolunun üzerinde yerleşmişler. Onlar doğal kaynaklarla zengin ve büyük stratejik önemli mekana sahiptirler. Demokratik sosyo-ekonomik kalkınma yolunda hızlala ileleyen genç ülkelerin bağımsızlığı sağlamlaştıkça, küresel önem taşıyan altyapı ağları ve ekonomik ilişkileri ile dünya birliğine bağlandıkca bölgede etki imkanları da artıyor. Onlardan, Türkiye dünya çapında güclü devletlerdendir. Dünyanın jeopolitik araştırmalarında Azerbaycan, Kazakistan ve Üzbekistan da jeopolitik merkezlere dahil edilmeye başlamışlar.

Kaynaklar:

1. Prof.Dr. C.D.Armağan. 2000`li Yıllarda Türkiye Ekonomisi: yapısal dönüşümler, anasorunlar ve çözüme dönük politika önerileri. Ankara, 2013, s.91-109. www.nobelkitap.com

http://www.ebrd.com/pages/research/analysis/ forecasts.shtml;

2**.** Azerbaycanın istatistik göstergeleri (2013). Baku, Sedas. 759-762;

3.. Dünyamali Veliyev. Türk cumhuriyetleri arasında ekonomik işbirliği: sorunlar, perspektifler Avrasiya Dosyası. Üç aylık uluslararasi ilişkiler ve stratejik araştırmalar dergisi. Azerbaycan. Özel sayısı. 2001, Ankara 2001, Cilt, 7, N 1, s. 86-109.

4.EBRD transition Report 2011

5.Erdal Tanas Karagöl, M.Emin Erçakar.

http://www.setav.org/tr/turkiyede-dogrudan-yabanci-yatirimlar/analiz/31Ocak 2011.

6. İsmail Akyel. Küreselleşme sürecinde Türkiye.http://ismailakyel.com/2013/02/küresellesme-surecinde-turkiye/ Şubat 23, 2013

7. "Milliyet", 31 Ekim 2013

8. Dr. Yılmaz Argüden, 2020 yılında dünya, Türkiye ve rekabet strtejileri.http://bs-ba.fasobook.com/topic.plip?uid=?&topic=10515

9. Türkiye'de Yabancı Sermaye. Ankara Sratejik Enstitüsü yayınları. 30 Mart Cuma, 2012.

http://www.ankarastrateji.org/haber/turkiye-de-yabanci-sermaye-142

10. Основные макроэкономические показатели стран СНГ. Статкомитет СНГ htto//www.cisstat.oro

11.http://www.ebrd.com/pages/research/analysis/ forecasts.shtml;

12. Бжезинский З. Великая шахматная доска. М., Изд-во Международные отношения, 1999, с. 254.

10.6. Bağımsız Türk Cumhuriyetlerin yenidən yapılanmasında Türkiye Cumhuriyetinin tarihi rölü: inceleme və değerlendirme

Dünyanın en zengin değerlerini omuzunda taşıyan Türk dünyasını Osmanlı İmparatorluğu çöktükden sonra dünya devletleri param-parça etmişdir.

Sömürgecilik zinciri sadece Türk dünyasında değil, tüm Asyada ilk kez Türkiye Cumhuriyeti kırmıştır. Diğer Türk toplumları ise Batı ve Doğunun sömürgeci devletlerinin asareti altında kalmak zorunda bulunmuşlar. Son 200 yıllık bir dönemde Türk dünyasını parçalayıp dağıtmağa yönelmiş eğilimler tarihe gömülmüştür. Onun yerinde Türk dünyasının kaybetdiyi tarihi fırsatları kazanması ve uyğarlık yolunda hızla ilerilemesi için yeni ortam yaranmıştır. XX yüzyılda Türkiye Cumhuriyetinin tarihi görevi sadece kendisini bağımsızlığa kavuşturmak deyil, aynı zamanda yüzyıllığın sonunda bağımsızlık kazanmış Türk halklarının mutluluğu için çağdaş uyğarlığın

verdiyi yeni imkanları başarı ile kullanmakdır. XXI yüzyılda ise onun tarihi görevi önceleri dünyanın uygarlık tarihinde oynadığı liderlik rolünü kendine kaytarmaktır.Onun tarihi rolünü aşağıdaki gibi özetlemek mümkündür:

1. Türkce konuşan Cumhuriyetlerin bağımsızlığını ilk kez Türkiye Cümhuriyyeti tanımakla onlara büyük siyasi destek vermiş oldu,
2. Onlar bağımsızlığa kavuştuktan hemen sonra Rusya`nın emperyalist güçleri bu bağımsızlığı beşikte boğmak için elinde olan tüm siyasi, harbi ve ekonomik potensiyelini geniş kapsamda kullanmağa başladı. Onları ekonomik blokadayaalarak aclık sınavına çekti. Türkiye Cümhuriyyeti elinde olan tüm imkanları kullanarak onları korumayı becerdi.
3. Türkiye Cumhuriyeti bağımsızlık kazanmış çağdaş Türk cumhuriyetleri için politik, ekonomik, hukuki açıdan çağdaş dövlet kuruculuğu için bir örnek rolünü oynuyor.
4. Bu cümhuriyyetlerde Sovyetlerden miras qalmış ve emperyalist güçler taraflndan körüklenen milli konfliktlərin (Yuxarı Karabağ ve d.) tarafsız edilmesinde, bazen kendi ekonomik ve mali çıkarlarını gözardı ederek, tarihde misli görülmemiş bir destek verebiliyor.
5. Türkce konuşan cumhuriyetlerde piyasa ekonomisinin gelişmesine, onların ekonomik bağımsızlığa kavuşmasına imkanı dahilinde hertaraflı destek veriyor, mali, teknik ve diğer yardımlar sağlıyor.
6. Zengin doğal kaynakları olan bu devletlerde dünyanın süper güçleri ile rakabete girerek onların ekonomik problemlerinin çözülmesine, önemli etki gösteriyor, Türkce konuşan cumhuriyetlerde Türkiye iş adamları ticari işlemlerde, yatırımlarda, ortak birliklerin kurulmasında, teknolojinin geliştirilmesinde bir ekol rölünü oynuyor.
7. Yeni oluşmuş jeopolitik mekanda bölgesel jeopolitik super güc gibi politik ve ekonomik süreç ve olayları etkilemek ve yönlendirmek çabası göstermektedir, bölgede siyasi problemlerin çözülmesinde önemli rol oynayır,
8. Onların dünyaya açılmasında, küresel entegrasyon sürecine milliçıkarlara uygun olarak koşulmasında hem örnek və hem de büyük destek veriyor.
9. Türkce konuşan cumhuriyetler arasında bölgesel işbirliği yaradılması ve geliştirilmesinde öncülük ediyor ve bu konuda büyük çabalar harcıyor.

10.7. Küreselleşme sürecinde Türk Dünyası

Süleyman Demirel Üniversitesi, Sosyal Bilimler Dergisi, Mayıs 2009, İsparta, №19.

1923 yılının son baharında dünyada yeni bir yıldız parladı - Türkiye Cumhuriyeti hamuru Büyük Türk Milletinden oluşan bu yıldız, zaten çok eskiden mövcuttu. Kendi parıltısı ile diğer yıldızlardan hep seçilmiştir. Ona

benzemek isteyen diğer çoksayılı yıldızlar uzun süre onu açık saldırı, bin bir ihanetle söndürmek çabalarında bulunmuş... və bu yolda başarılar da kazanmışlardı... Hatta bu yıldızı "ölü" yıldız adlandırmaya başlamışlardı. Fakat... Yüce Allah bu Büyük Millete Büyük Önder Gazi Mustafa Kamal Atatürk`ü armağan etti.Tarihte hiç kimseye benzemeyen bir Önder... Onun Türk milletine armağan ettiği Büyük harbi zaferler, büyük siyasi, ekonomik, medeni inkilapların tarihte benzeri yoktur. Onun yarattığı Türkiye Cumhuriyeti yıldızı dünyanın yeni tarihinin gidişini değişdirdi. Türkiye Cumhuriyeti Büyük Türk Milletinden zorla ayrı salınmış Azeri, Kazak, Üzbek, Türkmen ve başka kardeşlerini toparlayarak küreselleşme deyilen bir olayın kendi lehine çevrilmesini gerçekleşdirmektedir. Bu dönemde bir yıldız yedi yıldıza – yedi kardeşe dönüştü.

Kitabi Dede Korkutun yeni deyimlerinden

Türk Cumhuriyetlerinin Dünya ile Entegrasyonunun Temel Şartları:

XXI yüzyıl tarihe uygarlığı kalite bakımından yeni bir aşamaya ulaştıran küreselleşme yüzyılı gibi dahil olmuştur. Texnolojide hızlı değişim, uluslararası mal ticaretinde vesermaye akımlarında serbestleşme, ekonomide piyasa sisteminin kuralları esasında yeniden yapılanmalar, toplumda neoliberal görüşlerin zafer çalması,demokrasiye yönelik açılımlar, ve toplumsal örgütlenme modellerinde yeni eğilimler derin ve kapsamlı bir evrim aşaması niteliği kazanmıştır.Küresel süreçler kalkınma durumunda, din ve kültüründe, tarihi geleneksellerinde olan farklara bakmaksızın, dünya ülkelerinin ve halklarının bir-birinden bağımlılığını durmadan arttırıyor.

Büyük çaplı bilimsel və teknolojik devrimler dünyanın anlaşılması, yeniden yapılanması, doğayla Batı arasındakı ve toplumun kendi katmanları arasındakı ilişkiler açısından yeni bir dönem başlattı. Dünyayı birbirinden ayrılmış, tecrit edilmiş parçalardan ibaret olarak gören anlayışlar tarihe gömüldü. Bilimsel və teknolojik sıçramalarla beraber dünya halkları arasında ekonomik, siyasi, sosyal ve kültürel ilişkilerin giderek derinleşmisini yansıtan entegrasyon ve küreselleşme süreçleri içerisinde zıtlıklar da taşımakla beraber, dünya kalkılmasının motoru oldu. Dünya ekonomisi, bu süreç sonuncunda bütünleşmiş ve bir otosisteme dönüştü.

Küreselleşme sürecinin ilk aşamasını veönemli bir yönünü oluşturan bölgesel işbirliği, bölgeselleşme, 21.yüzyılda da önemini kayb etmemekte, tam tersine önemini daha da artırmaktadır. Şöyle ki, 20.yüzyılın 90'lı yıllarında NAFTA, Asya Pasifik Ekonomik İşbirliyi Örğütü, MERKOSUR (Arjantin, Brezilya, Bolivya, Paraguay, Uruguay, Şili) ve Karib Devletleri Teşkilatı örgütlenerek daha da güçlenmiştir. Bölgesel ekonomik işbirliyinin öncüsü olan Avrupa Birliği (AB) yeni bir aşamaya geçmiştir. Nisan 2001'de

Amerika kıtasında Serbest Ticaret Bölgesi'nin, Gümrük Birliği'nin oluşturulduğunu açıklayan Kanada zirvesi gerçekleştirilmiştir.

Küresel evrimler bir yönden ulusal ve ulusaltı düzeylerde yeni yönetişim modellerini zorunlu kılırken, diğer yönden ülkelerin ulusüstü düzeyde örgütlenmelerini ön plana çıkarmıştır.

Doğal olarak, tüm dünyada süregelen küreselleşme ve bölgeselleşme, zengin tarihiyle dünya kültürüne büyük katkılarda bulunmuş Türk Cumhuriyetlerini de alanı dışında bırakmamaktadır.

Jeopolitik Değişmeler ve Türk Cumhuriyetlerinin Uluslararası ve Bölgesel İktisadi Entegrasyon Eğilimleri:

Küreselleşmenin getirdiği yeni eğlemler yüzyıllar boyunca tarihi zorunlukların etkisiyle parçalanmış, bir-birinden ayrı salınmış Türk Dünyası ülkeleri karşısında da tarihin etkisi ile bırakılmış fırsatların gündeme getirilmesi için yep-yeni olanaklar meydana getirmiştir. Küreselleşmenin bir yönü, zaten daha önemli yönü, bölgeselleşmedir. Türk Dünyasının bölgeselleşmeyi çağdaş anlayışlar gereğince yeni aşamaya yüceltmek için büyük olanaklar yaranmıştır.

Sovyet Devleti'nin dağılması dünyanın 1/6'ni kapsayan Türk Cumhuriyetleri'nin yerleştiği büyük alanda jeopolitik durumu kökünden değiştirdi.

Bu devletin terkibindeki diğer cumhuriyetler gibi Azerbaycan, Kazakistan, Kırgızistan, Üzbekistan ve Türkmenistan'dan oluşan Türk cumhuriyetleri de bağımsızlıklarına kavuşarak dünya üretim sisteminin hür ve eşit haklara sahip üyesine dönüştüler. Piyasa ekonomisinin oluşturulması stratejisini benimseyen bu cumhuriyetlerin sosyal ve ekonomik hayatları bağımsızlık yıllarında derin dönüşüme uğramıştır. Bu ülkelerin hepsinde Sovyet sonrası dönemde bütün ekonomik ilişkilerin köklü şekilde yeniden kurulması süreci başlamıştır. Egemenlik, bu cumhuriyetlere dünya pazarına bağımsız çıkış vekendi dış ekonomik ilişkilerini yeni prensipler temelinde kurma olanağı tanımışdır. Fakat, karışık ve sert kanunlara sahip dünya pazarı ile ilk ilişkilerin dünya üretim ilişkiler sisteminde ne kadar ciddi sorunlarla karşı karşıya geldiğinde yüzleştiğini de ortaya koymuştur. Sovyet dahili planlı, bölge sistemi ve geleneksel pazarların kaybı, ortak para alanının ortadan kalkması ve dünya pazarına hammaddeden başka rakabet edebilecek ürün çıkarılmaması bu ülkelerin ekonomisini uzun süreli ve derin sosyal, ekonomik buhran durumuna sokmuştur.

Sovyet sonrası Türk cumhuriyetleri hayati önem taşıyan birçok iktisadi mesele bakımından dünyanın yakın ve uzak, büyük ve küçük devletlerinin, uluslararası ve bölgesel örgütlerinin ilgisini çeken doğal bir merkeze dönüşmüştür. Enerji rözervleri ile zengin olan bu jeopolitik coğrafyada dünyanın bir çok devletinin çıkarları çatışmaktadır ve bu devletler üzerinde nüfuz alanı uğrunda ciddi mücadeleler yaşanmaktadır. 19.yüzyılın sonu ve 20.yüzyılın

başında büyük devletlerin burada yürüttükleri "büyük oyun", şimdi başka yöntemlerle yürütülmektedir. Bu nüfuz mücadelesine neredeyse dünyanın tüm büyük devletleri bu veya diğer şekilde katılmaktalar. Bölgesel ölçekte, Sovyet sonrası Türkiye cumhuriyetleri zengin pazarı uğruna mücadele bölgede mevcut üç güç merkezi, Rusya, Türkiye ve İran arasında süregelmektedir.

Dünyanın jeopolitik araştırmalarında Sovyet sonrası Türk cumhuriyetleri'nden Azerbaycan, Kazakistan ve Özbekistan`ın da jeopelitik merkezlere dahil edilmesine başlanmıştır. Bilindiği gibi,devletler jeopolitik merkezlere, sahip oldukları güce göre değil,yerleştikleri mekanın önemi ve aktif güç merkezlerinin çıkarlarının ağırlığı bakımından ait edilmekteler. ABD eski ulusal güvenlik danışmanı Z.Brejinski "Büyük Satranç Tahtası" adlı kitabında Azerbaycan'ı jeopolitik merkez olarak şöyle karakterize etmektedir: "Azerbaycan, Hazar Denizi havzası ve Orta Asya'nın zenginliklerini kendinde birleştiren merkezdir. Eğer Azerbaycan tümüyle Moskova'nın denetimi altına girerse, Orta Asya devletlerinin bağımsızlığının hiçbir anlamı kalmaz". Bu sebeple de, devletler aktif güç merkezlerinin nüfuz alanı uğrunda ciddi mücadele nesnesine dönüştüler.

Sovyet sonrası Türk Cumhuriyetleri'nin siyasi bağımsızlık elde etmesi dış dünyayla bulunduğu eski ilişkiler sistemine yeniden bakılması ve eşit haklı, karşılıklıçıkara dayalı ilişkilerin oluşturulması için yollar aranmasında dönüş yarattı. Egemenlik və jeopolitik durumu bu devletlerin zengin doğal kaynaklarının milliçıkarlara yönlendirilmesi, kendi ihtiyaçlarını sağlayan üretim mekanizmalarının oluşturulması, dış ilişkilerin verimliliğinin artırılması ve intansifleştirilmesi, uluslararası işbölümünün fırsatlarından kendi halklarının çıkarına uygun olarak yararlanılması için faydalı ortam sağlamış oldı.

Bağımsızlık ilanının gerçekleştiği ilk günlerden itibaren, yaşama geçirilen uygulamalar bu ülkelerin hepsinin dış ekonomik ilişkiler alanında bu ve ya diğer düzeyde "açık kapı" siyaseti yürüterek dünya pazarı ile entegrasyonuna çalıştıklarını göstermektedir. Bu süreç iki temel yönde ortaya çıkmaktadır: küreselleşme vebunun bir parçasınıoluşturan bölgeselleşme. Rusya tarafında yürütülen siyasi, ekonomik ve askeri baskılara rağmen zengin enerji ve diğer doğal kaynakların gelişmiş sanayi ilkeleriyle ve büyük çokuluslu şirketlerle artan işbirliği, TRACECA programının işlenip hayata geçirilmeye başlanması bu ülkelerin küresel üretim sisteminin ayrılmaz parçasına dönüşmeye başladığını göstermektedir. Türk cumhuriyetleri aynı zamanda bölgedeki devletlerle işbirliğine büyük önem vermekteler. Burada bölgesel iktisadi entegrasyon 4 temel yönde gelişmektedir.

1. Bağımsız Devletler Topluluğu
2. Ekonomik İşirliyi və Kalkınma Örgütü (ECO)
3. Karadeniz İşbirliği Teşkilatı

4. Türkiye başta olmak üzere, Türk cumhuriyetleri arasında ekonomik işbirliği

Bu 4 yönden yalnız ilk ikisi örgütlenmiştir. Son iki yönde Türkiye Cumhuriyeti faal olarak katılmaktadır. Bu yönlerin her birinin kendi üstünlükleri vardır.

Türk Cumhuriyetleri Arasında İktisadi İşbirliğini Geliştirmenin Zaruriliği:

Analizler, siyasi etkenler göz önünde bulundurulmazsa, bu ülkelerin yaşamsal çıkarının dördüncü yönünün daha avantajlı yön gibi öne çıkmasını gerektirdiğini göstermektedir. Bağımsızlık kazanıldıktan sonra, bu devletlerin bu yöne daha büyük önem verdikleri herkesce bilinen gerçeklerdir.

Bilindiği üzere, uluslararası politika ve devletlerarası ilişkilerde etnik faktör önemli rol oynamaktadır. Bağımsızlığın kazanılması, bir zamanlar Uzak Doğu'dan Merkezi Avrupa'ya kadar geniş bır arazide büyük uygarlığın taşıyıcısı olan, fakat tarihi gelişim sürecinde çeşitli halklara parçalanmış Türk milletinin yeniden birleşerek 21.yüzyıl uygarlığına güçlü ivme kazandırması için ortam yaratmışdır. Geçen iki yüzyıllıkta Türk dünyasının tek bağımsız devleti Türkiye cumhuriyeti, gerçekci politikacı büyük Atatürk'ün bıraktığı mirasa uygun olarak tüm zorluklara rağmen, çağdaş uygarlık yoluyla ilerlemekte ve Sovyet sonrası Türk cumhuriyetleri için birleştirici, kılavuz ve destekleyici olma işlemini yerine getirme yeteneğine sahip çağdaş bir devlettir. Türk halklarının ümit yeri olan Türkiye Cumhuriyeti, Sovyet sonrası Türk cumhuriyetleri'ne geleneksel Ortaçağ doğu ilişkilerinden çağdaş sanayi sonrası topluma en çabuk nasıl geçmek gerektiğinin tarihi örneğini göstermektedir. Belli olduğu üzere, SSCB'nin çöküşü ile jeopolitik durum değiştikten sonra resmi çevrelerde Türk Birliğinden söz edildiğinde yalnız ekonomik ve kültürel ilişkilerin onarılması kast edilmekteydi. Aynı tarihe, dine ve dil grubuna sahip olan bu halkların yakın coğrafi arazide yerleşmiş olmaları onların bölgesel ekonomik entegrasyonu için qayet elverişli ortam yaratmıştır. Çünkü bin yıllık tarihi gelişim sürecinde bütünlük arz etmiş, biri diğerini tamamlamış bu ülkelerin ekonomisi çağdaş dönemde birbirine daha çok muhtaçtır. 20.yüzyıl deneyimi coğrafi və kültürel birliğin temel alındığı bölgesel ekonomik entegrasyon sürecinin (Avrupa Birliği örneğinde) halkların ekonomik açıdan daha hızlı ekonomik kalkınmasını sağladığını kanıtlamıştır. Türk cumhuriyetleri'nin coğrafi ve ekonomik koşulları çağdaş ekonomik entegrasyon mekanizmasından yararlanarak birbirlerini tamamlamakla, ellerindeki zengin doğal kaynakları daha verimli kullanmalarına ve bu yolla halklarının ve Türk cumhuriyetleri'nin genel refah düzeyinin yükselmesine olanak tanımaktadır. Birleşmiş Avrupa ile hızla gelişen Asya büyükleri arasında jeopolitik ve sosyol-kültürel halka oluşturan Türk cumhuriyetleri dünya ekonomik merkezlerinin karşılıklı etkileşiminden çıkarlarına uygun

yararlana bilirler. Piyasa ekonomisinin oluşturulması ve geliştirilmesi stratejileri olarak gören Sovyet sonrası Türk cumhuriyetleri için Türkiye Cumhuriyetinin 85 yıllık zengin deneğimini oldukça önemlidir.

Postsovyet Türk cumhuriyetleri'nin bağımsızlık yolları ciddi sosyal-ekonomik sorunlarla doludur. Onları kendi etki alanlarında tutmak isteyen emperyalist güçler, bu ülkelerin bağımsız gelişmelerini önlemek için askeri, siyasal ve ekonomik faktörleri ve etnik çalışmaları kullanmaya çalışmaktalar.

Böyle bır ortamda Türkiye Cumhuriyeti bu yeni devletler için karşılık istemeyen ve güvenilir bir taraf olabilir. Zira bu ülkede uzunca bir süredir mükemmel dış ticari ilişkiler mekanizması oluşmuş, ihracat potansiyeli geliştirilmiş, muazzam çokuluslu şirketlerle etkili rakabet mekanizması yaratılmış, globalleşme ve başka alanlardaki entegrasyon konularında zengin deneyim biriktirilmiştir.

Sırf bu ihtiyaçları yüzünden Türk cumhuriyetleri bağımsızlıklarının ilk yıllarından itibaren Türkiye Cumhuriyeti'yle ticari-ekonomik ilişkilerin gelişmesine büyük önem vermeye başlamışlardır. Sovyetler Birliği gibi muazzam bir imparatorluğun çöküşü ve Türk cumhuriyetleri'nin bağımsızlıklarını kazanmaları, onların Türkiye ile ilişkilerinde nitelikçe yeni bir aşama için zemin oluşturmuştur.

Bu durumda, Türkiye Cumhuriyeti veTürk şirketleri bu devletlerin ekonomik ve ticari hayatında önemli rol oynamaya başladılar. Bu ülkeler bol üretim faktörleriyle Türkiye'nin işadamları için çekici bir pazar haline gelmiştir.

Türk şirketleri genç Türk cumhuriyetleri zengin enerji kaynaklarının geliştirilmesi ve taşınmasında aktif rol almaktadırlar. Bu stratejik yönelim, Türk cumhuriyetleri'nin ekonomik ilişkilerinin genişlenmesi ve geriye dönüşümlü olması açısından belirleyici olmaktadır.

Bilindiği gibi, çağımızda dünya ekonomik alanının belkemiğini çokuluslu şirketler oluşturmaktadır. Bunların gücü, günümüzde dünya ekonomisinin sadece 1/4'nin serbest piyasa ortamında faaliyet göstermesine götürecek kadar ilerlemiştir.

Türk cumhuriyetleri'nin bulunduğu coğrafyada çokuluslu şirketler SSCB'nin dağılmasıyla oluşan boşluğu ve yeni devletlerin uyguladıkları "açık ekonomi" modelini kullanarak kendi etki alanlarını genişletlemeye başladılar. Zengin enerji kaynaklarının geliştirilmesi için bu ülkelerdeki sermaye, teknoloji ve deneyim eksikliği, bu ülkelerin çokuluslu şirketlere ilgisini artırmış ve muazzam projelerin gerçekleştirilmesi için onlarla çok yönlü işbirliğini zorunlu kalmıştır.

Batı sermayesi bu ülkelerdeki doğal zenginliklerin global ekonomi çarkına dahil olması ve onların dünya pazarıyla entegrasyonunu hızlandırmak için tüm imkanlarını kullanmaktadır; bu süreçte Rusya'nın negatif girişimleri de önlenmeye çalışılmaktadır. Aynı ülkelerin Rusya'ya bağımlılığının

azaltılması ve onların en kısa ve ucuz yolla Avrupa'ya ulaşmaları için TRASECA isimli Avrasya ulaşım koridorunun yapımını öngören asrın projesi gerçekleştirilmektedir. Bu ülkelerin çokuluslu şirketlerin bölgenin süper güçlerine tercih etmekteler. Bu ülkeler uygulanmakta olan geniş kapsamlı özelleştirme sürecinde en karlı ve gelecek vadeden şirketler bazen çok düşük fiyatlarla batılı yatırımcılar tarafından alınmaktadır. Batı sermayesi stratejik sektörleri kontrolleri altına almaktalar.

Türk cumhuriyetleri'nin yerleştiği Merkezi Asya ve Kafkasya`da hegemonluğu korumak ve ya ele geçirmek uğruna mücadelede Batı, ilk önce ABD ve Rusya arasındaki karşıdurmanın temelini oluşturmaktadır. Batının uyguladığı "Büyük İpek Yolu", "Büyük Hazar" Projeleri Türk dünyası ülkelerinde Rusya`nın ekonomik işgalinin hafifleştirilesi ve kaldırılasına hizmet etmekle önemli katkıda bulunmuştur.

Türk dünyasının küreselleşme sürecinde perspektifleri:

Yukarıda anlatılanlar, Türk cumhuriyetleri'nin global ekonomi sistemine katılmaya və onun avantajlarından yararlanmaya daha çok önem verdiklerini ortaya çıkarmaktadır.

Gürcü olayları dünyanın yeniden yapılanmasının esasını koymuş oldu. Dünyanın iki kutuplu dünyadan çok kutupluluğa geçid dönemi başlamışdır. ABD ve AB'nin bütün dünyada hegemonluğunu daha da güclendirilmesi eyilimlerini ve Rusya Doğuda yeni blok oluşdurma çabalarını daha da artırmışdır.

Türk dünyası bu siyasi, ekonomik ve teknoloji devlerin çarpışma meydanının ten ortasında yerleşmişdir. Bu gün Türkiye cumhuriyetleri iki dev arasında bölünmüş gibi görünüyor. Ama, küreselleşmeden en çok Büyük Türk ırkının kazancta bulunacağı kanısındayım. Bunu olumlu yönde etkileyen faktorları şöyle sıralaya biliriz:

1.Türk toplumunun dayandığı sağlam temel ona küreselleşmenin olumsuz etkilerinden yüksek derecede korunmak olanağı sağlamaktadır. Bu olumsuz faktörler aşağıdakılardır: milli-manevi değerlerin aşınması, maneviyetsizlikden dolayı genetik ırkın yüksek derecede tehlike altında olması, sağlam toplumun temeli olan aile hayatının sarsılması, yer yüzünün eşrefi olan insanın zararlı alışkanlıklardan dolayı degredasyona uğraması ve başkaları. Yüce Allah Türk soyuna çağdaş sivilizasyonu tehlikeye sürükleyen o olumsuz etkilerden yüksek derecede korunma ve aksine, aynı olanakları kendi lehine çevirme vasfı vermiştir;

2.Küreseleşmenin yaratdığı yeni demoqrafik konjonktür Türk toplumunun yararınadır ve onun dünyada rolünün ve etkinliyinin daha da artmasına olanak yaratmıştır. Batı ve Rusya`da nüfus artımı sıfır noktasına yaklaştığı-venüfusun yaşlanma sürecinin hızlandığı bir dönemde Türk dünyasında tam başka durum söz konusudur: nüfusun hızlı artımı ve gençleşmesi süreci başlamıştır. Olumlu demografik faktor, sadece Türk dünyasının sınırları

içinde değil, hem de dışında çok etkindır. Avropa ve Rusya`da Türk nüfusunun yaygınlaşmasını, sadece Türk dünyasından "brain-drain"(beyin göçü) olarak değerlendirmek yanlış olur. Bu, aynı zamanda Türk kültürünün, Türk ruhunun dünyaya yayılması, Türkçülüğün yabancı toplumlarda direkt olarak tanıtılmasıdır.Bundan başka, Batı bilimi ve teknolojisinin, Batı idareciliğinin yerindece benimsenilerek, doğma yurda getirilmesidir.

3.Mustafa Kemal Paşanın "yurtta barış, cihanda barış" sloganı tüm Türk cumhuriyelerin'de içvedış politikaların temelini oluşturmaktadır. Bu politika, onlara yakın ve uzak komşuları ile dostluk ilişkileri kurmağa, karmaşık bölgede ve dünyada kendi çıkarları gereyince stratejik uyğulamağa olanak sağlıyor.

4.Yeniliksever Türk soyu küreselleşmenin, iktisadi, teknoloji ve informasyon alanlarında sivilizasyona getirdiyi inkilapları çabuk olarak kendi malı ediyor ve toplumun kalkınması için etkinlikle kullanıyor.

5.Küreselleşmenen temelini oluşturan neoliberal görüşler, devletler arası ekonomik sınırların büyük ölçüde kaldırılması Türk Dünyasının, bir takım politik engellere rağmen, daha da yaklaşmasını kolaylaştırmışdır.

6.Türk Dünyasının birleşmesinde büyük engel Türk cumhuriyetleri arasında uzun süre direkt ulaşım ilişkilerinin yolların olmaması idi. Şu da Türk Dünyasını parçalamak isteyen imparatorluk devletlerinin uzun yıllar takip ettikleri politikaların sonuçlarıdır.

Bu bakımdan dikkat edildiğinde anlaşılıyor ki, " Kitabi Dede Korkut"tan gələn "Deli Dumrul" hikayesinin böyük-toplumsal politik anlamı vardır. Bu hikayeye göre bir kuru nehrin üzerinde köprü kuran Deli Dumrul "geçəndən otuz üç akça alırdı, geçmeyeninden döve-döve kırk akça alırdı". Bunu neden böyle yapıyordu? Onun için ki, "benden deli, benden güçlü er varmıdır ki, çıka benimle savaşa - diyordu; benim erliğim, bahadırlığım, yigitliyim, Ruma, Şama kadar cavlana " – diyordu...

Derinden düşündüğümüzde belli oluyor ki, keçmişte dünyayı sömürgecilik zinciri ilə kapanmış olan büyük metropoliyaların politikanın temelinde sadece böyle bir düşünce tarzı kök salmışdır.

XIX yüzyılda Orta Asya ve Kafkasya halklarının Çar Rusyası tarafından istilasından sonra onların güney komşuları ve diğer devletler ile geleneksel ilişkileri kesildi. Sivilizasiyona İbn Sina, Nasrettin Tusi ve binlerle deha sahipleri bahşetmiş bu ülkeler "Rusya`nın ucrası" damgası ilə damgalandılar. Sömürgeçilik politikasını davam etdiren Sovyet İmparatorluğunda bu ülkeleri dünya ile birleşdiren çok az miktar yollar yalnız Rusya topraklarından geçiyordu. Bu sadece görünen yollara aid değildir, aynı zamanda görünmeyen medeni-manevi yollara da aitti. Orta Asya halkları ve Azerbaycan dünya kültürüne yalnız rus kültürü ilə koşuluyordu. Dünya klassikleri sadece rus dilinden tercüme olunurdu. Bir sözle bu halkların kainata bakmak için yalnız bir penceresi açık idi: Rusyanın yol verdiyi pencere...

Batı maddi ve kültürel değerlerinden geniş kullanmağa çalışan bu ülkelerin zengin doğalkaynakları Batının ihtiyaçlarının karşılanması için benimsenilmeye başlamış və dünya politikasının ana yönlerinden birine çevrilmişdir. "Büyük İpek Yolu" probleminin yenidən aktüelleşmesi de Doğu ve Batı arasında enerji taşıyıcılarının Batıya kolay ulaştırılması üzerinde ciddi işle, yeni komünikasiyon hatlarının açılması ile ilgilidir.

Bu faktör de Türk dünyasının birleşmesi ve dünyada etkinliğinin artması için büyük fayda sağlıyor. Bakü-Ceyhan petrol, Bakü-Erzurum doğal gaz, Bakü-Kars demiryolu stratejik önemlidir ve ekonomik olmakla aynı zamanda politik ve kültürel önem taşıyor.

7.Zamanımız Türk dünyasının yeni ve daha yüksek aşamalara ulaştırılması için eski düşüncelerin kölesi olmadan politik, ekonomik bilgi ve kültürel alanda çabaların daha da artırılmasını talep ediyor. Türkiye Cumhuriyetinde sık-sık kullanılan "dış türkler" değiminden uzakta durulması gerekiyor.Avrupanın stratejisi Merkezi Asyaya yöneliktir. Oysa aziz Türkiye`mizin stratejisinin Avrupadan ziyade Türk dünyasına yöneltilmesinin zamanı yetişmiştir.Türkiye Cumhuriyetinin Başbakanı sayın R.T.Erdoğanın "Kafkasya İttifakının" yaratılması önerisini bu yolda büyük bir gayret sanmamız gerekir. Nitekim, Kafkasya Merkezi Asya`ya giden yoldur; bu yol engelsiz olcaktır. Türk dünyası Rusya sınırları içinde ve dışındadır. Türk dünyasının birliği Rusya ile ilişkilere bağlıdır.

8.Son dönemlerde Türk dünyasında bir-birine yaklaşma ve birleşme çabaları dolayısıyle ekonomik ve kültürel ilişkiler hızlı artma eğilimi göstermektedir. Türk dünyası Parlamento Kurulsinin yaratılması gündemdedir. Türkiye Cumhuriyeti ile Azerbaycan arasında ilişkiler "bir millet, iki devlet" stratejisi yolu ile ilerlemektedir.

9.Tüm Türk cumhuriyetlerinde İslami değerler daha da güçleniyor, her yerde Osmanlı ruhu, Türk ruhu yükseliyor. Bu ruh her şeye, her yerde zafer çalacaktır. İNŞALLAH.

10.8. Azərbaycanın türkdilli ölkələrlə əməkdaşlığının inkişaf perspektivləri

(Həmmüəllif: Sulduz Məhərrəmov, Şərqşünaslıq İnstitutunun doktorantı)

"Xalq qəzeti", 20 noyabr 2013-cü il.

Müasir dünyada sürətlə inkişaf edən qloballaşma və regionallaşma prosesləri zəngin tarixi ilə dünya mədəniyyətinə böyük töhfələr vermiş Türk Cümhuriyyətlərini də hərtərəfli əhatə etmişdir.

XX əsrin son onilliyində sovet imperiyasının süqutu, dünyanın bloklara bölünməsinin aradan qaldırılması soyuq müharibəyə son qoydu, böyük bir coğrafi bölgədə geosiyasi vəziyyəti kökündən dəyişdirdi. Bəşəri tərəqqi üçün dünya təsərrüfatı sisteminin bütün həlqələri arasında qarşılıqlı faydalı hərtərəfli əlaqələrin daha da dərinləşməsi yolunda geniş imkanlar yarandı. Bu coğrafi məkanda Xəzər hövzəsinin zəngin neft yataqlarının mühüm bir hissəsinə nəzarət edən Orta Asiya və Qafqazın yeni müstəqil dövlətləri özünəməxsus yer tutur. Dünyanın neft xəzinəsi sayılan İran körfəzindən sonra öz əhəmiyyətinə görə ikinci yerdə duran bu regionda neft ehtiyatı 30 milyard ton, qaz ehtiyatı isə onlarla trilyon kubmetr təşkil edir. Mütəxəssislərin hesablamalarına görə, XXI əsrin ikinci yarısında orta illik neft hasilatı burada 100 milyon tona çata bilər. Uran və digər mühüm filiz növləri, qızıl ehtiyatı, habelə pambıq parça istehsalı imkanları nəzərə alındıqda regionun əhəmiyyəti daha da artır.

Türkdilli Cümhuriyyətləri arasında regional əməkdaşlığın inkişafında 2013-cü ilin avqust ayında keçirilən dövlət başçılarının zirvə görüşü mühüm bir layihənin həyata keçirilməsi üçün növbəti bir mərhələdir və Azərbaycan üçün xüsusi əhəmiyyətə malikdir.

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Qəbələdə baş tutmuş zirvə görüşündə iqtisadi əlaqələrin gücləndirilməsinə, nəqliyyat və gömrük münasibətlərinin inkişaf etdirilməsinə, üzv-dövlətlər arasındakı qarşılıqlı ticarət və investisiya axınlarının artırılmasına və birgə layihələrin həyata keçirilməsinə mühüm diqqət yetirildi.

Analitiklərin fikrinə görə, türkdilli dövlət başçılarının Qəbələ zirvəsində qəbul edilmiş qərarlara görə gələcəkdə ortaq dövlət qurumlarının yaradılması baş verə bilər. Bütün bunlar türk ölkələrinin vahid iqtisadi məkan, sonradan isə gələcəkdə vahid siyasi məkan yaradılmasını gündəliyə gətirmək üçün çox vacib cəhddir. Qətiyyətlə demək olar ki, Qəbələ sammiti türk dövlətlərinin təşkilatlanması yönündə atılmış növbəti bir addımdır. Burada mühüm olan məqam hazırda türk respublikalarının ortaq türk əlifbasının və ortaq türk ordusunun yaradılması ilə bağlı danışıqlardır. Analitiklərin fikrinə görə, Sammit həm də Azərbaycan dövlətinə verilən dəstək kimi qiymətləndirilməlidir: "Ortada qonşu ölkələri narahat edən layihə mövcuddur. Azərbaycan və Türkiyə arasında çevik hərbi qüvvələrin formalaşdırılması ilə bağlı müzakirələr var. Artıq Gürcüstan dövləti də bu layihəyə maraq göstərir. Bu məsələ Rusiya dövlətini və siyasi dairələrini də narahat etməyə başlayıb. Türkiyə bir NATO dövlətidir, əgər bu gün Türkiyə belə bir layihədə iştirak edirsə, deməli, bu NATO və ABŞ-ın razılığı ilə baş verir. Bu, Avroatlantik blokun öz müttəfiqlərini qorumaq üçün ortaya atdığı bir layihədir. Bu mənada, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası BMT Baş Assambleyasına "Daha yaxşı bağlantı və telekommunikasiya tranzit marşrutları üçün əməkdaş-

lığı inkişaf etdirmə" başlıqlı qətnamə layihəsi təqdim etmişdir. Layihə regional əməkdaşlığın gücləndirilməsi məqsədini daşıyır. Trans-Avrasiya İnformasiya Super Magistralı (TASİM) haqda "67/194 saylı qətnamə"nin davamı olan bu layihə Avrasiya Bağlantı İttifaqının (ABİ) təsis olunmasını təklif edir. ABİ informasiya-kommunikasiya texnologiyaları istifadəsi sahəsində regional və beynəlxalq əməkdaşlığı asanlaşdırmaq məqsədi daşıyır.

Azərbaycan Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, türkdilli dövlətlər arasında turizm sektorunda birgə əməkdaşlığın böyük perspektivi vardır. O göstərmişdir: "Bu, çox dəyərli məsələdir. Ölkələrimizdə və ya xaricdə türk dünyasının turizm potensialı ilə bağlı sərgi keçirilə bilər. Eləcə də beynəlxalq sərgilərdə birgə təqdimatla çıxış edə bilərlər. Bu, praktik nöqteyi-nəzərdən ölkələrimizə turizm axınını gücləndirmiş olar".

Türkdilli dövlətlər arasında tranzit daşımalar sahəsində əməkdaşlığın da böyük perspektivi vardır. Azərbaycan artıq Xəzərin şərq sahilində yerləşən ölkələr üçün tranzit ölkə rolunu oynayır. Nəqliyyat infrastrukturunun yaxşılaşdırılması məqsədilə həm ikitərəfli, həm üçtərəfli formatda işlər həyata keçirilir". Bu baxımdan Avropa və Asiyanı birləşdirən və 2014-cü ildə istifadəyə veriləcək Bakı-Tiflis-Qars dəmir yolu xətti böyük əhəmiyyətə malikdir. Bundan başqa, Azərbaycan Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycanın hazırda Xəzərdə qurduğu dəniz limanı bölgənin ən böyük limanı olacaqdır: "Mərhələlərlə bu limanın yük qəbulu 10 milyon tondan 20 milyon tona çatacaq. Bu da Xəzər dənizi üzərindən ötürülən yüklərin həcmini artıracaqdır".

Qazaxıstan Prezidenti Nursultan Nazarbayev Qəbələ görüşündə türkdilli ölkələr arasında iqtisadi əlaqələrin inkişafının vacibliyini vurğulayaraq göstərmişdir: "Hazırda altı müstəqil türkdilli ölkə arasında ticarət dövriyyəsinin həcmi 1 trilyon 150 milyard dollar təşkil edir. Lakin bu rəqəm ölkələrimizin potensialını əks etdirmir. Biz iqtisadi münasibətlərimizi daha da gücləndirməli, ticarət dövriyyəsini artırmalıyıq".

Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyənin dövlət başçıları türkdilli dövlətlər arasında ticarət və investisiyaların artımına böyük əhəmiyyət verirlər. Onlar özəl biznesi Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının işçi qruplarında aktiv iştirak etməyə, Dünya Türk İş Şurasını öz üzvləri arasında iqtisadi əməkdaşlığı sadələşdirməyə çağırıb, o cümlədən dörd ölkənin ixraca və sərmayələrə cavabdeh olan strukturları arasında qarşılıqlı anlaşma haqqında memorandumun imzalanmasının əhəmiyyətli olduğunu vurğulamışlar. Dörd ölkə rəhbəri, o cümlədən iyulun üçündə Bakıda keçirilən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Katibliyinin nəqliyyat nazirlərinin görüşlərinin yekununa dair hesabatı və nəqliyyatın inkişafı barədə bəyannaməni və Aktau, Bakı və Samsun limanları arasında əməkdaşlıq haqqında qarşılıqlı anlaşma haqqında memorandumu dəstəkləyirlər. Azərbaycan, Qazaxıs-

tan, Qırğızıstan və Türkiyə prezidentləri, habelə regionda daşımaların potensialını artırmaq üçün Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının iştirakçıları arasında mövcud olan nəqliyyat infrastrukturunun işlənmə effektivliyinin artırılması məqsədilə cavabdeh strukturların bu sahədə səylərinin artırılmasını vacib hesab edirlər. Həmçinin, əsas hissəsi Bakı-Tbilis-Qars dəmiryolu olan Qafqaz və Mərmərə dənizi vasitəsilə Mərkəzi Asiya və Avropanı birləşdirən Şərq-Qərb dəhlizinin böyük əhəmiyyəti, o cümlədən "Silk Wind" layihəsinin qısa, təhlükəsiz və iqtisadi cəhətdən səmərəli olduğu xüsusi qeyd edilmişdir. Dövlət başçıları habelə türkdilli ölkələr arasında gömrük əməkdaşlığının genişləndirilməsinə və gömrük strukturlarının rəhbərlərinin öz fəaliyyətlərini koordinasiya etmələrinə, gömrük üzrə işçi qrupunun yaradılmasına böyük əhəmiyyət verirlər. Onlar sərnişin və yükdaşımalarının sadələşdirilməsi və tranzit potensialının artırılması və idxal və ixrac prosedurlarının sadələşdirilməsi üçün mexanizmlərin yaradılması və inkişaf etdirilməsinə, müasir texnologiyalarla mübadilə sisteminin tətbiqinə böyük ehtiyac olduğunu xüsusi vurğulayıblar. Türkdilli diasporlar arasında əməkdaşlıq layihəsi haqqında təşəbbüslər də əhəmiyyətlidir. Türkdilli dövlətlərlə əməkdaşlığın genişlənməsi istiqamətində gedən proseslərdə fəal və səmərəli iştirak Azərbaycanın xarici siyasətinin prioritet istiqamətlərindəndir.

"Bir millət, iki dövlət" idealının nümayəndələri olan Azərbaycan-Türkiyə əlaqələri türkdilli dövlətlərin iqtisadi əməkdaşlığının onurğa sütununu təşkil edir və regional əməkdaşlıgın genişlənməsi üçün mühüm əhəmiyyət kəsb edir. 13 noyabr 2013-cü ildə Ankarada keçirilən Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının iclasından sonra yeddi müqavilə və protokollar imzalanmışdır.

Baş nazir Rəcəb Tayyib Ərdoğan 13 noyabr 2013-cü ildə Azərbaycan prezidenti İlham Əliyevlə görüşündə qeyd etmişdir ki, hazırda iki ölkə arasında ticarətin həcmi 4,2 milyard dollara çatmışdır. Gələcəkdə bunun 15 milyard dollara çatdırılması nəzərdə tutulmuşdur. Səfər zamanı mühüm strateji obyektlər yenidən dəyərləndirilmiş və bu sahədə yeni layihələr haqqında da fikir mübadiləsi aparılmışdır.

İki ölkə arasında strateji əhəmiyyətə malik olan enerji sahəsində əməkdaşlığın inkişaf etdirilməsi nəzərdə tutulur. Bunlardan biri müzakirə edilən TANAP layihəsidir. Azərbaycan Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, həmin layihənin həyata keçirilməsi Avropanın enerji xəritəsini tamamilə yenidən quracaqdır. Bu xəritədə Türkiyə və Azərbaycanın rolu xüsusi yer tutacaqdır. Çünki TANAP layihəsi dünya miqyasında enerji layihələri arasında ən böyüklərdən biridir. Bu məsuliyyəti, bu siyasi yükü, maliyyə yükünü Türkiyə və Azərbaycan öz üzərinə götürmüşdür. Biz burada da birgə səylərlə liderlik nümayiş etdirdik. Bizim liderliyimiz sayəsində bir çox ölkələr fayda götürəcək. Çünki bugünkü dünyada enerji siyasətini xarici siyasətdən ayırmaq

mümkün deyildir. Biz bütün işləri birgə qururuq, birgə müzakirə edirik.Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının mahiyyəti və üstünlüyü ondan ibarətdir ki, bu toplantılar əsnasında bir çox məsələlər öz həllini tapır. Bu tarixi layihə ilin sonuna qədər başa çatdırılacaq və 2014-cü ilin əvvəlində təməlinin qoyulması nəzərdə tutulur. Bakı-Tbilisi-Ceyhan layihəsi və "Şahdəniz" layihəsi Azərbaycan-Türkiyə və ümumiyyətlə, Türkdilli dövlətlərin iqtisadi əməkdaşlığının aparıcı istiqamətidir. Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi uğurla həyata keçirilir, regional əməkdaşlığı yeni yüksək mərhələyə çatdıracaqdır. Bunlar "Marmaray" layihəsi ilə birləşəcəkdir. "Marmaray" layihəsi ilə birləşdikdən sonra da Bakı-Tbilisi-Qars dəmir yolu xəttini əhatə edəcək şəkildə Pekindən Londona qədər dəmir yolu şəbəkəsi olacaqdır. Eyni zamanda, İğdırdan Naxçıvana təbii qaz kəmərinin çəkilməsi ilə əlaqədar görüləcək işlər də planlaşdırılır. Hətta İğdır ilə Naxçıvan arasında dəmir yolu şəbəkəsinin yaradılması ilə bağlı məsələ də müzakirə edilir.

Türkiyə və Azərbaycan dövlətləri Trans-Anadolu və "Cənub" dəhlizi layihələrinin həyata keçirilməsi məsələsində də ciddi mövqe nümayiş etdirir. "Marmaray" layihəsi ilə birgə Bakı-Tbilisi-Qars dəmir yolu xətti layihəsi Qərbi Avropadan çıxan bir qatarın birbaşa Xəzər sahillərinə, oradan isə Aktau və Türkmənbaşı limanlarından Pekinə çatmasını da mümkün edəcəkdir. Bu da, təbii ki, qlobal və regional əməkdaşlıq proseslərinə böyük fayda verəcəkdir.

Azərbaycanda fəaliyyət göstərən türk iş adamlarından indiyə qədər alınan vergi rüsumları 1270 dollar idi. Ankarada qəbul edilən qərara əsasən, həmin məbləğ 50 dollara endirildi. Elm adamları, tələbələr və iş adamları üçün Azərbaycan güzəştli viza rejimi tətbiq edəcəkdir. Dövlət başçıları, siyasət və elm adamları Türkiyə və Azərbaycan arasında qarşılıqlı sərmayə qoyuluşu prosesinə yüksək qiymət verirlər.

Azərbaycan Prezidenti İlham Əliyev Ankaradakı görüşlərində xüsusi vurğulamışdır: "Azərbaycanın xaricə qoyulan və qoyulacaq ən böyük sərmayələri Türkiyəyə qoyulacaq sərmayələrdir. Türkiyədən Azərbaycana qoyulan sərmayələr bizim iqtisadi inkişafımızı sürətləndirir. Bu sərmayələr qarşılıqlı etimad, inam, dostluq, qardaşlıq üzərində qoyulan sərmayələrdir. Mən deyəndə ki, bizim münasibətlərimizin təməlində qardaşlıq dayanır, bax, həyata keçirilən layihələr bunu təsdiqləyir. Qardaşlıq, dostluq əbədidir, əbədi olacaqdır. XXI əsr Türk dünyasının əsri olacaqdır. Türkiyə və Azərbaycan bu istiqamətdə liderlik rolunu öz üzərinə götürüb və əminəm ki, biz birgə səylərlə gələcəkdə də böyük uğurlara imza atacağıq."

XI FƏSİL
DÜNYA İQTİSADİ SİSTEMİ VƏ QLOBALLAŞMA

11.1. Dünya iqtisadiyyatı

Böyük iqtisadi ensiklopediya, 2012, cild 1, s.581-594 (Müəllif D.Ə.Vəliyev)

Dünya iqtisadiyyatı və ya ümumdünya təsərrüfatı – daim dinamikada, hərəkətdə olan, genişlənən əlaqələrə və müvafiq olaraq, mürəkkəb qarşılıqlı təsirə malik milli təsərrüfatların məcmusudur. Dünya iqtisadiyyatının çoxtərəfli problemlərinin öyrənilməsi və tədqiqi, müasir ümumdünya təsərrüfatının həm bütövlükdə, həm də ayrı-ayrı tərkib hissələrində və regionlarında baş verən proseslərin başa düşülməsində, inkişaf təmayüllərinin dərkində əvəzsiz nəzəri-metodoloji və praktik əhəmiyyətə malikdir.

Dünya iqtisadiyyatı-beynəlxalq iqtisadi münasibətlər (BİM) nəzəriyyəsinin öyrənilmə obyektidir. O, tədqiqat obyekti kimi ümumi siyasi-iqtisadi nəzəriyyə əsasında formalaşan elmi idrakın xüsusi bölməsidir. Beynəlxalq iqtisadi münasibətlər nəzəriyyəsində tədqiqat predmeti ümumi siyasi iqtisad nəzəriyyəsində olduğu kimidir: maddi nemətlərin istehsalı, bölgüsü, mübadiləsi və istehlakı ilə əlaqədar insanlararası münasibətlərdir. Dünya təsərrüfatının spesifik cəhəti ondan ibarətdir ki, vətəndaş cəmiyyətində qarşılıqlı münasibətlər, o cümlədən sosial təbəqələr arasında münasibətlər dövlət sərhədləri vasitəsilə həyata keçirilir və beynəlxalq iqtisadi münasibətlər şəklində özünü büruzə verir. Buradan da tarixi cəhətdən inkişaf etmiş kateqoriyalar və anlayışlara baxışın metodologiyasında fərq özünü göstərir. Bununla yanaşı, klassiklər beynəlxalq iqtisadi münasibətlər sahəsində fəaliyyət göstərən qanunların avtonom xarakterə malik olduğunu vurğulamışlar.

Ümumilikdə, bu münasibətlər və onların sıx qarşılıqlı təması ümumdünya təsərrüfatının yaranmasına və ya dünya iqtisadi münasibətlərinin formalaşmasına gətirib çıxarmışdır.

XIX əsrin ikinci yarısında məhsuldar qüvvələrin və milli təsərrüfat sistemlərinin inkişafı, onların qarşılıqlı əlaqəsində köklü dəyişikliklərə gətirib çıxardı. Qərbdə məhsuldar qüvvələrin inkişafı istehsalın beynəlmiləlləşməsi ilə baş verdi ki, bunun əsasını ayrı-ayrı ölkələrdə məhsul buraxılışı və müxtəlif ölkələr və ərazilərdə iqtisadi mübadilənin inkişafı təşkil edirdi. Bura, həmçinin yeni ərazilərə müstəmləkə və yarımmüstəmləkə hökmranlığının yayılması və onların hərtərəfli təkrar istehsal prosesinə zorla daxil edilməsi aid idi. Metropoliya və müstəmləkələr arasında daimi iqtisadi əlaqələr yaranırdı ki, bu da müstəmləkə istismarının təşkilatı formalarının dəyişməsinə

gətirib çıxardı. Sənaye kapitalı güclü ticarət şirkətlərinin imtiyazlarının tədricən ləğvinə nail oldu. Dövlət–metropoliyalar müstəmləkələri ciddi nəzarətdə saxlayırdılar.

Dünya bazarının yaranması - beynəlxalq əmək bölgüsü və onun beynəlxalq kooperasiyası dünya bazarının yaranmasının əsasını qoymuşdur. Dünya bazarı, tarixən daxili bazarların milli sərhədlər çərçivəsində genişlənməsi səbəbindən yaranmışdır. Ümumilikdə dünya bazarı (World Market) – ölkələrarası sabit əmtəə-pul münasibətləri sferası olub, əməyin, eləcə də digər istehsal amillərinin beynəlxalq bölgüsünə əsaslanmışdır.

Əmtəənin beynəlxalq hərəkətliliyi - dünya bazarının əsas xarici əlaməti əmtəə və xidmətlərin ölkələrarası hərəkətindən ibarətdir.

Beynəlxalq ticarət (international tarde)- beynəlxalq əmtəə-pul münasibətləri sferası olub bütün dünya ölkələrinin məcmu xarici ticarətini özündə əks etdirir. Məhz bu səbəbdən də bir çox ölkələrdə "beynəlxalq ticarət" deyil "xarici ticarət" terminindən istifadə edilir. Beynəlxalq ticarət anlamında nəinki əmtəələr, həmçinin xidmətlər də nəzərə alınır.

Dünya təsərrüfatının yaranması -dünya əmtəə bazarının inkişafı XIX-XX əsrin sonlarında beynəlxalq iqtisadi əlaqələrin intensivləşməsinə gətirmişdir ki, bu da tədricən ölkələrası əmtəə mübadiləsi çərçivəsini aşmışdır. Məhsuldar qüvvələrin və maliyyə kapitalının gücünün artımı, nəticədə dünya təsərrüfatının yaranmasına səbəb olmuşdur. Dünya bazarı mərhələsindən dünya təsərrüfatı mərhələsinə keçid zamanı, nəinki əmtəələrin, həmçinin istehsal amillərinin, ilk növbədə bütün kapitalın və iş qüvvəsinin mübadiləsi baş verir. Beləliklə, dünya təsərrüfatı, nəinki istehsal, həmçinin tədavül sferasına da təsir edir.

Dünya bazarı kimi, dünya təsərrüfatı da istehsal amillərindən və beynəlxalq əmək bölgüsündən ibarətdir. Dünya təsərrüfatının dünya bazarından fərqi ondadır ki, o yalnız əmtəənin beynəlxalq hərəkətliliyinin köməyi ilə deyil, eyni zamanda əmtəə istehsalının beynəlxalq hərəkətliliyi ilə də ehtiva olunur. Dünya təsərrüfatı dünya bazarının bütün parametrlərini özündə əks etdirir və onu istehsal amillərinin beynəlxalq mobilliyi ilə bağlı əhəmiyyətli xüsusiyyətlərlə tamamlayır, zənginləşdirir.

Dünya təsərrüfatının əsas xarakterik cəhətləri aşağıdakılardır:

-istehsal amillərinin beynəlxalq hərəkətliliyinin artması. Bu ilk növbədə gəlirlər, kapital, iş qüvvəsi və texnologiya formasında həyata keçirilir;

-müəssisələrdə istehsalın beynəlxalq normalar əsasında təşkili və artımı. Bu, əsasən,müxtəlif ölkələrdə transmilli korporasiyalar çərçivəsində mövcud olur;

-əmtəə və istehsal amillərinin beynəlxalq hərəkətinin dövlətin iqtisadi siyasəti vasitəsilə ikitərəfli və çoxtərəfli əsaslarla dəstəklənməsi;

-ölkədə və ölkələrarası birliklər çərçivəsində açıq iqtisadiyyatın yaradılması və s.

Dünya təsərrüfatının dövrlərə bölünməsi:

Dünya təsərrüfatının inkişafında bir sıra dövrləri qeyd edilir.

1. 1920-30-cü illər, dünya təsərrüfatı inkişafında böhranla səciyyələnir. Böhran, iqtisadi əlaqələrin qeyri-sabitliyi, qərb ölkələri təsarrüfatların dezinteqrasiyası şəkilində meydana çıxdı. Bu dövr birinci dünya müharibəsi və Rusiyada inqilab ilə başladı. 1913-1929-cü illər ərzində ümumi dünya məhsulu, yalnız 1,1 dəfə artmışdır.

2. Dünya təsərrüfatı inkişafının ikinci dövrü dünya kapitalist iqtisadiyyatında sahibkarlıq kapitalının intensiv çıxarılması şəraitində baş verirdi. Bu dövr ərzində dünya təsərrüfatının təşkilati-iqtisadi parametrlərinə əsas təsiri xarici istehsalın artımı göstərdi. TMŞ-lər istehsal əlaqələrində əsas qüvvəyə çevrildilər. Onlar məhsulun istehsalı, satışı, hesablaşmaları, kreditləşməsini birləşdirən beynəlxalq istehsal komplekslərini qurdular.

3. 20-ci əsrin son onilliyi dünya təsərrüfatının inkişafına yeni dövr kimi daxil oldu. Coğrafi məkanlardan istifadə etmə, beynəlxalq, bəzi hallarda isə planetar istehsal qüvvələrinin formalaşması səviyyəsi artdı, iqtisadi cəhətdən qarşılıqlı əlaqə və qarşılıqlı asılılıq gücləndi. Dünya təsərrüfatı vəhdətinin güclənməsi sosial-iqtisadi inkişafın yeni parametrləri ilə təmin edilir.

Dünya təsərrüfatı mexanizmi və onun tərkib hissələri.Dünya təsərrüfat sistemi sadə formada ifadə etsək, tərkib hissələrindən ibarət olan mexanizm kimi təsvir edilə bilər. Onun əsas hissələrini milli iqtisadiyyatlar, həmçinin transmilli koorporasiyalar, inteqrasiya birlikləri, beynəlxalq iqtisadi təşkilatlar təşkil edir.

Keçmişdə ölkənin xarici iqtisadi fəaliyyətilə, əsasən milli şirkətlər məşğul idilər ki, onlar üçün daxili bazar əsas idi. Son onilliklərdə onların əksəriyyəti, fəaliyyət sahəsi (ticarət, sənaye, maliyyə) bütün dünyanı əhatə edən transmilli şirkətlərə (TMŞ) çevrildilər. Nəticədə TMŞ-lər dünya təsərrüfatı mexanizminin mühüm hissəsinə çevrildilər. Təbiidir ki,onların maraqları, heç də, həmişə milli iqtisadi maraqlar ilə üst-üstə düşmür.

Bir çox qonşu ölkələrin iqisadiyyatları getdikcə daha çox birləşərək, regional inteqrasiya birlikləri yaradırlar. Bu cür təşkilatlar dünya təsərrüfatı mexanizminin əhəmiyyətli hissəsinə çevrildilər. Son illər ərzində beynəlxalq iqtisadi təşkilatlarında sayı kəskin artmışdır. Onlar ümumdünya təsərrüfatı mexanizminin mühüm müstəqil hissəsinə çevrilərək, beynəlxalq iqtisadi münasibətlərin tənzimlənməsində daha aktiv iştirak edirlər. Ayrı-ayrı ölkələrin iqtisadiyyatından ibarət olan dünya təsərrüfatı beynəlxalq səviyyədə daha açıq və geniş iqtisadi əməkdaşlığa yönəlmişdir.

Dünya iqtisadiyyatının bütün məsələlərini əhatə edən vahid nəzəriyyə mövcud deyildir. Lakin ümumdünya təsərrüfatının ayrı-ayrı aspektlərini təhlil

edən müxtəlif nəzəriyyə və konsepsiyalar mövcuddur. Həmin nəzəriyyə və konsepsiyalara iqtisadi nəzəriyyənin "beynəlxalq iqtisadiyyat" (beynəlxalq ticarət, kapitalın beynəlxalq hərəkəti və s.) adlanan bölməsinə aid olan nəzəriyyələr daxildir.

Dünya ölkələrinin iqtisadi əməkdaşlığının zəruri şərtləri. Ölkələr arasında iqtisadi əlaqələrin yaranması və inkişafının başlıca səbəbi dünya ölkələri arasında iqtisadi ehtiyatların (təbii, insan və investisiya resursları) qeyri-bərabər bölgüsüdür. Başqa sözlə, iqtisadi ehtiyatlarla təmin olunma və iqtisadi potensial baxımından ölkələr bir-birindən ciddi surətdə fərqlənirlər. Müxtəlif ölkələrin iqtisadi potensialı arasındakı fərq təbii ehtiyatların qeyri-bərabər bölgüsü ilə yanaşı, iri maşınlı sənayenin meydana gəlib inkişaf etməsi ilə daha da dərinləşdi. Bütün bunlar, bir tərəfdən, beynəlxalq əmək bölgüsünü getdikcə dərinləşdirir,digər tərəfdən isə istehsal amillərinin hərəkətini intensivləşdirir.

Beynəlxalq əmək bölgüsü - istehsal amillərinin qeyri-bərabər bölgüsü nəticəsində təsərrüfat subyektləri məhdud saylı məhsulların istehsalı üzrə ixtisaslaşırlar. İstehsal amillərinin beynəlxalq bölgüsü(international division of factors)-müxtəlif ölkələrdə ayrı-ayrı istehsal amillərinin uzun tarix dövr ərzində cəmlənməsidir. Məhz buna görə müəyyən əmtəələrin, bir ölkədə digər ölkəyə nəzərən iqtisadi baxımdan, daha səmərəli istehsal olunması ilkin şərt hesab olunur. Başqa sözlə, ölkələr ixtisaslaşan zaman məhsulların istehsalında yüksək məhsuldarlığa nail olurlar. Lakin özlərinin digər məhsullara olan ehtiyaclarını ödəmək üçün onlar istehsal etdikləri məhsulları digər məhsullara mübadilə etməyə məcbur olurlar. Əmək bölgüsü, əvvəlcə, ölkə daxilində meydana gəlir, sonra qonşu dövlətlərə yayılır və nəhayət, bütün dünyanı əhatə edir.

Beynəlxalq əmək bölgüsünün geniş şərhində müxtəlif insan fəaliyyəti növləri deyil, eyni zamanda onun sonrakı kooperasiyalaşması və istehsal məhsullarının mübadiləsinin nəzərdə tutulması mütləqdir.

Beynəlxalq əmək kooperasiyası (international cooperation of labor)-beynəlxalq əmək bölgüsünün ölkələrarası məhsul mübadiləsinin dayanıqlığına əsaslanmışdır. Bu zaman onlar tərəfindən istehsalın həyata keçirilməsi daha çox iqtisadi səmərəliliyə əsaslanır. Deməli, beynəlxalq əmək bölgüsü özünün mövcudluğu və inkişafı üçün əməyin beynəlxalq kooperasiyalaşdırılmasını tələb etmir, baxmayaraq ki, çox hallarda bu hadisə ona gətirib çıxarır. Eyni zamanda əməyin beynəlxalq kooperasiyası tam olaraq beynəlxalq əmək bölgüsünə əsaslanır və onsuz mövcud ola bilməz.

Dünya təsərrüfatı və istehsal amillərinin beynəlxalq hərəkəti. İstehsal amillərinin beynəlxalq hərəkəti, yalnız müxtəlif ölkələrdə həmin amillərə olan tələb və təklifdən deyil, həmçinin onların mobilliyindən, amillərin

hərəkəti yolunda olan manelərdən də asılıdır. İstehsal amillərinin beynəlxalq hərəkəti haqqında nəzəriyyələr həmin əsaslar üzərində yaradılmışdır.

Neoklassik beynəlxalq kapital hərəkəti nəzəriyyəsi klassik beynəlxalq ticarət nəzəriyyəsinə əsaslanır. Onun əsaslarından birini D.Rikardonun müqayisəli üstünlüklər nəzəriyyəsi təşkil edir. Həmin nəzəriyyəyə əsaslanaraq C.S.Mill XIX əsrdə dünyada ilk dəfə olaraq, ölkələr arasında kapital hərəkətinin nəzəri əsaslarını araşdırdı. D.Rikardodan sonra o göstərirdi ki, kapital ölkələr arasında mənfəət normasında olan fərqlə əlaqədar olaraq hərəkət edir. O, eyni zamanda göstərirdi ki, fərq o qədər yüksək olmalıdır ki, investorun əcnəbi ölkədəki riskini ödəmiş olsun. XIX əsrin sonları XX əsrin əvvələrində ingilis iqtisadçıları C.A.Qobson və C.Keyns və M.B.Seyin istehsal amilləri arasındakı nisbət konsepsiyasını beynəlxalq kapital hərəkətinəşamil etdilər. Beynəlxalq kapital hərəkətinin neoklassik nəzəriyyəsi qəti şəkildə XX əsrin ilk onilliyində E.Hekşer, B.Ohlin, R.Nurse və K.İverson tərəfindən formalaşdırıldı. Hekşer və Ohlin nəzəriyyəsində hər iki amil - əmək və kapital mobildir. Bu nəzəriyyəyə görə ölkələr arasında istehsal xərclərindəki nisbi fərqin əsasını istehsal amillərinin dünyada qeyri-bərabər bölgüsü təşkil edir. Hər bir ölkə müqayisəli üstunlüyə malik olduğu əmtəə istehsalı üzrə ixtisaslaşaraq, onu ixrac edir. Həmin nəzəriyyəyə görə xarici ticarət ölkələrin malik olduqları izafi amillərin qiymətini aşağı salaraq, ölkələr arasında istehsal amillərinin qiymətlərinin tənzimlənməsinə gətirib çıxarır.

Lakin beynəlxalq ticarətin sonrakı inkişafı qarşıya yeni-yeni suallar qoyurdu və Hekşer-Ohlin nəzəriyyəsində irəli sürülən fərziyyələrin real həyatda özünü tam göstərdiyini demək mümkün deyildir. İqtisadiyyat üzrə sonralar Nobel mükafatına layiq görülmüş, Amerikada mühacir həyatı sürən rus mənşəli V.V.Leontev Hekşer-Ohlin nəzəriyyəsinin nə dərəcədə real həyata uyğunluğunu 1947-ci ildə ABŞ misalında təhlil etmişdir. Təhlilin nəticələri kəskin elmi mübahisələrə yol açmış, lakin ümumiyyətlə, qəbul edilmiş və iqtisadi ədəbiyyata "Leontyev təzadı" (ziddiyyəti) adı altında daxil olmuşdur. O, göstərirdi ki,ABŞ zəngin kapital ehtiyatlarına malik bir ölkə hesab edilir. Belə olduqda nəzəriyyənin şərtlərinə görə bu ölkə kapital tutumlu malları ixrac etməli, əmək tutumlu malları isə idxal etməlidir. Leontyevin faktiki məlumatlara əsaslanan təhlili isə bu müddəanın tam əksini üzə çıxarmışdır. O sübut etmişdir ki, ABŞ əmək tutumlu malları ixrac edir, kapital tutumlu malları isə idxal edir. Lakin bu təzadın əsasında belə bir fakt dayanır ki, ABŞ-ın əməktutumlu əmtəə ixrac etmə görünüşü aldadıcıdır.

Beynəlxalq iqtisadi inteqrasiya. Keçən əsrin 80-90-cı illərində dünya iqtisadiyyatında kəmiyyət və keyfiyyət baxımından nəhəng dəyişikliklər baş verdi. Bir-birindən qarşılıqlı asılılığı durmadan artan müasir dünyanın əsas problemi müxtəlif səviyyəli strukturların qarşılıqlı əlaqə və qarşılıqlı təsiri

məsələsidir. Beynəlxalq inteqrasiya hərəkətləri dövrün ictimai inkişafının aparıcı istiqamətinə çevrilmişdir. Avropada başlayan beynəlxalq inteqrasiya hərəkətləri sonralar bütün dünyaya yayıldı.

İqtisadi inteqrasiya hərəkətlərinin nəzəri əsasları ən çox gömrük birlikləri nəzəriyyələri ilə C.Viner, C.E.Meade, N.T.Conson, V.Valassa, F.Q.Lipsey və başqaları tərəfindən araşdırılmışdır. Gömrük birlikləri nəzəriyyələrində bu birliklərin iqtisadi təsirlərinə xüsusi fikir verilmişdir

Ölkələr arasındakı iqtisadi əməkdaşlıq hərəkəti az saylı mallara qoyulan gömrük tariflərinin azaldılması və ya ləğv edilməsi addımından başlayaraq, iqtisadi birliklərin yaradılmasına qədər müxtəlif şəkillərdə özünü gostərir. İqtisadi birləşmə hərəkətlərində bəzən, yalnız, mal və xidmət axınları, bəzən isə buna əlavə olaraq istehsal amillərinin hərəkəti sərbəstləşdirilir. Bəzi iqtisadi birləşmə hərəkətlərində isə son nəticədə bütün bunlarla yanaşı pul, maliyyə və iqtisadi siyasət sahəsində də əməkdaşlıq edilir. Beynəlxalq iqtisadi inteqrasiya özünü əsas etibarilə dörd formada gostərir: a) azad ticarət zonaları; b) gömrük birlikləri; c) ümumi bazar və nəhayət; ç) iqtisadi birliklər.

Dünya dövlətlərinin əsas qrupları. Dünya iqtisadiyyatı çoxsaylı milli iqtisadiyyatlardan ibarətdir. Dünya iqtisadiyyatının və ümumdünya iqtisadi münasibətlərinin çoxsahəli və mürəkkəb suallar kompleksi iqtisadi münasibətlər nəzəriyyəsinin 3 səviyyədə tədqiqat obyekti olur: inkişaf etmiş ölkələr; inkişaf etməkdə olan ölkələr və keçid iqtisadiyyatı ölkələri.

İnkişaf etmiş ölkələr qrupuna bazar iqtisadiyyatına və yüksək sosial-iqtisadi inkişaf səviyyəsinə malik olan dövlətlər daxildir. Beynəlxalq Valyuta Fondu (BVF) inkişaf etmiş dövlətlər qrupuna Qərbi Avropa ölkələrinin hamısının, ABŞ və Kanadanın, Yaponiya, Avstraliya və Yeni Zelandiyanın, 1997–ci ildən isə Cənubi Koreya, Sinqapur, Honkonq, və Tayvanı (yəni Asiyanın yeni sənaye ölkələrini), habelə İsrail, Kipr aid edir. Həmin ölkələrə BMT Cənubi Afrika Respublikasını, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı isə öz üzvlərindən Macarıstan, Polşa, Slovakiya, Çexiya, Türkiyə və Meksikanı da daxil etmişdir. Beləliklə inkişaf etmiş ölkələr qrupuna dünyada ÜDM-in 56%-ini istehsal edən 30 ölkə daxildir. Onlarda dünya əhalisinin cəmi 16%-i yaşayır.

İnkişaf etməkdə olan ölkələr qrupuna bazar iqtisadiyyatına və aşağı sosial iqtisadi inkişaf səviyyəsinə malik olan ölkələr daxildir. BVF üzvü olan 184 ölkəsindən bu qrupa 123-ü aiddir. Bu ölkələrdə dünya əhalisinin 56% - i yaşadığı halda, dünya ÜDM – nin cəmisi 24% istehsal olunur.

Bu ölkələr qrupuna yeni sənaye ölkələri və ixracatçı ölkələr yarımqrupunu aid etmək olar. Bu qrupa həmçinin ən zəif inkişaf etmiş (47 ölkə) və böyük borc yükü olan kasıb ölkələr qrupu (31 ölkə) yarımqrupu da daxildir. Keçid ölkələri qrupuna inzibati amirlik sistemindən bazar

iqtisadiyyatına keçən ölkələr daxildir. Onlara Mərkəzi və Şərqi Avropanın 16 ölkəsi, MDB-yə daxil olan 12 keçmiş sovet respublikaları və 3 Asiya ölkələri – Monqolustan, Çin və Vyetnam aiddir. Bu yarımqrupda dünya əhalisinin 28%-i yaşayır və dünya ÜDM-nin 20%-ni istehsal edilir. Bu qrup ölkələrin əsas məqsədi inkişaf etmiş ölkələrdə olduğu kimi müasir bazar iqtisadiyyatını yaratmaqdır.

Dünya ölkələri arasında sosial – iqtisadi inkişaf səviyyəsində böyük fərq müasir dövrdə daha da artmış və dünya inkişaf etmiş və zəif inkişaf etmiş ölkələr qrupuna bölünmüşdür.

Müasir dünya iqtisadiyyatının potensialı. Milli iqtisadiyyatlar və bütövlükdə dünya təsərrüfatı iqtisadiyyatının fəaliyyəti iqtisadi ehtiyatlara (istehsal amillərini) – təbii, əmək, kapital, sahibkarlıq, habelə, elmi potensiala əsaslanır. İqtisadi ehtiyatların məcmusu milli iqtisadiyyatların, yaxud region dövlətlərinin və bütövlükdə dünya iqtisadiyyatının potensialını təşkil edir. Dünya təsərrüfatının təbii – ehtiyat potensialı çoxtərəflidir.Buraya enerji, torpaq, su, meşə, biologiya və iqlim resursları aid edilir. Təbii ehtiyatlar iqtisadiyyatın inkişafının zəruri şərtidir. Elmi-texniki tərəqqinin nailiyyətləri təbii ehtiyat amillərinin rolunun zəifləməsinə gətirib çıxarmışdır. Məsələn, son onilliklərdə faydalı qazıntıları olmayan Yaponiya, Cənubi Koreyavə Sinqapur kimi ölkələr daha sürətlə inkişaf etmişdir. Bununla yanaşı, təbii ehtiyatlar ölkələrə böyük üstünlüklər verir. Yalnız onlardan daha səmərəli istifadə etmək tələb olunur.

Qloballaşma və dünya iqtisadiyyatı. XXI əsr tarixə dünya iqtisadiyyatını keyfiyyətcə yeni bir mərhələyə yüksəldən qloballaşma əsri kimi daxil olmuşdur. Qlobal proseslər inkişaf səviyyələrində, din və mədəniyyətlərində, tarixi ənənələrində mövcud olan fərqlərə baxmarayaq, dünya ölkələrinin və xalqlarının bir-birindən qarşılıqlı asılılığını getdikcə artırır. Bu proseslər xalqların və bütövlükdə sivilizasiyanın taleyini həlledici dərəcədə müəyyən etməyə başlamışdır

Mürəkkəb və ziddiyyətli qloballaşma (ingiliscə - global - ümümdünya) proseslərinin dərinləşməsi bəşəriyyətin ictimai və iqtisadi inkişafında yeni mərhələ yaratmış və meqa-cəmiyyət adlanan ümumbəşəri cəmiyyətin formalaşmasına yol açmışdır.

Proseslərin mahiyyətini düzgün dərk etmək üçün «qlobal iqtisadiyyatı» «dünya iqtisadiyyatından» fərqləndirmək lazımdır. F.Brodel və U.Uollerşteyn «dünya iqtisadiyyatı» dedikdə dünya miqyasında kapital yığımını başa düşürlər. Bu proses isə Qərbdə XVI əsrdən başlanmışdır. Manuel Kastels hesab edir ki, qlobal iqtisadiyyat - bütün planet miqyasında real zamanda vahid sistem kimi işləməyə qadir olan iqtisadiyyatdır. Kapitalist istehsal üsulu zaman və məkanın sərhədlərini aşmağa çalışaraq, durmadan inkişaf etmişdir. Dünya iqtisadiyyatı ancaq XX əsrin sonunda informasiya və kommunikasiya

texnologiyasına əsaslanan yeni infrastruktur əsasında əsl qlobal iqtisadiyyata çevrildi.

Lakin 90-cı illərdə qloballaşmanın sürətlə inkişaf etdiyi bir şəraitdə maliyyə böhranları dünya iqtisadiyyatı üçün ciddi təhlükəyə çevrildi. Belə böhranlar Şərqi və Cənubi-Şərqi Asiya, Latın Amerikası ölkələrində və Rusiyada özünü göstərdi. Fond bazarlarının çökməsi, bankların və firmaların kütləvi şəkildə iflası, valyutaların devalvasiyası, inflyasiyanın güclənməsində ifadə olunan həmin böhranlar həm daxili, həm də xarici amillərin nəticəsi idilər. Ancaq onların miqyası və formaları onu göstərirdi ki, həmin böhranların meydana gəlməsində və inkişafında beynəlxalq borclar, kapital və maliyyənin beynəlxalq hərəkətinin nəhəngliyi, ticarət və maliyyə axınlarının liberallaşdırılması ciddi rol oynayır.

Beynəlxalq əmək bölgüsünün obyektiv olaraq dərinləşməsi prosesi milli iqtisadiyyatların bir-birinə açılmasını tələb edir. Bunun nəticəsində, dövlətlər həm milli təsərrüfat subyektlərinin xaricdə, həm də qeyri-rezidentlərin ölkə daxilində ticarət-iqtisadi əlaqələri üzərində özünün inhisarçı nəzarətindən məhrum olmuşlar. Sahibkarların xarici bazarlarda uğurlu fəaliyyətinin əsas şərti onların yüksək rəqabət qabiliyyətinə malik olmasıdır. Ona görə də belə açıqlıq dərəcəsindən ilk növbədə TMŞ-lər istifadə edirlər. Beynəlxalq maliyyə kapitalının həmin çoxistiqamətli şirkətləri milli "oyunçulara" nisbətən rəqabət mübarizəsində adətən həmişə qalib çıxırlar. Qloballaşmanın özünü daha çox göstərdiyi maliyyə sahəsində onların qalib vəziyyəti daha aydın şəkildə görünür. Belə ki, dünya maliyyə bazarlarında və fond birjalarında pul kapitalının və qiymətli kağızların təmərküzləşməsi nəticəsində nəhəng miqdarda fiktiv kapital toplanmışdır. Müəyyən hallarda belə təmayüllər olduqca təhlükəlidir. Qiymətli kağızlarla aparılan möhtəkirlik, onların real maddi dəyərlərdən ayrı mövcud olması, şirkətlərin və sahibkarların real vəziyyətinə təsir göstərməyən səhm alqı-satqıları menecerlərə imkan verir ki, onlar öz şirkətlərində mövcud olan əsl vəziyyəti ört-basdır etsinlər.

Azərbaycan dünya iqtisadiyyatı sistemində. Əsrin son onilliyində SSRİ-nin dağılması ilə dünyanın yeni siyasi xəritəsində özünə layiqli yer tutmuş müstəqil Azərbaycan dünya birliyinin bərabərhüquqlu üzvü olmuşdur. Kəskin mübarizə şəraitində əldə edilmiş siyasi müstəqillik ölkənin sovet dövründə 70 il ərzində yığılıb qalmış ciddi siyasi, iqtisadi və sosial problemlərinin həlli yolunda geniş perspektivlər açmışdır. Sovet «dəmir pərdələri» ilə uzun illər boyu dünya birliyindən siyasi və iqtisadi cəhətdən təcrid olunmuş Azərbaycanda açıq cəmiyyət yaradılması, dünya dövlətləri ilə bərabərhüquqlu hərtərəfli əlaqələrin inkişaf etdirilməsi ölkəmizdə mövcud olan sosial-iqtisadi problemlərin həlli yolunda, sözün əsl mənasında, açar rolunu oynayır.

İqtisadi və ictimai həyatın beynəlmiləlləşməsi, Azərbaycanın mürəkkəb şərtlər altında gedən müasir dünya ilə inteqrasiyasının bütün istiqamətləri üzrə yeni imkanlar yaratmaqla yanaşı, yeni problemlər, bəzən də təhlükələr yaratmaqdadır. Bu imkanlardan səmərəli istifadə edilməsi, mövcud problem və təhlükələrin vaxtında aşkara çıxarılması bu gün Azərbaycan üçün həyati əhəmiyyət kəsb edən məsələlərdəndir.

Azərbaycan dövlətinin iqtisadi siyasətinin ən mühüm istiqamətlərindən biri Azərbaycanın dünya iqtisadi sisteminə inteqrasiyasının sürətləndirilməsi, ticarət əlaqələrinin genişləndirilməsi sahəsində görülən genişmiqyaslı tədbirlərdir. Hazırda Azərbaycan dünyanın 140-a yaxın ölkəsi ilə qarşılıqlı ticarət əməliyyatları aparır. Xarici ticarət dövriyyəsi, ixrac və idxal əməliyyatlarının həcmi ildən-ilə artır. Qlobal əhəmiyyətli iqtisadi layihələr olan TRACECA, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft-qaz boru kəmərlərinin reallaşması və Bakı-Tbilisi-Qars dəmir yol xəttinin tikilməyə başlaması, "Şahdəniz" qaz yatağının işə düşməsi ölkəmizin nüfuzunu bütün dünyada artırır.

Azərbaycan dövlətinin fəaliyyətinin başlıca xəttini olduqca mürəkkəb olan qlobal dünyada ölkənin iqtisadi təhlükəsizliyinin, ərzaq və enerji təhlükəsizliyinin təmin olunmasıdır. Məhz bunun nəticəsidir ki, Azərbaycan Respublikası bütün dünyada və xüsusən regionda heç bir qüvvədən asılı olmayan müstəqil siyasət yeridir, heç bir xarici təsirlərə boyun əymir.

11.2. Qlobal iqtisadi inteqrasiya proseslərinin nəzəri əsasları

İpək yolu , 2008, №1

Qloballaşma dövründə təsərrüfat həyatının beynəlmiləlləşməsi və inteqrasiya prosesləri daha əhatəli mahiyyət almağa başlamışdır. Amerikan iqtisadçısı Martin Şounun qeyd etdiyi kimi: "Yaşadığımız dövrün əsas tarixi dəyişikliyini başa düşmək bizim iqtisadi, mədəni və siyasi transformasiyalar arasındakı, eləcə də bazarlar, dövlət institutları və sosial hərəkatlar arasındakı əlaqəni başa düşməyimizlə bağlıdır.

Qloballaşma iqtisadi və mədəni proseslə eyniləşdirildiyi müddətdə daha geniş mənada qlobal dəyişiklik daha siyasi xarakter daşıyır. Qlobal siyasət demokratik plüralizm, environmentalizm (ətraf mühiti qorumaq), gender siyasəti və antirasizmin artmasında və hətta onların milliliklə qloballığın münasibətlərini tez-tez qarışdıran konkret formalarında (məsələn, onların çoxu antiqloballaşma ideyası iləəlaqəlidir) görünə bilər. Qlobal siyasət dövlət sistemindəki transformasiyalar, xüsusilə gücün dominant Qərb sistemindən əldə edilən qlobal dövlətin formalaşmasına istiqamətlənən tendensiya ilə də ziddiyyətə malikdir" (1, s. 31).

Digər Amerikan iqtisadçıları P.Kruqman və M. Obstfeld isə haqlı olaraq

göstərirlər ki, "Beynəlxalq iqtisadiyyat nəzəriyyələrinin təməl problemi nə etmək lazım olduğu haqqında hansısa dünya dövlətinin müdaxiləsi olmadan müxtəlif ölkələrin xarici ticarət və valyuta siyasətində harmoniya yaradılmasından ibarətdir" (2, s. 6).

İnformasiyaya əsaslanan istehsal və rəqabətin beynəlxalq əmək bölgüsü sistemində formalaşan qloballaşma ölkələrarası asılılıq, regionallaşma və hər bir regionda diversifikasiyanın durmadan artması ilə xarakterizə edilir, tarixən formalaşmış iqtisadi coğrafiyanın dəyişdirilməsinə doğru aparır (3. s. 119)

Hər bir ölkədə geniş təkrar istehsalı prosesinin mühüm amillərindən biri olan beynəlxalq əmək bölgüsü (BƏB) milli iqtisadiyatla qlobal iqtisadiyatın qarşılıqlı əlaqəsini şərtləndirir, zəruri beynalxalq iqtisadi proporsiyaları formalaşdırır və inkişaf etdirir.

Təbii sərvətlərin milli dövlətlər arasında qeyri-bərabər bölgüsü BƏB-in mövcudluğunu şərtləndirir və hər bir ölkə ərazisində milli iqtisadiyyatın formalaşmasının əsasını təşkil edir. Lakin qloballaşma dövründə baş verən informasiya və texnologiya inqilabları təbii şəraitin və təbii sərvətlərin həlledici rolunu ikinci plana keçirir. Müasir dövrdə hər bir ölkədə sosial-iqtisadi tərəqqi informasiya və texnologiya sahəsində durmadan baş verən dəyişikliklərdən necə və nə dərəcədə istifadə olunmasından asılıdır.

Ölkələr arasında qarşılıqlı əlaqələr də BƏB sahəsində özünü göstərən təmayüllər nəzərə alınmaqla həyata keçirilməlidir. Qloballaşma prosesləri sənaye ölkələrində iri maşınlı sənayenin inkişafının daha da sürətlənməsi ilə nəticələnir. Bu isə istehsalın miqyasını əvvələr görünməmiş dərəcədə artırmaqla onların satışı və xammal mənbələri uğrunda dünya bazarlarında gedən mübarizəni olduqca kəskinləşdirir. Amerikan iqtisadçısı Fillip C. Kerninin göstərdiyi kimi : "Bu gün bizim son bir əsr yarımda tanıdığımız dövlətlər onların funksiyalarını, rollarını və fəaliyyətlərini ciddi şəkildə dəyişdirən və məhdudlaşdıran güc sistemlərinin yenidən qurulmasına nail olurlar" (1, s. 115). Digər tərəfdən isə İEOÖ-lərin elmi-texniki nailiyyətlərdən istifadə etmə zərurəti də durmadan artır.

Qloballaşma da, əslində bu ehtiyacların təsiri altında yaranmış və inkişaf edir. Beynəlxalq əmək bölgüsü dərinləşdikcə kapital və maliyyənin, işçi qüvvəsinin beynəlxalq hərəkəti genişlənir.

Qərbin aparıcı tədqiqatçılarının BƏB-nün modernləşdirilməsi sahəsindəki görüşlərini iki qrupa bölmək olar:

1. ölkələrin qarşılıqlı asılılığının müxtəlif variantları;
2. mövcud BƏB modelinin yenidən qurulmasına yönəlmiş tövsiyələr.

Xarici asılılıq nəzəriyyəsi 20-ci illərdə "üçüncü dünya" ölkələrində populyarlıq qazanmağa başlamışdır (4. 588. 89)

Sözügedən nəzəriyyəyə əsasən, zəif inkişaf etmiş ölkələr varlı İEÖ tərəfindən istismar olunur və ölkələrin yoxsulluğu onların dünya iqtisadiyyatına

necə inteqrasiya olunmasından asılıdır. Nəzəriyyəyə görə, gələcək inkişafın təmin olunmasında zəif inkişaf etmiş ölkələr üzərindəki müstəmləkəçiliyin təsirləri nəzərə alınmalıdır. Sözügedən nəzəriyyə qeyd edir ki:

- Kasıb ölkələr varlı ölkələr üçün təbii resurslar, ucuz işçi qüvvəsi və onların texnologiyaları üçün bazar rolunu oynayır.
- İEÖ müxtəlif siyasət və təşəbbüslər vasitəsilə kasıb ölkələri özlərindən asılı vəziyyətə salırlar.
- Asılı ölkələr İEÖ-in təsirlərinə müqavimət göstərdikdə isə varlı ölkələr tərəfindən onlara tətbiq edilən iqtisadi sanksiyalarla, hərbi təcavüzlə və güclü nəzarətlə üzləşirlər.

Bu nəzəriyyə ilk dəfə P.Baranın əsərində öz əksini tapmışdır. O qeyd edirdi ki, qərbin İEÖ əslində İEOÖ-in yoxsulluqdan azad olmasına mane olur. Baran həmçinin vurğulayır ki, İEOÖ əldə etdikləri mənfəətləri iqtisadi artıma səbəb olacaq sərmayə qoyuluşlarına yatırmırlar. Baranın nəzəriyyəsini təkmilləşdirən A.Frank qeyd edirdi ki, Qərbin burjuaları İEOÖ-in inkişafını ləngitməklə öz hazır malları üçün bazar və zavodları üçün isə ucuz xammal təchizatını təmin edirlər. Bu yolla da İEOÖ İEÖ-dən asılı vəziyyətə düşürlər. Kapitalist ölkələrdə üçüncü dünya ölkələrinin dominant təbəqələri ilə alyans yaradaraq həmin ölkələrin inkişafına mane olmuşdur. Kapitalist ölkələrdən asılı olan üçüncü dünya ölkələrinin dominant təbəqələri Qərb ölkələrinə xammal ixrac etməklə gəlir əldə edir və birinci dünya ölkələrindən bahalı mallar idxal edirlər. Sözügedən nəzəriyyə ölkələri 2 müxtəlif inkişaf kateqoriyaya - mərkəz və periferiyaya bölmüşdür. Mərkəzə inkişaf etmiş və müstəmləkəçi dövlətləri, periferiyaya isə inkişaf etməkdə olan və müstəmləkə dövlətləri daxildir. Mərkəz periferiyanı istismar edir və müstəmləkəçilik nəticəsində inkişafını təmin etmiş olur.

Bu nəzəriyyəyə görə, Qərbin şirkətləri İEOÖ-in bazarlarına girməyə, oradakı ucuz işçi qüvvəsindən istifadə etməyə can atır, kapital tutumlu və ekoloji cəhətdən zərərli zavodları bu ölkələrə köçürür. Lakin həmin ölkələrə özlərinin tədqiqat və inkişaf potensialını ixrac etmirlər. Nəticədə, üçüncü dünya ölkələrinin sənayeləri "ikinci nəsil" texnologiyalara əsaslanır, xaricdən gətirilən xammal istifadə edən əcnəbilərə məxsus olur, az sayda iş yerləri açılır və ölkə iqtisadiyyatında fəaliyyət göstərən digər istehsalçılar ilə az bağlılıq yaranır. Eyni zamanda, üçüncü dünya ölkələrinin xarici valyuta ehtiyatları azalır, çünki xarici şirkətlər öz mənfəətlərini ölkələrinə göndərirlər. Bununla əlaqədar olaraq, üçüncü dünya ölkələri xarici valyuta əldə etmək üçün daha çox xammal ixrac etməyə məcbur olurlar. Buna görə, üçüncü dünya ölkələrinin iqtisadiyyatlarının sağlamlığı inkişaf etmiş ölkələrə xammal ixrac etməkdən asılı olacaqdır. Bununla yanaşı, iş yerləri açılmadığından həmin ölkələrin əhalisi bu artımın yalnız kiçik faydasını görəcəklər. Ona görə də üçüncü dünya ölkələrində baş verən hər hansı iqtisadi inkişaf müəyyən

sosial inkişafa gətirib çıxaracaqdır. Lakin yenə də birinci dünya ölkələrinin iqtisadiyyatlarının inkişafı ilə müəyyən olunacaqdır. Elə bu səbəbdən də sözügedən nəzəriyyənin nümayəndələri qeyd edirdilər ki, İEOÖ öz davamlı inkişaflarını İEÖ-dən asılı olmaqla təmin edə bilməzlər. Bununla əlaqədar olaraq, üçüncü dünya ölkələrinin müstəqil milli inkişaf strategiyasına ehtiyacları vardır. Həmin ölkələr birinci dünya ölkələrindən asılı olaraq inkişaf etməməli, iqtisadi cəhətdən öz tələblərini təmin edə bilməlidirlər.

Qeyd olunmalıdır ki, bütün dünya ölkələri bu və ya digər dərəcədə bir-birlərindən asılıdırlar. Həmçinin, hər bir ölkə özünün iqtisadi inkişafını təmin etmək üçün digər ölkələrlə iqtisadi və ticarət əlaqələri qurur. Qloballaşma şəraitinin bütün dünya ölkələri qarşılıqlı sürətdə bir-birilərindən asılıdırlar və özlərinin iqtisadi inkişafını təmin etmək məqsədilə öz səylərini əsirgəmirlər.

ABŞ iqtisadçısı R.Kuper qarşılıqlı asılılıq problemini müxtəlif nöqteyi nəzərdən araşdırır. Onun fikrinə görə, dörd növ qarşılıqlı asılılıq mövcuddur:

1. Struktur asılılığı. Ölkələr bir-biri ilə o qədər qarşılıqlı asılılıq vəziyyətindədirlər ki, hər hansı bir ölkənin iqtisadiyyatında baş verən əhəmiyyətli dəyişiklik dərhal digər ölkələrdə əks-səda doğurur;
2. İqtisadi siyasət sahəsində qarşıya qoyulan məqsədlərin qarşılıqlı asılılığı;
3. İqtisadi inkişafın xarici amillərinin qarşılıqlı asılığı;
4. Siyasi cəhətdən qarşılıqlı asılılıq həmin nəzəriyyə öz reallığı ilə fərqlənir (5, 551).

Göstərilən nəzəriyyələr qloballaşma dövründə BƏB sisteminin modernləşdirilməsi sahəsində digər nəzəriyyələrin meydana çıxmasına şərait yaratmışlar.

BƏB modernləşdirilməsi və milli dövlətlərin bu prosesə uyğunlaşması ideyalarının əsas məzmunu ondan ibarətdir ki, İEOÖ himayəçilik siyasətindən imtina etməlidirlər və xarici kapitalın ölkəyə daha çox daxil olması üçün şərait yaratmalıdırlar. İEOÖ-in çoxu həmin nəzəriyyələrin işığında "açıq qapı" siyasətini həyata keçirir, müştərək müəssisələrin, azad iqtisadi zonaların yaradılmasını sürətləndirirlər.

Bu sahədə Cənubi-Şərqi Asiya və Latın Amerikası ölkələri xeyli nailiyyətlər əldə etmişlər. Bununla yanaşı, onlar himayəçilik siyasətindən də tam imtina etməyiblər. Onlar himayəçilik rejiminin yumşaldılması siyasətinin İEÖ tərəfindən də həyata keçirilməsini tələb edirlər.

Qloballaşma dövründə BƏB sisteminin modernləşdirilməsi ideyasının əsas məzmununu İEOÖ-lərin sənayeləşmə siyasətinin sahə strukturunun yeni istiqamətlərinin müəyyən edilməsi təşkil edir. Onlara təklif olunur ki, İEÖ-in ehtiyaclarını ödəmək üçün əməktutumlu, materialtutumlu, standartlaşdırılmış məhsul və məmulatların istehsalına üstünlük versinlər. Həmin məhsulların ixracı hər vasitə ilə stimullaşdırılsın.İEÖ isə yüksək ixtisaslı işçi qüvvəsi tələb

olunan elmi-texniki tərəqqinin özünü çox göstərdiyi sahələrin inkişafına üstünlük verməlidirlər (5, 51-52).

80-cı illərdə ABŞ, Kanada, Böyük Britaniya və AFR-da konservativ hökümətlərin hakimiyyətə gəlməsi iqtisadi nəzəriyyədə və siyasətdə neoklassik əksinqilab ilə nəticələndi. Onlar İEÖ-lərdə məcmu təklifin stimullaşdırılmasına və dövlət müəssisələrinin özəlləşdirilməsinə üstünlük verdilər. Həmin nəzəriyyənin tərəfdarları üçüncü dünya ölkələrində iqtisadiyyata dövlət müdaxilələrinin ixtisar olunması ideyasını irəli sürdülər. Həmin ideyalar aparıcı beynəlxalq iqtisadi təşkilatlar olan BVF və Dünya bankı tərəfindən qəbul olundu.Ona görə də azad bazar ideyalarını əsas götürən neoklassik məktəbin nümayəndələri asılılıq nəzəriyəsinin tərəfdarlarına qalib gəldilər. Onlar hesab edirdilər ki, bazarlara sərbəstlik verməklə, dövlət müəssisələrini özəlləşdiməklə, ixracatın qarşısındakı maneləri götürməklə və xarici kapitalı cəlb etməklə iqtisadi inkişafı sürətləndirmək mümkündür.

Asılılıq nəzəriyyəsi tərəfdarlarından fərqli olaraq neoklassiklər hesab edirdilər ki, üçüncü dünya ölkələri öz inkişafında İEÖ-lərin irticaçı siyasətlərinə görə deyil, iqtisadiyyata dövlət müdaxilələrinin yüksək olmasına görə geri qalırlar.

Neoklassik nəzəriyyənin nümayəndələrindən biri olan P.Bauer qeyd edirdi ki, üçüncü dünya ölkələrinin əhalisi, xüsusən də kənd yerlərində yaşayanlar bazar rasionallığının qaydalarına əməl etmirlər. Bauer hesab edir ki, dövlət yox, fərdlər iqtisadiyyatın sahibkarlığını təmin etməlidirlər. Bu nəzəriyyənin digər nümayəndəsi T.Şults isə qeyd edirdi ki, kəndli fermerlər fermalarında çox az vaxt və kapital işlədirlər. Bunun səbəbi isə dövlət siyasətinin həmin fermerlərin bir sahibkar kimi formalaşmasına göstərdiyi mənfi təsirlə bağlıdır. Belə ki, dövlət siyasəti ya həmin fermerləri kapitaldan məhrum edir, ya da kənd təsərrüfatındakı qazancları çox aşağı endirir.

Bu nəzəriyyənin digər nümayəndələri C.Bhaqvatı, V.Ramasvami, H.Conson, B.Balassa, E.Kruqer və V.Korden əsas diqqəti proteksionizmin itkilərinə və valyutanın həddən artıq yüksək qiymətləndirilməsinə yönəltmişlər (198, 590). Onlar hesab edirdi ki, üçüncü dünya ölkələri bazara və özəl təşəbbüsçülüyə sərbəstlik verməklə ehtiyatların səmərəli bölgüsünü və sürətli inkişafı təmin edə bilərlər.Buna misal olaraq, Cənub-Şərqi Asiya ölkələri göstərilir (4, 5. 93-94). Lakin üçüncü dünya ölkələrinin təcrübəsi göstərdi ki, neoklassik nəzəriyyələr uzun müddətli perspektivdə özünü heç də həmişə doğrultmur. Xüsusən, keçid iqtisadiyyatı ölkələrində sosial-iqtisadi proseslərin tənzimlənməsində bazar mexanizminə birmənalı şəkildə üstünlük verilməsi və dövlət tənzimləmələrinin rolunun zəiflədilməsi həmin ölkələrdə mövcud problemlərin üzunmüddətli perspektivdə həllini sürətləndirə bilməz. Amerikan tədqiqatçısı Manuel Kastelsin fikrinə görə, qlobal proseslər dərinləşdikcə rəqabət mübarizəsi dünyanın iqtisadi mərkəzləri, regionları və ölkələri

arasında getdikcə kəskinləşir, BƏB sisteminin strukturunda ciddi dəyişikliklər baş verir (3. 5. 153-154). Yeni BƏB anlayışı qlobal iqtisadiyyatda dörd əsas istehsalçılar qrupunun mövqeni əks etdirir: ixtisaslı əməyə əsaslanan yüksək dəyər istehsalçıları; az əmək haqqı ödəmələrinə əsaslanan miqdarca böyük həcmdə məhsul istehsalçıları; təbii ehtiyatlara əsaslanan xammal istehsalçıları; qiymətdən düşmüş məhsul istehsalçıları. Lakin həmin müxtəlif növ əmək bölgüsü ölkə bölgüsü ilə uyğun gəlmir. Onlar qlobal iqtisadiyyatın informasiya infrastrukturundan istifadə edilməklə şəbəkə və axınlar şəklində təşkil olunurlar. Coğrafi cəhətdən onlar planetin bir sıra regionlarında təmərküzləşir və qlobal iqtisadiyyata differensial xarakter verirlər. Lakin yeni BƏB ölkələr arasında deyil, yuxarıda göstərilən dörd əmək növü şəklində qlobal iqtisadiyyatda şəbəkə və axınlar şəklində yerləşdirilmiş iqtisadi agentlər arasında baş verir. Həmin dörd mövqe bütün ölkələrdə mövcuddur və onlar öz reallığı və məqsədləri baxımından qlobaldırlar. Hətta ən marjinal iqtisadiyyatda belə, az da olsa, yüksək dəyər istehsalçıları mövcuddur və əksinə, ən qüdrətli iqtisadiyyatda da, marjinal seqmentlər mövcuddur (Məs. Nyu-York, Osaka, London və yaxud Madriddə).

BƏB-də mövqe, prinsip etibarilə, ölkənin xarakterindən deyil, onun əmək ehtiyatlarının xüsusiyyətlərindən, bilik səviyyəsindən və onun qlobal iqtisadiyyata daxil olma dərəcəsindən asılı olduğu üçün dəyişikliklər qısa tarixi dövr ərzində baş verə bilər. Bu prosesdə hökümətlərin və biznes strukturlarının fəaliyyəti həlledici rol oynayır. Yeni beynəlxalq əmək bölgüsü, əmək ehtiyatları və texnologiya bazası əsasında formalaşır və hökümətlər və sahibkarların fəaliyyəti ilə istiqamətlənir.

Beləliklə, qloballaşmanın əsas problem sahəsi qloballaşmanın mürəkkəb proseslərinin necə dəyişməsi və necə paylaşdırılmasından ibarətdir. Faktiki olaraq biz soruşuruq ki, Polanyinin böyük transformasiyası erasında reallaşan əsas struktur şəbəkələri indi fundamental şəkildə dəyişirmi və ya (və necə) qloballaşma prosesində hər hansı böyük transformasiya "dövlətdə öz-özünə baş verəcəkmi?" Beləliklə, müasir iqtisadi proseslər diqqətlə nəzərdən keçirildikdə aydın olur ki, yeni informasiya iqtisadiyyatı qlobal miqyasda fəaliyyət göstərir. Lakin bunu şübhə altına alanlar da vardır. Məsələn, Stiven Koen hesab edir ki, beynəlxalq iqtisadiyyat hələlik qlobal deyildir. Belə ki, bazarlar hətta strateji əhəmiyyətli sənaye sahələri və nəhəng firmalar üçün hələlik tam şəkildə inteqrasiya olunmamışdır; maliyyə axınları valyuta və bank əməliyyatlarının həyata keçirilməsi sahəsindəki qaydalarla məhdudlaşdırılmışdır; immiqrasiya nəzarəti nəticəsində əməyin mobilliyi azaldılır (3, s. 109). Lakin nəzərə almaq lazımdır ki, qloballaşma təmayülləri hələlik tam reallaşmamışdır. İstehsalın beynəlmiləlləşməsi sahəsində nail olunmuş səviyyə baxımından inteqrasiya birləşmələri formal və real xarakter daşıyır. Formal inteqrasiya istehsalın elə beynəlxalq ictimailəşməsini nəzərdə tutur ki, onun

əsasında ölkələr arasında iqtisadi əlaqələr BƏB prinsipləri əsasında qarşılıqlı əlaqədar olan ölkələrdə istehsalın inkişaf səviyyəsinin müvafiq parametrləri ilə şərtləndirilməmişdir. İstehsalın beynəlxalq ictimailəşməsi inkişaf edə bilər, amma onun iştirakçıları son nəticəyə təsir edən müxtəlif iqtisadi şəraitdə ola bilərlər. Real iqtisadi inteqrasiya isə istehsalın ictimailəşməsinin elə bir səviyyəsi deməkdir ki, bu zaman iştirakçı ölkələrin əsas sosial-iqtisadi parametrləri nəzərə alınır, təşkilatlanma prosesləri həyata keçirilir.

Ədəbiyyat:

6. Qlobal siyasi iqtisadiyyat. Müasir nəzəriyyələr. Bakı, "Poutleqde" nəşriyyatı, 2003, s. 271

7. Кругмен П.Р., Обстфельд М. Международная экономика. Теория и практика. М., Юнити, с. 769.

8. Мануэль Кастельс. Информационная эпоха. Экономика, общество и культура. М., ГУ ВШЭ, 2000, с. 607.

9. Микаель Н. Тодоро. Экономическое развитие.-Москва, Экономический факультет МГУ, ЮНИТИ, 1997, с. 667.

10. Авдошкун. Международные экономические отношения. М., Юрист, 1999, с. 366.

Резюме

Теоретическое основы глобальных экономических интеграционных процессов

В статье анализируются современные взгляды известных ученных об экономических интеграционных процессах. Отмечается что в условиях глобализации интернационализация хозяйственной жизни иинтеграционные процессы приобретает более всеобъемлющий характер.

11.3. Qloballaşma və vahid iqtisadi məkanın formalaşması

Fəlsəfə və sosial-siyasi elmlər, 2004, N 4.

XX əsrin sonunda "sosializm lagerinin" süqutundan sonra bazar iqtisadiyyatı, siyasi demokratiya, ideya plüralizmi, "açıq cəmiyyət" və "açıq iqtisadi inkişaf modeli" ümumibəşəri xarakter alaraq cəmiyyətin irəliyə doğru hərəkətinin aparıcı istiqamətinə çevrildi.

İnformasiya texnologiyalarında baş verən inqilab cəmiyyətin maddi əsasını köklü sürətdə yenidən quraraq, bəşəriyyətin sosial mənzərəsini keyfiyyətcə yeni səviyyəyə yüksəltdi.

Hələ 1960-cı ildə Amerikan iqtisadçısı Uolt Rostou cəmiyyətin iqtisadi inkişaf mərhələlərini aşağıdakı kimi müəyyən etmişdi: 1) ənənəvi cəmiyyət; 2) yüksəliş üçün şəraitin yaradılması; 3) yüksəliş (sıçrayış); 4) kamilliyə doğru irəliləyişi; 5) yüksək kütləvi istehlak əsri. Fransız sosioloqu Raymon Aron bəşəriyyətin getdikcə yeni vahid sənaye cəmiyyətinə çevrildiyini əsaslandırmışdır. Vahid sənaye cəmiyyətinin digər müəllifi fransız alimi Ellull hesab edirdi ki, bu yeni cəmiyyət iqtisadi qanunları yalnız modifikasiya etmir, həmçinin onların mahiyyətini dəyişdirir: mülkiyyətin aparıcı rolu aradan qaldırılır, iqtisadi hakimiyyət iri korporasiyaların əlinə keçir, dövlətin köməyi ilə varlılıq və dilənçilik qütbləri ləğv edilir. Yeni sənaye cəmiyyəti nəzəriyyəsi amerikan iqtisadçı Con Qelpreyt tərəfindən hələ 1967-ci ildə əsaslandırılmışdır. Onun fikrinə görə, müasir dünyanın iqtisadi sistemi iki müxtəlif təbiətli bölmənin vəhdətidir: "planlaşdırılan sistem" və "bazar sistemi". Birinci bölməyə o, yalnız qiymətlər, texnologiya və s. üzərində deyil, eyni zamanda dövlət və cəmiyyət üzərində nəzarəti həyata keçirən nəhəng koorporasiyalar dünyasını, ikinci bölməyə isə kiçik biznesi aid edirdi. O, belə bir nəticəyə gəlmişdir ki, azad rəqabətə nisbətən oliqopoliyaların hökmranlıq etdiyi bazarlarda tənzimləmə və planlaşdırma aparmaq daha asandır. İqtisadiyyatın iki sistemə bölünməsinin əsasında, onun fikrinə görə, istehsalın təşkilati-texniki amilləri dayanır. O, qeyd edirdi: "Bir şəxsin tam nəzarəti altında olan müəssisə və təşkil olunmadan mövcudluğu mümkün olan müəssisə arasında dərin konseptual fərq vardır". Bu fərq milyonlarla kiçik müəssisələri planlı sistemə daxil olmayan minlərlə nəhəngdən ayıran divardır (Худокормов А. Г. История экономических учений. М, Инфра, М., 1998, s. 93).

Cəmiyyətin inkişafında keyfiyyətcə yeni mərhələni amerikan sosioloq D.Bell postsənaye cəmiyyəti adlandırmışdır. Onun fikrinə görə, postsənaye cəmiyyəti aşağıdakı beş əsas əlamətlə xarakterizə edilir: 1) iqtisadiyyatın əmtəə istehsalından xidmət istehsalına keçməsi; 2) məşğul olan əhali arasında peşəkar mütəxəssislər və texniklərin üstünlük təşkil etməsi; 3) nəzəri biliklərin aparıcı rol oynaması; 4) texniki-iqtisadi mühitin texnologiya üzərində nəzarətə istiqamətlənməsi; 5) elmin kamillik mərhələsinə çatması; 6)qərar qəbul etmə prosesinin yeni "intellektual texnologiya" ilə təmin edilməsi. "Sənayeləşmə" böhranından çıxışı o, "postsənaye təmayüllərinin" inkişafında görür.

Amerikalı sosioloq A.Toffler "üçüncü dalğa" adlı kitabında (1980) postsənaye cəmiyyətini super sənayeləşmə nəzəriyyəsi ilə əsaslandırır. O nəzəri cəhətdən əsaslandırmışdır ki, tarixi inkişaf prosesində ardıcıl olaraq özünü göstərən "dəyişik dalğaları" son nəticədə "yeni sivilizasiyanın" yaranması ilə nəticələnir. Onun fikrinə görə, on min il əvvəl "sivilizasiyanın aqrar dalğası" baş vermişdir. XVII əsrin sonundan isə Avropada sənaye inqilabı qələbə çalmış və "planet miqyaslı dəyişikliklərə" yol açaraq industrial sivilizasiya

cəmiyyətinin bərqərar olması ilə nəticələnmişdir. XX əsrin 60-cı illərindən sonra "üçüncü dalğa" yaxınlaşmağa başlamışdır.

Müasir ictimai fikirdə özünəməxsus yer tutan "Vahid sivilizasiya" nəzəriyyəsinin yaradıcıları hesab edirlər ki, dünyanın bütün dövlətləri vahid siyasi, sosial və iqtisadi quruluşa - liberal demokratiyaya doğru irəliləyirlər. Onların fikrinə görə, belə bir quruluşa artıq Qərbdə nail olunmuşdur. Dünyanın bütün digər " üçüncü dalğa" yaxınlaşmağa başlamışdır.

Müasir ictimai fikirdə özünəməxsus yer tutan "Vahid sivilizasiya" nəzəriyyəsinin yaradıcıları hesab edirlər ki, dünyanın bütün dövlətləri vahid siyasi, sosial və iqtisadi quruluşa - liberal demokratiyaya doğru irəliləyirlər. Onların fikrinə görə, belə bir quruluşa artıq Qərbdə nail olunmuşdur. Dünyanın bütün digər dövlətləri də liberallaşma yolu ilə gedərək belə bir quruluşa nail olduqda, dünya vahid cəmiyyətə çevriləcəkdir.

Tarixin inkişaf mərhələlərinin nəzərdən keçirilməsi bəşəriyyətin gələcək təkamül proseslərinin müəyyən istiqamətləri haqqında da fikir yürütməyə imkan verir. Cəmiyyətin inkişafının təhlili göstərir ki, XX əsrin ortalarında inkişaf etmiş ölkələrdə formalaşmağa başlamış olan postsənaye cəmiyyəti XXI əsrin əsas aparıcı təmayülünü təşkil edərək, getdikcə daha geniş əhatə dairəsinə malik olur. Sənaye cəmiyyətindən postsənaye cəmiyyətinə keçmə təmayülü bütün dünya dövlətlərinin də artıq irəliyə doğru hərəkətinin əsas istiqamətini təşkil edir.

Mürəkkəb və ziddiyyətli qloballaşma (ingiliscə - global - ümümdünya) proseslərinin dərinləşməsi bəşəriyyətin ictimai və iqtisadi inkişafında yeni mərhələ yaratmış və meqa-cəmiyyət adlanan ümumbəşəri cəmiyyətin formalaşmasına yol açmışdır. Sosialist sistemi adlanan süni iqtisadi sistem süqut etdikdən sonra, demək olar ki, vahid qaydalarla inkişaf edən qlobal postbazar iqtisadiyyatı sistemi yarandı.

Qloballaşmanın və meqacəmiyyətin yaranması cəmiyyətin uzun tarixi dövr ərzində modernləşmə prosesinin məhsulu və məntiqi nəticəsidir. Qloballaşma eyni zamanda bəşəriyyətdə mövcud olan ən perspektivli modernləşmə təmayüllərini seçib təşviq edir. Akademik Ramiz Mehdiyevin səlis ifadəsilə desək: "Hazırda sosiomədəni transformasiyanı milli tranzitin iki aspekti - iqtisadi və siyasi modernləşmə təşkil edir".

Başlıca məzmununu qloballaşma təşkil edən postsənaye cəmiyyətinin əsas əlamətləri aşağıdakılar hesab edilir: 1) istehsal və istehlakın strukturunun dəyişməsi (xidmət sahəsinin rolunun artması); 2) təhsilin səviyyəsinin yüksəlməsi; 3) əməyə yaradıcı münasibətin aparıcı amilə çevrilməsi; 4) ətraf mühitə yüksək diqqət verilməsi; 5) iqtisadiyyatın humanistləşməsi (sosial yönümlülüyünün artması); 6) cəmiyyətin informasiya cəmiyyətinə çevrilməsi; 7) kiçik biznesin renessansı. Bu o deməkdir ki, əvvəlki biliklərin qısa bir zamanda köhnəlməsi və yenilərinin sürətlə yayılması və təbəqələşmə nəticəsində

əhalinin bir qrupunun gəlirlərinin sürətlə artması buraxılan məhsulların da sürətlə yenilənməsini, bir-birini əvəz etməsini tələb edir. İri şirkətlərə nisbətən kiçik biznes bu baxımdan çox çevikdir və istehsalın profilini qısa müddət ərzində dəyişə bilir. Məhz buna görədir ki, inkişaf etmiş sənaye ölkələrində DMM-in yarısından çoxu kiçik biznesin payına düşür (Мировая экономика. Под редакции Булатова А. С. М., Юристы, 2000, s.186;187).

Qloballaşma haqqında son dövrlərdə söylənən fikir və mülahizələri şərti olaraq iki qrupa bölmək olar: birinci qrup fikirlərin müəllifləri mürəkkəb və ziddiyyətli qloballaşma prosesinin, hər şeydən əvvəl iqtisadi sahədə mahiyyətini obyektiv şəkildə açmağa çalışır, müasir dünyada real olaraq baş verən və insan cəmiyyətinin maddi həyatını kökündən dəyişdirən hadisələri şərh etməyə çalışırlar. Onlar belə bir mürəkkəb şəraitdə milli dövlətləri qloballaşma prosesinə necə uyğunlaşmaq haqqında düşünməyə çağırırlar. İkinci qrup müəlliflər isə dünyada yaranmış yeni "hökmranlıq ideologiyası" mövqeyindən çıxış edirlər və milli dövlətlərə bu baxımdan hərəkət tərzi üçün müqavimət göstərməyə çağırırlar (Черковец О. Глобализация сотрудничества или конкуренции?- *Экономист*, 2002, №10, с. s. 9).

Qloballaşma iqtisadi baxımdan çox vaxt "qlobal postbazar iqtisadiyyatı" və yaxud idarə olunan "ümumdünya bazarı" (Samir Amin. Küreselleşme çagında kapitalizm. İstanbul,1999, s. 9) kimi xarakterizə edilir. Tamamilə aydındır ki, "bazar" və "bazar iqtisadiyyatı" kapital yığımı və təbəqələşmə anlayışları ilə vəhdət təşkil edirlər.

Ölkə daxilində iqtisadi hökmranlığı ələ keçirən kapital hələ orta əsrlərdən dünya miqyasında hökmranlıq etməyə can atmağa başlamışdır. Bu prosesin başlanğıcı Avro - Atlantik ölkələrin ticarət kapitalının hökmranlığını təmin edən merkantilizm dövrünə təsadüf edir. Sənaye inqilabı baş verənə qədər aparıcı Qərb dövlətlərinin rəsmi siyasətinin əsasını təşkil edən merkantilizm ideyalarının son nəticəsi dünyanın zəngin xammal mənbələrini Qərbin ticarət kapitalının yığım məntiqinə tabe etməkdən ibarət olmuşdur. Sürətlə zənginləşən avropalı tacirlər öz dövlətlərinin bilavasitə hərbi dəstəyi ilə yeni-yeni bazarlara və kapital mənbələrinə can atırdılar. Qızıla, yeni-yeni torpaqlara və xarici mallara olan hərislik yeni ticarət yollarının açılmasına, müstəmləkəçilik sisteminin yaranmasına və o dövrün dünya bazarının hüdudlarının yeni regionlar hesabına genişlənməsinə səbəb oldu.

Sənaye inqilabının qələbəsi, azad rəqabət və bazar mexanizminin tam şəkildə işləməyə başlaması və fabrik-zavod istehsalının kütləviləşməsi dünya bazarına qoşulan yeni regionlarla təsərrüfat əlaqələrini daha da genişləndirdi. XIX əsrin sonlarında dünya bazarı formalaşdı. Tədricən malların hərəkəti ilə yanaşı istehsal amillərinin (kapital, işçi qüvvəsi sahibkarlıq qabiliyyəti, texnologiya) də beynəlxalq hərəkəti sürətlənərək, dünya təsərrüfatı sistemini formalaşdırdı. Lakin Asiya (Yaponiyadan başqa), Afrika və Latın Amerikası

ölkələri sənaye inqilabından kənarda qalaraq, beynəlxalq əmək bölgüsü sistemində kənd təsərrüfatı və dağ-mədən sənayesinin məhsulları ilə iştirak etməli oldular.

Yuxarıda göstərildiyi kimi, dünya təsərrüfatı sisteminin inkişafında yeni mərhələ XX əsrin 80-90-cı illərində başlamışdır.

İnkişaf etmiş və yaxud zəngin Şimal ölkələri üçün bu dövr postsənayeləşmə erasına keçid, bir çox geri qalmış ölkələr üçün (yeni sənaye ölkələri və Çin) iqtisadi geriliyin aradan qaldırılması və postsosialist ölkələri üçün bazar iqtisadiyyatına dönüş, bütün dövlətlər üçün isə - daxili və xarici həyatın liberallaşması və onun qloballaşması dövrü kimi xarakterizə edilir.

Mütəxəssislərin əksəriyyəti hesab edirlər ki, qloballaşma prosesinin əsasında son onilliklərdə iqtisadiyyatın və bütün bəşəriyyətin texniki-texnoloji, nəqliyyat-kommunikasiya və informasiya bazasında dərin inqilabi dəyişikliklər dayanır. Məhz həmin sahələrdə son yüzillikdə baş verən sıçrayışlar dünya iqtisadi məkanının müxtəlif hissələrinin bir-biri ilə üzvi şəkildə birləşməsinə yol açdı. Bu proses təsərrüfat həyatının çoxəsirlik beynəlmiləlləşmə təmayülünün məntiqi nəticəsidir. Burada kapitalın hökmranlığı daha çox texnologiya və rəqabət üstünlüyünə əsaslanır.

Proseslərin mahiyyətini düzgün dərk etmək üçün «qlobal iqtisadiyyatı» «dünya iqtisadiyyatından» fərqləndirmək lazımdır. F.Brodel və U.Uollerşteyn «dünya iqtisadiyyatı» dedikdə dünya miqyasında kapital yığımını başa düşürlər. Bu proses isə Qərbdə XVI əsrdən başlanmışdır.Manuel Kastels hesab edir ki, qlobal iqtisadiyyat - bütün planet miqyasında real zamanda vahid sistem kimi işləməyə qadir olan iqtisadiyyatdır. Kapitalist istehsal üsulu zaman və məkanın sərhədlərini aşmağa çalışaraq, durmadan inkişaf etmişdir. Dünya iqtisadiyyatı ancaq XX əsrin sonunda informasiya və kommunikasiya texnologiyasına əsaslanan yeni infrastruktur əsasında əsl qlobal iqtisadiyyata çevrildi.

Qloballaşma iqtisadi sistemin bütün əsas proses və ünsürlərində özünü göstərir. Tarixdə ilk dəfə olaraq kapitalın idarə olunması real vaxt rejimində qlobal maliyyə bazarlarında fasiləsiz olaraq həyata keçirilir (Мануэль Кастельс. Информационная эпоха. Экономика, общество и культура. М., ГУ ВШЭ, 2000, s. 105). Yeni texnologiya kapitalı qısa müddət ərzində bir iqtisadiyyatdan digər iqtisadiyyata keçirməyə imkan verir. İnvestisiya və valyuta kimi müxtəlif ölkələrin iqtisadiyyatı da qarşılıqlı əlaqələr və qarşılıqlı asılı və qlobaldır. Başqa sözlə, qloballaşma dünya təsərrüfatının vahid əmtəə, xidmət, kapital, işçi qüvvəsi və biliklər bazarına çevrilməsi deməkdir. Bu, beynəlmiləlləşmənin yeni və yüksək mərhələsidir. Dünya TMŞ-lər üçün vahid bazara çevrilir, bütün ölkələr onların fəaliyyəti üçün açıqdırlar. Onları iqtisadi ədəbiyyatda bəzən sərhədsiz dövlət adlandırırlar.TMŞ-lərin müasir dövrdə əsas məqsədi mənfəətin maksimallaşdırılmasından çox, bazarın maksimallaşdırıl-

masıdır. Çünki onların əsas məqsədi mənfəəti maksimum dərəcədə artırmaq olsa, rəqabət mübarizəsində başqa şirkətlərə uduzarlar. Qloballaşma beynəlxalq rəqabəti daxili bazarlara da keçirir. Ona görə də bazar iqtisadiyyatının əsas postulatı olan rəqabət mexanizmi özünün qanunlarına uyğun olaraq bütün dünya miqyasında işləyir. Texnoloji inqilab istehsal amillərindən daha səmərəli istifadə edən şirkətlərə texnoloji üstünlük əldə etməklə mənfəətlərini optimallaşdırmaq imkanı verir.

Beləliklə milli təsərrüfatların iqtisadi, elmi-texniki, hüquqi və informasiya baxımından bir-birindən asılılığını kəskin şəkildə artıran qloballaşma, dünyanın inkişafında aşağıdakı bir sıra səciyyəvi cəhətlərin meydana gəlməsinə səbəb olmuşdur.

Hər şeydən əvvəl dünya iqtisadi birliyi keçmişdə bir-birindən az-çox asılı olan ölkələrin məcmusundan ibarət idisə, indi bu birlik vahid iqtisadi sistemə çevrilməyə başlamışdır. Həmin vahid iqtisadi sistemdə milli təsərrüfatlar sadəcə olaraq beynəlxalq əmək bölgüsü mexanizmi ilə deyil, öz miqyasına görə nəhəng, ümumdünya istehsal-satış strukturu, qlobal maliyyə sistemləri və informasiya şəbəkələri ilə bir-birinə «lehimlənərək» vahid ümumdünya iqtisadi orqanizmin ayrılmaz tərkib hissəsinə çevrilmişlər. XX əsrin ortalarına qədər xarici ticarət dövriyyəsi bütün dünyada ÜDM-un cəmisi 10-16%-ini təşkil edirdisə, XXI əsrin əvvəlində kommersiya xidmətlərinin idxalı və ixracı da nəzərə aldıqda bu həddə 48%-ə çatmışdır (Шишков Ю. Глобализация – враг или союзник развивающихся стран. *МЭ и МО*, 2003, № 4, с. 3-1).

Son onillikdə (1995-2006-cı illərdə) dünya xarici ticarət dövriyyəsinin həcmi istehsaldan iki dəfə çox olmuşdur (İşgüden T., Akyüz M. Uluslararası iktisad. İstanbul, Evrim kitabevi. 1995, s. 145.s. 76, 85, 86).

Qloballaşma prosesində milli və ümumdünya iqtisadi mexanizmlər öz rollarını da dəyişdirirlər. Belə ki, məlum olduğu kimi, keçmişdə aparıcı rol milli təsərrüfatlara məxsus idi. Müasir dövrdə isə dövlətlərüstü maliyyə-əmtəə bazarları, istehsal-satış strukturları formalaşdıqca, ümumdünya iqtisadi münasibətlər bəşəri proseslərin tənzimlənməsində aparıcı rol oynamağa başlamışlar. Hətta ən inkişaf etmiş dövlətlərin də ölkə daxili münasibətləri qlobal iqtisadiyyatın tələblərinə uyğunlaşmaq məcburiyyəti qarşısındadır. Bəşəri münasibətlərin tənzimlənməsində ümumdünya iqtisadi münasibətlərin aparıcı amilə çevrilməsi isə öz növbəsində beynəlxalq proseslərdə milli dövlətlərin rolunun azalmasına gətirib çıxarır. Çünki onlar milli sərhədlərdən kənarda baş verən və müstəqil cərəyan edən ümumbəşəri prosesləri tənzimləmək iqtidarında deyillər. Bundan əlavə, milli dövlətlərin bağladıqları beynəlxalq müqavilələrə uyğun olaraq makroiqtisadi tənzimləmələr aparmaq üçün gömrük sədləri, valyuta tənzimləmələri və digər ənənəvi vasitələrdən istifadə etmək hüquqları məhduddur. Onlar beynəlxalq iqtisadi təşkilatların,

nəhəng transmilli şirkətlərin tələblərinə uyğunlaşmağa məcburdurlar. Başqa sözlə, qloballaşma prosesində dünya iqtisadiyyatının əsas hərəkətverici qüvvəsi olan transmilli sənaye və bank korporasiyalarının gücü və təsir dairəsi genişlənmişdir. Qlobal iqtisadiyyatın ənənəvi subyekti olan milli dövlətlər isə müəyyən baxımdan sıxışdırılmışlar. Onlar könüllü olaraq, bir çox milli hüquqlarından beynəlxalq hüquq normalarının lehinə imtina etmişlər.

Lakin bütün bunlar milli dövlətlərin rolunun heç də azalması demək deyildir. Əksinə, müasir dövrdə bəşəriyyətin inkişafının mühüm xarakterik xüsusiyyətlərindən biri ölkə daxilində gedən sosial-iqtisadi proseslərin tənzimləyicisi kimi milli dövlətlərin rolunun durmadan artmasıdır. Bazar iqtisadiyyatı tələb edir ki, dövlətlər iqtisadiyyata ən azı iki məqsədlə geniş müdaxilə etsinlər: birincisi, digər ölkələrin iqtisadiyyatı ilə maksimum rəqabət qabiliyyətli olmaq, ikincisi isə, maliyyə-kredit kimi yenidən bölgü mexanizmindən istifadə etməklə ölkə daxilində yaranan sosial və siyasi gərginliyi mümkün qədər azaltmaqdır. Məhz həmin funksiyaların genişləndirilməsi sürətlə artan qloballaşma prosesinin ən mühüm əlamətlərindən biridir. Bu məsələ keçid iqtisadiyyatı ölkələri üçün xüsusən aktualdır.

Həqiqətən dünya miqyasında mövcud ehtiyatlardan istifadə uğrunda rəqabət mübarizəsinin əhəmiyyəti və daha da kəskinləşməsi qlobal miqyas almışdır. Belə bir rəqabət mübarizəsində təsərrüfat subyektlərinin uduzması nəticəsində maddi, insani və hətta siyasi ehtiyatların mümkün itkiləri də çox ciddi və bəzən qlobal əhəmiyyət kəsb edə bilər (259, s. 8). Təsadüfi deyildir ki, qloballaşma prosesində aparıcı mövqeyə məhz təsərrüfat subyektlərini məqsədli şəkildə tənzimləyən dövlətlər çıxa biliblər. Çünki hər hansı bir ölkədə mövcud olan rəqabət üstünlüyünü qloballaşma prosesindəən səmərəli şəkildə həyata keçirmək üçün ölkənin bütün potensialından yalnız milli dövlətlər maksimum istifadə edə bilərlər. Qloballaşmanın real gedişi ölkə potensialının milli dövlətlər vasitəsilə tam mənası ilə rəqabət qabiliyyətinin yüksəldilməsinə yönəldilməsini tələb edir.

Sənaye cəmiyyətindən postsənaye cəmiyyətinə keçidin təkamül yolu ilə hərəkət etməsinə baxmayaraq, bu proses ölkə daxilində ciddi disproporsiya və konfliktlər yaradır. Bu, özünü bir çox maddi istehsal sahələrinin məhsullarına dünya bazarlarında tələbin azalması ilə əlaqədar olaraq struktur və peşəkar işsizliyin artması ilə büruzə verir. Sənayeləşmə sürətləndikcə əksər sənaye sahələrində, xüsusən xidmət bölməsində az ixtisaslı işçilərə tələbat da azalır. Cəmiyyətin yüksək bilik və təhsilə yiyələnmiş postsənaye hissəsi ilə az ixtisaslı hissəsi arasında ziddiyyət yaranır və getdikcə dərinləşir.

Azərbaycanda postsənayeləşmənin başlanğıc mərhələsi qeyri-neft sektorunun bir çox sahələrində istehsalın ixtisarı və zəif inkişafı, elm, səhiyyə, mənzil-kommunal təsərrüfatı, sosial təminatın pisləşməsi ilə müşaiyət edilirdi.

Digər göstəricilər üzrə isə (kompüterləşmə, internet şəbəkələrinin yayılması və s.) xeyli irəliləyi sözünü göstərir.

Qloballaşmanın ümumbəşəri əhəmiyyət kəsb edən problemlərindən biri bu prosesin ölkələr arasında inkişaf səviyyəsi baxımından olan kəskin fərqə necə təsir etməsi, qloballaşmanın faydalarının ölkələr arasında necə bölünməsi problemidir.

Müasir mərhələdə heç bir dövlət həmin proseslərdən kənarda qala bilməz. Lakin getdikcə daha çox dərk edilir ki, bəşəriyyətin inkişafı üçün həyati əhəmiyyət kəsb edən qloballaşmanın faydaları qeyri-bərabər bölüşdürülür. Müasir beynəlxaq siyasi-iqtisadi sistemdə azsaylı inkişaf etmiş sənaye ölkələri aparıcı rol oynayır. Texnoloji və informasiya inqilabları iqtisadi inkişafın xarakterini dəyişmişdir. Qabaqcıl sənaye ölkələri və müəyyən dərəcədə orta inkişaf səviyyəsinə malik olan ölkələr üçün rifah səviyyəsinin artırılmasında yeni imkanlar daha çox yaranmışdır.

Nəticədə, bu ölkələr arasında da təbəqələşmə sürətlənir. Onların arasından texnoloji inqilabların və yeni beynəlxalq iqtisadi-maliyyə mühtinin verdiyi üstünlüklərdən səmərəli istifadə edən ölkələr öz inkişaf səviyyələrinə görə sənaye ölkələri ilə aralarında olan fərqi aradan qaldırırlar.

Lakin təbii istehsal amillərindən istifadəyə əsaslanan ölkələrdə vəziyyət ağır şəkildə qalmaqda davam edir, onların dövlət borcları sürətlə artır, istehsalın strukturunda hasilat sənayesinin payı yüksək səviyyədə qalır.

Tamamilə təbiidir ki, yeni yaranan iqtisadi və maliyyə mühitində istehsal amillərinin tərkib hissələrinin beynəlxalq miqyasda hərəkəti eyni şəkildə cərəyan etmir və bir-birindən fərqlənir. Məsələn, dünya bazarında kapitalın çevikliyi ilə işçi qüvvəsinin çevikli eyni deyildir. Belə ki, ümumi ekvivalentdə - pulda təzahür edən kapitalın hərəkəti dövlətlər arasında əslində maneəsiz baş verir. Onun hərəkətinin yeganə meyarı-yüksək mənfəət əldə etməkdir. Lakin işçi qüvvəsinin hərəkətverici meyarları mürəkkəb və müxtəlifdir. Yüksək əmək haqqı bu meyarlardan yalnız biridir. Onun əsas meyarı isə əlverişli təbii, sosial və mənəvi mühitin olmasıdır. Ona görə də hətta milli təsərrüfatlar daxilində də işçi qüvvəsi bazarının çevikliyi, digər bazarlara nisbətən zəifdir. Beynəlxalq miqyasda isə dil, mədəni və s. maneələr də mövcuddur. Ona görə də məhdud da olsa əmək bazarı da qlobal mahiyyət daşıyır: 1) firmalar dünyanın istədikləri yerində yerləşərək əmək ehtiyatlarından manesiz istifadə edə bilərlər; 2) firmalar hər yerdən istədikləri mütəxəssisləri cəlb edə bilirlər; 3) insanlar dünyanın istənilən nöqtəsindən müxtəlif səbəblərlə (müharibə və s.) öz ölkəsini tərk edərək, öz təşəbbüsləri ilə istənilən əmək bazarlarına müraciət edə bilərlər) (Мануэль Кастельс. Информационная эпоха. Экономика, общество и культура. М., ГУ ВШЭ, 2000,s. 105-106).

Elm, texnologiya və informasiyanın beynəlxalq miqyasda hərəkəti

sərbəstdir və qlobal mahiyyət daşıyır. Texnoloji informasiya üzərində mülkiyyət hüququ rəqabət üstünlüyünü yaradır. Texnologiya və bilik mübadiləsi qlobal iqtisadiyyatın hərəkətverici qüvvəsinə çevrilmişdir. Dünya dillərinin leksikonuna daxil olan «yeni iqtisadiyyat» termini məhz bununla əlaqədardır.

İstehsalın miqyasının artması və mürəkkəbləşməsi investisiyaya ehtiyacı ciddi şəkildə artırır və kapitalın hərəkətini sürətləndirir. Həyata keçirilən saysız hesabsız maliyyə əməliyyatlarının məqsədi və obyekti çox vaxt milli sərhədlərdən kənarda olur. Kapitalın təmərküzləşməsi və mərkəzləşməsi istehsal sferasına nisbətən bank-maliyyə sferasında misli görünməmiş dərəcədə sürətlənmiş və qloballaşmışdır. Maliyyə, investisiya və informasiya ehtiyatları əldə etmək uğrunda rəqabət mübarizəsi şiddətlənmişdir. Nəhəng beynəlxalq banklar, bu mübarizənin fəal aparıcı qüvvələridir.

Bank-maliyyə əməliyyatlarının yeni kommunikasiya vasitəsilə aparılması «elektron pulların» hərəkətini nəzərdə tutan yeni anlayışın - «virtual iqtisadiyyat» anlayışının yaranmasına səbəb olmuşdur.

Himayəçilik meyllərinin müəyyən dərəcədə sərtləşməsinə baxmayaraq, əmtəə və xidmət bazarları getdikcə daha çox qloballaşır.

Qlobal iqtisadiyyat şəraitində xarici bazarlara çıxış yeni təsərrüfatçılıq sisteminin aparıcı ünsürünə çevrilmişdir. Beynəlxalq iqtisadiyyat sahəsində tanınmış mütəxəssis M. Porter haqlı olarq hesab edir ki, müasir dövrdə ticarət, o cümlədən mal ixracı qlobal strategiyanın ayrılmaz tərkib hissəsinə çevrilmişdir (Портер М. Международная конкуренция. М., Международные отношения, 1993, s. 27).

Beləliklə qloballaşma istər dünya miqyasında, istərsə də ölkə daxilində keyfiyyətcə yeni iqtisadi və maliyyə mühitinin formalaşmasına yol açmışdır. Mütəxəssislərin əksəriyyəti hesab edirlər ki, beynəlxalq iqtisadi münasibətlərin liberallaşması eyni tipli qanunlarla idarə olunan yüksək dönərli ödəmə vasitələrindən istifadə edilən vahid və yekcins qlobal bazar məkanının yaranmasını sürətləndirir. İqtisadiyyatın dövlət tənzimlənməsi nəticəsində ölkələrarası mövcud maneələr getdikcə aradan qaldırılacaqdır. Bu isə rəqabətin qlobal xarakter almasını təmin edəcək, dünya ehtiyatlarından daha səmərəli istifadə edilməsinə səbəb olacaqdır.

11.4. Qloballaşma şəraitində davamlı inkişafın müasir paradiqmaları

“Qloballaşma şəraitində davamlı inkişafın aktual problemləri” mövzusunda Beynəlxalq konfransın materiallari, Bakı, Azərbaycan Universiteti.

4 – 5 may 2011-ci il.

Yeni paradiqmalara uyğun olaraq iqtisadi sistemin davamlı inkişafı ardıcıl yükələn xətlə təkamül edən və iqtisadiyyatın sosiallaşması, humanistləşməsi və ekologiyalaşması deməkdir. Bu prosesdə dövlət institutu mühüm rol oynayır. İqtisadiyyatın təkamül amili kimi, onun rolu həyata keçirdiyi funksiyalarla müəyyən edilir. Bu funksiyalar isə tənzimləməyə xarici müdaxilənin təsiri altında iqtisadiyyatın inkişafının idarə olunmasına doğru tədricən dəyişir. Dövlət idarəçiliyində müasir idarəetmə funksiyası iqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə onların formalaşması və inkişafı prosesində müəyyən edilmişdir. Həmin ölkələrin inkişaf təcrübəsini nəzərə alaraq iqtisadi nəzəriyyə iqtisadiyyatda dövlətin idarəçilik funksiyasının aşağıdakı əsas istiqamətlərini müəyyən etmişdirr:

- inkişafın strateji istiqamətlərinin və onun prinsiplərinin müəyyən edilməsi;
- bütün iyerarxiya mərhələlərində iqtisadi maraqların uzlaşdırılması;
- ictimai təkrar istehsalı prosesinin struktur cəhətdən yenidən qurulması yolu ilə tarazlı inkişafın təmin olunması;
- milli iqtisadiyyatın beynəlxalq əmək bölgüsündə səmərəli iştirakının təmin olunması;
- ölkənin istehsal aparatının inkişafı: keyfiyyət, həcm, inkişaf sürəti, resurslardan istifadə səviyyəsi;
- bazarın idarə olunması: məhsulun keyfiyyəti, istehsal xərclərinin səviyyəsi, qiymətlər, rəqabət üzərində pul-kredit, fiskal siyasəti və inzibati vasitələrlə nəzarət;
- informasiya və innovasiya.

Dövlətin iqtisadiyyatda həyata keçirdiyi funksiyaların səmərəliliyinin müəyyən olunması həmin funksiyaların təhlili yolu ilə mümkündür.

Qloballaşma prosesində milli maraqların və milli təhlükəsizliyin təmin olunması problemləri davamlı inkişafın müasir paradiqmalarının ən mühüm aspektlərindəndir. Çünki mürəkkəb və ziddiyyətli qloballaşma prosesləri onun, istər ümumdünya miqyasında, istərsə də milli səviyyədə idarə olunmasını tələb edir. Bu proseslər milli dövlətlər qarşısında keyfiyyətcə yeni tələblər qoyur.

Milli maraqların qorunması və milli təhlükəsizliyin təmin edilməsi prob-

lemləri milli dövlətlər, xüsusən, müstəqillik yoluna yenicə qədəm qoymuş ölkələr üçün həyati əhəmiyyət kəsb edir.

Qloballaşma inkişaf səviyyəsindən asılı olmayaraq milli iqtisadi sistemləri qlobal səviyyədə fəaliyyət göstərən «oyunçuların» sərt rəqabət mübarizəsinə cəlb edir. Ona görə də milli iqtisadiyyatın qlobal mühitə itkisiz və səmərəli uyğunlaşdırılması bu gün milli dövlətlər qarşısında duran və həyati əhəmiyyət kəsb edən məsələdir. Milli iqtisadiyyatın getdikcə daha çox meqacəmiyyətin tərkib hissəsinə çevrilməsi, bu funksiyanın əhəmiyyətini daha da artırır.

Zaman tələb edir ki, onlar adət etdiyimiz makro və mikroiqtisadi tənzimləmələrlə yanaşı - beynəlxalq əmtəə, xidmət, kapital və işçi qüvvəsi axınlarına müdaxilə etmək, proqnozlaşdırmaq və istiqamətləndirmək kimi çox mühüm funksiyaları da yerinə yetirsinlər. Ənənəvi dövlətlər qloballaşma şəraitində iki cəbhəyə qarşı mübarizə aparmağa məcburdurlar: 1) Ölkənin daxili problemlərinə qarşı; 2) nəzarətdən çıxma təhlükəsi doğuran transmilli qüvvələrə qarşı.

Milli dövlətlər transmilli qüvvələri vergiqoyma, iqtisadiyyatın tənzimlənməsi, iqtisadi təhlükəsizliyin təmin edilməsi məsələlərində öz nəzarətinə tabe etməyə çalışırlar.

Ümumiyyətlə, qəbul edilir ki, qloballaşma prosesində beynəlxalq əmək bölgüsünün üstünlükləri inkişaf etmiş sənaye ölkələri üçün daha faydalıdır. Buna baxmayaraq, transformasiya prosesini keçirən ölkələr bu proseslərdə iştirak etməyə həm məcburdurlar, həm də belə iştirakda çox maraqlıdırlar. Çünki artıq bir aksiom kimi qəbul edilir ki, müasir şəraitdə hər hansı bir dövlətin dünya bazarından təcrid olunması, onun iqtisadi inkişafının son nəticədə geriləməsi ilə nəticələnə bilər. Lakin bəşər tarixinin yeni mərhələsində bir çox iqtisadi proseslərin qlobal mahiyyəti ilə onların milli dövlətlər çərçivəsində tənzimlənməsi arasında kəskin ziddiyyət özünü göstərir. Bu isə səmərəli dövlətlərüstü tənzimlənmə mexanizminin yaradılmasını tələb edir. Çünki dövlətlər hələ qloballaşma prosesinə müxtəlif dərəcələrdə qoşulmuşlar, onların özlərinin «çəkiləri» müxtəlifdir, qlobal bazalardan əldə etdikləri faydaları isə fərqlidir. Qloballaşma prosesində maraqlar ziddiyyətlidir. Çünki xarici satış bazarlarına, maliyyə mənbələrinə, texnoloji və idarəetmədə mövcud olan yeniliklərə çıxış imkanları bütün dövlətlərdə eyni deyildir. Ən güclü dövlətlər bunlardan daha çox, zəiflər isə az faydalanırlar.

Dünya dövlətlərinin təcrübəsi göstərir ki, milli bazarların müasir şəraitdə xarici təsirlərə həssaslığı (xüsusən böhran dövründə) sürətlə artmışdı. Qloballaşmanın dərinləşməsi inkişaf etməkdə olan və keçid iqtisadiyyatı ölkələrində iqtisadiyyatın idarə olunmasında milli dövlətlərin vəziyyətlərinin pisləşməsinə səbəb olur. Bu prosesdə zəngin və kasıb ölkələr arasında mövcud olan dərin uçurum daha da dərinləşir, inkişaf etməmiş Cənub ölkələrində yüz milyonlarla insanlar informasiya inqilabının bəhrələrindən istifadə etmək

və qüdrətli Şimalın firavan həyatını kənardan seyr etmək imkanı əldə etmişlər.

İşçi qüvvəsi bazarının liberallaşdırılması sahəsində məhdudiyyətlərin saxlanılması da bu ölkələr üçün ciddi nəticələr doğurur. Əslində, yalnız nadir yüksək ixtisaslı mütəxəssislər üçün bu məhdudiyyətlər aradan qaldırılmışdır ki, bu da «beyin axını» ilə nəticələnir. Nəticədə kasıb Cənubda texnoloji gerilik, ümidsizlik və məyusluq hissləri sürətlə artmış, ekstremizm və terrorizm dalğalarıözünü göstərmişdir.Bir çox alimlər haqlı olaraq 11 sentyabr hadisələrini bir növ bu dərin kontrastın məhsulu kimi dəyərləndirirlər. Ona görə də qloballaşmanın bəhrələrinin ölkələr arasında qeyri-bərabər bölgüsünün azaldılması və qlobal qütbləşmənin qarşısının alınması yalnız kasıb Cənubun deyil, eyni zamanda bütün dünya birliyinin həll etməli olduğu mühüm qlobal problemdir. Milli dövlətlərin qlobal iyerarxiyada mövqeyi onun dünya bazarındakı rəqabət gücü ilə müəyyən edilir. Lakin bu rəqabət mübarizəsi milli dövlətlər, xüsusən, gənc ölkələr üçün qeyri-bərabərdir. Onlar qlobal iqtisadi-maliyyə mühitində inkişaf etmiş dövlətlərin nəzarəti altında olan böyük inhisarlar ilə qarşı-qarşıya qalırlar. Bu nəhəng inhisarlara transmilli şirkətlərin texnologiya sahəsində olan inhisarçılığı, dünya maliyyə bazarlarında maliyyə nəzarətini, nəqliyyat sahəsində inhisarçılığını aid etmək olar. Qlobal prosesləri tənzimləyən beynəlxalq iqtisadi və maliyyə təşkilatlarının da onların nəzarəti altında olması mühüm amil kimi nəzərdən qaçırılmamalıdır.

Yuxarıda göstərildiyi kimi, qlobal texnoloji piramidanın zirvəsinə gedən yol çoxpilləlidir. Ayrı-ayrı ölkə qrupları özünün iqtisadi və sosial-mədəni səviyyəsini yüksəltməklə və zəngin Şimaldan öz fərqlərini azaltmaqla bu zirvəyə doğru irəliləyirlər. Təbiidir ki, ayrı-ayrı ölkələr bu pillələrdən müxtəlif dərəcədə istifadə edirlər. Cənubi Koreya, Tayvan, Honk Konq, Sinqapur, Vyetnam, müasir dünya iqtisadi sisteminə uğurla qoşulmuşlar və artıq 80-cı illərdə adambaşına ÜDM istehsalının artım sürətinə görə Şimal ölkələrini iki dəfə ötüb keçmişlər. 90-cı illərdə həmin qrupa Hindistan, Çili, Şrilanka, Dominikan Respublikası, Yamayka və digər ölkələr əlavə olundular. Onlarda adambaşına ÜDM istehsalı öz sürətinə görə dünya liderlərini 1,5-2,0 dəfə ötüb keçdi. Üçüncü qrupda eyni göstərici 1,0-1,5 dəfə təşkil edir. Dördüncü qrup ölkələr inkişaf etməkdə olan ölkələrdir ki, orada adambaşına ÜDM istehsalı inkişaf etmiş ölkələrə nisbətən zəif inkişaf edir. Axırıncı qrupu ən kasıb ölkələr təşkil edir ki, onlarda adambaşına məhsul istehsalı azalır, avanqard ölkələrlə olan uçurum isə dərinləşir (Мировая экономика и международные отношения, 2003, № 4, s. 13).

Tədqiqatlar eyni zamanda göstərir ki, milli dövlətlərin qloballaşma şəraitində də milli çərçivədə proseslərə təsir etmə imkanları yüksəkdir. Dövlətin iqtisadi funksiyası, əslində yalnız bir sıra məsələlərdə, məsələn, sosial və xarici iqtisadi sahələrdə zəifləyir. Müasir milli dövlətlər ən vacib olan təhsil, infrastruktur kimi məsələlərin həll edilməsində əsas rol oynamaq-

da davam edirlər. Onların təmin olunmasında bazar, vətəndaş cəmiyyəti və dövlət orqanlarının proporsional rolu mütənasib olmalıdır. Müasir iqtisadiyyatda dövlətin tənzimləyici rolu artmışdır.Tənzimləmə tədbirləri ətraf mühitin qorunması, maliyyə sektoru və inhisarların fəaliyyətini əhatə edir. Dövlətin rolu ölkə iqtisadiyyatının rəqabət qabiliyyətinin artırılmasında elmi-texniki tərəqqinin stimullaşdırılmasında, infrastrukturun yaradılmasında, informasiyanın toplanması və işlənməsində, milli sahibkarlar üçün əlverişli işgüzar və vergi mühitinin yaradılmasında, xarici kapital və işçi qüvvəsi axınının tənzimlənməsində artmışdır. Qloballaşma prosesində dövlətin rolu trans-formasiya edir və o, qlobal sahibkar kimi çıxış etməyə başlayır.

Belə bir şəraitdə ölkənin beynəlxalq əmək bölgüsündə iştirakının iqtisadi səmərəliliyinin müəyyən edilməsi vacibdir. Məlum olduğu kimi, ölkənin beynəlxalq əmək bölgüsü sistemində ixtisaslaşması bir tərəfdən, xarici iqtisadi məkanın tələbləri ilə, digər tərəfdən də həmin ölkənin dünya meyarlarına uyğun olaraq rəqabət qabiliyyətli mal və xidmət istehsal edə bilməsi bacarığı ilə müəyyən edilir. O da məlumdur ki, məhsul istehsalçıları və satıcıları əksər hallarda müstəqil milli təsərrüfat subyektləridirlər. Qlobal-laşma şəraitində məhsulların getdikcə daha çox hissəsi milli sərhədlərdən kənara çıxır və özünə daha tutumlu bazarlar axtarırlar. Bu zaman vahid struktur kimi dünya bazarının mövqeyi baxımından iqtisadi səmərəliliyin meyarı məhsul dünya qiymətləri ilə satıldıqda istehsalçı (ixracatçı) üçün rentabelliyi təmin edən istehsal xərclərinin səviyyəsidir. Müstəqil istehsalçılar həmin beynəlxalq meyara orientasiya edirlər və əgər belə məhsullar ona mənfəət təmin edirsə, onlar dünya bazarlarına çıxırlar. İdxalatçılar da idxalat əməliyyatlarının xüsusiyyətlərini nəzərə alaraq eyni qaydada hərəkət edirlər.

Qloballaşmanın yaratdığı yeni mühit ictimai rifah anlayışının konseptual şəkildə inkişaf etdirilməsini tələb edir. Məlum olduğu kimi, bu anlayışa birgə istehlak edilən məhsul və xidmətlərin geniş spektri daxildir. Yeni mühitdə həmin məhsulların istehlakının kəmiyyət və keyfiyyətcə azaldılmaması ilə yanaşı, onların bölgüsünün tənzimlənməsi tələb olunur. Bazarların qloballaşması ictimai rifah ünsürlərinin (mülkiyyət hüququnun qorunması, bazarlarda rəqabət mühiti, təbiəti mühafizə tədbirləri, ictimai obyektlərin və infrastruktur obyektlərinin inşası, səhiyyə və təhsilin böyük bir hissəsi) bir çoxunu sual altında qoymuşdur. Təsadüfi deyildir ki, onların getdikcə daha çox qloballaşan bazar prinsiplərinə çevrilməsinə qarşı bütün dünyada müqavimət hərəkatı genişlənir.

Qlobal iqtisadi-maliyyə mühitə inteqrasiya prosesində milli inkişafın zəruri şərtləri təmin edilərək dəstəklənməli, mövcud olan disproporsiyaların daha da dərinləşməsinə yol verməmək və onları aradan qaldırmaq üçün tədbirlər görülməlidir. Milli iqtisadiyyat qloballaşma proseslərinə qoşulduqca, respublikada hal-hazırda mövcud olan bir sıra sosial-iqtisadi problemlərin

sərbəst bazar iqtisadiyyatı prinsipləri əsasında deyil, genişmiqyaslı dövlət tənzimləmələrindən istifadə etməklə həll edilməsi tamamilə əsaslıdır.

İntensiv qloballaşma prosesində beynəlxalq münasibətlər qeyri-bərabər qüvvələrin kəskin mübarizə meydanına çevrildiyi üçün milli (siyasi, iqtisadi, mədəni-mənəvi) təhlükəsizliyin təmin olunması ənənəvi dövlətlərin başlıca funksiyasıdır. Qloballaşma yalnız o halda səmərəlidir ki, o milli maraqlara cavab verir və milli təhlükəsizliyi təmin edir.

Milli təhlükəsizlik ölkənin davamlı inkişafını təmin etmək məqsədilə fərdlərin, cəmiyyətin və dövlətin müxtəlif fəaliyyət sahələrində daxili və xarici təhdidlərdən qorunması deməkdir. Təhlükəsizliyin təmin edilməsinin meyarı milli inkişafa müasir dövrdə və gələcəkdə aradan qaldırılması çətin olan siyasi, sosial, iqtisadi, texnogen və təbii hadisələrin ziyanlı nəticələrinin hüdudlarının və sərhədlərinin müəyyən edilməsidir. Milli təhlükəsizliyin təmin olunması prinsipləri-milli məqsədlərin reallaşdırılmasına yönəldilmiş mühüm yolgöstərici ideyalardır. Dövlət özünün milli təhlükəsizliyini təbii ehtiyatları, iqtisadi inkişaf səviyyəsi, əhalinin siyasi-mənəvi potensialı, hərbi gücünün vəziyyəti ilə müəyyən edilən məcmu qüdrəti ilə təmin edir. Ona görə də dövlət nə qədər qüdrətlidirsə, milli təhlükəsizlik bir o qədər etibarlı şəkildə qorunur.

Ölkənin beynəlxalq təhlükəsizliyi onun beynəlxalq münasibətlər sisteminin qeyri-sabitlik, konfrantasiyalar, silahlı konflikt və müharibə təhdidlərindən qorunmasını tələb edir.

Milli "təhlükəsizlik" anlayışı milli "maraqlar" anlayışı ilə sıx əlaqədardır. Təhlükəsizlik milli maraqların törəməsidir. Milli təhlükəsizlik son nəticədə - dövlətin, cəmiyyətin və fərdin həyati əhəmiyyətli maraqlarının təmin olunmasına yönəldilmiş strategiyadır (225, s. 15-18).

Qloballaşma milli təhlükəsizliyin və milli maraqların təmin olunmasına geosiyasi yanaşma tərzini tələb edir. Belə yanaşma tərzi dövlətin məkan xarakteristikasının kompleksli dəyərləndirilməsini və cəmiyyətin həyat fəaliyyətinin bütün tərəfləri ilə əlaqəsinin aşkara çıxarılmasını zəruri edir.

Milli təhlükəsizlik və milli maraqların qorunması strategiyasında iqtisadi təhlükəsizlik və iqtisadi maraqların qorunması strategiyası mühüm yer tutur.

Deyilənlərə yekun vuraraq göstərmək lazımdır ki, dünya maliyyə-iqtisadi mühitində baş verən köklü dəyişikliklər milli dövlətlər qarşısında zamanın çağırışına onun çevik və adekvat reaksiya göstərməsi, kapital, əmtəə, xidmət, texnologiya, informasiya və işçi qüvvəsinin liberallaşdığı bir şəraitdə ölkənin rəqabət qabiliyyətinin təmin edilməsi üzrə yeni tələblər qoyur. Yeni şəraitdə iqtisadiyyatın tənzimlənməsi, təşəbbüskarlıq fəaliyyətinin həyata keçirilməsi, milli sahibkarlar üçün əlverişli şəraitin yaradılması, sosial mühitin təmin olunması üçün kompakt dövlətin formalaşdırılması vəzifələri qarşıda durur.

Резюме
Современная парадигма устойчивого экономического развития.
Дунямалы Велиев, Университет Азербайджан, Д.э.н.

Отмечается, что устойчивое развитие экономической системы в соответствии с новой парадигмой выступает как последовательная восходящая эволюция и представляет собой движение в направлении социализации, гуманизации и экологизации экономики. Институт государства в этом процессе занимает важнейшее место. Его роль как фактора эволюции экономики определялась его функциями И постепенно менялась от внешнего вмешательства к регулированию и, наконец, к управлению развитием экономики. Современные функции государственного управления определились в процессе их становления и реализации в странах экономического авангарда.

Ədəbiyyat:

1. Мировая экономика и международные отношения, (МЭ и МО),2003, № 4, s. 13.

2. Портер М. Международная конкуренция. М., Международные отношения, 1993, с. 895.

3. Бобылев С. Н., Гирусов Э. В., Перелет Р. А. Экономика устойчивого развития. Учебное пособие. Изд-во Ступени, Москва, 2004, 303 сс., ISBN 5-94713-046-7

4. Гвишиани Д. М. Мосты в будущее. Институт системного анализа, УРСС, Москва, 2004

5. «Наше общее будущее»: Доклад Международной комиссии по окружающей среде и развитию (МКОСР)": Пер. с англ./Под ред. и с послесл. С. А. Евтеева и Р. А. Перелета/—М.: Прогресс, 1989

6. Перелет Р. А. Выявление показателей устойчивого развития // Проблемы окружающей среды и природных ресурсов. ВИНИТИ —1995. — № 6

7. Миркин Б. М., Наумова Л.Г. Устойчивое развитие. Учебное пособие. Уфа: РИЦ Баш ГУ, 2009, 148 с, ISBN 987-5-7477-2312-1

11.5. Qloballaşma proseslərinə Uoll-Stritdən fərqli baxış

Джозеф Стиглиц. Глобализация тревожные тенденции. Издательство "Мысль" - Москва, 2003, с. 300.

“İpək yolu”, 2004, N 1.

XXI əsr tarixə sivilizasiyanı keyfiyyətcə yeni bir mərhələyə yüksəldən qloballaşma əsri kimi daxil olmuşdur. Qlobal proseslər inkişaf səviyyəsində, din və mədəniyyətlər, tarix ənənələrdə mövcud olan fərqlərə baxmayaraq, dünya ölkələrinin və xalqlarının bir-birindən qarşılıqlı asılılığını getdikcə artırır. Bu proseslər xalqların və bütövlükdə sivilizasiyanın taleyin həlledici dərəcədə müəyyən etməyə başlamışdır. İqtisadi, siyasi və mədəni proseslərdə özünü göstərən dərin qloballaşma təmayüllü iqtisadi qloballaşmada daha böyük sıçrayışla gedir və digər prosesləri də öz arxasınca aparır. Artıq siyasət getdikcə daha çox iqtisadiləşir. İqtisadi qloballaşma isə iqtisadiyyatın yalnız beynəlmiləşməsi demək deyildir. Həmin porosesin yeni və yüksək mərhələsidir.

Məlum olduğu kimi, dinamik inkişaf edən hər bir sosial prosesdən insanlar həmişə çox şey gözləyirlər, hər bir iri miqyaslı tarixi inkişaf təmayüllü düşüncələrə geniş meydan açır. Bəzən isə bu düşüncə və gözlənti özünü doğrultmur. Tarixi inkişaf proseslərinə obyektiv qiyməti yalnız müəyyən vaxt keçdikdən sonra vermək mümkün olur.

Müasir dövrdə ictimai inkişafın elə bir problemi yoxdur ki, iqtisadçı-alimlərin, politoloqların, sosioloqların mədəniyyətşünasların, ekoloqların diqqətini qloballaşma problemi qədər özünə geniş cəlb etsin. Bu problem ciddi elmi araşdırmaların, qızğın mübahisələrin və fikir toqquşmalarının predmetinə çevrilmişdir. Dünyanın siyasi məkanında yeni fenomen antiqlobalizm hərəkatı da yaranmışdır.

Qloballaşma haqqında fikir dünyasında həmin prosesləri bir tərəfli qaydada əməkdən tutmuş, cəmiyyətin inkişafına onların mütərəqqi rolunu bütünlükdə inkar etməyə qədər rəngarəng baxışlara rast gəlmək mümkündür. Bəzən isə çox sadə münasibət bəslənilir və hesab edilir ki, onlar başda ABŞ olmaqla, bir qrup zəngin dövlətlərin dünya üzərində ağalığının möhkəmləndirilməsi və daimiləşdirilməsinə yönəldilmiş səylərindən başqa bir şey deyildir. «Qloballaşmanın sonu», «Sivilizasiyaların konflikti» haqqında da kifayət qədər kitab az yazılmışdır.

Qoballaşmaya bir qayda olaraq inkişaf etməkdə olan ölkələrdə mənfi münasibət bəslənilir. İnkişaf etmiş sənaye ölkələrinin elmi və ictimai dairələrində isə adətən bu proseslər pozitiv baxımdan dəyərləndirilir. Lakin son vaxtlar sonuncular arasında bu proseslərə tənqidi mövqedən yanaşanların da sayı artmaqdadır. Bu qəbildən olan alimlərə görkəmli amerikan alimi,

2001-ci ildə iqtisadiyyat üzrə Nobel mükafatı laureatı Cozef Stiqlis də aiddir. Onun "Globalization and Discontents" (Qloballaşma və onun narazılıqları) adlı kitabı dünyada böyük əks səda doğurmuşdur. C.Stiqlis akademik dairələrdə özünün fundamental tədqiqatları ilə tanınmış və iqtisad elminin müasir mərhələdə inkişafına əhəmiyyətli təkan vermişdir. O, iqtisad elminin yeni sahəsi olan informasiya iqtisadiyyatının banisi hesab olunur. C.Keyns nəzəriyyələrinin və F.D.Ruzveltin "Yeni kursunun" davamçısı kimi iqtisadiyyata dövlətin fəal rolunun tərəfdarıdır və hesab edir, müasir kapitalizm təkmilləşə bilər və təkmilləşməlidir. 1993-cü ildə C.Stiqlis ABŞ prezidenti Klinton yanında İqtisadi Məsləhətçilər Şurasının başçısı təyin edilmişdir. 1997-2001-ci illərdə o, Dünya Bankının baş iqtisadçısı və prezident müavini olmuşdur ki, bu ona Beynəlxalq Valyuta Fondunun (BVF) praktik fəaliyyəti ilə yaxından tanış olmağa imkan vermişdir və bir inam əldə etmişdir ki, bu nəhəng təşkilatın fəaliyyəti əksər hallarda qeyri-səmərəlidir.

Nə üçün bu qədər faydalı nəticələrə malik olan qloballaşma kəskin mübarizə predmetinə çevrilmişdir? - sualına o belə cavab verir: beynəlxalq ticarət üçün bazarların açılması bir çox ölkələrə imkan verdi ki, onlar çox sürətli iqtisadi inkişafı təmin edə bilsinlər, nəzərə almaq lazımdır ki, beynəlxalq ticarət o zaman iqtisadi inkişafı sürətləndirir ki, ixracat ölkənin iqtisadi artımına təsir göstərir. C.Stiqlis sürətlə inkişaf edən və əhalisini varlandıran Asiya ölkələrini buna misal göstərir. Məhz qloballaşmanın nəticəsində dünyanın bir çox xalqlarında ömür uzanmış, rifah səviyyəsi yüksəldilmişdir. Qloballaşma inkişaf etməkdə olan ölkələrdə təcrid olunma hissini azaltmış, onların çoxu üçün müasir yüksək biliklərin qapısını açmışdır. Anti-qloballaşma hərəkatı da dünya ölkələrinin qarşılıqlı asılılığının artmasının nəticəsidir. Bu hərəkat internet vasitəsilə bütün dünyada öz fəaliyyətini tənzimləyir və qüdrətli dövlətləri pis nəticələr verə biləcək müəyyən tədbirlərdən, məsələn, süvarilər əleyhinə minalardan istifadə olunmasından imtina etməyə vadar etmişdir. Kasıb ölkələrin borclarının hissəsinin silinməsi, xarici yardımların artması da qloballaşmanın müsbət cəhətlərindəndir. C.Stiqlisə görə, qloballaşmanı tənqid edənlər çox vaxt onun faydalı nəticələrini nəzərə almırlar.

Bununla yanaşı o hesab edir ki, qloballaşma tərəfdarları da çox vaxt qabaqcadan hasil olan qənaəti əsas götürürlər. Sonuncular hesab edirlər ki, qloballaşma tərəqqidir və inkişaf etməkdə olan ölkələr, əgər səmərəli artırma nail olmaq və kasıbçılığı aradan qaldırmaq istəyirsə, mütləq onu qəbul etməlidirlər. Lakin ölkələrin bir çoxu qloballaşmadan gözlədikləri iqtisadi faydalara nail ola bilmişlər. Varlı və kasıb ölkələr arasında mövcud olan uçurumun daha da artması « üçüncü dünya» ölkələrində əhalinin böyük əksəriyyətini kasıblığın qəddar məngənəsində saxlayır. 90-cı illərdə dünyada adambaşına gəlirin orta hesabla ildə 2,5% artımına baxmayaraq, kasıbçılıq

şəraitində yaşayan insanlar daha 100 milyon nəfər artmışdır. Afrikada müstəqillik əldə edildikdən sonra yaranmış böyük ümidlər puç oldu.

C.Stiqlisin fikrinə görə, əgər qloballaşma yoxsulluğun azaldılmasında bir şey edə bilməmişdirsə, sabitliyin təmin edilməsində daha az nəticəyə nail olmuşdur. Asiya və Latın Amerikasında özünü göstərən böhranlar inkişaf etməkdə olan ölkələrin hamısının iqtisadiyyat və sabitliyi üçün ciddi təhlükə yaratdı. O, hesab edir ki, qloballaşma Rusiya və kommunizmdən bazar iqtisadiyyatına keçən bütün digər ölkələrdə də gözlənilən nəticəni vermədi. Qərbin verdiyi vədlərə baxmayaraq, yeni iqtisadi sistem bu ölkələrin əhalisinin çoxu üçün onların kommunist liderlərinin öngördüklərindən də pis nəticələr doğurdu. Bazar iqisadiyyatına keçid bu ölkələrdə, beynəlxalq iqtisadi təşkilatların sxemi əsasında həyata keçirilmiş vəçox pis nəticələr əldə edilmişdir. Halbuki, öz proqramı əsasında həmin prosesləri idarə edən Çində çox böyük nəticələrə nail olunmuşdur.

C.Stiqlis haqlı olaraq qeyd edir ki, qloballaşma məsələlərində Qərb ölkələri ikiüzlü siyasət yeridirlər. Onlar kasıb ölkələri ticarət maneələrini ləğv etməyə təhrik etdikləri halda özləri həmin maneələri saxlayırlar, inkişaf etməkdə olan ölkələrdən kənd təsərrüfatı məhsullarının ixracına mane olurlar. Qərb qloballaşma proqramını kasıb ölkələrə elə «sırıyır» ki, həmin ölkələr hesabına özlərinə ən çox fayda əldə etsinlər. Qərbin bankları Latın Amerikası və Asiyada kapital bazarı üzərində nəzarətin zəifləməsindən də böyük fayda əldə etdilər. C.Stiqlis belə bir nəticəyə gəlir ki, qloballaşmanın xeyri onu müdafiə edənlərin gözlədiklərindən çox az olmuşdur, bu prosesin özü isə xalqlar üçün çox baha başa gəlir. O hesab edir ki, qloballaşmanın əksər aspektləri hər yerdə alqışlanır. Onun yalnız dar mənada iqtisadi aspekti, habelə «oyun» qaydalarını müəyyən edən kapital bazarının liberallaşması kimi tədbirləri qanuniləşdirən və zorla qəbul etdirən beynəlxalq iqtisadi təşkilatların fəaliyyəti mübahisə doğurur.

Lakin C.Stiqlisin qloballaşmanın iqtisadi aspektindan başqa digər aspektlərinin alqışlanması haqqında fikri ilə razılaşmaq mümkün deyildir. Çünki məlum olduğu kimi qloballaşma bəzən yüz illər boyu sınaqdan çıxmış ənənəvi milli-mənəvi dəyərlərin aşınması üçün də ciddi təhlükə törədir.

İqtisadi qloballaşmanın neqativ nəticələrini və onun istiqamətləndirilməsində buraxılan səhvləri C.Stiqlis bu prosesləri tənzimləyən beynəlxalq təşkilatların, ilk növbədə Beynəlxalq Valyuta Fondu (BVF) və Dünya Bankının (DB) fəaliyyətini təhlil etməklə inandırıcı şəkildə nümayiş etdirir. O, hesab edir ki, BVF və DB son iki onilliyin əsas iqtisadi problemlərinin həll etdirilməsində mərkəzi mövqedə olmuşlar. BVF 1944-cü ildə yaradılarkən onun qlobal sabitliyi təmin edəcəyi nəzərdə tutulurdu. Onun yaradılmasının nəzəri əsaslarını hazırlayan və 1944-cü il konfransında əsas iştirakçılardan biri olan ingilis iqtisadçısı C.M.Keynisin fikrinə görə, iqtisadi böhranlar məcmusu

tələbin çatışmazlığının nəticəsidir. Bu çatışmazlığı isə dövlət öz siyasəti ilə təşviq edə bilər. Kredit-pul siyasət səmərəli olmadıqda dövlət xərcləri artırmaqla yaxud da vergiləri azaltmaqda fiskal siyasətdən də istifadə edə bilər. Keynsin modeli sonralar tənqid edilsə də, getdikcə daha aydın dərk edildi ki, nə üçün bazar qüvvələri iqtisadiyyatı tam məşğulluq səviyyəsinə qaytara bilmir və onun gəldiyi əsas nəticələr qüvvədə qalır. BVF-na yeni qlobal depressiyaların qarşısının alınması tapşırılmışdır. Hesab edilirdi ki, Fond bunu qlobal məcmuu tələbin dəstəklənməsinə töhvə verə bilməyən və iqtisadi azalmaya yol verən ölkələrə təzyiq göstərilməsini təşkil etməklə həyata keçiləcəkdir. Zəruri hallarda o, həmçinin çətinliyə düşmüş ölkələrə kredit şəklində nağd vəsaiti verməlidir.

BVF-nun ilkin konsepsiyası belə idi ki, bazar mexanizmi çox vaxt işləmir, bu isə kütləvi işsizliyə səbəb ola bilər. Fond iqtisadiyyatı bərpa etmək üçün bütün ölkələri vəsaitlə təmin edə bilməz. Ona görə də qlobal iqtisadi sabitliyin təmin edilməsi üçün qlobal səviyyədə kollektiv əməkdaşlıq zəruridir. BVF bütün dünyanın vergi ödəyicilərinin pulu hesabına yaradılmışdır. Lakin Fond onu maliyyələşdirən vətəndaşlar qarşısında hesabat vermir. Onun idarə olunmasında inkişaf etmiş ölkələr əsas rol oynayır, ABŞ isəəslində təkbaşına veto hüququna malikdir.BVF yaradıldıqdan sonra fəaliyyət prinsipi ciddi dəyişikliyə məruz qalmışdır.Bazar mexanizmi çox vaxt qeyri-kafi fəaliyyət göstərir və onun ideologıyasında üstünlüyü birinci plana keçdi. Halhazırda Fond, bir qayda olaraq o zaman kredit verir k, ölkələr büdcə kəsirinin azaldılması, vergilərin və ya faiz dərəcələrinin artırılması siyasətinin keçirilməsinə, yəni iqtisadiyyatın daraldırılması xəttinə razılıq verirlər.

BVF və DB-nın fəaliyyətində azad bazar ideologiyasını mədh edən R.Reyqan və M. Tetçerin hakimiyyətdə olduqları 80-ci illərdə ciddi dəyişiklik baş verdi. Bu təşkilatlar həmin ideologiyaya müqavimət göstərən, lakin kredit və qrantlara böyük ehtiyacı olan kasıb ölkələrə qəbul etdirmək vasitəsinə çevrilərək, yeni missioner institutu rolunu oynayır. Kasıb dövlətlərin əksəriyyəti təkliflərin səmərəliliyinə şübhə etsələr də, onları qəbul etməyə məcbur olurdular. Maraqlıdır ki, bu dövrdən etibarən, BVF və DB-nın fəaliyyəti əlaqələndirildi. Dünya Bankının fəaliyyəti getdikcə layihə kreditləri çərçivəsindən çıxdı və struktur uyğunlaşma üçün geniş miqyaslı kreditlər verməyə başladı. Lakin həmin kreditləri yalnız BVF-nın razılığı olduqda verir.

C.Stiqlis BVF-in fəaliyyətini təhlil edərək belə nəticəyə gəlır ki, həmin təşkilatın strategiyasi Vaşinqton Konsensusu adlanan üç prinsipə əsaslanır: sərt fiskal qənaət, liberallaşdırma (dövlətin iqtisadiyyatdan çıxması) və özəlləşdirmə. Onun fikrinə görə belə yanaşma nəticəsində BVF-in fəaliyyəti iflasa uğramış və xalqlara çoxlu iztirablar gətirmişdir. Çünki BVF-in öz fəaliyyətində əsas götürdüyü «bazar fundamentalizmi» nəzəri konsepsiyası müasir iqtisad elminin nailiyyətləri baxımından çoxdan köhnəlmişdir. Lakin

Fond öz fəaliyyətində bu konsepsiyaya hər hansı bir dəyişiklik etməyə tələsmir. Kitabda BVF-in fəaliyyətində, (alimin fikrinə görə) iki mühüm uğursuzluq ətraflı nəzərdən keçirilir: 1997-98-ci illərə baş vermiş Şərqi Asiya bönranı və Rusiyada islahatlar. Professor hesab edir ki, Şərqi Asiya böhranının yaranması və dərinləşməsinin əsas səbəbi dünya maliyyə möhtəkirlərinin fəaliyyəti üçün geniş meydan açan kapital bazarının liberallaşdırılması olmuşdur. O, eyni zamanda keçid iqtisadiyyatı ölkələrində, ilk növbədə Rusiyada BVF-in sxemi əsasında həyata keçirilən islahatları da kəskin tənqid atəşinə tutur. C.Stiqlis, Fondu uzağı görməyən siyasətinə görə tənqid edir və hesab edir ki, belə münasibət istər həmin ölkələrin daxilində, istərsə də kasıb dövlətlərlə varlı dövlətlər arasında dərin qütbləşməyə, dünyanın bir çox regionlarında sosial və siyasi qeyri-sabitliyə yol açmışdır. C.Stiqlis öz fəaliyyətində çalışır ki, inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında qarşılıqlı faydalı iqtisadi münasibətlər təmin edilsin, möhtəkir beynəlxalq maliyyə kapitalının dağıdıcı fəaliyyəti cilovlansın, iş yerləri açılsın, kiçik və orta biznes inkişaf etdirilsin. Alim keçid iqtisadiyyatı sahəsində həyata keçirilən yenidənqurma işlərində tədricilik və optimal dərəcədə ardıcıllıq prinsipini müdafiə edir. O «şok müalicəsinin» qəti əleyhinədir.

Hesab edirik ki, Cozef Siqlisin bu dəyərli kitabı ilə tanışlıq qlobal proseslərin dərindən dərk edilməsi üçün olduqca əhəmiyyətlidir.

11.6. Qloballaşma dövründə iqtisadi əxlaq və dini dəyərlər

Ipək yolu, 2013, №4.

Giriş. Qlobal yeni dünyada mövcud olan iqtisadi nizam bir çox ölkələrdə, xüsusən, zəif inkişaf etmiş ölkələrdə insanların çoxu üçün yoxsulluq mənasına gəlir. Ölkələr arasında və ayrıca götürülmüş ölkələrdə maddi və maliyyə ehtiyatlarının qeyri-bərabər bölgüsü artmaqdadır. Yoxsulluq və aclıq, xüsusən, zəif inkişaf etmiş ölkələrdə çoxsaylı insanlar üçün əsl faciəyə çevrilmişdir. Reallıqlar göstərir ki, belə vəziyyət dünyanın nəhəng maliyyə-iqrisadi oliqarxiyasının, çoxsaylı iqtisadi agentlərinin acgöz iqtisadi əxlaqının nəticəsidir. Ona görə də iqtisadi əxlaq mövzusu və bu məsələyə aparıcı dünya dinlərinin baxışları müasir dövrdə elmi və siyasi dairələrdə ən çox müzakirə olunan mövzulardandır.

Açar sözlər: yeni iqtisadi nizam, iqtisadi davranışı, qeyri-iqtisadi amillər, din

Yoxsulluq günümüzdə yalnız zəif inkişaf etmiş və ya inkişaf etməkdə olan ölkələri deyil, inkişaf etmiş ölkələr də daxil olmaqla, böyük bir coğrafiyanı öz təsiri altına almış ən ciddi sosyal problemdir. Son dövrlərdə aparılan araşdırmalar, yoxsulluq hüdudları içərisində yaşayan insanların geri qalmış ölkələrlə yanaşı, inkişaf etmiş ölkələrdə də xüsusi çəkisinin artdığını göstərir.

Neo-liberal siyasətlərin geniş yayıldığı XX əsrin son qərinəsində, dünyanın ən zəngin və ən kasıb ölkələri arasındakı gəlir uçurumunun getdikcə artdığını statistik rəqəmlər aydın şəkildə göstərir. Qloballaşmanın, inkişaf etməkdə olan bir çox ölkənin və xüsusən, bu ölkələrdə yaşayan az gəlirli, yoxsul dairələrin əleyhinə işlədiyi, ətraf mühit problemlərinin qlobal miqyasa çevirdiyi, iqtisadi stabilliyi təmin edə bilmədiyi, yoxsulluğu artırdığı açıq aydın görünür.

Rəqəmlər göstərir ki, qloballaşmanın sürətləndiyi, dünyada integrasiya proseslərinin daha da intensivləşdiyi 1990–cı ildən sonra bir çox ölkədə gəlir bölgüsü daha da pozulmuşdur. 2012-ci il İqtisadi İnkişaf və Əməkdaşlıq Təşkilatı(OECD) tərəfindən hazırlanan "İƏİT ölkələrində Artan Gəlir Qeyri-bərabərliyi" hesabatına görə, 2008-ci il qlobal iqtisadi böhranından əvvəlki 20 il ərzində 22 OECD ölkəsindən 17-də gəlir qeyri-bərabərliyi artmışdır. Ən mühüm nəticə isə odur ki, ailələrin xərclənən gəlir artımı ildə orta hesabla 1,7 faiz artdığı halda, həmin ölkələrdəki ən zəngin10 faiz əhalinin gəlirlərindəki artım, ən yoxsul 10 faiz əhalinin gəlir artımından xeyli dərəcədə çoxdur. Bu vəziyyət isə gəlir bölgüsünün daha da pozulmasına səbəb olmuştur.

Maraqlıdır ki, dünya miqyasında yoxsul insanların yarısı, dünyanın ən büyük 20 iqtisadiyyatına malik olan G20 ölkələrində yaşayır. İnkişaf etmiş ölkələrin bir tərəfində, ultra lüks həyat standartına malik olan azsaylı təbəqələrlə, eyni ölkədə yalnız gündəlik "İNSANİ" ehtiyaclarını belə ödəyə bilməyən milyonlarla insan mövcuddur.

Uzun illərdir, Afrika deyəndə yoxsulluk ağıla gəlir. İndi onunla yanaşı son illərdəhəddən "artıq" dərəcədə pozulan gəlir bölgüsü sistemi Amerika və Avropa ölkələrində də əhalinin xeyli hissəsinin eyni faciəni yaşamasına gətirib çıxarmışdır.

Dünya Bankının statistik məlumatlarına görə son 30 ildir, aralarında Braziliya, Çin və Hindistan kimi yüksələn iqtisadiyyata malik olan ölkələrin də daxil olduğu dünyanın ən güclü iqtisadiyyatına malik olan G20 ölkələrindəki zənginlər və yoxsullar arasındakı uçurum, tarixdə heç vaxt təsadüf edilməmişdir. Bu uçurum XX əsrin ikinci yarısında dövrü xarakter almış və bütün dünyanı getdikcə daha çox əhatə edən sarsıdıcı maliyyə-iqtisadi böhranlarla daha da dərinləşir. Bu böhranların əsl səbəbkarının isə gücləri getdikcə artan iqtisadi-maliyyə oliqarxiyasının olduğu heç kimdə şübhə doğurmur. Nəhəng transmilli şirkətlər tərəfindən idarə olunan dünyanın aparıcı dövlətlərinin yeritdikləri iqtisadi-maliyyə siyasəti isə vəziyyəti düzəltmək əvəzinə, uçurumu daha da dərinləşdirir. Belə ki, böhranqabağı həyata keçirilən pul-kredit siyasəti sarsıdıcı böhranın yaranmasına səbəb olmaqla yanaşı, böhrandan çıxmaq üçün görülən tədbirlər (nəhəng bankları xilas etmə siyasəti və s.) də varlı təbəqələrin xeyrinə olmuş, tarixdə görünməniş dərəcədə sosial gərginliyi artırmış, varlını daha da varlı etmiş, yoxsulu isə daha da yoxsullaşdırmışdır. Varlı “Şimalın” problemi olan qlobal

maliyyə böhranı yoxsul “Cənubu “ daha da yoxsullaşdırmış, bu iki fərqli qütb arasında fərqi daha da artırmışdır.

Qlobal maliyyə böhranı patlayış verməmişdən əvvəl ABŞ-ın beş böyük bankının cəmi varidatı, bütün ABŞ iqtisadiyyatının 43 faizinə bərabər idi. Böhran dövründə isə bu beş böyük bankın varidatı 8,5 trilyon dolar məbləğində artmışdır. İndi bu bankların varidatı bütün ABŞ iqtisadiyyatının 56 faizinə qədər yüksəlmişdir.

Yoxsul ailələrin gəlirləri böhranın təsiri altında erroziyaya uğradığı və işsizlik ən böyük problemə çevrildiyi halda, yalnız son bir ildə dünyadakı milyarderlərin sayı 9,4 faiz artaraq 2160 min nəfərə çatmış, cəmi sərvətləri isə 14 faiz artaraq 6,2 trilyon dollar təşkil etmişdir.

Az gəlirlilər arasında isə vəziyyət daha da dərinləşmişdir. Belə ki, Beynəlxalq Əmək Təşkilatının (ILO) 2012 "Qlobal Məşğulluq Hesabatı"na görə 2008-2009-cüillərin qlobal maliyyə böhranı dövründə və ondan sonra dünyada 50 milyona qədər işçi işini itirmişdir. Hal-hazırda dünyada 1 milyard insan aclıq içində yaşayır. Bütün dünyada təxminən 170 milyon uşaq, kifayət qədər qidalanmadığı üçün fiziki inkişaf probleminə məruz qalmışdır. Bu və digər səbəblərlə ildə 2,5 milyon uşaq aclıqdan ölür.

Ekspertlərin qiymətləndirməsinə görə son böhran dövründə əsas kapitalist ölkələrində əhalinin həyat səviyyəsi və keyfiyyəti iki dəfə aşağı düşmüşdür (2, c.106).

Əgər konkret ölkədə göstərilən vəziyyəti təhlil etmək lazımdırsa, diqqəti Azərbaycana hər baxımdan yaxın olan Türkiyəyə yönəltmək istəyirik. Burada da vəziyyət heç də ürək açan deyildir. Bu ölkədə toplanan verginin yalnız 9 faizini zənginlər, qalan 91 faizini isə sadə vatandaşlar ödəyir. Vergilərin böyük bir hissəsi gəlir səviyyəsi nəzərə alınmadan istehlakdan (dolayı vergilər) alınır.

Adambaşına düşən xalis maliyyə varidatının həcminə görə dünyada 43-cü yeri tutan Türkiyədə, sərvəti 30 milyon dollardan çox olan süper zənginlərin sayı son biril ərzində 800-dən 830-a çıxmışdır. Türkiyə Statistika Kurumu tərəfindən verilən rəqəmlərə görə 2011-ci ildə gəlirlərinə görə Türkiyədə əhalinin ən yoxsul 20 faizi ilə ən zəngin 20 faizi arasında 8 dəfə fərq mövcuddur. Əgər bu hesabat əhalinin 10 faizlik təbəqələri üzrə aparılmış olsaydı, aysberqin görünməyən tərəfini az da olsa təsəvvür etmək mümkün olardı (3).

İnsanlığın bələ bir faciəli uçurum kənarına yaxınlaşmasının başda gələn səbəbi sivilizasiyanı son 3-4 əsrdə böyük tərəqqiyə qovuşdurmuş və eyni zamanda misli görünməmiş dərəcədə ictimai qeyri-bərabərliklər yaratmış kapitalist münasibətləri sistemidir. Bu münasibətlərin iqtisadi əsası iqtisad elminin klassiklərindən olan Adam Smitin “görünməyən əl” postulatıdır. Onun fikrincə, “təbiət obyektiv təbii qanunlarla idarə edildiyi kimi, iqtisadi

sistem də obyektiv iqtisadi qanunlarla idarə olunur". Bunun əsasını isə ilahi mahiyyət daşıyan və həyatın özündə "görünməyən əl", "iqtisadi adam" təşkil edir. O, sübut etmişdir ki, bu əl fərdlərin öz mənfəətini maksimuma çatdırma cəhdlərindən ibarət olan rasionallıq prinsipidir. Ancaq bu rasionallıq ilk növbədə fərdi rasionallıqdır. İctimai rasionallıq isə mürəkkəb və ziddiyətli bazar mexanizmi vasitəsilə reallaşır. Kapitalizm inkişaf etdikcə istehsal münasibətləri də, bazar, pul, maliyyə münasibətləri də inhisarlaşmış, oliqarxlaşmış və ictimai münasibətlərin təmsilçisi olan nəhəng dövlət məxanizmini də öz mənafelərinə tabe etmişdir. Neoliberal qanunlara əsaslanan XX-XXI əsrlərin ən böyük fenomeni olan qloballaşma prosesləri isə fərdlərin öz mənfəətini maksimuma çatdırmaq istəklərinə daha geniş meydan vermiş, daha geniş imkanlar yaratmışdır. Belə bir fikir artıq aksiom halına gəlmişdir ki, bu dövrdə mütəmadi olaraq özünü göstərən sarsıdıcı maliyyə-iqtisadi böhranların başlıca səbəblərindən biri nəhəng qlobal kapitalının, əslində nəzarətsiz vəziyyətidir. Bu nəzarətsizlik bəşəri iqtisadi inkişaf tempinə ciddi zərbə vurmaqla, cəmiyyətdə ictimai qeyri-bərabərliyi artırır, yoxsulluq və aclıq bəlasını daha da dərinləşdirir.

Kapitalist sistem mövcud olduğu dövrdə üç təməl problemi həll edə bilməmişdir. Bunlar ədalətli gəlir bölgüsü, işsizlik və stabil inkişaf problemləridir. Hər üç təməl probləmin həllində əxlaqi və dini dəyərlər böyük əhəmiyyət kəsb edir (4, s.15).

Ona görə də yaranmış vəziyyət elmi və siyasi dairələri vadar etmişdir ki, cəmiyyətin idarə olunmasında qeyri-iqtisadi, mənəvi amillərə xüsusi diqqət yetirsinlər. Son vaxtlar əxlaqi və dini amillərə böyük əhəmiyyət verilir.

Həqiqətən, bəşər cəmiyyətinin yaşayışı insanların və bütövlükdə cəmiyyətin əxlaqi və emosional vəziyyətini, həyat prioritetlərini, şəxslərarası münasibətləri, xeyir və şərin meyarlarını, həyatın mənasını və insanın onda öz yerini axtarması, habələ fərdlərin davranışının stimulları və motivlərini müəyyən edən mənəvi həyatla sıx surətdə bağlıdır. İnsanların şüuru və ümumiyyətlə, ictimai şüur əhəmiyyətli dərəcədə ictimai varlıqla müəyyən edilir (K.Marks). Çünki yaşamaq üçün onun davranışı ətrafda mövcud olan şəraitə uyğun olmalıdır. Lakin insanların həyatı və davranışı, yalnız varlıq şərtlərindən deyil, həm də onların dünyagörüşündən asılıdır.

Dünyaya və insanın onda yerinə bütöv baxış kimi prinsiplər, görüşlər, inamlar sistemi dünyagörüşünün tərkib hissələridir. Dünyada üç əsas dünyagörüşü mövcuddur: mifoloji, dini və fəlsəfi. Mifoloji dünyagörüşü qədim dünyada mövcud idi və gözlənilmədən müasir dövrdə də inkişaf etməyə başlamışdi. Fəlsəfi dünyagörüşü elmi biliklərə əsaslanır və ətraf gerçəklikdə orientasiya götürmək məqsədini güdür. Din insana və ətraf dünyaya təsir göstərən ilahi qüvvəyə əsaslanır. Din hər şəydən əvvəl keçmiş nəsillərin mənəvi

təcrübəsi nəzərə alınmaqla insanın daxili aləmini əks etdirir, onun cəmiyyətdə davranışının daxili reqlamentlərini, mənəvi prinsiplərini müəyyən edir. Ənənəvi dinlərin əsas etik prinsipi belədir: *özünü sevdiyin kimi yaxınlarını da sev*. Bundan başqa dinə insandan yüksəkdə duran ilahi qüvvə də daxildir.

Dində ruh, ürək və şeytan məvhumları elmi status almışdır. Onların qarşılıqlı münasibətləri bütün bəşər tarixini bütövlükdə və insan həyatını ayrılıqda götürülmüş şəkildə müşaiyət edir. Şeytan ənənəvi dinlərdə formalaşmış olan insanın daxili dünyasını, mənəviyyat prinsiplərini dağıdır, cəmiyyəti tənəzzülə sürükləyir və onu çökməyə doğru aparır.

Dövrümüzdə əxlaqi dəyərlərdən imtina, guya hər şeyə icazə verildiyi düşüncəsi, nəyin bahasına olursa - olsun həzz alınması istəyi həddən artıq çox geniş yayılmışdır. Həmin prinsiplərin şeytan tərəfindən zorla qəbul etdirildiyi iddia edilir. Şeytan insanları müxtəlif hiylələrlə özünün haqlı olduğuna inandırır. Yalançı dünya yaranır, yalançı məqsədlər formalaşır, şeytan həmişə mələk libasında olur, onun qulluqçuları isə həqiqət yolçuları olurlar. Bu bütün dinlərdə belədir.

XX əsrin ikinci yarısında qloballaşmanın sürət götürməsi ilə insanın fəaliyyəti planetar miqyas aldı, kosmosa doğru irəliləməyə başladı. Bu isə ictimai inkişafın mümkün ssenarisini məhdudlaşdırdı, istiqamətinə təsir göstərdi. Qlobal istiləşmə, ozon təbəqələrindəki dəyişikliklər, biosferadakı uyğunsuzluqlar, bir sıra heyvanat və bitki növlərinin kökünün kəsilməsi artıq bütün bəşəriyyət üçün təhlükə yaradır.

Dünya və tarix üçün daha təhlükəlisi odur ki, qloballaşma dövründə təbiətin ən yüksək varlıqları olan insanların davranışı informasiya mexanizmi vasitəsilə qlobal güclərin mənafeyinə uyğun olaraq formalaşdırılır və idarə olunur.

Belə bir nəhəng güclərin təsiri ilə mənəvi mühitin dağılması üçün real təhlükə yaranmışdır. Sosial qütbləşmə və sosial-iqtisadi ziddiyyətlər dərinləşir. Ümumiyyətlə, demək olar ki, XX əsrin II yarısından bəşəriyyət keyfiyyətcə yeni mühitdə yaşayır və onun fəaliyyətinin bütün sahələrində (ekoloji, informasiya, sosial) qeyri-sabitlik getdikcə artır.

Haram hesab edilən faiz dərəcəsinə elmi prizmadan baxıldıqda, o nəinki məcmu tələbi stimullaşdırmır, əksinə onu məhdudlaşdırır. Belə ki, məşğulluğun və beləliklə, məcmu tələbin artımında mühüm rol investisiyalar oynayır. İnvestisiyalar da mənfəət norması faiz dərəcəsini üstələdikdə baş verir. Lakin səmərəliliyin azalması qanununa əsasən mənfəət norması azalmağa meyllidir, lakin faiz dərəcəsi daha sabitdir. Bu da investisiyaların və beləliklə məcmu tələbin artım imkanlarını məhdudlaşdırır.

Monetar alətlərin iflasa uğradığı ölkə kimi Yaponiyanı da göstərmək olar. Belə ki, 80-ci illərdəki böhrandan sonra Yaponiyada əhali və firmaların

borc və kreditdən qaçma prosesi başlandı, hətta sıfıra yaxın faiz dərəcələri kreditləşmə prosesini və iqtisadi artımı dirçəldə bilmirlər.

Beləliklə, son 50 il ərzində baş verən iqtisadi böhranlar fiskal və monetar alətlərin imkanlarının məhdud olduğunu göstərdi: mövcud iqtisadi sistemdə gəlirlərin hərəkəti ya məcburi (vergilər vasitəsilə), ya da hansısa mənfəət asasında (faiz dərəcəsi) baş verir ki, bu alətlər işləmədikdə gəlirlərin hərəkəti dayanır və bu da böhrana səbəb olur.

Vergi və monetar alətlərin işləmədiyi şəraitdə gəlirlərin hərəkəti yalnız fədakar cəmiyyətlərdə mümkündür: bu cəmiyyətlərdə insanlar pullarını təmənnasız olaraq borc və ya sədəqə şəklində digərlərə verirlər, bu da məcmu tələbi artıraraq iqtisadi artımı stimullaşdırır.

Beləliklə, yalnız iqtisadi alətlərə əsaslanan iqtisadi sistem böhrana məhkumdur.

Burada qeyd etmək istərdik ki, bazar iqtisadiyyatı, pulların təmənnasız, yəni mənfəət olmadan digər şəxslərə verilməsini qeyri-rasional hesab edərək bunu qeyri-mümkün bilir. Bu, yalnız cəmiyyətdə fədakarlıq olduqda mümkündür ki, bu da axirət etiqadı olan cəmiyyətlərdə daha da güclü olur. Bu cəmiyyətlərdə insanlar axirəti və ilahi mükafatı düşünərək pullarını təmənnasız olaraq borc və ya sədəqə şəklində digərlərə verə bilərlər.

Bu baxımından deyə bilərik ki, istənilən iqtisadi böhran, o cümlədən yaşadığımız qlobal iqtisadi böhran cəmiyyətdə mənəvi və fədakarlıq böhranını əks etdirir. Fədakarlıq və digərlərinə təmannasız yardım (sədəqə və ya borc şəklində) isə gəlirlərin kəskin qeyri-bərabərliyini azaldaraq iqtisadi inkişafı daha dayanaqlı edir.

Burada fransız filosofu professor Professor Pyer Durtginin İmam Hüseynin Kərbala hərəkəti timsalında etdiyi fədakarlıq barədə dediyi sözlərini qeyd etmək olar: “Deyə bilmərəm ki, fədakarlıq yenidən dirçələcəkdir. Bu təqribən qeyri-mümkündür. Biz Qərbdə İmam Hüseyn (ə) fədakarlığı kimi bir fədakarlığa malik deyilik. Bu məsələ ki, o, fəda olmuşdur, biz xristianlar tərəfindən dərk edilə bilən bir məsələdir... Fədakarlıq sözün əsl mənasında tərbiyə məsələlərində daha çox olmalıdır. Bu o şeydir ki, bu gün əldən vermişik”.

Burada həmçinin Roma Papası Benedikt XVI-nin də sözlərini qeyd etmək olar ki, dünyanı mənəvi böhran bürüyüb və o, Qərbi eqoizmdən əl çəkməyə və zəif və yoxsullara hörmət etməyə çağırıb.

İstanbulda həyata keçirilən Provoslav kilsə nümayəndələrinin iclasında qəbul olunmuş yekun müraciətdə qeyd olunur ki, qeyri-insani iqtisadi fəaliyyətin nəticəsi olan iqtisadi böhran varlı və yoxsullar arasındakı uçurum artırır. Həmçinin qeyd olunur ki, iqtisadiyyatın dayanıqlılığı yalnız səmərəliliyin ədalət və həmrəyliklə birgə olduğu halda təmin olunur.

Bütün Rusiyanın Patriarxı da demişdir ki, “Bizi uzun müddət ərzində əmin edirdilər ki, iqtisadiyyatda əsas kapital, istehsal vasitələri, nəzəriyyələr və texnologiyalardır. Lakin böhran bu postulatları inkar etdi”.

Beləliklə qlobal çətinliklərdən çıxmaq üçün planetin bütün xalqlarının qüvvələrinin birləşdirməsi zərurəti özünü qabarıq şəkildə göstərir. İnsanlar bu çətinliklərdən çıxmağın yolunu getdikcə daha çox mənəvi dəyərlərdə, onun mühüm tərkib hissəsi olan dini dəyərlərdə axtarırlar.

Ona görə də müxtəlif dinlərdə iqtisadi davranış münasibətin nəzərdən keçirilməsi müasir dünyada yaranmış antibəşəri iqtisadi davranışlar siasteminin dərk edilməsi və aradan qaldırılması yollarının aşkara çıxarılması üçün ipucu verir.

İslam dinində olan inam, bilik böyük prioritet təşkil edir. Biliyin əhəmiyyəti haqqında “Quran” ayəsi vardır. Bilik insanı Allahdan qorxmağa çağırır. Allah qarşısında qorxunun olmaması günahlara və nizamsızlığa yol açır. İslam tarixindən biz bilirik ki, Allaha inamsızlığa görə bir çox xalqlar yüksək qüvvə tərəfindən məhv edilmişlər.

Buddizmin banisi BUDDA deyirdi: “Dünya daim yanırsa, bu nə gülüş, nə sevincdir? Dünya qaranlığa bürünmüşdür, niyə işıq axtarmırsınız? İztirabların səbəbi məişətdə acgözlük və ehtirasdır...”

Hələ qədim Yəhudi dinində hər şeyin sahibi Allah hesab edilirdi və Süleyman Peyğəmbərin təlimində deyilirdi: “Sən işlərini Allaha əmanət elə, onda bütün işlərin başa çatacaqdır” və yaxud “Çoxları hökmdarın xoş simasını axtarırlar, halbuki insanın taleyi Allahın əlindədir” (5.c.10).

Başqasının əməyini mənimsəmək bütün dinlərdə böyük qəbahət həsab edilirdi və Süleyman Peyğəmbər hesab edirdi: “Mənim özümün əməyi, günəş altında işlədiyim hər şeyi görməyə gözüm yox idi, çünki o başqa insana qalacaq, sonra nə olacaq və kim bilir, o ağıllımı, yaxud ağılsızmı olacaq, ancaq mənim əməyimin sahibi olacaqdır”.

Bütün dinlərdə Allahın insanı yüksək ideallar üçün yaratdığını, lakin insanın bu idealları yerinə yetirə bilmədiyi göstərilir. Belə ki, Süleyman Peyğəmbər deyirdi: “Mən Allahın insan oğlu qarşısında qoyduğu vəzifələri başa düşdüm: O hər şeyi gözəl və vaxtında yaratmışdır, hətta onun ürəyinə əbədilik hissi də aşılamışdır, lakin Allahın yaratdığı işləri insan əvvəldən axıra qədər dərk edə bilmədi”.

Süleyman Peyğəmbər yenə deyirdi: “Allah insanı düz yaratmışdır, insanlar isə çoxlu əyri yollar axtarırlar”. O həm də deyirdi: “Söz verdin, yerinə yetir! Yaxşı olar ki, vəd etmə, vəd edib yerinə yetirməməkdənsə, vəd etməmək yaxşıdır”.

Bütün dinlərdə insan Allahın şah əsəri hesab edilir və xeyirxah işlər görmək üçün yaradıldığı qeyd edilirdi. Məsələn, “İncil”də yazılmışdır: “Siz Yer kürəsinin duzusunuz; amma duz dadsız olarsa, o nə ilə duzlanar? Artıq

çölə atılıb, insanların ayaqları altında əzilməkdən başqa bir şeyə yaramaz.

Siz dünyanın nurusunuz. Dağın zirvəsində qurulan şəhər gizli qala bilməz.

Və çıraq yandırarkən, onu qabın altına qoymazlar, amma çıraqdana qoyarlar ki, evdə olanların hamısını işıqlandırsın.

İsa Peyğəmbər deyirdi: "Düzgünlük uğrunda çalışanlar xoşbəxtdirlər-səmada hökmranlıq onlara məxsusdur".

"Əgər insan bütün dünyanı əldə edərsə və bununla öz ürəyini zədələyərsə, ondan insana nə fayda?"

"Tamahkarlar dünyanın bəlasıdır..."

Dəvə iynə deşiyindən asan keçər, nəinki varlı Allahın çarlığına.

Əgər kamil olmaq istəyirsənsə, get öz malikanəni sat və dilənçilərə payla və göylərdə xəzinə əldə edəcəksən.

İşsiz inam ölüdür.

Əgər sizin pulunuz varsa, onu artırmaq məqsədilə verməyin, elə adama verin ki, ondan geri ala bilməyəcəksiniz.

Əgər özünüzü dərk etməsəniz, siz kasıbçılıqdasınız və kasıbçılısınız.

Əgər plot-uşaq ruh üçün yaranmışsa - bu möcüzədir. Əgər ruh bədən üçün yaranmışsa, bu möcüzələr möcüzəsidir. Ancaq Mən, Mən ona təəccüb edərəm ki, bu qədər böyük var-dövlət belə kasıbçılığa yerləşir.

Müdrik adamlar deyirlər ki, hər şey ondan başladı ki, İsa Peyğəmbər tacirləri ehramdan qovdu və stolları çevirdi və sikkələri dağıtdı.Pul sahibləri öz xidmətlərinə görə faiz alırdılar. Yəni sələmçiliklə məşğul olurdular. İsa Peyğəmbər deyirdi: «Heç kəs iki Allaha qulluq edə bilməz... Allaha və mammona», Mammon – qədim Suriyada sərvət allahı idı... Sələmçilik xristianlar üçün uzun müddət qadağan olunmuşdur. İslam dinində isə o, indi də günahdır və yeddi günahdan biri hesab edilir. Nə üçün? Ona görə ki, pulun hökmranlığı işguzar əllərdə bütün digər hökmranlıqlardan, Əstağfurullah, hətta Allahın və dövlətin hökmranlığından da güclü olur.

"İncil"də daha sonra deyilir (fəsil 12): Eləcə də biz çox olub Məsihdə tək bir bədən təşkil edirik, ayrı-ayrılıqda isə bir-birimizə bağlı üzvlərik.

Qardaşlıq sevgisi ilə bir-birinizi şəfqətlə sevin; bir-birinizi hörmətdə qabaqlayın.

Beləliklə, hər adama haqqını verin; vergi isə vergini; gömrük isə gömrüyü; ehtiram isə ehtiramı; hörmət isə hörməti.

13.9 : "tamahkarlıq etmə"

14.7: Çünki bizlərdən heç kim özü üçün yaşamır və heç kim özü üçün ölmür.

14.19: Beləliklə, sülh gətirən və bir-birimizi ruhən inkişaf etdirən şeylərə can ataq.

Dövlət, iqtisadiyyat və İslami dəyərlər arasındakı münasibətlər son illərdə bütün aspektləri ilə elmi və siyasi dairələrdə gündəmə gəlmiş və qızğın mübahisə obyektinə çevrilmişdir. Bu mübahisələrdə İslamın dünyəvi xarakterli bir din olduğunu müdafiə edənlər "Qurani-Kərim"ə əsaslanırlar. İnsanlar bu misilsiz mənbədə mahiyət və keyfiyyətləri Allah tərəfindən müəyyən edilən bir dövlət axtarışındadırlar. Mütəxəssəslərin fikrinə görə "Quran" düzgün oxunulduqda, keyfiyyətləri dolayı və ümumi əsaslarla müəyyən edilmiş bir dövlət anlayışını orada tapmaq mümkündür.

İnsanın mənəvi, əxlaqi mahiyyətinə İslam dininin münasibəti yüksəkdir. Allah Təala "Qurani-Kərim"də müxtəlif vasitələrlə insanı Yer üzünün ən şərəflisi kimi təqdim etmişdir.

Bütün dinlərdən fərqli olaraq İslam insanların həyat tərzini nizamlayan və tənzimləyən sosial-iqtisadi, sosial-siyasi, hüquqi-etik, mədəni-əxlaq qaydalarını əhatə edən bütov bir elmi sistemdir. İslam bütün sahələrdə olduğu kimi iqtisadiyyatda da bir sistemdir, bir nizamdır (6. s.54).

İslam hər bir inanc və düşüncə sisteminin ələ almağı prinsiplərə bağlamışdır.

İslam istehsal və istehlak məsələlərində ən ədalətli yol tutaraq cəmiyyətdə təbii haqq və azadlıqları həmişə tələb etmiş və qorumuşdur. Cəmiyyətdə fərdlərin necə mövqe tutmalı olduğunu İslam düzgün göstərir. Fərdlər, hər şeydən əvvəl, kapital yığımı məsələsində kapitalizmdə olduğu kimi özbaşına buraxılmırlar. Onlar iqtisadi fəaliyyətlə, yalnız "haram gəlirlərdən" uzaq durmaqla məşğul ola bilərlər. Cəmiyyətə zərər verəcək, əxlaqını pozacaq, ictimai həyatı zəiflədəcək fəaliyyətlərin hamısının icrası şiddətli cəza ilə qanunlaşdırılmışdır.

İslam iqtisadi sistemində ilkin tələbat maddələrini toplayaraq qıtlıq yarananda satılması, pulun faizə verilməsi, möhtəkirlik, qumarxana açılması, fahişəxana və qadın ticarəti qadağan edilmişdir. Onlar haram sərmayə hesab edilir. "Şeytan sizi yoxsulluqla qorxudaraq alçaq işlərə sövq edər, Allah isə (əksinə) sizə bagışlamaq və bərəkət vədəsi verər. Allah (mərhəməti ilə) genişdir.(Allah hər şeyi) biləndir(əl-Bəqərə, 268).

İslam ifrat dərəcədə sərmayə toplanmasına yol verməməklə, kommunizmdə olduğu kimi özəl mülkiyyəti də qadağan etməmişdir. Çünki özəl mülkiyyət insanların təbii haqqıdır. Onun, yalnız qeyri-qanuni mənbəyi və xərclənmə istiqaməti qadağan edilmişdir.

İslam su, torpaq, təbii sərvətlər kimi cəmiyyətin müştərək malları üzərində özəl mülkiyyəti qadağan etmişdir. Bunlar İslami dövlətə aiddirlər.

İslam iqtisadi sistemi öz məzmununa görə ilahidən gələn göstərişlərə görə insanların təsərrüfat prosesində iştirakını və davranış qaydalarını müəyyən edir. Formasına görə isə o maddi nemətlərin istehsalı, bölgüsü və istifadəsində ədalətli davranışı tələb edir. İslam iqtisadi sisteminin əsas

məqsədi belə müəyyən edilmişdir: cəmiyyətin bütün üzvlərinin rifahının yaxşılaşdırması; onların faydalı fəaliyyətinin bərqərar edilməsi; cəmiyyətin iqtisadi potensialdan hər bir fərdin istifadə etməsi üçün bərabər şəraitin yaradılması; kasıblığın aradan qaldırılması; əldə edilmiş sərvət və nemətlərdən könüllü olaraq sədəqə verilməsi.

İslamın iqtisadi sahədə əsas prinsipləri onun fundamental əsası olan "Qurani-Kərim"dən qaynaqlanmışdır. Bu əsaslara daxildir: həddən ziyadə var toplamağın pislənməsi; yığılan məbləğin xərclənməsi; sələmçiliyin günah elan edilməsi; ticarətin dəstəklənməsi; mülkiyyət münasibətlərinin ədalətli qaydalarla tənzimlənməsi; vərəsəlik hüququnun ədalətli olması; sədəqə və ehsan; borcların ədalətlə tənzimlənməsi. "Bilin ki, mal-dövlətiniz və övladınız sizing üçün (Allah qarşısında) ancaq bir imtahandır. Ən böyük mükafat isə Allah yanındadır!"(əl-Ənfal, 28). "(Bəzi adamların fəxr etdiyi) mal-dövlət, ogul-uşaq (oglllar) bu dünyanın bər-bəzəyidir. Əbədi qalan yaxşı əməllər isə Rəbbinin yanında həm savab, həm də (Allahın mərhəmətinə) ümid etibarilə daha xeyirlidir!" (əl-Kəhf, 46).

"Qadınlar, uşaqlar, qızıl-gümüş yığınları, yaxşı cins atlar, mal-qara və əkin yerləri kimi nəfsin istədiyi və arzuladıgı şeylər insanlara gözəl göstərilmişdir. (Lakin bütün) bunlar dünya həyatının keçici zövqüdür, gözəl dönüş yeri isə Allahın yanındadır" (Ali-İmran,14).

"(Ya Rəsulum!) Qızıl-gümüş yığıb onu Allah yolunda xərcləməyənləri şiddətli bir əzabla müjdələ! Ogün (qiyamət günü) yığdıqları qızıl-gümüş cəhənnəm atəşində qızdırılıb alınlarına, böyürlərinə və kürəklərinə dağ basılacaq (və onlara): Bu sizin üçün yığıb saxladığınız mallardır. Yığdığınız mal-dövlətin (əzabını, acısını) dadın!" (əl-Tövbə, 34-35).

"Sizi bizə yaxınlaşdıran nə var-dövlətiniz, nə də ogul-uşağınızdır. Yalnız iman gətirib yaxşı işlər görənlərin" (dünyadaki) əməllərinə görə mükafatları qat-qat (birə-on) artıq olacaq və onlar cənnət otaqlarında (Cənnətin yüksək məqamlarında) əmin-amanlıq içində yaşayacaqlar!" (Səba, 37).

Göründüyü kimi, kapitalizmdə olduğu kimi sərvət yalnız fərdin özünün deyildir. Onun üzərində başqalarının da haqqı vardır. Sərmayə bu cəmiyyətdə qazanıldığı üçün, sərmayə sahibi üzərinə mükəlləfiyyətlər də qoyulmuşdur. Mal və sərvət zənginin əlində bir əmanətdir. "Qurani-Kərim"də göstərildiyi kimi, sərvət yalnız zənginlər arasında dolaşan bir dövlət olmamalıdır (Həşr,7). Sərvət bütün müsəlmanların ümumi rifahının yüksəldilməsi məqsədinə yönəldilməlidir.

İslam etiqadına görə mülkün əsl sahibi Allahdır. Möminlər Onun yer üzündəki xəlifələridir. Əşya üzərində fərdlərin yalnız istifadə haqları vardır.

İslam sərvətin bölgüsündə ədaləti ön planda tutur. "Allah ruzi baxımından birini digərindən üstün etmişdir. Üstün olanlar (varlılar)

tabeçiliyində olanları (qulları, kənizləri) öz ruzilərinə şərik etməzlər ki, bu cəhətdən bərabər olsunlar"(ən-Nəhl, 71).

İnsan əməyi ilə əldə etdiyi qazancdan özünün, ailəsinin və varislərinin faydalanacağını bildiyi zaman daha səylə çalışmağa və yeni-yeni təşəbbüslər göstərməyə can atar. Bu cəhətdən insanlar arasında maddi baxımdan dərəcələnmənin, sıralanmanın onun öz yararına olduğu görünür. "(Ya Rəsulum!) Məgər sənin Rəbbinin mərhəmətini (peyğəmbərlərini) onlarmı paylaşdırırlar?! Dünyada onların dolanacaqlarını (keçinəcəklərini) öz aralarında biz bölüşdürürük. Bir-birlərinə iş gördürsünlər deyə, bəzilərinin dərəcələrini digərlərindən üstün tutduq. Sənin Rəbbinin mərhəməti onların yığdıqlarından (dünya malından) daha yaxşıdır!" (əz-Zuxruf, 32). Çünki belə olduqda aşağı dərəcədə olanlar yuxarı dərəcəyə qalxmaq üçün nə lazım olduğunu və öz səyləri ilə nə edə biləcəklərini görür və bilirlər. Ona görə də "Quran" "Nəcm" surəsində belə buyurur: "İnsana ancaq öz zəhməti qalar! Şübhəsiz ki, (qiyamət günü) onun zəhməti görünəcəkdir".

İslam dini özünün iqtisadi sistemini bu əsas prinsipdən çıxış edərək müəyyənləşdirmişdir: azlıq təşkil edən zəngin insanların olmasına icazə verilir, amma onlara çox xərc tələb edən mükəlləfiyyətlər də həvalə edilir. Belə ki, varlılar yoxsulların xeyrinə olaraq vergi ödəməyə borcludurlar. "Nə əldən çox bərk ol, nə də əlini tamamilə açıb israfçılıq et. Yoxsa həm qınanarsan, həm də peşman olarsan" (əl-İsra,29).

Müqəddəs kitabda deyilir: "Allahın sənə verdiyindən özünə axirət qazan (malını Allah yolunda sərf et). Dünyadaki nəsibini də unutma. *(O maldan qismətinin ancaq bir kəfən oldugunu bil. Pulunu mənasız yerə saga-sola səpələmə; səhhətinin, sərvətinin, gəncliyinin qədrini bil. Sabah səni Allahın əzabından qurtara biləcək yaxşı əməllər et qohum-əqrəbaya xərcləməklə) yaxşılıq et. Allah sənə (sərvət verməklə) yaxşılıq etdiyi kimi, sən də (varından yoxsullara, qohum əqrəbaya xərcləməklə) yaxşılıq et. Yer üzündə fitnə-fəsad törətməyə cəhd göstərmə. Həqiqətən, Allah fitnə-fəsad törədənləri sevməz! " (əl-Qəsəs, 77).*

Halal zəhmət yaşayışın əsas mənbəyi olmalıdır. Bu həm varlılara, həm də kasıblara aiddir.

"İnsana ancaq öz zəhməti (səyi, çalışması, əməli) qalar! Şübhəsiz ki, (qiyamət günü) onun zəhməti (əməli, səyi) görünəcəkdir! Sonra da onu (zəhmətinin, əməlinin) tam əvəzi veriləcəkdir!" Həqiqətən, axır dönüş sənin Rəbbinədir!"(ən-Nəcm, 39-42). Ölçüdə, çəkidə aldatmağı ən böyük günahlardfan biri hesab edilir: "Ölçüdə düz olun, (onu) əskildənlərdən olmayın! Düz tərəzi ilə çəkin!" (əş- Şüəra, 181-182).

İslamda qazandığını xərcləməkdə də insanlar özbaşına buraxılmamışlar. Onlar pulları halal yollarla qazanmalı və həmin pulları Allahın əmr etdiyi yerlərdə və məqsədlərə xərcləməlidirlər. Təm-təraqlı yaşamaq və israfçılıq

qəti haramdır. Əlindəki pulu xərcləyərkən fərd Allahın "yeyin, için, lakin israf etməyin. Çünki Allah israf edənləri sevməz" ayətini daim yadda saxlamalıdır. Bu məsələdə dövlətin üzərinə mühüm görəv düşür. Dövlətin qoyduğu qayda qanunlar və gözqamaşdırıcı reklamları insanları təmtəraqlı həyata sövq etməməlidir. Bu ölkənin abadlaşmasına da böyük təsir göstərir.

Beləliklə, İslam israfçılığı haram hesab etməklə belə bir müsbət nəticəyə nail olunmasını təmin edir.

İslam dinində başqasına yardım edən şəxslər təqdirə layiq hesab edilirlər. Dilənçilik haqqında isə İslam ən ağır ifadələrdən istifadə etmişdir. Qeyd olunur ki, dilənçilik qiyamət günündə utanca səbəb olacaqdır. Eyni şəkildə İslamda xəsislik və ifrat da qadağan edilmişdir.

Qeyd etmək lazımdır ki, islam iqtisadiyyatı azad mübadiləni, şəxsi mülkiyyəti və sazişlərin təhlükəsizliyini müdafiə edir. Mülkiyyət məsələsi hər zaman iqtisadiyyatın hüquqi tənzimlənməsi məsələlərində əsasdır. Bununla bərabər yaddan çıxarmaq lazım deyil ki, yerdə və göydə olan bütün mülkiyyət Allaha məxsusdur. Bunlar "Quran"da öz əksini tapmışdır. Beləliklə, islam konsepsiyasında mülkiyyət qəti, təbii və ilahi hüquqda mülkiyyətə sahib olmaya əsaslanmışdır. Allah əmanət kimi etibar etdiyi Yer kürəsində insanı öz canişini edib və ona sahibolma, idarəetmə və istifadəetmə hüququnu verib.

"Quran" sələmçiliyi, faiz gəlirlərini günah hesab edir və qadağan etmişdir. "Sələm (müamilə, faiz) yeyənlər (qiyamət günü) qəbirlərindən ancaq Şeytan toxunmuş (cin vurmuş dəli kimi) qalxarlar"(əl-Bəqərə,275) (11).

Qərbin iqtisad elmindən fərqli olaraq İslam (şəriət) hüququ fundamental məna daşıyır. İslam hüququ, qalan hüquqi sistemlər kimi, iqtisadi və başqa fəaliyyətləri üçün öz "çərçivəsini" yaradır, lakin burada önəmli bir fərq vardır. Dünyəvi sistemlərdə qanunlar insan izni ilə hazırlanır, dəyişilir və ləğv olunub nəticədə dünyəvi xarakter daşıyırsa, İslam sistemində qanunlar İlahi təbiətlərini saxlamalıdırlar ki, dəyişilməz, əbədi və insan müdaxiləsindən azad bir xarakterə malik olsunlar.

Bütövlükdə iqtisadiyyatda "haramı" belə qruplaşdırmaq olar: sələmçilik ilə məşğul olmaq; rüşvət vermək və almaq; fırıldaq və yalan yolu ilə qazanc əldə etmək; haram kateqoriyasına aid məhsul (narkotik maddələr, spirtli içkilər, donuz və ondan hazırlanmış məhsullar, fahişəlik, qumar və s.) istehsal etmək və satmaq; bazarı inhisarlaşdırmaq və haqsız rəqabət aparmaq; oğurlanmış və ya zəbt olunmuş mülkiyyətin və ya qanuni yolla əldə olunmayan hər hansı bir şeyin alqı-satqısını təşkil etmək; alıcıları çaşdırmaq və qorxutmaq; süni şəkildə artırılmış qiymətlərlə məhsulları satmaq.

Haram bu siyahı ilə bitmir, hər qrupun öz alt qrupu, mənası və interpretasiyası vardır. Qadağa qoyulmayan fəaliyyətlər avtomatik olaraq icazə olunanlar kateqoriyasına aid olunur. Lakin hər icazə olunan arzu olunan

demək deyildir. Məsələn: satılan malın müqayisəli nöqsanlarının gizlədilməsi - əgər bu yalan deyilsə. Yox əgər yalandırsa, o zaman bu haramdır.

Ticarətin qaranlıq yerlərdə aparılması da düzgün deyil, çünki bu mala yaxşı baxmaqda müştəriyə maneəçilik törədir.

Hər hansı bir yolla olursa – olsun, ifrat qazanc əldə etmək arzu olunan deyil. Baxmayaraq ki, "ifrat" ifadəsi qeyri-müəyyəndir. Bu məsələ alimlər arasında mübahisə mövzusudurdur. Mübahisəni birtərəfə qoysaq, bir şey aydındır ki, qazanc yeganə motivasiya amili olmamalıdır. Bu "islami şəxs"i (Homo İslamicus) "iqtisadi şəxsdən" (Homo Economicus) fərqləndirir. Bütövlükdə İslam həyat fəaliyyətinin bütün sahələrinə, o cümlədən də iqtisadiyyata təsir göstərir. Bütün həyat boyu qəssablıq, kəfənlərin və tabutların hazırlanması ilə məşğul olmaq da arzuolunmazdır. Bunun izahı odur ki, insanların qana və ölümə vərdiş etmələri onların hisslərinin sərtləşməsinə gətirib çıxardır.

İslamda insanlara məsləhət görülən iqtisadi fəaliyyət növləri isə bunlardır: möminlərə faizsiz borc verilməsi; qazancın bölüşü prinsipləri əsasında müxtəlif layihələrin maliyyələşdirilməsi; kasıb müştərilər istisna olmaqla malların hamıya eyni qiymətlərlə satılması; müştəri alınan malın keyfiyyəti və qiymətindən narazı qaldıqda, satıcı tərəfindən onun geri götürülməsi (İslama görə müştəri üstünlük təşkil edir); bazarda bütün dəyişikliklərlə ayaqlaşan çevik qiymət sisteminin olması; iqtisadi fəaliyyətin açıq şəkildə aparılması vəşəffaflığın təmin olunması; iqtisadi fəaliyyətin xəsisliklə deyil, səxavət prinsipləri ilə aparılması; malların keyfiyyət baxımından istehsalının və satışının təkmilləşdirilməsi; daima əməklə məşğul olmaq və səhər yuxudan tez oyanmaq və s.(6. s.67).

Göründüyü kimi, bu qaydalar sadəcə cənnətdə yer qazanmaq üçün deyil, həm də uğurlu iqtisadi fəaliyyətin aparılması və dünya nemətlərinin əldə edilməsi üçün çox faydalıdır. İslam insanları sadə və təvazökar həyat tərzi sürməyə dəvət edir. Bu prinsiplər cəmiyyətdə hüzur və rifahı təmin edir, ölkənin tərəqqisinə yol açır.

İslam dininə görə bizim həyatın məqsədi ondan ibrətdir ki, malik olduğumuz potensialı reallaşdıraq, bizə bəxş edilmiş sonsuz sərvətləri qoruyaq, səmərə ilə istifadə edək, heç kəsin haqqını taptalamayaq, haramdan və sələmçilikdən uzaq duraq, ədalətlə yaşayaq. Maddi cəhətdən imkanı olan hər bir müsəlman ildə bir dəfə malının qırxda birini zəkat verməlidir. İslama görə həyat bizə ona görə verilir ki, biz Allahın istəyinə uyğun olaraq özümüzün şərəfli missiyamızı yerinə yetirək.

Təsadüfi deyildir ki, bir çox alimlər iqtisadiyyatda İslami dəyərlərin tətbiqini iqtisadi tənəzzüldən çıxmagın bir yolu hesab edirlər.

Ədəbiyyat:

1, Олег Черковец. Современный капитализм: не кризис модели, а банкротство системы.- «Общество и экономика», 2013,Т 5, с.106.

2.Kürəsəlləşən dünyada gəlir dağılımı və yoksulluk. Düşüncə-Analiz 01-10-2012.Özgün Duruş. www

3. Prof. Dr. Haydar Baş. Milli iqtisadi model. Bakı, 2006, s.15.

4.Анатомия мудрости. Философская афористика. М.,1996,с.10

5.Meybullayev M.X., "İslam iqtisadiyyatı. Bakı,"Ünsiyyət", 2001, s.54

6. "İslam: Qısa məlumat kitabı", Bakı, "Azərnəşr", 1985 s.67

7.Наджафов С.А. Долговой кризис, ликвидная ловушка и финансовая хрупкость, «Молодой учёный», Апрель, 2010 г., № 4 (15)

8.http://deyerler.org/111810-fransdz-filosofu-vqjrb-dgnyasd-dmam-hgseynin-j-fjdakarldddna-ehtiyac-duyurv.html

9.http://ru.wikipedia.org/wiki/Мировой_финансовый_кризис_(2008—2011)#cite_note-BearsReign-47

10.http://mospat.ru/ru/2009/05/22/news2603

11. Elvüsal Məmmədov.Fehrist. Quran ayələrinin mövzular üzrə təsnifatı.Bakı, 2013. 3 cilddə, III cild.

Abstract

Economic behavior and religion in terms of globalization

The article considers that new global economic order is accompanied with the increasing of non-equal distribution of material benefits between world states, and inside of separate states as well. Poverty and starvation especially in less developed states for most people became a real disaster. Analysis shows that such position is a result of predatory economic behavior of most financial-economic oligarchy, most economic agents. Thus makes most scientists and politicians to pay a bit more attention for managing people and society, on a non-economic, but mental factors. The article considers the approaches of leading religions on economic behavior.

Key words: new economic order, economic behavior, non-economic factors, religion

Резюме

Экономическое поведения и религия в условиях глобализации

В статье отмечается что, новый глобальный экономический порядок сопровождается возрастанием неравномерного распределение материальных благ как между странами мира, так и внутри отдельно взятых стран. Бедность и голод, особенно в слаборазвитых странах для многих людей превратились на истинное бедствия. Анализ показывает, что такое положение является результатом хищнического

экономического поведения многих финансово – экономической олигархии, многочисленных экономических агентов. Это обстоятельство вынуждает научных и политических кругов мира уделит особое внимание, в управление обществом, на не-экономическим, духовным факторам. В последние годы большое значение придается моральным и религиозным факторам. В статье рассматриваются подходы ведущих религий мира на экономическое поведение.

Ключевые слова: новый экономический порядок, экономическое поведения,не-экономические факторы, религия

11.7. Gelişmekte olan ülkelerin küresel ortama entegrasyonu sürecinde ulusal çıkarları

Yaşadığımız çağdaş dünya son yıllarda önemli transformasyon süreçlerine sahne olmuştur. Bu transformasyonlar uluslararası ilişkilerde, ulusal, dahili sosyal gruplararası ilişkilerde, insanların günlük yaşam tarzında ciddi sonuçlar doğuruyor, yeni süreçlere kaynak oluyor ve kimi vakit de insanların zihniyetinde de köklü değişimlere yol açıyor. Gerek ekonomik, gerek siyasal ve kültürel alanlarda yaşanan ve çok sayıda belirsizliklerle eşlik edilen bu değişiklikler büyük ölçüde küreselleşme süreçleri gibi anlaşılmaktadır. Bu anlamda küreselleşme kavramı yaşadığımız dünyada uluslararası ekonomik, siyasal ve kültürel ilişkilerin genişlemesi, derinleşmesi ve hızlanması ile ilgili olan tüm gelişimleri ve olayları kapsamlı şekilde yansıtıyor. Bu süreçler ve olaylar dünyayı hem genişletiyor, hem de küçültüyor. Bu sürec artık çok hızlıdır ve etkisi de hızla hissediliyor. Burada iki hususa dikkat edilmesi icab ediyor:

a) İletişim ve bilgi teknolojilerinin hızlandırıcı gücü ile sosyal ilişkiler ve olaylar durmadan genişliyor, dünyanın herhangi bir yerinde meydana gelen olay,diğer bölgelerinde de hızla hiss ediliyor.

b) Bu hiss edilmə sadece bilgi çerçevesinde kalmıyor, hem de "olumlu ve olumsuz ciddi etkiler" yaratıyor, yeni süreçlere yol açıyor.

Bilim teknolojisinde yaşanan devrim toplumun maddi temelini köklü biçimde yeniden kurarak, insanlığın sosyal manzarasını kalite anlamında yeni düzeye ulaştırdı. Böylelikle çağdaş dünyada insanlık küresel transformasyonlar döneminde yaşıyor. Bu transformasyonlar sürecinin başta gelen eğilimlerinden biri ulusal devletlerin ekonomik, bilimsel, tekniki, hukuki ve informasyon açısından bir-birinden bağımlılığının şiddetle artmasıdır. Geçmişte dünya ekonomik birliği birbirinden az-çok bağımlı olan ülkeler topluluğundan oluşuyordusa, şimdi bu topluluk tek bir ekonomik sisteme dönüşmeye başlamıştır. Şu ekonomik sistemde ulusal ekonomiler sadece uluslararası iş

gbölümü mekanizması ile değil, dünya çapında üretim-satış organizasyonları, küresel finans sistemleri ve bilişim ağları ile birbirine bağlanarak bir bütün dünya ekonomik sisteminin ayrılmaz bir parçası haline gelmişler. XX yüzyılın ortalarına kadar dış ticaret hacmi tüm dünyada GSYİH-un toplam %10-16'ını oluşturuyordusa, 2005 yılında bu rakam %40.5'e ulaşmıştır. Bu süreç gelişmekte olan ülkelerde daha hızlı olmuştur. Böyle ki, adı geçen ülkelerde dış ticaret hacminin GSYİH-ya oranı 1990-1995-ci yıllarda %35.7-den 2000-2005-ci yıllarda %49.9- e yükselmiştir. Bu ülkelere dış sermaye yatırımlarının akını da hızlanmıştır. Dış göçmenlerin para transferlerinin heçmi ise 2005 yılında GSYİH-nın %165-e ulaşmıştır (1, s.8). Son on yılda dünyada dış ticaret devriyesinin boyutu tüm dünya üretiminden iki kez çok olmuştur (2, s. 76, 85, 86). Ticari ve sermaye akınlarının böyle gelişmesi sonucunda ayrıca bir ülkenin piyasaları önemini kaybediyor, küresel ve bölgesel mal ve hizmet, finans piyasaları oluşuyor ve dünya çapında egemenlik ediyorlar.

Küreselleşme sürecinde ulusal ve dünya ekonomik mekanizmaları kendi rollerini de değiştiriyorlar. Öyle ki, bilindiği gibi, geçmişte ulusal ekonomk mekanizmaları toplumsal kalkınmada esas rol oynuyorlardı. Günümüzde ise devletlerüstü mali-ticari piyasaları, üretim-satış yapıları oluşunca dünya ekonomik ilişkileri beşeri kalkınmanın ayarlanmasında öncül rol oynamaya başlamışlardır. Hatta, gelişmiş devletlerin de iç ilişkileri küresel ekonominin ihtiyaçlarına uymak zorunda.

Beşeri ilişkilerin ayarlanmasında uluslararası ekonomik ilişkilerin öncül faktöre dönüşmesi ise evrensel süreçlerde ulusal devletlerin rolünün azalmasına yol açıyor. Nitekim, onlar milli sınırları dışında meydana gelen ve bağımsız oluşan ümumbeşeri süreçleri ayarlamak gücünde değiller. Ayrıca, ulusal devletlerin imzaladıkları uluslararası sözleşmelerin şartlarına uygun olarak, gümrük rüsumları, döviz düzenlemeleri ve diğer geleneksel araçları serbest olarak kullanmak hakları sınırlıdır. Ulusal devletler uluslararası ekonomik kurumların, dev transmilli şirketlerin taleplerine uymağa mecburdurlar. Dolayısıyla, küreselleşme sürecinde dünya ekonomisinin temel merkezi olan transmilli sanayi ve banka şirketlerinin gücü ve etki alanı fazlalıkla artmıştır. Dünya ekonomisinin tarihen ilerci gücü olan ulusal devletler ise belirli alanda arkaya keçmişdir.

Fakat bütün bunlar ulusal devletlerin rolünün hiç de azalması demek değildir. Aksine, günümüzde insanlığın gelişiminin önemli özelliklerinden biri iç sosyo-ekonomik süreçlerin ayarlayıcısı gibi ulusal devletlerin rolünün kendi çıkarlarını korumak için durmadan artmasıdır. Küresel ekonomi gerektiriyor ki, ulusal devletler ekonomiye en azı iki amaçla etkili müdahale etsinler: birincisi, diğer ülkelerin ekonomisi ile daha çok rekabete davamlı olmak, ikincisi ise, finansal-kredi gibi yeniden bölgü mexanizmasını intansif kullanarak ülke genelinde oluşan sosyal ve siyasal gerilimi mümkün kadar azaltmak.

İşte bu fonksiyonların genişletilmesi hızla artan küreselleşme sürecinin en önemli belirtilerinden biridir. Bunu milli çıkarlar kesinlikle talep ediyordur. Bu konu gelişmekte olan ülkelerin bağımlı ekonomileri için özellikle günceldir.

Gerçekten dünya çapında mevcut kaynakları kullanmak uğrunda rekabet mücadelesinin önemi ve durmadan artması küresel boyuta ulaşmıştır. Böyle bir rekabet mücadelesinde ulusal devletlerin ve ekonomik bireylerin maddi, insani ve hatta siyasal kaynakların mümkün kayıplarının boyutları da çok büyük ve bazen küresel çapta önem arz edebilir (2. s. 8). Ona gore de küreselleşme sürecinde öncül pozisyona, işte ekonomini ulusal çıkarlar gereyince etkili biçimde düzenleyen devletler çıkabilir. Çünkü herhangi bir ülkede mevcut olan rekabet olanağını gerçekleştirmek için ülkenin tüm potensiyelinden, sadece ulusal devletler azami effektli kullana biliyorlar. Küreselleşen dünyada rekabet ede bilmenin tek yolu sürekli gelişme ve değişime ayak uydurmaktan geçmektedir. Milli devletlerin bu değişime ayak uydurmaları için sistemlerini doğru tanımlaması, ülkenin ihtiyaçlarını dikkate alması, pazardaki ve tüm dünyadaki yenilikleri yakından takip etmesi gerekir. Bu süreç makro ve mikro-ekonomik düzeyde kendini gösteriyor.

Milli devletin günümüzde önemli tarihi görevi, aynı stratejiyi hazırlayıp gerçekleşmesini sağlamaktır. Yeni uluslararası ekonomik ve finansal ortam dünyada yaşanan küresel gelişimi ve aynen de ulusal devletlerin küresel entegrasyon süreçlerine katılım şartlarını deyişdirir ve belirliyor. Aynı ortam bu süreçlerde ulusal devletleri temsil eden ekonomikve finansal subjektlerin, işletme ve şirketlerin kabul ettikleri kararlara önemli etkisini gösteriyor.

Küreselleşme bir çok açıdan neoliberal modelin sıkı yasaları temelinde gelişmektedir. Bu modelde ise dünya milli devletlerin çıkarlarının harmonisini, bu ülkelerde olan sosyo-ekonomik gelenekler ve ulusal kültürlerin korunması ilkesi temelinde değil, sosyal darvinizm ilkeleri temelinde gelişmektedir. Bu sert kanunlara uyum sağlayanlar hızla gelişiyor, uyuşmayanlar ise büyük devletlerin avı oluyorlar. Küresel süreçlere uyamayan ülkeler için ekonominin daha çok küreselleşmesi onlar için ulusal ekonomiyi düzenleme yeteneğinin daha da azalmasına yol açıyor. Bu ülkelerde birçok ekonomik süreçlerin küresel doğası ile bunların ulusal ekonomik çerçevesinde düzenlenmesi imkanları arasında uyumsuzluk artıyor. Tabii ki, bu uyumsuzluk kendini çeşitli ülkelerde çeşitli derecede gösteriyor. Çünkü milli devletler küreselleşme süreçlerinin gereksinimlerini çeşitli derecede çözüm ediliblir, çeşitli "ağırlık çekisine" sahiptirler, küresel piyasalarda çeşitli düzeylerde "menfaat" veya "zarar" elde ediyorlar. Tüm bunlar ise ülkeler ve ülke gruplarının çıkarları arasında çelişki oluşumunu kaçınılmaz kılıyor. Çünkü dış satış piyasalarından, dış mali rezervlerinden, teknolojikveyöneticilik deneğiminden güçlüler daha fazla kullana biliyor ve fazla menfaat ala biliyorlar.

Bu nedenle farklı devlet gruplarında esas makroekonomik göstergeler arasında fark yükselen ekonomilerde azalsa da fakir ülkelerde artmakta devam ediyor. Bu nedenle küreselleşmenin evrensel önemini belirleyen sorunlardan biribu sürecin ülkeler arasında kalkınma düzeyi bakımından olan büyük farkı nasıl etkilemesi, küreselleşmenin yararlarının ülkeler arasında nasıl paylaşılması sorunudur.

Çağdaş dönemde hiçbir devlet bu süreçlerin dışında kalamaz. Fakat giderek daha aydın gözükmektedir ki, küreselleşmenin yararları ülkeler arasında hiç de eşit bölünmüyor. Modern uluslararası sistemde az saylı gelişmiş sanayi ülkeleri avantajlı durumdadır. Onların gerçekleştirdikleri teknolojik ve bilişim devrimleri tüm dünyada ekonomik gelişimin karakterini köklü olarak değiştirmiştir. Amma, böyle durum sanayi ülkeleri ve belli ölçüde orta derecede gelişmiş ülkeler için refah düzeyinin artırılmasında yeni olanaklar daha fazla oluşmuştur. Buna rağmen araştırmalar gösteriyor ki, XX yüzyılda yaşanan bilimsel ve teknolojik devrimler ve küreselleşme gelişmekte olan ülkelerin ve geçiş ekonomisi ülkelerinin sosyo-ekonomik terakkisini de olumlu yönde etkilemiştir.

Statistik rakamlar söylediklerimizi ayrıntılı olarak kanıtlıyor. Öyle ki, 20. yüzyılda GSYİH tüm dünyada (100 yıl)18,8 kat arttığı halde, GOÖ-de 27,3 kat,sanayi üretimi ise yüzyıl boyunca gelişmiş ülkelerde 21,9 kat arttığı halde, gelişmekte olan ülkelerde 62,1 kat artmıştır.

GSYİH-nın artımı, kat (1900-1)

	1900	1950	2000
Tüm dünya	1, 0	2, 9	18, 8
Batı'nın gelişmiş ülkeleri	1, 0	2, 9	15, 9
Batı Avrupa	1, 0	2, 0	10, 3
GOÖ	1, 0	2, 5	27, 3
Güney Amerika	1, 0	5, 3	40, 2
Yakın ve Orta Asya (Yakın ve Orta Doğu dahil değil)	1, 0	1, 6	22, 0
Kuzey Afrika, Yakın ve Orta Doğu	1, 0	7, 0	104, 4
Afrika'nın güneyi	1, 0	5, 0	17, 1
SSCB (2000 yılında BDT ve Baltık ülke	1, 0	4, 1	9, 8

* [2, p. 91-100]

Ayrıca, gelişmekte olan ülkelerde sanayinin yapısı da önemli değişikliklere sahne olmuştur. Böyle ki, yirminci yüzyılın ikinci yarısında gelişmekte olan ülkelerde ekonominin yapısında imalat sanayi ürünlerinin payı iki kat artarak 2000 yılında %55,2 (1950- %25.2) olmuştur. Dikkati

böyle bir husus çeker ki, bu süreç küreselleşmenin geniş hız aldığı 90'lı yıllarda ve 21. yüzyıl başlarında daha da hızlanmış durumdadır.

Onu da dikkate almak gerekiyor ki, bu yapısal değişiklikleri hiç de temel kaynaklar, çok material ve emek harcanan ürünler hesabına oluşmamıştır. Öyle ki, 20.yüyılın son 20 senesinde gelişmekte olan ülkelerin ihracatında hammaddelerin (yakıt dışında) payı %50,8'den %19'a inmiş, çok emek harcanan hazır ürünlerin payı ise sırasıyla 21,8 ve 23,2% olmuştur. Aynı dönemde ihracatta yüksek texnoloji tutumlu ürünlerin payı ise %11,6 'dan %31'a yükselmiştir (262, s. 11).

Endüstri ülkelerin ürettikleri üstün teknik ve teknoloji potansiyeli kullanarak fakir ülkeler kendi gelişimini hızlandırmak olanağına sahip olmuşlar. Neticede, kişibaşına GSYİH 1970-2000 yılları arasında gelişmiş ülkelerde 1,7 kez arttığı halde, gelişmekte olan ülkelerde 2,5 kez çoğalmıştır (МЭИМО, 2001, № 9, s. 102).

Ama, söylenilenlere rağmen, gerçek yaşam gösteriyor ki, küreselleşmenin dünyaya verdiği avantajları ilk olarak güçlü devletler daha çok kullandığı için, gelişmiş ülkelerle gelişmekte olan ülkeler arasında fark azalmıyor, aksine daha da artıyor. Bu konuda ekonomik literatürde yeterli deliller ve olgular mevcuttur. Biz burada gelişmekte olan ülkelerde ABD seviyesine oranla kişi başına düşen GSYİH rakamının değişme sürecine dikkatı çekmek istiyoruz:

Dünya regionları üzere kişi başına GSYİH

(ABD seviyesine gore yüzde)

	1900	1950	2000
Tüm dünya	27, 8	21, 2	22, 2
Batının gelişmiş ülkeleri	70, 6	57, 3	80, 5
Batı Avrupa	67, 9	45, 5	69, 0
GOÜ	11, 3	7, 2	10, 7
Güney Amerika	5, 3	21, 6	19, 3
Yakın ve Orta Asya (yakın ve Orta Doğu dahil diyil)	10, 3	4, 8	9, 9
Kuzey Afrika, Yakın ve Orta Doğu	13, 4	12, 3	19, 5
Güney Afrika	12, 0	7, 9	2, 6
SSCB (2000 yılında MDT ve Baltik ülkeleri)	26, 8	28, 8	19, 1

* (2, p. 96)

Bu gösterge kalkınma düzeyini tekbaşına tam olarak yansıtmasa da belirli bir fikir oluşturmaktadır. Tablodan göründüğü üzere kişi başına düşen GSYİH 1900 yılında gelişmekte olan ülkelerde ABD seviyesine oranla %11.3 olduğu halde 2000 yılında % 10.7'e inmiştir.

Dünya Bankası kaynaklarından elde edilmiş verilerin mukayiseli tehlili aynı gidişin bu güne kadar devam etdiyini, üstelik bu qrup ülkelerde farklılaşmanın daha da büyüdüyünü ispatlıyor.

Bölgeler üzere Kişi başına GSYİH,ABD seviyyesine göre, yüzde *

Ülke adı	1960		1970		1980		1990		2000		2009	
	Gişibaşına GSYİH	ABD səviy-yəsinə görə yüzdə	Gişi başına GSYİH	ABD səviy-yəsinə görə yüzdə	Gişibaşı-na GSYİH	ABD səviyyə-sinə görə yüzdə	Gişi başına GSYİH	ABD səviy-yəsinə görə yüzdə	Gişi başına GSYİ H	ABD səviy-yəsinə görə yüzdə	Gişi başına GSYİ H	ABD səviy-yəsinə görə yüzdə
Ereb Ülkeleri	-	-	290	6	2331	19	1780	8	2356	7	4826	10
Dogu Asiya və Okeaniya (bütün ülkeleri üzere)	148	5	310	6	1144	9	2558	11	3923	11	6466	14
Dogu Asiya və Okeaniya (yalnız inkişaf etməkdə olan ülkeleri)	92	3	114	2	281	2	419	2	953	3	3269	7
Avro zona	949	33	2236	45	9794	80	18862	82	20100	57	38084	83
Avropa Birliyi	904	31	1933	39	8299	68	15460	67	17643	50	32845	71
Çok borclu kasıb ülkeler	108	4	154	3	390	3	357	2	285	1	629	1
Yüksek gelirli ülkeler	1379	48	2734	55	9467	78	18583	81	25071	71	37264	81
Yüksek gelirli: OECD-ye daxil olmayan		-	761	15	7085	58	8350	36	13624	39		-
Yüksek gelirli: OECD	1424	49	2837	57	9627	79	19366	84	26022	74	38599	84
Latın Amerika və karib (bütün ülkeleri üzrə)	372	13	614	12	2134	18	2631	11	4125	12	7260	16
Latın Amerika və karib (inkişaf etməkdə olan ülkeleri)	366	13	598	12	2095	17	2563	11	4008	11	7019	15
Zəif inkişaf etmiş ülkeleri		-		-	295	2	298	1	272	1	652	1
Aşağı-orta gelirli ülkeleri	152	5	219	4	697	6	857	4	1194	3	2944	6
Aşağı gelirli ülkeleri	101	4	145	3	296	2	284	1	253	1	511	1
Ortadan aşağı gelirli ülkeleri	96	3	130	3	355	3	452	2	763	2	2332	5
Orta Dogu və Kuzey Afrika (bütün ülkeler üzere)		-	324	6	2417	20	1988	9	2847	8	5763	13
Orta Dogu və Kuzey Afrika (inkişaf etməkdə olan ülkeleri)		-	223	4	1194	10	1167	5	1538	4	3211	7
Orta gelirli	159	6	230	5	753	6	942	4	1309	4	3369	7
KuzcyAmerika	2828	98	4908	98	12058	99	22846	99	33952	97	45365	99
OECD üyeleri	1332	46	2598	52	8700	71	17006	74	22756	65	33668	73
Güney Asiya	83	3	118	2	258	2	357	2	446	1	1085	2
Sub Saxara Afrika (bütün ülkeleri üzere)	131	5	219	4	704	6	585	3	511	1	1138	2
Sub Saxara Afrika (yalnız inkişaf etməkdə olan ülkeler)	131	5	219	4	704	6	585	3	509	1	1127	2
Ortadan yüksek gelirli	341	12	551	11	2168	18	2695	12	3332	9	7306	16
Dünya	446	15	781	16	2472	20	4149	18	5293	15	8599	19
ABD	2881	100	4998	100	12180	100	23054	100	35081	100	45989	100

* (6)

Küreselleşmenin verdiği olanaklardan tüm gelişmekte olan ülkeler toplumunda ayrı-ayrı ülkeler aynı biçimde kullanamıyorlar. Böyle bir durumda bu ülkeler arasında da farklılaşma süreci hızlanıyor. Onlardan teknolojik devrimlerin ve yeni uluslararası ekonomik işbirliğinin yaratdığı avantajları iyi kullanan ülkeler yükselen ekonomiler toplumunu oluşturuyor ve gelişmiş sanayi ülkeleri ile kendi aralarında geçmiş dönemlerde uzun yıllar oluşmuş olan farkı ortadan kaldırıyorlar. Fakat doğal üretim faktörlerine dayalı fakir ülkerlerde durum ağır şekilde devam ediyor, onların devlet borçları hızla artıyor, üretimin yapısında ilk maddeler hasılat endüstrisinin payı yüksek seviyede kalıyor.

Böylelikle, küreselleşme süreçlerinin hem ülkeler, hem de işleme alanları bakımından gayri eşit sonuçları etkili ulusal devlet modelinin oluşturulmasını ve geliştirilmesini gerektiriyor. Bu açıdan devletin 3 önemli fonksiyonunun geliştirilmesi çok önemlidir:

1. Devletin teknolojik altyapı ve insan kapitalının şekillendirilmesi alanındaki stratejik görevi-küreselleşme sürecinde ülkelerin teknoloji ve insan sermayesi alanında altyapısının yenilenmesi ve geliştirilmesi özel önem taşımaktadır.

2. Devletin piyasaları ve rakabeti ayarlayıcı görev şimdiki dönemde devletin piyasaları, özellikle banka sistemini ve mali yapısını düzenleyen fonksiyonunun önemini fazla derecede artmıştır. Son dönemlerde mali alanında kendini gösteren sarsıtıcı dünya krizleri (1998-2008) onu gösterdi ki, finans sektöründe devletin düzenleyici rolü gevşek olan ülkeler bu bunalımlardan daha fazla kayıpla çıkıyorlar.

3. Devletin bölüşüm alanındaki fonksiyonları - küreselleşme sürecinin gayri - eşit gidişi, ister ülkeler arasında, gerekse de ülke dahilinde gelir bölgüsünün dikkatla ayarlanmasını gerektiriyor.

Kaynakça:

1.Вопросы экономики, 2008,N 5, s.4

2.Мировая экономика за 100 лет.- МЭМО, 2001, №9, с.90-110

3.Черковец О. Глобализация сотрудничества или конкуренции?, Экономист, 2002, №10, с. 3-16.

4.Чугров С. Глобализация, модернизация или интернационализация? МЭиМО, 2002, №4, с. 19-22.

5.International Monetar Fund. İnternationalfinancial statistices. YEARBOOK, 2010, p. 624

6. www.worldbank.com

11.8. İnformasiya cəmiyyətində dövlətin innovasiya siyasətinin əsas istiqamətləri

Azərbaycan Milli Elmlər Akademiyası. Elmi İnnovasiyalar Mərkəzi. "Ölkə iqtisadiyyatının inkişafında elmi innovasiyanın rolu" - III beynəlxalq elmi-praktiki konfransın materialları. 23 oktyabr 2009-cu il, Bakı.

İnformasiya cəmiyyəti milli dövlətlərin innovasiya siyasətini onların iqtisadi siyasətinin priorit istiqamətinə çevirmişdir. Qloballaşma ölkələrin bütöv iqtisadi sistemləri ilə yanaşı innovasiya sistemlərini də bir-birindən asılı vəziyyətə salmışdır. İnformasiya cəmiyyətində bazarlarda rəqabətin artması, elm və texnologiyada sürətlə özünü göstərən dəyişikliklər təsərrüfat subyektlərini məcbur edir ki, innovasiyadan fasiləsiz istifadə etsinlər. Məlum olduğu kimi, innovasiyanın iki növü vardır: texnologiya və idarəçilik sahəsində innovasiyalar. İdarəçilik sahəsində firmalararası şəbəkələşmə və əməkdaşlıq rəqabət gücünü artırmaq üçün müstəsna əhəmiyyət kəsb edir. Firmalararası şəbəkələşmə, bazar və istehsal sahəsində biliklərin yayılması və birgə hərəkət ənənəsinin yaradılması texnoloji infrastrukturun daha da yaxşılaşdırılması üçün əməkdaşlığa şərait yaradır. Bundan başqa, firmadaxili idarəçilik yenilikləri və texnoloji dəyişiklikdən rəqabət gücünü artırmaq məqsədilə istifadə edilməsi həyati əhəmiyyət kəsb edir.

Texnologiya sahəsində yeniliklər firmalar, xüsusən kiçik müəssisələr üçün getdikcə daha böyük əhəmiyyət kəsb edir. İnnovasiyanın məhsuldarlığı yalnız bu sahədə çalışanların (məsələn firmaların, elmi-tədqiqat müəssisələrinin, universitetlərin) yalnız professional fəaliyyətindən asılı deyildir, eyni zamanda, innovasiya sisteminin aparıcıları kimi onların yerli, milli və beynəlxalq səviyyədə əlaqələrindən asılıdır. İnnovasiya sisteminin verimliliyi bir çox amillərdən asılıdır. Bunlar arasında fərdləri və müəssisələri öyrənməyə stimullaşdıran şərtlər, maliyyə sisteminin etibarlılığı, bu sahədə dövlət tənzimləmələrinin səmərəliliyi və s. mühüm rol oynayır. Məsələn, innovasiya prosesinin milli iqtisadiyyata əhəmiyyətli təsir göstərə bilməsinin mühüm şərtlərindən biri elmi-tədqiqat müəssisələri və universitetlər ilə sahibkarlar arasında qarşılıqlı əlaqələrin yaradılması və inkişaf etdirilməsidir. Bu sahədə dövlətin üzərinə böyük vəzifələr düşür. Bunlar aşağıdakılardır:

İnnovasiya sisteminin gücləndirilməsi. Bu funksiya qloballaşma dövründə milli dövlətlər qarşısında duran həyati əhəmiyyətli məsələdir. Qloballaşma texnoloji infrastrukturun formalaşma prosesində bu sahədə bazar mexanizmində özünü göstərən çatışmazlıqları aradan qaldırmağa yardım edə bilər. İnnovasiya tətbiq edilərkən mövcud olan qeyri-müəyyənliklər bu sahəyə kapital qoyuluşunu çətinləşdirir. Bu çətinliklərin aradan qaldırılması

sahəsində dövlət öz funksiyasını yerinə yetirmədikdə qloballaşmanın verdiyi ən mühüm üstünlük- texnologiyanın fasiləsiz tətbiqi reallaşdırıla bilməz (279. s. 45). İnkişaf etmiş sənaye ölkələrində, ənənəvi olaraq, texnoloji irəliləmə sahəsində dövlət öz üzərinə böyük məsuliyyət götürür və genişmiqyaslı təşkilatçılıq fəaliyyətini həyata keçirir, tənzimləmələr aparır.

Milli dövlət özünün texnologiya və innovasiya siyasətini həyata keçirdiyi bütöv iqtisadi strategiyanın tamamlayıcı ünsürü hesab edir. Bu siyasət daxilində dövlət biliyin ölkə iqtisadiyyatını bütövlüklə əhatə edən idarə olunması sistemini yaratmaq və onu təsirli hala gətirmək funksiyasını öz üzərinə götürür. Bu funksiya çərçivəsində innovasiya üçün lazımi şəraitin yaradılması xüsusi əhəmiyyət kəsb edir. Bunlara aşağıdakılar daxildir:

1. İnnovasiya sahəsində rəqabəti təşviq edən siyasət.
2. İnsan kapitalının formalaşmasını təmin edən təhsil siyasəti.
3. Bürokratik maneələrin aradan qaldırılmasına istiqamətlənmiş idarəçilik sahəsində və müəyyən sistemində islahatların aparılması.
4. Kiçik müəssisələrə kapital axınını təşviq edən maliyyə siyasəti.
5. Əmək bazarında elastikliyi artırmağa istiqamətlənmiş işçi qüvvəsi siyasəti.
6. İnformasiyanın yayılmasını yüksək səviyyəyə çıxaran və elektron şəbəkələrin geniş tətbiqinə əsaslanan rabitə siyasəti.
7. Qlobal səviyyədə yaradılan texnologiyanın milli sərhədlər daxilində yayılmasını genişləndirən xarici kapital və ticarət siyasəti (3, s. 88).

Firma və müəssisələrin əksəriyyətində işin zəif təşkili və idarəçilik praktikasının geoloji texniki yeniliklərə uyğun gəlmir. Bu problemin həll edilməsində dövlətin üzərinə böyük vəzifələr düşür:

1. dövlət iş dünyası, elmi-tədqiqat işlərində və təhsildə innovasiya mədəniyyətinin yayılmasında əlverişli şərait yaratmalı, böyük və kiçik bütün müəssisə və firmaların innovasiya və idarəçilik sahəsində müəllif təcrübələrini tətbiq və təşviq etməlidir;
2. dövlət yeni texnologiyanın yayılmasını asanlaşdırmağa istiqamətlənmiş dövlət proqramları tərtib etməli, firmaların innovasiya fəaliyyətini təşviq etməlidir;
3. yenilikçi sahibkarların birinci fəaliyyətində mövcud olan maneələr aradan qaldırılmalıdır;
4. dövlət və xüsusi bölmədə elmi-tədqiqat işlərində fəaliyyət göstərən hüquqi və fiziki şəxslərin iş şəraiti nəzərdən keçirilməli və yaxşılaşdırılması üçün tədbirlər görülməlidir;
5. özəl sektorda risk yüksək olan innovasiya sahəsində səhmdar kapitalın formalaşdırılması və inkişaf etdirilməsi üçün tədbirlər görülməlidir.

Dövlət emaledici sənayedə yüksək texnologiyadan istifadə edilən bilik tutumlu sahələrə xüsusi diqqət verməlidir. Məlum olduğu kimi, İqtisadi

Əməkdaşlıq və İnkişaf Təşkilatında (OECD) istehsalın üçdə ikisi və məşğulluğun 70%-i xidmət sektoruna aiddir. Texnologiyanın yayılması mexanizminin təkmilləşdirilməsi dövlətin iqtisadi siyasətinin aparıcı istiqamətlərindən biri olmalıdır. Bu mexanizm yalnız texnologiyanı tətbiq edən firmaları deyil, həm dəənənəvi üsullarla istehsalı təşkil edən müəssisələri də əhatə etməlidir.

Qabaqcıl dünya dövlətlərinin təcrübəsi göstərir ki, hökümət texnologiyanın yayılmasında fərdləri təşviq etməklə yanaşı, bu sahədə təşkilatlanmağa da xüsusi diqqət verirlər. Texnologiya sahələrindəki biliklər xaricdən mütəxəssislər cəlb olunması yolu ilə də artırıla bilər. Təhsil siyasəti təhsil alma müddəti bitdikdən sonra da davam etdirilməlidir. İşləyənlərin təhsilinin artırılması, özəl və dövlət bölməsi arasında mütəxəssis mübadiləsi sistemi yaradılaraq inkişaf etdirilməlidir.

Şəbəkələşmə və təmərküzləşmənin təşviqi. Şəbəkələşmiş firmalarla innovasiya yaradan müəssisələr arasındakı əlaqələr innovasiya prosesinin başlıca mənbəyi halına gəlmişdir. Belə vəziyyət informasiya texnologiyalarının inkişafının nəticəsi kimi yeni texnologiyanın yayılmasında əldə etdikləri üstünlük ilə əlaqədar yaranmışdır. Yenilikdən praktikaya qədər yolda məsafə olduqca yüksəkdir və getdikcə artmaqda davam edir və yenilikçi müəssisələr nə qədər böyük olsalar da, onlar həmin məsafəni təkbaşına qət edə bilmirlər. Ona görə də onlar ehtiyac hiss etdikləri yeni bilikləri və mütəxəssisləri bəzən firma daxilində əldə edə bilmirlər və buna görə də həmin problemi həll etmək üçün strateji ittifaqlar yaradırlar. Günümüzdə belə ittifaqların sayı durmadan artır, şəbəkələşmə genişlənir. Firmalar innovasiya prosesində çox vaxt alt sənaye sahələri, müştəriləri və hətta rəqibləri ilə də əməkdaşlıq edirlər (3, s. 86).

Bir çox qabaqcıl ölkələrdə yenilikçi firmaların təmərküzləşməsi iqtisadi inkişafın aparıcı mühərrikinə çevrilmişdir. Yenilikçi iqtisadi fəaliyyətin təmərküzləşməsi yeni texnologiyalar, yüksək ixtisaslı mütəxəssislər və tədqiqat işlərinə kapital qoyuluşları üçün cazibə mərkəzlərinə çevrilmişdir. Belə təmərküzləşmə mərkəzləri daha çox iri miqyaslı ölkələrdə aparıcı firmaların mövcud olduğu, innovasiya mədəniyyətinin geniş yayıldığı regionlarda yaranır. Lakin belə təmərküzləşmə mərkəzləri təbii üstünlüyə malik olan ölkələrdə də yaradıla bilər.

Bazar iqtisadiyyatında innovasiya prosesləri, hər şeydən əvvəl, ölkənin özünün milli təhsil sistemində yaradılmış sağlam təmələ əsaslanmalıdır. Bu sağlam təməl universitetlərdə və dövlət elmi-tədqiqat mərkəzlərində daha çox dövlət vəsaiti ilə dəstəklənən tədqiqatlardır. Dövlət elmi-tədqiqat müəssisələrinin həyata keçirdikləri elmi fəaliyyət əsas etibarilə səhiyyəyə, ekologiyaya və milli təhlükəsizliyin təmin olunmasına yönəldilməklə yanaşı təhsilin inkişafına, qabaqcıl biliklərin yüksəldilməsinə xidmət edir. Elm və təhsilin

inkişafı texniki innovasiyanın əsas mənbəyidir. Firmalar bu mənbədən yeni texnologiya yaradılması üçün istifadə edirlər.

Modernləşmə sahəsində qloballaşmanın tələblərinə uyğun zərurəti biliyə əsaslanan əmək məhsuldarlığı qlobal iqtisadiyyatın əsas fərqləndirici xüsusiyyətidir (4, s. 84).

Xaricdən texnologiya idxalı modernləşmə prosesini sürətləndirə bilər. Lakin dövlətlərin çoxu bu halda ölkənin özünün tədqiqat və araşdırma qabiliyyətinin və müvafiq olaraq innovasiya gücünün itirilməsindən narahatdırlar. Ona görə də innovasiyaya kapital qoyan qlobal səviyyəli xarici şirkətlərlə əməkdaşlıq etmək faydalıdır. Lakin belə əməkdaşlıqdan fayda götürülməsi oyunun şərtlərindən asılıdır.

Milli istehsalın texnoloji quruluşunun müasir dünyada mövcud olan yüksək səviyyəyə yüksəldilməsi və milli iqtisadiyyatın özündə texnoloji şəbəkələr yaradılmasının təmin edilməsi belə əməkdaşlığın əsas şərti olarsa, ondan əhəmiyyətli fayda götürmək mümkündür. Belə siyasətin həyata keçirilməsi üçün yerli innovasiya müəssisələrinin yaradılması, təmərküzləşməsinin təşviqi qlobal şirkətlərin innovasiya qoyuluşlarının və xarici tədqiqatçıların cəlb edilməsi üçün olduqca vacibdir.

İnformasiya cəmiyyətində ölkələr bənzər problemlərlə qarşılaşaraq bu sahədə milli siyasətlərini milli ənənələrə və mövcud olan sistemlərə uyğun olaraq formalaşdırırlar. Başqa sözlə, milli innovasiya siyasəti də ölkənin iqtisadi inkişaf xüsusiyyətlərini və tarixi ənənələri nəzərə almalıdır.

Tədqiqatların və texnologiyanın inkişaf etdirilməsi sahəsində mövcud olan xüsusiyyətləri və innovasiya fəaliyyətinin əhəmiyyəti və dərəcəsi bazar iqtisadiyyatının inkişafı səviyyəsi ilə sıx əlaqədardır. Təhsil və texnologiya sahəsində siyasəti formalaşdıran qurumların gücü və ənənələri, bu sahədə məsuliyyətin mərkəzi və yerli orqanlar arasında bölgüsü, müxtəlif nazirliklərin rol və gücləri, hökümət-sənaye əlaqələrinin xarakteri, dövlət-özəl şirkətlərin mövcudluğu dərəcəsi baxımından ölkədən ölkəyə ciddi fərqlər mövcuddur. Bəzi ölkələr (məsələn, Yaponiya) təhsilin təməlinin gücləndirilməsinə üstünlük verdikləri halda, digər ölkələr (məsələn, ABŞ) dövlət tədqiqat müəssisələrinin məlum məqsədlərə istiqamətlənmiş fəaliyyətinə xüsusi əhəmiyyət verirlər. Müxtəlif Avropa ölkələrində isə innovasiya mədəniyyətinin, xüsusən kiçikmiqyaslı müəssisələrdə yüksəldilməsi ön plana çəkilir (198, s. 348).

Texnologiya siyasətinin müəyyən bir xəttə tabe edilməsi hökümət müdaxilələrinin səmərəliliyinin azaldılması riskini artıra bilər. Ancaq bu, eyni zamanda, ölkənin innovasiya qabiliyyətinin artırılmasında misilsiz faydalar verə bilər.

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının yeni üzvlərə milli innovasiya sistemlərini mövcud olan, lakin qırıq-sökük ünsürlərini birləşdirərək qorumaq məcburiyyətindədirlər. Bununla yanaşı, həmin ölkələr milli

innovasiya sistemini formalaşdırmaq üçün bir sıra fundamental əhəmiyyətli müəssisələr də yaratmağa başlamışlar. Bu ölkələrdə yerli firmalar təqlidçilikdən yaradıcılığa keçmək məcburiyyətində olduqları halda, zəruri texnologiyanın yaradılmasında aciz qaldıqları günün ən ciddi problemlərindəndir. Lakin bu ölkələrin üstünlükləri də vardır. Onlar mövcud təcrübədən geniş miqyasda istifadə edə bilərlər. Ancaq unutmaq olmaz ki, texnologiya idxalı heç vaxt sağlam təməl üzərində yaradılmış milli innovasiya potensialını əvəz edə bilməz. Ulu öndər Heydər Əliyevin qeyd etdiyi kimi: "Azərbaycan xalqının milli sərvəti onun intellektual potensialıdır, mədəniyyətidir, ədəbiyyatıdır. Biz müstəqil dövlətimizi boş yerə qurmağa başlamamışıq. Bizim iqtisadi potensialımız kimi başqa bir sərvətimiz- intellektual potensialımız da var. Bunu yaradanlar var. Bu dahi insanlar Azərbaycanın böyük intellektual potensialını, mülkiyyətini yaradıblar". Əsas məsələ odur ki, yarada-yarada öyrənmək və tədqiq edərək öyrənmək yolu ilə «nou-hau»-nu özünküləşdirmək bir çox dövlətlərin təcrübəsində üstünlük təşkil edir.

Ümummilli lider Heydər Əliyevin qeyd etdiyi kimi: "Azərbaycan xalqının milli sərvəti onun intellektual potensialıdır, mədəniyyətidir, ədəbiyyatıdır. Biz müstəqil dövlətimizi boş yerdə qurmağa başlamamışdıq. Bizim iqtisadi potensialımız kimi başqa bir sərvətimiz - intellektual potensialımız da var. Bunu yaradanlar var. Bu dahi insanlar Azərbaycanın böyük intellektual potensialını, mülkiyyətini yaradıblar".

Akademik Ramiz Mehdiyev əsaslandırır ki: "Ümumən ölkənin iqtisadiyyatı sabitləşmiş sənaye cəmiyyətindən postindustrial cəmiyyət müstəvisinə transformasiya üçün real bazis yaradır". «Azərbaycan sosiumun» müasir özünüdərkini və milli «Mən»ini formalaşdıran model öz yerini latent şəkildə dəyişərək, posmodernist siyasi və iqtisadi determinantlar üçün məkan yaradır. Özlüyündə qloballaşma milli iqtisadiyyatın inkişafı, siyasi və demokratik təsisatların təkmilləşdirilməsi üçün yeni imkanlar yaradır və daha geniş perspektivlər açır. Buna görə də cəsarətlə deyə bilərik ki, İlham Əliyevin prezidentliyinin birinci dövrünün əsas vəzifəsi - davamlı və tərəqqi edən iqtisadi sistemin formalaşdırılması uğurla reallaşdırılır. Məhz iqtisadi modernləşmə, bazarın sabitliyi, bank mühitinin təkmilləşməsi, orta sinfin formalaşması və ölkənin ÜDM-ində özəl sahibkarlığın rolunun güclənməsi ictimai şüuru latent şəkildə təzələyəcək, onu yeni demoqratik ənənələr və təsisatlar müstəvisinə yönəldəcəkdir» (5).

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev haqlı olaraq vurğulayır: "Biz öz təbii sərvətlərimizdən çox böyük səmərə ilə istifadə edərək təbii resurslarımızı insan kapitalına çeviririk. Bu gün əsas prioritetlərdən biri Azərbaycan xalqının və gələcək nəslin bilikli olmasıdır, eyni zamanda, bizim milli adət-ənənlərimizin təmin olunması şərti ilə dünyada gedən proseslərə qoşulmasıdır, dünya birliyinə inteqrasiya etməsidir" (2).

Ədəbiyyat:

1. Heydər Əliyev yolu Azərbaycan inkişafın yeni mərhələsində. "Azərbaycan" nəşriyyatı, 2007. s. 862.
2. Ильхам Алиев. Каспийская нефть Азербайджана. М., «Известия», 2003, стр. 710.
3. DTP. Küreşelleşme özel ihtisas komisyonu raporu. Ankara, 2000, DTP. s. 111.
4. Мануэль Кастельс. Информационная эпоха. Экономика, общество и культура. М., ГУ ВШЭ, 2000, с. 607.

Микаель Н. Тодоро. Экономическое развитие. - Москва, Экономический факультет МГУ, ЮНИТИ, 1997, с. 667

5. Mehdiyev Ramiz. Gələcəyin strategiyasını müəyyənləşdirərkən: modernləşmə xətti. - "Xalq qəzeti", 16. 01. 08.
6. Блауг М. Экономическая мысли в ретроспективе. М., Дело ЛТД, 1994, с. 687.
7. Меньшиков С. Новая экономика. Основы экономических знаний. Изд-ва "Международные отношения". М. 1999, с. 393
8. D. Vəliyev. Azərbaycanın qlobal iqtisadiyyata inteqrasiyasi. Bakı, "Adiloğlu" nəşriyyatı, 2008, 428 səh.

Summury

Main directions of the innovation policy of the state in the conditions of information society

The article notes that in the conditions of information society the innovation policy of the state is one of the priorities of its economic policys. Economic globalization intensifies the mutual dependence of the world states in the sphere of production as well as in the sphere of innovation systems. The increase of competition in the markets, constant changes in the science and technology strengthen the interests of economic units in the incessant use of new methods. In this case the role of the state in the development of innovation processes in the conditions of globalization become strategic.

11.9 İnformasiya cəmiyyətində insan amili və biliyin rolunun transformasiyası

Sürətlə inkişaf edən postindustrial cəmiyyətdə insan amili istər ayrıca götürülmüş şirkət, istərsə də ölkə və bəşəriyyət miqyasında iqtisadi inkişafın sürətləndirilməsində aparıcı rol oynayır. İnkişaf etmiş sənaye cəmiyyətində tərəqqinin əsas hərəkətverici qüvvəsi, əmək və kapitalın təmərküzləşməsi idi.

Hazırki post sənaye cəmiyyətində isə əsas diqqət yüksək texnologiyanın inkişafına, istehsal və xidmət sahəsində modernləşmənin sürətləndirilməsinə verilir. Kapital və əməyin özü haqqında anlayışlar dəyişir. Əvvəllər kapital yığımı sahibkarların bir neçə nəsli ərzində təmin edilirdi. İndi isə çox irimiqyaslı kapital işə az miqdar ilkin kapital qoymaqla dərhal yaradıla bilər. Lakin həmin sahibkar öz nəhəng müəssisəsində yalnız öz biliyi və məhdud saylı menecerlərin birliyi ilə kifayətlənə bilməz. Texnologiyanın daim yenilənməsi praktikada hər bir iş yerində tələb olunur. Ona görə də texnologiyanın inkişafına müasir istehsalın hər bir işçisinin cəlb olunması zəruridir. Bu isə onu göstərir ki, əvvəllər əmək ehtiyatı hesab edilən muzdlu işçilər əslində kapital ehtiyatlarının qorunması və artırılmasını təmin edir[17]. Ona görə də istehsal olunan məhsulun tərkibində əməyin xüsusi çəkisi əmək məhsuldarlığı yüksək həddə doğru getdikcə daha da artacaqdır. Çünki əmək haqqına geniş mükafatlar sistemi əlavə olunur. Məlum olduğu kimi, müasir dövrdə cəmiyyətin görünməmiş dərəcədə yenidən qurulmasının əsasında elm və biliyin sürətli inkişafı və bunun əsasında əmək məhsuldarlığında inqilabi sıçrayışlar dayanır. Biliyin əhəmiyyəti hələ 250 il bundan əvvəl həmin bilik əmək alətləri, texnologiya və yeni növ məhsul hazırlanması məqsədi ilə tətbiq edilməyə başlandıqda dəyişdi. Biliyin əhəmiyyəti və rolunun dəyişməsi cəmiyyət və iqtisadiyyatı daha da dəyişdi. Bilik hal-hazırda istehsalın əsas amilidir. Ənənəvi istehsal amilləri-torpaq, işçi qüvvəsi və kapital ikinci dərəcəli əhəmiyyət kəsb etməyə başlamışdır. Əgər müvafiq bilik varsa, bu ehtiyatları asanlıqla əldə etmək olar. Yeni anlayışlara görə, bilik real faydalı qüvvədir, sosial və iqtisadi nəticələr əldə edilməsi vasitəsidir. Lazım olan nəticə əldə etmək məqsədilə mövcud informasiyanın tətbiqinin səmərəli üsullarının axtarılması üçün biliyin istifadə edilməsi əslində idarə etmək deməkdir.

Hazırkı dövrdə aşağıdakılar mühüm əhəmiyyət kəsb edir: sistematik və məqsədyönlü şəkildə hansı yeni biliklərin alınması daha vacibdir, onun əldə edilməsi nə dərəcədə məqsədəuyğundur və ondan səmərəli istifadə etmək üçün nə etmək lazımdır. Başqa sözlə, bilik indi yenilik və innovasiyaların əldə edilməsi üçün tətbiq edilir. Qloballaşma dövründə bilik iqtisadi inkişafın başlıca resurs mənbəyinə çevrilibdir. Sual oluna bilər ki, onun resurs (ehtiyat) mahiyyəti nədir? Bu barədə elmi ədəbiyyatda vahid mövqe yoxdur. Bəzi müəlliflərə görə bu mənada bilik müəssisənin dəyərləri ilə birləşən informasiyadır. Bəzən isə hesab edilir ki, müəssisədə bilik yeni informasiyanı dəyərləndirmək üçün mövcud məlumatları istifadə etmək və predmeti dərindən dərk etmək qabiliyyətidir. Qloballaşma dövründə bu sahədə yenilik bilik və informasiya arasındakı münasibətdə özünü göstərir. Hal-hazırda

[17] *С. Егоров*. Человеческий фактор и экономический рост в условиях постиндустриализации. - «Вопросы экономики», 2004, с. 83-90.

informasiya texnologiyalarının sürətli inkişaf etdiyi bir şəraitdə TMŞ-ın rəhbərləri idarəçilik üçün lazım olan informasiyanın bolluğundan və mürəkkəbliyindən şikayət edirlər. Müəssisənin səmərəli işləməsi üçün zəruri olan biliklərin böyük əksəriyyəti işçilərlə əlaqədardır. Bilikli işçi obyektiv və ya subyektiv səbəblərlə əlaqədar olaraq işdən getdikdə müəssisə müəyyən bilik mənbəyindən məhrum olur. Bu bəzən müəssisəni çox əlverişli sifarişlərdən imtina etməyə də məcbur edir. Beləliklə, mikro səviyyədə bilik resursların digər növləri ilə əvəz edilə bilməyən müstəqil növüdür. Bunu bilmək həm müəssisələr, həm də mütəxəssislər üçün vacibdir.

XXI yüzillikdə iqtisadi və sosial həyat üçün biliyin yaradılması və istifadə edilməsi üsulları, habelə insanın əmək fəaliyyətinin xarakteri üçün telekommunikasiyalarda əks olunan yeni sosial uklad həlledici əhəmiyyət kəsb edir. Biliyin rolu və əhəmiyyətinin artması özünü sənaye inqilabında, əmək məhsuldarlığının artması sahəsindəki inqilabda və idarəçilikdə baş verən inqilabda göstərdi. Cəmiyyət bilikdən – biliklərə doğru yol ilə irəliləyir. Əvvəllər biliklər ümumi xarakter daşıyırdı. İndi isə biliklərdə dərin ixtisaslaşma özünü göstərir. Keçmişdə «biliyə malik olan insan» ifadəsi işlənmirdi. Deyirdilər: «Savadlı, elmli adam». Savadlı adam – geniş eridusiyalı adamlardır. Onlar istənilən mövzuda yaxşı danışmaq məharətinə malik insanlar idilər. Lakin onlar hər hansı konkret və praktik fəaliyyətlə məşğul ola bilmirdilər.

Müasir dövrdə bilik konkret nəticə əldə etmək üçün praktiki əhəmiyyəti olan informasiya hesab edilir. Hər hansı bir əhəmiyyətli nəticə əldə edə bilmək üçün isə yüksək dərəcədə ixtisaslaşmış bilik tələb olunur.

Ümumi bilikdən ixtisaslaşmış biliklər kompleksinə keçid biliyi yeni cəmiyyət yaradan qüvvəyə çevirmişdir. «İnsanların fəaliyyət dairəsi genişləndikcə biliklərin əhatə dairəsi də genişlənmiş olur. Müxtəlif fəaliyyət sahələrinə uyğun olaraq müxtəlif bilik sahələri yaranır. İnsanların hamısı üçün ümumi və zəruri olan maddi fəaliyyətin nəticəsi kimi əmələ gələn biliklər və ya məişət bilikləri, heç şübhəsiz, bilik sahələri içərisində tarixən ən qədimdir. Sonrakı bilik sahələri insanlar arasında əmək bölgüsü sayəsində əmələ gəlir və heç də bütün adamlara deyil, ixtisasından asılı olaraq yalnız müəyyən qrup adamlara mənsub olur.[18]»

Qloballaşma həyatın bütün sahələrində modernləşmə tələb edir. Məlum olduğu kimi, modernləşmə konsepsiyası (ingiliscə: upgrading) iqtisadi aktivliyin bir növündən digər növünə hərəkəti əks etdirir. Bunun əsasında müxtəlif meyarlar – mənfəətlilik, ədalət, ekoloji sabitlik meyarları dayanır. Modernləşmə, adətən, əməliyyatların daha da mürəkkəbləşməsinə doğru aparır. Bu bir sıra amillərlə əlaqədardır. Yeni texnologiya və yaxud əlavə

[18]S. Xəlilov. Elmi-texniki tərəqqi və onun sosial-iqtisadi nəticələri, Bakı, Elm, 1996, s. 14.

«nou-hau»-dan istifadə olunması, istehsal proseslərinin təkmilləşdirilməsi, ixtisaslaşma və yaxud inteqrasiya dərəcəsinin artırılması və s. ilə əlaqədardır. Rəqabət mübarizəsinin kəskinləşdiyi bir şəraitdə modernləşmə, istər inkişaf etmiş, istərsə də inkişaf etməkdə olan ölkələr üçün eyni dərəcədə əhəmiyyətlidir. Ona görə də innovasiyalara əhəmiyyət verməyən hər hansı bir ölkə qlobal istehsal və mübadilə sistemində səmərəli mövqe tutmağa qadir deyildir.

Modernləşmənin bütün istiqamətləri yeni biliklərin əldə edilməsini tələb edir. Bu biliklər layihələşdirmə, texnoloji proseslərin təkmilləşdirilməsi və konstruktor işlərində çox mühümdür. Ona görə də təhsil və bilikləri almaq qabiliyyəti modernləşmənin əsasını təşkil edir. Modernləşməni yalnız istehsal prosesi, texnologiya və yaxud marketinq problemi hesab etmək olmaz. Bu istiqamətlər, şübhəsiz, çox mühümdür. Lakin modernləşməni daha geniş mənada, yeni biliklərin alınmasına və bu sahədə real addımlar atılmasına yönəlmiş bir axın kimi başa düşmək lazımdır. Məsələn, İtaliyanın inkişaf etmiş sənaye rayonlarında kiçik firmalar, innovasiya fəallığını kapital tutumlu və yüksək texnologiyalar tələb edən fəaliyyət əsasında deyil yüksək ixtisaslı işçi və menecerlərdən informasiya və digər ehtiyatların toplanması hesabına genişləndirilir. Tayvanda ailə firmalarında anoloji dinamizm müəssisələri bir-biri ilə birləşdirən sosial şəbəkələrin genişləndirilməsi, xarici aləmlə innovasiya əlaqələrinin artırılması əsasında həyata keçirilir.

11.10. “Biliklərə asaslanan iqtisadiyyatı qurmayan, insan kapitalını inkişaf etdirmayən dövlətlər axırıncı yerlərdən birini tutacaqlar.”

Müsahibə: “Palitra” 15 oktyabr 2010-cu il

“İnsan kapitalının formalaşması ilə bağlı elml müzakirələr” layihəsi çərçivəsində fikirlərini öyrədiyimiz alim Azərbaycan Universitetinin Ümumi iqtisadiyyat kafedrasının müdiri, iqtisad elmləri namizədi Dünyamalı Vəliyevdir.

- İnsan kapitalı anlayışı altında nə başa düşülür?

- İnsan kapitalı anlayışı altında insanın inkişafı üçün ona yatırılan kapital başa düşülür. Bu, ayrıca termin kimi son dövrlərin məhsuludur. Biz qlobal iqtisadiyyata keçmişik və sözsüz ki, bazar iqtisadiyyati yolunu seçmişik. Bunun da əsasında insan kapitalı dayanır. Əvvəllər iqtisadiyyatın əsasını sərvət təşkil edirdi. Bu gün isə sərvətin olması əsas deyil və burada əsas insan kapitalıdır. Müasir dövrdə o dövlətlər inkişaf edir və tərəqqiyə nail olur ki, onlar insan kapitalının inkişafına xüsusi diqqət ayırırlar və müasir dövrün tələblərinə uyğunlaşırlar.

- İnsan kapitalının formalaşması istiqamətində aparılan siyasəti necə qiymətləndirirsiniz?

- Burada dövlətin apardığı siyasət aydındır. Prezident İlham Əliyevin "Neft kapitalını insan kapitalına çevirməliyik" ifadəsi tez-tez işlədilir. Və haqlı olaraq da işlədilir. İnsan kapitalının inkişafı üçün çox işlər görülür. Bu özünü təhsilin, səhiyyənin inkişafında, gənclərin xarici dövlətlərin ən tanınmış universitetlərinə göndərilməsində göstərir. Bilirsiniz ki, ölkəmizdə çoxlu məktəblər tikilir. Bu proseslərdə də insan kapitalının inkişafı siyasəti özünü göstərir. Amma bu gün demək olmaz ki, bütün problemlər həll olunub. Kifayət qədər problemlər var. Məsələn, elə təkcə təhsilin problemlərinin içinə daxil olsaq, orada kifayət qədər nöqsan tapa bilərik. Biz təhsildə çox uyğunlaşdırmalar aparmışıq. Çalışmışıq ki, təhsil sistemimizi Avropa təhsil sisteminə uyğunlaşdıraq. Bunun üçün biz Boloniya təhsil sisteminə keçmişik. Lakin bununla bərabər hələ də çətinliklərimiz və problemlərimiz var.

- Biliklərə əsaslanan iqtisadiyyatı necə qurmaq olar?

- Biliklərə əsaslanan iqtisadiyyatdan danışmazdan əvvəl qeyd etmək lazımdır ki, inkişaf etmək üçün iqtisadiyyatın amilləri var: xammal, material, texnika və sair. Bunların da yaranması üçün investisiya lazımdır. Burada investisiyalara, yatırımlara ehtiyac var. Bu, iqtisadiyyatın maddi tərəfidir. Bir də var biliklərə əsaslanan iqtisadiyyat. Müasir iqtisadiyyat biliklərə əsaslanan iqtisadiyyatdır. İnformasiyaya əsaslandığına görə buna "informasiya iqtisadiyyatı" da deyirlər. Bu isə dövrün tələbidir. Burada əsas amil yenə də deyim ki, sərvət, xammal deyil. Məsələn, Yaponiyanın heç nəyi yoxdur, heç bir təbii sərvəti yoxdur, amma biliyəəsaslanan iqtisadiyyat yaradıb və çox böyük sürətlə inkişaf edir. Çin də bu iqtisadiyyatı qəbul edib və eləcə də digər inkişaf etmiş dövlətlər bu yoldadır. Yenə də deyirəm, bu, günümüzün tələbidir.

- Büdcədən ayrılan vəsaitin böyük hissəsi təhsilə sərf olunur. İldən-ilə də bu vəsait artır. Bu addımlar ölkəmizdə insan kapitalını formalaşdıra bilərmi?

- Ümumiyyətlə, mən bunun pulla, manatla ölçülməsinin tərəfdarı deyiləm. Ola bilsin ki, təhsilə bir milyard və ya yarım milyard manat vəsait qoyulsun və bunun daha çox səmərəsi olsun və ya daha çox pul qoyulsun və lap az səmərə olsun. Burada həmin vəsaitin xərclənməsinin səmərəliliyindən söhbət getməlidir. Həmin o bir milyard manat necə istifadə olunacaq? Bunun səmərəliliyinin ölçüsü nədən ibarətdir? Təhsil sisteminin son nəticəsi bu gün bizi qane edirmi? Bilirsiniz ki, qəbul imtahanları təzə başa çatıb və hələ də müzakirələr gedir. Məsələn, ən böyük problemlərdən biri budur ki, abituriyentlər repititorsuz ali məktəblərə daxil ola bilmirlər. Bu artıq bizim təhsil sisteminin səmərəliliyinin, büdcədən təhsilə ayrılan pulların səmərəliliyinin göstəricisidir. Deməli, ayrılan pullar kifayət qədər səmərəli

istifadə olunmayıb ki, bu uşaqlar təhsil müəssisələrində təhsil alıb universitetə daxil ola bilmirlər. Amma repititorlara əlavə pul verərək hazırlaşır və universitetə daxil olurlar.

- Xarici təhsil müəssisələrinə dövlət hesabına gənclərimizin göndərilməsi və orada təhsil almaları insan kapitalının inkişafına təsir göstərəcəkmi?

- Əlbəttə, təsir göstərəcək. Bu çox lazımlı bir şeydir. O zaman, 1980-ci illərdə ümummilli lider Heydər Əliyevin Rusiya məktəblərinə təhsil almaları üçün göndərdiyi tələbələr indi cəmiyyətdəöz bəhrələrini verirlər. Onlar indi cəmiyyətdə müəyyən mövqe tutublar. Bizim dövlət proqramına əsasən xarici dövlətlərin universitetlərinə göndərilən beş min tələbə də orada təhsil alıb gələndən sonra burada insan kapitalının inkişafında böyük xidmətlər göstərəcəklər. Onların çox böyük əhəmiyyəti var. Məsələn, mən sizə Azərbaycan Universitetini misal kimi gətirə bilərəm. Biz çalışırıq ki, universitet çərçivəsində səlahiyyətimiz daxilində Avropa və Amerikanın təhsil sistemini tətbiq edək. Bu da nədən ibarətdir. Biz ən azından orada keçirilən dərsləri burada keçirik. Amma burada bir məqam da var ki, orada elə fənlər, elə dərslər keçirilir ki, burada o dərsləri keçmək olmur. Elə sahələr var ki, o sahələrdə Azərbaycanda mütəxəssis yoxdur. Burada əsas məsələ odur ki, Avropa təhsil sisteminə formaca keçməyin heç bir mənası yoxdur. Biz məzmunca keçməliyik. Orada hansı dərslər tədris olunursa, həmin dərslər də burada keçilməlidir. O dərsləri Avropadakı kimi keçməyə bizdə kadr yoxdur. Bu gün mənim rəhbərlik etdiyim Ümuıni iqtisadiyyat kafedrasının müəllim heyətinin yarıdan çoxu Avropa və Amerikada təhsil almış insanlardır. Onların köməyi olmadan biz o sistemi burada tətbiq edə bilmərik.

- Bəs başqa dövlətlərin müəllimləri bura gəlib tədris edə bilərmi?

Onların müəllimləri bura gələrək burada tədris etməzlər. Avropa və Amerika ölkələrində universitetdə və ya hər hansı bir tədris müəssisəsində dərs deyən müəllimə altı-yeddi rəqəmli maaş verilir. Bunu burada tətbiq etmək mümkünsüzdür. Burada bir məqamı da qeyd etmək lazımdır ki, xaricə təhsil almağa göndərilən tələbələr bura qayıtdıqdan sonra işlə təmin olunmalıdırlar. Əgər biz xaricdə təhsil almış şəxslərə iş versək, onları lazımi yerlərdə işlə təmin etsək, onda bizdə insan kapitalı inkişaf etmiş olar. Burada onu da qeyd etmək lazımdır ki, xaricə tələbə göndərmək asandır, amma onları burada işlə təmin etmək çətindir. Mən onu da bildirmək istəyirəm ki, insan kapitalının inkişaf etdirilməsi tamamilə yeni bir sahə və eyni zamanda yeni bir problemdir. Hansı dövlət insan kapitalının inkişaf etdirilməsinə, biliklərə əsaslanan iqtisadiyyata əsaslanırsa, gələcək də elə onlarındır. Biliklərə əsaslanan iqtisadiyyatı qurmayan, insan kapitalını inkişaf etdirməyən dövlətlər axırıncı yerlərdən birini tutacaqlar. İnsan kapitalının inkişaf etdirilməsi, biliyə əsaslanan iqtisadiyyatın qurulması təkcə büdcədən vəsaitlərin ayrılması ilə

bitmir. Mən böyük həcmdə pul ayrılmalarının tərəfdarı deyiləm. Mən onun tərəfdarıyam ki, həmin puldan səmərəli istifadə olunsun. Təhsilin məzmununda səmərəlilik olsun, biz Avropa, Amerika sistemini daha yaxşı formada tətbiq edə bilək. Burada Avropa sisteminə uyğun olaraq universitetlərə çoxlu imkanlar verilsin. Bununla bağlı çoxlu işlər görülməlidir. Gənclərin yetişdirilməsi istiqamətində də işlər görülməlidir. SSRİ dövründə işlə təmin olunma var idi və universiteti bitirənlərə təyinat verilirdi. Bu gün isə verilmir. Təbii ki, bu, bazar iqtisadiyyatının tələbidir. Çünki burada tələbələr arasında da rəqabət olmalıdır.

Söhbəti apardı: Əlimərdan Sultanov

11.11. Çin və Azərbaycan üçün "Böyük İpək Yolu" strategiyası

Mənbə: Çin və Azərbaycan üçün "Böyük İpək Yolu" strategiyası-Çin və Azərbaycanın iqtisadi inkişafi fenomeni vətəndaşların sosial-iqtisadi hüquqlarının inkişafıı kontekstində. Beynəlxalq Konfrans, Bakı 2 iyul, 2013 AMEA İnsan Hüquqları İnstitutu

Giriş. Yol hələ qədim dövrlərdən bəşəriyyətin diqqət mərkəzindədir. Təsadüfi deyildir ki, fəlsəfi və bədii söz xəzinəsinin nəhəngləri öz hikmətli fikirlərini çox vaxt cəmi üç hərfdən ibarət olan " yol " sözü ilə ifadə etmişlər. Bu həmin anlayışın bəşər tarixində oynadığı rol iləəlaqədardır, onun ictimai fikirdəəksi, inikasıdır. Qədim Çin filosofu Konfutsi qeyd edirdi: " İnsan Yolu genişləndirməlidir, yol insanı deyil." Başqa bir yerdə isə o deyirdi: ağıllı insan kasıblıq haqqında deyil, yol haqqında düşünər (1, s. 59, 60). Yol haqqında ayrıca bir əsər yazmış qədim Çin filosofu Lao-Tszin belə bir obrazlı ifadəsi var: "Böyük yol rəvan və düzdür, ancaq insanlar cığırlarla getməyi sevirlər ". Onun fikrinə görə böyük yolla getmək xeyirxah iş görmək, cığırlarla getmək isəşər iş görmək deməkdir (1, s. 115).

Açar sözlər: Böyük İpək Yolu, Azərbaycanın strateji coğrafi mövqeyi, Çinin strateji coğrafi mövqeyi, Bakı-Tiflis-Qars dəmir yolu

Bəşər tarixinin keşməkeşli yollarına diqqətlə nəzər saldıqda məlum olur ki, yol və nəqliyyat lap qədim dövrlərdən insanın həyat uğrunda mübarizəsinin və özü üçün əlverişli və təhlükəsiz həyat şəraitinin yaradılması uğrunda səylərinin nəticəsidir. Başqa ifadə ilə desək, yol tarixin bir növ cığırdaşı, yer üzünün əşrəfi olan insanın təbiətdə və cəmiyyətdə hökmranlıq vasitəsidir. Yol vasitəsi ilə insanlar yeni həyat məkanı təmin etmiş, maddi və

mənəvi mübadilə prosesinin əsasını qoymuşlar.

Yol və nəqliyyat öz təkamülündə uzun və əzablı bir yol keçmişdir. Min illər boyu insan və heyvan izlərinin kortəbii olaraq həkk edildiyi daşlı-kəsəkli yollar və indiki gözlə baxdıqda primitiv görünən, lakin o zaman inqilabi yenilik olan nəqliyyat vasitələri, insanlar, yaşayış məntəqələri arasında əlaqə yaratmış, maddi və mənəvi alış-verişin bünövrəsini qoymuşdur. Sonralar isə sistemli şəkildə salınan yollar və nəqliyyat vasitələrində baş verən inqilabi yeniliklər şəhərləri, ölkələri, qitələri birləşdirərək insanlığın vəhdətini təmin etmiş, cəmiyyətin təkamülünə daha ciddi təkan vermişdir.

Çox vaxt hərbi məqsədlərlə çəkilən yollar dövlətlərin, nəhəng tarixi imperiyaların hərbi və iqtisadi gücünün mühüm göstəricisi olmuşdur və onların hegemonluğunu təmin etmişdir.

2000-ci ildə Davosda Dünya İqtisadi Forumunun təşkil etdiyi konfransda H.Əliyev demişdir: «Böyük İpək Yolu bəşəriyyətin tarixində, xüsusən, Avrasiya kontinentinin tarixində dərin iz buraxıb və vaxtilə Avropa ilə Asiya arasında yüklərin daşınmasında çox böyük rol oynamışdır» (2, s. 16).

Şərq və Qərb mədəniyyəti və iqtisadiyyatının bir-birinə yaxınlaşmasında, bir-birini qarşılıqlı olaraq tamamlamasında, «Böyük İpək Yolu» adı altında hələ eramızdan əvvəl fəaliyyət göstərməyə başlamış beynəlxalq tranzit ticarət yolu mühüm tarixi rol oynamışdır.

Bəşəriyyət ümumi bəşəri dəyərlərlər əsasında irəlilədikcə, elmi və texniki kəşflər insanlara ram edildikcə, nəqliyyat və rabitə vasitələri kəşf edildikcə - Şərq və Qərbin bir-birini daha yaxından öyrənməsi və bir-birinə daha güclü təsir etməsi prosesi sürətlənmişdir. Şərqə doğru irəliləmə, Şərqə daha əlverişli yollar axtarışı dünyanın Böyük coğrafi kəşflərinə gətirib çıxartdı.

Lakin Şərq və Qərb arasında ziddiyyətlər və mübarizəni kəskinləşdirən XX əsr dünyanın, o cümlədən onun iki böyük tərkib hissəsinin vəhdətinin kristallaşması yolunda da nəhəng addımlar atdı. Elmi-texniki, siyasi-iqtisadi, mədəni-maarif istiqamətlərində gedən bu irimiqyaslı kristallaşdırma prosesi ölkələrarası, regional, dini, etnik və digər ziddiyyətlər və mübarizənin saxlanılması, kəskinləşməsi zəminində yüksələn xətt üzrə inkişaf edir.

Şərq və Qərb dəyərlərinin bir vəhdət kimi birləşməsinin bəşəriyyətə verdiyi sonsuz faydalar XX əsrin II yarısında özünü göstərmiş «Yapon möcüzəsi», «Cənub - Şərqi Asiya möcüzəsi» və "Çin fenomeni" ilə əyani şəkildə sübut olunmuşdur. Bu ölkələrdə ictimai-iqtisadi tərəqqi sahəsində əldə edilmiş güclü sıçrayışlar bəşəriyyət qarşısında geniş perspektivlər açıldığını göstərir.

Qərbin maddi və mədəni dəyərlərindən geniş istifadə etməyə çalışan Orta Asiya və Qafqaz xalqları zəngin təbii ehtiyatları Qərbin ehtiyaclarının təmin edilməsi üçün mənimsənilməyə başlamış və dünya siyasətinin aparıcı istiqamətlərindən birinə çevrilmişdir. "Böyük İpək Yolu" probleminin yenidən aktuallaşması da Şərq və Qərb arasında inteqrasiya proseslərinin

intensivləşdirilməsi, enerji daşıyıcılarının Qərbə asan ötürülməsi üzərində gedən ciddi işlə, yeni kommunikasiya xətlərinin açılması ilə əlaqədardır.

Çin və Avropa arasında yeni və nəhəng geosiyasi məkanın formalaşması Çin kimi nəhəng və dinamik inkişaf edən bir dövlətin Qərb dünyasına intensiv və səmərəli inteqrasiyası üçün yeni fövqəladə imkanlar yaratmışdır.

XX əsrin son onilliyində Sovet imperiyasının süqutu, dünyanın bloklara bölünməsinin aradan qaldırılması Soyuq Müharibəyə son qoydu, böyük bir coğrafi bölgədə geosiyasi vəziyyəti kökündən dəyişdirdi. Bəşəri tərəqqi üçün dünya təsərrüfatı sisteminin bütün həlqələri arasında qarşılıqlı faydalı hərtərəfli əlaqələrin daha da dərinləşməsi yolunda geniş imkanlar yarandı. Bu coğrafi məkanda Xəzər hövzəsinin zəngin neft yataqlarının mühüm bir hissəsinə nəzarət edən Orta Asiya və Qafqazın yeni müstəqil dövlətləri özünəməxsus yer tutur. Dünyanın neft xəzinəsi sayılan İran körfəzindən sonra öz əhəmiyyətinə görə ikinci yerdə duran bu regionda neft ehtiyatı 30 mlrd. t., qaz ehtiyatı isə onlarla trillyon kub metr təşkil edir. Mütəxəssislərin hesablamalarına görə XXI əsrin ikinci yarısında orta illik neft hasilatı burada 100 mln. tona çata bilər. Uran və digər mühüm filiz növləri, qızıl ehtiyatı, habelə pambıq parça istehsalı imkanları nəzərə alındıqda regionun əhəmiyyəti daha da artır.

«Böyük İpək Yolu» layihəsi əhalinin sıx yaşadığı və bu layihənin əsas hədəfini təşkil edən Orta Asiya və Qafqazın müstəqil ölkələrinin ümumdünya təsərrüfat dövriyyəsinə fəal cəlb olunması, onların 70 illik sovet dövründə yığılıb qalmış sosial-iqtisadi problemlərinin həll edilməsi və nəhayət, bu dövlətlərin siyasi və iqtisadi müstəqilliklərinin möhkəmləndirilməsi üçün daha geniş perspektivlər açır.

Tamamilə aydındır ki, bol təbii sərvət potensialına malik olan Xəzər hövzəsi və Qafqaz ölkələrinin gələcək sosial-iqtisadi tərəqqisi həlledici dərəcədə onların ümumdünya təsərrüfatı sisteminə fəal və səmərəli qoşulması prosesindən asılıdır.

Ulu öndər Heydər Əliyev "Böyük İpək Yolu" layihəsində Azərbaycanın xüsusi rol oynadığını bəyan edirdi. O göstərirdi ki: "Azərbaycan "İpək yolu"nun mərkəzində yerləşir. "İpək yolu" Yaponiya, Çin və Mərkəzi Asiyadan keçib Xəzərə çıxacaqdır. Xəzərdə Şərq və Qərb sahilləri arasında keçid bərəsi var və bu bərə Azərbaycana məxsusdur. Bakı "İpək yolu"nun üstündə yeganə iri dəniz limanıdır. Ona görə də Azərbaycan burada çox mühüm strateji mövqe tutur".

Heç kəs üçün sirr deyildir ki, müasir dövrdə tərəqqinin həlledici amili neft və qaz, təbii sərvətlər ehtiyatı deyil, intellektual və elmi-texniki ehtiyatlardır. Bu ehtiyatlar isə yalnız min illər ərzində toplanmış dünya təcrübəsindən intensiv istifadə etmək və beynəlxalq əlaqələr sistemində fəal iştirak etməklə inkişafın əsl hərəkətverici qüvvəsinə çevrilə bilər.

Təsadüfi deyildir ki, dünya təsərrüfatı sistemi ilə iqtisadi inteqrasiya bu ölkələrin iqtisadi siyasətinin aparıcı istiqamətlərindən birini təşkil edir.

XXI əsrdə beynəlxalq iqtisadi inteqrasiya daha da dərinləşir. Bir regionda və ya dövlətdə sosial-iqtisadi proseslərin gedişi əhəmiyyətli dərəcədə bu region və ya dövlətin dünyada mövcud olan hansı nəhəng inteqrasiya birliklərinə daxil olacağından əhəmiyyətli dərəcədə asılıdır. Texnoloji inqilabların beşiyi olan Avropaya alternativ yollarla çıxış bu ölkələrdə istər iqtisadiyyatın müasir texniki və texnoloji əsaslarda yenidən qurulması və dirçəldilməsində, istərsə də bazar iqtisadiyyatının formalaşmasında mühüm rol oynayacaqdır.

İpək yolu üzərində yerləşən postsovet ölkələrində nisbətən inkişaf etmiş nəqliyyat sistemi mövcud olsa da, bu sistem, həll edilməsi həyati əhəmiyyət kəsb edən bir çox ciddi problemlərlə qarşı-qarşıyadır. Qlobal iqtisadiyyatın sabit inkişafı üçün strateji əhəmiyyətə malik olan bu ölkələrin nəqliyyat sistemi sovet dövründə elə təşkil olunmuşdur ki, həmin sistem bu dövlətləri Rusiya bazarlarına bağlamış, onların xarici dünyaya (Rusiyadan başqa) çıxışını mümkün qədər məhdudlaşdırmışdır. Mövcud nəqliyyat sistemi həmin dövlətlərin müstəqillik uğrunda apardıqları mübarizədə ən zəif həlqələrdən biridir.

Böyük İpək yolu layihəsi, ilk növbədə, Qərblə Şərq arasında etibarlı nəqliyyat dəhlizinin formalaşmasına yönəldilmiş olsa da, region ölkələrinin inkişafında, dünya birliyi ilə əlaqələrinin genişlənməsində keyfiyyətcə tamamilə yeni proseslərin başlanğıcını qoymuşdur.

Azərbaycanın strateji coğrafi mövqeyi Yeni İpək yolunun inkişafı prosesində ölkəmizin onun siyasi mərkəzinə, Bakının isə onun əsas nəqliyyat qovşağına çevrilməsi üçün geniş imkanlar yaradır. Belə ki, Avroasiya məkanının Şərq-Qərb və Şimal-Cənub yollarında yerləşən Bakının Asiya-Avropa vahid nəqliyyat sisteminin nəhəng nəqliyyat qovşağına çevrilməsi nəzərdə tutulur. TRACECA proqramının həyata keçirilməsi Bakı qovşağının nəqliyyat kommunikasiyalarının yeniləşməsinə də ciddi təkan verir. Xəzərin Şərq və Qərb sahilləri arasında Azərbaycana məxsus xüsusi donanma bərə keçidi artıq fəaliyyət göstərir. Bu mövqeyi saxlamaq məqsədi ilə dövlətin ərazisində böyük nəqliyyat mərkəzinin fəaliyyətinin təşkil edilməsi üzrə kompleks proqramın yaradılması və reallaşdırılmasıüzrə işlərə başlamışdır. Bakı Magistral layihəsinin həyata keçirilməsi üzrə yalnız müzakirələr aparılan yer deyil, həmçinin nəqliyyat arteriyasının qlobal mərkəzinə və Şərq ilə Qərb arasında mühüm əlaqələndirici körpüyə çevrilir. Bütün bunlar bizim dövlətin üzərinə böyük öhdəliklər qoyur, regionda Azərbaycanın siyasi və iqtisadi təsirini gücləndirir. Onu lider dövlətə çevirir.

Tamamilə aydındır ki, Böyük İpək yolu ilə yük dövriyyəsi son illər Asiya ölkələrində istehsalın, ixracın və idxalın artmasına müvafiq olaraq daha

da böyüyəcək. Bu ölkələrin gələcək inkişafı Avropanın inkişaf etmiş sənaye ölkələri ilə əlaqələr yaratmağı və inkişaf etdirməyi zəruri edir. Bu magistral üzrə Asiya ölkələrinin məhsulları Avropaya yönələcəkdir. Misal üçün, hazırda Yaponiya ixracının 60%-i Avropaya göndərir. Eyni zamanda, Çin və Cənubi Koreyada da Avropaya öz ixracını artırmağa çalışır.

Qərbi-Sibir Dəmiryolu və yeni İpək yolu arasındakı rəqabət nəqliyyat xərclərinin və tariflərin azalmasına, daşımaların keyfiyyəti və təhlükəsizliyinin artmasına səbəb olur. BİY Layihəsinin həyata keçirilməsi istifadəçilər üçün hazırkı işləyən marşrut ilə müqayisədə böyük üstünlüklər verir.

Layihənin iqtisadi məqsədəuyğunluğu şübhəsizdir, çünki o, yolu 2000km azaldır və bu təbii ki, dövriyyə vəsaitlərinin çatdırılma zamanını azaldır və dövr etməsini artırır. AB ekspertlərinin rəyinə görə, BİY-in həyata keçirilməsi yükün 2 dəfə tez və 30% ucuz çatdırılmasını təmin edəcək.

Qərb-Şərq Avropa-Asiya oxu üzrə nəqliyyat dəhlizi perspektivdə nəinki dayanıqlı olaraq artan gəlir təmin edir və yeni iş yerləri açır, həmçinin ticarət şərtlərinin yaxşılaşması üçün şərait yaradır. Bütün bunlar ölkənin inkişafı üçün böyük təkan verəcəkdir. Yolun Avropa nəqliyyat şəbəkəsinə inteqrasiyası elmi və mədəni əlaqələrin, turizmin inkişafı və az zaman və vəsait xərcləri ilə dövlətlərarası yük və sərnişin daşınmalarının artırılmasına zəmin təşkil edir.

BİY-ü xətti üzrə - ümumi uzunluğu 27 min km. olan TAE (Trans-Asiya-Avropa) optik kabel şəbəkələri keçəcəkdir.

Perspektivdə avtomobil, aviasiya, telekommunikasiya nəqliyyat koridorları Avropanın vahid bazar məkanına daxil olacaq. Avropa-Qafqaz-Asiya nəqliyyat koridorunun yaradılmasını Suveyş və Panama kanalları kimi dünya səviyyəli layihələri ilə müqayisə etmək olar (3, 2001, №1, s. 6-7).

Azərbaycan Respublikasında SSRİ-nin vahid nəqliyyat sisteminin tərkib hissəsi kimi nəqliyyat kompleksi müəyyən inkişaf mərhələsi keçmişdir. Ölkədə nəqliyyat sisteminin bütün müasir növləri formalaşmış və inkişaf etmişdir. Bu sistemdə dəmiryolu, dəniz, avtomobil, boru-kəmər nəqliyyatı aparıcı rol oynayır. Elektrik enerjisi istehsalının ölkədə sürətli inkişafı nəticəsində respublikanın bütün ərazisini əhatə edən vahid elektron nəqliyyat sistemi inkişaf etmişdir.

Azərbaycan təkcə neft-qaz kəmərlərinin keçdiyi tranzit ölkə deyil. Ölkəmiz, həmçinin dünyanın müxtəlif regionlarını birləşdirən ticarət yollarının kəsişdiyi mühüm strateji müvqeyə malikdir. Bu səbəbdən ötən əsrin qlobal layihələrindən biri olan Avropa-Qafqaz-Asiya (TRACECA) nəqliyyat dəhlizinin yaradılmasında Azərbaycan xüsusi rol oynamışdır. Dəhlizin istifadəyə verilməsi bir-birlərindən uzaqda yerləşən müxtəlif ölkələrə ticarət əlaqələrini genişləndirməyə büyük imkanlar yaratmış, Azərbaycan isə regionun ən böyük tranzit ölkəsinə çevrilmişdir. Həmin mövqenin möhkəmlən-

dirilməsində artıq reallaşmağa başlayan Bakı-Tbilisi-Qars dəmiryolu böyük əhəmiyyətə malikdir. Bakı-Tbilisi-Qars dəmiryolu xətti üzrə beynəlxalq layihənin həyata keçirilməsi və Bosfor boğazından dəmiryol tunelinin inşası Trans-Avropa və Trans-Asiya dəmiryol şəbəkələrinin birləşdirilməsini, yük və sərnişinlərin birbaşa olaraq Azərbaycan, Gürcüstan və Türkiyə ərazilərindən keçməklə Avropa və Asiyaya çatdırılmasını təmin etməklə yanaşı, region ölkələrinin tranzit potensialının artmasına, Avropaya inteqrasiya proseslərinin sürətləndirilməsinə, Avropa qonşuluq siyasəti çərçivəsində əməkdaşlığın daha da inkişafına, habelə ölkəmizin xarici iqtisadi əlaqələrinin genişləndirilməsinə xidmət edir. Layihənin həyata keçirilməsi, həm də iqtisadi səmərəlilik, sürət və vaxt tezliyi, təhlükəsizlik və etibarlılıq baxımından böyük əhəmiyyət kəsb edir. Gələcəkdə Avropa və Asiya ölkələrinə məxsus yüklərin bu dəmiryoluna cəlb edilməsi eyni zamanda hər iki istiqamətdə intermodal və konteyner daşımalarının həcmini artıracaq.

"Dəmir İpək Yolu" adlandırılan, Avropadan Çinə qədər birbaşa əlaqəni təmin etməyə imkan verəcək Bakı-Tbilisi-Qars dəmir yolunun işə düşməsi ilə həm də Ermənistanın Azərbaycana hərbi təcavüzü ilə bağlı 1993-cü ildə Türkiyə ilə Orta Asiya arasında kəsilmiş dəmiryolu yenidən bərpa olunacaqdır (4,s. 251).

2007-ci il Noyabrın 21-də Gürcüstanın Tetri-Tskaro rayonunda-Marabda stansiyasında Bakı-Tblisi-Qars dəmiryolunun Gürcüstan hissəsinin təməlinin qoyulmasına həsr olunmuş mərasimdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev demişdir: "Bu yolun tikintisi bütün bölgə üçün, dünya üçün çox böyük əhəmiyyət kəsb edir və mən əminəm ki, Bakı-Tbilisi-Qars dəmir yolunun işə düşməsi bölgəyə daha da çox təhlükəsizlik, daha da çox əməkdaşlıq gətirəcək və bu imkanlardan istifadə edən ölkələr, əlbəttə ki, regional əməkdaşlıq baxımından da bir-birinə yaxın olacaqlar. Mən hesab edirəm ki, bu layihə bölgədə nəqliyyat təhlükəsizliyinə də öz müsbət təsirini göstərəcəkdir. Bu gün enerji məsələlərinin ön plana çıxması nəticəsində daha çox enerji təhlükəsizliyi haqqında danışılır. Ancaq nəqliyyat təhlükəsizliyi ondan az əhəmiyyət daşımır. Biz bu yolun yaradılması ilə nəqliyyat təhlükəsizliyi məsələsinə öz töhfəmizi veririk".

Dünyanın ən böyük 100 layihəsi arasında xüsusi yer tutan həmin dəmiryolu xətti işə düşəndən sonra Mərmərə üzərindən Avropa ilə Çin arasında birbaşa dəmiryolu əlaqəsi yaradılacaqdır. Bu xətt Çin ilə Qazaxıstanı Avropaya bağlayacaqdır. Beləliklə, Avropa ilə Orta Asiya arasındakı yük dövriyyəsinin böyük hissəsinin dəmiryolu ilə daşınması nəzərdə tutulur. Bununla da bu nəhəng layihə məcazi olaraq "Dəmir İpək Yoluna" çevriləcəkdir.

Qərbi Qazaxıstandakı Aktau Limanını Çinlə birləşdirən Dostık-Aktau dəmiryolu da tamamlandıqdan sonra, bu xətt üzərinden Qafqaza və Avropaya Qazaxıstan və Çin yüklərinin daşınması təmin ediləcəkdir. Bu layihədə

maraqlı olan Çin də, Rusiya xəttinə alternativ olaraq mallarını Cənubi Qafqaza və Türkiyə üzərindən Avropaya çatdırmağa çalışır.

2012-ci ildə Çinin Lianqyuquanq limanından başlayaraq Qazaxıstana gələn ikinci dəmir yolu xətti açıldı. Yolun yalnız Çinə aid olan hissəsinin dəyəri təxminən 1 mlrd. dollardır. Milli dəmir yol şəbəkəsini xeyli genişləndirən bu xətt böyük strateji əhəmiyyətə malikdir. Hal-hazırda Çinin Foxconn və Acerelektronika şirkətləri öz mallarını Avropaya dəmir yolları vasitəsilə daşıyırlar. BMW, Audi və Volkswagen maşınlarını istehsal edən alman şirkətləri Çin zavodlarında yığılmaq üçün komplektləşdirici məmulatları göndərərkən dəmir yolundan istifadə edirlər (5).

Ədəbiyyat:

1.Анатомия мудрости. Философская афористика. Заповеди, притчи, наставления. М., "Остожье", 1996, 575.

2.Davos: Qlobal iqtisadiyyatın üfüqləri. Bakı, Azərnəşr, 2000, s. 86.

3.Мировая экономика и международные отношения, (МЭ и МО), 2001, N 3.

4.D.Ə.Vəliyev. Azərbaycanın qlobal iqtisadiyyata inteqrasiyası. Bakı, "Adiloglu", 2008, 428.

5.Источник - rus.azattyq.org - 26.12.2012.

11.12.Dəyişən dünyanın Çin mənzərəsi

(Həmmüəllif: Akif Musayev, AMEA-nın müxbir üzvü? i.e.d. prof.)

"Xalq qəzeti", 21 mart 2010-cu il.

Dünya təsərrüfatı sistemi fasiləsiz dəyişikliklərə məruz qalır. Qlobal güc mərkəzləri arasında formalaşmış qüvvələrnisbəti dəyişir, yeni regional inteqrasiya qruplaşmaları yaranır, təsərrüfat əməliyyatlarının getdikcə daha çox hissəsi qlobal istehsal kompleksləri və informasiya şəbəkələri çərçivəsində həyata keçirilir. 2008-2009-cu illərin qlobal maliyyə böhranı zamanı həmin proseslər daha da sürətlənmişdir. Beynəlxalq iqtisadi sistemin konfiqurasiyası yeni əlamətlərlə zənginləşir, dünya bazarında aparıcı oyunçuların vəziyyətləri modifikasiyaya uğrayır.

İnformasiyaya əsaslanan istehsal və rəqabətin beynəlxalq əmək bölgüsü sistemində formalaşan qloballaşma ölkələrarası asılılıq, regionallaşma və hər bir regionda diversifikiasiyanın durmadan artması ilə xarakterizə edilir, tarixən formalaşmış iqtisadi coğrafiyanın dəyişdirilməsinə doğru aparır.

Hər bir ölkədə geniş təkrar istehsalı prosesinin mühüm amillərindən biri olan beynəlxalq əmək bölgüsü (BƏB) milli iqtisadiyyatla qlobal iqtisadiyyatın qarşılıqlı əlaqəsini şərtləndirir, zəruri beynəlxalq iqtisadi proporsiyaları formalaşdırır və inkişaf etdirir.

Qloballaşma dövründə baş verən informasiya və texnologiya inqilabları təbii şəraitin və təbii sərvətlərin həlledici rolunu ikinci plana keçirir. Müasir dövrdə hər bir ölkədə sosial-iqtisadi tərəqqi informasiya və texnologiya sahəsində durmadan baş verən dəyişikliklərdən necə və nə dərəcədə istifadə olunmasından asılıdır.

Sivilizasiyanın keyfiyyətcə yeni bir mərhələyə yüksəldən qloballaşma proseslərinin ən böyük kəşflərindən birinin "Çin möcüzə"si olduğunu desək yəqin ki, mübaliğəyə yol verməmərik. Heç təsadüfi deyildir ki, Azərbaycanın görkəmli alimi və ictimai xadimi akademik Ziyad Səmədzadə "Çin qlobal dünya iqtisadiyyatında" adlı titanik əsərini məhz "Çin möcüzəsi"nin hərtərəfli elmi təhlilinə, Çinin dəyişən dünyada mövqeyi və rolunun transformasiyası problemlərinin tədqiqinə həsr etmişdir.

Azərbaycan iqtisad elminin ağsaqqalı özünün dərin və hərtərəfli təfəkkür tərzi ilə əsərin birinci fəslində dünya ölkələrinin inkişaf səviyyəsinin dəyişilməsi meyllərini tədqiq edir, dünyanın mənzərəsinin necə transformasiya etməsi ilə oxucuların biliklərini zənginləşdirir.

Məlum olduğu kimi qloballaşma prosesləri sənaye ölkələrində irimaşınlı sənayenin inkişafının daha da sürətlənməsi ilə nəticələnir. Bu isə istehsalın miqyasını əvvəllər görünməmiş dərəcədə artırmaqla, onların satışı və xammal mənbələri uğrunda dünya bazarında gedən mübarizəni olduqca kəskinləşdirir. Amerikan iqtisadçısı Filip C. Kerninin göstərdiyi kimi: "bu gün bizim son bir əsr yarımda tanıdığımız dövlətlər onların funksiyalarını, rollarını və fəaliyyətlərini ciddi şəkildə dəyişdirən və məhdudlaşdıran güc sistemlərinin yenidən qurulmasına nail olurlar."

Həmin güc sistemlərinin yenidən qurulması prosesləri Azərbaycanın iqtisad elmində ilk dəfə olaraq əhatəli şəkildə, məhz hörmətli akademikin əsərində öz əksini tapmışdır.

Bu güc mərkəzləri içərisində Çin fenomeni istər elmi, istərsə də praktiki baxımdan böyük əhəmiyyət kəsb edir. Dünya mütəxəssisləri tərəfindən sosial-iqtisadi inkişafın Çin modeli birmənalı olaraq unikal bir yol kimi qəbul olunur. Bu, Çin sivilizasiyasının qədimliyi və nəhəngliyi ilə əlaqədardır. Kitab müəllifinin qeyd etdiyi kimi: "Çin qədim dünyanın dörd nəhəng sivilizasiyasından birinin vətənidir. Bütün qədim sivilizasiyalardan yalnız Çin sivilizasiyası inkişafın sonu və tənəzzüllə nəticələnən ağır kataklizmlərdən xilas ola bilmişdir".

Həqiqətən çinlilər elə bir mentalitetə, elə bir psixoloji bazaya malikdirlər ki, onları istənilən digər xalqların insanları ilə müqayisə etmək çətindir. Məhz Çin əhalisinin Konfusi ruhu və zəngin təbii sərvətləri ölkənin uğurlu inkişafında həlledici rol oynamışdır.

Çin modelinin hərəkətverici qüvvəsi olan iqtisadi islahatların atası Den Syaopin sayılır. Həmin şəxsiyyəti fenomen adlandıran hörmətli akademik

hesab edir ki, Den Syaopin Çin xalqının taleyində silinməz iz buraxmışdır. Çünki Den Syaopin islahatlar konsepsiyasını irəli sürəndə ölkədə iqtisadi tənəzzül və siyasi ziddiyyətlər getdikcə dərinləşirdi. Amma o, dünyasını dəyişəndə Çin qüdrətli bir dövlətə çevrilmişdir. Kitabda Den Syaopin islahatlarının dərin qatları ətraflı şəkildə təhlil edilir.

Müəllifin haqlı fikrinə görə, "Çin möcüzəsinin mühüm sirlərindən" biri də odur ki, ölkədə aparılan iqtisadi islahatlarda radikallığa yol verilmədi, mülkiyyət formaları qarşı qarşıya qoyulmadı, struktur islahatları sənayedə mərhələ-mərhələ aparıldı.

Məlum olduğu kimi, müasir iqtisadi proseslər diqqətlə nəzərdən keçirildikdə aydın olur ki, yeni informasiya iqtisadiyyatı qlobal miqyasda fəaliyyət göstərir. Ona görə də orijinal bir yol olan Çin inkişaf modelinin dünya təsərrüfatı sisteminə inteqrasiya təcrübəsi çox əhəmiyyətlidir. Çünki qloballaşmanın əsas problem sahəsi qloballaşmanın mürəkkəb proseslərinin necə dəyişməsi və necə paylaşdırılmasından asılıdır.

Den Syaopin islahatlarının təməl daşını belə bir fikir təşkil edirdi ki, qloballaşma dövründə Çinin iqtisadi dirçəlişini təmin etmək üçün ölkə beynəlxalq aləmə yeni prinsiplərlə çıxmalı və dünya tərəfindən açıq iqtisadiyyat quran dövlət kimi tanınmalıdır. Ona görə də Çin hökuməti islahatların ilk günündən bəyan etdi ki, beynəlxalq bazarın üstünlüklərindən daha dolğun istifadə iqtisadiyyatın tarazlı inkişafını müəyyən edən vacib şərtlərdəndir. Müəllif haqlı olaraq göstərir ki, düşünülmüş "açıq qapı" siyasəti Çinin dirçəlişində mühüm rol oynamış və gənc dövlətlər üçün olduqca əhəmiyyətlidir.

Qloballaşma proseslərinin həm ölkələr, həm də fəaliyyət sahələri baxımından qeyri-bərabər nəticələri təsirli milli dövlət modelinin formalaşdırılmasını və inkişaf etdirilməsini tələb edir. Çində milli dövlət modeli və sosial-iqtisadi inkişafda dövlətin rolu sahəsində Çin təcrübəsi də olduqca əhəmiyyətlidir. Müəllif göstərir ki, son 15 ildə Çin dövlətinin iqtisadiyyatda iştirakında xeyli keyfiyyət dəyişiklikləri baş vermişdir. Bilavasitə dövlət nəzarətində olan müəssisələrin azalmasına baxmayaraq, maliyyə-bank sistemi, elektrik enerjisinin istehsalı və istehlakı, su və qaz təchizatı, nəqliyyat, poçt rabitəsi dövlətin inhisarında qalmaqdadır. Bununla yanaşı, Çin hökuməti daxili bazarın inkişafını prioritet vəzifələrdən biri hesab edir. Çünki heç bir ideoloji məzmunu olmadığından bazar bitərəfdir. Dövlətin iqtisadiyyata müdaxiləsində perspektiv planlardan iqtisadi mexanizm kimi istifadə edilməsi, Çinin investisiya struktur siyasətinin formalaşmasında dövlətin aktiv iştirakı, elm və təhsilin dövlət siyasətində prioritet istiqamətə çevrilməsi və xüsusən, korrupsiyaya qarşı sistemli mübarizə sahəsində Çinin təcrübəsi gənc dövlətlər üçün müstəsna əhəmiyyət kəsb edir.

Müəllif xüsusi vurğulayır ki, biz bu prosesləri daim izləməli, onları təhlil etməli, milli dövlət mənafeləri baxımından istifadə etməliyik.

Akademik Z.Səmədzadənin əsərində Çində ərzaq təhlükəsizliyinin həll edilməsi yolları, islahatların sosial yönümü diqqətlə nəzərdən keçirilir. Əsərdə sürətli sosial-iqtisadi inkişafda pul-kredit siyasətinin mühüm rolu və dövlət siyasətinin prioritet istiqaməti kimi regionların tarazlı inkişafı ətraflı araşdırılır.

Keçid iqtisadiyyatı ölkələri, o cümlədən Azərbaycan üçün azad iqtisadi zonaların inkişaf etdirilməsi təcrübəsi və ÇXR-in Ümumdünya Ticarət Təşkilatına daxil olması konsepsiyası olduqca əhəmiyyətlidir. Bu problemlərin hər birinə müəllif haqlı olaraq ayrıca fəsil ayırır. Çünki dünya təcrübəsindən yaxşı məlumdur ki, bazar münasibətlərinin müvəffəqiyyətlə formalaşmasına, ölkə iqtisadiyyatının inkişafına təkan verən güclü amillərdən biri azad iqtisadi zonaların yaradılması və fəaliyyətidir. Ona görə də ötən əsrin 80-ci illərindən başlayaraq Çin Xalq Respublikası "açıq qapı" siyasəti həyata keçirməyə başlamışdır. Qapalı yaşamağın mümkünsüzlüyünü başa düşən ölkə rəhbərliyi qısa müddətdə xüsusi iqtisadi zonalar sahəsində dünya təcrübəsini öyrənmiş və uğurla tətbiq edilməyə başlamışdır. Çində 50-dən çox xüsusi iqtisadi zona qeydə alınmışdır. Həmin zonaların əldə etdikləri nəticələr bütün dünyanı heyran edir.

Ziyad müəllim özünün fundamental əsərində Çin-ÜTT münasibətlərini böyük uzaqgörənliklə təhlil edir. Onun göstərdiyi kimi Çin hökuməti yaxşı başa düşür ki, ölkəsinin Ümumdünya Ticarət Təşkilatına daxil olmasının həm müsbət, həm də mənfi cəhətləri vardır. Bu hadisənin müsbət cəhəti ilk növbədə onunla müəyyən olunur ki, Çin çoxlu güzəştlər və üstünlükləri olan böyük ticarət mühitinə daxil olur, beynəlxalq iqtisadi əməkdaşlıq qaydalarına uyğun olaraq ölkələrarası danışıqlarda öz ölkəsinin mənafelərini daha əsaslı müdafiə etmək hüququ əldə edir. Çünki nəhəng ölkə eyni zamanda yeni informasiya mühitinə daxil olur. Çin hökuməti eyni zamanda yaxşı başa düşür ki, Ümumdünya Ticarət Təşkilatı bu nəhəng ölkə olmadan qlobal bir qurum kimi tanına bilməz. Ona görə də bu prosesdə Çin öz milli mənafelərini qorumaq prinsiplərini açıq-aşkar elan etdi və bu siyasəti bu gün də davam etdirir. Təsadüfi deyildir ki, Çinin ÜTT ilə danışıqları həmişə gərgin keçmişdir. Hətta bəzi hallarda elə məqamlar olmuşdur ki, bu danışıqların dayandırılması gündəlikdə durmuşdur. Çin ÜTT-yə üzv olmağa hazırlaşdığı dövrdən öz milli iqtisadiyyatını qorumaq, inkişaf etdirmək üçün vaxtilə Qərb ölkələrinin uğurla istifadə etdikləri proteksionizm mexanizmlərindən istifadə etməyi vacib hesab edirdi və bu məqsədə də nail oldu. ÇXR-in ÜTT-yə qəbul edilməsi haqqında protokolda qeyd edilmişdir ki, protokoldakı şərtlər Çinin ÜTT ilə müqaviləsinə uyğun olaraq, ticarət fəaliyyətini tənzimləmək hüququna toxunmur. İndiyə qədər öz mallarını Çində satmaq arzusunda olan xarici şirkətlər bunu ya Çin agentləri vasitəsilə, ya da Çində bu məhsulların öz istehsalını təşkil etməklə həyata keçirə bilirdilər. Hazırda vəziyyət dəyişir və

xarici şirkətlər yerli vasitəçilər olmadan birbaşa Çin istehlakçıları ilə təmasa girə bilirlər. Çin daxili bazarın qorunması üçün texniki standartlardan və digər şərtlərdən geniş istifadə edir. Daxili bazarın müdafiəsində baytarlıq və antisanitar qaydaları, çoxsaylı təhlükəsizlik standartları, uyğunluq qiyməti prosedurları və s. böyük rol oynayır. Çin bu sahədə bir çox beynəlxalq müqavilələrin iştirakçısıdır.

Müəllif Çin təcrübəsinə əsaslanaraq tövsiyə edir ki, Azərbaycanın ÜTT-yə üzvlük məsələsində tələskənliyə yol vermək olmaz. Çalışıb ölkə üçün daha çox əlverişli şərtlər əldə etmək lazımdır. Keçid iqtisadiyyatı ölkələrin qarşılaşdığı problemlərin eyniliyini və ÜTT-yə üzv olmaq sahəsində maraqlarının uyğunluğunu nəzərə alaraq onların da Kern qrupu kimi bir qrupda birləşməsi məqsədəuyğun olardı.

Beləliklə, akademik Z.Səmədzadənin *"Çin qlobal dünya iqtisadiyyatında"* kitabı Azərbaycanın iqtisad elmində böyük hadisədir.

Unikal iqtisadi inkişaf modeli haqqında yazılan kitabın özü də unikaldır və Azərbaycanla Çin arasında dostluq əlaqələrinin inkişafına öz müsbət təsirini göstərəcəkdir.

Ümid edirik ki, zəngin bilik xəzinəsi olan kitab oxucular tərəfindən rəğbətlə qarşılanacaq və onlar üçün iqtisadi təfəkkürün genişləndirilməsi baxımından olduqca faydalı olacaqdır.

11.13 Raris saldirilari ve avrasya'da istikrar Akhmet Yassawi University. Euresian Restarch Institute. 19.01.2015

Charlie Hebdo gibi bir dergiye kanlı saldırı tüm dünyada bir deprem etkisi doğurdu. Avrasya coğrafyası dünyanın iki büyük dinine -Hıristiyan ve İslam dinine- mensup insanların yüzyıllar boyunca en sık yaşadığı bir mekandır. Bu büyük mekanda insanların huzuru, politik, sosyo-ekonomik istikrarı yüzyıllar boyunca adıgeçen iki büyük din arasında olan ilişkilerin durumuna bağlı olmuştur. Bu ilişkiler zaman-zaman milyonlarca insanların katledilmesiyle sonuçlanan kanlı savaşların yaşanmasını körüklemiş, dünyanın siyasi haritasını kökünden değiştirmiştir. Zaman-zaman ise iki dini temsil eden halkların birbirinin zengin bilimsel-kültürel birikimlerini ortak kullanmaları sonucunda insanlık dünya tarihinde terakki yolu ile büyük adımlarla ilerlemiştir. Özet olarak belirtmek gerekir ki, insanlığın gelişiminde çağdaş uygarlığın kazandığı büyük başarılar iki dünya -Doğu ile Batı dünyası- arasında olan işbirliğinin ortak sonucudur.

Avrasyanın nüvesini oluşturan Hıristiyan ve İslam dinine mensup halklar arasındaki ilişkiler Paris saldırılarıyla yeniden büyük tehlikeye girdi,

yüzyıllarca birikmiş sosyal ve siyasal dengeler alt-üst oldu. Böyle durum Hıristiyan dünyasında İslam düşmanlığının artmasına, ırkçılık ve din karşıtı eylemlerinin körüklenmesine neden olabilir.

Avrasyada istikrarı bozacak böyle bir tehlikeli sürecin önlenmesi ve en azından hafiflenmesi için bu olayları yaratan sosyo-ekonomik nedenlerin sağlıklı biçimde bilimsel olarak açıklanmasına ihtiyaç vardır. Bu yönde biz de bir takım fikirlerimizi sayın okurların yüce dikkatine sunmak istiyoruz. Adı geçen tarihi saldırı ile dünyada istikrarın son derecede bozulmasının nedenleri araştırılırken ilk önce Batı dünyasının kendi iç sorunları göz önüne geliyor. Dünyanın ve ilk önce Batının büyük terakkiye kavuşmasını sağlamış ekonomik sistem 20. yüzyılın sonları 21. yüzyılın başında duraklama ve buhranlar dönemine girmiştir. Sık sık kendini gösteren buhranlar küresel nitelik kazanmış, dünyayı ve Batının kendisini sarsmaktadır. Dünyanın en iyi entegrasyon birliği olan AB ülkeleri derin tenezzül içindedir. İşsizlik çözülmesi zor olan sorun niteliğine dönüşmüştür. Dünyada istikrarın bozulması Batı nüfusunun dikkatini adıgeçen acı sorunlardan yayındırmak için dünyayı yöneten güçler için faydalı olacağı kanaatindeyiz.

İnsanlık dışı şu saldırıların bir deprem niteliğinde dünyayı sarsmasının başta gelen nedenlerinin bir digeri olarak İslam dünyasında terörün yaşanması ve zirveye yükselmesini doğuran ortam ve sorunlar geliyor. Ortadoğu ve Afganistan'da yaşanan trajediler şu arada teröre yeşil ışık yakmıştır. Bunun nedeni ise dünyayı yöneten küresel güçlerin dünya ağalığına can atmasıdır. Büyük Orta Doğu projesi kapsamında bu tarihi ve zengin kültürel irse sahip halkların parçalanarak küçük devletlere dönüştürülmesi politikaları burada terörizmi körüklemektedir.

Bizim kanaatımızca Charlie Hebdo saldırısının yarattığı tehlikeli eğilimlerin, yanlış davranış ve politikaların arkasında bu saldırının yaşanmasında ayrı-ayrı teröristlerin, terör gruplarının değil, tüm İslam dünyasının suçlanmasına dayanıyor. İslam devletleri bu saldırıyı kınamalarına rağmen Batı medyası ve siyasileri tüm İslam dünyasına ve islami değerlere hakaretler yağdırıyorlar. Saldırıdan hemen sonra Paris'te düzenlenen Cumhuriyet Yürüyüşüne hoşgörü niyeti ile katılan Başbakan Ahmet Davutoğlu'nun Fransa Devlet Başkanı tarafından soğuk karşılaması bu fikrin çoksaylı kanıtlarından biridir. Rusya'nın tanınan siyaset adamı Boris Nemsov "Exo" dergisinde şöyle yazıyor: "İslam-genç dindir. O yedinci yüzyılda yaranmıştır. Yani İslam Hıristiyanlıktan 600 yıl gençtir. Ve eğer Hıristiyanlık 21. yüzyılı yaşıyorsa, İslam 14.-15. yüzyıldadır. Şunu da belirtmekte fayda vardır ki, 14.-15. Yüzyıllar, sapkınların gelişen engizisyon denemeleri ve şenlik ateşleri ile canlı canlı yaktırıldıkları dönemdir. Şimdi Ortaçağ İslam engizisyonu dönemidir." (http://echo.msk.ru/blog/nemtsov_boris/1470712-echo/).

Boris Nemsov "şimdi Ortaçağ İslam engizisyonu dönemidir" derken büyük hata yapıyor. Nitekim Ortaçağ Hıristiyan Engizisyonu ile çağdaş İslamda terorizm eylemleri aynı değildir. Eğer Ortaçağ Hıristiyan Engizisyonunu o dönemin Batı devletleri destekliyor ve gerçekleştiriyordularsa, şimdiki islami terrorist eylemleri İslam devletleri değil, ayrı-ayrı teröristler ve terör grupları tarafından gerçekleştiriliyor. Terör hiç bir müslüman devletinin devlet politikası değildir. Boris Nemsov'un yaklaşımı iki büyük dünya arasında barış yaratmaya katkıda bulunamaz, tam tersine düşmancılığı daha da körükler.

Gerilim ve çatışma "İslam ile Hıristiyanlık" veya "Doğu ile Batı" arasında olmaktan daha ziyade İslam'a oryantalist, emperyalist ve pozitivist gözle bakan Batı ile İslam arasında cerayan etmektedir. Liderlerin yatıştırıcı mesajlar vermelerine rağmen son günlerde müslümanlara ait camilere, iş yerlerine, derneklere saldırılar hızla artmaktadır. Beklendiği üzere sağ, milliyetçi ve ırkçı partiler yükselişe geçtiler. Bir sözle, karikatür krizi ve Paris saldırısını takip eden saldırılar her iki dünyanın radikallerini bir anda öne çıkmış, Avrasyada istikrara büyük tehlike yaratmıştır.

Hıristiyan ve İslam dinlerinin barışmaz olduğunu vurgulayan kuvvetler çok büyük hata yapıyorlar. Artık dinlerarası diyalog denilen bir hoşgörü hareketi gündeme gelmiş olup bu çerçevede önemli işler görülmektedir. Taleyranlık ortamı yaratılıyor. Dünyada her iki büyük dine mensup halkların uzun dönem dinç yanaşı yaşamasını gerçekleştiren Rusya modelinin olduğunu da vurgulamakta fayda vardır. İlişkiler Çeçen halkının bağımsızlık mücadelesine gölge salan ve Rusya tarafından terör olarak nitelendirilen eğilim olayları dışında Rusya'da her iki büyük semavi din mensupları barış ve hoşgörü içinde yaşıyorlar desek hata yapmayız. Sovyet İmparatorluğundan kopmuş genç Cumhuriyetlerde dinlerarası huzur ve taleyranlık ortamı hüküm sürmektedir.

Böylece Avrasya mekanında istikrar ve huzurun tek yolu soyundan, dininden, dilinden asılı olmayarak herkesi olduğu gibi kabul etmekten geçtiğine, bu konuda herkesin üzerine düşen görevi hakkıyla yapmasına inancımız tamdır. Basın özgürlüğünün korunmasının insanların inancına hakaret anlamına gelmediği hepimizce kabul edilmelidir.

Summary

Dunyamali VELIYEV. "The Turkic world onthe ways of global economic development" (collection of articles). Baku: "Zerdabi" Publishing House, 2015, 504 p.

In the book the author's articles regarding economic problems of the Turkic World written for many years are ~~is~~ presented to the readers. Articles devoted to the economic development problems of Azerbaijan and Turkey are given in two separate sections.

In the first section named "Shining star of the Turkic world: Azerbaijan", Heydar Aliyev and the Turkic World, Heydar Aliyev and national economic development model of Azerbaijan are explored. Through the prism of globalization, President of the Republic of Azerbaijan Ilham Aliyev's the political portrait has been created in a different article called "Realizing global thoughts". Five articles in the chapter II are devoted to the investigation of preliminary conditions of Azerbaijan's transition to a market economy.

Development of non-oil sector, development of agriculture in a circumstance of open economy in Azerbaijan: problems and perspectives, adjustment features of foreign trade in Azerbaijan and other articles are included to the chapter III named "The market economy: problems and perspectives". Actual problems of Azerbaijan economy in the context of globalization are widely analyzed in the chapter IV. The chapter covers 14 articles of the author written in different years.

Section II is called "The Republic of Turkey on a way of global economic development". Herein the first chapter named "The architects of the Republic of Turkey", author's five articles devoted many years of research have been comprised: "Personality changing the move of history", "Ataturk's Turkic World (Interview about Ataturk)", "The phenomenonof Mustafa Kamal Ataturk: the importance of the modern Turkicrepublics for the Independence Struggle", "Genius warlord who likens a soldier toprophet", and "The role of national unity in Kamalist thought system. "Further, 4 chapters have been included to the Section II: "Turgut Ozal and economic miracles in Turkey, "A fair ruler in Turkish - Islamic thinking system or the history and the socio-economic roots of revival of the Middle East in the modern world","The formation and improvement of the economic development of the Republic of Turkey" and"Turkey on a way of global economic development".

Common problems the Turkic World are brought to the attention of the readers in the section called "The Turkic World on a way of global economic development". This chapter wraps up8 articles of the author: "The Silk Road - 2000. New stage development in the world (in English)", "The combination of East and West is the Silk Road of mankind", "The integration of the Caucasus and central Asian countries to the global financial environment: problems, perspectives", "The economic cooperation between the Turkic Republics: problems, perspectives (in Turkish)", "The new regional power in the global environment (in Turkish)", "The historical role of the Republic of Turkey in the

re-establishment of the independent Turkic Republics: review and assessment (in Turkish)”and “Development perspectives of cooperation between Azerbaijan and the Turkic-speaking countries”.

Last Section III covers the author's thoughts about the world economy and globalization. In the section, after researching world economic system and theoretical knowledge about globalization, several articles such as “The economic ethics and religious values in the era of globalization", "National interests in the process of the integration of developing countries into the global environment (in Turkish)”, "The main directions of innovation policy of a state in the information society", “Human factor and transformation of the role of knowledge in information society", “States which do not set up knowledge-based economy and do not develop human capital will be on the one of the last place” and other articles have been indicated.

The book is intended to political, scientific and practical specialists, doctorates, masters and young students who are interested in economic problems of the Turkic World.

Özet

Dünyamalı VELİYEV. "Türk dünyası küresel ekonomik kalkınma yollarında" (Makaleler toplusu). BAKU, "Zerdabi" Yayıncılık, 2015, 504 s.

Kitapta yazarın uzun yıllar Türk Dünyasının ekonomik gelişme sorunları hakkında yazmış olduğu makaleleri okuyuculara sunulmuştur. Azerbaycan ve Türkiye'nin ekonomik gelişme sorunlarına adanmış yazılar iki ayrı bölümde veriliyor.

"Türk dünyasının parlayan yıldızı: Azerbaycan" denilen birinci bölümde “Haydar Aliyev ve Türk dünyası”,”Haydar Aliyev ve Azerbaycan'ın ulusal ekonomik gelişme modeli” inceleniyor."Gerçekleşen küresel düşünceler" denilen ayrı bir makalede Azerbaycan Cumhurbaşkanı İlham Aliyev'in küreselleşme açısından siyasi portresi oluşturulmuştu. II. bölümde beş makale Azerbaycan'ın piyasa ekonomisine geçişin başlangıç koşullarının incelenmesine adanmıştır. "Azerbaycan'da piyasa ekonomisi: Sorunlar, perspektifler" denilen III. altbölüm “Kayri-petrol sektörünün gelişmesi”, “Açık ekonomi koşullarında Azerbaycan'da tarım: Sorunlar, perspektifler”, “Azerbaycan'da dış ticaretin ayarlanması özellikleri” vb. makaleleri dahil edilmiştir. Küreselleşme ortamında Azərbaycan ekonomisinin güncel sorunları IV. altbölümde analiz ediliyor. Buraya yazarın 14 makalesi dahil edilmiştir.

II. B ö lü m “Türkiyə Cumhuriyyeti global iktisadi kalkınma yollarında” adlanıyor. Burada "Türkiye Cumhuriyeti'nin mimarları" olarak adlandırılan ilk altbölümde yazarın uzun yıllar araştırmalarının sonucu olan beş makalesi dahil edilmiştir: "Tarihin gidişini değiştiren Şahsiyyet", "Atatürk'ün Türk dünyası (Atatürk hakkında mülakat)", "Mustafa Kemal Atatürk fenomeni: Çağdaş Türk cumhuriyetlerinin bağımsızlık mücadelesi için önemi "," Askeri peygambere benzeten dahi komutan” ve "Atatürkçü düşünce sisteminde ulusal birliğin yeri".

II. bölüme bunlardan başka 4 makale dahil edilmiştir: “Turgut Özal ve Türkiye'de ekonomik mucizeler”, “Türk - İslam düşünce sisteminde adil hükümdar ya da çağdaş dünyada Ortadoğu'nun uyanışının tarihi ve sosyo ekonomik kökleri”,” Türkiye Cumhuriyeti'nin ekonomik kalkınmasının oluşumu ve gelişimi” ve “Türkiye küresel ekonomik kalkınma yollarında”.

Türk Dünyasının ortak sorunları "Türk dünyası küresel ekonomik kalkınma yollarında" adlı bölümde okuyucuların dikkatine teslim ediliyor. Burada birinci altbölüme yazarın 8 makalesi dahil edilmiştir: "The silk road -2000. New stage in the world development (İngilizce), "" Doğu ve Batı'nın vahdeti insanlığın İpek Yoludur "," Kafkasya ve merkezi Asya ülkelerinin küresel mali ortama entegrasyonu: Problemler, perspektifler "," Türk cumhuriyetleri arasında ekonomik işbirliği: Sorunlar, perspektifler” (Türkçe), "Küresel ortamda yeni bölgesel güç (Türkçe)," Bağımsız Türk Cumhuriyetleri'nin yeniden yapılanmasında Türkiye Cumhuriyetinin tarihi rölü: Inceleme ve değerlendirme” (Türkçe), "Küreselleşme sürecinde Türk Dünyası" (Türkçe), "Azerbaycan'ın türkce konuşan ülkelerle işbirliğinin gelişme perspektifleri" .

Son III. Bölümde yazarın dünya ekonomisi ve küreselleşmeyle ilgili değerlendirmeleri hakkında makaleler verilmiştir. Her bölümde dünya ekonomik sistemi ve küreselleşme hakkında yazarın teoretik düşünceleri okuyuculara sunulduktan sonra "Küreselleşme döneminde ekonomik ahlak ve dini değerler", "Gelişmekte olan ülkelerin küresel ortama entegrasyonu sürecinde ulusal çıkarları" (Türkçe) , "İnformasion toplumunda devletin yenilik politikasının temel yönleri", "İnformasion toplumunda insan faktörü ve bilginin rolünün dönüşümü", "Bilgiye dayalı ekonomini kurmayan, insan kapitalını geliştirmeyen ülkeler son yerlerden birini tutacaklar" vb. makaleler dahil edilmiştir.

Kitap Türk Dünyasının ekonomik kalkınma sorunları ile ilgilenen siyasiler, bilimsel araştırmacılar, master ve doktora öğrencileri için tasarlanmıştır.

Резюме

Дунямалы Велиев. "Турецкий мир на пути глобального экономического развития" (Сборник статей). БАКУ, Издательство "Zerdabi", 2015, 504 стр.

В книге к вниманию читателей представлены статьи автора, написанные в течение многих лет, посвященных проблемам экономического развития турецкого мира.

В первом разделе-"Сияющая звезда турецкого мира: Азербайджан" представлены статьи: "Гейдар Алиев и турецкий мир", "Гейдар Алиев и национальная экономическая модель Азербайджана". В отдельной статьи под названием "Глобальные идеи в реализации», создан политический портрет Президента Азербайджана Ильхама Алиева. Во второй главе пять статей посвящены изучению стартных условий перехода к рыночной экономике в

Азербайджане. В III главу - "Рыночная экономика в Азербайджане: проблемы, перспективы» включены статьи: "Развитие не-нефтяного сектора», «Сельское хозяйство Азербайджана в условиях открытой экономики: проблемы, перспективы», «Особенности регулирование внешней торговли Азербайджана» и т.д. Актуальные проблемы экономики Азербайджана в условиях глобализации анализируется в IV главе. В эту главу включены 14 статей автора, написанных в разное время.

Второй раздел называется" Турецкая Республика на пути глобального экономического развития». В первой главе этого раздела"Архитекторы Турецкой Республики", включены пять статей автора: "Личность, изменившая ход истории», «Турецкий мир Ататюрка (интервью об Ататюрке)", "Феномен Мустафы Кемаля Ататюрка: его значение в борьбе за независимость современных турецких республик». « Великий полководец, сравнивший солдата с пророком» и «Место идеологии о национальном единстве в системе мышления Ататюркистов".Кроме того, в этот раздел включены 4 главы: «Тургут Озал и экономические чудеса Турции», « Образ о справедливом правителе в турецко - исламском мышления и исторические и социально-экономические корни пробуждения народов Ближнего Востока», «Формирование и развитие экономического развития Турецкой Республики» и «Турция на пути глобального экономического развития».

Общие проблемы турецкого мира анализируются в разделе: " Турецкий мир на пути глобального экономического развития". В этот раздел включены 8 статьи автора: "Шелковый путь -2000. Новый этап мирового развития(на английском языке)»", «Единство Востока и Запада Шелковый путь человечества "," Интеграция стран Кавказа и Центральной Азии в глобальной финансовой среды: проблемы и перспективы"," Экономическое сотрудничество между турецкими республиками: проблемы, перспективы» (на турецком языке), "Новая региональная сила в глобальной среде» (на турецком языке),"Турецкий мир в процессе глобализации»" (на турецком языке), "Перспективы сотрудничества между Азербайджаном и туркоязычными странами".

Последний III раздел посвящен рассуждениям автора о мировой экономике и о глобализации. В этот раздел после теоретических вопросов мировой экономики и глобализации включены следующие статьи: "Моральные и религиозные ценности в эпоху глобализации", "Национальные интересы развивающихся стран в процессе интеграции в глобальную экономическую среду" (на турецком языке)», "Основные направления инновационной политики государства в информационном обществе», «Трансформация роли человеческого фактора и знаний в информационном обществе».

Книга предназначена для политических, научных и практических работников, занимающихся проблемами экономического развития турецкого мира, докторантов, магистрантов и студенческой молодежи.

Dünyamalı VƏLİYEV

Türk dünyası
qlobal iqtisadi inkişaf yollarında

MƏQALƏLƏR TOPLUSU

Çapa imzalanmışdır: 16.12.2014
Kağız formatı: 70x100 1/16
Cəmi: 31,5 ç.v.; Sifariş: 391/11; Sayı: 300

Kitab "Zərdabi LTD" MM
Nəşriyyat Poliqrafiya müəssisəsində
hazır diapozitivlərdən istifadə olunmaqla
ofset üsulu ilə çap edilmişdir.

Ünvan:Bakı şəh.,Keşlə qəs.,H.Abdullayev küç., 12
Tel.: (012) 514-73-73